ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF
AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ
CONFERENCE PROCEEDINGS

2022 № 3/III

SUMQAYIT - 2022

ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2022 № 3/III

SUMQAYIT – 2022
СУМГАИТ – 2022
SUMGAYIT – 2022

Sumqayıt Dövlət Universiteti
Konfrans materialları

REDAKSİYA HEYƏTİ

ELXAN HÜSEYNOV *prof., rektor (baş redaktor)*
RAMAZAN MƏMMƏDOV *prof., elm və innovasiyalar üzrə prorektor, (baş redaktor müavini)*
ƏKBƏR AĞAYEV *prof. (təbiət və texniki elmlər bölməsi üzrə məsul katib)*
NİGAR İSGƏNDƏROVA *prof., (sosial və humanitar elmlər bölməsi üzrə məsul katib)*

Сумгаитский государственный университет
Материалы конференций

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

ЭЛЬХАН ГУСЕЙНОВ *проф., ректор (главный редактор)*
РАМАЗАН МАМЕДОВ *проф., проректор по науке и инновациям (заместитель главного редактора)*
АКПЕР АГАЕВ *проф. (ответственный секретарь раздела естественных и технических наук)*
НИГЯР ИСКЕНДЕРОВА *проф., (ответственный секретарь раздела социальных и гуманитарных наук)*

Sumgayit State University
Conference proceedings

EDITORIAL BOARD

ELKHAN HUSEYNOV *prof., rector (chief editor)*
RAMAZAN MAMMADOV *prof., vice-rector for science and innovations, (deputy chief editor)*
AKBAR AGAYEV *prof. (executive secretary of the department of natural and technical sciences)*
NIGAR ISGANDAROVA *prof., (executive secretary of the department of social and humanitarian sciences)*

MAGİSTRANTLARIN XXII RESPUBLİKA ELMİ KONFRANSI

(12-13 may 2022-ci il)

XXII РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ МАГИСТРАНТОВ

(12-13 мая 2022 год)

XXII NATIONAL UNDERGRADUATE RESEARCH CONFERENCE

(May 12-13, 2022)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

Azərbaycan xalqının Ümummilli lideri
Heydər Əliyevin anadan olmasının
99-cu ildönümünə həsr olunur

MAGİSTRANTLARIN XXII RESPUBLİKA ELMİ KONFRANSININ

M A T E R İ A L L A R I

III HİSSƏ

SUMQAYIT – 2022

TƏŞKİLAT KOMİTƏSİ

SƏDR

Elxan Hüseynov	Rektor, professor

SƏDR MÜAVİNİ

Ramazan Məmmədov	Elm və innovasiyalar üzrə prorektor, professor

ÜZVLƏR

Natiq Talıbov	Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, dosent
Qafar Atayev	Beynəlxalq əlaqələr üzrə prorektor, dosent
Ramiz Hüseynov	Humanitar məsələlər üzrə prorektor, dosent
Naib Hacıyev	İqtisadi məsələlər üzrə prorektor
Əsəd Məmmədov	Ümumi işlər üzrə prorektor
Sabir Xəlilov (məsul katib)	Doktorantura və magistratura şöbəsinin müdiri, dosent
Adil Baxşəliyev	Tarix və coğrafiya fakültəsinin dekanı, professor
Sevinc Həmzəyeva	Filologiya fakültəsinin dekanı, dosent
Ulduz Ağayev	Mühəndislik fakültəsinin dekanı, dosent
Xalidə Həsənova	Riyaziyyat fakültəsinin dekanı, dosent
Mahal Muradov	Kimya və biologiya fakültəsinin dekanı, dosent
Tamella Əhmədova	Fizika və elektroenergetika fakültəsinin dekanı, dosent
Aynurə Yəhyayeva	İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent
Samir Orucov	Elmi hissənin müdiri, dosent
X.M.Mürsəliyeva	Gənc alimlər şurasının sədri, dosent
Lalə Bunyatova	Tələbə elmi cəmiyyətinin elmi rəhbəri, dosent
Alik Abdullayev	Linqvistik mərkəzin rəhbəri

XI BÖLMƏ
COĞRAFİYA

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ-COĞRAFİ RAYONUNDA İQTİSADİYYAT SAHƏLƏRİNİN YERLƏŞDİRİLMƏSİ VƏ KOMPLEKS İNKİŞAFININ TƏDQİQİ

Abasova M.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail: moteberabasova@gmail.com

Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonunun sahəsi 7,47 min km^2,əhalisinin sayı 343,5 min nəfərdir. Tərkibinə Cəbrayıl,Kəlbəcər,Laçın, Qubadlı və Zəngilan inzibati rayonları daxildir. Şərqi Zəngəzur ölkənin cənub-qərbində,Qarabağ Vulkanik yaylasında,Araz və Həkəri çaylarının hövzəsində yerləşir.

İqtisadi rayonun təbii ehtiyatlar ilə yaxşı təmin olunması iqtisadiyyat və sənayə sahələrinin çox mərkəzli formalaşmasına təkan verir. Belə ki, əsas təbii sərvətlərinə filiz faydalı qazıntılardan Kəlbəcərdə Göydərə, Laçında İpək xromit yataqları,Kəlbəcərdə Mehmanə polimetal yatağını qeyd etmək olar. Civə ehtiyatlarından Kəlbəcərdə Ağyataq, Levçay, Şorbulaq, Laçında Gilgəzçay, Narzanlı yataqları,həmçinin Kəlbəcər rayonunda Qızılbulaq, Zod və ya Söyüdlü, Zəngilan rayonunda Vejnəli qızıl yataqları da iqtisadi rayonun əsas filiz faydalı qazıntılarıdır.

Qeyri-filiz faydalı qazıntılardan Kəlbəcərdə travertin,perlit ehtiyatları,eyni zamanda tikinti materialları rayonun əsas yeraltı sərvətləridir.Mineral ehtiyatlarına gəldikdə Kəlbəcərdə İstisu,Laçın rayonunda Tutqun və Minkənd mineral bulaqları vardır.İqtisadi rayonun ərazisində iqlim-balneoloji şərait,dağ meşələr,kurort-rekreasiya məqsədləri üçün istifadə edilə bilər.Meşələrdə az miqdarda tədarük üçün ağac ehtiyatları vardır. Həmçinin relikt və endemik bitkilərdən Zəngilan-Qubadlı rayonları ərazisində Gürcü və Araz palıdları, Zəngilan rayonunun Bəsitçay dərəsində isə Şərq çinarı yayılmışdır.

İqtisadiyyat sahələrinin yerləşdirilməsində əhalinin məşğulluq xüsusiyyətləri, adət və ənənələri,milli tərkibi də vacib şərtlərdəndir. Kəlbəcər və Laçın rayonlarında milli azlıq kimi kürdlər yaşayır.Ərazinin relyef şəraitinin mürəkkəbliyi seyrək məskunlaşmaya səbəb olmuşdur.

Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonunda soyuq və dağ-tundra iqliminin geniş sahə tutması iqtisadi rayonun ərazisində saf iqlim və mənzərəli dağ landşaftlarının yaranmasına gətirib çıxarmışdır. İqtisadi rayonda əsasən dağ meşələri,subalp və alp çəmənlikləri,subnival landşaft geniş sahə tutmuşdur. Rayonun iqlim və relyef şəraiti ilə əlaqədar dəmyə əkinçiliyi və yay otlaqları geniş yayılmışdır.İşğala qədər Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonu sırf kənd təsərrüfatı rayonu olmuşdur. Burada əsas ixtisaslaşma sahələri iqlim və relyef şəraiti ilə əlaqədar olaraq qoyunçuluq, maldarlıq və arıçılıq olmuşdur. Bunlarla yanaşı meyvəçilik,taxılçlıq,üzümçülük,tütünçülük və tərəvəzçilik də mühüm kənd təsərrüfatı sahələri hesab olunurdu.Sənayenin əsasını isə yeyinti və yüngül sənaye təşkil edirdi və əsasən yerli istehlak xarakteri daşıyırdı.

Dağlıq relyeflə əlaqədar əsas nəqliyyat növü avtomobil nəqliyyatı olmuşdur.Zəngilan rayonunun İranla sərhədindən,hazırda fəaliyyət göstərməyən,lakin hazırda bərpasına başlanan Ələt-Culfa dəmiryolu xətti keçir.

30 ilə yaxın Erməni işğalı altında olan Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonunun Vətən müharibəsinin sonunda işğaldan azad edilməsi ilə uzun müddət nəzarətimizdə olmayan Azərbaycan-Ermənistan sərhədi bərpa edilmişdir.Bu rayon təssüf ki, Qarabağ iqtisadi-coğrafi rayonu kimi ermənilər tərəfindən sosial, mədəni,ekoloji terrora məruz qalmışdır. Rayonun əsas kənd,şəhər və qəsəbələri talan edilmiş,təbiəti, sənaye strukturu məhv edilmişdir.İqtisadi rayonun əksər tranzit çayları Ermənistanın dağ-mədən, sənaye tullantıları ilə çirklənməyə məruz qalmışdır.

Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonunun potensialı milli iqtisadiyyatımıza reinteqrasiyanın sürətləndirilməsinə, planlaşdırma və proqnozlaşdırma tədbirlərinin daha yüksək səviyyədə təşkilinə imkan verəcəkdir. Bundan əlavə, xarici investisiyaların daha intensiv cəlb olunmasında, daxili investisiyaların məqsədli və səmərəli şəkildə yönəldilməsində, yeni maliyyə mənbələrinin yaradılmasında, əlavə dəyərin diversifikasiyalaşdırılmasında Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonunun əhəmiyyəti yüksək qiymətləndirilir.

Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, Azərbaycanın öz əzəli torpaqlarını dirçəltmək və inkişaf etdirmək niyyətinin nə qədər güclü olduğunu ifadə edir. Belə ki,Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafına yönəldiləcək resurslar bu regionda ölkəmizin qüdrətini və gücünü daha da artıracağdır. İndiki şəraitdə Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonunun yeni bölgü əsasında müəyyənləşdirilən ərazisində müxtəlif iqtisadiyyat sahələrinin, o cümlədən,sənaye,dağ turizmi, kənd təsərrüfatı və aqrar sektorun,ilk növbədə,bitkiçilik və heyvandarlığın inkişaf etdirilməsi üçün böyük təbii və iqtisadi resurslar, həm də potensial vardır.

EKVİVALENT – EFFEKTİV TEMPERATURLARIN ABŞERON YARIMADASINDA PAYLANMASI

Abasova S.C.
Sumqayıt Dövlət Universiteti
E-mail: aqayev_tahir@mail.ru

Məlum olduğu kimi, havanın temperaturu insan orqanizminə ayrı – ayrılıqda təsir etmir. O, insan orqanizminə iqlimin başqa ünsürləri ilə birlikdə kompleks şəkildə təsir göstərir. Insan orqanizmi havanın rütubətliyindən, küləyin sürətindən, günəş radiasiyasının gərginliyindən asılı olaraq, hava temperaturunu müxtəlif dərəcədə hiss edir. Əgər küləyin rolunu göstərsək, bu göstəricilər daha da mürəkkəb bir şəkil ala bilər. Günəş şüalarını insanın istiliyi qavrama qabiliyyətində rolu olduqca böyükdür. Belə ki, o, yüksək temperaturlu havada bədənin istilik qavrama hissiyatını daha da artır, aşağı temperaturlarda isə soyuducu təsir edir.

Havanın temperaturundan, nisbi rütubətliyindən və küləyin sürətindən asılı olaraq, orqanizmin istiliyi obyektiv hiss etmə göstərcisi olan ekvivalent – effektiv temperaturları hesablamaq mümkündür. EET-ları hesablamaq üçün ilk dəfə olaraq V.A.Yakovneko nomoqramma işləyib hazırlamışdır. həmin nomoqrammaya əsasən, insanın istilik hissiyatı, havanın temperaturnun artması, insbi rütubətliyin aşağı düşməsi şəraitində eyni qalmır.

Ekvivalent – effektiv temperaturlar (EET) insan orqanizminə müsbət təsir edən komfort radiasiya olub, 17.3^0 – $21,7^0$ bərabərdir. $17,3^0$ EET-dan aşağı temperaturlar soyuduğu, $21,7^0$-dən yüksək isə bədən də artıq dərəcədə qızma hissiytı yaradır. Komfort, yəni əsas şkala üzrə $17,3^0$ – $21,7^0$ EET arasında dəyişən qradasiya dedikdə, elə şərait yaranır ki, insan orqanizmi ilə ətraf mühit arasında istilik mübadiləsi normal gedir.

Bioiqlimşünaslıqda EET göstəricisi əsas amillərdən biri olub, ərazidə sağlamlıq ocaqlarının sanatoriyaların tikilib, tikilməməsi məsələsini həll etmək üçün əsas göstərici kimi qəbul edilə bilər. Bunu nəzərə alaraq, biz Abşeron yarımadasında EET-lərin paylanma xüsusiyyətini müəyyən etmək üçün, 7 məntəqənin müşahidə materiallarından istifadə edərək, iyul – ayının (1974-cü il) hər gün saat 13 müddəti üçün EET-ləri hesablanıb

Ekvivalent – effektiv temperaturları hesabladıqda, 3 meteoroloji amil, havanın temperaturu, nisbi rütubətliyi, küləyin sürəti üzrə tərtib edilmiş normal şkala əsas götürülmüşdür. Bu şkaladan istifadə qaydasını bilmək üçün bir misalı nəzərdən keçirək. Deyək ki, bizə verilir: havanın temperatur 24^0, nisbi rütubətliliyi 63%, küləyin sürəti isə 1 m/san-dir. EET-nin miqdarını tapmaq tələb olunur.

Abşeron yarımadası üçün hesablanmış ekvivalent – effektiv temperaturların əsasında, biz ərazidə iyul ayı üzrə komfort və qeyri – komfort temperaturların təkrarlanma cədvəllərinin tərtib etmişik. Yarımadada ay ərzində müşahidə edilən ekvivalent – effektiv komfort temperautrlugünlərin ən böyük miqdarı (80%-dən yuxarı) yarımadanın cənub hissəsində cənub hissəsində dəniz sahili və arxipelaq rayonunda müşahidə edilir.

Komfort temperaturlu günlərin bel çox olması (iyulda 21 – 27 gün) bu rayonların insanın sağlamlığı üçün əlverişli iqlim şəraitinə malik olduğunu göstərir. Burada müxtəlif növ iqlimterapiyasının keçirilməsinə geniş imkanlar vardır. Aeroterapiya (hava ilə müalicə), talassoterapiya (dəniz suyu ilə müalicə) helioterapiya (günəş ilə müalicə) misal ola bilər.

Abşeron yarımadasında ekvivalent – effektiv temperaturlu günlərin miqdarı və bu temperaturların insan orqanizminə təsir dəəcəsinə görə yarımadanı 4 zonaya ayırmaq olar:

1. 50 – 60% arasında dəyişən komfort zona. Bu zona yarımadanın şimal – dəniz sahilini əhatə edir (Sumqayıt, Corat,Maştağa, Mərdəkan həmin zonada yerləşir), burada qeyri – komfort temperaturlu günlər nəzərdən keçiriləcək. Başqa zonalara nisbətən bir qədər çodur (iyul ayı üzrə 6 günü isti, 6 günü soyuq olur). Lakin ümumi ay hesabında bu o qədər çox deyildir. Soyuq günlərdə küləkdən qoruyucu qurğuların istifadə

edilirsə küləyin soyuducu təsiri bir qədər azala bilər. Çox isti günlərdə isə, aerovannaların səhər saatlarında qəbul edilməsi məsləhətdir, bu istiliyin təsirini aşağı salır.

2. 60 – 70% arasında dəyişən komfort zona (şimalda dəniz sahili zonadan mərkəzə doğru Xırdalan, Suraxanı, Türkan məntəqəlri arasında qalan sahəni əhatə edir). Bu zonada insan orqanizminə qeyri komfort təsir edən günlərin miqdarı bir qədər azdır (bundan əvvəlki bölgüyə nisbətən) iyul ayı 3 günü isti, 4 günü isə soyuqdur. Burada da aeroterapiyanın helioterapiyanın və talassoterapiyanın (dənizlə müalicəni) keçirilməsi üçün hər cür şərait vardır. Bu zonada qara ciyər xəstəliklərinin müalicəsi üçün imkanlar vardır.

3. 70 – 80% arasında dəyişən komfort zona (mərkəzi hissəsi – Güzdək, Əhmədli, Hövsan məntəqələri yerləşdiyi sahələri əhatə edir). Burada qeyri – komfort insan orqanizminə mənfi təsir edən, günlərin miqdarı, yuxarıda baxdığımız zonalara nisbətən daha azdır (iyulda 2 günü çox isti, 3 günü isə çox soyuq ola bilər). Bu zonada da aeroterapiyanın helioterapiyanın və talassoterapiyanın keçirilməsi üçün şərait vardır.

4. 80%-dən yuxarı olan komfort zona (Cənubi dəniz sahili zonanı – Ələt, Puta və Bakı arasında qalan sahə). Bu zona kurort və sanatoriya şəbəkəsinin inkişaf etdirilməsi üçün əlverişli bir rayondur. Burada insan orqanizminə, qeyri – komfort təsir edən günlər olduqca azdır (iyul ayında 2 günə qədər çox isti, soyuq olan günlər isə 1 gündən artıq deyildir).

Komfort ekvivalent – effektiv temperaturlar, Abşeronda 50%-dən 80 – 90%-dək təkrarlanması bizə imkan verir ki, ərazinin böyük, tükənməz kurort ehtiyyatlarına malik olması haqda nəticəyə gələk. Bu gələcəkdə Abşeronda geniş kurort və sağlamlıq ocaqlarının inkişaf etdirilməsi üçün əsas kimi qəbul edilməlidir.

AZƏRBAYCANDA AZAD İQTİSADİ ZONALARIN YARADILMASININ İNKIŞAF TARİXİ

Adığözəlli A.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: aqayev_tahir@mail.ru

Dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında da bazar münasibətlərinin dərinləşməsi, biznes fəaliyyətinin genişlənməsi istiqamətində Azad İqtisadi Zonaların (AİZ) yaradılmasının mühüm iqtisadi önəmi vardır. Azad iqtisadi zonaların yaradılması ideyası və təşəbbüsləri respublikamızın ilk müstəqillik illərində israrlı konteksdə quruculuq zirvəsinə irəliləmişdi. Lakin bu mühüm sistemə keçiddə aşkarlanan müəyyən təcrübə kasadlığı, hazırsızlıq meylinin mövcudluğu və başlıca olaraq iqtisadi inkişafın artım templərinin məhdudluğu müvafiq zonaların təşəkkülünü bir qədər ləngitmişdir. Bu gün respublikamızda yenə də Azad İqtisadi Zonaların yaradılması məsələsi qabarıqlaşmış və daha aktual xarakter almışdır.

Respublikada belə zonaların yaradılması üzrə iş 1994-cü ildə BMT-nin inkişaf proqramı ilə başlanmış, lakin 1999-cu ildə bir sıra səbəblər üzündən dayandırılmışdır. Həmin illərdə Sumqayıt şəhərində AİZ-in yaradılması layihəsinə BMT-nin Azərbaycan Respublikasındakı nümayəndəsi Pablo Lembo başçılıq etmişdir. Sumqayıt şəhərində yaradılması nəzərdə tutulan iqtisadi zona mühüm spesifik xüsusiyyət daşıdığından və respublikamızda Azad İqtisadi Zona quruculuğunun mərkəzi obyektinə çevrildikdən onun səciyyəvi cəhətlərinin araşdırılması məqsədəuyğun olardı. Təəssüflə qeyd olunmalıdır ki, Sumqayıtda yaradılması nəzərdə tutulan Azad iqtisadi zona konsepsiyasının səmərəliliyi kompleks şəkildə tədqiqatdan keçirilməmişdir. BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNİDO) xəttilə Sumqayıt AİZ-nin yaradılması üçün müəyyən tədqiqatlar aparılmışdır. Sumqayıt Azad iqtisadi zonasının yaradılmasının başlıca vəzifəsi şəhərin əsas aparıcı istehsal sahələrinin dirçəldilməsi və müasir tələblərə cavab verən səviyyəyə çatdırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, ekoloji mühitin sağlamlaşdırılması, şəhərin elmi-texniki potensialından maksimum istifadə edilməsi problemlərinə yönəlmişdir.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, o cümlədən biznes fəaliyyəti ilə bağlı qeydiyyat əməliyyatlarının sadələşdirilməsi üçün bir sıra ilkin addımlar atılmışdır. Əlverişli investisiya mühitinin yaradılması, xarici kapitalın axınının sürətləndirilməsi, xarici investorlarla yanaşı, yerli sərmayədarların fəallığının artırılması üçün qanynvericilik bazası daimi olaraq təkmilləşdirilmiş və müvafiq qanunlar qəbul edilmişdir.

1992-ci ildə "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanununda göstərilir ki, ölkədə fəaliyyət göstərən xarici investorlara dövlət təminatı verilir. Bundan başqa, bu qanunun 41-ci maddəsi "Sərbəst iqtisadi zonalarda xaric investorların və xarici investisiya müəssisələrinin fəaliyyəti"nə həsr edilmişdir. Burada qeyd edilir ki, "Sərbəst iqtisadi zonaların yaradılması qaydası, xarici

investorların və xarici investisiyalı müəssisələrin orada qeydə alınması, təsərrüfat fəaliyyəti və başqa fəaliyyət ilə məşğul olması şərtləri Azərbaycan Respublikasının sərbəst iqtisadi zonalar haqqında qanunvericiliyi ilə müəyyən edilir". «Xüsusi iqtisadi zonalar haqqında» Azərbaycan Respublikasının 2009-cu il 14 aprel tarixli Qanunu qüvvəyə minmiş və bu qanunun tətbiqi ilə bağlı Azərbaycan Respyblikası Prezidenti tərəfindən 2009-cu il 3 iyun tarixli Fərman imzalanmışdır. Fərmanda ölkədə xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti ilə əlaqədar dövlət siyasətinin Azərbaycan Respublikası Iqtisadi Inkişaf Nazirliyi tərəfindən həyata keçirilməsi müəyyən edilmişdir.

Öz ərazisində azad iqtisadi zona yaratmaq istəyən hər bir dövlət bu zaman konkret məqsədlər güdür. Bu məqsədləri aşağıdakı səbəblər motivləşdirə bilər: ölkənin regionlarının iqtisadi inkişafında disproporsiyaların meydana çıxması, ölkənin hər hansı bir ərazisinin iqtisadi cəhətdən böhranlı vəziyyəti, işsizliyin geniş vüsət alması, hər hansı fəaliyyət sahəsinin inkişafca geri qalması və s. Siyasi cəhətdən, bu problemlərin həll edilməsi üçün ölkə beynəlxalq iqtisadi münasibətlərdə, beynəlxalq əmək bölgüsündə fəal surətdə iştirak etməli, dünya iqtisadiyyatına inteqrasiya olunmalıdır.

COĞRAFİYA DƏRSLƏRİNDƏ FƏAL TƏLİMİN TƏŞKİLİ

Ağayev E.Ş.
Sumqayıt Dövlət Universiteti
E-mail: aqayev_tahir@mail.ru

Fəal təlimin əsas şərtlərindən biri şagirdin – tədqiqatçı (axtarış aparan), müəllimin isə – istiqamətləndirici, fasilitator mövqeyinə malik olmasıdır. Qarşılıqlı dialoqa əsaslanan dərs prosesi müəllimə şagirdi bərabər hüquqlu öyrənən subyekt kimi qəbul etməyə əsas verir. Bu prosesdə şagirdin məntiqi düşünmə qabiliyyəti (nəzəri bilikləri), konkret məntiqi fəaliyyətə münasibəti, yeni ideyaları qəbul etməsi (yaradıcı), başqa insanlarla ünsiyyət yaratmaq qabiliyyəti, biliklərin mənimsənilməsidə əvvəlki nümunələrdən istifadə etmək bacarığı (reproduktiv), müstəqil qərar çıxarmaq bacarığı və s fasiltator-müəllimin diqqətindən kənarda qalmamalıdır.

Bu prosesdə şagirdin mövqeyi «axtarış aparan» «tədqiqatçı» mövqeyidir. Belə ki, şagird qarşılaşdığı problemləri sərbəst və müstəqil şəkildə tədqiqat yolu ilə həll edir, verilən sual əsasında rəqəmləri müqayisə edir, nəticə çıxarır, təsvir olunmuş kəsmə yüksəkliklər və horizontollar əsasında səthin relyefinin təsvirini çəkir, ərazidə axan çayların xarakterini təhlil edir, rəqəm materialları əsasında iqlim diaqramını, temperaturun sutqalıq, aylıq, illik gedişinin təsvirini verir, çayın hidroqrafını quraraq ərazinin iqlimini xarakterizə edir.

Müəllimin mövqeyi isə istiqamət verən – bələdçi (fasilitator) rolundadır. Şagirdin coğrafi tədqiqatı, müstəqil öyrənməsi üçün optimal şərait yaradan əslində yeni ən müasir tipli lider rolunda çıxış edir. Şagirdi müşahidə edərək onunla birgə fəaliyyət göstərir, avtoritar rejimdən uzaqlaşaraq özünü şagirddən yüksəkdə tutmur, diqtə etmir, əksinə şagirdlə məqsədyönlü şəkildə əməkdaşlıq edir, biliklərin mənimsənilməsi üçün istiqamət verir, şagirdin axtarıcılıq fəaliyyətini düzgün istiqamətə yönəldir, biliklərin tətbiq edilməsi üçün şagirdə praktik olaraq kömək edir, bir sözlə şagirdə öyrənməyi öyrədir. Müəllimin dərsin məzmununa dair biliklərin qazanılması yolunda bələdçi, şagirdin isə bilikləri əldə etmək üçün tədqiqatçı rolunda çıxış etməsi mexanizmi fəal təlim prosesində müəllim işinin mahiyyətinə yeni istiqamət verir.

Fasilitator kimi müəllim: 1. Problem şəkilində suallar qoymaqla şagirdləri fəallaşdırır, diskusiya yaradır; 2. Biliklərin müəllim tərəfindən hazır şəkildə ötürülməsinə deyil, şagirdlər tərəfindən aşkar edilməsinə şərait yaradır; 3. Şagirdin problemə dair düşüncəsini lazımı məcraya yönəldir və inkişaf etdirir; 4. Şagird ehtiyaclarını öyrənir və onun potensial imkanını üzə çıxarmağa nail olur: 5. Fəal təlim üçün tələb olunan şərtlərdən biri *psixoloji mühitin* lazımı səviyyədə saxlanılmasıdır.

Coğrafiyanın tədrisi prosesində müəllim və şagird arasında qarşılıqlı hörmət, bir-birinə göstərdikləri etibar, inamın zəruriliyi vacib şərtlərdən biridir. Bunun üçün müəllimdən hər bir şagirdi özünə yaxın dost, hörmətli şəxsiyyət kimi qəbul etmək, sinifdə mövcud olan mühütü həssaslıqla duymaq qabiliyyəti tələb olunur. Şagirdlər dərs prosesində müzakirə zamanı irəli sürdükləri fikirlərin hörmətlə qarşılanacağına, ciddi qəbul ediləcəyinə inanmalı, uğursuzluğun qorxusundan xilas olmalıdır. Müəllim sinifdə psixoloji mühiti elə yaratmalıdır ki, şagirdlər müstəqil şəkildə öz fikirlərini irəli sürsünlər, ideyalarını əsaslandırsınlar, onların əhəmiyyətini, tətbiq edilməsi yollarını təyin etməkdə və eləcə də müxtəlif xəritə-sxem, dioqram və kartoqrafik təsvirlər üzərində işləməkdə sərbəst olsunlar.

Coğrafiya fənnin təlimində 4 iş forması nəzərdə tutulmuşdur: kollektiv, qruplarla iş, cütlərlə iş və fərdi iş. Hər bir təlim forması dərsin məqsədindən asılı olaraq seçilir və şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur.

Kollektivdə işləmək, kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur, şagirdlərdə ünsiyyətyaratma bacarığının təşəkkülü və inkişafı təmin edilir.

Qruplarla iş - Şagirdlər müəyyən problemi həll etmək üçün qrupda birləşirlər. Bu prosesdə onların müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və birgəfəaliyyət bacarıqları inkişaf edir.

Cütlərlə iş - Şagirdlər təlim tapşırıqlarını birgə yerinə yetirirlər. Bu dərs forması şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə optimal imkan yaradır.

Fərdi iş - Şagirdin fəaliyyətini izləmək, potensial imkanlarını müəyyənləşdirmək və inkişaf etdirmək məqsədi daşıyır. Bu təlim forması şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaradır.

Tədris prosesini aktiv şəkildə həyata keçirmək, şagirdlərin fəallığına nail olmaq, onların düşünmə qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək, coğrafiya fənninin öyrənilməsi əhəmiyyətini dərk etdirmək, biliklərin mənimsənilməsinə və onların praktik olaraq tətbiq edilməsinə maraq yaratmaq hər bir coğrafiya müəlliminin əsas məqsədidir. Sadalanan məqsədləri həyata keçirməyi qarşıya qoyan hər hansı bir müəllim şagirdləri fəal təlimə cəlb edə bilən metod, texnika və üsullarla yaxından tanış olmalı, iş prosesində qarşıya çıxan çətinlik və çatışmazlıqları aradan qaldırmaq yollarını bilməli, habelə tətbiq olunan metodların əhəmiyyətini başa düşməlidir.

Fəal təlim üsulları ilə işləmək üçün müəllimin şəxsi keyfiyyətləri təşkilatçılıq qabiliyyətləri, coğrafi bilik (bu zaman həm də digər fənnlərə dair biliklər də nəzərdə tutulur) səviyyəsi və s. əsas şərtlərdir. Çünki fəal dərs qarşılıqlı əlaqədə olan müxtəlif amillər sisteminin birliyidir. Fəal təlim üsullarının uğurlu alınmasının başlıca amillərindən biri – üsulun dərsin məzmununa, və dərsin mərhələsinə uyğun seçilməsidir.

DİARŞÜNASLIQ TƏLİMİNDƏ TƏTBİQ EDİLƏN METODLAR

Bağırova Z.Ə.
Sumqayıt Dövlət Universiteti
E-mail: aqayev_tahir@mail.ru

Son vaxtlarda Azərbaycanda doğma diyarın öyrənilməsi probleminə maraq kəskin şəkildə artmışdır. Diyarşünaslığa olan maraq cəmiyyətin obyektiv ehtiyacları, öz Vətəninin təbii və sosial-mədəni dəyərlərinə qayğı ilə yanaşan vətəndaşın şəxsiyyətini formalaşdırmağın zərurətindən irəli gəlir. Eyni zamanda şagirdin şəxsi xüsusiyyətlərinin formalaşması istiqamətində bir oriyentasiya gedir, bunlar arasında birinci yerə aşağıdakılar qoyulur: "öz xalqını, torpağını, vətənini sevən". Verilən xarakteristikanın formalaşmasında xüsusi rol diyarşünaslığa ayrılmışdır.

Coğrafiya fənninin tədrisində diyarşünaslıq materiallarının öyrədilməsi prinsiplərinin həyata keçirilməsi müəllimdən müxtəlif iş metodları və priyomlarının bacarıqla uzlaşdırılmasını tələb edir. Coğrafi anlayışlar aşılanarkən mövzuya uyğun doğma yerlər haqqında edilən söhbətlər, gətirilən sitatlar həm öyrənənlərin yaşadığı ölkənin, həm də ayrı-ayrı xarici ölkələrin təbiətini və təsərrüfat xüsusiyyətlərini dərk etməyə imkan yaradır.

Məktəblərdə diyarşünaslıq işinə müəllimlər rəhbərlik edir. Üstəlik, bu işin həcmi, məzmunu və formaları şagirdlərin yaşından, ümumi dünyagörüşündən, bilik və bacarıq səviyyəsindən asılıdır.Birinci siniflərdə şagirdlər artıq doğma yurdları, onun təbiəti və insanların həyatı haqqında elementar təsəvvürlər alırlar. Təbiətşünaslıq, tarix, coğrafiya, biologiya kurslarının tədris olunması ilə şagirdlərin diyarşünaslıq bilikləri zənginləşir, çünki bu fənlərin materialları əhəmiyyətli dərəcədə diyarşünaslıq əsasında öyrənilir. Şagirdlərin dünyagörüşü, bilik və bacarıqlarının inkişafı ilə yanaşı, sinifdənkənar diyarşünaslıq işləri üçün mkanlar da genişlənir, məktəblilərin müstəqil iş görmə səviyyəsi yüksəlir.

Tədrisdə diyarşünaslıq materiallarından istifadə zamanı aşağıda adı çəkilən metod və üsullar tətbiq oluna bilər : müşahidə, təcrübi və praktik metod, müqayisə, eksperiment.

Diyarşünaslıq materiallarının öyrənilməsi zamanı müqayisəli metoddan istifadə daha çox məqsədəuyğundur. Məsələn, götürək, doğma diyarımızı, Yevlaxın çayları (bu relyef, iqlim və s.də ola bilər) ilə hər hansı bir regionun çayları və yaxud coğrafi kompleksi ilə müqayisə kontekstində öyrənilsə daha yaxşı nəticələr verə bilər

Müşahidə metodu elmi-tədqiqat işlərində, eləcə də şagirdlərin elmi və yaradıcılıq qabiliyyətinin üzə çıxarılmasında ilkin və geniş surətdə tətbiq edilən metodlardan sayılır. Müşahidə canlı seyrdən başlayaraq müxtəlif cihazlardan istifadəyədək həyata keçirilən tədqiqat metodudur.

Məktəb şəraitində müşahidə əsasən kollektiv formada müəllimin rəhbərliyi altında reallaşa bilər. Burada müəllim şagirldlərinə müşahidənin əsas mahiyyətini izah etməklə psixoloji baxımdan onların diqqətini məlum obyektə yönəldir. Pedaqoji anlamda isə şagirdlərdə mənimsəmə keyfiyyətini artıran maraq, səbr, çətinliyə dözüm və bu kimi iradi keyfiyyətlərin aşılanması baş tutur.

Psixoloji və pedaqoji əsasların vəhdəti şagirdlərin anlayışlarında müəyyənlik və aydınlıq yaradır, onların fikrini və düşüncələrini inkişaf etdirir və sərbəst yaradıcılıq işinə doğru yönəldir, hadisələr barəsində yanlış təsəvvürlərdən təmizləyir, real olaraq düzgün anlayışlar sistemi yaradır

Buradan belə nəticəyə gəlmək olur ki, təbiətdə hadisələrin inkişafı və qarşılıqlı əlaqə proseslərinin dərslərdə izahı üçün inandırıcı misalları doğma diyarın təbii hadisələri üzərində uzun müddət aparılan müşahidələr verir (məsələn, iqlim müşahidələri, su rejimi üzərində müşahidələr və əlbəttə fenoloji müşahidələr və s.) Bu müşahidələr və onların nəticələrinə istinad edilməsi, şagirdlərə aydın olacaq, çünki bunlar hələ müşahidələr aparılan müddətdə dərk edilmişdir. Məhz müşahidələrdən sonra müxtəlif yerli əşyalar və illüstrativ vasitələr nümayiş etdirilir (foto, rəsmlər, cədvəllər, diaqramlar və s.) ki, bunlar da öz növbəsində şagirdlərdə düzgün coğrafi anlayışların və obrazların yaranmasına kömək edir

Əlbəttə, müəllim tədris mövzusunu planlaşdırarkən, ən yaxşı pedaqoji nəticələri almaq üçün dərsə daxil edilən diyarşünaslıq materialını diqqətlə seçməlidir. Diyarşünaslıq materialı öyrənilən dərsin mövzusu ilə həmcins, başa düşmək üçün aydın olmalı, coğrafiyanın elmi anlayışlarının mənimsənilməsinə, coğrafi qanunauyğunluqların mahiyyətinin açılmasına, məktəbin tərbiyəvi vəzifələrinin həllinə kömək etməli və nəhayət, təlimin daha fəal metodlarını tətbiq etmək imkanını təmin etməli və eyni zamanda maraq doğurmalıdır.

COĞRAFİYA FƏNNİNİN TƏDRİSİNDƏ MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ

Cahangirli A.Ş.
Sumqayıt Dövlət Universiteti
E-mail: jahangirlyaydan@gmail.com

Sürətlə qloballaşan dünyada baş verən inkişaf və yeniliklər təhsil sisteminə də təsir edir. Müasir tədris prosesi həyatla əlaqələndirilmiş şəkildə aparılır. Yeni texnologiyaların tədris prosesinə cəlb edilməsi aktual bir məsələ kimi diqqəti cəlb edir. Digər fənlərdə olduğu kimi, coğrafiya fənninin tədrisində də yeni təlim texnologiyalarından istifadə edilməsi zəruri hesab edilir.

Coğrafiya fənni üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün 3 məzmun xətti – Coğrafi məkan, Təbiət və Cəmiyyət məzmun xətləri müəyyən edilmişdir. Hər bir məzmun xətti üzrə coğrafi biliklərin verilməsi zamanı müxtəlif təlim texnologiyalarından istifadə olunur. Bu işdə müəllimin üzərinə böyük məsuliyyət düşür. Belə ki, müəllim hər mövzunun tədrisində istifadə edəcəyi təlim texnologiyalarını, dərsdə tətbiq ediləcək dərs forma və üsulunu əvvəlcədən müəyyən etməlidir.

Pedaqoji texnologiyalar arasında Problemli həll, Venn diaqramı, BİBÖ(KWKL), Layihələr, Oyun, İnformasiya Kommunikasiya Texnologiyası və s. təlim prosesində daha geniş tətbiq edilir.

Problem situasiya → **Problem** → **Həllin modeli** → **Problemin həlli** → **Nəticə**

Problemli həll texnologiyası. Problemli həll yeni təlim texnologiyaları arasında yer alsa da, əslində yeni adlandıra bilmərik, belə ki, bu texnologiya ötən əsrdə ən geniş istifadə edilirdi. Lakin müasir dövrdə də tədris prosesində aktiv şəkildə istifadə olunur. Problemli həll texnologiyasını tətbiq edən müəllim şagirdin dərsdə fəallığını təmin etmək, onu axtarışa sövq etmək üçün problemli vəziyyət yaradır. Bu da öz növbəsində şagirdə öyrənmə stimulu verir. Şagirdi problemin həllinə yönəltmək üçün problemli sual, problemli tapşırıq, problemli məsələ qoyulur. Problemli həll texnologiyasının ünsürləri aşağıdakılardır:

Venn diaqramı texnologiyası. Hər hansı iki məsələnin müqayisəli səciyyəsinin verilməsi zamanı istifadə olunur. Bu metod şagirddən müqayisəyə qoyulan iki məsələnin və ya problemin oxşar və fərqli

tərəflərini aşkara çıxarmağı tələb edir, bu isə şagirdi yaradıcı düşünməyə, hərtərəfli təhlil aparıb nəticə çıxarmağa sövq edir.

Bu texnologiyanı aşağıdakı test nümunəsi ilə göstərmək olar:

A. Ərazisinin əsas hissəsi yarımadada yerləşir
B. Azərbaycanla eyni enlikdə yerləşir
C. Federativ inzibati-ərazi quruluşuna malikdir
D. İxracında neft və neft məhsullarının payı üstündür.
E. Sahillərini iki okean suları yuyur



Meksika Ispaniya

Verilmiş test tapşırığında şagirddən ölkələrə aid olan xüsusiyyətlərin diaqramın müvafiq bölmələrinə yazması tələb olunur.

BİBÖ (KWKL) texnologiyası. BİBÖ hərfi mənada bilirəm, istəyirəm bilim və öyrəndim (ingiliscə Know – Bilirəm, Want to Know – İstəyirəm bilim, Learned – Öyrəndim) ifadələrinin baş hərflərinin birləşməsindən yaranmış termin olub, şagirdə əvvəlki bilik ilə yeni bilik arasında əlaqə yaratmaq imkanı verir.Aşağıda 8-ci sinifdə "Yerin müasir üfüqi və şaquli hərəkətləri" mövzusu üzrə hazırlanmış BİBÖ cədvəli nümunəsi verilmişdir:

Bilirəm	İstəyirəm bilim	Öyrəndim
Yerin daxilində gedən proseslər necə adlanır? Morfostruktur nədir? Daxili proseslər nəticəsində yaranan relyef formaları?	Tektonik hərəkətlərin nəticələri? Endogen proseslər hansı ölkələrdə daha çox baş verir?	Tektonik hərəkətlər nəticəsində yer səthində qırılma və qırışıqlıqlar yaranır. Tektonik hərəkətlər nəticəsində Skandinaviya sahilləri qalxmaya, Şimal dənizinin sahilləri isə enməyə məruz qalır

Əqli hücum texnologiyası. Əqli hücum şagirdlərdə yaradıcı təfəkkürü inkişaf etdirmək məqsədi daşıyır. Şagirdlərə yeni öyrənilən bilik ilə əvvəldən öyrənilən bilik arasında əlaqə yaratmak imkanı verir. Bu metod «Beyin həmləsi» (ingiliscə «brain storm») də adlanır. Bu texnologiya ilk dəfə XX əsrin ikinci yarısında ABŞ-da tətbiq olunmağa başlamışdır. Əqli hücum texnologiyasının müsbət tərəflərindən biri bütün şagirdlərin dərsə fəal cəlb olunmasını təmin etməsidir.

Layihə texnologiyası. Məktəb təcrübəsində yenidən istifadə edilən, lakin köhnə təlim texnologiyalarından biridir. Layihə texnologiyası XX əsrin 20-ci illərində C.Dyu tərəfindən ABŞ-da yaradılmışdır. Bu metod şagirdin müəyyən problemin həllində əldə etdiyi bilikləri nümayiş etdirərək müstəqil fəaliyyətini nəzərdə tutur. Coğrafiya fənninin tədrisində bu texnologiyanın tətbiq imkanları çox genişdir. Şagirddə layihə hazırlama vərdişlərinin formalaşdırılması üçün 6-cı sinifdən etibarən dərslərin sözügenən texnologiya əsasında tədrisinə diqqət yetirmək çox əhəmiyyətlidir.

Oyun texnologiyaları. Oyun texnologiyaları da layihə texnologiyaları kimi köhnə təlim texnologiyalarındandır. Ümumiyyətlə tədrisin oyunlar şəklində aparılması uzun bir təcrübəyə əsaslanır. Bu səbəbdən Oyun texnologiyaları digər təlim texnologiyaları ilə müqayisədə daha rəngarəngdir. Oyun texnologiyalarının aşağı siniflərdə tətbiq edilməsi daha məqsədəuyğundur, çünki yuxarı sinif şagirdləri üçün dərsin oyunlar şəklində aparılması çox da maraqlı olmaya bilər. Bu texnologiyanın tətbiqi zamanı daha çox göstərilən oyunlara müraciət edilir: "Breyn-rinq", "coğrafi açıqça", "coğrafi əlifba", "kor səyyah", "sözsüz anlat", "coğrafi pazl", "ağıl dəryası", "nə və harada", "tərcüməçi coğraflar", "intellekt-şou" və s.

İnformasiya Kommunikasiya Texnologiyası (İKT). Müasir dünyada elmin, istehsalatın bütün sahələrində kompüter texnologiyalarına müraciət edilir. Bu sahədəki nailiyyətlər tədris prosesinə də cəlb olunur. İKT vasitəsilə ilə aparılan dərs həm şagirdlər üçün daha maraqlı olur, həm də müəllimə dərsi əyani şəkildə və nümunələrlə tədris etməyə imkan verir. İKT vasitələri arasında elektron dərslikləri, interaktiv lövhələri, interaktiv xəritələri, Microsoft şirkəti tərəfindən dəstəklənən MS Word, MS Powerpoint, MS Excel proqramları, MİMİMO interaktiv cihazını göstərmək olar. Göstərilən İKT vasitələri arasında MİMİO cihazını xüsusi qeyd etmək lazırdı. MİMİO dərsi daha maraqlı təşkil etməyə kömək edən cihazdır. "Smart Texnologies" şirkəti tərəfindən hazırlanan cihaz "MİMİO Studio" proqram təminatından, Sinifdə lövhəyə çıxış imkanı verən "MİMİO Pad"dən, "MİMİO İnteractive Xi" mausundan, "MİMİO Interactive Stilus" virtual qələmindən ibarətdir.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ COĞRAFİYA FƏNNİN ÖYRƏNİLMƏSİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ ROLU

Əliyeva G.Q.
Sumqayıt Dövlət Universiteti
E-mail: naz.eva20@gmail.com

Təlim metodları qarşıya qoyulmuş məqsədə çatmaq üçün müəllim və şagirdlərin birgə fəaliyyətinin üsulları, hərəkətləridir. Təhsil sisteminin yarandığı ilk gündən müasir dövrümüzə qədər müəllim və şagird arasında qarşılıqlı əlaqədən asılı olaraq, təhsildə üç təlim metodundan istifadə olunur: 1. passiv; 2. aktiv; 3. interaktiv təlim metodu.

Passiv metod bir subyekt- dərslərin gedişatını idarə edən müəllim və obyekt- dinləyici kimi çıxış edən şagirdləri əhatə edir. Passiv üsul materialdan istifadə baxımından ən səmərəsiz üsul hesab edilir, lakin bu metodun üstünlükləri arasında daha az əmək tutumlu dərsləri əvvəlcədən hazırlamaq və qısa müddətdə böyük həcmdə məlumat təqdim etmək imkanı var. Aktiv metodda isə müəllim və şagirdlər dərs boyu bir-biri ilə qarşılıqlı əlaqədə olurlar (şəkil 1). İnteraktiv metodda isə qarşılıqlı əlaqə yalnız müəllim və şagirdlər arasında deyil, həm də qruplar və ya fərdi şagirdlərin arasında baş verir.



Şəkil 1. İnteraktiv təlimin sxemi

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra təhsil strategiyasını dəyişmiş, ənənəvi tədris metodlarından yan keçimiş, dünya təhsil məkanına inteqrasiyanı qəbul etmişdir. Belə ki, 1998-ci ildə əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Təhsil İslahatı proqramları, 2006-cı ildə dünya təcrübəsini özündə cəmləyən yeni proqramın - "Azərbaycan Respublikasında ümumi təhsil Konsepsiyası (Milli Kurikulum)" qəbul olunması ilə daha da təkmilləşdirilmişdir. Belə ki, təhsil strategiyası dəyişdirilmiş və onun əsas məqsədi müasir demokratik cəmiyyətin tələblərinə cavab verən azad, fəal, məlumatlı və məsuliyyətli, tənqidi düşünmə bacarıqlarına malik, müasir demokratik cəmiyyətə sadiq vətəndaşlar yetişdirmək olmuşdur.

Kurikulum konsepsiyasının tətbiqi ilə təlim prosesində interaktiv təlim metodlarının rolu artmışdır. Bu metodlar tədris prosesində tənqidi təfəkkürə malik fəal, müstəqil və azad şəxsiyyətin formalaşmasına kömək edəcək müasir fəaliyyətlərin tətbiqini tələb edir. İnteraktiv tədris şagirdlərin təlim prosesində maksimum iştirakına kömək edir, onlar təkcə passiv bilik alıcısı deyil, daim dinləyici mövqeyində olur, təlim prosesində fəal iştirak etməklə maksimum bilik və bacarıq əldə edir. Nəticədə şagirdə nəinki asanlıqla yeni material əldə etməyə, həm də onu daha uzun müddət yadda saxlamağa kömək edir.

Tədris prosesini aktiv şəkildə həyata keçirmək, şagirdlərin fəallığına nail olmaq, onların düşünmə qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək, coğrafiya fənninin öyrənilməsi əhəmiyyətini dərk etdirmək, biliklərin mənimsənilməsinə və onların praktik olaraq tətbiq edilməsinə maraq yaratmaq hər bir coğrafiya müəlliminin əsas məqsədidir.

İnteraktiv təlim metodları bir neçə qrupda təsnif olunur. Bu metodlar geniş anlayışlardır və bir neçə üsullara ayrılırlar:

1. Beyin həmləsi metodları: BİBÖ, əqli hücum, auksion, klaster, anlayışın çıxarılması, sinektika söz assosiasiyaları və s.

Beyin həmləsi metodları coğrafiya dərsində qısa müddətdə metodik problemin həlli üçün ideyalar yaratmağın asan üsuldur. Bu zaman müzakirə iştirakçıları mümkün qədər çox müxtəlif həllər təklif edilir, hər biri dinlənilir, daha sonra onlardan ən uğurluları seçilir. Şagirdlərin dərsə cəlb olunmasını təmin edən əhəmiyyətli metodlardandır.

2. Müzakirə metodları: akvarium, debat, Sokrat diaoloqu, dəirmi masa, çarpaz müzakirə və s.

Müzakirələr və ya disskussiyalar şagirdlərin coğrafiya dərslərində özləri və müəllim ilə qarşılıqlı ünsiyyətinə kömək edir, informasiyanın təhlili üçün obyektiv mühüt yaradır, problemin öyrənilməsində əlavə fikirlər irəli sürməyə imkan verir. şagirdlərin hüquq bərabərliyini təmin edib, demoktarik mühit yaradır.

3.Tədqiqatın aparılması metodları: Venn diaqramı, qərarlar ağacı, kublaşdırma, müsahibə, layihələrin hazırlanması və s.

Bu üsullar problemli stiuasiyaların həlli, metodoloji problemin həlli üçün müxtəlif variantların üstünlüklərini və çatışmazlıqlarını qiymətləndirmək, hadisə və proseslər arasındakı oxşar və fərqli cəhətlərin aydınlaşdırılması üçün istifadə edilir.

4. Təşkilati metodlar: Ziqzaq, mozaika, karusel və s.

Bu üsullar əsasən qruplarla iş formasında təşkil olunur, qısa vaxt ərzində böyük həcmli mətnlərin daha asan mənimsənilməsi, mövzuya diqqəti cəlb etmək üçün istifadə edilir, məntiqi, tənqidi təfəkkürü inkişaf etdirib, şagirdlərdə qrup daxili ünsiyyəti formalaşdırır.

NAXÇIVAN FİZİKİ-COĞRAFİ RAYONUNUN SU EHTİYYATLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Əliyeva S.E.
Bakı Dövlət Universiteti
E-mail: sabinaalizadah458@icloud.com

Naxçıvan fiziki-coğrafi rayonu Azərbaycan ərazisinin su ehtiyyatları ilə zəif təmin olunmuş bölgələri sırasındadır.Fiziki-coğrafi rayonun su sərvətlərinə çaylar,göllər,su anbarları,yeraltı sular,qar və buzlaq suları aid edilir.Rayonun əsas su mənbəyi çaylardır,baxmayaraq ki ərazi üzrə qeyri-bərabər paylanmışdır.Hidroqrafik şəbəkə digər ünsürlər kimi zonallıq qanuna uyğun olaraq dəyişir.Çay şəbəkəsinin ən yüksək inkişaf etdiyi sahələr dəniz səviyyəsindən 1500-2000 m hündürlük intervalı,ən zəif inkişaf etdiyi sahələr isə 1000 m hündürlükdən aşagı olan dağətəyi və düzənlik sahədir.2500-3000 m-dən yüksək ərazilərdə yağıntı azlığı və bununla əlaqədar bitki örtüyünün zəif inkişaf etməsi çay şəbəkəsinində zəif inkişaf etməsinə səbəb olur.Bu ərazilərdə yeraltı sular bulaqlar şəklində üzə çıxır. 2021-ci ildə su obyektlərində 306 mln m³ içməli su,o cümlədən 271,9 mln m³ suvarma sisteminə,8,2 mln m³ sənaye təchizatına,25,9 mln m³ su isə məişət-təsərrüfat tələbatları üçün istifadə olunmuşdur.Rayonun su ehtiyyatları 1978 və 1989-cu illərlə müqaisədə müvafiq olaraq 21,1% və 40,3% azalmışdır.Sənaye miqyasında istifadə olunan suyun miqdarına görə Naxçıvan şəhəri liderdir.Bu məqsədlə 4,8 mln m³ sudan istifadə olunur.

Naxçıvan fiziki-coğrafi rayonu çaylarının ümumi su sərfi(Araz çayı nəzərə alınmadan) 1mlyrd. 400 mln m³-ə yaxındır ki,bunun da böyük hissəsi Arpaçayın payına düşür.Gilançay və Naxçıvançayın hər birində illik su sərfi 100 mln m³-dən artıqdır.Fiziki-coğrafi rayonun çaylarının 334-nün uzunluğu 5 km-ə qədər,31-nin isə 6–10 km, 24-nün 11–25 km, 7-ninki 26–50 km, 3-nünkü (Naxçıvançay, Əlincəçay, Gilançay) 51–100 km,1-nin(Şərqi Arpaçay) uzunluğu isə 100 km-dən artıqdır.S.H.Rüstəmovanın məlumatlarına əsasən rayonun çayları axımın davamiyyətinə görə 3 qrupa bölünür: 1. Daim fəaliyyətdə olan çaylar-axım il ərzində mövcuddur; 2. Quruyan çaylar-yağışların və qarların əriməsinin intensiv olduğu dövrdə mövcud olur; 3. Müvəqqəti çaylar-axım yalnız leysan xarakterli aramsız yağışlar zamanı mövcud olur

Ümumi axımda tranzit çaylar 52%,yerli çaylar isə 48% paya malikdir.Orta sulu dövrdə çayların ümumi su ehtiyyatı 1,27 km³-ə bərabərdir. Gilan çayından şərqdə yerləşən ərazilərdə su təminatı kifayət qədər, qərbdə azdır, Arazboyu düzənliklər isə, demək olar ki, sudan məhrumdur. Hesablamalara görə, Şərqi Arpaçay, Naxçıvançay, Gilan və Əlincə çaylarının ümumi enerji ehtiyatı 480 milyon kilovatt-saata çatmaqla, MR-in bütün çay hövzəsinə düşən enerji ehtiyatının 80 faizini təşkil edir.

Naxçıvan fiziki-coğrafi rayonu üçün böyük həyati əhəmiyyətə malik olan əsas çay Araz çayıdır.Çayın ümumi uzunluğunun(1072 km) 174 km-i fiziki-coğrafi rayon ərazisindədir.Araz qarışıq qidalanan çaylar sırasındadır.Çayın illik axımının 45-50 faizini yeraltı sular,32-39 faizini qar suları,16-17 faizini yağış suları təşkil edir.Çayda bolsulu dövr mart-iyul,azsulu dövr isə avqust-oktyabr aylarında müşahidə edilir.Arazın orta illik su sərfi 285 m³/san,ən çox sərf 1549 m³/san,ən az isə 19 m³/san-dir.Çayın suyunun 40 faizindən suvarmada istifadə olunur. Rayonun ikinci böyük çayı Naxçıvançaydır.Çayın ümumi uzunluğu 81 km,hövzəsinin sahəsi 1630 km³,orta illik su sərfi 4,51 m³/san,axım həcmi isə 128 mln m³-dir.

Naxçıvan fiziki-coğrafi rayonunun üçüncü sulu çayı Gilançay hesab edilir.Çayın ümumi uzunluğu 53,4 km,hövzəsinin sahəsi 425,9 km²,su sərfi 3,22 m³/san,il lik axım həcmi 101,5 mln m³-ə bərabərdir. Naxçıvan fiziki-coğrafi rayonunun göllərinin böyük hissəsi Naxçıvançay və Gilançayın yuxarı hövzəsində

yerləşmişlər.Bunlara misal olaraq Batabat,Qanlı göl,Durnalı göl,Göygöl və başqalarını göstərmək olar. Batabatgöl Şahbuz rayonu ərazisində Naxçıvançay hövzəsinin yuxarı hissəsində Biçənək aşırımının cənub tərəfində (2113 m) yerləşir. Batabatgölün sahəsi 1630 km², uzunluğu 530 m, orta eni 302 m, sahil xəttinin uzunluğu 1800 m, əyrintilik əmsalı 1,36-dır.Batabatgölün suyundan hazırda əkin sahələrinin suvarılması ilə yanaşı yay vaxtı ətrafında otarılan mal-qaranın su ilə təmin olunması üçün istifadə edilir.

Qanlıgöl Şahbuz rayonu ərazisində,Naxçıvançayın sağ qolu Küküçayın mənbə hissəsində yerləşir.Sahəsi 10,2 km²,həcmi 1,2 mln m³-dir. Hazırda bu sudan Şahbuz və Babək rayonlarındakı tarlaların və yaylaqlarda otarılan mal-qaranın su ilə təmin olunmasında istifadə edilir. Sonradan insanların təsərrüfat fəaliyyəti nəticəsində həmin göllərin çoxu genişləndirilmiş və süni su anbarlarına çevrilmişdir. MR ərazisinin iqlim şəraiti, yağıntıların azlığı, vegetasiya dövründə əkinlər üçün suvarma suyunun çatışmadığı nəzərə alınaraq aşağıdakı su anbarları inşa edilmişdir: Araz su qovşağı-1350 mln m³; Arpaçay su anbarı-135 mln m³; Vayxır su anbarı-100 mln m³; Sirab su anbarı-12,7 mln m³; Bənəniyar su anbarı-15 mln m³; Uzunoba su anbarı-9 mln m³; Nehrəm su anbarı-6 mln m³.

Naxçıvan MR əhalisinin su təminatında kəhrizlərin də rolu əvəzedilməzdir. MR ərazisində 407 kəhriz olmuşdur. Baxımsızlıqdan həmin kəhrizlərin xeyli hissəsi sıradan çıxmışdır. Hazırda fəaliyyətdə olan 353 kəhriz qalmışdır. Kəhrizlərin 151-i Şərur, 80-i Babək, 71-i Ordubad, 28-i Culfa, 8-i Şahbuz rayonlarında, 15-i isə Naxçıvan şəhərindədir. Göstərilən kəhrizlərin suyundan səmərəli istifadə etməklə 1800 ha artıq əkin sahəsini su ilə təmin etmək mümkündür. Kəhrizlərin ümumi su sərfi 2003 l/san-yə çatır.

Qədim Naxçıvanın ən mühüm təbii sərvətlərindən biri də onun mineral sularıdır. Muxtar Respublikanın ərazisində mineral suların 200-dən artıq mənbəyinə rast gəlinir. Bu suların ümumi debiti sutkada respublika üzrə olan debitin 60%-inə bərabərdir. Öz tərkibinə görə «Darıdağ», «Badamlı», «Sirab», «Nəhəcir», «Qızılvəng», «Vayxır», «Qahab» və s. kimi sular nadir sulardandır.İnsanlar qədimdən bu sulardan müxtəlif xəstəliklərin müalicəsi üçün istifadə etmişlər.

Naxçıvan MR su ehtiyatları ilə təminatında qar örtüyünün də mühüm rolu vardır.Naxçıvan MR-ın oroqrafik quruluşu və iqlim şəraiti ilə əlaqədar olaraq, qar örtüyünün paylanma və davametməsi Azərbaycanın digər sahələrindən çox fərqlənir. Burada qışın kəskin keçməsi nəticəsi olaraq qar örtüyü xeyli davamlıdır.Zəngəzur yamaclarında müşahidə edilən qar örtüyü Böyük Qafqazın cənub yanaclarından sonra respublikada ikinci yeri tutur. Ərazidə 1-10 sm hündürlüyə malik olan qar örtüyünün təkrarlanması 30-50 faiz, 11-20 sm qar örtüyü isə 25-30 faiz arasında dəyişir. Qar örtüklü günlər ərazinin düzənlik zonasında 30-40 gündən yüksək dağlıq zonada 200-250 günə qədər davam edir. Zəngəzur silsiləsinin cənub-qərb yamacında, Qapıcıq və bir sıra başqa zirvələrin ətrafında dərələrə toplanmış qar bir neçə illər belə qala bilir.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ EKOLOJİ TƏHSİL VƏ TƏRBİYƏNİN MAHİYYƏTİ

Hacıyeva M.A.
Sumqayıt Dövlət Universiteti
E-mail: aqayev_tahir@mail.ru

Ekoloji problemlərin həlli yalnız o zaman mümkün ola bilər ki, bütövlükdə cəmiyyətin təbii şəraitlə qarşılıqlı əlaqələri təbii mühitin, o cümlədən coğrafi regionların, canlı və cansız təbiətdə baş verən proseslərin, planetimizin bütün sferalarının yaxşılaşdırılmasına yönəlsin. Bu, sadəcə təbiəti qorumaqdan deyil, insanın, təbiətin və onlar arasında harmoniyanın daha da təkmilləşdirilməsi şəraitini yaratmaq üçün təbii mühiti qorumaq və inkişaf etdirməkdir.

Ekoloji təhsil ali məqsədə çatmağın ən vacib - insan cəmiyyətinin inkişafına nail olma vasitələrindən biridir. Ekoloji təhsil – bu təhsil, maarifləndirmə və tərbiyə təşkilatlarında və ya müstəqil şəkildə məqsədyönlü təşkil edilmiş və sistemli şəkildə həyata keçirilən ekoloji bilik, bacarıq və vərdişlərin əldə edilməsi və mənimsənilməsi prosesi, vasitələri və nəticəsidir.

Mövcud olduğu dövrdə bəşəriyyət bir nəsildən digərinə biliyin ötürülməsini təmin edən geniş təcrübə toplayıb. Bilikləri toplayan, sistemləşdirən və ümumiləşdirən insan fəaliyyətinin sahəsi - elmdir. Elmi bilik - təhsilin əsas məzmunudur.

Elm daim inkişafdadır. Yeni faktlar mövcud fikirlərin yenidən qiymətləndirilməsinə gətirib çıxarır və köhnə anlayışlar və nəzəriyyələr yeniləri ilə əvəz olunur.Elmin inkişaflı olması yalnız yüksək səviyyəli təhsil ilə mümkündür. Elm və təhsil bir-biri ilə sıx bağlıdır. Bir tərəfdən elmin inkişafı yalnız yüksək keyfiyyətli təhsil ilə mümkündür, digər tərəfdən elmin inkişaf səviyyəsi təhsilin keyfiyyətini özü müəyyənləşdirir. Ətraf mühitin vəziyyəti də ekoloji təhsilin nəticələrindən asılıdır.

Ekoloji təhsilin səmərəliliyi əsasən ekoloji təhsil işçilərinin peşə fəaliyyətinə hazırlığı ilə müəyyən edilir, bu da təhsil prosesinin real şəraitində yaranan peşə məsələləri və problemləri həll etmək qabiliyyəti deməkdir.

Pedaqoq-ekoloqun peşə səriştəsi peşəkar problemləri həll etmək üçün əldə edilmiş ekoloji, pedaqoji və metodoloji sintezə lazım olan bilik, bacarıqlara əsaslanır.

Pedaqoji ali məktəbdə tələbələr əvvəlcə ekoloji və pedaqoji fənləri, sonra isə ekologiyanın tədrisinin nəzəriyyə və metodologiyasını öyrənirlər. Bu da təsadüfi deyil, çünki "Ekoloji təhsilin nəzəriyyəsi və metodologiyası" dərs fənninin məzmunu elmlərin kəsişməsində - ilk növbədə ekologiya, pedaqogika və psixologiya ilə formalaşır.

Hal-hazırda ekoloji problemlər insan həyatının bütün sahələrinə təsir göstərir: elm və istehsal, siyasət və iqtisadiyyat, energetika, şəhər planlaşdırması, səhiyyə və təhsil. Ekologiya təbii sistemlərə müdaxilənin nəticələrini proqnozlaşdırmaq, elmi bilikləri və sosial təcrübəni sintez etmək, elm və təcrübənin imkanlarını araşdıraraq ekoloji problemlərin ağıllı həlli üçün metodoloji əsas yaradır.

Ekologiya müasir elmdə bənzərsiz bir hadisədir. Bu elmdə elə miqyasda ümumiləşdirmə var ki, onlar yalnız az sayda elm sahəsində əldə edilmişdir. Ekologiya sahəsində biliklər olduqca müxtəlif və çoxşaxəlidir: təbiətdən istifadə təcrübələri ilə bağlı xüsusi məlumatlardan cəmiyyət və təbiət arasında qarşılıqlı təsir qanunlarını açan fəlsəfi dünyagörüşü ümumiləşdirmələrinə qədər.

Nəticələrin ümumiləşdirici xarakteri, ekologiyanın əhəmiyyətli metodoloji və nəzəri bazisidir, onu elmi biliklərin inteqrasiyasının mərkəzinə çıxarırlar. Hal-hazırda ekoloji tədqiqatların sərhədləri əhəmiyyətli dərəcədə genişlənib və buraya sosial ekologiya, ekologiya fəlsəfəsi, sosioekologiya və antropoekologiya, ekoloji etika və estetika, pedaqoji və peşəkar ekologiya daxildir.

Ekologiya elmi ilə ekologiyanın tədrisinin nəzəriyyəsi və metodologiyası sıx bağlıdır. Ekologiya ekoloji təhsilin məzmununu formalaşdırır, ekoloji tədqiqat metodları isə əhəmiyyətli dərəcədə öyrənənlərin tədris və tədqiqat fəaliyyətlərində öz əksini tapmışdır.

Eyni zamanda, ekoloji təhsilin məzmunu ekologiya elminin kiçildilmiş bir nüsxəsi deyildir, çünki məktəb kursu şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alaraq yalnız ən vacib, pedaqoji cəhətdən uyğunlaşdırılmış ekoloji faktlar, anlayışlar, qanunlar və qanunauyğunluqlardan ibarət məzmuna malik olmalıdır.

DAĞ KƏSƏMƏN KOLÇEDAN-POLİMETAL YATAĞI

Hüseynzadə F.Ə.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: erwadli.f@gmail.com

Dağkəsəmən yatağı inzibati cəhətdən Ağstafa rayonunun cənub, cənub- şərq hissəsində- Həsənsu və Ağstafaçay hövzələri arasında dağətəyi sahəni əhatə edir.

Dağkəsəmən filiz rayonu Azərbaycan Respublikasının qərb regionunda, eyniadlı filiz sahəsində yerləşir. Geoloji struktur cəhətdən Qazax -Ağstafa bölgələrini əhatə edir və Qazax çökəkliyinə daxildir. Bu filiz rayonu qızıl və qızıl -polimetal yataqlarının aşkar olunmasına görə əhəmiyyətli region hesab olunur. Sahə daxilində ehtiyatları Faydalı Qazıntı Ehtiyatları üzrə Sahəvi Balansa qəbul edilmiş "Dağkəsəmən" qızıl yatağı mövcuddur.

Yatağın geoloji quruluşunda üst təbaşirin (üst konyak-aşağı santon) vulkanogen süxurları iştirak edir. Onlar andezitlərlə, dolerit porfiritlərlə və onların piroklastolitlərilə təmsil olunub. Yatağın şimal-qərb hissəsində qismən örtüklərə keçən albitofirlərin iri subvulkan kütləsi üzə çıxır. Onlar vulkanogen süxurların yuxarı horizontlarını örtürlər. Albitofirlərin yaşı üst santona qədərdir, çünki yataq rayonunda heç bir yerdə vulkanogen-çökmə süxurları albitofirlər yarmır. Üst konyak-aşağı santon vulkanogen süxurlarını qeyri-uyğun şəkildə örtən üst santon çöküntüləri əhəngli tufogen süxurlardan ibarətdir.

Yataqda üç qrup qırılma pozulmaları ayrılır. Birinci qrup 35-45° şimal-şərq uzanmaya malik, daimi olmayan, əsasən sərt düşmə bucağı ilə xarakterizə olunan uzununa qırılmalarla təmsil olunmuşdur. İkinci qrup qırılmaların uzunluğu bir neçə yüz metr olub, geniş inkişaf etmişlər. Bunlara yatağın əsas antiklinalının tağ hissəsində lokallaşan əsas qızıllı damarlar uyğunlaşmışdır. Nəhayət, üçüncü qrup qırılma-çatlar bir neçə metrdən ilk on metrlərə, bəzən 100-m-ə qədər uzanırlar. Bu qırılmalar 340-360° şimal-qərbə uzanaraq, ikinci qrup qızıl filizi qırılmalarını kəsir və onların bir neçə metrdən 5-10 m-ə qədər yerini dəyişir. Bu qırılmalar filizləşmədən sonrakı kimi təsnifləşdirilir.

İş sahəsi Qazax çökəkliyində yerləşir. Bu çökəklik Kiçik Qafqazın Somxit- Ağdam tektono-maqmatik zonasında yerləşir. Qazax çökəkliyi əks Qafqaz istiqamətli sinklinori təşkil edir və bu sinklinori Ağstafaçay boyunca davam edir. Qazax çökəkliyi şimal- şərq istiqamətində uzanır və kiçik Qafqaz önü çökəkliyi ilə qovuşur. Kiçik Qafqaz önü çökəkliyi isə qazax şəhəri sahəsində yerləşir İş sahəsində müxtəlif zonalar ayrılır. Bunlardan biri də iş sahəsinin şərq hissəsində yerləşən Parvakar- Bayazid antiklinal zonasıdır. Bu zona Həsənsu çayı hövzəsini əhatə edir və kiçik strukturlara bölünür. Bu strukturlar aşağıdakılardır: 1.Həsənsu antiklinalı; 2.Kəməntqaya-Üçgöl sinklinalı; 3. Qarayal-Dağkəsəmən tikiş antiklinalı.

Həsənsu antiklinalı iş sahəsinin şərq hissəsini əhatə edir və şimal- şərq istiqamətində uzanır. Bu antiklinalda əsasən üst konyak- alt santon, kampan, maastrix yaşlı süxurlar daha çox yayılmışlar.

Litoloji tərkibcə isə aşağıdakılardan ibarətdir. Tuffitlərdən, muxtəlif tərkibli əhəngdaşlarından, tuflardan, tuf qumdaşlarından ibarətdir

Kəməntqaya-Üçgöl sinklinalı aşağıdakı süxurlardan təşkil olunmuşdur. Üst turon-alt konyak və üst konyak- alt sontan yaşlı terrigen vulkanik çöküntülərdən, üst santon, komyan- maastrix yaşlı vulkanogen çökmə, çökmə süxurlardan təşkil olunmuşdur. Bu sinklinalın mərkəzi hissəsi qırılmalarla mürəkkəbləşmişdir və bu qırılmalar şimal qərb istiqamətli qırılmalardır. Kəməntqaya- Üçgöl sinklinalının şimal- qərb qanadı isə dərin tektonik pozulma zonası ilə mürəkkəbləşmişdir.

Parvakar- Bayazid antiklinal zonasının növbəti kiçik strukturu Qarayal- Dağkəsəmən tikiş antiklinalıdır. Bu antiklinal regional tektonik pozulma nəticəsində əmələ gəlmişdir və bu pozulma üst təbaşir dövründə əmələ gəlmişdir. Tektonik pozulma zonası boyunca burada yerləşən süxurlar intensiv pozulmuş, minerallaşmış, limonitləşmiş, kvarslaşmış və kaolinləşmişdir.

Qarayal- Dağkəsəmən antiklinalı metallogeniyasının mürəkkəbliyinə görə fərqlənir. Bu tikiş antiklinalı əsas filiz daşıyan struktur formasıdır. Mürəkkəb metallogeniyasının fərqliliyinə görə sahədə əmələ gələn maqmatizmin bütün mərhələlərində hidrotermal proseslər çox aktiv fəaliyyət göstərir.

Yataq morfoloji damar və damarcıq-möhtəvi tipə aid edilir. Bu xırda damar və damarcıqlar əhəmiyyətli filiz zonaları üçün çox xarakterikdir. Onlar əsas damardan çox da böyük olmayan (25°-ə qədər) bucaq altında aralanır və yaxud subparalel damar sistemi əmələ gətirirlər.

Qızıl daşıyan zonalar və damarlar müxtəlif parametrlərlə xarakterizə olunurlar. Onların uzunluğu 100-150 m-dən 500 m-ə qədər, bəzən daha artıqdır.

Onlar dəyişkən qalınlığa malikdirlər, genişlənmə yerlərində 10-15 m-ə qədər, sıxılma yerlərində isə 0,5 m-ə qədər olur. Əksər qızıl filizi zonaları və damarları sərt, bəzən şaquliyəyaxın (75-85°) malikdirlər. Onların məhdud miqdarı nisbətən az sərt yatımlıdır.

Sərbəst qızıl şliflərdə tez-tez rast gəlir. Bütün hallarda onun dənələri məkanca xalkopirit, qalenit və piritin ayrılma sahələrinə təyamül edir. Sərbəst qızıl, xüsusən xalkopiritlə sıx əlaqə yaradır. Bəzən ayrı-ayrı xalkopirit dənələrində 8-ə qədər xırda qızıl dənələri qeyd olunur. Ayrılmış qızılın forması dairəvidir, qeyri-düzgün əyilmişdir. Dənələrin ölçüsü 0,01-0,03 mm, bəzən 0,1 mm-dir. Əmələ gəlmə vaxtına görə digər minerallar arasında ən gecidir. Dağ Kəsəmən yatağının qızılı kimyəvi tərkibinə görə təmiz və yüksək əyyarlığı (900-970%) ilə seçilir.

Yataqda qazılmış quyularda qızılın orta miqdarı 0,2 q/t, gümüş 22,6 q/t, qurğuşun 0,24%, sink 0,65%, mis 0,21% təşkil edir. Yataq ərazisində bütün filizli zonalar şimal-şərq istiqamətli tektonik çatların filizli məhlullarla dolması nəticəsində formalaşmış və şərq tektonik qırılması ilə ayrılmışlar. Onların izlənilən uzunluğu təxminən 100-1300 m, eni isə 0,2-20,2 m-ə qədərdir.

Ümumiyyətlə yataq ərazisində 27 filizli zona aşkarlanıb ki, onların bir qismi hələki öyrənilməyib. Yatağın C_1+C_2 kateqoriyaları üzrə ehtiyatı təxminən Au-26,3 ton, Ag-113,9 ton, Zn-86880 ton, Pb-7755 ton və Cu-2238 ton hesablanmışdır

DAĞKƏSƏMƏN QIZIL-POLİMETAL YATAĞINDA NƏCİB METALLARIN ZONALAR ÜZRƏ PAYLANMASI

Hüseynzadə F.Ə.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: erwadli.f@gmail.com

Yataq Kiçik-Qafqazın Lök-Qarabağ struktur-formasiya zonasının şimal-qərbində eyni adlı filiz sahəsi ərazisində yerləşir.

Yatağın geoloji quruluşunda Üst Təbaşir və paleogen yaşlı vulkanogen və mürəkkəb kompleks çökmə, çökmə-piroklastik süxurlar iştirak edir.

Vulkanogen süxurların lava və piroklastik fasiyaları yataq ərazisində geniş yayılıb. Lava fasiyası andezitlərdən, andezit-dasitlərdən, andezit-bazaltlardan, piroklastik fasiya isə andezit bazaltların, andezitlərin, andezit-dasitlərin tuffitlərindən təşkil olunmuşdur.

Çökmə-piroklastik süxurlar yataq ərazisində nəzərə çarpacaq dərəcədə az yayılmışdır və andezibazalt tuff və tuffitlərindən ibarətdir. Subvulkanik əmələgəlmələr yataqda üst-Təbaşir yaşlı albitofilərdən, dasit və riodasitlərdən təşkil olunmaqla iri həcmli massiv kütlələr təşkil edirlər.

Damar əmələgəlmələrdən qeyd edilən yataqda diabaz-porfirit tərkibli daykalara rast gəlinir.

Yatağın filizə nəzarət strukturları sərtdüşməyə malik şimal-qərb istiqamətli qırılıb düşmələrdir. Hansılar ki, Dağkəsəmən antiklinalının tağ hissəsində yüksək çatlı zona ilə xarakterizə olunurlar.

Struktur cəhətdən yataq Dağkəsəmən antiklinalına uyğun gəlir. Qeyd edilən antiklinanın tağ zolağı boyunca böyük ölçülü qırılma zonası keçir. Bu zona qızıl və onunla assosiasiyada olan polimetal filizinin yerləşməsinə nəzarət edir və gec Təbaşir vulkanizminin məhsulu olan andezit-dassit tərkibli subvulkanik kütlə ilə əlaqədardır.

Yataqda ən böyük qırılma pozulması Ağdam-Rizvan pozulmasıdır. Qırılma Kamanqaya dağından 1 kilometr məsafədən keçir. Daha sonra isə Dağkəsəmən antiklinalının ox hissəsində yerləşir. Yataq ərazisində geniş inkişaf etmiş hidrotermal dəyişmiş zona içərisində yerləşən filiz kütləsi damar və damarcıq-möhtəvi morfologiya ilə təmsil olunur. Filiz kütləsi çox halda tektonik müstəvilər müşayiət edilir.

Qızıl-sulfid filizli damarlar əhəmiyyətli dərəcədə inkişaf etmiş və əsas morfoloji tip hesab olunur. Bu tip morfologiyaya mənsub olan damarlar özündə kifayət qədər qızıl daşıyan kvars-xalkopirit və qalenit-sfalerit filizlərini saxlayırlar. Kvars-sulfid filiz kütləsi intensiv kvarslaşmış və kaolinləşmiş, piritləşmiş dəyişilmiş süxurlar içərisində yerləşir.

Hidrotermal dəyişilmiş süxurlar əsasən Dağkəsəmən antiklinalının tağ hissəsində müşahidə edilir. Filiz ətrafı süxurlar intensiv dəyişikliyə uğrayaraq törəmə kvarsitlərə keçmişdir. Törəmə kvarsitlər isə öz növbəsində aşağıdakı fasiyalara ayrılırlar: xforit-serisit, serisit-kvars, xlorid-karbonat. Qızıl-sulfid minerallaşması əsasən törəmə kvarsitlərin serisit-kvars fasiysı ilə əlaqədardır.

Yataqda əsas hipogen minerallar – sfalerit, qalenit, xalkopiritdir. İkinci dərəcəli minerallar isə bornit, rutil, maqnetit, siderit, qızıl, rodoxrozit, melnikovit, markazit və digenitdir. Qeyri-filiz mineralları – kvars, kalsit, barit; hipergen minerallardan isə hetit, hidrohetit, kovellin, anqlezit, limonit, malaxit, azurit, polibozit, argentit, ştromeyrit, altaitdir. Yataqda hipogen filiz əmələgəlmə mərhələsində kvars-pirit-serisit, kvars-qalenit-sfalerit (qızılla), kvars-xalkozin hematit və kvars karbonat mineral assosiasiyalar ayrılmışdır.

Kvars-pirit-serisit mərhələsi çox güman ki, turş şəraitdə xırdadənəli kvars aqreqatının əmələgəlməsi ilə başlamışdır. Bu mineral assosiasiyasının əsas mineralları kvars, pirit və serisitdir. Kvars-qalenit-sfalerit (qızılla) minerallaşma mərhələsinin mineralları yatağın filizində geniş yayılmışdır. Qeyd edilən mineral assosiasiyasının əsas mineralları aşağıdakılardır. Gn, Sf, Cu, Au, Si. Kvars-xalkozin-hematit mineral assosiasiyasında eyni ilə özündən əvvəl kristallaşmış kvars-qalenit-sfalerit tipli filizli məhlulundan əmələ gəlmişdir. Bu mərhələnin əsas mineralları aşağıdakılardır; pirit, xalkopirit, hematit, xalkozin, kvars. Kvars-karbonatmineral assosiasiyası yataqda son, başa çatmış mərhələdir və özündə az miqdarda kalsium damarcıqları saxlayır. Bu damarcıqlar qanunauyğun olaraq özündən əvvəlki mərhələnin filiz və qeyri-filiz aqreqatlarını kəsir.

Yataqda qızılın və gümüşün filizli zonalarında və filizdə paylanmasını öyrənmək üçün yerüstü sınaqlaşdırmanın analizlərinin nəticələrindən istifadə edilmişdir.

Yerüstü intensiv kvarslaşmış, kaoinləşmiş və pirit möhtəviləri iştirak edən perspektivli 2 və 4 №-li zonalarda qızılın və gümüşün paylanması öyrənilmişdir. Aparılan tədqiqat işləri zamanı qeyd edilən zonalarda qızılın və gümüşün qeyri-bərabər paylandığı məlum olmuşdur. 2 №-li zonada qızılın və gümüşün miqdarı geniş intervalda dəyişir. Bu dəyişkənlik müvafiq olaraq aşağıdakı kimidir; Au-0, 1-18,6 q/t (orta miqdar 3,10 q/t); Ag-5-22 q/t (orta miqdar 14,0 q/t).

Qızılın və gümüşün yüksək konsentrasiyası 4 №-li zonada qeydə alınmışdır. Zonada qızılın və gümüşün orta miqdarı müvafiq olaraq 5,3 q/t və 3,15 q/t-dur. Qızılın orta miqdarının yüksək olması, görünür zona daxilində qızılsaxlayan qalenit-sfalerit-xalkopirit linzalarının olması ilə əlaqədardır.

Qızlın və gümüşün paylanma xüsusiyyətləri müxtəlif tip filizlərdə və gec sulfidlərin monomineral fraksiyalarında (sfaleritdə, qalenitdə, xalkopiritdə) da öyrənilmişdir.

Analizlərin nəticələrindən aydın olmuşdur ki, kvars-pirit assosiasiyasında qızılın və gümüşün miqdarı o qədər də yüksək deyil (orta miqdar uyğun olaraq 2,3 q/t və 16,8 q/t-dur). Qızılın yüksək konsentrasiyası

kvars-qalenit-sfalerit (qızılla) tipli filizdə qeyd edilir (orta miqdar 9,6). Qeyd edilən tip filizdə gümüşün miqdarı da yüksəkdir (orta miqdar 23,2 q/t).

Nəzərə alsaq ki, gümüş adətən polimetallarla sıx assosiasiyada olur, onda alınan nəticəni qanunauyğun hesab etmək olar.

Kvars-xalkozin-hematit tipli filizdə qızılın və gümüşün miqdarı, kvars-qalenit-sfalerit assosiasiyasında olduğundan kifayət qədər azdır (orta miqdar uyğun olaraq 2,4 və 1,6 q/t-dur).

Atom-absorbsiya spektrometriya analizin nəticələrinə görə əsas sulfid minerallarının (qalenit, sfalerit, xalkopirit) monomineral funksiyalarında qızıl və gümüşün miqdarı fərqlidir. Müəyyən edilmişdir ki, qızılın yüksək konsentrasiyası qalenit və sfaleritdə (uyğun olaraq orta miqdar 7,2 və 5,6 q/t-dur), gümüşün yüksək miqdarı isə sfaleritdə (orta miqdar 19,2 q/t) təşkil edir.

Beləliklə, kvars-qalenit-sfalerit assosiasiyasında qızılın və gümüşün miqdarının yüksək olması yatağın sənaye əhəmiyyətli olmasında həlledici rol oynaya bilər. Gec sulfidlərin əsas minerallarında (xalkopirit, sfalerit, qalenit) qızılın və gümüşün konsentrasiyasının yüksək olması da yuxarıda qeyd edilənləri təsdiq edir.

BÖYÜK QAFQAZIN CƏNUB YAMACI TƏBİİ-ANTROPOGEN KOMPLEKSLƏRİNİN REKREASİYA QİYMƏTLƏNDİRİLMƏSİ

İsmayıllı S.R.
Bakı Dövlət Universiteti
E-mail: samireismayilli416@gmail.com

Baş Qafqaz silsiləsinin Mərkəzi hissəsi ən yüksək zirvələrin mövcudluğu və çox böyük meylliyə malik yamacların üstünlüyü ilə fərqlənir. Baş Qafqaz silsiləsinin Cənub-şərq və Şimal-şərq yamacı meylliklərin azalması, müxtəlif təbii-dağıdıcı proseslərin isə azalmayan təzahürü ilə səciyyələnir. Bu proseslər yerli əhalinin həyatına və bütövlüklə, regionun resurs potensialına öz təsirini göstərir. Belə meyllik dağ təbiətinin yerli və xarici həvəskarları üçün həm elmi, həm də maarifləndirici maraq kəsb edən müxtəlif geodinamiki proseslərin mühüm şərtidir. Baş Qafqaz silsiləsinin Girdimançay hövzəsindən şərqə doğru uzanan Cənub-şərq yamacı həm elmi, həm də təsərrüfat baxımından çox cəlbedicidir. Bu ən böyük turist axınının gəldiyi paytaxta yaxınlıq, şaxələnmiş nəqliyyat şəbəkəsinə malik və yay gələndə yüksək dağ otlaqlarına iri və xırda buynuzlu mal-qaranın gətirildiyi qış otlaqlarının yerləşdiyi ən böyük Aran iqtisadi-coğrafi rayonu ilə qonşuluqla izah olunur.

Dağ çəmənləri və biçənəkləri Baş Qafqaz silsiləsinin bu hissəsində iqlimin aridləşməsinin təzahürü fonunda kəndlər ətrafında meşələrin qırılması nəticəsində 1600-1700 metr hündürlüyədək aşağı düşür. Onlar, əsasən, müxtəlif dərəcədə eroziyaya uğramış dağ-çəmən-çöl torpaqları ilə təmsil olunmuşlar. Bu torpaqlar rəngində boz tonların, strukturun dənəvər-kömbəvari hissələrinin aydın təzahür etməsi ilə səciyyələnir.Dağ-çəmən-çöl torpaqları çimli dağ-çəmən torpaqlarından açıq-qonur rəngi və zəif inkişaf etmiş çim qatı ilə fərqlənir. Bu amillər onları antropogen amillərin qarşısında az dayanıqlı edir.

Qranulometrik tərkibinə görə bu torpaqlar, əsasən, gillicəli tərkibə, bəzi nümunələrdə isə böyük skeletliliyə malikdirlər (50%). Belə skeletlilik laylı əhəngdaşılı süxurların yayılması şəraitində bir yaşayış məntəqəsindən digərinə keçidi çox çətinləşdirir və turist cığırlarının salınmasına daha diqqətli yanaşmanı tələb edir. Bununla birlikdə, Böyük Qafqazın Cənub-şərq yamacının dağ-çəmən zonasının çox hissəsi çimli dağ-çəmən, ən yüksək və suayırıcı sahələri isə torflu və ibtidai dağ-çəmən torpaqları ilə təmsil olunmuşlar. Xüsusilə, qısa profilə və torpaq horizontlarının zəif differensasiyasına malik ibtidai dağ-çəmən torpaqlarını qeyd etmək lazımdır. Lakin belə ərazilər, xüsusən, turizm fəaliyyətinin zəiflədiyi qış aylarında ekstremal turizm həvəskarlarını cəlb edə bilər.

Baş Qafqaz silsiləsinin Cənub yamacı və, o cümlədən, onun dağ-çəmən və qayalıq-nival landşaft zonaları ilə təmsil olunmuş yüksək dağlıq hissəsi əlverişsiz təbii-dağıdıcı proseslərin inkişafı ilə yanaşı, təbii və tarixi abidələrin mövcudluğu səbəbindən turist marşrutlarının yaradılması baxımından cəlbedicidir. Əsasən piyada olan belə keçidlər turistlərə təbii şəraitin müxtəlifliyini və bu təbii komplekslərin ayrılmaz hissəsi olan təbii qüvvələrin nəticələrini seyr etməyə imkan verir. Adı çəkilən rayonda turizm sahəsinin inkişafı üzrə işlər yamacların meylliyinin böyüklüyü və yüksək seysmiklik ilə mürəkkəbləşir. Bu tikinti planlarının seysmikliyə davamlılığın və xərclərin artması istiqamətində dəyişilməsinə gətirib-çıxara bilər. Ayrıca bir problem dağ-çəmən zonasında yerləşən bütün tarixi abidələrin dəqiqləşdirilməsidir. Bu abidələrin mühafizəsi dağ-çəmən torpaqlarının mühafizəsi ilə uzlaşmalıdır.

Regionda şaxələnmiş yol şəbəkəsinin yaradılması bu gün üçün xarici turizmin inkişafının mütləq şərtidir. Hal-hazırda xarici turizm lokal xarakter daşıyaraq, Baş Qafqaz silsiləsinin ayrı-ayrı massivlərini, məsələn, Qəbələ inzibati rayonunu və Cənub-şərq yamacın Girdimançayın hövzəsinin yuxarı axınında yerləşən adı çəkilən sahəsini əhatə edir. Qeyd etmək vacibdir ki, Lahıc qəsəbəsi ətrafında geoloji-geomorfoloji tədqiqatlar və tikinti işləri daha şimalda, Girdimançayın yuxarı axınına doğru yerləşmiş və bu qəsəbə ilə iqtisadi cəhətdən sıx bağlı olan, onu ət-süd məhsulları ilə təmin edən kəndləri əhatə etməlidir.

Bu region ekoturizmin inkişafı baxımından böyük inkişaf perspektivlərinə malik olaraq, müəyyən dərəcədə "xam torpaq" kimi nəzərdən keçirilir. Bu fikir mübahisəli olsa da, belə fəaliyyətin təşkili indiyədək dağınıq xarakter daşıyır. Sel axınlarının bərk tərkib hissəsini təşkil edən sürüşmələrə, daş uçqunlarına gəririb-çıxaran leysan yağışlarının, dolunun düşməsi təhlükəsi zamanı turistlərin xəbərdarlığı sistemi mövcud deyil.Belə iş yüksək dağlıq ərazidə turistlərin məskunlaşması zamanı xoşagəlməz halların qarşısını alaraq, turist marşrutlarının seçiminə kömək edə və onların müddətlərinin dəqiqləşdirilməsinə gətirib-çıxara bilər. Bu ərazinin fəal surətdə turist biznesinin fəaliyyət dairəsinə cəlb olunması bir sıra təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini vacib edir. Müəyyən edilmiş tədbirlərin sistemliliyi bəzən təbii qüvvələrə qarşı etinasız münasibət sayəsində baş verən turistlər üçün faciəvi nəticələrin qarşısını ala bilər.

ƏSHABİ-KƏHF TƏZAHÜRLƏR QRUPU

Kələntərova N.S.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: n.kelenterova.n@mail.ru

Əshabi-kəhf sözü mağara adamları mənasında işlədilən məhfumdur.Əshabi-kəhf barədə müsəlmanların müqəddəs kitabı olan Quranda göstərilir ki, dövrün zülmündən əziyyət çəkən bir dəstə cavan bu mağarada gizlənmişlər. Yazıldığına görə onlar 3-5 nəfərdən ibarət olmuşlar və yanlarında it olmuşdur. Ona görə də orada insan cəsədlərinin qalıqları, köpəyin pəncəsinin izləri müşahidə olunmuşdur.

Əshabi-kəhf ziyarətgahı Naxçıvan Muxtar Respublikası ərazisində, Naxçıvan şəhərinə 7-8 km aralıqda yerləşir. Uzaqdan bu ziyarətgaha baxdıqda dik yamaclı dağ zirvəsi kimi görünür.

Geoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, burada çökmə mənşəli vulkan dableri olmuşdur. Vulkan kraterində ağırlıq çoxaldığından və vulkan boğazında təzyiq azaldığından uçaraq dağılmış və çökmə tipli kaleder əmələ gəlmişdir.

Buradaki süxurların tədqiqi ilə müəyyən olunmuşdur ki, burada mis filizi minerallaşması baş vermişdir. Burada mis filizləşməsi kuprit, xalkopirit, xalkozin, malaxit və azurit mineralları ilə təmsil olunmuşdur. Minerallaşma geniş sahələri əhatə edərək, Əshabi-kəhf ətrafı sahələrdə 7-8 km, bəzən 10 km uzaqlıqda yayılmışdır. Burada təkcə vulkan ətrafı sahədə deyil, vulkandan uzaq sahələrdə də bir neçə mis filizi təzahürləri meydana gəlmişdir. Bunlar Qızılça, Xalxal, Qahab, Sirab, Cəmaləddin, Darıdağ və s. aiddir. Bunların perspektivliyi yüksəkdir və bu təzahürləri əmələ gətirən tip filizləşmələr dünyada bir çox ölkələrdə vardır. ABŞ-ın yuxarı göl yatağında milyonlardan çox mis çıxarılmışdır. Ona görə də burada təzahür adlandırdığlarımız bəzilərində 100 m ton mis ehtiyatı proqnazlaşdırılır.

Qeyd etdiyimiz təzahürlərin ərazisində misli qumdaşlarında müxtəlif qalınlıqda (1-3 m-dən 10-15 m-dək) 2-4 və daha çox misli horizontlar müəyyənləşdirilib. Misli bu stratiqrafik səviyyənin öz qalınlığı 15-30 m-dən 100-250 m-dək dəyişir. Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikası bir çox qeyri metal və metal, həmçinin bunlarla yanaşı mineral sularla zəngindir. Burada sink-qurğuşun, civə, gümüş, mis, qızıl və başqa metalların : kükürd, daş duz kimi qeyri-metalların: tuf daşı, mərmər, travertin, odadavamlı gil, dolomit, andaluzit, əhəng və s. belə materialların yataqları aşkar edilərək, demək olar indiyə qədər bir çoxundan xalq təsərrüfatında geniş şəkildə istifadə olunur.

Əshabi-kəhf dağından təxmini 1,2 km cənub-qərbdə olan Əshabi-kəhf təzahüründə qumlu-əhəngli lay arasında misin orta miqdarı 1.0% orta qalınlığı 0,9m, uzunluğu 800 m və olan əsas filizli lay məlum olmuşdur. Naxçıvan çökəkliyində Əshabi-kəhf mis filizləşməsi qrupu adı altında bütün məlum mis qumdaşları təzahürləri birləşir. Geoloji mövqeyinə görə bu misli qumdaşı təzahürləri müxtəlif əlvan rəngli, misli qatın səviyyələri ilə aşkarlanır. Məhsuldar çöküntülərdə bu mis filizi cismi mərtəbələrlə yerləşir. Onların qalınlığı metrdən bir neçə metrədək, uzunluğu isə yüzlərlə metrdən kilometrlərə qədər dəyişir. Linzagörünüşlü və layşəkilli laylar minerallaşmanın burada lentşəkilli cisimləri ilə əvəzlənir. Bu da filiz cisminin dəyişkən formalı olduğunu göstərir.

Filizləşmə petroqrafik tərkibinə görə aşağıdakı vulkanogen yan süxurlarda baş vermişdir. Bunlar aşağıdakılardır: Vulkanik konqlomerat və brekçiyalarda; Tuflu qumdaşılarda; Andezit lavalarında; Andezit qırıntılı tuflu konqlomeratlarda.

Kənddən 1,4-2,0 km cənub-şərqdə Qahab təzahürü yerləşir. Bu təzahürdə mislə minerallaşmış əsas iki lay aşkar olunmuşdur. Çaşırdağ təzahüründə isə əsas iki misli lay ayrılır. Bunlardan biri əhəngdaşlarında, digəri isə qumdaşlarında, misin orta miqdarı 1,19% olmaqla yer səthində izlənilirlər.

EKO-AQROTURİZMİN YARANMASI, FORMALAŞMASI VƏ İNKİŞAFI

Kərimli N.Ç.
Bakı Dövlət Universiteti
E-mail: karimli.nazrin.1@gmail.com

Eko-aqroturizm həm ekoturizm, həm də aqroturizmin müəyyən xüsusiyyətlərini özündə birləşdirən xüsusi bir turizm növüdür. Bu, ziyarətçilərin dayanıqlı kənd təsərrüfatında iştirakını və yerli məhsullar haqqında öyrənməsini əhatə edən bir turizm formasıdır. Sosial məsuliyyətli və ekoloji cəhətdən təmiz olduğu bilinən eko-aqroturizmin populyarlığı insanların şəhərlərdən kənarda yeni təcrübələr axtardıqca artmağa davam edir. İstər istirahət, istər təhsil, istərsə də sadəcə maraq üçün olsun, eko-aqroturizm həm beynəlxalq, həm də yerli turistləri cəlb etməyi bacarır. Daha davamlı həllər və əyləncələrə olan ehtiyacdan irəli gələn bu maraqlar qarışığı gələcəkdə genişlənməyə davam etmək potensialına malikdir.

Aqroturizm və ekoturizm arasında başlıca fərqlər vardır. Bunu daha aydın başa düşmək üçün turizmin bu növləri haqqında verilən tərifləri ayrı-ayrılıqda bilmək önəmlidir. Aqroturizm turistlərə kənd ərazilərinə gəlməklə burada kənd təsərrüfatı ilə tanış olmaq və bu prosesdə iştirak etmək, yerli mədəniyyəti öyrətmək və eyni zamanda yerli əhalinin gəlirlərini artırmaq imkanı verir. Ekoturizm isə turistləri ətraf mühiti qorumaq niyyəti ilə ərazilərə davanıqlı və məsuliyyətli səyahətlərə təşviq edir. Təbiət turizmi kimi də tanınan ekoturizm daha çox ətraf mühit problemləri ilə bağlı məlumatlılığın artırılmasına yönəlmişdir. Bu turizm formalarının hər ikisi yerli ictimaiyyəti dəstəkləmək və eyni zamanda ətraf mühiti qorumaq düşüncə tərzini təşviq etmək üçün işləyir. Ekoloji turizm və aqro turizm növlərinin birləşməsi eko-aqroturizm konseptini yaratmaqla dayanıqlı turizm prosesinin yaranmasına və inkişafına töhfə verir.

Eko-aqroturizm konsepsiyası ətraf mühitin qorunmasına və karbon izini azaltmağa diqqət yetirir və eyni zamanda turistləri onların arzuladıqları xoş tətil ilə təmin edir. Turistlər üçün eko-aqroturizm məşğul şəhər həyatından qaçış ilə təbiətin əhatəsində olmaq və yeni mədəniyyətə qərq olmaq imkanı verməklə sadəcə omlar üçün sonsuz fəaliyyətlər təmin etmir, eyni zamanda həm də yerli fermerləri və ümumilikdə bütün kənd əhalisinin iqtisadi inkişafını dəstəkləyir. Eko-aqroturizm adətən yoxsulluq səviyyəsinin yüksək olduğu ərazilərdə əhalini iş ilə təmin edə, qida təchizatı zəncirini yaxşılaşdıra, ənənəvi əkinçilik təcrübələrini gücləndirə və sənət vasitəsi ilə yerli irsi təbliğ edə və eyni zamanda ən mühüm olan təbiətin mühafizəsini həyata keçirə bilər.

Ekoloji cəhətdən təmiz təsərrüfatları ziyarət edərkən qonaqların iştirak edə biləcəyi fərqli fəaliyyətlərə missal olaraq- yerli fermerlərlə görüş, müxtəlif təzə qidaların və məhsulların dadına baxılması, kənd təsərrüfatı haqqında öyrənmək, yaxınlıqdakı qorunan ərazilərə baş çəkmək və onların tarixini öyrənmək, fermer bazarlarını ziyarət etmək, şərabçılıq turları, yerli memarlıq və tikinti haqqında öyrənmək, yerli festival və yarmarkalarda iştirak etmək və s. Eko-aqroturizm fəaliyyətlərinin ən üstün tərəflərindən biri də odur ki, bütün yaş qrupları üçün maraqlı olan fəaliyyətlər təqdim edir.

Turizmin davamlılığı, yerli əhalinin iqtisadi inkişafı və ətraf mühitin qorunmasında önəmli rol oynayan eko-aqroturizmi daha dərindən tədqiq etmək üçün ayrı-ayrılıqda ekoturizm və aqroturizm haqqında məlumatların əldə olunması və tədqiqi müstəsna rol oynayır.

Müasir dövrümüzə kimi ekoturizm termininin mənşəyi və etimologiyası haqqında fərqli fikirlər mövcud olmuşdur. Bunun əsas səbəblərindən biri turizmə aid ədəbiyyatlarda fərqli fikirlərin və yanaşmaların olmasıdır. Məsələn, Orams və Hvenegaard ekoturizm termininin yalnız 1980-ci illərə təsadüf etdiyini söyləyərkən, Higgins bu terminin 1970-ci illərə təsadüf edə biləcəyini və Millerin ekoloji inkişaf haqqında yazılarında və fikirlərində yaranmağa başladığını vurğulayır. Lakin ən dəqiq məlumat yazılı ədəbiyyatda ekoturizm termininin ilk dəfə Ceballos-Lascurain tərəfindən 1980-ci illərdə istifadə olunduğunu göstərir. Onun ekoloji turizmə verdiyi tərif belədir: 'Ekolofi turizm toxunulmamış və çirklənməmiş təbii əraziləri öyrənmək, mənzərədən, bitki və heyvanlardan həmçinin mövcud mədəniyyət nümunələrindən həzz almaq məqsədi ilə edilən səyahətdir'.

1998 ci ildə Fennell tərəfindən aparılan tədqiqat işində məlum olmuşdur ki hələ 1970-ci illərdə Kanada hökuməti tərəfindən Trans Kanada adlanan ərazidə ekoloji turlar həyata keçirilmişdir. Bu turlar həmin zaman üçün turizmin proqressiv inkişafına böyük töhfələr versə də müasir ekoloji turizmin dayanıqlı inkişaf, ətraf mühitə minimum limitli təsir, cəmiyyətin inkişafı və s. kimi şərtlərini həmin dövürdə həyata keçirə bilmirdi. Turizmin növləri haqqında yazılan ilkin kitablarda və tədqiqat işlərində ekoloji turizm tez-tez təbiət turizmi vəya təbiətlə əlaqəli turizm kimi qeyd olunmuşdur. Məsələn Laarman və Durst ekoloji turizmin tərifini ilk dəfə 1987-ci ildə verərkən belə qeyd etmişdir- Ekoloji turizm təbiətlə əlaqəli səyahət olub turistlərin destinasiyanın bir və ya daha çox təbii xüsusiyyətinə olan marağı əsasında baş verir. Səyahətlər özündə təhsil,rekreasiya və bir çox hallarda macəranı birləşdirir. 1996-cı ildə Goodvin ekoloji turizm ilə təbiətlə əlaqəli turizmin fərqli olduğunu bildirmiş və ayrı ayrılıqda hər iki turizm növü üçün tərif vermişdir.

Müasir dövrümüzdə ekoloji turizmin vacibliyi qəbul edilərək onun daha dərindən öyrənilməsi üçün bir sıra mühüm addımlar atılır. Bunlardan biri də Kvebek Bəyannaməsidir (UNEP/WTO 2002) və təklif edir ki, ekoturizmi müəyyən etmək üçün beş fərqli meyardan istifadə edilməlidir, yəni: təbiətə əsaslanan məhsul, minimum təsir ilə idarə etmə, ətraf mühit haqqında maariflənmə, mühafizəyə töhfə və cəmiyyətə töhfə. Bu beş meyarın tədbiq edilməsi ilə istənilən ərazidə ekoloji turizm işinin aparılması mümkündür. Həmçinin həmin iclas ilə 2002-ci il Beynəlxalq Ekoturizm ili qəbul edilmişdir.

Aqroturizmin yaranma tarixi və etimologiyasına nəzər saldıqda qarşıya çıxan ilkin məlumatlar bu növ turizmin ilk dəfə İtaliyada həyata keçirilməsi haqqındadır. 1950-1970-ci illərdə İtaliya ərazisində kiçik ölçülü fermalar və kənd təsərrüfatı müəssisələri az gəlirli olduğu üçün bir çox fermerlər bu müəssisələri tərk edərək başqa işlər ilə məşğul olurdular. Bunun qarşısını almaq və kənd təsərrüfatı müəssisələrini yenidən canlandırmaq məqsədi ilə İtaliya hökuməti 1985-ci ildə aqroturizm haqqında qanun qəbul etdi. Bununla da ferma və kənd təsərrüfatı müəssisələrinin sahibləri həm kənd təsərrüfatından həm də turizmdən gəlir əldə etməklə bu müəssisələrdə yenidən fəaliiyət göstərməyə davam etdilər. Bu gün İtaliyada aqroturizmlə məşğul olan 20 minə yaxın müassisə mövcuddur. Eyni zamanda İtaliyada formalaşmış bu turizm növü daha sonra genişlənərək Amerika,Avropa ölkələri,Avstraliya və Yeni Zellandiyada da inkişaf etməyə başladı.

Aqroturizm turizmin elə bir növüdür ki,bu turistləri əsasən kənd təsərrüfatı məqsədi ilə istifadə olunan ərazilərə cəlb edir. Bu növ turizm özündə həm istirahəti həm də kənd təsərrüfatı ilə əlaqəli bilikləri əldə etməyi birləşdirir. Aqroturizm müəssələrinə açıq havada fəaliyyət göstərən balıqçılıq, ovçuluq, atçılıq, maarifləndirici təcrübələrə aid edilən qida hazırlamaq,şərab dadmaq turları və ya əyləncəli məhsul yığımı festivallarını aid etmək olar. Geniş mənada aqroturizm kənd turizminin bir parçası olub, turistlərə eyni zamanda kənd təsərrüfatını yaxından ötrənmək və təbiətdə istirahət etmək imkanı verir.

Aqroturizmin WWOOFing (Working Weekends on Organic Farms) adlanan geniş yayılmış növü mövcuddur. Bu növ aqroturizmdə turistlər öz həftə sonlarını ferma və kənd təsərrüfatı müəssələrində keçirərək həm kənd təsərrüfatı ilə məşğul olur həm də təbiət qoynunda istirahət edirlər. WWOOFing ilk dəfə 1971-ci ildə Londonda həyata keçirilmişdir və hal-hazırda 43 ölkədə 1634 belə aqroturizm müəssəsi fəaliyyət göstərir.

Aqroturizm Amerika Birləşmiş Ştatlarının ərazisində də geniş yayılmış və inkişaf etmişdir. ABŞ-da aqroturizmin tarixi əsasən 1800-cü illərə təsadüf edir. Bu dövürlərdə aqroturistlərin əsas məqsədi isti yay günlərində şəhərdən uzaqlaşmaq və kənd təsərrüfatı müəssələrində zaman keçirərək istirahət etmək idi. 1920-ci illərdə avtomobillərin daha geniş istifadə olunması aqroturizmin daha da inkişaf etməsinə səbəb olmuşdu. 1930 və 1940-cı illərdə baş verən Dünya İqtisadi Böhranı və İkinci Dünya Müharibəsi də aqroturizmin daha geniş yayılmasında böyük rol oynamışdır. Nəhayət 1980-1990-cı illərdə isə artıq aqro istirahət,gecələməyə yer və səhər yeməyi təklif edən müəssisələr (bed and breakfast), ödənişli aqro turlar məşhurlaşmağa başladı.

Bütün məlumatları ümumiləşdirərək nəticəyə gəlmək mümkündür ki, eko-aqroturizm özündə ekoloji turizm və aqroturizmin xüsusiyyətlərini daşıyaraq formalaşmışdır və həm ətraf mühit həm də cəmiyyət üçün yararlı turizm növünə çevrilmişdir. Hal-hazırda qarşıya qoyulan məqsədlərdən biri eko-aqroturizmin yaradıcı imkanlarından maksimal səviyyədə istifadə etmək ilə həm bu turizm növünün davamlı inkişafını həyata keçirmək həm də onun iştirakı ilə turistləri şəhər kənarına, kənd təsərrüfatı ərazilərinə cəlb etməklə turistlərə onların istəklərinə uyğun istirahət təqdim etmək, kənd təsərrüfatı sahələrini inkişaf etdirməklə əhalinin məşğulluğunu artırmaq, yerli adət-ənənələri və mədəniyyəti nümayiş etdirmək, ərazinin ekoloji vəziyyətini qorumaq və inkişaf etdirməkdir.

BÖYÜK QAFQAZIN SU EHTİYATLARININ ARQAR TƏSƏRRÜFATLARIN İNKİŞAFI ÜÇÜN QİYMƏTLƏNDİRİLMƏSİ

Mehmanova A.Z.
Sumqayıt Dövlət Universiteti
E.mail: aytacmehmanova@gmail.com

Ölkə ərazisində su ehtiyatlarının tənzimlənməsində çayların, göllərin və buzlaqların əsaslı rolu vardır. Su ehtiyatlarını qiymətləndirmək üçün ilk öncə müşahidə məlumatlarını təhlil etmək lazımdır. İllik su ehtiyatlarının tənzimlənməsində, çayların qidalanmasında buzlaqlar əhəmiyyətli rol oynayır. Lakin, bəzi hallarda göllərdə nəzərə alınmadığı kimi, buzlaqlarda da ölkənin ümumi su ehtiyatları ilə müqayisədə həcmi az olduğuna görə ümumi su ehtiyatlarının illik həcminin hesablanmasında nəzərə alınmaya bilər. Respublikamızda buzlaqlar əsasən Böyük Qafqaz dağlarının Baş Suayrıcında və Yan Silsilədə mütləq yüksəkliyi 3600-4000-dən yüksək olan ərazidə formalaşmışdır.

Təsərrüfat fəaliyyətinin Böyük Qafqazın şimal-şərq yamacında yerləşən çaylara və Şirvan çaylarının çıxımına təsiri Y.M.Eyvazova tərəfindən hesablanmışdır. Bu ərazi daxilində təbii rejiminin pozulması əsasən 1955-1960-cı illərdən sonrakı dövrlərə təsir etmiş olur. Böyük Qafqazın əsas çaylarından olan Samur, Türyançay, Göyçay, Qudyalçay, Vəlvələçay və s. üçün təsərrüfat fəaliyyətinin təsiri ilə illik axım 30-35% azalmış olur.

Azərbaycan iqtisadiyyatı üçün bir çox çayların əhəmiyyəti olduğu kimi bu ərazidə uzanan Samur çayının da əhəmiyyəti böyükdür. 1940-cı ildə bu çaydan Samur- Dəvəçi kanalı çəkilmiş, sonradan bu kanal Ceyranbatan çökəkliyinə çatdırılmış və bunun sayəsində Abşeronda şirinsulu su anbarı yaradılıb istifadəyə verilmişdir. Bu kanal bir çox ərazilər üçün mühüm rola malikdir. Belə ki, Samur-Dəvəçi ovalığında və Abşeron yarımadasında bu kanal 100 min hektardan artıq torpağın suvarılması üçün əsas su mənbəyi sayılır və bununla yanaşı Abşeronda yaşıllaşdırma və meşəsalma işlərinin görülməsində, həmçinin Sumqayıt və Bakı şəhərlərinin su təchizatında da mühüm əhəmiyyət kəsb etmiş olur.

Usuxçay məntəqəsinin məlumatlarına əsasən, Samur çayının su ehtiyatlarının müasir qiymətləndirilməsi aparılmışdır. Aparılmış təhlilə əsasən 2 nəticəyə gəlmək olar:

1. Usuxçay məntəqəsindən yuxarıda naməlum məqsədlər üçün Samur çayından su götürülür;
2. Əgər çaydan su götürülməsə, o zaman Samur hövzəsində çay axımının qeydiyyatı haqqında olan məlumatlar düzgün sayılmır.

Aparılan hesablamalar nəticəsində müəyyən olunmuşdurki, 1969-2006-cı illər arasında Samur çayının illik axımı Usuxçay məntəqəsində 20,9% azalıb.

COĞRAFİYA FƏNNİN TƏDRİSİNDƏ COĞRAFİ XƏRİTƏDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Məmmədova A.A.
Sumqayıt Dövlət Universiteti
E-mail: aqayev_tahir@mail.ru

Məlum olduğu kimi kartoqrafiyanın dili beynəlxalq dildir. Kartoqrafik təsvir rəsmlərdən, işarələrdən va onlann xəritədə əmələ gətirdiy məkan strukturundan ibarətdir. Kartoqrafik rəsmlər gerçəkliyin görmə qavrayışının nəticələrini ifadə etmək ləbbizdə birbaşa və bilavasitə əşyaların canlı obrazını yaradır. Tədris prosesinda coğrafiyanıın ikinci dili hesab olunan xəritə dərsliklərlə yanaşı olan informasiya mənbəyidir.Nə tədrisi coğrafiya, nə də elmi coğrafiya xəritəsiz təsəvvür edilmir. Ona görə də xəritə tədris prosesinin hər bir struktur mərhələsində,hər bir dərsdə olmalıdır. Müəllimin vəzifəsi şagirdləri bu mənbədən fəal istifadə etməyi öyrətməkdir.Yalnız xəritənin köməyi ilə Yer səthini, istənilən ərazi və ya regionu bütövlükdə təsəvvür etmək olar, obyektlər arasında əlaqə və asılılıqları, obyektlərin mövqeyini, digərləri ilə əlaqəsini, nisbətini, onların formasını, ölçüsünü, müəyyən etmək mümkündür.Həmçinin xəritədən istifadə etməklə hadisələrin məkan daxilində dinamikasının və inkişafının paylanmasının qanunauyğunluqlarını müəyyənləşdirmək və hər bir obyekt və ərazinin xarakteristikasın vermək olar. Bütün bunları yerinə yetirməyi coğrafiya müəllimi öyrətməlidir. Tarixçidə xəritədən istifadə edir, lakin onun üçün xəritə əsasən hekayəni təsvir etməyə xidmət edir.

Coğrafi xəritənin öyrənilməsinin əsas məqsəd və vəzifələri: xəritəni başa düşməyi, oxumağı və bilməyi öyrətməkdir.

Şagirdlər aydın başa düşməlidirlər ki, xəritə Yer səthinin müstəvidə şərti, ümumiləşdirilmiş, kiçildilmiş, təhrif olunmuş təsviridir, yer səthinin, onun üzərində olan obyektlərin şərti modelidir. Xəritəni başa düşmək xəritənin nə olduğunu, obyektlərin necə təsvir edildiyini (şərti işarələr,leqenda), təsvirin necə kiçildiyini, miqyasının nə olduğunu, müstəvidə yer səthinin təsvirinin qlobusdakı şəkildən nə ilə fərqləndiyini bilməkdir, dərəcə şəbəkəsi, coğrafi koordinatlar nədir, miqyasından, ərazinin əhatə dairəsindən, məzmunundan asılı olaraq hansı xəritələr olduğunu öyrənməkdir. Xəritəni başa düşməyi öyrətmək - məktəblilərə kartoqrafik biliklər sistemini vermək ki, şagirdlər xəritədən şüurlu şəkildə istifadə etsinlər. Xəritəni başa düşmək onu oxumaq üçün vacibdir.

Xəritəni oxumaq xəritədə məsafənin istiqamətini və coğrafi koordinatları təyin etmək, xəritədə obyektləri, hadisələri, regionları, ölkələri xarakterizə etməkdir. Xəritənin sadə (elementar) və mürəkkəb oxunmasını fərqləndirirlər.

Sadə oxuma zamanı bilavasitə xəritədə təsvir edilən məlumatlar oxunur. Mürəkkəb oxu - bilavasitə xəritədə təsvir olunmayan bəzi obyekt və hadisələr arasında əlaqələrin, asılılıqların müəyyən edilməsi; təbii rayonların və ayrı-ayrı ölkələrin ətraflı təsviri, coğrafi obyektlərin və ərazilərin müqayisəli xarakteristikasıdır.

Xəritələrlə sistemli şəkildə işləməklə məktəblilər xəritəni oxumağı öyrənə bilər. Qızıl qayda: müəllim verilən tapşırıqlarda xəritədən öyrənmək üçün şagirdlər nələri öyrənə biləcəyini söyləməməlidir.

Xəritəni bilmək - xəritədə obyektlərin yerləşməsini bilmək, onları tez tapıb düzgün göstərməyi bacarmaq, xəritədə obyektlərin nisbi mövqeyini yaddaşda təsvir etməyi bacarmaqdır.

Xəritələr müxtəlif əlamətlərə görə təsnif edilir. Ölçüsündən asılı olaraq kiçikmiqyaslı (obzor), ortamiqyaslı (obzor-topoqrafik), irimiqyaslı (topoqrafik) xəritələr fərqləndirilir. Tədrisdə əsasən kiçik miqyaslı xəritələrdən istifadə olunur ki, bu xəritələrdə miqyasa yalnız müəyyən yerlərdə riayət olunur.

Ərazinin əhatə dairəsinə görə yarımkürələrin və dünyanın xəritələri, materik və okeanların xəritələri, materiklərin ayrı-ayrı hissələrinin (regionların, ölkələrin) xəritələri fərqləndirilir. Ərazinin əhatə dairəsi nə qədər böyükdürsə, miqyas bir o qədər kiçik olar, ümumiləşdirmə də bir o qədər böyük olar.

Məzmununa görə xəritələr ümumi coğrafi və tematik olur. Şagirdlər ümumi coğrafi xəritələrin legendasını bilməli, tematik xəritələrin əfsanələrindən istifadə etməyi bacarmalıdırlar. Əvvəlcə ümumi coğrafi xəritələri öyrənirlər, sonra tematikə keçirlər.

Məqsədinə görə xəritələri elmi-məlumatlandırıcı, tədrisi, turistik və s. olaraq fərqləndirirlər.

Öyrənmə məqsədləri üçün xəritələrin ən mühüm təsnifatı onların tədris prosesindəki yeri və təyinatıdır. Tədris xəritələri divar və stolüstü, kontur, relyef və topoqrafik xəritələrə bölünür.

GÜMÜŞLÜ QURĞUŞUN – SİNK YATAĞININ MADDİ TƏRKİBİ VƏ GENEZİSİNİN LİTOLOJİ ƏSASLARI

Məmmədova S.F.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: sebine74@list.ru

Gümüşlü sink-qurğuşun mədəni Şərur rayonunda yerləşir. Gümüşlü sink-qurğuşun mədəni şimal,şimal- şərq istiqamətində 3,5 km məsafədə uzanır. Mineral xammalın tərkibində sink və qurğuşundan başqa mis, titan, qalay, vanadium, marqans, qalenit, sfarelit, pirit, xalkopirit, argenti,nadir hallarda kaolinə , xalkozinə , malaxinə limonitədə rast gəlinir.

Gümüşlü qurğuşun-sink yataqları geodinamik və tektonik-maqmatik şəraitlərinə görə bir birindən kəskin fərqlənən müxtəlif struktur - formasion zonalarda yerləşmişdir. Bu da onların geoloji-genetik xüsusiyyətlərinin fərqli olmasının irəlicədən müəyyənləşdirməyə imkan vermişdir.Kiçik Qafqazda Gümüşlü , Ağdərə yataqlarından başqa çox saylı filiz təzahürləri , o cümlədən sənaye əhəmiyyəti baxımından bir sıra perspektivli obyektlərdə vardır.

Yataq rayonunun geoloji quruluşunda Orta Devondan başlayaraq Perm də daxil olmaqla Paleozoy kompleksinin süxurları iştirak edir. Yataq ərazisində Orta Devonun Eyfel, Jivet və Frank mərtəbələrinin və Üst Devonun alt hissəsinin çöküntüləri inkişaf tapmışdır. Filizsaxlayan süxurlar Orta Devonun Jivet mərtəbəsinin əsasən massiv, monoton, $CaCO_3$-ə nəzərən təmiz əhəngdaşları və gil şistləri hesab olunur. Əhəngdaşları filizə qarışaraq hidrotermal metasomatoza aid edilir, gil şistləri isə ekran rolunu oynayır və ancaq pirit möhtəviləri saxlayır. Sonda qeyd etmək lazımdır ki, qurğuşun-sink filizləşməsi Jivet mərtəbəsinin Sədərək qatına aiddir. Devonun müxtəlif horizontları Karbonun əhəngdaşları ilə təmas təşkil etmişdir.

Gümüşlü antiklinalı tağ şəkilli, bəzən izometrik qırışıqlar və daha aşağı quruluşlu fleksura əyriləri ilə mürəkkəbləşmişdir. Yataq müxtəlif istiqamətli qırılmalarla bir sıra tektonik bloklara ayrılmışdır.Filizləşməyə nəzərən qırılmalar geniş inkişaf tapmışdır.

Gümüşlü yatağının ərazisində qurğuşun-sink filizləşməsi damarlar və metasomatik jelvaklar şəklində inkişaf edərək, bütövlükdə, stratiform yataqlar əmələ gətirir. Filizləşmə filizə qədər meridional istiqamətli brekçiyalaşmış zonalarda və həmçinin layarası filizçökmə üçün əlverişli şəraiti olan əhəngdaşı layları arasında lokallaşmışdır. Damar tip paralel kvars-karbonat, bəzən baritli damar və ya damaraoxşar cisimlər şəklində geniş yayılaraq, qalenit və sfaleritin möhtəviləri və yuvaları ilə birlikdə filiz zonalarını əmələ gətirir

Gümüşlü yatağının qurğuşun-sink filizləri sfaleritin tərkibində indium və kadmiumun mövcudluğu ilə səciyyələnir. Həm poliminerallar, həm də konsentratlar aşağı miqdarda tallium və tellurun olması, bismutun və selenin olmaması ilə səciyyələnirlər.

Gümüşlü mədən idarəsinin məlumatlarının təhlili göstərir ki, onun mədənindəki sink, qurğuşun, filiz xammalındakı potensial elementlərin çıxarılması əmsalı əsasən 16-17%, sənaye əhəmiyyətli elemntlərin əmsalı isə 48- 50% olmuşdur.

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN EKOCOĞRAFİ ŞƏRAİTİ

Möhbaliyeva K.M.
Sumqayıt Dövlət Universiteti
Email:mohbaliyeva.kamile99@gmail.com

Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizin inkişafı və onların ölkə iqtisadiyyatına inteqrasiyası eyni zamanda digər iqtisadi rayonlarda planlaşdırma işinin səmərəliyinin artırılması məqsədilə 2021-ci il 7 iyul tarixli fərmanına əsasən ölkədə yeni rayonlaşma aparılmış və 14 iqtisadi rayon ayrılmışdır. Yeni təsnifat Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra formalaşmaq da olan yeni düzənə, müasir reallıqlara uyğun olaraq həyata keçirilmişdir. Yeni bölgüyə əsasən tarixi Zəngəzur torpaqlarının iqtisadi potensialının istifadə edilməsi və genişləndirilməsi məqsədilə Şərqi Zəngəzur iqtisadi rayonu ayrılmışdır. İqtisadi rayon Kiçik Qafqazın Azərbaycan hissəsində eyni adlı təbii-iqtisadi rayon daxilində, ölkənin cənub qərbində-Qarabağ vulkanik yaylası Araz və Həkəri çayları hövzəsində yerləşir. Tərkibinə Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan inzibati rayonları daxildir. Sahəsi 7.47 min km^2, əhalisinin sayı 343.5 min nəfərdir(2021). İqtisadi rayon aqrar sahədə eyni zamanda təbii ehtiyatlar baxımından kifayət qədər böyük potensiala malikdir. Qızıl, civə, xromit, tikinti materialları rayonun əsas yeraltı sərvətləri hesab olunur. Mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələri, kurort-rekreasiya məqsədilə istifadə edilə bilər. Şərqi Zəngəzur iqtisadi rayonunda heyvandarlıq (qoyunçuluq, maldarlıq, arıçılıq) tütünçülük, üzümçülük, meyvəçilik, taxılçılıq üçün əlverişli təbii şərait vardır.

İqtisadi rayonun tərkibinə daxil olan qeyd edilən inzibati rayonlar dağ və dağətəyi bölgədə yerləşməklə geomorfoloji, geoloji quruluşu, torpaq-bitki örtüyü, iqlimi mürəkkəb olub, relyefi uzun illər boyu endogen(daxili) və ekzogen(xarici) qüvvələrin, neotektonik hərəkətlərin birgə təsiri nəticəsində yaranmışdır.

Ərazi mürəkkəb geoloji quruluşu və strukturu ilə xarakterizə olunur. Mürəkkəb quruluşu ilə fərqlənən ərazinin geoloji və tektonik xüsusiyyətlərinin öyrənilməsin də Ş.Ə.Əzizbəyovun, R.N.Abdullayevin, Ə.Ş.Şıxəlibəylinin, .Ə.Qaşqayın, S.M.Süleymanovun, H.H.Kərimovun elmi araşdırmaları və fəaliyyətləri xüsüsi olaraq qeyd edilməlidir.Bölgə mürəkkəb ekogeomorfoloji şəraiti ilə səciyyələnir. Bu ərazinin Qarabağ vulkanik yaylasında yerləşməsi və antiklinal silsiləsinin mövcudluğu ilə əlaqədardır. Relyefin mürəkkəbliyi özünü landşaft şəraitində hündürlük qurşaqlığının formalaşmasında da göstərir.İqtisadi rayon ərazisində təbaşir dövrünün karbonatlı süxurlarına, pilosen və pleystosenin vulkanik və çökmə mənşəli gil və çaqıldaşlı qatlara rast gəlinir. İqtisadi rayonun hündürlük amplitudası nisbətən düzən hissədən yüksək dağlıq istiqamətində artır.Laçın rayonu daxilində təhlil edilən topoqrafik xəritədə ərazinin mütləq hündürlüyünün qərbə getdikcə artması müşahidə olunur. Qərb hissədə hündürlüklər 2000-3000 metr arasında şərq hissədə isə 1200-1800 metr hündürlüklər arasında tərəddüd edir. Bu vəziyyət rayon ərazisində həyata keçirilən təsərrüfat fəaliyyətinin bərpası, infrastruktur layihələrinin planlaşdırılması və həyata keçirilməsi dövründə mütləq nəzərə alınmalıdır.

İqtisadi rayonun ərazisi landşaft baxımından yüksək dağlıqda meşə altından çıxmış, kollu dağ-çöl, dağ-meşə, dağ-çəmən qurşaqları və subnival zona ilə əhatələnmiş, alçaq dağlıq və dağətəyi hissəyə keçiddə quru çöllər ilə əvəz olunur. Şərqi Zəngəzur iqtisadi rayonun ərazisində dağlıq və düzənlik relyef

formalarının tədricən yüksək dağlıqdan dağətəyinə doğru bir-birini izləməsi müşahidə olunur ki, bu da bölgənin təbiəti, iqlim xüsusiyyətləri və ekocoğrafi şəraitində rəngarəngliyin olmasını şərtləndirir. XX əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində düzənliklərin təsərrüfat fəaliyyəti ilə əlaqədar nizamsız şəkildə istifadəsi, meşələrin yanacaq əldə etmək, əkinçilik və digər məqsədlərlə vəhşicəsinə qırılması, örüş və yaylaqların nisamsız otarılması torpaqlarımıza xeyli ziyan vurmuşdur.Erməni qəsibkarlarının istər düzənlik istərsə də meşəlik ərazilərimizin od vurub yandırması üzvi qalıqların azalmasına və torpaqların mineral ehtiyyatlar baxımından kasadlaşmasına səbəb olmuşdur. Araz boyu düzənliklərdə Cəbrayıl rayonuna qədər və daha aşağı axarlarda aqrotexniki qaydalara riayət olunmadan aparılan əkin işləri isə bu ərazilərin daha çox aşınma prosesinə məruz qalmasına gətirib çıxarmışdır.

Şərqi Zəngəzur iqtisadi rayonun ərazisi Ermənistan tərəfindən işğala qədər ki, dövrdə kənd təsərrüfatı və faydalı qazıntı hasilatı məqsədilə istifadə edilmiş, mühüm təsərrüfat sahəsi əsasən otlaq heyvandarlığı olmuşdur. Əhalinin azad olunmuş ərazilərə köçürülməsi zamanı bu amilin nəzərə alınması mühüm əhəmiyyəti vardır. Məhz köçürülmə prosesindən əvvəl heyvandarlıq komplekslərinin, yem bazasının yaradılması, otlaq dövriyyəsinin tətbiq olunması, torpaq eroziyası kimi təbii-dağıdıcı proseslərin inkişafının və bununla yanaşı təsərrüfat fəaliyyətində geriləmənin qarşısını ala bilər. Bölgədə filiz hasilatı rayonlarının rekultuvasiyası aparılmalıdır, əks təqdirdə rayon ərazisində olan filiz mədənləri ətraf mühitin yüksək dərəcədə çirklənməsini sürətləndirə bilər.Ərazi daxilində ənənəvi təsərrüfat sahələri ilə yanaşı turizm təsərrüfatının inkişafı üçün əlverişli imkanlar mövcuddur. İqtisadi rayonda subalp çəmənləri geniş areala malikdir eyni zamanda çoxsaylı tektonik, vulkanik göllərlə yanaşı turistlərin diqqətini cəlb edən bölgə kimi qiymətləndirilə bilər. Lakin turizm komplekslərinin yaradılmasından əvvəl Böyük Qafqazın bir sıra digər ərazilərində aparılmış tədqiqatların təcrübəsindən yararlanmaqla mütləq yay otlaqları kimi istifadə olunan dağ çəmənlərinin bitki örtüyünün növ müxtəlifliyi müəyyən olunmalı nadir bitkilərin yayılma sahələri qeydə alınmalıdır.Vurğulamalıyıq ki məhz bu iqtisadi rayon daxilində Camışdağ (3724 m), Dəlidağ (3616m), Alagöllər, İstisu mineral bulağı-Kəlbəcər rayonu, Böyük İşıqlı vulkanı (3550.4m), Kiçik İşıqlı(3450.6 m) zirvəsi, Qaragöl-Laçın rayonu, Xudafərin körpüsü tarixi memarlıq abidəsi -Cəbrayıl rayonu ərazisində yerləşir. Bu obyektlər təbiət-tarixi abidələri kimi nəzərdən keçirilir və həm xarici həm də yerli turistlərin diqqətini cəlb edir. Lakin hər hansı ərazidə turizm fəaliyyətinin planlaşdırmadan əvvəl respublikanın digər bölgələrində aparılmış tədqiqatlar kimi mütləq həmin ərazinin ekogeomorfoloji vəziyyəti nəzərə alınıb mövcud şərait qiymətləndirilməli və müvafiq mühafizə tədbirləri həyata keçirilməlidir.

Qeyd olunanlar ərazidə sağlamlaşdırıcı,meliorativ tədbirlərin həyata keçirilməsini və bu məqsədlə elmi xarakterli araşdırmaların kompleks şəkildə aparılmasını və bölgənin mövcud potensialının qiymətləndirilməsi işini vacib və zəruri edir.

TƏBİİ MÜHİTİN ÖYRƏNİLMƏSİNDƏ AEROKOSMİK MƏLUMATLARDAN İSTİFADƏ İMKANLARI

Muradova N.H.
Sumqayıt Dövlət Universiteti
E-mail: aqayev_tahir@mail.ru

Ətraf mühitə antropogen təsirlərin öyrənilməsi və təbii mühitin müasir vəziyyətinin qiymətləndirilməsi hal-hazırda ənənəvi üsullarla həyata keçirilə bilməz, çünki, təbii mühitin dəyişməsinin miqyası və templəri o qədər yüksəlib ki, vahid zaman anında böyük sahələri yerüstü məlumatlar əsasında ətraflı öyrənilməsi mümkün deyil. Yalnız uzaqməsafədən zondlama məlumatlarının köməkliyi ilə, xüsusilə kosmik informasiya vasitəsilə, böyük ərazilərin real informasiya- analitik monitorinqinin təşkilini həyata keçirmək mümkündür.

Hər hansı bir dövlətin davamlı inkişafını təmin etmək üçün onun ətraf mühitin vəziyyəti haqda kompleks məlumatlara malik olması vacibdir. Həm də bu məlumat antropogen təbii proseslərin qarşılıqlı təsirini əks etdirməlidir. Bu məqsədlə bir sıra inkişaf etmiş dövlətlərdə son illərdə məsafədən ölçmə, çöl, analitik və geoinformasiya üsulları ilə kompleks tədqiqatlar aparılır.

Hal-hazırda insanın ətraf mühitə təsirindən baş verən dəyişikliklər, və onun fəaliyyəti ilə yaranan ekoloji effektlər ən azı regional, çox vaxt qlobal xarakter daşıyır. Belə vəziyyətdə aerokosmik müşahidə vasitələrdən istifadə etmədən nə onları vaxtında aşkar etmək, nə onların dinamikasını izləmək, nə də bizim ətrafımızda baş verənləri tam təsvir etmək mümkün deyil. Həm də nəzərə almaq lazımdır ki, antropogen dəyişikliklər təbii dəyişikliklərdən xeyli sürətlə gedir və onları izləmək mümkün deyil. Deməli, belə bir

mürəkkəb problemi yalnız yeganə bir yolla - təyyarə və kosmik uçuş aparatlarından istifadə etməklə yer səthinin müntəzəm çəkilişini aparmaqla, yəni Yerin regional (və ya qlobal) monitorinq sisteminin təşkili ilə effektiv həll etmək olar.

Müasir aerokosmik monitorinq sistemləri sistematik olaraq ətraf mühitin vəziyyətini müşahidə etməyi təmin edir və müxtəlif fəaliyyət sahələrində inzibati qərarların verilməsi, o cümlədən təbiətdən səmərəli istifadə məsələlərin həlli üçün zəmin yaradır. Hər bir səviyyədə monitorinq sisteminə yerüstü və orbital (və ya hava) sistemləri daxildir. Ümumiyyətlə təbii mühitin aerokosmik monitorinq sistemini iki yarımsistem şəklində: kontakt (yerüstü monitorinq təminatı) və distansion (orbital və ya hava) təqdim edilir.

Ənənəvi olaraq, aerokosmik təsvirlərə görə yer səthi haqqında məlumat əldə etmək üçün fotoqrametrik və deşifrələmə texnologiyalardan istifadə edilir. Fotogrametrik emal zamanı yer səthinin obyektlərinin koordinatlarının müəyyən edilməsi və transformasiya əməliyyatlarının aparılması ilə bağlı ölçü məsələləri həll edilir.Təsvirlərin deşifrlənməsi aparıldıqda yer səthindəki obyektlərin kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin analizi həyata keçirilir. Qeyd etmək lazımdır ki, deşifrləmə əksər hallarda insan-operator ilə bağlıdır. Deşifrləmə prosesində görmə sisteminin və beyinin köməkliyi ilə operator müşahidə və analiz sistemlərinin funksiyalarını özündə birləşdirir. Onlar verilən təsvirlərin qavramasını, maraqlandırılan sahələrin aşkar edilməsini, proses və obyektlərin seçilməsi, təsnifatı və tanınmasını və s. təmin edir.

Yerin süni peyklərinin (YSP) köməkliyi ilə bulud örtüyü və atmosferin tüstü qazları ilə çirklənmə vəziyyəti haqqında təsvirlər,Yer - atmosfer sisteminin istilik rejimi haqqında məlumatlar və s. əldə edilir. Buludluğun kosmik təsvirləri qlobal miqyasda sinoptik obyektləri (siklonları, frontal sistemləri, hava axınları və s.) izləməyə imkan verir.

Yerüstü müşahidələrdən fərqli olaraq kosmik şəkillər böyük ərazilərdə buludluğun paylanmasının tam təsvirini verir. Buludların müxtəlif formalaları və strukturları, onların təkamülü və yerdəyişməsi atmosferdə gedən kompleks fiziki prosesləri əks etdirir. Şəkillərdə buludların paylanmasının xüsusiyyəti bu proseslərin xarakterindən asılıdır. Buna görə də, sinoptik vəziyyəti qiymətləndirmək üçün, eləcə də atmosferin vəziyyətini xarakterizə edən bir sıra parametrlərin paylanmasını və təkamülünü dəqiqləşdirmək üçün YSP-dən alınan fotoşəkillərdən istifadə edilir.

QUBA-XƏZƏRYANI VİLAYƏTİNİN MEZOZOY ÇÖKÜNTÜLƏRİNİN AŞINMA ZONALARININ QURULUŞU

Namazzadə S.X.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: namazzade99@mail.ru

Son geoloji və regional geofiziki tədqiqatların nəticələri, regionun Orta Yura dövründə iki əsas və iki daxili aşınma zonalarının olmasını təsdiq edir.

Bunlardan əsas aşınma zonaları – Orta Xəzər paleozoy massivi və cənubda Cənubi Qafqaz plitəsinin şimal cinah, daxili aşınma zonalarından isə İntraqafqaz geoantiklinalı və yaxud Samur-Şahdag aşınma zonası, Dibrar-Yaşma paleozoy qalxımımı göstərmək olar. Qeyd etmək lazımdır ki, həm əsas, həmdə daxili aşınma zonaları Orta Yura çöküntülərinin litostratiqrafik kəsilişləri və fasial quruluşlarında çox aydın əks olunurlar.

İndi aşağıda əsas və daxili aşınma zonalarının tektonik vəziyyətini, geoloji və petroqrafik quruluşunu son zamanlar aparılmış regional geofiziki və sedimentoloci tədqiqatların nəticələri əsasında işıqlandıraq.

Orta Xəzər Paleozoy massivi**.** Orta Xəzər paleozoy massivinin təxminən Orta Xəzər hövzəsində lokalizasiyası hələ keçən əsrin 50-ci illərindən məlum idi. Hesab edirdilər ki, Orta Xəzər gümbəzi məhsuldar qat əsrində Paleovolqanı qidalandıran əsas mənbələrdən biri olmuşdur. Sonra akademik A.P.Vinoqradovun rəhbərliyi altında tərtib olunmuş SSRİ-nin 1:1000000 miqyasda paleocoğrafi xəritələr atlasında Xəzər dənizi ərazisinin Yura və Təbaşir dövürlərinin paleocoğrafi xəritələrində Qaraboğaz – Qol, Orta Xəzər və Sulak massivi mezozoy dənizləri üçün vahid aşınma zonası kimi təqdim olunmuşdur. Bu aşınma zonası Paleoqafqaz adlandırmışdır. Ancaq keçən əsrin 70-80 illərində Şimali və Orta Xəzər hövzəsində aparılmış regional geofiziki tədqiqatlar (seysmik kəşfiyyat, qravimetrik, maqnitometrik xəritələmə işləri) Qaraboğaz–Qol, Orta Xəzər massivlərinin vahid bir kompleksdə olmasına bir sıra aydınlıqlar gətirdi. Yəni belə ki, Orta Xəzərin şərq cinahında vahid müsbət struktur ancaq Pesçanomıs-Rakuşeçni gümbəzvari izometrik qalxımı müəyyən edilmişdir. Burada trias çöküntüləri 3,0 – 3,2 km dərinlikdə açılmışlar. Qərb istiqamətindən akvatoriyada perm-trias çöküntü-lərinin yatma dərinliyi azalmaq əvəzinə enmə prosesinə məruz qalırlar. Bu

baxımdan qravimetrik və seysmik kəşfiyyat məlumatları əsasında Orta Xəzər qravitasiya maksimumu ilə Pesçanomıs-Rakuşeçni izometrik Paleozoy qalxımı arasında qravitasiya depresiya strukturunun olmasını irəli sürülür və onu Qərbi Manqışlak çökəkliyi adlandılır.

Cənubi Qafqaz mikroplitəsinin şimal cinahı**.** Hər şeydən əvvəl Cənubi Qafqaz və Şimali Qafqaz mikroplitələrinin qarşılıqlı, bir-birinə əks istiqamətində dreyfi nəticəsində tangensial sıxılma baş vermiş, qranit bünövrə parçalanmış, destruksiyaya uğramış və iki mikroplitənin arasında Böyük Qafqaz kənar dənizi meydana çıxmışdır. Cənubi Qafqaz mikroplitəsinin şimal yamacı müasir Balakən-Vəndam qırışıq zonasının ərazisini əhatə edir. Geodinamik fəallığın artması Şimal və Cənubi Qafqaz mikroplitələrin bir-birinə əks istiqamətdə hərəkəti kənar Böyük Qafqaz dənizinin substratının sıxılması və Cənubi Qafqaz plitəsinin Şimal hüdudunun tədricən bu substratın altına subduksiya etməsi baş vermişdir. Kimeriy orogenezinin Erkən Bayos fazasında mikroplitələrin Şimal və Cənub istiqamətində dreyfi daha intensiv xarakter almışdır. Bu dövrdə yaranmış aktiv geodinamik şəraitdə Cənubi Qafqaz mikroplitəsinin Cənub və Şərq yamacları enmiş, burada dayaz dəniz şəraitində adalar qövsü sistemi yaranmış və aktiv sualtı andezit-bazalt vulkanizmı ilə müşayət olunmuşdur. Buna əyani misal, Saatlı dərin quyu materiallarıdır. Hesab edirik ki, burada əsas etibarı ilə qədim metamorfik süxurlar yuyulmuşlar. Bunu Cənubi-Şərqi Qafqazın bayos çöküntülərində cənub istiqamətində müşahidə olunan fasial zonallıq təsdiq edir. Əlavə olaraq qeyd etmək lazımdır ki, Cənubi Qafqaz mikroplitəsinin şimala dreyfi nəticəsində mikroplitə Böyük Qafqaz kənar dənizinin, subokean substratına subduksiya edir. Ehtimal edirik ki, bu zaman Cənubi Qafqaz mikroplitəsi ilə Böyük Qafqaz kənar dənizinin hüdudunda Cənubi Qafqaz dərin çatı yaranır ki, həmin çat boyunca əsası vulkanizm vüsat alır və bunun əsasında Qafqazın Cənub yamacında bayos çöküntüləri vulkanogen çökmə mənşəlidir. Erkən Bayos tektonik fazası nəticəsində hər iki mikroplitələrin Şimal və Cənub istiqamətində hərəkətləri nəticəsində Dibrar-Yaşma paleozoy qalxımı sıxılma nəticəsində dərin çatlar boyu (Qərbi Xəzər və Siyəzən dərin çatları) şaqulu hərəkətlərə məruz qalaraq kəskin qalxır və Xəzəryanı çökəkliyin bayos dənizləri üçün daxili aşınma zonasına çevrilir. Burada Bayos qumdaşlarının ağır fraksiyasında muskovit və xloritin dominant rolu və qumdaşlarının süxur əmələgətirən komponentlərində feldşpatlar-turş plagioklazların yüksək miqdarı, Dibral-Yaşma paleozoy çıxıntısının quruluşunda muskovit-xlorit şistlərinin geniş yayılmasından xəbər verir.

AŞAĞI KÜR ÇÖKƏKLİYİ ƏRAZİSİNİN QURULUŞU VƏ LİTOLOGİYASI

Qaraxanov A.Y.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
E-mail: aqalar@inbox.ru

Azərbaycanın iri tektonik elementlərinə aid olan Kür çökəkliyi respublikanın kifayət qədər böyük ərazisini əhatə edir. O, meqaantiklinorium olan Böyük və Kiçik Qafqazın və Talış dağlarının əhatəsində yerləşir. Dərinlik quruluşuna görə o, adətən Yuxarı, Orta və Aşağı Kür çökəkliklərinə bölünür ki, onlardan da Azərbaycan ərazisi hüdudlarında Orta Kür çökəkliyinin bir hissəsi və Aşağı Kür çökəkliyinin bütün hissəsi yerləşir. Kür çökəkliyinin ilk tektonik rayonlaşdırma sxemi V.E.Xain və A.N.Şardanov tərəfindən verilmişdir. Aşağı-Kür çökəkliyi daxilində Harami-Salyan antiklinoriumu, Nəvahi sinklinorumu, Aşağı-Kür sinklinoriumu, Kürdəmir-Saatlı və Mil-Muğan gömülmüş qalxımları yerləşir. Bu struktur elementlərin tektonik təbi tədqiqatlarda öz əksini tapmışdır. Hazırda müsahidə edilən dərinlik qırılmaları şimal-şərqdən cənuh. gərbə və şimal-qərbdən cənub-şərqə doğru böyük məsafələrdə, uzana bütün respublika ərazisini kəsir. Geoloji, geofiziki və geomorfoloji üsullo müəyyən olunmuş dərinlik qırılmalarının bir çoxu ərazinin əvvəlki intiu mərhələlərində əhəmiyyətli rol oynasa da sonrakı dövrlərdə təzahür etmirlər.

Ərazi, əsasən, hamar düzənliklərdən ibarətdir. Səthi Kaynozoyun IV dövr çöküntüləri ilə örtülmüşdür, Acınohur-Ceyrançöl alçaq dağlığında isə Neogen süxurları yayılmışdır. Vilayətin qərbində çay gətirmələri, şərqində isə dəniz çöküntüləri üstündür. Kür çökəkliyinin kənar şimal hissəsində və Cənubi Kaxetinin şimal hissəsində Ağcagil mərtəbəsi Böyük Qafqazın cənub yamacından gətirilən alluvial–proluvial çöküntülərdən təşkil olunur. Bu çöküntülər Kiçik Qafqazın şərq yamacının kənar qərb hissəsində də geniş yayılır. Əsas təbii sərvətləri neft və qaz, müalicə palçığı (palçıq vulkanlarında), müalicə nefti (Naftalan), tikinti materialları və s. digərləridir. Kür çökəkliyində toplanan Məhsuldar Qat çöküntülərinin mineraloji tərkibinin müasir Kür çayı çöküntülərinin mineraloji tərkibinə yaxınlığı, çöküntülərin Böyük Qafqazın cənub və Kiçik Qafqazın şimal-şərq yamaclarından axan kiçik çaylarla gətirildiyini göstərir. Acınohur rayonunun dağətəyi zonasında, Göyçay və Girdimançay arasındakı sahədə Məhsuldar Qatın alt şöbəsi ilə yanaşı, üst şöbənin alt hissəsi də kəsilişdə iştirak etmir. Burada Abşeron yarımadasının Sabunçu və Suraxanı lay dəstələrinə uyğun

gələn,qalınlıqları 250-480 m arasında dəyişən Məhsuldar Qat çöküntüləri Pont mərtəbəsi çöküntülərinin yuyulan səthi üzərinə qeyri-uyğun şəkildə yatırlar. Kür dağarası çökəkliyi uzun geoloji vaxt ərzində formalaşmışdır. Lakin müasir konfiqurasiyasını yalnız Oliqosen — dördüncü dövrdə almışdır. Çökəkliyin bünövrəsində uzununa istiqamətdə qərbdən şərqə və həmçinin şimaldan cənuba və əksinə pilləli enmə müşahidə edilir. Çökəklik törəmə struktur olub, üstdə yatan çöküntü layı qeyri-uyğun olaraq altdan yatan struktur kompleksi örtür. Quruluşunda köndələn qalxmalarla ayrılan iki çökəklik var: Orta Kür (Yuxarı Kür çökəkliyi Gürcüstan Respublikasındadır) və Aşağı Kür. Tədqiqat ərazisi olan Aşağı Kür çökəkliyi qərbdə Kürdəmir qalxımı ilə məhdudlaşaraq Cənubi Xəzər akvatoriyasına açılır və burada da vani şərqdə Bakı arxipelaqı qırışıqlıq zonası ilə birləşir, lakin tektonik cəhətdən Ələt-Qızılağac eninə qırılması ilə ondan ayrılır. Cənubdan bu çökəklik Talis seysmotektonik zonası ilə, şimaldan isə Lənqəbiz-Ələt tirəsi ilə məhdudlasır. Aşağı Kür çökəkliyi tektonik cəhətdən yerli və regional xarakterli dalğalı və qırışıqlı hərəkətlərə məruz qalaraq mürəkkəb geoloji kütləni təşkil edir. Aşağı Kür çökəkliyinin hüdudlarında qalxımların və çökəkliklərin ərazi üzrə paylanması tabaşir zamanından miras qalmışdır. Aşağı Kür çökəkliyinə meqazona da deyilir və bu meqazona intensivlik mərhələlərinə görə iki tektonik: Şirvan və Muğan zonasından ibarətdir.

Aşağı Kür zonasında Suraxanı lay dəstəsi yüksək gilliliyə malik olması ilə fərqlənir. Ərazinin müxtəlif hissələrində gilliliyin miqdarı fərqlənir. Burada qərb isiqamətində kəsilişin gilliliyində artım müşahidə olunur.Süxurlara da nəzər yetirərkən onların qranulometrik tərkiblərinin də dəyişkən olduğunu görmək mümkündür. Suraxanı lay dəstəsi süxurları qranulometrik tərkiblərinə görə alevritlərlə təmsil olunmuşlar.Süxurların 0,1-0,01 mm fraksiyasının miqdarı hər yerdə 15,6-34,9 % interval arasında dəyişir. Qərb istiqamətində kvarsın miqdarı azalır, lakin çöl şpatları və süxur qırıntılarının miqdarında isə artım qeydə alınır. Suraxanı lay dəstəsi üzrə orta keçiricilik 83 mD-dir. Aşağı Kür çökəkliyində üst pliosen-antropogen çöküntülərinin qalınlıqları əhəmiyyətlidir və yerlər üzrə qalınlıq 3000 - 3500 m-ə çatır. Buna görə son dövrlərə qədər sənaye əhəmiyyətli neft-qaz quyuları Məhsuldar qatın üst hissəsində aşkar edilmişdir. Yalnız ayrı-ayrı ərazilərdə tək-tək quyularla Məhsuldar qatın daha qədim horizontlarını açmaq mümkün olub ki, onların neft qazlılıq imkanlarının qiymətləndirilməsi və həmçinin kəsilişin litofasial xüsusiyyətlərinin aydınlaşdırılması üçün kifayət etmir. Aşağı Kür çökəkliyində Abşeron çöküntüləri qalınlıqlarının 1200-1500 m arasında dəyişməsi, tektonik hərəkətlərin intensiv olduğunu bir daha təsdiq edir. Qalınlıqlar həm antiklinal zonalardan sinklinal çökəkliklərə tərəf, həm də şimal qərbdən cənub-şərq istiqamətində artır. Abşeron çöküntüləri qalınlıqları Kürovdağ-Neftçala antiklinal zonasında 1200-1500 m arasında dəyişirlər. Aşağı Kür çökəkliyinin struktur planında elə də ciddi dəyişikliklər baş verməyib. Çökəklikdə Paleogen-Miosen çöküntüləri böyük dərinliklərdə yatdıqlarından bəzi sahələrdə dərin quyularla açılsa da axtarışkəşfiyyat qazması ilə zəif öyrənilib. Rayonda Paleosen-Eosen çöküntüləri yalnız palçıq vulkanlarının brekçiyalarına əsasən müəyyən edilib. Bu çöküntülər əsasən qumdaşı, qum, alevrit və mergel aralaylarına malik gillərdən təşkil olunublar. Paleosen çöküntüləri kəsilişinin Aşağı Kür çökəkliyi ərazisində maksimal qalınlıqları 1000-1100 m, Eosen çöküntülərinin isə 1400-1500 m-ə çatır. Maykop əsrinin əvvəllərində paleotektonik rejimdə ciddi dəyişiklik olmayıb. Maykop dənizi demək olar ki, çox az fərqlə Eosen dənizinin tutduğu sahələri əhatə edir. Bu əsrdə Aşağı Kür hövzəsində əsasən dərin dəniz şəraitində gilli çöküntülər toplanır.

AZƏRBAYCANIN KÜR ÇÖKƏKLİYİ ƏRAZİSİNDƏ NEFTLİ-QAZLI STRUKTURLAR

Qaraxanov A.Y.
Azərbaycan Dövlət Neft və Sənaye universiteti
E-mail: aqalar@inbox.ru

Dağlararası Kür çökəkliyinin Azərbaycanı əhatə edən ərazisində Aşağı Kür çökəkliyi bütövlükdə, Orta Kür çökəkliyinin isə böyük bir hissəsi yerləşmişdir. Bu çökəklik çox mürəkkəb heterogen geoloji quruluşa malikdir. Çökmə kompleksin qalınlığı Orta Kür çökəkliyində 12 - 14 km, Aşağı Kür çökəkliyində isə 20 km kimi qiymətləndirilir. Orta Kür çökəkliyində gömülmüş maqmatik vulkanlar, Aşağı Kür çökəkliyində isə gömülmüş və fəaliyyətdə olan palçıq vulkanları mövcuddur. Bu regionda yüzlərlə qalxım aşkar edilmiş, 40-dan çoxunda neft-qazlılıq müəyyənləşdirilmiş, onlarla yataq istismara verilmişdir. Son dövrlərdə çökəkliyin müxtəlif qanad hissələrində seysmik kəşfiyyat üsulu ilə 100 km-lərlə uzanan pazlaşma zonalarının aşkar edilməsi burada qeyri-antiklinal tələlərin də formalaşdığını göstərir. Dağlararası Kür çökəkliyində aparılmış geoloji və geofiziki kəşfiyyat işləri, ümumiyyətlə, bu regionun mürəkkəb geoloji quruluşa malik olduğunu,

çoxsaylı dərin qırılmaların mövcudluğunu, regionda çöküntütoplanma şəraitinin müxtəlifliyini, kəsilişdə çökmə, effuziv və intruziv süxurların, rif-biogen mənşəli kütlələrin olmasını, regionda 100 km-lərlə uzanan pazlaşma zonalarının varlığını, üst Təbaşirdən başlamış Məhsuldar Qatın yuxarılarına qədər ayrı-ayrı horizontların neftli-qazlılığını və s. məsələləri aydınlaşdırdı. Acınohur rayonunun dağətəyi zonasında, Göyçay və Girdimançay arasındakı sahədə Məhsuldar Qatın alt şöbəsi ilə yanaşı, üst şöbənin alt hissəsi də kəsilişdə iştirak etmir. Burada Abşeron yarımadasının Sabunçu və Suraxanı lay dəstələrinə uyğun gələn, qalınlıqları 250 - 480 m arasında dəyişən Məhsuldar Qat çöküntüləri Pont mərtəbəsi çöküntülərinin yuyulan səthi üzərinə qeyri-uyğun şəkildə yatırlar.

Aşağı Kür çökəkliyinin Kürsəngi, Kürovdaq, Qarabağlı, Babazənən sahələrində aparılmış qravimetrik kəşfiyyat işləri bu ərazilərdə sahənin neft-qazlılığının qiymətləndirilməsində xarakterik gravitasiya minimumlarından istifadə etməyin əhəmiyyətini bir daha göstərmişdir.Kürsəngi, Qarabağlı, Babazənən sahələrində Məhsuldar Qatın qalxımı ağırlıq qüvvəsinin artması ilə müşayiət olunur. Belə sahələrdə də, məlum neft-qaz yataqları üzərində xarakterik lokal minimumlar ayırmaq mümkün olmuşdur. Belə ki, intensivlikləri 0,3-0,4 mQal olan bu minimumlar lokal maksimumların üzərində ayrılmış və məlum yataqların konturlarına uygun gəlmişdir.

Kür çökəkliyinin kənar şimal hissəsində və Cənubi Kaxetinin şimal hissəsində Ağcagil mərtəbəsi Böyük Qafqazın cənub yamacından gətirilən alluvial–proluvial çöküntülərdən təşkil olunur. Bu çöküntülər Kiçik Qafqazın şərq yamacının kənar qərb hissəsində də geniş yayılır. Kür çökəkliyinin qalan ərazisində isə Ağcagil çöküntüləri dəniz şəraitində çökür. Dərinliyi 50-60 m-dən artıq olmayan Kür çökəkliyi körfəzinin qərb hissəsində konqlomerat, qumdaşı, qumlu gil və balıqqulağı əhəngdaşıları çökdüyü halda, nisbətən dərin şərq hissəsində daha yaxşı çeşidlənmiş narındənəli qum, qumdaşı və gillər toplanır. Kür çökəkliyinin maraq doğuran əsas struktur elementlərindən biri burada geniş inkişaf etmiş pazlaşma zonalarıdır. İri çökəkliklərin (Yevlax-Ağcabədi, Aşağı Kür) yamaclarında, Böyük və Kiçik Qafqazönü monoklinallarda quyu və seysmik kəşfiyyatı məlumatları əsasında 100 km-lərlə uzanan pazlaşma zonaları aşkar edilmişdir ki, neft-qaz tələləri əmələ gətirmək baxımından çox əhəmiyyətlidir. Çökəkliklər daxilində pazlaşan komplekslərin stratiqrafik yaşları da müxtəlifdir. Aşağı Kür çökəkliyinin cənub-qərb yamacinda, Muğan monoklinalında əsasən, Məhsuldar Qat çöküntülərinin, Aşağı Kür çökəkliyinin şimal-şərqində (Hacıqabul, Navahi sinklinallarının şimal-şərqi) MQ və Ağcagil çöküntülərinin, Yevlax-Ağcabədi çökəkliyinin cənub-qərb, cənub-şərq, şimal-şərqində Eosen və Maykop lay dəstəsinin pazlaşdığı müəyyənləşdirilmişdir.

Məhsuldar Qat çöküntüləri qalınlıqlarının paylanması göstərir ki, Aşağı Kür çökəkliyinin əksər strukturları konsedimentasiya səciyyəli inkişafda olmuşlar. Ağcagil qabağı qırışıqlıq nəticəsində Kələməddin-Mişovdağ-Bəndovan və Kürovdağ-Neftçala antiklinal zonalarının əksər paleostrukturlarının amplitudları 500 m-ə çatır. Göstərilən antiklinal zonaların quruluşlarını mürəkkəbləşdirən regional qırılmaların amplitudları isə, hətta 1000 m-ə (Kələməddin sahəsində) çatmışdır. Bu deyilənlər Aşağı Kür çökəkliyində paleotektonik və paleostruktur şəraitin əlverişli olduğunu göstərir. Belə paleocoğrafi şərait isə Məhsuldar Qat çöküntülərinin Kür, Araz, Pirsaat çaylarının və bir sıra kiçik çayların, Böyük və Kiçik Qafqaz dağlarından Kür çökəkliyi hövzəsinə gətirdiyi qumlu-gilli çöküntülərin Aşağı Kür çökəkliyində toplanması ilə yaranmışdır. Burada MQ kəsilişində 20-dən artıq qumlu-alevritli horizont ayrılır. Horizontlar arasında yaxşı əks olunan gil qatlarının olmaması, onların dayaz su hövzəsində, çayların fəaliyyətinin kifayət qədər yüksək olduqları şəraitlərdə çökdüklərini göstərir. Əlverişli paleocoğrafi şərait MQ kəsilişində çoxsaylı kollektor laylarının əmələ gəlməsinə səbəb olmuşdur. Aşağı Kür çökəkliyində az qalınlıqları (50-150 m) ilə fərqlənən Ağcagil çöküntüləri, MQ-nin paleostruktur quruluşunun əsaslı dəyişməsinə səbəb olmayıb. Daha böyük qalınlıqlı alt Abşeron çöküntülərinin toplanmasının sonunda MQ-nin tavanı 500 m-dən 1500 m-ə qədər dərinliyə gömülmüşdür. Buna baxmayaraq, orta Abşeronun əvvəlinə Aşağı Kür çökəkliyinin struktur planında elə də ciddi dəyişikliklər baş verməyib. Çökəklikdə Paleogen-Miosen çöküntüləri böyük dərinliklərdə yatdıqlarından bəzi sahələrdə dərin quyularla açılsa da axtarış-kəşfiyyat qazması ilə zəif öyrənilib. Rayonda Paleosen-Eosen çöküntüləri yalnız palçıq vulkanlarının brekçiyalarına əsasən müəyyən edilib. Bu çöküntülər əsasən qumdaşı, qum, alevrit və mergel aralaylarına malik gillərdən təşkil olunublar. Paleosen çöküntüləri kəsilişinin Aşağı Kür çökəkliyi ərazisində maksimal qalınlıqları 1000-1100 m, Eosen çöküntülərinin isə 1400-1500 m-ə çatır. Maykop əsrinin əvvəllərində paleotektonik rejimdə ciddi dəyişiklik olmayıb. Maykop dənizi demək olar ki, çox az fərqlə Eosen dənizinin tutduğu sahələri əhatə edir. Bu əsrdə Aşağı Kür hövzəsində əsasən dərin dəniz şəraitində gilli çöküntülər toplanır. Çökəkliyin qərb və cənub-qərb bortund kəsilişdə qum və argillitlər, şimal-şimal-şərq bortunda isə qumlar iştirak edirlər. Maykop dövründə də Kürdəmir-Saatlı qalxım zonası yuyulma sahələri olaraq qalır. Maykop çöküntülərinin qalınlıqları 0-1800 m ətrafında dəyişir. Hövzənin dərin sahəsi, Eosen epoxasında olduğu kimi, Nefçaladan şimal-şimal-qərb

istiqamətində yerləşməklə, Cənubi Xəzər çökəkliyinə açılır. Maykop əsrinin sonunda dənizin reqressiyası başlayır. Nəticədə Maykop dənizi əvvəlki sərhədlərindən xeyli geri çəkilir və hövzənin kənar hissələri yuyulma sahələrinə çevrilirlər. Orta və üst Miosen çöküntüləri əsasən gillərlə təmsil olunurlar. Bəzi yerlərdə çöküntülər karbonatlı süxurlarla zənginləşir.

COĞRAFİYANIN ÖYRƏNİLMƏSİNDƏ EKSKURSİYALARIN, ÇÖL EKSPEDİSİYALARININ TƏŞKİLİ METODİKASI

Qasımova G.M.
Naxçıvan Dövlət Universiteti
E-mail: gunelqasimova1994@inbox.ru

Coğrafiya fənninin tədrisində ekskursiyaların və ekspedisiyaların xüsusi əhəmiyyəti var. Bunların vasitəsilə şagirdlər yaxınlıqdakı təbiəti, təsərrüfatı müşahidə edirlər, obyekt və hadisələr barədə müəyyən təsəvvürlərə malik olurlar. Sonradan əldə olunan təsəvvürlər onlarda bir sıra coğrafi biliklərin formalaşmasına bilavasitə kömək edir. Praktiki işlərlə müşayiət olunan çöl ekspedisiyaları şagirdlərdə öyrənilən məfhumlara olan marağı artırır. Ekskursiyalar zamanı şagirdlərin qavrayışları fəallaşır, bu da öz növbəsində dərin bilik əldə etməklə nəticələnir. Həmçinin, ekskursiyalarda cihazlarla işləmək bacarığı inkişaf edir, şagirdlərdə əmək və təşkilati bacarıqlar qazanılır.

Ətraf aləmin dərkolunma prosesi öyrənmə mühitinin, şagird əməyinin və pedaqoji işin qarşılıqlı əlaqəsi olmadan mümkün deyil. Şagirdlərin ictimai və təbii mühitdə fəaliyyət göstərməsi üçün sadəcə dərs prosesində fəaliyyəti kifayət deyildir. Tədris prosesində müəllimlə şagirdin qarşılıqlı fəaliyyəti anlayış və mövzuların əsaslı şəkildə mənimsənilməsi sadəcə dərs prosesində mümkün olmur. Pedaqoji prosesi uğurlu şəkildə həyata keçirmək üçün şagirdlərin anlama, qavrama, yadda saxlama dərəcəsiylə şərtlənir. Pedaqoji prosesdə qazanılan bacarıq və biliklərin möhkəmləndirilməsi şagirdlərin sinifdənxaric və dərsdənkənar işlərin təşkil edilməsində daha aydın formada görünür. Sinifdənxaric və dərsdənkənar tədbirləri tədris prosesinin davamı olaraq götürülür.

Coğrafiya fənni təbiət ilə birbaşa əlaqəli olduğundan sinifdənxaric və məktəbdənkənar işlərin şagirdlərlə aparılması tədris edilən materialın şagirdlərə çatdırılmasında praktiki əhəmiyyət daşıması ilə birgə, şagirdlərin materialı daha anlaşıqlı və dəqiq şəkildə öyrənməsinə kömək olur.

Coğrafiyanın öyrənilməsi ilə bağlı təşkil edilən tədris ekskursiyaları proqramda vaxtı və yeri müəyyən olunmuş ekskursiyalardır. Sinifdənxaric yolla təşkil olunan ekskursiyalardan fərqli olaraq, tədris tipli ekskursiyalar siniflər üzrə proqram materialların dərindən mənimsənilməsinə kömək edən təlimin təşkili formalarından biridir. Dərs kimi tədris ekskursiyaları bütün şagirdlər üçün məcburi hesab edilir.

Tədris ekskursiyalarının keçiriləcəyi vaxt dərslərdə proqram materiallarının öyrənilməsiylə əlaqələlidir. Bu ekskursiyalara hazırlıq sinif məşğələləri zamanı aparılır. Ekskursiyada müəllimin rolu dərsdəki ilə eynidir. Tədris ekskursiyalarının keçirilməsi zərurəti coğrafiya kurslarının xüsusiyyətləriylə, həm də həmin sinifin şagirdlərinin təfəkkürünün özünəməxsus xüsusiyyətləri ilə müəyyən olunur. Adətən keçirilməsi vacib olan ekskursiyalar proqramda da nəzərdə tutulur.

Ekskursiya və ekspedisiyaların keçirilməsinə görə 3 mərhələsi var:

1. Ekskursiya və ekspedisiyalar üçün hazırlıq işləri: a) Ekskursiyanın məqsədinin aydın formada təsviri; b) Ekspedisiyada öyrənilən obyektin seçilməsi; c) Şagirdlər qarşısında sualların qoyulması; d) Ekskursiyaya hansı şəxsin rəhbərlik edəcəyinin müəyyən olunması. Təyin olunan şəxs ekskursiyanın seçilmiş obyektinə baş çəkməklə, ekskursiyanın əsas məqsədi, məzmunu, izahat metodu barədə oranın əməkdaşı ilə razılaşır.

2. Ekskursiyanın əsas hissəsi. Öyrənilən obyektin dərindən mənimsənilməsi üçün müşahidə, izah və müzakirələrin həyata keçirilməsi;

3. Ekskursiya zamanı əldə olunan nəticənin çıxarılması. Ekskursiyanın sonunda ekskursiya zamanı şagirdlərin öyrəndikləri məlumatlar və biliklər ümumiləşdirilir.

Ekskursiyalarda şagirdlər təbiətin kiçik obyektlərini, həmçinin bütöv landşaftları müşahidə edirlər. Məsələn, bir təpəyə ekspedisiya təşkil edildikdə həmin təpəni təşkil edən süxurların, torpaq növlərinin tərkibi öyrənilir, həmçinin bu təpəni əhatə edən relyefin ümumi xarakteri, eləcə də bu təpədən təsərrüfat cəhətdən hansı formada istifadə edilməsi öyrənilir.

Sənaye müəssisəsinə edilən ekskursiyanın planı: 1) Müəssisənin olduğu yer, müəssisənin məhz bu məkanda yaradılmasının əsas səbəbləri; 2) Müəssisənin coğrafi mövqeyi; 3) Müəssisənin xammal, yanacaq

mənbələri, onların müəssisəyə əsasən mövqeyi və onların daşınma şəraiti; 4) İstehsal prosesinin əsas mərhələləri, sexlərin tərkibi avadanlıqla təminatı, görülən işlərin xarakteri; 6) Yanacaq, xammal, elektrik enerjisi üzrə müəssisənin istehsal əlaqələri; 7) Müəssisənin sexlərarası, zavoddaxili əlaqələri, buəlaqələr üzrə sxem tərtibi.

Coğrafiya fənninin tədrisində ekspedisiyalar, ekskursiyalar praktika və nəzəriyyə arasındakı əlaqənin didaktik prinsipinin reallaşdırılmasını təmin edir və aşağıda göstərilən funksiyaları yerinə yetirir: Şagirdlər öyrənilən hadisə obyektlərlə birbaşa tanış olur, özlərinə xas fikirlər formalaşdırırlar; Tədrisin praktiki və elmi xarakterini artırmağa, tədrisin təcrübə və həyat ilə əlaqəsini gücləndirməyə imkan verir; Politexniki təhsilin inkişaf etməsinə kömək edir, oan görə ki, şagirdlərə istehsalla tanış olmaqla, kənd təsərrüfatında və sənayedə elmi məlumatlardan istifadə edə bilmək imkanı verir; Şagirdləri kənd təsərrüfatı və sənaye işçilərinin əməyiylə yaxından tanış edərək onların həmin sahələrə əsasən peşə seçməsində xüsusi rol oynayır; Şagirdləri təbiət və təbiətdəki hadisələrlə yaxından tanış edərək onlara müasir dövrün ekoloji problemlərini aydın formada öyrədir.

MİLLİ PARKLAR VƏ MİLLİ PARKLARDA EKOTURİZM FƏALİYYƏTİ

Rəhimova L.E.
Bakı Dövlət Universiteti
E-mail: rehimovaleman00@gmail.com

Milli parklar təbiətin, flora və fauna aləminin mühafizəsi məqsədilə yerli hökumətlər tərəfindən yaradılan, istifadə edilən və qorunan təbii parklardır. Əksər hallarda, milli parklar suveren dövlətlərə məxsus olan təbii, yarımtəbii və ya süni şəkildə yaradılmış ərazilərdir. Ayrı-ayrı ölkələr öz milli parklarının ərazilərini müxtəlif yollarla müəyyən etsələr də, milli parkların yaradılmasında bir ortaq məqsəd vardır: "vəhşi təbiətin" gələcək nəsillər üçün mühafizəsi və milli qürur simvolu kimi qorunması. Milli park, təbii mühitin mühafizəsi üçün milli hökumət tərəfindən ayrılmış ərazidir. Milli parklar əhalinin istirahəti, əyləncə məqsədləri üçün, tarixi və ya elmi maraqlara görə ayrıla bilər. Milli parkın landşaftı və onlarla əlaqəli bitki və heyvanların əksəriyyəti təbii vəziyyətində qorunub saxlanılır. ABŞ və Kanadadakı milli parklar həm landşaft, həm də vəhşi təbiətin qorunmasına diqqət yetirir, Birləşmiş Krallıqdakı parklar ilk növbədə landşaftın mühafizəsinə diqqət ayırır və Afrikadakı parklar isə ilk növbədə heyvanların qorunması üçün mövcuddur. Bəzi digər ölkələrdə, xüsusən Braziliya, Yaponiya, Hindistan və Avstraliyada milli parkların daxilində qorunan geniş ərazilər vardır.

Ümumilikdə belə qəbul edilir ki, dövlət mülkiyyətində olan park və ya qoruq anlayışı 1870-ci ildə ABŞ-da yaranıb və dünyada ilk belə park ABŞ prezidenti Uliss Simpson Qrantın 1872-ci ildə imzaladığı qanun əsasında yaradılmış Vayominqdəki Yellouston Milli Parkı olub. Bununla belə, bəzi təbiətşünaslar tarixi hələ 1778-ci ilə gedib çatan Monqolustandakı Boqd Xan Dağı Milli Parkının yaradılmasının Yelloustonun yaradılmasından əvvələ təsadüf etdiyini göstərən sübutların olduğunu iddia edirlər.

Müxtəlif ölkələrin milli parkları ehtiyatların mühafizə olunması dərəcəsi baxımından bir-birindən fərqlənir. Bəzi hökumətlər qaydaların ciddi şəkildə yerinə yetirilməsini təmin etmək üçün park sistemlərinə kifayət qədər böyük büdcələr ayırırlar; bəziləri isə əksinə. Əksər milli parkların daxili paradoksu var: onların mövcudluğu çox vaxt təbiətə maraqdan irəli gələn turizmdən asılı olsa da, vəhşi təbiətin qorunması mümkün qədər az antropogen təsirə məruz qalmasından asılıdır. Bu paradoks adətən ziyarətçilərin yalnız parkın məhdud ərazilərində səyahət etməsinə icazə verməklə həll edilir. Bu, onlara vəhşi təbiətlə təmaslarını minimuma endirməklə yanaşı, parkı görməyə imkan verir.

Milli parklar Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyi (International Union for the Conservation of Nature and Natural Resources- IUCN) tərəfindən ekosistemin qorunması və rekreasiya üçün idarə edilməli olan ərazilər kimi müəyyən edilmişdir. Dünyada IUCN-nin tam tərifinə bir çox istisnalar var: bəziləri milli deyil, bəziləri istirahətə icazə vermir; bu tərifə uyğun gələn bəzi ərazilər "park" adlanmır və.s. Dünyada təxminən 4,5 milyon km^2 sahəsi olan 3900-ə yaxın park var. Parklar İngiltərə və Amerikada ətraf mühitin müdafiəsi məqsədindən deyil, daha çox istirahət və mədəniyyətin qorunması barədə fikirlərdən qaynaqlanır. Ümumdünya Parklar Konqresi qlobal siyasəti müəyyən etmək üçün hər on ildən bir keçirilir: 2014-cü ildə Avtraliyanın Sidney şəhərində altıncı və indiyə qədərki sonuncu belə konqres keçirilmişdir. Birinci konqresdən sonra diqqət ekosistemin qorunmasından davamlı inkişafa və yerli iştiraka yönəldildi.

1969-cu ildə IUCN milli parkı aşağıdakı xüsusiyyətlərə malik nisbətən böyük ərazi elan etdi:

- Xüsusi elmi, təhsil və rekreasiya əhəmiyyətinə və ya qeyri-adi gözəlliyə malik, müxtəlif bitki və heyvan növlərinin, geomorfoloji ərazilərin və yaşayış yerlərinin təbii landşaftını özündə ehtiva edən və insanların istismarı və məşğuliyyəti nəticəsində dəyişikliyə məruz qalmayan bir və ya bir neçə ekosistem;

-Ölkənin ən yüksək səlahiyyətli orqanı bütün ərazilərdə istismarın və ya işğalın qarşısının alınması və ya aradan qaldırılması və milli parkın yaradılmasına səbəb olan ekoloji, geomorfoloji və ya estetik xüsusiyyətlərin effektiv şəkildə təmin edilməsi üçün ən qısa müddətdə tədbirlər görmüşdür;

-Ziyarətçilərin ruhlandırıcı, təhsil, mədəni və əyləncə məqsədləri ilə xüsusi şərtlərlə milli park ərazisinə daxil olmasına icazə verilir.

1971-ci ildə bu meyarlar daha da genişləndirildi, nəticədə milli parkın qiymətləndirilməsi üçün daha aydın və konkret meyarlar yarandı. Bura daxildir: Təbiətin mühafizəsinin prioritet olduğu ərazilərin minimum 1000 hektarı əhatə etməsi; Ərazinin qanunvericiliklə hüquqi müdafiəsi; Büdcə və işçi heyətinin kifayət qədər effektiv müdafiəni təmin etməyə qadir olması; İdman, ovçuluq, balıqçılıq kimi fəaliyyət növləri ilə təbii sərvətlərin istismarının (o cümlədən bəndlərin tikintisi) qadağan edilməsi

Ekoturizm yeni yaranan fenomen olsa da, inkişaf etməkdə olan sahədir. Ekoturizm təbii ərazilərdə turizm fəaliyyəti zamanı daha məsuliyyətli davranmağa təşviq edən sənaye sahəsidir. Ekoturizm milli parkların mühafizəsini təmin etməklə yanaşı həm də onlara gəlir gətirə bilər. Eyni zamanda təbii resursların istismarının qarşısını alar. Ekoturizmin məqsədi təbii resursları turistik yerlər kimi təqdim etmək yolu ilə hər hansı ekosistemdəki vəhşi təbiətin, heyvan və bitki növlərinin mühafizəsini təmin etməkdir. Bir sənaye sahəsi kimi ekoturizm vəhşi təbiətə həddindən artıq sayda turistim cəlb edilməsi nəticəsində istənməyən nəticələrə gətirib çıxara bilər. Buna görə də müvafiq qurumlar tərəfindən vahşi təbiətdəki balansı qorumaq məqsədilə ziyarətçilərin sayına nəzarət edilməsi məqbuldur. Belə qurumlara misal olaraq Amerika Birləşmiş Ştatlarında federal hökumət agentlikləri olan Milli Park Xidməti və ABŞ Meşə Xidmətini, ölkəmizdə isə Ekologiya və Təbii Sərvətlər Nazirliyini göstərə bilərik.

Düzgün şəkildə təşkil edildiyi halda ekoturizm ölkəyə böyük miqdarda gəlir gətirə bilər. Ekoturizm yerli iqtisadi inkişafı dəstəkləyir, yeni iş imkanları yaradır və parkları qorumaq istəyi oyatmaqla bərabər ətraf mühitin mühafizəsi sahəsində maarifləndirməni təmin edir. Məsələn, ABŞ-da Milli Park Xidmətlərinin (MPX) fəaliyyəti nəticəsində 200.000-dən çox yeni iş yeri təmin edilmiş və ABŞ iqtisadiyyatına 30 milyard dollar gəlir gəlmişdir. Ekoturizmin faydaları bununla bitmir; parklarda ekoturizm fəaliyyəti əhali üçün rekreasiya imkanlarının genişləndirilməsinə səbəb olur. Belə ki, gəzintiyə çıxmaq insanların fiziki və zehni sağlamlığı üçün vacibdir və onlara stresi azaltmağa və yaddaşı inkişaf etdirməyə imkan verir. Bundan başqa, ekoturizm təbii mühit haqqında məlumat toplamağa və ölkənin milli mirasını öyrənməyə şərait yaradır. Bütün bu səbəblərdən dolayı, davamlı turizm anlayışı hər il daha çox insan tərəfindən dəstəklənən fenomendir.

Milli parklardakı fəaliyyət istiqamətləri kimi bələdçili gəzintilər, quşlara baxış, təbii və mədəni irsin şərhi, ziyarətçilərin məlumatlandırması, xüsusi ayrılmış ərazilərdə düşərgələrin təşkil edilməsi ekoturizm nümunələridir və milli parklara, yerli iqtisadiyyata və ölkənin turizm sənayesinə əhəmiyyətli faydalar gətirir.

Bununla bərabər ekoturizmin mənfi cəhətləri də unutmaq olmaz. Ərazini ziyarətçilərin üçün əlçatan etmək üçün infrastruktur qurmaq və nəqliyyatı təşkil etmək lazımdır. Bu isə sahəyə müəyyən miqdarda sərmayənin qoyulmasını tələb edir. Yerli iqtisadiyyat üçün əldə edilən gəlirlər adətən mövsümi xarakter daşıyır, çünki ilin bütün aylarında əraziyə turistlərin eyni miqdarda axınını təmin etmək mümkün deyildir. Həmçinin ərazi gəlir əldə etmək məqsədilə daha çox turistə xidmət göstərməyə başlaya bilər və bu da böyük səylərə qorumağa çalışılan ərazinin həddindən artıq antropogen təsirə məruz qalması ilə nəticələnər. Digər bir məsələ isə vəhşi təbiətin "vəhşi" olaraq saxlanılmasıdır. Bəzən insan və vəhşi təbiətin qarşılıqlı əlaqəsinin artması təbii ərazi deqradasiyasına və ya təbii balansın pozulmasına səbəb ola bilər. Vəhşi təbiət insanlara öyrəşə və ya insanlardan uzaqlaşmaq üçün öz təbii vərdişlərini və davranışlarını dəyişə bilərlər. Nəticədə ziyarətçilərin sayı artdıqca, insanların toplaşdığı ərazidən uzaqlaşa və bu situasiyadan birbaşa yaxud dolayı yolla təsirlənə bilərlər. Ümumiyyətlə götürdükdə, milli parklar və bu kimi təbii ərazilərdə ekoturizm fəaliyyyətinin təşkili zamanı bir çox faktor nəzərə alınmalı, əraziyə gələn ziyarətçilərin antropogen təsirinin balanslaşdırılması məqsədilə əraziyə daxil olan şəxslərin sayına müəyyən məhdudiyyətlər qoyulmalıdır. Milli parklarda ekoturizm fəaliyyəti düzgün təşkil edilməzsə təbii resursların istismarına gətirib çıxara bilər.

Bütün bunlar milli parkların nə qədər böyük turistik əhəmiyyətə malik olduğunu göstərir. Ölkəmizdə milli parklar 2003-cü ildən etibarən yaradılmağa başlamışdır. Hal-hazırda ölkə ərazisinin 5%-ə qədəri mühafizə altında olan təbii ərazilərdir və ölkədə 10 milli park fəaliyyət göstərir. 2019-cu ildə Qızılağac Milli Parkının yaradılması ilə ölkə ərazisindəki milli parkların sayı 10-a çatmışdır. Ölkəmizin zəngin təbii və mədəni irsi milli parklarda da əks olunmuş və bu irs milli parklara turistlərin cəlb olunmasında böyük

əhəmiyyətə malikdir. Belə ki, hər il həm ölkənin müxtəlif yerlərində, həm də xarici ölkələrdən turistlər milli parklarımızı ziyarət edir. Bu faktlar onu göstərir ki, ölkəmizdə milli park turizminin inkişafı üçün mövcud şərait vardır və düzgün və strukturlu şəkildə yeridilən siyasətlə turizmin bu sahəsini ölkəmizdə inkişaf etdirmək və həm ölkə iqtisadiyyatına, həm də turizm sənayesinə əhəmiyyətli fayda gətirmək olar. Əsas nəzərə alınmalı olan məsələ isə ekoturizm fəaliyyətinin düzgün təşkil edilməsi və bu fəaliyyətin milli parkların flora və fauna aləminə təsirini mümkün qədər azaltmaqdır.

AZƏRBAYCANIN XƏZƏR AKVATORİYASINDA BAŞ VERƏN DAĞIDICI TƏBİƏT HADİSƏLƏRİ VƏ ONLARIN İNFRASTRUKTURA GÖSTƏRDİYİ TƏSİRİN XÜSUSİYYƏTLƏRİ

Rzazadə T.Y.
Sumqayıt Dövlət Universiteti
E-mail: Justuqay@gmail.com

Azərbaycan ərazisində təbii hidrometroloji hadisələrin təsnifatı və quruplaşdırılması aparılarkən diqqət yetirilməli olan başlıca məqam Xəzər dənizində mütəmadi olaraq müşahidə edilən və sahil rayonlarının infrastrukturuna (xüsusilə də sənaye sahələrinə) təsir göstərən təhlükəli hidrometroloji hadisələrdir.

Buz bağlama. Azərbaycanın Xəzər akvatoriyasında dağıdıcı hadisələrdən biri buz bağlama hadisəsidir. Bu təbii proses əsasən qış aylarında Xəzərin Şimal hissəsində ilin soyuq dövründə daha çox müşahidə edilir. Orta və cənubi Xəzərdə buz bağlama hadisəsi demək olar ki müşahidə edilmir.Xəzərin şimal hissəsinin 45°-46° şimal en dairəsindən şimalda yerləşməsi və ən bol sulu çayların dənizin bu əraziyə tökülməsi hesabına dənizin şimal hissəsinin qış aylarında donmasına gətirib çıxarır.Bu isə öz növbəsində sahil ərazilərdə yerləşən hidrometroloji qurğulara və digər sənaye obyektlərinə ciddi ziyan vurur. Soyuq aylarda Xəzərin bu hissəsində əsən çox güclü şimal-qərb küləkləri yaranmış buz təbəqələrini qopararaq dənizin mərkəzi hissələrinə, bəzən isə Abşeron yarımadasının sahilinədək gətirib çıxarır və nəticədə gəmilərin hərəkəti üçün çox ciddi problemlərə yol açır.

Qeyd edək ki, Xəzərdə anomal buz hadisəsi 1920-ci və 1953 –cü illərdə müşahidə edilmişdir.Belə ki, 1920-ci ilin soyuq qışında hətta Orta Xəzərin sahil zonalarında güclü buz bağlama hadisəsi müşahidə edilmişdir.1953-cü ilin qışında Xəzərin şimalından Abşeron yarımadasının sahillərinədək yaranmış güclü buz bağlama hadisəsi dənizdə buz dreyfi əmələ gətirmişdir. Bu zaman buz axınları Orta Xəzərdə Abşerona qədər hərəkət edərək dənizdə və sahildə olan hidrotexniki qurğular, gəmilər və xüsusən Dəniz Neft-Qaz təsərrüfatı üçün böyük təhlükələr yaratmışdır. Təhlükəni aradan qaldırmaq üçün hətta xüsusi təyyarələrdən və toplardan istifadə edərək buz örtüklərini parçalamışlar.

Güçlü dalğalanma. İl boyu Xəzər dənizi üzərində güclü və fırtınalı küləklər tez-tez əsir.Belə dağıdıcı küləklər təbii fəlakətləri ilə çox güclü fərqlənir. Bu zaman yaranan güclü dalğalanma əsasən küləyin sürəti 20-25 m/san-dən çox olan şimal və şimal-qərb küləkləri zamanı müşaahidə edilir və küləyin davamiyyətindən asılı olaraq açıq dənizdə dalğanın hündürlükləri 5-8 m və daha çox olur. Xəzər dənizində instrumental müşahidələr aparılan dövr ərzində ən güclü dalğa hadisəsi 20-21 noyabr 1957-ci ildə baş vermişdir. Bu vaxtı Neft Daşları rayonunda dənizin 10-12 m dərinliyə malik hissəsində şimal istiqamətli küləyin sürəti 10-10,5 m-ə qədər yüksəlmişdir.

Mütəxəssislərin hesablamalarına görə həmin küləklərdə dənizin müşahidə aparılmayan thissəsində dalğanın hesabi hündürlüyü 14,5 m olmuşdur. Güclü külək və dalğalanma hadisəsi həmin dövrdə Neft Daşları estakadalarına xeyli ziyan vurmuşdur. Belə çox təhlükəli təbiət hadisələrindən biri zamanı (04.12.2016-cı il tarixində) Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Günəşli" yatağının 10 saylı dərinquyulu platformasında kəskin fırtınalı hava şəraitində dayaq borunun qopması, nəticədə 110 atmosfer təzyiq altında işləyən qaz kəməri zədələnmiş və güclü yanğın baş vermişdi. "Günəşli" yatağı Azərbaycanın ən böyük dəniz yataqları qrupuna daxildir.

Blokun sahəsi 432 km^2, dərinliyi isə 110-220 m təşkil edir. 10 saylı dərin quyu platforması dəniz səviyyəsindən 10 m hündürlükdə yerləşir və yaşayış moduludur. Sinoptiklərin məlumatına görə, həmin gün küləyin sürəti 40 m/s-dən çox, dənizin dalğalanmasının 4-5 bala çatması ilə fırtınalı hava şəraiti müşahidə olunmuşdu. Dalğanın hündürlüyünün 8-10 m olması xilasetmə işlərinin aparılmasını çətinləşdirmişdi. Bu təhlükəli təbiət hadisəsi nəticəsində platformada işləyən 63 neftçidən 10 nəfər həlak olmuş, 20 nəfər isə itkin düşmüş kimi qeydə alınmışdı. Üstəlik, eyni şəkildə "Neft daşları" yatağında yaşayış köşkü su ilə birlikdə yuyularaq, üç neftçi ölmüşdü. SOCAR-dan verilən məlumata görə, yanğın yalnız 13 gündən sonra, dekabrın 17-də söndürülmüşdü

AVSTRİYA VƏ İTALYA KƏND TURİZMİNİN AZƏRBAYCANDA TƏTBİQİ

Sadiqov L.
Naxçıvan Dövlət Universiteti

Avstriya kənd turizmini ənənəvi olaraq həyata keçirən Avropanın ən qədim ölkələrindən biridir. Avstriyanın dağlıq təbiəti, bu mühitin dağ turizmi, qış idmanı turizmi və kənd turizmi kimi turizm növlərini çox canlı şəkildə istifadə edilir. Yəni bu ölkədə kəndlə turizm arasında əlaqələr həmişə güclü olub. Məlumdur ki, orta hesabla hər beş avstriyalıdan biri tətillərini kənd yerlərində keçirir.Avstriya kənd turizminin Avropada ən yaxşı şəkildə təşkil edildiyi və həyata keçirildiyi ölkələrdən biridir. Bu sahədə çalışan təşkilatlardan birini nümunə olaraq, 36 kəndi özündə birləşdirən "yaşıl kəndlər" təşkilatı da verilə bilər. Bu təşkilat öz bazarını özü yaradır və hər sahədə olan bütün məsələləri tənzimləyir. Yaşıl kəndlərin damı altındakı kəndlərin hamısı müəyyən standarta uymalıdırlar. Onların arasında; ekoloji standartlar (havanın keyfiyyəti və səs-küy baxımından kənd magistral yoldan ən azı 3 km aralı olmalı, birinci keyfiyyətli içməli su, velosiped yolları, kənd təsərrüfatı və meşə təsərrüfatının inkişaf etdirilməsi, yerli təsərrüfat məhsullarının satışı, lazımsız qablaşdırmadan qaçınmaq, ətraf mühiti nəzərə alaraq asudə vaxt keçirməyi planlaşdırma, təkrar istifadə edilə bilən tullantılar və s.), memarlıq meyarları (maksimum 3 mərtəbə, köhnə və yeni yaşayış yerləri), sosial və turistik standartlar (kənd əhalisinin ən çox 1500 nəfər olması, böyük otellər əvəzinə kiçik otellər, mehmanxanalar, turizmsevər kənd cəmiyyəti, turistlərin ehtiyaclarını ödəmək üçün infrastruktur və s.),başda gəlməkdədir. Bu gün Avstriyada kəndlərdə və təsərrüfatlarda həyata keçirilən kənd turizmi xüsusilə iri şəhərlər yaxınlığında və dağlıq rayonlarda geniş vüsət alır. Təsərrüfatların 7,5%-i turistlərin yerləşdirilməsi üçün açılıb.Dağlıq rayonlarda bu göstərici daha yüksəkdir. Bu potensialı ilə kənd turizmi Avstriyada inkişaf etmiş bir turizm növü olduğunu sübut edir.

İtaliyanın sənayeləşmiş şimal hissəsi ilə kəndlərə əsaslanan cənub hissəsi arasında parçalanma əvvəlki illərdə olduqca güclü idi. 1980-ci ildə aktiv əhalisinin yalnız 10%-nin kənd təsərrüfatında çalışdığı İtaliyada 1960-cı ildən (20 il 1980-ci ilə qədər) 5 milyon italiyalının öz ərazilərini tərk etdiyi müəyyən edilib. Bu torpaqların tərk edilməsi qarşısını almaq üçün Milli Kənd Təsərrüfatı və Turizm Assosiasiyası yaradıldı, "Aqri-turismo (Kənd Təsərrüfatı Turizmi)" ideyası atıldı, evlərinin otaqlarını, yerli məhsullarını icarəyə verənlər kommersiyalaşdırılması kimi məqsədlər qəbul edilmişdir. Sonrakı illərdə bəzi bölgələrdən (xüsusilə Abruzzia) miqrasiyanın yavaşladığı və fermerlərin turistik işlərə üz tutduğu görüldü. Digər tərəfdən bəzi yerlərdə (Toskana, Umbria, Latium, Liquriya və s.) kənd evləri qonaq evlərinə çevrildi, kənd ərazilərinə yeni villalar tikildi. İtaliyada yaşıl turizmi inkişaf etdirməyə çalışan səyahət təşkilatlarından biri olan Anagritur, 1980-ci ildə Agritourist, Terranostra və Tourismo Yerde şirkətlərinin birləşməsi ilə yaranıb. 1980-ci illərin sonlarına doğru yaşıl turizmlə əlaqəli müxtəlif fəaliyyətlər və at sürmə təklif edən kənd təsərrüfatı turizmi təsərrüfatları klubların yaradılması ilə aqriturizmin özü yaşıl turizm daxilində inkişaf etmiş və ondan ayrılmışdır. Avstriya və İtalyada mövcud olan bu kimi kənd turizmi nümunələrini 9 iqlim növünə sahip gözəl təbiəti ilə seçilən Azərbaycanda da tətbiq etmək olar.

COĞRAFİYANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ EKOLOJİ TƏRBİYƏNİN FORMALAŞDIRILMASI

Zeynalova A.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail: master848.sdu@gmail.com

Tərbiyə məsələlərinin tədqiqi, o cümlədən məktəblilərin ekoloji tərbiyə məsələlərinin öyrənilməsi müasir pedoqogikanın ən mühüm məsələlərindəndir. Hal-hazırda məktəblilərin ekoloji tərbiyəsinə diyarşünaslıq istiqaməti verilməsi, ekoloji vəziyyətin, ekoloji problemlərin öyrədilməsi çox mühüm əhəmiyyət kəsb edir. Ekoloji tərbiyə ətraf mühitin dərk edilməsi və ətraf mühitə qayğı ilə yanaşmanın formalaşması proseslərindən keçir. Təbiət əlbətdəki güclüdür, lakin bu güc tükənməz deyil. Ümumitəhsil məktəblərində uşağa kiçik yaşlarında təbiətə qayğını aşılamaqla onun şəxsiyyətinə ciddi təkan vermiş sayılırıq. Bu yolla gənclərə doğma diyarı və təbiəti sevməyə, ətraf mühitə biganə olmamağı öyrədirik. Ekoloji tərbiyənin nüvəsi ətraf mühitin mühafizəsi və onu sevmək işi təşkil edir. İnsan təbiətin bir üzvüdür. Təbiət öz sərvətləri ilə insanı bəsləyir, yaşadır, fiziki və mənəvi qüvvələrini inkişaf etdirir, ona həyat verir. Ancaq çox təəssüf ki, bəzən insan özü təbiəti, ətraf mühiti korlayır, nəfəs aldığı havanı, içdiyi suyu, bəhrəsini

yediyi torpağı yararsız vəziyyətə gətirir. Bu yolla insanlıq öz özünü məhvə doğru aparır, özü üçün qaçınılmaz son hazırlayır.

"Azərbaycan Respublikasının Konstitusiyası"nın II fəslinin 78-ci maddələrində ekoloji vəziyyəti qorumaq və ətraf mühitin mühafizəsinin hər bir vətəndaşın borcu olduğu göstərilir.

Ekoloji tərbiyə işində müxtəlif yollardan forma və metodlardan istifadə edilir. Təlim prosesinin ən hərəkətli elementi olan metod təlimin məzmunu və məqsədi ilə sıx əlaqəlidir. Müasir dövrdə digər fənlərdə olduğu kimi, coğrafiyanın tədrisində də məzmun və məqsədlərə yanaşma tələb olunur. Buna görə də müəllim şagirdlərdə ətraf mühitə məsuliyyətli münasibətin formalaşması üçün metodlar həm məntiqi, həm də emosional cəhətlərini nəzərə alır. Təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsinin öyrənilməsi sadədən mürəkkəbə doğru müəyyən mərhələlərdə keçirilir və şagirdlərin biliklərini bölmədən bölməyə öyrənmək imkanı yaradır. Bu hal ekoloji problemlərə marağı artırır və onların həllində şagirdlərdə xüsusi motiv yaradır. Ona görə də ümumitəhsil müəssisələrində coğrafiya fənninin tədrisində ekoloji tərbiyənin həyata keçirilməsinin səmərəli metodlarından istifadə xüsusi əhəmiyyət kəsb edir.

Erkən yaşlardan uşaqlarda ətraf mühitə düzgün münasibət yaratmaq, onlara təbiəti, canlıları sevdirmək, onların qəlbində xeyirxahlıq hisslərini oyadıb aşılamaq lazımdır. Kiçik yaşlarda buna diqqət yetirilməzsə, uşaqda ətraf mühitə və təbiətdə bütün canlılara qarşı laqeydlik, hətda qəddarlıq, rəhmsizlik hissləri yarana bilər.

Ümumitəhsil məktəblərinin vəzifəsi coğrafiyanın tədrisində şagirdlərdə yalnız ekologiya sahəsində müəyyən həcmdə biliklər formalaşdırmaqdan ibarət deyildir. Onlarda elmi təhlil vərdişi yaratmaq, cəmiyyət və təbiətin qarşılıqlı təsirini, ətraf mühitə öz yardımının əhəmiyyətini dərk etmək vərdişlərini formalaşdırır və yaradır. Təhsil və tərbiyə prosesində ekoloji təhsil və tərbiyə özünəməxsus yerə malikdir. Ekoloji maariflənmənin nəticəsində ekoloji tərbiyə üzrə işlərlə əhatə edilməklə yanaşı, təhsilalanların,ətraf aləmin mühafizəsinə, gözəllədirilməsinə, yaşıllıqların artırılmasına qayğı ilə yanaşır.

Ekoloji tərbiyə həm də ekoloji şüurun və mədəniyyətin formalaşdırılması, məktəblilərin təbiətə qayğısı və onun mühafizəsi fəaliyyətinin təşkili üzrə müəllimin məqsədə uyğun ardıcıl və planlı işidir. Ekoloji mədəniyyət təkcə ətraf mühitə müəyyən baxışlar sisteminin işlənib hazırlanması demək deyildir. O, həm də konkret cəmiyyətin fəaliyyəti ilə bağlıdır.

Yuxarı sinif şagirdlərinin təbiətin mühafizəsinə aid konkret fəaliyyət vərdişlərinin formalaşması böyük ekoloji tərbiyə məzmununa malikdir. Mədəniyyətin formalaşdırılmasında pedoqoji prosesin imkanlarından faydalanaraq şagirdlərin ekoloji dünya görüşünü artırmaq olar

XII BÖLMƏ
İQTİSADİYYAT

İNFLYASİYA ŞƏRAİTİNDƏ MÜHASİBAT UÇOTUNUN VƏ TƏHLİLİN XÜSUSİYYƏTLƏRİ

Abbasov F.T.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: ferid_abbasov_1998@list.ru

Dürüst mühasibat hesabatlarını tərtib etmək üçün müəssisənin maliyyə vəziyyəti haqqında hesabatda analitik nəticələrin formalaşması üçün təhlilin aparılması zəruri hesab edilir. Müəssisədə təhlil əsasında düzgün maliyyə qərarlarını qiymətləndirmək mümkün olur.

Yüksək inflyasiya dövründə maliyyə hesabatlarına aşağıda qeyd edilən düzəlişlər edilməlidir: İstehlakçılar öz gəlirlərini qeyri-maddi varlıqlara istiqamətlənməsi; Alqı-satqı və yatırımların xarici pul vahidləri ilə həyata keçirilməsi; Müddətli alış və satışların zaman fərqinə görə ödənməsi; Qiymətlərin, ödənişlərin, faiz dərəclərinin qiymət indekslərindən asılı vəziyyətdə olması; Son 3 il ərzində inflyasiya göstəricisinin 1005 və ya daha yüksək olması.

Mühasibat uçotunun ən vacib hesabatı olan Balans hesabatının tərtibi zamanı inflyasiyanı nəzərə alınmaqla düzəlişlər aşağıdakı kimi qeyd edilməlidir:

-Balans hesabatında edilən düzəlişlərdə balans elementləri üzrə bütün maddələr cari dəyərlərlə deyil, qiymət indeksinə uyğunlaşdırılaraq müəyyən edilir;

-Uzunmüddətli aktivlər amortizasiya edilərək yenidən qiymətləndirilərək balansda düzəlişlər edilir;

-Hesabat dövrünün sonunda Qiymətli kağızlar üzrə xarici valyutanın passiv və aktivində ayrı düzəlişlər olunmur.

-Qeyri maddi aktivlər üzrə yenidən qiymətləndirilmə aparılarkən, xalis dəyər və ya ondan aşağı dəyərlə uçota alınır;

-Mal və xidmətlər alındıqdan sonra baş verən kurs fərqləri üzrə maliyyə itkiləri qiymətləndirməyə aid edilmir. Amma mal və xidmətlər alınana qədər baş verən kurs fərqləri üzrə balansda müəyyən düzəlişlər edilməlidir;

-Kapital ehtiyatlarına aid olan bütün elementlər daşındığı tarixdən düzəlişlər edilməlidir. Kapital ehtiyatlarına həmçinin gəlir ehtiyatları və keçmiş ehtiyatlar aid edilir.

Belə ki, inflyasiya prosesləri müəssisənin maliyyə hesabatlarının dürüstlüyünə birbaşa təsir göstərir. İnflyasiyanın mövcud təsirlərinin nəzərə alınmaması nəticəsində müəssisənin maliyyə vəziyyəti haqqında hesabatda, kapitalın artırılması və qorunub saxlanılması üçün lazım olan informasiyanın təhrif olunması nəticəsində müəssisənin dayanıqlığı və gələcək fəaliyyətinin düzgün qiymətləndirilməməsinə gətirib çıxara bilər. Maliyyə hesabatlarına inflyasiyanın mövcud təsirlərinin nəzərə alınmaması nəticəsində aşağıda göstərilən fəsadlar müəssisə fəaliyyətini böyük risk altına ala bilər;

-İnflyasiya nəticəsində qiymətlərdə artım baş verir. Buda əmtəələrin cari maya dəyərləri ilə müqayisədə satılmış əmtəələrin maya dəyərləri azalmış olur;

- Maya dəyəri tarixi dəyərlə qiymətləndirildiyinə görə inflyasiya dövründə uzunmüddətli aktivlərin təzələnməsi və mal-material ehtiyatlarının bərpası imkanları azalır. Nəticədə, müəssisənin real tələbatı ilə ehtiyatların bərpa olunmasına yönəldilən vəsaitlər uyğun gəlməyə bilər;

- Qiymətlərdə baş verən artımlar mənfəətin süni şəkildə şişirdilməsinə səbəb olur və müəssisə resursların yenidən qiymətləndirilməsi nəticəsində real olaraq zərərin artdığına şahid olur. Əgər müəssisə tərəfindən belə yenidənqiymətləndirilmə aparılmasa , mülkiyyətçilər, kreditorlar, müəssisənin menecerlərində yalnış fikirlər yarada bilər.

- Müəssisənin kapitalın artırılması və saxlanması qabiliyyəti haqqında yalnış məlumatlar formalaşır, bu da korporativ idarəetmə qərarlarının mənfəət haqqında hesablamaların təhrif olunmasına gətirib çıxarır və mənfəət müəssisənin uzunmüddətli maliyyə sabitliyi üçün bölüşdürülür;

- Müəssisənin ödəmə qabiliyyətini nəzarətdə saxlamaq üçün vacib hesab edilən kreditor borcları və debitorlar barədə real informasiyalar almaq imkanları aşağı düşür;

- Maliyyə hesabatı məlumatlarının müqayisəlilik prinsipi pozulur, zamana görə müqayisələr gerçək olmur, buna görə də, pul axınları və maliyyə nəticələrinin gələcək fəaliyyət barədə proqnoz təhlil aparmaq üçün məlumat bazasının dürüstlüyü aşağı hesab edilir.

- Kapital qoyuluşlarının səmərəliliyini göstərən və müəssisənin biznes səmərəliliyini qiymətləndirmək üçün vacib hesab edilən maliyyə hesabatları haqqında informasiyaların təhrif olunması investisiya qoyuluşlarının əsaslandırılmasını çətinləşdirir.

İnflyasiya nəticəsində qiymət dəyişmələrinin mühasibat hesabatlarında göstərilməsi üçün 2 yanaşma mövcuddur: 1.Seçmə yanaşma; 2. Kompleks yanaşma

Yuxarıda qeyd edilən yanaşmalardan heç biri alıcılıq qabiliyyətinin aşağı düşməsini nəzərə almır. Müəssisənin balansında qeyd edilən digər elementlərə düzəlişlər etmədən 1 və ya 2 elementə düzəliş edilməsi qiymət dəyişmələrinin müəssisənin balansı haqqında məlumatları tam əks etdirə bilmir.

Seçmə yanaşma mühasibat hesabatlarında hər hansı elementlərinə düzəlişləri nəzərdə tutur. Seçmə metodunun tətbiqi balansda göstərilən ehtiyatlar və müəssisənin xalis aktivləri yenidən qiymətləndirilmir. Kompleks metodunda inflyasiya nəticəsində qiymət dəyişmələrinin təsir göstərdiyi əsas və bütün elementlərə düzəlişləri nəzərdə tutur.

MƏNFƏƏTDƏN İSTİFADƏNİN UCOTU

Abbasov V.Ş.
Azərbaycan Dövlət Aqrar Universteti
E-mail: vuqar98abbasov@gmail.com

Hesabati ildə müəssisə tərəfindən əldə edilən mənfəət, ilin ərzində artan qalıqla yığılır və balansda bölüşdürülməmiş şəkildə göstərilir. Mənfəətin bölüşdürülməsi ilin axırında həyata keçirilir. İl ərzində əldə edilən mənfəət hesabına vergilərin dövlət büdcəsinə ödənişi həyata keçirilir, müəssisə üçün vacib fondlar yaradılır, digər xərclərin ödənişi həyata keçirilir keçirirlər və s.

Müəssisənin mənfəətindən düzgün istifadə etmək üçün bütün məlumatlar ilin ərzində ümumiləşdirilərək 801 nömrəli "Ümumi mənfəət (zərər)" sintetik hesabında cəmləşdirilir. 801 "Ümumi mənfəət (zərər)" hesabına müəssisənin əsas fəaliyyətindən asılı olaraq, bir neçə subhesab açılamaq mümkündür: 1. "Mənfəətdən dövlət büdcəsinə ödənişlər". 2. "Mənfəətdən digər məqsədlər üçün istifadə edilməsi".

1-ci subyesabda il ərzində qanunvericiliklə hesablanmış, mənfəət vergilər üzrə avans və faktiki mənfəət vergisi üzrə yenidən hesablamalar uçota alınır.

2-ci subyesabda müəssisənin ehtiyat fonduna, yığım fondlarına, istehlak fondlarına və kollektivin sosial inkişafını həyata keçirmək üçün digər fondlara edilən ayırmalar əks olunur.

801 "Ümumi mənfəət (zərər)" hesabının debet hissəsində il ərzində dövlət büdcəsinə hesablanmış vergi ödənişləri, müəssisənin ehtiyat və digər fondlarına ayırmaları və s. mənfəət hesabına maliyyələşən vəsaitlərinin yaradılması, kredit hissəsində isə – bu hesabın debet hissəsində əks olunan, inin sonunda silinən məbləğlər uçota alınır. Qanunvericiliyə uyğun olaraq müəssisə fəaliyyətindən əldə etdiyi mənfəətə uyğun büdcəyə vergilər ödənildikdən sonra qalan xalis mənfəət müəssisənin sərəncamına daxil olur. Xalis mənfəətin nəticəsində müəssisələr bir neçə fondları yarada bilər: təsis sənədlərinə müvafiq olaraq istehlak, istehsalın inkişafı, sosial inkişaf, yığım, maddi yardım, ehtiyat və digər fondlar.

Göstərilən fondların yaranması və istifadəsi qaydası qanunvericiliklə və Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş və müəssisənin təsis sənədləri ilə nəzərdə tutulan əsasnamələrlə müəyyən edilir.

Bəzən müəssisələr vergiyə cəlb oulnmalı mənfəəti gizlədilməsi və ya azaldılmasınavə ya xüsusi icarəsiz (lisenziyasız) fəaliyyət növləri ilə məşğul olmağa, məhsulun, xidmətin qiymətinin suni şəkildə artırılmasına görə iqtisadi sanksiyalar, cərimələr tətbiq edilə bilər.

Beləliklə il ərzində 801 "Ümumi mənfəət (zərər)" hesabının kredit hissəsində artan yekunla müəssisənin mənfəəti yığılır, bu hesabın debet hissəsində isə mənfəət hesabına həyata keçirilən ayırmalar əks olunur.

Hesabat ili sona çatdıqdan sonra (dekabrda) balansın reformasiyası, yəni onun maddələrinin dəyişməsi həyata keçirilir. 343 №-li "Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesabı müəssisənin bölüşdürülməmiş mənfəətinin və ya örtülməmiş zərərin məbləği və hərəkəti haqda məlumatların toplamaq üçün ayrılmışdır. Bu hesabın qalığı balansın passiv hissəsində, örtülməmiş zərər isə – onun aktiv hissəsində göstərilir. 343 №-li "Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesabın bir

neçə subhesabları açıla bilər. 1. "Keçən illərin bölüşdürülməmiş mənfəəti (örtülməmiş zərər)" ; 2. "Hesabat ilinin bölüşdürülməmiş mənfəəti (zərəri)" və s.

Bölüşdürülməmiş mənfəətin hesabına müəssisə tərəfindən müəssisənin təsisçilərinə divident ödənilə bilər. Ötən illərin bölüşdürülməmiş mənfəəti təsis sənədlərinə uyğun olaraq ehtiyat kapitalının artırılmasına, xüsusi təyinatlı fondların və nizamnamə kapitalının artırılmasına, təsisçilərə dividentlərin ödənilməsinə və b. yönəldilə bilər. İstifadə məqsədindən asılı olaraq ötən illərin mənfəətini istifadə edənkən uçotda müvafiq yazılışlar edilməlidir.

Hesabat ilində müəssisə zərər edərsə zərər balansdan ehtiyat kapitalının və ya xüsusi təyinatlı fondlarının hesabına qarşılana bilər. Maliyyə balansındakı örtülməmiş zərərin növbəti ilə keçirilməsi haqqında qərar qəbul edilən zaman (onu gələcək hesabat dövründə silən zaman) onun məbləği 343 №-li "Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)" hesabına keçirilir. 801 "Ümumi mənfəət və ya zərər və 343 №-li "Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət və ya ödənilməmiş zərər" hesabları üzrə analitik və sintetik uçotu 16 nömrəli jurnal-orderdə aparılır.

MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABATIN TƏRKİB HİSSƏLƏRİ

Abbasov V.Ş.
Azərbaycan Dövlət Aqrar Universteti
E-mail: vuqar98abbasov@gmail.com

Müəssisələr hər hesabat ilinin sonunda müəsisənin balansı ilə birlikdə illik hesabatın tərkib hissəsindən biri olan mənfəət və zərərlər haqqında hesabatı da hazırlamalıdır.

Mənfəət və zərərlər haqqında hesabatında maliyyə nəticələri dəqiq hesablandıqda onun tərkibini və əmələ gəlmə mənbələrini aydın şəkildə görmək olar. Nəticəyə təsir göstərən maddələri müəyyən qruplar halında quruplaşdırmaq mümkündür.

Müəssisənin fəaliyyəti nəticəsində əldə etdiyi gəlirləri bir necə yerə bölmək olar: Adi fəaliyyət növündən gəlir; Sair əməliyyat gəlirləri; Fəaliyyətin dayandırılmasından yaranan gəlirlər; Maliyyə gəlirləri və s.

Müəssisənin fəaliyyəti nəticəsində yaranan gəlirləri mənfəət və zərərlər haqqında hesabatında aşağıdakı kimi qurupların tərkibinbndə göstərmək olar: Satışın maya dəyəri üzrə xərclər; Kommersiya xərcləri; İnzibati xərclər; Sair əməliyyat xərcləri və s.

Müəsissə məhsul və ya xidmətin istehsal prosesində təbii ehtiyatların, xammalın, marialların , yanacağın, enerjinin, əsas vəsaitlərin, əmək ehtiyatlarının istifadəsi ilə əlaqədar olan xərclər bə məhsul istehsalına və satışına çəkilən digər xərcləri aşağıdakı kimi quruplaşdırmaq olar: Buraxılan məhsulun (işin, xidmətin) təşkili və idarə edilməsinə çəkilən xərclər; İstehsalın hazırlanması və məhsulun buraxılmasına sərf olunan xərclər; Məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına çəkilən xərclər; İstehsal prosesinə xidmət edən xərclər; Normal əmək şəraiti və təhlükəsizlik texnikasının təmin edilməsinə çəkilən xərclər; Təsdiq edilmiş normalar çərçivəsində kadırların hazırlanması və yenidən hazırlanmacına çəkilən xərclər; İçdimai sərnişin nəqliyyatının xidmət etmədiyi istiqamətlərdə işçilərin im yerinə və geriyə daşınmasına çəkilən xərclər; İstehsalatda işlənilməyən vaxta görə əmək qanunvericiliyində nəzərdə tutulmuş ödənişlər; Qanunvericilikdə müəyyən olunmuş qayda əsasında, müvafiq məhsul istehsalında işləmiş işçilərin əmək haqqı məsrəfləri; Qanunvericilikdə müəyyən olunmuş qayda əsasında, Dövlt Sasial Sığorta, İçbarı tibbi sığrta, İşsizlikdən sığorta üzrə olan ayırmalar; Bank köçürmələrinə görə və mal-matrial qiymətlilərinin alınması üzrə malsatanların kreditlərinə görə faizlərin odənilməsi xərcləri və qanunvericilikdə nəzərdə tutulan bank xidməthaqlarının dəyəri; Xüsusi cahə və cahələrarası büdcədənkənar fondlara qanunvericilikdə müəyyən olunan qaydada keçirilən ödəmələr; Məhsulun satışı – qablaşdırılması, saxlanılması, göndərilmə stansyalarına qədər nəql edilməsi , reklamla əlaqədar ərclər; Əsas vəsaitlərin amortizasiyyası və təmir xərcləri; Qanunvericilikdə müəyyən olunmuş qaydada müvafiq olaraq ödənilən vergilər, rüsumlar və digər müvafiq ödəmələr; Qanunvericilikdə müəyyən olunmuş qaydaya uyğun olaraq məhsulun(işin, xidmətin) maya dəyərinə daxil edilən digər növ xərclər aid edilir.

Mənfəət və zərərlər haqqında hesabat müəssisənin cari ildəki gəlirlərini düzdün əks etdirməsi üçün bu hesabatın qurulması prinsiplərinə əməl edilməlidir. Onuda qeyd etmək lazımdır ki, həmin prinsiplər mühasibat uçotunun milli və beynəlxalq praktikasında dəfələrlə sınaqdan keçmişdir.

Bunda əlavə, hər hesabat ilinin sonunda təşkilat gəlirlərin və xərclərin müqayisəsini verməlidir. Bu müqayisə sayəsində müəssisənin gələcək fəaliyyəti barəsində müəyyən yüəyyən praqnozlar yürütmək olar.

İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNİN EFFEKTİVLİYİ

Abdullayev E.T.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mali: elcanabdullayev8@gmail.com

İnsan resurslarının idarə edilməsi iqtisadi subyektlərin inkişaf strategiyasının ən vacib istiqamətlərindən biridir. Bu onunla bağlıdır ki, yüksək texnologiyalı istehsalın inkişafı şəraitində insan resurslarının rolu durmadan artır və onların bacarıqlarına, biliklərinə və ixtisaslarına getdikcə daha yüksək tələblər qoyulur. Bazar münasibətlərinə keçidlə əlaqədar olaraq iqtisadi münasibətlərin mürəkkəbləşməsi, elmi-texniki tərəqqi, intensiv inkişaf edən məhsuldar qüvvələr idarəetmə texnologiyalarında da dərin dəyişikliklərə gətirib çıxarır. Bbu da öz növbəsində idarəetmə mexanizminin daha aydın və rasional strukturunu, idarəetmənin təkmilləşdirilməsinə yönəlmiş çevik metodların tətbiqini tələb edir.

İnsan resurslarının fəaliyyətinin qiymətləndirilməsi insan resursları proqramları ilə bağlı xərclərin və faydaların ölçülməsinə, onların nəticələrinin müəssisənin fəaliyyəti ilə əlaqələndirilməsinə yönəlmiş sistemli bir prosesdir. İnsan resurslarının idarə edilməsi sisteminin effektivliyini müəyyən etmək üçün ilk növbədə qiymətləndirməyə imkan verən göstəriciləri müəyyən etmək lazımdır. İnsan resurslarının fəaliyyətinin qiymətləndirilməsi sistemli təcrübə tələb edir. Çünki eyni dövr ərzində idarəetmənin effektivliyini müəssisənin effektivliyi ilə müqayisə etmək lazım gəlir. İnsan resurslarının idarə edilməsi sisteminin effektivliyi onun təşkilati məqsədlərə nail olunmasına töhfəsi ilə müəyyən edilir. İnsan resurslarının idarə edilməsi o dərəcədə təsirli olur ki, müəssisələr öz məqsədlərinə çatmaq üçün öz potensiallarından uğurla istifadə etsinlər.

İnsan resurslarının idarə edilməsinin səmərəliliyi ona həvalə edilmiş funksiyaların yerinə yetirilməsinin həcmi, tamlığı, keyfiyyəti, vaxtında yerinə yetirilməsi əsasında müəyyən edilir. İnsan resurslarının idarə edilməsinin effektivlik dərəcəsini müəyyən etmək üçün müvafiq meyarlara ehtiyac var. Qiymətləndirmə meyarlarını seçərkən, birincisi, qiymətləndirmənin nəticələrinin hansı konkret tapşırıqlar üçün istifadə edildiyini və ikincisi, mürəkkəblikdən, məsuliyyətdən asılı olaraq fərqləndiriləcəyini nəzərə alaraq, meyarların işçilərin hansı kateqoriyası üçün müəyyən edildiyini nəzərə almaq lazımdır. İnsan resurslarının idarə edilməsinin səmərəliliyi sahəsində meyarlar müəyyən edilmiş istehsal və ya xidmət standartlarının lazımi iş keyfiyyəti ilə yerinə yetirilməsi və kadr dəyişikliyinin artması və s. nəticəsində yaranan xərclərin azaldılması ola bilər.

Eyni zamanda, insan resurslarının idarə edilməsinin effektivliyinin qiymətləndirilməsi iki komponentdən ibarətdir: mövcud resurslardan qənaətlə istifadə prinsipinə əsaslanan kadrlardan istifadə etməklə müəssisənin məqsədlərinə nail olunmasını xarakterizə edən iqtisadi səmərəlilik və sosial səmərəlilik. İnsan resurslarının idarə edilməsinin iqtisadi səmərəliliyinin komponentləri kimi aşağıdakıları nəzərdən keçirmək vacibdir:

- qarşıya qoyulmuş təşkilati məqsədlər nöqteyi-nəzərindən nəzərə alınan işin nəticələri ilə xərclərin nisbəti;
- müəssisənin uzunmüddətli mövcudluğuna və inkişafına İnsan resurslarının töhfəsini əks etdirən komponentlər.

İnsan resurslarının idarə edilməsinin effektivliyini üç mövqedə qiymətləndirmək məqsədəuyğundur: idarəetmə işinin təşkilinin qiymətləndirilməsi; insan resurslarının idarə olunması texnologiyasının təhlili; insan resurslarının idarə edilməsinin keyfiyyətinin təhlili. İnsan resurslarının idarə edilməsi strategiyası idarəetmə sisteminin təkmilləşdirilməsi ilə bağlı məsələləri də əhatə edir. Qeyd edilənlər göstərir ki, insan resurslarının idarə edilməsində səmərəlilik meyarlarının müəyyən edilməsi və effektiv idarəetmə strategiyasının olması iqtisadi subyektlərin uğurunun əsasını təşkil edir.

HEYƏTİN İDARƏ EDİİMƏSİNİN SƏMƏRƏLİLİK ASPEKTLƏRİ

Abdullayev K.V.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mali: kenanabdullayev188@gmail.com

Bazar iqtisadiyyatı şəraitində həm müəssisə işçilərinin, həm də kadrların idarə edilməsi mexanizminin rolu və əhəmiyyəti artır. Bu, aşağıdakı amillərlə bilavasitə daxildir: müəssisə və işçilərə yüksək tələblər

qoyan xarici mühitin sürətli dəyişməsi; işçilərin kəmiyyət və keyfiyyət tərkibinin müəssisənin yekun nəticələrinə birbaşa təsiri; görülən işlərin keyfiyyətinə, məhsulların keyfiyyətinə və rəqabət qabiliyyətinə tələblərin artması; işin səmərəliliyinə diqqətin artırılması; iş prosesində insanların dəyər oriyentasiyasının dəyişməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması üçün motivasiya mexanizminin istiqamətləndirilməsi. Bütün bunlar işçi heyətinin idarə edilməsi ilə bağlı yeni meyarların, o cümlədən səmərəlilik aspektlərinin müəyyənləşdirilməsi zərurətini müəyyənləşdirir. Müəssisələrin fəaliyyəti çoxşaxəlidir və son məqsəd mənfəət əldə etmək olduğundan heyətin idarə edilməsinin funksiyaları kompleks xarakteri ilə fərqlənir. Heyətin idarə edilməsində kadrların idarə edilməsi ən vacib funksiyalardan biridir. Kadrların idarə edilməsi həm çarpaz funksional xarakter daşıyır, həm də hər bir xüsusi idarəetmə funksiyası daxilində - texniki-iqtisadi planlaşdırma, əməyin və əmək haqqının təşkili, satış və marketinq və s. mövcuddur. Hazırda bir sıra müəssisələrdə kadrlarla bağlı vəziyyət aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur: işçinin yerinə yetirdiyi vəzifəyə kifayət qədər uyğun gəlməməsi. təşkilatlarda bürokratik elementlərin olması inamsızlıq yaradır, yaradıcılıq səviyyəsini aşağı salır, buna görə də vaxtın bir hissəsi məhsuldar şəkildə istifadə olunmur, bu da son nəticəni azaldır; müəssisənin məqsədlərinə kifayət qədər oriyentasiyanın olmaması və işçilərin əksəriyyətinin sahibkarlıq nöqteyi-nəzərindən düşünmək qabiliyyətinin olmaması; müəssisədə yüksək nəticə əldə etmək, işçilərin yaradıcılıq qabiliyyətlərini təzahür etdirmək üçün şəraitin yaradılmaması; işçilərin fəaliyyət azadlığının məhdudlaşdırılması, çeviklik, işçinin və müəssisənin dəyişən mühitə, yeni şəraitə uyğunlaşmağa hazır olmaması da fəaliyyətə mənfi təsir göstərir və s.

Yuxarıda deyilənlərə əsaslanaraq qeyd etmək olar ki, qlobal rəqabət və texnoloji tərəqqi heyətinidarə edilməsi prosesində də öz əksini tapmışdır. Heyətin idarə edilməsi vəzifələrinin çeşidini müəyyən edərkən əsas və əlavə vəzifələr şərti olaraq fərqləndirilir. Onun əsas vəzifələri arasında sosial və psixoloji diaqnostika; qrup və şəxsiyyətlərarası münasibətlərin, rəhbər və tabeliyində olanlar arasında münasibətlərin təhlili və tənzimlənməsi;sosial münaqişələrin və stresslərin idarə edilməsi; kadrların idarə edilməsinin informasiya təminatı; məşğulluğun idarə edilməsi; vəzifələrə namizədlərin qiymətləndirilməsi və seçilməsi; insan resurslarının və kadr ehtiyaclarının təhlili; kadr marketinqi; biznes karyera planlaması və nəzarəti; işçilərin peşəkar və sosial-psixoloji uyğunlaşması; əmək motivasiyasının idarə edilməsi; əmək münasibətlərinin hüquqi məsələlərinin tənzimlənməsi; əməyin psixofiziologiyası və estetikasının tələblərinə uyğunluq və s.

Araşdırmalar göstərir ki, qeyd edilən məsələlərin həllində heyətin fəaliyyətini proqnozlaşdırmaq və təkmilləşdirmək üçün fərdlərin, qrupların və təşkilatların sistemli təhlilinə ehtiyac var. Belə mürəkkəb dinamik mühitdə effektiv qərarlar qəbul edilməsi idarəetmə dövrlərində elə vəziyyətlər yarada bilər ki, onları formalaşdıran mərhələlər vaxt baxımından fərqlənər. Bu baxımdan ilkin mərhələ - idarəetmə qərarlarının hazırlanması prosesində məlumatların toplanması və qiymətləndirilməsi ilə bağlıdır. İkinci mərhələ daha qısadır və bir qayda olaraq, bu, əsas fəaliyyəti əhatə edir. Qərarın icraya verilməsini özündə əks etdirən üçüncü mərhələ daha qısadır.

Tapşırıqları uğurla yerinə yetirmək üçün maksimum imkanların yaradılmasını nəzərdə tutan qərarın dördüncü mərhələsi icranın təşkili mərhələsidir və daha çox vaxt tələb edir. Çünki o, müxtəlif vəzifələrin əlaqələndirilməsini, səylərin birləşdirilməsini, əsas əlaqənin ayrılmasını və təmin edilməsini əhatə edir. Sonuncu mərhələ qısa, lakin məsuliyyətlidir, çünki burada idarəetmə qərarlarının icra keyfiyyəti qiymətləndirilən yekun nəticəyə görə yoxlanılır.

Göstərilənlərdən aydın olur ki, işçi heyətinin idarə edilməsində səmərəli nəticələr yalnız effektivlik meyarlarına söykənir. Bu isə idarəetmədə daha təkmil texnologiyalardan istifadəni önə çəkir.

TƏMİNATLI VƏ TƏMİNATSIZ KREDİTLƏRİN ÜSTÜNLÜKLƏRİ VƏ FƏRQLİLİKLƏRİNIN TƏHLİLİ

Abdulxalıqova G.R.
Bakı Biznes Universiteti
E-mail: gulxar-a@mail.ru

Kredit termini, dəyərin və ya əsas məbləğin gələcəkdə ödənilməsi müqabilində başqa tərəfə pul məbləğinin borc verildiyi kredit vasitəsinin növünə aiddir . Bir çox hallarda, borc verən əsas məbləğə faiz və/yaxud maliyyə xərcləri də əlavə edir ki, bu da borcalanın əsas məbləğə əlavə olaraq ödəməli olduğu məbləğdir. Kreditlər konkret, birdəfəlik məbləğ üçün ola bilər və ya müəyyən limitə qədər açıq kredit xətti kimi təqdim edilə bilər. Kreditlər təminatlı, təminatsız, kommersiya və fərdi kreditlər də daxil olmaqla bir

çox müxtəlif formalarda olur. Bu məqalədə əsasən təminatlı kreditlər və təminatsız kreditlərdən və onlar arasındakı fərqlər, üstünlüklər araşdırılıb qeyd olunmuşdur . İkisi arasındakı fərqləri başa düşmək maliyyə səmərəliliyinə uzunmüddətli təsir göstərə bilər.

Əsasən, təminatlı kredit borcalanlardan girov təklif etməyi tələb edir, təminatsız kredit isə bunu tələb etmir. Bu fərq faiz dərəcəsinə, borclanma limitinə və ödəmə şərtlərinə təsir edir.

Təminatlı kreditlə təminatsız kredit seçməyin müsbət və mənfi cəhətləri var, bu məqalədə hər biri üzrə fərqli cəhətlər qeyd olunmuşdur.

Təminatlı Kredit**.** Təminatlı kreditlər aktiv tərəfindən qorunur. Ev və ya avtomobil kimi alınan əşyaları girov kimi istifadə etmək olar. Kredit tam ödənilənə qədər kreditor sənədi və ya mülkiyyət hüququnu saxlayacaq. Digər əşyalar da krediti geri qaytarmaq üçün istifadə edilə bilər. Buraya səhmlər, istiqrazlar və ya şəxsi əmlak daxildir.

Təminatlı kreditlər böyük miqdarda pul götürməyin ən geniş yayılmış yoludur. Kreditor yalnız geri qaytarılacağı vədi ilə böyük məbləğdə borc verir. Məhz bu səbəbdən evin girov qoyulması krediti qaytarmaq üçün borcalanın əlindən gələni edəcəyinə əmin olmaq üçün bir yoldur.

Təminatlı kredit, kreditinizin geri qaytarılacağına dair təminat verdiyiniz deməkdir. Risk ondan ibarətdir ki, siz təminatlı krediti qaytara bilmirsinizsə, kreditor krediti ödəmək üçün girovunuzu sata bilər.Təminatlı kreditlərin üstünlüyü aşağıdakılardır: Aşağı faiz dərəcələri; Yüksək borc limitləri; Daha uzun ödəniş şərtləri.

Təminatlı kreditlərə nümunələr:

İpoteka – əmlak girovudur. Yəni ipoteka krediti, bankdan faizlə (kredit) götürülən puldur. Pulun qaytarılacağına zəmanət olaraq isə daşınmaz əmlakınız: ev, mənzil və ya torpaq çıxış edir. İpoteka, adətən ev almaq üçün kredit kimi qəbul edilir. Bu halda girova - bankın verdiyi pulla alınan mənzil (ev) götürülür. Bu ipotekanın müxtəlif növlərindən yalnız biri olsa da, ən çox yayılanıdır. Azərbaycanda da ipoteka dedikdə, bir qayda olaraq bu növ ipoteka krediti nəzərdə tutulur. Aylıq ipoteka ödənişləri isə əsas borc və faiz, vergilər və sığortadan ibarətdir

Ev kapital krediti - Ev kapitalı krediti evin kapitalından girov kimi istifadə edərək pul götürməyə imkan verir

Avtomobil krediti-diller bank və ya kredit ittifaqı vasitəsilə əldə edilə bilən maliyyələşdirmə variantıdır.

Təminatsız Kredit**.** Təminatsız kreditlər təminatlı kreditlərin əksidir. Bunlara kredit kartları, tələbə kreditləri və ya şəxsi kreditlər daxildir. Kreditorlar bu krediti verməklə daha çox risk götürürlər, çünki problem yarandığı halında bərpa olunacaq aktiv yoxdur. Bu səbəbdən faiz dərəcələri daha yüksəkdir. Təminatsız kredit şərtləri uyğun gəlməsə, təminatlı kreditlər əldə edə bilərsiniz. Ancaq girov kimi istifadə edilə bilən dəyərli bir şey olmalıdır.

Təminatsız krediti verən kreditor hesab edir ki, borcalan maliyyə imkanları hesabına kredit qaytarıla bilər. Bu kredit verilməzdən əvvəl borcalanın vəziyyəti 5 meyarla qiymətləndirilir:

- Ümumi vəziyyət - kredit hesabı, məşğulluq tarixçəsi və arayışlar daxil ola bilər
- Maddi durum - gəlir və cari borc
- Kapital - əmanət və ya investisiya hesablarında olan pul
-Girov - ev və ya avtomobil kimi girov kimi təklif olunan şəxsi aktivlər
- Şərtlər - və digər kredit şərtləri

Bunlar borcalanın borcunu ödəmək qabiliyyətini qiymətləndirmək üçün istifadə olunan meyarlardır və borcalanın vəziyyətini, eləcə də ümumi iqtisadi amilləri əhatə edə bilər.

Təminatsız kreditlərə bəzi nümunələr:

- Kredit kartları - Müxtəlif növ kredit kartları var, lakin ümumi kredit kartlarına görə borc ayda bir dəfə hesablanır və balans tam ödənilməsə faiz tutulur.
- Şəxsi kreditlər - Bu kreditlər bir çox məqsədlər üçün istifadə oluna bilər və şəxsi kreditin lazım olduqda istifadə edə biləcəyiniz təsdiqlənmiş limiti var. Bu kredit xəttini demək olar ki, hər şey üçün istifadə edə bilərsiniz və sizdən yalnız xərclədiyiniz məbləğə görə faiz tutulur.
-Tələbə kreditləri - Tələbə kreditləri təhsil ödənişləri üçün istifadə olunur və həm müvafiq qurum vasitəsilə, həm də özəl kreditorlar vasitəsilə əldə edilə bilər.

Tələbə kreditləri borcalanın özü və ya onun əvəzinə hər hansı bir şəxs (valideyni, qohumu, işəgötürəni və s.) tərəfindən qaytarıla bilər. Təminatsız kredit olsa da, ödənilməmiş tələbə kreditlərini ödəmək üçün vergi bəyannamələri hazırlana bilər.

SIĞORTA ŞİRKƏTLƏRİNİN MALİYYƏ DAYANIQLIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ METODİKASI

Ağayeva N.F.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: nurana.agayeva80@gmail.com

Ölkənin sosial-iqtisadi inkişafını təmin edən infrastrukturun ən vacib tərkiblilərindən biri sığortadır. Mürəkkəb sosial-iqtisadi sahəyə xas olan risklər sığortanın hesabına səmərəli şəkildə profilaktika olunur və minimallaşdırılır. Sığorta riskləri reallaşdiği zaman dəyən ziyanın ödənilməsi üçün bir mexanizmdir. Bu mexanizmi reallaşdırmaq üçün sığorta şirkətlərinin maliyyə dayanıqlığı təmin olunmalıdır.

İqtisadiyyatda baş verən maliyyə böhranları sığorta bazarının daxili problemlərini kəskinləşdirir. Sığorta sektorunun müasir inkişaf şəraitində sığorta şirkətlərinin maliyyə vəziyyətinin qiymətləndirilməsi metodologiyasının təkmilləşdirilməsi onların maliyyə dayanıqlığının təmin dilməsi baxımından çox aktualdır. Bu metodologiyadan həm sığorta şirkətləri, həm də onlara nəzarət edən orqanlar istifadə edə bilər. Bu isə öz növbəsində sığorta sektorun, sığorta şirkətlərinin maliyyə fəaliyyətində baş verən risklərin idarə edilməsinin səmərəliliyini artırar.

Sığorta şirkətlərinin maliyyə dayanıqlılığının qiymətləndirilməsi onların maliyyə vəziyyətinin kompleks qiymətləndirilməsinin bir hissəsidir və sığorta şirkətinin kapitalının formalaşdırılması və istifadəsinin quruluşunu qiymətləndirməyi nəzərdə tutur.

Maliyyə dayanıqlığının təmin edilməsi sığorta şirkətinin fəaliyyətinin ən vacib tərəfidir. bu səbəbdən də sığorta şirkətinin maliyyə dayanıqlığını qiymətləndirməyə imkan verən göstəricilər dəstini müəyyən etmək lazımdır. Bəzi alimlər sığorta şirkətinin maliyyə vəziyyətinin qiymətləndirilməsi üçün dörd qrup göstərici təklif edirlər. Birinci qrupa kapitalın qiymətləndirilməsi göstəriciləri daxil edirlər. Bu göstəricilərə kapitalın kifayət qədər olması və kapitalın keyfiyyət göstəriciləri aiddir: öz kapitalının təmərgüzləşməsi göstəricisi, maliyyə asılılığı göstəricisi, sığorta ehtiyyatlarının artım göstəricisi, passivin strukturu göstəricisi, xalis aktivlərin səviyyəsi göstəricisi, təkrarsığortalama baxımından müdafiə göstəricisi, sığorta ehtiyyatlarının kifayət qədər olmasını ifadə dən göstəricilər və s.

Ikinci qrupa aktivlərin keyfiyyət və strukturunu qiymətləndirən göstəriciləri daxil edirlər. Bunlara xalis aktivlərin xüsusi çəkisi, pul vəsaitlərinin kənarlaşdırılması göstəricisi, debitor və kreditor borclarının nisbəti, aktivlərin diversifikasiya dərəcəsi göstəriciləri aiddir.

Üçüncü qrupa likvidliyin qiymətləndirilməsi göstəriclərini, o cümlədən mütləq, müddətli və cari likvidlik göstəricilərini daxil edirlər.

Dördüncü qrup göstəricilərə resursların istifadəsinin səmərəliliyini qiymətləndirən göstəricilər daxil edilir: aktivlərin rentabelliyi, öz kapitalının rentabelliyi, sığorta əməliyyatlarının rentabelliyi, investisiya fəliyyətinin rentabelliyi və ümumi rentabellik göstəriciləri, sığorta ehtiyyatlarının formalaşdırılmasının səmərəliliyi göstəriciləri, sığorta fəaliyyətndən nisbi gəlir göstəricisi, sığorta əməliyyatlarının nisbi nəticəliliyi göstəricisi, investisiya fəaliyyətinə çəkilən xərclərin səmərəliliyi göstəricisi, idarəetmə xəclərinin səviyyəsi göstəricisi.

Bizim fikrimizcə sığorta şirkətinin maliyyə dayanıqlığını xarakterizə edən göstəricilərə aşağıdakı əmsalları aid etmək olar.

1. Öz kapitalı ilə təmin olunma səviyyəsini göstərən əmsal (öz kapitalının təmərgüzləşməsi əmsalı). Bu göstərici şirkətin özünə məxsus kapitalın məbləğinin şirkətin balansında olan valyutanın məbləğinə nisbəti kimi hesblanır. Balansda olan valyutanın məbləği şirkətin öz kapitalından və öhdəliklərindən ibarətdir. Bir çox bankların normativinə görə bu göstərici 0,2-dən az olmamalıdır, yəni sığorta şirkətinin öz kapitalının məcmu kapitalda payı 20%-dən az olmamalıdır.

2. Öz kapitalının öhdəliklərə nisbətini göstərən əmsal. Müvafiq olaraq bu göstərici şirkətin öz kapitalının üzərinə götürdüyü öhdəliklərin məbləğinə nisbəti kimi hesablanır. Bu əmslın normativi 0,25 təşkil edir, yəni sığorta təşkilatı üzrə hesablanan əmsalın qiyməti göstərilən normativdən az ola bilməz.

3. Sığorta mükafatlarının və sığorta ehtiyyatlarının nisbətini göstərən əmsal. Bu göstərici bütün sığorta növləri üzrə sığorta mükafatlarının məbləğinin bütün sığorta növləri üzrə ehtiyyatların məbləğinə nisbəti kimi hesablanır. Həmin göstəricinin artması sığortalananların sığorta şirkətinə etibarının artmasını göstərir.

4. Dövriyyə və qeyri-dövriyyə kapitalının nisbətini ifadə edən əmsal. Bu əmsal sığorta təşkilatının dövriyyə aktivlərinə qoyulan vəsaitlərin qeyri-dövriyyə aktivlərinə qoyulan vəsaitlərə nisəti kimi hesablanır.

Qeyd etmək lazımdır ki, sığorta şirkətinin aktivlərinin dövriyyə və qeyri-dövtiyyə aktivlərinə bölgüsü kifayət qədər şərtidir çünki, sığorta şirkətlərinin çoxu qısamüddətli sığorta müqavilələri ilə işləyirlər.

5. Daimi kapitalın səviyyəsi. Bu göstərici sığorta şirkətinin öz kapitalının və sığorta ehtiyyatlarının cəminin məcmu aktivlərinin dəyərinə nisbəti kimi hsablanır. Bu göstəricinin normativi 0,9 təşkil edir, yəni şirkətdə daimi kapital məcmu kapitalın 90%-dən az olmamalıdır.

6. Sığorta şirkətinin öz vəsaitləri ilə sığorta ehtiyyatlarının nisbətini ifadə edən əmsal. Göstərici şirkətin öz kaptalının sığorta ehtiyyatlarına bölünməsi yolu ilə hesablanır. Bu göstərcinin qiyməti 0,3-ə bərabər götürülür, yəni sığorta ehtiyyatlarının ən azı 30%-i sığorta şirkətinin öz kapitalı hesaına təmin olunmalıdır.

7. Borc yükünün səviyyəsi. Bu əmsal sığorta şirkətnin öhdəlklərinin məcmu kaputalına nisbəti kimi hesablanır. Onun normativi 0,25 təşkil edir, yəni öhdəliklərin məbləği təşkilatın məcmu kapitalının 25%-dan çox olmamalıdır . Qeyd etmək lazımdır ki, bu göstəricinin hesablanması zamanı sığorta şirkətinin məcmu öhdəliklərinin məbləği deyil, sığorta ehtiyyatları nəzərə alınmadan yerdə qalan məbləğ götürülür.

8. Sığorta ehtiyyatlarının səvyyəsi. Bu göstərici sığorta şirkətinin sığorta ehtiyyatlarının onun aktivlərinin məcmu dəyərnə nisbəti kimi hesablanır. Həmən göstəricinin normativi 0,7 təşkil edir, yəni şirkətin məcmu aktivlərinin 70% və daha çoxu sığorta ehtiyatlarının hesabına təmin edilməlidir.

MÜHASİBAT UÇOTUNUN AVTOMATLAŞDIRILMIŞ SİSTEMİ

Allahverdi N.F.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: nuranapasa@gmail.com

Mühasibat uçotu müəssisədə baş verən təsərrüfat əməliyyatları, onun əmlakı və əmələ gəlmə mənbələri haqqında pul ifadəsində informasiyanın toplanması, qeydiyyatı və ümumiləşdirilməsini özündə əks etdirən nizamlı informasiya sistemidir. Mühasibat uçotunun əsas məqsədi daxili və xarici informasiya istifadəçilərini idarəetmə qərarlarının qəbulu üçün zəruri informasiyalarla təmin etməkdən ibarətdir.

Mühasibat uçotunun aparılmasında komputer hesablama texnologiyasının tətbiqinin əsas səbəbləri - informasiya həcminin artması, çoxlu sayda informasiya qruplaşdırılmalarının vacibliyi, informasiyanın dəqiqliyinə və etibarlılığına olan yüksək tələb, operativ idarəetməyə operativ informasiyanın vacibliyi və s. kimi amillər hesab olunur.

Proqram və aparat vasitələri kompleksini avtomatlaşdırılmış informasiya sistemi (AIS) adlandırırlar. AIS sayəsində məlumatları saxlamaq, idarə etmək və hesablamalar aparmaq mümkündür. Avtomatlaşdırılmış informasiya sistemləri avtomatik olaraq müxtəlif sahələrdə müəssisələrin işini asanlaşdırmaq və optimallaşdırmaq məqsədilə inteqrasiya olunmuş şəbəkə, kompüter və kommunikasiya texnologiyaları çərçivəsində müxtəlif məlumatları hazırlayan, axtaran və emal edən insan-maşınlardır.

AİS-in yaradılmasının və inkişafının əsas səbəbi sistemin həsr olunduğu obyektin vəziyyəti və dinamikası haqqında məlumatların uçotunun aparılması zərurətidir. Sistemin yaratdığı məlumat mənzərəsinə əsasən, müxtəlif səviyyələrdə menecerlər mövcud problemləri həll etmək üçün nəzarət tədbirləri haqqında qərarlar qəbul edə bilərlər. Sistemin uçot məlumatları daha böyük fəaliyyət horizontunun idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə sonrakı taktiki və strateji təhlil üçün avtomatik emal edilə bilər.

Mühasibat uçotunun avtomatlaşdırılmış sisteminə quruluş və məzmun cəhətdən müəssisənin AIS-nin "Mühasibat uçotu alt sistemi" kimi baxılır. Buna görə də o, AIS-ə xas olan metod və prinsiplərlə fəaliyyət göstərir. Funksional və təminat alt sistemlərindən ibarətdir. Bunlardan birincisinə uçotun avtomatlaşdırılması şəraitində onun aparılması metodları və sistemin icra etdiyi məsələlər məcmusu daxildir. Funksional hissə, informasiya və proqram təminatı, texniki vasitələr və massivlərlə iş metodları ilə birlikdə mühasibat uçotunun avtomatlaşdırılmış sistemini (MUAS) təşkil edir. Belə sistemin fəaliyyətinin vacib şərti onun planlaşdırma, təhlil və əməli idarəetmə fnksional məsələlri ilə qarşılıqlı informasiya və təşkilati texniki əlaqədə olmasıdır. Bu şərt MUAS-ın fəaliyyətinə sistemli yanaşma və məlumat bankında informasiyaların inteqral istifadəsinin təşkili vasitəsilə reallaşdırılır.

MUAS imkan verir ki, mühasibat uçotunun funksiyaları həddində əməli, sintetik və analitik uçotun aparılması üçün, mühasibat və statistik hesabatların aparılması üçün, istifadəçilərə qərar hazırlanması və qəbul edilməsi üçün lazım olan məlumatlar tam avtomatlaşdırılmış şəkildə alınsın və habelə istehsal proseslərinin gedişinə sistemli nəzarət edilsin. Həm də hesabat informasiyaları vasitəsilə idarəetmənin

müxtəlif səviyyələri arasında qarşılıqlı iyerarxiya əlaqələri təmin edilir. Bu qayda xüsusən avtomatlaşdırılmış iş yerinə əsaslanan bölüşdürülmüş hesablama sistemlərinə və kollektiv istifadə sistemlərinə aiddir.

MUAS mühasibat uçotu funksiyalarının avtomatlaşdırılmış icrasını təmin edən, elektron terminallar, fərdi kompüter və başqa müasir hesablama texnikası vasitələri əsasında fəaliyyət göstərən insan maşın sistemidir.Belə sistemdə uçot, AIS təşkilat quruluşunda mühasiblər və uçotçiklər tərəfindən aparılır. Bu, tipik normativ aktlar əsasında, başqa sözlə baş mühasiblər, mühasibat hesabatları və balansı, mühasibat uçotunda qeydlər və şənədlər, plan hesabatları və s haqqında qaydalarla reallaşdırılır. Bu zaman mühasibat uçotu metodlarının ənənəvi elementləri (sənədləşdirmə, invnetarlaşdırma, hesab, ikiqat yazılış və s) istifadə edilir. Lakin onların, informasiyaların avtomatlaşdırılmış işlənməsi şəraitində reallasdırılması müəyyən xüsusiyyətlərə malikdir. Məlumatlar paketi ancaq əməli(dəyişkən) məlumatları əks etdirir, sabit informasiyalar isə məlumat bankında saxlanır. Məlumat paketi əsasən elektron terminallar və fərdi kompüterin köməyilə tərtib edilir. Məlumat paketinin formalaşdırılması və ilkin işlənməsi təsərrüfat əməliyyatlərının icra yerlərində həyata keçirilir. Mühasibat uçotu hesablarına yazılışlar fərdi kompüterin yaddaşında, mühasibat provodkaları klassifikatoru üzrə həyata keçirilir. Mühasibat hesablarının bağlanması, balans tərtibi və başqa hesabatlar proqramla reallaşdırılır. Inventarlaşdırma nəticələrinin aydınlaşdırılması və uyğun cədvəllərin tərtibi maşında icra edilir.

MUAS-ın təşkilinə (uçot informasiyasının işlənməsinə) müəyyən tələblər qoyulur:

1.İdarə aparatına istehsalın vəziyyəti haqqında informasiyalarla xidmət keyfiyyətinin yüksəldilməsi. Bu, uçot və təhlil funksiyalarının və habelə illik və dövrü hesabat formalarının avtomatlaşdırılmış icrasını nəzərdə tutur.

2.Göstəricilərin analitikliyinin genişlənməsi, giriş məlumatlarının operativliyi və etibarlığı, reqlament rejimində və sorğu-cavab rejimində mühasiblərin məlumat paketi və çıxış sənədlərilə optimal iş metodlarının tətbiqi hesabına uçotun keyfiyyətinin yüksəldilməsi.

3.Uçot-hesablama funksiyalarının avtomatlaşdırılması və bunun nəticəsində uçot aparatı işçilərinin əmək məhsuldarlığının yüksəldilməsi hesabına uçotun təşkilinin yaxşılaşdırılması və əmək tutumunun aşağı salınması.

Məsələlrin funksional tərkibi, uçot informasiyalarının işlənməsinin müasir vasitələrinin istismar imkanlarını və MUAS-a tələbləri nəzərə almaqla onlar aşağıdakı prinsiplərlə inkişaf etməlidir: uçot formalarının ratsionallığı, sistemliliyi, bütövlüyü, sistemin ətraf mühitə uyğunlaşması, məlumatların inteqrasiyası, massivlərin bankla təşkili, sənəd dövriyyəsinin avtomatlaşdırılması.

Avtomatlaşdırılmış uçotun həyata keçirilməsi üçün tətbiqi proqramların paketlərindən istifadə olunur. Təfərrüatlarda fərqlənən, TPP bazasında mühasibatın avtomatlaşdırılmış formaları ümumi prinsiplərlə xarakterizə olunur, onların arasında aşağıdakıları göstərmək kifayətdir: ilkin informasiyanın daxil olmasını minimuma endirmək; ilkin sənədlərin, xronoloji, analitik, sintetik, yekun uçot və hesabat registrlərinin avtomatlaşdırılmış formalaşdırılması imkanı (zəruri hallarda təkcə yerli deyil, həm də beynəlxalq standartların tələblərinə uyğun olaraq); məlumatların əsasnamələrə uyğun olaraq və sorğular əsasında aktlar, videoqrammalar, qrafiklər və digər əyani formalarda təqdim edilməsinin vaxtında aparılması; vahid maşındaxili informasiya fondunun yaradılması, məlumatların əldə edilməsinə, informasiyanın təhlükəsizliyinə və bütövlüyünə nəzarətin təmin edilməsi.

Mühasibat uçotunun təşkilində avtomatlaşdırılmış informasiya sistemlərini digər çoxsaylı məsələlərdə də oxşar prinsiplər üzrə istifadə edilir.

Nəticə. Müəssisə və təşkilatlarda idarəetmə uçotunun kompüterləşdirilmiş forması onların mühasibat aparatında təşkil edilir. Eyni zamanda təşkilata məxsus ayrı-ayrı təsərrüfat hesablı müəssisələrdə kompüterlərin quraşdırılması və onların modem-rabitə xətti vasitəsi ilə təşkilatın mühasibat aparatında quraşdırılmış kompüterə birləşdirilməsi ilə lokal idarəetmə şəbəkəsinin yaradılması məqsədəuyğundur.

VERGİ ÖDƏYİCİLƏRİNƏ TƏTBİQ EDİLƏN VERGİ GÜZƏŞTLƏRİNİN İQTİSADİ ƏSASLARI

Allahverdiyev Ö.T.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: omer-allahverdiyev@bk.ru

İnkişaf etmək istəyən dövlətin həyata keçirəcəyi siyasət alətlərindən biri də vergi ödəyicilərinə tətbiq edilən vergi güzəştləridir. Dövlət tərəfindən həyata keçiriləcək vergi güzəştləri vergi ödəyicilərinə ediləcək yeni tənzimləmələr şəklində özünü göstərir. Dövlət sektorunun maliyyələşdirilməsində ən mühüm

gəlirlərdən biri olan vergilər bu makroiqtisadi məqsədlərə çatmağın başqa bir yolu olan vergi güzəşti siyasətinin aləti kimi öz yerini tutmuşdur. Vergi inzibatçılığının nöqteyi-nəzərindən vergi güzəştləri qısamüddətli dövrdə buraxılan gəlirlərdən ibarətdir. Çünki vergi güzəştləri demək olar ki, hər bir vergi qanununda iqtisadi, sosial, inzibati və siyasi məqsədləri həyata keçirmək üçün tənzimlənir və əsas makroiqtisadi hədəflərin reallaşdırılmasına yönəlib. Vergi güzəştləri üçün başqa məqsədlə inkişafı arzulanan biznes subyektlərinə imtiyazların verilməsi və onların sektorlar üzrə arzu olunan səviyyəyə çatdırılması arzu edilir.

Vergi güzəştlərinin iqtisadi əsaslarını investisiya və inkişafa, regional, xarici kapitala, ixrac stimullarına bölünür. İqtisadi məzmununa görə vergi güzəştləri bunlardır: Xüsusi amortizasiya, investisiya güzəşti, gəlir və korporativ vergidən azadolma, ixrac kreditinin sığortası, ixrac vergisinin qaytarılması, güzəştli yük, yeni bazarlar, bina və avadanlıq subsidiyaları, aşağı faizli kreditlər, xüsusi reeskont krediti üzrə faiz xərcləri, faizlər və vergilər, geri qaytarmalar, gömrük ödənişləri, gömrük və fonddan azadolmalar, bina vergisindən azadolma, tədqiqat və inkişaf üçün subsidiya, lisenziya və nou-hau obyektləri, xarici kadrların işə götürülməsi, məhsuldarlıq və işçi qüvvəsi qabiliyyəti.

Türk alimləri Tekin, Ahmet həmmüəlliflərinin fikirlərincə, müəssisə, idarə və təşkilat baxımından həvəsləndirici vergi siyasətləri müəyyən gəlir və ya gəlirin vergidən azad edilməsi və ya verginin müxtəlif yollarla təxirə salınması kimi müəyyən edilir. Heler və Kauffmana görə vergi güzəştlərinin iqtisadi səmərəliliyi baxımından müxtəlif vergilərdən qismən və ya tam azad edilmə və xüsusi endirimlər və ya investisiyalar üçün sürətləndirilmiş amortizasiya kimi tətbiqlər daxildir.

İngilis alimləri Zee Howell H., G.,Stotsky, Eduardo, Ley həmmüəlliflərinin fikrincə, vergi güzəştlərininin hüquqi şəxslərə münasibətdə qanuni vergi güzəştləri və effektiv vergi güzəştləri kimi iki əsas qrupa bölürlər. Qanuni vergi güzəştləri xüsusi və ya güzəştli vergi müddəalarına tabe olmayan investisiya layihələrinə tətbiq edilən qanuni və daha əlverişli vergitutma praktikaları kimi müəyyən edilə bilər.

Türk alimi Çiloğlunun fikrincə, iqtisadi və sosial problemlərin həlli üçün istifadə edilən ictimai müdaxilə vasitələrindən biri olan dövlət yardımları olaraq da bilinən güzəştlər, xüsusilə sosial dövlət anlayışının inkişafı ilə çox əhəmiyyətli hala gəldi. Bu mənada iqtisadi məqsədlərlə yanaşı, stimullaşdırıcı təcrübələr, iqtisadi sabitlik və artım, regional balanssızlıqlar, miqrasiya və s. O, həm də bəzi sosial məqsədlər güdür. Əsasən bazar mexanizminə müdaxilə edən və resurslar müəyyən seqmentlərə (müəyyən sektor, bölgə və şirkət qrupu) yönəldiyi üçün haqsız rəqabət yaradan bu dövlət siyasətini əsaslandıran səbəb sosial məqsədlər və təmin edilən xarici faydalardır.

Vergi güzəştləri ümumiyyətlə iqtisadi, maliyyə və siyasi, sosial və inzibati məqsədlər üçün verilir. Müəssisələrə, firmalara, bir sözlə, hüquqi şəxslərə münasibətdə tətbiq edilən vergi güzəştlərinin iqtisadi səmərəlilik baxımından aşağıdakı növləri fərqləndirilir.

1.Çin, Yaponiya və Uzaq şərq ölkələrində tətbiq olunan "Aşağı gəlir və Korporativ vergi". Bu vergi güzəşti investisiya məqsədləri üçün gəlir və korporativ vergi dərəcələrini aşağı salmaqdır. Faizləri aşağı salmaq üçün bir neçə fərqli üsuldan istifadə edilə bilər. Onlardan biri ümumi vergi dərəcələrinin aşağı salınmasıdır. Aşağı gəlir və korporativ verginin öz stimullaşdırıcı təsiri var. Bu, investorlara daha çox qazanc əldə etməyə imkan verir. Qısa müddətdə ictimaiyyət üçün gəlir itkisi olsa da, uzunmüddətli dövr üçün əlavə investisiyalar və vergi yükünün yüngülləşdirilməsi kimi səbəblərdən vergi bazasının genişlənəcəyi və vergi daxilolmalarının artacağı gözlənilir. Digər yol budur ki, aşağı faizdən yalnız bəzi sektorlar, regionlar və ya layihələr faydalana bilər. Bu halda, güzəştli tarifdən faydalananların əhatə dairəsi daraldığı üçün xalq üçün gəlir itkisindəki azalma məhdudlaşacaq. İnvestorlar üçün isə əhatə dairəsinin daralması ilə əlaqədar olaraq əlavə investisiyalar aşağı səviyyədə qala bilər. Aşağı dərəcəli vergitutma müəyyən müddətlə məhdudlaşırsa, təşviq proqramında vergi qənaəti vergi endirimi dərəcəsindən və zərərin sonrakı köçürülməsindən asılı olaraq dəyişir. Əgər firma çıxılan xərcləri və zərərlərini gələcəyə təxirə sala bilirsə, normal korporativ vergi dərəcəsinə qayıtdıqda vergi qənaəti daha yüksək hesab olunur.

2.Amerika Birləşmiş Ştatları və Türkiyə Respublikasında tətbiq olunan "Vergi tətili". Vergi tətilləri müəyyən edilmiş ərazilərdə müəyyən müddət ərzində vergilərin ödənilməməsi şəklində tətbiq edilən vergi güzəşti növüdür. Başqa sözlə, müəyyən müddət üçün verginin ləğvi və ya daha aşağı vergi dərəcələri, istisnalar və istisnalar şəklində imtiyazların tətbiqinə aiddir. Vergi tətili ilə tətil dövründə investisiya layihəsindən əldə edilən gəliri vergidən azad etməklə əməliyyat dövründə investisiyanın gəlirliliyini artırmaq məqsədi daşıyır. Tətil müddəti ölkədən ölkəyə fərqli olsa da, adətən 5-10 il arasında müəyyən edilir. Xüsusilə ümumi vergi sistemində "Mənfəət və Korporativ Vergilərin" payının böyük olduğu ölkələrdə bu həvəsləndirici alətin əhəmiyyəti daha da artır. Bu güzəştlər inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş

ölkələrlə müqayisədə ümumi vergi güzəştləri növüdür və demək olar ki, bütün Avropa İttifaqı ölkələrində tətbiq olunur.

3.Ərəb ölkələrində tətbiq olunan "Vergi cənnəti". Bu, "Mənfəət və Korporativ Vergisi"-nin qeyri-müəyyən müddətə tamamilə ləğvidir. Geniş istifadə edilməsə də, bəzi ada dövlətlərində və ya bəzi ölkələrin bəzi hissələrində (azad zonalar və ya nisbətən zəif inkişaf etmiş ərazilərdə) tətbiqlərinə rast gəlinir. Bəzi ada dövlətləri vergi səma sistemini seçiblər. Onlar ümumiyyətlə, birbaşa vergiləri ləğv edir və yalnız dolayı vergitutmadan ibarət olan vergi sistemini tətbiq edirlər. Bəzi digər ölkələr bu cür təcrübələri yalnız ixrac yönümlü xüsusi azad zonalar üçün tətbiq edirlər. Vergi cənnətləri adlandırılan bəzi ölkələr birbaşa xarici investisiyaların cəlb edilməsində uğurlu görünür. Ancaq uğurlu hesab edilən sahələr geniş əhatəli deyil, mobil şirkətlər kimi müəyyən edilə bilən bank və sığorta şirkətlərinin mərkəzləridir.

Nəticə. Fikrimizcə, vergi güzəştlərinin iqtisadi əsasları və səmərəliliyi dedikdə bu güzəştlərin iqtisadi subyektinin təsərrüfat fəaliyyətinə təsiri başa düşülür. Bu halda iqtisadi səmərəlilik göstəriciləri kimi yerinə yetirilən işlərin, yerinə yetirilmiş xidmətlərin həcminin artması, əsas vəsaitlərin alınması və yenilənməsi, innovativ texnologiyaların istehsal prosesinə tətbiqi çıxış edir. Bu zaman güzəşt hüququndan istifadə edən vergi ödəyicilərinin malların təqdim edilməsi, xidmətlərin göstərilməsi və işlərin yerinə yetirilməsindən əldə etdikləri vəsaitin artımı büdcənin həmin sahələr üzrə vergi güzəştlərindən itkilərinin həcmindən çox olmalıdır. Vergi güzəştlərinin iqtisadi əsaslarını müvafiq olaraq aşağıdakı kimi sadalaya bilərik. 1.Əmanətlərin və investisiyaların həcminin artırılması. 2. İnvestisiyaların müəyyən sahələrə və regionlara yönəldilməsi. 3.Vergilərin iqtisadi qərarlara mənfi təsirlərinin aradan qaldırılması. 4.İqtisadi sabitliyin təmin edilməsi və inflyasiya təsirlərinin aradan qaldırılması 5.Məşğulluğun stimullaşdırılması. 6.İxracın, valyuta gəlirli əməliyyatların və beynəlxalq rəqabət qabiliyyətinin artırılması 7.Yeni yaradılmış sənaye sahələrinin qorunması və xarici təsirlər.

AUDİT FƏALİYYƏTİNDƏ TEXNOLOJİ YENİLİKLƏRİN ROLU

Aydəmirov M.M.
Bakı Biznes Universiteti
E-mail: mubarekmubarizoglu@gmail.ru

Rəqəmsal çevrilmə və ya auditin avtomatlaşdırılması auditorların rolunu dəyişdirir. Bu gün auditorlar kompüterləşdirilmiş alətlərlə təchiz olunsa da (məsələn, Microsoft Excel, CaseWare IDEA, Galvanize və s.) iş sənədlərini sənədləşdirmək və yoxlama aparmaq üçün prosedurlarda insan əməyi üstünlük təşkil edir. Müştəri məlumatların təmizlənməsi, məlumat emalı və qayda əsaslı məlumat analizi (Moffitt, Rozario və Vasarhelyi, 2018; Cohen, Rozario və Zhang, 2019) audit avtomatlaşdırma vasitələri ilə, audit məlumat standartlarına (ADS) əsaslanaraq aparılır. Bu isə insan əməyini əhəmiyyətli dərəcədə azaldır. Bu sistemlər həmçinin, nəzərəçarpacaq dərəcədə vaxta qənaət etməklə yanaşı, daha az vaxtda səhvlərin də aşkarlanması deməkdir.

Texnologiya həm auditin keyfiyyətini artırmaq, həm də dəyər əlavə etmək qabiliyyəti təklif edir. Yəni sistemlər optimal auditə və sürətli proqnozlaşdırıcılığa, qısa vaxt ərzində dəqiq qərara xidmət edir. Buna baxmayaraq, süni zəka və əlaqəli texnologiyalar tam tətbiq olunursa, auditorun müstəqilliyi ilə bağlı suallar yarada bilər

Müasir təşkilatlar, şirkətlər, dəqiq qərarın qəbul edilməsi üçün süni intellektdən istifadə edirlər. IBM prezidenti və icraçı direktoru Ginni Rometty, süni zəkanın və idrak texnologiyalarının bir neçə il ərzində bütün əsas qərar qəbuletmə vəziyyətlərində (fərdi və ya korporativ) rol oynayacağını bildirir. Süni intellekt tətbiqetmələrinin istehsaldan marketinqə, auditə qədər geniş miqyasda istifadə olunacağını təxmin etmək çətin deyil. Şübhəsiz ki, dördüncü sənaye inqilabı ilə sənaye istehsalı bu sahələrə daxil ediləcək və hətta olacaqdır.

Müasir dövrdə audit fəaliyyətini qüsursuz və şəffaf etmək üçün hazırlanmış KPMG-nin ağıllı idarəetmə platforması "KPMG Clara"nın tətbiqi ilə başlanmışdır. Bu etibarlı platforma, yoxlamaların vəziyyəti ilə bağlı dəyərli məlumat daxil olmaqla, vacib məlumat mübadiləsi üçün vahid bir mənbə rolunu oynayan mərkəzləşdirilmiş bir portal təklif edir. Tək bir ağıllı platformada inkişaf etmiş, analitik bacarıqları özündə cəmləşdirir və ən müasir idrak və süni İntellekt həllərini problemsiz bir şəkildə həyata keçirir. Bu, KPMG mütəxəssislərinə audit proseslərində risklər və anomaliyalar haqqında daha geniş və daha dərindən məlumat verən qabaqcıl texnologiyalardan faydalanmağa imkan verir.

KPMG-in süni intellektlə təchiz olunan forması yoxlamalar, texnologiya və imkanları optimal hala gətirmək üçün çalışır. Platforma KPMG-nin qabaqcıl texnoloji şirkətləri IBM Watson və Microsoft ilə ortaqlığın nəticəsində formalaşmışdır.

Tezisdə süni intellektin rəqəmsal texnologiyaya sintezi, yeni avtomatlaşmış sistemin formalaşması və onun audit fəaliyyətində vacib faktora çevrilməsi məsələsinin kompleks qiymətləndirilməsi, irəli sürülən maraqlı elmi mülahizələr, təklif və tövsiyyələr tezisin elmi yeniliyi kimi qəbul edilməlidir.

Tezisdən auditorlar, həmçinin, rəqəmsal çevrilmə, avtomatlaşma və müasir aduitor fəaliyyətində onun rolunun dəyərləndirilməsi üzrə tədqiqat aparan şəxslər istifadə edə bilər.

Tezisdə istifadə etdiyimiz məlumatlardan belə nəticəyə gələ bilərik ki, rəqəmsal texnologiyanin audit fəaliyyətində tətbiqi hələ ilkin mərhələdədir. Hazırkı dövrdə audit fəaliyyətində rəqəmsal texnologiyanın tətbiqi və audit fəaliyyətinin avtomatlaşmasına xüsusi tələblər mövcuddur. Çünki, rəqəmsal texnologiya audit fəaliyyətində cari zamanda çevik qərar verməyə, şəffaf və dəqiq audit aparmağa geniş imkanlar tanıyır. Ağıllı auditin yaxın gələcəkdə dünya ölkələrində aparıcı rola sahib olacağı gözlənilir. Buna görə də yeni rəqəmsal texnologiya və avtomatlaşmış sistem ilə işləyə bilən kadr kütləsinə xüsusi ehtiyac var. Beləliklə, audit fəaliyyətində rəqəmsal texnologiyanın tətbiqi auditorların işinin asanlaşdırılması yanaşı, şirkətlərə müasir və daha şəffaf, obyektiv audit sisteminin təklif olunması deməkdir.

MALİYYƏ SABİTLİYİ VƏ İQTİSADİ ARTIŞ ARASINDAKI MÜNASİBƏT

Balabəyov Y.X.
Bakı Biznes Universiteti
E-mail: yusifbalabeyov0629@gmail.com

İqtisadiyyatda bazarlar iki qrupa bölünür. Əmtəə və xidmətlərin və onların istehsalında istifadə olunan istehsal amillərinin alınaraq satıldığı bazarlara real bazarlar, maliyyə bazarları isə vəsaitləri təqdim edənlərlə tələb edənlər arasında pul mübadiləsinin aparıldığı, pul vəsaitlərinin köçürüldüyü bazarlardır. izafi vəsaiti olan vahidlərdən çatışmayan vahidlərə qədər baş verir. Maliyyə sistemi fond təchizatçılarından və fond tələb edənlərdən, maliyyə institutlarından, maliyyə alətlərindən və hüquqi-institusional tənzimləmələrdən ibarətdir. Maliyyə sistemində vəsait təmin edənlər yığımçılar, gəlirlərindən çox xərcləyənlər isə vəsait tələb edənlərdir .Buna görə də maliyyə sistemi maliyyə bazarlarını özündə birləşdirən daha geniş bir anlayış kimi meydana çıxır. Maliyyə sisteminin fəaliyyət göstərdiyi ölkələrdə hüquqi və inzibati qaydalar maliyyə bazarlarında əməliyyatların rəvan işləməsini təmin edir və qurumlarla təsərrüfat vahidləri arasında əlaqəni birbaşa müəyyən edir.Maliyyə sistemi izafi vəsaiti olan bölmələrin bütün gəlirlərini xərcləməyən vəsaitlərinin öz gəlirlərindən daha çox vəsaitə ehtiyacı olan bölmələrə köçürülməsini, başqa sözlə, fondu reallaşdırmaqla əmanətlərin investisiyalara köçürülməsini təmin edir.

Maliyyə sisteminin funksiyası maliyyə bazarları və vasitəçilər vasitəsilə resursların səmərəli bölüşdürülməsini təmin etməkdir. Levin bu əsas funksiyanı aşağıdakı kimi izah etmişdir. Ticarətin asanlaşdırılması, risklərin məhdudlaşdırılması, konsolidasiyası və diversifikasiyası, Resursların və investisiyaların bölüşdürülməsinə dair məlumatların toplanması, Korporativ audit və monitorinq menecerlərinin həyata keçirilməsi, Əmanətlərin səfərbər edilməsi, Mal və xidmətlərin ticarətinin asanlaşdırılması. Maliyyə sisteminin əsas funksiyası artıq vəsaitləri olan əmanətçilərdən vəsaitləri fond kəsiri olan investorlara köçürməkdir. Maliyyə bazarları, səmərəli investisiya imkanları olmayan insanlardan səmərəli investisiya imkanlarına malik olan insanlara fondun hərəkətinə imkan verdiyi üçün iqtisadi səmərəliliyə töhfə verir. Maliyyə bazarlarında, bu bazarlarda fəaliyyət göstərən qurumlarda və ödəniş sistemlərindəki sabitliyi və şoklara qarşı müqaviməti ifadə edir. Bu sahələrdə sabitlik ümumilikdə maliyyə sisteminin sağlam və dayanıqlı işləməsini, beləliklə, iqtisadiyyatda resursların məhsuldar şəkildə bölüşdürülməsini və risklərin düzgün idarə olunmasını və bölüşdürülməsini özü ilə gətirir. Məlum məsələdir ki, maliyyə qeyri-sabitliyi iqtisadiyyatda ciddi problemlər yaradacaq və maliyyə böhranlarının baha olması maliyyə sabitliyinin vacibliyindən xəbər verir. kimi izah edir.

ABŞ Federal Ehtiyat Sistemi (2021) maliyyə sabitliyini yaxşı və pis vaxtlarda fəaliyyət göstərə bilən və iqtisadiyyatda hər an baş verə biləcək yaxşı və pis vəziyyətləri qəbul edə bilən maliyyə sistemi kimi müəyyən edir. Maliyyə institutları və maliyyə bazarları iqtisadi vahidləri ehtiyac duyduqları resurslar, xidmətlər və məhsullarla təmin edə bildikdə maliyyə sistemi sabit hesab olunur. Maliyyə sistemi yaxşı işlədiyi halda, bu sistem əmanətlərin daha səmərəli investisiyalara çevrilməsini təşviq edir, bununla da iqtisadi artım və məşğulluq təmin edilir. Avropa Mərkəzi Bankı (ECB) (2021) maliyyə sabitliyini maliyyə

sisteminin şoklara və maliyyə balanssızlıqlarına ciddi pozulmadan tab gətirə biləcəyi bir dövlət kimi müəyyən edir. Sabitlik vəziyyətində maliyyə vasitəçiliyi prosesində real iqtisadi fəaliyyətə mənfi təsir edəcək qədər ciddi pozuntuların baş vermə ehtimalı azalır. Başqa sözlə desək, şok vəziyyətində insanların hələ də bank hesablarına çıxışı var, müəssisələr ödəniş edə bilər, investorlar ticarəti davam etdirə, banklar bir-birindən və ya mərkəzi bankdan borc götürərək özlərini yenidən maliyyələşdirə bilərlər. Maliyyə sabitliyi ilə bağlı araşdırmaların əksəriyyətində sabitlik maliyyə qeyri-sabitliyi ilə izah olunur. Yenə bəzi araşdırmalarda maliyyə sabitliyi maliyyə qeyri-sabitliyinin əksinə olaraq qiymətləndirilmişdir. Şübhəsiz ki, maliyyə sabitliyini başa düşmək üçün onu sabitliyi pozan ən mühüm amillərdən biri olan maliyyə qeyri-sabitliyi də bilinməlidir. Son zamanlar dövlət siyasətinin onların maliyyə sabitliyinə marağını artırmasının səbəblərindən biri də maliyyə qeyri-sabitliyinin iqtisadiyyat və sosial həyata mənfi təsirləri hesab olunur. Tarixə nəzər saldıqda iqtisadiyyatda konkret olaraq görünən vəziyyətlər maliyyə qeyri-sabitliyidir. Bunun ən mühüm nümunələrindən biri 1930-cu ilin böyük depressiyası idi.Maliyyə böhranı vəziyyətlərində maliyyə qeyri-sabitliyi dövrləri yaşanır. Bu dövrdə iqtisadi vahidlər çoxlu maliyyə böhranları yaşayır və bu böhranlar ciddi makroiqtisadi mənfi təsirlərə səbəb olur. Əgər ev təsərrüfatları maliyyə böhranlarından təsirlənməyən davranışlarına baxmayaraq hesablarını ödəmirlərsə və ümumi istehlak xərcləri birdən-birə azalırsa və ya ehtiyatla idarə olunan şirkətlər qəfil maliyyə çətinlikləri yaşayırsa və şirkətin ümumi xərcləri azalırsa, bu, maliyyə böhranını göstərir.

Maliyyə vasitəçiləri, xüsusən də banklar, iqtisadiyyat üçün məhsuldar investisiyaları asanlaşdıran fəaliyyətlərdə məlumat istehsal etmək üçün çox uyğun olduqları üçün maliyyə bazarlarında çox mühüm yer tuturlar. Bu qurumların bilik istehsalının azalması kreditlərin, birbaşa investisiyaların azalmasına və iqtisadi artıma səbəb ola bilər. Maliyyə sistemindəki sarsıntılar mənfi seçim və mənəvi təhlükə yaratdıqda, məhsuldar investisiya imkanlarını ayırd etmək çətin olacaq. Belə olan halda kreditin olmaması fərdlərin və firmaların xərclərini azaltmağa, iqtisadi daralmaya səbəb olur. Bu amilin artması asimmetrikdir. Maliyyə sektorunun balans hesabatlarında təhriflər: Bankların və ya digər maliyyə vasitəçilərinin balans hesabatlarının pisləşməsi ciddidirsə, bu, bank panikalarına və bankların iflasına səbəb olur. Hökumətin təhlükəsizlik şəbəkəsi olmadığı halda, bir bankdakı uğursuzluq digər banklara da sirayət edə bilər. Çirklənmə mənbəyi asimmetrik məlumatdır. Çaxnaşma içində əmanətçilər əmanətlərinin təhlükəsizliyindən qorxurlar və əmanətlərini banklardan götürürlər, bu isə əmanətlərin və kreditlərin dəfələrlə azalmasına səbəb olur. Faiz dərəcələrindəki artımlar: Faiz dərəcələrindəki artımlar bank balanslarına mənfi təsir göstərə bilər. Faiz dərəcələrinin artması birbaşa xalis dəyərin azalmasına səbəb olur və aktivlərin dəyərini daha uzun müddətə azaldır. Qeyri-müəyyənliyin artması: Maliyyə bazarlarında qeyri-müəyyənliyin artması kreditorlar üçün yaxşı kredit risklərini pis risklərdən ayırmağı çətinləşdirir. Mənfi seçim və mənəvi təhlükə problemlərini həll etmək üçün kreditorlar kredit verməyə daha az həvəslidirlər və nəticədə investisiyaların azalması baş verir. Qeyri-maliyyə balanslarının pisləşməsi: Qeyri-maliyyə firmalarının balans hesabatlarında pisləşmə baş verərsə, bu, maliyyə bazarlarında həm mənfi seçim, həm də mənəvi təhlükə problemlərinə təsir edir və bununla da maliyyə qeyri-sabitliyinə gətirib çıxarır. Məsələn, kreditorlar girovdan mühüm təminat kimi istifadə edirlər və belə güman edilir ki, girov əlverişsiz vəziyyətlərin nəticələrini azaldır. Borcalan krediti ödəmədiyi təqdirdə, bank girovu ləğv etməklə itkilərinin bir hissəsini ödəyə bilər. Bununla belə, bir iqtisadiyyatda aktivlərin qiymətləri aşağı düşərsə, girovun dəyəri də azalacaq və bu, asimmetrik məlumat probleminin artmasına səbəb olacaqdır. Maliyyə vasitəçilərindəki qeyri-sabitlik mənbələrini və aktivlərin qiymətlərində həddindən artıq dəyişkənliyə səbəb olan amilləri araşdıraraq maliyyə qeyri-sabitliyinin mənbələrindən bəhs edir.

ÜZÜMÜN FİZİKİ-KİMYƏVİ VƏ MEXANİKİ CƏHƏTDƏN SƏCİYYƏLƏNDİRİLMƏSİ

Balaşzadə A.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti
E.mail: ayka.miriyeva95@gmail.com

Bilindiyi kimi üzüm gilələri yaxşi inkişaf etmiş qabıqla örtülmüş giləmeyvə olub, bərk və xırda toxumlara malikdir. Gilədən başqa üzüm salxımı daraqdan ibarətdir ki, burada şirə miqdarı və salxımın struktur elementləri (daraq, qabıq, toxumlar, lətin kobud toxuması) arasındakı nisbət müxtəlif sortlar üzrə xeyli dəyişə bilir və onların istifadə olunma istiqamətini müəyyənləşdirir.

Azərbaycanın ən qədim, qiymətli texniki üzüm sortlarından biri Mədrəsə sortudur.

Sort şərq qrupunun texniki üzüm sortları yarımqrupuna mənsubdur. Yarpaqları orta ölçüdə olub, dəyirmi formadadır, 5 dilimlidir.

Ayanın kəsikləri dərin və çox dərin, üzəri hamar olub, üst səthi tünd-yaşıl, alt səthi isə açıq-yaşıl rəngdədir. Yuxarı kəsikləri dərin və çox dərin, bağlı olub, enli ellipsvari formadadır. Tək-tək hallarda yuxarı kəsiklər açıq olub, tərəfləri paralel olan liraşəkilli formadadır. Aşağı kəsikləri dayaz və orta dərinlikdə olub, liraşəkilli və girdə formadadır. Saplaq oyuğu açıq olub, forması tağşəkillidir. Dilimlərin ucundakı dişciklər kifayət qədər iri olub, tərəfləri düz, iti uclu üçbucaqşəkillidir. Çiçəyi ikicinslidir. Salxımları xırda, orta və iri ölçüdə (uzunluğu 9-20 sm, eni 7-14 sm) olub, konusvari yaxud qanadlıdır. Orta sıxlıqda və seyrəkdir. Gilələri orta ölçüdə (uzunluğu 13-18 mm, eni 11-17 mm), dəyirmi formada, tünd-sürməyi, yaxud qara rəngdə olub, simmetrikdir. Qabığı orta qalınlıqda olub, üzəri mum təbəqəsi ilə örtülüdür. Lətdən asanlıqla ayrılır. Ləti şirəlidir. Xüsusi ətiri vardır. Giləsində 1-2 ədəd toxum inkişaf edir. Sort orta dövrdə yetişir. Gilələrinin tam yetişməsi sentyabr ayının ikinci ongünlüyündə müşahidə olunur. Vegetasiya müddəti 145 gün sürür. Kollarının böyümə gücü yüksəkdir (268,8 sm). Zoğları yaxşı yetişir (84,8%). Çiçəklərinin tökülmə dərəcəsi 63,7%, salxımlarda noxudlaşmış gilələrin miqdarı 16,4% təşkil edir. Sort Abşeron şəraitində oidium və antraknoz xəstəliyinə tolerantlıq nümayiş etdirir (3-3,5 bal), boz çürümə xəstəliyinə qarşı isə davamlılığı (2 bal) ilə seçilir.

Yüksək məhsuldar sortdur. Barlı zoğların miqdarı 70,2%; bar əmsalı 0,97; məhsuldarlıq əmsalı 1,37; salxımlarm sayı 34 ədəd; salxımların orta kütləsi 136 q; məhsuldarlığı 4,5 kq; hektardan məhsuldarlıq 99,3 s/ha-dır. Sort tipik texniki istiqamətlidir. Salxımlarının ümumi kütləsinə görə şirə çıxımı 85,6%, qabıq və lətin qalığı 8,4%, daraq 3,0%, toxum 3,0% olmuşdur. 100 gilənin kütləsi 158,0 q, 100 toxumun kütləsi 3,3 q-dır. Gilələrində şəkərlilik 19,0 q/100 sm^3, titrləşən turşuluq 4,80 q/dm^3-dir. Mədrəsə sortunım məhsulu yüksək keyfiyyətli qırmızı süfrə şərablarının və desert tipli (kaqor) şərabların alınması üçün olduqca yararlıdır. Mədrəsə şərabı keyfıyyəti ilə nəinki respublikamızda, hətta dünyada da məhşurdur. Respublikanın əksər bölgələrində rayonlaşdırılaraq (Kürkənarı suvarılan ovalıq, Şirvan-Qarabağ suvarılan ovalıq, Dağətəyi çöl. Alçaq dağlıq və Şəki-Zaqatala zonaları) əkilib-becərilir.

Ümumi halda bütün sortlardan olan üzümün kimyəvi tərkibi karbohidratlardan, üzvi turşulardan, fenol birləşmələrindən, azotlu və mineral maddələrdən, vitaminlərdən, yağlardan və qeyrilərindən təşkil olunmuşdur və tərkibi aşağıdakı cədvəldə göstərilmişdir.

Tərkib göstəriciləri	Daraq	Qabıq	Toxum	Lət
Su	55-80	60-80	25-50	60-90
Azotlu maddələr	0,7-2,0	0,8-2,0	0,8-1,2	0,2-1,4
Azotsuz maddələr	2,1	20,0	19,0	10,2-40,0
Sellüloza	5,0	4,0	28,0	çox az
Kül	1-2	0,5-1,0	1,2-2,9	0,2-0,6
Şəkər	iz	çox az	-	5-32
Alma turşusu	0,3	-	-	0,1-1,5
Şərab turşusu	iz	çox az	-	0,4-1,0
Fenol maddələri	1,2-5,4	0,5-4,0	2-8	iz
Yağlar	-	0,1	10-24	0,2-0,5

Qiymətli yerli texniki sortlardan biri də Bayanşirədir. Bu sort gecyetişəndir. Gəncədə sentyabrın ikinci yarısında yetişir. Hər hektardan 16-20 ton üzüm verməklə salxımının orta çəkisi 194 q, bəzi sahələrdə yüksək aqrotexnika tətbiq olunduqda daha yüksək məhsul verir. Şəkərliliyi suvarılan rayonlarda 16,5-21,4%, titrləşən turşuluğu 3,8-6,9 q/dm^3 -dır.

Salxımı orta və iri, silindirik konusvari, sıx yaxud çox sıxdır. Giləsi orta və iri, demək olar ki, yumru, yaşıl-sarı rəngdədir. Mum təbəqəsi ilə örtülüdür.

Üzümün emalı zamanı yuxarıda qeyd olunan maddələr qıcqırma prosesinə məruz qaldıqdan sonra şəraba keçir və eyni zamanda onlar mürəkkəb fiziki-kimyəvi və biokimyəvi çevrilmələrə uğrayaraq, yeni maddələrin əmələ gəlməsinə səbəb olurlar.

Üzümün əsəs dəyərli hissəsi onun şirəsidir. Ancaq digər struktur elementləri də emal nəticəsində alınan məhsulların keyfiyyətinə (aşı, rəngləyici, qabığın və toxumun ətiryaradan birləşmələri ilə şərabı əzintidə saxladıqda və qıcqırtdıqda zənginləşdirməklə, daraqdan Kaxet şərabı hazırladıqda istifadə etməklə) təsir göstərmək imkanına malikdirlər.

RESPUBLİKAMIZDA ÜZÜMÇÜLÜK VƏ ŞƏRABÇILIĞIN PERSPEKTİVLƏRİ

Balaşzadə A.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti
E.mail: ayka.miriyeva95@gmail.com

Üzümçülük və şərabçılıq müasir kənd təsərrüfatının əsas gəlirli sahələrindən biridir. Bu sahədə istehsal edilən məhsullar müxtəlifliyi və çox geniş çeşidliliyi ilə xarakterizə olunur. Üzümçülük ən qədim zamanlardan bəri Azərbaycan xalqının həyatında və iqtisadiyyatında çox mühüm rol oynamış kənd təsərrrüfatı sahələrindəndir.

Respublikamız torpaq-iqlim şəraitinin əlverişliliyi baxımından ən öncül ölkələrdən biri olduğu üçün torpağımızda hələ qədim dövrlərdə üzümçülük yüksək inkişaf etmişdir. Kənd təsərrüfatı sahələri arasında üzümçülük hər yüz hektar torpaq sahələri üzrə ümumi məhsulun buraxılışı və məvacib əldə olunmasına görə ən yüksək göstəricilərə malikdirlər. Hal-hazırda bu sahədə respublikamızda istehsal cəmində əsas mühüm yerlərdən birini tutur. İndiki dövrdə regionlarda yeni üzümçülük plantasiyaları salınır, məhz buna görədir ki, şərabçılıq məhsullarının istehsalı yeni texnologiya üsulları ilə artırılır. Şərabçılıq sahəsinin inkişafı sayəsində ilbə il artan ümumi gəlirlərin heç bir başqa sahələrdə bu gəliri əldə etmək mümkün deyildir. Ölkəmizdə istehsal olunan şərablara hər zaman yüksək qiymət verilir.

Ölkəmizdə şərabçıların bir çoxu vaxtilə bir çox beynəlxalq sərgilərdə, dequstasiyalarda yüksək keyfiyyətli şərablara görə mükafatlara layiq görülmüşdür. Bizim ölkəmizin münbit torpaqları olduğu üçün üzümçülük Azərbaycan şərabları və konyaklarının istehsalını genişləndirmək mümkündür.

Respubilkamızda istehsal edilən yüksək keyfiyyətli desert və süfrə şərabları, konyak və şampan növlü içlikər bir çox beynəlxalq sərgilərdə nümayiş olunur, dequstasiya və yarmarkalarda dörd Qran-pri mükafatı 46 qızıl, 49 gümüş və 3 bürünc medalla təltif edilmişdir. Vaxtı ilə Azərbaycanda istehsal olunan şərabçılıq məhsullarının çeşidləri Almaniyaya, Macarıstana, Polşaya, Bolqarıstana, Çexiyaya, Kubaya və Monqolustan kimi ölkələrə ixrac edilirdi. İndi də "Made in Azerbaijan" brendi şərabları xarici ölkələrdə olan bazarlarda özünə məxsus yer tuturlar. Hal-hazırkı dövrdə Azərbaycanda istehsal edilən şərab məhsulları, idxal edilən şərablardan daha keyfiyyətlidir. Şərabçılıq sənayesi hüquqi bazasının möhkəmləndirmək niyyətilə Ölkəmizdə məıqsədyönlü dövlət proqramları işlənib hazırlanmışdır.

Qiymət, kredit və vergi sistemləri daha da inkişaf etdirilmiş, lisenziya və sertifikatlaşdırma qaydaları yenidən müzakirə edilmişdir. Bunların sayəsində Azərbaycan da inkişaf etmiş şərabçılıq ölkəsinə çevrilir və Azərbaycan şərabları artıq dünya şöhrəti qazanmışdır. AZPROMO ixracat və İnvestisiyaların Təşviqi Fondunun köməkliyilə ilə Vaşınqtonda Azərbaycan şərablarının dequstasiyası keçirilmişdir. Aksiya çərçivəsində "Aspi Wineries", "Abşeron Şərab", "Caspian Coast", "AzQranata", "VinAqroGöygöl", "Şərq Ulduzu" şərabçılıq müəssisələrində istehsal olunmuş şərablar dequstasiyadan uğurla keçmişdir. Ekspertlərin birgə gəldiyi qənaətlərə görə Azərbaycan şərablarının ABŞ bazarında yüksək rəqabət aparma qabiliyyətinə malikdirlər.

Hazırda Respublikamızda üzümlüklərin ümumi sahələri 16,3 min hektara qədər çatdırılmışdır. Ötən il plantasiyalardan 150,9 min tondan artıq üzüm məhsulları tədarük olunmuş və keyfiyyət baxımından yüksək olan şərablar istehsal edilmişdir. Şərabçılıq məhsullarının ixracı 3,5 mln dolları həcmində göstərilmişdir. 2021-2022-ci illərdə şərabçılıq məhsullarının ixracını demək olar ki, 5 dəfədən çox artırmaq nəzərdə tutulmuşdur.

İndi Azərbaycanda Respubilkasında 40-dan çox üzüm emalı müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələrin müxtəlif növdə olan şərabların, konyak materialların və sair bu sahədə tanınmış müxtəlif ölkələr buna misal olaraq Fransa, Almaniya, İsveç kimi böyük ölkələrə ixrac olunur.

Respublikada üzümçülüyün sonrakı dövrlərdə inkişafı üzrə mühüm vəzifələr olaraq müasir bazar tələbləri səviyyəsində yüksəltmək üzümçülük və onun emalı sənayesinin tələblərinin təmin etmək məqsədləri ilə yeni üzümçülük plantasiyalarının salınması nəzərdə tutulur. Süfrə və texniki üzüm sortları əkin yerlərinin genişləndirilməsi sahəsində yüksək səviyyədə çalışırlar. Tinglik təsərrüfatlarının yaradılması və eyni müddətdə üzümçülük təsərrüfatları üçün əsas və köməkçi materialların istehsalının təşkil olunması geniş miqyasda bu sahənin inkişafını təşviq edəcəkdir.

Son illər ərzində bütün sahələrdə olduğu kimi aqrar bölmədə də həyata keçirilən iqtisadi islahatları kənd təsərrüfatı məhsullarının, o cümlədən üzümçülük və şərabçılıq məhsulları istehsalının artırılması və respublika əhalisinin ərzaq məhsullarına tələbatının təmin olunması üçün real zəmin yaratmışdır.

İNNOVATİV İNSAN KAPİTALI İNNOVASİYA YÖNÜMLÜ İQTİSADİYYATIN İNKİŞAF AMİLİ KİMİ

Bayramov A.A.
Sumqayıt Dövlət Universiteti
E-mail: aalim0092@gmail.com

İnnovativ insan kapitalı dedikdə, əlavə gəlirin əldə olunmasına kömək edən və yeni məhsulun (mal və ya xidmətlərin) hazırlanması və həyata keçirilməsi, yeni istehsal proseslərinin təşkilində istifadə üçün zəruri olan peşəkar bilik və bacarıqlar nəzərdə tutulur. Belə başa düşülür ki, hər bir mütəxəssisin bilik və bacarıqlardan ibarət müəyyən kapitalı olur və öz karyerasında tətbiqini tapır. Ən əsası odur ki, yuxarıda sadalananların hamısı bazar tərəfindən tələb olunsun, yəni onların öz qiyməti və rəqabət qabiliyyəti olmalıdır. Hər bir vətəndaş üçün insan kapitalı öz gələcəyinə və ölkənin gələcəyinə qoyulan təkcə pul kapitalı deyil, həm də intellektual kapitaldır. Buna görə də, insan kapitalına iqtisadiyyatın innovativ modelində aparıcı rol verilməlidir.

İnnovativ insan kapitalı konsepsiyası böyük tutumludur və müxtəlif fəaliyyət sahələrində (texniki və təbiət elmləri, marketinq və idarəetmə texnologiyaları və s.) sahibkarlıq qabiliyyətinə malik olan yaradıcı düşünən insanların bilik və təcrübəsini özündə birləşdirir. Müvafiq olaraq, belə bir bacarıq və qabiliyyət əhəmiyyətli investisiya tələb edir. İnsan kapitalının ümumi nəzəriyyəsində investisiyalar təhsil, səhiyyə və onun insan hərəkətliliyi xərcləri ilə əhatəl olunur. "İnnovativ insan kapitalı" konsepsiyasının məzmun əsası daha çox işçinin spesifik innovativ komponentlərinin (yalnız yüksək ixtisaslı mütəxəssislərin malik olduğu xüsusi bacarıqların) formalaşması ilə əlaqəli "dar" investisiyalara yönəldilmişdir. Söhbət yalnız rəsmi təhsil müəssisələrində əldə edilə bilən və işçinin bütün həyatı boyu bu təhsilin lazımi səviyyədə saxlanması üçün daimi investisiya tələb edən xüsusi təhsildən gedir.

İnnovativ insan kapitalını şərtləndirən amillər qrupunu müəyyən edərək, bunlar arasında aşağıdakıları qeyd edə bilərik: informasiyanın ötürülmə sürətinin, bilik və bacarıqların artdığı fərqli informasiya məkanını formalaşdıran qloballaşma; biliklərin, metodların, texnologiyaların kollektiv istifadəsini təşviq edən, bununla da milli iqtisadiyyatların inkişafını stimullaşdıran miqrasiyanın transformasiyası; transmilli şirkətlərin bölmələri daxilində bir ölkədən digərinə köçməklə həyata keçirilən transsərhəd karyeranın formalaşması.

İnnovativ insan kapitalı iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsini təmin etdiyinə, sosial-iqtisadi inkişafın aparıcı göstəricisi olan əlverişli innovasiya mühitini formalaşdırdığına görə həm ölkə iqtisadiyyatı, həm də regionun iqtisadiyyatı üçün faydalıdır. Müasir iqtisadiyyatda innovativ insan kapitalından istifadənin üstünlükləri danılmazdır və ilk növbədə aşağıdakı əsas komponentlərlə bağlıdır: müəyyən fəaliyyət sahəsində həm əsas, həm də əlavə gəlirin əldə olunması imkanı ilə (unikal bacarıq və qabiliyyətlər hesabına); müasir iqtisadiyyatın reallıqlarına uyğunlaşdırılacaq biznes layihələrinə (milli və beynəlxalq bazarda) tələbatla; danılmaz rəqabət üstünlüklərinə malik olan yeni məhsul və ya xidmət yaratmaq imkanı ilə; müasir reallıqlara uyğunlaşdırılmış digər sosial-iqtisadi davranış modellərinin formalaşması ilə.

Ümumiyyətlə, insan kapitalı iki aspekt kimi təqdim edilə bilər:

1. İnsan kapitalı ehtiyat kimi. Bu cəhəti nəzərə alsaq, insan kapitalı dedikdə insanın malik olduğu, onun əmək məhsuldarlığının və gəlir səviyyəsinin artmasına təsir göstərən sağlamlıq, bilik, bacarıq və qabiliyyətlər ehtiyatı başa düşülür. Bu zaman insan kapitalının strukturunda aşağıdakı əsas məqamları ayırd etmək olar: təbii qabiliyyətlər; ümumi və xüsusi biliklər; mədəniyyət səviyyəsi; əldə edilmiş bacarıqlar, qabiliyyətlər və təcrübələr; və yuxarıda göstərilənlərin hamısını doğru zamanda və lazımi yerdə tətbiq etmək bacarığı.

2. İnsan kapitalı gəlir axını kimi. Bu aspektdə insan kapitalına yönəldilmiş olan investisiyaların insanın həyatı boyu daha yüksək gəlir təmin etməli olan mühüm aktiv olduğunu başa düşmək vacibdir.

Davamlı inkişaf çərçivəsində insan kapitalına yalnız sosial komponent nöqteyi-nəzərindən baxıla bilməz. Çünki davamlı inkişafa nail olmaq o zaman mümkündür ki, insan öz maddi tələbatını ödəməklə, mənəvi tələbatını ödəsin və bununla da, maddi ehtiyaclarını ödəsin. Və yalnız bundan sonra davamlı inkişafa nail olmaq mümkün olacaq.

İnsan kapitalı davamlı inkişaf sistemində mərkəzi yer tutur. Buna görə də davamlı inkişafa nail olmaq imkanlarını proqnozlaşdırmaq üçün onun qiymətləndirilməsinə və istehsalına böyük diqqət yetirmək lazımdır. İnsan kapitalı müxtəlif səviyyələrdə qiymətləndirilə bilər. Bunlar müəssisənin, regionun və ölkənin səviyyəsidir. İnsan kapitalının etibarlı və dəqiq qiymətləndirilməsinin əldə edilməsi çox problemli ola bilər.

Məsələn, müəssisənin səviyyəsi bir ərazinin insan potensialını qiymətləndirmək üçün kifayət etməyə bilər və ya ölkənin səviyyəsi mövcud vəziyyəti çox uzaqdan əks etdirə bilər. Bunun üçün insan kapitalını regional səviyyədə qiymətləndirmək daha yaxşıdır.

Həyat keyfiyyətinin və insan kapitalının keyfiyyətinin qiymətləndirilməsi mürəkkəbdir. İnsan kapitalının səviyyəsini qiymətləndirərkən, bir tərəfdən, regionun sosial-iqtisadi inkişafını xarakterizə edən elementlər üzrə qruplaşdırılmış müxtəlif göstəriciləri nəzərə almalı olan metoddan istifadə etmək daha məqsədəuyğundur.

Davamlı inkişafda qarşıya qoyulan məqsədlərə nail olmaq üçün insan kapitalının istehsalına da böyük diqqət yetirilməlidir.

İnsan kapitalının istehsalı prosesi aşağıdakıları əhatə edən kontekstdə baş verir: erkən uşaqlıq dövründə ailə tərbiyəsi; formal təhsil və təlim, o cümlədən erkən uşaqlıq, icbari məktəb təhsili, icbari səviyyədən kənar peşə və ya ümumi təhsil, ali təhsil, əmək bazarında peşə təhsili, yaşlıların təhsili və s.; iş yerində peşə hazırlığı, eləcə də tədqiqat və innovasiya və ya müxtəlif peşə birliklərində iştirak kimi xüsusi fəaliyyətlər vasitəsilə iş yerində məlumatlandırıcı təlim; iş yerində və gündəlik həyatda və vətəndaş fəaliyyətində qeyri-formal məlumat öyrənmə.

İnsan kapitalının istehsalı prosesi çoxlu sərmayə tələb edir, lakin onlar məharətlə sərmayə qoyularsa, böyük həcmli gəliri əldə edə bilərsiniz ki, bu da sonradan davamlı inkişafa nail olmaq üçün böyük töhfə olacaqdır.

YENİ ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA GÖMRÜK SİYASƏTİNİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

Behbudova K.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: kbehbudova28@gmail.com

Hər bir ölkənin müstəqilliyinin müxtəlif atributları vardır ki, onların milli maraqlar və müasir dövrün tələbləri çərçivəsində tənzimlənməsi, təkmilləşdirici tədbirlərinin görülməsi vacib şərtlərdəndir. Məsələn, mükəmməl mexanizmərə malik olan gömrük sisteminin mövcudluğu və dövlətin gömrük siyasəti ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Analoji məsələlər dünyanın müxtəlif dövlətlərində xüsusi diqqət mərkəzində saxlanılır və gömrük orqanlarının fəaliyyətinin dövrün tələblərinə uyğunlaşdırılması, zəruri addımların atılması, gömrük fəaliyyətinin sistemli və ardıcıl şəkildə təmin edilməsi məqsədilə qanunvericilik bazasının formalaşdırılması, bu mühüm dövlət orqanının şəffaf və səmərəli şəkildə işləməsi üçün dövlət siyasəti reallaşdırılır.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bu istiqamətdə ölkəmizin milli maraqlarına uyğun olaraq müstəqil gömrük sisteminin yaradılması istiqamətində dövlət siyasətinin gücləndirilməsi tədbirlərini görmüşdür. Ölkədə yaradılan ilk müstəqil dövlət orqanları sırasında gömrük sistemi də yer almış və 1992-cil yanvarın 30-da Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi yaradılmışdır. Bundan əlavə, gömrük orqanlarının fəaliyyətinin tənzimlənməsi üçün gömrük tariflərini və rüsumlarını özündə ehtiva edən "Gömrük tarifi haqqında" qanun isə 1995-ci ildə qəbul olunmuş və sonrakı illərdə təkmilləşdirilmişdir. Qısa müddət ərzində ölkəmizin əsas sərhəd-keçid məntəqələrində gömrük xidməti infrastrukturu yaradılmış, bu sahədə kadrların hazırlanmasına başlanılmış və digər vacib məsələlərin operativ olaraq həlli təmin edilmişdir. Bunlarla bərabər, 1997-ci ildən gömrük siyasətinin əsas prioritetlərini özündə ehtiva edən "Gömrük Məcəlləsi" qüvvəyə minmişdir.

Gömrük xidmətinin əsas məqsədi və işi gömrük nəzarəti ərazilərindən keçən mal və məhsulların normativ sənədlər əsasında sənədləşdirilməsi, ümumilikdə gömrük nəzarətinin təmin olunması və bunlarla bağlı gömrük prosedurlarının, əməliyyatlarının rəsmiləşdirilməsi ilə əlaqədar işlərin həyata keçirilməsidir. Dövlətin gömrük siyasətinin əsasında əvvəldə qeyd etdiyimiz kimi, ilk növbədə milli və iqtisadi təhlükəsizliyin qorunması, xüsusilə xarici iqtisadi fəaliyyət iştirakçılarının daha səmərəli olaraq dünya bazarlarına çıxması üçün münbit şəraitin yaradılması, eyni zamanda ölkənin müxtəlif mühüm və strateji mal və məhsullar üzrə idxaldan asılılığının azaldılması istiqamətində müvafiq tədbirlərin görülməsi, perspektivli və rəqabət qabiliyyətli yerli istehsal sahələrinin fəaliyyətinin motivasiyalaşdırılması, bir sözlə müxtəlif iqtisadi və inzibati tənzimləmələr hesabına ölkənin ixrac potensialının artırılması və idxalın strukturunun təkmilləşdirilməsi və s. bu kimi məsələlər daha geniş yer almışdır. Bundan əlavə, ölkənin xarici ticarət konsepsiyasının reallaşdırılmasında, xarici bazarlarda, beynəlxalq əmək sistemində aparılan tədbirlərin

səmərəliliyinin artırılmasında, ölkəmizin iqtisadi diplomatiyasının etdiyi səylərin səmərəliliyinin yüksəldilməsində, xarici iqtisadi fəaliyyət iştirakçılarının daha rəqabətqabiliyyətli olmasında və dünya bazarlarında möhkəmlənməsində gömrük sisteminin və onun xidmət sahələrinin müstəsna rolu vardır.

Digər tərəfdən, analitik informasiya bazasının formalaşdırılması, ölkədən ixrac olunan və əksinə, idxal olunan məhsulların obyektiv statistikasının təmin edilməsi, dövlətin gömrük siyasətinin təkmilləşdirilməsi və yeni mexanizmlərin hazırlanaraq tətbiq olunması proseslərində gömrük xidməti orqanlarının üzərinə böyük vəzifələr düşür. Dövlət tərəfindən xarici ticarət əməliyyatlarının tənizmlənməsi, valyuta nəzarətinin təmin edilməsi və eyni zamanda müvafiq gömrük prosedurlarının icra edilməsi baxımından müxtəlif metod və vasitələrdən istifadə olunur. Əgər konkret olaraq baxsaq Azərbaycanda gömrük xidmətinin fəaliyyətində dövlət tərəfindən hazırlanan və reallaşdırılan gömrük siyasətinin əsas metodları və mexanizmləri sırasında bunlar daha çox diqqət çəkirlər: 1) ticarət əməliyyatlarının tənzimlənməsi və sənədləşdiurilməsi üçün daha çox tarif metodundan istifadə olunur və bu məqsədlə mal-məhsullar üzrə gömrük rüsumları müəyyənləşdirilir, həmçinin idxal əməliyyatlarını milli maraqlar çərçivəsində tənzimləmək məqsədilə tarif kvotası tətbiq edilir; 2) müxtəlif istiqamətdə və məqsədlər üçün qeyri-tarif metodlarında fəal şəkildə istifadə olunur və burada mal-xidmətlərin hansı miqdarda ixrac və ya idxal edilməsi ilə bağlı kvotalar müəyyənləşdirilir, yaxud konkret miqdar və müddət göstərilməklə lisenziyalar verilir, bunlarla yanaşı bir sıra hallarda "könüllü məhdudlaşdırma" mexanizmindən istifadə olunur; 3) qeyri-tarif tənzimlənməsinin başqa bir yolu da vardır və bu gizli qeyri-tarif metodlarından ibarətdir, yəni idxal əməliyyatlarının tənzimlənməsində bir qayda olaraq müxtəlif vergilərdən, yaxud rüsumlardan istifadə olunur, digər bir məsələ maliyyə qeyri-tarif metodlarına müraciət olunmasıdır və bu mexanizmin əsasında dempinq müdaxiləsi, kreditləşdirmə alətləri, həmçinin subsidiyalar yer almışdır; 4) Gömrük tariflərinin müəyyənləşdirilməsi yolu ilə ümumilikdə xarici ticarətin tənizmlənməsi həyata keçirilir və bu proseslərdə əsas istiqamət ölkənin daxili bazarının dövlət tənzimlənməsinin səmərəli praktiki alətinin formalaşdırılmasıdır, eyni zamanda bu sırada gömrük rüsumları dərəcələri tənizmlənir və bu qəbildən olan gömrük rüsumlarının xüsusi dərəcələri də mövcuddur, gömrük tariflərinin təyinatından asılı olaraq müxtəlif formaları vardır və onların işərisində funksional baxımdan bunlar daha çox diqqət çəkirlər: fiskal mexanizmdən ibarət idxal və ixrac əməliyyatlarını tənizmləyən rüsumlar; milli istehsalçıların qeyri-bərabər xarici rəqabətdən müdafiəsi üçün həyata keçirilən proteksionist funksiya və ixrac məhsullarının dünya bazarlarında qiymətlərinə uyğun olaraq görülən tənizmləmə tədbirləri, yəni ixrac rüsumlarının müəyyənləşdirilməsi və s.

Qeyd edək ki, yeni çağırışlar şəraitində dövlətin gömrük siyasətinin təkmilləşdirilməsi, mərkəzi gömrük orqanının fəaliyyətinin gücləndirilməsi, onun strukturunun dövrün tələblərinə uyğun olaraq yenilənməsi vacib şərtlərdəndir. Bundan başqa, gömrük orqanlarının fəaliyyətinin bürokratiyadan uzaq olması və aparılan əməliyyatların şəffaflığının təmin edilməsi də ciddi önəm kəsb edir. Gömrük xidmətlərinin yüksək texnologiyalar əsasında təşkil olunması, bu xidmətlərin elektronlaşdırılması, gömrük işçiləri ilə xarici ticarət fəaliyyəti iştirakçıları arasındakı təmasların minimuma endirilməsi tədbirləri də kifayət qədər əhəmiyyətlidir və son illərdə biz bunların yeni mexanizmlərlə gücləndirilməsinin şahidi oluruq. Xüsusilə, COVİD - 19 koronavirus pandemiyası ilə bağlı olaraq gömrük orqanlarının üzərinə daha böyük vəzifələr düşmüşdür və strateji vəzifə karantin qaydalarının qorunması, ölkəmizin milli və iqtisadi təhlükəsizliyi üçün zəruri tədbirlərin görülməsidir. Bundan əlavə, gömrük orqanlarında idarəetmə mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsi tədbirlərinin sistemli şəkildə həyata keçirilməsi, idarəetmə prinsiplərinin yenilənməsi, idarəetmə funksiyalarının səmərəliliyinin artırılması, yeni çağırışlara uyğun idarəetmə funksiyalarının işlənməsi və tətbiq olunması ardıcıl olaraq reallaşdırılmalıdır. Dünya təcrübəsindən asılı olaraq gömrük xidmətinin və bununla bağlı prosedurların idarə edilməsinin təşkilati strukturlarının tənzimlənməsi məsələləri də diqqət mərkəzində saxlanılmalıdır. Başqa mühüm bir məsələ, əvvəldə qeyd etdik, valyuta nəzarətinin gücləndirilməsi və ölkəmizin milli valyutasına – manata olan, həmçinin milli pul-maliyyə sisteminə yönəlmiş təhlükələrin qarşısının alınması vacibdir və bu işlərdə mükəmməl dövlət gömrük siyasətinin olması, onun fəaliyyət mexanizmlərinin işləkliyi təmin edilməlidir.

Son illərdə qlobal təhlükələrin və risklərin artması, dövlətin gömrük siyasətinin daha da təkmilləşdirilməsini və yenilənməsini zəruri etmişdir. 2020-ci ilin sentyabr ayının 27-dən başalyan və 44 gün ərzində reallaşan Böyük Qarabağ Zəfərindən sonra ölkəmizin gömrük siyasətinin təkmilləşdirilməsi və yeni reallıqların burada özünü ehtiva etməsi lazım gəlmişdir. Belə ki, işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, infrastrukturun bərpa olunması, istehsal və nəqliyyat infrastrukturunun yaradılması, xüsusilə sərhədyani keçid məntəqələrində beynəlxalq standartlara uyğun gömrük nəzarətinin təmin edilməsi tədbirləri artıq başlanılmışdır. Ölkəmizin gömrük xidməti orqanlarının əməkdaşları reallaşdırılan gömrük nəzarətini milli maraqlarımıza və ölkəmizin iqtisadi təhlükəsizliyinə uyğun şəkildə təmin etməyə səy göstəririlər. Yaxın

perspektivdə yeni kommunikasiya dəhlizinin açılması, başqa sözlə Azərbaycanla ölkəmizin ayrılmaz bölgəsi olan Naxçıvanı və ümumilikdə türk dünyasını – Türkiyəni və digər türkdilli dövlətləri birləşdirən dəhlizin həyata keçirilməsi ölkəmizin gömrük orqanlarının qarşısında strateji vəzifələr formalaşdırır. Bunlar da nəzərə alınmaqla, yaxın perspektivdə dövlətimizin gömrük siyasətinin təkmilləşdirilməsi və tənzimlənməsi üçün bir qrup məsələlər xüsusi önəm kəsb edir:

– yeni çağırışlar şəraitində ölkəmizin gömrük siyasəti maksimum təkmilləşdirilməli və daha məhsuldar mexanizmləri özündə ehtiva edən tənzimləyici tədbirlər görülməlidir;

– obyektiv reallıqlar nəzərə alınmaqla, dövlətin gömrük siyasətinin müasir çağırışlardan irəli gələn vəzifələr kontekstində işlək praktiki mexanizmlərinin və alətlərinin hazırlanması təmin olunmalıdır və s.

QLOBAL ŞƏRAİTDƏ XARİCİ İSTİSADİ FƏALİYYƏTİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Bəşirov X.H.
Sumqayıt Dövlət Universiteti
E-mail: xezerbesirov111@gmail.com

Hər bir dövlətin iqtisadiyyatının şaxələndirilməsi və onun rəqabət qabiliyyətinin artırılması vacib şərtlərdəndir. Belə ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, onun dayanıqlı olması, özünüinkişafetmə potensialının üzə çıxarılması üçün xarici bazarlarda möhkəmlənmək mühüm əhəmiyyət daşıyır. Bundan başqa, iqdisadiyyatın müxtəlif sahələrinə xarici investisiyaların cəlb olunması, yüksək texnolagiyaların gətirilməsi, qlobal risklərə qarşı immunitetin yaradılması məsələləri daha çox ixrac yönlü məhsulların istehsal olunmasını, xarici ticarət fəaliyyəti iştirakçılarının müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirici tədbirlərin görülməsini tələb edir.

Son 20-30 ilərzində dünyada baş verən qlobal proseslər səbəbindən əsas resusların bölüdürülməsi və geoiqtisadi dayaqların möhkəmləndirilməsi baxımından kəskin rəqabət gedir. Dünya iqtisadiyyatının önündə gedən ölkələrin iqtisadi prosesləri öz istədikləri səmtə dəyişmək cəhdləri ağır fəsadlar yaratmaqdadır və qlobal böhranlar qaçılmaz olur. Xüsusilə, enerji resuslarının bölüşdürülməsində proseslərin ciddi şəkildə tənzimlənməsi və bu resusların bütün dünya dövlətləri üçün əlçatan olması məsələsi daha çox ön plana çıxmışdır. Güclü iqdisadiyyata malik Qərbi Avropa ölkələrində enerji resuslarının, xüsusilə təbii qazın təminatının həssaslığı, daha konkret desək 40% Rusiyadan asılı olması dünya iqtisadiyyatında yeni təlatümlərin və silkələnmələrin baş verməsi üçün ciddi səbəbdir. Şübhəsiz bu proseslərdə iqtisadi diplomatiyanın rolu və ölkələr arasında xarici iqtisadi fəaliyyət siyasətinin yenilənməsi prioritetləri daha çox diqqət mərkəzinə düşür. Yeni enerji mənbələrinin müəyyənləşdirilməsi, enerji resuslarından qənaətlə istifadə olunması, enerji bazarlarının sağlam rəqabət mühitinin təşkili, potensial enerji resusları istehsalçıları və istehlakçıları ilə münasibətlərin hazırkı çağırışlara uyğun tənzimlənməsi tələb olunur.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, beynəlxalq əmək bölgüsü sistemində yerini tutmaq və ixtisaslaşmaq üçün neft resuslarından səmərəli istifadə etməli və bunun üçün, ilk növbədə müstəqil dövlətə məxsus xarici iqtisadi ticarət siyasəti formalaşdırmalı idi. 1990-cl illərin əvvəllərində ölkəmizdə baş verən hərc-mərclik hakimiyyətdəki səbatsızlıq buna imkan vermədi. Ancaq ümumilli lider Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlməsindən sonra Azərbaycanda müstəqillik atributlar, gücləndirilmiş xarici iqtisadi əlaqələrin gücləndirilməsi tədbirləri görülmüşdür. Dünyanın aparıcı neft şirkətlərinin, o cümlədən BP şirkətinin iştirakı ilə və bir çox dövlətlərin dəstəyi sayəsində 1994-cü il sentyabr ayının 20-də "Əsrin kontraktı" imzalanmışdır. Bu kontraktın icrası nəticəsində ölkəmizin neft sənayəsi yenidən qurulmuş və xarici istisadi fəaliyyət siyasəti maksimum təkmilləşdirilmişdir. Azərbaycana milyardlarla dollar investisiya axınları başlamış, yüksək texnologiya və idarəetmə formaları gəlmişdir. Bir-birinin ardınca regional və beynəlxalq əhəmiyyəti baxımından strateji xarakter daşıyan enerji və nəqliyyat layihələri reallaşdırılmışdır.

Bunların sırasında Bakı-Tblisi-Ceyhan neft kəməri, Bakı-Tblisi-Ərzurum qaz kəməri, Bakı-Tblisi-Qars beynəlxalq dəmiryolu marşrutu, TANAP və TAP layihələrini qeyd etmək lazımdır. Azərbaycan bu layihələrin həyata keçirilməsi üçün bir tərəfdən təşəbbüskar ölkə olması ilə bərabər, digər tərəfdən həm də həmin layihələrin maliyyə donoru kimi yadda qalmışdır. Xarici iqtisadi fəaliyyət siyaətinin bu proseslərdə başlıca məqsədi ölkəmizin beynəlxalq aləmdə imicinin artması, enerji bazarlarında möhkəmlənməsi və ölkəmizə daha çox valyuta vəsaitlərinin gətirilməsi olmuşdur. Başqa önəmli bir məsələ isə modernləşdirilmiş neft sektorunun ölkə iqtisadiyyatının lokomotivinə çevrilməsidir. İqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi üçün yeni şərait formalaşmış və ixracyönlü məhsulların çeşidinin, eyni zamanda həcminin artırılması tədbirləri genişləndirilmişdir. Ölkəmizin xarici iqtisadi fəaliyyət istiqamətində

yeni prioritet fəaliyyət istiqaməti kimi qeyri-neft sektoru məhsullarının ixrac potensialının yüksəldilməsi ön plana çıxmışdır.

Xüsusilə, 2004-cü ilin əvvəllərindən başlayaraq Azərbaycanda ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatının inkişafının yeni mərhələyə qaldırılması onun ixrac potensialının yüksəldilməsi məqsədilə ölkəmizin xarici iqtisadi fəaliyyət siyasətinin müasir qlobal çağırışlara uyğunlaşdırılması təmin olunmuşdur. Qeyri neft sektoru sahələrinin inkişaf etdirilməsinə dövlət dəstəyi mexanizimləri gücləndirilmiş, qeyri neft məhsullarının ixracının təşviqi tədbirləri görülmüş və bunun üçün motivasiyaedici mexanizimlər təşkil edilmişdir. İdxaləvəzedici yerli istehsal sahələrinin inkişafına və onların ixracyönlü xarakter almasına diqqət artırılmışdır.

Qeyri neft sənayesinin müxtəlif sahələrində, ilk növbədə kimya və neftkimya sənayelərində ixracyönlü iri istehsal qurğuları istismara verilmişdir. Texnoparklar, sənaye parkları, aqroparklar, azad iqtisadi zonalar yaradılmağa başlanmış və artıq Baki, Sumqayıt, Mingəçevir şəhərlərində, həmçinin ölkəmizin regionlarında bu cür yeni müasir iqtisadi mexanizmlər və ixracyönlü müəssisələr şəbəkəsi fəaliyyətə başlamışdır. Bütün bunların nəticəsində Azərbaycanın xarici iqtisadi fəaliyyət siyasəti öz bəhrəsini verməyə başlamış, xarici iqtisadi əlaqələr genişləndirilmişdir. Hazırda Azərbaycan 160-dan çox ölkə ilə xarici iqtisadi əlaqələrə malikdir və bu əlaqələrin içində qeyri neft sektoru məhsullarının ixracı ilə bağlı ölkələrin sayı ilbəil artmaqdadır. Artıq ölkəmizin ixracının strukturunda neft və qaz xammalı ilə bərabər, qeyri neft məhsullları, o cümlədən neftkimya, qida məhsulları, kənd təsərrüfatı məhsulları daha çox diqqət çəkməkdədir.

Ölkəmizin digər ölkələrlə xarici iqtisadi əlaqələrinin gücləndirilməsi üçün gömrük sistemində islahatlar aparılmış, xarici ticarətin tənzimlənməsi tədbirləri görülmüş və bunlarla bağlı prosedurlar sadələşdirilmiş, eyni zamanda elektronlaşdırılmışdır. Yaxın perspektivdə Azərbaycanın xarici iqtisadi fəaliyyət siyasətinin təkmilləşdirilməsində torpaqlarımızın işğaldan azad olunması amili yeni reallıqlar baxımından xüsusi əhəmiyyət kəsb edir. Hazırda başlıca məqsəd Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının daha tez ölkə iqtisadiyyatına inteqrasiya etməsi, regional inkişaf proseslərində onların rolunun artırılması və dünya bazarlarına yüksək standartlara malik ixrac məhsullarının çıxarılmasından ibarətdir. Bu tədbirlər ölkəmizin iqtisadi gücünü və onun valyuta ehtiyatlarını daha da artıracaq, xarici iqtisadi fəaliyyət siyasətinin yeni qlobal çağırışlar kontekstində təkmilləşdirilməsinə imkan verəcəkdir.

KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İSTEHSALININ ARTIRILMASINA NƏZƏRİ YANAŞMALAR

Cavadov Ə.S.
Bakı Biznes Universiteti
E-mail: Cavadovebulfez8@gmail.com

Kənd təsərrüfatı davamlı inkişaf üçün meyar rolunu oynayır desək yanılmarıq. Kənd təsərrüfatı deyən zaman nə başa düşə bilərik? Kənd təsərrüfatı bitkiçilik və heyvandarlıqla məşğul olmaq deməkdir. Lakin kənd təsərrüfatı anlayışı bu qədər sadə deyildir. Təkcə istehsal ilə bağlı məsələləri özündə toplamır. O, məhsulların yetişdirilməsi, yığılması və satılması ilə bağlı prosedurları da cəm şəklində özündə birləşdirir. İnsan qida ilə birlikdə bəsləmə, yetişdirmə və mexanikləşdirmə ilə əlaqəli olan bir neçə məsələni əhatə edən amil göstəricilərini analiz edə bilir.

Kənd təsərrüfatı iki əsas sahəni əhatə edir. Əkinçilik yaxud bitkiçilik, digəri isə heyvandarlıq. Adı çəkilən iki sahə ayrı-seçkilik və yetərsiz inkişafı qəbul etmir. Heyvan mənşəli istehsal məhsulları əkinçilik üçün baza rolu oynayır. Bu gün bu iki sahənin inkişafına ayrı-ayrılıqda diqqət edilir. Ziddiyyətlərin özünü göstərdiyi bir vaxtda cəmiyyətdə inkişaf və artım dinamikası aşağı düşür. Kənd təsərrüfatı istehsalının qolları çiçəklənsin deyə dövlət də səylə çalışır.

Kənd təsərrüfatı istehsalı iqtisadi məktəblərin daim diqqət mərkəzində olmuşdur. Fransa klassik iqtisadi məktəbin banisi olan Pol Buagilber öz baxışlarını kəndə yönəltmiş və kənd təsərrüfatının inkişafına sənayeyə və ticarətə nisbətən üstünlük vermişdir, iqtisadi inkişafın və sərvətin artımının əsasını onda görmüşdür. K.Marks yazmışdır ki, "Buagilber...ağıl və cəsarətlə məzlum siniflərə tərəfdar çıxır". Buagilber iqtisadiyyatın yüksəlişinin, ölkənin və xalqın rifah halının yüksəldilməsinin yolunu iqtisadi islahatların aparılmasında görmüşdür.

Fiziokratlar ilk dəfə olaraq xüsusi mülkiyyətə, təbii azadlığa və rəqabətə əsaslanan kapitalist istehsalının kənd təsərrüfatında bərqərar olmasını nəzəri və praktiki cəhətdən əsaslandıran bütöv iqtisadi konsepsiya işləyib hazırlamışlar. Fiziokratlar hesab edirlər ki, yalnız əkinçilik xalis məhsul yaratmaq

qabiliyyətinə malikdir. Bununla da onlar xalis məhsula əməyin nəticəsi kimi deyil, təbiətin bəhrəsi kimi baxmışlar. Fiziokratlar xalis məhsulun ancaq torpaqlardan əldə olunduğunu, onun yeganə gəlir növü olduğunu və dövlətin gəlirini və mülkiyyətçilərin gəlirini təşkil etdiyini qeyd etmişlər. "Xalis məhsul" nəzəriyyəsinə uyğun olaraq, Kene cəmmiyyəti üç sinfə: məhsuldar sinfə, sahibkar sinfə və "bəhrəsiz" sinfə bölür. Məhsuldar sinfə-əkinçiliklə məşğul olan bütün işçiləri aid edir. O hesab edir ki, xalis məhsulu bu sinif yaradır. Kene kapitalın yalnız əşya formasına baxmış və bütün kapitalı onun əkinçilikdə aldığı forma ilə eyniləşdirmişdir.

Fiziokratlar, həmçinin kapitalın dövranının və təkrar istehsalının, istehsal və satış proseslərinin daim bərpa olunması və təkrarlanmasının, sağlam iqtisadiyyatın tarazlığının və onun şərtinin təhlinin əsasını qoymuşlar. Onlar iqtisadi fikir tarixində ilk dəfə olaraq iqtisadiyyatın kənd təsərrüfatı sektorunun timsalında ictimai təkrar istehsalın təhlilini aparmışlar və natural və dəyər şəklində bütün ictimai təkrar istehsalın hərəkət modelini yaratmağa çalışmışlar.

K.İ.İvanov kənd təsərrüfatı istehsalı sahələrini aşağıdakı formada təsnifləşdirmişdir: Rayon və regionlar daxilində kənd təsərrüfatının bazasına əsaslanan ərazi istehsal kompleksi; Aqrar sənaye istehsalının inteqrasiyası nəticəsində formalaşan sahə ərazi struktur; Konveyer prinsipinə əsaslanan istehsal sistemi

K.Marks kənd təsərrüfatını xüsusiyyətlərinə görə fərqlənən bir sfera kimi tədqiq edərkən qeyd etmişdir ki, ictimai təkrar istehsal prosesinin spesifik ictimai xarakteri hər nə olursa olsun, həmin proses bu sahədə də həmişə təbii istehsal prosesi ilə çuğlaşır.

Professor S.Salahov bazar iqtisadiyyatında aqrar sahənin dövlət tənzimlənməsindəki problemlərini öyrənmişdir. Araşdırmasının əsası odur ki, ərzaq təhlükəsizliyi, daxili ərzaq bazarının qorunması və bazar iqtisadiyyatının qurulduğu ölkələrdə mövcud kənd təsərrüfatının səviyyəsi və digər məsələlərin aydınlaşdırılmasını izah etmişdir.

Əməkdar kənd təsərrüfatı işçisi, professor İ.H.İbrahimov bazar iqtisadiyyatı şəraitində sahibkarlığı öyrənmiş və kənd təsərrüfatının daimi inkişaf strategiyasının formalaşması ilə əlaqəli problemləri öyrənmiş, fərqli istehsal sahələrinin kəmiyyət və keyfiyyət amillərini nəzərə almışdır.

XX əsrdə əkinçilik təcrübəsində, xüsusilə kənd təsərrüfatında kimya sahəsinin tətbiqində böyük dəyişikliklər olmuşdur. Kənd təsərrüfatı kimyəvi gübrə, kimyəvi insektisidlər və kimyəvi funqisidlər, kənd təsərrüfatı məhsullarının təhlili və kənd təsərrüfatı heyvanlarının qida ehtiyaclarını əhatə edir.

Qərb dünyasından başlayaraq, yaşıl inqilab bu dəyişikliklərin bir çoxunu müxtəlif ölkələrdəki fermalarda, müxtəlif müvəffəqiyyətlərlə yaymışdır. Kənd təsərrüfatında baş verən digər dəyişikliklər arasında hidroponika, bitki yetişdirilməsi, hibridizasiya, gen manipulyasiyası, torpaq qidalarının yaxşı idarə olunması və təkmilləşdirilmiş alaq nəzarətini əhatə edir. Modifikasiya edilmiş toxum daha sürətli cücərdilir və buna görə genişlənən ərazidə yetişdirilə bilir. Bitkilərin genetik mühəndisliyi, xüsusən də herbisidlərə qarşı davamlı bitkilərdə mübahisəli olur.

2016-cı ildən etibarən dünya işçilərinin təxminən 36 faizi kənd təsərrüfatı ilə məşğuldur . Kənd təsərrüfatı hər gün istehlak etdiyimiz ərzaqların əsas mənbəyidir. Bu təsərrüfatların (bitkiçilik və heyvandarlıq) hər ikisi qida istehsal etmək üçün nəzərdə tutulsa da, istehsal metodları, istehsal etdikləri qida miqdarı və istehsal olunan qidanı istehlak edənlər fərqlidir.

Kənd təsərrüfatının inkişafından sonra bir çox müxtəlif istehsal növləri həyata keçirilmişdir. Hal-hazırda kənd təsərrüfatı sənayeləşmiş kənd təsərrüfatı və yaşayış da daxil olmaqla, iki növə bölünür. Sənayeləşmiş kənd təsərrüfatı, əkinçilik və heyvandarlığın böyük miqdarda satış məqsədilə sənayeləşdirilmiş üsullarla istehsal edildiyi əkinçilik növüdür. İnkişaf etmiş kənd təsərrüfatının məqsədi məhsulun məhsuldarlığını artırmaqdır, bu, hər bir torpaq növü üçün istehsal olunan qida miqdarıdır. Bu növ əkinçilik və heyvandarlıq kütlələri qidalandırmaq üçün istehsal edilir və məhsullar dünyada satılır.

Sənayeləşmiş kənd təsərrüfatı əkinçilik metodlarından dolayı böyük miqdarda qida istehsal edə bilər. Sahələri işləmək üçün heyvan və işçi qüvvəsini istifadə etmək əvəzinə sənayeləşmiş kənd təsərrüfatı daha güclü və daha sürətli işləyən böyük maşınlardan istifadə edir.

Sənayeləşmiş əkinçilik də böyük suvarma sistemlərinə və kimyəvi gübrə və pestisidlərə sərmayə qoyaraq məhsul həcmini artırır. İnkişaf etdirilmiş kənd təsərrüfatında istifadə olunan kimyəvi gübrələr məhsul və məhsulun həcmini artırmaq üçün tez-tez torpaqlara qeyri-üzvi qida əlavə edirlər.

Pestisidlərin istifadəsi sənayeləşmiş kənd təsərrüfatında da geniş yayılmışdır və pestisidlər məhsullara ziyan verən və ya istehlak edən zərərvericilərin öldürülməsi nəticəsində məhsuldarlığı artırmağa kömək edir. İnkişaf etdirilmiş kənd təsərrüfatında istifadə olunan digər əkinçilik texnikası monokulturaların inkişafı üsuludur, yəni vahid bir məhsul böyük miqyasda əkilir.

İŞĞALDAN AZAD OLUNMUŞ YERLƏRDƏ İSTEHSAL, XİDMƏT VƏ KOOPERATİV BİRLİKLƏRİN FORMALAŞMASININ QİYMƏTLƏNDİRİLMƏSİ

Çələbizadə L.İ.
Bakı Biznes Universiteti
E-mail: l.calabizade@gmail.com

Vasif Hüseynovun yazdığına əsasən "Hər şey dağıldı - infrastruktur dağıldı, yaşayış və inzibati binalar söküldü" Beynəlxalq Əlaqələr mövzusunda, Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 1 -də xalqa müraciətində bəyan etdi. Azərbaycan hazırda Ermənistanın keçmiş Baş prokuroru və Ermənistanın Avropa İnsan Haqları Məhkəməsindəki keçmiş nümayəndəsi Gevork Kostanyanın sözlərinə görə, 50 milyard dollar məbləğində maddi ziyana görə Ermənistandan təzminat tələbi hazırlayır. Birinci Qarabağ müharibəsi zamanı (1988-1994) işğaldan əvvəl 700 mindən çox azərbaycanlının yaşadığı keçmiş Dağlıq Qarabağ bölgəsi ətrafında yeddi rayon Ermənistanın nəzarətində olduqları dövrdə tamamilə sökülərək yerlə yeksan edilmişdir. Yaşayış və inzibati binalar xaricində, rəsmi mənbələrə görə, 700 tarix və mədəniyyət abidəsi 927 kitabxana; 808 mədəniyyət mərkəzi; 85 musiqi və incəsənət məktəbi; 100 mindən çox əsər olan 22 muzey; Son otuz il ərzində bu ərazilərdə 4 sənət qalereyası, 4 teatr, 2 konsert salonu zədələnmiş və ya məhv edilmişdir. Bu səbəbdən bölgənin yenidən qurulması uzun müddət və böyük maliyyə qaynaqları alacaq bir prosesdir. Bəzi ekspertlərə görə, bu 5-10 il çəkə bilər və 10 milyard dollardan çox xərc çəkə bilər. Azərbaycan, keçmişdə Azərbaycanın ən çiçəklənən bölgələrindən biri olan işğaldan azad edilmiş torpaqlarda həyatın bərpa olunacağına qərarlıdır. Prezident İlham Əliyev "bu bölgələri, bütün rayonlarımızı bərpa edəcəyik; vətəndaşlarımız üçün normal bir həyat yaratmaq üçün bütün addımları atacağıq" sözünü verdi. "Hazırda bərpa dövrü başlayır. Genişmiqyaslı tikinti işləri aparılacaq.

Azərbaycan hökumətinin yenidən qurma planlarını əhatə edən geniş bir dövlət proqramı hələ açıqlanmasa da, bir sıra tədbirlər görülmüş və elanlar verilmişdir. Azərbaycan Şuşa şəhərinin azad edilməsindən dərhal sonra şəhərə yüz kilometrdən çox olacaq yeni bir yolun çəkiləcəyini elan etdi. 1,5 il ərzində tamamlanması gözlənilən prosesdə Türkiyə və Azərbaycandan üç şirkət iştirak edir. Azərbaycan Naxçıvana avtomobil yolu və dəmir yolu əlaqəsi qurmağı planlaşdırır ki, bu da ölkəni əsas strateji müttəfiqi Türkiyə ilə birləşdirəcək. Azərbaycanın müharibədən sonrakı planları ermənilərin nəzarəti altında dağıdılmış və ləkələnmiş mədəniyyət və dini abidələrin bərpasına xüsusi əhəmiyyət verir. Qarabağ bölgəsindəki tarixi məscidlərin son otuz ildə donuz yuvasına çevrilmiş görüntüləri Azərbaycanı qəzəbləndirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Kənd təsərrüfatı mövzusunda keçirilən görüşdə qeyd etdi ki, azad edilmiş torpaqların bərpası proqramı Kəlbəcər və Laçın bölgələri də daxil olmaqla ermənilər tərəfindən dağıdılmış su elektrik stansiyalarının tikintisi üçün vəsait ayıracaq və bu bölgə yaşıl enerji olaraq dünyaya nümunə olacaq. Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının 39,6%-i azad edilmiş bölgələrə düşdüyündən bölgənin sənaye və rekreasiya potensialı da genişdir. Bu ərazilərdə müalicəvi dəyəri 7805 m3 / gün olan müxtəlif tərkibli təxminən 120 mineral su yatağı vardır. Bunların arasında Kəlbəcər bölgəsindəki Yuxarı və Aşağı İstisu, Laçın bölgəsindəki Bağırsaq, Keşdək, İliqsu, Minkənd, Şuşa bölgəsindəki Turşsu, Sırlan və digər mineral sular xüsusi əhəmiyyətə malikdir. 1970-80-ci illərdə İstisu bulağında gündə 800.000 litr su istehsal edən böyük bir kurort və mineral su doldurma qurğusu quruldu. Keçmiş SSRİ dövründə müxtəlif daxili xəstəliklər Azərbaycanın Şuşa şəhərindən 17 km aralıda yerləşən Turşsu mineral suyu ilə müalicə olunurdu və su boru xətti ilə Şuşa şəhərinə verilirdi. Bütün bunlar bölgənin zəngin mineral su ehtiyatlarına malik olduğunu göstərir. Bu azad edilmiş ərazilərdə mineral suların emalı sənayesində yeni emal müəssisələrinin açılması əhalinin məşğulluğunu artıra və bölgənin sənaye rekreasiya potensialından səmərəli istifadə üçün şərait yarada bilər.

Azərbaycanda XİF-ə nəzarət və tənzimləmənin əsas funksiyaları Azərbaycan Respublikasının DGK-si tərəfindən XİF-in gömrük tənzimlənməsi mexanizmi vasitəsilə həyata keçirilir. Gömrük tənzimlənməsi şəxslərin mənafelərini nəzərə almaqla malların daşınması üçün əlverişli şəraitin (gömrük qaydalarının) yaradılmasını nəzərdə tutan, gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin keçirilməsi hüququnu həyata keçirən qaydaların müəyyən edilməsi fəaliyyətidir. Gömrük tənzimlənməsi gömrük qaydaları deyil, onların formalaşması, dəyişdirilməsi, bəzilərinə müvafiq əlavələrin edilməsi və ya ləğv edilməsi ilə bağlı fəaliyyətdir. Azərbaycanda gömrük tənzimlənməsinin əsas məqsədi aşağıdakı iqtisadi maraqların təmin edilməsindən ibarətdir: milli bazarın qorumaq, milli iqtisadiyyatın inkişafını stimullaşdırmaq üçün ticarət və siyasi vəzifələrin həyata keçirilməsində iştirak etmək; gömrük idarəçiliyi strukturunun tənzimlənməsini təşviq etmək; Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarətini həyata keçirmək;milli iqtisadiyyatın inkişafını stimullaşdırmaq; Azərbaycanın iqtisadi siyasətinin digər vəzifələrinin həyata keçirilməsinə köməklik göstərmək.

Gömrük inzibatçılığının təşkilati və idarəetmə əsasları mürəkkəb, dinamik inkişaf edən mexanizmdir. Gömrük orqanlarının məhsuldar inkişafı Azərbaycanın dünya iqtisadiyyatı ilə beynəlxalq iqtisadi inteqrasiyasının inkişafı və möhkəmlənməsi ilə bağlıdır. Bu hal gömrük sisteminə ziddiyyətli tələblər qoyur: bir tərəfdən, XİF-in idarə edilməsinin keyfiyyəti elə inkişaf etdirilməlidir ki, xarici tərəfdaşlarla xarici ticarət dövriyyəsinin yüksək sürəti təmin edilsin, digər tərəfdən, gömrük rüsumlarının yığılması zamanı gömrük qanunvericiliyinə əməl edilsin.

Müasir şəraitdə gömrük orqanlarının rolu getdikcə aktuallaşır. Bu gün Azərbaycan Respublikasının DGK-si Azərbaycanda dinamik inkişaf edən, qlobal və daxili çağırışlara vaxtında cavab verən qurumdur. Beynəlxalq standartlara cavab verən səmərəli daxili gömrük sistemi dövlətin milli təhlükəsizliyini təmin edən əsas amillərdən biridir. Nəzarət funksiyalarını həyata keçirən gömrük orqanları eyni zamanda, XİF-in inkişafına hərtərəfli köməklik göstərir. Dövlətin sosial-iqtisadi sisteminin tərkib hissəsi olan gömrük işində

həm ölkəyə, həm də XİF iştirakçılarına xidmətlərin göstərilməsi ilə bağlı məsələlər getdikcə aktuallaşır. Dövlət tənzimlənməsi məsələlərində büdcənin və onun strukturunun gəlir hissəsinin formalaşdırılması üçün mövcud vəsaitlərdən istifadə və yeni vəsaitlərin axtarışı xüsusilə aktuallaşır. Bu vasitələrdən biri də XİF-in gömrük ödənişləri ilə tənzimlənməsidir. Hazırda büdcə münasibətləri sistemində dövlətin iştirakının əsas tənzimləyicisi gömrük ödənişləri sistemidir.

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatının inkişafına gömrük xidmətinin böyük təsiri var. Büdcə kəsirinin riskləri və dövlətin maliyyə mənbələrinə artan tələblər gömrük xidmətini respublikanın dövlət büdcəsinin mədaxil hissəsini dolduran əsas mənbələrdən birinə çevirir. Gömrük xidməti fiskal funksiyanı yerinə yetirməklə yanaşı, həm də xarici iqtisadi əlaqələrin inkişafına təsir göstərir, idxal olunan məhsulların keyfiyyətinə nəzarəti həyata keçirir, ölkənin iqtisadi maraqlarının və milli təhlükəsizliyinin qorunmasında iştirak edir. Bütün bunlar gömrük siyasətinin reallaşdırılması səviyyəsindən asılıdır.

DÖVLƏT AUDİTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

Əliyev N.N.
Sumqayıt Dövlət Universiteti
E-mail: nijataliyev1999@gmail.com

Son zamanlar ölkəmizdə vergidən yayınma, maliyyə resurslarından səmərəsiz istifadə, haqsız rəqabət, saxta maliyyə sənədlərinin istifadəsi, qanunsuz sahibkarlıq həmçinin də maliyyə nəzarətinin öz nöqsan və çatışmazlıqları iqtisadiyyatın maliyyə tənzimlənməsində və şəffaflıq problemlərinin həlli yolunda ciddi maneələr törədir, lakin buna baxmayaraq həyata keçirilən sosial-iqtisadi yönümlü tədbirlər uğurlu nəticələrin əldə olunmasına şərait yaradır. Baş vermiş belə problemlərin aradan qaldırılması üçün müvafiq olaraq aşağıdakı dövlət proqramları qəbul edilmişdir.

Bu proqramlardan biri icrası uğurla başa çatdırılmış və beynəlxalq ekspertlərin müsbət qiymətləndirdikləri Korrupsiya əleyhinə mübarizə üçün Dövlət Proqramıdır ki, həmin proqram 2004-2006-cı illəri əhatə edir və beynəlxalq aləmdə korrupsiyaya qarşı mübarizədə əhəmiyyətli rola malikdir17. Proqramın audit xidmətinə həsr olunan hissəsi 4-cü bölmədir ki, bu bölmə sosial və iqtisadi sahədəki tədbirləri əhatə edir və geniş məzmunlu 8 maddədən ibarətdir.

Aparılan araşdırmalardan görünür ki, dövlət sektorunda daha çox rast gəlinən üç tip fırıldaqçılıq mövcuddur ki, bunlar da maliyyə hesabatlarının saxtalaşdırılmasına səbəb olan hal kimi qiymətləndirilə bilər. Birincisi, adətən vəzifədən sui-istifadə, korrupsiya, qeyri-qanuni mükafatlandırmalar, rüşvətxorluq və s. kimi cinayətləri əhatə edən büdcə prosesləri ilə əlaqədar fırıldaqçılıqdır. İkincisi, vergidən yayınmalar, oğurluq, aktivlərin təhrif olunma və mənimsənilmə kateqoriyasını əhatə edən, həmçinin büdcə fəaliyyəti ilə bilavasitə əlaqəli olan fırıldaqçılıqdır. Üçüncüsü isə, birbaşa mühasibat işi ilə bağlı fırıldaqçılıqdır ki, fırıldaqçılığın bu tipinə aktivlərin qiymətləndirilməsi və təsnifləşdirilməsində təhriflərə yol verilməsi, gəlir və xərclərin təhrif olunması və s. aiddir. Böhran şəraitində gizli iqtisadiyyatın mövcud olması, sərbəst auditorlar və audit təşkilatlarının qeyri-etik, qeyri-qanuni fəaliyyətin nəticəsi iqtisadi cinayətkarlığın inkişafının daha da genişlənməsinə səbəb olur. Bu isə ilk növbədə "qara audit"in inkişafına şərait yaradır. Cəmiyyət və bütövlükdə iqtisadiyyat üçün normal olmayan bu kimi prosesləri bəzən də Azərbaycan reallığında görmək mümkündür. Lakin dünya ölkələrinin təcrübəsində olduğu kimi, ölkəmizdə də belə halların qarşısının alınması və audit fəaliyyəti üzərində nəzarət tədbirlərinin artırılması istiqamətində ciddi tədbirlər görülür. Bəzən "qara audit"in formalaşması və inkişafına maraqlı tərəflərin hər ikisinin auditorun və sifarişçinin birgə razılaşması rəvac verir. Belə gizli sövdələşmələrin aşkar edilməsi isə olduqca mürəkkəb prosesdir. Sifarişçinin maraqlarını təmin edən belə auditorlar və audit təşkilatları sifarişçinin təsərrüfatmaliyyə fəaliyyətində müəyyən etdiyi qeyri-qanuni əməliyyatları, ciddi nöqsanları, vergi və başqa öhdəliklərdən yayınmaları, xərclərin əsassız olaraq şişirdilməsini və s. öz rəyində əks etdirməyərək sifarişçi subyektə onun mənafelərinə uyğun rəy verir. Başqa bir tərəfdən isə ölkənin iqtisadi qanunvericilik sahəsində olan müəyyən boşluqlardan istifadə olunmasında da audior sifarişçiyə uyğun "məsləhət xidmətləri" göstərir. "Qara audit"-in təşəkkül tapmasında və əhatə dairəsinin genişlənməsində sərbəst auditorların və audit təşkilatlarının göstərdikləri audit xidmətlərinin keyfiyyət səviyyəsi ciddi şəkildə təsirə malikdir. Dünya ölkələrinin audit praktikasındakı təcrübələrdə olduğu kimi, respublikamızda da audit xidmətlər bazarında "qara audit"-in tam aradan qaldırılması və keyfiyyətsiz xidmətlərin aparılmaması üçün Auditorlar Palatası inzibati-tənzimləyici tədbirlər həyata keçirir.

2008-2009-cu illər ərzində dünya maliyyə böhranından çox az itkilərlə çıxmış Azərbaycan Respublikasında iqtisadi artım davam etmiş, həmçinin bir çox qlobal layihələrin reallaşdırılması da bir o qədər sürətlənmişdir. Respublikamız sosialiqtisadi inkişafın dinamikası baxımından regionda liderlik mövqeyini də möhkəmləndirmişdir. Belə ki, böhrandan sonrakı mərhələlərdə maliyyə resurslarını əsasən ölkənin valyuta ehtiyatları, büdcə vəsaiti və neftdən gələn gəlirlər təşkil edir. Təbii ki, maliyyə resurslarının da səmərəli idarə olunması, xüsusi dövlət 70 proqramlarının reallaşdırılması ilə həyata keçirilir. Burada isə çalışmaq lazımdır ki, həmin vəsaitlər bilavasitə qeyri-neft sektorunda idxalı əvəzləyən ixracyönümlü istehsal sahələrinə, real bazara, yerli işçi qüvvəsinə və yerli xammala hesablanan istehsal sahələrinə yönəldilsin.

Azərbaycan Respublikasının iqtisadi böhrandan itkisiz çıxa bilməsi üçün real sektora qoyulmuş investisiyaların həcmi artırılmalı, ölkənin idxaldan asılılığını zəiflətmək üçün layihələr hazırlanmalı, dövlət tərəfindən istehsal sahəsi ilə məşğul olan şirkətlərə maliyyə yardımı göstərilməli və xüsusi diqqət yetirilməlidir. Yaranan iqtisadi böhranların baş verməsinin başlıca səbəblərində biri məhz elə istehsal bazarının zəifləməsidir. Ölkəmizdə analoji prosesin qarşısının alına bilməsi üçün qeyri-neft sektorunun fəaliyyətinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir. Dünya bazarında neftin qiyməti öncəki illərlə müqayisədə dəfələrlə aşağı düşdüyü üçün, ölkəmizdə də neftdən əldə olunan gəlirlər azalmışdır. Bununla yanaşı, hesab edirəm ki, gələcək illərdə neftin satışından qazanılan gəlirlər neft sektoru ilə yanaşı qeyri-neft sektorunda da səmərəli layihələrin hazırlanmasına yönəldilməlidir.

AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN BANKLARDA ETİKET QAYDALARI

Əliyev Q.İ.
Odlar Yurdu Universiteti
E-mail: qurban003@gmail.com

Azərbaycanda mərkəzi bankçılığın tarixi 20 əsrin əvvəllərindən başlayır və müasir dövrə qədər davam edir və Azərbaycan bankçılıq tarixini üç mərhələyə bölmək olar. Azərbaycanda mərkəzi bankçılığın tarixi bu mərhələlərdən ibarətdir: Xalq Cumhuriyyəti dövrü (1918–1920); sovet sosialist quruluşu dövrü (1920–1991); 1991-ci ildə Azərbaycanın müstəqilliyinin bərpa edilməsindən başlayan müasir mərkəzi bankçılıq dövrü. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 11 fevral tarixli "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Fərmanı ilə Azərbaycan Respublikasının Milli Bankı yaradılmışdır. Fərmanın qüvvəyə mindiyi gün (12 fevral tarixi) Bankın yaradılması günü kimi qeyd edilir. 1992-ci il 7 avqust tarixində Milli Bankın fəaliyyətini tənzimləyən ilk qanun — "Azərbaycan Respublikasının Milli Bankı haqqında" qanun, həmçinin həmin ilin 1 dekabr tarixində isə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Azərbaycan Respublikasının Milli Bankının Nizamnaməsinin təsdiq edilməsi haqqında" qərar qəbul olunmuşdur.. Hazırda Mərkəzi Bank öz fəaliyyətini üçüncü nəsil bank qanunları əsasında həyata keçirir. Və bu gün Azərbaycan Milli Bankı Azərbaycanın malliyə bazarında əsas tənzimləyici funksiyanı yerinə yetirir. Milli Bank kredit, pul tədavülü, hesablaşmalar və valyuta münasibətləri sahəsində dövlət siyasətini həyata keçirən, bütövlükdə bank sisteminin fəaliyyətini tənzimləyən və ehtiyat bank funksiyalarını icra edən ali emissiya idarəsi elan edilmişdir. Müasir zamanda Azərbaycanda kifayət qədər banklar mövcuddur və bu keyfiyyətli maliyyə xidmətlərinin göstərilməsi üçün əsas əmillərdən hesab etmək olar. Bu sağlam rəqabət, keyfiyyətli xidmət və produktiv malliyə məhsulları ortaya çıxardır. Keyfiyyətli xidmətin əsas amillərindən biri də bank sektorunda çalışan insanların etik davranış qaydalarına riayet etməsidir. Burada həm bankda çalışan işçilərin hüquqlarının qorunması və həmçinin müştərilərə göstərilən xidmət nəzərdə tutulur. İşçilər əsas korporativ etika qaydalarına, həmçinin Azərbaycan Respublikasının qanunlarına və rəhbərliyin təyin etdiyi qaydalara riayət etməlidirlər. Burada bir neçə sadə qaydaları misal çəkmək olar: Təşkilatda daxil olan müştərilərin qəbulu , işçilərin geyim forması və xarici görünüşü ,təşkilatının təmizlik xidməti, məxfilik , müştərilər, işgüzar əməkdaşlar, rəqiblər və digər kənar təşkilatlarla əlaqələr, çirkli pulların yuyulması ,iş vaxtı və iş yeri ,inventarlardan istifadə , telefon ünsiyyəti, elektron bankçılıq

Bank işi ictimaiyyət öz vəsaitlərini təhlükəsizliyi və investisiyaları təmin etmək üçün banklara etibar etdikdə etimada əsaslanır. Buna görə də bank işi etik və transparent əsaslarla həyata keçirilməlidir. Bütün dünyada banklar maliyyə vasitəçiləri rolunu oynadığı üçün tənzimlənir. Maliyyə vasitəçiləri kimi banklar əhalinin vəsaitlərini səfərbər edir və bu vəsaitlərə ehtiyacı olan şəxsi şəxslərə/müəssisələrə müəyyən qiymətə təqdim edirlər. Banklar iqtisadiyyatda səmərəli ödəniş mexanizmini də təmin edirlər. Onlar şəxsi və işgüzar əməliyyatların, habelə öz müştərilərinin qlobal öhdəliklərinin həlli üçün səmərəli və mütəşəkkil ödəniş sistemini təmin edirlər. Bank sahəsinin qarşılaşacağı etik məsələlər çoxsaylı və mürəkkəbdir, lakin daha

geniş mənada etik bankın qloballaşma və sosial və ekoloji problemlərlə bağlı bankların qarşılaşdığı bütün məsələləri nəzərə alan siyasəti olmalıdır. Iqtisadi inkişaf və maliyyə sabitliyi bütün dünyada banklarda qərəzsizlik mədəniyyətinin, etik normaların və maliyyə şəffaflığının mövcudluğunu şərtləndirir. Lakin banklar tez-tez qeyri-peşəkar və qeyri-etik təcrübəyə səbəb olurlar. Bankların təkcə peşəkar deyil, həm də şəffaf və etik cəhətdən işləyəcəyi gözlənilir ki, insanlar sistemə əmin olsunlar. Bank etikası müştərilərə və digər maraqlı tərəflərə qarşı sədaqət və dürüstlük, qərəzsizlik, etibarlılıq, dəyərli prinsiplər və yüksək dərəcədə şəffaflıq ilə işləməkdir. Lakin banklar tənzimləyici tərəfindən müəyyən edilən müəyyən rəhbər prinsiplərə, dövlət siyasətinə və ya sahə təcrübəsinə uyğun fəaliyyət göstərməlidirlər. Bank əməliyyatlarını tənzimləyən və ədalətli rəqabət mühitini təmin edən bir çox qanun qəbul edilmişdir. Lakin yalnız normativ müddəalar və cəzalar əməliyyatların şəffaflığını təmin etmək üçün kifayət deyil. Yüksək etik standartlar, ehtimal ki, bankın nüfuzunu yüksəldəcək

Etik bank təcrübəsi əmanətçilərin maraqlarını qorumağa, bankın nüfuzunu qorumağa və sistemin sabitliyini qorumağa kömək edir.

-Bank əməkdaşlarının ən yüksək etik normalara riayət etməsi qanunun pozulmasının və korrupsiya təcrübəsinin qarşısını ala bilər. Bu, nəticədə maraqlı tərəflərin maraqlarını qoruyacaq və brend imicini və bankın rəqabət qabiliyyətini artıracaq.

-Əməkdaşlar arasında güclü mənəvi dəyərlərin yetişdirilməsi onları etik dilemmaların həllində lazımi həll yolları axtarmağa sövq edə bilər.

-Etik iş təcrübələri peşəkarlığın kritik aspektidir. Bu həm də işçilərin səmərəli idarə olunmasının ilkin şərtidir. Beləliklə, bankın əməkdaşı öz fəaliyyətinin son dərəcə yüksək etik standartlara uyğun aparılmasını təmin etmək üçün bütün səyləri sərf etməlidir. Etibarlı və etik bank təcrübələri vasitəsilə müştərilərin maraqları daha yaxşı qorunacaq

- Əgər banklar etik təcrübəyə əməl etməsəydi, ictimaiyyətin etimadı sarsılacaqdı, bank sisteminin sabitliyi isə bütövlükdə sarsılacaqdı.

Etik prinsiplərə bankların və törəmə müəssisələrin əməkdaşlarının öz işlərini yerinə yetirərkən əməl etməli olduqları iş prinsipləri ilə bağlı prinsiplər və qaydalar daxildir. Belə prinsiplərin məqsədi işçilər, müştərilər və bank arasında yarana biləcək hər hansı mübahisə və ya maraqlar toqquşmasının qarşısını almaqdır. Etik dəyərlərə uyğun fəaliyyət göstərmək və idarəetmənin, strategiyanın və qərarların qəbulunun etik prinsiplərlə necə məlumatlandırıldığını nümayiş etdirə bilmək hərtərəfli diqqət mərkəzində olan bir məsələdir. Banklar vakuumda fəaliyyət göstərmir və onların fəaliyyət lisenziyası müştərilərin və maraqlı tərəflərin (o cümlədən, tənzimləyici orqanlar da daxil olmaqla (Mərkəzi Bank)) biznes yanaşmalarından razı qalmalarından asılıdır. Etik çərçivə və məsuliyyətli biznes dünyagörüşü vasitəsilə etimadın qurulması davamlı uğur üçün, eləcə də baha başa gələn böhranların qarşısını almaq üçün çox vacibdir. Sağlam etik çərçivə təşkilatın həm mədəniyyətinin, həm də davranışının əsasını qoya və gücləndirə bilən bir amildir. Eyni zamanda, bir qurumun öz əsas dəyərlərinə və prinsiplərinə uyğun fəaliyyət göstərib-keçməməsi onun mədəniyyətinə və davranışına görə gündəlik olaraq yoxlanılmalıdır. Etika, mədəniyyət və davranış məsələləri, müvafiq olaraq, bir-birinə bağlıdır. Qanun, tənzimləyici orqanlar və cəmiyyət müştəri və biznes nəticələri baxımından müəyyən , minimum gözləntiləri və davranış standartlarını müəyyən etmişdir. Bunlar bəzən etibar, dürüstlük və ya dürüstlük məsələləri kimi çərçivəyə salınır və ya təsvir edilir və maliyyə xidmətləri sektorunda fəaliyyət göstərən firmalar və fərdlər bu standartları, eləcə də özləri üçün müəyyən etdikləri dəyər və prinsipləri nəzərə almalıdırlar. Dastidar bank etikasını dürüstlük kimi təsvir etdi, etibarlılıq, qərəzsizlik, uyğunluq vəşəffaflıq. Bunu daha da aydınlaşdırmaq olar:

- Dürüstlük: Banklar öz işlərində dürüst olmalıdırlar və işçiləri, səhmdarları ilə qarşılıqlı əlaqə, müştərilər, rəqiblər və digər təşkilatlar ilə qarşılıqlı əlaqədə olmalıdırlar.

- Etibarlılıq: Banklar bütün vəzifələrini yerinə yetirməlidirlər fəaliyyət və əməliyyatları dəqiq, məsuliyyətli, vaxtında, dəqiq və müştərilərini xəbərdar etmək müvafiq olaraq.

- Qərəzsizlik: Banklar qərəzsiz hərəkət etməlidirlər və müştərilər və ya arasında fərq qoymamalıdır işçilər arasında və ya hər hansı biri arasında maraqlı tərəflər.

- Uyğunluq: Banklar bütün vəzifələrini yerinə yetirməlidirlər bank qaydalarına uyğun olaraq fəaliyyət və əməliyyatlar və qaydalar.

-Şəffaflıq: Bankların əməliyyatları və əməliyyatları tərəfindən şəffaf və ədalətli şəkildə edilməlidir aydın və asan başa düşülən təmin edir xidmətləri, məhsulları, riskləri və haqqında məlumat müştərilərinə fayda verir.

Bank sahəsi banklar və müştərilər arasında etimad, şəffaflıq və vicdana əsaslandığından; beləliklə, etik təcrübə banklar üçün daha əhəmiyyətlidir. Qeyd olunur ki, əməliyyatlarında etik prinsiplərə riayət edən

banklar müştəriləri qane edir. Həmçinin qeyd olunur ki, etik bankçılıq insanların etimadını artırır və işçiləri motivasiya edir. Beləliklə, banklar öz gəlirliliyini, davamlılığını və müştərilərin məmnunluğunu

İSTEHSAL SFERASINDA ƏMƏYİN ÖDƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ

Əliyev S.C.
Sumqayıt Dövlət Universiteti
E-mail: sameda95@gmail.com

Cəmiyyətdə insan əməyindən istər öncəki dövrlərdə, istərsə də müasir inkişaf etmiş dövrdə bütün fəaliyyət sahələrində mütəmadi istifadə olunur. İnsanlar fiziki qüvvəsindən istifadə edərək məhsul istehsal edərək və ya xidmət göstərərək öz gəlirlərini "əmək haqqı" anlayışı kimi hesablanmaqla pul və natural formalarda əldə edirlər. Yəni, insan öz fiziki qüvvəsini sərf etməklə həyat keyfiyyətini yaxşılaşdırır və öz həyat tərzini müəyyən edir.Odur ki, hər bir müəssisənin işçi qüvvəsi ilə təmin olunması onun qazanclı və səmərəli fəaliyyətinin əsasını təmin edir. Bu sosial, iqtisadi və siyasi sferada baş verən dəyişiklərlə bağlı olub, əmək bazarının yaranıb formalaşmasında və onun istifadəsində özünü göstərir.

Bazar münasibətlərinin inkişafı nəticəsində səhmdarlar və müəssisələrin sahib olduğu mülkiyyətə əmək kollektivinin qoyuluşu üzrə hesablanmış pul gəlirləri hesabına yeni gəlir mənbələri yaranmışdır. Belə ki, müəssisədə işçilərin gəlirləri istehsalın nəticəsində hər bir işçinin sərf etdiyi əməyə görə əmək haqqı ödənilir. İşçinin gəlirinin maksimum həddinə məhdudiyyətlər qoyulmur. Bazar münasibətlərinin inkişafı davam etdikcə, müəssisə və təşkilatlarda çalışan işçilərin əmək haqqları yüksələrək, insanların yaşayış səviyyəsinin yaxşılaşmasına səbəb olur. Günümüzdə əmək ödənişi xərclərinə əmək haqqına çəkilən məsrəflərdən əlavə olaraq müavinətlər, pul və qeyri-pul mükafatları, təqaüdlər və s. aid edilir. Əməyin ödənişi xərcləri özlüyündə istehsal nəticələrinin ilkin və yenidən bölgüsünü birləşdirir. İlkin bölgü dedikdə, cəmiyyət üzvlərinin istehsal prosesində sərf etdikləri əməyin kəmiyyət və keyfiyyətinə görə aldıqları əmək haqqı nəzərdə tutulur. Yenidən bölgü dedikdə isə, müəssisənin yenidən yaratdığı ehtiyat fondlardan əldə edilən gəlir nəzərdə tutulur.

Hər bir müəssisədə əmək münasibətlərinin qaydaya salınmasının hüquqi əsası müəssisənin tərtib etdiyi müqavilələr arasında olan kollektiv müqaviləsində öz əksini tapır. Bu müqavilədə müəssisənin səlahiyyətlərində olan əməyin ödənilməsi üzrə bütün şərtlər öz əksini tapır.

Azərbaycan Respublikasında istehsalın inkişafı getdikcə artır və bu artım müəssisələrdə çalışan işçi və qulluqçuların əmək haqqlarının, vəzifə maaşlarının və s. artımına səbəb olur. Bu inkişaf Azərbaycan Respublikasının daxilində fəaliyyət göstərən müəssisə və təşkilatların sayınında artımına səbəb olur. Bu müəssisələrin yaradılmasında investorların, kreditorların, müəssisə rəhbərləri və s. şəxslərin də rolu böyükdür.

İstehsal prosesinin tərkibində texnologiyanın da rolu çox böyükdür. Günümüzdə xüsusilə istehsal sahələrində istehsalın avtomatlaşdırılması, mexanikləşdirilməsi və yeni texniki avadanlıqlarla təhciz oluması başlıca məsələlərdən biridir. Bu prosesdə xüsusi robotlardan, avadanlıqlardan və texnologiyalardan istifadə edərək istehsalın kəmiyyət və keyfiyyətinin dəfələrlə artımına səbəb olmaq mümkündür. Ancaq bu halın mənfi cəhətləri də mövcuddur. Buna başlıca nümunə olaraq işsizlik problemini göstərə bilərik. Texnologiyanın inkişafı ilə birgə robotların və texniki avadanlıqların insan əməyini əvəz etməsi müəssisənin istehsal prosesində iştirak edən işçilərin sayının azalması ilə işsizlik meydana gəlir. Yəni, beş nəfər iş gündə 500 məhsul istehsal edirdisə, artıq müəssisə avadanlıqlarla təhciz olunduqdan sonra bu istehsal kəmiyyətini bir nəfər işçi ilə də həyata keçirmək mümkündür. Beləliklə, müəssisələr bu avadanlıqlarla təhciz olunduqdan sonra istehsalın həcmində ciddi artımlar yaşanır və müəssisə daha çox gəlir əldə edir. Və bu avadanlıqları peşəkar səviyyədə idarə edə bilən ixtisaslı kadrları müəssisənin işçi heyətinə cəlb etməyə çalışır və onlara bunun müqabilində yüksək əmək haqqı təklif edir. Müasir şəraitdə əmək haqqının yüksəldilməsi əmək məhsuldarlığından asılıdır və təsərrüfatçılığın mühüm tələblərindəndir və bu tələbə riayət olunmalıdır. Bu haqda dövlət bir sıra qərarlar qəbul etmişdir, ancaq bütün məsuliyyət müəssisə və təşkilatların üzərinə düşür.

Beləliklə, müəssisələr öz fəhlə və qulluqçularının qayğısına qalmalıdır və onları ən az minimum yaşayış səviyyəsi vəsaiti ilə təmin etməlidir. Buna görə də, müəssisə daxilində məhsulun maya dəyərin aşağı salmaqla, yüksək keyfiyyətli və tələblərə uyğun məhsullar istehsal etməklə, istehsal ehtiyatlarından düzgün istifadə etməklə, artıq xərcləri aradan qaldırmaqla və digər problemlərin həlli yollarını tapmaqla müəssisənin iqtisadi səmərəsini daha da artıra bilərik. Bununlada, müəssisənin mühasibat uçotunun düzgün və səmərəli

təşkil edilməsi və müasir iqtisadiyyatın tələblərinə uyğun olaraq hazırlanıb təkmilləşdirilməsi müəssisələrin qarşısında duran əsas vəzifələrdəndir.

TURİZM XİDMƏTLƏRİ VƏ ONLARIN SOSİAL-İQTİSADİ ƏHƏMİYYƏTİ

Əliyev Ş.H.
Sumqayıt Dövlət Universiteti
E-mail: scebrayilli4@gmail.com

İqtisadiyyatın ən mühüm, inkişaf etmiş, gəlir gətirən və rəqabətqabiliyyətli sahələrindən biri də turizm iqtisadiyyatıdır ki, bu sahə digər iqtisadi sahələrlə sıx qarşılıqlı əlaqədədir. Turizm iqtisadiyyatının inkişafı öz növbəsində digər iqtisadi sahələrin inkişafına da müsbət təsirini göstərir. Turizm xidmətlər bazarı ölkənin sosial, iqtisadi, ictimai, mədəni yüksəlişinə, beynəlxalq əlaqələrin qurulmasına, təkmilləşməsinə, inkişaf etməsinə, şəxsiyyətlərarası münasibətlərin formalaşmasına şərait yaradır. Turizm iqtisadiyyatının inkişafı ölkədə sahibkarlıq və biznes mühitinin yaranmasını, ümumi daxili məhsulun həcminin artmasını, investisiya qoyuluşlarının artmasını, vergi proseslərinin tənzimlənməsini, dövlət büdcəsinin inkişafını, sığorta sisteminin daha da təkmilləşməsini, bank sektorunun inkişafını, idxal-ixrac balansının qorunub saxlanmasını və digər prosesləri müsbət mənada formalaşdırır. Bu sadaladıqlarımız turizmin iqtisadi əhəmiyyətidir. Turizmin sosial əhəmiyyətinə gəldikdə isə deyə bilərik ki, turizm xidmətlər bazarı məşğulluğun artmasına və bunun müqabilində işsizliyin azalmasına, əhalinin az qala bütün təbəqələrinin işlə təmin olunmasına, əmək haqqılarının artması müqabilində əhalinin alıcılıq qabiliyyətinin və sosial rifahının artmasına, əhalinin sosial müdafəsinin güclənməsinə, regionlarda sosial infrastrukturların yaradılmasına və mövcud olan infrastrukturların bərpasına və yeniləşməsinə, təhlükəsizlik problemlərinin həll olunmasına, insanların mədəni səviyyələrinin, dünya görüşlərinin, elm və bacarıqlarının inkişafına, birgə iş mühitində insanların sosiallaşmasına və s. şərait yaradır.

Hər şeydən əvvəl biz bilirik ki, iqtisadiyyatın əsas məqsədi daha az xərc çəkməklə, daha çox gəlir əldə etməkdir. Məhz bu səbəbdən turizm xidmətlər bazarını iqtisadiyyatın ən optimal sahəsi kimi səciyyələndirə bilərik. Bu sahə biznes mühitinin yaradılması və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi imkanlarına malikdir. Ona görə ki, bu sahəyə qoyulan kapital qısa müddət ərzində gəlir gətirə bilir. Həmçinin turizm həm geniş, kompleks, həm də daima inkişaf edərək yeni turizm məhsullarının yaranmasına şərait yaradan və daha az riskli sahə hesab olunduğu üçün sahibkarların diqqətini çəkə bilir və sahibkarlar bu bazarda daha rahat və düzgün qərarlar qəbul edərək öz inkişaf strategiyalarını formalaşdıra bilirlər

Dünya təcrübəsinə nəzər salsaq görərik ki, ölkələr müəyyən vasitələrlə regionlarda turizm sahibkarlığının inkişafı üçün əlverişli şərait yaratmağa maraqlıdırlar. Belə ki, vergi qanunvericiliyinin tənzimlənməsi yolu sahibkarlara daha əlverişli şərait yaratmaq üçün vergi dərəcələrini azaldır, yaxud müəyyən vergi növləri üzrə, müəyyən müddət ərzində sahibkarlıq subyektlərini vergi ödənişlərindən azad edir, bank sistemini təkmilləşdirir, yumşaq pul-kredit siyasətini həyata keçirdir, bank faizlərinin aşağı salınması yolu ilə sahibkarlığı stimullaşdırır, subsidiyalar verir, normativ-hüquqi bazanı təkmilləşdirir və digər tədbirləri həyata keçirdir.

Regionlarda turizm sənayesinin inkişaf etməsi üçün kiçik və orta sahibkarlığın inkişafı da əsas məsələlərdəndir. Kiçik və orta sahibkarlığın inkişafında dövlətin iqtisadi və sosial maraqları böyükdür. Dövlətin sosial sahədə qarşısına qoyduğu məqsədlərindən biri də hər bir ölkə vətəndaşının turizm səyahətlərindən istifadə etməsini stimullaşdırmaqdır. Bu sahədə turizmin inkişafında kiçik və orta sahibkarlıq fəaliyyətinin rolu olduqca əhəmiyyətlidir. Çünki kiçik və orta sahibkarlığının mövudluğu əhalinin bütün təbəqələrinin turizmə marağını artırır. Məsələn, sahibkarların hostellərin, yaxud aşağı ulduzlu hotellərin yaradılması üçün ayırdıqları sərmayələr hesabına regionda qalma xərcləri ucuz başa gəlir və alıcılıq qabiliyyəti aşağı olan vətəndaşlar da turizm səyahətlərini həyata keçirdə bilirlər. Ümumiyyətlə əhalinin bütün təbəqələrinin turizm xidmətlərindən istifadə edə bilməsi daha sağlam cəmiyyətin formalaşmasına rəvac verir, insanların psixoloji, fiziki vəziyyətinin yaxşılaşmasına, onların stressdən uzaqlaşmasına xidmət edir.

Regionlarda turizm sahibkarlığının inkişaf etdirilməsi üçün kifayət qədər təbii-resurs, əmək, maddi-texniki potensiallar mövcuddur və regionların potensialını iqtisadi dövriyyəyə cəlb edərək bir çox regional problemlərin həllini tapmaqla onları aradan qaldırmaq mümkün olur. Belə ki, regionlarda işsizlik, məşğulluq problemləri, əhalinin alıcılıq qabiliyyətinin aşağı olması, əlverişsiz şərait, nəqliyyat yollarının istifadəyə yararsız olması, texnika-texnologiyaların zəif inkişafı, təhsil sisteminin, səhiyyə sisteminin səviyyəsinin

aşağı olması, infrastrukurların köhnəlməsi və ya tamamilə sıradan çıxması, xidmət sektorunun inkişaf etməməsi regionlardakı əhalinin şəhərlərə miqrasiya etməsinə, urbanizasiya prosesinin sürətlənməsinə səbəb olur. Bunun nəticəsində regionlar boş qalır, kənd təsərrüfatı tənəzzülə uğrayır, sənayeləşmə böyük vüsət alır, işsizliyin səviyyəsi artır, ətraf mühitin çirklənməsi baş verir, mədəni uyğunsuzluq yaranır ki, bu da qarşıdurmalara gətirib çıxarır. Ona görə də regionlarda turizm sahibkarlığının inkişaf etdirilməsi ilk növbədə əhalinin məşğulluq probleminin həll edilməsində böyük rol oynayır və bu zaman əhalinin işsiz təbəqəsinin böyük bir qismi işlə təmin olunur.

Turizm sənayesinin günü-gündən inkişaf etməsi, bu sahəyə yeni texnika-texnologiyaların cəlb olunması bu sahədə fəaliyyət göstərən işçilərin də ixtisaslaşmasını, peşəkarlaşmasını zəruri edir. Aydındır ki, regionlarda peşəkar kadr çatışmazlığı turizm sferasının əsas problemlərdən biri hesab olunur və bu problemin aradan qaldırırlması üçün bir çox addımlar atılır ki, onlardan biri də regionlarda kadr hazırlığı kurslarının, təlim mərkəzlərinin yaradılması, işçilərin bu kurslara, mərkəzlərə cəlb olunmaları hesabına bilik və bacarıq səviyyələrinin artırılmasıdır. Həmçinin turizm müəssisələrin özünün də düzgün kadr siyasəti olmalıdır ki, işçilərin mövcud potensialından səmərəli istifadəni təmin edə, kadrların müəssisə daxilində düzgün bölüşdürülməsini həyata keçirdə, iş şəraiti, əmək haqqı, iş vaxtı, işçilərin hüququ kimi məsələləri həll edə bilsin. Müəssisələrdə kadr siyasətinin düzgün qurulması onun rəqabətqabiliyyətliliyini artırır, müəssisə daha çox qazanc əldə edə və onu saxlaya bilir, müəssisənin xərclərini azaldır, onun nüfuzunu artırır.

Regionlarda turizmin inkişafı burada yeni infrastrukturların yaradılması və köhnə infrasturukturların bərpa edilərək yenidən istifadə edilməsinə zəmin yaradır. Təhsil, səhiyyə, ictimai iaşə obyektləri, nəqliyyat yolları, rabitə texnologiyaları və s. yenilənməklə əhalinin həyat səviyyəsinin şəhər əhalisinin həyat səviyyəsinə çatmasına, regional ədalətsizliyin azalmasına şərait yaradır. Regionlarda turizmin inkişafı, həmçinin əhalinin daha çox mədəniyyətlərə məruz qalması ilə onların mədəni səviyyələrinin yüksəlməsinə səbəb olur.

Regionlarda turizm xidmətlər bazarından daha çox gəlir əldə etmək üçün ilk növbədə resurs potensialından səmərəli şəkildə istifadə etmək ən vacib şərtdir, çünki resurslar tükənəndir. Bunun üçün resurslardan istifadənin ən optimal variantı seçilməlidir, həmçinin düzgün strateji qərarlar qəbul edilməli, planlar hazırlanmalı və həyata keçirilməlidir.

Turizm xidmətlər bazarının inkişafı üçün digər vacib şərt bu sahəyə yerli və xarici investorların cəlb edilməsidir. İnvestorların cəlb edilməsi çətin bir prosesdir. İnvestor sərmayə qoyduğu sahəni çox dərindən araşdırır, onu təhlil edir, riskləri, fürsətləri, imkanları dəyərləndirir və onun perspektivlərini müəyyənləşdirir. İnvestor üçün əsas məqsəd mənfəət əldə etmək və bu mənfəəti daha az riskli yollardan əldə etməkdir. Ona görə də investorlar risk, xərc və ləngitmələrin vüsət aldığı sahələrə investisiya qoymaqdan çəkinirlər. İnvestorların cəlb edilməsi üçün əlverişli investisiya və biznes mühitinin yaradılması başlıca şərt hesab olunur. Əlverişli investisiya mühiti dedikdə biz vergi dərərcələrinin azaldılmasını, investorların hüquqlarının qorunmasını, sabit qanunvericilik, şəffaflıq, korrupsiyadan azad olmanı və s. başa düşürük. Dünya təcrübəsinə nəzər salsaq görərik ki, korrupsiya və bürokratiyanın olduğu ölkələrdə düzgün investisiya mühiti formalaşmamış və həmin ölkələr iqtisadi tənəzzülə uğramışdır.

İnvestorların çəkindiyi digər problemlər isə ölkədə irqi, etnik, milli, dini zəmində qarşıdurmaların olması, tez-tez ekoloji fəlakətlərin olması, ölkənin müharibə şəraitində olması və ya düzgün siyasi əlaqələrin qurula bilməməsidir.

Regionlarda turizm sahəsinin inkişafı üçün əsasən yerli investorların buraya cəlb edilməsi daha məqsədəuyğun hesab olunur, lakin xarici investorların da cəlb edilməsi bir sıra müsbət proseslərlə nəticələnir. İlk növbədə xarici investorlar özləri ilə birlikdə yeni üsul və idarəetmə formaları gətirir, kiçik və orta müəssisələrin inkişafına təkan verir, kapitalın sürətli formalaşmasına kömək edir.

MİLLİ İQTİSADİYYATDA TURİZM XİDMƏTLƏRİ BAZARININ ROLUNUN ARTIRILMASINDA DÖVLƏT DƏSTƏYİ TƏDBİRLƏRİ

Əliyev Ş.H.
Sumqayıt Dövlət Universiteti
E-mail: scebrayilli4@gmail.com

Milli iqtisadiyyat mürəkkəb bir sistemdir, bu sistemin tərkib hissəsinə ölkənin təsərrüfat, sosial, texnoloji, təşkilati, elmi prosesləri aiddir. Hər bir ölkənin milli iqtisadiyyatının özünəməxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər onun beynəlxalq arenada yerini və rolunu müəyyənləşdirir. Dünya ölkələrinin milli

iqtisadiyyatlarına nəzər salsaq görərik ki, hər bir ölkə müəyyən sahələr üzrə ixtisaslaşmışdır. Eynilə Azərbaycan Respublikasının milli iqtisadiyyatına da nəzər salsaq bu tendensiyanı müşahidə edə bilərik. Azərbaycan iqtisadiyyatının əsas hissəsini neft-qaz sektoru tutur və bu sahədə dünya dövlətləri ilə birlikdə əməkdaşlıqlar edilir, layihələr hazırlanır, işlər həyata keçirilir. Lakin neft-qaz sektorunun inkişafı ilə yanaşı qeyri-neft-qaz sektorunun inkişafı da zəruridir. Ona görə ki, neft-qaz sektorundan asılılıq, digər sahələrin inkişafdan qalması ölkə üçün çox ciddi problemlər yarada bilir. Hər şeydən əvvəl neft-qaz ehtiyatları tükənəndir, bərpa olunmur, ona görə də alternativ enerjiyə artan maraq bu sahəyə olan tələbi aşağı salacaqdır. Çünki alternativ enerji bərpa oluna bilir, ətraf mühitə zərər vermir və nisbətən ucuz başa gəlir. Neft-qaz sektorunun digər mənfi cəhəti qiymətlərin qeyri-sabitliyidir. Dünyada baş verən bütün proseslər birbaşa, yaxud dolayı yolla öz təsirini neft-qaz sekoruna göstərir. Bunun ən bariz nümunəsi kimi 2014-cü ilin iyul ayında neftin qiymətində baş verən ucuzlaşmaları qeyd edə bilərik. Neftin qiymətinin kəskin düşməsi 2014-cü ilin dekabr və 2015-ci ilin yanvar-fevral aylarında devalvasiyaya səbəb oldu, yəni manat dollara qarşı dəyər itirməyə başladı. Bu prosesin qarşısının alına bilməməsinin əsas səbəbi dediyimiz kimi, neft-qaz sektorundan asılılıq və qeyri-neft qaz sektorunun lazımı dərəcədə inkişaf etməməsi idi.

Azərbaycanda qeyri-neft-qaz sektorunun yaranması və inkişafı üçün lazım olan şərait mövcuddur. Bu sektorun inkişaf etdirilməsi dövlətin prioritet məqsədlərindən biridir və bu məqsədin həyata keçirilməsi üçün bir sıra addımlar atılır: Dövlət proqramları, strateji yol xəritələri hazırlanır, qanunvericilik bazası təkmilləşir, maliyyə-kredit problemlərinin aradan qaldırılması üzrə müəyyən işlər həyata keçirilir, investisiya-biznes mühiti yaradılır və s.

Qeyri-neft-qaz sektorunun inkişafı iqtisadi təhlükəsizliyi təmin edir, milli iqtisadiyyatda rəqabətqabiliyyətli mühitin yaradılmasına xidmət edir, milli iqtisadiyyatın dünya bazarındakı payını artırır.

Qeyri-neft-qaz sektorunun tərkibinə bir çox sahələr aiddir. Son illərdəki inkişaf tempinə nəzər salsaq görərik ki, turizm sənayesi bu sektorun ən çox inkişaf edən və gəlir gətirən sahələrindəndir. Azərbaycanın zəngin təbii sərvətləri, landşaftı, iqlimi, coğrafi mövqeyi, tarixi-mədəni abidələri, mətbəxi turizm sahəsinin inkişafı üçün şərait yaratmışdır.

Azərbaycan Respublikası Sovet İttifaqının tərkibindən çıxdıqdan sonra, iqtisadi münasibətlər formalaşmağa başlamış, islahatlar aparılmış, yeni bazar sisteminə keçidin əsası qoyulmuşdur. Müstəqilliyin ilk illərində Azərbaycanda baş verən siyasi hərc-mərcliklər və Sovet dövründən qalma problemlər bütün sahələrə öz mənfi təsirini göstərmişdir. Xüsusilə turizm sənayesi ən çox zərər çəkən sənayelərdən biri olmuşdur. Qarabağ müharibəsi, sərhədlərdəki gərginlik, turist bazalarının sıradan çıxması, turist səfərlərinin azalmasına səbəb olmuşdur. Belə ki, ölkəyə gələn turistlərin sayında 1993-cü ildə 80 % azalma müşahidə olunmuşdur. Erməni işğalı nəticəsində Azərbaycanın ən gözəl guşələrindən biri, yüksək turizm potensialına malik olan Qarabağ düşmən tapdağı altına düşmüş, bir çox turizm ehtiyatları məhv edilmişdir.

Müstəqilliyin sonrakı illərində, xalqın tələbi əsasında ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsilə ölkədə siyasi-iqtisadi sabitliyin əsası qoyuldu. Bütün sahələrə xüsusi qayğı göstərən Ulu öndərin xüsusilə turizm sahəsindəki fəaliyyəti bu sahədəki problemlərin həllində mühüm rol oynadı. Belə ki, 1995-ci ildən turizm müəssisələrinin bir qisminin özəlləşdirilməsi, 1999-cu il tarixində Milli Məclisdə "Turizm haqqında" qanunun qəbul edilməsi və 27 iyul 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərmanın imzalanması, Azərbaycanın 29 sentyabr 2001-ci ildən Ümumdünya Turizm Təşkilatının üzvü olması, Ulu Öndərin 18 aprel 2001-ci il fərmanına əsasən Gənclər və İdman nazirliyinin Gənclər, İdman və Turizm nazirliyinə çevrilməsi, 2001-ci ildə turizm sənayesində hüquqi bazanın nizamlanması, turistlərin hüquqlarının qorunması və s. məqsədilə Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqının yaradılması, Ulu Öndərin 2002-ci il 27 avqust tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı"-nın təsdiq olunması və həyata keçirilən digər fəaliyyətlər turizm sektorunun inkişafında mühüm rol oynadı. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il 20 sentyabr tarixində imzalanan "Əsrin müqaviləsi" ölkəyə xarici iş adamlarının gəlməsində və investisiya mühitinin formalaşmasında atılan mühüm addımlardan biri oldu. İş adamlarının turizm biznesinə sərf etdikləri investisiyalar nəticəsində Azərbaycanda dövrün standartlarına uyğun hotellər tikilməyə başlandı. "Hyatt Regency", "Avropa", "Park-inn", "Radisson SASS" və s. kimi yüksək keyfiyyətli hotellər bunun ən bariz nümunələridir.

2003-cü ildən indiki dövrə qədər olan müddətdə ulu öndər Heydər Əliyevin layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar nəticəsində turizmin inkişafında yeni bir dövrə qədəm qoyuldu. Artıq turizm sektoruna yanaşma da başqa cür olmuşdur. Turizm üzrə qəbul edilən dövlət proqramlarında onun iqtisadi mahiyyəti ilə yanaşı, sosial mahiyyəti də nəzərə alınmış, bu sahədə görülən işlərin əhatə dairəsi genişlənmişdir. Xüsusilə zəngin turizm potensialına malik olan regionlarımız turizm

dövriyyəsinə cəlb olunmuş, bölgələrdəki yerli əhalinin rifahı artmış, regionun infrastrukturu yaxşılaşmış, sahə və ərazi problemlərinin həllinə nail olunmuşdur.Bu dövr ərzində cənab Prezident İlham Əliyev tərəfindən turizm sənayesinin dirçəlməsi üçün bir sıra dövlət proqramları, strateji yol xəritələri, fərmanlar, sərəncamlar qəbul edilmişdir.

Xüsusilə Azərbaycanın Dünya Turizm Təşkilatına üzv olmasının 10 illiyi ilə əlaqədar keçirilmiş "Turizm ili" çərçivəsində bu sahənin inkişafı üçün çox vacib addımlar atılmışdır. Bununla bağlı olaraq Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən tədbirlər planı hazırlanmış və həmin tədbirlər planında bir sıra məqsədlərin reallaşdırılması nəzərdə tutulmuşdur: turizmin hüquqi bazasının təkmilləşdirilməsi; investisiyalar və turizm infrastrukturunun inkişafı; mədəni turizm tədbirlərinin həyata keçirilməsi; turizm əhəmiyyətli tarixi abidələrin bərpası; turizm təbliğatı və təşviqatının genişləndirilməsi; elm və təhsildə turizm sahəsi üzrə işlərin həyata keçirilməsi və s.

Dövlət proqramları, strateji yol xəritələri, fərmanlar, sərəncamların qəbul edilməsinin əsas məqsədi dünya standartlarına cavab verən turizm infrastrukturun yaradılması, turizm sahəsində beynəlxalq təcrübədən istifadə edərək səmərəliliyin təmin edilməsi, xarici və yerli investisiyaların cəlbi, ölkədə turizm xidmətinin keyfiyyətinin artırılması yolu ilə onun beynəlxalq bazarda rəqabətqabiliyyətliliyinin təmin edilməsidir. Dövlətin turizm sənayesinə bu cür məqsədyönlü yanaşması və həyata keçirdiyi tənzimləmə siyasəti nəticəsində bu sahənin dayanıqlı və davamlı inkişafına nail olmaq, onun sosial-iqtisadi səmərəsini artırmaq olar.

KOMMERSİYA XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAFINA TƏSİR EDƏN FAKTORLAR

Əliyeva Ç.S.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: chichakaliyeva7@gmail.com

Kommersiya xidmət müəssisələri ölkənin iqtisadi artımında və inkişafında mühüm rol oynayır. Mövcud iqtisadi artım tendensiyaları biznesin böyüməsinə və bütün maraqlı tərəflərin dəstəyinə əsaslanır. Bu yazıda qeyd olunur ki, təlim və inkişaf maliyyə və pul axınının planlaşdırılması və firma resursları ilə müqayisədə kommersiya müəssisələrinin inkişafında ən təsirli amildir. Nəticə hissəsində bildirilir ki, kommersiya müəssisələrinin inkişaf etdiricilərinə işçilərin daxili qabiliyyətlərini, məsələn, kommersiya müəssisəsinin böyüməsi və inkişafına yönəlmiş düzgün idarəetmə bacarıqları, öhdəlik, əzmkarlıq və qətiyyət kimi bacarıqlarını üzə çıxarmaq üçün təlimlərin keçirilməsi tövsüyə olunur.

Sahibkarların xüsusiyyətləri. Qeyd etmək lazımdır ki, heç də bütün sahibkarlar başladıqları biznesdə uğur qazana bilmirlər. Müvəffəqiyyət əldə etmək üçün onlara xüsusi xüsusiyyətlər lazımdır. Fərdlər müxtəlif şəxsi xüsusiyyətlərlə doğulurlar və buna görə də Sahibkarlar öyrədilməyən, lakin bəziləri öyrənilə və kopyalana bilən bir neçə şəxsiyyət xarakteristikasına malikdirlər və bunlara investorlar, liderlər, texnoloqlar, marketinq mütəxəssisi və nailiyyətlər kimi çıxış etmək bacarığından bəziləri daxil ola bilər. Sahibkar nə qədər çox bilik və bacarıq nümayiş etdirə bilsə, bir o qədər yaxşı olar və bu bacarıqlar təlim və ya təcrübə yolu ilə əldə edilə bilər. Nə etmək niyyətində olduğunuzu öyrənmək və tətbiq etmək istəyi bir sahibkarın rəhbərinin bütün fəaliyyətlərini planlaşdırmağa kömək edir.

Davranış xüsusiyyətləri. İnkişaf etməkdə olan ölkələrdə kommersiya müəssisələrinin böyüməsinin əsas səbəbi, sahibkarların böyüməni davam etdirmək üçün motivasiyasının olmamasıdır. Biznes sahibləri sahibkarlıq fəaliyyəti ilə məşğul olsalar da, lazımi sahibkarlıq münasibəti və ya məqsədi sadəcə olaraq yoxdur. Risk götürmək, sahibkar şəxsiyyətini təsvir etmək üçün istifadə edilən digər mühüm xüsusiyyətlər kimi qəbul edilir. Daha yüksək qabiliyyətlərə və daha yüksək nailiyyətlərə ehtiyacı olan müəssisə sahiblərinin işçiləri əlavə etmək ehtimalı daha yüksəkdir. Hakimiyyət üçün daha aşağı motivasiya dərəcələri də məşğulluğun artımı ilə əlaqələndirilir, bu da müəssisə daxilində tapşırıqların verilməsinin və rolların ixtisaslaşmasının vacibliyini sübut edir.

Sahibkarların yaşı. Əksər alimlərin və böyük iş adamlarının vaxtın pul olduğunu, hər hansı bir vaxtın boşa getdiyini, pulun itirildiyini söylədiyi və bir çox alimlər də yaşın fərdlərə təsiri ilə bağlı müxtəlif fikirlər söyləmişlər. Sahibkarlar öz işini qurmaq və başqalarını da işlə təmin etmək üçün bir iş qurmaq istəyərlər. Bu, həmçinin hər hansı bir işə başlamaq və idarə etmək üçün insanın malik olduğu biliklərin miqdarının yaşla artacağı fikrinə əsaslanır. Belə ki, müəyyən bir yaş həddi var, bundan sonra fərdlərin öz sahibkarlıq fəaliyyətinə başlamaq istəyi azalır. Əksər tədqiqatçılar belə bir qənaətdədirlər ki, fərdlər sahibkarlıq istəklərini yaşlı sahibkarlarla (44 yaşdan yuxarı) ilə müqayisədə daha gənc yaşlarında (25-44) göstərirlər.

Sahibkarların genderi. Biznes ədəbiyyatında ümumi qəbul olunmuş prinsip qadın biznes sahiblərinin kişi biznes sahiblərindən fərqli şəkildə davranması və bir neçə amilin unikal olmasıdır. Qadınlar öz məqsədlərinə çatmaq üçün bütün sahələrdə müxtəlif strategiyalar qəbul edəcəklər və nəticədə bizneslərinin nəticələrinə nail olacaqlar. Artım templərindəki fərqlər qadınlar arasında şəxsi sahibkarlıq xüsusiyyətlərinin və xüsusiyyətlərinin olmamasından daha çox, qadınların cəmiyyətdəki rolları ilə bağlı qadınların biznes imkanlarını məhdudlaşdıran bir sıra amillərlə bağlı ola bilər. Qadınların yaxşı idarəçilik bacarıqları, öhdəlikləri və səriştələri var ki, bu da onları kişilərdən daha yaxşı sahibkar edə bilər. Bununla belə, qadın sahibkarların iştirakı ilə aparılan araşdırmalar göstərdi ki, qadınlar kişilərə nisbətən sahibkarlığa daha çox maraq göstərirlər.

Nəticə. İş təcrübəsi və təlim kommersiya müəssisələrinin inkişafında maliyyə və pul vəsaitlərinin hərəkətinin planlaşdırılması və adekvat firma resursları ilə müqayisədə ən təsirli amildir. Sadiq, israrlı və qətiyyətli təcrübəli müəssisə tərtibatçıları daha çox qəbul edirlər. Kommersiya xidmət saələrinin inkişafına birbaşa təsir göstərən bir neçə aspekt təsvir olundu. Kommersiya müəssisələrinin inkişaf etdiricilərinə işçilərin daxili qabiliyyətlərini, məsələn, kommersiya müəssisəsinin böyüməsi və inkişafına yönəlmiş düzgün idarəetmə bacarıqları, öhdəlik, əzmkarlıq və qətiyyət kimi bacarıqlarını ortaya çıxarmaq üçün təlim keçmələrinə ehtiyac var.

BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ KADR SEÇİMİNDƏ MÜASİR MEXANİZMLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Əliyeva A.Q.
Odlar Yurdu Universiteti
E-mail: ayten-eliyeva-2020@bk.ru

Hal-hazırda müəssisələrin, firmaların və şirkətlərin fəaliyyət sferasında insan resurslarının rolunun yüksəlməsi insan amilinin, onun intellektual və yaradıcı funksiyasına formalaşan zəruri tələbatdan qaynaqlanır. İnsan resursları müəssisələrin və təşkilatların həyatında xüsusi önəmə malikdir. Bu nöqteyi-nəzərdən müəssisədaxili fəaliyyətin səmərəliliyini təmin etmək və bunu ümumi keyfiyyətinin artırılmasına doğru yönləndirmək ən əsas vəzifələrdəndir. İşin məzmunu. İnsan resurslarının idarə olunması müəssisənin tələblərinə cavab verən kadr ehtiyatlarının toplanması, təkmilləşdirilməsi, ixtisaslaşdırılması, müəyyən edilməsi, yerləşdirilməsi, qiymətləndirilməsi və onların əmək fəaliyyətinin təşviq edilməsi və stimullaşdırılması, əmək lərinin qarşılığının ödənilməsi kimi məsələləri özündə birləşdirir.

İnsan resurslarının qiymətləndirilməsi kadr seçimini iş sisteminin əsas tərkib hissələrindəndir. İnsan resurslarının qiymətləndirilməsi ən çətin və mübahisəyə səbəb olan məsələlərdəndir. Bu yerdə ən mühüm məsələlərdən biri qiymətləndirmə üçün ilkin informasiyaların toplanmasıdır. Qeyd edilən ilkin materiallar aşağıdakılardan ibarətdir:

1. İş yerlərinin modeli və onun əsas ünsürləri – peşə biliyi və bacarığı, şəxsi keyfiyyəti, xidmət karyerası, əməyin təşkil edilməsi, əməyin ödənilməsi və s.;
2. İnsan resurslarının attestasiyası haqqında əsasnamə və ilkin materiallar: attestasiya kartları, attestasiya olunan şəxsin sorğu vərəqəsi, iş yerinin modeli, əməkdaşla müqavilə, ştat cədvəli, vəzifə instruksiyası, şkala üzrə qiymətləndirmə, insan resurslarının kompleks qiymətləndirilməsi, işçinin şəxsi keyfiyyətlərinə görə, işin nəticələrinə görə fərdi töhfəsinin qiymətləndirilməsi.
3. İnsan resurslarının reytinq qiymətləndirilməsi metodu;
4. Müəssisə fəlsəfəsi – müəssisədaxili fəhlə və qulluqçular arası qarşılıqlı münasibət prinsipləri və qaydaları, dəyərlər sistemi, kollektiv kontrakt və s.;
5. Müəssisədaxili əmək qaydaları.
6. Digər ilkin informasiyalar: əməkdaşın şəxsi vərəqəsi, ştat cədvəli, sosial anketlər, psixoloji testlər.

Qeyd edilənlərdən bəziləri həm də insan resurslarının qiymətləndirilməsi metodları kimi də çıxış edir. Ümumilikdə insan resurslarının qiymətləndirilməsi metodlarına aşağıdakıları daxil etmək olar: ekspert qiymətləndirilməsi, spesifik testlər əsasında testdən keçirmə, kritik situasiyalar formalaşdırmaq əsasında qiymətləndirmə, işgüzar oyunlar, müşahidə, sosial sorğular, proqram-nəzarət, biznes- planın müdafiə olunması, imtahan, əməyin kompleks şəkildə qiymətləndirilməsi, insan resurslarının attestasiyası. Məlum olduğu kimi, müəssisə və firmalarda insan resurslarının qiymətləndirilməsindən, müvafiq norma və qaydalardan, qiymətləndirmə metodlarından istifadə edirlər. Burada ən əsas məqsəd həm müəyyən edilmiş

qiymətləndirmə qaydalarının özünün keyfiyyətli olması, həm də işçilərin qiymətləndirilməsinin obyektiv şəkildə yerinə yetirilməsidir.

İnsan resurslarının düzgün şəkildə qiymətləndirilməsi müəssisə və firmaların səmərəli fəaliyyətinin əsas şərtlərindən biridir. Müəssisələrdə insan resursları müəyyən obyektiv qaydalara əsasən attestasiyadan keçirilir. Həmin attestasiya sadəcə yeni vəzifələrə irəli çəkilmək üçün deyil, həm də işçinin işlədiyi sektorda qalmasının məqsədəuyğunluğu üçün də zəruridir. Həyata keçirilən attestasiyanın nəticələri kadr uçotu şəxsi vərəqədə qeyd edilir. Attestasiya müəyyən edilmiş qaydada balla ifadə edilir. Maksimal bal bütün keyfiyyət tələblərinə cavab verən işçi üçün müəyyən edilir. Menecerlər işçi ehtiyatını formalaşdırmaq işini yüngülləşdirmək üçün matrisa cədvəlindən istifadə olunur. Burada hər bir menecerin sahib olmalı olduğu bütün işgüzar və şəxsi keyfiyyətlər göstərilir, bu həm müxtəlif peşələr, vəzifələr üzrə dəqiqləşdirilir, bu səbəbdən də bu bəzən matrisa metodu kimi adlandırılır. Matrisada müxtəlif keyfiyyət əlamətlərinin bal üzrə xüsusi payı müəyyən edilir.

Matrisa metodunun əsas üstün cəhəti ondan ibarətdir ki, onunla yalnız potensial rəhbərlərin deyil, faktiki işləyən işçilərin də fəaliyyətini dəqiq qiymətləndirmək olar. Bu, habelə işçilərin mükafatlandırılması, mənəvi maraqlandırılması, eləcə də onlar üçün yüksək səviyyəli aylıq maaşın müəyyənləşdirilməsi üçün də mühüm sənədlərdəndir. İnsan resurslarının öyrənilməsi çoxcəhətli idarəçilik fəaliyyəti ilə bağlıdır. Bu, sosiologiya, psixologiya, həmçinin mühəndis psixologiyası, əməyin nəticə etibarilə bərabər, məcmu halında şəxsiyyətin, onun peşə-təşkilatçılıq qabiliyyətinin kompleks araşdırılmasını nəzərdə tutur. Bu halda bir sıra formalardan – anket məlumatlarından, söhbətlərdən, müşahidə və testləşdirmədən geniş şəkildə istifadə edilir. Burada hər bir formanın öz xüsusi yeri və əhəmiyyəti vardır. Müşahidə, söhbət və testləşdirmə insan resurslarının öyrənilməsinin ən çox istifadə edilən formalarıdır. İşçi qüvvəsinə qarşı tələblər yarandıqdan və müəyyənləşdirildikdən sonra, namizədləri tanımaq, onları müqayisə etmək, onların təyin edildikləri vəzifəyə, müəssisə və ya şirkətin strukturuna müvafiq olmalarını ayırd etmək və sonda kimin işə qəbul edilməsi qərarını qəbul etmək üçün metodologiya formalaşdırılmışdır.

İşçilərin seçilməsi va yerləşdirilməsi idarə aparatının, idarəetmə fəaliyyətinin başlıca funksiyasıdır. Kadrlar istehsal və qeyri-istehsal kadrlarına ayrılır. İstehsal kadrları, o cümlədən sənayə müəssisələrinin sənayə-istehsal kadrları fəhlə, MTİ-lər, qulluqçular, şagirdlər, kiçik xidmət edici heyətlərə bölünür. Bu, funksional əmək 39 bölgüsü ilə bağlıdır. İşçi qüvvəsinin strukturu sabit deyildir, elmi texniki tərəqqi, istehsal edilən məhsulun müəkkəbliyi və s.

Bu kimi faktorlarla bağlı olaraq davamlı olaraq dəyişilir. Bu amillərlə bağlı yalnız işçi qüvvəsinin kateqoriya strukturu deyil, o cümlədən onların hər biri daxilində peşə ixtisas, təhsil səviyyəsi nöqteyi-nəzərindən də müvafiq dəyişikliklər baş tutur. Bu səbəbdən də müxtəlif firmalarda, şirkətlərdə müəssisələrin işçi qüvvəsinə, insan resurslarına olan tələbatı sadəcə ümumi halda deyil, konkret peşələr, ixtisaslar və işçi kateqoriyaları üzrə müəyyənləşdirilir. Burada insan resurslarına olan həm əsas, həm də əlavə tələbat nəzərdə tutulur. Bununla bağlı müxtəlif işçi heyəti üçün olan əsas tələb hesablanır, əlavə tələb üzrə plan tərtib olunur, əsas və əlavə tələbə təsir göstərən konkret amillər nəzərə alınır. Eyni zamanda da bu amillər, əsas və əlavə tələb hər bir işçi kateqoriyası üzrə ayrı-ayrılıqda müəyyənləşdirilir. Ona görə ki, bu amillərin təsiri bütün işçi qrupları üçün eyni formada deyildir. Misalçün, fəhlə və qulluqçulara tələbə təsir göstərən amillərin təsiri müxtəlif səviyyələrdə olur. Müəssisələrin insan resursları ilə təmin olunma mənbələri də müxtəlifdir.

İşçi ehtiyatlarına olan tələb planı tərtib olunarkən ümumi, əlavə tələbin üç mənbə hesabına qarşılanması üzrə hesablamalar yerinə yetirilir: peşə-texniki məktəblərdən qəbul olma;bilavasitə müəssisənin özünün işçi toplaması; müəssisələrdə fəhlə və briqada formasında peşə hazırlığı.

Müasir elmi-texniki tərəqqi prosesləri mütəxəssislərin hazırlanmasına qarşı yeni tələblər qarşıya qoyur. Mütəxəssislər və təsərrüfat rəhbərlərinin ixtisasının artırılması, yenidən hazırlanması sahə və sahələrarası ixtisasartırma kursları və fakültələr, daimi şəkildə fəaliyyət göstərən tədris mərkəzləri, qısa müddətli seminarlar vasitəsilə reallaşdırılır. Burada tədris proseslərinin modeli, tədris planı, tədris proqramları, tədrisin forması və müddəti, vəzifə peşə-ixtisas modeli, vəzifəyə, biliyə olan tələblər, rəhbər kadrlarının hazırlanması mərhələləri və təlim metodları, idarəetmə funksiyaları ilə konkret təsərrüfatçılıq situasiyalaının əlaqələndirilməsi, tədrisin intensivləşdirilməsi və s. məsələsi əsas yer tutur.

İşçilərin yerləşdirilməsi: Kadr ehtiyatlarının yerləşdiriliməsi dedikdə işçilərin peşə hazırlığını, iş təcrübəsini, işgüzarlığını və şəxsi keyfiyyətini nəzərdə tutmaqla struktur bölmələr və vəzifələr üzrə yerləşdiriliməsi anlaşılır. İşçilər yerləşdirilərkən hüquqi sənədlərdə işçilərə qarşı qoyulan müvafiq tələblərlə həmin təşkilatın mənafeyi, işçinin peşə və ixtisasından istifadə etmək imkanı, onun şəxsi və işgüzar keyfiyyətinin, qabiliyyətinin icra olunacaq fəaliyyətinin xarakterinə nə dərəcədə uyğun olması kimi

xüsusiyyətlər nəzərə alınır. Bu kimi xüsusiyyətlər xüsusilə kadrların müəyyən edilməsi prosesində, mərhələsində nəzərə alınmalıdır.

SOSİAL İNFRASTRUKTURUN İNKİŞAF ETDİRİLMƏSİNİN MAKRO MEXANİZMLƏRİ

Əlizadə R.İ.
Naxçıvan Dövlət Universiteti
E-mail: ali3adah@gmail.com

Ölkəmizdə həyata keçirilən sosial müdafiə sisteminin təkmilləşdirilməsinin makro mexanizmi istiqamətində bir sıra sahələrin inkişafına nail olunması və sosial yardım sisteminin dünya təcrübəsində tətbiq edilən sistemlər ilə müqayisə oluna bilinməsinə nail olunması təqdirə layiqdir.

Müasir şəraitdə dünya təcrübəsinə əsaslanaraq demək olar ki, ölkələrin gücü əsas strateji sahə olan təhsilin inkişaf səviyyəsi ilə təyin olunur. R. Lukas və P. Romer alimlərinin "iqtisadi inkişafın endogen nəzəriyyəsi"ndə qeyd edilir ki, müəyyən müddətdə əsas kapitala investisiya qoyulmazsa da "biliyi" artırmaqla məhsul buraxılışı yüksəldilə bilər. Bununla yanaşı digər amerikalı ekspertlər D. Qreyson və K.Odell qeyd edirlər ki, hərkəsin oxuyub yaza bildiyi cəmiyyət bir neçə dahisi olub, əksəriyyəti savadsız olan cəmiyyətə həmişə qalib gələcəkdir.

Təhsil dövlət siyasətinin əsas tərkib hissəsi kimi Konstitusiyada nəzərdə tutulmuş qanun və müddəalara əsasən tənzimlənir. İstənilən cəmiyyətdə olduğu kimi ölkəmizin də təhsil sistemi ilə bağlı müəyyən problemləri var. Təhsil sferası üzrə aşağıdakı tənzimləmə istiqamətlərinin reallaşdırılması ilə problemlərin həllinə nail olmaq mümkündür: Strateji prioritetlərin hazırlanması. Təhsil siyasəti üzrə müasir dövrdə ehtiyac duyulan informasiya bazası mövcud deyil; Keyfiyyət cəhətdən təhsil xidmətlərinin davamlı qiymətləndirilməsi, reytinq sıralamasının təhsil müəssisələri üzrə müəyyənləşdirilməsi; Müəllimlər ilə təhsil işçiləri üzrə zəmanətli minimal əməkhaqqının təyin edilməsi.

Beynəlxalq miqyasda iqtisadiyyatın inkişafı ilə rəqabətqabiliyyətliyin təmini üzrə təhsil sistemi əsas amil kimi əks olunur. Əgər ölkələrdə müasir təhsil sistemi olmazsa inkişaf gözlənilən səviyyədə ola bilməz. Yəni elmi texniki tərəqqinin inkişafı yüksək ixtisaslı kadr tələbatını artırır.

Təhsil üzrə siyasət tənzimləmə məqsədi daşıyır və islahatlarla həyata keçirilir. Təhsil siyasətinin əsas prinsiplərinə nəzər yetirək: Təhsil humanist xarakter daşımalıdır; Şəxsiyyətin azad inkişaf hüququ vardır; Hər kəsin eyni dərəcədə təhsil almaq hüququ vardır; Təhsil sistemində milli və regional səviyyədə mədəniyyət hüququ olmalıdır; Təhsil sistemi tədris tələbatına uyğun şəkildə olmalıdır; Təhsil müəssisələrində təhsil dünyəvi xarakter daşımalıdır; Təhsil sistemi azadlıq və plüralizmə əsaslanmalıdır; Təhsil müəssisələri müstəqil fəaliyyət göstərməli və idarəçilikdə demokratik xarakter daşımalıdır.

Araşdırmalara əsasən bağçadan tutmuş ali təhsilə qədərki təhsil sistemi bir-birilə əlaqəli olub, uyğun olaraq müəyyən bir mikroinfrastruktur formalaşdırır. Əgər bu komplekslərdən biri üzrə problem yaranarsa, təhsil sisteminə də təsir göstərir.

Təhsil sistemi ölkəmizdə peşə-ixtisas təhsilini inkişaf etdirməyi əsas vəzifələrdən biri olaraq qarşıya qoyur. Dövlət Statistika Komitəsinin peşə-ixtisas təhsili üzrə göstəricilərinə uyğun olaraq, 2021-ci ildə peşə təhsili müəssisələrinin sayı 103, ilk peşə-ixtisas təhsili alanların sayı 22012 nəfər olmuşdur.

Cəmiyyət həyatında ilk peşə-ixtisas təhsil müəssisələri mühüm rol oynayır. Bildiyimiz kimi, orta təhsil müəssisələrini bitirənlərin hamısı ali təhsilə yönəlmir və bunun üçün də peşə təhsili üzrə xüsusi tədbirlər reallaşdırılmalı, gənclər üçün əlverişli şərait yaradılmalıdır. Çünki heç bir məşğuliyyəti olmayan gənclərin çoxu cəmiyyətə mənfi təsir göstərəcək fəaliyyətlərə meyl edə bilirlər.

Müasir yenilikləri tətbiq etmə bacarığı olan ölkələr daha effektli iqtisadi sistem quraraq başqa dövlətlərə nisbətən sürətlə tərəqqi edirlər. Bu da öz növbəsində iqtisadiyyata elmi tətbiq etməklə reallığa çevrilə bilər. Amerikalı iqtisadçı *Peter Druckerə* görə "dünya indiki dövrdə əməktutumlu, material tutumlu, enerji tutumlu deyil, elmtutumlu dünyadır". Əsas kimi göstərə bilərik ki, istənilən dövlət bu məsələni öz elmi potensialının köməyi ilə reallaşdırarsa daha yüksək, həmçinin uzun dövr üçün səmərəlilik əldə edər.

Dövlətin elmi-texniki siyasətini həm texniki, həm də qeyri-texniki yeniliklər və bu sahə üzrə müdaxiləsini əhatə edir. Bazar iqtisadiyyatında dövlətin elmi texniki sahə üzrə məqsədləri 3 yolla reallaşdırılır: müvafiq dövlət məqsədlərini əhatə edən istiqamətlərin büdcə hesabına maliyyələşdirilməsi; bu sahə üzrə qanun ilə normativ aktların qəbulu, müəyyən güzəşt ilə stimulların tətbiqi; bu sahədəki yeniliklər, ixtiralar, alimlər haqqında ictimai rəy hazırlamaq.

Səhiyyə sistemi təhsillə birlikdə ölkə iqtisadiyyatının əsas amili hesab edilən işçi qüvvəsinin təkrar istehsalı, həmçinin rifah halının yaxşılaşdırılmasında vacib rol oynayır. Sağlamlığı aşağı səviyyədə olan insanlar ailəsi ilə birlikdə ölkə iqtisadiyyatının ümumi inkişafında ciddi rol oynaya bilmir.

İnsanların sağlamlığının müdafiəsi üzrə bir sıra problemlər mövcuddur ki, səhiyyə sistemində aktual şəkildə tədqiq olunur və həmin problemlər 3 blok üzrə təsnifləşdirilir: Təkrar istehsal əsasında cəmiyyət üzvlərinin sağlamlığı üzrə mühafizəsinin təşkili; Səhiyyə obyektləri üzrə idarəolunma ilə təsərrüfatçılıq mexanizminin formalaşmasını əhatə edən amillər; Səhiyyə xidmətləri sahəsi üzrə qiymətin formalaşması.

Mədəniyyət sahəsi ölkə əhalisinin asudə vaxtlarını faydalı keçirmək, mənəvi rifah halını yüksəltmək və mədəni irsi mühafizə etmək üçün olduqca əhəmiyyətli, həmçinin bazar iqtisadiyyatı dövründə dövlət tərəfindən qayğı göstərilməli olan vacib sahələrdən hesab olunur.

Ölkənin milli və mədəni sərvətlərini dünyaya tanıtmaq, regionlar üzrə tərəqqiyə nail olmaq, xarici valyuta axınının ölkə üzrə təchizi və s. kimi məsələlərdə turizm sektorunun rolu danılmazdır.

Turizm müəssisələrinin inkişafı son illərə təsadüf etsə də, göstərilən xidmətlər dünya standartlarından geridə qalır. Əsas səbəblər arasında həm ölkəmizin turizm zonası kimi dünyada tanınmamasını, həm də bu sahə üzrə qiymətlərin xidmətə uyğun olmayan yüksəkliyini göstərmək olar.

Sosial infrastrukturun əsas tərkib hissələrindən biri də mənzil-kommunal sahəsidir. Tədqiqata əsasən inkişaf etmiş ölkələrdə iqtisadi inkişafa mənzil tikintisi əhəmiyyətli təsir göstərir.

Mənzil siyasəti-dövlət müəssisələri ilə ictimai təşkilatlar tərəfindən qanunverici, icraedici və nəzarət fəaliyyətlərinin məcmusunu reallaşdıran tədbirlər sistemidir. Bu siyasətin realllaşdırılmasında dövlətin rolu olduqca əhəmiyyətlidir.

Mənzil sahəsində mərhələli və müntəzəm islahatlar həyata keçirilir. Bunlar da müəyyən dərəcədə bir sıra müsbət nəticələr doğurur ki, onlara da əsasən aşağıdakılar aid edilir: Mənzil fondunun özəlləşdirilməsi, bu sahədə sahibkarların sayının çoxalmasına səbəb olur; Mənzil bazarı mənzil münasibətlərinin vacib hissəsi kimi çıxış edir; Mənzil-kommunal xidmətlərində əhali ödəmələrinin sayı artmağa başlayır; Bu sahədə rəqabət yaranır və özəl sektorun payı artmağa başlayır.

Araşdırmalara əsasən mənzil-kommunal sahəsi üzrə görülən işlərin, dövlət proqramlarında nəzərdə tutulan islahatların daha da təkmilləşdirilməsi vacibdir.

SAHİBKARLIĞIN İNKİŞAFINDA DÖVLƏT DƏSTƏYİ ALƏTLƏRİNİN ROLU

Əsgərli T.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: esgerlitural50@gmail.com

İqtisadiyyatın davamlı inkişafına bir çox amillər təsir edir ki, bunlardan da ən mühümü sahibkarlıqdır. Müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafının amillərindən biri kimi məhz sahibkarlıq çıxış edir. O, bazar iqtisadiyyatının əsaslandığı və fəaliyyət göstərdiyi ictimai münasibətlərin həyata keçirilməsi üçün fundamental institutdur. Bazar tipli iqtisadiyyatın müstəqil və əvəzedilməz elementi kimi sahibkarlıq iqtisadiyyatın struktur yenidən qurulmasına öz töhfəsini verir, rəqabətin inkişafı üçün əhalinin əhəmiyyətli hissəsinin məşğulluğunu təmin edir, elmi-texniki tərəqqinin tətbiqini stimullaşdırır, regionların iqtisadi bazasını möhkəmləndirir, istehsalın və pərakəndə ticarətin ümumi həcmini artırır və bununla da ölkədə əlverişli mühit yaradır.

Sahibkarlıq bir sıra mühüm funksiyaları yerinə yetirir. Həm sosial funksiya kimi iş yerləri yaradır, xidmətlər göstərir, həm də iqtisadi funksiya kimi məhsul istehsal edir, bütün səviyyələrdə vürgi ödəməklə büdcələrin formalaşmasında iştirak edir. Hal-hazırda sahibkarlığın innovativ funksiyası da ortaya çıxır. Çünki. innovasiyalardan təcrübədə istifadə etməklə ən yaxşı əmtəə və texnologiyaların yaradılmasına gətirib çıxaran innovativ sahibkarlıqdır. Ona görə də dövlət tərəfindən sahibkarlığın inkişafına maraq ildən-ilə artır.

Azərbaycanda sahibkarlığın dəstəklənməsi problemi çox aktualdır. Mütəxəssislər ölkənin iqtisadi inkişafı üçün proqramlar tərtib edərkən, sahibkarlığı iqtisadi artım amillərindən biri olduğuna inanaraq, ona xüsusi diqqət yetirirlər.

Sahibkarlıqda əsas problemlərindən biri maliyyə resursları ilə bağlıdır. Buna görə də sahibkarlara dövlət dəstəyinin vacib üsulu güzəştli kreditləşmədir. Kredit müəssisələrə nəinki lazımi iqtisadi vəsait əldə etməyə kömək edə bilər, həm də istehsal prosesinin sürətləndirilməsini və fasiləsizliyini təmin edir. Lakin sahibkarın yüksək faizlə vəsait əldə etməsi çətindir. Bu baxımdan dövlət kredit üzrə faizlərin bir hissəsini büdcədən subsidiyalaşdırmaqla ona yardım edər və bununla da sahibkarın kredit yükünü azaldar.

Sahibkar güzəştli kreditləşdirmədən düzgün istifadə edərsə, öz biznesini inkişaf etdirməyə kömək edə bilər. Bütövlükdə, sahibkarlığın kreditləşdirilməsi sahəsində hökumət tərəfindən həyata keçirilən tədbirlər və statistik proqnozlar gələcəyə nikbinliklə baxmağa imkan verir.

Azərbaycanda sahibkarlığın güzəştli kreditləşdirilməsinin mövcud vəziyyətini təhlil etmək üçün aşağıdakı şəkildən istifadə edə bilərik.



Azərbaycanda Sahibkarlığın İnkişaf Fondu tərəfindən 2021-ci ildə sahibkarlığa 130,6 milyon manat güzəştli şərtlərlə kredit ayrılmışdır ki, bunun da 48,8%-i mikro, 19,9%-i kiçik, 19,4%-i orta, 11,9%-i isə iri sahibkarlıq subyektlərinə verilmişdir.

Sahibkarlıq üçün vergitutma aktual məsələdir. Dövlətin vergi siyasətinin əsas missiyası iqtisadi artımın optimal templərini saxlamaqla ölkənin inkişafı üçün rahat mühit yaratmaqdan ibarətdir. Vergi siyasətinin məqsəd və vəzifələrinə nail olmaq üçün vergi dərəcələri, vergi güzəştləri və üstünlüklərindən istifadə edir. Vergi dərəcəsinə düzəlişlərin edilməsi dövlətə ölkənin maliyyə-iqtisadi sferasında prioritetlərin dəyişməsinə tez təsir göstərməyə imkan verir. Bu vergi alətinin köməyi ilə mərkəzləşdirilmiş vergi sistemi daha çevik və səmərəli olur. Sahibkarlıq üçün xüsusi vergi rejimləri, yəni, ümumi vergitutma sistemi çərçivəsində qanunvericilik tərəfindən nəzərdə tutulmuş xüsusi vergitutma sistemləri mövcuddur. Vergi güzəştləri gənc sahibkarlara bazarda ayaqda qalmaq və istehsalı genişləndirmək üçün təkan verir. Hazırda çoxlu sayda mövcud və potensial əhəmiyyətli vergi tənzimlənməsi alətləri mövcuddur. Vergi tənzimlənməsi alətləri dövlətin qarşısında duran seçilmiş siyasətin prioritetlərindən, məqsəd və vəzifələrindən asılı olaraq sahibkarlıq fəaliyyətinə fərqli təsir göstərə bilər. Qeyd etmək lazımdır ki, vergi tənzimlənməsi alətlərindən istifadə həm müsbət, həm də mənfi təsir göstərə bilər.

Azərbaycanda vergi tənzimlənməsinin əsas vəzifələrindən biri davamlı və şəffaf vergitutma mexanizminin yaradılması və sahibkarlıq proseslərinin stimullaşdırılması üçün daha əlverişli mühitin yaradılmasıdır.

Dəstəyin başqa bir forması subsidiyalardır. Subsidiyaların köməyi ilə istehsal həcminə nəzarət etmək mümkündür. Çünki subsidiyalar şəklində əlavə vəsaitlər hesabına məhsul və xidmətlərin istehsal və satışının səmərəliliyinin artırılması sahibkarları istehsal həcminin artırılmasında və onun yaxşılaşdırılmasında maraqlı olmasına kömək edir. Kredit faizlərini azaltmağa imkan verən subsidiyalar maddi-texniki bazanın yenilənməsinə səbəb olur ki, bu da innovativ texnologiyaların tətbiqinə və bütövlükdə sahibkarlığın innovativ inkişafına təkan verir.

Sahibkarlığa dövlət dəstəyinin başqa yolları da var. Məsələn, lizinq bu baxımdan əhəmiyyətlidir. Lizinq əmlakın əldə edilməsi üçün investisiya fəaliyyətinin bir növü kimi başa düşülür. Bu halda icarəçinin əmlakı satın almaq hüququ vardır. Lizinqin sahibkarlığın inkişafında rolunu artırma üçün dövlət lizinq bazarının fəaliyyətini dəstəkləyir. Lizinq bazarının dəstəklənməsi borcla maliyyələşmə çatışmazlığının aradan qaldırılmasına, maliyyələşdirmə şərtlərinin artırılmasına və lizinq şirkətlərinin kreditləri üzrə faiz dərəcələrinin aşağı salınmasına kömək edəcək. Sahibkarlar lizinq əməliyyatlarının ən perspektivli istehlakçısıdır və məhz bu sahibkarlıq seqmentinin dövlət dəstəyinə ciddi ehtiyacı var. Çünki, lizinq

maliyyələşdirilməsi sahibkarlığın investisiya fəallığının artırılmasında mühüm rol oynayır və nəticədə ölkənin ümumi iqtisadi inkişaf səviyyəsinə müsbət təsir göstərir.

Lizinqin effektiv idarə olunması üçün onun inkişafının bütün amillərini nəzərə almaq lazımdır. Bu sahədə dövlət siyasəti məqsəd və vəzifələrin xüsusi qrupunu əhatə edir. Lizinq sahəsində dövlətin təsir tədbirləri şərti olaraq birbaşa və dolayı bölünür. Birinci qrup tədbirlər dövlət qurumlarının lizinq bazarında müxtəlif əməliyyatlarda birbaşa iştirakıdır. Bu tədbirlər əsasən inzibati və məqsədyönlü xarakter daşıyır. Təcrübə göstərir ki, bu forma lizinqin dövlət tənzimlənməsində cüzi bir yer tutur. Dövlətin tətbiq etdiyi dolayı üsullara əlverişli ümumi iqtisadi mühit yaratmaqla lizinq münasibətlərinin stimullaşdırılması daxildir. Lizinqə dövlət dəstəyi tədbirləri arasında aşağıdakıları ayırd etmək olar: lizinq fəaliyyətinin inkişafı üzrə dövlət proqramının hazırlanması və həyata keçirilməsi; lizinq layihələrinin həyata keçirilməsi üçün investisiya kreditlərinin verilməsi; lizinq şirkətlərinin fəaliyyəti üçün əlverişli iqtisadi şərait yaratmaq məqsədilə onlara vergi və kredit güzəştlərinin verilməsi; lizinq fəaliyyəti iştirakçılarının hüquqi və əmlak mənafelərinin müdafiəsini təmin edən qanunvericilik bazasının yaradılması, inkişafı, formalaşdırılması və təkmilləşdirilməsi.

Beləliklə, dövlətin sahibkarlığın dəstəklənməsi üzrə hərtərəfli fəaliyyəti onun inkişafı üçün əlverişli sosial-iqtisadi şərait yarada bilir.

ƏMƏK BAZARI STATİSTİKASININ NƏZƏRİ ASPEKTLƏRİ

Əsgərova M.F.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: m.askerova.99@gmail.com

Ən aktual məsələlər əhalinin məşğulluğunun, onların gəlirlərinin, imkanlarının, istehlakının və ehtiyacların ödənilmə dərəcəsinin obyektiv əks etdirilməsidir, eyni zamanda nəzəri və metodoloji cəhətdən bu problemlər kifayət qədər işlənməmişdir. Əhalinin məşğulluğunun bütün aspektlərini kifayət qədər dəqiqliklə xarakterizə edən hərtərəfli göstərici yaratmaq cəhdləri müxtəlif ölkələrdən olan bir çox iqtisadçılar tərəfindən həyata keçirilmişdir. Əhalinin məşğulluğunun etibarlı göstəriciləri həm cari dövrdə cəmiyyətin sosial-iqtisadi vəziyyətinin adekvat qiymətləndirilməsi, həm də müxtəlif sosial proqramların işlənib hazırlanması, dövlətin bütün sosial siyasətinin korreksiyası üçün zəruridir. Məşğulluq kateqoriyası hər bir vətəndaşın rifahını təhlil edərək bütövlükdə cəmiyyətin iqtisadi vəziyyətini xarakterizə edir, bütün iqtisadi göstəricilər arasındakı əlaqəni izləməyə imkan verir, iqtisadi dəyişikliklərin Azərbaycan Respublikasında sosial vəziyyətə təsirini göstərir. Əmək bazarı bazar iqtisadiyyatının tərkib hissəsidir və bazarın bütün digər alt sistemləri ilə sıx bağlıdır. Əmtəə bazarından fərqli olaraq o, cəmiyyətin sosial-iqtisadi hadisələrini daha çox əks etdirir. Əksər ekspertlərin fikrincə, əmək bazarı dedikdə əməyin təkrar istehsalını, mübadiləsini və istifadəsini təmin edən ictimai münasibətlər, sosial (o cümlədən hüquqi) norma və institutlar sistemi başa düşülür. Başqa sözlə, "əmək bazarı" nın geniş tərifi bu kateqoriyaya əmək və əhalinin məşğulluğu sferasının təşkilinin bazar forması kimi baxır.

İnsan işçi qüvvəsinin daşıyıcısıdır. Bazar iqtisadiyyatı şəraitində işçi qüvvəsi əmtəədir, alınır və satılır, onun istifadə dəyəri və qiyməti var. Ancaq bu məhsul bir sıra xüsusiyyətlərə malikdir. Alqı-satqı zamanı hər hansı məhsulun dəyəri ödənilir və istehlak dəyəri özgəninkiləşdirilir, məhsul alıcının mülkiyyətinə keçir. İş qüvvəsinin sahibi onun sahibi olaraq qalır, o, özgəninkiləşdirilmir və özgəninkiləşdirilə bilməz.

İqtisadçılar bununla bağlı müxtəlif konsepsiyalar irəli sürürlər: işçi qüvvəsi deyil, əmək xidmətləri satılır; işçi qüvvəsi satılmır, qarşılıqlı faydalı şərtlərlə icarəyə verilir; satılan işçi qüvvəsi deyil, sadəcə olaraq ondan istifadə olunur.

Bazar iqtisadiyyatı şəraitində əmək potensialının təkrar istehsalı müəyyən əmək təklifini formalaşdırır, əməkdən istifadə isə təsərrüfat subyektləri tərəfindən əməyə tələbin təqdim edilməsindən başlayır. Əmək bazarının müasir anlayışı bu bazarda alqı-satqı obyektinin digər mal və xidmətlərdən əsas fərqini nəzərə almaya bilməz. Sivil cəmiyyətdə insanın öz iş qabiliyyətini idarə etmək azadlığı, bu qabiliyyətin həyata keçirilməsinin sosial-psixoloji mexanizminin mürəkkəbliyi "əmək bazarı" anlayışını şərti olmasa da, heç olmasa əmək bazarının digər anlayışları arasında unikal edir. Yerli elmdə əmək bazarı dedikdə, iş yerlərini formalaşdıran subyektlərlə onlara müraciət edən subyektlər arasında inkişaf edən iqtisadi münasibətlər sistemi başa düşülür. Birincilər işlərin keyfiyyətini, onların əldə edilməsi şərtlərini müəyyən edir. Sonuncu, obyektiv səbəblərə görə, bir qayda olaraq, bu şərtləri qəbul edir, lakin onlara təsir göstərə bilər. Bu tərif əmək bazarını geniş aspektdə nəzərdən keçirir. Dar mənada əmək bazarı əməyə tələb və təklifin formalaşması və

həyata keçirilməsi sferası kimi görünür. Əmək bazarının ayrılmaz hissəsi əmək bazarıdır, çünki tez-tez çox xüsusi iş təklif olunur.

Şəbəkə təhlükəsizliyi kompüter şəbəkələrinə və şəbəkə resurslarına icazəsiz girişlərin, sui-istifadənin və s. halların qarşısını almaq üçün mühüm rol oynayır. İstifadəçilər məlumat əldə etmək istəyirsə həmin məlumatlara girişi üçün onlara icazə verilməlidir. İD, şifrə və ya başqa icazə məlumatları daxil edərək həmin məlumatları əldə etmək mümkündür. Şəbəkə təhlükəsizliyi istər ictimai, istərsə də şəxsi olan kompüter şəbəkələrini (gündəlik işlərdə, dövlət strukturlarının məlumat ötürülməsində və s.) əhatə edir. Şəbəkə təhlükəsizliyi dünyanın hər yerində, məsələn, təşkilatlarda, müəssisələrə və başqa qurumlarda təsis edilmişdir. Adından da göründüyü kimi o şəbəkəni qoruyur və orada baş verən əməliyyatlara nəzarət edir. Şəbəkənin qorunmasını təmin etmək üçün həmin şəbəkəyə unikal ad və uyğun şifrə təyin etmək lazımdır. İstifadəçi adı və şifrənin yoxlanması ilə şəbəkə təhlükəsizliyi başlayır. Burada sadəcə istifadəçi adı və şifrəyə ehtiyac olduğu üçün bu bir faktorlu təsdiqləmə adlanır. Əmək ehtiyatlarının sayı - regionun malik olduğu potensial əmək miqdarı. Fəaliyyətdə olan (və ya istifadə olunan) əmək ehtiyatları faktiki məşğul olan əhalidir.

Məşğulluq probleminə böyük əhəmiyyət verən Azərbaycan Dövlət Statistika Komitəsi məşğulluq məsələləri üzrə mütəmadi seçmə sorğular keçirir, iqtisadi fəal, məşğul əhalinin və işsizlərin sayı və strukturu haqqında ən mühüm göstəricilərə görə təmsilçi məlumatları təqdim edir. sosial-demoqrafik xüsusiyyətlər, məşğul əhalinin məşğulluq sektorları, iqtisadiyyatın sektorları, məşğulluq vəziyyətinə görə bölgüsü və s. İqtisadi fəal əhali əhalinin məhsul istehsalı və xidmətlərin göstərilməsi üçün işçi qüvvəsi təklifini təmin edən hissəsidir. İqtisadi fəal əhaliyə məşğul olanlar və işsizlər daxildir. Qeydiyyatda olan işsizlərin sayı və onların haqqında məlumat bazası dövlət məşğulluq xidməti tərəfindən hazırlanmış statistik hesabatdır. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi yerinə yetirir. İşsizlərin sayı və strukturu haqqında digər məlumat mənbəyi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən əhalinin məşğulluq problemləri ilə bağlı seçmə sorğularıdır. Onu da nəzərə almaq lazımdır ki, təsərrüfat subyektləri rüblük əsasda tətbiqi nəzərdə tutulan əlavə iş yerlərinin sayı və növbəti rübdə buraxılması nəzərdə tutulan işçilərin sayı barədə hesabat verirlər. "Azərbaycan Respublikasının məşğulluq haqqında" qanunda işçilərin ümumi sayına ilk peşə-ixtisas, orta ixtisas və ali peşə təhsili və digər ümumi təhsil müəssisələrində əyani təhsil alan şəxslər də beynəlxalq standartlara görə iqtisadi cəhətdən qeyri-fəal əhali kimi təsnif edilir.

AQRAR SIĞORTA FƏALİYYƏTİNDƏ XİDMƏTLƏRİN MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

Fərəcov M.S.
Azərbaycan Dövlət Aqrar Universiteti

Ölkənin sosial-iqtisadi inkişafı, onun sistemləşdirilmiş istehsal imkanları və reallıqları çoxsaylı amillərin mövcudluğu şəraitində təzahür etməkdədir. Bu sırada əmək və cinsi şəkildə mövcud olan resurslarla yanaşı maliyyə resurslarından məqsədyönlü və səmərəli istifadə olunması da mühüm əhəmiyyət kəsb etməkdədir. Bu sırada bir çox iqtisadi alət və vasitənin maliyyə resurslarının ətrafında vahid müstəvidə birləşməsi də araşdırılan problemə spesifik təsir göstərməsi ilə müşahidə olunmaqdadır. Bu sırada gəlirlilik dərəcəsinin gözlənilməsi, rəqabətqabiliyyətlilik yönündə zəruri addımların atılması, istehsalın maliyyə vəsaitləri etibarı ilə qorunması, subyektlərin xüsusi əmtəə və xidmətlərinin təklifolunma qaydalarının və sistemlərinin hazırlanması və tətbiqi mühüm əhəmiyyət kəsb etməkdədir.

Sadalanan istiqamətlər üzrə real şərtlərin tədricən təkmilləşdirilməsi, həmçinin çətinləşməsi istər ölkənin iqtisadi siyasətinin icrasında "iştirakçı" sifətilə çıxış edən tərəflərin öz fəaliyyətlərinə daim məsuliyyətlə yanaşmasını, istərsə də müvafiq sahələrdə innovasiyaların işlənilməsi və tətbiqini şərtləndirən addımların atılmasını zəruri şərtlər formasında gözlər önünə sərməkdədir. Bu sırada istehsal (xidmət) sferasında ayrı-ayrı iqtisadi amil və şərtlərin birgə şəkildə tətbiqini də sərgiləmiş olur. Məsələn, istənilən normal ölkənin iqtisadi sisteminin yüksək risklilik dərəcəsi ilə fərqlənən sahələrindən biri aqrar sfera hesab olunmaqdadır. Çoxsaylı amillərin vahid "məkanda" məqsədyönlü birləşdirilməsini xarakterizə bu sahə maddi və qeyri-maddi əsaslarla seçilən çoxsaylı və müxtəlif mənşəli risklərlə təzahür etməkdədir ki, bu da həmin istiqamətdə fəaliyyət göstərən işgüzar "mühiti" tələbləri qarşılayan, qənaətbəxş addımların atılmasına sövq etməlidir. Digər tərəfdən, istisaslaşdırılmış xidmətlər, onların göstərilməsi də məqsədyönlü işlərin icrası siyahısında özünəməxsusluğu ilə fərqlənməkdədir. Bu sırada sığorta fəaliyyətlərinin göstərilməsi imkanlarının qiymətləndirilməsi, onların müxtəlif "paketlər" halında təklif olunması şərtlərinə təkrar baxışların təmin edilməsi, sığorta

xidmətlərinin təklif olunması qayda və şərtlərinin sistemləşdirilməsi, onların "cazibliyinin" mütəmadi yüksəldilməsi, bəhs olunan istiqamətdə beynəlxaq təcrübəyə əsaslanan situasiyalardan və innovativ təməlli təkliflərdən geniş istifadə məqsədəuyğun hesab edilməslidir.

Haqqında bəhs olunan fəaliyyət istiqamətlərindən birini sığorta fəaliyyəti və onun tələblərə müvafiq təklif (servis) edilməsi təşkil edir. Araşdırma arealını məhdudlaşdıraraq bəhs olunan müstəvini aqrar sahədə sığorta fəaliyyətinin təşkili ilə müəyyən edək və bu əsasda problemə sistemli baxış təmin etməyə çalışaq. İlk növbədə iki tədqiqat "mərkəzinin" qarşılıqlı əlaqə və təsirlərinin nəzərdən keçirilməsi məqsədəuyğundur. Əgər bu vəziyyətdə tərəflərdən birini sığorta fəaliyyəti sistemi təşkil edirsə, məsələnin digər tərəflərindən digərinin (xüsusilə mühüm olanını) sığorta xidmətlərinin təklif olunmasının məqsədləri, vəzifələri, növləri, təklif qaydaları və xüsusiyyətləri təşkil edir. Sadalanan müvafiq komponentlərin məcmusu məzmun etibarı ilə onun marketinqi kimi də adlandırıla bilər. Marketinq təmælləri sığorta sisteminə ilk dəfə 1960-cı ildə Qərbi Avropa ölkələrində mümkün olmuşdur. Nisbətən sadə (siyahı) şəklində olan bu təkliflər özündə heç bir mürəkkəb konfiqurasiyanı təcəssüm etdirmirdi. Bəhs olunan fəaliyyətdə marketinq bir tərəfdən sığorta xidmətlərinin təklifini, digər tərfdən isə müvafiq istiqamətdə yarana biləcək rəqabəti ifadə etməkdədir. Məzmun etibarı ilə marketinq həm bazar potensialını öyrənmək, istehsalçının ehtiyacı olan məhsulu müəyyən etmək, xidmət təklifini artırmaq, həm də əlavə imkanlar yaratmaq əsasında yeni xidmətlərin satışı sahəsində əvvəlcədən müəyyən olunmuş risklərdən yayınmağa şərait yaradır.

Sığorta bazarı kifayət qədər spesifik bazardır və digər mübadilə məkalarından istər xidmətlərin keyfiyyəti, istərsə də kəmiyyəti baxımından fərqlənməkdədir. Bəhs olunan xüsusiləşdirilmiş məsələlər özünü sığorta marketinqi sferasında da biruzə verməkdədir. Sığorta sahəsinin spesifik məqamlarının nəzərə alınması öz növbəsində bu sferada yeni risk növlərinin aşkarlanmasına, bu əsasda yeni sığorta mexanizmlərinin kəşfinə və sonrakı tətbiqininə şərait yaratmaqdadır. Deyilənlərlə yanaşı, bəhs olunan problemə sistemli yanaşmanın ümumiləşdirilməsi aşağıdakı bəndlər üzrə birləşdirilmiş yanaşmanı təmin etməkdədir: 1.Sığorta mütəxəssisləri və sığorta marketoloqlarının birgə fəaliyyətinin planlaşdırılması; 2.Sığorta mütəxəssisləri və sığorta marketoloqlarının müvafiq sahə üzrə fəaliyyətlərinin şaxələndirilməsi və tətbiq arealının genişləndirilməsi; 3. Sığorta fəaliyyətinin keyfiyyət tərəflərinin sistemləşdirilməsinin həyata keçirilməsi, onların miqdarı və tarifi yönündə uzunmüddətli şəkildə həyata keçirilən araşdırmalar əsasında icra olunan qiymətləndirmə və təhlil fəaliyyətinin yerinə yetirilməsi; 4.Mövcud təhlil və qiymətləndirmə işləri əsasında növbəti dövrlərin sığorta işlərinin planlaşdırılması; 5.Müvafiq məhsulların istehlakçıları üçün daha münasib, cəlbedici şərtlərin işlənib hazırlanması və təcrübəyə tətbiqi; 6.Sığorta mütəxəssisləri və sığorta marketoloqları tərəfindən sığorta razılaşmasında yaranan məsuliyyətin bölüşdürülməsində daha aktiv iştirak edilməsi və s.

Sığorta fəaliyyətinin sistemli öyrənilməsi üçün eyni zamanda "şağuli" təsnifləşdirməyə də müraciət olun-malıdır. Bu təsnifatın I bəndi kimi "sığorta bazarının öyrənilməsi" təşkil etsə də, digər bəndlərin də birgə ifadəsi sistemlilikdən xəbər verməlidir. Müvafiq məqsədlərin funksiyalar şəklində vanid məcmuda birləşdirilməsi aşağıdakı kimi ifadə oluna bilər. Sığorta subyektləri haqda bəhs olunan alət və tədbirlərin köməklik göstərməsi real mübadilə məkanları (bazarlar, ixtisaslaşdırılmış sığorta bazarları və birjaları) miqyasında özünün spesifik (ixtisaslaşdırılmış) strategiyasının qurulması yolunda məqsədyönlü addımlar atmaqdadırlar. Rəqabət mühitində xüsusi rol oynayan sığorta fəaliyyəti, sığort xidmətlərinin təklifi kimi işlər eyni zamanda xüsusi qiymətləndirmə və təhlil proseslərinə məruz qalmaqdadırlar. Eyni zamanda burada sığorta alətlərinin tətbiqi nəticələrinin kənarda qalmaması da nəzərə alınmalıdır. Qeyd olunmalıdır ki, bəhs olunan məqsədlər əsasında icra olunan marketinq araşdırmalarının müsbət nəticələr ilə yanaşı mənfi nəticələrə malik olması da istisna edilmir (sığorta şirkətlərinin fəaliyyəti iflasla da nəticələnə bilər). Hər bir növ məhsulun bazarda rastlaşdığı tarazlaşdırma addımı – tələb-təklif səviyyələrinin qarşılaşdırılması və bu əsasda ehtiyacın ödənilmə dərəcəsinin müəyyənləşdirilməsidir. Müvafiq mərhələdə əsas məqamlardan biri mümkün qədər yüksək həcmdə sığorta ödəmələrini toplamaq, sığortaçılar üzrə riskli hadisələrlə bağlı müdafiə tədbirlərinin seçmək, bu sahədə siğortaçıların məqsədlərinin kəsişmə nöqtələrinin tapmaqdır.

Sığorta müştərilə üzrə bu fəaliyyətə olan münasibətin dəqiqləşdirilməsi məqsədilə onlar əsasında müxtəlif mövzularda sorğular həyata keçirilir ki, bunların sırasında mühüm olanlarına ümumilikdə sığorta fəaliyyətinə münasibət, sığorta növlərinə olan münasibət, fəaliyyətdə olan sığorta təşkilatlarına münasibət və digər mühüm istiqamətlər göstərilə bilər. Deyilənlərlə yanaşı daha iki məsələya də toxunulmalıdır: 1.sığorta bazarı həcminin planlaşdırılması; 2.kənar sığortaçıların potensial imkanlarının proqnozlaşdırılması. Qeyd olunanlarla yanaşı bəzi sığora şirkətlərinin təcrübədə strateji planlaşdırma ilə müqayisədə üstünlüyün bazar qanunlarına verdikləri görünməkdədir. Müvafiq mərhələdə görülən işlər əsasən aşağıdakı istiqamətləri əhatə etməkdədir: bazarda təklif olunması məqsədəuyğun hesab edilə biləcək sığorta xidmətinin əsaslandırılması və dəqiqləşdirilməsi; sığorta seçimi əsasında müəyyən edilmiş hər bir növün istifadə qaydalarının təyini və

bazarda təklif məqsədilə növlərin maliyyə, texniki-təşkilati və digər şərtlərin hazırlanması.Digər tərəfdən, istənilən sığorta subyekti bazara istər ənənəvi, istərsə də yeni məhsul və xidmətlərlə çıxa bilər.

Aqrar sahədə sığorta fəaliyyətinin təşkilində ortaya çıxan mühüm məsələlərdən birini də satış prosesində iştirakçı tərəflər təşkil edir. Bu baxımdan birinci dərəcəli iştirakçı və alternativ iştirakçı, sığorta məhsulunun istehlakçıdan istehlakçıya çatmasında əsas iştirakçı qrupları ilə yanaşı "altqrupların" iştirakı da zəruridir. Birbaşa satış kanalları sığorta xidmətlərinin əsasən təklif olunduğu və böyük həcmdə risklərlə müşayət olunan "məkandır". Tərəflər sığorta müqaviləsini bağlayarkən, ona əlavə və dəyişikliklər edilə bilər ki, bu da tərəflərin birbaşa iştirakı halında mümkünüdür. Vasitəli satışda 2 qrup fərqləndirilir. Əgər onlardan biri nisbətən klassik üsula əsaslanırsa (agentlər, brokerlər və s.), ikinci üsul daha mütərəqqi hesab olunur və yenilikçi vasitələrə əsaslanır (elektron vasitələrlə, banklarla və s.) Satışın köməkçi (sadə və alternativ vasitəli) üsulları sığorta əməliyyatlarının kəmiyyət-keyfiyyət ifadələrinin artırılması məqsədini güdməkdədir. Nəzərdən yayınmamalıdır ki, sığorta əməliyyatlarının səmərəliliyinin artırılması məqsədli təklif, effektiv və rəqabətədayanıqlı tətbiq və fəaliyyətin sərbəst icrası əsasında mümkündür (yəni marketinqin həqiqi icra şərtləri gözlənilməlidir). Belə ki, inhisarlaşma və "fəaliyyət göstərişi" şərtləri sığorta fəaliyyətinin icrasını çətinləşdirir, onun məqsədə müvafiqliyinə mənfi təsir etməkdədir. Marketinqin təşkili prinsipləri ilə yanaşı bu işlərin icrasında milli, yerli tələbat və digər şərtlərin gözlənilməsi də nəzərdən qaçmamalıdır.

Rəqabət mübarizəsində əsas vasitələrdən biri kimi reklamın, onun sistemli işlənilməsinin mühüm əhəmiyyəti vardır. O, əsas etibarı ilə üç prinsip üzərində qurulmalıdır: sığortalının-istehlakçının məlumatlandırılması, onda sığorta xidmətinə qarşı inamı formalaşması və razılaşmanın gerçəkləşməsi yolunda qərarın qəbulu. Sığorta fəaliyyəti istiqamətində reklam işlərini iki qrupa: sığorta şirkətinin imicinin üstünlüklərini (sığorta şərtlərindəki üstünlüklər, sığorta ödənişlərindən yayınmama və yaranmış situasiyadan asılı olaraq sığorta ödənişlərinin vaxtlı-vaxtında ödənilməsi) sərgiləyən və sığorta xidmətlərinin özünü reklam edən qruplara ayırmaq lazımdır. Əgər sığortaçı haqda müsbət reytinqin, qənaətbəxş təsəvvürün yaradılması, sığorta müqaviləsi tərəfləri arasında davamlı, uzunmüddətli münasibətlərin təmin edilməsi, rəqib sığortaçılarla bağlı üstünlüklərin ifadə edilməsi imic reklamının əsas məqsədlərinə aid edilirsə, onun birbaşa sığorta müqavilələrinə aid olan reklam istiqamətlərini potensial istehlakçıların sığorta növlərinin məzmunu və şərtləri ilə tanışlığı, bu sahədə informasiyanın mənimsənilməsi və təbliğ olunması, sığorta şəhadətnamələri üzrə realizə əməliyyatlarının həvəsləndirilməsi və əhatə dairəsinin genişləndirilməsi kimi işlərin icrası təşkil edir.

MÜƏSSİSƏNİN MALİYYƏ RESURSLARININ FORMAŞMA MƏNBƏLƏRİ VƏ OPTİMALLIĞIN QORUNMASI

Fərmanlı F.M.
Naxçıvan Dövlət Universiteti
E-mail: firudin.fermanli@gmail.com

Müəssisənin maliyyə resurslarının formalaşmasının mənbəyi kapitaldır. Müəssisənin kapitalının müəyyənləşdirilməsinə əsas yanaşmalar mövcuddur. Ancaq deyə bilərik ki, kapital müəssisəyə mənfəət gətirən aktivlərin maliyyələşdirilməsi üçün istifadə edilən pul, maddi və qeyri-maddi formada vəsaitlərin ümumi dəyəridir. Bu gün işgüzar münasibətlər çərçivəsində kapitalın miqdarının təfsiri və hesablanmasına aşağıdakı yanaşmalardan istifadə olunur: iqtisadi yanaşma; mühasibat uçotu yanaşması; hesab-analitik yanaşma.

İqtisadi yanaşma fiziki kapital konsepsiyasına əsaslanır. Bu yanaşma çərçivəsində kapital çox vaxt real və maliyyə kapitalına bölünür. Real kapital maddi nemətlər və ya istehsal amilləri ilə əlaqələndirilir. Bunlara bina və tikililər, maşınlar, avadanlıqlar, xammallar, materiallar daxildir. Maliyyə kapitalı nağd pulda və qiymətli kağızlarda təcəssüm olunur. Yəni iqtisadi yanaşmaya görə kapitalın məbləği aktiv üzrə balansın nəticəsi kimi müəyyən edilməlidir.

Mühasibat uçotu yanaşması maliyyə kapitalı konsepsiyasına əsaslanır. Bu konsepsiyaya görə kapital mülkiyyətçilərin şirkətin aktivlərindəki maraq mövqeyindən müəyyən edilir. Bu halda söhbət nizamnamə kapitalının məbləğindən və ya "mülkiyyət fondu"ndan gedir. Balans hesabatında bu, "kapital və ehtiyatlar" üçüncü bölməsidir. Çox vaxt mühasibat uçotu nöqteyi-nəzərindən kapital şirkətin xalis aktivləri ilə müqayisə edilir.

Hesab-analitik yanaşma maliyyə kapitalı konsepsiyasının modifikasiyasına əsaslanır. Hazırda müəssisələr çox nadir hallarda maliyyə mənbələri kimi yalnız öz resurslarından istifadə edirlər. Müasir şirkətlər üçün ümumi praktika həm uzunmüddətli, həm də qısamüddətli maliyyə mənbələrini cəlb etməkdir.

Bütün kreditlər üçün maliyyələşmə mənbələri müəyyən şəxslər qrupları - torpaq sahibləri və kreditorlardır. Xarici iqtisadi ədəbiyyatda təqdim olunan formulalara əsasən, torpaq sahibləri öz vəsaitlərini yalnız uzunmüddətli əsaslarla təmin edirlər, kreditorlar isə qısamüddətli maliyyə resurslarının təchizatçılarıdır. Hesab və analitik yanaşmaya uyğun olaraq kapitala investorlar nöqteyi-nəzərindən baxılır. Başqa sözlə, bu halda kapital balansın üçüncü və dördüncü bölmələrinin cəmi kimi müəyyən edilir.

Müasir dövrdə maliyyə menecmenti elmi hal-hazırda daha çox mühasibat uçotu və analitik yanaşma ideyalarına daha müasir və maliyyə elminin ideyalarına əsaslanır. Mühasibat uçotu və analitik yanaşmaya uyğun olaraq kapital anlayışını konkretləşdirərək, qoyulmuş kapital - uzun müddət ərzində şirkətin fəaliyyətinə qoyulmuş vəsaitləri hesab edilir. Burada qoyulmuş kapital dedikdə, öz kapitalı və uzunmüddətli borc kapitalı da başa düşülür.

Müəssisənin maliyyə resurslarının idarə edilməsinin müxtəlif məsələlərini nəzərdən keçirərkən, maliyyə kapitalına verilən müxtəlif növlərdən istifadə etmək mümkündür. Ən çox yayılmış ifadələr və ya növlərə - öz kapitalı, borc kapitalı, hissədar kapitalı, nizamnamə kapitalı, əlavə kapital, ehtiyat kapital, əsas kapital, dövriyyə kapitalı, öz dövriyyə kapitalı, xalis dövriyyə kapitalı aiddir. Hazırda maliyyə və ya iqtisadi ədəbiyyatlarda maliyyə kapitalı ilə yanaşı intellektual, insan və sosial kapitala da getdikcə daha çox diqqət yetirilir.

Müəssisənin özəl və borc kapitalı. Kapital müəssisənin maliyyə idarə edilməsində ən çox diqqət müəssisənin öz kapitalına və borc kapitalına ayrılır. Öz kapital – üçüncü şəxslərin tələbləri təmin edildikdən sonra və ya onun bütün öhdəlikləri çıxıldıqdan sonra, müəssisənin aktivlərində dəyərin qalan hissəsidir. Öz kapitala aşağıdakı elementlər daxildir:

1. nizamnamə kapitalı, 2. əlavə kapital, 3. ehtiyat kapitalı, 4. bölüşdürülməmiş mənfəət.

Nizamnamə kapitalı müəssisənin əmlakının minimum ölçüsünü müəyyən edir. Müəssisə yarandıqda formalaşır və onun təşkilati-hüquqi formasından asılıdır. Beləliklə, hazırda səhmdar cəmiyyətin nizamnamə kapitalının minimum həddi qapalı səhmdar cəmiyyətiləri üçün 2000 AZN, açıq səhmdar cəmiyyəti üçün 4000 AZN məbləğində müəyyən edilmişdir. Qeyd edilən nizamnamə kapitalı pul formasında ola bilər. Eyni zamanda müəssisələr qeyri-pul formasında da nizamnamə kapitalı saxlaya bilər.

Əlavə kapital balansın öhdəliklər hissəsində kifayət qədər şərti bir maddədir, çünki onun dəyəri əsas komponentlərin qiymətləndirilməsinin keyfiyyətindən asılıdır. Bura aiddir: əsas vəsaitlərin yenidən qiymətləndirilməsinin məbləği; səhmlərin ilkin yerləşdirilməsi zamanı satışı ilə nominal qiyməti arasındakı fərqin cəmi; xarici valyutada nizamnamə kapitalına qoyuluşlar üzrə müsbət məzənnə fərqləri.

Ehtiyat kapitalı müəssisənin xalis mənfəəti hesabına formalaşan ehtiyatlarını əks etdirir. Səhmdar cəmiyyətlərində cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş məbləğdə, lakin onun nizamnamə kapitalının 15 faizindən az, 25 faizindən çox olmayaraq ehtiyat fondu yaradılmalıdır. "Səhmdar cəmiyyətləri haqqında" qanuna əsasən, ehtiyat fondu müəssisənin itkilərini ödəmək, habelə başqa vəsait olmadıqda cəmiyyətin istiqrazlarını geri almaq və səhmlərini geri almaq üçün nəzərdə tutulub.

Bölüşdürülməmiş mənfəət hesabat dövrünün nəticələrinə əsasən mülkiyyətçilər tərəfindən bölüşdürülməmiş mənfəətdir, o, hesablama metodu ilə balansda əks etdirilir və əməliyyat, maliyyə və investisiya fəaliyyətinin səmərəliliyini əks etdirən əsas göstəricidir.

Lakin maliyyə mənbələrinin rasional strukturunu formalaşdırarkən, aşağıdakılarla əlaqəli kapitalın istifadəsinə qoyulan məhdudiyyətləri nəzərə almaq lazımdır:

- öz maliyyə mənbələrini cəlb etmək üçün borc götürülmüş mənbələrdən daha yüksək xərclər;
- mülkiyyətçilərə dividendlər həmişə xalis mənfəətdən ödənildiyi üçün vergi qənaətinin olmaması;
- kapitalın gəlirliliyini artıra bilməməsi.

Borc kapitalı ənənəvi baxımdan üçüncü şəxslər və ya dövlət tərəfindən uzunmüddətli dövr üçün müəssisəyə verilən vəsaitdir. Bu növ vəsaitlər maliyyə menecmenti aspektindən böyük önəm kəsb edir. İki növ borc kapitalı ayıra bilərik. Bunlar əsasən müddət ilə xarakterizə olunur. Yəni uzunmüddətli və qısamüddətli borc kapitalına ayrılırlar. Görüldüyü kimi, belə bir bölgü üçün meyar borc vəsaitlərinin verildiyi dövrdür və 12 aydan çox dövr ilə 12 aya qədərki dövrü əhatə edir.

Uzunmüddətli borc kapitalına uzunmüddətli kreditlər, istiqraz kreditləri və maliyyə lizinqi daxildir. Qısamüddətli borc kapitalına isə aşağıdakıları aid edə bilərik: qısamüddətli kreditlər, cari kreditor borcları, digər öhdəliklər.

Öz kapital və uzunmüddətli borc kapitalının cəmi də şirkətin daimi kapitalıdır. Əvvəllər "investisiya edilmiş kapital" termini də işlədilirdi. Uzunmüddətli kreditlər, bir qayda olaraq, müəssisələr tərəfindən investisiya məqsədləri üçün - avadanlıqların modernləşdirilməsi, yeni tikinti, yeni texnologiyalar üçün cəlb olunur. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə uzunmüddətli kreditlər adətən kiçik və orta sahibkarlar

tərəfindən istifadə olunur. İri korporasiyalar uzunmüddətli kapital ehtiyacını istiqrazlı kreditlərin köməyi ilə ödəyir.

Qısamüddətli bank kreditləri, bir qayda olaraq, müəssisənin dövriyyə aktivlərinin maliyyələşdirilməsinə məsələn, müvəqqəti vəsait çatışmazlığının ödənilməsinə, malların, inventarların alınmasına və s. aid edilir. Qeyd edilməlidir ki, borc kapitalı üçün balans və bazar qiymətləndirmələri də mümkündür. Lakin praktikada bazar qiymətləndirməsi yalnız təkrar bazarda dövriyyədə olan qiymətli kağızlar tərəfindən verilmiş kreditlərə münasibətdə mümkündür. Bank krediti və maliyyə lizinqindən bəhs etdikdə isə, müvafiq məbləğlər xüsusi müqavilələrdə razılaşdırılır və onlar bağlandıqdan sonra, bir qayda olaraq, artıq kredit kapitalı bazarındakı vəziyyətdən asılı deyildir. Beləliklə, günümüzdə şirkətlərin maliyyələşdirilməsində ən mühüm rol oynayan mənbələrdən biri borc vəsaitləridir. Borc kapitalının əsasını bank kreditləri təşkil edir. Kapitallaşma göstəricisinə əlavə olaraq, öz (səhm) kapital və borc kapitalının bazar dəyərlərinin cəmi kimi hesablanan və şərti olaraq "şirkətin bazar dəyəri" adlandırıla bilən göstərici müəssisənin fəaliyyətinin idarə edilməsində mühüm rol oynayır.

Müəssisələr maliyyə resurslarını formalaşdırarkən öz kapitalı və borc kapitalı arasında ən optimal nisbəti təmin etməlidir. Çünki yüksək səviyyədə borclanma müəssisənin gəlirlərində faiz ödənişlərinin həcmini artıracaqdır. Digər tərəfdən yalnız öz kapitaldan istifadə məssisənin ehtiyac duyduğu investisiya qoyuluşlarının tam həcmdə maliyyələşməsində kifayət etməyə bilər.

AZƏRBAYCANDA NEFT SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN RƏQABƏT QABİLİYYƏTLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Gülməmmədli A.R.
Sumqayıt Dövlət Universiteti
E-mail: azer.gulmemmedli@mail.ru

Azərbaycanın neft sənayesi ölkənin iqtisadi təhlükəsizliyinin əsasına çevrilmişdir. Odur ki, Azərbaycanın neft sənaye müəssisələrinin rəqabət qabiliyyətinin artırılması əsas vəzifələrdəndir.

Dünyanın ən böyük neft şirkətlərinin rəqabət qabiliyyətinin öyrənilməsi əsasında Azərbaycanda iri neft sənayesi müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətinin artırılması üçün aşağıdakı istiqamətləri müəyyən etmək olar: beynəlxalq texnoloji əməkdaşlığın aktivləşdirilməsi; neft sənayesi ilə əlaqəli sahələrin inkişafı, həmin sənaye müəssisələrinin iqtisadi göstəricilərinin dünya neft bazarındakı vəziyyətdən asılılığının azaldılması; kapital və əməliyyat xərclərinə ciddi nəzarət proqramının həyata keçirilməsi, maliyyə böhranı şəraitində müsbət pul axını təmin edəcək konservativ maliyyə siyasətinin həyata keçirilməsi.

Müasir neft sənayesi müəssisələrinin işçilərin biliklərinin artırılması və istifadəsi ən vacib rəqabət üstünlüklərindən biridir. Kadrların hazırlanması və yenidən hazırlanması, ixtisasının artırılması müəssisələrin qlobal rəqabət üstünlüklərini yaratmaq və saxlamaq vəzifəsi ilə birbaşa bağlıdır. Neft sənayesinin davamlı inkişafı, onun dünya bazarında rəqabətədavamlı olması daha çox ixtisaslı kadrların olması ilə müəyyən edilir. Ən böyük neft şirkətlərinin rəqabətqabiliyyətliliyində əsas rolu səmərəli rəqabət strategiyaları hazırlamağa və həyata keçirməyə, şirkətləri dinamik inkişaf etdirməyə, onların strukturunu yeniləməyə və ən qabaqcıl texnologiyaları tətbiq etməyə qadir olan istedadlı, yaxşı təlim keçmiş rəhbərlərin olması oynayır.

İri neft səanyesi müəssisələri həm də yüksək ixtisaslı və istedadlı işçilərin olması və səmərəli istifadəsi sayəsində rəqabətdə uğur qazanırlar. Aparıcı şirkətlərin məcmu kapitalında insan kapitalının payı durmadan artır. Neft sənayesində optimal iş şəraiti yaratmaq və bilik işçilərini aktivləşdirməklə insan resurslarının səmərəliliyini artırmaq olar.

Nef sənayesi müəssisələrinin mütərəqqi inkişaf səviyyəsinə çatdırılması üçün iqtisadi sahədə münasibətlərin tənzimlənməsinin yeni mexanizmlərinə ehtiyac var. Müəssisənin restrukturizasiya konsepsiyası belə bir mexanizm üçün əsas ola bilər. Azərbaycan iqtisadiyyatı şəraitində şaquli inteqrasiya olunmuş neft müəssisələrinə daxil olmayan neft emalı və neft-kimya müəssisələri üçün səmərəli restrukturizasiya onların rəqabət qabiliyyətini saxlamaq üçün zəruri şərtdir.

Hazırda bütün sənaye müəssisələrinin rəqabət qabiliyyəti yeniliklə bağlıdır. Müasir şəraitdə karbohidrogenlərin istehsalında bir çox yeni texnologiyaların işlənib hazırlanması və istifadəsi ya xidmət şirkətlərinin təşəbbüsü, ya da iştirakı ilə baş verir. Ağıllı, bilik tutumlu xidmət, hətta daha yüksək xərclə belə, həm ehtiyat vahidinin artırılması xərclərini, həm də istehsalın maya dəyərini əhəmiyyətli dərəcədə azalda

bilər. Xidmət sektorunda yeni texniki həllərin və innovasiyaların daha sürətli tətbiqi üçün ilkin şərtlər yaradılır və yüksək ixtisaslı kadrlara tələbat artır.

Hazırda Azərbaycanda neft sənayesində elmi-tədqiqat işlərinin əsas istiqamətləri məhsul vahidinin məsrəflərinin azaldılması ilə yeni yataqların işlənilməsi ilə bağlıdır. Ən böyük xarici neft şirkətləri bu gün elmi-tədqiqat və layihə-konstruktor işlərinə bir qədər fərqli diqqət yetirirlər.

Rəqabətqabiliyyətlilik baxımından neft sənayesinin innovativ inkişafı əsas vəzifələrdəndir. Neft sənayesi müəssisələrinin innovativ inkişafında dövlətin ən mühüm rolu səmərəsiz texnologiyalardan və köhnəlmiş avadanlıqlardan istifadənin dayandırması və istifadəsi səmərəli olacaq və şirkətlərin bazarda mövqelərini gücləndirəcək texnologiyalara üstünlük verməsidir. İnnovativ texnologiyaların istifadəsi müəyyən dərəcədə vergi güzəştlərinin geniş tətbiqinə alternativ ola bilər.

Hazırda neft sənayesi müəssisələrinin innovativ potensialından yüksək səviyyədə, tam və səmərəli istifadə olunması əsas vəzifələrdəndir. Neft sənayesi müəssisələrinin innovativ fəaliyyətini inkişaf etdirməyin mümkün yollarından biri idarəetmənin təkmilləşdirilməsi, yəni innovativ potensialın dəqiq təhlili və qiymətləndirilməsidir. Strategiyanın məqsədlərinə nail olmaq kimi innovativ potensialın həyata keçirilməsini təmin etmək innovativ fəaliyyətin idarə edilməsi üçün effektiv metodologiyadan, yəni innovativ potensialın qiymətləndirilməsindən istifadə edildikdə mümkündür. Bu metodologiya bütün amilləri - xüsusi olaraq neft kompleksi üçün uyğunlaşdırılmış innovativ potensialın strukturunun elementlərini əhatə edir.

İnnovasiya fəaliyyətini öyrənərkən innovasiya xərclərinin strukturunu təhlil etmək lazımdır. Neft sənayesinin səmərəliliyinin yüksəldilməsi daha çox texnoloji yeniliklərə aid olduğundan, bu növ üzrə xərclər də müvafiq olaraq daha böyük olacaqdır.

Hazırda Azərbaycanda neft sənayesi müəssisələrinin mövcud vəziyyətini təhlil etmək üçün aşağıdakı şəkildən istifadə edək.



Şəkildən göründüyü kimi, Azərbaycanda neft sənaye müəssisələri tərəfindən istehsal olunan məhsulun həcmi qeyri-bərabər şəkildə artmışdır. Ən yüksək göstərici 2019-cu ildə (2918,1 milyon manat), ən aşağı göstərici isə 2010-cu ildə (2161,0 milyon manat) olmuşdur.

Müasir şəraitdə neft sənayesi müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması üçün onların inkişafı və modernləşdirilməsi tələb olunur. Müasir şəraitdə neft sənayesi müəssisələrinin inkişafı və modernləşdirilməsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi bir neçə istiqamətdə aparılmalıdır:1. İnnovativ inkişaf üçün şəraitin yaradılması - dövlət tədqiqat proqramlarının hazırlanması, vençur fondlarının və tədqiqat mərkəzlərinin dövlət tərəfindən maliyyələşdirilməsi, texnopolislərin tikintisi; 2. ETİ-nin nəticələri və xarici təcrübə nəzərə alınmaqla neft sənayesi obyektlərinin layihələndirilməsi, tikintisi və istismarı üçün normativ hüquqi bazanın yaradılması; 3. Təcrübədə səmərəli tətbiq oluna bilən məqsədyönlü vergi güzəştlərinin verilməsi. 4. Elmi-tədqiqat və inkişaf xərclərinin düzgün uçotu.

Hazırda vergi qanunvericiliyində innovativ fəaliyyətin və elmi-tədqiqat işlərinin inkişafını stimullaşdıran bir sıra tədbirlər var. Təklif olunan tədbirlərin həyata keçirilməsi neft sənayesi müəssisələrinin innovativ inkişafı və modernləşdirilməsi üzrə kompleks proqramın hazırlanması ilə birlikdə yerli müəssisələrin rəqabət qabiliyyətini artıracaq və milli iqtisadiyyatın artımı üçün əlavə stimullar verəcək.

MÜƏSSİSƏDƏ MÜŞTƏRİYÖNÜMLÜ SİSTEMLƏRİN QURULMASI

Hacıyev H.F.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: h.haciyev1997@gmail.com

Çuğundur cecəsi mal-qara üçün yaxşı yemdir və qida dəyərinə görə qarğıdalı silosu ilə müqayisə edilə bilər. Çuğundur cecəsi iri şəkər zavodlarının yerləşdiyi bölgələrdə mal-qara bəslənməsində xüsusilə əlverişlidir. Çuğundur cecəsi istehsalı dövrü: avqust-fevral aylarında ən yüksək məhsuldarlıq isə sentyabr-noyabr aylarında formalaşır. Təzə cecə şəkər zavodundan 100 km radiusda heyvandarlıq ehtiyacları üçün istifadə olunur. Onun istifadəçilərə daha uzun məsafəyə çatdırılması nəqliyyat xərclərinin yüksək olması səbəbindən iqtisadi cəhətdən sərfəli olmur. Bundan əlavə, təzə çuğundurun cecə istehsaldan sonra 1-2 gün ərzində kənd heyvanlarına verilir və ya xüsusi cecə çuxurlarında və ya polietilen "torbalarda" saxlanılır.

Yüksək məhsuldar inəklər üçün yem qarışığına təzə və ya konservləşdirilmiş cecənin daxil edilməsində əsas məqsəd aşağıdakılardır: yem qarışığının optimal rütubətə qədər nəmləndirilməsi; yemin cəlbediciliyini və nəticədə dadlılığını artırmaq;

Cavan mal-qaranı kökəltmək üçün gün ərzində bir başa çuğundurun cecəsindən istifadə etmək olar. Digər yemlərlə birlikdə quru cecə mal-qaranın yemlənməsində arpa və ya yulafın 50%-ə qədərini əvəz etməklə, onların çəki artımını və ya süd məhsuldarlığını artırır. Quru çuğundur cecəsi təkcə iribuynuzlu heyvanlar deyil, həm də digər kənd təsərrüfatı heyvanları yaxşı həzm edir.

MÜƏSSİSƏLƏRDƏ KADRLARIN İDARƏ EDİLMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Hüseynzadə C.Q.
Sumqayıt Dövlət Universiteti

Bütün idarəetmə sisteminin əsas elementi həm idarəetmə obyekti, həm də subyekti ola bilən kadrlardır. Kadrlar müəssisənin aktivlərinin qorunması və artırılması üçün lazım olan ən qiymətli kapitaldır.

Müəssisənin, təşkilatın işçiləri hər hansı istehsal prosesinin məhsuldar qüvvəsi, əsas komponenti olduğundan idarəetmənin obyektidir. Kadrların idarə edilməsi dedikdə, kadrların rasional istifadəsinə, istehsalın səmərəliliyinin artırılmasına və son nəticədə həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmiş planlaşdırılması, seçilməsi, təlimi, qiymətləndirilməsi və davamlı təhsili prosesi başa düşülür.

Ümumiyyətlə, kadrlar istənilən müəssisənin əsas potensialıdır. Kadrlar olmasa, müəssisə də ola olmaz. Düzgün ixtisaslı kadrlarsız heç bir müəssisə məqsədlərinə çata və rəqabətdə sağ qala bilməz. Kadrların

idarəetmə strategiyası biznes strategiyası ilə sıx bağlıdır. Təşkilatın işinin səviyyəsi və nəticələri idarəetmənin keyfiyyətindən asılıdır.

Müasir şəraitdə kadrların idarə edilməsinin əsas məqsədi işçilərin bacarıqlarını inkişaf etdirmək üçün səmərəli kadr hazırlığı, qabaqcıl təlim və əmək motivasiyası, habelə onları daha yüksək səviyyədə iş görməyə stimullaşdırmaqdır. Əsas məqsədlərdən biri də müəssisə daxilində hər bir işçinin özünü həyata keçirmə imkanlarını nəzərə alaraq ixtisaslı kadrlara olan ehtiyacları ödəmək və onlardan səmərəli istifadə etməkdir.

Kadrların idarə edilməsinin bir sıra xüsusiyyətləri vardır. Bu prosesi spesifik xüsusiyyətlərə və qanunauyğunluqlara malik olan çoxşaxəli və son dərəcə mürəkkəb proses kimi xarakterizə etmək olar. Kadrların idarəetmənin obyekti və subyekti olmaq qabiliyyəti kadr idarəetməsinin əsas spesifik xüsusiyyətidir. Kadrların idarə edilməsi olduqca zəhmətli bir prosesdir. İnsanlar arasında münasibətlərin öyrənilməsi, idarəetmə fəaliyyətinin mühüm qanunauyğunluqlarını və prinsiplərini müəyyən etmək bacarığı onun mühüm tərkib hissəsidir. Müəssisənin səmərəliliyi kadr menecerinin istehsal prosesində insan kapitalını planlaşdırmaq, bölüşdürmək, formalaşdırmaq və rasional şəkildə yenidən bölüşdürmək bacarığı ilə müəyyən edilir.

Kadrların idarə edilməsi sistemi bütövlükdə müəssisənin strategiyası və təşkilati strukturu ilə ayrılmaz olmalıdır. Kadrların idarə edilməsi dövrü adətən korporativ kadr siyasətinin işlənib hazırlanmasından, yəni onun məqsəd və vəzifələrinin, əsas istiqamət və prinsiplərinin, təşkilinin forma və metodlarının müəyyən edilməsindən başlayır. Bu mərhələdə idarəetmə obyektləri və strukturları formalaşdırılır, kadr işi proqnozlaşdırılır və planlaşdırılır, kadr ehtiyacları və onun təmin edilməsi mənbələri müəyyən edilir.

Kadr siyasətinin məqsədi müəssisənin ehtiyaclarına, mövcud qanunvericiliyin tələblərinə və əmək bazarının vəziyyətinə uyğun olaraq kadrların kəmiyyət və keyfiyyət tərkibinin yenilənməsi və saxlanılması prosesləri arasında optimal tarazlığı yaratmaqdır. Müəssisənin səmərəliliyinin və rəqabət qabiliyyətinin həlledici məsələlərindən biri onun potensialının yüksək keyfiyyətlə təmin edilməsidir.

Kadrlar siyasətinin səmərəli həyata keçirilməsi üçün kadr şöbələri və kadrları idarə edən xüsusi funksional menecerlər məsuliyyət daşıyırlar. Beləliklə, rəqabət qabiliyyətinin artırılması, şirkətin uzunmüddətli inkişafı, istehsalın səmərəliliyinin təmin edilməsi amili kimi kadrların idarə edilməsi getdikcə daha çox əhəmiyyət kəsb edir.

Müasir şəraitdə kadrların idarə edilməsi bir-biri ilə əlaqəli bir neçə mərhələni əhatə edir: 1. Effektiv kadr idarəetmə sisteminin inkişafı (bu idarəetmə növünün subyektinin, vəzifələrinin və məzmununun, inkişaf istiqamətlərinin müəyyən edilməsi); 2. Kadrların idarə edilməsi mexanizminin və müvafiq təşkilati strukturun formalaşdırılması (kadrlar xidmətinin və kadr hazırlığının optimal strukturunun müəyyən edilməsi, kadrların seçilməsi, hazırlanması və idarə edilməsi); 3. İnsan resurslarının planlaşdırılması (kadrlarla işdə plan və proqnozların tərtib edilməsi, işçilərin sayının və tərkibinin planlaşdırılması, insan resurslarının avtomatlaşdırılmış idarəetmə sistemlərinin yaradılması); 4. İşə qəbul (kadr tələbatının ödənilməsinin bütün mövcud mənbələrindən bilik və bacarıqla istifadə edilməsi; 5. Rəhbərliyin kadr potensialının formalaşdırılması (rəhbər kadrların keyfiyyət tərkibinin təhlili, işə qəbulun və gənc mütəxəssislərlə daimi işin təşkili, idarəetmə kadrlarının seçilməsi və yerləşdirilməsinin elmi-təcrübi əsaslarının işlənib hazırlanması); 7. Kadrların və onların fəaliyyətinin qiymətləndirilməsi (idarə heyətinin qiymətləndirilməsinin təşkili, ehtiyatla iş prinsiplərinin və metodlarının işlənib hazırlanması, mütəxəssislər üçün müsabiqələrin təşkili, işçilərin attestasiyasının təşkili, effektiv qiymətləndirmə metodlarının işlənib hazırlanması); 8. Kadr hazırlığının təşkili (işçilərin peşə hazırlığı, yenidən hazırlanması və ixtisasartırma proqramlarının hazırlanması və həyata keçirilməsi); 9. Əmək intizamının və kadr dövriyyəsinin idarə edilməsi (kadrların cəlb edilməsi, işə götürülməsi və saxlanılması məqsədi ilə əmək haqqı və müavinətlərin strukturunun işlənib hazırlanması, işçilərin irəli çəkilməsi, ixtisarı, yerdəyişməsi və işdən azad edilməsi prosedurlarının işlənib hazırlanması).

Kadrların idarə edilməsi ölçüsündən və miqyasından asılı olmayaraq hər hansı bir müəssisənin idarə edilməsində mühüm elementlərindən biri olduğunu nəzərə alaraq, bu prosesin təkmilləşdirilməsi zəruridir. Kadrların idarə edilməsi sisteminin təkmilləşdirilməsi işçilərin müəssisədə sosial-iqtisadi əhəmiyyətini artırmağa imkan verir. Müəssisənin fəaliyyətinin uğurunun əsas amili kadrlardır və məhz onların səriştəsi planlaşdırılan nəticələrə nail olmağa imkan verir.

Beləliklə, şirkətin əsas hərəkətverici qüvvələrindən biri onun kadr siyasətidir. Bacarıqlı kadr siyasəti həm işəgötürənin, həm də işçinin maksimum fərdi iştirak alacağı ideal istehsal prosesi yarada bilər. Pandemiyanın yayılması şəraitində kadr siyasətinin idarə olunması prosesləri pisləşir. Ona görə də kadr siyasətini təkmilləşdirmək üçün müəyyən tədbirlər tətbiq etmək lazımdır.

Kadrların idarə edilməsinin təkmilləşdirilməsi prosesi təşkilati, texniki və sosial-iqtisadi tədbirlər kompleksinin işlənib hazırlanmasını və həyata keçirilməsini əhatə edir. Bu proses kadrların düzgün istifadəsinə əsaslanmalıdır. Kadrların düzgün istifadəsi istehsalın səmərəliliyinin, yüksək keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalının, elm və texnikanın nailiyyətlərinin sürətli inkişafının təmin edilməsinin əsas şərtidir.

Kadrların idarə edilməsi sisteminin təkmilləşdirilməsi müxtəlif mülkiyyət formalı müəssisələrin fəaliyyətinin ahəngdar inkişafı problemlərinin uğurla həlli üçün mühüm meyardır. Həmçinin, müəyyən sosial ehtiyacları ödəyən əməyin ən əhəmiyyətli nəticələrinə nail olmağa, əmək ehtiyatlarının inkişafına və səmərəli istifadəsinə yönəlmiş kadr idarəetmə sisteminin məqsədyönlü fəaliyyətidir. Əməyin uğuru və yekun nəticəsinin asılı olacağı müəyyən əqli, fiziki və psixoloji məsrəflər tələb edən əmək fəaliyyətindəki səylər işçilərin fərdi peşəkar keyfiyyətlərinin formalaşdırılması, onların peşəkar kimi gələcək inkişafı və müəyyən nailiyyətlərə nail olunması prosesi ilə qarşılıqlı əlaqədədir.

Bu deyilənlərdən aşağıdakı nəticələr çıxarmaq olar:

1) kadr siyasəti müxtəlif mülkiyyət formalı müəssisələrə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsinə, konsolidasiyasına və səmərəli istifadəsinə yönəldilməlidir.

2) kadr ehtiyatının formalaşdırılmasının və onunla işin təşkilinin əsas vəzifəsi ən hazırlıqlı, ixtisaslı və perspektivli işçilərin seçilməsinin təşkilini daim təkmilləşdirmək, onlar üçün fərdi karyera artımı sxemlərinin formalaşdırılması, kadr potensialının inkişafı üçün şərait yaratmaqdır.

3) kadrların inkişafında ən vacib amil onların peşəkar inkişafı proqramının həyata keçirilməsi, peşə hazırlığının artırılması, yeni peşə səlahiyyətlərinin mənimsənilməsidir.

4) heyətin peşəkar tərkibinə və fəaliyyətinə səmərəli təsir göstərmək üçün təşkilatda kadrların idarə edilməsi problemlərini həll etməyə imkan verən müasir, xüsusi texnologiyalar tətbiq edilməlidir.

Bütün bunlar kadrların idarə edilməsi prosesinin təkmilləşdirilməsinin əhəmiyyətini göstərir.

KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATININ HAZIRLANMA PRİNSİPLƏRİ

Hüseynzadə S.A.
Sumqayıt Dövlət Universiteti
E-mail: surayya.huseynzadeh@gmail.com

Beynəlxalq Standartlara uyğun olaraq konsolidə edilmiş maliyyə hesabatları müəyyən prinsiplərə və metodlara, müəyyən tələblərə cavab verməlidir.

Tamlıq prinsipi: Ana təşkilatın payından asılı olmayaraq bütün aktivlər, öhdəliklər, gələcək dövrün xərcləri, konsolidə edilmiş qrupların gələcək dövrlərinin gəlirləri tam həcmdə qəbul edilir. Azlıqların payı balansda müvafiq başlıqla ayrıca maddə kimi göstərilir.

Ədalətli qiymətləndirmə prinsipi: Konsolidə edilmiş hesabat aydın və səlis formada təqdim olunmalıdır. Eyni zamanda belə hesabat qrupuna daxil olan müəssisələr aktivləri, öhdəlikləri, maliyyə vəziyyəti, mənfəət və zərərlər haqqında düzgün məlumatlar verməlidir.

Xüsusi kapital prinsipi: Ana şirkət və övlad müəssisələr vahid iqtisadi subyekt kimi qeydə alındığına görə xüsusi kapital konsolidə edilmiş müəssisələrin səhmlərinin balans dəyərilə müəyyənləşdirilir. Bu qayda fəaliyyətin maliyyələşmə nəticələrinə və ehtiyatlara da şamil edilir.

Konsolidasiya metodlarından və qiymətlərindən istifadənin daimiliyi, fəaliyyətdə olan müəssisənin prinsipi: Konsolidasiya metodları uzun müddət ərzində tətbiq olunmalıdır. Belə ki, əgər müəssisə öz fəaliyyətini uzun müddətli vaxt ərzində davam etdirir və onu dayandırmaq niyyətində deyildirsə bəzi hallarda kənarlaşmalara yol verilə bilər. Bu kənarlaşmalar isə müvafiq əsaslandırmalarla hesabata əlavələrdə açıqlanmalıdır. Bu prinsiplər konsolidə edilən hesabatların olunmasının həm formalarına, həm də metodlarına şamil edilir.

Qiymətləndirmə metodu. Şirkətin aktivləri və passivləri, mənfəət və zərərlər tam şəkildə qeydə alınmalıdır. Əsas məsələ isə budur ki, ana təşkilatın və övlad müəssisənin aktivləri və passivləri konsolidə edildikdə, ana şirkətdə tədbiq olunan vahid metodoloji qiymətlərlə qiymətləndirilməlidir. Ana şirkətin əməl etdiyi qanunvericilikdə nəzərdə tutulan qiymətləndirmə metodları konsolidə edilmiş hesabat formalaşdırılıqda tətbiq olunmalıdır.

Əhəmiyyətlilik prinsipi. Belə bir prinsip, şirkəti maliyyə-təsərrüfat fəaliyyəti haqqında qərarların qəbuluna, yaxud dəyişdirilməsinə təsir göstərən bəzi maddələrin kəmiyyətinin açıqlanmasını nəzərdə tutur.

Tərtib olunmanın vahid tarixi: Konsolidə edilmiş hesabat ana şirkətinin balansının tərtib olunduğu tarixə əks etdirilməlidir. Övlad müəssisənin hesabatlarının göstəriciləri də konsolidə edilmiş hesabatın tarixinə yenidən hesablanmalıdır.

Alman qanunvericiliyində konsolidə edilmiş balanslar tərtib olunduqda, yuxarıda qeyd olunan prinsiplərdən başqa, aşağıdakılar da nəzərdə tutulur: saldolaşdırmanın qadağan edilməsi; balansın strukturunun sabitliyi; əvvəlki illərə görə göstəricilərinin verilməsi; balans maddələrinin yenidən qruplaşdırılmasına yol verilməməsi; fəaliyyətin bir neçə sferası mövcud olduqda balansın strukturunun genişləndirilməsi; zəruri hallarda əlavə qrupların ayrılması; qəbul edilən maddələrdə məzmunu açıqlanmayan yeni maddələrin balansa daxil edilməsi; kapitalın hərəkətinin əks olunması; ödənilmə müddəti bir ildən çox olan borc öhdəliklərinin dəyərinin göstərilməsi; ödənilmə müddəti bir ilə qədər olan borc öhdəliklərinin dəyərinin göstərilməsi; alınan avansların məbləğinin ayrıca əks etdirilməsi; qoyulan kapital üzrə məbləği ödənilməyən haqların qeydə alınması; ehtiyat fondunun tərkibini əks etdirən xüsusi maddələrin daxil edilməsi; "Xüsusi kapitalı üstələyən zərər" maddəsinin ayrıca verilməsi.

Konsolidə edilmiş maliyyə hesabatları maliyyə hesabatının rəsmiyyətə salınması, etibarlılıq, ardıcıllıq, tamlıq, müqayisəlilik, hesabat dövrü və kimi tələblərə cavab verməlidir.

ƏT YARIMFABRİKATLARININ ÇEŞİDİNİN ÖRƏNİLMƏSİ

İbrahimli R.R.
Azərbaycan Dövlət İqtisad Universiteti
E.mail: reyhan.ibrahimli7@gmail.com

İstifadə olunan ət növlərinə görə mal əti, camış əti, qoyun əti, quş əti və donuz əti yarımfabrikatları; emal vəziyətinə görə təbii, narınlaşdırılmış, urvalanmış, ət və düşbərə qiyməsi yarımfabrikatları; termiki üsuluna görə dondurulmuş və soyudulmuş; təyinatı üzrə quru və duru xörəklər üçün yarımfabrikatlar istehsal olunur. Təbii ət yarımfabrikatları iritikə, paylar və xırdatikə formasında hazır edilir.

Xırdatikə ət yarımfabrikatlarına qulyaş, azu, befstroqanov, bozartma, kabablıq ət, xarço üçün aşxana yığımı, döş əti, şorba yığımı, qoyun ətindən raqu, sümüksüz qoyun əti, plov üçün ət və b. daxildir.

Azu – arxa və budun xarici tərəfi 3.0-4.0 santimetr ölçülü əzələ toxumasına perpendikulyar olaraq 10.0-15.0 qram çəkidə kəsilmiş xırda ət tikələridir ki, 250.0 və 500.0 qram çəkidə satışa buraxılır.

Befstroqanov – can və omba-maça ətindən 3.0-4.0 santimetr ölçülü əzələ toxumasına perpendikulyar olaraq 5.0-10.0 qram çəkidə uzunsov kəsilmiş xırda ət tikələridir ki, 125.0, 250.0 və 500.0 qram çəkidə satışa buraxılır.

Qulyaş – kürək və qabırğaüstü nahiyələrdən 20.0-30.0 qram çəkidə kub formasında doğranmış ət tikələridir ki, 125.0, 250.0 və 500.0 qram çəkidə satışa buraxılır.

Kabablıq ət – malın can əti və qoyunun bud, kürək və bel nahiyələrindən 20.0-40.0 qram çəkidə kəsilmiş ət tikələridir ki, 250.0 və 500.0 qram çəkidə satışa buraxılır.

Şorba yığımı – cəmdəyin quyruq, boyun, döş və bel nahiyəsindən 100.0-200.0 qram kəsilib götürülülmüş sümüklü-ətli tikələrdir ki, 500.0 və 1000.0 qram çəkidə bükülmüş formada satışa verilir. Hər tikədə sümük və ət təxmini bərabər ölçüdə olur.

Aşxana yığımı – şorba yığımı formasında hazır edilir, ancaq burda yumşaq hissə 30.0 faiz olur.

Raqu – əsas qoyunun döş əti, tikələri 30.0-40.0 qram olaraq hazır edilir. Yağ və ət 50.0 faiz, sümük 50.0 faiz təşkil edilir. 500.0 və 1000.0 qram ölçüdə çəkilib-bükülüb hazırlanır.

İritikə təbii ət yarımfabrikatı cəmdəyin döş, bel, kürək, və bud nahiyəsinin yumşaq hissəsindən kəsilmiş, nisbətdə iri ət tikəsindən ibarət olur. Mal ətindən – döş əti, kürək əti, can əti, bel əti, kotlet əti və başqa adda iritikə ət yarımfabrikatları hazır edilir.

Can əti – bel və arxa fəqərəsinin daxili hissəsində əti kəsib, yağ və şəndirdən təmizlədikdə hazırlanır.

Kotlet əti – qığırdaqdan, qançırdan, qaba birləşdirici toxumadan, şəndirdən təmizlənib müxtəlif ölçü və çəkidə miyantəng və boyun tikəsindən ibarət olur. Tərkibində yağ 10.0 faizdən və birləşdirici toxumalar 10.0 faizdən çox olmaz.

Döş əti – cəmdəyin qabırğa nahiyələrindən miyantəngi və döş sümüyünü ayırmaqla hazırlanır.

Pay formasında hazırlanmış ət yarımfabrikatları – cəmdəyin daha dəyərli hissəsindən hazırlanır. Mal ətindən can əti, antrekot, duxovka əti, bifşteks digər adlarda yarımyabrikatlar istehsal olunur.

Antrekot əti – bel və kürək nahiyəsindən alınmış dartılmış oval formada yumşaq ət tikəsindən ibarət olur. Qalınlığı 1,5.0-2.0 santimetr, çəkisi 125.0 qram olur.

Bifşteks əti – qalınlığı 2.0-3.0 santimetr, çəkisi 125.0 qram olan oval formada yumşaq tikədən ibarət olur.

Eskalop – qoyun cəmdəyindən bel və arxa nahiyəsindən alınmış 1.0- 1,5.0 santimetr qalınlığında, ovalvarı formada, 2.0 bərabərölçüdə və kütlədə ət tikəsindən ibarət olur. Çəkisi 125.0 qram olur.

Langet – yağsızdır, qalınlığı 1.0-1,2.0 santimetr, çəkisi 125.0 qram olan dairəvi formada, 2.0 bərabərkütlədə və bərabərölçüdə can əti tikəsidir. Qoyun ətindən təbii kotlet, tikəkabab, eskalop və digər çeşid, pay formasında təbii ət yarımfabrikatları hazır edilir.

Təbii kotlet - qoyun ətindən yumşaq hissədən 2.0-3.0 santimetr qalınlıqda, 125.0 qram çəkidə ət tikəsi kəsilib hazırlanır. Bunları bişirən vaxt taxta çəkiclə döyəcləyirlər.

Toyuq ətindən təbii yarımfabrikatlar – toyuq həlimi üçün yığım, raqu üçün yığım, həlməşik üçün yığım, cücə-tabaka, həvəskar cücəsi və b. hazır edilir.

Toyuq şorba yığımı üçün 60.0 faiz təmizlənən toyuq başı və 40.0 faiz toyuq ayağı götürürlər. Həlməşik yığımında 40.0 faiz toyuq başı, 20.0 faiz toyuq ayağı, 20.0 faiz mədə və ürək, 20.0 faiz qanad və boğaz olur. Raqu yığımında tərkibi 50.0 fazi mədə və ürək, 50.0 faiz qanad və boğaz olur.

ƏT MƏHSULLARININ KEYFİYYƏT EKSPERTİZASI

İbrahimli R.R.
Azərbaycan Dövlət İqtisad Universiteti
E.mail: reyhan.ibrahimli7@gmail.com

Ekspertiza vaxtı qarşıya qoyulan məsələ və məhsul xüsusiyyətindən asılı olmaqla, aşağıda verilən ekspertiza üsulları və ya üsullar kompleksi tətbiq oluna bilər: orqanoleptiki və anatomik quruluşu; əzələ toxumasının histoloji quruluşu; yağın analizi; qlikogenin miqdarı; tükün histoloji quruluşu; immunoloji yöntəmi.

Ət və ətin əlavə məhsullarının espertizası üçün tətbiq olunan orqanoleptiki, fiziki-kimyəvi və bakterioloji analizlər vaxtı QOST sistemi və DSE nəzarətin normativ-texniki sənədlərində verilən tələblərə əməl edilməlidir.

Ət və ətin əlavə məhsullarının ekspertizası nümunə seçib götürmə ilə başlayır. Kəsilən bütün heyvan əti üçün nümunənin seçilməsi QOST 7269-79 tələbatları üzrə aparılır. Nümunəni seçmək cəmdək və ya onun hissələrindən, dondurulmuş və ya soyudulmuş ət və subməhsullar blokunda 200.0 qramdan az olmayaraq parça götürmək ilə həyata keçirilir. Bunu aşağıda verilən nahiyələrdən götürmək tövsiyyə edilir: kəsim yeri, 4 və 5-ci boyun fəqərəsinin arxa tərəfi; kürək nahiyəsi; bud nahiyəsində əzələnin qalın hissəsi;

Nümunə laboratoriyaya verilərkən onla göndərilən sənəddə aşağıdakılar göstərilməlidir: nümunənin götürülmə yeri,tarixi; heyvanların növü; cəmdəyin qəbul vaxtı verilən nömrəsi; .müayinələrin səbəbi və məqsədi; göndərənlərin imzası.

Sensor qiymətləndirmənin sistem və üsulları 2 növə bölünür: Analitik və istehlak qiymətləndirmə.

Analitik qiymətləndirmə bal sistemi ilə qiymətləndirmədir. Bu üsulda üzrə maksimum və minimum keyfiyyət qiyməti təyin edilir və minimum həddindən aşağı reallaşdırmaq olmaz. Ət və ətin əlavə məhsullarının sensor qiymətləndirilməsi ət və ətin əlavə subməhsullarının dequstasiyası, vizual baxılması, iyləmə və əl ilə konsistensiyasının yoxlanılmasıdır.

Dequstasiya müayinəsi - sensor müayinələr içərisində ən çox yayılan üsuldur, məhsul keyfiyyətini dadmaqla müəyyən edilməsinə əsasən aparılır. Bu üsulda müayinə ən etibarlı və obyektivdir, müayinənin aparılması şəraiti doğru seçilir və dequstatorun işində yüksək professionallığ göstərməsi çox böyük təsir göstərir.

Dequstasiyanın günorta, səhər və ya axşam yeməyinə yaxın təyin edilməsi məsləhət görülmür. Dequstator toxluq və aclıqdan qaçmalıdır, analizə yarım saat əvvəldən bitənə kimi içmək, yemək, və çəkmək dayandırılmamalıdır.

Əgər dequstasiya müəssisə daxilində daxili nəzarət məqsədi ilə aparılarsa, bu vaxt nümunə götürmə aktı tərtib edilmir, ancaq dequstasiya müayinə protokolunda aşağıdakı məlumatlar verilir; nümunənin adı; hazır edən sex və hazırlama tarixi; NTS, əmtəəlik sort, möhür, nümunənin xalis çəki və keyfiyyət göstəricisi verməklə qısa təsnifatı; dequstasiyanın qiymətinin nəticəsi.

Məhsulların növlərindən asılı olaraq, 5.0-8.0 nümunədən sonra orqanoleptik qabiliyyətlərin bərpa edilməsi üçün 15.0 dəqiqədən az olmayaraq fasilə verilir.

Dequstasiya etmək üçün komisiyanın optimal iş rejimi aşağıdakı kimi həyata keçirilməsi məsləhətdir: işin məqsədi və məsələnin aydınlaşdırıması - 15 dəqiqə; dequstatorların işi- 30 dəqiqə; nəticənin müzakirəsi- 15 dəqiqə.

Dequstasiya aparılması üçün optimal vaxt səhər saat 10:00 - 11:00-dir.

Normativ-texniki sənədlərin tələblərinə uyğun olaraq pərakəndə satışa qaramal əti partiyalarda qəbul olunur. Hər bir partiyada eyni köklük kateqoriyası və eyni termiki emal üsulunda, bir baytar şəhadətnaməsində qeyd olunan və keyfiyyət barəsində məlumat bir vəsiqədə göstərilən, istənilən miqdar ət ola bilir. Ətin parakəndə satışı üçün sertifikatı və ya sertifikat barəsində mal göndərilmiş faktura qeydiyyatı olmalı.

Ətin təzəlik dərəcəsini ən çox orqanoleptiki üsulla qiymətləndirirlər. Qoyun, donuz, qaramal və başqa heyvan ətlərinin ekspertizası QOST 23392-78 dövlət standartı əsasında aparılır. Bu vaxt ətin konsistensiyası, iyi, rəngi və xarici görünüşü, piyin və vətərlərin vəziyyəti, cəmdək səthi və kəsildikdə əzələ səthinin vəziyyəti, sümüyün iliyinin vəziyyəti, rəngi, sümüyün oynaq səthinin vəziyyəti həmdə bişirdikdə ən əsas bulyonun vəziyyəti götürülür.

Histoloji müayinə kəsilən heyvan ətləri üçün QOST 19496-74, quş ətləri üçün QOST 23481-79 dövlət standartı əsasında aparılır. Bu vaxt ətin xarab olması zamanı əzələ lifinin mikro quruluşunu dəyişməsi əsas göstərici hesab edilir.

İSTEHLAKÇI DAVRANIŞININ MODELLƏŞDİRİLMƏSİNDƏ: MÜŞTƏRİ MÜNASİBƏTLƏRİ MENECMENTİ (CRM)

İsayeva G.İ.
Odlar Yurdu Universiteti
E-mail gultac.isayeva@mail.ru

Müasir dövürdə marketinqin qarşıya qoyduğu məqsədi istehlakçıların isdəklərini yerinə yetirməklə bərabər gəlir əldə etməyə yönəldilmiş fəaliyyətlərin məcmusudur.Marketinq mütəxəssisləri idarə etmə zamanı daimi müştərilərini qorumaq həm də yeni müştəriləri tapmaqla satışlarını artıra bilərlər.Araşdırma şirkəti olan Forrester Research dünyada məşhur olaraq apardığı tədqiqatın nəticəsinə görə günümüzdə mövcud şirkətlərin sadəcə: 48%-i istehlakçıdan öncə problemi görə bilir; 37%-i müştərinin istifadə etdiyi bütün xidməti bilir; 43%-i daha yaxşı müştərilərinə xidmət edir; 23%-i müştərinin sosial aktivliyini izləyə bilir; 20%-i müştərilərin müəssənin veb səhifəsini izləyib izləməməsini bilir.

Bu faizlər bütün şirkətin zəif nöqtəsini ortaya çıxardır.İstehlakçı ilə dinamik əlaqələrin bir şirkətin gələcəyinə yatırılan investisiya olduğu və bu sahədəki uğursuzluq qoyulan investisiyaların havaya uçurulması deməkdir. Araşdırmalar nəticəsində məlum olur ki, firmaların öz müştərilərini itirmə səbəbləri aşağıdakılardır: 68%-i göstərilən xidmət və münasibətdən razı deyildir; 5%-i başqa alternativ firma axtarır; 14%-i xidməti və ya məhsulun keyfiyyətsiz olduğunu bildirir; 3 %-i yerini dəyişir: 9%-i güclü rəqib firma ilə işləyir; 1%-i ölür

Belə nəticəyə gəlmək olur ki, bütün firmalar istehlakçı yönümlü olmağı hədəf seçməlidirlər və ən əsası öz müştəriləri haqqında çox məlumata malik olmalıdırlar. Buna baxmayaraq çətinlikləri bu məlumatların təşkilatın daxilində yayılmış vəziyyətdə olmasındadır.

Şirkətin müxtəlif bölmələrində və şöbələrində ayrı-ayrı yeni məlumatlar məlumat bazasında itib batır. Bu çətinlikləri dəf etmək və fərdi müştərilərin geniş məlumatlarını effektiv idarə etmək üçün şirkətlərin çoxu son zamanlar Müştəri Münasibətləri Menecmentini (CRM-Customer Reationship Management) qurmuşlar.Son zamanlarda MMM isdifadə edən şirkətlərin sayı sürətlə artmışdır. Bir tədqiqat firmnası fakt olaraq göstərnişdir ki, ABŞ-dakı biznes planlarının 97%-i gələcək 2 il içində MMM texnalogiyalarından istifadə edəcəkdir.

Çox mürəkkəb MMM-komputer proqramı müştərilərlə bağlı bütün mənbələrdən alınan məlumatları təffərüatlı şəkildə təhlil edən və güclü müştəri münasibətlərinin qurulmasını təmin edən analtik vasitələrdən biridir.MMM şirkəti fərdi müştəri haqqında marketinq komandalarının bilgilərini və marketinq quruplarını bir araya gətirib müştəri xidmətinə hər tərəfli baxışı təmin edir.Bu sistem vasitəsi ilə məlumatı yığır,təhlil edir müştərilərə bütün məlumatları əldə etməyə şərait yaradır.

Şirkətlər MMM-dən bəhrələnərək müştərilərini qiymətləndirir,hədəf seçir və şirkətin məhsullarını müştəriyə fərdi olaraq uyğunlaşdırır.Müştəri məlumatlarındakı gizlin məqamları üzə çıxartmaq üçün MMM təhlilçiləri məlumat bazalarını və mürəkkəb məlumat emal edən texnikaları yaradırlar. Şirkətin müştərilərinə

aid qiymətli məlumatlar məlumat bazasında toplanan elektron xəzinədir.Diqqətlə yoxlanılmış və ehtiyyatla seçilmiş müştəri məlumatını əks etdirən mərkəzləşdirilmiş məlumat bazasının məqsədi təkcə informasiyanın toplu şəkildə yığmaq deyil əsas məqsədi burada menecerlərin şirkətin artıq əldə etdiyi məlumatlara inteqrasiya etməsi üçün şərait yaratmaqdır.Şirkət məlumat emal edən güclü texnikasından istifadə edərək məlumat bazasında toplanmış məlumatı təhlil edir və "məlumat qalıqlarını"ələkdən keçirir.Şirkətlər müştəri munasibətləri menecerlərindən çoxlu faydalanırlar.Müştərilərini yaxşı başa düşən şirkət yüksək xidmət göstərməklə onlarla əlaqələrini dahada dərinləşdirirlər.İCM CRM rəhbəri Barton Coldenberq MMM-in faydalarını 3 il müddətində aşağıdakı kimi qiymətləndirir: 10%-i satış gəlirlərindən artım; 1%-i mənfəət marjında artım; 5%-i müştəri qazanma nisbətində artım; 3%-i müştəri məmnuniyyətində artım; 10%-i marketinq və satış xərclərində azalma.

Müştərilərin sayını artırmaq onları əldə saxlamaq üçün firmalar aşağıdakı 7 qaydaya əməl etməlidirlər:

- Müştərilərinizlə hər gün vaxtınızın bir hissəsini əlaqə saxlamağa sərf edin
- Daimi "Çempion" müştərilərinizi bəzi iclaslarınıza dəvət edin
- Təzə bir məhsulu bazara çixartmazdan evvəl etibarlı müştərilərinizi dəvət edin
- Şirkətinizin tərtib etdiyi təqdimat mərasimlərə, özəl proqramlara müştərilərinizi dəvət edin
- Yaradıcı və yeni fikirlərə açıq olduğunuzu müştərilərinizə göstərin
- Daimi olaraq müştərilərinizi əldə saxlayın fəaliyyətlər(promosyon,endirim)təşkil edin
- Müştəri xidmətində yüksək nəaliyyət əldə etmiş şirkətlərin fəaliyyətini izləyin və onları özünüzə örnək götürün.

Hiper rəqabət nəticəsində yüksək pillədə qalmaq istəyirsənsə müştərilərini razı salmaq və yeni müştəriləri cəlb etmək lazımdır.Əks təqdirdə şirkətdə kimsə öz məhsuliyyətini boynundan atmağa çalışmağa macal tapmadan həmin şirkət müflis olacaqdır.Dahi ədiblərdən birinin dediyi kimi "istər kapitan,istər matros olsun gəmi batarsa,bərabər batarıq.

MÜƏSSİSSƏLƏRDƏ İNVESTİSİYA PLANININ HAZIRLANMASI

İsgəndərli F.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail:Famil.isgenderli@gmail.com

Bazar iqtisadiyyatı şəraitində müəssisələrin inkişaf etməsi və həyatda qalması üçün investisiya fəaliiyətinə diqqət yetirilməlidir. İnvestisiya fəaliyyəti müəsissə səviyyəsində mənfəət əldə etmək üçün ən yaxşı seçimdir.İnvestisiyya fəaliyyətində ən vacib addım doğru investisiya planının hazırlanmasıdır.İnvestisiya planının hazırlanması və ya ərsəyə gətirilməsin bir neçə mərhələyə bölmək olar, bunlar aşağıdakılardır.

1.İnvestisya ideyasının ortaya çıxması- İdeyanın düzgün seçilməsi investisiyanın təməlini təşkil edir və investisiyaın uzun ömürlü olmasında bir başa mühüm rol oynayır. İnvestisya fikri meydana gələrəkən investisiya sahəsindən asılı olaraq bir sıra ünsurləri nəzərə almaq lazımdır.İdxal ixrac imkanları, təbii sərvətlər, enerji faktoru inkişaf perspektivi və s. nəzərə alınmalıdır.

2.İnvestiya ideyasının ilkin tədqiqatı- İnvestisiyanın ilkin tədqiqatı mehsulun novbeti bir nece illik tələbat perspektivi və bazar tutumunun tədqiqatı aparılır.

3.Ümumi qiymətləndirmə və qərarların verilməsi. İdeya formalaşdıqdan və tədqiqatdan sonra mühüm mərhələlərdən biridə düzgün idarəetmə qərarlarının verilməsidir. Doğru idarə etmə strukturu və qərarlar verilməsə ideyanın tədqiqatı əhəmiyyətini itirir. Düzgün Qərarların alınması investisiya ideyasının uzun ömürlü olması və daha çox mənfəət əldə edilməsində vacibdir.

4.Tam investisya planının hazırlanması- Bu mərhələyə çatdıqda artıq konkret ideya olur yəni planda göstərilir ki hansı sahəyə hansı işlər görüləcəyi göstərilir. Mərhələnin sonunda plan yekunlaşdırılır.

5. İnvestisiyanın planının həyata keçirilməsi-Bu mərhələdə plan fiziki olaraq həyata keçirilməyə başlanılır missal üçün bina torpaq tikili və avadanlıqlar hazır deyilsə hazır vəziyyətə gətitilir.

6.Sınaqdan keçirmə- bu mərhələdə ideya və plan sınaqdan keçirilir yəni planın boşluqları müəyyən edilir aradan qaldırmaq və ya planı mükəmmelləşdirmək üçün tədbirlər planı həyata keçirilir.

7.İdarəetmə- İdarəetmə son mərhələdir. Bu mərhələdən sonra sadəcə yeniliklər və düzgün idarəetmə qərarları lazım olur.

Yuxarıda göstərilən mərhələlər müəsissənin investisya planının həyat tsikilini özündə əks etdirir.

MALİYYƏ NƏZARƏTİNİN ƏHƏMİYYƏTİ

İskəndərova A.R.
Odlar Yurdu Universiteti
E-mail: ayguniskandarova95@gmail.com

Maliyyə nəzarəti təşkilatın maliyyə resurslarının istiqamətini, bölüşdürülməsini və istifadəsini izlədiyi və nəzarət etdiyi prosedurlar, siyasətlər və vasitələrdir. Maliyyə nəzarəti istənilən təşkilatda resursların idarə edilməsinin və əməliyyat səmərəliliyinin əsasını təşkil edir. Bu, pul vəsaitlərinin hərəkətinin idarə edilməsi, büdcənin tərtib edilməsi və hər hansı fırıldaq və oğurluğun qarşısının alınması üçün vacibdir.

Beləliklə, o, biznesə böyümək və çiçəklənməsi üçün maliyyə fəaliyyətini izləməyə və nəzarət etməyə imkan verir.

Təşkilatlar həmçinin düzgün hesabat verə bilmək üçün maliyyə nəzarəti çərçivəsini tətbiq etməlidir. Maliyyə nəzarəti iqtisadiyyatda milli məhsulun natural və dəyər göstəriciləri tarazlığındakı pozuntuları, makro və mikro iqtisadi tənzimləmə prosesində bu və digər uyğunsuzluqları aşkara çıxarmaq üçün alət kimi istifadə olunur. D.Q.Çernik maliyyə nəzarətinin əhəmiyyətini belə izah edir: "Maliyyə nəzarəti maliyyənin nəzarət funksiyasının həyata keçirilməsinin forması kimi çıxış edir. Onun məzmunu və təyinatı təsərrüfat subyektlərinin, sahə (idarə) və ərazi idarəetmə subyektlərinin, maliyyə fəaliyyətinin yoxlanılmasından ibarət olur".

Niyə Maliyyə Nəzarətlərinə ehtiyacımız var? Maliyyə nəzarəti hesabatların düzgünlüyünün təmin edilməsində, saxtakarlığın aradan qaldırılmasında və təşkilatın həm fiziki, həm də qeyri-maddi resurslarının qorunmasında mühüm rol oynayır. Bu daxili nəzarət prosedurları proseslərin dəyişməsini azaldır və daha proqnozlaşdırıla bilən nəticələrə gətirib çıxarır.

Maliyyə hər hansı bir təşkilat üçün vacibdir və maliyyə menecmenti maliyyənin idarə edilməsi ilə məşğul olan elmdir; lakin maliyyə idarəetməsinin məqsədlərinə maliyyəyə lazımi nəzarət olmadan nail olmaq mümkün deyil.

Maliyyə nəzarətinin məqsəd və vəzifələri onun əsas funksiyalarını da müəyyən edir: məhdudlaşdırıcı; məlumatlandırıcı; motivasiya; tənzimləyən. («Maliyyə nəzarəti» Bəybala Xankişiyev -2002)

Beləliklə, qeyd etmək lazımdır ki, idarəetmə idarəetmə funksiyası kimi nəzarəti tez bir zamanda müəyyən etməyə və aradan qaldırmağa imkan verir səmərəli idarəetmə və bu məqsədə nail olmaq üçün əlverişli olmayan şərait və amillər. Maliyyə nəzarəti sisteminin təşkili üsulu təkcə təşkilatın maddi və maliyyə ehtiyatlarının təhlükəsizliyinə deyil, həm də onun bütün maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərir. Düzgün təşkil edilmiş maliyyə nəzarəti nəinki təşkilatdakı qüsurları erkən aşkarlamağa, həm də onların aradan qaldırılması üçün vaxtında tədbirlər görməyə imkan verir.

Maliyyə nəzarəti təşkilatın müxtəlif bölmələrinin fəaliyyətini əlaqələndirməklə təşkilatın məqsədlərinə nail olmağa çalışır.

Düzgün maliyyə nəzarəti şirkətin qazancını artırır ki, bu da son nəticədə səhm üzrə qazancı artırır.

Maliyyə nəzarəti borcun yığılması müddəti ilə kreditorların ödəmə müddəti arasında düzgün tarazlığın saxlanmasına kömək edir - beləliklə, firmada lazımi likvidliyin mövcudluğunu təmin edir, bu da firmanın kredit qabiliyyətini artırır.

Onu da qeyd etmək lazımdırki maliyyə nəzarətinin strateji səviyyədə aparılması olduqca vacibdir. Strateji səviyyədə maliyyə nəzarəti haqqında danışarkən, maliyyə planı və təşkilatın strateji planı ilə əlaqəli uyğunluq və uyğunluğun qiymətləndirilməsi prosesini nəzərdə tuturuq, sonuncunun məqsədlərinə çatmağı təmin edir.

Maliyyə nəzarəti ilə siz maliyyə ilinin sonunda son dəqiqə sürprizlərindən qaçınırsınız. Bu, büdcələrdə və strateji xətlərdə sapmaların aşkarlanması və kompensasiya, balans və düzəliş üçün müvafiq tədbirlər görülməsinin ən yaxşı yoludur.

Düzgün maliyyə nəzarətinin aparılması prosesini həyata keçirən maliyyə nəzarətçilərinin üzərinə düşən vəzifələr çoxdur. Maliyyə nəzarətçiləri müxtəlif mühasibat mütəxəssisləri qrupudur. Əsasən dəqiqliyə, prosesə və siyasətə ciddi əhəmiyyət verməli olan nəzarətçilərin məsuliyyətləri təşkilatın və sənayenin ölçüsündən asılı olaraq çox dəyişə bilər. Ümumiyyətlə, maliyyə nəzarətçisi dəqiq maliyyə hesabatlarına və səmərəli uçot proseslərinə cavabdeh olan şirkətin aparıcı mühasibidir. (Hacıyev R. "Təftiş və nəzarət". Bakı, 1999)

Maliyyə nəzarəti Maliyyə nəzarətçiliyi təşkilatın mühasibat uçotu və maliyyə hesabatlarına nəzarət edən idarəetmə funksiyasıdır. O, daxili nəzarətin həyata keçirilməsinə və monitorinqinə cavabdehdir.

Maliyyə nəzarətçisi biznesin gündəlik maliyyə əməliyyatlarına nəzarət edən yüksək səviyyəli menecerdir. Bəzən "şirkət tarixçisi" adlanan maliyyə nəzarətçiləri mühasibat uçotu funksiyasını yerinə yetirir və şirkətin kitabları və qeydlərinə cavabdehdirlər.

Maliyyə nəzarətçisinin rolu biznesin ölçüsünə görə dəyişir. Kiçik şirkətlərdəki nəzarətçilər, istər daxili, istərsə də podratçılar, əsasən şirkətin mühasiblərinin bacarıqlarından kənar olan təfərrüatlı mühasibat uçotu işlərində iştirak edirlər. Orta ölçülü müəssisələrdə - məsuliyyətlərin ən geniş olduğu yerlərdə - maliyyə nəzarətçilərinin vəzifələrinə layihənin idarə edilməsi, texnologiya, sığorta və uyğunluq funksiyaları daxildir. Böyük müəssisələrdə maliyyə nəzarətçiləri maliyyə və idarəetmə funksiyasına nəzarət etmək üçün baş maliyyə inzibatçıları, baş mühasiblər, maliyyə menecerləri və xəzinədarlarla işləyirlər.

Maliyyə nəzarəti indi istənilən şirkətin maliyyəsinin vacib hissəsinə çevrilib. Beləliklə, maliyyə nəzarətinin mənasını, məqsəd və faydalarını və düzgün həyata keçirilməsi üçün atılmalı olan addımları başa düşmək çox vacibdir. Həmçinin maliyyə nəzarəti şirkətin qısa, orta və uzunmüddətli məqsədləri və biznes planları ilə müqayisədə müxtəlif vaxtlarda müxtəlif perspektivlərdən yanaşan faktiki nəticələrinin təhlili kimi şərh edilə bilər. Bu təhlillər biznes planlarına əməl olunmasını, və anomiyalar, pozuntular və ya gözlənilməz dəyişikliklər baş verdikdə onlara düzəliş edilə bilməsini təmin etmək üçün nəzarət düzəliş proseslərini tələb edir. İqtisadiyyaın ən vacib bir hissəsi olan maliyyə nəzarətinə diqqət hər keçən gün daha da artmalı və bu sahə daha da təkmilləşdirilməlidir.

Ümumi bir fikir var ki, dövlət maliyyəsi qeyri-ciddi xərclərdən tutmuş mənimsəmə və dövlət vəsaitlərinin yanlış idarə olunmasına qədər çoxsaylı problemlərlə doludur. Bu vəziyyət adekvat maliyyə nəzarəti tədbirlərini tələb edir.

İctimai anlayışlarda maliyyə idarəçiliyinin bəzi problemləri aşağıdakılardır: Düzgün planlaşdırmanın olmaması; Əlverişsiz giriş-çıxış nisbəti; Kapitalın dəyəri; Qiymət problemi; Artıqlıq problemi; Kreditlərin artırılması problemi; Büdcə problemi; Səlahiyyətlərin verilməsi problemi.

Bu problemlərin aradan qaldırılması düzgün maliyyə nəzarəti idarəçiliyinin tənzimlənməsinə kömək olacaqdır. Qeyd etdiklərimizlə yanaşı hal hazırda Azərbaycanda maliyyə nəzarəti sahəsində bir sıra problemlər və çatışmamazlıqlar da mövcuddur ki, onların aradan qaldırılması ümumi işin, maliyyə nəzarətinin düzgün şəffaf aparılmasının xeyrinə olardı.

Maliyyə nəzarəti sahəsindəki boşluqları nəzərə alaraq, həmçinin bu sahədə bütün maliyyə nəzarəti orqanlarının fəaliyyətini vahid bir sistem altında tənzimləmək üçün Maliyyə Nazirliyi tərəfindən "Maliyyə nəzarəti haqqında" qanun layihəsi hazırlamış, və yaxın gələcəkdə bu qanun layihəsinin Milli Məclisin müzakirəsinə təqdim olunması gözlənilir.(Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 09.02.2009-cu il tarixli fərmanı)

Maliyyə nəzarəti adından da göründüyü kimi maliyyə aspektlərinin düzgün idarə edilməsi və nəzarəti, səmərəliliyi və təşkilatın maliyyəsinin idarə edilməsi deməkdir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin dediyi kimi "Ölkəmizdə maliyyə nəzarətinin, o cümlədən müstəqil auditin normativ hüquqi bazasının beynəlxalq təcrübəsi əsasında təkmilləşdirilməsi, bütövlükdə maliyyə və vergi intizamının möhkəmlədirilməsi, maliyyə vəsaitlərindən istifadə olunmasında hesabatlılıq və şəffaflığın daha da artırılması üçün böyük əhəmiyyət kəsb edir".

Beləkilə maliyyə nəzarətinə diqqətin dövlət səviyyəsində aparılması ilə yanaşı, həmçinin ictimai nəzarətin də mövcudluğu maliyyə nəzarətinin rolunu getdikcə artırır. Düzgün qurulmuş nəzarət sisteminin iqtisadi islahatların düzgün aparılmasının vacibliyi beynəlxalq aləmə inteqrasiyanı gücləndirmək sahəsində bir çıxış yoludur.

MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARI ƏSASINDA MÜƏSSİSƏLƏRDƏ XƏRC VƏ MƏSRƏFLƏRİN TANINMASI, UÇOTU VƏ MALİYYƏ HESABATLARINDA TƏQDİM OLUNMASININ TƏŞKİLİ

İskəndərova E.Ş.
Sumqayıt Dövlət Universiteti
E-mail: elnaraiskenderova841@gmail.com

Xərclər - müəssisənin istehsalda istifadə etmək üçün istehsal amillərinə həyata keçirdikləri ödəmələrdir. Müəssisənin əldə etdiyi mənfəət birbaşa olaraq xərclərlə bağlıdır. Əgər xərclər gəlirdən az olarsa, mənfəət, çox olarsa, zərər formalaşar. Məsrəflər - resursların azalması və ya müəssisənin borc öhdəliklərinin artmasıdır. Xərclər müəssisədən aktivlərin axını nəticəsində iqtisadi mənfəətin azalmasıdır.

İqtisadi mahiyyətinə görə xərclər material, əmək və pul xərclərinə bölünürlər. Material xərcləri müəssisə, və ya təşkilatın maliyyə təsərrüfat fəaliyyətinin lazımi resurslarla təmin olunması zamanı yaranır. Özlüyündə bu xərclər xammalın dəyərini, əsas və köməkçi materialları, yanacaq, enerji və sairini cəmləşdirmişdir. Xərclər aktivlərin azalması və öhdəliklərin artması ilə bağlı iqtisadi səmərənin azalmasının baş verdiyi və bu azalmanın etibarlı səviyyədə qiymətləndirilməsinə imkanın mövcud olduğu hallarda tanınır. Əksər halda, xərclərin və gəlirlərin ayrı-ayrı maddələri birbaşa əlaqəli olur. Buna görə də, müvafiqlik konsepsiyasına əsaslanaraq xərclər və gəlirlər eyni vaxtda tanınmalıdırlar. Məsrəflər gələcək iqtisadi səmərənin əmələ gəlməsinə səbəb olmadıqda, habelə onlara aid edilən gələcək iqtisadi səmərələr mühasibat balansında aktivin tanınma meyarlarına uyğun gəlmədikdə və ya bu meyarlara artıq cavab vermədikdə, bu məsrəflər "Mənfəət və zərər" haqqında hesabatda xərc kimi dərhal tanınır. Həmçinin, öhdəlik müvafiq aktiv tanınmadan yarandıqda xərc "Mənfəət və zərər" haqqında hesabatda tanınır.

Ümumilikdə yeni hesablar planında xərclər adlanan 7-ci bölmədə göstərilmişdir. Bura xərc olaraq satışın maya dəyəri, kommersiya xərcləri, inzibati xərclər, sair əməliyyat xərcləri, fəaliyyətin dayandırılmasından zərərlər və maliyyə xərcləri daxildir. Satışın maya dəyəri yeni hesablar planının xərclər adlanan 7-cı bölməsinin 70-ci maddəsində 701 №-li hesabda uçota alınır. Bu hesabda məhsul (iş və xidmət) satışından gəlir əldə edilməsi üçün məhsul istehsalına xərclənmiş və ya xidmət zamanı sərf olunmuş bütün xərclər daxildir. Yeni hesablar planında xərclərin uçotu zamanı 701 saylı hesabda uçota alınmada aralıq olaraq digər hesablarda da qeydiyyat aparılır. Beləki istehsal zamanı sərf olunan xərclər istehsal məsrəfləri adlanan 202 saylı hesabda uçota alınır.

Sonra hazır məhsul olaraq 204 cü hesaba silinir və hazır məhsul olaraq uçota alınır. Bununlada istehsalla bağlı maya dəyəri 204 cü hesabdan 701 ci hesaba silinir. Ümumilikdə satışın maya dəyəri ilə bağlı xərclər 701 saylı hesabda qeyd olunur: 70. Satışın maya dəyəri; 701. Satışın maya dəyəri; 701-1. Xammal; 701-3. İstehsal sahəsində çalışan işçilərin əmək haqqı xərcləri; 701-4. İstehsal aktivlərinin amortizasiyası; 701-5. Satışın digər maya dəyəri xərcləri.

Kommersiya xərcləri 71-ci maddə 711№-li Kommersiya xərcləri adlı hesabda əks etdirilir və bu hesabda reklam, marketinq, kommersiya işinə aidiyyəti olan aktivlərin amortizasiyası, bu fəaliyyətə aid işçi heyətilə bağlı xərclər, habelə satışla əlaqəsi olmayan digər təchizat işləri aiddir. Kommersiya xərcləri adlanan hesabın aşağıda qeyd olunan subhesabları mövcuddur: 71. Kommersiya xərcləri; 711. Kommersiya xərcləri; 711-1. Müəssisənin kommersiya fəaliyyətində məşğul olan işçi heyəti üzrə xərclər; 711-2. Kommersiya məqsədləri üçün istifadə edilən aktivlərin amortizasiya xərcləri; 711-3. Digər kommersiya xərcləri.

Inzibati xərclər 72-ci maddədə 721 №-li İnzibati xərclər hesabında uçota alınır və bu hesabda idarəetməyə çəkilən bütün xərclər, o cümlədən müdiriyyətin və inzibati heyətin əmək haqqı, ofis, nümayəndəlik xərcləri, inzibati aktivlərin amortizasiyası və digər xərclər öz əksini tapır:72. İnzibati xərclər; 721. İnzibati xərclər; 721-1. İnzibati işçi heyəti üzrə xərclər; 721-2. İnzibati məqsədlər üçün istifadə edilən aktivlərin amortizasiya xərcləri; 721-3. Digər inzibati xərclər.

Sair əməliyyat xərcləri 73-cü maddədə 731 №-li Sair əməliyyat xərcləri hesabında əks etdirilir və bu hesabda uzunmüddətli aktivlərin satışından zərərlər, yenidən qiymətləndirmə xərcləri, aktivlərin balans dəyərinin azalması ilə əlaqədar uçotda düzəlişlər, cərimələr və buna oxşar digər ödənişlər, xarici valyuta mübadiləsi xərcləri, şübhəli və ümidsiz borclar, qiymətdən düşmə üzrə zərərlər və digər xərclər uçota alınır: 73. Sair əməliyyat xərcləri; 731. Sair əməliyyat xərcləri; 731-1.Torpaq, tikili, avadanlığın və digər uzunmüddətli aktivlərin satışından zərərlər; 731-2. Yenidən qiymətləndirilmədən xərclər; 731-3. Qiymətdəndüşmə üzrə xərclər; 731-4. Cərimələr və digər oxşar ödənişlər; 731-5. Keçmiş illər üzrə xərclər; 731-6. Şübhəli və ümidsiz borclar üzrə xərclər; 731-7. Aktivlərin dəyərinin azalması üzrə düzəlişlər; 731-8. Məzənnə xərcləri.

Fəaliyyətin dayandırılmasından zərərlər 74-cü maddədə 741 №-li Fəaliyyətin dayandırılmasından zərərlər hesabında əks etdirilir və mənfəət olmadığı halda yaranan zərərin məbləğı bu hesabda uçota alınır. Hesablar planının 75-ci maddəsində 751 №-li Maliyyə xərcləri adlı hesab nəzərdə tutlmuşdur. Həmin hesabda faiz xərcləri, konvertasiya olunan istiqrazlar üzrə faiz xərcləri, maliyyə icarəsi üzrə faiz xərcləri, maliyyə alətlərinin ədallətli dəyərinin düşməsi üzrə xərclər və faiz xərcləri yaradan öhdəliklər üzrə məzənnə xərcləri öz əksini tapır: 75. Maliyyə xərcləri; 751. Maliyyə xərcləri; 751-1. Faiz xərcləri; 751-2. Konvertasiya olunan istiqrazlar üzrə faiz xərcləri; 751-3. Maliyyə içarəsi üzrə faiz xəcləri; 751-4. Maliyyə alətlərinin ədalətli dəyərinin dəyişməsi üzrə xərclər; 751-5. Faiz xərcləri yaradan ğhdəliklər üzrə məzənnə xərcləri; 751-6. Digər maliyyə xərcləri.

BİZNESİN MALİYYƏ VƏZİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

İsmayılova N.X.
Sumqayıt Dövlət Universiteti
E-mail: nura.i1994@mail.ru

Maliyyə vəziyyəti istehsal və iqtisadi amillərin qarşılıqlı təsirinin nəticəsidir. Biznesin maliyyə vəziyyəti aktivlərə yatırılan vəsaitlərin real pula nə qədər tez çevrilməsindən birbaşa asılıdır. Biznes fəaliyyətinin maliyyə vəziyyətinin qiymətləndirilməsi həm mövcud, həm də yaranan problemləri müəyyənyənləşdirməyə, habelə onlar barədə şirkət rəhbərliyini xəbərdar etməyə imkan verir. Müəssisənin uğuru əsasən onun maliyyə vəziyyətindən asılıdır. Odur ki, onun maliyyə vəziyyətinin təhlilinə çox diqqət yetirilir.

Uzunmüddətli perspektivdə biznesin maliyyə vəziyyətinin səmərəliliyinin artırılması prosesində təhlilin əhəmiyyəti böyükdür. Maliyyə təhlili gələcək şərtləri və nəticələri qiymətləndirmək üçün təsərrüfat subyektinin maliyyə vəziyyəti, keçmişdəki fəaliyyətinin maliyyə nəticələri ilə bağlı məlumatların öyrənilməsi prosesidir. Yuxarıda deyilənlərə əsasən iddia etmək olar ki, maliyyə təhlilinin əsas vəzifəsi gələcəyə yönəlmiş iqtisadi qərarların qəbulu ilə bağlı qaçılmaz qeyri-müəyyənlik səviyyəsini azaltmaqdır. Bu yanaşmadan istifadə edərkən belə güman etmək olar ki, maliyyə təhlili analitiklər tərəfindən qısa və uzunmüddətli iqtisadi qərarların qəbulu, investisiyaların cəlb edilməsinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, idarəetmə səriştəsinin və keyfiyyətinin qiymətləndirilməsi, gələcək gəlir və xərclərin proqnozlaşdırılması üçün mühüm vasitə kimi istifadə olunur. Maliyyə təhlili təkcə davamlılıq göstəricilərinin dinamikasını müəyyənləşdirməyə deyil, həm də müəssisənin zəif tərəflərini müəyyənləşdirməyə imkan verir ki, onların vaxtında aşkarlanması müəssisəyə onların aradan qaldırılması və qarşısının alınması üçün tədbirlər görməyə imkan verəcəkdir. Biznesin sabit maliyyə vəziyyətinin formalaşmasında əsas amil müəssisənin öhdəliklərini vaxtında yerinə yetirmək qabiliyyətini ifadə edən ödəmə qabiliyyətidir. Həmçinin, maliyyə vəziyyətinin səmərəliliyinin artırılması üçün əsas istiqamətlərindən biri müəssisənin gəlirliliyini artırmaq olmalıdır. Bu onunla bağlıdır ki, gəlirliyin artması genişləndirilmiş təkrar istehsalın həyata keçirilməsinə, öz öhdəliklərini yerinə yetirmək qabiliyyətinə, gəlirlərin artmasına kömək edir, bu da biznesin maliyyə sabitliyini artırır. Biznesin maliyyə vəziyyətini təhlil etmək üçün Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olan müəssisələrin aktivlərinin təhlilini aparaq (şəkil).



Şəkildən göründüyü kimi, 2020-ci ildə biznes fəaliyyəti ilə məşğul olan müəssisələrin aktivləri 58363,3 milyon manat olub ki, bunun da 53,7%-i orta, 40,7%-i kiçik, 5,6%-i isə mikro müəssisələrin payına düşür. 2019-cu illə müqayisədə kiçik və orta biznes subyektlərinin aktivləri uyğun olaraq 3,0% və 16,3% artmış, mikro biznes subyektlərinin aktivləri isə 30,8% azalmışdır.

Biznes fəaliyyətnin maliyyə vəziyyətinin səmərəliliyi onun aktivlərindən istifadənin səmərəliliyindən asılıdır. Ona görə də biznesin maliyyə vəziyyətinin səmərəliliyinin artırılması aktual vəzifələrdəndir. Maliyyə vəziyyətinin səmərəliliyinin artırılması üçün prioritet istiqamətlər bunlardır: likvidliyin, ödəmə qabiliyyətinin, maliyyə sabitliyinin artırılması.

Maliyyə sabitliyini gücləndirmək üçün əsas tədbir satış gəlirlərinin artırılmasıdır. Onun məbləği əsasən aşağıdakılardan asılıdır: satış həcmlərindən və məhsul vahidinin qiymətindən. Satış həcmini artırmaq üçün müəssisənin marketinq fəaliyyətini mümkün qədər aktivləşdirmək lazımdır. Satışın təşviqi müxtəlif yollarla həyata keçirilə bilər. Müştərilərə endirimlər etmək, qiymətləri orta səviyyədə endirməklə, kütləvi reklamdan istifadə etməklə istənilən nəticəni əldə etmək olar. Bütün müəssisələr üçün satış həcmini artırmaq üçün vahid tədbir yoxdur. Tədbirlərin növü konkret müəssisənin xüsusiyyətlərindən və onun seçdiyi marketinq strategiyasından asılıdır.

Maliyyə vəziyyətinin səmərəliliyinin artırılmasının mühüm yollarından biri də daxili ehtiyatların səfərbər edilməsidir. Bunlara daxildir: müəssisənin aktivlərinin restrukturizasiyasının aparılması; balans aktivlərinin strukturunda və tərkibində dəyişikliklərlə bağlı tədbirlər kompleksi; müəssisənin mövcud maddi və maliyyə sərvətlərinin pul formasına çevrilməsi.

Maliyyə nəticələrinin səmərəliliyinin artırılması prosesində biznesin idarə edilməsi, strateji proqnozlaşdırma və resursların idarə edilməsi sahəsində səriştəli qərarların qəbul edilməsinə böyük diqqət yetirilir. Biznesin maliyyə vəziyyəti onun fəaliyyətinin bütün aspektlərinin idarə edilməsinin nəticələrini nümayiş etdirir. Buna görə də maliyyə vəziyyətinin diaqnostikası həm böhran əleyhinə idarəetmə prosesi, həm idarəetmə mərhələsi, həm də qərarların əsaslandırılması kimi qəbul edilə bilər. Bazardakı müəssisələr risk və qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərdiyindən istənilən idarəetmə antiböhran xüsusiyyətlərinə malikdir. Buna görə də biznes fəaliyyətinin xarici və daxili amillərinin daimi monitorinqi, imkan və təhdidlərin müəyyən edilməsi, imkanlardan istifadə etmək və təhdidlərdən qaçmaq üçün tədbirlər görmək vacibdir. Antiböhran maliyyə idarəetməsi inkişaf prinsiplərini və üsullarını, habelə xüsusi idarəetmə qərarlarının həyata keçirilməsini özündə cəmləşdirən sistemdir. O, müəssisənin maliyyə böhranlarının qarşısının alınmasına və aradan qaldırılmasına, onların mənfi nəticələrinin minimuma endirilməsinə yönəlib. Belə idarəetmənin əsas məqsədi biznesin maliyyə tarazlığına nail olmaq, habelə maliyyə böhranı nəticəsində yaranmış bazar dəyəri itkisinin ölçüsünü minimuma endirməkdir.

Yuxarıdakı araşdırma müəyyənləşdirməyə imkan verdi ki, uzunmüddətli perspektivdə böhranların qarşısının alınması üçün maliyyə vəziyyətinə təsir göstərən amilləri diqqət mərkəzində saxlamaq lazımdır.

Fikrimizcə, biznesin maliyyə vəziyyətinin səmərəliliyinin artırılması yolları aşağıdakılar ola bilər: 1) Proqnozlaşdırma sisteminin səmərəliliyinin artırılması; 2) İstehsal xərclərinin optimallaşdırılması (azaldılması); 3) İstehsal ehtiyatlarına və onların yenidən təşkilinə nəzarət; 4) Borc öhdəliklərinin strukturunun korreksiyası; 5) Əlavə vəsaitlərin daxil olması ilə əsas vəsaitlərin istifadəsinin optimallaşdırılması; 6) Kreditorlara ödənişlərin prioritet üzrə bölüşdürülməsi; 7) Borclularda borcların yığılmasının səmərəliliyinin artırılması; 8) İstehsal və satışın həcminin artırılması; 9) Kapital qoyuluşu planlarına yenidən baxılması; 10) Maliyyə proqnozlaşdırılması.

Maliyyə vəziyyətinin təhlilindən əldə edilən nəticələrə əsasən müxtəlif maliyyə göstəricilərinin proqnozlaşdırılması biznesin idarə edilməsini əhəmiyyətli dərəcədə təkmilləşdirəcək, bütün istehsal və satış amillərinin ardıcıllığını, bütün bölmələrin fəaliyyətinin qarşılıqlı əlaqəsini, vəzifələrin bölüşdürülməsini təmin edəcəkdir. Beləliklə, biznesin maliyyə vəziyyətinin təhlili onun bazar mühitində yerini müəyyənləşdirmək üçün vacib bir vasitədir.

DÜNYA ÖLKƏLƏRİNDƏ DAVAMLI İNKİŞAF KONSEPSİYASININ SOSİAL VƏ İQTİSADİ TƏSİRLƏRİ

İsmayılova T.M.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail:Turkane2000@mail.ru

Davamlılıq dözmək qabiliyyəti deməkdir. Daha ümumi elmi mənada, davamlılıq davamlılığa və ya qarşıya qoyulmuş hədəfi dayandırmadan davam etdirmək qabiliyyətinə bərabərdir. Buna görə də davamlılıq kainatın mövcudluğuna uyğun gəlir və o, müəyyən sabit nəticəni saxlamaq qabiliyyətinə malikdir. Davamlı dövlətə təkamül proqnozlaşdırıla bilər. Ancaq davamlılıq prinsiplərinə malik forma və ya vəziyyətin təkamülü ağıl və ya sistematik müdaxilə ilə dəyişdirilə bilər.

Davamlılıq proseslərə, obyektlərə və ya maddələrə aiddir. Davamlılıq prinsipi maddə miqdarının monoton artması və ya azalması ilə uyğun gəlmir. Davamlılıq artan və azalan rəqabət qüvvələri arasında mövcudlaşır. Bir maddənin miqdarının yeknəsək artması maddəni ehtiva edən məhdud ətrafın və ya maddənin artımını təmin edən mənbənin tükənməsinə səbəb olur;yəni bir məsələnin miqdarının monoton

şəkildə azalması bunun sonda tükənməsinə gətirib çıxarır. Bioproseslərdə isə davamlılıq sabit vəziyyətə uyğun gəlir.

Təqdim olunan məqalədə dünya ölkələrində dayanıqlı inkişaf məsələsi nəzərdən keçirilir. Məlumdur ki, dünya əhalisi 20-ci əsrin ortalarından heç vaxt əldə olunmayan intensiv templərlə artmaqdadır. Son dövrlər milyonçu şəhərlərin genişlənməsi və ya şəhərlərə axın bir tərəfdən dünyanın ümumi sosial-iqtisadi inkişafının yüksəlişindən xəbər verirsə, digər tərəfdən bir sıra iqtisadi, sosial və ekoloji problemlərin yaranmasına səbəb olur. Bu məqalənin məqsədi davamlı inkişaf konsepsiyası prinsiplərinə uyğun olaraq dünyanın milyonçu şəhərlərinin mövcud vəziyyətini və perspektivlərini təhlil etməklə, onların imkanlarını, təhlükələrini, güclü və zəif tərəflərini müəyyən etməkdən və müasir qlobal dünyada şəhərlərin rolunu açıqlayaraq onların gələcək tədqiqatlarını nəzərdən keçirməkdən ibarətdir. Bir çox tədqiqatçılar dünya şəhərləri reytinqini təhlil edərək qeyd edirlər ki, yüksək inkişaf etmiş ölkələrin şəhərləri daha böyük maliyyə resurslarına görə orta ölçülü şəhərlərlə müqayisədə davamlı inkişaf konsepsiyasını tez həyata keçirmək şanslarına malikdirlər. Digər müəlliflər isə davamlı inkişaf konsepsiyası baxımından dünya şəhərlərinin çevrilməsinin SWOT təhlilini qurmuş, güclü, zəif tərəfləri, imkan və təhdidləri müəyyən etmişlər. SWOT təhlilinin nəticələrinə əsasən araşdırmaçılar müəyyən etmişlər ki, yüksək inkişaf etmiş ökələrin şəhərlərinin davamlı inkişafı xüsusilə sosial sahənin inkişafına, şəhər təbiətinin antropogen təsirlərdən təmizlənməsinə və qorunmasına əhəmiyyətli investisiyalar tələb edir. Tədqiqatın nəticəsi dünya şəhərləri reytinqlərinin tərtibində istifadə olunan davamlı inkişaf meyarlarının sistemləşdirilməsini və müasir şəhərlərin davamlı inkişaf konsepsiyasına keçid imkanlarının müəyyənləşdirilməsini əsas tutur.

Müəyyən edilən ekoloji sivilizasiyaya keçid üçün inkişaf proseslərinin davamlı şəkildə idarə edilməsi üçün mühüm ilkin şərtlərdən biri kimi təbii ehtiyatların səmərəli idarə edilməsinə kömək edəcək mühitin daxil edilməsidir. Bu məqalədə təqdim olunan tədqiqat neft-qaz ixrac edən dünya ölkələrində və Azərbaycan Respublikasında istehlak edilmiş enerji vahidinə düşən ümumi daxili məhsulu (ÜDM) müqayisə edir. Təhlillər beynəlxalq təşkilatların 2013-2014-cü illərdə dərc etdiyi rəqəmlərə əsaslanır və 2000-2012-ci illəri əhatə edir.Araşdırmalar göstərir ki, hazırda Azərbaycan Respublikasında enerjidən istifadənin səmərəliliyi dünya üzrə orta göstəricidən 23 faiz yüksəkdir. Azərbaycan Respublikası da eyni davamlı inkişaf göstəricisində neft və qaz ixrac edən ölkələr arasında lider mövqelərdən birinə nail olmuşdur. Buna son onillikdə formal və qeyri-rəsmi təhsil, dövlət qulluqçularının ixtisasartırma təhsili, ictimai məlumatlılığın və iştirakçılığın artırılması yolu ilə insan potensialının artırılmasına yönəlmiş siyasətin həyata keçirilməsi sayəsində nail olunmuşdur.

Bu araşdırma keçmiş sovet ölkəsində insan resurslarının inkişafına innovativ strateji, milli yanaşma ilə ekoloji cəhətdən daha çox məlumatlı, həssas cəmiyyət üçün milli potensialın artırılması arasındakı əlaqələri tənzimləyir. Müstəqillik əldə etdikdən sonra heyrətamiz sürətlə Azərbaycan hasilat sənayesini (neft və təbii qaz üzrə) səmərəli şəkildə idarə etmiş və illik ÜDM artımında qlobal miqyasda birinci yerə yüksəlmişdir. Onun "qara qızılı insan potensialına (QQİQ)" çevirərək, iqtisadiyyatını şaxələndirmək əzmi təhsil, təlim və insanların maddi şəraitinin yüksəlməsini modernləşdirməklə onilliklər boyu həyata keşirilən proqramalrın səyləri hesabına baş vermişdir. Məs., QQİQ nail olmaq üçün digər komponentlər arasında milli işçi qüvvəsi sorğuları, sürətləndirilmiş bacarıqların inkişafı və məşğulluq xidməti islahatlarını əhatə edən kompleks milli strategiya tətbiq edilmişdir. Sovet sənayesi tullantılarının təmizlənməsi üçün aktual ehtiyacı, eləcə də bütün sektorlar arasında ekoloji məsuliyyət haqqında şüurun yüksəlməsini nəzərə alaraq, həm məktəblərdə, həm də dövlət qulluğuna təlim proqramlarında unikal "eko-vətəndaş" təşəbbüsləri irəli sürülmüşdür. QQİQ və daha çox "eko-vətəndaş" cəmiyyətin iki məqsədlərinə çatmaq üçün dövlət və özəl sektor əməkdaşlığına nəticələnən davamlı inkişaf prinsipləri region və onun hüdudlarından kənarda bir model ola bilər.

Hal-hazırda yeni bir virusun-koronavirus xəstəliyinin qısa müddət ərzində bütün dünyaya nəzarətsiz şəkildə yayılması bir çox dünya ölkələrinin inkişafına bir çox cəhətdən təsir etdi. Bütün dövlətlər texniki, maliyyə və siyasi resurslarını dünyada COVID-19 pandemiyasına nəzarət etməyə yönəldiblər. Bu böhranın təsirinin daha uzun müddət davam edəcəyi, insanların güzəranına və bütün dünyada millətlərin inkişafına töhfə verən bütün fəaliyyətlərə təsir edəcəyi proqnozlaşdırılır. Əslində, 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Üzv Dövlətləri tərəfindən müxtəlif qlobal problemlərin həlli ilə bağlı qəbul edilmiş ən perspektivli və əhəmiyyətli on yeddi Dayanıqlı İnkişaf Məqsədinə (DİM) indiki koronavirus pandemiyası səbəbindən 2030-cu ilə qədər nail olması o qədər də inandırıcı görünmür. Bununla belə, COVID-19 pandemiyası dünyanın mövcud artımına sarsıdıcı təsir göstərsə də, bu pandemiya ilə əlaqədar uzunmüddətli perspektivdə çox az müsbət irəliləyişlər müşahidə olunur. Buna görə də, bu tədqiqat BMT-nin DİM-lərinə nail olmaqda COVID-19 pandemiyasının təsirinin müəyyən edilməsinə və kəmiyyətinin müəyyənləşdirilməsinə yönəlmişdir.Tədqiqat işimiz pandemiyanın ətraf mühitə və enerji ilə bağlı DİM-lərə

həm mənfi, həm də müsbət təsirlərini ortaya qoyur. Bu araşdırmaya əsasən müəyyən olunmuşdur ki, hər bir mühit və enerji ilə bağlı məqsədlər üçün müəyyən edilmiş müsbət və mənfi təsirlərin çəkilərini hesablamaq üçün Analitik İerarxiya Prosesindən (AİP) istifadə edilir. Bundan əlavə, DİM-lərə təsirlərin şiddətini müəyyən etmək üçün 4-1 reytinqdın də istifadə olunur. Nəhayət, pandemiyanın ətraf mühitə və enerji ilə bağlı DİM-lərə ümumi təsirini göstərən çəkilər və reytinqlərdən istifadə edərək xal hesablanır. Və əldə edilən nəticə göstərir ki, pandemiya ekoloji cəhətdən daha davamlı gələcək qura biləcək fəaliyyət planları hazırlamaq imkanını verir.

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN YERİ

Kərimov T.A.
Lənkəran Dövlət Universiteti
E-mail: karimovtural87@gmail.com

Ölkəmizdə qeyri-neft sektorna daxil olan sahələrin inkişafı dövlət siyasətinin ən vacib tərəflərindən birini təşkil edir. Ölkəmizin iqtisadiyyatının neftdən asılılıq dərəcəsinin aşağı salınması üçün iqtisadçı ekspertlər klaster yanaşmanı məqbul hesab edirlər. Klaster yanaşması istifadə edildikdə Azərbaycanda gələcək perspektivi daha aydın nəzərə çarpan bir sıra sahələrin inkişafı əsas götürülür. Respublikamızda yüksək potensial və gələcək perspektiv nöqteyi nəzərindən vacib sahələrdən biri də turizm və onunla bağlı sahələrdir.

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində inkişaf etdirilməsi nəzərdə tutulmuş sahələrdən ən əsas olanlardan biri turizm sahəsi idi. Prezident İlham Əliyev qeyd olunan sahə üzrə 2009-2018-ci illərdə proqramların əsas sahələrindən biri olaraq, sahibkarların maliyyə vəsaitləri ilə təmin olunmasının daha da yaxşılaşdırılmasının, yeni xidmət müəssisələrinin yaradılması üçün hökumətin güzəştli vergi-gömrük tarifləri tətbiq edilməsinin həmişə diqqət mərkəzində dayandığını qeyd edirdi. Belə ki, bu sahədə çalışan sahibkarlar üçün güzəştli vergi sisteminin yaradılması, turizm sektorunda ƏDV-nin azadılması və digər addımlar atılıb. Yeni fəaliyyətə başlayan müəssisələrin ən qabaqcıl avadanlıqlarla təmin edilməsi üçün sahibkarlara uzunmüddətli kreditlərin verilməsi baş tutub.

Proqramın icrası çərçivəsində qeyri-neft sektoruna aid sahələrin inkişafına xüsusi dəstək verilməsi nəzərdə tutulmuşdur. Bunlardan biri, eyni zamanda ən perspektivlisi turizm sahəsidir. İqtisadiyyatın mövcud sahələrindən fərqli olaraq turizm ekologiyaya və ətrafa ziyan vurmayan, xammal, mal və materiallar və sənaye üzrə hər hansı emal prosesinə ehtiyac olmayan, faydalı qazıntıların istifadəsini tələb etməyən bir sektordur. Təsadüfi deyildir ki, bir çox ölkələrin əsas gəlir mənbəyi məhz bu sektordan əldə olunur.

Ölkəmizin əlverişli iqlim şəraiti, il ərzində üzəri qar və buzlaqlarla örtülü, ecazkar quruluşu olan, cəlbedici ərazisi, çoxsaylı çayları, gölləri, çoxlu sayda mineral, həmçinin müalicəvi bulaqlar, qumlu çimərlikləri, tarixi abidələr və s. ölkədə daxili və xarici turizmin inkişafı üçün geniş imkanlar yaradır.

Son illərdə ölkəmizdə qeyd olunan problemlərin həlli, yarana biləcək problemlərin qarşısının alınması, mövcud infrastruktur bazasının məqsədəuyğun genişləndirilməsi məqsədilə bir sıra lokal və beynəlxalq layihələr, tədbir və fəaliyyətlər icra olunur. Bu layihələr fərqli istehsal və xidmət sahələrini əhatə edərək, ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir edir. Həyata keçirilmiş layihələrin vacib tərəflərindən biri də mövcud infrastruktur sahələrin təkmilləşdirilməsi və müasir tələbata uyğunlaşdırılmasıdır. Bu təbii prosesdir, çünki köhnə, mövcud standartlara cavab verməyən infrastruktur sahələri ilə hər hansı ciddi inkişafa nail olmaq çətindir.

Hazırki dövrdə infrastruktur layihələrinə ayrılan vəsaitin həcmi dövlətin bu sahədə inkişafın təmin olunmasına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Ölkənin Şimal-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi onun turizm potensialını artıran xüsusiyyətlərdəndir.

Məlumdur ki, Azərbaycanda kəndlərdə turizm mərkəzləri əsasən, dağ rayonlarında yerləşirlər. Nabranda və Qubada yaradılan müasir istirahət mərkəzləri hazırda dünyaca tanınmaqda olan turizm mərkəzlərinə çevrilməkdədir. Qeyd olunan ərazilərdəki turizm imkanlarına çıxışın təmin olunması məqsədilə həmin ərazilərə, hətta ən ucqar kəndlərə belə nəqliyyat yolu çəkilib və istifadəyə verilib. Son illərdə yalnız yerli deyil, həm də xarici turistlər də bu məkanlara üz tuturlar. Bu məqamda prezident cənab İlham Əliyevin bir fikrini qeyd etmək doğru olardı: "Harada ki, müasir yol var, o bölgədə mütləq və mütləq inkişaf olacaqdır. Əgər yol yoxdursa, o bölgə inkişaf edə bilməz. Orada istənilən təbii sərvətlər, istənilən

infrastruktur, gözəl binalar, mehmanxanalar olsa da, əgər yol yoxdursa və ya bərbad durumdadırsa, oraya heç kim gəlməyəcəkdir".

Turizmin, həmçinin, kəndlərdə mövcud turizm sahələrinin inkişafı nəqliyyat və infrastruktur sahələrinin inkişafı ilə vəhdət təşkil edir. Qeyd olunanlar ölkəmizdə həyata keçirilən infrastruktur layihələrinin turizmin inkişafında, konkret desək, regionlarımızda aparılan quruculuq işləri, müasir yol çəkilişlərinin isə kənd turizminin inkişafında xüsusi əhəmiyyət daşımasını sübut edir. Yaxın illərdə respublikamıza gələn turistlərin sayında müşahidə olunan artım tempi bu sahənin klaster yanaşmasında vacib istiqamətlərdən olduğunu ifadə edir.

Son illər ərzində regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində aparılan işlər regionlarımızda istehsal sahələrinin və onlara bağlı olan sosial infrastrukturların yaradılması sahəsində müsbət dəyişikliklərlə nəticələnmişdir. Prezident İlham Əliyevin təsdiq etdiyi "Regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda ölkəmizdə turizmin dinamik yüksəlişi məsələsinə də xüsusi yer verilib. Proqrama uyğun olaraq, qarşıdakı illər ərzində bu sahənin inkişafı ölkə iqtisadiyyatının diversifikasiyası istiqamətində həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edəcək.

İqtisadiyyatın sürətli və dinamik inkişafı, Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəldilməsi ölkəmizə xarici ölkələrdən marağın artmasına səbəb olmuş, respublikamıza gələn turist sayının hər il artmasına, bir sözlə, turizm fəaliyyətlərinin şaxələnməsinə və inkişafına şərait yaratmışdır.

"Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda da turizmin inkişafı məsələsi diqqət mərkəzində olub. Geridə qalan müddətdə Bakı şəhəri ilə bərabər, həmçinin regionlarda da turizm komplekslərinin, müasir otellərin istifadəyə verilməsi turizm infrastrukturunun inkişafına və nəticə etibarilə də əhalinin istirahətinə əlverişli və geniş imkanlar yaradıb. 2003-cü ildəki statistikaya görə ölkədə mehmanxana və bu tipli müəssisələrin cəmi sayının 96 olduğu halda, dövlət proqramı çərçivəsində həyata keçirilən proseslər nəticəsində bu tipli obyektlərin cəmi sayı artaraq 560-ı keçib ki, bunların da 400-dən artığı regionlarımızda fəaliyyət göstərməkdədir. Hazırda ölkəmizin regionlarda yeni hotellərin tikilməsi istiqamətində uğurlu işlər davam etdirilir.

"Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda turizm sahələrinin inkişafı istiqamətində aşağıdakı fəaliyyətlər nəzərdə tutulub:

- Bakı şəhərinə daxil olan qəsəbələr üzrə və rayonlara turistlərin cəlb edilməsi istiqamətində yüksək dəyərə sahib olan əsas turizm obyektlərinin inkişafı;
- Regionlarımızda müxtəlif turizm sahələrinin, həmçinin kənd turizmi, etno-turizm, qış turizmi və s. inkişafı üzrə müvafiq tədbirlərin icrası;
- Kənd turizmi ilə məşğul olan sahibkarlara güzəştli kreditlərin, qrantların verilməsi istiqamətində uyğun tədbirlərin görülməsi;
- Bəzi ənənələrin təbliği (çörəkbişirmə, xalçaçılıq və s.) istiqatində qısamüddətli kursların təşkil edilməsi;
- Turizm xidmətləri təşkil edən nümunəvi təsərrüfat sahələri (şərab, arı, balıq sahəsi üzrə fəaliyyətlər və s.) modelinin qurulması;
- Hazırda mövcud olan turizm marşrutlarının inkişafı və müasir turizm marşrutlarının yaradılmasının təşviqi;
- Rayonlarda turizm sahəsində xidmətlərin təkmilləşdirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi;
- Ölkənin milli parklarının ərazisində ekoturizm infrastrukturunun təşkili, yerli əhalinin turizm sahəsinin inkişafı tədbirlərinə cəlbi məsələlərini əhatə edir.

İNVESTİSİYA FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

Mahmudova Ə.Ə.
Sumqayıt Dövlət Universiteti
E-mail: mahmudovae919@gmail.com

Müasir iqtisadi lüğətdə "İnvestisiya siyasəti" anlayışı dövlət və müəssisələr tərəfindən investisiyaların strukturunun və miqyasının, onlardan istifadə istiqamətlərinin, daxilolma mənbələrinin müəyyən edilməsi formasında həyata keçirilən milli iqtisadi siyasətin tərkib hissəsi kimi müəyyən edilir.

İnvestisiyaların makro və mikroiqtisadi səviyyələrdə qarşılıqlı əlaqəsi investisiya siyasətini müəyyən edir. Makroiqtisadi mənada investisiyalar istehsalın modernləşdirilməsi, elmi və texnoloji kəşflərin inkişafı, ölkənin iqtisadi və ekoloji təhlükəsizliyinin və ümumiyyətlə sosial-iqtisadi inkişafın təmin edilməsi üçün əsasdır.

Mikroiqtisadi mənada investisiyalar mövcud müəssisələrin bərpası və inkişafı, onların modernləşdirilməsi, təsərrüfat subyektinin gəlirinin artması, əsas fondların yaradılması, maliyyə rifahının təmin edilməsi, istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması kimi problemləri həll edir.

İnvestisiya siyasəti müəyyən məqsədlərə çatmağa yönəlmiş iqtisadi siyasətdir. Dövlətin investisiya siyasətinin əsas məqsədlər aşağıdakılardır:

1) əhalinin həyat səviyyəsinin yüksəldilməsi;

2) iqtisadi və sosial inkişafda sabitliyi təmin etmək üçün riskləri minimuma endirmək və gəlirliliyi artırmaq;

3) xarici və yerli investorların fəaliyyətlərinin həyata keçirilməsi üçün əlverişli rejimin təşkili.

Ümumiyyətlə, investisiya siyasətinin məqsədi dövlətin sosial və iqtisadi inkişafı üçün strateji planı həyata keçirməkdir. Dövlətin investisiya siyasətinin həyata keçirilməsinin əsas vasitələri əsas məqsədlərə çatmaq üçün inzibati və iqtisadi təsir üsullarıdır.Dövlətin investisiya siyasəti konkret sosial-iqtisadi problemlərin həllinə yönəldildiyi təqdirdə təsirli olur.

Dövlətin investisiya siyasəti investisiya fəaliyyətinin tənzimlənməsinə yönəldilir. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi dedikdə, dövlət orqanları tərəfindən investisiyaların həyata keçirilməsi proseslərinin tənzimlənməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi başa düşülür. İnvestisiya fəaliyyətini tənzimləyən dövlət eyni zamanda bir neçə funksiyanı yerinə yetirir. Birinci funksiya özəl biznesin ümumi investisiyalarını stimullaşdırmaq və ya məhdudlaşdırmaqdır.

Deyə bilərik ki, bu, vergi, amortizasiya və pul siyasəti vasitəsilə həyata keçirilən investisiyaların və investisiya prosesinin idarə edilməsində dövlətin əsas makroiqtisadi funksiyasıdır. İkinci funksiya vergi və kredit güzəştləri verməklə, məsələn, investisiya kreditinin köməyi ilə investorları müəyyən müəssisələrə, sənayelərə və ya fəaliyyət sahələrinə investisiya qoymağa stimullaşdırmaqdır. Üçüncü funksiya iri korporasiyaların plan və hərəkətlərini koordinasiya edərək müəyyən istehsal obyektlərinə daxil olmaq və ya çıxarmaq üçün dövlətin investisiya prosesinə birbaşa müdaxiləsidir.

İstənilən iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi iki formada həyata keçirilir: qanunvericilik formasında və proqramlar şəklində. Layihələrin həyata keçirilməsi ilə bilavasitə bağlı olan investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin məzmunu onun funksiyaları, vasitələri və obyektləri vasitəsilə müəyyən edilir. İqtisadiyyatın vəziyyətindən (inflyasiya səviyyəsi, qıtlıq) asılı olaraq dövlət tənzimlənməsinin müxtəlif konsepsiyalarından istifadə olunur. İqtisadiyyatın dövlət tənzimlənməsi dövlət orqanları tərəfindən iqtisadi obyektlərə və proseslərə təsirdir. O, əsasən dövlətin iqtisadi siyasəti çərçivəsində həyata keçirilir və proqnozlaşdırma, planlaşdırma, maliyyələşdirmə, büdcələşdirmə, vergi tənzimlənməsi, kreditləşmə, inzibati təsir, uçot, nəzarət və digərlərini əhatə edir. Ümumilikdə, investisiya fəaliyyətinin dövlət tənzimlənməsi investisiya proseslərinin aparılması qaydalarını tənzimləyən və müəyyən edən qanunlar, qaydalar və tədbirlər toplusudur. Dövlət müxtəlif formalarda və üsullarla investisiya fəaliyyətinin tənzimlənməsində iştirak edir:

1. İnvestisiya fəaliyyətinin bütün iştirakçıları və bütün investisiya prosesləri və layihələri üçün eyni olan qanunvericilik bazasını yaradır və tənzimləyir;

2. İnvestisiya fəaliyyətinin subyekti kimi çıxış edir və investisiya layihələri üçün müsabiqə əsasında vəsait ayırır.

Dövlətin investisiya fəaliyyətini tənzimləyərkən aşağıdakı əsas prinsiplərə söykənir: iqtisadi inkişafın innovativ yoluna istiqamətlənmə; investisiyaların inkişafında prioritetlərin müəyyən edilməsi; elm, sənaye, təhsil, kredit və maliyyə sahələrinin qarşılıqlı əlaqəsi; investisiya fəaliyyətində normaların, hüquqi bazanın formalaşdırılması; investisiya fəaliyyətində səmərəli bazar mexanizmlərindən istifadə; investisiya infrastrukturunun inkişafına yardım.

Beləliklə, investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin məzmunu dövlət orqanlarının qarşısında duran məqsədlərlə, habelə dövlətin investisiya siyasətində malik olduğu vasitə və alətlərlə müəyyən edilir.Ümumiyyətlə, dövlət müxtəlif vasitələrdən istifadə etməklə investisiya fəaliyyətinə təsir göstərə bilər: pul və vergi siyasəti; istehsalın yenidən qurulmasına və texniki cəhətdən yenidən təchiz edilməsinə sərmayə qoyan müəssisələrə müxtəlif vergi güzəştlərinin verilməsi; amortizasiya siyasəti; xarici investisiyaların cəlb edilməsi üçün əlverişli şərait yaradılması; elmi-texniki siyasət və s.

MENECMENT SİSTEMİNİN MÜƏSSİSƏLƏRİN İNKIŞAFINDA ROLU

Mamedov S.Ş.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mali: sekomov707@gmail.com

Menecment sistemi makro səviyyədə iqtisadiyyatın və cəmiyyətin, mikro səviyyədə müəssisələrin əsas və ən əhəmiyyətli institutu hesab olunur. Bu, onunla bağlıdır ki, menecment müasir idarəetmə sisteminin təbiətinə və müəssisələrin ehtiyaclarına əsaslanmaqla ilk növbədə iqtisadi inkişafa yönəlir.

Menecment sisteminin səmərəli fəaliyyət göstərdiyi müəssisələrdə bu sistem bütün mərhələlərin və sahələrin eyni vaxtda fəaliyyət göstərməsini, yəni onların zaman və məkanda əlaqəsini təmin edir. Ümumiyyətlə, müəssisənin bütün bölmələrinin səmərəliliyinin təmin edilməsi menecment sisteminin əsas vəzifəsidir. Buraya istehsal prosesinin rasional təşkili, texniki-texnoloji bazanın inkişafı, insan resurslarından səmərəli istifadə edilməsi, işçilərin yaradıcılıq fəaliyyətinin təmin edilməsi daxildir.

İdarəetmə keyfiyyəti baxımından müxtəlif təşkilatlarda menecment sisteminin fərqləndiyi müəyyən xüsusiyyətlər mövcuddur. Menecment sisteminin keyfiyyətinin qiymətləndirilməsi hər bir xüsusiyyətin seçilməsi, onun təsirinin ölçülməsi və bir növ yekun qiymətləndirmə əldə etmək üçün digər xüsusiyyətlərlə əlaqəsidir.

Başqa sözlə, menecment sisteminin keyfiyyətini yalnız bu ümumiləşdirici konsepsiyanın hər bir komponenti qiymətləndirildikdə müəyyən etmək mümkündür. Bunun üçün idarəetmə sferasının əsas anlayışlarını nəzərdən keçirmək, nəyin ümumi olduğunu və müxtəlif idarəetmə sistemləri arasında hansı fərqlərin olduğunu təhlil etmək lazımdır.

Nəzarət səviyyəsi menecment sisteminin fərqləndirici xüsusiyyətlərindəndir. Hər bir konkret fəaliyyət sahəsində idarəolunma səviyyəsi məlum deyilsə, tam hüquqlu keyfiyyət idarəetməsi haqqında danışmaq mümkün deyil.

Menecment sisteminin keyfiyyətini qiymətləndirmək üçün idarəolunma səviyyəsini qiymətləndirməyi bacarmaq vacibdir. Daim dəyişən şərtlərə baxmayaraq, müəyyən bir istiqamət saxlanıldıqda fəaliyyətin davamlılığından danışmaq olar.

Menecment sistemində fəaliyyətlərin davamlılığını təmin edən idarəetmə sisteminin əsas xüsusiyyəti uyğunlaşma qabiliyyətidir. Uyğunlaşma nə qədər yüksəkdirsə, menecment sistemində bir o qədər çox işçi özünü inkişaf etdirməyə qadirdir, dəyişən şəraitə uyğun olaraq tez naviqasiya etməyə və fəaliyyətlərini çevik şəkildə yenidən qurmağa hazırdır.

Uyğunlaşma səviyyəsi bir idarəetmə sistemini digərindən fərqləndirən əsas əlamətdir. Əgər keyfiyyət standartlarını həyata keçirən həmin xidmətlərin uyğunlaşma səviyyəsi məlum deyilsə, onda hansısa nəticədən yalnız ehtimalla danışmaq olar. Menecment sistemiidarəetmənin keyfiyyətinin qiymətləndirilə bilinəcəyi yeganə mexanim deyil.

Menecment sistemləri bir-birindən təşkil olunma üsuluna görə də fərqlənir. Menecment sistemində idarəetmə keyfiyyəti nə qədər yüksək olmalıdırsa, idarəetmə strukturu müxtəlif daxili və xarici şəraitə bir o qədər uyğundur. Menecment sistemi baxımından müəssisələrin ümumi effektivliyi iki komponentin tərkibində nəzərə alınmalıdır:

- təşkilatın xarici imkanlarından istifadə baxımından səmərəlilik;
- daxili imkanlarından istifadə baxımından səmərəlilik.

Buna əsaslanaraq, istehsal olunan məhsulların maksimum satışını təmin etmək məqsədi ilə onun bazar siyasətini müəyyən etməyə yönəlmiş müəssisənin təşkili və idarə edilməsinin ayrılmaz sistemi kimi marketinqin "təsir dairələri" arasında sərhədi müəyyənləşdirmək olar.

Xarici səmərəliliyin artırılması istehlakçıları lazımi mal və xidmətlərlə təmin etməklə bazar tələblərinin vaxtında ödənilməsində özünü göstərməlidir.

Daxili səmərəliliyin artırılması aşağı xərclə yüksək keyfiyyətli mal və xidmətlər istehsal etmək üçün təşkilatın daxili imkanlarından optimal istifadədir.Qeyd edilənlər onu göstərir ki, menecment sahəsində mövcud çatışmazlıqların aradan qaldırılması müəssisələrin iqtisadi potensialını daha dolğun üzə çıxarmağa, məhsulların keyfiyyətini və rəqabət qabiliyyətini artırmağa imkan verirr. Bu baxımdan müasir menecment nəzəriyyələri və təcrübəsi xüsusi əhəmiyyət kəsb edir, çünki bazar şəraitində fəaliyyət göstərən hər bir müəssisə dünya idarəetmə təcrübəsindən istifadə etməlidir. Bu isə həmin müəssisələrin dünya bazarlarına çıxış ehtiyacını müəyyən edir.

IMPACT OF COVID 19 ON SUSTAINABLE DEVELOPMENT GOALS (SDGs)

Mehdiyev K.M.
The Academy of Public Administration under the President of the Republic of Azerbaijan
E-mail: Kamran.mehdiyev@gokbora.com

Introduction . COVID 19 has been designated a pandemic by the World Health Organization (WHO) for the first time on March 11, 2021. COVID19 has had a far-reaching influence on society, community life, and family well-being, altering people's lives all over the world. For the first time in the 30 years since it was recorded, the Human Development Index (HDI) is expected to see a "rapid and unprecedented decrease" in 2020. However, considerable inequity persists in the medium- to long-term recovery prospects, and novel coronavirus genotypes pose a threat2. The following are some of the ways that the COVID 19 pandemic may have a medium- to long-term socio-economic impact on some countries: It is acknowledged that it is not yet flawless. UNDP, in collaboration with the Government and the United Nations system for its socio-economic response to COVID 19, "By 2030, it will assist decision-makers in making judgments and managing complexity and ambiguity." Through analysis, future modeling lets policymakers to analyze potential recovery trajectories from COVID 19. In certain circumstances, the effect of a pandemic can have a significant impact on critical development outcomes. Scenario analysis equips policymakers to grasp the medium- to long-term consequences of a pandemic (or the future of alternatives) and to plan and implement thorough recovery measures. COVID 19 may be transformed from a short-term problem to a long-term transformational opportunity for sustainable development using this sort of study. The Human Development Index (HDI) 6 is a comprehensive assessment of national health, education, and living standards that may be used to analyze the hazards that COVID 19 poses to public health to a happy life. Pandemic-related school closures or poor remote learning boosted the effective out-of-school rate of primary education to 86 percent in upper grades and 74 percent in lower grades, according to an analysis in the Human Development Report (2020) 7. increase. Each nation with a medium level of development has a high level of human development, compared to 20% of countries with a very high level of development. Due to the blockades and other mitigations enforced, low- and middle-developed nations are also losing money and livelihoods. Simultaneously, policy space (financial and financial instruments) to cope with the pandemic's economic consequences is restricted. Compared to 96 percent of nations with extremely high human development (equal to 4.9 percent of GDP), 73 percent and 78 percent of countries with low and moderate human development (equivalent to just 1 percent of GDP) have declared programs. respectively. %). Average GDP).

COVID 19's influence on countries with low and moderate human development. The COVID 19 Pandemic has the potential to have a devastating impact on the human development index, which includes three dimensions: health, education, and living standards, as well as social and economic consequences. Virus and Containment Guidelines by Month and Year According to UNICEF, more than 16.8 million children lose their entire education due to COVID19-Lockdowns, while more than 800 million children lose their education due to COVID19-Lockdowns across the world. It was considerably affected, as indicated. The year's average Exposure to a tenfold increase in global growth According to the IMF, GDP in 2021 will have fallen by 6.5 percent points, compared to the 6.5 percent benefit projected. Our research is based on pandemics in low- and medium-income nations, with human development ranging from 20 to 169 million people living in extreme poverty, including 83 million women and women. It's possible that it's between persons. Poverty in its most severe form The country in the Low Human Development Group has an estimated population of 24 to 86 million people. In the "COVID based" and "high damage scenarios," the overall number of people living in extreme poverty in low- and middle-income nations rises to almost 753 million. In comparison to the world without COVID, COVID19 has the potential to raise the number of people suffering from hunger in this group of nations by 1280 million by 2030. In the "high damage" scenario, the number of malnourished children would rise by 1.6 million to 57.5 million by 2030, and thereafter to over 60.5 million.

Benefits of an 'SDG Push' for low human development countries. The United Nations 2019 Global Sustainable Development Report is a short-term step toward long-term sustainability goals using tools of change in human behavior, business and finance, governance, science and technology, and science and technology. This study provides short-term fast wins that can motivate investment in behavioral and institutional reforms needed to accomplish the SDGs in the long run, with complete green growth at the forefront of the "SDG push" scenario. Finally, the "SDG Push" scenario simulates the possible progressive

impact of an integrated package of comprehensive green growth initiatives. Through the SDG drive, severe poverty will be reduced by 5% in countries with low human development by 2030, and by an average of 2.5 percent in nations with moderate human development.

Summary and conclusions. Much has been learnt about SARSCoV2, the virus that causes COVID19, its biology, and its impact on people and society a year after the pandemic was announced. However, there is still a lot of ambiguity and unknowns. In the first year, the virus proved disappointing, and researchers continued to be perplexed. COVID19 has shown to be adept at exploiting society's systemic faults and weakest ties. Without a doubt, industrialized countries with the greatest medical systems in the world are losing a lot of people. Developing nations with poor health facilities, on the other hand, were spared the dreaded invasion. Even still, the ensuing economic disaster might be far worse than the virus itself. COVID19, far from being a "great leveler," exacerbates existing inequalities and worsens the misery of the poorest societies in jeopardy Even with growing anticipation that effective vaccines and treatment alternatives will be available, access to them is uneven between countries. Fresh strains of some of the pandemic's more infectious and deadly viruses have sparked a new wave of infection, wreaking havoc on more challenging nations that had previously appeared to have escaped the epidemic unscathed. The COVID19 pandemic road is one year long. The majority of adults in many human-development nations are affected, however this is not the case in many lowlands and medium-sized human-development countries. COVID19 Pandem has continued to improve human development, including tax base for nations that COVID19 does not effect social contacts, but rather the mobility of sightseeing and product, despite the lack of a defined recovery strategy. the department of economics Due to the fact that the crystal ball is offered in the future, The sorts of modeling and scenario analysis used in this research are connected to the objective of identifying urgent steps to assess the challenge's complexity. Intervene with decision-makers in politics to collect associated political responses. The worst outcomes, as well as the chance to modify societal and planetary developments for the better. This second flagship report on the impact of SDGS's COVID19 is linked to a roadmap for investing in social and economic recovery through integrated guidelines that support defined and long-term development. The paper analyzes the potential advantages of a large-scale "SDG push." This is a complete green growth strategy package that includes enhanced governance, digital disruption, green economy, social protection initiatives, and pandemic human health.development in low and medium countries. Reverse the progress of countries' sustainable development. The influence varies depending on the group. Reduced poverty rates are expected to help nations with low human development significantly more than countries with moderate human development. Despite the obstacles, progress on several SDG objectives for poverty, nutrition, health, education, water, and sanitation is being made. Many nations may not be able to reach some of the SDG targets by 2030, but with focused integrated measures on the 2030 Agenda in COVID 19 recovery efforts, as modelled by the "SDG Push" scenario. You can come closer to your objectives with a new emphasis. It was in their developmental pipeline prior to COVID19, resulting in a major improvement in human development outcomes in their huge populations.

SATIŞ SAHƏSİNDƏ İNFORMASİYA TELEKOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

Mehdiyeva R.N.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: mehdiyevaresmiyye96@gmail.com

İnternet (ing. Internet) informasiyanın saxlanması və ötürülməsi üçün bir-biri ilə əlaqəli kompüter şəbəkələrinin ümumdünya sistemidir. Tez-tez Ümumdünya şəbəkəsi və Qlobal şəbəkə, eləcə də sadəcə şəbəkə adlandırılır. O, TCP/IP protokollarına əsaslanır. İnternet əsasında Ümumdünya Şəbəkəsi (WorldWideWeb, WWW) və bir çox başqa məlumat ötürmə sistemləri işləyir.Qısa müddət əvvəl yaranmasına baxmayaraq İnternet çətin əldə olunan və anlaşılmaz bir fenomendən həyatın bütün mümkün sahələrini əhatə edən nəhəng bir şəbəkəyə çevrildi. Müasir insan artıq öz həyatını internetsiz təsəvvür edə bilmir. Təbii ki, ticarət də bundan kənarda qalmadı. Onlayn mağazalar adlanan müxtəlif növ məhsullar satan saytlar fəal şəkildə inkişaf etməyə və geniş yayılmağa başladı. Azərbaycan Respublikasının informasiya və telekommunikasiya texnologiyalarının tətbiqi və inkişafı, elm, təhsil və mədəniyyət sahəsində ölkəni informasiya cəmiyyətinin formalaşması və inkişafı yolu ilə irəliləməsi sahəsində dövlət siyasətinin əsasları Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli 1146 nömrəli sərəncamı ilə təsdiq edilmiş

"Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" (http://www.e-qanun.az/framework/1969) ilə tənzimlənir.

İqtisadi fəaliyyət növləri üzrə	Veb səhifəsi olan müəssisələrin sayı, vahid	o cümlədən xüsusi çəkisi, faizlə:			Veb səhifəsi Azərbaycan serverlərində yerləşdirilmiş müəssisələrin sayı, vahid
		fəaliyyətdə olan müəssisələrin sayında	kompüterdən istifadə etmiş müəssisələrin sayında	internetdən istifadə etmiş müəssisələrin sayında	
Ölkə üzrə	**2 387**	**9,9**	**15,5**	**18,8**	**1 558**
o cümlədən:					
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	47	2,6	6,8	9,0	25
Mədənçıxarma sənayesi	32	10,3	19,0	20,0	12
Emal sənayesi	156	9,6	15,2	16,9	113
Elektrik enerjisi, qaz və buxar istehsalı,	24	9,8	12,1	12,2	12
Su təchizatı; tullantıların təmizlənməsi və emalı	28	9,9	12,7	14,5	15
Tikinti	171	9,2	15,9	18,4	71
Ticarət; nəqliyyat vasitələrinin təmiri	194	4,5	7,2	8,0	139
Nəqliyyat və anbar təsərrüfatı	79	10,3	16,0	17,2	43
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	55	15,7	27,8	31,1	34
İnformasiya və rabitə	149	26,1	29,2	31,7	105
Maliyyə və sığorta fəaliyyəti	414	35,7	37,0	41,1	330
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	46	7,8	16,2	18,5	20
Peşə, elmi və texniki fəaliyyət	217	14,2	21,0	25,7	128
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	98	11,4	21,8	25,3	65
Dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat	318	8,8	12,3	22,6	220
Təhsil	123	9,4	12,5	12,9	64
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	85	9,6	13,9	14,5	52
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	82	11,2	20,9	24,2	56
Digər sahələrdə xidmətlərin göstərilməsi	69	5,1	9,9	14,7	54

İnformasiya texnologiyaları (İT) sənayesi bu gün həm Azərbaycanda, həm də dünyada ən inkişaf edən sahələrdən biridir. Qlobal informasiya texnologiyaları bazarının miqyası hələ 2016-cı ildə 1,7 trilyon dollar həcmində qiymətləndirilirdi və bazar artımı ildə təxminən 5 faiz təşkil edirdi. Bu tendensiya sayəsində İT bazarı qlobal iqtisadiyyatın ən sürətlə inkişaf edən bazarlarının 25 faizinə inamla daxil olur. Cədvəldə 2020-ci ildə müxtəlif iqtisadi fəaliyyət növləri üzrə internetdə Veb-səhifəsi (Web Site, Web Page) olan müəssisələrin sayı haqqında məlumatlar verilmişdir. (https://www.stat.gov.az/source/information_society/)

Cədvəl göstərir ki, bəzi sahələrdə Veb-səhifəsi olan müəssisələrin sayı heç 50-yə çatmır, cədvəldə verilmiş bölgü üzrə isə yarıdan çoxunun sayı 100-ə çatmır. Emal sənayesində Veb-səhifəsi olan müəssisələrin sayı cəmi 156, ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində isə bu müəssisələrin sayı 194-dür. Azərbaycanda 2387 müəssisənin Veb-səhifəsi vardır ki, bunlar arasında ən böyük hissə maliyyə və sığorta fəaliyyəti ilə məşğul 414 müəssisənin payına düşür. İnternetə çıxış olan müəssisələrin kompüterdən istifadə etmiş müəssisələrin sayında xüsusi çəkisi, faizlə;

Bu gün digər ənənəvi satış variantlarını sıxışdıraraq ən sürətli böyüyən yolu onlayn mağazadır. Bunun çoxlu üstünlükləri vardır: tələb olunan başlanğıc kapitalın az olması, həyata keçirilməsinin nisbətən sadə olması, ticarət zallarına və çoxsaylı işçi heyətinə ehtiyac yoxdur. Müasir texnologiyalar məhsul haqqında getdikcə daha çox real fikir formalaşdırmağa və malların qısa müddətdə (hətta sifariş günü) çatdırılmasına imkan verir. Buna görə də, növbəti bölmədə bu mövzu haqqında daha geniş məlumat veriləcək.

TOPDAN VƏ PƏRAKƏNDƏ SATIŞ ÜSULLARI

Mehdiyeva R.N.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: mehdiyevaresmiyye96@gmail.com

Ticarət əmtəə və maddi dəyərlərin mübadiləsidir. Ticarət əmək bölgüsünün meydana çıxdığı ilk dövrlərdə yaranıb və daş dövründən bəri məlumdur. Ticarətin mahiyyəti malların mübadiləsi təklifindən, qeyri-maddi və ya əmtəə və maddi dəyərlərin satışından ibarətdir. Cəmiyyətin tarixi inkişafının əsasını təşkil edən amillərindən biri də məhz ticarətdir.

Müasir dövrdə ticarəti topdan və pərakəndə ticarət olmaqla iki qrupa bölünür və hər bir variantın özünəməxsus parametrləri vardır.

Topdan satışın ən geniş yayılmış üsulları bunlardır: şəxsi seçimlə satış; yazılı, telefon, internet-ərizələri və digər telekommunikasiya vasitələri ilə; səyyar anbarlar və səyyar əmtəəşünaslar vasitəsilə;

istehlak mallarının nümunələrinin nümayiş olunduğu səyyar otaqlar vasitəsilə.

Yuxarıda qeyd olunan üsulları daha geniş analiz edək.

Bir qayd olaraq mürəkkəb çeşidə malik istehlak mallarının satışı zamanı şəxsi seçimlə satış üsulu tətbiq olunur. Malların seçimi malların nümunələrinin nümayiş olunduğu salonlarında baş verir. Bu satış formatında müştəri birbaşa baxaraq və toxunaraq malların çeşidi ilə şəxsən tanış olmaq imkanı əldə edir. Bu formatdan ən çox trikotaj və geyim mallarının, parçaların, baş geyimlərinin, böyük miqdarda digər ərzaq və qeyri-ərzaq mallarının satışı zamanı istifadə olunur. Yerə qənaət etmək üçün iri qabaritli və yaxşı tanınmış mallar bir qayda olaraq sərgilənmir. Onlar haqqında məlumatları kataloqlardan və siyahılardan əldə etmək olar. Bəzən mallarla tanışlıq birbaşa anbarda baş verir ki, bu da anbarın normal iş rejimini ciddi şəkildə pozur.

Telekommunikasiya vasitələri ilə satış mallara şəxsən toxunmağın mümkün olmadığı və ya buna ehtiyac olmadığı hallarda həyata keçirilir. Bu üsul pərakəndə satış məntəqələrində mərkəzləşdirilmiş çatdırılma şəbəkəsinin mövcud olduğu zaman çox əlverişlidir.

Səyyar anbarlar qapalı avtofurqonlar əsasında təşkil edilir və uzaq məsafələrdə yerləşən pərakəndə ticarət müəssisələrini lazımi mallarla təmin etmək üçün istifadə olunur. Bu isə pərakəndə satış müəssisələrinin işçilərini anbarlara baş çəkməkdən azad edir. Avtofurqonlarda lazım olan sayda və çeşiddə mallar olur. Əmtəəşünaslar pərakəndə satış müəssisələrinin çeşidlərini təhlil edir, həmin müəssisələrdə çatışmayan malları müəyyən edir və lazım gəldikdə çatışmayan malları təmin edirlər.

Səyyar otaqlar vasitəsi ilə satış səyyar anbarlara çox bənzəyir. Bunlar arasındakı fərq çeşidlərin sayı ilə bağlıdır. Satış mövcud olan çeşidlərin nümayiş etdirilərək məsləhətləşmələrin aparılması və gələcək tədarüklər üçün müraciətlərin qeydiyyatı yolu ilə həyata keçirilir.

Pərakəndə ticarətdə özünə xidmət geniş yayılmışdır və satışlar aşağıdakı yollarla həyata keçirilir: piştaxta vasitəsilə; ticarət nümunələrinə görə; açıq vitrin ilə; əvvəlcədən sifarişlə; məsafədən.

Piştaxta vasitəsilə satış zamanı satıcının vəzifələri aşağıdakılardan ibarətdir: alıcını qarşılayaraq onun niyyətini öyrənmək, malları nümayiş etdirmək və alıcıda maraq oyatmaq, malların seçimi zamanı məsləhət vermək və kömək etmək, yeni məhsulları və ona aid əlavə məhsulları nümayiş etdirmək, texnoloji əməliyyatları (kəsmək, ölçmək, çəkmək və s.) yerinə yetirmək, malların qablaşdırılaraq təslim edilməsi.

Nümunələr üzrə satış zamanı nümunələr xüsusi ticarət zallarında (show room) nümayiş etdirilir, alıcılar ya özləri birbaşa ya da satış köməkçisinin köməkliyi ilə mallarla tanış olurlar. Alıcı lazım olan malı müəyyən edərək ödəniş etdikdən sonra satıcı seçilmiş nümunələrə uyğun malı müştəriyə təhvil verir. Bu satış üsulunun üstünlüyü ondan ibarətdir ki, anbarın ticarət zalından kənarda yerləşməsi kiçik bir ərazidə çox geniş çeşiddə malların nümayiş etdirilməsinə imkan verir. Bir qayda olaraq, bu üsul texniki cəhətdən mürəkkəb və böyük qabaritli malların satışı zamanı istifadə olunur. Çox vaxt bu şəkildə mebel, kompüter texnikası, ofis avadanlığı, televizor və s. satılır. Çox vaxt satış zamanı texnoloji əməliyyatları yerinə yetirmək lazımdır, məsələn, ölçmə, kəsmə və s.

Açıq vitrin vasitəsilə satış zamanı mallar vitrin üzərində düzülür. Bu satış növündə alıcı satıcının köməyinə ehtiyac duymadan malları götürüb baxa bilər, almağı qərarlaşdırdıqdan sonra malı götürüb pulu ilə birlikdə satıcıya (kassaya) yaxınlaşır. Bu satış növü ticarət dövriyyəsini piştaxta vasitəsilə satışla müqayisədə 2-3 dəfə artırmağa imkan verir. Bu onunla bağlıdır ki, alıcının vaxt ilə bağlı məhdudiyyəti və satıcı ilə əlaqəsi yoxdur, malların çeşidlərini daha diqqətlə qiymətləndirərək bütün müsbət və mənfi cəhətləri ölçdükdən sonra ən ağıllı və adekvat seçim etmək imkanına malikdir. Bu satış növündə əsas malların düzgün tədarükü və yeridir. Böyük ölçülü üst geyimlərini satan zaman bu paltarlar bir və iki mərtəbəli statik və ya fırlanan asılqanlardan asılır və mallara baxmağa mane ola biləcək hər şey kənarlaşdırılır - kəndirlər, piştaxtalar, tumbalar və s. Bir qayda olaraq, satış qiymətindən asılı olmayaraq geyimlər ölçü və hündürlüyə görə qruplaşdırılır. Satıcının vəzifəsi alıcıya məsləhət vermək və malı kassir-nəzarətçiyə təhvil verməkdən ibarətdir. Kassir çeki çıxarır, ödənişi qəbul edir və malı qablaşdırır. Dəftərxana ləvazimatları, corab məmulatları, alt paltarları, xırda qalanteriya məmulatları, məişət və digər malların satışı zamanı malların növündən asılı olaraq müxtəlif ölçülü şüşə hücrələri olan xüsusi açıq mağaza vitrinləri quraşdırılır.

Öncədən sifariş yolu ilə satış lazım olan malların alınmasına sərf olunan vaxtın böyük bir hissəsinə qənaət etməyə imkan verir. Bu yolla ən çox qida məhsulları və mürəkkəb çeşiddə qeyri-ərzaq məhsulları satılır. Sifariş müştərinin evində və ya iş yerində, mağazada isə telefonla və ya internet vasitəsilə həyata keçirilə bilər. Sifariş yazılı və ya şifahi formada ola bilər. Sifariş olunan malların dəyərinin ödənilməsi mağazada əvvəlcədən ödəmə, bank və ya poçt köçürmələri yolu ilə, eləcə də malların qəbulu zamanı nağd şəkildə həyata keçirilə bilər.

Tamamilə məsafədən satış vasitələrinə kataloqlar, telemağaza və internet daxildir.

Kataloq üzrə satışlar digərlərindən ucuzluğu ilə fərqlənir. Bu usulun kifayət qədər çatışmazlıqları var - bunlar malların çatdırılması üçün uzun müddət tələb olunması, obyektiv qiymətləndirmənin mümkünsüzlüyü və mallardan razı qalmadıqda onların dəyişdirilməsinin çətinliyidir.

Özünə xidmət ticarətin çox inkişaf etmiş üsuludur. Bu üsulda müştərilərə sərbəst şəkildə mallarla tanış olmaq imkanı verilir (baxmaq, toxunmaq, geyinib baxmaq - məsələn paltarı və s.). Bu satış üsulu sayəsində xidmət göstərilən alıcıların sayının artmasına baxmayaraq xidmət personalının sayını azaltmaq mümkündür. Bu satış üsulunda satıcı-məsləhətçi müştəriləri maraqlandıran malları haradan tapa biləcəklərini bildirməli və ya həmin malları özünün gətirə biləcəyini təklif etməli, malları öz yerlərinə qoymalı, mağazanın fəaliyyəti, endirimlər və digər nüanslar barədə məsləhətlər verməlidir. Bu satış üsulunda digər formatlardan fərqli olaraq bir satıcı eyni vaxtda bir neçə müştəriyə xidmət göstərə bilər.

Telemağaza məhsulun eyni vaxtda çox sayda insana - nəzəri olaraq, planetin bütün əhalisinə geniş şəkildə təqdim edilə bilməsi və məhsulun bütün üstünlüklərini tamaşaçılara çatdırmaq üçün geniş imkanlara malik olması ilə müsbət xarakterizə olunur. Ancaq bu cür satışları digərlərindən fərqləndirən çox güclü psixoloji təzyiq və məcburiyyət olduğu üçün tamaşaçıları bu şəkildə maraqlandırmağın çətin olmasıdır. Kataloqlar vasitəsilə satışlarda olduğu kimi, televiziya proqramları vasitəsilə satışlarda da çatdırılma müddəti uzundur və dəyişdirilməsi çətindir.

Bu gün digər ənənəvi satış variantlarını sıxışdıraraq ən sürətli böyüyən yolu onlayn mağazadır. Bunun çoxlu üstünlükləri vardır: tələb olunan başlanğıc kapitalın az olması, həyata keçirilməsinin nisbətən sadə olması, ticarət zallarına və çoxsaylı işçi heyətinə ehtiyac yoxdur. Müasir texnologiyalar məhsul haqqında getdikcə daha çox real fikir formalaşdırmağa və malların qısa müddətdə (hətta sifariş günü) çatdırılmasına imkan verir. Buna görə də, növbəti bölmədə bu mövzu haqqında daha geniş məlumat veriləcək.

AZƏRBAYCAN REGİONLARINDA İNVESTİSİYA QOYULUŞLARININ MÜASİR PROBLEMLƏRİ

Mehrəliyev Z.Q.
Lənkəran Dövlət Universiteti
E-mail: zekamehraliyev2@gmail.com

"İnvestisiya fəaliyyəti haqqında" Qanunda qeyd olunur ki, "İnvestisiya-gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. İnvestisiya ölkədə çəkilən xərclərin əhəmiyyətli dəyişən hissəsidir. Qeyd etmək lazımdır ki, investisiya həm fiziki, həm də insan kapitalının yaranması prosesində baş verir. Bu istiqamətdə investisiya ölkədə kapital yığımına gətirib çıxarır ki, bu da ölkənin istehsal imkanlarının artması hesabına məhsul və xidmətlər buraxılışını artırır.Azərbaycan müstəqillik əldə etdikdən sonra neft sektoruna qoyulan xarici investisiya qoyuluşları Azərbaycan iqtisadiyyatının təməli hesab olunur. Bundan sonrakı dövrlərdə artıq Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün neftdən gələn gəlirlər bu sahəyə yönəldilmiş və bu sahədə investisiya qoyuluşları əsas proritetə çevrilmişdir.

Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələrindən hesab edilir. Beynəlxalq maliyyə institutları bu sahələr arasındakı kənd təsərrüfatının və turizmin əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, ölkənin məşğul əhalisinin 44 faizə yaxını məhz kənd təsərrüfatında çalışır. Bu səbəbdən ölkədə kənd təsərrüfatının inkişafına yönələn ardıcıl dövlət proqramları, islahatlar və yeni texnologiyaların cəlb edilməsi həyata keçirilməkdədir. Kənd təsərrüfatına qoyulan investisiyalara dünya bankı tərəfindən maliyyələşdirilən "Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Təkmilləşdirilməsi Layihəsi"- ni qeyd etmək olar. Kənd təsərrüfatının inkişaf etdirilməsi və bu sahədə investisiya qoyuluşlarının həcminin artırılması üçün ilk öncə süni suvarma sistemlərinin təkmilləşdirilməsi və artırılması məqsədə uyğundur.

Azərbaycan regionlarında turizmin hansı səviyyədə inkişaf etməsinə nəzər salsaq görərik ki, burada mehmanxanalar, istirahət zonaları, əyləncə və idman mərkəzləri fəaliyyət göstərir. Bunlara misal olaraq, Qafqaz mehmanxanalar şəbəkəsini, Qəbələ şəhərindəki Gabaland attraksionlar parkını, "Tufandağ" qış turizm kompleksini, Qusar rayonundakı möhtəşəm "Şahdağ" turizm mərkəzini göstərmək olar. Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"nın tələbləri çərçivəsində hesabat dövrü ərzində Quba, Şamaxı, Şəki, Lənkəran, Gəncə, Zaqatala, Xaçmaz və Naxçıvan turizm informasiya mərkəzləri fəaliyyətə

başlamışdır. Turizm informasiya mərkəzləri tərəfindən Bakıya və regionlara gəlmiş qonaqlara və turistlərə ekskursiya, nəqliyyat, bələdçilik və digər turizm xidmətləri göstərilir. Azərbaycanda turizm sektoruna investisiya qoyuluşlarının artırılması və xarici investorların cəlb edilməsi üçün ilk öncə regionlarda olan turizm obyektlərinin dünya səviyyəsində tanıdılması və bu obyektlərin "airbnb.com" kimi saytlarda yerləşdirilməsi həm investorların həm də turistlərin marağını cəlb edəcəkdir.

İnformasiya texnologiyalarının inkişafında əsas yeri internet resursları tutur və Azərbaycan regionlarının internet şəbəkəsinə çıxışa 40-a yaxın internet xidməti təminatçısı (İXT) olmasına baxmayaraq, faktiki olaraq, evlərə bütün simli şəbəkə xidmətinin sonuncu milinə iki sabit xətt operatoru ("Aztelekom"MMC və BTR MMC) nəzarət edir. Bunu nəzərə alaraq İXT-lər onlarla müqavilə bağlamalıdır. Bunun nəticəsidir ki, Speedtest.net saytında hər ay "Global Median Speeds" adlı reytinq cədvəli dərc olunur fevral ayı üçün olan siyahıda Azərbaycan 122-ci pillədə qərarlaşıb. Bu problemin aradan qaldırılması üçün ölkə ərazisində yeni provayderlər yaradılmalı və bu sahəyə investisiya qoyuluşları artırılmalıdır. Bundan başqa Azərbaycanda süni intellektin inkişafı üçün də müxtəlif tədbirlər planı həyata keçirilsədə bu sahənin inkişafında hələki müəyyən çatışmamazlıqlar mövcuddur. Bu sahənin inkişafını təmin etmək məqsədilə ilk öncə təhsildə bu sahəyə diqqət yetirilməli, Azərbaycanda bu sahənin inkişaf etdirilməsi biləvasitə dövlətin həyata keçirdiyi siyasətə daxil edilməli və bunun gedişinə nəzarət edilməlidir.

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

Məmmədli L.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: mmmdovalale74@gmail.com

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (statement of cash flows) - hesabat dövrü ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin daxilolması və (və ya) xaricolmasını özündə əks etdirir. Bu hesabatın hazırlanmasında əsas məqsəd – istifadəçiləri hesabat dövrü ərzində müəssisənin pul vəsaitlərinin hərəkəti barədə məlumatla təmin etməkdir

Təhlilçilər üçün bu hesabatın əsas önəmi ondan ibarətdir ki, bu hesabat müəssisənin qısa və uzun müddətli borclarını ödəmə qabiliyyətinin nə yerdə olduğundan xəbər verir. Yəni, müəssisənin borclarını qarşılaya bilməsi üçün əlində kifayət qədər nağd vəsaiti varmı.

U.S. GAAP üzrə təsnifləşdirmə

Mədaxil	*Məxaric*
Əməliyyat fəaliyyətləri	
Müştərilərdən daxilolmalar	İşçilərə və satıcılara edilən ödənişlər
Faiz və dividendlərdən gəlirlər	Digər xərclər üzrə ödənilmiş vəsait
Qiymətli kağızların satışından gələn gəlirlər	Qiymətli kağızların alınması
	Faiz xərcləri
	Vergi
İnvestisiya fəaliyyətləri	
Uzun müddətli aktivlərin satışından gələn gəlirlər	Uzun müddətli aktivlərin əldə edilməsi
Verilmiş kreditlərin ana məbləği üzrə ödənişlər	Kredit verilməsi
Maliyyə fəaliyyətləri	
Alınmış borc vəsait	Verilmiş borc vəsait
Səhmlərin emissiyasından gələn vəsait	Səhmlərin yenidən əldə edilməsi üçün ödənən vəsait
	Səhmdarlara verilmiş dividentlər

Maliyyə hesabatlarının hazırlanması mərhələləri aşağıdakılardır: əməliyyatın ilkin sənədləşdirilməsi; əməliyyat jurnalına qeyd olunması; baş kitabda qeydiyyatın aparılması; sınaq balansının (dövriyyə cədvəlinin hazırlanması); mənfəət və zərərlər haqqında hesabatın hazırlanması; kapitalda dəyişikliklər haqqında hesabatın hazırlanması; maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması (balans hesabatının hazırlanması); pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması; maliyyə hesabatlarının izahlı qeydlərinin hazırlanması;

Göründüyü kimi pul vəsaitlərinin hərəkəti haqqında hesabat bu sadaladığımız mərhələlərdən sonra hazırlanır. Pul vəsaitləri onların hərəkəti haqqında məlumatlar uçot prosesinin son mərhələsində əsaslandırılır və ayrıca hesabatda əks etdirilir. Bu hesabatın aparılmasının əhəmiyyəti onunla izah edilir ki,

onun köməyilə auditorlar, investorlar, banklar müəssisənin hansı mənbədən maliyyələşməsini aydınlaşdıra bilirlər. Bu hesabatın məlumatları əsasında kommersiya müəssisənin özünün xüsusi vəsaitləri hesabına yaxud borc vəsaitləri hesabına maliyyələşdiyini aydınlaşdırmaq mümkün olur.

Pul vəsaitləri və onların ekvivalentlərinin uçotu Hesablar Planının 22-ci maddəsində əks etdirilir. Və bu maddə mühasibat uçotu subyektinin malik olduğu pul vəsaitləri və onların ekvivalentləri barədə məlumatları ümumiləşdirmək üçün nəzərdə tutulmuşdur.

221 nömrəli – Kassa; 222 nömrəli – Yolda olan pul köçürmələri; 223 nömrəli Bank hesablaşma hesabları; 224 nömrəli- Tələblərə əsasən açılan digər bank hesabları; 225 nömrəli Pul vəsaitlərinin;

İndi isə bu hesabları ayrı-ayrılıqda aydınlıq gətirək. Kassa əməliyyatlarının sənədləşdirilməsi və uçotu mövcud pul vəsaitinin saxlanılması və onun köməyilə hesablanmasının hər bir müəssisədə, təşkilatda yaxud idarədə kassa yaradılır. Kassa əməliyyatları xəzinədar tərəfindən həyata keçirilir. Bunun üçün isə işə götürülərkən onunla tam fərdi məsuliyyət haqqında müqavilə bağlanılır. Kassa əməliyyatları zamanı pulun kassadan mədaxili və məxarici baş verir. Ümumiyyətlə bu haqda çox ətraflı danışmaq olar çünki, geniş mövzudu.222 nömrəli hesab isə mühasibat uçotu subyektinin bank hesablarında milli və xarici valyutada olan pul vəsaitlərinin mövcudluğu və hərəkəti haqqında ümumiləşdirilmiş məlumatlar əksini tapır.

224 nömrəli hesabda mühasibat uçotu subyektinin fəaliyyəti ilə bağlı hesabına daxil olan eyni zamanda müəyyən şərtlər daxilində əldə olunması mümkün olan milli və xarici valyutada pul vəsaitlərinin mövcudluğu və hərəkəti haqqında ümumi məlumatlar göstərilir.

Pul vəsaitlərinin ekvivalentləri hesabında qısa ödəniş müddətinə malik olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin dəyişməsi kimi çox az miqdarda riskə məruz qalan yüksək likvidli qoyuluşların mövcudluğu və hərəkəti haqqında ümumiləşdirilmiş məlumatları əks etdirir.

Beynəlxalq standartlara görə pul vəsaitlərinin hərəkəti haqqında hesabat 3 sahə üzrə nağd pul qalığını özündə cəmləşdirir: əməliyyat fəaliyyəti üzrə cashflow; investiya fəaliyyəti; maliyyə fəaliyyəti.

Azərbaycanda bank qanunvericiliyinə uyğun olaraq müəssisələrin banklarda cari hesablarda xarici valyuta ilə depozit saxlamaq hüququ vardır. İnflyasiyanın təzyiqi altında depozit pullarının artıb- azalması halları mümkündür. Bəzi müəssisələr uçot dərəcələrinin dəyişməsini nəzərə alaraq sərbəst pulları dollarla depozitdə saxlanmasına üstünlük verirlər.

AZƏRBAYCAN RESPUBLİKASINDA FƏALİYYƏT GÖSTƏRƏN KOMMERSİYA BANKLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Məmmədli N.E.
Bakı Biznes Universiteti
E-mail :narmin93595@gmail.com

Kommersiya bankı, geniş ictimaiyyət üçün pul yatırmaq və geri çəkmək, investisiya üçün kredit vermək və bu kimi digər fəaliyyətləri həyata keçirən bir növ maliyyə təşkilatıdır. Bu banklar mənfəət əldə edən təşkilatlardır və yalnız qazanc əldə etmək üçün bizneslə məşğul olurlar.

Kommersiya bankının iki əsas xüsusiyyəti borc vermək və borc almaqdır. Bank əmanətləri alır və faiz (mənfəət) qazanmaq üçün müxtəlif layihələrə pul verir. Bir bankın əmanətçilərə təklif etdiyi faiz dərəcəsi borc dərəcəsi, bir bankın borc verdiyi faiz isə kredit faizi olaraq bilinir. Müştəri depozitləri banklara bu kreditləri vermək üçün kapital verir. Adətən kommersiya kreditləri verən və əməliyyatlarla əmanət verən təşkilatlar olaraq təyin olunur. Bir çox başqa aktiv və öhdəlik növləri də var və maliyyə zəmanətləri (kredit öhdəlikləri kimi) və törəmələr də daxil olmaqla balansdankənar fəaliyyətlərlə məşğul ola bilərlər. Bu fəaliyyətlər ən böyük kommersiya banklarında cəmləşmişdir. Kommersiya bankları yüksək səviyyədə tənzimlənir.

Ödənişlər isə məhsul haqqına görə dəyişir, hesab haqqı (aylıq texniki xidmət haqqı, minimum qalıq haqqı, overdraft haqqı, qeyri-kafi vəsait (NSF) xərcləri), seyf kassası haqqı və gec ödənişlər. Bir çox kredit məhsullarında faiz ödənişlərinə əlavə olaraq ödənişlər də var. Banklar da digər müştərilərə borc verməklə qazandıqları faizdən pul qazanırlar. Borc verdikləri vəsait müştərilərin əmanətlərindən gəlir. Ancaq bankın borc aldıqları pula verdiyi faiz, verdikləri pulun faizindən aşağıdır.

Texnologiyanın yüksəlməsi ilə əksər banklar müştərilərinə köçürmələr, depozitlər və hesab ödəmələri də daxil olmaqla şəxsən edə biləcəkləri eyni xidmətlərin əksəriyyətini onlayn olaraq etməyə imkan verir.

O cümlədən, banklarda maliyyə sisteminin əsasını güclü və dayanıqlı maliyyə sabitliyi təşkil edir. Başqa sözlə desək, maliyyə sistemini yaradan alətlər, bazarlar və qurumların birgə çalışması vəziyyətidir.

Mərkəzi Bank maliyyə sabitliyinin təmin edilməsi məqsədi ilə bəzi imtinaedilməz tədbirlər planı hazırlamışdır. Bu məqsədlə Mərkəzi Bank:

- Maliyyə sabitliyinə istiqamətli risk yarada biləcək proseslərin təsbitinə, təqibinə uyğun tədbirlər alınmasına,
- Maliyyə sabitliyi baxımından maliyyə sektorunun və gərək duyularsa, təşkilatların fəaliyyətini izləməyə,
- O cümlədən, beynəlxalq sahədə də maliyyə sabitliyinın inkişafı ilə bağlı təqibi və ölkəmiz baxımından qiymətləndirilməsində mühüm rol oynamaqdadır.

Bank fəaliyyətini Azərbaycan Republikasında həyata keçirən kommersiya banklarından biri də Yelo Bankdır. Bank 2015-ci ildə neftin qiymətinin aşağı düşməsi və ölkədə pul devalvasiyası səbəbindən mənfi təsirə məruz qalmışdır. Bank risk artım dərəcəsini müəyyənləşdirmək üçün, hesabat tarixinin sonunda defolt riskini ilk dəfə tanınma tarixində mövcud sonuna olan risk ilə müqayisə edir. Bank kredit riskinin qiymətləndirilməsini apararkən onu hər hansısa bir səviyyədə saxlamaq üçün deyil, onun nisbi artımını müəyyən etmək üçün nəzərdən keçirir. Bu da maliyyə sabitliyinin tənzimlənməsi üçün mühüm ünsür sayılır.

Ümumiyyətcə, maliyyə sabitliyinin təmin edilməsində əsas məqsəd gələcəkdə baş verə biləcək mənfi tendensiyaların qarşısını almaqdır.

Qeyd etdiyimiz kimi kommersiya bankı, bank xidmətlərinin göstərilməsi üzrə ixtisaslaşmış bir bank növü, kredit təşkilatıdır. Bir qayda olaraq, bu banklar universaldır, həm hüquqi, həm də fiziki şəxslərə xidmət göstərir. Kommersiya banklarının yaradılmasında məqsəd mənfəət əldə etməkdir. Bankların gəliri iki əsas komponentdən ibarətdir: vəsait toplama və yerləşdirmə qiyməti ilə göstərilən xidmətlər üçün komissiya arasındakı fərq. Bundan əlavə, cərimələr və cərimələr (məsələn, verilən kreditlər üzrə ödənişlərin gecikməsinə görə) əsas deyil, əhəmiyyətli gəlir mənbəyidir. Maliyyə vəziyyətinin təhlili zamanı isə əsas metod kimi maliyyə nisbətlərinin hesablanmasından istifadə edilir.

OPTİMAL VERGİ SİSTEMİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Məmmədov E.S.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: elnur4063@gmail.com

Azərbaycanda vergi sistemi biznes mühiti üçün mümkün qədər əlverişli və uyğun olmalıdır. Müasir inkişaf tendensiyaları və qlobal çağırışlar vergi orqanlarından daha fəal vergi siyasəti aparmağı və vergi daxilolmalarını artırmağı tələb edir.Vergi islahatları ilə nağdsız ödənişlərin stimullaşdırılması, nağd ödənişlərin məhdudlaşdırılması, əmək münasibətlərinin leqallaşdırılması yolu ilə vergitutma bazasının genişlənməsini təmin etmək mümkündür.Vergi sisteminin sabitliyinin təmin edilməsi dedikdə, biznes mühiti üçün ən əlverişli vergi sisteminin formalaşdırılması ilə qarşıya qoyulan məqsədlərə nail olmaq prosesini nəzərdə tutur. Azərbaycan vergi ödəyiciləri ilə konstruktiv dialoq qurmaq, dövlət-biznes formatında tərəfdaşlıq tətbiq etmək istəyən ölkələr sırasındadır, məhz elə bu amil real inkişafın göstəricisi kimi qiymətləndirilə bilər.

Azərbaycanın vergi sisteminin müasirləşdirilməsi, inzibati idarəetmənin keyfiyyətinin yüksəldilməsi, vergi proseslərinin avtomatlaşdırılması qısa müddətdə dövlət büdcəsinə vergi ödənişlərinin həcmini xeyli artırmağa imkan verdi.Azərbaycanda əlverişli investisiya mühiti mövcuddur. Bunun nəticəsidir ki, son 10 ildə vergi ödəyicilərinin sayı daimi olaraq artmaqdadır.Getdikcə Vergilər Nazirliyi genişlənəcək vergi sisteminin inkişafı üçün informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərinin tətbiqinə daha çox diqqət ayırır. Müəssisələrin mənfəətinin artırılması vergi xidmətinin fəaliyyətini genişləndirmək üçün əlavə imkanlar yaratmaqdadır. Vergi sahəsindəki güzəştlər biznes mühitinə və vətəndaşların gəlirlərinə müsbət təsir göstərir.Azərbaycanın Vergilər Nazirliyi ölkənin şəffaf idarələrindən biri kimi xarakterizə olunur. Bundan əlavə, nazirliyi yeniliklərə açıq və sürətlə modernləşən bir qurum kimi xarakterizə etmək olar.

Şəffaflıq məsələsində elektron hökumət proqramı mühüm rol oynamışdır. Bundan əlavə, dövlət başçısı cənab İlham Əliyevin buna böyük diqqət yetirməsi proqramın icrasının səmərəliliyini daha da artırıb. Hazırda Vergilər Nazirliyinin bu istiqamətdə gördüyü işlər beynəlxalq standartlara cavab verir.

Bu gün ölkənin iqtisadi siyasətinin tərkib hissələrindən biri, məhz belə güzəştlərin verilməsidir, lakin zaman keçdikcə onların əhatə dairəsi məhdudlaşacaq. Bu gün Azərbaycanda azad iqtisadi zonalar,

texnoparklar yaradılır. Məsələn, kənd təsərrüfatı sahəsi, demək olar ki, bütün vergiləri ödəməkdən azaddır. Amma zaman keçdikcə, aqrar-sənaye kompleksi gücləndikcə bu güzəştlər aradan qaldırıla bilər. Amma bu gün bu üstünlüklərə ehtiyac var.Elektron audit sistemi (elektron audit) vergi risklərinin 90-95%-ə qədərini müəyyən edir. 2013-cü ilin yanvar ayından Vergilər Nazirliyi səyyar yoxlamaların aparılmasında elektron auditdən istifadə etməyə başlayıb. Hər bir sahə üzrə audit testləri hazırlanmışdır. Bu, vergi risklərinin 90-95%-ə qədərini müəyyən etməyə imkan verən çox effektiv bir sistemdir. Bu sistem çərçivəsində audit proseslərinin 70%-ə qədəri vergi orqanlarının aparatında həyata keçirilir. Tərəfdaşlıq müqavilələrinin bağlanması və elektron audit sistemindən istifadə Azərbaycana vergidən yayınma və saxtakarlığa qarşı səmərəli mübarizə aparmağa imkan verir. Vergi inzibatçılığı səlahiyyətli idarəetmə orqanlarının, əsasən Azərbaycan Respublikasının Vergilər Nazirliyinin və onun ərazi orqanlarının ilk növbədə vergi münasibətlərinin bütün iştirakçıları tərəfindən vergi qanunvericiliyinə əməl olunmasına nəzarətin təmin edilməsinə və həyata keçirilməsinə yönəldilmiş fəaliyyətidir. Eyni zamanda, məzmun baxımından vergi inzibatçılığına təkcə vergi orqanlarının nəzarət tədbirləri daxil deyil.

Vergi inzibatçılığının əsas elementləri aşağıdakılardır: 1. Vergi ödəyiciləri (rüsum ödəyiciləri) tərəfindən vergi qanunvericiliyinə əməl olunmasına nəzarət; 2. Vergi orqanları tərəfindən vergi qanunvericiliyinin icrasına nəzarət; 3. Nəzarət fəaliyyətinin təşkilati, metodiki və analitik təminatı.

Vergi orqanları arasında qarşılıqlı əlaqə üsulları və vergi ödəyiciləri olduqca müxtəlif ola bilər, lakin birləşdirilmiş, üç əsas növü qeyd etmək olar: inzibati məcburiyyət; tənzimlənən alternativlər; dostluq tərəfdaşlığı.Onlar arasında əlaqə və onların inkişaf miqyası həyata keçirilən vergi siyasəti və nəzarət fəaliyyətinin keyfiyyət vəziyyəti ilə müəyyən edilir.

BEYNƏLXALQ MALİYYƏ MƏRKƏZLƏRİNİN FORMALAŞMASINA VƏ İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏRİN TƏSNİFATI

Məmmədov F.Z.
Sumqayıt Dövlət Universiteti
mammadlifarid777@gmail.com

Aparıcı BMM-nin (məsələn Honq-Konq, London, Nyu-York və Tokio və s.) bir sıra ümumi xüsusiyyətləri mövcuddur. Eyni zamanda, BMM-i sistemində elə bir vəziyyət vardır ki, orada daimi lider yoxdur. Ümumiyyətlə, xarici investisiyaların həcmi maliyyə mərkəzlərində davamlı olmalıdır. Əslində milli iqtisadiyyatlarda beynəlxalq maliyyə korporasiyaların formalaşması və inkişafı ilə bağlı maliyyə və qeyri-maliyyə amillərinin ümumi təsiri altındadır.

- Maliyyə bazarları: Dünya sisteminə inteqrasiyanın ən yüksək səviyyəsi kimi, maliyyə, beynəlxalq maliyyə bazarlarına çıxış, milli müxtəlif seqmentlərin rəqabət qabiliyyətini özündə cəmləşdirir.
- Biznes mühiti və investisiya mühiti: Siyasi davamlılıq sistemləri, ardıcıl iqtisadi və marketinq siyasəti, böyük ölkələrə xarici investisiya axını və s.
- Qanunvericilik və tənzimləmə mühiti: Normativ hüquqi aktlara, hüquqi bazaya uyğunluq maliyyə bazarları sahəsində səmərəli fəaliyyət və s.
- Nəqliyyat və kommunikasiya, Sosial, innovasiya və biznes infrastrukturu: İxtisaslı kadrlar fondu, əhalinin yüksək rifah səviyyəsi, ən son texnologiyaların və xidmətlərin cəlb edilməsi və s.

Qlobal maliyyə mərkəzləri fəaliyyəti qeyri-müəyyənlik və qeyri-sabitlik şəraitində milli maliyyə sistemlərinin və milli rəqabət qabiliyyəti cari maliyyə sahələrdən biri kimi formalaşmasında dövlətlərin iqtisadi siyasəti mühim əhəmiyyət kəsb edir. Qlobal maliyyə mərkəzləri - müxtəlif ölkələrdən investisiya axını cəlb edən və dünya miqyasında kapital bazarının idarə edilməsi proseslərini həyata keçirən mərkəzlərdir. Qlobal maliyyə mərkəzlərinin klassik tərifi aşağıdakı kimidir:

-Qlobal maliyyə mərkəzləri maliyyə əməliyyatları, qiymətli kağızlar əməliyyatları, beynəlxalq valyuta, kredit və s. ilə məşğul olan eyni zamanda bankların və ixtisaslaşdırılmış kredit və maliyyə institutlarının konsentrasiya mərkəzləridir.

Ən qədim qlobal maliyyə mərkəzlərinə daxildir (London, New York, Frankfurt və s.), daha gənc (Tokio, Sinqapur, Hong Kong), inkişaf edən mərkəzlər (Şanxay, Dubay, Sao Paulo, Moskva),dəniz zonaları (Lüksemburq, Norman və Baham adaları və s.). Misal üçün Hong Kong, London, New York və Tokio kimi qabaqcıl maliyyə mərkəzlərindən istifadə edərək güclü maliyyə mərkəzləri üçün bir sıra ümumi xüsusiyyətlərini vurğulamaq olar. Çox böyük xarici sərmayə cəlb etmək üçün maliyyə mərkəzləri daima

keyfiyyət atributlarının sayını artırmalıdır. Əslində, milli iqtisadiyyatlarda BMM-nin formalaşması və inkişafına bütün maliyyə və qeyri-maliyyə amillər qrupu təsir göstərir.

Beləki,BMM-nin formalaşmasında aşağıdakı dörd əsas amil əhəmiyəti rola malikdir:

- Maliyyə bazarları: dünya maliyyə sisteminə yüksək inteqrasiya səviyyəsi, beynəlxalq maliyyə bazarlarına çıxış, milli maliyyə bazarının dərinliyi, milli maliyyə bazarının müxtəlif seqmentlərinin rəqabət qabiliyyəti və s.
- İş mühiti və investisiya mühiti: siyasi sistemin sabitliyi, ardıcıl iqtisadi və marketinq siyasəti, ölkəyə xarici sərmayələrin böyük axını və s.
- Qanunvericilik və tənzimləmə mühiti: beynəlxalq normativ hüquqi aktlara, maliyyə bazarları sahəsində səmərəli fəaliyyət üçün hüquqi baza və s.
- Sosial, nəqliyyat və rabitə, innovasiya və biznes infrastrukturu: yüksək ixtisaslı kadrların mövcudluğu , yüksək səviyyədə həyat səviyyəsi və ən yeni texnologiyaların və xidmətlərin cəlb edilməsi.

Şübhəsiz keçmişdə lider olan bəzi maliyyə mərkəzləri, indi mövcud quruluşun və inkişaf etməkdə olan canlı iştirakçıların sərt rəqabəti ilə üzləşirlər. Ümumiyyətlə maliyyə mərkəzlərinin fəaliyyətinin tərkib hissələri beş əasa komponentdən ibarətdir: maliyyə institutları; maliyyə bazarları; maliyyə alətləri (aktivlər və ya qiymətli kağızlar); maliyyə xidmətləri.; pul.Maliyyə bazarı maliyyə aktivlərinin yaradıldığı və ya köçürüldüyü yerdir. Geniş şəkildə pul bazarları və kapital bazarlarına təsnif edilə bilər. Pul bazarı qısamüddətli maliyyə aktivlərini idarə edir (bir ildən az), kapital bazarları isə ödəmə müddəti bir ildən çox olan maliyyə aktivlərinə qayğı göstərir. Əsas funksiyaları bunlardır: Kredit və likvidliyin yaradılması və ayrılmasına kömək etmək; Əmanətlərin səfərbər edilməsi üçün vasitəçi kimi xidmət edilməsi; Balanslı iqtisadi böyüməyə kömək etmək; Maddi rahatlıq təklif etmək.Maliyyə xidmətləri sektoru kredit reytinqi, vençur kapitalının maliyyələşdirilməsi, qarşılıqlı fondlar, ticari bankçılıq, depozit xidmətləri, kitab binası və s. Kimi bir sıra peşəkar xidmətlər təklif edir. Maliyyə qurumları və maliyyə bazarları maliyyə alətləri vasitəsi ilə maliyyə sisteminin işinə kömək edir.Beynəlxalq maliyyə mərkəzlərini müxtəlif kateqoriyalara bölmək olar. Məsələn, Roberts (1994) dörd fərqli növ ayırır:daxili, qlobal, regional və dəniz. Yerli maliyyə mərkəzləri müəyyən bir ölkəyə aid olaraq və müəyyən bir milli müştəriyə xidmət etmək prinsipi daşıyır.London və New York kimi qlobal maliyyə mərkəzləri həqiqətən də dünya səviyyəli müştəri xidməti göstərən beynəlxalq mərkəzlər. Regional maliyyə mərkəzləri bir bölgənin submilli bir qurumu olaraq deyil, daha çox milli olaraq təyin olunduğu regional müştərilərə xidmət edir. Nəhayət, offşor maliyyə mərkəzləri qəbul edən ölkənin maliyyə sistemindən kənarda maliyyə sahələri kimi xidmət edir və beynəlxalq fəaliyyət göstərir.

AZƏRBAYCAN RESPUBLİKASINDA İSTEHSAL OLUNAN ÜZÜM ŞƏRABLARININ İSTEHLAK XASSƏLƏRİ VƏ ONLARIN EKSPERTİZASI

Məmmədov N.E.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: natiq.mammadov.00@gmail.com

Üzüm şərablarının istehlak xassələri yalnız istismar prosesi zamanı meydana çıxır və istehlakçının tələbatını müəyyən qədər ödəmək qabiliyyətinə malik olurlar.Üzüm şərablarının istehlak xassələrinə onların xarici görünüşü,rəngi,dadı,ətir və ya buketi, şəffaflıqı, tipikliyi və s.kimi göstəricilər aid edilir.Üzüm şərablarının rənginə bir sıra amillər təsir göstərə bilir ki,bunlardan da ən əsası onların tərkibində fenol maddələrin olması ilə əlaqədardır.Üzüm şərablarının tərkibində bir sıra fenol birləşmələr mövcuddur.

Bunlara misal olaraq flavonoidlər,antosianlar,katexinlər və s. göstərə bilərik.Həmin fenol birləşmələri maserasiya prosesi müddətində meyvənin qabıq hissəsindən şirənin tərkibinə keçir və yetişmə müddəti keçdikcə şərabın özünəməxsus rəngini formalaşdırır.Şərabların rəngi ilə yanaşı onların dadı da istehlak dəyərlərinin formalaşmasında müəyyən qədər rol oynayırlar.Şərabların dadına əhəmiyyətli dərəcədə təsir göstərən bir çox amillər mövcuddur ki,bunlara nümunə olaraq onların tərkibində şəkərin miqdarı,uçucu turşuluqun miqdarı,titrlənən turşuluqun miqdarı,ümumi ekstraktın miqdarı,etil spirtinin miqdarı və s. göstərə bilərik.Üzüm şərablarının tərkibində şəkər qlükoza,saxaroza,fruktoza formasında ola bilir.Müxtəlif üzüm sortlarından aslı olaraq onların tərkibində şəkərin miqdarı fərqli ola bilir.

Quru süfrə şərablarında şəkərin miqdarı adətən 4qram/litr-dən az miqdarda olur.Kəmşirin süfrə şərablarında isə bu göstərici 35qram/litr-ə qədər yuxarı qalxa bilir.Lükör şərablarında isə ümumi şəkərin miqdarı digər şərab növləri ilə müqayisədə daha yüksək ola bilir.

Üzüm şərablarının tərkibində şəkər onların istehsalında xammal kimi istifadə olunan üzüm gilələrinə əsasən əmələ gəlir və spirtə qıcqırma prosesinin ilk mərhələsində şərabın tərkibində formalaşacaq şəkərin miqdarı əvvəlcədən nəzərə alınır.

Spirtə qıcqırma prosesi müddətində maya şirənin tərkibində olan şəkəri mənimsəyərək etil spirtini əmələ gətirir və seçilmiş mayalar təbii olaraq həyat fəaliyyətlərini dayandırdıqdan sonra spirtə qıcqırma prosesi sona çatır.Lakin bəzi istehsalçı müəssələrdə üzüm şərablarının tərkibində olan şəkər nisbətini qorumaq məqsədilə SO2 istifadə etmək vəya tempraturu aşağı səviyyəyə gətirmək kimi üsullardan istifadə oluna bilir.

Üzüm şərablarında spirtə qıcqıracaq şirənin qarşısını almaq üçün ona əlavə edilən SO2 miqdarı şirənin tərkibində olan PH miqdarına əsasən müəyyənləşdirilə bilər.Məsələn.Əgər hər hansı bir üzüm şirəsinin PH miqdarı 3.2 olarsa,ona 50mq/l SO2 əlavə olunur.Əgər PH miqdarı 3.6 olarsa,bu vaxt ona 125 mq/l əlavə etmək məsləhət görülür.SO2 kimyəvi maddəsi şirəyə düzgün miqdarda əlavə olunmadıqda müəyyən fəsadlar törədə bilər.Üzüm şirəsinin tərkibinə lazım olan miqdarda SO2 əlavə olunduqdan sonra şirə soyudulur və maya hüceyrələrini ayırmaq məqsədilə filrasiya aparatından keçirilir.Filtrasiya prosesindən sonra üzüm şirəsinə ½ çay qaşığı miqdarında potasium-sorbit maddəsi əlavə olunur və beləliklə maya hüceyrə qalıqları məhv edilməsələr də onların yenidən törəmə fəaliyyətləri məhdudlaşdırıla bilir.

Üzüm şirəsinin tərkibində spirtə qıcqırmaq prosesini dayandırmaqın başqa bir üsuluna misal olaraq şirənin tərkibinə etil spirti əlavə olunmaqı prosesini göstərə bilərik.Üzüm şirəsinin tərkibində etil spirtinin miqdarı 16%-18% yuxarı qalxdıqdan sonra maya hüceyrələri məhv olmaqa başlayır.Bu üsulun bir sıra üzüm şərabları istehsalı üçün əlverişli olmasına baxmayaraq düzgün istifadə edilmədikdə şərabın keyfiyyət göstəricilərində çatışmazlıq yaranmaqına səbəb ola bilir.Bu üsulu tətbiq etməmişdən əvvəl üzüm şirəsinin tərkibində formalaşacaq etil spirtinin miqdarı,şəkərin miqdarı müəyyənləşdirilməlidir.

Üzüm şərablarının dadının formalaşmasında mühüm rolu olan amillərdən biri də onun tərkibində olan titrlənən və uçucu turşuların miqdarıdır.Uçucu turşulara misal olaraq asetat turşusu,etil-asetat turşusu və s.göstərə bilərik.Asetat turşusu sirkə ətirli olub və üzüm şərablarının tərkibində uçucu turşuların əsasını təşkil edir.Onun üzüm şərablarının tərkibində miqdarı 1.4qr/litr-1.2 qr/litr aralıqında ola bilir.

Üzüm şərablarının tərkibində uçucu turşuluqu əmələ gətirən bakteriyalar oksigenli mühitə əsasən fəaliyyət göstərirlər və çoxalırlar.Məhz buna görə də üzüm şərablarının tərkibində uçucu turşuların miqdarını SO2 əlavə etmək və ya temraturun tənzimlənməsi kimi metodlardan istifadə edərək nəzarətdə saxlamaq mümkündür.Üzüm şərablarının tərkibində uçucu turşuların miqdarının həddindən artıq olmaqı şirənin özünəməxsus dadının azalmasına və turştəhər sirkə dadına meyl etməsinə səbəb ola bilir.Bunun qarşısını almaq üçün müxtəlif üsullardan istifadə oluna bilir.Bunlara misal olaraq Brettanomises bakteriyaların müəyyən edilməsi,kif üzüm gilələrinin təyini və s. göstərə bilərik.

Üzüm şərablarının dadına eyni zamanda ümumi ekstraktın miqdarı da təsir göstərə bilir.Üzüm şərablarının tərkibində indiyə qədər 7000 sayda müxtəlif ümumi ekstraktlı maddələrin miqdarı təyin edilmişdir və onların formalaşmasında müəyyən qədər rol oynayan amillər mövcuddur.Bu amillərə nümunə olaraq üzüm gilələrinin xüsusilə vegetasiya yetişmə müddətində qəbul etdikləri yağış sularının miqdarı,günəş şüasının miqdarı,yetişmə müddəti və s. göstərə bilərik.Üzüm gilələrinin yetişməsi müddətində ağacın budaqlarında meyvənin miqdarı nə qədər az olarsa,üzüm gilələrinin tərkibində ümumi ekstraktlı maddələrin miqdarı o qədər yüksək ola bilir.

Üzüm şərablarının yüksək səviyyədə istehlak dəyərinin formalaşmasında mühüm rolu olan amillərdən biri də onların suspenziya əmələ gətirici maddələrə qarşı şəffaf olmaqlarıdır.Üzüm şərablarının tərkibində bulantı əmələ gətirə biləcək hissəciklərə nümunə olaraq mayalar,bakteriyalar,müxtəlif metal ionları və s. göstərə bilərik.

Bu tip suspenziya əmələ gətirici maddələri üzüm şərablarının tərkibindən uzaqlaşdırmaq məqsədilə filtrasiya və təmizləmə proseslərindən istifadə oluna bilir.Xüsusilə ağ üzüm şərablarında təmizləmə prosesini həyata keçirməyin ən sadə yolu üzüm şərablarının tərkibinə kazein, albumin, jelatin, isinglass və s. maddələri əlavə etməkdən ibarətdir.Bu cür təbii proteinlər balıq,yumurta,süd və s.kimi məhsullardan əldə oluna bilir.

Üzüm şərabları özlərinə məxsus ətir və ya buketə sahib ola bilirlər.Üzüm şərablarının ətri onların istehsalında istifadə olunan üzümün sortundan və ya üzüm şirəsinin tərkibində olan uçucu birləşmələrdən (Efirlər, ketonlar, spirtlər, aldehidlər və s.) aslı olaraq fərqli ola bilir.

Üzüm şərablarının buketinin formalaşmasına isə onların istehsal prosesində baş verən maserasiya prosesi və onun növləri,spirtə qıcqırma prosesi və s. təsir göstərə bilirlər.

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ CƏHƏTDƏN ƏSASLANDIRILMIŞ ŞƏKİLDƏ YERLƏŞDİRİLMƏSİ

Məmmədova A.Ə.
Sumqayıt Dövlət Universiteti
E-mail: Aygunnmammadova.63@gmail.com

Sənaye müəsisələrinin iqtisadi cəhətdən əsaslandırılmış plana uyğun yerləşdirilməsi ölkənin resurslardan effektiv istifadəsi, səmərəsiz daşınmalara xərclərin azaldılmasına nəzarətin edilməsi, əhalinin sənaye istehsalı məhsullarına tələbatının daha dolğun şəkildə ödənilməsi üçün vacib bir amildir. Bundan başqa sənaye müəssisələrinin daha çox xammal və enerji mənbələrinə yaxın yerləşdirilməsi həmin regionun inkişafına, bununla yanaşı təbii xammal ehtiyatları və enerji mənbələri ilə zəngin olan ətraf ərazilərin də öyrənilib mənimsənilməsinə, ondan kompleks istifadəyə kömək edir. Bundan fərqli olaraq hazır məhsul istehsal edən yüngül sənaye müəssisələri isə istehlakçıya yaxın yerləşdirilir. Bu isə iqtisadi cəhətdən belə əsaslandırılır ki, hazır məhsul istehlakçıya çatdırılarkən ziyan olmasın, müəssisələr lazımsız yol xərclərindən xilas olsun. Burada əsas məqsəd istehsalın səmərəliliyini artırmaq, istehsal xərclərini azaltmaq və əmək məhsuldarlığını daha dayüksəltməkdən ibarətdir. Ölkə ərazisində müəssisələrin, istehsal qruplarının yerləşdirilməsi hər zaman elmi əsaslandırma tələb edir. Bunun üçün önəmli üsullar mövcuddur, onların köməyi ilə yerləşdirilmə variantları seçilir, istehsalın effektivliyi və təsərrüfatın ərazi təşkilinin effektivliyi qiymətləndirilir. İstehsalın yerləşdirilməsinin yüksək effektivliyinin əldə olunması elmin və təcrübənin başlıca vəzifəsidir.

Bir çox istehsalların yerləşdirilməsi üçün resurs amili həlledici rol oynayır. Müxtəlif sahələr və onların struktur bölmələri özlərinin müxtəlif göstəricilərinə görə məhsul vahidinin istehsalına göstərilən resursların xərclərini nəzərə alan enerji, material, su, əmək, kapital tutumlarını fərqləndirirlər. İstehsalın yerləşdirilməsində ekoloji amillərin rolunun gücləndirilməsi ilə əlaqədar olaraq istehsalın ətraf mühitə mənfi təsirinin azaldılmasının səviyyəsini xarakterizə edən istehsalın ekoloji tutumluluq göstəriciləri aktualdır. İstehsalın yerləşdirilməsi üçün nəqliyyat və istehlak amilləri də böyük əhəmiyyət kəsb edir. Nəqliyyat və istehlak amillərinin nəzərə alınması metodlarından biri istehsal satış zonalaşmanın və bərabər istehsal-nəqliyyat xərclərinin iqtisadi sərhədlərinin təyin edilməsidir. Elm tutumlu istehsalın yerləşdirilməsi zamanı elmi mərkəzlərin və yüksək ixtisaslı kadrların mövcudluğu, onların öyrədilməsi imkanları nəzərə alınır. Sonrakı mərhələdə müəssisələrin yerləşməsinin seçilmiş yerlərinin və istehsal həcmlərinin əsasında bir neçə mümkün inkişaf istiqamətləri hazırlanır. Sənaye müəssisələrinin yerləşdirilməsi variantlarının iqtisadi səmərəlilik meyarı yerləşdirmənin müxtəlif variantlarında məhsulun istehsalına və istehlakçılara daşınmasına çəkilən ümumi xərclərin azaldılma dərəcəsidir. Yerləşdirmə variantlarının müqayisəli iqtisadi səmərəlilik göstəriciləri investisiya qoyuluşlarının iqtisadi səmərəliliyini müəyyən edərkən tətbiq edilən göstəricilərdir. Yerləşdirmənin səmərəliliyini müəyyən etməkdə keyfiyyət təhlili olduqca önəmlidir, çünki bu zaman yerləşdirmənin həmin variantının nəticələri çox vaxt uzun müddət ərzində özünü göstərir ki, bu da səmərəliliyin kəmiyyətcə təzahür etməsini çətinləşdirir. Yerləşdirmənin ən səmərəli variantı çəkilmiş xərclərin minimuma və ya xalis cari dəyərin maksimuma bərabər olduğu variantdır. Rayonların eyni olmaması istehsal xərclərinin səviyyəsində, investisiya qoyuluşlarının həcmində, istehsal və qeyri-istehsal fondlarının məsrəfləri arasındakı nisbətdə təzahür edir. Buna görə də, hər hansı bir istehsalın yerləşdirmə variantını əsaslandırarkən ayrı-ayrı rayonların fərqlərini nəzərə almaq lazımdır. Əks halda seçilmiş yerləşdirmə rayonunun iqtisadi səmərəliliyi təhrif edilmiş olar. Yerləşdirmə variantlarının müqayisəli iqtisadi səmərəliliyini müəyyən edərkən mühüm məsələ məhsulun istehlak olunduğu yerdə onun maya dəyərinin əsasında variantların müqayisə edilməsidir. Bunun üçün variantlardan hər biri üzrə istehsal xərcləri bilavasitə müəssisədə deyil, həm də nəqliyyat xərcləri, yükvurma və yükboşaltma xərcləri, daşınılan sənaye yüklərinin saxlanması xərcləri də müəyyən edilməklə hesablanmalıdır. Nəqliyyat xərclərini müəyyən edərkən quru və su yollarının vəziyyətini, iqlim şəraitini, məhsulun istehsal məntəqəsindən istehlak məntəqəsinədək olan məsafəni və daşınma xərclərinə təsir edən başqa şərtləri nəzərə almaq lazımdır. Nəqliyyat xərclərinin kəmiyyəti nəqliyyatın texnika ilə təchizatı, mal dövriyyəsinin həcmi, sərbəst yükdaşıma vasitələrindən istifadəni nəzərə almaqla müəyyən edilir. Yerləşmə variantlarının müqayisəli səmərəliliyini hesablayarkən məhsulu istehlak edən bütün rayonlar üçün orta maya dəyərindən istifadə etmək lazımdır. Orta maya dəyəri məhsulun istehsalının maya dəyərinə, onun istehlak məntəqəsinədək daşınma maya dəyərinə, məhsul istehlakının məqsədəuyğun sərhədinə, məhsulun ümumi istehlakında ayrı-ayrı maddələrin nisbətinə əsasən hesablanır. Yerləşdirmə variantlarının iqtisadi səmərəliliyi təkcə əsas istehsal fondlarına çəkilən

məsrəflərdən deyil, həm də müəssisələrin yerləşdirilməsi şərtlərindən irəli gələrək, yaradılan qeyri-istehsal fondlarına çəkilən xərclərdən də çox asılıdır. Buna görə də qeyri-istehsal təyinatlı fondların yaradılmasına çəkilən əlavə məsrəfləri nəzərə almaq lazımdır. Bir qayda olaraq, sənaye obyektlərinin tikintisinin yerləşdirilməsi rayonun müvafiq təsərrüfatına və təbii ehtiyatlarına zərərlə müşayiət olunur. Aydındır ki, sənaye tikintisi ilə əlaqədar olan itkilər nəzərə alınmalı, onların ödənilməsinə çəkilən məsrəflər isə yerləşdirilən müəssisənin aid olduğu sahənin ümumi xərclərinə daxil edilməlidir.Sənaye müəssisəsinin yerləşmə məntəqəsini əsaslandırmaq üçün bir sıra məlumatlar vacibdir. Onun ölçüsü, profili və ixtisaslaşma xarakteri, habelə onun kombinələşmə tipi barədə məlumatlara aiddir. Bu məlumatlar yerləşdirmə rayonunu əsaslandırarkən, müəyyən vaxt ərzində həmin sahə müəssisələrinin optimal ölçü normativləri və rayonlararası kooperativləşmə nəzərə alınmaqla hesablanmış xammal, yanacaq və hazır məhsulun rayon balanslarına əsasən işlənib hazırlanır. Sənaye müəssisəsinin tikinti məntəqəsinin əsaslandırılmasında da rayon yerləşdirilməsindəki amillər nəzərə alınır. Nəqliyyat xərclərini azaltmaq məqsədilə tikinti üçün seçilən məntəqə maksimal dərəcədə xammal mənbələrinə və hazır məhsulun istehlak yerlərinə yaxınlaşdırılmalıdır. Bu zaman ayrı-ayrı xammal növlərinin və hazır məhsulun daşınıla bilinməsi - çəkisi, həcmi, taranın xarakteri və s. nəzərə alınmalıdır.Müəssisənin yerləşmə məntəqəsini seçərkən sənayenin hər bir sahəsinin özünün təqdim etdiyi hazırladığı tələbləri vardır. Məsələn, metallurgiya zavodu tikilərkən onun üçün lazım olan məntəqə seçərkən onun yaxınlığında ilkin xammalın olmasına ilk növbədə fikir vermək lazımdır. Metallurgiya zavodunun işləməsi üçün lazım olan, uzaqdan gətirilməsi sərfəli olmayan, tikinti materiallarının, odadavamlı materialların olmasına diqqət verilir. Hasiledici sənaye sahələrində müəssisənin yerləşmə yerinin seçilməsində ən mühüm problem qazıntı yataqlarının kəmiyyət və keyfiyyətini iqtisadi cəhətdən qiymətləndirilməsidir.

BİZNES SFERASINDA İŞGÜZAR MÜNASİBƏTLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Məmmədova G.N.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mali: mmdva.gl@mail.ru

Biznes sferasında işgüzar münasibətlər yalnız forma baxımından deyil, həm də məzmun səviyyəsində özünü büruzə verən dəyişikliklərlə xarakterizə olunur. İşgüzar münasibətlərin mahiyyəti xüsusi işgüzar mədəniyyətin formalaşmasını şərtləndirir. Bu baxımdan elm və texnologiyanın müasir inkişaf səviyyəsində işgüzar münasibətlərin uğurla qurulması üçün ilk növbədə birgə fəaliyyətin iştirakçıları arasında qarşılıqlı etimadın formalaşdırılmasına ehtiyac var. Bu meyarlara cavab verən davranış etimadın yaranmasına və işgüzar əlaqələrin inkişafına kömək edir. İşgüzar münasibətlərin formalaşmasında etimad nə qədər yüksək olarsa, bu əlaqələrin bir o qədər əhəmiyyətli və uzunmüddətli olduğu qaçılmazdır. Güvən sistemli səylər nəticəsində yaradılan sosial kapital kimi qəbul edilir, ona görə də potensial tərəfdaşa inamı ruhlandırmaq üçün davranışın hansı tələblərə cavab verməli olduğunu başa düşmək vacibdir. Tədqiqatlar göstərir ki, sərişte, şəxsi oxşarlıq və sadiqlik kimi amillər işgüzar münasibətlərdə inamın yaranmasına kömək edən əsas şərtlərdir. Biznes sferasında əlverişli şərtlərlə müşayət olunan iqtisadi mühitdə qarşılıqlı işgüzar fəaliyyətlə bağlı inamın yaranması və inkişafı prosesinin təhlili işgüzar davranışın tənzimlənməsinin, möhkəm münasibətlər qurmaq üçün müəyyən qayda və davranış normalarına riayət etməyin nə qədər vacib olduğunu göstərir. Bu qaydaların böyük əksəriyyəti işgüzar əlaqələrin digər iştirakçılarının maraq və ehtiyaclarının maksimum nəzərə alınmasına aiddir. Effektiv işgüzar davranışın məqsədyönlü şəkildə qurulması ilk baxışdan ciddi şərtləri özündə ehtiva etməklə, birgə fəaliyyətlərdə işgüzar münasibətlərin qurulmasının əsas prinsipini - iştirakçılar üçün daha səmərəli mövqeni təmin edən və etimadın inkişafı üçün əlverişli şərait yaradan tərəfdaşlıq perspektivlərini nəzərə almağı tələb edir. Tərəflərin maraqlarının tarazlığına riayət edilməsi peşəkar işgüzar davranış haqqında müasir fikirlərin əsasını təşkil edir.

Araşdırmalara görə, müasir işgüzar münasibətlərin əsas tendensiyaları biznes sahələrinə istiqamətlənmə meylləri ilə müşayət olunur. Müasir iş proseslərinin və münasibətlərinin qurulmasında xarici təcrübəyə istinad etmədən səmərəli nəticələr əldə etmək demək olar ki, mümkün deyil. İş dünyasında belə təcrübənin mənimsənilməsi vacib və əhəmiyyətli resurslardan biridir.

İşgüzar ünsiyyətdə iki və ya daha çox sosial-iqtisadi subyekt arasında qarşılıqlı maraqlar naminə işgüzar münasibətlərin formalaşması və inkişaf etdirilməsi nəzərdə tutulur. Beləliklə, işgüzar münasibətlərin subyektləri müəyyən statusları olmaqla zəruri göstərişləri yerinə yetirir. İşgüzar münasibətlərin məqsədi, bir qayda olaraq, iqtisadi, sosial, siyasi problemlərin həlli sahəsində birgə fəaliyyət təşkil etməkdir. Belə

ünsiyyətin mərkəzində işin maraqları, tərəfdaşın funksional vəzifələri, gözlənilən nəticə üzrə razılığın əldə olunması, bu nəticənin əldə olunmasında hər kəsin töhfəsi dayanır. Sosial-iqtisadi fəaliyyətin müxtəlif iştirakçılarının maraq və məqsədlərini əlaqələndirməyə imkan verən təmaslar işgüzar münasibətlərin əsası kimi qiymətləndirilir.

Biznes sferasında işgüzar münasibətlərin inkişafının effektivliyini yalnız məqsədlər baxımından qiymətləndirmək mümkündür. İşgüzar ünsiyyətdən danışarkən, səmərəliliyi məqsədlərə çatma dərəcəsi və ya ilkin problemin həlli ilə bağlamaq olar. Effektivlik təkcə əldə edilmiş nəticənin qiymətləndirilməsini deyil, həm də sərf olunan resursları - maliyyə resurslarını, emosional və intellektual səyləri, vaxtı və s. əhatə edir. İqtisadi səmərəlilik nəticənin xərclərə bölünməsi yolu ilə hesablanırsa, işgüzar ünsiyyətin effektivliyi üçün aşağıdakı meyarlar istifadə edilir: səmərəlilik, biznes-rabitə, nailiyyətlər, məqsədlər, maliyyə, emosional, intellektual resurslar, xərclər. Aydındır ki, belə qiymətləndirmələr subyektivdir və bu subyektivlik sürətlə dəyişən iqtisadi mühitdə az məna kəsb edən normalaşdırma üzərində uzun müddət davam edən fəaliyyət əsasında həll edilə bilər. İşgüzar münasibətlərin effektivliyinə eyni zamanda psixoloji, hüquqi, texniki, təşkilati, mədəni, sosial amillər təsir edir. Qeyd edilənlər göstərir ki, biznes sferasında işgüzar münasibətlər özünəməxsus prinsipləri ehtiva etməklə öz inkişafında aşağıdakı tendensiyaları nəzərə almağı önə çəkir: biznes fəaliyyətinin subyektlərin təkcə özü üçün deyil, həm də başqaları üçün, bütövlükdə cəmiyyət üçün faydalı olması; biznesə yaradıcı proses kimi münasibət; təkcə rəqabətə deyil, həm də əməkdaşlığa ehtiyacın nəzərə alınması; qanunvericilik çərçivəsində fəaliyyət; işgüzar münasibətlərdə qarşılıqlı maraqlara riayət etmək.

AQRAR SFERADA İNNOVASİYALAR VƏ ONLARIN TƏTBİQİNİN EFFEKTİVLİYİ

Məmmədova S.İ.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: mammadovasevindj9@gmail.com

Son dövrlərdə kənd təsərrüfatının demək olar ki, bütün fəaliyyət sahələrində innovativ texnologiyalardan geniş istifadə həyata keçirilir. Aqrar məhsulların istehsalı, saxlanması, müxtəlif məhsullara çevrilərək emal olunması, daşınması, satışını, marketinqini əhatə edən bütn sahələrdə innovativ texnologiyaların istifadəsi zəruri hala gəlib. Ümumiyyətlə innovasiya dedikdə ümumi mənada sosial, inzibat və mədəni mühitdə yeni üsulların tətbiqi, elm və texnologiyanın sosial və iqtisadi fayda verəcək şəkildə yenilənməsi prosesi nəzərdə tutulur. Deməli innovasiya bir anlayış olaraq, həm prosesləri, həm də nəticələri özündə əks etdirir.Aqrar sahələrdəki innovasiya tətbiqi demək olar ki, kənd təsərrüfatının bütün sahələrində tətbiq olunur. İnnovativ tətbiqin geniş yayılması ilə rəqəmsal texnologiyalar sisteminin formalaşmasının çox vacib istiqamətlərindən hesab edilir. Bu baxımdan isə Ağıllı Kənd təsərrüfat anlayışı meydana gəlmiş və geniş vüsət almışdır. Aqrar sferada fəaliyyət göstərən sahələrin demək olar ki, hamısı öz daxillərində mövcud olan problemləri innovasiyalar vasitəsilə həll edə bilirlər. Ağıllı kənd təsərrüfatı sistemi ağıllı maşınların istifadəsinə, məhsul isehsalı prosesində keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına, torpaq xəritələrinin hazırlanmasına, o cümlədən də, bitkiçilik və heyvandarlıq sahələrinin monitorinqinə istiqamətlənmişdir.Texnoloji parametrlərdən asılı olaraq rəqəmsal kənd təsərrüfatı sistemində innovasiyalar 2 yerə-məhsul və proses innovasiyaların bölnürlər. Məhsul ivvovasiyaları bir məhsulun ərsəyə gətirilməsi ilə, proses innovasiyaları isə təkminləşdirilmiş və yeni istehsal texnologiyalarının və üsullarının həmçinin istehsalın təşkil və idarə edilməsi isə əlaqədardır.Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, innovasiya fəaliyyəti rəqəmsal sistemin dayanıqlı inkişafının əsas tərkib hissəsidir. İnnovasiya fəaliyyətinin quruluşunu isə 4 mərhələyə ayırmaq olar: elmi tədqiqatların aparılması; innovasiyaların yayılması; istehsalda innpvasiyaların tətbiq olunması; innovasiyaların effektivliyinin qiymətləndirirlməsi.İnnovasiya fəaliyyətinin nəticələri - kənd təsərrüfatı bitkilərinin və heyvanlarının məhsuldarlığının artırılması, əmək məhsuldarlığının yüksəldilməsi, mənfəətin artması, maa dəyərinin aşağı salınması, ətraf mühitə verilən mənfi təsirlərin azalmasıdır. İnnovasiyaların tətbiqindən əldə olunan iqtisadi effekti, innovasiya fəaliyyətinin iqtisadi səmərəliliyi əks etdirir. Bu səmərəliliyin yüksəldilməsi isə aqrar istehsalatda yeni və təkminləşdirilmiş texnikaların işlənib hazırlanmasından asılıdır. Bu cür texnikların və istehsal vasitələrinin daimi olaraq təkminləşdirilməsi və inkişaf etdirilməsi isə öz növbəsində intensiv və resursa qənaət texnologiyalardan, torpaq və əmək resurslarından effektiv istifadəyə təsir göstərə bilir. Resurslara qənaət texnolgiyası vasitəsilə xərclər azaldılır və beləliklə də istehsalın diversifikasiyası baş verir. Nəticədə isə iqtisadiyyatın effektivliyinin yüksəldilməsini şərtləndirir.Kənd təsərrüfatı istehsalının innovativ inkişafı idxal səviyyəsinin

azalmasına, ixracın və daxili istehlak səviyyəsinin stabil artımına, kənd təsərrüfatı sahəsinin rəqabət qabiliyyətliliyinin və həmçinin investisiya cəlbediciliyinin yüksəlməsinə də ciddi təsir göstərir.Ümumilikdə isə kənd təsərrüfatı sahələrində baş verən bütün texniki-texnoloji yeniliklər digər sektorlara da təsir edir. Bunun nəticəsində isə, müasir kvalifikasiyalı kənd təsərrüfatı sistemləri və sənaye formalaşır.

İnnovativ texnologiyaların tətbiqi rəqəmsal kənd təsərrüfatının rəqabət qabiliyyətliliyinin əsas amillərindən biri hesab edilir. Bununla da istehsalın effektivliyinin, rentabelliyinin və dayanıqlılığının artmasına kömək edir. Bu cür innovasiyaların tətbiqi nəticəsində gübrələrin, yanacağın, mühafizə vasitələrinin, toxumların səmərəli istifadəsi və torpaq münbitliyinin yüksəldilməsi əldə olunur.

Kənd təsərrüfatı sahələrində innovasiyaların tətbiqinə həm pozitiv, həm də neqativ amillər təsir göstərir. Pozitiv amillər dedikdə - innovasiyalı inkişafa təkan verən amillər, neqativ amillər dedikdə isə - innovasiyalı inkişafa mane olan amillər nəzərdə tutulur. İnnovasiyalı inkişaf amillərinə ölkə ərazisində müəyyən təbii rüsursların mövcudluğu, bazar rəqabəti, yüksək elmi-təhsil potensialı, ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsal etmək imkanları aid edilə bilər. İnnovasiyalı inkişafa mane olan amillərə isə maliyyə vəsaitlərinin çatışmazlığını, texnoloji innovasiyalar bazarının yetərincə inkişaf etməməsi, innovativ fəaliyyətə yetərli dövlət dəstəyinin olmamamsı, innovasiya aktivliyinin aşağı səviyyəsi, innovasiya layihələrinə innovasiya yatırımlarının azlığı, elmi-tətqiqatların praktiki tətbiqi imkanlarının olmaması aid edilə bilər.Müasir dövrdə iqtisadiyyatda innovasiyalara meyillilik ölkənin kənd təsərrüfatı sektorunda regional innovativ sistemlərinin formalaşmasını tələb edir. Bu sektorun innovativ sisteminin optimal fəaliyyət göstərməsi onun innovasiya potensialının inkişaf səviyyəsinin və vəziyyətinin mövcudluğundan asılıdır. Bu isə öz növbəsində yalnız regionların deyil, bütünlükdə ölkənin iqtisadi artımını təyin edir. Kənd təsərrüfatı sektorunun ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edir və iqtisadi fəaliyyətin bütün növlərinə birbaşa təsir göstərir. Beləliklə də, müxtəlif növ kənd təsərrüfatı texnikasına ehtiyac nəticəsində maşınqayırmanın inkişafı stimullaşır, mineral gübrələrdən istifadə ehtiyacı nəticəsində kimya sənayesi aktivləşir. Bundan əlavə unutmaq olmaz ki, kənd təsərrüfatı sektoru ölkənin ərzaq təhlükəsizliyinin və ərzaq müstəqilliyinin təmin edilməsində müstəsna rol oynayır.

Beləliklə, kənd təsərrüfatı istehsalının səmərəliliyini artırmaq və ərzaq təhlükəsizliyini yalnız yüksək inkişaf etmiş maddi-texniki bazanın fəaliyyət göstərməsi və onun yenilənməsi, yəni təsərrüfatların yeni mühəndislik məhsulları ilə modernləşdirilməsi və texnikanın yenidən təchiz edilməsi, mexanikləşdirmə və avtomatlaşdırma maşınları kompleksinin yaradılması əsasında təmin etmək mümkündür. Modernləşmə innovativ inkişaf modelinə keçməyə imkan verir, qlobal iqtisadi böhranın mənfi nəticələrini kompensasiya edir və kənd təsərrüfatı mühəndisliyi, bitkiçilik və heyvandarlıq istehsalı və emal sənayesində qabaqcıl texnologiyaların geniş tətbiqi ilə yerli kənd təsərrüfatının rəqabət qabiliyyətini artırır.

İnnovasiyaya dövlət dəstəyi, investisiya ehtiyatlarını kənd təsərrüfatının prioritet sahələri üzərində cəmləşdirə biləcək effektiv mexanizmin təşkili, kənd təsərrüfatı sektorunda yeniliklərin tətbiqi üçün şərait yaradılması və innovasiya üçün kadr hazırlığı məsələlərinə xüsusi diqqət yetirilməlidir.

AQROBİZNES SFERASINDA İXRAC YÖNÜMLÜ İSTEHSALIN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Mustafayeva G.S.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mali: gulchin96@mail.ru

Aqrobiznes kənd təsərrüfatı məhsulların istehsalı, tədarükü, iqtisadi səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi, məhsulların uyğun şərtlərlə mühafizəsi, satışı və nəticələrin qiymətləndirilməsi proseslərini əhatə edir. Burada əsas məqsəd istehsal ehtiyatlarının davamlılığını təmin etmək və xərcləri minimuma endirməklə cəmiy-yətin tələbatına uyğun iqtisadi dəyər əldə etməkdir. Bu baxımdan aqrobiznesə elmi yanaşmanın fundamental əhəmiyyəti müxtəlif istehsalçılar üçün məqbul sayılan təşkilati və hüquqi idarəetmə for-malarının və strukturların müəyyənləşdirilməsidir.Optimal kənd təsərrüfatı istehsalı sisteminin formalaşmasında dünya təcrübəsi, çoxsaylı kiçik həcmli biznes strukturları ilə qarşılıqlı fəaliyyətdə olan kollektiv istehsalın inkişafını təsdiqləyir. Müxtəlif idarəetmə formalarının fəaliyyət mexanizmi göstərir ki, təşkilati-hüquqi formasından asılı olmayaraq daha səmərəli fəaliyyət göstərən aqrobiznes strukturları mövcuddur. Bu baxımdan xarici ticarət əlaqələrinin mühüm istiqamətlərindən olan ixraca dəstək tədbirləri, uzun dövrü əhatə edən strategiyanın mühüm tərkib hissəsidir. İnkişaf etmiş ölkələrdə xarici ticarət

əlaqələrinin genişləndirilməsini və bütövlükdə ərzaq təhlükəsizliyinin təmin edilməsini nəzərdə tutan tədbirlər dövlətin müəyyənləşdirdiyi və həyata keçirdiyi iqtisadi strategiya ilə bilavasitə bağlıdır. Təbii ki, bu prosesdə bütün subyektlərin maraqları nəzərə alınır. Bu məqsədlə aqrobiznes sahəsində iqtisadi subyektlərin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Belə ki, dövlət tərəfindən zəruri olan istehsal sahələrinə maliyyə yardımları göstərilir, təklifin stimullaşdırılması üçün potensial imkanlar aşkar edilir, müvafiq təkmilləşdirmələr aparılır və s. Beləliklə istehsalçılar qiymətlərin kəskin surətdə aşağı düşməsindən müdafiə olunur, dəyə biləcək zərərin qarşısı alınır, maliyyə çatışmazlığı müşahidə edilən sahələrin inkişafı üçün zəruri addımlar atılır. Digər tərəfdən isə daxili bazar ucuz idxal məhsullarından qorunur, ixrac yönümlü istehsal stimullaşdırılır.Bir çox ölkələrdə ixracın stimullaşdırlması tədbirləri çərçivəsində ixrac yönümlü istehsala çəkilən xərclərin böyük hissəsi dövlət büdcəsindən ödənilir, stimullaşdırma və tənzimlənmə tədbirləri çoxcəhətli xarakter daşımaqla, kənd təsərrüfatı məhsulları istehsal edən bütün təsərrüfatçılıq subyektləri dövlət tərəfindən müdafiə olunur. Bəzi ölkələrdə məhsulların dövlət tədarükü sistemi fəaliyyət göstərir, ərzaq məhsullarının idxalı və ixracı tənzimlənir, ixrac istiqamətli əsas kənd təsərrüfatı məhsulları istehsalına kvota müəyyənləşdirilir, kənd təsərrüfatı məhsulları bazarlarının sabitləşməsini təmin edən qiymətlərdən istifadə olunur, məhsul istehsalının subsidiyalaşdırılması həyata keçirilir, infrastrukturun yaradılmasına, kənd yerlərinin abadlaşdırılması və ətraf mühitin mühafizəsinə kömək göstərilir.

Araşdırmalar göstərir ki, beynəlxalq təcrübədə aqrar siyasətdə təminatlı qiymət sisteminə və bazarın tənzimlənməsi ilə əlaqədar digər tədbirlərə istinad olunduğunu, bununla da əhəmiyyətli miqdarda ərzaq ehtiyatlarının mövcudluğunu, daxili bazarı tənzimləmək məqsədilə ərzaq məhsulları ixracının stimullaşdırılmasını, ixracı artırmaq üçün daxili qiymətlərlə beynəlxalq qiymətlər arasındakı fərqin əmtəə istehsalçılarına ödənildiyini müsbət hal və qabaqcıl təcrübə kimi qiymətləndirilir. İxracın dəstəklənməsi tədbirlərində kreditlərin rolunun artırılması təcrübəsi də geniş yayılmışdır. Bu onunla əlaqəlidir ki, banklar və kredit təşkilatları ayırdığı kreditlər hesabına gəlir əldə etməkdə, istehsalçılar isə maliyyə resurslarına tələbatını ödəməklə təkrar istehsal prosesini həyata keçirməkdə maraqlıdırlar. Bundan başqa dövlət kommersiya mənbələrindən və digər maliyyə strukturlarından kreditlər əldə etməklə istehsalla məşğul olanlardan məhsulların alınması prosesini həyata keçirir. Bu addım istehsalçılar üçün əvvəlcədən satış yerinin müəyyənləşdirilməsindəki çətinliyin aradan qaldırılmasına xidmət etməklə gəlirin səviyyəsini də qabaqcadan proqnozlaşdırmağa imkan yaradır. Təhlil göstərir ki, bankların aktivliyi xüsusilə qeyri-stabil vəziyyətlərdə artır. Xüsusilə maliyyə risklərinin sığortalanmasında onlar daha fəal şəkildə iştirak etməkdə, öz fəaliyyətlərini təkmilləşdirməkdə maraqlı olur.Xarici ticarət əlaqələrinin inkişafında və ixracın dəstəklənməsində növbəti vacib istiqamət kimi maliyyə lizinqinin formalaşdırılması əsas yerlərdən birini tutur. Maliyyə lizinqi məhsul istehsalının ən mühüm vasitələrindən hesab edilir. Hansı ki, kapitaltutumlu sahələrin maliyyələşdirilməsində bilavasitə iştirak edir.Qeyd edilənlər əsaslanaraq aqrobiznes sferasında ixracı dəstəkləmək üçün aşağıdakı tədbirlərə üstünlük verilməsini məqsədəuyğun hesab etmək olar: kreditlər və kredit zəmanətləri vasitəsilə ixrac yönümlü istehsalın dəstəklənməsi; ixracatçıların maraqlarını qorumaq üçün iqtisadi yardım mexanizmi ilə bağlı qabaqcıl ölkələrin təcrübəsindən istifadə edilməsi; kənd təsərrüfatı məhsullarının və ərzaq məhsullarının ixracatçıları üçün birbaşa maliyyə yardımlarından istifadənin təmin edilməsi; ekoloji məhsul baxımından avadanlıq və texnologiyalar alarkən ətraf mühit və xarici alıcılar üçün maliyyə risklərinin azaldılması, bu məqsədlə yardım layihələrinə dəstək verilməsi və s.

Beynəlxalq təcrübə göstərir ki, xarici ticarət əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsində başlıca məslələrdən biri ixraca dövlət dəstəyinin həyata keçirilməsi ilə yanaşı etibarlı tərəfdaşların müəyyənləşdirilməsidir. Belə şərtlər daxilində həm ixracın həcmini artırmaq, həm də ixrac yönümlü istehsalın keyfiyyətini, bütövlükdə rəqabətə davamlılığını təmin etməklə iqtisadi cəhətdən səmərəli nəticələr əldə etmək mümkündür.

"PAŞA SIĞORTA ASC" ŞİRKƏTİNDƏ İDARƏETMƏ SİSTEMİNİN TƏKMİLLLƏŞDİRILMƏSİ YOLLARI

Nağıyeva T.C.
Bakı Biznes Universiteti
E-mail: naqiyevatamilla@gmail.com

Azərbaycanda sığorta bazarının formalaşması və inkişafı milli iqtisadiyyatda bazar münasibətlərinin kifayət qədər yüksək səviyyədə inkişaf etdiyini göstərir. Müasir sığorta bazarının fəaliyyətinin əsas prinsipləri arasında aşağıdakıları qeyd etmək lazımdır: sığorta fəaliyyətinin qeyri-mərkəzləşdirilməsi və

inhisardan çıxarılması; sığorta xidmətlərinin göstərilməsində rəqabətin inkişafı; tələb və təklif qanunlarına əsaslanan qiymət və tarifləşdirmə azadlığı; təkrarsığorta, sığorta hovuzlarının, fondlarının, assosiasiyalarının yaradılması, birgə sığorta və xüsusilə təhlükəli və böyük risklərdə sığortaçıların rəqabəti və əməkdaşlığının birləşməsi; sığorta təşkilatının sığortalıları üçün seçim azadlığı, göstərilən sığorta xidmətinin şərtləri, sığorta obyektləri və formaları; sığorta təminatının təminatları və etibarlılığı; sığortaçı haqqında məlumatın sığortalı üçün aşkarlığı və məlumatın olması və s.Sığorta bazarının qurulması prinsipləri və müəyyən (və ya verilmiş) zamanda konkret regionda formalaşan sığorta xidmətlərinin göstərilməsi şərtləri sığorta bazarının konyukturasını səciyyələndirir.Onu da qeyd edək ki, Paşa sığortanın ən mühüm tendensiyalarından biri icbari sığortanın payının artması və könüllü sığortanın payının azalmasıdır. Hazırda milli iqtisadiyyatın iqtisadi artımı şəraitində sığorta haqlarının ÜDM-in yaradılmasında payı praktiki olaraq dəyişməz qalır və kiçik (2,3–2,4%) qalır, halbuki inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə bu, 8-dir. - 10% və ya daha çox.

Paşa sığorta öz fəaliyyətinin təkmilləşdirilməsi üçün innovativ əsaslarla aparılmalıdır. "İnnovasiya", "innovativ fəaliyyət", "innovasiya prosesləri" anlayışları və s. müasir elmdə geniş istifadə olunur. Bununla belə, bu məsələlərdə konsensus yoxdur və bundan əlavə, sığorta sənayesinin innovativ komponenti zəif təmsil olunur. İnnovasiya dedikdə, hazırda bu sahədə cəmiyyət tərəfindən daha az xərc, texnologiya, idarəetmə və təşkili mexanizmi ilə əldə edilən yeni bir məhsul (əsas etibarilə yeni və ya yeni istehlak keyfiyyətləri ilə təkmilləşdirilmiş) kimi qəbul edilən dəyər, faydalılıq başa düşülməlidir. elmi kəşflərdən, ixtiralardan, səmərələşdirici təkliflərdən və s. istifadə etməklə əldə edilən əməyin, prosesin, fəaliyyətin. İnnovasiya fundamental və tətbiqi tədqiqatların bəhrəsi, iqtisadi, sosial, ekoloji, texniki və texnoloji və digər təsirlər. Sığortada innovativ yanaşmaların tətbiqinə əsas məhdudiyyətlər bunlardır: səmərəsiz idarəetmə, sığorta bazarının zəif inkişaf etmiş infrastrukturu, innovasiya fəaliyyətinin uzunmüddətli strateji planlaşdırılmasının olmaması, elmi tədqiqatların yetərincə inkişaf etməməsi, innovasiya fəaliyyətinin lənglıyi, işçilərin aşağı ixtisas və peşəkarlığı. kadrlar, marketinq tədqiqatları, konsaltinq potensialından kifayət qədər istifadə edilməməsi və s Paşa sığorta sektorunda yeniliklər sığorta xidmətlərinin dəyərinin artırılmasına, keyfiyyətcə yeni səmərələrin əldə edilməsinə, sığorta məhsulunun əhalinin ehtiyaclarına daha tam uyğunluğuna yönəldilməlidir. sığortalıya (sığorta xidmətinin əsas istehlakçısı), xidmətin göstərilməsi müddətinin qısaldılması, onun alınması ilə bağlı ümumi xərclərin azaldılması, sığorta təşkilatlarının gəlirliliyinin artırılması, onların biznes fəaliyyətinin miqyasının və spektrinin genişləndirilməsi və s.

Sığorta innovasiyalarının əldə edilməsinin əsas sferası sığorta bazarıdır, yəni sığorta məhsulunun istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakı ilə bağlı onun əsas subyektləri arasında yaranan münasibətlər, əlaqələr sistemidir. Eyni zamanda nəzərə almaq lazımdır ki, təkliflər, innovasiyalar və digər yeniliklər, bir qayda olaraq, sığorta sahəsində fəaliyyət göstərən peşəkar kadrların hazırlanmasına ehtiyac vardır. Sığorta innovasiyaları prosesinin müxtəlif mərhələlərində əldə edilə bilər prinsipcə yeni sığorta məhsulunun yaradılması; keyfiyyətin yaxşılaşdırılması və ya yeni istehlak xassələrinin yaradılması; göstərilən sığorta xidmətlərinin çeşidinin genişləndirilməsi; xidmətlərin göstərilməsi üçün vaxt və xərclərin azaldılması; sığorta məhsuluna texniki xidmətin təkmilləşdirilməsi; sığorta xidmətləri üzrə satış kanallarının inkişafı; sığorta fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi; yeni marketinq texnologiyalarından istifadə; konsaltinq alətlərinin çevik istifadəsi; sığorta şirkətlərinin xarici mühitin elementləri ilə qarşılıqlı əlaqəsinin təkmilləşdirilməsi və s.) təsir edir. Sığorta təşkilatlarının innovativ fəaliyyətinin idarə edilməsi çevik olmalı, sığorta fəaliyyətinin konkret regional şərtlərinə uyğunlaşdırılmalıdır. Yəni idarəetmənin özünə yenilik lazımdır, qarşıya qoyulan məqsədə ən az xərclə nail olunmasını təmin etmək, vaxt çərçivəsini qısaltmaq, gəlirliliyi artırmaq, biznesin davamlılığını və təhlükəsizliyini təmin etmək lazımdır. Bu məqsədlə, ilk növbədə, idarəetmə mexanizmini təkmilləşdirmək, yəni müasir şəraitə, idarəetmə vasitələrinin tapşırıqlarına və imkanlarına uyğunlaşmaq lazımdır, yəni. tədbirlər, həvəsləndirmələr, həvəsləndirmələr, üsullar, yanaşmalar, şərtlər, qüvvələr və vasitələr sistemi. Sığorta bazarının inkişafının indiki mərhələsində marketinq texnologiyaları və konsaltinq alətlərindən istifadə daha çox üstünlük təşkil edir. Onlar bazar iqtisadiyyatının idarəetmə mexanizminin ən çevik, uyğunlaşdırılmış texnologiyalarıdır. Marketinq bazar iqtisadiyyatı şəraitində müxtəlif prosesləri idarə etmək üçün universal vasitədir. İnnovativ marketinq sığortaçının fəaliyyətinin sığortalının konkret ehtiyaclarına uyğunlaşdırılması mexanizmidir; tələbin genişləndirilməsi, sığorta haqlarının (bağışlarının) həcminin artırılması aləti; sığortaçıların rəqabət qabiliyyətinin artırılmasının bazar üsulu; sığorta provayderlərinin bazar şəraitində müasir düşüncə və fəaliyyət tərzi. Konsaltinq və nəzarət sığorta biznesində idarəetməyə müasir inteqrasiya olunmuş innovativ yanaşmalardan biridir. Konsaltinq şirkətləri bazar iqtisadiyyatı şəraitində sahibkarlıq subyektlərinə, o cümlədən sığorta şirkətlərinə müəyyən xidmətlər göstərirlər. İstehsalçılara, istehlakçılara və bazar münasibətlərinin digər subyektlərinə öz fəaliyyətlərinin geniş spektri üzrə məsləhətlər verirlər; müştərinin

tələbi ilə bazarın, tendensiyaların və inkişaf proqnozlarının, müəyyən bazar seqmentində konkret mallara tələb və təklifin vəziyyətinin öyrənilməsi, ixtisaslaşmış marketinq proqramlarının hazırlanması və s. regionlar və sahələr üzrə ixtisaslaşmışdır. Şübhəsiz ki, sığorta təşkilatlarının idarə edilməsində bu tip innovativ yanaşmanın tətbiqi onların inkişaf məqsədlərinə daha səmərəli nail olunmasına kömək edəcəkdir.

Sığorta bazarının artan dinamikası nəzarət kimi müasir alətlərdən istifadəni tələb edir. Sığorta biznesinin innovativ idarəetməsinin yeni elementlərindən biridir. Nəzarətin istifadəsi prinsipial olaraq yeni əsasda ən mühüm idarəetmə funksiyalarından birinin - uçot və nəzarətin həyata keçirilməsini təşkil etməyə imkan verir. Sığorta fəaliyyətinə innovativ yanaşma əsasında təşkilatdaxili nəzarət daha məqsədyönlü, davamlı və əsaslı şəkildə həyata keçirilir ki, bu da gözlənilməz kənarlaşmaları vaxtında aşkar etməyə, onların səbəblərini müəyyən etməyə və lazımi düzəlişlər etməyə imkan verir, bununla da sığorta şirkətlərinin risk müqavimətini artırır. təşkilat. Bu yanaşma nəzarətin effektivliyini, ardıcıllığını, uyğunlaşmasını, optimallığını və effektivliyini təmin edir. Bu yanaşma, məqsədəuyğunluğu sığorta şirkətlərində açıq şəkildə görünən təşkilatda xüsusi nəzarət xidmətinin yaradılması zamanı ən uğurla həyata keçirilir. Sığorta fəaliyyətinin idarə edilməsi, idarəetmənin əsas funksiyalarının həyata keçirilməsi sığortanın innovativ inkişafı üzrə məqsədyönlü kompleks proqramların əsas müddəalarının həyata keçirilməsinə əsaslanmalıdır. Bu proqramların inkişafı və qəbulu səviyyələri müxtəlif ola bilər: federal, regional, yerli. Milli iqtisadiyyat səviyyəsində belə bir proqramın olması xüsusi əhəmiyyət kəsb edir. Sığorta fəaliyyətinin təşkilinə cavabdeh olan dövlət orqanları onun sosial-iqtisadi, sosial əhəmiyyətini nəzərə alaraq, sabitliyin, müstəqilliyin, təhlükəsizliyin təmin edilməsi, hasilatın zərərsizləşdirilməsi, iqtisadi artım tempinə təsirinin inkişafı üçün ən məqbul şərait yaratmalıdırlar. sığorta biznesinin. Sığortanın inkişafına, rəqabət mühitinin formalaşdırılmasına, investisiya cəlbediciliyinə və stimullaşdırılması üçün təşkilati, hüquqi, inzibati, iqtisadi tədbirlər sistemi olmalıdır. Sığorta təşkilatları üçün təşkilatın innovativ inkişafının idarə edilməsinin təkmilləşdirilməsinə və səmərəliliyinin artırılmasına töhfə verən öz strateji prioritetlərini, tədbirlərini, metodlarını və digər alətlərini hazırlamaq xüsusi əhəmiyyət kəsb edir. Onlardan ən əhəmiyyətlisi nə, nə üçün, necə, kimin üçün innovativ sığorta məhsulu istehsal etməli suallarına verilən cavablardır. Bu məsələdə xüsusi əhəmiyyət kəsb edən perspektivli innovativ məhsulların, qarşıya qoyulan məqsədlərə nail olmağa kömək edən metod və tədbirlərin müəyyən edilməsi, təşkilati strukturların və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi və s. Bu cür yeniliklərə misal olaraq mürəkkəb müştəri xidməti proseslərini idarə etmək üçün metodlar toplusunu özündə birləşdirən müştəri dəstəyi texnologiyası olan CRM-dir; zəruri hallarda internetdən istifadə etməklə innovativ sığorta məhsulunun satışının təşkili, yeni təşkilati strukturların formalaşdırılması, o cümlədən inteqrasiya, dövlət və yerli hakimiyyət orqanları ilə qarşılıqlı əlaqənin təşkili, marketinq texnologiyalarından istifadə, konsaltinq və nəzarət yanaşmaları və s. İnnovativ potensial, innovativ fəaliyyət və innovativ risk sığorta şirkətinin innovativ fəaliyyətinə birbaşa və ya dolayısı ilə təsir edən xarici və daxili mühit amillərinin məcmusunu təşkil edir.

SIĞORTA VASİTƏÇİLİYİ FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

Nəcəfov C.Ş.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: necefovvcelal@gmail.com

Sığorta vasitəçiləri iqtisadi münasibətlərinin bütün mərhələlərində sığortaçının və sığortalının maliyyə-təsərrüfat münasibətlərinin bilavasitə iştirakçılarıdır. Sığorta məhsullarının səmərəli satışını təmin edir və sığorta müqavilələrinin vaxtında icrasına töhfə verirlər. Sığorta vasitəçilərinin təsiri mikro və makroiqtisadi səviyyədə cəmiyyətin ümumi sığorta təminatının formalaşdırılması, sığortalıların hər bir fərdi sığortaçıya və bütövlükdə sığorta institutuna inamının gücləndirilməsi prosesində özünü göstərir. Sığortada vasitəçilik fəaliyyətinin məzmununun başa düşülməsi sığortanın iqtisadi kateqoriya kimi mahiyyətindən getməlidir ki, onun bütün təriflərində xüsusi fondun formalaşması və istifadəsi dayanır.

Sığorta bazarının formalaşmasında sığorta vasitəçiləri (sığorta agentləri və sığorta vasitəçiləri, habelə sığorta müqavilələrinin bağlanması və icrasında iştirak edən digər vasitəçilər) xüsusi rol oynayır. Təbii ki, sığorta agentlərinin və vasitəçilərinin əsas vəzifəsi sığorta məhsullarını müştərinin maraqlarına uyğun təbliğ etməkdir. Bununla yanaşı, onlar həm mikro, həm də makroiqtisadi səviyyədə böyük rol oynayır, cəmiyyətin ümumi sığorta mədəniyyətinin formalaşmasına, ümumilikdə sığorta institutuna, xüsusən də konkret sığortaçıya inamın formalaşmasına mühüm təsir göstərirlər. Sığorta vasitəçiləri sığortaçı ilə sığortalının

iqtisadi münasibətlərinin bütün mərhələlərində - sığorta polisinin satışından sığorta müqaviləsinin icrasına kimi maliyyə-təsərrüfat münasibətlərinin bilavasitə iştirakçılarıdır. Əsas əhəmiyyət sığorta bazarında sığortaçıların fəaliyyətinin tənzimlənməsinə verilir. Onun əsas vəzifəsi sığortaçıların sığorta müqavilələri üzrə öhdəliklərini yerinə yetirmələrini təmin etməkdir. Tənzimləmə sisteminin mahiyyəti ondan ibarətdir ki, dövlət təbliğat sistemində nəzərdə tutulmuş tələblərə əlavə olaraq, həm sığorta fəaliyyətinə yeni başlayan təşkilatlar, həm də sığorta sahəsində artıq fəaliyyət göstərən təşkilatlar tərəfindən yerinə yetirilməli olan müəyyən tələblər (standartlar) müəyyən edir.Sığorta müqaviləsinin bağlanması mərhələsində və onun icrası zamanı sığorta vasitəçilərinin 3 qrupu iştirak edir: sığorta agentləri və sığorta brokerləri; fövqəladə hallar üzrə müvəkkillər, sörveyerlər, tənzimləyicilər - sırf sığorta vasitəçiləri kimi; müxtəlif növ ekspertlər, hüquqşünaslar, yardım şirkətləri və s. - onlar təkcə sığortaçılara deyil, müxtəlif növ xidmətlər göstərirlər. Bu gün sığorta vasitəçiləri sığortaçıların və bütövlükdə sığorta bazarının imicinin möhkəmləndirilməsində həmişəkindən daha çox mühüm rol oynaya bilirlər. Onlar yüksək ixtisaslı mütəxəssislər kimi sığortaçının real maliyyə vəziyyətini müştərilərdən və sığorta agentlərindən qat-qat yaxşı başa düşürlər.

MÜƏSSİSƏNİN İNNOVASİYA STRATEGİYASININ HAZIRLANMASI PROSESİ

Nəcəfov N.V.
Sumqayıt Dövlət Universiteti
E-mail: nicat.necefov.nn87@gmail.com

Müasir şəraitdə innovasiyalar sahəsində rəqabət üstünlüklərindən istifadə etmədən səmərəli idarəetmə mümkün deyil. Müəssisənin inkişafı baxımından innovasiya strategiyanın işlənməsi və reallaşdırılması böyük təcrübi əhəmiyyətə malikdir. Uzunmüddətli perspektivdə innovasiya iqtisadi artım üçün strateji şərtdir. İnnovasiyaların tətbiqi şirkətin məhsullarının rəqabət qabiliyyətini artırmaq, eləcə də davamlı inkişaf tempini saxlamaq üçün bir vasitədir. Qeyd etmək lazımdır ki, hazırlanmış strategiya uğurlu olarsa, innovasiyalar müsbət effekt verir. İnnovasiya strategiyası innovasiyaların işlənməsi və reallaşdırılması yolu ilə rəqabət üstünlükləri təmin edən müəssisədə innovativ fəaliyyətin tətbiqi üsulları və tədbirlərin məcmusudur. Sürətlə dəyişən iqtisadiyyatda müəssisə rəqabət qabiliyyətini qorumaq və təkmilləşdirmək üçün innovativ strategiya hazırlamalıdır. Müəssisənin inkişafı üçün səmərəli işlənmiş innovasiya strategiyası mövcud innovativ potensialdan tam istifadəni nəzərdə tutur. İnnovasiya strategiyasının inkişafı aşağıdakı mərhələlərin birləşməsindən ibarətdir: ətraf mühitdə innovasiya sahəsində vəziyyətin qiymətləndirilməsi; müəssisənin innovativ fəaliyyətinin inkişaf göstəricilərinin təhlili; mövcud müəssisənin inkişaf strategiyasının təhlili; müəssisənin innovativ inkişaf strategiyasının seçilməsi və reallaşdırılması. İnnovasiya strategiyasının hazırlanması aşağıdakı şəkildə göstərilən proseslərin məcmusundan ibarətdir.

İnnovasiya sahəsində vəziyyəti qiymətləndirərkən müəssisənin xarici və daxili mühitinin təhlili aparılır. Nəticədə müəssisənin təhdid və imkanları, güclü və zəif tərəfləri müəyyən edilir. Hər bir müəssisə xarici mühitdə baş verən prosesləri və dəyişiklikləri diqqətlə öyrənməli, aşağıdakı istiqamətlər üzrə təhlil aparmalıdır: rəqiblərin strategiyasını müəyyən etməlidir; xarici mühitin təsirini araşdırmalıdır.

Müəssisədə innovativ fəaliyyətin inkişafı onun ümumi fəaliyyət səviyyəsinin yüksəlməsini təmin edən və rəqabət üstünlükləri əldə etməyə imkan verən innovativ fəaliyyət göstəricisi ilə ifadə olunur. Bu üstünlüklər əsas məqsədə nail olmaq və ümumi inkişaf strategiyasını reallaşdırmaq üçün lazımdır. Beləliklə, müəssisə üçün innovativ strategiya formalaşdırarkən bütün məhsulların həyat dövrünün müəyyən mərhələsində olmasını nəzərə almaq lazımdır.

İnnovativ fəaliyyət müəssisənin dövriyyəsində yeni texnologiya və məhsulların tətbiqi üzrə fəaliyyətlərin həyata keçirilməsinin intensivliyinin göstəricisidir. İnnovativ fəaliyyətin göstəricilərini artırmaq üçün müəssisə öz potensialından tam istifadə etməlidir. Müəyyən bir zamanda müəssisədə vəziyyətin nə olduğunu başa düşmək üçün onun cari inkişaf strategiyasının təhlili lazımdır. Bu, strategiyanın necə reallaşdığını qiymətləndirməyə, həmçinin onun təkmilləşdirilməsinin əsas istiqamətlərini işləyib hazırlamağa imkan verir. Beləliklə, innovativ strategiyanın inkişafının təqdim olunan mərhələləri bir-biri ilə əlaqəli olmalıdır ki, bu da uzunmüddətli perspektivdə planlaşdırılan məqsədlərə nail olmağa imkan verəcəkdir.

Müəssisənin innovativ strategiyasının formalaşması bazar məlumatlarına əsaslanmalıdır. Eyni zamanda, planlaşdırılan məhsul buraxılması haqqında potensial alıcıların rəyi nəzərə alınmalıdır. Bu şərt yerinə yetirilərsə, hazırlanmış innovasiya strategiyası məqsədlərə çatmağa kömək edəcəkdir.

Ümumiyyətlə, müəssisə tərəfindən innovativ strategiyanın seçilməsinin aşağıdakı əsas səbəbləri var:

1. Təsərrüfat subyektlərinin daha çox mənfəət əldə etmək istəyi innovativ fəaliyyəti stimullaşdırır. İnnovasiya yenilikçilərə bazarı ələ keçirməyə, eyni zamanda qiymətləri təyin etməyə və nəticədə yüksək gəlir əldə etməyə imkanı verir. Radikal innovasiya dərəcəsi nə qədər yüksəkdirsə, artan mənfəətin əldə edilməsi müddəti bir o qədər uzun olur.

2. İstehsalçılar arasında rəqabət səviyyəsinin yüksəldilməsi innovasiya fəallığının dərəcəsinə mühüm təsir göstərir. Yalnız şiddətli rəqabət şəraitində şirkətlər innovativ fəaliyyətlər həyata keçirməyə çalışırlar.

3. İnnovativ strategiyanın həyata keçirilməsi istehsalı artırmağa imkan verir, çünki o, firmalar üçün yeni bazarlar açır.

4. İnnovativ fəaliyyət istehsal və təsərrüfat fəaliyyətinə innovasiyaların tətbiqinə kömək edən yeni hüquqi aktların qəbulu ilə stimullaşdırılır.

Beləliklə, müəssisənin inkişafı üçün innovativ strategiyanın hazırlanması elmi, təşkilati, texniki, mədəni, sənaye, sosial, texnoloji, iqtisadi, maliyyə kimi amillərə əsaslanmalıdır. İnnovasiya strategiyasının hazırlanması texnoloji məlumatlarla yanaşı, idarəetmə, marketinq və hüquq bilikləri tələb edən çox mürəkkəb prosesdir. İnnovasiya strategiyası müəssisənin sahibləri üçün əhəmiyyətli risk payı ilə xarakterizə olunur. Bütün bunlarla bərabər, yeni məhsulların yaradılması və bazara çıxarılması üçün müəssisələr yüksək ixtisaslı kadrlara, kifayət qədər maliyyə resurslarına malik olmalıdırlar.

TURİZMİN DAVAMLI İNKİŞAFININ TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

Nəcəfzadə B.A.
Sumqayıt Dövlət Universiteti
E-mail: balahuseynnecefzade@gmail.com

XX əsrin sonlarından başlayaraq turizm xarici iqtisadi əlaqələrdə aparıcı yer tutmuş, ayrı-ayrı ölkələrin iqtisadiyyatının və bütövlükdə dünya iqtisadiyyatının inkişafına ciddi təsir göstərməyə başlamışdır. Turizm bu gün dünya iqtisadiyyatının nəinki ən böyük, həm də ən sürətlə inkişaf edən sektorudur. Turizmin inkişafına ehtiyac son dərəcə açıqdır. Onun həm ayrı-ayrı şəxslərə, həm də bəzi ölkələrin və bütöv regionların iqtisadiyyatına verdiyi faydalar şübhəsizdir.

Bununla belə, turizm iqtisadiyyatın digər sahələrindən əhəmiyyətli dərəcədə fərqlənir: bu, çox mürəkkəb bir sahədir. Turizmin inkişafı hər bir ölkənin iqtisadiyyatının inkişafı üçün stimuldur. Turizm inkişaf etdiyi ölkənin və ya regionun iqtisadiyyatına, onun iqtisadi, sosial və humanitar əsaslarına təsir göstərə bilir. Digər iqtisadi sektorlar kimi turizm də resursları istehlak edir, tullantılar yaradır, ekoloji, mədəni və sosial xərclər və faydalar yaradır.

Turizmin inkişafının bir sıra mənfi nəticələri var. Aşağıdakı əsas mənfi təsirləri ayırd etmək olar: ətraf mühitin çirklənməsi; tullantıların utilizasiyası problemləri; tarixi və təbiət abidələrinə ziyan vurulması; ərazinin antropogen yüklənməsi; ərazinin mədəni deqradasiyası və s. Turizm sənayesinin sürətli inkişafı ilə bağlı turistlərin, yerli sakinlərin və müxtəlif səviyyələrdə idarəetmə strukturlarının üzləşməli olduğu bütün problemləri nəzərə alsaq, mövcud vəziyyətin kompleks şəkildə həllinə ehtiyac olduğu aydındır.

Turizmin ölkənin sosial-iqtisadi inkişafı faktoruna çevrilməsi üçün onun davamlı inkişaf prinsiplərinə uyğun inkişafı zəruridir. Turizm dayanıqlı inkişaf konsepsiyasının prinsiplərindən istifadə etməklə nəinki çətinliklərin öhdəsindən gələ bilər, hətta ölkədə fəaliyyət göstərən digər sənaye sahələrini də davamlı inkişaf yoluna çıxara bilər.

Bu günə qədər turizmin davamlı inkişafına dair ümumi qəbul edilmiş vahid tərifi yoxdur və bu təbiidir. Çünki "davamlı inkişaf" anlayışının özü hələ dəqiqləşdirilməmişdir. Mövcud təriflər çox parçalanmışdır. Ona görə də "turizmin davamlı inkişafı", "davamlı turizm" və "turizmdə davamlılıq" anlayışlarını bir-birindən ayırmaq lazımdır. Halbuki bu anlayışlar ədəbiyyatda çox vaxt sinonim kimi istifadə olunur. Bu təriflər aşağıdakı formada ola bilər:

Turizmin davamlı inkişafı iqtisadi, ekoloji, sosial və mədəni inkişaf məqsədlərinin həyata keçirilməsində tarazlığa nail olan, turizm ehtiyatlarından səmərəli istifadə və hərtərəfli tərəfdaşlığa əsaslanaraq bütün maraqlı tərəflərin (turistlər, onları qəbul edən və göndərənlər) maraqlarını nəzərə alan uzunmüddətli inkişafıdır. Davamlı turizm ekoloji resurslardan optimal istifadəni təmin edən, məskunlaşan icmaların sosial-mədəni xüsusiyyətlərini dəstəkləyən, bütün maraqlı tərəflər üçün faydalarını nəzərə alaraq uzunmüddətli iqtisadi proseslərin canlılığını təmin edən turizm növüdür.

Turizmdə davamlılıq onun ekoloji, sosial-mədəni və iqtisadi təsirlərinin müsbət ümumi tarazlığına, eləcə də ziyarətçilərin bir-birinə müsbət təsirinə aiddir. Turizmin davamlı inkişafı üzrə beynəlxalq təcrübəyə əsaslanaraq, bununla bağlı iki mühüm ilkin şərti ayırd etmək olar:

1. Uğurlu turizm fəaliyyəti üçün müvafiq şəraitin olması: etibarlılıq və təhlükəsizlik; obyektlərin və göstərilən xidmətlərin keyfiyyəti; turistlər və turizmlə məşğul olan maraqlı tərəflər üçün məlumatların etibarlılığı; istehlakçı ilə əlaqə; əlverişli biznes mühiti.

2. Dəyişiklikləri qabaqcadan görmək və onunla ayaqlaşmaq bacarığı.

Turizmin davamlı inkişaf yolu ilə getməklə ona təsirlərin mənfi nəticələrini azaltmaq və turizm fəaliyyətinin müsbət təsirlərindən maksimum dərəcədə səmərəli istifadə etmək mümkün olur. Təklif olunan turizmin davamlı inkişafı konsepsiyasına uyğun olaraq, təkcə turizmin inkişafı üçün şərait yaratmaq deyil, həm də bu prosesin nəticələri haqqında düşünmək lazımdır. İlk növbədə, yerli sakinlərin, onların iş şəraitinin və yaşayış mühitinin qayğısına qalmaq, yəni turizmin inkişafının sosial və ekoloji nəticələrinin nəzərə alınması vacibdir.

Turizmin inkişafının arzu olunan istiqamətinin maraqlı tərəfləri həm yerli, həm milli, həm də beynəlxalq səviyyədə dövlət olmalıdır. Məhz dövlət tənzimləyici qüvvə kimi çıxış edə, qanun və vergilərdən, iqtisadi və hüquqi rıçaqlardan istifadə edərək inkişaf şərtlərini müəyyən edə bilir.

Dövlətin həyata keçirdiyi siyasətdə iqtisadi, ekoloji və sosial məqsədlərin üçlüyü turizm fəaliyyətinin uğurunun açarıdır. Turizmin davamlı inkişafı məqsədilə təkcə turizmin deyil, həm də ona aid olan sahələrin mövcud vəziyyətinin mütəmadi olaraq hərtərəfli qiymətləndirilməsinin aparılması zəruridir. Lakin turizmin davamlı inkişafının effektiv, ümumi qəbul edilmiş göstəricilərinin aydın sistemi mövcud deyil.

Turizmin davamlı inkişafı turizm xidmətlərinin keyfiyyəti ilə sıx bağlıdır. Bir çox cəhətdən, xidmətlərin keyfiyyəti kəmiyyətdən daha vacibdir. Çünki həddindən artıq turizm müəyyən bir bölgənin daşıya biləcəyi yük limitlərini asanlıqla keçə bilər və beləliklə, bütövlükdə turizmi təhlükə altına alar. Ona görə də davamlılıq problemlərini müəyyən ərazinin (təyinat məntəqəsinin) turistlərə və yerli sakinlərə təklif edə biləcəyi keyfiyyətlə həll etmək olar: dinclik və sakitlik, tıxacların olmaması, təmiz su və hava və s.

Turizmin yüksək keyfiyyəti aşağıdakı şərtlərlə təmin edilir: minimum standartların mövcudluğu, turistlərin maraq və gözləntilərinin tam şəkildə ödənilməsi, xidmətlərin keyfiyyəti və qiymətinin optimal birləşməsi. Tamamilə aydındır ki, turizmin davamlı inkişafını yalnız dövlət orqanlarının səyləri ilə inkişaf etdirmək mümkün deyil. Burada tərəfdaşlıq prinsipi əsas rol oynayır. Bununla belə, turizm kimi rəqabətli bazarda özəl müəssisələrin dayanıqlı inkişaf prinsiplərinə əməl etməsi problemlidir ki, bu da qısa müddətdə yalnız xidmətlərin dəyərinin artması, deməli, rəqabət qabiliyyətinin itirilməsi deməkdir.

Dövlət-özəl tərəfdaşlığa əsaslanan turizmin inkişafının idarə edilməsi getdikcə daha effektiv inkişaf variantı kimi tanınır. Bunun üçün turizm bazarının bütün subyektlərinin əməkdaşlığa və aktiv birgə fəaliyyətə açıq olması vacibdir. Bu baxımdan uzunmüddətli perspektivdə turizm siyasətinin məqsədləri aşağıdakılardan ibarət olmalıdır:

1. İqtisadi rifah və firavanlıq. Layiqli əmək haqqı və iş şəraiti təklif etməklə turizm müəssisələrinin uzunmüddətli rəqabət və həyat qabiliyyətini, habelə keyfiyyətli məşğulluq imkanlarını təmin etmək.

2. Ətraf mühitin və mədəniyyətin qorunması. Çirklənmənin, ətraf mühitin deqradasiyasının və məhdud resursların turizm fəaliyyətinin təşkili üçün istifadəsinin minimuma endirilməsi, mədəni sərvətlərin öyrənilməsinə və qorunub saxlanmasına töhfə verməklə onların dəstəklənməsi və genişləndirilməsi.

3. Cəmiyyətin sosial strukturuna təzyiq olmaması. Turizm vasitəsilə yerli əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması və onların turizmin planlaşdırılması və idarə edilməsi proseslərinə cəlb edilməsi.

Bu istiqamətlər üzrə qısamüddətli vəzifələr turizmin davamlı inkişafı üçün əlverişli şərait yaratmaq, davamlı inkişafı konsepsiyasını və onun həyata keçirilməsinin konkret mexanizmlərini hazırlamaqdan ibarətdir.

Ümumilikdə, turizmin davamlı inkişafı üçün zəruri tədbirlərə aşağıdakılar daxildir:

- Bütün maraqlı tərəflərin - dövlət qurumlarının, biznes strukturlarının, ictimai birliklərin, elmi-tədqiqat və təhsil müəssisələrinin və turistlərin özlərinin səylərinin aydın əlaqələndirilməsi və birləşdirilməsi.
- Turizmin davamlı inkişafı prinsiplərinin tanınması və təcrübədə tətbiqi, destinasiyalarda turizmin davamlı inkişafı strategiyalarının işlənib hazırlanması.
- Turizmin inkişafı üçün mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, ətraf mühitə təsirin yol verilən maksimum normalarının, turistlərin davranış qaydalarının müəyyən edilməsi.
- Turizmin ətraf mühitə təsirinin qiymətləndirilməsi, destinasiyalar üçün dayanıqlı turizmin inkişafı göstəriciləri toplusunun müəyyən edilməsi, ətraf mühitin idarə edilməsi və auditinin aparılması, davamlı inkişaf yanaşmalarını tətbiq edən müəssisələr üçün sertifikatlaşdırma sisteminin işlənib hazırlanması kimi alətlərdən səmərəli istifadə edilməsi.

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNNOVASİYA POTENSİALI VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Nəzəfzadə K.V.
Sumqayıt Dövlət Universiteti
E-mail: kebiyye1999@gmail.com

Sərt və daim dəyişən bazar şəraitində hər bir müəssisə üçün yüksək rəqabət qabiliyyətini saxlamaq vacibdir və bu məsələdə müəyyənedici amillərdən biri müəssisənin innovasiya potensialıdır. Müəssisənin innovasiya potensialı öz inkişaf strategiyasını reallaşdırmaq üçün lazım ola biləcək resursların (maliyyə, elmi, maddi, informasiya, qeyri-maddi, əmək, kadr, texniki, texnoloji və s.) məcmusudur. İnnovasiya potensial müəssisənin miqyasından və xüsusiyyətlərindən asılıdır. İnnovativ potensial kapital sistemidir. Daha geniş mənada bu anlayış cəmiyyətin istənilən vaxt inkişaf üçün istifadə edə biləcəyi iqtisadi resursların ümumi məbləği kimi qəbul edilir. Həmçinin, innovasiya potensialı elmi-texniki, maliyyə, infrastruktur, sosial-mədəni və s. daxil olmaqla müxtəlif imkanların məcmusu kimi şərh olunur. Bu imkanların köməyi ilə yeni ideyalar işlənib həyata keçirilə bilər, yəni innovasiyalar əldə edilə bilər.

Beləliklə, innovasiya potensialı sənaye müəssisəsinin innovasiyaları yaratmaq və tətbiq etmək üçün istifadə edə biləcəyi bütün imkanlar və resurslar hesab edilə bilər.

Müəssisənin innovasiya potensialının əsas komponentləri aşağıdakılardır:

- maddi-texniki, əmək, informasiya və maliyyə resursları ilə təminat;
- tədqiqat və təkmilləşdirmə işləri;
- texnoloji inkişaf səviyyəsi; marketinq fəaliyyətinin effektivliyi;
- təşkilati struktur və idarəetmə sistemi.

İnnovativ potensialın inkişafı problemlərini daha yaxşı başa düşmək üçün ona təsir edən müxtəlif amillər nəzərə alınır. Müəssisənin innovasiya potensialına təsir edən xarici və daxili amilləri ayırmaq olar. Birinci qrup amillər innovasiya fəaliyyətinin tənzimlənməsi sahəsində dövlət siyasəti, sənayenin texnoloji inkişafının ümumi səviyyəsi, innovativ layihələr bazarı və digər şərtlərdir.

İkinci qrup amillər müəssisədə innovativ fəaliyyətin təşkili şərtləri, strategiyanın xüsusiyyətləri, innovativ layihələrin reallaşdırılması üçün komandaların formalaşdırılması, innovativ fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsi ilə birbaşa bağlıdır.

Müəssisənin innovasiya fəaliyyətinə müxtəlif amillərin təsirini aşağıdakı şəkil vasitəsilə təsvir edə bilərik.



Sənaye müəssisəsinin innovasiya potensialının inkişafında aşağıdakı mərhələləri müəyyən etmək olar:

1) Kapital və əmək amilləri hesabına innovasiya potensialının bilavasitə formalaşdırılması. Bu mərhələdə idarəetmə cəmiyyətin əsas ehtiyaclarını müəyyən etmək vəzifəsi ilə üzləşir;

2) Sənaye müəssisəsinin yeni texnologiyaların tətbiqi yolu ilə inkişafı prosesi. Bu mərhələdə müəssisə onun işçi qüvvəsinin bütün üzvlərinə müsbət təsir göstərən tamamilə yeni keyfiyyət səviyyəsinə tədricən keçid edir;

3) İnkişaf etmiş innovativ potensialın yayılması və ya tətbiqi. Bu mərhələdə müəyyən qaydaların mövcudluğu və ciddi şəkildə yerinə yetirilməsi tələb olunur. Onların olmaması müəssisənin innovasiya potensialının pisləşməsinə və məhsuldarlığının səviyyəsinin enməsinə gətirib çıxara bilər.

Müəssisənin mövcud olan innovasiya potensialının qiymətləndirmək zəruridir. Müəssisənin inkişafı ilə əlaqəli olan innovasiya potensialını qiymətləndirərkən vəzifələr iki müstəvidə qarşıya qoyula bilər: müəssisənin yeni layihəni həyata keçirməyə hazırlığının xüsusi qiymətləndirilməsi; artıq həyata keçirilən layihələrlə bağlı müəssisənin cari vəziyyətinin hərtərəfli qiymətləndirilməsi.

İnnovativ potensialın qiymətləndirilməsinin əsas vəzifəsinin qoyulma üsuluna uyğun olaraq iki mümkün qiymətləndirmə metodundan biri istifadə olunur: ətraflı və ya diaqnostik. Ətraflı təhlil əsasən yeniliyin mövcudluğunun əsaslandırılması və onun realizasiyası üçün layihənin hazırlanması mərhələsində aparılır.

Qeyd etmək lazımdır ki, diaqnostik təhlil müəyyən bacarıq və məlumat bazası tələb edir. Diaqnostik parametrlər olaraq, müəssisənin fəaliyyətinin müxtəlif aspektlərini (məsələn, işçilərin sayı, orta əmək haqqı, əmək məhsuldarlığı, məhsulun dəyəri, məhsul və xidmət keyfiyyəti və s.) xarakterizə edən mövcud məlumatlar istifadə olunur.

Bugünkü qeyri-sabit mühitdə yeni ekoloji tələbləri proqnozlaşdırmaq və onlara tez reaksiya vermək vacibdir. Müəssisənin bazarda mövqeyini itirməməsi üçün o, yeni istehsal və təşkilati texnologiyaları tətbiq etməyə, yeni məhsullar yaratmağa hazır olmalıdır. Buna görə də innovasiya potensialı müəssisənin rəqabət qabiliyyətinin saxlanması və davamlı inkişafının təmin edilməsində əsas amillərdən birinə çevrilir. Müəssisənin ayaqda qalması üçün o, innovasiya potensialını necə idarə edəcəyini başa düşməlidir. Müəssisənin innovasiya potensialını səmərəli idarə etmək üçün bir sıra vəzifələri həll etmək lazımdır: iki yanaşmadan (diaqnostik və ya təfərrüatlı) istifadə etməklə innovativ potensialı qiymətləndirmək; ən zəif tərəfləri müəyyən etmək; ən güclü tərəfləri müəyyən etmək; müəssisənin müəyyən edilmiş güclü və zəif tərəflərini təhlil etmək; neqativ amilləri zərərsizləşdirmək üçün tədbirlər hazırlayıb həyata keçirmək; innovasiya potensialını yenidən qiymətləndirmək; innovasiyaların tətbiqinin məqsədəuyğunluğu barədə idarəetmə qərarı qəbul etmək.

Müəssisənin innovasiya potensialından səmərəli istifadə aşağıdakıları nəzərdə tutur: maliyyə və maddi resursların, habelə müasir texnologiyaların ehtiyatlarının formalaşdırılması; müəssisədə innovativ fəaliyyətin inkişafına kömək edəcək sosial, psixoloji və mədəni amillərdən istifadə; müəssisə idarəetməsində demokratik üslubun üstünlüyü; öz aralarında üfüqi informasiya mübadiləsi ilə hədəf işçi qruplarının formalaşdırılması.

Müəssisənin güclü tərəflərini müəyyən etdikdən sonra onları effektiv rəqabət üstünlüklərinə çevirə bilmək vacibdir. Ona görə də müəssisə nəinki innovativ potensialını qiymətləndirməyi, həm də onu idarə

etməyi bacarmalıdır. Hazırda müəssisənin innovasiya potensialının idarə edilməsi üçün vahid ssenari yoxdur. Onun idarə edilməsi prosesi müəssisənin yenilikləri tətbiq etməyə hazırlığının artmasına təsir edən müxtəlif üsul və vasitələrin məcmusudur. Müəssisənin innovasiya potensialını formalaşdırmaq üçün rəhbərlik xeyli iş görməlidir. Əksər hallarda müəssisələrdə innovasiya fəaliyyəti nəinki kifayət qədər gərgin, həm də kifayət qədər ziddiyyətli prosesdir. Kadrların müxtəlif növ dəyişikliklərə və yeniliklərə kifayət qədər ümumi müqavimətini qeyd etmək lazımdır. Bu vəziyyətdə idarəetmə komandası heyətə müqavimət göstərməyə və münaqişəni yumşaltmağa yönəlmiş əlavə səylər göstərməlidir. Burada müəssisənin şəxsi heyəti innovasiyaların son məqsədləri, bu məqsədə uyğun olaraq rəhbərliyin qarşıya qoyduğu vəzifələr, həyata keçirilən fəaliyyətlərdə kadrların rolu haqqında nə qədər çox məlumatlı olsa, bir o qədər şansları artır.

Yekun olaraq deyə bilərik ki, innovasiya potensialı sənaye müəssisəsinin səmərəliliyini müəyyən edən mühüm komponentdir. İnnovativ potensialını inkişaf etdirmək üçün müəssisə bütün mövcud resursların məcmusundan istifadə etməlidir. Hər bir müəssisə üçün innovasiya potensialının idarə edilməsi üsulları fərqli ola bilər. Lakin müəyyən məqamda onların hər biri müəssisənin innovativ fəaliyyətləri planlaşdırması üçün zəruri ola bilər.

DÖVLƏT BÜDCƏSİNİN XÜSUSİYYƏTLƏRİ VƏ QANUNVERİCİLİK ƏSASLARI

Nəciyev M.E.
Bakı Biznes Universiteti
E-mail: masunnaciyev@gmail.com

Dövlət büdcəsindən yazmamışdan öncə ilk olaraq büdcə sözü haqqında məlumatlanaq. Büdcə sözünün kökü ingilis mənşəli olub "budget" ilk vaxtlar çanta, torba mənasında işlənilib. XVIII əsrdən başlayaraq maliyyə kateqoriyası kimi leksikona daxil olmuş, məna etibarı ilə xəzinə sözünə daha yaxın olmuşdu.

Azərbaycan Respublikasının qanuna əsasən büdcə-Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir. Büdcə vasitəsi ilə dövlət və bələdiyyə orqanları üzərlərinə düşən vəzifələri yerinə yetirir. Büdcə hesabına dövlət müvafiq idarəetmə aparatlarını və ordunu saxlayır, sosial-mədəni tədbirlər keçirdir, iqtisadiyyatı tənzimləyir və onu inkişaf etdirir. Büdcə həmçinin milli gəliri və Ümumimilli daxili məhsulu(ÜDM) yenidən bölgüsünü həyata keçirir.

Büdcənin mahiyyətini anlamaq üçün isə onu bir neçə kateqoriya ətrafında araşdırmaq lazımdı. Bu kateqoriyalar aşağıdakılardı: Büdcə-iqtisadi kateqoriya kimi, Büdcə-hüquqi kateqoriya kimi, Büdcə-maddi mənada

İqtisadi kateqoriya kimi büdcə müxtəlif büdcə fondlarının yaradılması, onun bölüşdürülməsi və istifadə olunmasını əks etdirir.

Hüquqi baxımdan büdcə mövcuq qanun vericiliklə müəyyən edilir, hazırlanır və dövlət hakimiyyət orqanları tərəfindən təsdiq olunur. Bu səbəbdən büdcə əsas maliyyə sənədi olaraq başa düşünülməlidir.

Maddi baxımdan isə büdcə dövlət və yerli özünüidarə orqanlarının vəzifə və funksiyalarının həyata keçirilməsi üçün müxtəlif səviyyəli mərkəzləşdirilmiş pul vəsait fondudur.

Qeyd etdiyimiz kimi, büdcə hüquqi sənəd kimi çıxış edir. Bu səbəbdən büdcə haqqında qanunlar, fərmanlar, aktlar hazırlanıb təsdiqlənir. Ölkəmizdə bu barədə ilk vaxtlardan xüsusi diqqət ayrılmış və ölkəmizin dövlət büdcəsinin təsdiqlənməsi, hazırlanması, onun istifadəsi və nəzarəti haqqında qanunlar tərtib olunmuşdur. Azərbaycan Respublikasının büdcə qanunvericiliyi dedikdə Azərbaycan Respublikasının Konustusiyası, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının qanunu, "Büdcə sistemi haqqında" qanuna uyğun olaraq qəbul edilən dövlət büdcəsi haqqında qanunlar və digər normativ aktlar, habelə Azərbaycan Respublikasının tərəftar çıxdığı beynalxalq müqavilələr nəzərdə tutulur.

Dövlət büdcəsi haqqında ilk qanun "Büdcə sistemi haqqında" qanun olub 1992-ci il 1 dekabrda qəbul edilmişdi və bu qanun 2002-ci ilə qədər öz qüvvəsində qalmışdı. Bununla bərabər 18 may 1999-cu il "Dövlət büdcəsi haqqında" xüsusi qanun tərtib olunmuş hansı ki, bu qanun 1992-ci il qanuna dəstək məqsədilə qəbul olunmuşdu. Lakin ölkədə aparılan iqsadi islahatlar mövcud maliyyə sektorunda boşluqları ortaya çıxartdı. Bu boşluqlar özünü büdcənin idarəsində, vergilərdə daha aydın şəkildə göstərdi. Ən böyük boşluqlardan biridə həmçinin hər bir il üzrə büdcə qanunun təsdiqinin müxtəlix vaxtlara təsadüf etməyi oldu. Məsələn, 1995-ci ilin büdcə qanunu həmin ilin sentyabr ayında təsdiq olunduğu halda, 1996-cı ilin qanunun həmin ilin martında təsdiqini tapmışdı. Göründüyü kimi 1995-ci il qanunu cəmi 7 ay qüvvədə qalmışdı. Buda ölkədə

aparılan iqtisadi, siyasi, sosial proseslerdən mənfi təsir göstərdi. Bu qanunda olan boşluqlar həmçinin 1999-cu ildəki qanunun paralel şəkildə işlənməsi, bələdiyyə və özünüidarəetmə orqanlarındakı boşluqlar bu qanunun yararsız olduğunu göstərdi və yeni hüquqi normalar əsasında yenidən qanunun qəbuluna zərurət yaratdı.

2002-ci ildə 2 iyulda o vaxtki dövlət başçımız Ulu öndər Heydər Əliyev tərəfindən sayca ikinci olan "Büdcə sistemi haqqında" qanun öz təsdiqini tapmışdır. Daha sonra bu qanun 2003-cü ildə yeni qəbul olunmuş qanunla əvəzləndi və bu qanuna əlavə düzəlişlər edilməklə qüvvədə qaldı.

Yeni qəbul olunmuş qanunun bir çox üstünlükləri vardı. Bu üstünlüklərdən ilki, əvvəlki illərdəki qanunlardan fərqli olaraq bu qanunda "Büdcə sistemi haqqında" qanunda istifadə olunan anlayışların izahı verilmişdi. Qanunun ilk maddəsi buna xidmət edir, məsələn burda büdcənin, büdcənin təsnifatının, büdcə ilinin, icmal büdcənin izahları veerilmişdir. Buda bu qanunun oxuyan hər kəs üçün anlaşıqlığı sağlıyır. Ikinci olaraq dövlət büdcəsinin mətbuatda dərcini qeyd etmək lazımdı. Bu qanunun 14-cü maddəsində əksin tapmış və qanuna əsasən lazımı sənədlərlə bir yerdə qanun layihəsi Milli Məclisə daxil olduqdan sonrakı 10 gün ərzində mətbuatda dərc olunmalıdı.

Qanuna əsasən büdcə sistemimiz Azərbaycan Respublikasının dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrdən ibarətdi. Yerli büdcələr rayon, kənd və qəsəbə bələdiyyə büdcəsindən ibarətdi. Dövlət büdcəmiz mərkəzləşdirilmiş gəlir və xərclərdən, həmçinin yerli gəlir və xərclərdən ibarətdi. Büdcə gəlirlərinin tərkib hissəsi 2004-cü ilin dekabr ayının 3-də yenidən formalaşdırıldı: Dövlət vergiləri, Qrantlar, Digər gəlirlər, Daxili və xarici mənbələrdən alınan qrantlar və transferlər, Azərbaycan Respublikasının qanun vericiliyi ilə müəyyən edilən digər daxil olmalar

Qanundan sonra ilk 3 maddə yenidən redaksiya edilmiş və son 2 maddə isə çıxarılmışdır.

Bu il üçün isə büdcə qanunu 29 dekabr 2020-ci il təsdiq olunmuşdu. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alınıb**.** Qanuna əsasən Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri 25 427 000,0 min manat, xərcləri isə 28 543 000,0 min manat təsdiq edilmişdi. Bundan əlavə olaraq, mərkəzləşdirilmiş gəlirləri 24 621 550,0 min manat, yerli gəlirləri 805 450,0 min manat, mərkəzləşdirilmiş xərcləri 27 683 368,0 min manat, yerli xərcləri 859 632,0 min manat təsdiq edilmişdi.

GÖMRÜK SİYASƏTİNİN ÖLKƏNİN XARİCİ TİCARƏTİNDƏ ROLU

Nəsirova A.N.
Sumqayıt Dövlət Universiteti
E-mail: nsirliaysel@gmail.com

Hər bir ölkənin iqtisadi müstəqilliyinin təmin edilməsi, onun daxili bazarının müdafiə edilməsi və ölkə istehsalına dayaq durmaq üçün gömrük siyasətinin həyata keçirilməsi çox əhəmiyyət kəsb edir. Burada yalnız Azərbaycan sahibkarlarının beynəlxalq kooperasiyaya cəlb edilməsini stimullaşdıran və xarici sənayeçilər ilə yerli subyektlərin vicdanlı rəqabətinə kömək edən zəif proteksionizm tədbirlərini tarazlaşldırmağa cəhd etməklə ölkə iqtsadiyyatında müsbət dəyişikliklərə nail olmaq olar.

Azərbaycanın gömrük siyasəti, ölkədəki iqtisadi və siyasi vəziyyətə təsir göstərən bütün amillər nəzərə alınmaqla qurulur. Demək olar ki, bu gün ixracın inzibati tənzimetmə vasitələrinin, hamısı ləğv edilmişdir. Lakin, ixrac kvotalarının və rüsumlarının ləğvi o demək deyildir ki, gömrük orqanları ixrac sövdələşmələrinə fikir verməməlidir. Ölkədə baş verə biləcək kapital axınının qarşısını yalnız iqtisadi metodlarla almaq olmaz. Burada ixrac hasilatının qaytarılması problemi əvvəlki kimi mühüm problemlərdən biri olaraq qalır.

İstehsalın və istehlakın milli strukturunun xüsusiyyətlərini nəzərə almaqla ölkənin iqtisadi inkişaf səviyyəsi, eləcə də müxtəlif obyektiv və subyektiv amillərin təsiri xarici ticarət tənzimlənməsi sisteminə, onun həyata keçirilməsi mexanizminə kompleks yanaşmaları tələb edir:

1. Milli iqtisadiyyat yüksək dərəcədə xarici iqtisadi əlaqələrdən asılıdır.

2. Keçmiş SSRİ dövlətləri ilə tarixən yaranmış təsərrüfat əlaqələri bu sahədə prioteritetlərdən biri kimi, MDB çərçivəsində iqtisadi inteqrasiyanın inkişafını tələb edir.

3. Azərbaycan Respublikası , iqtisadiyyatını inkişaf etdirmək istəyən ölkələr kimi, iqtisadi inkişaf səviyyəsini yüksəltmək məsələsini və dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiya olunma məsələsini eyni vaxtda həll etməlidir.

4. Dünya ticarətinin mövcud müasir sistemi xarici iqtisadi siyasətin sərt tələb və məhdudlaşdırmalarını bütün dövlətlər üçün irəli sürür ki, onlar da iqtisadiyyatını inkişaf etdirmək istəyən ölkələr üçün, o cümlədən də Azərbaycan üçün xüsusilə ağırdır.

5. Azərbaycan iqtisadiyyatı özünün texnoloji səviyyəsini yüksəltməyə və dünya bazarında rəqabət qabiliyyətli istehsal komplekslərini yaratmağa imkan verə bilən struktur yenidənqurmanı həyata keçirməlidir.

Gömrük siyasətinin optimallaşdırılmasına təsir edən ən mühüm və basilica amillərdən biri də gömrük tarifləridir. Gömrük tariflərinin norma səviyəsi həddən artıq yüksək olmamalıdır. Yəni onlar elə kəmiyyətdə olmalıdır ki, müvafiq məhsulun milli bazarının müdafiəsi üçün yetərli olsun, bir qayda olaraq idxal olunan malın qiymətini yerli malın qiymət səviyyəsinə qədər qaldırmağa və ya aksizli əmtəələrdə olduğu kimi büdcə məsələlərinin həlli üçün də imkan versin.

Rüsumların dəyişmə diapazonu da elə müəyyən edilməlidir ki, onların kəmiyyət qaydasını təyin etmək tamamilə mümkün olsun və eyni zamanda hökumətə milli və dünya bazarının konyunkturasında baş verə biləcək dəyişikliyə reaksiya vermək imkanı yaratsın.

Respublikanın Gömrük Qanunvericiliyinə uygun olaraq, idxal və ixrac əməliyyatlarında ƏDV və aksiz vergiləri nəzrərdə tutulur. 1964-cü il aprelin 10-da ilk dəfə olaraq Fransada ƏDV tutulmağa başlamışdır

Azərbaycan Respublikasında da ƏDV haqqında qanun və təlimatlar qəbul olunmuşdur. 1992-ci ilə qədər ƏDV-nin dərəcəsi 28% olmuşdursa, 2014-ci ildən 18%-ə endirilmişdir. Vergi Məcəlləsininnin müvafiq maddəsi ilə zərgərlik məmulatlarının, dəzgahların, avadanlıqların və qurğuların idxalı 01.01.2021-ci ildən 3 il müddətinə ƏDV-dən azad edilmişdir.

İdxal olunan mallara ƏDV-nin tətbiqi iki funksiyanı yerinə yetirir:1) xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, daha dogrusu daxili bazarda yerli və idxal mallarının arasındakı rəqabətin tənzimlənməsi; 2) dövlət büdcəsinin gəlir hissəsini doldurmaq üçün fiskal funksiyanın tənzimlənməsi.

Aksizlərin faizi, Azərbaycan Respublikasının «Vergi Məcəlləsi»nə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Hal-hazırda aksiz faizləri 10%-dən (qiymətli metal və gümüş məmulatı) 90 %-dək (içməli spirt hər litrinə 3.2 manat) dəyişir.

2021-ci ildə ildə gömrük orqanları dövlət büdcəsinə cəmi 4 342 969.10 min manat, o cümlədən 1 205 507.80 manat gömrük rüsumları, 2 930 723.00 manat ƏDV , 163 115.60 manat aksiz və 43 622.70 min manat yol vergisi ödənilməsini təmin etmişlər. 2020- ci ildə bu göstəricilər belə olmuşdur: gömrük rüsumları üzrə 1 016 609.00, ƏDV üzrə 2 741 485.00, aksizlər üzrə 143 511.10, yol vergisi üzrə 36 637.10 manat büdcəyə vəsait ödənilməsi təmin olunmuşdur.

Bu gün Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya olunur. Hal hazırda Azərbaycanın 65147 fiziki və hüquqi şəxsi 188 xarici ölkədə yerləşən partnyorlarla ticarət fəaliyyəti həyata keçirirlər. Bu sövdələşmələrin baş tutması və genişlənməsi üçün gömrük siyasətinin daim təkmilləşdirilməsinə ehtiyac var.

Azərbaycan Respublikasına 2021-ci ildə idxal olunan malların çeşidlərinin sayı 7440 ədəd ixrac olunan malların çeşidlərinin sayı 3 386 ədəd olmuşdur.

Rəqəmlərdən göründüyü kimi, ölkənin xarici ticarət saldosu müsbətdir. Lakin, ixracatın əmtəə strukturunda xam neftin, neft məhsullarının və təbii qazın payı 87.78 % təşkil edir, 2020-ci ildə bu göstərici 86,53 % təşkil etmişdir. 2021-ci ildə qeyri neft məhsullarının ixracı 12.22 % təşkil etmişdir. 2020-ci ilin göstəriciləri ilə müqayisədə, 2021-ci ilin ixracatında qeyri neft məhsullarının payı 1,25 % azalmışdır.

İxracatda qeyri-neft məhsullarının xüsusi çəksinin azalması bütün dünya ölkələrini əhatə edən Covid-19 pandemiyası ilə əlaqədardır. Ancaq 2020-ci il ilə müqayisədə əldə olunan ümumi gəlirlərin həcminin artması neft və qazdan gələn gəlirləri hesabınadır.

Azərbaycan Respublikası iqtisadiyyatının dünya neft bazarının konukturasından asılığını aradan qaldırmaq, ölkənin qeyri- neft sektorunun inkişafını təmin etmək və iqtisadiyyatı şaxələndirmək məqsədi ilə 2016-cı il 6 dekabr Azərbaycan Respublikasını Preizidentinin Fərmanı ilə - Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivliyi üzrə Strateji Yol Xəritəsi təsdiq edilmişdir.

Bu sənəd respublika iqtisadiyyatının rəqabətqabiliyyətliliyini daha da artırmaq, ölkədə əlverişli investisiya mühiti yaratmaq, əhalinin sosial rifahını yaxşılaşdırmaq, ölkədə azad rəqabət mühiti yaratmaq, digər bazarlara çıxışı və insan kapitalının inkişafına yardım etmək məqsədi ilə qəbul olunub.

Qəbul olunan sənəddə qeyd olunmuşdur ki, mənfi xarici təsir nəticəsində ölkədə yaranmış hər hansı vəziyyətdən çıxmaq üçün iqisadiyyatın şaxələndirilməsi, sabitləşdirilməsi və respublikanın dünya iqtisadiyyatına inteqrasiya olunması ilə müəssisələrin rəqabət qabiliyyətinin artırılmasına nail olunmalıdır. Eyni zamanda bu sənəddə qeyd edilir ki,ölkədə yeni iş yerlərinin yaradılması, təhsil və səhiyyənin, mənzil təminatının yaxşılaşdırılması, kommunal xidmətlərin və əhaliyə verilən ünvanlı sosial yardımın yaxşılaşdıırılması yolu ilə yoxsulluq azaldılacaq.

MAYONEZ VƏ MƏTBƏX YAĞLARININ KİMYƏVİ TƏRKİBİ VƏ ENERJİ DƏYƏRLİLİYİNİN ÖYRƏNİLMƏSİ

Orucova A.Y.
Azərbaycan Dövlət İqtisad Universiteti
E.mail:a.orucova2@mail.ru

Hazırda geniş istifadə olunan və yüksək qidalılıq dəyərliliyi ilə xarakterizə olunan yeyinti məhsullarından biri də mayonez və mətbəx yağlarıdır. Bu yağlar digər yeyinti məhsullarından tərkib və istehsal xüsusiyyətlərinə görə fərqlənirlər.

Belə ki, məlum olmuşdur ki, mayonezin tərkib hissəsinin əsasını bitki yağlarından-68%; sudan-25%; mineral maddələrdən-1,5%; üzvü turşulardan-0,6%; karbohidratlardan-2,6% vəzülali maddələrdən-0,3% təşkil olunmuşdur. Həmçinin mayonezin yüksək dəyərliyə sahib olması tərkibində mineral maddələrlə və vitaminlərlə zəngin olmasıdır. Belə ki, 50 mq% fosfor, 11 mq% maqnezium, 28 mq% kalsium, 48 mq% kalium və eləcə də dəmir izləri də mövcuddur.

Mayonezin tərkibində rast gəlinən vitaminlərdən isə karotin (provitamin A), E, C və D vitaminlərini göstərmək olar. Aparılan analizlər nəticəsində məlum olmuşdur ki, 100 qram mayonez yağı 928 k/kalori və ya 2624 k/coul enerjivermə qabiliyyətinə malikdir.

Həmçinin aparılan analizlərin nəticələrindən məlum olmuşdur ki, mayonezin tərkibində olan yağlar xırda kürəciklər formasında olduğu üçün bu yağlar orqanizm tərəfindən çox yaxşı mənimsəmə xüsusiyyətinə malikdir. Bu, onunla izah olunur ki, mayonezin tərkibində olan yağlar əsasən doymamış yağ turşularından ibarət olduğundan orqanizm tərəfindən yaxşı mənimsənilir və buna görə də tam dəyərli bioloji qada məhsulları qrupuna daxil edilir.

Mayonezin hazırlanmasında istifadə edilən reseptində sirkəni meyvə-giləmeyvə püresi , limon turşusu və həmçinin vitaminlərlə əvəz olunmaqla mayonezdən pəhriz və uşaq qida məhsullarının hazırlanmasında, həm də bundan hazırlanmış məhsullardan pəhriz qidası kimi də istifadə olunacaqdır.

Müasir şəraitdə qida rasionumuzda istifadə olunan yeyinti məhsullarından biri də mətbəx yağlarıdır. Bu yağlar kimyəvi tərkibcə digər yağlarda olduğu kimi üçatomlu spirt olan qliserindən və müxtəlif yağ turşularından əmələ gələn mürəkkəb efirlərdən ibarətdir.

Ancaq qeyd etmək lazımdır ki, mayonezdən fərqli olaraq bu yağların istehsalında hidrogenləşdirlimiş bitki yağlarından istifadə olunur və bu da nəticədə mətbəx yağlarının tərkibində doymamış yağlar deyil, doymuş yağlar üstünlük təşkil edir.

Mətbəx yağlarının istehsalında istifadə olunan hidrogenləşdirilmiş yağların əsas xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu yağlar yüksək temperaturda katalizatorun köməyi ilə doymamış yağ turşusunun hidrogenlə birləşməsindən əmələ gəlir. Məhz bu üsulla alınmış yağa hidrogenləşmiş və yaxud salomaş adlanır. Belə alınmış yağda yod ədədi az olur.

Aşağıdakı cədvəldə mətbəx yağlarının tərkib xüsusiyyətləri və enerji dəyərliliyi haqqında ətraflı məlumat verilmişdir:

Müxtəlif çeşidli mətbəx yağları	Kimyəvi tərkib hissəsi, %-lə				Enerji dəyərliliyi	
	Yağ	Kül izi	Su	Vitamin A	Kilo-kalori	Kilo-coul
Qənnadı yağları	99,8	izi	0,4	Izi	898	3754
Prima yağı	99,8	izi	0,4	Izi	898	3754
Yenilik yağı	99,6	izi	0,4	Izi	898	3754
Belarusiya yağı	99,8	izi	0,4	Izi	898	3754
Şərq yağı	99,8	izi	0,4	Izi	898	3754
Ukrayna yağı	99,6	izi	0,4	Izi	898	3754

Cədvəldən göründüyü kimi istehsal olunan mətbəx yağlarının tərkibində bioloji maddələr yoxdur. Yalnız onların tərkibində 96,6%-yağ və 0,4%-su vardır.

Bioloji maddələrinin olmamasının əsas səbəbi məhz mətbəx yağlarının rafinasiya olduğu üçün onların tərkibindən ayrılmasıdır.

RESPUBLİKAMIZIN TİCARƏT ŞƏBƏKƏSİNDƏ REALİZƏ OLUNAN MAYONEZ VƏ MƏTBƏX YAĞLARININ KEYFİYYƏTİNİN EKSPERTİZASI

Orucova A.Y.
Azərbaycan Dövlət İqtisad Universiteti
E.mail: a.orucova2@mail.ru

Son dövrdə əhali tərəfindən geniş istifadə olunan qida məhullarından biri də mayonez və mətbəx yağlarıdır. Hazırda respublikamızın ticarət şəbəkəsində bu yağlar olduqca müxtəlif çeşiddə realizə olunurlar. Lakin realizə olunan bu yağların qidalılıq dəyərinin nə qədər yararlı olmasını müəyyən etmək üçün xüsusi ekspertizanın aparılması vacib amillərdən biri hesab olunur. Bu məqsədlə mayonez və mətbəx yağlarının keyfiyyət göstəricilərinin qiymətləndirilməsi üçün daxil olunmuş mal partiyasından nümunələr götürülərək, onun üzərində ekspertiza aparılaraq bu yağların keyfiyyət göstəricilərinin mövcud standartların tələblərinə uyğunluğu müəyyənləşdirilir. Məhz aparılan ekspertizadan alınan nəticələr əsasında realizə olunan mayonez və mətbəx yağlarının qida üçün nə qədər yararlı olması haqqında düzgün məlumat verilmiş olacaqdır.

Mayonez və mətbəx yağlarının keyfiyyətinin ekspertiza edilməsində əsas məqsəd bu yağların istehsal texnologiyasına riayət edilməklə bərabər, həmçinin bu yağların orqanoleptiki və fiziki-kimyəvi keyfiyyət göstəricilərinin standartlara uyğunluğunun müəyyən olunmasıdır.

Mayonez və mətbəx yağlarının keyfiyyəti göstəricilərinin mövcud beynalxalq standartlara və müəyyən teniki sənədlərə uyğunluğunu müəyyən etmək üçün 2 əsas üsulla: orqanoleptiki və fiziki-kimyəvi təyin olunmuşdur.

Mayonez və mətbəx yağlarının orqanoleptiki üsulla keyfiyyət göstəricilərinin ekspertizası.

Orqanoleptiki üsulla mayonez və mətbəx yağlarının keyfiyyət göstəricilərinin qiymətləndirilməsi zamanı onların konsistensiyası, xarici görünüşü, rəngi, iyi, dadı və şəffaflığı müəyyən olunmuşdur.

Mayonez və mətbəx yağlarının dad və iyinin təyin edilməsi 16-20˚C-də onları qızdırmaqla təyin olunur. Mayonez və mətbəx yağlarının konsistensiyasının təyin edilməsi isə 16-20˚C-də qızdırmaqla, metal ştapellə yağa təsir etməklə yerinə yetirilir.

Mayonez və mətbəx yağlarının orqanoleptiki üsulla keyfiyyət göstəricilərinin ekspertizasını aparmaq məqsədilə ilkin nümunə mayonezin "Provansal" çeşidindən götürülmüşdür. Analiz üçün götürülmüş mayonezin bu çeşidi pastavari formada olub, çəkisi isə 250 qram olmuşdur. Rənginin çeşidinə uyğun olaraq açıq-sarımtıl olduğu müşahidə edilmişdir. Aparılan analiz zamanı mayonezin dad və iyində kənar iylərin olması müşahidə edilməmişdir.

Analiz üçün nümunə olaraq mayonezin digər bir çeşidi olan "Arzu" mayonezi götürülmüşdür. Bu mayonezin çəkisi 192 qram, rəngi sarımtıl-kremi, konsistensiyası yaxılan, bircinsli, qatı xamayabənzər, dadı zəif, bir qədər tünd, turşməzə olduğu müşahidə edilmişdir.

Sonra təhlilin aparılması məqsədilə nümunə mətbəx yağının "Final" yağından götürülmüşdür. Analiz üçün götürülmüş bu yağın tərkibi 100% bitki yağından, A vitaminindən, D vitaminindən ibarət olduğu müəyyən olunmuşdur. Bu yağın çəksi 1 kq olub, konsistensiyası yaxılan, dad və iyində isə kənar iylər müşahidə edilməmişdir.

Ümumiyyətlə, mayonez və mətbəx yağlarının orqanoleptiki üsulla keyfiyyət göstəriciləri 30 ball sistemi ilə qiymətləndirilir. Belə ki, aparılan qiymətləndirmə zamanı mayonezin rənginə 3ball, konsistensiyasına 9 ball, dad və iyinə isə 18 ball verməklə qiymətləndirilmişdir. Aşağıdakı cədvəldə mayonezin ball sistemi üzrə qiymətləndirilməsi orqanolepriki keyfiyyət göstəriciləri haqqında ətraflı izahat verilmişdir:

Mayonezin orqanoleptiki keyfiyyət göstəriciləri	Mayonezin mövcud standart üzrə ball qiyməti	Analiz zamanı qiymətləndirilən ball qiymətləri
Rəngi	3	3
Konsistensiyası	9	8
Dad və iyi	18	17
Cəmi	30	28

Mayonez və mətbəx yağlarının fiziki-kimyəvi üsulla keyfiyyət göstəricilərinin ekspertizası.

Fiziki-kimyəvi üsulla aparılan ekspertiza zamanı mayonez və mətbəx yağlarında yağın miqdarı, suyun, turşuluğun, emulsiya davamlığı, donma və ərimə temperaturu təyin olunmuşdur.

Mayonez və mətbəx yağlarında yağın miqdarını təyin etmək üçün ilkin nümunə mayonezin "Provansal" çeşidindən götürülmüşdür. Analiz 3 mərhələdə aparılaraq açağıdakı nəticələrə nail olunmuşdur: 1-ci mərhələ-63,93%; 2-ci mərhələ-63,92%; 3-cü mərhələ-63,90%.

Aparılan analizdən aydın oldu ki, mayonezin "Provansal" çeşidində yağlılığın orta qiyməti 63,92% olmuşdur.

Yağın miqdarının təyini məqsədilə nümunə olaraq mayonezin digər bir çeşidi olan "Arzu" mayonezi götürülmüşdür və analiz nəticəsində aşağıdakı qiymətlərə nail olunmuşdur: 1-ci mərhələ-50,30%; 2-ci mərhələ-50,32%; 3-cü mərhələ-50,31%.

Aparılan analizdən aydın oldu ki, mayonezin "Arzu" çeşidində yağlılığın orta qiyməti 50,31% olmuşdur.

Yağın miqdarının təyini məqsədilə nümunə mətbəx yağının "Final" yağından götürülmüşdür və analiz nəticəsində aşağıdakı qiymətlər alınmışdır: 1-ci mərhələ-95,80%; 2-ci mərhələ-95,81%; 3-cü mərhələ-95,79%.

Aparılan analizdən aydın oldu ki, mətbəx yağının "Final" çeşidində yağlılığın orta qiyməti 95,80% olmuşdur.

AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNƏ İNVESTİSİYA CƏLB EDİLMƏSİNİN ARTIRILMASI VƏ ONLARIN HƏLLİ YOLLARI

Paşazadə R.M.
Bakı Biznes Universiteti
E-mail: revan_pashazade@mail.ru

Müasir şəraitdə investisiya cəlbediciliyini təmin etmək üçün problemlər və onların həlli yolları ən çətin məsələlərdən biri hesab olunur. Qlobal maliyyə böhranı və artımdan sonra qlobal təhdidlər, artan qlobal əməliyyat riski səbəbindən xarici investisiyaların cəlb edilməsi xeyli çətinləşdi. Bundan əlavə, COVID-19-un mənfi nəticələrini nəzərə alaraq, bütün dünyada maliyyə və investisiya fəallığı azalıb və maliyyə və investisiya axınlarının ritmini və dinamizmini bərpa etmək bir ildən çox vaxt aparacaq

Dünya tarixində çoxlu sayda dağıdıcı müharibələr, münaqişələr olub, onlar milyonlarla insanın həyatına son qoyub, kəndlər və şəhərlər, ölkələr və rayonlar xarabalığa çevrilib. Lakin istənilən müharibənin öz məntiqi nəticəsi var və ondan sonra mənfi nəticələri aradan qaldırmaq, kəndləri, qəsəbələri, şəhərləri bərpa etmək, insanların öz doğma yurdlarına qayıtmasını təmin etmək, sosial-iqtisadi inkişafa təkan vermək lazımdır. Məsələn, İkinci Dünya Müharibəsinin nəticələri belə oldu: 80 milyona yaxın insan həlak oldu, 1,7 milyard insan müharibənin ağır nəticələrini yaşadı.

Vurğulamaq lazımdır ki, Qarabağ bölgəsində aparılan bərpa işləri daha cəlbedici investisiya mühitinin yaradılmasını, bu bölgəyə daxili və xarici investisiyaların fəal şəkildə cəlb edilməsini zəruri edir. Dünya təcrübəsinə əsaslanaraq ən müasir və yüksək texnologiyalardan istifadə etməklə "ağıllı kəndlər" və "ağıllı şəhərlər"in salınması nəzərdə tutulur . Bundan əlavə, "Qarabağ Dirçəliş Fond"-u, ona əsasən də Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə Müşahidəçilər Şurasının tərkibi təsdiq edilib . Bu fondun əsas missiya və vəzifələri alternativ maliyyə və investisiya variantlarını cəlb etmək, bərpa işlərinin sürətləndirilməsi üçün daha səmərəli maliyyə-investisiya mexanizmlərinin işlənib hazırlanması və həyata keçirilməsi, regionun resurslarının iqtisadi təsərrüfat dövriyyəsinə cəlb edilməsidir. Vurğulamaq vacibdir ki, Qarabağ regionunun resurs potensialının reallaşdırılması daha məhsuldar əlavə dəyər mənbələrinin formalaşmasına, daimi iş yerlərinin açılmasına, sahibkarlığın və ümumilikdə biznes mühitinin inkişafının sürətləndirilməsinə öz töhfəsini verəcək. Qarabağ bölgəsinin iqtisadi potensialının səmərəliliyinin təmin edilməsi nəticəsində bütövlükdə ölkə iqtisadiyyatının artımı 10% artacaqdır . Qarabağda, xüsusilə kənd təsərrüfatı, kənd təsərrüfatı sahələrində, turizm sektorunda ölkə iqtisadiyyatının inkişafının yeni hərəkətvericiləri formalaşacaq. Sıfırdan regionun tranzit potensialının inkişafını sürətləndirəcək nəqliyyat-logistika strukturu yaradılır . Yerli və xarici ekspert-iqtisadçıların, ictimai xadimlərin və siyasətçilərin fikrincə, Qarabağ böyük iqtisadi potensiala malikdir və pandemiyadan sonrakı və müharibədən sonrakı yenidənqurma işləri dövründə əsas vəzifə bərpa işlərinin intensivləşdirilməsi üçün adekvat şəraitin yaradılmasından və torpaqlardan səmərəli istifadə edilməsindən ibarətdir. təbii və iqtisadi ehtiyatlar,

məhsuldar qüvvələr. Professor A.Musayev və tədqiqatçı M.Zeynalov qeyd edirlər ki, Qarabağ bölgəsinin bərpa işlərinin intensivləşdirilməsi və inkişafını sürətləndirmək üçün Azərbaycanın güclənməsi ilə yanaşı, xarici dəstəyə də ehtiyac var ki, bu da Azərbaycan Respublikası Prezidentinin sərəncamlarının həyata keçirilməsində kifayət qədər mühüm amildir. Planlı bərpa işləri və sürətləndirilmiş sosial-iqtisadi inkişafın təmin edilməsi bütövlükdə Qarabağ regionunun inkişafına müsbət təsir göstərəcəkdir.

Bundan əlavə, qeyd edirik ki, "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri" sənədində Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə ölkə iqtisadiyyatının qeyri-neft sektorunun strateji məqsəd və vəzifələri, o cümlədən Qarabağın dirçəlişinin prioritet istiqamətləri müəyyən edilmişdir . Bütün bu amillər və reallıqlar daha cazibədarlığın formalaşmasına gətirib çıxardır və regionda bütün tərəflərin, ilk növbədə potensial investorların maraqlarına cavab verəcək adekvat investisiya mühiti yaradır.

Beləliklə, yaxın gələcəkdə Qarabağ regionunun investisiya cəlbediciliyinin artırılması üçün bir sıra mühüm tədbirlərin həyata keçirilməsi və mexanizmlərin tətbiqi zəruri olacaq:

- İlk növbədə, Qarabağ regionunda müasir reallıqlar və münaqişədən sonrakı dövrün vəzifələri nəzərə alınmaqla daha münasib investisiya siyasətinin və investisiya fəaliyyəti mexanizmlərinin işlənib hazırlanması və həyata keçirilməsinə konseptual və adekvat yanaşmalar təmin edilməlidir.
- Qarabağ bölgəsinin sosial-iqtisadi inkişafı, kəndlərin salınması, bərpa işlərinin və iri layihələrin həyata keçirilməsində investisiya resurslarının formalaşdırılması, cəlb edilməsi, bölüşdürülməsi və onlara nəzarət mexanizmlərinin səmərəli istifadəsi üçün infrastruktur şəbəkəsinin və institusional mühitin yaradılması tələb olunur. qəsəbələr və şəhərlər, avtomobil və dəmir yolları, beynəlxalq hava limanları və s.
- Qarabağ bölgəsinin bərpa işlərində investisiya axınının intensivləşdirilməsi və s. məqsədilə beynəlxalq maliyyə institutları, dünyanın investisiya və sığorta şirkətləri ilə sıx qarşılıqlı əlaqənin və əməkdaşlığın təmin edilməsi vacib hesab edilir.

SAHİBKARLIQ FƏALİYYƏTİNİN DAYANIQLI İNKİŞAFINDA İNNOVASİYA FƏALİYYƏTİNİN ROLU

Piriyeva L.Ş.
Azərbaycan Dövlət Aqrar Universiteti

Aqrobiznes sferasında innovasiya fəaliyyəti sahibkarlıq fəaliyyətinin nəticələrinə birbaşa təsir göstərir, sahibkarlara öz rəqiblərindən güclü olmağa və bazarda qalmağa müsbət təsir göstərir. Müasir dövrdə sahibkarlıq fəaliyyətində innovasiya kriteriyasının yüksəldilməsinə dayanaqlı inkişafın mühüm istiqaməti kimi baxılır. Avstriya iqtisadçısı Y.Şumpeter qeyd edirdi ki, innovasiyaya can atmaq sahibkarı səciyyələndirən, iqtisadiyyatın resurslarından biri kimi sahibkarlığı stimullaşdıran vacib bir amildir. O, eyni zamanda bu sferada həm də aralıq strukturun mühümlüyünüdə əsaslı şərh eirdi. Şumpeter göstərirdi ki, innovasiya sahibkara onun tətbiqi haqqında qərarın qəbul edilməsi prosesindəki riskə görə stimul və kompensasiya olaraq yüksək gəlir təmin edən müvəqqəti renta verir. Ətraf mühitdə yeniliyin tətbiqinin genişlənməsi və başqa müəssisələr tərəfindən təqlid edilməsi bu rentanı risk qarşısında qoyur. İnnovasiyalı müəssisə izafi mənfəətinin bir hissəsini bazarda yaranan vəziyyətə uyğun yeni elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi üçün ayırmalıdır.

İqtisadiyyatda innovasiya fəaliyyətinə meyil həm ayrı-ayrı şirkətlərin ilkin rəqabət qabiliyyətindən, sahibkarların dünyagörüşündən və psixologiyasından, həm də elmin inkişaf səviyyəsindən və keyfiyyətindən asılıdır. İnnovasiyaların müəyyən səciyyəvi elementləri olduğundan sahibkar tədqiqatlara sərmayə qoyulmasında maraqlıdır. İnnovasiyaların, həmçinin ətraf mühitə təsir elementləri olduğundan onlar sənaye dəyişikliklərinin və ümumi iqtisadi artımın dinamikasına da təsirsiz qalmır. Bu, cəmiyyətlə hər bir sahibkarın maraqları arasında əlaqə olduğunu təsdiqləyir.

İnnovasiya dövlətin verdiyi bilik və bacarıqlar əsasında yaradıldığına və həyata keçirildiyinə görə, ona ictimai nemət kimi baxmaq lazımdır. Bu, ictimai nemətlərin həmin növünə dövlətin müdaxiləsi deməkdir. O cümlədən elm və tədqiqatlara çəkilən xərcin böyük hissəsini dövlət verir. Bununla belə, hər hansı elmi bilikdən istehsalatda istifadə edilməsində başlıca məqsəd, ilk növbədə, gəlir əldə etmək imkanları ilə bağlıdır. İnnovasiyanın meydana çıxması, bir tərəfdən, məhsuldarlığın artırılmasına, digər tərəfdən bazarda fəallığın yüksəlməsinə, yeni bazarların formalaşmasına kömək edir. Bu da ümumi iqtisadi artıma gətirib çıxarır.

Azərbaycanda iqtisadi inkişafın və iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsinə imkan verən bir vasitə kimi innovasiya fəaliyyətinin genişlənməsini daim diqqətdə saxlanılır. Milli innovasiya sisteminin komponentlərinin yaxşılaşdırılması, xüsusən, innovasiya fəaliyyətini dəstəkləmək üçün dövlət institutlarının yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Sahibkarlığın inkişaf etdirilməsi, sahibkarın uğur qazanması üçün əlverişli şəraitin mövcudluğu vacib şərtdir. Sahibkarlıq müəyyən şəxsi keyfiyyətlər tələb etsə də, sahibkarlıq istedadı olmayanlar da bu fəaliyyətin "texnologiyası"na yiyələnə bilərlər. Sahibkarlığın dəstəklənməsi iş yerlərinin yaradılmasına və iqtisadiyyatın inkişafına yönələn digər siyasi tədbirlərə zəruri əlavədir.

İnnovasiya fəaliyyətinin inkişafına və ya sahibkarlığın möhkəmləndirilməsinə təkan verən tədbirlərin təsirliliyi bir çox hallarda baza şərtlərindən də asılıdır ki, bu da daim siyasi diqqət obyekti olmalıdır. Azərbaycanda innovasiya fəaliyyətinin sürətlənməsi və intensivləşdirilməsi, şübhəsiz ki, innovasiyalı sahibkarlıq üçün əlverişli mühitin yaradılması prosesinin dərinləşməsindən bilavasitə asılıdır. Bunun üçün hökumət sahibkarlıq fəaliyyətinin meydana çıxan problemlərinə müntəzəm diqqət yetirməklə innovasiyalı sahibkarlığı stimullaşdıran daha əlverişli sahibkarlıq mühiti formalaşdırılmasını təmin etməli, sahibkarların uğurlu fəaliyyətinə mane olan amilləri aşkarlamaq üçün onlarla dialoqu genişləndirməlidir.

FAKTORİNQ BİZNESİN MALİYYƏLƏŞDİRİLMƏSİNİN MÜASIR ALƏTİ KİMİ

Pirverdiyev M.E.
Bakı Dövlət Universiteti
E-mail: pirverdiyev.muzeffer@gmail.com

Maliyyə xidmətləri bazarlarında bir tərəfdən maliyyə şirkətləri ilə banklar arasında rəqabət güclənir, innovativ texnologiyalar tətbiq edilir, ənənəvi maliyyə sxemləri və modelləri təkmilləşdirilir, digər tərəfdən isə maliyyə xidmətlərindən istifadə edən şirkətlərin yeni, daha effektiv və kompleks maliyyə alətlərinə ehtiyacları yaranır. Hazırki vaxtda belə maliyyələşdirmə alətlərindən biri faktorinqdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 655.1-ci maddəsində deyilir: "Faktorinq pul tələbinin güzəşt edilməsi müqabilində maliyyələşdirmədir. Faktorinq müqaviləsinə görə bir tərəf (faktor) üçüncü şəxs (borclu) barəsində müştərinin (kreditorun) üçüncü şəxsə mal verməsindən, işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbinin hesabına digər tərəfə (müştəriyə) pul vəsaiti veriri və ya verməyi öhdəsinə götürür, müştəri isə bu pul tələbini faktora güzəşt etməyi öhdəsinə götürür".

Faktorinq xidmətlərini malgöndərənlərin mühasibat, informasiya, təchizat, sığorta, hüquq və digər xidmətlərlə əlaqədar kommersiya krediti şəklində əmtəə və xidmətlərin reallaşdırılması prosesində kontragentlər arasında yaranan ödənilməmiş müqavilə öhdəliklərinin faktorinq şirkəti tərəfindən güzəşt edilməsi kimi xarakterizə etmək olar.

Dünya praktikasında kiçik və orta biznesin maliyyələşdirilməsində faktorinq ümumən qəbul edilmiş müasir maliyyə alətidir, ona dövlət və mərkəzi bank tərəfindən böyük dəstək verilir. Faktorinq xidmətləri bazarları Asiya və Latın Amerikası ölkələrində, həmçinin Mərkəzi və Şərqi Avropa ölkələrində sürətlə inkişaf edir, maliyyə institutları sözügedən bazarlara aktiv daxil olurlar. Xarici iqtisadi fəaliyyətlə məşğul olan şirkətlər üçün faktorinq ən effektiv maliyyə alətinə çevrilmişdir, hansıki onlara az risk və xərclə beynəlxalq əmtəə və xidmətlər bazarlarına daxil olmağa və mürəkkəb hesablaşma formalarından qaçmağa imkan verir. Bundan əlavə, faktorinq borc götürənlərin maliyyə vəziyyətinə kommersiya banklarının yüksək tələbi və girov qoyulmasının vacibliyi ilə bağlı kreditə əlçatanlığı olmayan kiçik və orta biznes subyektləri üçün daha faydalıdır.

Faktorinqin tarixi inkişaf mərhələlərinin təhlili göstərir ki, başlanğıc mərhələlərində faktorinqdən göndərilən məhsula görə ödəniləcək pulu ödəməmə və borcun inkasso edilməsi risklərindən sığorta aləti kimi istifadə edilmiş, sonradan tələb hüququnun pozulmasına görə maliyyələşdirmə funksiyası və debitor borclarının mühasibat uçotunun təşkili, alıcılara yola salınmış yüklərə nəzarət, konsaltinq və s. xidmətlər əlavə edilmişdir.

Faktorinq funksiyalarında baş vermiş bütün dəyişikliklər zamanın çağırışları, xarici iqtisadi və siyasi amillərin təsiri altında olmuşdur.İştənilən zaman kəsiyində cəmiyyətin mövcud vəziyyəti ictimai tələbatın məcmusu ilə müəyyən edilir, hansıki faktorinqin dayanıqlı və davamlı inkişafı ilə şərtlənir.Təsərrüfat subyektlərinin əmtəə-pul münasibətlərində kommersiya (əmtəə) kreditindən istifadə edilməsi faktorinq xidmətləri bazarının formalaşması üçün əsas zəmin və şərt olmuşdur. Ticarət münasibətlərində kommersiya

kreditindən istifadənin həcmi artdıqca faktorinq xidmətlərindən istifadəyə tələbat daha çox artmağa başlamışdır .

Beləliklə, faktorinq hazır məhsulların təchizatı ilə məşğul olan ticarət agentlərinin kommersiya-maliyyə əməliyyatlarından yaranmış və kompleks maliyyə xidməti göstərməsinə yönəldilmiş maliyyələşdirmə mexanizminə transfer olmuşdur. Qeyd etmək lazımdır ki, faktorinq hələ XIV əsrdə inkişaf etməyə başlamış, sonradan bir sıra vacib tarixi mərhələlərdən keçmiş, hansıki hər birində zamanın tələbi, rəqabət, qanunvericilik və əmtəə bazarlarının cari vəziyyəti ilə şərtlənən özünün spesifik əlamətlərini əldə etmişdir. Faktorinqin mexanizminin dəyişilməsilə təsərrüfat subyektlərinin də faktorinq xidmətlərinə münasibəti dəyişilmişdir, indi faktorinq bank kreditinin alternativi deyil, sərbəst maliyyə alətidir. Bundan əlavə, son illər faktorinq mühasibat uçotu, informasiya, təchizat, sığorta, kredit və hüquq daxil olmaqla universal maliyyə xidməti sisteminə çevrilmişdir.

Faktorinqin tarixi inkişaf mərhələrinin müqayisəli təhlili göstərir ki, faktorinq xidmətləri bazarının formalaşması və inkişafı üçün əsas zəmin təsərrüfat subyekrtərinin fəaliyyətində kommersiya kreditindən istifadə olmuşdur. Faktorinqin bütün növlərinə xas olan əsas bir prinsip var – faktorinq şirkətinin pul tələbi hüququnun baxışlanılmasıdır.

Faktorinq biznesin, xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsinin sərbəst, müasir alətidir. O, bank krediti və risklərin sığortalanması ilə rəqabət aparmır, əksinə bu maliyyə xidmətləri bir-birini tamamlasalar daha faydalı olardı

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN DAVAMLI İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

Qəribov S.S.
Sumqayıt Dövlət Universiteti
E-mail: senangs2001@gmail.com

Sənaye müəssisələrinin inkişafının davamlılığı onların fəaliyyətinin səmərəliliyinin artırılması və davamlı inkişafı üçün xarici mühitin təsirinin nəzərə alınması və müəssisə daxilində idarəetmənin təkmilləşdirilməsi əsasında təmin edilməlidir. Hər bir müəssisə üçün təkcə dayanıqlılığı qorumaq deyil, həm də davamlı inkişafa nail olmaq vacibdir. Müəssisənin davamlı inkişafının mümkünlüyünü qiymətləndirmək üçün ona təsir edən amilləri təhlil etmək lazımdır. Müəssisələrin fəaliyyəti çoxsaylı və müxtəlif amillərdən asılı olan bir-biri ilə əlaqəli iqtisadi proseslərin məcmusudur. Bir-biri ilə sıx əlaqədə olan bu amillər çox vaxt müəssisənin həyatının nəticələrinə müsbət və mənfi olmaqla müxtəlif istiqamətlərdə təsir göstərir. Bəzi amillərin mənfi təsiri digərlərinin müsbət təsirini azalda bilər.

Müəssisənin xarici mühitlə daimi əlaqədə olan bir sistem kimi nəzərdən keçirilməsi amillərin klassik olaraq xarici və daxili bölünməsinə gətirib çıxarır. Bu bölgü çox vacib kimi görünür. Bazar şəraitində müəssisənin fəaliyyətinin bütün sahələrini nəzərə alaraq, bütün amilləri aşağıdakı şəkildəki kimi təsnif etməyi təklif edirik. Müəssisənin davamlı inkişafına təsir edən daxili amillərə aiddir.

1. Müəssisənin işçi heyəti. Davamlı inkişaf vəziyyətinə nail olmaq istəyən müəssisə, kadrların idarə edilməsi sisteminin fəaliyyətində daim dəyişikliklər etməlidir. Çünki, kadrlar müəssisənin ən vacib resurslarından biridir. Bu konsepsiyanın tərəfdarlarına görə davamlı inkişaf fiziki, təbii, insan və sosial kimi dörd növ qlobal kapitalın formalaşmasını tələb edir ki, bunlar bir-birini qarşılıqlı şəkildə zənginləşdirir və tamamlayır. Kadrların idarə edilməsi məsələlərini həll edərkən insan və sosial kapitala xüsusi diqqət yetirilməlidir. Sosial rifahı, işçilərin yüksək mədəniyyətini, onların nizam-intizamını, dürüstlüyünü, yüksək özünə nəzarəti təmin etməklə sosial kapitalın artımı problemlərini həll etmək mümkündür. İnsan kapitalının artımı müəssisənin sağlamlığını qorumaq, işçilərin təhsil və peşəkarlıq səviyyəsini yüksəltmək üçün xərclərinin kifayət qədər artması ilə baş verir. Müəssisənin işçilərinin təhsil və peşə səviyyəsinin yüksəldilməsinin müasir yollarından biri distant təhsil sisteminin, kadrların qiymətləndirilməsi və inkişafı üçün avtomatlaşdırma sistemlərinin tətbiqidir. Deməli, kadrların hazırlanması və təkmilləşdirilməsi müəssisənin sabit və uğurlu fəaliyyətinə səbəb ola bilər.

2. Korporativ mədəniyyət. İnsan amili hazırda müəssisənin rəqabət qabiliyyətini və davamlılığını müəyyən edir. Buraya yüksək peşəkarlıq, biznesə məsuliyyətli münasibət, işçi heyəti arasında müəssisənin missiya və məqsədlərini başa düşmək və qəbul etmək daxildir. Bütün bu keyfiyyətlər müvafiq korporativ mədəniyyət vasitəsilə əldə edilir. Korporativ mədəniyyətin xüsusiyyətləri müəssisəyə lazımi çeviklik əldə etməyə imkan verir ki, bu da onu ciddi nəticələrə səbəb olan uğursuzluqlara qarşı davamlı edir. Müəssisənin korporativ mədəniyyəti istehlakçı tələbindəki dəyişikliklərə, tədarük zəncirindəki dalğalanmalara və istehsal

problemlərinə tez və effektiv cavab verməlidir. Korporativ mədəniyyətin elementləri bir-birini tamamlayaraq xarici təsirlərə və daxili uğursuzluqlara qarşı davamlı bir sistem təşkil edir. Korporativ mədəniyyət prinsipləri ilə əlaqəli fəaliyyətlər arasındakı əlaqənin öyrənilməsi bütövlükdə müəssisənin uğurunun səbəblərini anlamağa imkan verir. Korporativ mədəniyyət rəqabət üstünlüyünün yaradılmasında mühüm rol oynaya bilər. Korporativ mədəniyyət müəssisənin daha çevik olmasını təmin etməklə onun dayanıqlığını artırır. O, işçilərə gözlənilməz hadisələrə tez və adekvat reaksiya verməyə imkan verən fəaliyyət kursunu müəyyən edir. Çeviklik və davamlılığı təşviq edən mədəniyyət elementlərinə müxtəlif təşkilatlarda rast gəlmək olar. Çevik korporativ mədəniyyətin struktur elementləri arasında nəticələr əldə etmək istəyini, komanda işini, səmərəli təşkil edilmiş kommunikasiyaları və digərlərini ayırd etmək olar. Müəssisənin davamlı inkişafının təmin edilməsinə yönəlmiş korporativ mədəniyyətin qurulmasının əsas prinsiplərini formalaşdırmaq mümkündür: - işçilərin müəssisənin məqsədlərini bölüşdüyü və onlara nail olmaq üçün həvəsləndirildiyi kadrların işə götürülməsi, öyrədilməsi və stimullaşdırılması üçün belə bir sistemin yaradılması; - yuxarı və orta idarəetmə heyətinin, habelə digər işçilərin peşəkarlıq səviyyəsinin davamlı olaraq təkmilləşdirilməsi; - müəssisənin cari vəziyyəti və real vaxt rejimində situasiyadakı dəyişikliklər haqqında təsəvvür yaratmaq üçün işçilər arasında davamlı məlumat mübadiləsinin təşkili; - problemli vəziyyətin operativ və adekvat aradan qaldırılması üçün zəruri olan səlahiyyətlərin bölüşdürülməsi; - komanda işinin işçinin məqsədlərə nail olmaq üçün şəxsi məsuliyyəti ilə birləşməsi və s.

3. İnteqrasiya edilmiş idarəetmə sistemi. Bu, bütövlükdə idarəetmə sistemləri və funksiyaları üçün iki və ya daha çox beynəlxalq standartın tələblərinə cavab verən müəssisənin ümumi idarəetmə sisteminin bir hissəsidir. Belə idarəetmə sistemi müəssisənin fəaliyyətinin bütün aspektlərini birləşdirən ümumi idarəetmə sistemi ilə eyniləşdirilməməlidir. Müəssisədə hazırda qüvvədə olan bütün beynəlxalq idarəetmə standartları tətbiq edilsə belə, inteqrasiya olunmuş idarəetmə sistemi onun ümumi idarəetmə sistemi ilə eyni olmayacaqdır. Müasir müəssisənin fəaliyyəti beynəlxalq standartlarla tənzimlənir.

4. Əsas vəsaitlər. Müasir iqtisadi şəraitdə müəssisənin davamlı inkişafının amillərindən biri onun əmlakından istifadənin yaxşılaşdırılmasıdır. İstehsal prosesində iştirak edən əsas fondlar ən mühüm iqtisadi resurs kimi xidmət edir və təbii ki, həm təsərrüfat fəaliyyətinin göstəricilərinə, həm də işin maliyyə nəticələrinə təsir göstərir. Mövcud avadanlıq parkının yenilənməsinin miqyası və sürəti yeni texnologiyanın mütərəqqiliyindən, işləyən maşınların mənəvi köhnəlməsinin ölçüsündən, eləcə də müəssisələrin konkret sənaye sahələrində mövcud investisiya imkanlarından asılıdır.

5. Marketinq. Müəssisə davamlı bazar üstünlüyünü formalaşdırmağa imkan verən potensial reallaşdırılarsa, rəqabətqabiliyyətlidir. Müəssisənin rəqabətli mühitdə uğurlu fəaliyyəti onun bazar sabitliyinin yüksəldilməsini təmin edir, fəaliyyətinin maksimum səmərəliliyinin uzunmüddətli (ən azı 1 il) qorunub saxlanılması isə onun potensialının uğurla həyata keçirilməsindən xəbər verir. Lakin ətraf mühitin və bazarın vəziyyəti o halda əlverişli hesab edilməlidir ki, heç bir müəssisə digər təsərrüfat subyektlərinin bazara çıxışına mane olmasın. Müəssisənin davamlı inkişafı konsepsiyası mövcud resurslardan səmərəli istifadə nəzərə alınmaqla, vaxt intervalında gəlirlilik göstəricilərinin artması ilə xarakterizə edilən fəaliyyətlərin kompleks təsir sistemidir. Müəssisənin davamlı inkişafı konsepsiyasının məqsədi gəlirliliyin artırılması, müəssisənin imicinin yaxşılaşdırılması və ya sosial sferanın yaxşılaşdırılması şəklində təşkilatın onun davamlı inkişafına nail olmaqdır. Müəssisənin davamlı inkişafı konsepsiyası vəzifələri: • minimal itkilərlə optimal inkişaf nəticələrinin əldə edilməsi; • imiclə bağlı nəticələrinin əldə edilməsi; • müəssisənin maliyyə sabitliyinin artırılması.

6. Təşkilati struktur. Fəaliyyətin idarə edilməsinin effektivliyi idarəetmənin təşkilati strukturunun nə dərəcədə bacarıqla formalaşmasından və müəssisənin fəaliyyət məqsədinə nə dərəcədə uyğun olmasından asılıdır. Hal-hazırda təşkilati struktur dedikdə, bütövlükdə müəssisənin fəaliyyətini və inkişafını təmin edən sabit, bir-biri ilə əlaqəli elementlərin nizamlı dəsti başa düşülür. İdarəetmənin təşkilati strukturunun məqsədi sistemin xarici mühitlə qarşılıqlı əlaqəsi yollarının formalaşdırılması, qorunması və təkmilləşdirilməsi yolu ilə sosial-iqtisadi sistemin davamlı inkişafını təmin etməkdir.

Müəssisənin davamlı inkişafına daxili amillərlə yanaşı, xarici amillər də təsir edir.

1. İnflyasiya. Bu gün bir sıra hallarda müəssisələrin maliyyə vəziyyətini pozan ən geniş miqyaslı mənfi amillərdən biri inflyasiyadır. İnflyasiyanın təsiri müəssisənin maliyyə fəaliyyətinin bir çox aspektlərinə təsir göstərir. İnflyasiya prosesində milli valyutanın dəyərdən düşməsi və ölkə daxilində qiymət səviyyəsinin ümumi artımı, müəssisənin gələcək gəlirlərinin real səviyyəsinin aşağı düşməsi və digərləridir. Makro və mikro səviyyədə ictimai təkrar istehsal prosesini nəzərə alsaq, inflyasiyanın bütün iqtisadiyyatın bəlası və bu bəlanın zərbələrinin nə qədər dağıdıcı olduğunu bilirik. Bütün təkrar istehsal prosesinə mənfi təsir göstərən inflyasiya isə müəssisənin müxtəlif fəaliyyət növlərinə və onun pul hesablaşma əməliyyatlarına

qeyri-bərabər təsir göstərir. Müəyyən bir müəssisəyə gəldikdə, onun maliyyə nəticələrinə təsiri çox istiqamətlidir. Beləliklə, pul vahidi dəyərdən düşdükcə pul vəsaitləri və debitor borcları öz dəyərini qismən itirir ki, bu da müəssisə tərəfindən dövriyyə vəsaitlərinin bir hissəsinin real itkisinə səbəb olur.

2. Ekoloji innovasiya. Ekoloji innovasiyalar istehsalda iştirak edən təbii ehtiyatlardan rasional, daha qənaətli istifadəni, onların təkrar istehsalının daha səmərəli üsullarını və ətraf mühitə atılan zərərli tullantıların azaldılmasını təmin edir. Son onilliklərdə ekoloji innovasiyalar bir çox ölkələr üçün prioritet məsələyə çevrilmişdir ki, onların məqsədi iqtisadi fəaliyyətdə, təbii ehtiyatlardan istifadədə, indiki və gələcək nəsillərin maraqlarının optimal birləşməsidir. Sənaye müəssisəsinin davamlı inkişafı baxımından ekoloji yeniliklər, ilk növbədə, sahibkarlıq fəaliyyəti üçün ümumi ekoloji normaların formalaşması ilə əlaqəli olmalıdır. Müəssisənin ekoloji cəhətdən təmizliyini artırmaq üçün innovativ fəaliyyətin əsas məqsədləri bunlardır: tullantıların əmələ gəlməsinin qarşısının alınması, yaranan tullantıların istehsalda istifadəsi, tullantıların digər sənaye sahələrində istifadəsi və digərləridir.

3. Vergi sistemi - sənaye müəssisəsinin davamlı inkişaf səviyyəsinə əhəmiyyətli təsir göstərir.

4. İnvestisiyalar. Ölkənin, regionun investisiya mühiti bu gün müəssisələrdə artıq toplanmış və ya yaxın gələcəkdə yaradıla biləcək zəngin istehsal potensialından istifadə etmək üçün həlledicidir. Müəssisənin beynəlxalq standartlara uyğun hazırlanmış investisiya layihələri üçün aydın inkişaf strategiyası və yüksək keyfiyyətli biznes planları ilə investorlara təqdim etmək bacarığı yalnız investisiya sektorunun xarakterindən asılıdır. Buna görə də, müəssisənin davamlı inkişaf dinamikasını proqnozlaşdırarkən bu komponenti nəzərə almaq çox vacibdir.

DÖVLƏTİN İQTİSADİ TƏHLÜKƏSİLİYİ SİSTEMİNDƏ BEYNƏLXALQ EHTİYATLARIN HƏDDİ MEYARLARI

Quliyev E.M.
Sumqayıt Dövlət Universiteti
E-mail: Elsad.quliyev.2018@bk.ru

İqtisadi təhlükəsizlik müxtəlif idarəetmə səviyyələrində və təsərrüfat subyektlərində dövlətin iqtisadi mənafelərinin müdafiəsi tədbirləri, üsul və vasitələri məcmusunu əhatə edir. İqtisadi təhlükəsizlik dövlətin qeyri-sabitlik, fövqəladə hallar şəraitində dövlətin iqtisadi, maliyyə və büdcə sabitliyinə xələl gətirən yeni çağırışlar və təhdidlər şəraitində ölkənin iqtisadi və hərbi təhlükəsizliyini lazımi səviyyədə saxlamaq üçün iqtisadi ehtiyaclara kifayət qədər miqdarda maliyyə dəstəyini vaxtında və etibarlı cavablandırmaq qabiliyyətidir.

İqtisadi təhlükəsizlik maliyyə sektorunda və onunla əlaqəli sahələrdə: monetar, iqtisadi, sosial, beynəlxalq maliyyə, iqtisadi təhlükəsizlik strategiyasında, büdcə və pul siyasətində öz əksini tapır.

İqtisadi təhlükəsizlik strategiyasının əsas məqsədləri dövlətin maliyyə təhlükəsizliyini təmin etmək, iqtisadi, maliyyə və istehsal fəaliyyətinə təsir edən, birincisi, iqtisadi təhlükəsizlik sistemini əks etdirə bilən iqtisadi amilləri müəyyən etməkdən, ikincisi, dövlətin maliyyə təhlükəsizliyini təmin etməkdən ibarətdir. İqtisadi sistemin stabil fəaliyyəti üçün milli iqtisadi maraqların qorunması, daxili və xarici təhdidlərin dövlətin iqtisadi inkişafına təsirinin qarşısının alınması üçün iqtisadi təhlükəsizliyin işlənmiş mexanizmlərinin daim nəzərdən keçirilməsi, əlavə edilməsi, dəyişdirilməsi, təkmilləşdirilməsi tələb olunur.

İqtisadi təhlükəsizliyin yüksək səviyyəsi monetar inteqrasiyanın daha da inkişafına və xarici ticarət, birbaşa xarici investisiyalar və digər fəaliyyətlərlə bağlı iqtisadi əməliyyatların xərclərinin azalmasına kömək edir ki, bu da öz növbəsində iqtisadi səmərəliliyin və rəqabət qabiliyyətinin artmasına səbəb olur.

Hazırda "valyuta riskləri"nin aradan qaldırılmasında görünən tendensiyalar və gözlənilən sanksiyalar səbəbindən iştirakçı ölkələrin borcunu başqalarının hesabına artırmaq istəməməsi monetar inteqrasiyanın faydalarını və onun maliyyə inteqrasiyası ilə əlaqəsini açıq şəkildə nümayiş etdirir.

İqtisadi təhlükəsizliyin mahiyyəti meyarlar və göstəricilər sistemində həyata keçirilir. İqtisadi təhlükəsizliyin meyarı iqtisadiyyatın vəziyyətini əks etdirən ən mühüm proseslər baxımından qiymətləndirilməsidir. İqtisadi təhlükəsizliyin göstəriciləri adi iqtisadi və sosial göstəricilərdən fərqli olaraq daha yüksək "həssaslıq"a, iqtisadiyyatın ən mühüm sahələrinin vəziyyətini xarakterizə edən bir növ siqnal funksiyalarına malikdir.İqtisadi təhlükəsizliyin həddi dəyərləri məhdudlaşdırıcı dəyərləri səciyyələndirir, onların dəyərlərinə əməl edilməməsi iqtisadiyyatın və sosial sferanın normal inkişafına mane olur və istehsalda, maliyyədə və əhalinin həyat səviyyəsində dağıdıcı meyillərin formalaşmasına gətirib çıxarır. Bu arada, bu göstəricilər tövsiyə xarakterli olduğundan və proqnozlaşdırılan dəyərlərə nail olmaq üçün

hesablandığından, onların aradan qaldırılması repressiv xarakter daşımır. Mövcud normativ sənədlərə uyğun olaraq, beynəlxalq iqtisadi münasibətlər iqtisadi təhlükəsizliyə təhdid yaradan amillərdən getdikcə daha çox təsirlənir, bu zaman iqtisadi sferaya hərbi-siyasi çağırışların və təhdidlərin yayılması tendensiyası, habelə iqtisadi metodlardan istifadə etməklə siyasi məqsədlərə nail olunur.

Milli maliyyə sisteminin davamlı inkişafı ilə bağlı istiqamətin həyata keçirilməsi üçün əsas vəzifə milli pul sisteminin beynəlxalq maliyyə və əmtəə bazarlarındakı dalğalanmalardan kritik asılılığını azaltmaqdır. İqtisadi təhlükəsizlik sisteminə təhdidlər toplusunda müəyyən risk beynəlxalq ehtiyatlar tərəfindən həyata keçirilir ki, onun əsas məqsədi tədiyə balansının kəsiri zamanı maliyyələşməni təmin etməkdir.

Beynəlxalq ehtiyatlara valyuta ehtiyatları, o cümlədən xarici valyuta, xüsusi borc almaq hüququndakı hesablar, Beynəlxalq Valyuta Fondunun ehtiyat mövqeləri, monetar qızıl kimi göstəricilər daxildir. Dünya təcrübəsində iqtisadi təhlükəsizliyin sığorta riski kimi ölkənin valyuta likvidliyinə ehtiyacını müəyyən etmək üçün "beynəlxalq ehtiyatların kifayət qədər olması" göstəricisindən istifadə olunur.

"Milli valyutanın devalvasiyasının və revalvasiyasının qarşısının alınması zamanı" beynəlxalq ehtiyatların yetərliliyinin optimal göstəricisi dövlətin xarici öhdəlikləri üzrə defolt imkanlarının istisna edilməsinə zəmanət verən ehtiyatların həcmi hesab olunur. Beynəlxalq kafilik göstəricisi ehtiyatların minimum məbləğinin idxalın ödənilməsi xərclərinin və xarici dövlət borcu üzrə ödənişlərin dəyərinin cəmindən az olmaması üçün iqtisadi təhlükəsizliyin həddi meyarı kimi ehtiyatlar müəyyən edilir. Eyni zamanda, iqtisadi təhlükəsizliyin həddi meyarı və ya göstəricisi "ölkənin üç aylıq idxalının dəyərindən az olan" ehtiyatların həcmi hesab olunur. Bununla belə, qeyd etmək lazımdır ki, beynəlxalq ehtiyatların adekvatlığı indikatorundan istifadə hesablamaya vahid yanaşmanın olmaması, habelə ehtiyatların adekvatlığını qiymətləndirmək üçün digər göstəricilərdən istifadə edilməsi səbəbindən bütün ölkələr tərəfindən həyata keçirilmir. Beynəlxalq ehtiyatların həcminin göstəricilərinin və ehtiyatların kafiliyi baxımından reytinq mövqeyinin təhlili göstərir ki, böyük həcm kafilik meyarı ola bilməz. Məsələn, 2016-cı ildə Braziliyanın beynəlxalq ehtiyatlarının həcmi 356,5 milyard dollar təşkil edib və ehtiyatların adekvatlığına görə 5-ci yerdə, Rusiya isə 368,4 mlrd. dollarla 8-ci, beynəlxalq ehtiyatlarının həcmi 440,6 milyard dollar olan Tayvan isə 6-cı yerdədir.Beləliklə, ehtiyatların adekvatlıq meyarının təhlili göstərdi ki, beynəlxalq ehtiyatların həcmi iqtisadi təhlükəsizliyin göstəricilərinin tərifi kimi tam nəzərə alınmayıb. Bundan əlavə, həddi dəyərlərin faktiki və proqnoz göstəricilərinə uyğunlaşdırılması bu parametrlərin göstəricisi ola bilməz, çünki həmişə etibarlı məlumatların gizlədilməsi lehinə əsaslandırılmış siyasi və iqtisadi qərarlar olacaq. Bu arada, Azərbaycan praktikasında iqtisadi təhlükəsizliyin həddi meyarlarını müəyyən etmək üçün ÜDM-in həcmi "iqtisadi gücün əsas göstəricisi" kimi istifadə olunur.

Bununla əlaqədar olaraq, beynəlxalq ehtiyatların göstəricilərinin həddi dəyərlərinin (göstəricilərinin) müəyyən edilmiş pul məbləğlərinin (milyard dollar) həcmi ilə deyil, ÜDM-ə nisbəti ilə əlaqələndirilməsi və onların əsasında yeni iqtisadi təhlükəsizlik üçün həddi dəyərlər səviyyəsi, yəni: beynəlxalq ehtiyatlar, valyuta ehtiyatları, xarici valyuta, Xüsusi Borclanma Hüquqları hesabları, Beynəlxalq Valyuta Fondunda ehtiyat mövqe və monetar qızıl müəyyən edilməlidir.

AQRAR SAHƏDƏ LİZİNQİN MAHİYYƏTİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

Quliyev İ.S.
Azərbaycan Dövlər Aqrar Universitet
E-mail: qilkin757@gmail.com

Bazar iqtisadiyyatı şəraitində lizinq xidmətindən geniş istifadə edilir. Lizinq - əmlakın əldə edilməsi və sonradan müəyyən ödəniş müqabilində müvəqqəti istifadəyə icarəyə verilməsi ilə əlaqədar yaranan əmlak-iqtisadi münasibətlər kompleksidir. Klassik lizinq üçtərəfli münasibətləri əhatə edir: lizinqə verən, lizinqi alan, əmlakı satan (təchizatçı). Lizinq əməliyyatı aşağıdakı sxem üzrə həyata keçirilir. Gələcək lizinqə verənə müəyyən bir əmlak lazımdır, lakin bu əmlakı əldə etmək üçün onun maliyyə resursları olmadıqda o, kifayət qədər maliyyə imkanlarına malik lizinq şirkəti tapır və lizinq müqaviləsi bağlamaq üçün iş təklifi ilə ona müraciət edir. Bu sövdələşməyə əsasən, lizinqi verən tələb olunan əmlaka malik olan satıcını seçir və onu əldə edərək lizinq müqaviləsində müəyyən edilmiş haqq müqabilində müvəqqəti istifadə üçün lizinqi alana verir. Müqavilənin sonunda onun şərtlərindən asılı olaraq əmlak lizinqi verənə qaytarılır və ya lizinqi alanın mülkiyyətinə keçir.İqtisadi mahiyyətinə görə lizinq kredit münasibətlərinə və investisiyalara bənzəyir. Kredit vermənin üç prinsipi: təcililik, geri ödəmə və ödəniş - lizinq münasibətlərinə də şamil edilir. Lizinqdə

pul vəsaitlərinin hərəkətinin son nəticəsi kreditə bənzəyir: əsas borcun kreditora qaytarılması və faiz ödənişləri. Fərq ondadır ki, kreditin predmeti nağd pul və ya ümumi xüsusiyyətlərlə müəyyən edilən əşyalardır (əmtəə krediti), lizinqdə isə ən çox fərdi şəkildə müəyyən edilmiş əşyalardır.Lizinq münasibətlərində əsl inqilab əsrimizin 50-ci illərinin əvvəllərində ABŞ-da baş verdi. İstehsal vasitələri böyük miqdarda icarəyə verilməyə başladı: texnoloji avadanlıqlar, maşın və mexanizmlər, gəmilər, təyyarələr və s. Bu baxımdan da ABŞ hökuməti bu fenomeni qiymətləndirərək, onu stimullaşdırmaq üçün dərhal dövlət proqramı hazırlayıb həyata keçirdi.Əmlak münasibətləri nöqteyi-nəzərindən lizinq əməliyyatı bir-biri ilə əlaqəli iki komponentdən ibarətdir: alqı-satqı münasibətləri və əmlakın müvəqqəti istifadəsi ilə bağlı münasibətlər. Öhdəlik hüququ nöqteyi-nəzərindən bu münasibətlər iki növ müqavilədən istifadə etməklə həyata keçirilə bilər: alqı-satqı və lizinq (əmlakın müvəqqəti istifadəyə verilməsi). Əgər lizinq müqaviləsində əmlakın müqavilə müddəti başa çatdıqdan sonra satılması nəzərdə tutulursa, onda müvəqqəti istifadə münasibətləri yalnız onda lizinqə verənlə əmlakın istifadəçisi arasında alqı-satqı münasibətinə keçir.

Lizinq prosesinin bütün mərhələləri bir-biri ilə sıx bağlıdır. Deməli, əmlakın müvəqqəti istifadəsi (lizinq müqaviləsi) ilə bağlı münasibətlər yalnız alqı-satqı müqaviləsi həyata keçirildikdən sonra yaranır. Deyə bilərik ki, lizinq əməliyyatında bir müqavilənin icrası növbəti əməliyyatın yaranmasına təkan verir və lizinq prosesinin iştirakçıları müxtəlif mərhələlərdə bir-biri ilə sıx əlaqədə olurlar. Birinci mərhələdə alqı-satqı müqaviləsi bağlayan avadanlıq istehsalçısı və lizinqə verən tərəf satıcı və alıcı kimi çıxış edir. Eyni zamanda, alqı-satqı müqaviləsində qanuni olaraq iştirak etməyən əmlakın istifadəçisi avadanlıq və konkret təchizatçı seçərək bu əməliyyatın fəal iştirakçısıdır. Alqı-satqı müqaviləsinin icrası ilə bağlı bütün texniki məsələlər (tamlıq, çatdırılma müddəti və yeri, zəmanət öhdəlikləri, qəbul proseduru və s.) istehsalçı ilə lizinqçi arasında həll edilir, lizinqə verən əməliyyatın maliyyə təminatına cavabdehdir. İkinci mərhələdə əmlakın alıcısı lizinqə verən kimi çıxış edərək onu müvəqqəti istifadəyə lizinqə verir. Bununla belə, ikinci müqavilə üzrə münasibətlər istifadəçi ilə lizinqə verən arasında bağlanmır. Əmlakın satıcısı lizinqə verənlə alqı-satqı müqaviləsi bağlasa da, istifadəçi qarşısında avadanlığın keyfiyyətinə görə məsuliyyət daşıyır.

Əgər lizinq münasibətləri kompleksinin ayrı-ayrı komponentlərinin əhəmiyyətini və dominant rolunu qiymətləndirsək, onda həlledici olanlar təbii ki, əmlakın müvəqqəti istifadəyə verilməsi münasibətləridir. Alqı-satqı münasibətləri ikinci dərəcəli rol oynayır.Lizinqə xas olan əsas xüsusiyyətlər aşağıdakılardır: əmlakı və onun istehsalçısını (satıcısını) seçməkdə üstünlük hüququ istifadəçiyə məxsusdur; əmlakın satıcışı əmlakın lizinqə verilməsi üçün xüsusi olaraq alındığını bilir; əmlak mülkiyyətçidən yan keçməklə bilavasitə istifadəçiyə təhvil verilir və istifadəçi tərəfindən istifadəyə qəbul edilir; lizinqə verən əmlakı öz istifadəsi üçün deyil, xüsusi olaraq müvəqqəti istifadəyə vermək üçün əldə edir; lizinq müqaviləsinin bütün müddəti ərzində əmlak lizinqə verənin mülkiyyətində qalır; əmlakın sahibi onu müvəqqəti istifadəyə vermək üçün mükafat alır; əmlakın istifadəçisi vaxtından əvvəl və ya müqavilə müddəti başa çatdıqdan sonra onu mülkiyyətə almaq hüququna malikdir.Lizinq obyekti bazarda sərbəst dövriyyəsi qadağan olunmuş əmlak istisna olmaqla, mövcud təsnifata uyğun olaraq əsas vəsaitlərə aid edilən istənilən daşınar və daşınmaz əmlak ola bilər. Lizinq obyektindən asılı olaraq avadanlıq lizinqi və daşınmaz əmlak lizinqi fərqləndirilir.Bahalılığı, həyata keçirilməsinin mürəkkəbliyi, uzun hazırlıq müddətinə görə, daşınmaz əmlakın lizinqindən ölkəmizdə geniş yayılmayıb. İlk öncə avadanlıqların lizinqi maraqlıdır. Bunu xarici təcrübə də təsdiqləyir, burada avadanlıq lizinqi bütün icarə ödənişlərinin əsas hissəsini təşkil edir.Lizinqin üç əsas forması fərqləndirilir maliyyə lizinqi, operativ lizinqi və geri ödənilən lizinq.Maliyyə lizinqi lizinqin ən geniş yayılmış formalarından biridir. Maliyyə lizinqində əməliyyatda üç əsas tərəf iştirak edir: lizinq şirkəti, lizinq alan və icarəyə götürülmüş əmlakın tədarükçüsü. Lizinq şirkəti təchizatçıdan əmlak alır və bu əmlakı icarəçinin istifadəsinə verir. İcarə müqaviləsi başa çatdıqdan sonra əmlak müştərinin mülkiyyətinə keçir. Maliyyə lizinqi müqavilələri lizinq obyektinin tam köhnəlməsi müddəti ilə müqayisə edilə bilən müddətə (bir qayda olaraq, 3-5 il) bağlanır.Operativ lizinq maliyyə lizinqindən onunla fərqlənir ki, lizinq müqaviləsi başa çatdıqdan sonra lizinq obyekti lizinq alanın mülkiyyətinə keçmir, lizinq şirkətinə qaytarılır. Operativ lizinq proqramları yalnız bir neçə lizinq şirkəti tərəfindən təklif olunur və bu proqramlar avtomobillərin lizinqini nəzərdə tutur. Geri ödənilən lizinq lizinqi verən və təchizatçının eyni şəxs olduğu lizinq formasıdır. Əmlakın sahibi olan təşkilat geri icarə müqaviləsi bağlayarkən bu əmlakı lizinq şirkətinə satır və həmin əmlakı icarəyə verir. Qaytarılan lizinq maliyyə lizinqinin (lizinqin) bütün üstünlüklərindən və vergi güzəştlərindən istifadə etməyə, həmçinin cari fəaliyyətin inkişafı üçün uzun müddətə (lizinq müqaviləsinin müddəti) dövriyyə kapitalı əldə etməyə imkan verir.Qeyd edilənlərdən başqa lizinqin digər forması beynəlxalq lizinqdir. Beynəlxalq lizinq zamanı lizinq müqaviləsinin tərəflərindən biri - lizinqi verən və yaxud lizinqi alan qeyri-rezidentidir. Dünya təcrübəsi göstərir ki, lizinq əsas kapitala investisiyaların maliyyələşdirilməsinin kifayət qədər effektiv mexanizmidir. Onun əhəmiyyətli üstünlüklərindən yalnız bütün lizinq iştirakçılarının

fəaliyyəti rəqabət prinsipləri üzərində qurulduğu halda tam istifadə oluna bilər. Ölkəmizin kənd təsərrüfatı sektorunda lizinq xidmətləri bazarı bu gün faktiki olaraq inzibati qaydada tənzimlənir. Yəni onun inkişafını, təklif olunan lizinq xidmətlərinin həcmini və keyfiyyətini bazar mexanizmləri deyil, dövlət müəyyən edir. Aqrolizinq münasibətlərinin inkişafı istiqamətlərinə aşağıdakı tədbirlərin görülməsi zəruridir: kənd təsərrüfatı istehsalçılarının aqrolizinqdən istifadə etmə imkanlarının artırılması; aqrolizinq sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi; aqrolizinq bazarının genişləndirilməsi.

AQRAR SAHƏDƏ RƏQƏMSAL MARKETİNQİN TƏTBİQİ VƏ İDARƏEDİLMƏSİ

Quliyeva K.N., Bağırova A.M.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: gkonul89@gmail.com

Dünyanın bütün sahələrində olduğu kimi elmi-texnoloji tərəqqinin inkişafı aqrar sahənin irəliləməsində öz töhfəsini verir. Kənd təsərrüfatı sektorunda informasiya-kommunikasiya texnologiyalarının (İKT) istifadəsini e-kənd təsərrüfatı və ya e-aqrobiznes adlandırmaq olar. Aqrar sahədə rəqəmsallaşmanın inkişaf mərlələri 3 hissədən ibarətdir: ənənəvi üsul, rəqəmsal kənd təsərrüfatı və bazar iştirakçılarının ekosistemləri. Ənənəvi üsul dedikdə, insan əməyindən daha çox istifadə bolunması ilə səciyyələnir. Kənd təsərrüfatı rəqəmsala keçid mərhələsində rəqəmsal kənd təsərrüfatı maşınları, sensorlar, pilotsuz uçuş aparatları və digər rəqəmsal elementlərin istifadəsi baş verdi. Hal-hazırda isə dünyanın bir çox ölkələrində olduğu kimi Azərabycanda da üçüncü mərhələnin tətbiqinə başalnılıb. Üçüncü mərhələdə əsas istiqamət artıq ayrı-ayrı müəssisələrə məxsus müəyyən rəqəmsal həllərin tətbiqi ilə məhdudlaşmayaraq bütün rəqəmsal platformalarının qarşılıqlı vəhdəti ilə ifadə olunur. Bu halda, təkcə aqrar sənaye məhsullarının deyil, həm də xidmətlərin nəqliyyat, logistika, satış kimi kompleks satışı nəzərdə tutulur Burada təkcə klassik kənd təsərrüfatı holdinqləri deyil, informasiya texnologiyaları (İT) şirkətləri də yarışmaya qoşulur.

Rəqəmsallaşma kənd təsərrüfatının qida zəncirinin hər bir hissəsini dəyişə bilər, lakin bu proses kənd təsərrüfatında məhsulların marketinqində böyük dəyişikliklərin baş verməsini tələb edir. Kənd təsərrüfatı marketinqinin əsas hədəfi kənd təsərrüfatı məhsulunun təsərrüfatdan lazımlı istehlakçıya daşınması kimi xidmətlərin yerinə yetirməsidir. . Kənd təsərrüfatı marketinqinin digər əsas məqsədi marketinq xərclərini azaltmaqdır Kənd təsərrüfatının marketinq sistemi son 60 ildə bazar , urbanizasiya və gəlir səviyyələrinin artması və nəticədə marketinq xidmətlərinə tələbat modelindəki dəyişikliklər əsasında baş vermişdir. Bundan əlavə, uzaq və xarici bazarlarla əlaqələrin artması səbəbindən də bir sıra dəyişikliklərə məruz qalmışdır. Kənd təsərrüfatında İKT-nin tətbiqi fermerlər üçün bazar məlumatlarına çıxış və kənd təsərrüfatı məhsullarının təşviqi baxımından müsbət təsir göstərir. Rəqəmsal dünyada biz kənd təsərrüfatı bazarında rəqəmsal olaraq inqilab edə bilərik. İKT kiçik təsərrüfat sahiblərinə yüksək qiymət ödəməyə hazır olan istehsalçı üçün çoxsaylı alıcılar tapmağa kömək edir. Kiçik sahiblər yalnız onlardan birbaşa götürən bir neçə alıcı ilə məşğul olurlar.

Elektron marketinq istənilən ölçülü biznesə kütləvi bazara münasib qiymətə çıxış imkanı verir. Elektron marketinqin xüsusi üstünlüklərinə- qlobal əhatə dairəsi(veb sayt yeni bazarlar tapmağa və qlobal miqyasda ticarət etməyə imkan verir), daha aşağı qiymət(düzgün planlaşdırılmış və effektiv şəkildə hədəflənmiş e-marketinq kampaniyası ənənəvi marketinqdən xeyli aşağı qiymətə düzgün müştərilərə çata bilir), izlənə bilən (ölçülə bilən nəticələr), veb-analitika (digər onlayn metrik alətlər kampaniyanın nə dərəcədə effektiv olduğunu müəyyən etməyi asanlaşdıran), 24 saat marketinq (müştərilər veb saytı ilə bu barədə məlumat əldə edə bilərlər), daha qısa çatdırılma müddətləri(bir veb sayt və ya e-poçt şablonu varsa, hadisələr daha sürətli olacaq), səviyyəli oyun sahəsi (yaxşı dizayn edilmiş veb-sayt ilə müəssisə daha müasir və etibarlı görünə bilər), fərdiləşdirmə (müştəri məlumat bazası vebsaytla əlaqələndirilirsə, o zaman kimsə saytı ziyarət etdikdə, hədəflənmiş təkliflərlə qarşılaşır), məlumat bazası (idarəetmə sistemi verilənlərin olmasını təmin edən proqram paketidir), açıqlıq (sosial media varlığına sahib olmaq və onu diqqətlə idarə etməklə sahibkar müştəri sədaqətini yarada və asan olduğu üçün reputasiya yarada bilər), sosial valyuta (elektron marketinq sahibkara cəlbedici kampaniyalar yaratmağa imkan verir) kimi funksiyaları daxil edə bilərik

Marketinq kənd təsərrüfatı məhsullarının istehlakçılara çatdırılmasında, məhsulun satılmasında, yaxşı qiymətə əldə edilməsində, münasibətlərin qurulmasında, müştərilərin məmnunluğunda mühüm rol oynayır. Bir neçə tanınmış özəl sektor kənd təsərrüfatı marketinqi üçün müxtəlif modelləri qəbul etmişdir. . Keniyada qlobal ssenaridə m-Farm mobil tətbiqləri istifadəçilərin fermerlərin, giriş dilerlərinin, alıcıların, saxlama

üçün anbar, kredit və s. tapa biləcəyi kollektiv satışları təmin edir və fermerlərin bazarda daha yüksək qiymətlər aldığını bildirdi. Çində isə kənd təsərrüfatı sənayesində fermerlərin ənənəvi üsula dayanaraq qiymət təyin etmələrinin əksinə Alibaba-nın flaş satış və marketinq platforması "Juhuasuan" virtual əkinçilik funksiyası "Jutudi" ilə fermerlərə istehlakçı satış məlumatlarına daxil olmaq imkanı verir ki, onlar cari istehlak meyllərinə əsaslanaraq məhsulu daha dəqiq planlaşdıra bilsinlər. O, kooperativlər və fermerlərlə birbaşa işləyərək istehlakçılara məhsul yığımından əvvəl kənd təsərrüfatı məhsullarını əvvəlcədən sifariş etməyə imkan verir. Birbaşa və ya dolayı yolla kənd təsərrüfatı sektorundan asılı olan bir kənd təsərrüfatı ölkəsi - Hindistanda telefon məhsulların marketinqi üçün rabitə vasitəsi kimi istifadə olunur. Telefonda olan bir çox tətbiq sahibkarlara öz işlərini böyütməkdə yardım edir. Burada aqrobiznes əmtəələrinin françayzinq təcrübəsi və potensialı sürətlə artır və insanlar arasında aqro startaplara maraq daha da artır və kənd təsərrüfatının əhatə dairəsi marketinq sistemləri, özəl sektorun əsas təşəbbüsləri nəzərdən keçirilir. Yunanıstanda xüsusilə qida və içki sektorunda bir neçə müəssisə artıq internetdən istifadə etməklə satışlar edir. Bu, onların ümumi satışlarının artmasını asanlaşdırır və onlar müştəriləri təkcə mağazalarda deyil, həm də internetdəki elektron mağazalarda cəlb edirlər.

Yerli bazarda gənc sosial media istifadəçiləri və ya qrafik dizaynerlər bu sahədə kadr çatışmazlığı səbəbindən SMM biliklərinin və bacarıqlarının sayəsində daha təcrübəli şəxslər hesab olunurlar və bu vəziyyət Azərbaycanda rəqəmsal marketinqin genişləndirilməsinin təbii bir hissəsidir. Bundan əlavə bugün pandemiya səbəbindən baş verən qapanmalar zamanı qarşılıqlı onlayn formada görüşlərin keçirilməsinin vacibliyi göründü və gələcəkdə bu istoqamətdə bir sıra işlər görüləcək. Getdikcə dəyişən dünyada yerli iş SMM (social media marketing)biliklərinin tək başına işə yaramadığını dərk edərək daha çox müştəri yönümlü məzmun yayımına istiqamətlənirlər. SMM xidmətini təmin edən qurumlar hal-hazırda geniş yayılmış sosail medya sahəsində daha da möhkəmlənmək və müştərilərin tələblərini ödəmək məqsədilə öz biliklərini artırmağa səy göstərirlər.Bu da bir daha təsdiq edir ki,düzgün idarəetmə olmadan heç bir uğurdan söz gedə bilməz.

Ümumiyyətlə, Azərbaycanda sahibkarların veb analitika üzrə biliklərinin az olması onların əleyhinədir, çünki müəssisənin xərclərinin əsasını onlayn xərclər tutur. Bütün dünyada geniş yayılmış Google Ads reklamları Azərbaycan dilində verilmir. Bu problemlə qarşılaşmamaq üçün biznes sahibləri "Axtarış Sistemlərinin Nəticə Səhifələri"ni (Search engine result page (SERP)) prioritet kimi görürlər. Son zamalar Azərbaycanda sosail media marketinqi e-poçt (email) marketinqini üstələdi. E-poçt marketinqi CRM(customer relationship managmenet) ilə əlaqəlidir. Azərbaycanda, ümumiyyətlə, müştəri əlaqələrinin idarə edilməsindən (CRM) məzmun paylaşımı və ya lidlərin qazanılması üçün geniş istifadə olunmur və, əsasən, mobil marketinq üçün istifadə olunur.

Yuxarıdakı rəqəmsal marketinq sahəsində olan çatışmamazlıqlara əlavə olaraq aşağıdakıları göstərmək olar:

Əhalinin internetə olan marağını onlayın marketinqə olan marağı ilə eyniləşdirmək olmaz. Belə ki, heç də hər internet istifadəçisi onu alış-veriş məqsədilə istifadə etmir.2018-ci ilin statistik göstəricilərinə əsasən zərbaycanlıların cəmi 4% onlayn alış-veriş edir.

- Digər səbəb isə adamlarda elektron ticarət meylinin olmamasıdır. Əhalidə bu vərdişi yaratmaq məqsədilə elektron ticarətə bir sıra güzəştlər olunmalı və bu vəziyyətin müəyyən vaxt davam etməsi zəruridir. Burada əsas məsələ məhsulların qiymətinin internetdə adi mağazadan daha ucuz olmasıdır.

- Mühüm məsələlərdən biri də əhalinin plastik kartla alış-veriş vərdişinin olmamasıdır. Əhalinin ancaq 9%-i bank kartına sahibdir.

Ölkəmizdə aqrar sahənin rəqəmsallaşma prosesinin tətbiqini təmin etmək üçün ilk növbədə "dövlət-özəl bölmə tərəfdaşlığı" (DÖBT) yaradılıb. Aqrar iqtisadiyyatda DÖBT-ün ilkin mərhələsində tədqiqat prosesində xarici təcrübəyə nəzər yetirilmiş, postsovet məkanı ölkələrində müvafiq elmi təminat araşdırılmışdır. DÖBT öz işini ölkədəki riyazi-texnoloji modernləşdirmə, aqrar sahədə texnologiyalarının tətbiqi dinamikasına uyğun olaraq görür. Dövlət isə öz növbəsində bir sahibkar qismində çıxış edir, rəqəmsal xidmətin mükəmməl səviyyədə qurulması naminə yüksək texnologiyalardan istifadə edir. Burada əsas məqsəd aqrar sahədə olan mövcud problemlərin (yəni qida çatışmazlığını aradan qaldırmaq, daha məhsuldar toxumların əldə olunması, zərərvericilərlə mübarizə və s.) aradan qaldırılması zamanı ekoloji vəziyyətin də nəzərə alınaraq təbiətə miminun dərcədə zərərin verilməsini təmin etməkdir.

Beləliklə, sadalanan problemlərə baxmayaraq istər özəl sektor, istərsə də dövlət özü onlayn marketinqin həm daxili bazarda həm də xarici bazarda daha səmərəli və effektiv olduğunun fərqindədir və bu sahədə digər inkişaf etmiş ölkələrlə ayaqlaşmaq üçün tədbirlər görülməkdədir.

REGİONAL İNKİŞAF FƏRQLƏRİ

Quliyeva M.R.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: minaraguliyeva3@gmail.com

Region anlayışının dünyada olduğu kimi bizdə də dəqiq tərifi yoxdur. Çünki region anlayışının ifadə etdiyi məkan vahidinin ölçüsü və məzmunu anlayışın istifadə olunduğu kontekstdən asılı olaraq dəyişə bilər və eyni kontekstdə də fərqlənə bilər. Məsələn, Aİ-da planlaşdırma kontekstində regionlar şəhər və metropoliten ərazilərdən tutmuş çox böyük kənd ərazilərinə qədər müxtəlif ölçülərə malikdir. Onların bəziləri iqtisadi, sosial və mədəni aspektləri baxımından məkan hissələri olduğu halda, digərləri funksionallıq baxımından bütövlük göstərən vahidlərdir. Casellas and Galley tədqiqatında iqtisadi baxımdan region nə şəhər qədər kiçik, nə də ölkə kimi böyük ərazi kimi müəyyən edilir. Bundan əlavə, bir bölgənin özünəməxsus sosial, mədəni və iqtisadi xüsusiyyətləri olmalıdır. Bütün bu xüsusiyyətləri nəzərə alaraq region anlayışının tərifini yenidən formalaşdırmaq olar. Region ölkənin şəhərdən böyük, lakin bütün ölkə ərazisindən kiçik, özünəməxsus sosial, mədəni və iqtisadi xüsusiyyətləri olan bir hissəsidir.



Mənbə: https://dergipark.org.tr/tr/download/article-file/184992

Makroiqtisadi baxımdan regionlar:

Homojen bölgə, davamlı homojen əraziyə uyğun gələn oxşar xüsusiyyətlərə malik bitişik ərazilər qrupudur. Qısacası, eyni inkişaf səviyyəsinə malik qonşu vilayətlərin meydana gətirdiyi bölgə kimi homojen bölgə təyin oluna bilər. Plan regionu regional siyasətin həyata keçirilməsinə cavabdeh olan administrasiyanın yurisdiksiyasında olan ərazi və ya regional planın tətbiq olunduğu bütün ərazilər kimi izah edilə bilər.

Bir məskunlaşma mərkəzi bir və ya bir neçə kiçik yaşayış məntəqəsini öz təsir dairəsinə götürürsə, bu məskunlaşma mərkəzinin formalaşdırdığı bölgə və onun təsir zonası qütbləşmiş bölgə adlanır. Qütbləşmiş bölgənin ayrılması homojen bölgə kimi bir və ya bir neçə xarakterik xüsusiyyətə deyil, müxtəlif vahidlər arasındakı əlaqələrə əsaslanır. Regionları inkişaf səviyyəsinə görə inkişaf etməmiş və inkişaf etmiş rayonlar kimi təsnif etmək olar. İnkişaf etməmiş bölgə, müəyyən bir dövrdə müxtəlif sosial və iqtisadi amillər baxımından digər bölgələrlə müqayisədə iqtisadi və sosial üstünlüklərə malik olmayan bir ölkədə bir bölgə olaraq təyin edilə bilər. İnkişaf etmiş region sosial və iqtisadi cəhətdən ölkənin digər bölgələrinə nisbətən daha inkişaf etmişdir. İnkişaf etmiş regionlarda təhsil və səhiyyə xidmətləri ölkə üzrə orta göstəricidən yüksəkdir. Ölkələr arasında inkişaf fərqinə bənzər situasiya hər ölkənin müxtəlif regionları arasında da müşahidə oluna bilər. Regional disbalans, sosial, mədəni və iqtisadi fəaliyyətlər baxımından ölkədəki bəzi regionların digər bölgələrə nisbətən az və ya çox inkişafı kimi müəyyən edilə bilər. İqtisadi inkişaf heç vaxt dünyanın bütün ölkələrində eyni vaxtda başlaya bilməz. İqtisadi inkişafın müəyyən bölgədən başlaması üçün bu bölgənin zəngin yeraltı sərvətləri, yeni kəşfi, bölgənin coğrafi mövqeyi və s. səbəblərdən biri və ya bir neçəsi birlikdə mövcud olmalıdır.

BİZNES SFERASINDA MENECMENT SİSTEMİNİN SƏMƏRƏLİLİK MEYARLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Quluyev A.S.
Azərbaycan Dövlət Aqrar Universiteti

Biznes sferasının inkişafı onun idarə edilməsinin səmrəliliyi, o cümlədən müasir idarəetmə texnologiyalarından istifadə ilə bilavasitə bağlıdır. Bu baxımdan menecment sisteminin rolu böyükdür.

Biznes sferasının inkişaf etdirilməsi menecment sistemində nəzarətin düzgün təşkili, effektiv idarəetmə metodlarından istifadə, eləcədə səmərəlilik meyarlarının müəyyənləşdirilməsini tələb edir. Araşdırmalar göstərir ki, menecment sisteminin səmərəliliyi biznes subyektlərinin fəaliyyətinin son nəticəsinə idarəetmə fəaliyyətinin töhfəsini əks etdirir. Ona görə idarəetmənin qeyd edilən istiqamətlərdə funksional məqsədi əsas fəaliyyətin səmərəliliyini təmin etməkdir, bu menecment sisteminin effektivliyi ilə bağlı təşkilati sistemin özünün effektivlik dərəcəsi ilə müəyyən edilir. Ümumiyyətlə, biznes sferasında menecment sisteminin effektivliyi məqsədlərin həyata keçirilmə dərəcəsi və bütün fəaliyyət dövründə onun ayrılmaz göstəricisi olan mənfəətin səviyyəsi ilə müəyyən edilir.

Biznes sferasında menecment sisteminin səmərəliliyi həm idarəetmə obyektinin, həm də idarəetmə subyektinin, eləcədə idarəetmə fəaliyyətinin özündə müxtəlif göstəricilərlə xarakterizə olunan iqtisadi səmərəliliyin nisbi xarakteristikasıdır və bu göstəricilər həm kəmiyyət, həm də keyfiyyət xarakterlidir. İqtisadi əmərəliliyin qiymətləndirilməsi idarəetmə qərarlarının hazırlanmasında vacib elementdir, çünki bu, mövcud strukturun, planlaşdırılan fəaliyyətlərin mütərəqqilik səviyyəsini müəyyən etməyə imkan verir. Bu onu göstərir ki, səmərəlilik meyarları biznes strukturunun ən rasional fəaliyyət istiqamətini seçməkdə xüsusi əhəmiyyət daşıyır. Menecment sisteminin səmərəliliyi üçün hərtərəfli meyarlar toplusu onun fəaliyyətini qiymətləndirmək üçün iki istiqamət nəzərə alınmaqla formalaşır: əldə edilmiş nəticələrin biznes subyektinin müəyyən edilmiş məqsədlərinə uyğunluq dərəcəsinə görə; sistemin işləmə prosesinin subyektin məzmununa və nəticələrinə dair obyektiv tələblərə uyğunluq dərəcəsinə görə.

Biznes subyektlərinin təşkilati strukturun müxtəlif variantlarını müqayisə edərkən səmərəlilik meyarı, memecment sisteminin fəaliyyəti üçün nisbətən aşağı xərclərlə son məqsədlərə tam və davamlı nail olmaq imkanını əks etdirir. Menecment sisteminin effektivliyinin qiymətləndirilməsi üçün əsas əhəmiyyət kəsb edən müqayisənin əsasının seçilməsi və ya normativ kimi qəbul edilən səmərəlilik səviyyəsinin müəyyən edilməsi ən vacib məsələlərdəndir. Bu prosesə yanaşmalarından biri idarəetmə sistemlərinin təşkilati strukturunun effektivliyini xarakterizə edən göstəricilərin müqayisəsi təşkil edir. Çox vaxt metodlar əvəzinə təhlil edilən sistemin təşkilati səviyyəsinin, habelə onun ayrı-ayrı alt sistemlərinin və planlaşdırma qərarlarının ekspert qiymətləndirməsindən istifadə olunur. Qiymətləndirmə meyarlarının vəhdəti, bütün səviyyələrdə menecment sisteminin effektivliyini qiymətləndirmək üçün uyğun olan yalnız bir universal göstəricinin mövcudluğunu və istifadəsini nəzərdə tutmur. Beləliklə, biznes sferasında idarəetmə subyektinin təşkilati strukturunun səmərəliliyinin qiymətləndirilməsində istifadə olunan göstəriciləri bir-biri ilə əlaqəli aşağıdakı qruplara bölmək olar:

- subyektin fəaliyyətinin yekun nəticələri və idarəetmə xərcləri vasitəsilə ifadə olunan menecment sisteminin səmərəliliyini xarakterizə edən göstəricilər;
- idarəetmə işinin bilavasitə nəticələri və məsrəfləri daxil olmaqla, idarəetmə prosesinin məzmununu və təşkilini xarakterizə edən göstəricilər.

Qeyd etmək lazımdır ki, idarəetmə prosesinin effektivliyini qiymətləndirərkən kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilə bilən göstəricilərdən istifadə olunur. Bu göstəricilər əslində normativ xarakter alır və fəaliyyət meyarı kimi istifadə oluna bilər. Menecment sistemində səmərəliliyin normativ xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar: məhsuldarlıq; gəlirlilik; uyğunlaşma qabiliyyəti; elastiklik; səmərəlilik; etibarlılıq. İdarəetmə fəaliyyəti biznes subyekti tərəfindən istehsal olunan son məhsulların miqdarı və ya idarəetmə prosesində yaranan məlumatların həcmi ilə müəyyən edilə bilər. Menecment sistemində nəzarət prosesinin səmərəliliyi onun istifadəsi ilə bağlı nisbi məsrəfləri başa xarakterizə edir.

Göstərilənlərlə yanaşı menecment sisteminin uyğunlaşma qabiliyyəti göstəricisindən də geniş istifadə olunur və bu, sistemin müxtəlif istiqamətlərdə dəyişən şəraitdə müəyyən edilmiş funksiyaları səmərəli şəkildə yerinə yetirmək qabiliyyəti ilə müəyyən edilir. Çeviklik, vəzifələrə uyğun olaraq idarəetmə qərarlarının qəbulu prosesində rolların dəyişdirilməsini və bu struktura xas olan münasibətlərin nizamlılığını pozmadan yeni əlaqələr yaratmaq xassəsini xarakterizə edir. İdarəetmə qərarlarının qəbul edilməsində səmərəlilik idarəetmə problemlərinin müəyyənləşdirilməsinin müasirliyini və onların həlli sürətini xarakterizə edir ki, bu da qurulmuş istehsal və dəstək proseslərinin sabitliyini qorumaqla qarşıya qoyulan məqsədlərə maksimum nail olmağı təmin edir.

Beləliklə, qeyd edilənlərə əsaslnaraq demək olar ki, biznes sferasında menecment sisteminin səmərəliliyi təkmilləşdirmə üzrə tədbirlərin müəyyənləşdirilməsi üçün üçün əsas tələblərdəndir. Bu isə hər bir biznes subyektinin fəaliyyətinin uzunmüddətli perspektivdə davamlı və səmərəli fəaliyyətini şərtləndirir. Bütövlükdə, menecment sisteminin effektivliyini qiymətləndirərkən nəzərə almaq lazımdır ki, idarəetmə fəaliyyəti bütün dövrü ərzində həm məqsədlərin qoyulması, həm də onlara nail olunmasının təmin edilməsini nəzərdə tutur.

ŞƏRAB İSTEHSALINDA KEYFİYYƏTİ ƏHATƏ EDƏN FAKTORLARIN BƏZİ TEXNOLOJİ XÜSUSİYYƏTLƏRİ

Qurbanı A.N.
Azərbaycan Dövlət İqtisad Universiteti
E.mail: aytanqurbanli@gmail.com

İstiliklə işlənmə dedikdə - şərabçılıqda geniş yayılmış üsullardan biri olub şərabın pasterizə (təmizləmə) edilməsinə, tarazlaşdırılmasına , yetişməsinə yəni şərabın yetişməsini daha da tezləşdirməyə və onun dadının, keyfiyyətinin yüksədilməsinə yönəldilmişdir. Dövrümüzdə müasir şərabçılıq istehsalat müəssisələrində müxtəlif olan istilik diapazonunda istiliklə işlənmə funksiyalarının çox sayda kombinə edilmiş üsulların tətbiqidə əsas götrülmüşdür.

Ənənəvi istehsal texnologiyası şərab materialının emal olunan xammaldan çox aktiv olan maddələrin tam olaraq çıxarılmaması nəticəsində xammalın rasional istifadəsi təmin olunmur. Məhz ona görədir ki, istiliklə işlənmədən başqa şərabların qane edən rəng və dadının xarakteristikasını tam təmin etmək üçünhəmin əzintinin tərkibinə bir neçə biokimyəvi olan (fermentləri və preparatları) və fiziki olan (titrəyiş, ultrasəs və s.) təsirlər də çox vacib sayılan nüaslardan biridir.

Şirənin tərkibibinin fenol maddələri ilə zənginləşməsinin 3 əsas götrülən üsulları mövcuddur:
- Əzintinin istilikdə işlədikdən sonra alınan şirənin "ağ" üsullarla qızdırılması,
- Əzintinin xüsusi boçqalarda qıcqırdılması
- Qıcqırdılmış şərab xammalı ilə fenol maddəsinin ekstraksiya edilməsi.

Əzintilərin istiliklə işləməsi üzüm gilələrinin qabığından ekstraktiv maddələri tam və tez çıxarılması məqsədi daşıyır. Həmin texnoloji üsul yüksək dərəcədə rənginin tündləşdirilmiş və qırmızı (ordinar) süfrə şərabları üçün şərab materialı istehsal etdikdə tətbiq olunur. Üzüm əzintisini 75ºC -yə qədər tempuraturada işləndikdə salxımların fermentləri kompleks inaktivasiya olunur, şərablar işlənən zaman oksigenlə zəngin olmasına baxmayaraq onun antosianlara təsiri çox cüzi hiss olur. Nəticə etibarıilə şərabın rəngi yaxşı qorunmuş olur və dəyişmir. Əzintinin istiliklə işlənməsi şərbətdə rəngləyici maddələrin kütlə konsentrasiyasını 96%-ə kimi artırmağa imkan yaradır. Üzüm əzintisinin 76ºC -yə qədər qızdırıdıqda üzüm salxımının bərk hissəsi qalmadan şirənin qıcqırdılması zamanı şərabda olan ümumi fenolları 2 və yoxda bir neçə dəfə çox olur. Klassik üsullarla hazırlanan şərablarlardan müqayisədə daha yaxşı dequstasiya qiymətləndirməyə malik olurlar . Əzintini isidərkən qabıq hüceyrələrindən çıxarılan fenolin birləşmələri az dayanıqlılığı ilə bir birilə fərqlənirlər. Belə əzintilərdən alınmış şirə qıcqırdıqdan sonra şərab materialı saxlandıqda bu maddələrin bir hissəsi çöküntüyə çevrilir bu da bərpa olunmaz halda itkiyə çox gedir. Amma termiki olaraq işlənmiş əzintisi və salxımının bərk hissəsi olmadan qıcqırdılmış şirələrdən alınnmış şərabları uzun mmüddətli saxlamaq olur. Bunu doqquz ay saxlandıqdan sonra iki dəfə artıq ümumi fenollara, leykoantosianlara və 35\80% -dən çox antosianlara malik olur. Klassik yəni adi üsullarla və texnologiya ilə hazırlanmış şərablarla müqayisə etsək bu çoxdur və bu zaman kondensasiya dərəcəsi böyük əhəmiyyət daşıyır Bəzi hallarda müxtəlif tədqiqat işində qeyd edilmişdir ki, qızdırılmnış əzintidən alınan desert şərablarla müqayisə olunduqda bəzi fərqlər vardır. Klassik texnologiya ilə əldə olunmuş süfrə şərablarında rəngləyici maddələrin itkisi az olmuşdur. Bu şərabları bir il saxlandıqdan sonra şərablarda rəngləyici maddələrin miqdarı nə az nədə ki, çox olaraq dəyişməz qalmışdır. Nəzarəti isə şərablarda onların miqdarının azalması ilə müşahidə etmişlər. Çox zamanda əzintinin qızdırılması fenol maddələrin toplanmasına mənfi təsir göstərmişlər. Mayalar və ferment preparatlarından şərab istehsalında ferment olaraq üzüm fermentləri, istifadə olunur.

Texnoloji gedişatı baxımımnda ən vacib götrülən üzüm fermentlərinin oksidoreduktaz (o-dıfenoloksidaz, perioksidaz, askorbatoksidaz, katalaz) və hidrolaz olan (invertas, poliqalakturanaz, pektinesiteraz, proteinaz, endo-beta-1,4-qlükanaz) sinifinə daildilər.Ferment sistemləri yəni mayaların ilk olaraq zimaz kompleksi (aldolaz, heksokinaz, izomeriz) və karbon qazı ilə əhatə olurlar. Qeyd edilən komplekslərdə çox vaxtı şəkərlərin spirtə yəni etil çevrilməsini kataliz edirlər.

Bütün növlərdən olan ordinar şərabların hazırlanması müddətində pektolitik fermentli preparatlarından istifadə edilməsi geniş tətbiqi öz sübutunu tapmışdır. Onların tərkibində əsas fermentlər qismində poliqalakturonazı və pektinesterazı göstərmək olar, həmçinin səmt fermentləri kimi protinaz, hemisellülaz və sellülaz iştirakı danılmazdır. Fermentativ işlənmədə məqsəd nədir: şirənin kütləsi, şirənin tərkibində rəngləyici maddələrin miqdarı, digər ekstraktiv maddələrin artırmaqla; əzintinin presləşməsini asan hala gətirmək; şərab materialını durulaşdırmaq; süzülərkən sürətini artırmaq; şərabın tipinin

formalaşmasını və yetişməsi sürətləndirmək. Eyni zamandada çöküntü vasitəsilə şərab materialı itkisini xeyli azaltmaq; yapışqanlığını və süzücü materiallarının sərfini azaltmaq; hazır məhsulun kolloid mənşəli bulanlığın qarşı doldurulma dayanıqlığını artıqmağını əhatə edir. Fermentativ işləmə prosudurasının aparma vaxtını azaldır. Belə ki, multienzim kompozisiyadan istifadə etməklə 5\6 saat masirasiya aparılması vaxtı şirə öz tərkibinə görə ferment prepatasız iki sutqa aparılma göstəricilərinə xeyli dərəcədə yaxınlaşmış olur. Biokataliz tətbiqləri üzrə tədqiqatlar nəticəsində şərabların saxlanma zamanı xassələrinin stabilliyini orqanoleptik göstəricilərinin artması, nəticəsində öz əksini tapmışdır.

Şirədə və şərab məhsullarında fermentlərin aktivliyinə müxtəlif amillərin təsiri vardır. O amillərdir ki, mühitin pH-nın artması nəticəsində qırmızı üzümün sortunun pektin preparatlarının hidrolizini gücünü artırır. Mühitdə qlükoza və SO_2 olduqda hidrolizin intensivliyi daha az olur. Lakin aparılan bir başqa tədqiqat işində qeyd edilmişdir ki, sulfidləmə təcrübi olaraq ferment preparatlarının təsirində özünü göstə bilmişdir. Fenol birləşmələri də eyni zamanda fermentlərin aktiv olmasına təsir göstərirlər. Belə ki, şirələrdə tanin maddəsinin miqdarının artması vaxtı pektolitik fermentlərin fəallığı nəzə çarpacaq dərəcədə azalmışdır. Fermentativ işləmə müddətində ətir yaradan maddələrin bağlı formasının hidrolizini təmin edir və onuda qeyd edim ki, xüsusi ilə ətirli zəif olan üzüm sortlarının və yaxuda qırmızı sortların emal olunması vaxtı ətirli birləşmələrin əmələ gəlməsi məqsədini özündə cəmləşdirir . Tədqiqatlarda müəyyən olunmuşdur ki, Aspergillus niger pektolitik fermentli preparatların tətbiq etdikdə şərabın ətri dahada yaxşılaşır. Eyni zamandada bildirilir ki, sort ətrini iki saatdan yuxarı saxlanma müddəti artırıldıqda daha aydın iyi duyulmağa başlayır. Ferment preparatlarından asılı olaraq şirəni əzintidə saxladıqda üzvi turşuların toplanması nəticəsində baş verir. Üzüm sortlarından asılı olmayaraq əzintinin Lafazym Press preparatının fermentativ işlənməsi şirədə şərab və alma turşularının konsentrasiyasını 0,2\0,4 q/dm^3 qədər artırır. Heç nəyə qarışmayan yəni neytral və turş pektin substansiyaları hidroliz edən *Iniozyum* preparatı işlənmiş şirələrdədə şərab turşusunun çoxalmasına zəmin şərait yaradır. Yeyinti sənayelərində ultrasəs qurğularından istifadə zamanı içki istehsalındada bir neçə texnoloji proseslərin intensivləşməsi üçün imkanlar yaradır. Ultrasəsin bitki mənşəli xammmalarında da böyük təsiri mexanokimya çərçivəsində öyrənilir. Ultrasəslə işlənməsindən aslı olaraq üzüm əzintisinin təcrübədə olduqca nadir halda istifadə olunur. Bunu nəzərə almayaraq bir sıra tədqiqat işlərində, rəngləyici və fenol ultrasəsin ekstraksiya maddələrinin strukturuna təsiri qeyd olunur. Ultrasəsin şüalanmasından istifadə olunduqda maddələrin ekstraksiyası dəfələrlə artmış olur . Ultrasəslə ekstraksiyanın üstünlüyü ondadır ki, hüceyrələrin tərkibindən maddələrin çıxarılması və işlənən mühiti qızdırmadan sürətləndirmək. Bu prosesdən sonra hüceyrələrin şirəsi ilkin bioloji aktivliyini qoruyub saxlamış olur. Tədqiqatlarda müəyyən olunmuşdur ki, 20 dəqiqə zamanında azcıq güc diapazonunda ultrasəslə işlənməni apardıqda palıd ekstraktı məhsulunda bağlı fenol maddələrin miqdarı 51%, sərbəst fenolin birləşmələri və karbohidratlar üç dəfə artıq olur. Ancaq aparılan tədqiqat nəticələrində yaranan ziddiyyətlərin olması şərabın yapışqanlanması öncəsi bentonit suspenziyasının ultrasəslə aktivləşdirilməsi demək olar ki, o qədər də geniş yayılmamışdır.

AZƏRBAYCANDA ÜZÜMÇÜLÜK VƏ ŞƏRABÇILIĞIN İNKİŞAF YOLLARI VƏ PERSPEKTİVLƏRİ

Qurbanlı A.N.
Azərbaycan Dövlət İqtisad Universiteti
E.mail: aytanqurbanli@gmail.com

Azərbaycanda yetişən üzüm təbiətin bizə bəxş etdiyi çox ecazkar töhfəsi olmaqla yeganə bitki növlərindən biridir ki, bununla bütöv bir elm, *Ampoloqrafiya* elmi məşğul olur. Ölkəmizdə üzümün yetişdirilməsi və eyni zamandada şərabçılığın geniş inkişaf etdirilməsi böyük tarixi keçmişi dayanır. Bunun Azrbaycanda arxoloji qazıntılar vaxtı qədim yerlərdə toplanmış qədimi əşyalar, abidələri (maddi mədəniyyətə aid olan materiallar) aşkar olunmuşdur. Üzüm bitkisinən hazırlanan məhsullar, eyni zamandada üzüm və şərabçılıq məhsullarının qalıqları bunu sübut edir ki, həqiqətəndə üzümçülüyün inkişafı qədim dövürləri əhatə edir. . Həqiqətəndə biz geri dönüb baxanda tarixi faktlar göstərir ki, minilliklər ərzində üzümçülük geniş bir sahə kimi Azərbaycanda öz mövqeyini qoruyub saxlamışdır.

Bir çox məlumatlara görə statistika buna misal olaraq Zaqafqaziyanı göstərmək olar burada 1913-cü ildə Azərbaycan ərazisinin 16 qəzasında 26,8 min hektara yaxın üzüm plantasiyaları mövcud idi. Bir az keçənən sonra böyük təsərrüfatlar özələşdirilərək yəni (milliləşdirilərək) onların əsasında Qarabağ

bölgəsində *Karvin* , Azvin , Naxçıvan muxtar respubilkasında *Naxvin* dövlət şərabı eyni zamandada spirt nümunələri yaradılmışdır. Nəticədə 1924-25ci illərdə üzüm istehsalının artımı 90,3 min tona və şərabın istehsalı isə 60 min deka-litrə qədər yüksəldilmişdir.

1928-ci ilin sonlarında Azərbaycanda olan Universitet Kənd Təsərrüfatı İnstitutu və 1932-1933-cü illərdə Gəncə və Azərbaycanda Üzümçülük və Şərabçılıq (nümunə) Təcrübə stansiyası tikilmişdir. Müxtəlif rayonlarda bununla yanaşı aborigen olan üzüm sortlarının dahada mükəmməl öyrənilməsinə başlamış, bu dövrlərdə Qarabağ bölgəsində Ağdamda eyni zamndada Gəncədə və Abşeronda da 85-ə qədər aborigen süfrə və texniki olan üzümlərin sortları aşkar edilmişdir.

1955-ci illərin başlanğıcında üzüm əkinlərinin sahələri və məhsullarının istehsalı demək olar ki, hər il artmağa başlamış və 30 min hektara qədər çatdırılmışdır. Bu illərdə Respubilkamızda Qarabağ, Quba-Xaçmaz, Cəlilabad -Lənkəran bölgələrində üzümçülük həmçinində şərabçılıq sənayesidə inkişaf etmiş və yeni-yeni mərkəzlər yaradılmışdır . 1966-1967cı illərdə Azərbaycanda üzümçülük və şərabçılığın sahəsinin inkişafı dahada genişlənmişdir. Xüsusi çəkisinin əkin sahələrinə görə 11%, üzüm istehsalının inkişafına görə 6% və şərab istehsalına görə təşkil olunur. Ölkəmizdə şərab zavodlarının inkişafı 61 çeşiddə markadan çox şərablar, o cümlədən 19 növdə turş şərablar *Alşərab, Bayan, Mədrəsə, Sadıllı, Şamxor, Qarakənd Novruzlu,* 22 növdə portveyn görnüşdə tünd desert şərablarıda vardır *Alabaşlı, Ağstafa, Qızılı Ağdam, Şərbət, Qara yeri, Qara Çanaq, Mil, Göytəpə, Qarabağ, Şahbuz, Azərbaycan, Şamaxı, Kürdəmir*) və konyakları Göy-göl – üç, dörd, beş ulduzlu, **Bakı Yubileyni* * istehsal olunur.

Azərbäycanda istehsal olunan şərabların son dərəcə gözəl və təkrarlanmayan buketinə və yüksək keyfiyyətinə görə layiqli yeri qazanmışdır . 1965-ci illərin sonundan başlayaraq ölkəmizdə istehsal olunan şərabların bir çox beynəlxalq sərgilərdə və eləcədə dequstasiyalarda bi neçə dəfə qızıl, gümüş medal, fəxri diplomlara layiq görülmüşdür. 1968-ci ilin verilən məlumatlara görə, Azərbaycanda markalı olan desert və turş şərabların, konyakların, o cümlədəndə Şampan şərabların 38 medala, 13 qızıl medala layiq görülmüşlər. 1964-65 ci illərdə şərab xammaları istehsalı on mln *dekalitrə* qədər çatdırılmışdır, 65-cı ilin sonlarında respublikamızda 26 ilkin zavodlar varıydı . Bunun da 10-u ixtisaslaşdırılıb təkimləşdirilmiş şərabçılıq üzümçülük sovxozların payına düşürdü. Bunlarında birlikdə gücü 312,8 min dekalitri əhatə edirdi. Bundan başqa 40 ədəd yeni şərabçılıq zavodu tikilirdi.

1976-1986-cı illərdə üzümçülüyün istehsalı sahəsində ölkəmizin əldə etdiyi uğurlar çox tədqirə layiq hesab olunurdu. Respublikada hektarlarla məhsuldarlığın dahada inkişaf edib yüksəldilməsi keçmiş dövlətlərin (itifaqın) hər bir respublikalarında, hətta desək dünyanın üzümçülüklə məşğul olan ölkələrindən belə xeyli yüksəkdə olmuşdur. Yeganə onu göstərmək kifayət edər ki, 1981-ci illərdədə hər hektar üzüm sahəsindən Fransada 75,6, İtaliyada 95,9 Yunanıstanda 87,6 İspaniyada40, Bolqarıstanda 72,3 sentner gö-türülən məhsulundan artıq olaraq Azərbaycanda 96,6 sentner üzüm toplanmışdır. Bu sahədə müşahidə edilən gerilənmənin qarşısı artıq H.Əliyevin ölkə rəhbərliyinə yenidən qaydışından sonra bu sahəyə diqqət artırıldı. Üzümçülük və şərabçılığın inkişafı Müstəqillilik əldə etmiş Azərbaycan Respublikasında yeni bazar münasibətləri şəraitini dahada geniş inkişaf etdirmək üçün hüquqi bazanın yenidən qurulub yaradılmasını yararlı hesab edərək, iyirmi doqquz yanvar 2001-2002ci illərdə Azərbaycan Respublikası "*Üzümçülük və şərabçılıq haqqında*" qanununu tətbiq edilməsi və icra olunması barədə fərman imzalamışdır.

Həmçinin Azərbaycan Respubilkasının Prezidenti cənab İlham Əliyevin qəbul etdiyi "Azərbaycan Respublikasının regionlarının sosial iqtisadi inkişafına dair" (2004-2008-ci illərərdə) Dövlət Proqramı olaraq nəzərdə tutulmuş tədbirlər planında da öz əksini tapmışdır. Bu proqramı öz növbəsində də aqrar sahələrin , eyni zamndada üzümçülük və şərabçılığın inkişafı yönümündə geniş perspektivlərə yol açdı. Biz bu gün əminliklə deyə biləriki bu siyasət artıq öz bəhrəsini verməkdədir. Bizim ölkəmizdədə müşahidə olunan iqtisadi inkişaf perespektivləri üzümçülük və şərabçılıq sahəsində inkişafa təsiri böyük oldu . Məhz bunun nəticəsidir ki, respublikada üzümlüklərin plantasiyaları ilbə il artır inkişaf edir, yeni-yeni üzümçülük fermer təsərrüfatları yaranır , üzümçülük sahələri dahada genişləndirilir. Bəzi ölkələrə baxanda şərabın keyfiyyətinə Avropa dövlətlərində nəzarət tələbləri dahada ciddi yanaşırlar. Elə məhz buna görədir ki, Azərbaycanda istehsal edilən şərabları yalnız MDB və Rusiya Federasiyası ölkələri deyil, eyni zamndada Avropa bazarlarında dahada geniş tanınması üçün onun bütün tələblərə cavab verməsi üçün şərabın keyfiyyətinin yüksəldilməsi ilə buna nail olmaq olar .

Hal hazırda müasir bazar rəqabəti şəraitində şərab istehsal edən müəssisə özünün iqtisadi maraqlarını üstün tutur. Bunun təmin edilməsi üçün lazım olan üzüm sortların istifadə yönümünə yəni süfrə və texniki, rənginə görə rəngsiz və yaxudda rəngli , yetişmə dövrünə tez , çox tez, orta-tez, gec, orta gec, dadının keyfiyyətinə görə sadə yaxudda ətirli və salınan plantasiyaların becərildiyi ekoloji şəraitə uyğun olaraq ehtiyat tədbirlərinə malik olmalıdır. Elədə olur ki ,başqa ölkələrdən gətrilən sortları və onların klonları

üstünlük təşkil edir. Onlar isə bizim mühitdə becərildikdə Avropada becərilən üzümlərdən bəzi hallarda fərqli cəhətləri olur. Bunu səbəb kimi göstərmək olar ki , üzümün və şəraın satış müəssisələrində məhsullarımızın rəqabətə dahada davamlıl olması üçün yerli şəraitimizdə daha yaxşı uyğunlaşan öz klonlarımız və onların emal texnologiyasını diqqət edib genişləndirmək lazımdır. Azərbaycan alimlərinin apardığı tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, üzüm bitkisini torpağa tələbkarlığı az olur bunan bir nəticəyə gələrək müəyyən etmişdilər üzümçülük Azərbaycanın bütün torpaqlarında becərilə bilər. Müxtəlif tipli *şampan şərabları, süfrə, tünd-desert şərablar* yüksək keyfiyyətə malik olan şərablar, üzüm şirələrinə, ayrı ayrı müddətlərdə yetişən süfrə üzümlərinə insanların tələbatları artır. Ölkəmizdə üzümçülüyün və şərabçılığın istehsalatının dahada geniş miqyasda istehsal olunması və üzümün müvafıq standarta uyğun çeşidlərinın seçilməsinə tələb yaranır. Respublikanın əsas üzümçülük bölgələrində və ampeloqrafika kolleksiyaları üzrə çoxlu sayda yerli və introduksiya edilmiş üzüm sortlarının aqrobioloji tədqiqi nəticəsində Respubilkamızda üzümçülüyün ixtisaslaşdırılması və üzüm sortlarının bölgələşdirilməsi həyata keçirilmişdir.

Üzüm sortlarının rayonlaşdırılması dedikdə respublikanın bütün köhnə və yeni perspektiv üzümçülük rayonlarını əhatə edir və birləşdirir. Bu on dörd təbii-iqtisadi zonaları əhatə edir.

Bu bölgələrdə Abşeron, Quba Xaçmaz, Dağlıq Şirvan, Şəki Zaqatalanı, Gəncə-Qazax, Qarabağ, Cəlilabad, Salyan və Naxçıvan xüsusilə fərqlənir.

Hər bir təbii-iqtisadi zonaya malik olan rayonlar torpaq-iqlim şəraitlərindən asılı olaraq üzümçülük və şərabçılıq istehsalatının bir neçə istiqamətinə uyğun olaraq müəyyən olunmuşdur. Bunların keyfıyyətinə, aqrobioloji xassələrinə, becərilmə üsullarına, yerlərinə və müəyyən edilən istifadə istiqamətlərinə görə müvafiq üzüm sortları seçilmişdir.

QLOBALLAŞMA PROSESİ MİLLİ İQTİSADİYYATIN DAYANIQLIĞININ TƏMİN EDİLMƏSİ ŞƏRTİ KİMİ

Qurbanov N.X.
Naxçıvan Dövlət Universiteti

Müasir şəraitdə dünya təsərrüfat əlaqələrinin təsirini nəzərə almadan heç bir dövlətin və ya regionun iqtisadi inkişaf qanunauyğunluqlarını başa düşmək mümkün deyildir. Qeyd edək ki, bu gün dünyada elə bir dövlət və region yoxdur ki, beynəlxalq iqtisadi münasibətlərdə iştirak etməsin və beynəlxalq əmək bölgüsü sistemində hansısa həlqəni təmsil etməsin. Milli iqtisadiyyatların dünya iqtisadi məkana daxil olması və ya inteqrasiyası ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakının məlum obyektiv amilləri ilə əvvəlcədən müəyyən edilir və nəticədə dünya təsərrüfatı proseslərində iştirak istehsal potensialının artmasına təsir göstərir.

Dünya iqtisadiyyatının müasir inkişaf mərhələsi iqtisadiyyatın qloballaşması kimi yeni bir fenomen ilə xarakterizə olunur. Yeni bir fenomen kimi qloballaşma iqtisadiyyatın beynəlmiləlləşməsi proseslərinin keyfiyyətcə yeni səviyyəsi kimi müəyyən olunur. Qloballaşma istehsalçı və istehlakçıları əlaqələndirən, iri beynəlxalq kompleksləri vahid mərkəzdən idarə etməyə imkan verən, kapitalın hərəkəti və insanların miqrasiyası proseslərini sürətləndirən informasiya-kommunikasiya sistemlərinin yaradılmasında mühüm rol oynayır.

Qloballaşmanın iki tərəfi var: istehsalın və kapitalın beynəlmiləlləşməsinin intensiv inkişafı əsasında ölkələr arasında iqtisadi əlaqələrin dərinləşməsinin obyektiv prosesi kimi; beynəlxalq iqtisadi münasibətlər sferasında liberallaşma, açıq iqtisadiyyata keçid, milli dövlətlərin rolunun dəyişməsi kimi.

Qeyd edək ki, qloballaşma prosesləri, onun müsbət və mənfi təsirləri milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsinə mühüm təsir göstərir.

İqtisadi ədəbiyyatların təhlili zamanı məlum olur ki, qloballaşmanı nəzərdən keçirən iqtisadçı alimlər qeyd edirlər ki, bu proses müxtəlif dövlətlərdə iqtisadi, siyasi, mədəni və digər proseslərin bir-birindən asılılığına, heç bir dövlət strukturu tərəfindən idarə olunmayan dövlətlərüstü proseslərin meydana gəlməsinə səbəb olur. i.ü.e.d., professor E.M. Hacızadə "qloballaşma" termini ilə bağlı öz araşdırmalarında qeyd edir ki, "bu termin təbii olaraq dünya iqtisadiyyatında məzmunca əhəmiyyətli və hələ də tam şəkildə proqnozlaşdırılması çətin olan yeni bir fenomeni ifadə edir. Bu fenomenin yeniliyi indiyə qədər hərtərəfli qloballaşma nəzəriyyəsinin olmaması ilə bağlıdır".

Fikrimizcə, "qloballaşma" anlayışının məzmununu və onun dayanıqlı iqtisadi inkişafın təmin edilməsindəki rolunu tam başa düşmək üçün onun müsbət və mənfi tərəflərini nəzərdən keçirtmək lazımdır. Qeyd edək ki, qloballaşmanın bir çox müsbət tərəfləri vardır ki, bunlardan ən əhəmiyyətlisi aşağıdakılardır:

ölkələrin və xalqların iqtisadi yaxınlaşması; bütövlükdə dünya tərəqqisinin sürətləndirilməsinə və milli iqtisadiyyatın bir çox sahələrinin inkişafına böyük töhfə verməsi; zəif inkişaf etmiş ölkələrin və regionların sürətli inkişaf etməsi; azad zonalar vasitəsilə investisiya və qabaqcıl texnologiya cəlb etməklə böhranlı iqtisadiyyatlarda artıma nail olunması; milli iqtisadiyyatların dünya təsərrüfatına açılması nəticəsində milli təsərrüfat subyektlərinin rəqabət şəraitinin bərabərləşdirilməsi. Belə ki, dünyanın əksər ölkələrinin hökumətləri öz ərazilərində xarici biznes üçün ən əlverişli iqtisadi mühit və ya milli rejim yaradır. Nəticədə ayrı-ayrı ölkələrin bazarlarında milli və xarici müəssisələr təqribən oxşar təsərrüfat fəaliyyəti şəraitində olurlar.

İqtisadi ədəbiyyatların təhlili qloballaşmanın milli iqtisadiyyatın dayanıqlığına təsirinin aşağıdakı mənfi nəticələrini ayırmağa imkan vermişdir:

1. Dünya birliyinin balansının pozulması. Qeyd edək ki, qloballaşma nəticəsində ayrı-ayrı sosial qruplar və dünya ölkələri arasında sərvətin qeyri-bərabər paylanması artır. Qloballaşma həm ölkələr arasında, həm də ölkə daxili regionlar arasında bərabərsizliyi kəskin şəkildə artırır. Başqa sözlə desək, qloballaşmanın bəhrələrini oyun qaydalarını təyin edən və bazarları formalaşdıran bir neçə sənayeləşmiş ölkə və transmilli şirkətlər toplayır. Danılmazdır ki, inkişaf etmiş dövlətlər dünya bazarında hökmranlıq edir, hazır məhsulun böyük hissəsini istehsal edir, dünyanın əsas dəniz və hava yollarına, beynəlxalq kommunikasiyalara nəzarət edir, həmçinin ən qabaqcıl texnologiyalar, hərbi, kosmik sənaye, informatika, elmi-texniki tərəqqiyə və tədqiqatlara rəhbərlik edir. Lakin ən böyük mənfi nəticələri qloballaşmanın obyektinə çevrilmiş, onun subyektinə çevrilmək şansları cüzi olan inkişaf etməmiş ölkələr yaşayır.

2. Transmilli kompaniyaların kapitalının zəif iqtisadiyyata mənfi təsiri özünü yerli firmalar üçün güclü rəqabət yaratmaqda, onları iri biznesdən sıxışdırmaqda, onların inkişafını təhlükə altına almaqda, milli valyutaların sabitliyini pozmaqda göstərir. Beynəlxalq monopoliyalar rolunda çıxış edən transmilli kompaniyalar öz maraqlarını təmin etmək üçün siyasi təzyiqlərdən belə istifadə edirlər.

Beləliklə, qloballaşma iqtisadi sistemin fəaliyyətində qeyri-sabitliyin artmasına səbəb olur. Qeyd edək ki, iqtisadi ədəbiyyatlarda qloballaşmanın təsdiqi və tənqidinə, ideallaşdırılması və demonizasiyasına da rast gəlmək olur. Qloballaşma şəraitində meqasəviyyəli iqtisadi sistemin dayanıqlığının təmin edilməsinin ziddiyyətli xarakteri aşağıdakı ziddiyyətli tendensiyalarda özünü göstərir: Qloballaşma dövründə iqtisadi inkişafın qütbləşməsinin sürətlə genişlənməsi; Qloballaşmanın inkişaf etmiş ölkələri öz subyektinə, inkişaf etməmiş ölkələri isə öz obyektə çevirməsi; Qloballaşmanın xaotik və ziddiyyətli tənzimləmə və mərkəzləşmə proseslərinə səbəb olması; Qloballaşmanın bəzi ölkələrdə məşğulluğu artırmasına, digərlərində isə onun əhəmiyyətli dərəcədə azaltmasına və dövlət və transmilli maraqların toqquşmasına gətirib çıxarması; Qloballaşmanın milli bazarların maneələrini məhv etməsi və beynəlxalq inhisarlar yaratması; Qloballaşmanın virtual maliyyə resurslarının nəzarətsiz genişlənməsi ilə bütün dünya iqtisadiyyatını spekulyativ fəaliyyətlə hədələməsi; Qloballaşmanın qlobal fəaliyyətlərdən böyük gəlir əldə etməsinə baxmayaraq iri həcmli daimi borc yaratması və s.

Yuxarıda qeyd olunanlarla əlaqədar olaraq qloballaşma dövründə iqtisadi inkişafın dayanıqlığının təmin edilməsi gənc milli iqtisadiyyatlı ölkələrdə olduqca çətindir. Belə ki, qloballaşma nəticəsində xarici dünyaya açılma gənc dövlətləri mərkəz-periferiya münasibətlərinin vahid qlobal sahəsinin bir hissəsinə çevirir. Qloballaşma proseslərində bu ölkələr subordinasiya rolunu oynayır və innovasiya rentasını ödəyən və bəzi inkişaf resurslarının dünya mərkəzinə çıxmasını təmin edən məkan kimi çıxış edirlər. Gənc milli iqtisadiyyatlı ölkələrin resurslarının xaricə axını yaranan regional fərqləri aradan qaldırmaq və artan sosial təzadları hamarlaşdırmaq imkanlarını azaldır ki, bu da iqtisadi sistemin qeyri-sabitliyinə gətirib çıxarır. Burada bərabərləşdirici sosial siyasət sosial ziddiyyətləri gücləndirən daha az gəlirli iqtisadiyyatlara əsaslanır.

Dünya iqtisadiyyatının qloballaşması şəraitində Azərbaycan iqtisadi sisteminin dayanıqlığının təmin edilməsi prosesini nəzərə alaraq onun dərin ziddiyyətli xarakterini qeyd etmək lazımdır. Belə ki, bir tərəfdən Azərbaycanda bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın bütün struktur elementlərinin fəaliyyətinin makroiqtisadi tarazlığın və dayanıqlığın qorunmasına yönəlmiş dinamik özünü tənzimləyən sistemə çevrilməsi xarici mühitlə "iqtisadi maddələr mübadiləsinin" inkişafı əsasında mümkün olmuşdur. Digər tərəfdən dünya təcrübəsinin göstərdiyi kimi, iqtisadi tənzimləmənin neokolonial sistemi özünəməxsus qeyri-ekvivalent mübadilə ilə dünya təsərrüfat sisteminin sabitliyini pozmur, əksinə təmin edir. Çox təəssüflər olsun ki, istismarçı xarici qüvvələr Azərbaycan üçün belə bir rol biçmişlər. Kapitalın və xammalın böyük ixracı milli sərvətin dəyərdən düşməsi, üstəlik, qeyri-ekvivalent mübadilə mexanizmi vasitəsilə xarici iqtisadi asılılığın güclənməsi Azərbaycanın milli iqtisadiyyatından daha çox dünyanın inkişafına sabitlik verir.

Qeyd olunanlara baxmayaraq qlobal proseslərdə iştirak Azərbaycana və digər gənc ölkələrə birbaşa xarici investisiyalar və yeni texnologiyaların cəlb edilməsi hesabına müəyyən inkişaf şansı verir. Bununla belə bu inkişaf amilləri dövlət ərazisi üzrə çox qeyri-bərabər paylanaraq mövcud regional disproporsiyaları gücləndirir.

Qloballaşma şəraitində iqtisadi sistemin dayanıqlığının təmin edilməsinin ziddiyyətli xarakterini qeyd etmək lazımdır ki, bu da bir tərəfdən qloballaşmanın istehsal amillərinin transsərhəd hərəkəti vasitəsilə iqtisadi sistemin dayanıqlı inkişafını təmin etməsidir. Digər tərəfdən regionların dünya əmtəə və maliyyə dövriyyəsinə, beynəlxalq informasiya və texnoloji mübadilələrə qeyri-bərabər daxil olması regionların iqtisadi inkişafının fərlənməsinə, nəticədə iqtisadi sistemin qeyri-sabitliyinə gətirib çıxarır. Transsərhəd kapital axını spekulyativ mənfəət əldə etmək üçün dünya valyuta və fond bazarlarına axır. Bəzi ölkələrdə təbii və ya əmək ehtiyatlarının istismarı nəticəsində əldə edilən mənfəət daha yüksək mənfəətin mümkün olduğu başqa ölkələrə göndərilir. Bu qeyri-bərabərliyin artmasının qarşısı sosial və regional siyasət çərçivəsində mövcud imkanların yenidən bölüşdürülməsi yolu ilə alınmalıdır.

Fikrimizcə, məhz qloballaşma şəraitində dövlət milli iqtisadiyyatın dayanıqlı inkişafında, o cümlədən sosial məsələlərin həllində öz rolunu gücləndirməlidir. İqtisadi sahədə dövlətin rolunun zəifləməsi onun sosial sahədə rolunu saxlamaqla, hətta gücləndirməklə tarazlaşdırılmalıdır.

PMİ İSTEHSAL FƏALİYYƏTİ İNDEKSLƏRİ

Rəhmanova A.M.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail:asl.rahmanova@mail.ru

İnvestisiya qərarları qəbul edərkən hər bir investor təkcə konkret şirkətlərin təhlilinə deyil, həm də makro mühitin təhlilinə diqqət yetirməlidir, çünki şirkət "vakuumda" deyil, iqtisadi proseslərin bir hissəsidir. Buna görə də investorlar əsas makroiqtisadi göstəricilərin dinamikasını və meyllərini diqqətlə izləyirlər. Bununla belə, onlardan bəziləri dərhal deyil, əhəmiyyətli bir gecikmə ilə nəşr olunur. Buna görə də, bütün dünyadan olan investorlar, ilk növbədə, aparıcı göstəricilərə, o cümlədən PMI İndekslərinə diqqət yetirirlər.

PMI İndeksi ("Satınalma Menecerləri İndeksi" deməkdir), başqa sözlə, Biznes Fəaliyyəti İndeksi satınalma menecerləri tərəfindən doldurulan anketlərin nəticələri əsasında formalaşan aparıcı indeksdir. Bu indeks kifayət qədər populyardır və demək olar ki, bütün dünyada geniş istifadə olunur. PMI indeksinin hesablanması iki əsas sektor - istehsal sektoru və xidmət sektoru üzrə aparılır.

İndeks satınalma menecerləri arasında sorğu əsasında hesablanır. Anketdə bir neçə göstərici var, burada menecer onların hər biri üçün əvvəlki dövrlə müqayisədə vəziyyətin necə dəyişdiyinə cavab verməlidir. Sonra hər bir göstərici qrupuna çəki verilir və hər bir regionda sektor üzrə ümumi göstərici hesablanır.

PMI indeksinin əsas komponentləri:

1.Yeni sifarişlər (yeni sifarişlər) - indeksin ən mühüm və aparıcı komponentlərindən biri, yeni sifarişlərin sayının artması işgüzar fəallığın və bütövlükdə iqtisadiyyatın artımını stimullaşdırdığı üçün əsas diqqət cəlb olunur;

2.İstehsal (istehsal) və məhsulların tədarükü (təchizatçı tədarükü) həcmləri də bütün təchizat zənciri boyunca hərəkətləri qiymətləndirməyə imkan verən PMI indeksinin sənaye sektorunun iki mühüm komponentidir;

3.Məşğulluq əmək bazarında baş verən dəyişikliklərin göstəricisidir. Belə ki, məsələn, məşğulluq istehsal həcmlərindən daha sürətlə artırsa (xüsusilə böhran zamanı vacibdir), onda əmək məhsuldarlığı aşağı düşür;

4. Alış qiymətləri (ödənilmiş qiymətlər) - bu aparıcı göstərici xammal və materialların qiymətlərində faktiki dəyişiklikləri göstərir, yəni. gələcəkdə dövlətlərin pul siyasətinə (Mərkəzi Bankın uçot dərəcəsinin səviyyəsi) təsir edə biləcək iqtisadiyyatda inflyasiya proseslərinin dinamikasını qabaqcadan izləməyə imkan verir.

5.Ehtiyatlar (ehtiyatlar) - bu göstərici anbarlarda ehtiyat qalıqlarının hərəkət dinamikasını xarakterizə edir. Bir tərəfdən ehtiyat qalıqlarının azalması indeksin hesablanmasına mənfi təsir göstərsə də, əslində ehtiyatların boşaldılması ümumilikdə iqtisadiyyatın inkişafına müsbət təsir göstərir. Bu komponentlər indekslərin hesablanmasında ən böyük çəkiyə malikdir. Bu göstəricilər əsasında hər bir sektorun PMI indeksləri formalaşır. PMI indekslərinin monitorinqi, nəticələr faktiki olaraq rəsmi göstəricilərdə

göstərilməzdən əvvəl iqtisadiyyatın siqnallarını izləməyə imkan verir. Buna görə də, bütün dünya üzrə tənzimləyicilər bu məlumatları təhlil edir və proqnozlarını hesablayarkən ona etibar edirlər.

İŞGÜZAR FƏALİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİNİN METODOLOGİYASI

Rəhmanova A.M.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: asl.rahmanova@mail.ru

Biznes fəaliyyəti (fəaliyyət, işgüzar fəaliyyət) iqtisadi alət kimi tədqiqatda XX əsrin əvvəllərindən istifadə edilmişdir. İqtisadi inkişafın mühüm göstəricisi kimi və mütəmadi monitorinqə məruz qalan biznes fəaliyyəti sistemli problemlərin diaqnostikasına imkan verir və onların zərərsizləşdirilməsi üçün vaxtında tədbirlər görür. Bu töhfə riskləri azaltmaq və nəzarət ,obyektlərinin sabitliyini artırmaq ,qlobal iqtisadiyyat və ölkələrin dünya bazarlarındakı vəziyyətdən asılılığı kontekstində son dərəcə əhəmiyyətlidir.

Metodoloji baxımdan biznes göstəricilərinin böyük əksəriyyəti fəaliyyət diffuziya indekslərinin qurulmasına əsaslanır.Diffuziya indeksləri ictimai rəyin istiqamətini kəmiyyətcə ölçən sosial-iqtisadi statistikanın göstəriciləridir.Bu indekslər əksər inkişaf etmiş ölkələrdə müntəzəm olaraq dərc olunur.Onlar həm səlahiyyətli dövlət orqanları tərəfindən yaradılır, həm də biznes birlikləri tərəfindən.

İqtisadi inkişafı izləmək və qərar qəbul edənlərə iqtisadi fəaliyyətdəki dönüş nöqtələrinin erkən siqnallarını vermək üçün qısa müddətli iqtisadi göstəricilərin təhlil edilməsi əhəmiyyət daşıyır. Bu tip göstəricilər həm hökumət, həm də özəl sektorda qərar qəbuledicilərin fəaliyyətlərini nəzarətdə saxlamaq və tədbirlər planlarına dəstək olmaq üçün istifadə edilir. Buna görə də, bir çox ölkələrdə real sektorun monitorinqi aparılmaqdadır. İqtisadiyyatın real sektorunda gedən proseslərin izlənilməsi məqsədilə belə monitorinqlərin aparılması sorğu anketləri vasitəsilə həyata keçirilir.

İşgüzar fəaliyyətin makroiqtisadi göstəricilərinin məcmusunda maliyyə bazarını xarakterizə edən indekslərə xüsusi yer verilir.Bütövlükdə maliyyə institutları və xüsusilə bank institutları qeyri-maliyyə təşkilatlarından sistemli fərqlərə malikdir.Bundan əlavə, onlar faktiki olaraq xalq təsərrüfatının qan dövranı sistemini təşkil edirlər. İnkişaf etmiş bazar iqtisadiyyatları bu bankların işgüzar fəaliyyətinin qiymətləndirilməsinə və onun müntəzəm monitorinqinə olan marağı izah edir .

Ümumiyyətlə İqtisadi aktivlik göstəricilərinin qiymətləndirilməsi sahəsində bütün ölkələrin təcrübəsi OECD metodologiyasına əsaslanır.Bu sorğular əsasən rüblük dövrülükdə biznes subyektləri arasında aparılır.Hər bir sual üzrə «balans» hesablanır. Balanslar müsbət və mənfi cavab verən respondentlərin faizləri arasındakı fərq olaraq qurulur.Biznesin vəziyyəti ilə bağlı sahibkarlıq subyektlərindən soruşulan suallar diffuziya indeksini hesablamağa imkan verir. İndeks mənfi və müsbət cavab verənlərin fərqi ilə «biznes tendensiyası dəyişməyib» cavabı verənlərin cəmi kimi müəyyən olunur.

MİLLİ İQTİSADİYYATIN RƏQABƏTQABİLİYYƏTLİLİYİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Rəşidov V.Z.
Sumqayıt Dövlət Universiteti
E-mail: rasidov.95@mail.ru

Rəqabət mühitinin vəziyyəti və inkişafı, bir tərəfdən, sosial, iqtisadi, texnoloji və siyasi sferalarda baş verən transformasiya prosesləri, digər tərəfdən isə bazar təsərrüfat subyektlərinin institusional fəaliyyəti ilə müəyyən edilir. Məhz inkişafın hərəkətverici amillərindən istifadə ölkə iqtisadiyyatı üçün mənbə rolunu oynayır, mövcud rəqabət üstünlüklərini obyektiv qiymətləndirməyə və mümkün olduqda maksimum dərəcədə artırmağa imkan verir. Buna görə də milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması amillərinin öyrənilməsi zəruridir.

M.Porterin fikrincə, rəqabət qabiliyyətinə təsir edən bütün amillər təsir və konsolidasiya dərəcəsinə görə fərqlidir. Onları iki növə bölmək olar: əsas və inkişaf etmiş. Əsas amillər əmək və maddi ehtiyatların keyfiyyəti, ölkənin geosiyasi mövqeyi, təbii-iqlim şəraiti, ekologiya və s.-dir. İnkişaf etmiş amillər innovativ və texnoloji komponentlər, infrastruktur, informasiya bazası və digərləridir. Əsas amillər obyektiv olaraq mövcuddur və ya onları yaratmaq üçün çox az investisiya tələb edir. İnkişaf etmiş amillər rəqabət qabiliyyəti üçün daha effektivdir, çünki onlar daha yüksək keyfiyyət səviyyəsindədirlər. Onların inkişafı insan resurslarına əhəmiyyətli, çox vaxt uzunmüddətli investisiyalar tələb edir. İnkişaf etmiş amillərin

yaradılmasının ən mühüm və zəruri şərti qloballaşma şəraitində yüksək ixtisaslı kadrlardan və keyfiyyətcə yeni yüksək texnologiyalardan istifadə etməkdir. İnkişaf etmiş amillərin xüsusiyyəti ondan ibarətdir ki, onları əldə etmək çətindir, lakin eyni zamanda, ölkənin rəqabət qabiliyyətinin qiymətləndirilməsində innovativ fəaliyyət üçün əvəzsiz şərtdir. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi dünya bazarlarında öz payını qorumaqdan ibarətdir.

Ümumiyyətlə, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin amillərinə aşağıdakılar daxildir: iqtisadiyyata investisiyaların daxil olması və inkişafı; iqtisadiyyatda investisiya prosesinin maliyyə potensialı; infrastruktur; bank sektorunun inkişafı; əmtəə bazarlarında konyunktura; fiskal siyasətin səmərəliliyi; makroiqtisadi inkişafın göstəricisi; təhsil və səhiyyə; dövlətin, regionların və bələdiyyələrin maliyyə əsaslarının effektivliyi; biznesin rəqabət qabiliyyəti; innovasiyanın inkişaf səviyyəsi; büdcə prosesinin təşkilinin səmərəliliyi; daxili bazarın həcmi; investisiya tələbinin strukturu; sosial sabitlik və sosial təminat səviyyəsi; iqtisadiyyatda transformasiya prosesləri və s.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinə təsir edən amillər aşağıdakı cədvəldə verilib:

İstiqamətlər	**Əsas amillər**
Daxili amillər	- istehsalın səmərəliliyi; - əmək ehtiyatlarının təhsil səviyyəsi; - idarəetmə və keyfiyyət sistemi.
Xarici amillər	- maliyyə institutları ilə qarşılıqlı əlaqə; - dövlət qurumları ilə qarşılıqlı əlaqə; - investisiya fondları ilə qarşılıqlı əlaqə.
Dinamik rəqabətqabiliyyətlilik amilləri	- verilmiş vəziyyətdə tez qərar qəbul etmək bacarığı; - informasiya məkanında mobil olmaq bacarığı; - işçilərin öyrənmək, təcrübə mübadiləsi aparmaq və ünsiyyət bacarıqları.

Bu amillər əsasında milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyini qiymətləndirmək olar. Deməli, dinamik qabiliyyət amilləri nəzərə alınmaqla yuxarıda təklif olunan həm daxili, həm də xarici amillərin təsnifatı bir-biri ilə sıx bağlıdır və onların hamısı bu və ya digər dərəcədə iqtisadiyyatın rəqabət qabiliyyətinə təsir göstərir.

İqtisadi ədəbiyyatda bir qayda olaraq, rəqabət qabiliyyətinin qiymətləndirilməsinin aşağıdakı üsulları fərqləndirilir: 1) müqayisəli üstünlüklər nöqteyi-nəzərindən qiymətləndirmə; 2) tarazlıq nəzəriyyəsi mövqeyindən qiymətləndirmə; 3) rəqabətin effektivliyi nəzəriyyəsinə əsaslanan qiymətləndirmə; 4) məhsulun keyfiyyətinə əsaslanan qiymətləndirmə; 5) matris metodu; 6) ekspert qiymətləndirmələri üsulu.

Qeyd etmək lazımdır ki, ölkənin inkişafının hər bir mərhələsində qloballaşma şəraitində bu amillərin təsir dərəcəsi eyni deyil. Bu baxımdan dəyişən makroiqtisadi vəziyyətdən asılı olaraq bu amillər təsir dərəcələrinə görə sıralanmalı və rəqabət qabiliyyətinin artmasına töhfə verənlərə üstünlük verilməlidir. Bununla belə, rəqabət qabiliyyətini artıran bir sıra amilləri kəmiyyətlə ifadə etmək mümkün deyil və keyfiyyət qiymətləndirməsi etibarlı və real məlumat əldə etməyə imkan vermir. Belə amillərin ən çoxu bazar iqtisadiyyatı amilləri qrupuna aiddir. Məhz buna görə də bir sıra hallarda şirkət və firmaların rəhbərləri ilə müsahibə yolu ilə ekspert qiymətləndirmələrindən istifadə olunur ki, bu da bu amilləri sadalamaqla rəqabətqabiliyyətliliyini daha dəqiq təsvir edən göstəricilər və parametrlər toplusunu seçməyə imkan verir. Ekspert metodlarının mahiyyəti alınan cavabların sonradan işlənməsi və nəticələrin formalaşdırılması ilə ekspertlərin mühakimə və fərziyyələrinin mütəşəkkil şəkildə toplanmasıdır. Eyni zamanda, rəqabət qabiliyyətinin qiymətləndirilməsində komplektin dəyişdirilməsi və ya əlavə parametrlərin tətbiqi nəzərə alınan amillər toplusunun məzmununun tam yenidən qiymətləndirilməsinə səbəb ola bilər.

Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi onun modernləşdirilməsi səviyyəsindən asılıdır. Modernləşmə əmək səylərinin fərdiləşdirilməsini, istehsal fəaliyyətində yaradıcılığın rolunun artırılmasını və ən əsası, inkişaf institutlarının formalaşmasını nəzərdə tutan müasir sosial-iqtisadi sistemin yaradılmasıdır. Dünya təcrübəsinin göstərdiyi kimi, modernləşdirmə yalnız özəl sahibkarlığın geniş inkişafı əsasında mümkündür. Bunun üçün rəqabətli iqtisadi mühit, habelə inkişaf etmiş institusional, sənaye və biznes infrastrukturunun, yüksək keyfiyyətli insan kapitalının mövcudluğu tələb olunur. Milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq üçün yeni iqtisadi siyasətə, iqtisadiyyatın modernləşdirilməsi üçün yeni iqtisadi proqrama keçmək lazımdır ki, bunun da əsasını innovativ strategiya və informasiyalaşdırma təşkil edəcək.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasının prioritet strategiyaları, fikrimizcə, aşağıdakılar ola bilər: mühüm elmi-texniki sahələrdə elmi və innovativ potensialın inkişafı; - elmtutumlu və yüksək texnologiyalı sənayenin sürətləndirilmiş inkişafı; qabaqcıl texnologiyalar əsasında sənaye sahələrinin modernləşdirilməsi; rəqabətqabiliyyətli maşınların, texnologiyaların və s. ixracının artması.

Beləliklə, milli iqtisadiyyatı modernləşdirmədən onun rəqabət qabiliyyətini artırmaq və iqtisadi artıma nail olmaq mümkün deyil.

AZƏRBAYCAN ŞİRKƏTLƏRİNİN BİZNES PROSESLƏRİNİN EFFEKTİV İDARƏ OLUNMASI SİSTEMLƏRİ

Sadıqov E.E.
Odlar Yurdu Universiteti
E-mail: elmir.sadighov@gmail.com

İlk öncə qeyd etmək lazımdır ki, nəinki Azərbaycanda, bütün dünyada biznes fəaliyyəti ən perspektivli sahələrdən biri kimi qiymətləndirilir. Bu reallığı əldə rəhbər tutaraq tam əminliklə söyləmək olar ki, Azərbaycanda biznes fəaliyyətinə xüsusi diqqət və maraq var. Məhz, bu amillər nəzərə alındığı üçün də, dövlət öz dəstəyini bu sahədən qətiyyən əsirgəmir. Lakin bütün gedən proseslər fonunda biznes proseslərini daha da stimullaşdırmaq və effektiv idarəetmə sistemini tətbiq etməklə formalaşdırmaq ən vacib məsələyə çevrilib. Çünki, nəzərə almaq lazımdır ki, hal-hazırda dünya ölkələrinin iqtisadiyyatlarında şirkətlərin biznes fəaliyyətlərinin formalaşdırdığı maliyyənin önəmli payı var. Bu məruzə tezisində Azərbaycanda şirkətlərin biznes proseslərinin effektiv idarə olunması sistemlərindən bəhs etməyimin əsas məqsədi sahə ilə bağlı öz fərqli yanaşmalarımı irəli sürmək, mövzu üzrə öz töhfəmi verməkdir. Ölkəmizdə fəaliyyət göstərən şirkətlərin biznes proseslərinin effektiv idarə olunması üçün məxsusi sistemin qurulması şərtdir. Qənaətim ondan yanadır ki, bu sistemin formalaşdırılmasında xarici təcrübə və fəaliyyəti ilə effektiv iş ortaya qoymuş yerli və xarici şirkətlərin təcrübəsi dərindən öyrənilməlidir. Xüsusən də onların effektivlik baxımından atdığı addımlar ciddi təhlil edilməlidir. Şəxsən mənim fərdi olaraq apardığım təhlillər mənə imkan verir ki, Azərbaycan şirkətlərində biznes proseslərinin effektiv idarəedilməsi haqqında təkliflər irəli sürüm.

Təkliflərim aşağıdakı punktlardan ibarətdir: 1. Azərbaycan şirkətlərinin nüfuzlu xarici şirkətlərlə əlaqəsinə asan çıxışının təmin edilməsi; 2. Pilot layihə qismində xarici şirkətlərin təcrübəsinin bəzi yerli şirkətlərdə tətbiq edilməklə sınaqdan keçirilməsi; 3. Azərbaycan şirkətlərinin dövlətin vasitəçiliyi ilə, biznes proseslərinin effektiv idarə olunması üçün nüfuzlu xarici şirkətlərlə qardaşlaşdırılması və onlara inteqrasiyası; 4. Şirkətlərdə işçi qüvvəsinin sayının azaldılması şərti ilə məhsuldarlığı artırmaq (yəni minimal işçi sayı ilə maksimum nəticə əldə etməyin yollarını öyrənmək); 5. Şirkətlərdə effektiv idarəetmə sitemlərinin tətbiq edilməsi üçün tam elektron sistemə keçidin əsasının qoyulması (Məsələn Trello, Docnet kimi elektron platformalardan biznes proseslərinin idarəetməsində istifadə edilsin); 6. Şirkətlərin bütün biznes proseslərinin şəffaflaşdırılması baxımından vahid proqramın tərtib edilməsi; 7. Yerli şirkətlərin şəxsi vəsaiti və ya dövlətin dəstəyi hesabına, biznes idarəçiliyinə cəlb olunmaları üçün ixtisaslı kadrların hazırlanması; 8. Şirkətlərin təklif etdiyi məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi, standartlara cavab verməsi üçün zəruri tədbirlərin görülməsi; 9. Şirkətlərdə, onların təklif etdiyi məhsul və ya xidmət üzrə beynəlxaq səviyyədə və ölkə üzrə qiymətlərin öyrənilməsi eləcə də, bazarda yaxşı mənada fərqlənmək üçün qiymətlərin aşağı salınması metodologiyası ilə məşğul olan şöbələrin açılması; 10. Şirkətlərdə operativlik baxımımdan çevik rejimin qurulması (Məsələn işçilərin üzərinə düşən öhdəliklərin icra müddətini minimal saviyyədə də olsa azaltmaq)

Ümumiyyətlə bu mövzu öz aktuallığını hələ də qorumaqdadır. Aktual tərəfi isə dünyada effektiv biznes proseslərinin idarəedilməsi ilə məşğul olan şirkətlərin kifayət qədər böyük gəlirə və nüfuza sahib olmasıdır. Ona görə də bu sahədə ciddi tədqiqatlara hər zaman ehtiyac var. Çünki aparılan tədqiqatların, verilən təkliflərin sayəsində ölkəmizdəki şirkətlərdə çox uğurlu biznes prosesləri idarəçiliyi qurmaq olar. Elə yuxarıda irəli sürdüyüm təkliflər də məhz bu məqsədlərə xidmət edir. Onu da qeyd etmək lazımdır ki, hər bir şirkətin əsas hədəfləri sırasında daha çox gəlir əldə etmək dayanır. Bunun üçün isə şirkətlərdə elə bir dayanıqlı və işlək sistem qurulmalıdır ki, şirkətin yüksək gəlirlərini davamlı formada təmin etmək mümkün olsun.İdarəetmə sistemi sağlam olmayan şirkətlərdə ümümumiyyətlə davamlı yüksək gəlirdən söhbət gedə bilməz. Özünü yüksək gəlir əldə etməyə, həmin gəliri davamlı etməyə kökləyən bir şirkət mütləq mənada daxilində ciddi dəyişikliklər etməlidir. Mənim araşdırmalarıma görə həmin dəyişikliklər aşağıdakı formalarda ola bilər: Şirkət tərəfindən həyata keçirilən biznes proseslərinə nəzarəti gücləndirmək; Şirkətin

biznes proseslərini ciddi təhlil etməsi; Biznes proseslərində ortaya çıxan nöqsanların müəyyənləşdirilməsi və həlli istiqamətində şirkət səlahiyyətlilərinin birgə qərarı və təklifləri; Şirkət tərəfindən biznes prosesləri ilə bağlı vahid strategiyanın tərtib edilməsi; Şirkətin öz imici üzərində ciddi səylər göstərməsi və ən əsası bu sahədə tədbirlər proqramı tərtib etməsi.Yuxarıda mənim araşdırmalarıma əsasən qeyd etdiyim dəyişikliklər mövzu adında da qeyd olunduğu kimi effektiv idarəetməyə gətirib çıxaracaq. Qeyd edim ki, həmin sadalananlar arasında da ən vacibi şirkətin strategiya qurmasıdır. Bir strategiya bütövlükdə şirkətin taleyini dəyişə bilir və şirkətdaxili bütün qeyri-müəyyənliklərə son qoya bilir. O baxımdan hər hansı bir şirkət biznes proseslərini təkmilləşdirmək, nəticəyönümlü addımlar atmaq istəyirsə birinci növbədədə strategiyasını qurmalıdır. Yalnız belə olan halda şirkətin biznes proseslərinin effektiv idarəçiliyindən danışmaq olar.

Məlumat üçün qeyd edim ki, yuxarıdakı dəyişiklik və təkliflərə cavab verən şirkətlərimiz də az deyil. Amma məqsəd həmin sayı artırmaq və ölkədəki biznes mühitini tamlıqa inkişaf etdirməkdir. Məsələn bu qəbildən olan nümunəvi şirkətlərə misal olaraq Socarı göstərmək olar. Socar azsaylı şirkətlərimizdəndir ki, dünya ölkələrinin demək olar ki, mütləq əksəriyyətində böyük biznes şəbəkəsi qura bilib. Bu da ondan xəbər verir ki, həqiqətən də, Azərbaycan şirkətlərində effektiv idarəetmənin qurulması üçün münbit şərait mövcuddur. Məhz strategiyası və effektiv idarəetməsi olduğu üçün Socar biznes proseslərini düzgün tənzimləyə bilir və dünya ölkələri tərəfindən də etibarlı əməkdaş kimi tanınır. Artıq Socarın yüzlərlə yanacaqdoldurma məntəqələrinin Türkiyədə, İsveçrədə, Gürcüstanda fəaliyyət göstərməsi uğurlu biznes proseslərinin göstəricisidir. Bu isə özlüyündə ölkəmiz üçün böyük əhəmiyyət kəsb eliyir. Çünki, Azərbaycana Socar hesabına gəlir qismində daxil olan maliyyənin həcmi günü-gündən artır. Demək ki, ölkədə güclü, dayanıqlı, biznes proseslərini düzgün tənzimləməyi bacaran şirkətlərin mövcudluğu ölkə iqtisadiyyatlarına əlavə təkandır. Bütün bunları da nəzərə aldıqda biznes proseslərində effektiv idarəçiliyin əhəmiyyətini daha da dərindən anlamaq olur. Azərbaycan şirkətləri elə Socar modeli üzərindən özünü təkmilləşdirə bilsə hesab edirəm ki, istədiyimiz nəticələrə çata bilərik. Çünki, Azərbaycanda fəaliyyət göstərən dövlət və özəl şirkətlərin sayı hesabı yoxdur. Hər bir inkişaf tendensiyasının müşahidə edilməsi ölkəmizə yüklü miqdarda maliyyə axınını təmin edə bilər. Vacib məslələrdən biri isə Azərbaycan şirkətlərinin beynəlxalq bazarlara çıxışının təmin edilməsidir. Bu məsələdə şirkətin daxili gücü çox önəmli rol oynayır. Socarın beynəlxalq bazara asan çıxış əldə etməsi də məhz daxili gücündən və sistemləşdirilmiş fəaliyyətindən asılıdır

Yekun nəticədə onu demək olar ki, verilən təkliflərin, irəli sürülən şirkət dəyişikliklərinin hər biri ayrı ayrılıqda Azərbaycan şirkətlərinin biznes proseslərinin effektiv idarə olunması sisteminin tərkib hissəsi kimi təqdim oluna bilər. Çünki hər bir təklifim eyni amala xidmət edir. Verilən təkliflərin nəticəsinin olması üçün onların hər biri verilən ardıcıllıqla tətbiq edilməyə başlanılmalıdır. Düşünürəm ki, ölkəmizdə şəffaf biznes mühitinin formalaşdırılmasında, şirkətlərin biznes fəaliyyətlərinin effektiv idarəçiliyə keçid etməsində bu təkliflərin önəmli rolu ola bilər. Ən aparıcı şirkətlər belə öz fəaliyyət dairələrini genişlətmək, işlərini daha da stimullaşdırmaq üçün müxtəlif təkliflərin, addımların axtarışındadırlar. Xüsusən də bazar iqtisadiyyatı dövründə məhz bu formada yanaşmaların, axtarışların olması tam doğru və məqsədəuyğun addımdır.

Mövcud məruzə tezisində Azərbaycan şirkətlərinin bütün imkanları və sistemli problemləri nəzərə alınmaqla fikir irəli sürülüb. Ona görə də aparılan tədqiqatların məntiqi nəticəsi olaraq demək olar ki, Azərbaycanda şirkət idarəçiliyində müxtəlif yeniliklər tətbiq etmək mümkündür. Hansı ki, hər bir yenilik yerli şirkətlərimizin idarəçiliyində canlanmaya səbəb ola bilər. Bu mexanizmin isə tam işə düşməsi üçün mütləq şəkildə irəli sürülən təkliflər icra səviyyəsinə qalxmalıdır.

Bu da ondan xəbər verir ki, həqiqətən də, Azərbaycan şirkətlərində effektiv idarəetmənin qurulması üçün münbit şərait mövcuddur. Sadəcə və sadəcə olaraq proseslər şirkətlər tərəfindən

TURİZM MÜƏSSİSƏLƏRİNİN RƏQABƏT QABİLİYYƏTLİLİYİNİN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

Sadıqova Ü.Z.
Sumqayıt Dövlət Universiteti
E-mail: ilqar.sadigov.87@mail.ru

Azərbaycanda qeyri-neft sektrorunun əsas sahələrindən biri olan turizmin keyfiyyətcə yeni səviyyəyə qaldırılması müasir dövrün aktual problemlərindən biridir. Dövlət turizm müəssisələrinin inkişafı və təkmilləşdirilməsi planlarının həyata keçirilməsi üçün proqramlar hazırlayır. Bununla bərabər maliyyələşdirməni tədricən artırmalı və yerli və xarici vətəndaşların həm ölkəmizdə, həm də xaricdə

təhlükəsizliyini gücləndirməlidir. Bütün bunlar turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi problemlərini aktuallaşdırır.

Müəssisələrin rəqabət qabiliyyəti bir sıra amillərdən asılıdır və buna görə də rəqabətqabiliyyətlilik anlayışı kifayət qədər genişdir. Rəqabət qabiliyyəti əmtəələrin satılma qabiliyyəti kimi qəbul edilir. Əmtəələrin rəqabətqabiliyyətliliyini bazarda məhsul üçün üstünlüklər təmin edən və onun uğurlu satışına töhfə verən bir sıra keyfiyyətlər hesab etmək olar. Müəssisənin rəqabət qabiliyyəti əlavə dəyərin (dəyər zəncirinin) yaradılmasının sabit prosesi kimi qəbul edilir. Bu halda müəssisənin rəqabət üstünlüklərini müəyyən edən amillərə aşağıdakılar daxildir: maliyyə, istehsal, marketinq, innovasiya fəaliyyətinin səmərəliliyi, investisiya fəaliyyətinin potensialı, kadrların və müəssisə rəhbərliyinin ixtisas səviyyəsi.

Turizm müəssisələrinin rəqabət qabiliyyəti bazarda sabit mövqe tutmaq, əsas məqsədlərini həyata keçirmək imkanı verən məcmu potensialı sistemləşdirmək və gələcəkdə reallaşdırmaq bacarığı kimi qəbul edilir. Həmçinin, turizm müəssisələrinin rəqabətqabiliyyətliliyi dedikdə, onun turizm bazarında uğurunu şərtləndirən göstərilən xidmətlərin məcmusudur.

İstənilən turizm müəssisəsinin rəqabət qabiliyyəti birbaşa olaraq göstərilən turizm xidmətlərinin keyfiyyətindən asılıdır.

Turizm xidməti geniş mənada turistlərin ehtiyaclarını ödəyə bilən hər şey deməkdir. Eyni zamanda, turizm xidməti digərlərindən fərqlənir: turist xidmətlərinin çeşidləri və komponentləri arasında əlaqələrin mürəkkəb strukturu; turist müəssisələrinin müştərisinin turist xidmətinin istehlak yerinə köçürmək zərurəti; turist xidmətlərinin istehlakı prosesinə zaman və məkan amillərinin təsiri.

Turizm müəssisələrinin rəqabət qabiliyyətliliyinə bir sıra amillər təsir edir. Müəssisənin rəqabətqabiliyyətliliyinin bütün amillər sistemini iki əsas qrupa bölmək olar. Birinci qrupa daxili amillər aiddir ki, bunlara turizm müəssisələrinin bazar fəaliyyətinin müxtəlif aspektləri, xidmətin göstərilməsi amillərindən istifadə dərəcəsini əks etdirən parametrlər daxildir. İkinci qrup amillərə (xarici) turizm agentliyinin birbaşa təsir dairəsindən kənarda olan sosial-iqtisadi mühitin parametrləri daxildir.

Bundan əlavə, müəssisənin rəqabətqabiliyyətlilik səviyyəsinə birbaşa təsir göstərən amillər var. Müəssisənin rəqabət qabiliyyətinin amilləri arasında mühüm rol texnoloji amil - göstərilən xidmətlərin texniki səviyyəsi və texnologiyanın özü aiddir.

Turizm müəssisələrinin rəqabətqabiliyyətliliyinin elementi kimi daxili turist tələbatının parametrlərinin optimallaşdırılmasına müəyyən istiqamətlər kömək edir. Turist xidmətlərinin keyfiyyətinə zəmanətin təmin edilməsi, turist tələbinin həyata keçirilməsi üçün optimal şəraitin yaradılması və turist xidmətlərinin istehlakçılarının maraqlarının qorunması məqsədilə onların standartlaşdırılması və sertifikatlaşdırılması sistemi həyata keçirilməlidir. Sertifikatlaşdırmanın tətbiqi yaranan problemlərin uğurla həlli üçün şərait yaradır. Məhsulun sertifikatlaşdırılması məcburi və ya könüllü ola bilər.

Turizm müəssisələrinin rəqabət qabiliyyəti müəyyən tədbirlərin görülməsi yolu ilə milli firmaların strategiyaları, strukturu və rəqabəti ilə formalaşır. Bu sahədə sahibkarlıq fəaliyyətinin artırılması məqsədi ilə turizm kompleksində fəaliyyət göstərən müəssisələrin geniş spektrinin lisenziyalaşdırılması və qeydiyyatı prosedurunun sadələşdirilməsi vacibdir. Antiinhisar qanunvericiliyinin normalarına uyğun olaraq daxili turizm bazarında ədalətli rəqabətə maneələrin aradan qaldırılması, habelə haqsız rəqabət cəhdlərinin sərt şəkildə qarşısının alınması da zəruridir.

Turizm müəssisələrinin statusunun artırılması və maliyyə imkanlarının genişləndirilməsi yolu ilə turizm kompleksinin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi onun inkişafı üçün əsas şərtdir. Bu tədbirlərin kompleks şəkildə həyata keçirilməsi turizm infrastrukturunun modernləşdirilməsi, milli turizm məhsulunun yaradılması və təşviqi üçün özəl və xarici kapitalın cəlb edilməsi ilə yanaşı, qismən büdcə maliyyələşdirilməsi də daxil olmaqla əsaslı dövlət dəstəyini tələb edir. Eyni zamanda nəzərə alınmalıdır ki, turizm xidmətlərinin ixracını genişləndirmək üçün turizm müəssisələrinin rəqabət qabiliyyətinin gücləndirilməsi, məhdud investisiya resursları nəzərə alınmaqla, turizmin optimallaşdırılmasına yönəlmiş selektiv artım strategiyasının həyata keçirilməsi məqsədəuyğun görünür.

Turizm müəssisələrinin rəqabət qabiliyyətinin, eləcə də turizm məhsulunun istehsalının səmərəliliyinin və idarəetmənin artırılması amili korporativ mədəniyyətdir - bu, təşkilat və onun xidmətlərinin istehlakçısı arasında mürəkkəb münasibətlər sistemidir. Korporativ mədəniyyət təşkilata xas olan dəyərləri və normaları, idarəetmə tərzi və prosedurlarını, texnoloji və sosial inkişaf konsepsiyasını birləşdirir. O, fərdin ehtiyaclarına və təşkilatın ehtiyaclarına əsaslanır. Hazırda korporativ mədəniyyətin ən mühüm komponentləri kimi ümumi təşkilati davranış standartlarına xüsusi diqqət yetirilir. Etik tələblər daxili əmək qaydaları, vəzifə təlimatları və müqavilələrdə öz əksini tapır. Müəssisə işçilərinin bu cür davranışı onun şəxsi heyətinin səylərini birləşdirmək və əlaqələndirmək üçün əsas olan korporativ mədəniyyət çərçivəsində formalaşır. Korporativ

mədəniyyət müəssisənin müştəri (istehlakçı) ilə qarşılıqlı əlaqəsində ifadə olunur. Korporativ mədəniyyət normaları müəssisənin bütün fəaliyyətlərində əks olunur və göstərilən xidmətlərin keyfiyyətinə təsir göstərir. Səmərəli işləyən kollektivin formalaşdırılması müəssisələrin rəqabət qabiliyyətinin, onların uyğunlaşma qabiliyyətinin və bazarda turizm məhsulu istehsalının səmərəliliyinin artırılmasında həlledici amillərdən biridir.

Korporativ mədəniyyətin təşkilatın fəaliyyətinə təsiri aşağıdakılarla özünü göstərir: təşkilatın norma və dəyərlərinin qəbul edilməsi; məqsədlərə çatmağı nəzərdə tutan normaların həyata keçirilməsi; təşkilatın inkişaf strategiyasının formalaşdırılması; xarici mühitin tələblərinin təsiri altında strategiyanın həyata keçirilməsi prosesinin vəhdəti və korporativ mədəniyyətin təkamülü.

Azərbaycanda turizm müəssisələrinin inkişafının və rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin ən mühüm istiqamətləri aşağıdakılardır: regional inkişafın artması və turizm bazarında yeni mərkəzlərin yaranması; informasiya texnologiyaları və onlayn mağazaların təkmilləşdirilməsi; tələbatın kütləvi turizmdən fərdi turizmə dəyişməsi; keyfiyyətli tibbi və səhiyyə xidmətlərinə artan tələbat.

Azərbaycanda turizm müəssisələrinin inkişafının və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün, ilk növbədə, aşağıdakı məsələləri həll etmək lazımdır:

- Ciddi hesabatlılıq formaları kimi elektron səyahət çeklərinin hazırlanması və təsdiq edilməsi;
- Turist səyahətlərində risklərin sığortası sahəsinin təkmilləşdirilməsi;
- Sanatoriyalarda müalicənin sığorta hadisəsi kimi tanınması;
- Otellərin təsnifat sisteminin keyfiyyətinin yüksəldilməsi və bu xidmətlərin qiymətlərinin aşağı salınması;

Turizm müəssisələrinin fəaliyyətinin təşkili məhsuldar qüvvələrin mövcudluğuna və inkişaf səviyyəsinə görə ərazinin potensial imkanları haqqında məlumatların cəlb edilməsi ilə qurulmalıdır. Cəlbedici turizm məhsulunu yaratmaq və ya bərpa etmək üçün turizm və rekreasiya potensialını müəyyən etmək məqsədilə sənaye sahələrinin tədqiqinin aparılması vacibdir. Beləliklə, turizm müəssisəsinin fəaliyyəti rəqabətqabiliyyətli xidmətlərlə təmin olunarsa və turist xidmətinin yeni perspektivli sahələrini inkişaf etdirərsə səmərəli olacaqdır.

REGİONLARIN İQTİSADİ İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMLARI

Sadixov S.S.
Sumqayıt Dövlət Universiteti
E-mail: savalan.sadıxov@gmail.com

Regional siyasətin və davamlı sosial-iqtisadi inkişaf strategiyasının məqsəd və vəzifələri müəyyənləşdirilərkən iqtisadiyyatın və regionların mövcud potensialı, sosial vəziyyəti, bazar strukturlu təsərrüfat formalarının inkişaf göstəricilərinə əsasən regionlar arasında mövcud fərq nəzərə alınır.

Dövlət proqramlarının uğurlu icrası bu istiqamətdə strategiyanın davamlı surətdə icrasını şərtləndirməklə iqtisadiyyatın şaxələndirilərək qeyri-neft sektorunun inkişafının təmin edilməsi və regionların iqtisadi potensialının davamlı olaraq inkişaf etdirilməsi məqsədi ilə ölkə başçısı üçüncü proqram olaraq "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiqlədi və əsasən ixracyönümlü və müasir rəqabət şəraitində davam gətirə bilən məhsul istehsal edən sahibkarlıq subyektlərinin dəstəklənməsi, iqtisadiyyatın sahələrinin genişləndirilməsi, regionlarda dayanıqlı inkişaf tendensiyasının davamlılığının təmin edilməsi, ucqar kəndlərin əhalisinə xidmət edən müəssisələrin inkişafı və sosial xidmətin daha effektiv təşkilini planlayır.

Bir çox sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi son illərdə Azərbaycan Respublikasının iqtisadi siyasəti daha çox sosial istiqamətdə aparılmasını demeyə əsas verir. Bu da öz növbəsində sosial problemlərin effektiv həlli üçün iqtisadiyyatın bütün sektorlarının səmərəli qarşılıqlı əlaqələndirilməsi ilə lazımi mexanizmlərin işlənilməsini, sosial siyasətin yeni subyektlərinin formalaşması üçün adekvat iqtisadi və hüquqi bazanın yaradılmasını, əhalinin sosial müdafiəsi sisteminin düzgün təşkilini tələb edir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidenti tərəfindən 16 mart 2016-cı il tarixli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" və 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Həmin Sərəncam və Fərmanda sosial istiqamətdə 2 xidmət sahəsinin (ixtisaslaşmış turizm, logistika və ticarət) və 2 sosial sahənin (uyğun qiymətə mənzillər və kompleks məsələ

kimi peşə təlimləri), eyni zamanda İKT və telekommunikasiya, kommunal xidmətlərin inkişafını üçün strateji məqsədlər qarşıya qoyulmuşdur.



Ümumiyyətlə, regional sosial-iqtisadi strategiyanın formalaşması regionlarda həm sosial infrastrukturun, həm də ümumilikdə sosial proseslərin inkişafı və fəaliyyətinin səmərəli təşkili üçün hüquqi, iqtisadi, maliyyə, təşkilati, investisiya və d. istiqamətlərdə tədbirlər kompleksini əhatə edir. Bu da uzunmüddətli strateji hədəflərin, strateji məqsədlərin və prioritet istiqamətlərinin müəyyən edilməsini nəzərdə tutur. Regionlarda sosial-iqtisadi inkişaf strategiyasının formalaşdırılmasının əsas mərhələlərini yuxarıdakı sxemdə göstərilmişdir.

MÜASİR ŞƏRAİTDƏ DAXİLİ AUDİT STANDARTLARI VƏ ONLARIN TƏTBİQİ METODİKASI

Salehova H.T.
Odlar Yurdu Universiteti
E-mail: hsalehova@mail.ru

Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə inteqrasiyası və dünyanın iqtisadi sisteminə sıx yanaşması, müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat və mülkiyyət subyektlərinin formalaşması, sahibkarlıq fəaliyyətinin genişlənməsi beynəlxalq standartlara müvafiq maliyyə nəzarəti sisteminin formalaşmasını zərurətə çevirmişdir. Maliyyə nəzarətinin ən çox yayılmış mütərəqqi forması audit hesab olunur. 1996-cı ildə Azərbaycan Respublikası Audiorlar Palatası yarandıldıqdan sonra ölkəmizdə audit sistemi inkişaf etməyə başlamışdır. Qısa vaxt kəsiyində auditin mükəmməl normativ hüquqi və qanunvericilik bazası formalaşmış, auditin hər üç növünün: daxili, dövlət və müstəqil (kənar) auditin inkişafı üçün lazımi zəmin yaradılmışdır. İqtsiadi idarəetmənin ən mühüm ünsürlərindən sayılan uçot və nəzarət bazar münasibətlərində daha aktual xarakter daşıyır. Belə ki, inzibati qayda tətbiq olunan, ümumi nəzarətdən imtina etməyə çalışan hər bir təsərrüfat rəhbəri müstəqil təsərrüfatçılıq şəraitində ayrı - ayrılıqda təsərrüfat

daxili idarəetmə nəzarətindən necə faydalı istifadə etmək yollarını axtarır. Belə şəraitdə audit xidmətinə istinad edilməsi mütləqdir. Audit fəaliyyətinin vacibliyi bir surə nəzəri prinsiplərə əsaslanır.

Müasir dövrdə dövlət maliyyə nəzarət orqanlarının fəaliyyətinin mühüm istiqamətlərindən bir olan səmərəlilik auditinin əsas məqsədi dövlət vəsaitlərindən istifadənin iqtisadi səmərəsini müəyyənləşdirmək, eləcə də büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsidir. Sadəcə əsaslandırılmış və məqsədli büdcə vəsaitlərindən istifadəyə deyil, həmçinin son nəticəyə nail olmağa istiqamətlənmiş büdcə sistemlərində səmərəliliyə nəzarət daha cox vüsat alır.

Müasir auditin növlərini onun iqtisadiyyatda oynadığı rola, yerinə və əhəmiyyətililiyinə əsasən aşağıdakı kimi təsnif etmək məqsədəuyğundur: - təsdiqedici audit; - maliyyə auditi; - riskli sahənin auditi. - uyğunluğun auditi; - ilkin audit; - əməliyyat auditi; - dövrü audit; - sistemli-istiqamətli audit.

Müasir bazar iqtisadi şəraitində təsərrüfat subyektlərinin fəaliyyəti ilə əlaqədar audit əsas etibarilə birinci növbədə iki yöndə fərqlənir: daxili audit; kənar audit.

Daxili audit müəssisədə idarəetmə nəzarət sisteminin ayrılmaz hissəsi kimi çıxış edir. Onun məqsədi - müəssisənin idarəetmə sisteminin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsini, xərclər smetasının icrasını, əmlakın qorunmasını təmin edən struktur kimi müəssisədə yaradılmış xüsusi struktur bölmədir. Daxili audit vasitəsi ilə nəzarət prosesi ilə bərabər, habelə istehsalın təşkili, müxtəlif bölmələrin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi mümkünləşir. AR-da təsərrüfat subyektlərinin idarə olunmasının səmərəliliyinin yüksəldilməsi məqsədilə DAX-ın təşkil edilməsi və reallaşdırılmasının hüquqi əsaslarını, daxili auditorların vəzifə və hüquqlarını müəyyənləşdirən "Daxili audit haqqında" Azərbaycan Respublikasının 332-IIIQ nömrəli Qanunu 22 may 2007-ci il tarixində qəbul olunmuşdur. Həmin Qanuna müvafiq olaraq: Daxili audit - təsərrüfat subyektlərinın fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə və inkişafina istiqamətləndirilmiş risklərin idarə edilməsi, idarəetmə və nəzarətin səmərəliliyinin dəyərləndirilməsi və inkişafina sistemli yanaşmaqla təsərrüfat subyektləridir.

Təşkilat və müəssisələrdə daxili audit xidmətinin təşkil olunmasında məqsəd - təsərrüfat subyektində səmərəli və müntəzəm fəaliyyətin təmin olunması, məqsədlərə nail olmaqdan ötrü risklərin idarə olunması, istənilən dəyişikliyə qısa zaman ərzində münasibət bildirmək üçün yaradılan daxili nəzarət sisteminin adekvatlığını və səmərəliliyini müəyyənləşdirməkdir. Daxili audit məzmununa və aparılan metodlarına görə kənar auditlə bir çox ümumi cəhətlərə sahibdir və əsasən də onun üçün məlumat bazasının formalaşmasına təsir göstərir.

Müəssisədə müasir təcrübəyə uyğun olaraq, daxili audit bölməsi müxtəlif istiqamətlərdə təşkil oluna bilər. Daxili audit bölməsi əsasən kiçik müəssisələrdə yaradılmır. Bu birbaşa əlavə xərclərlə bağlı olduğu üçün belə müəssisələrdə daxili auditor vəzifəsini hər hansı bir əməkdaşa (mühasibatlıq, maliyyə işçisindən, müdriyyətdən başqa) və ya kənar auditora həvalə etmək mümkündür. Daxili audit bölməsi daha çox orta və iri səviyyəli müəssisələrdə yaradılır. Daxili audit sistemi müvafiq normativ-hüquqi baza əsasında fəaliyyət göstərir. Daxili audit bölməsi yuxarıda göstərilən əsasnaməyə malik olur, eyni zamanda müəssisədə onun fəaliyyətini tənzimləyən müəssisədaxili standartlar, normativ sənədlər də mövcud olmalıdır. Müəssisədə daxili audit bölməsinin yaranma mexanizmi təsis sənədlərində öz əksini tapmalıdır.

Ümumilikdə, müəssisələrin daxili audit bölməsinin hüquqlarında müəyyən oxşarlıq vardır. Daxili audit bölməsinin hüquqlarını aşağıdakı şəkildə təsnifləşdirmək mümkündür.

- daxili auditin funksiya və vəzifələrinin həyata keçirilməsini təşkil etmək məqsədi ilə müəssisənin müdiriyyətindən, menecerindən, funksional idarəetmə Orqanlarının rəhbərliyindən (mühasibat, maliyyə, hüquq, təchizat və s.)informasiyalar, zəruri sənədlər almaq, sorğular keçirmək; daxili auditin səlahiyyətlərinə aid olan çərçivədə müəssisənin müxtəlif kateqoriyalı əməkdaşlarından yazılı və şifahi izahatlar alamaq; idarəetmə sisteminin, istehsalın səmərəliliyinin yüksəldilməsi, nəzarət sisteminin, konkret nəzarət istiqamətlərinin təkmilləşdirilməsi məqsədi ilə müəssisə rəhbərliyinə zəruri təklif və tövsiyyələr vermək, tədbirlər planı hazırlamaq; maliyyə-təsərrüfat fəaliyyətinin mövcud qanunvericilikdən, normativ hüquqi sənədlərdən, norma və standartlardan kənarlaşmasına səbəb olmuş şəxsləri, müəyyən etmək, onların qeyri-qanuni və qeyri-peşəkar fəaliyyətini sübutlarla əsaslandıraraq, bu haqda rəhbərliyə, təsisçilərə, mülkiyyətçilərə məlumat vermək; müəssisənin təsərrüfat fəaliyyətinin genişləndirilməsi məqsədi ilə daxili auditin səlahiyyətləri çərçivəsində digər müəssisə və təşkilatlarla əlaqələr saxlamaq.

Daxili auditin başlıca məqsədi - müəssisənin təsisçilərin, mülkiyyətçilərin, yuxarı - ali rəhbərliyinin maraqlarına xidmət göstərərək, idarəetmə funksiyasının effektliyini yüksəltmək, maliyyə - təsərrüfat fəaliyyətinin uyğun normativ –hüquqi bazaya və qanunvericiliyə uyğun formada həyata keçirilməsinə yardım göstərməkdir.

Daxili auditin fəaliyyətində başlıca yer tutan ən əsas amillərdən biri də riskin qiymətləndirilməsidir. Daxil audit aşağıdakılar haqqında fəaliyyət və məlumat verilməsini icra edən idarəetmə sistemlərinə məxsus riskləri qiymətləndirir: Əməliyyat və Maliyyə informasiyalarının tamlığı və düzgünlüyü; Fəaliyyətin səmərəliliyi və nəticəsi; Müəssisə aktivlərinin mühafizə edilməsi; Fəaliyyətin qanunlara, qaydalara və bağlanmış müqavilələrə uyğunluğu.

Öz növbəsində daxili auditorlar resurslardan istifadənin səmərəlilik səviyyəsini, rentabellik və qənaət yollarını araşdıran zaman, ilk olaraq aşağıdakılara riayət edilib edilməməsinə diqqət etməlidirlər: 1) Rentabellik və qənaətin qiymətləndirilmək üçün uyğun normativlərin müəyyən edilməsi; 2) Müəyyən olunmuş normativ və stanldartlara əməl edilməsi; 3) Nöqsanların aradan götürülməsi üzrə tədbirlərin icra edilməsi.

Ümumiyyətlə, daxil auditin məqsəd və vəzifələrini özündə əks etdirən dörd əsas şərt mövcudur:

1. Müəssisədə daxili nəzarət sisteminin təşkil edilməsi və fəaliyyəti üçün müəssisə rəhbərliyinin məsuliyyəti;

2. Əminlik dərəcəsinin yetərliliyi. Yəni ki, daxili nəzarət sistemi tamamilə olmasa da maliyyə (mühasibat) hesabatının etibarlılığına və qərəzsizliyinə kifayət qədər əminlik yaratmalıdır;

3. Mövcud olan məhdudluq. Daxili nəzarət sistemi onun tətbiq edilməsi və qurulması ilə əlaqədar xüsusiyyətləri nəzərə almırsa, ona yararlı bir sistem kimi baxmaq mümkün deyildir;

4. İnformasiyanın işlənilməsi üsulu. Daxili informasiyanın həm "əlyazma" üsulu ilə, həm də kompüter mühitində keyfiyyətlə işlənilməsini təmin etməlidir.

Daxili audit müəssisədə düzgün - şəffaf informasiya mühiti yaradaraq, onun fəaliyyətinin daha əsaslı və dərindən təhlilinə, bununla da daha faydalı fəaliyyət göstərilməsinə şərait yaradır. Səmərəli daxili nəzarət sisteminin yaradılması və tətbiq edilməsi müəssisənin rəhbərliyinə aşagıda göstərilənlərə nail olmaq üçün şərait yaradır: 1.İdaəetmə qərarlarının qəbul edilməsi üçün mühüm olan güvənli informasiyanın alınması; 2. Müəəssisənin sənədlərinin və aktivlərinin mühafizəsi (müvafiq nəzarət sistemi olmadıqda, onlar məhv edilə, oğurlana və ya təyinatına uygun olmayan şəkildə istifadə oluna bilər); 3. Təsərrüfat fəaliyyətinin səmərəliyinin yüksəldilməsi; 4. Uçotun müəyyən olunmuş prinsiplərinə əməl edilməsi.

Göstərilən məqsədlərin reallaşdırılması üçün çox vacibdir ki, müəssisədə daxili audit xidmətinin fəaliyyəti onun vəzifə və hüquqlarını, həmçinin işlərini səmərəsinə təminat üzrə müəssisə rəhbərinin zəmanətini nəzərdə tutan uyğun əsasnamə ilə aydın müəyyən edilsin.

MALİYYƏ ALƏTLƏRİNİN UÇOTUNUN BEYNƏLXALQ STANDARTLARDA YERİ VƏ AUDİTİ

Sədrəddinova G.K.
Bakı Biznes Universitetinin
E-mail: gunaysadraddinova@mail.ru

Maliyyə alətlərinin beynəlxalq standartlarda yeri və rolunu təhlil etmək üçün 7 nömrəli BMHS olan "Maliyyə Alətləri: Açıqlamalar" standartına baxmaq lazımdır. Əslində bu standart 9 №-li MHBS-nin davamı hesab olunur. MHBS 7-ə uyğun olaraq hansı açıqlamaların tələb olunduğunu nəzərdən keçirsək görərik ki, bu tələblər maliyyə qurumları olmayan şirkətlər üçün də aktualdır. Çünki, bu standart maliyyə alətlərinə sahib olan hər hansı bir şirkətə şamil olunur. Maliyyə alətlərinin uçotu ilə bağlı olan bu standart tanınmış və tanınmamış korporativ alətlərə, həmçinin, bütün maliyyə aktivləri və öhdəlikləri qruplarına da şamil olunur. Əgər alətlər siniflərinə bölünməli olan məlumatları əks etdirmək tələb olunarsa, şirkətlərə məlumatları bu növ alətin xüsusiyyətlərini əks etdirən siniflərə qiymətləndirmək və qruplaşdırmaq tapşırılmışdır. Şirkət məlumatı hesabat istifadəçiləri məlumatı hesabatın məlumatları ilə əlaqələndirə biləcək şəkildə əks etdirməlidir.

"Maliyyə alətləri: Tanınma və Qiymətləndirmə üzrə" Kommersiya Təşkilatları üçün 36 №-li Milli Mühasibat Uçotu Standartının məqsədi maliyyə aktivlərinin, öhdəliklərinin eyni zamanda qeyri-maliyyə maddələrinin predmetlərinin alınması, satılması məqsədi ilə bəzi müqavilələrin uçota alınması və ölçülməsi və qiymətləndirilməsi üçün prinsipləri meydana çıxarmaqdır. Nəzərə almaq lazımdır ki, 36 №-li sandart «Mühasibat Uçotu haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun şəkildə hazırlanmış və "Maliyyə alətləri: Tanınma və qiymətləndirmə" adlı 39 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsaslanmışdır. 36 №-li Milli Mühasibat Uçotu Standartın tətbiqi ilə bağlı əlavə şərtlərin əhatə olunduğu şərhlər, tövsiyyələr və uçot qaydaları nəzərdə saxlanılmaqla Azərbaycan Respublikasının Mühasibat Uçotu haqqında Qanununun 10-cu maddəsinə əsasən maliyyə hesabatlarını hazırlayan bütün kommersiya

təşkilatları tərəfindən tətbiq edilir. Maliyyə alətləri barəsində informasiyanın göstərilməsi və açıqlanması üçün tələblər "Maliyyə alətləri: Məlumatın Açıqlanması və Təqdim edilməsi üzrə" adlı 15 №-li Milli Mühasibat Uçotu Standartında öz əksini tapmışdır.

Maliyyə alətlərin auditinə gəlincə, aydın məsələdir ki, şirkətin ümumi məqsədlərinə (audit məqsədləri) uyğun şəkildə müvafiq qanunauyğunluq, açıqlamalar, bütün əməliyyatların tamlığı, dəyərlər və hesablamalardakı çatışmazlıqları düzəltmək üçün müvafiq sənədin hazırlanması auditin başlıca vəzifəsidir. Hesabdakı fərqli ödəmə növləri və fərqli mühasibat əməliyyatları sistemlərdə ayrı-ayrılıqda uçota alınır. Bəzi dünya ölkələrinə nəzər salsaq, bunun müxtəlif rəqəmsal texnologiyalar üzərindən aparıldığının şahidi olarıq. Məsələn, qiymətli kağızlarla bağlı yaradılan sistem digər uçot əməliyyatları sistəmindən fərqlidir. Eyni kolleksiyaların yerləşdirilməsi və qeyd edilməsi üçün xüsusi sistemlər tətbiq olunmaqdadır. Səhvlərin qarşısını almaq üçün hər sistemin içindəki idarəetmə mexanizmləri yaradılmışdır. Bu isə auditin işini qat-qat asanlaşdırır. Bütün səhvlərin nəzarət vasitəsi ilə qarşısını ala bilmək mümkün olmadığı üçün, texnoloji innovasiyalar buraxılmış səhvləri aşkar etməyə və yoxlamalara, hətta, bəzi səhvlərin yerindəcə aradan qaldırılmasına yardım edir. Misal üçün ödəmə planlarını mühasibat uçotu və bank qeydləri ilə müqayisə etmək və mühasibat sənədlərinin vaxtaşırı uyğunlaşdırılması təmin edilə bilər. Auditorun məqsədi hesabda ciddi bir səhv olub-olmadığını araşdırmaq və rəy hazırlamaqdır. Hesabda əhəmiyyətli səhvlər, struktur və nəzarət olub-olmaması auditorun peşəkarlıq və müasir sistemlərlə işləyə bilməsi səviyyəsindən asılıdır. Auditorun rəyinə etibar etmək lazımdır. Yəni auditor sadəcə daxili nəzarətə əsaslanan bir fikir formalaşdıra bilməz. Lakin daxili auditin fikirləri aparılacaq audit fəaliyyəti üçün əsas olacaqdır və dəlillərin bir qismi özü tərəfindən birbaşa araşdırmadan əldə edilməlidir. Auditorun daxili nəzarətdən əldə edəcəyi inam birbaşa auditorun nəticəsidir.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gələ bilərik ki, maliyyə alətlərinin uçotu zamanı "Maliyyə alətləri: Məlumatın Açıqlanması və Təqdim edilməsi üzrəetmə" adlı 15 №-li, "Maliyyə alətləri: Tanınma və Qiymətləndirmə üzrə" kommersiya təşkilatları üçün 36 №-li , "Maliyyə alətləri: Tanınma və qiymətləndirmə" 39 №-li Milli Mühasibat Uçotu Standartlarının maddələrinin gözlənilməsinə diqqət etmək lazımdır. Həmçinin, müəssisə hesabat təqdim edərkən müvafiq maddələr üzrə hazırlamalı və əsas (kafi) məlumatları mütləq şəkildə təqdim etməlidir. Maliyyə alətlərinin uçotu zamanı yaranan qeyri-ixtiyarı və yaxud bilərək edilən səhvlərin aşkarlanması və müvafiq sənədin hazırlanması isə auditin üzərinə düşən vəzifə hesab olunur. Beləliklə, maliyyə fəaliyyətin səmərəli təşkili üçün uçotun düzgün aparılması və auditin şəffaf fəaliyyəti başlıca tələblər kimi dəyərləndirilir.

İDARƏETMƏ SİSTEMİNİN ELMİ VƏ NƏZƏRİ ƏSASLARI

Səlimov Ə.V.
Bakı Biznes Universiteti
E-mail: azizsalimov22@gmail.com

İdarəetmə təcrübəsinin tarixi çox qədimdir. Halbuki keçmişdə idarəetmə bugündən çox fərqli idi. İdarəetmə çox köhnə olmasına baxmayaraq bir elm, iqtisadiyyat və tədqiqat sahəsi olaraq nisbətən yenidir. İdarəetmə XX əsrin əvvəllərində özünü sərbəst bir elm və sahə kimi təsdiqləmişdir. İdarəetmə tarix boyu mövcud olmuşdur, ancaq xüsusiyyətləri və icra mexanizmi fərqli idi. İdarəetmənin tarixi dövrləri idarəetmə elminin formalaşmasında və inkişafında mühüm rol oynamışdır. Çünki bu tarixi idarəetmə dövrlərində idarəetmə elminin müxtəlif aspektləri öyrənilmiş, bu sahədə tədqiqatlar aparılmış və problemlər öyrənilmişdir. İdarəetmənin tarixi dövrü idarəetmə elminin hazırkı vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. İdarəetmə, bir müəssisədə son məqsədə çatmaq üçün istifadə olunan müxtəlif təbii sistemlərə təsir göstərmək və bütövlüyünü və struktur birliyini qorumaq vasitəsidir.

İdarəetmə nəzəriyyəsinin əsası l890-ci illərdə qoyulmuşdur. İdarəetmə ilə bağlı nəzariyyə ilk növbədə ABŞ alimi Friderix Teylorun (1856-1915) adı ilə bağlıdır. F.Teylor XIX əsrin sonu, XX əsrin əvvəllərində ABŞ-da istehsalın idarəedilməsi, əməyin təşkilinin təkmilləşdirilməsi, işçi qüvvəsindən səmərəli istifadə olunması və əmək haqqının ödənilməsi və s. prinsipləri işləyib hazırlamaqdır.

İdarəetmə, insanın köməyi ilə xarici mühitin elementlərini: cəmiyyəti, canlı və cansız təbiəti təşkil edərək maraqlarına tabe etdiyi şüurlu bir məqsədyönlü fəaliyyətdir. İdarəetmənin mahiyyəti hər şeyi idarə etməkdir: istehsal, maliyyə, kadrlar, idarəetmə sistemini ilkin vəziyyətdən - nəticələri yaxşılaşdırmaq üçün resurslar. İdarəetmə - bazar iqtisadiyyatı şəraitində idarəetmə, bir sıra prinsip və metodlar. istehsalın səmərəliliyinin artırılması, mənfəət və izafi dəyərin artırılması məqsədilə bazar iqtisadiyyatı şəraitində

inkişaf etmiş və inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə istifadə olunan istehsal rəhbərliyi vasitələri və formalarıdır.

Müəssisənin idarəetmə prinsipləri idarəetmə prosesinin sistemi, quruluşu və təşkili üçün tələbləri müəyyənləşdirir. Yəni təşkilatın idarə olunması bütün səviyyələrdə menecerləri idarə edən əsas fərziyyələr və qaydalar vasitəsilə həyata keçirilir. Beləliklə, idarəetmə prinsipləri idarəetmə funksiyalarının həyata keçirilməsində menecerlər üçün əsas fikirlər, nümunələr və davranış qaydaları kimi təqdim edilə bilər. Bütün idarəetmə prinsipləri 2 qrupa bölünə bilər: ümumi və spesifik. İdarəetmənin ümumi prinsiplərinə aşağıdakılar daxildir: tətbiqetmə prinsipi, tutarlılıq prinsipi, çoxfunksiyalılıq prinsipi, inteqrasiya prinsipi, oriyentasiya prinsipi, məsuliyyət prinsipi.

Təşkilatın idarəetmə sistemini başa düşmək, təşkilatın rəhbərliyini fərdi fərdlərin və bütövlükdə təşkilatı yaradan qrupların öz-özünə təşkil olunmuş davranışının qurulması, tənzimlənməsi və inkişaf etdirilməsi prosesi kimi müəyyənləşdirməyə əsaslanır. Nəzarət sisteminin məqsədi təşkilatın vəziyyətini qiymətləndirmək, nəzarət fəaliyyətini inkişaf etdirmək və həyata keçirməkdir. Geniş mənada, bütün şöbələrdə, iş proseslərində və layihələrdə idarəetmə funksiyalarını yerinə yetirmək üçün bir idarəetmə sistemi lazımdır.

KOMMERSİYA BANKLARININ MƏQSƏDİ VƏ İNKİŞAF PROBLEMLƏRİ

Səmədov İ.H.
Bakı Biznes Universiteti
E-mail: ilham.samedov97@gmail.com

Bank kredit və kredit əməliyyatlarını emal edən, həmçinin əmanətlərin qəbulu və avansların verilməsi ilə məşğul olan bir qurumdur. O, həmçinin pul emissiyasına imkan verir, avtomatik ödəniş də daxil olmaqla ödənişlərin işlənməsini asanlaşdırır. Bank həmçinin vəsaitlərin xərclənməsini və kreditlərin verilməsini təmin edir. Biznes investisiyaları, məsləhətlər və seyf qutularının saxlanması ilə məşğul olur. O, qəyyumluq, agentlik və bank möhürünü daşıyan bir sıra maliyyə xidmətləri göstərir. "Bank" anlayışı vəsaitlərin verilməsi üçün bir məkan anlamını daşıyır.

Kommersiya bankı termini əmanətləri qəbul edən, hesabların yoxlanılması xidmətlərini təklif edən, müxtəlif kreditlər verən və fiziki şəxslərə və kiçik bizneslərə depozit sertifikatları və əmanət hesabları kimi əsas maliyyə məhsulları təklif edən maliyyə institutuna aiddir.

Kommersiya bankları iqtisadiyyatın mühüm hissəsidir. Onlar nəinki istehlakçılara vacib xidmət göstərir, həm də bazarda kapital və likvidlik yaratmağa köməklik göstərirlər. Müştərilərinin hesablarına qoyduğu vəsaitləri götürüb başqalarına borc verməklə likvidliyi təmin edirlər. Kommersiya bankları kreditin yaradılmasında rol oynayır ki, bu da istehsalın, məşğulluğun, istehlak xərclərinin artmasına gətirib çıxarır, bununla da iqtisadiyyatı gücləndirir.

Kommersiya banklarının əhəmiyyəti: Nağd pula, sərvətə qənaət etmək, öz resurslarını zənginləşdirmək və təminatları təmin etmək üçün onların ictimai xidmətlərinin əhəmiyyəti; Ayrı-seçkilik olmadan bütün müştərilərə bank xidmətlərinin göstərilməsinin vacibliyi; Dövlət tərəfindən həyata keçirilən bütün növ inkişaf fəaliyyətlərinə töhfə verilməsinin, sürətləndirilməsinin və milli iqtisadiyyatın dəstəklənməsinin əhəmiyyəti; Tək və ya digər banklarla birlikdə pul yaratmaq qabiliyyətinin əhəmiyyəti.

Dövlətdə tətbiq olunan qanun və qaydalara uyğun olaraq, fərdlərin xidmət bankını əldə etməsini və müştərilərin və tələbələrin ehtiyaclarını, müxtəlif xidmət və imkanlarını və bankın digər əməliyyatlarını ödəməsini asanlaşdıran cəmiyyətdə yayılmada əks olunan əhəmiyyət Kommersiya banklarının müxtəlif strategiyalar üzərindən fəaliyyət göstərmələrinə baxmayaraq, əsas məqsədləri eynilik təşkil edir. Bütün kommersiya bankları üç əsas məqsədi həyata keçirməyə çalışır:

1. Mənfəətlilik. Bank öz sərvətinin dəyərini eyni dərəcədə riskə məruz qalan digər layihələrin əldə etdiyi gəlirdən az olmayan hər hansı müvafiq mənfəətlə maksimumlaşdırmağa və bu mənfəətin bir hissəsini səhmdarlara bölüşdürməyə çalışır. Bu mənfəətə nail olmaq üçün bank müxtəlif mənbələrdən əldə etdiyi pulları işlədir və xərcləri azaltmağa çalışır, çünki mənfəətin reallığı gəlirlər və xərclər arasındakı fərqdir. Bank gəlirləri, bəzi aktivlərin yüksək bazar dəyəri nəticəsində yaranan kapital qazancından əlavə, bankın başqalarına borc vermək, layihələrə və digər xidmətlərə sərmayə qoymaq üzrə əməliyyatlarının nəticələrindən ibarət olan məbləğdir. Bank bir tərəfdən xərcləri azaltmaqla, digər tərəfdən isə maksimum ümumi gəlir əldə etməklə bu məqsədinə müvəffəqiyyətlə nail olurlar.

2. Bankların vəsaitlərinin mühafizəsi. Bankların vəsaitlərinin mühafizəsi əmanətçilərin hüquqlarıdır. Bankın kapital ticarəti xalis aktivlə müqayisədə kiçikdir və bu, əmanətçilərin xalis aktivləri ilə müqayisədə sıfır təhlükəsizlik marjası verir. Yəni, bank öz kapitalından çox itirə bilməz. Bankda külli miqdarda likvid vəsaitə malik olan və maliyyə resurslarını investisiyaya yönəldən əmanətçilər aşağı risk dərəcəsindən ibarətdir ki, bu da gəlirliliyə mənfi təsir göstərir. Ona görə də məqsədini maksimum gəlir əldə etməyə yönəldən kommersiya bankının idarə edilməsi, əmanətçilərin likvidlik və təhlükəsizliklə bağlı məqsədlərinə isə qanunvericilik və Mərkəzi bankın göstərişləri ilə nail olmaq olar. Bütövlükdə kommersiya banklarının əsas məqsədlərini təmin etmək, bankı külli miqdarda itkilərdən qorumaq, əmanətçilərin etimadını qazanmaq və müflis olma ehtimalını aradan qaldırmaqdır.

3. Aktual qalmaq üçün banklar öz biznes modellərini tənzimləməli və yeni reallıqlara uyğunlaşmalıdırlar – daha sərt tənzimləmə, aşağı faiz dərəcələri, dəyişən müştəri ehtiyacları və davranışları, texnologiyanın pozulması və vasitəçiliyin sürətləndirilməsi.

Sürətlənən texnoloji tərəqqi, inkişaf edən iqtisadi şərait və dəyişən müştəri davranışı tipik biznes-model bankın fəaliyyətini pozmaq üçün yetişmiş mühit yaratmışdır. Banklar bir məanlı başa düşməlidir ki, dəyişiklik sürəti aşağı düşməyəcək (Rieker F. 2013). Və dəyişikliyə uyğunlaşmayan hər bir bankda ilk öncə inkişafında problemləri yaranır daha sonra isə böhrana uğruyaraq fəaliyyətini dayandırır.

Ancaq dəyişikliklərə açıq olan banklar, misilsiz domen təcrübələrini, reputasiyalarını və əlaqələrini texnologiyada yeniliklər və müştəri mərkəzli yanaşma ilə birləşdirərək, bu pozuntudan birbaşa faydalana bilərlər. Bankların inkişafına təsir edən əsas problemləri aşağıdakı kimi sadalaya bilərik:

1. İnkişaf etməkdə olan tənzimləyici mənzərə daha yüksək xərclərə gətirib çıxarır. Davam edən tənzimləyici islahatlar və Bazel III kimi yeni çərçivələr maliyyə sisteminin sabitliyini gücləndirmək məqsədi daşıyır. Lakin maliyyə institutları üçün bu təşəbbüslər, xüsusən də ən böyük, qlobal sistem əhəmiyyətli banklar (G-SIB) üçün əhəmiyyətli xərclər və qeyri-müəyyənlik yaradır. Kapitalın miqdarının və zərər udma qabiliyyətinin artması bank sektorunu gücləndirəcək, lakin xərcləri artıracaq və gəlirliliyə zərər verəcək. Eyni zamanda, yeni aktivlər və maliyyələşdirmə likvidliyi tələbləri bankların daha yüksək səviyyəli likvid aktivlərə malik olmasını tələb edir ki, bu da tez-tez daha az gəlir gətirir və mənfəəti daha da azaldır.

Yeni Basel III tələblərinə cavab vermək üçün banklar kapital dəyərini ödəmək üçün kifayət qədər gəlir əldə etməklə bərabər, balans hesabatlarının hər iki tərəfini idarə etməlidirlər. Bazel III çərçivəsi, həmçinin artan işçi heyəti, mürəkkəb məlumat təhlili və yenilənmiş İT sistemləri üçün yeni xərclər təqdim edir. Məsələn, Bank Nəzarəti üzrə Bazel Komitəsinin risk məlumatlarının effektiv birləşdirilməsi və risk hesabatı imkanları üzrə prinsipləri həyata keçirmək səyi bank başına yüz milyonlarla avro məbləğində investisiyaların qoyulmasına səbəb ola bilər (Hahn T. 2014).

2. Aşağı faiz dərəcələri və uyğunluq xərcləri bankların gəlirliliyini məhdudlaşdırması. Qlobal maliyyə böhranından sonra artımı stimullaşdırmaq üçün dünya üzrə mərkəzi bankların yaratdığı aşağı faiz mühiti bankların biznesinə uzun müddət mənfi təsir göstərir. Qeyri-adi mühit borcalanların ödəmə qabiliyyətini dəstəkləsə və banklar üçün əlverişli maliyyələşdirmə şəraiti yaratsa da, aşağı faiz dərəcələri bankların xalis faiz marjalarını və gəlirlilik səviyyəsini bir müddət sonra məhdudlaşdırır.

3. Müştərinin ehtiyacları və davranışı dəyişməkdədir. Bir çox müxtəlif sənayelərdə müştərilərin qərar qəbul etməsinə təkan verən fundamental dinamikalar oxşardır. Qiymət, xidmət və güvən əsasdır, xüsusən də etibar. Artıq bir neçə ildir ki, banklar maliyyə böhranı zamanı itirilmiş etimadı geri qaytarmağa və müştərilərlə işgüzar münasibətlərini bərpa etməyə çox çalışırlar. Lakin bu cəhdlər fərqli ehtiyaclara və yeni davranışlara malik müştəri bazasına cavab verir. İstehsalçılar və ya topdan satıcılar kimi, müştərilər də bu gün daha şəffaf və daha çox seçim çevikliyi ilə xidmətlərin daha tez və rahat çatdırılması üçün öz banklarına müraciət edirlər (Duranton S., Russo M., Salzer S., Schürmann J. 2014). Maliyyə məhsulları və bazar anlayışları haqqında məlumat bir vaxtlar yalnız bankların imtiyazlı çıxışı olan sahə bilikləri idi. Bu gün bu məlumat bir çox hallarda internet forumlarında və ya müqayisə portallarında pulsuz olaraq və ya sosial media platformalarında ekspertlərlə birbaşa mübadilələrdə mövcuddur. Nəticədə, indi müştərilər öz banklarından keçmişlə müqayisədə daha çox fərdiləşdirilmiş məlumat və yüksək keyfiyyətli məsləhət xidmətləri gözləyirlər (Dapp T. 2014).

4. Yeni rəqəmsal xidmətlər bazarı pozur. İnformasiyanı daha sürətli emal edən və kommunikasiyanı asanlaşdıran yeni rəqəmsal texnologiyalar qeyri-maddi informasiyanın istehsalı, bölüşdürülməsi, paylaşılması, nəşri və istehlakı üsullarını dəyişir ki, bu da daha səmərəli proseslər, daha çox sinerji və daha yüksək məhsuldarlıq təmin edir.

5. Desiremediasiya sürətlənir. Maliyyə vasitəçiliyi və ya vəsaitlərin əmanətçilərdən borcalanlara yönəldilməsi hər bir iqtisadiyyatda bankların ən əsas roludur. Xüsusilə Avropada kommersiya bankları

iqtisadiyyatın əsas maliyyə mənbəyidir və qeyri-maliyyə korporativ sektorunun xarici maliyyələşdirilməsinin 70%-dən çoxunu, maliyyə bazarları (və digər maliyyələşdirmə) isə 30%-dən azını təmin edir. Müqayisə üçün qeyd edək ki, ABŞ-da kommersiya bankları maliyyələşdirmənin yalnız 30%-ni təmin edir (Deutsche Bundesbank, 2014).

TORPAQ, TİKİLİ VƏ AVADANLIQLARIN UÇOTU

Seyfullayeva T.R.
Sumqayıt Dövlət Universiteti
E-mail: seyfullayeva888@gmail.com

Mühasibatlıq qaydalarına uyğun olaraq uçotun aparılması xüsusiyyətləri ümumən aktivlərin təsnif edilməsi əsasında müəyyən olunur. Bizə məlumdur ki, aktivlər kecmiş hadisələr nəticəsində yaranan, müəssisənin sərəncamında olan və gələcəkdə fayda gətirəcək müəyyən bir dəyərə malik resurslardır. Aktivlər istifadə müddətinə görə qısamüddətli və uzinmüddətli olur. Uzunmüddətli aktivlər eyni zamanda maddi və qeyri maddi aktivlərə ayrılır. Torpaq, tikili və avadanlıqlar uzunmüddətli aktivləri əhatə edir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.17 maddəsinə uyğun olaraq istifadə müddəti bir ildən artıq olan, qalıq dəyəri 500,0 manat və ilin sonuna qalıq dəyəri ilkin dəyərin 5%- dən az olmayan maddi aktivlər torpaq, tikili və avadanlıq hesab edilir. Lakin Beynəlxalq Mühasibat Uçotu Standartlarında yalnız müddət məhdudiyyəti mövcuddur və məbləğ məhdudiyyəti yoxdur. Artıq uçota alınacaq aktivin məqsədyönlü və faydalı şəkildə istismar müddəti 1(bir) ildən artıq olduğu halda həmin aktiv torpaq, tikili və avadanlıq hesabında uçota alınır. Eyni zamanda qeyd etməliyik ki, torpaq istisna olmaqla bütün torpaq, tikili və avadanlıqların istismar müddəti mövcuddur.

Yeni hesablar Planının 11 №-li maddəsində üc hesab olaraq 111.-"Torpaq, tikili və avadanlıqlar-Dəyər"-aktiv hesab, 112.-"Torpaq, tikili və avadanlıqlar-amortizasiya"-əks aktiv hesab, 113.-"Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması" aktiv hesab olaraq qeyd olunur. Eyni zamanda bu hesabların hər biri sub hesablara bölünür.

111№-li "Torpaq, tikili və avadanlıqlar" üzrə: 111-1."Torpaq – Dəyər"; 111-2."Tikililər – Dəyər"; 111-3."Maşınlar və avadanlıqlar-Dəyər"; 111-4."Nəqliyyat vasitələri- Dəyər"; 111-5."Digər torpaq, tikili və avadanlıqlar-Dəyər".

112№-li "Torpaq, tikili və avadanlıqlar - amortizasiya" üzrə: 112-2."Tikililər –Amortizasiya"; 112-3."Maşınlar və avadanlıqlar-Amortizasiya"; 112-4."Nəqliyyat vasitələri –Amortizasiya"; 112-5."Digər torpaq,tikili və avadanlıqlar-Amortizasiya".

113.-"Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması" üzrə: 113-1."Təyinatı üzrə istismar edilməsi üçün əlavə məsrəflər tələb edən torpaq, tikili və avadanlıqlar"; 113-2."Təyinatı üzrə istismara hazır olan torpaq, tikili və avadanlıqlar"; 113-3."Tikilməkdə (istehsalatda) olan torpaq, tikili və avadanlıqlar".

Hər bir halda Torpaq, tikili və avadanlığın dəyəri və ya amortizasiyasını müəyyən edən qiymətləndirmə göstəricisi daxil olsada onların tərkibi müəyyən olunmalıdır. Torpaq müəssisənin balansında istifadə xüsusiyyətindən asılı olmayaraq mövcud olan torpaq sahələridir. Bura tikili altı ərazilər və əkin sahələri aid edilir. Tikililər müəssisənin balansında olan istehsal və qeyri istehsal təyinatlı, inzibati, sosial və digər təsərrüfat obyektləri aid edilir. Maşınlar və avadanlıqlar generatorlar, mexaniki mühərriklər, ölcü cihazları, ampermetrlər, xüsusi tərəzilər, hesablama maşınları, kassa aparatları, stablizatorlar, termostatlar, digər labaratoriyavə tibbi avadanlıqlar. Nəqliyyat vasitələri hava nəqliyyatı (təyyarə,vertolyot və s), su nəqliyyatı (gəmi,paraxod,yaxta və s), ümumi nəqliyyat vasitələri (yük və minik avtomobilləri), dəmiryolu (yük və sərnişin qatarları və s)

11 № -li maddədə ilk əvvəl torpaq, tikili və avadanlıq olaraq aktivlərin ilkin dəyəri uçota alınır. İstismar müddətinə əsasən köhnəlmə dəyəri yəni amortizasiya xərci hesablanır. Amortizasiya xərci ilkin dəyərdən cıxıldıqdan sonra aktivlərin qalıq dəyəri müəyyən olunur. Amortizasiya xərci aktivlərin istismara buraxılması vaxtından hesablanır. Sonra torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması qalıq dəyərə əlavə olunur. Bununlada torpaq, tikili və avadanlıqların balans dəyəri müəyyən olunur. Torpaq, tikili və avadanlıq olaraq uçota alınan aktivlər istehsal və qeyri istehsal təyinatlı olur. İstehsal və xidmət prosesi ilə bağlı olan həmin aktivlər istehsal təyinatlı aktivlər və elm, təhsil, idman, mədəniyyət və s. bu kimi sahələrlə bağlı olan aktivlər isə qeyri istehsal təyinatlı aktivlər hesab edilir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 114-cü maddəsinə uyğun olaraq Torpaq, tikili və avadanlıqların amortizasiyası aparılır. Torpaq, tikili və avadanlıqlar olaraq uçota alınan aktivlərin amortizasiya olunan dəyəri tərtib olunan mənfəət və zərər haqqında hesabatlarda xərc olaraq tanınır. Bu xərclər istismar müddətinə uyğun olaraq bölüşdürülür. Aktivlərin tanındığı və həm də tam olaraq amortizasiya olunduqları hallarda, aktivlər tanınmadıqları hallarda və aktivlər satış üçün müəyyən olunduqları zaman amortizasiya hesablaması aparılmır. Eyni zamanda torpaq sahəsinin ilkin dəyərinə demontaj, obyektin ləğvi və sahənin bərpası ilə bağlı məsrəflər daxil edilərsə, onda torpaq aktivinin həmin hissəsi bu kimi məsrəflərin çəkilməsindən alınan səmərənin müddəti ərzində amortizasiya olunmalıdır. Mühasibat uçotunda bir sıra amortizasiya metodlarından istifadə olunur. Bura daxildir düzxət, qalıq dəyəri və istehsal vahidi metodu.

Düzxətt metodu ilə aktivlərin son qalıq dəyərlərinin dəyişmədiyi halda istismar müddətinə uyğun daimi ayırmaların həyata keirilməsi nəzərdə tutulur. Məsələn müəssisənin balansında 5000 manatlıq avadanlıq var və faydalı istismar müddəti 10 ildir. 5000/10=500 manat.Yəni hər il 500 manat xərcə silinəcək.

Qalıq dəyəri metodu aktivlərin istismar müddətində hesablanan ayırmalarının azalmasını əks etdirir. Bu zaman azalan qalıq dəyərinə əsasən illər üzrə hesablama aparılır.Yəni birinci il: 5000x20%=1000 manat, ikinci il: (5000-1000)x20%=800 manat**,** üçüncü il: (5000-1800)x20%=640 manat.

İstehsal vahidi metodu aktivlərin istehsal gücü və istismar olunma xüsusiyyətlərinə əsasən ayırmalar formasında göstərilir. Bu zaman ölçü vahidi müəyyən olunur. Məsələn istismar olunan avadanlığın faydalı istifadə müddəti 4000 saatdı. Hər il əvvəlki ilə müqayisədə istismar vaxtı azalma ilə müşahidə olunur. birinci il: 5000/4000x500=625 manat, ikinci il:5000/4000x450=562,50 manat, üçüncü il 5000/4000x400=500 manat.

113 "Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması" hesabı müəssisənin torpaq, tikili və avadanlıqlara etdiyi investisiya qoyuluşları və kapitallaşdırılmış məsrəflərin hərəkəti haqqında məlumatları uçota almaq üçün nəzərdə tutulub.

Torpaq, tikili və avadanlıqların təmiri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 115-ci maddəsinə uyğun olaraq tənzimlənir. Vergi məcəlləsinin tələblərinə uyğun olaraq bina, tikili və qurğuların təmirinə ilin sonuna qalıq dəyərinin 2 faizi, maşın və avadanlıqların təmirinə ilin sonuna qalıq dəyərinin 5 faizi, nəqliyyat vasitələrinin təmirinə ilin sonuna qalıq dəyərinin 5 faizi həcmində təmir xərcləri müəyyən olunur. Normadan artıq sərf olunan xərclər yenidən həmin torpaq, tikili və avadanlıqların dəyərinin üzərinə əlavə edilir və həmin məbləğə amartizasiya hesablana bilməz. Eyni zamanda ümumən hansı növ torpaq, tikili və avadanlığa amartizasiya xərci hesablanmadığı halda onun təmirinə xərc norması müəyyən olunmur.

Son olaraq mövzunun tədqiqat istiqamətinə uyğun olaraq aşağıda qeyd olunan təklifləri məqsədəuyğun hesab edirəm:

1. Azərbaycan Respublikasında torpaq, tikili və avadanlıqların qiymətləndirilməsi,uçotu və hərəkətinin beynəlxalq standartların tələblərinə uyğun tətbiqinin dövri olaraq yenilənməsi;

2. Torpaq, tikili və avadanlıqların təmiri üzrə xərclərin Azərbaycan Respublikası Vergi Məcəlləsinin tələblərinə uyğun tənzimlənməsinə nəzarətin təmin edilməsi.

TURİZM KONSEPSİYASININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Şirinov İ.P.
Bakı Biznes Universiteti
E-mail: shirinovisrail@mail.ru

Ölkəmizdə turizm sahəsinin inkişafı bu sahədə ölkələrarası əməkdaşlığın inkişafı gələcək illərdə ölkənin prioritet istiqamətlərindəndir. Turizmin ölkə iqtisadiyyatının yüksək gəlir gətirən sahəyə çevrilməsi, sosial tələbləri təmin edəcək, yüksək rəqabət qabiliyyətinə malik və səmərəli turizm komplekslərinin yaradılması və bu sahə ilə bağlı iş yerlərinin təsis edilməsini təmin etmək qeyri-neft sahəsinin inkişafı istiqamətində ölkəmizin qarşısında duran vacib vəzifələrdən biridir. Turizm sektorunun inkişafı istiqamətləri aşağıda qeyd edilən məsələləri əhatə edir: Rəqabətə dözümlü turizm infrastrukturu və turizm sənayesinin təşkil edilməsi; Turizm xidmətləri ilə bağlı yeni üsul və standartların tətbiqi; Müasir turizm obyektlərinin beynəlxalq standartlara uyğun şəkildə yaradılması; Ölkədə turizm marşrutları və zonalarının müəyyən edilməsi, turizm-rekreasiya ərazilərinin hüquqi statusunun müəyyənləşdirilməsi.

Turizmin inkişafı nəzəri, praktiki, konseptual müddəalara əsasən nəzərdən keçirilir. Azad rəqabətli bazar iqtisadiyyatı şəraitində turizmin inkişaf istiqamətləri qiymətləndirilərkən sosial və iqtisadi parametrlər

əsas götürülür və turizmə olan tələb müəyyən edilir. Turizm tələbi, turist göndərən bir mərkəzdən turist çəkən bir mərkəzə istiqamətli olan axındır. "Turizm məqsədli gəzinti etmə arzusunda olan və bu arzusunu reallaşdıran gəlirə sahib olan insanların miqdarına" turizm tələbi deyilməkdədir. Turizmə ayrılan pul vəsaitlərinin miqdarı və onların mənbəyi müəyyən edilir. Turizmin ölkə iqtisadiyyatına gətirdiyi səmərə qiymətləndirilir və proqnozlaşdırılır. Turizmə ayrılan pul vəsaitlərinin miqdarı və onların mənbəyi müəyyən edilir. Aşağıda qeyd edilən istiqamətlər turizmin rolunu nəzəri-metodoloji nöqteyinəzərdən formalaşdırır: 1) iqtisadi artım zamanı turizmin əsas rolunu və ölkələrin iqtisadiyyatı üçün zəruriliyini formalaşdırır; 2)turizmin ölkə əhalisinin məşğulluğu və yerli resursların xidmət və istehsala cəlb edilməsinin mühüm istiqamətlərini formalaşdırır; 3) turizmin inkişafı ixracatyönlü siyasətin yeni və daha səmərəli forması kimi turistlərin tələbatına uyğun struktur transformasiyanın modelini qurur;

Turizmin hüquqi mənası müvəqqəti və könüllü olaraq, qeyri-ticarət və qeyri-iş məqsədilə səyahət edənlərin yaşayış yerini dəyişməsi ilə bağlı qarşılıqlı əlaqə və xidmətlərdir. İqtisadi mənası isə götürülmüş hər hansı ölkənin təsərrüfat kompleksi daxilində onun ayrı-ayri sahələri arasında müxtəlif əlaqələrə malik böyük iqtisadi sistemdir. Bu əlaqələr də müəssisələr tərəfində istehsal olunan mal və xitmətlər məcmuusudur.

Turizm konseptual anlayışa görə daim yaşayış yerlərindən, sıx məskunlaşmalardan uzaga, əmək fəaliyyəti ilə məşğulluqla deyil, mədəni , sağlamlıq üçün, rekreasiya, istirahət, zövq almaq, əyləncə və başqa məqsədlərlə gəlir əldə etmədən səyahət etməkdir. Turizmə konseptual yanaşma zamanı, turizm fəaliyyətinin sosial-iqtisadi mahiyyəti, sosial rolu və beynəlxalq nəticələrinin qiymətləndirilməsi yolu ilə bütövlükdə yeni üsul və metodların tətbiqi tələb edilir. Sahibkarlıq obyekti olaraq, turizm, onun təşkil olunması, himayə altına alınması, dövlət tərəfindən tənzimlənməsi sisteminin modifikasiya edilməsi, oxşar və fərqli cəhətləri bir çox aspektlərdən təşkil edilir.

Turizmin inkişaf konsepsiyası regionların intensiv inkişafına əsaslanır, resursların bir-birini əvəz etməsi imkanını qiymətləndirir və əhalinin kənd və şəhər yerlərində məskunlaşmasını formalaşdırır. Azərbaycan Respublikasında regionların inkişaf etdirilməsi ölkədə aparılan davamlı inkişaf strategiyasının tərkib hissəsi hesab olunur. Müasir dövrdə dünya ölkələrində olduğu kimi, bizim ölkədə də regionların inkişaf etdirilməsinin əsas səbəbi əhalinin həyat səviyyəsinin yüksəldilməsi, insanların həyat keyfiyyətinin artırılmasıdır.

Turizmin inkişaf konsepsiyasının tələb etdiyi əsas ünsür onu təmin edən sahələrin inkişafıdır. Bununla yanaşı, makroiqtisadi artım modeli kimi, Azərbaycanda turizm sahəsi neft sahəsinə nisbətən daha çox inkişaf etdirilməli və rolu artırılmalıdır. Turizm modeli başqa sahələrə nisbətən əsas məqsədi və vəzifəsi sosial istiqamətli ehtiyatlar olması ilə kommersiya mənfəətini təmin edən sahibkarlıq fəaliyyəti və tənzimlənən fəaliyyət olmaqla bir çox ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir.

Turizm modeli hər bir ölkədə özünəməxsus rol oynayır. Ona konseptual istiqamətdə yalnız tələbata deyil, eyni zamanda ölkəyə gələn xarici turistlərin cəlb olunması istiqamətində iqtisadi inkişaf amili kimi baxılmalıdır. Azərbaycanın konseptual inkişaf istiqaməti olaraq turizm prioritetliyi, onun investisiya obyekti kimi qəbul olunması və Respublikada investisiyaların bu sahə və bu sahə ilə əlaqəli digər sahələrə cəlb olunması imkanları və münasib olmağı ilə izah edilir. Azərbaycan Respublikasının təbii-coğrafi və iqtisadi mövqeyi, çoxlu sayda beynəlxalq layihələrdə iştirakçı olması, bir çox ölkələrin tranzit xidməti olaraq ölkəmizin imkanlarından istifadəsinin təsiri ilə ölkənin turizmin iqtisadi və inteqrasiya sistemində rolu artır. Konseptual inkişaf istiqamətləri kimi Azərbaycan Respublikasının qarşısında duran əsas məqsəd turizm dövriyyəsinə daha çox resurs cəlb etmək və turizm potensialına vəsait ayırmaqla iqtisadi artımda turizm bazarının rolunu və miqyasını artırmaqdır. Dünya ölkələrində turizmdən gələn gəlirlər başqa sahələrə nisbətən yüksək olması daha çox inkişaf qanunauyğunluğuna tabedir. Turizm modelinin tərtib olunması üçün turizmdə hazırki vəziyyət dəyərləndirilir, təhlil edilir. Onun nəticələri iqtisadi və sosial cəhətdən qiymətlən-dirilir. Əldə olunan nəticələr aşağıdakı əlamətlərə görə təhlil edilir: Adambaşına düşən gəlir səviyyəsinə görə; Turizmdə işləyənlərin sayına görə; Ölkəyə gələn və ölkədən gedənlərin sayına görə; Turizm sahəsində fəaliyyət göstərən təsərrüfat subyektlərinə görə.

Turizmin inkişaf modeli nəzərdə tutulan məqsədə çatmağın optimal və əlverişli yoludur. Bu model struktur modeli kimi tələbatın bölüşdürülməsi və resurslarla təmin edən və təşkilati-iqtisadi quruluş kimi funksional vəzifələrin bölgüsünə uyğun olaraq ixtisaslaşma səviyyəsilə ölçülür.

Ümumi Daxili Məhsulun artmasında amillərin göstərdiyi təsir dərəcəsini proqnozlaşdırmaq üçün texnoloji model şərtdir. Daha dəqiq desək, turizmin inkişaf etməsi üçün lazım olan resursların normativ bazada müəyyən edilməsi və strategiyası aydınlaşmalıdır.

Azərbaycan Respublikasında post-neft dövrü hökm sürür və artıq ölkədə yeni iqtisadi modeli tətbiq edilməkdədir. Yeni iqtisadi inkişaf modeli artıq formalaşmış infrastrukturdan istifadə yolu ilə, xarici

investorların cəlb olunması, eyni zamanda neftdən asılılığın azaldılması, həmçinin iqtisadiyyatın modernləş-dirilməsi və diversifikasiyası və s. kimi fəaliyyətləri özündə ehtiva edir. Bununla əlaqədar olaraq tərtib olunmuş strateji yol xəritələrini 3 dövrə bölmək olar:

1. 2016-2020-ci illərdə tədbirlər planı və inkişaf strategiyasının hazırlanması dövrü;
2. 2020-2025-ci illərdə uzunmüddətli baxış dövrü;
3. 2025-ci ildən sonrakı dövrlər isə hədəf baxışı dövrü.

Konseptual mənada turizm fəaliyyətinin təşkilində əsas aparıcı amillərdən biri də reklam-informasiya işinin təkil olunmasıdır.

Reklam-informasiya işi təkcə elanlardan ibarət olmayıb, turizm zonasının əhəmiyyətini, fərqlərini, önə çıxan tərəflərini qabarıq şəkildə təbliğ edən, şüuraltı təsir edən başqa vasitələr də vardır. Bu vasitələrin əsasən əyani təbliğat formalarının informasiya imkanlar daha genif yayılır. Məsələn, turizm bölgələri haqqında çəkilmiş sənədli filmlərin dünya miqyasında mümayişi üçün imkanlar vardır. Reklam-İnformasiya xidməti olmadan turizmi təşkil etmək qeyri-mümkündür. Məlumdur ki, informasiya da xidmətin sahələrindən biridir. Səyahətə hazırlaşan turistlər əvvəlcə gedəcəkləri yer, o yerin əhalisi, onların ənənələri, mədəniyyətləri haqqında çoxlu miqdarda informasiya əldə edirlər. Turistin əvvəlcədən getdiyi bölgədəki qiymətlərdən, ən sərfəli haradan, necə almalı olduğu haqda xəbərdar olmalıdır.

Reklam-informasiya başlıca məqsədi isə yuxarıda qeyd edilən bu və ya digər məlumatları turistə vaxtında və lazımi qədər çatdırsın, turizm məhsulunun üstün xüsusiyyətlərini turistə təqdim etsin, onda maraq yaratsın və onu səfərə həvəsləndirsin.

BİZNESDƏ KEYFİYYƏTİN İDARƏETMƏ SİSTEMİNİN FORMALAŞDIRILMASI

Şükürlü N.A.
Odlar Yurdu Universiteti

Keyfiyyətin idarə edilməsi sisteminin təkmilləşdirilməsi, məhsul keyfiyyətinə nəzarət olunması hal-hazırda ölkə iqtisadiyyatının qarşısında duran əsas vəzifələrdən biridir. Məhsulların keyfiyyətinin idarə edilməsi prosesində onun fəaliyyətinin bütün tərəflərinin əsaslı şəkildə öyrənilməsi vacibdir. Keyfiyyətin idarə olunması hazırda daha yeni istiqamətlərin yaradılmasına gətirib çıxarır. Biznesdə keyfiyyətin idarəetmə sisteminin formalaşdırılması və təkmilləşdirilməsi məsələsi günümüzün aktual məslələrindən biri hesab olunur. Məhsul keyfiyyətinin idarə edilməsi zamanı meydana çıxan müxtəlif problemlərin təhlil olunması, onların həll edilməsi, digər dövlətlərin bu sahədə apardığı təcrübələr və bu məslələrə olan mövqeləri öyrənilir. Tədqiqat işinin işlənib hazırlanması zamanı məhsul keyfiyyətinin idarə olunması sisteminin vacibliyi və onlaeın əsas mahiyyəti ilə əlaqədar məsələlər mühüm yer tutur. Burada əsasən məhsul keyfiyyətinin təkmilləşdirilmiş formada idarə olunmasına istiqamətlənmiş tədbirlər araşdırılıb öyrənilmiş, eyni zamanda məhsulların keyfiyyəti ilə əlaqədar məsələlər araşdırılmış və bununla bağlı yeni təkliflər təqdim olunmuşdur. Keyfiyyətin idarə edilməsi prosesində bütün əməkdaşlar keyfiyyətin idarə edilməsinin əsas məqsəd və vəzifələrini tam şəkildə başa düşməli və qarşsına qoyduğu məqsədlərə nail olmaq üçün müəssisə və ya firmanın strategiyasına uyğun şəkildə fəaliyyət göstərməlidirlər

Keyfiyyətin idarə edilməsi həm dövlət, həm də özəl müəssisələrdə və onların bütün bölmələrində əhəmiyyəti başa düşülən və əsas məqsədi mükəmməlliyə çatmaq olan fəaliyyətdir.. Keyfiyyət məhsulların bütün göstəricilərini təyin edən xarakterik əlamətlər toplusudur. Əvvəllər keyfiyyətin idarə olunması dedikdə sadəcə məhsulların istehsal olunması ilə bağlı olan problemlərin idarə olunması və onlara nəzarət edilməsi başa düşülürdü. Lakin zaman irəlilədikcə keyfiyyətin idarəsi müxtəlif növ sektorlara və müəssisələrə demokratik idarəetmə anlayışını gətirdi. Keyfiyyətin idarə edilməsi anlayışı getdikcə böyükdən kiçiyə bütün müəssisələrdə geniş yayılmağa başlamışdır. Keyfiyyətin idarə olunması ilk dəfə sənaye sahələrində meydana çıxmışdır. Lakin sonradan təhsil və səhiyyə sahələrində də geniş yayılmağa başlamış və normativlərə və qanunlara uyğunlaşmağa başlamışdır. Əsasən istehsal sahələrində keyfiyyətin idarə olunmasının ən əsas səbəbi istehsalda sifir xəta prinsipinin mövcud olmasıdır. Bütün müəssisə və firmalarda istehsalda əsas hədəf və prinsip bundan ibarətdir. Müəssisələrin öz fəaliyyətlərini və mövcudluqlarını davam etdirə bilmələri onların keyfiyyətli məhsul istehsal etmələrindən asılıdır. Məhsul keyfiyyətinin idarə edilməsi keyfiyyətli məhsul istehsal edilməsi və ondan istifadə olunmasını təmin edən sahələrə hərtərəfli və daimi şəkildə təsir göstərməsi başa düşülür. Məhsul keyfiyyətinin idarə olunması prosesi təsərrüfat sahələrinə, elm və texnikanikanın, istehlakçı tələbatlarının tam şəkildə ödənilməsinə istehsal sahələrinin yaxşılaşdırılmasına və iməhsul keyfiyyətinin artırılmasına və səmərəliliyinin yüksəldməsinə

istiqamətlənmişdir. Keyfiyyətin idarə olunması sisteminə istehlakçının və ümumilikdə cəmiyyətin tələbatlarını qarşılayan , məhsul və xidmətlərin keyfiyyət dərəcəsini müəyyən etmək üçün istifadə olur. İşçilərin müəssisədəki müsbət təşəbbüskarlığı da məhsul keyfiyyətinin artırılması prosesində əsas faktorlardan biri hesab olunur. Bun aşağıdakıları aid etmək olar: Əmək şəraiti; İşçilərin şəxsi keyfiyyətləri; Sosial-psixoloji faktorlar; İşçilərin təhsil səviyyəsi; Gələck üçün planlar; İşçi heyətinin hüquq və vəzifələri;

Məhsul keyfiyyətinin yüksəldilməsi eyni zamanda onun rəqabətqabiliyyətinin də artmasına və istehsal səmərəliliyinin yüksəlməsinə səbəb olur. Keyfiyyətin idarə edilməsi prosesinin həyata keçirilməsi üçün sertifikatlaşdırma, layihələndirməyə sənədləşdirmədən istifadə olunur. Müasir sistemlərin həyata keçirilməsi və təkmilləşdirilməsində keyfiyyətin idarəedilməsi mühüm əhəmiyyət kəsb edir. Məhsul və xidmətlərin keyfiyyətinin idarəedilməsini daima inkişaf etdirmək vacibdir. Keyfiyyətin idarəedilməsinin təkmilləşdirilməsi müntəzəm və sistemli xarakterdə olmalıdır. Keyfiyyətinin idarə olunması dedikdə, optimal keyfiyyətli məhsulların istehsal edilməsi və onlardan istifadəni təmin edən faktorlara planlı və , məqsədyönlü təsir prosesi başa düşülür. Keyfiyyatin idarəetmə sistemini subyektlər, metodlar, funksiyalar, vəsaitlər, prinsiplər və s. kimi bir-birilə qarşılıqlı əlaqədə olan idarəetmə kateqoriyalarına daxil etmək olar. Yüksək keyfiyyətin əldə olunması yalnız istehsalçı və istehlakçılar üçün deyil, ümumilikdə ölkə iqtisadiyyatı üçün də böyük əhəmiyyət kəsb edir. Məhsul və xidmətlərin yüksək keyfiyyətdə olması onların satış həcmini və rentabelliyini artırır, bu da ölkənin ixrac potensialının artmasına şərait yaradır və vətəndaşların rifahının və həyat səviyyəsinin yüksəlməsinə səbəb olur. Keyfiyyətin idarə olunması sisteminə istehlakçının və ümumilikdə cəmiyyətin tələbatlarını qarşılayan , məhsul və xidmətlərin keyfiyyət dərəcəsini müəyyən etmək üçün istifadə olunan, müəssisə və biznes sahələrinə təsir prosesi kimi yanaşmaq doğrudur. Keyfiyyətin idarəetmə sisteminin təkmilləşdirilməsi istehsal prosesinə müsbət təsir göstərir. Müsbət təsir dedikdə itkilərə yol verilmədən məhsullar üçün müəyyən keyfiyyət göstəricilərini seçməkdən, elmi-texniki nailləytlərdən, yeni metodlardan istehsalda istifadə etmək vasitəsi ilə layihələndirmənin həyata keçirilməsindən , istehsalın təşkil olunması və istehsal edilən məhsulların keyfiyyət səviyyəsinin artırılmasını nəzərdə tutulur. Keyfiyyətin idarə olunması dedikdə müəssisənin qarşıya qoyduğu məqsədlərini və hədəfini müəyyən edən menecment nəzərdə tutulur. O, eyni zamanda icraedici və nəzarətedici bölmələrdən ibarətdir. Məhsul keyfiyyətinin idarəetmə sistemi onun keyfiyyətinə və istehsal prosesinə nəzarəti həayat keçirən bölmələrin fərdi və ümumi halda fəaliyyətlərini özündə əks etdirir. Buraya eyni zamanda məhsulların istehsal olunması prosesində istifadə edilən xammal və materiallar, onların növləri və miqdarının müəyyən edilməsi mərhələləri də daxil edilir.

MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABATIN TƏRTİBİ PRİNSİPLƏRİ VƏ TƏQDİM EDİLMƏSİ

Süleymanova N.S.
Sumqayıt Dövlət Universiteti
E-mail: nezaketsuleymanova93@gmail.com

Mənfəət və zərər hesabatı (P&L) müəyyən bir dövr ərzində çəkilmiş gəlirləri, xərcləri və xərcləri ümumiləşdirən maliyyə hesabatıdır. Bu qeydlər şirkətin gəliri artırmaq, xərcləri azaltmaq və ya hər ikisini yolu ilə mənfəət əldə etmək qabiliyyəti və ya qeyri-mümkünlüyü haqqında məlumat verir. Bu hesabatlar çox vaxt nağd pul və ya hesablama əsasında təqdim olunur

Mənfəət və zərər (P&L) hesabatı hər bir ictimai şirkətin balans hesabatı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatı ilə birlikdə rüblük və illik verdiyi üç maliyyə hesabatından biridir.

Mənfəət hesabatı dörd əsas maddəyə - gəlir, xərc, mənfəət və zərərə yönəlmişdir. O, nağd və nağdsız daxilolmalar (nağd pulla satış və kreditlə satış) və ya nağd və nağdsız ödənişlər/məhsullar (nağd alışlar və kreditlə alışlar) arasında fərq qoymur. Bu, satışın təfərrüatları ilə başlayır və sonra xalis gəliri və nəticədə səhm üzrə mənfəəti (EPS) hesablamaq üçün işləyir. Əsasən, şirkətin əldə etdiyi xalis gəlirin xalis mənfəətə (mənfəət və ya zərər) necə çevrildiyi barədə məlumat verir.

Mənfəət və Zərər (P&Z) Hesabatlarının Növləri-Yuxarıda qeyd edildiyi kimi, P&L bəyanatı iki üsuldan biri ilə hazırlana bilər. Bunlar nağd pul metodu və hesablama üsuludur.

Nağd pul metodu-Pul vəsaitlərinin uçotu metodu da adlandırılan nağd pul metodu yalnız nağd pulun müəssisəyə daxil olub-olmaması zamanı istifadə olunur. Bu, yalnız alınan və ya ödənilən nağd pulu hesaba alan çox sadə üsuldur. Müəssisə nağd pul alındıqda əməliyyatları gəlir kimi, nağd pul hər hansı veksellərin

və ya öhdəliklərin ödənilməsi üçün istifadə edildikdə isə öhdəlik kimi qeyd edir. Bu üsuldan adətən kiçik şirkətlər, eləcə də şəxsi maliyyələrini idarə etmək istəyən insanlar istifadə edirlər.

Hesablama metodu-Hesablama uçotu metodu gəliri əldə edildiyi kimi qeyd edir. Bu o deməkdir ki, hesablama metodundan istifadə edən şirkət gələcəkdə almağı gözlədiyi pulu uçota alır.

Məsələn, müştərisinə məhsul və ya xidmət təqdim edən şirkət, hələ ödəniş almamış olsa da, gəliri öz P&L hesabatında qeyd edir. Eynilə, öhdəliklər hətta şirkətin hələ heç bir xərci olmadıqda belə uçota alınır.

Mənfəət hesabatından ümumi mənfəət marjası, əməliyyat mənfəət marjası, xalis mənfəət marjası və əməliyyat nisbəti daxil olmaqla bir neçə göstəricini hesablamaq üçün istifadə edə bilərsiniz. Balans hesabatı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatla birlikdə mənfəət və zərər hesabatı şirkətin maliyyə nəticələrinə dərindən nəzər salır.

P&L bəyanatlarına həmçinin aşağıdakılar deyilir: mənfəət və zərər haqqında hesabat; əməliyyatlar haqqında bəyanat; maliyyə nəticələri və ya gəlir haqqında hesabat; qazanc hesabatı; xərc hesabatı; gəlir hesabatı.

Əsas gəlir və xərclər şirkətin əsas biznesinin nə dərəcədə yaxşı performans göstərdiyinə dair fikirlər təqdim etsə də, ikinci dərəcəli gəlir və xərclər şirkətin xüsusi, əsas olmayan fəaliyyətlərin idarə edilməsində iştirakını və təcrübəsini nəzərə alır. İstehsal məhsullarının satışından əldə edilən gəlirlə müqayisədə, bankda yatan puldan əhəmiyyətli dərəcədə yüksək faiz gəliri göstərir ki, müəssisə istehsal gücünü genişləndirməklə mövcud nağd puldan tam potensialında istifadə edə bilmir və ya bu sahədə çətinliklərlə üzləşir. Rəqabət şəraitində bazar payını artırır. Avtomobil yolunun kənarında yerləşən şirkətin fabrikində reklam lövhələrinin yerləşdirilməsi nəticəsində əldə edilən təkrar icarə gəliri, rəhbərliyin əlavə gəlirlilik üçün mövcud resurslardan və aktivlərdən istifadə etdiyini göstərir.

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ BEYNƏLXALQ MALİYYƏ QURUMLARININ DÜNYA İQTİSADİYYATINDA ROLU VƏ MÖVQEYİ

Sultanlı H.R.
Odlar Yurdu Universiteti
E-mail: sultanlihidayat@gmail.com

Qloballaşma şəraitində maliyyə qurumlarının rolu artıb və mövqeyi möhkəmlənib. Xüsusilə, qeyd etmək olar ki, maliyyə qurumlarının qloballaşması prosesi son onillikdə sürətlənib və maliyyə sabitliyi üçün mühüm təsirlərə malikdir. Bu mənada, tədqiqat işi qloballaşma və maliyyə qurumları arasındakı əlaqəyə dair yeni yanaşmaları təqdim edir və onun əsas iqtisadi və siyasi nəticələrini müzakirə edir.

Qloballaşma nəticəsində maliyyə münasibətləri xarakteri elə bir vüsət alır ki, beynəlxalq maliyyə bazarlarının sərhədləri silinir, maliyyə bazarları rəqabətə açılır, kapitalın beynəlxalq sferada hərəkəti üçün geniş əhatə dairəsi yaranır və nəhayət, investisiya fondları və dövlət-özəl sektor əməkdaşlığı fonunda dövlətlərarası maliyyə-investisiya qoyuluşlarının əhəmiyyəti artır. Təsadüfi deyildir ki, son onillikdə baş verən iqtisadi böhranlar nəticəsində, dünyada müşahidə edilən bank böhranlarının qlobal maliyyə arxitekturasına təsirləri və nəticələri onu deməyə əsas verir ki, beynəlxalq maliyyə qurumları artıq dünya iqtisadiyyatının mühüm aktorlarına çevrilib. Bu baxımdan, beynəlxalq maliyyə qurumlarının gələcək hədəfləri və onların müasir dövrün tələblərinə uyğun fəaliyyət istiqamətlərinə malik olmaları olduqca mühüm əhəmiyyət kəsb etməklə tədqiqatın aktuallığını müəyyənləşdirmişdir.

Tarixən, beynəlxalq maliyyə qurumlarının məqsədləri həmişə yoxsulluğun azaldılması, iqtisadi artım və ətraf mühitin mühafizəsi olmuşdur. Ənənəvi olaraq isə beynəlxalq maliyyə qurumları hökumətlər və dövlət qurumları ilə işləyərək bu məqsədlərə nail olmuşlar. Bu, ideyaları və onların yaradıldığı zaman üstünlük təşkil edən kapital strukturlarını əks etdirir. Geniş mənada desək, beynəlxalq maliyyə qurumları bu məqsədləri dövlət sektorunun layihələri və ya proqramları üçün kreditlər, texniki yardım və iqtisadi siyasətə əsaslanan kreditlər vasitəsilə həyata keçirmişlər. Beynəlxalq maliyyə qurumlarının kreditləri ümumiyyətlə isə borc alan dövlətlərə verilmiş və ya onlara zəmanət verilmişdir.

Dünya Bankı və Beynəlxalq Valyuta Fondu 55 ildən çox əvvəl Bretton Woodsda, regional inkişaf bankları isə sonrakı onilliklərdə fəaliyyətə başladıqdan sonra qlobal iqtisadiyyat bir sıra mühüm aspektlərdə transformasiyaya məruz qaldı. Beləliklə, hər ikisi qlobal maliyyə arxitekturası üçün yüksək əhəmiyyətli aktor kimi beynəlxalq maliyyə institutlarının dünya iqtisadiyyatındakı rolunda iki əsaslı transformasiya baş verdi. Bu dəyişikliklər bunlardır: Birincisi, qloballaşma əvvəlki dörddəbir əsrdə çox irəliləmişdir. Bu o deməkdir ki, xarici ticarət və özəl sektorun kapitalı indi iqtisadi inkişafda əvvəlkindən daha böyük rol oynayır. İkincisi,

keçmişdə çox məşhur olan statistik inkişaf modellərinin zəif performansı dövlətin rolunun yenidən araşdırılmasına gətirib çıxardı ki, bu da öz növbəsində özəl sektorda, xüsusilə də bazar əsaslı yanaşmalara doğru güclü keçidi stimullaşdırdı. Bu transformasiyalar nəticəsində özəl sektor və beynəlxalq maliyyə qurumları iqtisadi inkişafın əsas agentlərinə çevrildi. Bu baxımdan beynəlxalq maliyyə təşkilatları inkişaf edən dünyanın, kapital təminatının və s. əməliyyatların əsas punktu olmaqla, dünya iqtisadiyyatının hərəkətverici qüvvəsi kimi çıxış edir. Sözügedən problemin əhatəli tədqiqi üçün tədqiqatın obyekti kimi qloballaşma xüsusilə də onun beynəlxalq maliyyə münasibətlərinə təsirlərinin qiymətləndirilməsi və dünya iqtisadiyyatında yaratmış olduğu nəticələr təşkil edir.

Tədqiqat obyekti olaraq beynəlxalq və regional maliyyə qurumları çıxış edir. Tədqiqatın predmetini isə qloballaşma şəraitində maliyyə qurumlarının dünya iqtisadi mühitində rolunun təhlili, onların fəaliyyət istiqamətlərində baş verən dəyişikliklərin məzmunu təşkil edir. Tədqiqatın akademik məqsədi qloballaşma şəraitində baş verən hadisələr fonunda dünya iqtisadiyyatındakı beynəlxalq və regional maliyyə qurumlarının fəaliyyət istiqamətlərini və onların iqtisadi qloballaşmaya təsir mexanizmlərini təhlil etməkdir. Bu məqsədə uyğun olaraq tədqiqat aşağıdakı nəticələri əldə etmişdir:

- Qloballaşma şəraitində beynəlxalq maliyyə münasibətləri elə bir xarakter almışdır ki, maliyyə qurumları valyuta-kredit və maliyyə münasibətlərinin tənzimlənməsi prosesində aparıcı aktor kimi çıxış edir;
- Valyuta-kredit və maliyyə siyasəti sahəsində dövlətin iqtisadi siyasətini təkmilləşdirmək məqsədilə tövsiyələr hazırlayır və üzv ölkələrin Maliyyə Nazirliklərinə və ya Mərkəzi Banklarına təqdim edir;
- Üzv olan hər bir dövlətin təqdim etdiyi illik və rublük hesabatlar əsasında qlobal valyuta-kredit və maliyyə münasibətləri haqqında informasiya toplanır və məlumat bazası formalaşır;
- Maliyyə qurumları dünyanın aktual problemlərini daha detallı təhlil edir, bu sahə üzrə elmi-tədqiqatlar aparır, yazı işlərini nəşr etdirir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, yazı işində müasir beynəlxalq münasibətlərin aktual problemi kimi COVID-19 pandemiyası və maliyyə qurumlarının ona qarşı mübarizə tədbirləri qeyd edilib. Eyni zamanda 2022-ci ilin 24 fevral tarixində başlamış Rusiya-Ukrayna müharibəsinin gedişatı zamanı beynəlxalq maliyyə qurumlarının reaksiya tədbirləri, xüsusilə də Beynəlxalq Valyuta Fondunun rolu və fəaliyyətinə nəzər yetirilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, bu sahədə azərbaycan dilli kontentin yaradılması, qloballaşma prosesləri fonunda maliyyə qurunlarının fəaliyyətinin sistemli analizi və aidiyyatlı ədəbiyyatlardan məlumatların təqdim edilməsidir.

MENECMENT SİSTEMİNİN MÜƏSSİSƏLƏRİN İNFİŞAFINDA ROLU

Tağıyev M.Z.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mali: mahirtagizad442@gmail.com

Bazar iqtisadiyyatı şəraitində idarəetmə sisteminin inkişafı təşkilati və sosial-iqtisadi münasibətlərin inkişaf prioritetlərini müəyyənləşdirməyə imkan verir. Müasir idarəetmə texnologiyalarının yaradılması, iqtisadi davranış tərzinin dəyişdirilməsini, onların idarəetmə sistemindəki rolunun və yerinin qiymətləndirilməsini şərtləndirir. Bunlar menecment sisteminin nəzəriyyəsi və praktikasına əsaslanan idarəetmə münasibətlərinin formalaşdırılmasını zərurətə çevirir. Menecment sisteminə yeni yanaşma ondan ibarətdir ki, istənilən müəssisə situasiya yanaşması çərçivəsində fəaliyyət göstərən sosial-iqtisadi sistem kimi qəbul edilir. Buna görə də menecment sistemində idarəetmə formaları və metodları xarici mühitin obyektiv şərtlərindən, məqsədlərdən, strategiyadan, texnologiyadan və s. asılı olaraq əhəmiyyətli dərəcədə dəyişir.

Müəssisə səviyyəsində menecment sistemində müasir idarəetmə modellərinin yaxınlaşması obyektin və ya subyektlərin vəziyyətini dəyişdirməyə yönəlmiş məqsədyönlü daimi təsir prosesidir. Bu baxımdan araşdırmalar göstərir ki, hər hansı bir sistemi öyrənərkən və təhlil edərkən onun iki əsas xarakteristikasını - funksiyasını və məqsədini ayırmaq lazımdır. Sistemin funksiyası sistemin vəziyyətinin dəyişməsini müəyyən edən xüsusiyyətdir. Sistemin bütün mümkün vəziyyətlərinin çoxluğu onun elementlərinin sayı, onların müxtəlifliyi və qarşılıqlı əlaqəsi ilə əvvəlcədən müəyyən edilir. İdarəetmə funksiyası idarəetmə fəaliyyətinin xüsusi bir növü, işgüzar münasibətlərin məzmununu müəyyən edən sistemin fəaliyyətinə idarəetmənin təsirinin xüsusi formalarıdır. Müəssisədə istehsal prosesinin məqsədi məhdud texnoloji resurslardan və istehsalın təşkilinin mütərəqqi üsullarından ən rasional şəkildə istifadə etməklə fəaliyyətin optimallığını təmin etməkdirr. İdarəetmə strukturu bütövlükdə təşkilatın inkişafını təmin edən davamlı və bir-biri ilə

əlaqəli elementlərin nizamlı dəstidir. Təşkilati struktur bölmələr arasında vəzifələrin bölüşdürülməsini, müəyyən problemlərin həllində onların səlahiyyətlərini və bu elementlərin ümumi qarşılıqlı əlaqəsini tənzimləyir. Təşkilati strukturlar çərçivəsində bütün idarəetmə prosesi, eləcə də bütün səviyyəli menecerlərin iştirak etdiyi informasiya axınlarının hərəkəti baş verir. Sistemin ölçüsü onun elementlərinin sayı və onlar arasındakı əlaqə ilə, mürəkkəbliyi - elementlərin xassələrinin müxtəlifliyi və onlar arasındakı əlaqələrin xüsusiyyətləri ilə xarakterizə olunur.

İdarəetmə prosesində iştirak edən elementlər informasiya keçidlərindən istifadə etməklə, əks əlaqə prinsipinə uyğun olaraq sistemə birləşdirilir. İdarəetmə anlayışını müəyyən edərkən aaşağıdakı funksiyalara diqqət yetirilir: texniki (istehsal və emal); kommersiya (alqı-satqı və mübadilə); maliyyə əməliyyatları (vəsaitlərin cəlb edilməsi və onların idarə edilməsi); sığorta (əmlakın və şəxslərin sığortası və mühafizəsi); mühasibat uçotu (mühasibat uçotu, uçot, statistika və s.); inzibati (proqnozlaşdırma, idarəetmə, əlaqələndirmə və nəzarət).

İstənilən idarəetmə prosesi aşağıdakı xarakterik xüsusiyyətlərə malik olduğundan menecment sistemində həmin xüsusiyyətlərin nəzərə alınması vacibdir: sistemin yaradılması və işlədilməsi zərurəti; sistemə məqsədyönlü təsir; idarəetmə subyektinin və obyektinin idarəetmənin bilavasitə iştirakçıları kimi olması; idarəetmə iştirakçıları arasında əsas əlaqə kimi məlumatın mövcudluğu; idarəetmə strukturunda iyerarxiyanın olması (elementlər, alt sistemlər, sistemlər, sahələr, regionlar və s.); nəzarət obyektinin nəzarət subyektinə tabeliyinin müxtəlif formalarından istifadə edilməsi.

İdarəetmə növlərinin hər biri öz məqsədi, keyfiyyət orijinallığı, spesifik xüsusiyyətləri, idarəetmə funksiyalarının və həyata keçirilən əməliyyatların intensivliyi ilə fərqlənir. Beləliklə, müəssisələrin problemlərinin həllində onların ümumi menecment sisteminin yenidən qurulması mühüm yer tutur. Müəssisənin bazar şəraitində fəaliyyət göstərməsinin təşkilati-iqtisadi mexanizmi hədəflərə maksimum dərəcədə çatmaq üçün bütün növ resursları birləşdirməyə imkan verən müasir idarəetmə prinsipləri üzərində işləməyi tələb edir. Müasir şəraitdə xarici mühitin daimi dəyişməsi, texnologiyaların mürəkkəbləşməsinin müəssisənin ümumi vəziyyətinə mənfi təsir göstərdiyini nəzərə alsaq məsələyə kompleks yanaşmanın zəruriliyini qeyd etmək olar. Buna görə idarəetmə sisteminin yenidən qurulması getdikcə aktual bir vəzifəyə çevrilir, onun həllində müəssisəsini idarə etmək üçün səmərəli təşkilati və iqtisadi model yaratmaq istiqamətində müasir idarəetmənin sistem prinsiplərindən istifadə etmək məqsədəuyğundur.

AZƏRBAYCANDA İNNOVASİYA FƏALİYYƏTİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Vəliyev S.A.
Azərbaycan Dövlət Aqrar Universitet
E-mail: seymur.valiyev@gmail.com

Elmi-texniki tərəqqinin nailiyyətləri nəticəsində istehsalatda innovasiyalar formalaşmağa başlayır. "İnnovasiya" anlayışı "innovation" ingilis sözündən yaranmışdır və bu sözün mənası "yeniliklərin həyata keçirilməsi" anlamında başa düşülür. İnnovasiya dedikdə, yeni qayda, yeni üsul, yeni məhsul və ya texnologiya, yeni hadisə nəzərdə tutulur. İnnovasiya nəzəriyyəsinin ilk banisi Avstriya iqtisadçısı İ.Şumpeter olmuşdur. Sonradan bu nəzəriyyə Alman iqtisadçısı Q.Menil, Sovet iqtisadçılarından akademik A.İ.Ançişkin, professor L.S.Boryutin, professor J.B.Yakobiç və başqaları tərəfindən inkişaf etdirilmişdir.

Hazırda innovasiya fəaliyyəti sahəsində ümumi qəbul olunmuş terminalogiya yoxdur. Akademik L.İ.Abalkinin fikrincə, innovasiya fəaliyyəti dedikdə, bir tərəfdən elmin kəşfin və ixtiranın texnika və texnologiyanın səviyyəsinə daim təsir göstərməsində, digər tərəfdən isə elmi tədqiqatlarda yeni cihaz və avadanlıqların tətbiqində təzahür edən elm və texnikanın qarşılıqlı, ardıcıl inkişafı başa düşülməlidir. A.V. Sokolovun fikrincə isə innovasiya dedikdə, konkret ictimai tələbatı ödəyən və effekt verən prisipcə yeni yaxud modifikasiya olunmuş vəsaitin yaranması və mənimsənilməsinin yekun nəticəsi başa düşülür.

Qeyd edək ki, bəzi iqtisadçılar yenilik və innovasiya anlayışlarına eyni baxırlar. Lakin, bu düzgün deyil. Çünki, yenilik hər hansı fəaliyyət sferasında istehsalın səmərəliliyinin yüksəldilməsi üzrə fundamental, tətbiqi tədqiqatların və ya eksperimental işlərin tərtib olunmuş nəticəsidir. Yenilik ixtira, kəşf, patent, əmtəə nişanı, səmərələşdirici təklif şəklində tərtib oluna bilər. İnnovasiya isə idarəetmə obyektinin dəyişdirilməsi və iqtisadi, sosial, ekoloji, elmi-texniki və digər növ effektin alınması məqsədilə yeniliklərin tətbiqinin son nəticəsidir.

Milli iqtisadiyyatın aparıcı sahələrində innovativ islahatların aparılması istehsal olunan məhsulların kəmiyyət və keyfiyyətinin artmasına şərait yaradır ki, bu da ixracyönümlü istehsalın inkişafına səbəb olur. Bu da öz növbəsində ölkənin iqtisadi qüdrətinin artmasına səbəb olur.

Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın inkişafı və bu inkişafın davamlı xarakter alması üçün əlverişli şəraitin yaradılması innovasiya fəaliyyətindən və dövlətin innovasiya siyasətindən çox asılıdır. Bu baxımdan müasir şəraitdə düzgün qurulmuş innovasiya siyasəti olmadan iqtisadi inkişaf və dünya iqtisadiyyatına inteqrasiya mümkün deyil. İnnovasiya yeniliyin yaradılması və tətbiqi prosesini ifadə edir ki, bu da sahibkarlıq fəaliyyəti göstərən firmaların inkişafına və səmərəliliyin yüksəldilməsinə xidmət edir. Ümumilikdə innovasiya prosesinə bir sıra amillər təsir edir: xarici mühitin vəziyyəti (bazarın tipi, rəqabət mübarizəsinin xarakteri, dövlətin antiinhisar siyasəti, iqtisadiyyatın dövlət tənzimlənməsi və s.); daxili mühitin vəziyyəti (maddi-texniki və maliyyə resurslarının vəziyyəti, tətbiq edilən texnikanın səviyyəsi, təşkilati strukturun mürəkkəbliyi, təşkilatın daxili mədəniyyəti və s.); idarəetmə obyekti olan innovasiya prosesinin özünün xüsusiyyəti.

Əsas məqsədə çatmaq üçün ilk öncə elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərini istehsala tətbiq edərək, innovasiyalı məhsullar istehsalını təşkil etmək lazımdır. İnnovasiyaların mənimsənilməsi sisteminin formalaşması hazırda ölkə iqtisadiyyatında həllini gözləyən ən mühüm problemlərdən biri hesab edilir. Bu, ilk növbədə əmtəə istehsalçılarının innovasiya resurslarına olan tələbatının ödənilməsini və istehsalın intensivləşdirilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, istehsalat sahələrində innovasiya yönümlü istehsal prosesini qurmaq, eləcə də innovasiyaları mənimsəmək və tətbiq etmək baxımından imkanları olmur. Bu baxımdan, innovasiyaların mənimsənilməsi sistemini formalaşdırmaq və bu sahədə mövcud sosial-iqtisadi problemləri həll etmək üçün investisiya qoyuluşları tələb olunur.

İnnovasiya fəaliyyətinin düzgün, müvəffəqiyyətlə həyata keçirilməsi üçün lazım olan ən mühüm təşkilati prinsipi istehsal fəaliyyətində daha ixtisaslaşmış, bacanqlı kadrlardan istifadə edilməsidir. Təbii ki, yalnız bu halda əmək məhsuldarlığının yüksəldilməsinə nail olmaq olar. Ümumiyyətlə, bu sahədə qarşıda duran ən mühüm vəzifələrdən biri istehsalın işlək vəziyyətdə saxlanması və onun dəstəklənməsindən ibarətdir. Əmək məhsuldarlığının artırılmasında, dayanıqlı iqtisadi artımda, istehsal və xidmət sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsində və ölkənin qlobal bazarlara inteqrasiyasında insan kapitalı mühüm əhəmiyyət kəsb edir. Bunun üçün isə təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsi, əmək bazarının tələblərinə uyğun olaraq ixtisaslı kadrların hazırlanması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdınıması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi tələb olunur.

Bir çox ölkələrin təcrübəsi göstərir ki, informasiya texnologiyaları sahəsində innovasiya yönümlü kiçik və orta sahibkarlığa kömək, elmi tədqiqatların kommersiyalaşdırılaraq elmin dövlətdən asılılığının azaldılması, xarici İT şirkətlərin və potensial investorların Azərbaycanın İT bazarına cəlb olunması, texnologiyaları işləyib hazırlayanlar və investorlar arasında kommersiya əlaqələrinin yaradılması, inkişafın müxtəlif mərhələlərində elmyönümlü texnoloji layihələrə yerli və xarici investisiyaların cəlb olunması, yeni iş yerlərinin yaradılması, yüksək ixtisaslı və beynəlxalq təcrübəyə malik İT mütəxəssislər yetişdirmək, regional innovasiya sisteminin formalaşdırılması və tətbiqi və s. bu kimi məqsədlərin reallaşması üçün texnoparkların yaradılması və inkişafının təmin edilməsi ölkələrin iqtisadi inkişaf üçün bir vasitədir.

Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişaf dinamikası, ona olan dövlət qayğısı və beynəlxalq qurumlarla əməkdaşlığımız, uğurla həyata keçirilən neft strategiyası ölkəyə olan inamın artmasına müsbət təsir edir. İnnovasiya yönümlü investisiya qoyuluşlarını həyata keçirmək üçün xarici dövlətlərin yürütdüyü siyasətin öyrənilməsi çox mühüm məsələdir. Dünya təcrübəsi göstərir ki, xammal ixracatçısı olan ölkələrin əksəriyyəti üçün iqtisadiyyatın birtərəfli inkişafı xarakterikdir. Bu ölkələrdə elm və texnikanın, texnologiyanın inkişafı geri qalır. İraq, Venesuela, CAR, Səudiyyə Ərəbistanı, Küveyt, eləcə də Azərbaycan kimi xammalla zəngin olan ölkələrin büdcə gəlirlərinin əsas hissəsini xammal ixracından daxil olan gəlirlər təşkil edir. Sinqapur, Yaponiya, Cənubi Koreya, Tayvan kimi təbii ehtiyaları az olan ölkələrin inkişafının əsasında isə emaledici sənayenin inkişafı durur. Bu ölkələrdə azad iqtisadi zonaların yaradılması, innovasiya yönümlü investisiyaların düzgün reallaşdırılması nəticəsində yüksək iqtisadi göstəricilərə nail olunmuşdur.

Hazırda, yəni elm və texnologiyanın, informasiya və kommunikasiyanın inkişaf etdiyi bir dövrdə innovasiya yönümlü investisiyaların çox böyük rolu var. Bu istiqamətdə investisiya qoyuluşlarının artırılması valyuta gəlirlərinin artmasına səbəb ola bilər. Bu baxımdan, qeyd edək ki, investisiya yatırımları üçün müvafiq hüquqi bazanın olması vacib şərtlərdəndir.

Nəticə etibarilə, qeyd edək ki, Azərbaycan Respublikasında investisiya mühitinin formalaşdırılması, innovasiya strukturlarının təşkili, kiçik biznesin inkişafının təmin edilməsi üçün aşağıdakı lazımi işləri ümumiləşdirmək olar: kiçik biznesin inkişafının həvəsləndirilməsi məqsədilə xüsusi proqramlann işlənib hazırlanması və müvafiq fondlann yaradılması; istehsal birliklərinin, şirkətlərin, səhmdar cəmiyyətlərinin, elmi-tədqiqat mərkəzlərinin və universitetlərin iştirakı ilə dövlət tərəfindən biznes inkubatorlannm və texniki parklann yaradılmasının genişləndirilməsi; müxtəlif mənbələrdən maliyyələşdirilən və təsərrüfat hesabı əsasında fəaliyyət göstərən konsaltinq, audit və treninq üzrə məsləhət firmalarının yaradılması; innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi və s.

RESPUBLİKADA VERGİTUTMANIN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

Verdiyev X.C.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: xldvrdyv@gmail.com

Vergi xidməti hüquqi və fiziki şəxslər tərəfindən vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına dövlət nəzarətinin təmin edilməsi məqsədilə yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2000-ci il tarixli Fərmanı ilə ölkədə dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı Vergilər Nazirliyi yaradılmışdır.

A.Smit (1723-1790) və D.Rikkardo (1722-1823) vergilərin iqtisadi neytrallığı nəzəriyyəsinin (klassik nəzəriyyə) nümayəndələri kimi vergiləri dövlət gəlirlərinin əsas növü hesab edirdilər. Belə ki, o, dövlətin saxlanması xərclərini ödəməlidir. A.Smit "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında araşdırma" əsərində vergiyə öz tərifini vermir, vergi siyasətinin qurulmasının artıq klassikləşmiş dörd prinsipini işləyib hazırlayır: 1. Hər kəs dövlətin himayəsi altında aldığı gəlirə nisbətdə dövlətin dəstəyində iştirak etməlidir (ədalət prinsipi), 2. Vergi ixtiyari deyil, dəqiq müəyyən edilməlidir. Onun ödənilmə vaxtı, ödənilən verginin üsulu və məbləği aydın olmalı və həm ödəyicinin özünə, həm də başqalarına məlum olmalıdır (müəyyənlik prinsipi), 3. Vergi ödəyicilər üçün ən əlverişli olan vaxtda və qaydada alınmalıdır, yəni, rəsmiləşdirmələrin aradan qaldırılması və vergilərin ödənilməsi aktının sadələşdirilməsi zərurəti (rahatlıq prinsipi), 4. Vergi ödəyicisinin ödədiyi məbləğə uyğun bir məbləğ büdcəyə daxil olmalıdır, yəni, vergi yığımı minimum xərclə həyata keçirilməlidir (iqtisadiyyat prinsipi).

Keyns nəzəriyyəsinin nümayəndələri vergini dövlətin gəliri və ya dövlətin cəmiyyətə göstərdiyi xidmətlərə görə ödəniş kimi deyil, ölkənin iqtisadi inkişafına təsir vasitəsi kimi qiymətləndirirdilər. Bu nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, vergilər tələbə əsaslanan iqtisadiyyatı tənzimləyən əsas alətdir. Bu nəzəriyyənin konseptual mənası "vergilərdən iqtisadiyyata təsir vasitəsi kimi fəal şəkildə istifadə edən güclü dövlət və inkişaf edən iqtisadiyyatdır" düsturu ilə ifadə olunur.

İqtisadi inkişafa təsir edən amil kimi daha da vacib olanı vergilərə amerikalı alim A.Lafferin təklif iqtisadiyyatı nəzəriyyəsi adlanan büdcə konsepsiyası verir. Laffer büdcə gəlirlərinin vergi dərəcələrindən riyazi asılılığını müəyyən etmişdir. Müəyyən mərhələdə onların dərəcələrinin artırılması hesabına vergilərin artırılması, vergi tutulan gəlirlərin sürətlə daralması nəticəsində dövlət büdcəsinə daxilolmaların azalmasına səbəb olacaqdır.

Vergitutmanın mahiyyətinin nəzəri və praktiki başa düşülməsi prosesi getdikcə daha çox vergi nəzəriyyələrinin (birbaşa və dolayı vergitutmanın nisbəti; düz (tək) vergi; vergilərin dəyişdirilməsi) meydana çıxması ilə sübut olunduğu kimi, sonu olmayan uzun bir yol keçmişdir.

Vergi əlamətlərinə aşağıdakılar aiddir: 1. Öhdəlik, yəni qanuna əsasən, vergi ödəyiciləri müəyyən şərtlər daxilində vergini qeyd-şərtsiz, tam və vaxtında ödəməyə borcludurlar. 2. Fərdi təmənnasızlıq, yəni verginin ödənilməsi onu ödəyən şəxsə münasibətdə dövlətin hər hansı konkret öhdəlikləri müəyyən etmir. Bu təmənnasızlıq onunla izah olunur ki, dövlət, bir qayda olaraq, əsas amil kimi büdcə üçün başqa gəlir mənbələrinə malik deyil, lakin o, idarəetmə aparatına, müdafiəyə, təhsilə, qocalara və aztəminatlılara yardıma daimi xərclər həyata keçirməlidir. 3. Vergi ödənişinin ödənilmə forması (pul), yəni, vergilər natura şəklində ödənilə bilməz. Müasir şəraitdə bütün vergi ödənişləri nağd şəkildə həyata keçirilir. Vergi öhdəliyinin yerinə yetirilməsi hesabına hər hansı malın dövlət xeyrinə özgəninkiləşdirilməsinə, işlərin görülməsinə və ya xidmətlərin göstərilməsinə yol verilmir. Vergi nağd qaydada düzgün ödənildiyi andan

dövlət ona qarşı tələb etmək hüququnu itirir və vergi öhdəliyi yerinə yetirilmiş hesab olunur. 4. Mülkiyyət hüququ, təsərrüfat idarəetmə hüququ və ya operativ idarəetmə hüququ əsasında ödəyiciyə məxsus olan vəsait hesabına depozit qoyulması.

Ödəniş predmetinə görə aşağıdakı vergi növləri fərqləndirilir: fiziki şəxslərdən vergilər (fiziki şəxslərin gəlir vergisi); hüquqi şəxslərdən vergilər (gəlir vergisi, biznesindən vergi, müəyyən fəaliyyətdən əldə edilən gəlir vergisi); həm təşkilatlar, həm də fiziki şəxslər tərəfindən ödənilən qarışıq vergilər (daşınmaz əmlak vergisi, torpaq vergisi).

İstifadə xarakterindən asılı olaraq vergilər ümumi təyinatlı və məqsədli ola bilər.

Ümumi təyinatlı vergilər (abstrakt vergilər) hansı fəaliyyət növləri və ya xərcləndikləri xərclər göstərilmədən ümumi məqsədlər üçün istifadə olunur. Bunlar, bir qayda olaraq, müəyyən bir dövlətin ərazisində tutulan əsas vergilərdir (gəlir vergisi, daşınmaz əmlak vergisi).

Məqsədli (xüsusi) vergilər konkret fəaliyyətlərin maliyyələşdirilməsi üçün istifadə olunur və bir qayda olaraq, müvafiq dövlət məqsədli büdcə və ya büdcədənkənar fondlara hesablanır.

İqtisadi-hüquqi xarakter daşıyan vergi özünəməxsus müəyyən funksiyaları ilə dövlətin vəzifələrinin həyata keçirilməsi üçün universal alətə çevrilir. Hər hansı bir kateqoriyanın funksiyaları onun bu kateqoriyaya xas olan sosial əhəmiyyətini ifadə edir. Vergi bir kateqoriya kimi təkcə hüquqi deyil, həm də iqtisadi funksiyaları yerinə yetirir. Vergi sistemlərinin inkişafının müasir tendensiyalarının təhlili belə nəticəyə gəlməyə əsas verir ki, konkret ölkənin vergitutma problemləri dünya birliyinin vergi siyasətinin inkişafı ilə birlikdə nəzərdən keçirilməlidir. Vergitutmanın inteqrasiyaedici funksiyasının yaranması və inkişafı milli vergi siyasətini tərtib edərkən xarici ölkələrdə aparılan vergi islahatlarının təcrübəsinin və perspektivlərinin nəzərə alınmasını tələb edir.

AZƏRBAYCANIN XARİCİ TİCARƏTİNİN NƏQLİYYAT NÖVLƏRİ ÜZRƏ TƏHLİLİ

Xəlilov C.M.
Odlar Yurdu Universiteti
E-mail: xalilov.cavid@yahoo.com

Müasir dövrdə dövlətlərin qarşısında xarici ticarət dövriyyəsinin artırılması ilə yanaşı, onun iqtisadi səmərəliliyinin artırılması problemləri də dayanır. Bu isə elmi-texniki tərəqqinin müasir nailiyyətlərindən daha səmərəli istifadə etməklə rəqabət qabiliyyətli məhsul və xidmətlərin istehsalını, bunların beynəlxalq bazarlara sərbəst çıxışının təmin edilməsini və s. problemlərin sistemli şəkildə həllinin vacibliyini ortaya qoyur. Azərbaycanın dünya bazarı ilə münasibətlərinin inkişafının hazırki mərhələsində dövlətin xarici iqtisadi strategiyasının əsas istiqamətləri onun ixrac imkanlarının artırılması, həm ixrac, həm də idxal əməliyyatlarının strukturunun təkmilləşdirilməsi, həmçinin bununla yanaşı dünya bazarlarına beynəlxalq standartlara və tələblərə cavab verən rəqabət qabiliyyətli məhsulların çıxışı hesab edilməlidir. Milli iqtisadiyyatın ixtisaslaşma xüsusiyyətləri iqtisadiyyatın müxtəlif sahələrinin dünya bazarına çıxış formalarını müəyyənləşdirir. Əgər yerli potensialın effektiv reallaşdırılması təmin olunmuşdursa, potensialı reallaşdırılan sahələr üzrə idxalın yerli istehsalla əvəzlənməsi və növbəti mərhələdə ixrac fəaliyyətinin inkişafı baş verəcəkdir. Lakin burada təbii ki, bu fikir birmənalı olaraq qəbul edilməyə də bilər. Çünki dünya təcrübəsində də, bəzən eyni məhsulun ölkədə istehsalının baş verdiyi halda əsas satış bazarının ölkədən kənarda formalaşması, yerli bazarda isə eyni məhsulun idxal əvəzləyicisinə üstünlük verilməsi kimi spesifik hallar da müşahidə edilməkdədir. Xarici ticarətdə digər strateji əhəmiyyəti olan məsələlərdən biri də ölkənin xarici ticarətində əsas idxal və ixrac bazarlarının müəyyən edilməsi, idxal-ixrac əməliyyatlarında mövcud nəqliyyat növləri üzrə xüsusi çəkinin müəyyənləşdirilməsi, həmçinin gələcək ixrac imkanlarının artırılması, eyni zamanda beynəlxalq ticarətdə tranzit imkanlarının daha effektiv reallaşdırılmasına imkan verəcək nəqliyyat növləri üzrə perspektivlərin düzgün qiymətləndirilməsidir.

Azərbaycan Respublikasının müstəqillik qazandıqdan sonra xarici ticarət əlaqələri daha da genişlənməyə, inkişaf etməyə başlamışdır. Xüsusilə neft-qaz hasilatı sənayesinin inkişafı xarici ticarətdə daha çox təsirə malik olmuş və ixracatda əsas istiqamətverici amillərdən birinə çevrilmişdir. Bu isə ölkəmizin xarici ticarətində neft-qaz məhsullarını idxal edən, xüsusilə bir sıra Avropa ölkələrinin xüsusi çəkisinin və xarici ticarətin coğrafi, regional, əmtəə və s. kimi əlamətlər üzrə strukturuna da təsir etmişdir.

Azərbaycan Respublikasının ixracatının 2015-ci ildə 58%-i Avropa, 35,3%-i Asiya, 4,4%-i Amerika, 2,3%-i Afrika ölkələrinin 2016-cı ildə 61%-i Avropa, 35,8%-i Asiya, 1,4%-i Amerika, 1,8%-i Afrika ölkələrininin, 2017-ci ildə 64,7%-i Avropa, 29,8%-i Asiya, 4,3%-i Amerika, 1,2%-i Afrika ölkələrinin, 2018-

ci ildə 61,2%-i Avropa, 32,7%-i Asiya, 5,1%-i Amerika, 1%-i Afrika ölkələrinin, 2019-cu ildə 60,2%-i Avropa, 38,3%-i Asiya, 0,9%-i Amerika, 0,4%-i Afrika, 0,2%-i Okeaniya ölkələrinin, payına düşmüşdür.

Ölkəmizdə idxal üzrə də əsasən daha yaxın coğrafi yerləşmə xüsusiyyətinə malik Avropa və Asiya üzrə kəskin üstünlük müşahidə edilməkdədir. Lakin burada spesifik xüsusiyyətləri müəyyən edən əsas amil idxal və ixracın əmtəə strukturudur. Belə ki, idxal və ixrac üzrə nəzərdən keçirilən göstəricilər dəyər göstəriciləridir və onların kəmiyyəti, xarici ticarət dövriyyəsində olan məhsulların təkcə mütləq ölçüləri ilə deyil, həm də bazar qiymətləri ilə müəyyənləşir. Bundan başqa neft-qaz məhsullarının xarici ticarətdə yüksək xüsusi çəkisi həmin məhsulların ixrac istiqaməti üzrə də göstəricilərinin yüksək olmasına səbəb olmaqdadır. Digər tərəfdən idxalın strukturunda yüksək dəyərə malik sənaye məhsulları, maşın və avadanlıqların idxal istiqaməti də idxalda coğrafi struktura ciddi təsir göstərməkdədir.

Azərbaycanın iqtisadi-coğrafi mövqeyi onun müxtəlif nəqliyyat növləri üzrə xarici ticarət əlaqələrini qurmasına və bu sahədə perspektiv imkanların genişləndirilməsinə şərait yaradır. Ölkəmizdə nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi istiqamətində dövlət strategiyasına baxdıqda da, həm ölkəmizin xarici ticarət əlaqələrində, həm də tranzit ölkə olaraq beynəlxalq ticarətin vacib vasitəçisi kimi bu sahənin gələcək imkanlarının böyük olduğunu qeyd etmək olar.

Şəkil 1-ə baxdıqda son illərdə hava nəqliyyatı ilə xarici ticarət əməliyyatlarının əsasən artan istiqamətdə dəyişməsi diqqəti cəlb edir. Avtoyol nəqliyyatının xüsusi çəkisinin yüksək olmasını isə daha çox quru sərhədlərinin olduğu qonşu dövlətlərlə, xüsusilə qeyri-neft məhsulları üzrə ticarət dövriyyəsinin nisbətən daha çox olması ilə əlaqələndirmək olar.

Nəqliyyat növləri üzrə ölkəmizdə xarici ticarətin strukturuna əsasən onu qeyd etmək olar ki, neft sektorunun ixrac fəaliyyəti ilə burada nəqliyyat növü olaraq stasionar nəqletmə vasitələrindən istifadənin xüsusi çəkisi daha yüksəkdir. Avtoyol nəqliyyatının yüksək paya malik olması isə əsasən yaxın coğrafi məkanda yerləşən ölkələrlə ticarət dövriyyəsinin daha çox olması ilə əlaqədardır. Bununla belə fərqli nəqliyyat növləri üzrə idxal-ixrac göstəricilərinə baxdıqda struktur cəhətdən kəskin formada fərqlər müşahidə olunmaqdadır. Bu hansı məhsul növləri üzrə ixracın və idxalın daha çox olması ilə də əlaqədardır. Ümumilikdə isə xarici ticarət dövriyyəsinin strukturunda neft hasilatı və ixracı üzrə boru kəmər nəqliyyatından istifadə səviyyəsi ilə əlaqədar olaraq stasionar nəqletmə vasitələrindən istifadə səviyyəsi daha yüksək olmuşdur.



	2015	2016	2017	2018	2019	2020
Dəniz	3,35	3,82	2,38	2,38	2,85	2,43
Dəmir yolu	15,26	12,38	11,23	9,8	9,6	10,59
Avtoyol	25,35	23,87	23,69	22,39	22,86	30,43
Hava	5,05	4,74	4,62	7,79	10,79	5,72
Stasionar	47,49	54,21	55,72	56,7	52,58	47,63
Özü hərəkət edən	3,51	0,98	2,35	0,92	1,31	2,88

Şəkil 1. Azərbaycanda nəqliyyat vasitələri üzrə xarici ticarət dövriyyəsinin strukturu, 2015-2020-ci illər,%

Son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı görülən tədbirlərdə diqqəti cəlb edən əsas məqamlardan biri də daxili nəqliyyat infrastrukturu ilə beynəlxalq nəqliyyat infrastrukturunun sistemli şəkildə əlaqələndirilməsi, ölkənin əlverişli tranzit mövqeyinin infrastruktur layihələri və effektiv xarici siyasət hesabına reallaşdırılmasıdır. Bu istiqamətdə nəqliyyat potensialından irəli

gələn bütün nəqliyyat növləri üzrə gələcək imkanları da nəzərə almaqla müasir infrastruktur sistemi yaradılır və onların bir sistem daxilində birləşdirilməsinə xüsusi diqqət yetirilir. Burada əsas məqsədlərdən biri kimi beynəlxalq yükdaşımalar, ikinci növbədə isə beynəlxalq sərnişindaşımalarda əhəmiyyətli tranzit ölkəyə çevrilərək həm siyasi, həm də iqtisadi renta əldə etməkdir. Digər tərəfdən ölkəmizin beynəlxalq bazarlara çıxış baxımından imkanlarının artırılmasında da bu tədbirlərin əhəmiyyətli olması gözlənilməndir. Xüsusilə işğaldan azad olunan ərazilərdə yaradılmaqda olan kompleks infrastruktur sistemi və nəzərdə tutulan layihələr bu istiqamətdə böyük imkanlar vəd edir.

Nəzərdən keçirilən məsələlər və göstəricilər əsasında ümumiləşdirmə aparmaqla aşağıdakı məsələlərə də diqqət yetirilməlidir: Nəqliyyat infrastrukturunun qurulması zamanı daxili imkanlarla yanaşı, beynəlxalq səviyyəli strateji perspektivlər düzgün qiymətləndirilməlidir; Beynəlxalq əlaqələrdə əlverişli mövqedə durulması diqqətdə saxlanılmalıdır; Ölkənin tranzit mövqeyindən irəli gələn müsbət gözləntilərlə yanaşı müxtəlif xarakterli risklər də qiymətləndirilməlidir; Yerli istehsal imkanları artırılmalı və nəqliyyat infrastrukturu ixrac məqsədli məhsullarının beynəlxalq nəqliyyat dəhlizlərinə çıxışını asanlaşdırmalıdır; Nəqliyyat infrastrukturunun yaradılmasında innovasiyaların tətbiqi genişləndirilməli və ölkənin ixrac imkanlarını artıran istiqamətlərə öncəlik verilməlidir.

TORPAQ, TİKİLİ VƏ AVADANLIQLARIN MAHİYYƏTİ MÜHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTI ÜZRƏ TƏTBİQİ

Xəlilova K.E.
Azərbaycan Dölət Aqrar Universiteti
E-mail: kxlilova@mail.ru

Torpaq, tikili və avadanlıqlar sinfi – müəssisənin fəaliyyətində istifadə edilən və mahiyyətcə eyni olan aktivlərin növlər üzrə qruplaşdırılmasıdır. Tikilməkdə və ya hazırlanmaqda olan hər hansı torpaq, tikili və avadanlıqlar obyekti, tikinti və hazırlanma işləri başa çatanadək aşağıda qeyd olunan kateqoriyalardan birinə daxil edilməlidir: Torpaq; Tikili və avadanlıqlar; Nəqliyyat vasitələri; Sair torpaq, tikili və avadanlıqlar;Torpaq, tikili və avadanlıq üzrə kapitallaşdırılmış məsrəflər;.

Torpaq kateqoriyası torpaq, meşə, su sahələri və faydalı qazıntı hövzələri kimi siniflərə bölünür.

Tikili və avadanlıqlar kateqoriyası: binalar və onların struktur komponentləri, qurğular (tikililər) və onların struktur komponentləri, ötürücü qurğular və onların struktur komponentləri, istehsal və xidmət prosesində iştirak edən bütün növ maşın və avadanlıqlar kimi siniflərə bölünür.

Nəqliyyat vasitələri kateqoriyası hava, dəmiryol, su, xidmət nəqliyyatları, istehsalat, avtomobil və idman nəqliyyatları kimi siniflərə bölünə bilər.

Sair torpaq, tikili və avadanlıqlar kateqoriyası təsərrüfat inventarları sinfindən ibarətdir. Təsərrüfat inventarları sinfinə iş vaxtı fəaliyyətin asan yerinə yetirilməsinə kömək etmək üçün nəzərdə tutulan ümumi və texniki təyinatlı predmetlər (mebel dəstləri, masalar, kreslolar, kürsülər, dolablar, şkaflar, stellajlar, dəmir seyflər, partalar, daşınan sədlər, asılqanlar, qarderoblar, divanlar, yanmayan şkaflar və yeşiklər, inventar taraları, daşınan çadırlar, çarpayılar, xalçalar, portyerlər), əməyin mühafizəsi üçün uyğunlaşdırılmış xüsusi avadanlıqlar (hidropultlar, stenderlər, əl nərdivanları, maye və dənəvər şeylərin saxlanması üçün xüsusiləşdirilmiş qablar) və bu kimi başqa təsərrüfat inventarları aiddir.

Məlumdur ki, torpaq, tikili və avadanlıqlar demək olar ki, istənilən müəssisənin iş prosesinin əsasını təşkil edir. Buna görə də torpaq, tikili və avadanlıqların uçotunun, təhlilinin və auditinin dərindən və hərtərəfli mənimsənilməsi və təkmilləşdirilməsi yönündə hər zaman yeni addımların atılması mühüm əhəmiyyət kəsb edir.

Müəssisələrdə torpaq, tikili və avadanlıqlardan səmərəli istifadə olunması məhsul istehsalının həcmini intensiv şəkildə artırır və onun yenidən əldə edilməsinə qoyulan məsrəf məbləğlərini aşağı endirir. Torpaq, tikili və avadanlıqlardan səmərəli istifadə etməyin ən yuxarı göstəricisi, onların istehsal prosesindəki xidməti hesab edilir. Yəni bir istehsal prosesi ərzində həmin torpaq, tikili və avadanlıqlardan keyfiyyətli məhsul istehsal edilməlidir. İstehsalın həcminin artırılmasına torpaq, tikili və avadanlıq obyektlərinin sayının artırılması ilə deyil, (yəni ektensiv şəkildə inkişafla yox) mövcud müəssisənin balansında və ya istifadəsində olan obyektlərin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması və elmi texniki tərəqqinin imkanlarından istifadə olunması ilə nail olmaq məqsədəuyğundur. (Yəni ki, intensiv inkişafla)

Torpaq, tikili və avadanlıqlar müəssisənin dövriyyədən kənar uzunmüddətli maddi aktivləri olaraq, müəssisə tərəfindən aşağıda göstərilən məqsədlər üçün istifadə olunur: istehsal prosesində istifadə edilməsi məqsədilə; ehtiyatların çatdırılması zamanı; xidmətlərin göstərilməsində; inzibati məqsədlər üçün.

Uzunmüddətli maddi aktiv dedikdə aktivin müəssisənin fəaliyyət prosesində bir ildən çox istifadə edilməsi başa düşülür.

Torpaq, tikili və avadanlıqların iqtisadi məzmunu, təyinatı və qiymətləndirilməsi 16 №-li "Torpaq, tikili və avadanlıqlar" adlı Mühasibat Uçotunun Beynəlxalq Standartında əks etdirilir. Standartın əsas məqsədi torpaq, tikili və avadanlıqların iqtisadi məzmununu, təyinatını və uçotu qaydasını müəyyənləşdirməkdən, bununla yanaşı maliyyə hesabatlarının istifadəçilərinin müəssisənin torpaq, tikili və avadanlıqlara qoyduğu investisiyalar və dəyişikliklər haqqında informasiyalar əldə etməkdən ibarətdir. Uçotun qarşısında duran ən mühüm vəzifələr bunlardır: aktivlərin tanınması, onların balans dəyərinin müəyyənləşdirilməsi, amortizasiya hesablanması qaydası, torpaq, tikili və avadanlıqlara tətbiq edilən qiymətin aşağı düşməsindən zərərlər.

Müəssisələrdə torpaq, tikili və avadanlıqların uçotu qaydasını öyrənən zaman Azərbaycan Respublikasının Vergi Məcəlləsini və müvafiq mühasibat uçotunun beynəlxalq standartlarını əsas götürmək vacibdir.

AQRAR SAHƏDƏ İQTİSADİ SƏMƏRƏLİLİYİN YÜKSƏLDİLMƏSİNİN ZƏRURİLİYİ

Yusibova H.A.
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail: asli.gurbanova@gmail.com

Aqrar sahədə islahatların aparılmasına, ölkə rəhbərliyi tərəfindən kompleks maliyyə yardımı olmasına baxmayaraq aqrar sahədə, bəzi kənd təsərrüfatı məhsulları üzrə gözlənilən nəticələrə əldə edilməmişdir. Beləki, bir sıra kənd təsərrüfatı məhsullarına olan tələbat ödənilmir. Respublikamızda istehsalı üçün əlverişli torpaq və iqlim şəraiti olan bir sıra məhsulların istehsalının artırılması və bu sahədə iqtisadi səmərəliliyin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. Qeyd etməliyik ki, pambıq ixracda yüksək çəkiyə malikdir. Ona görədə pambıqçılıqda istehsalın səmərəliliyinin əhəmiyyətli dərəcədə artırılmasına xüsusi diqqət yetirilməlidir. Burada əmək məhsuldarlığının, fond veriminin, rentabelliyin aşağı olması, cins toxum növlərinin əldə edilməsi, onların yerli sortlarla hibritləşdirilməsi, yeni sortların yerli şəraitə uöğunlaşdırılması, maya dəyərinin yüksək olması və qiymət mexanizminin olmaması xüsusilə qeyd olunmalıdır. Son illərdə aqrar sahədə aparılan qiymət tənzimlənməsi birtərəfli qaydada yəni, əhalinin sosial müdafiəsi istiqamətlərində formalaşdırılmışdır.

Hazırda respublikanın aqrar bölməsində səmərəliliyin yüksəldilməsi üçün daha əhəmiyyətli variantlarının müəyyən edilməsi ön plana çıxır. Aqrar sahədə xırda təsərrüfatların inkişaf etməsi üçün nə qədər əlverişli şərait olsada, inkişafı və səmərəliliyi ləngidən və mane olan amillər mövcuddur. Belə təsərrüfatların daha mükəmməl inkişaf etməsi üçün istehsalın ilk növbədə ixtisaslaşması və kooperasiyanın formalaşması mühüm və zəruridir. Aqroservislərdən, lizinq xidmətlərindən səmərəli istifadə, aqroparklarla əlaqəli inkişaf həyata keçirilməli, mütəxəssislərin təcrübələrindən və elmi tədqiqatlarından istifadə mühüm əhəmiyyat daşıyır.

Dünya iqtisadiyyatında baş vermiş qlobal dəyişikliklər, milli valyutanın ardıcıl iki dəfə devolvasiyası şəraitində daxili bazarda qiymətlərin artması, torpaqlardan səmərəli istrfadə edilməsi, aqrotexniki qaydalara düzgün rəayət edilməsi, yerli aqrar istehsalcıların bütün mümkün vasitələrlə təmin olauna bilməsi müdafiəsi, təsərrüfat subyektlərinin gəlirliyinin təmin olunması vəzifələri, bilavasitə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi məsələləri elmi və təcrübi baxımdan kompleks həllini tələb edir.

Yuxarıda göstərilən məsələlərin aktuallığı respublika prezidentinin 06 dekabr 2016-cı il tarixli sərəncamı ilə təsdiq olunmuş "Milli iqtisadiyyatın və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"ndə də öz təsdiqini tapmışdır. Bu sənəddə Azərbaycan iqtisadiyyatının əsas istehsal sektorundan biri kimi kənd təsərrüfatına önəm verilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə mövcud olan geriliklərin aradan qaldırılması iqtisadi səmərəliliyin yüksəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər və göstərişlər gözlənilən nəticənin əldə edilməsinə səbəb bilər. Ona görə ki, aqrar sferada istehsalın səmərəliliyi göstəricilərinin yüksəldilməsi, təbii-iqtisadi potensialdan istifadənin yaxşılaşdırılması, ixrac potensialının artırılması əsasında idxaldan asılılığın aradan qaldırılması, iqtisadi maraq və mənafelərin optimal koordinasiyası üçün iqtisadi tənzimləyicilərin təsir gücündən maksimum istifadə olunmalıdır. Bu da bir daha

aqrar sahədə iqtisadi səmərəliliklə bağlı mövcud elmi, nəzəri, metodıloji və təcrübi biliklərə istinadən aqrar istehsalın inkişaf xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi səmərəliliyin yüksəldilməsi üçün əsaslandırılmış tövsiyyələrin işlənilməsi tələbini qarşıya qoyur.

Yuxarıda qeyd edilənlərdən aşağıdakı nəticələr əldə edilmişdir:

- aqrar sahədə həyata keçirilən tədbirlər iqtisadi səmərəlilik artırıla bilər;
- istehsalın ixtisaslaşması və kooprasiyalaşması həm məşğulluğun təmin olunmasına şərait yaranar və həm də səmərəliliyə təsir edəcəkdir;
- innovasiyalı istehsalın təşkili iqtisadi səmərəliliyin artmasına və idxaın daha da formalaşmasına səbəb olacaqdır;
- əmək məhsuldarlığının artmasına təsir edən amillərin , fondveriminin, fond tutumunun rentabelliyin aşağı olmasına təsiri, maya dəyərinin yüksək olması na təsir edən amillər və s. müəyyən edildikdən sonra modern kənd təsərrüfatı istehsalına nail olmaq olar;
- məhsuldar toxum növlərinin və cins malqaranın əldə edilməsi, onların yerli sortlarla hibritləşdirilməsi, yeni sortların yerli şəraitə uyğunlaşdırılması səmərəli nəticə əldə etməyə zəmin yaradar.

MİLLİ İQTİSADİYYATDA VERGİ DƏRƏCƏLƏRİ VƏ VERGİ DAXİLOLMALARI ARASINDA QARŞILIQLI NİSBƏTİN TƏKMİLLƏŞDİRILMƏSİ YOLLARI

Yusifov M.M.
Bakı Biznes Universitetinin
E-mail: myusifov1999@gmail.com

«Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramında» göstərildiyi kimi Azərbaycan Respublikasında, vergiqoyma siyasəti səmərəliliyin yüksəldilməsinə, iqtisadiyyatın balanslaşdırılmış tənzimlənməsini təmin etmək üçün zəruri təsisatların formalaşmasına, habelə ölkə iqtisadiyyatının qlobal iqtisadi sistemə səmərəli və bərabər hüquqlu inteqrasiyasının intensivləşdirilməsi naminə beynəlxalq standartlara cavab verən baza yaradılmasına istiqamətləndirilməlidir. Hal- hazırda vergilərin hesablanması zamanı vahid dərəcələrin tətbiqi ilə yanaşı vergitutma bazasının eyni olmasına əsaslanır. Vergi qanunvericiliyinə əsasən mülkiyyət formasından asılı olmayaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələr və təşkilatlar yerinə yetirilmiş iş və xidmətlərə görə 18% dərəcə miqdarında əlavə dəyər vergisinə cəlb olunurlar.

Fikrimcə, keçid dövrünün çətinliklərini nəzərə alaraq, müəssisələrin istehsal fəaliyyətini stimullaşdırmaq, həmçinin maliyyə nəzarətini yaxşılaşdırmaq və vergi yükünü azaltmaq məqsədilə, tətbiq edilən vergi dərəcənin müəyyən qədər aşağı salınması məqsədəuyğun olardı. Əlavə olaraq bu göstəriləndən başqa ticarət, təhcizat-satış, tədarük və alqı - satqı əməliyyatı, həmçinin vasitəçilik xidməti göstərən müəssisələr (mülkiyyət formasından asılı olmayaraq) məlum olduğu kimi, əldə etdikləri gəlirin 15,25%-ni əlavə dəyər vergisi şəklində büdcəyə ödəyirlər. Nəticədə bu dərəcə əsas dərəcədən asılı olduğu üçün onun da müvafiq qaydada aşağı salınması daha düzgün olardı.

Vergitutma bazasının genişləndirilməsi işi, iqtisadiyyatın bütün sahələrində vergi dərəcələrinin aşağı salınması ilə paralel aparılmalıdır. Buna görə də, hüquqi şəxslərin mənfəət vergisinin, fiziki şəxslərdən gəlir vergisinin, gömrük ixrac vergilərinin dərəcələrinin aşağı salınması ilk növbədə həyata keçirilməlidir.

Vergi ödəyicilərin dövlət büdcəsinə vergilər şəklində daxil etdikləri gəlir hissəsinin inflyasiya təsirindən qorunması və onların büdcəyə sistemləşdirilmiş şəkildə daxil olması təmin edilməlidir. Bu məqsədlə vergilərin əsasını təşkil edən vergitutma bazasının sabit faizlərə əsaslanması bütün iqtisadi sahələrdə təmin edilməlidir. Respublikamızda son illərdə sənaye və kənd təsərrüfatı sahələrində gəlirlərini deklarasiya etdirən fiziki şəxslərin gəlirlərindən tutulan vergilər advaler sisteminə keçməklə hesablanmağa başlanmışdır. Yəni dünya standartlarına uyğun şəkildə hesablanmasına keçid etmişdir.

Başqa sahələrdə, məsələn, ticarət və ictimai iaşədə lisenziya ilə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən tutulan vergilərin minimum əmək haqqına uyğun şəkildə müəyyən edilməsi qaydasının daha çox dəqiqləşdirilməsi və təkmilləşdirilməsi, onlarda daha konkret vergi məbləğlərinin müəyyən edilməsi tələb olunur. Xarici ticarət sahələrində əməliyyatların vergi tutulmalarında yeni qaydalar əsasında həyata keçirilməsi daha məqsədəuyğun olardı.

Hal-hazırda sənaye, kənd təsərrüfatı, ticarət və digər sahələrin inkişafına dövlətin hərtərəfli şərait yaratdığı kiçik və orta sahibkarlıq ölkədəki bir sıra sosial problemlərin, məsələn, işsizliyin aradan

qaldırılmasında da mühüm rol oynayır. Buna görə də vergi siyasətinin təkmilləşdirilməsi işi daim bu cəhətləri nəzərdə tutulmalıdır.

Kiçik və orta sahibkarlığın inkişafı problemləri hazırkı mərhələdə daha mühüm əhəmiyyət kəsb edir. Onlar, əvvəla, nisbətən az kapital qoyuluşu, maliyyə-kredit vəsaitləri tələb etdiyindən, onları inkişaf etdirmək, sayını artırmaq və s, nisbətən asandır. Digər tərəfdən də, onlar iri müəssisələrə nisbətən daha çox manevrli olduğundan, bazar kontyukturasındakı dəyişikliklərə uyğun olaraq, onların işində dəyişikliklər, düzəlişlər etmək də asandır. Bu isə onların işi ilə əhalinin tələb və təklifi arasında daha asan və tez uyğunluq yaradılmasına imkan verir.

AQRAR SAHƏDƏ TORPAQ RESURSLARINDAN İSTİFADƏ EDİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Zeynalov L.A.
Azərbaycan Dövlət Aqrar Universitet
E-mail:letif.zeynalov.99@gmail.com

Torpaq resurslarından səmərəli istifadənin kənd təsərrüfatının və bütövlükdə ölkənin iqtisadiyyatında böyük əhəmiyyəti var. Kənd təsərrüfatında məhsul əldə etmək məhz torpağın keyfiyyəti, ondan istifadənin xarakteri və şəraiti ilə bağlıdır. O, mühüm məhsuldar qüvvədir, onsuz kənd təsərrüfatı istehsalı prosesini təsəvvür etmək mümkün deyil. Maddi nemətlərin yaradılmasını üçün ən mühüm ilkin şərt və təbii əsas torpaq ehtiyatlarıdır. Torpağın rolu həqiqətən çox böyük və müxtəlifdir. O, insan cəmiyyətinin mövcud olması üçün zəruri şərtdir. Kənd təsərrüfatında torpaq əmək obyekti qismində çıxış edir. İnsan, onun üst qatında - torpaqda hərəkət edir və məhsulların böyüməsi və inkişafı üçün lazımi şərait yaradır. Eyni zamanda, torpaq həm də bitkilərin becərilməsində əmək vasitəsidir, torpağın mexaniki, fiziki və bioloji xüsusiyyətlərindən kənd təsərrüfatı məhsulları əldə edilir. Deməli, torpaq kənd təsərrüfatında fəal istehsal vasitəsinə çevrilir. O, istehsalın mühüm maddi amillərindən biri olan əmək prosesi üçün zəruri maddi ilkin şərt kimi çıxış edir. Torpaq kənd təsərrüfatında təkrar istehsal olunmayan istehsal vasitəsidir. O, xüsusi, unikal, orijinal və əvəzolunmaz istehsal vasitəsidir.

Kənd təsərrüfatında torpaq resursları onları digər istehsal vasitələrindən əhəmiyyətli dərəcədə fərqləndirən və kənd təsərrüfatı istehsalının iqtisadiyyatına böyük təsir göstərən bir sıra spesifik xüsusiyyətlərə malikdir. Torpaq təbiətin məhsuludur. İnsan əməyinin nəticəsi olan digər istehsal vasitələrindən fərqli olaraq, torpaq təbiətin çoxəsrlik təbii və tarixi inkişafının məhsuludur. Digər istehsal vasitələri kimi torpağın yaradılmasına insan əməyi sərf edilmədiyi üçün onun heç bir dəyəri yoxdur. Torpaqdan istifadə zamanı amortizasiya ayırmaları aparılmır, ona görə də kənd təsərrüfatı məhsullarının maya dəyərinin formalaşmasında iştirak etmir.

Yer kürəsi ərazi baxımından məhduddur, onun səthini artırmaq mümkün deyil. Torpaq, digər istehsal vasitələrindən fərqli olaraq, texnoloji cəhətdən daha təkmil istehsal vasitələri ilə əvəz edilə bilməz. Onsuz istehsal prosesi həyata keçirilə bilmir. Məsələn, elmi-texniki tərəqqinin sürətləndirilməsi prosesində bir çox başqa istehsal vasitələri əhəmiyyətli dərəcədə dəyişmişdir. Torpaq emalı alətlərinin inkişafı ibtidai çapaqdan müasir şumlara və s.-ə qədər gedir. Torpaq resurslarından yalnız onların yerləşdiyi yerdə istifadə etmək olar. Torpaq bir yerdən başqa yerə köçürülə bilməz, digər istehsal vasitələrinin əksəriyyətinin istifadəsi isə yerin daimiliyi ilə bağlı deyil. Belə ki, müxtəlif yerlərdə, lazım olduqda müxtəlif məsafələrdə yerdən yerə daşımaqla, traktorlar, avtomobillər, kombaynlar, dəzgahlar və s.

Ayrı-ayrı torpaq sahələri münbitliyinə görə vahid deyil. Onların bəzilərində daha çox qida maddəsi var, digərləri nəmlə daha yaxşı təmin olunur və tamamilə fərqli torpaq quruluşuna malikdir və s. Nəticədə, vahid sahəyə bərabər əmək və vəsait qoyuluşu ilə alınan məhsulların həcmində fərqlər yaranır. İnsan əməyinin təsiri altında bu fərqlər orta illik işçiyə düşən məhsula, maya dəyərinə və kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin digər iqtisadi göstəricilərinə təsir edərək həm yumşaldılır, həm də kəskinləşə bilər. Torpaqdan sui-istifadə sonda bütün digər istehsal amillərinin rolunu və əhəmiyyətini inkar edə bilər. Torpağın istehsal vasitəsi kimi qeyd olunan bütün xüsusiyyətləri dayanıqlı əkinçilik nəzəriyyəsi və praktikasının əsasında dayanır. Bir şəxs torpağın münbitliyinə fəal təsir göstərə bilər. Bu təsirin səviyyəsi məhsuldar qüvvələrin inkişaf vəziyyəti, onların kənd təsərrüfatında texnoloji tətbiqi dərəcəsi (elm və texnikanın, mütərəqqi istehsal texnologiyalarının, qabaqcıl təcrübənin tətbiqi) ilə müəyyən edilir.

Torpağın münbitliyinin mahiyyəti bitkilərin böyümə və inkişafının bütün dövrlərində torpağın bitkilərin tələbatını zəruri qida maddələri ilə təmin etmək qabiliyyəti ilə xarakterizə olunur. Lakin torpağın münbitliyi təkcə onun tərkibində qida maddələrinin olmasından, rütubətindən, strukturunun vəziyyətindən

deyil, həm də bitkilərin emalı və becərilməsi prosesinə (meliorasiya, üzvi və mineral gübrələrin verilməsi və s.) əlavə investisiyalardan asılıdır. Deməli, münbit torpaqlar təsərrüfatçılığın konkret şəraitində baş verən təbii (təbii) və iqtisadi proseslərin qarşılıqlı təsirinin nəticəsidir.

İqtisadiyyat elmində torpağın təbii, süni və iqtisadi münbitliyi fərqləndirilir. Təbii münbitlik (təbii) təbiətin təbii qüvvələrinin - günəşin, küləyin, suyun təsiri altında torpaq əmələ gətirmə prosesi nəticəsində formalaşmışdır. O, müəyyən fiziki, kimyəvi və bioloji xassələri ilə xarakterizə olunur və kənd təsərrüfatı üçün həlledici əhəmiyyətə malikdir.

Torpağın təbii münbitliyi torpaqlarının potensial zənginliyini ifadə edir. Onun praktiki istifadə səviyyəsi aqronomiya və aqrokimya elminin inkişafı, kənd təsərrüfatının mexanikləşdirilməsi dərəcəsi və bir sıra istehsal amilləri ilə müəyyən edilir. Kənd təsərrüfatının ən mühüm vəzifəsi torpağın təbii münbitliyindən ən tam və rasional istifadə etməkdir.

Torpağın becərilməsinin yaxşılaşdırılması, kimyəviləşmə və meliorasiyanın inkişaf etdirilməsi prosesində bitkilərin istifadə etdiyi qida maddələrinin miqdarını artırmaq olar. Deməli, insanın aktiv fəaliyyəti nəticəsində yaranan torpaq münbitliyi süni münbitlikdir. O, məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılıdır və buna görə də cəmiyyətin inkişafının müxtəlif mərhələlərində eyni deyil. Kənd təsərrüfatı istehsalında suvarma və torpaq mühafizəsi işləri, əhəngləmə, üzvi və mineral gübrələrin verilməsi və digər tədbirlərlə süni münbitlik təmin edilir. Beləliklə, becərilən torpaqlar münbit olur və onların üzərindəki məhsulların məhsuldarlığı daim artır.

Təbii və süni məhsuldarlıq birlikdə iqtisadi və ya səmərəli məhsuldarlıqdır. Təbii və süni məhsuldarlıq üzvi vəhdətdə mövcuddur və bitkilərin inkişafına kömək edir.

İqtisadi məhsuldarlığın bilavasitə göstəricisi əkinlərin məhsuldarlığıdır. Torpağın iqtisadi münbitliyini müqayisə etmək üçün münbitlik səviyyəsi kimi göstəricidən istifadə edilir. Kənd təsərrüfatı məhsullarının məhsuldarlığını və ya onun keyfiyyəti nəzərə alınmaqla torpaq vahidinə düşən istehsalın həcmini ifadə edir. Birinci halda bu, mütləq məhsuldarlıq, ikincidə isə nisbi məhsuldarlıq olacaqdır. Bundan əlavə, kənd təsərrüfatında maddi və pul məsrəflərinin vahidinə düşən kənd təsərrüfatı məhsullarının məhsuldarlığı kimi əlavə göstəricidən də istifadə olunur. Beləliklə, mütləq münbitlik məhsulun məhsuldarlığı ilə, nisbi məhsuldarlıq isə istehsal məsrəfləri vahidinə düşən məhsulun miqdarı ilə xarakterizə olunur.

Yuxarıda deyilənləri nəzərə alaraq, torpaqdan istidafənin səmərəliliyinin artırılması üçün aşağıdakı tədbirlərin görülməsi zəruridir: müasir aqrotexnologiyalardan istifadə edilməsi; müvafiq aqrotexniki üsulların gözlənilməsi; torpağın keyfiyyətinə uyğun bitkilərin əkilməsi; kimyəvi maddələrdən istifadə normalarının gözlənilməsi.

ТАМОЖЕННАЯ ЭКСПЕРТИЗА СИНТЕТИЧЕСКИХ МОЮЩИХ ВЕЩЕСТВ

Адильбейли Н.А.
Азербайджанский государственный экономический университет
E-mail: Nicat.adil.5@gmail.com

Синтетические моющие средства (СМС)- это моющие вещества, которые имеют высокую эффективность, включающие от 10 до 40% ПАВ и различных других добавок которые, повышают их моющие свойства. Моющие вещества должны быть многофункциональными. Одной из их функций является очищение. При этом СМС должны обладать такими свойствами как отбеливание и дезинфекция. Еще одной должностью СМС- это не загрязнять окружающую среду.

СМС состоят из двух веществ: основные и добавочные. Основной частью СМС являются поверхностно активные вещества, к которым относятся следующие: жиры (50%), алкилбензолсульфонаты-линейные (ЛАС) (35%), этоксилированные жирные спирты (14%), четвертичные органические аммониевые соли (7%), алкилфенолы, особенно их этоксилаты (АРЕО) (7%), метиловые эфиры жирных кислот (7%), сульфаты высших жирных спиртов (5%), прочие ПАВ (19%). Кроме этих основных компонентов есть и добавочные, к ним относятся: комплексные соединения, отбеливающие вещества, активаторы отбеливания, образователи структуры, регулирующие вещества pH, антисорбенты, наполнители (сульфат натрия).

СМС в зависимости от их цели использования бывают двух видов таких как, порошок и жидкий. ПАВ добавляются в синтетические моющие средства с целью повышения активности таких веществ как: щелочные соли, кремнекислый натрий и карбонаты. Кремнекислый натрий уменьшает коррозийность металических деталей стиральной машины. С целью уменьшения щелочности

средства в него добавляют полифосфаты. Полифосфаты, особенно гексаметафосфат натрия, производится в Европе под маркой «Калгон», но в связи с тем, что полифосфаты загрязняют окружающую среду, в мире отказываются от использования этих добавок.

Порядок и условия приема товара зависят от условий договора, упаковки, физико-химических свойств и характеристик товара, способа доставки и ряда других причин. Товары принимаются в упаковке и без. Во время принятия товара приниматель должен проверить место отгрузки, контейнеры и работоспособность средств. Дополнительные документы на грузовой склад: проездные документы, счета-фактуры и т.д. Прием упакованного товара в соответствии с условиями договора может осуществляться по грузовым местам или номенклатуре. При номенклатурном принятии каждый контейнер открывается и определяется точное количество упаковок. При этом приемщик должен записать акт и причины недостатков и может быть и другая информация. При необходимости проведения приема товара по качеству для этой цели может быть приглашен эксперт Торгово-промышленной палаты.

Величина потребления синтетических моющих средств оценивается по моющей способности и эффективности процесса стирки. Моющая способность, в свою очередь, является результатом способности образовывать пену, эмульгировать, растворять и впитывать. Однако, в то время как высокое пенообразование подходит для ручной стирки, оно отрицательно сказывается на качестве стирки в стиральных машинах, так как обильное пенообразование заполняет стиральную машину, смягчает силу удара и требует большего количества стирки. Тот факт, что упаковка изготовлена из бумаги и картона, приводит к быстрому увлажнению упаковки. Это напрямую влияет на качество моющего средства. Однако отходы полимерной и пластиковой упаковки наносят вред окружающей среде. Учитывая вышеизложенное, можно сделать следующие выводы:

- Рекомендуется добавка органических веществ в синтетические моющие средства, так как неорганические вещества приводят к коррозии стиральной машины;
- Рекомендуется уменьшение количества ароматизаторов;
- Рекомендуется использование полимеров и пластиков как упаковки для синтетических моющих средств.

ПОТРЕБИТЕЛЬСКИЕ СВОЙСТВА МАЙОНЕЗА, РЕАЛИЗУЕМОГО В ТОРГОВОЙ СЕТИ Г. БАКУ

Джавадзаде Д.Д.
Азербайджанский государственный экономический университет
E-mail: diana.javadzade99@mail.ru

Майонез - это бледно-желтый соус с густой и кремовой текстурой. Майонез можно разделить на два основных вида в зависимости от количества масла, которое используется в рецепте. Майонез с низким содержанием жира содержит около 30-65% масла, в то время как майонез с высоким содержанием жира содержит около 75-80%. Ингредиенты, которые можно найти в водной фазе, следующие: яйцо, уксус, соль, сахар, горчица и вода. Границы раздела масло-вода стабилизируются яичным желтком, который содержит эмульгаторы. Майонез с повышенным содержанием масла имеет более плотную текстуру, но также более чувствителен к чрезмерному взбиванию.

При промышленном производстве майонеза важно как получить продукт высокого качества, так и избежать перенасыщения вкуса. Высококачественный майонез имеет плотную текстуру и небольшой размер капель. Майонез достигает пика по текстуре и минимального размера капель во время перемешивания. При более длительном времени перемешивания качество снижается, и майонез становится пересушенным. Майонез высокого качества можно приготовить путём охлаждения ингредиентов и обильным использованием яичного желтка.

При приготовлении майонеза в домашних условиях всегда существует риск инверсии фазы, в результате чего образуется эмульсия "вода в масле". Майонез с инвертированной фазой, или так называемый «сломанный майонез», характеризуется низкой вязкостью, близкой к вязкости масла. Обычно у каждого производителя имеются свои собственные советы и рекомендации по предотвращению этого явления, включая всё, начиная от техники взбивания и заканчивая температурой ингредиентов.

Майонез со всего мира может содержать различные ингредиенты в зависимости от страны происхождения. Обычно различия можно увидеть в 4 вариантах. Используемый эмульгатор может варьироваться между цельным яйцом (распространенным в Европе), жидким яичным желтком (распространенным в России) и высушенным яичным желтком (распространенным в Азербайджане). Стоит подчеркнуть тот факт, что различные специи могут быть использованы для отражения культуры.

Масло является основным ингредиентом майонеза и поэтому оказывает большое влияние на качество конечного продукта. Количество масла, диспергированного в майонезе, способствует вязкоупругому состоянию продукта. Масло также влияет на органолептические свойства, придавая майонезу сливочность и аромат. Поэтому важно использовать масло с нейтральным вкусом, такое как рапсовое масло, подсолнечное масло или масло из виноградных косточек.

Яичный желток чаще используется по сравнению с яичным белком из-за его больших эмульгирующих свойств. Яичный белок состоит из воды, белка, глюкозы и некоторых минералов. Основную часть белка составляет вода, 84-89%, в то время как в остальной части преобладают глобулярные гликопротеины. Яичный желток содержит только 50% воды и, следовательно, имеет значительно более высокое содержание сухого вещества по сравнению с белком. Оставшиеся 50% в яичном желтке состоят из липидов (33%), белков (15%), углеводов (1%) и минералов (1%).

Уксус, используемый в майонезе, улучшает вкус майонеза и снижает его pH. При поддержании низкого уровня pH продукта повышается микробиологическая безопасность и сохранность продукта. Низкий pH, используемый в майонезе, близок к изоэлектрической точке белков из яичного желтка. Небольшое количество зарядов на белках позволяет белкам находиться ближе друг к другу, и капли могут быть «упакованы» более плотно. Соль помогает нейтрализовать заряды белков, чтобы они могли более эффективно поглощаться на границе раздела капель. Более нейтральная граница раздела капель уменьшает электростатическое отталкивание между каплями, которое вызывает флокуляцию.

Сахар способствует аромату майонеза и добавляется главным образом для того, чтобы нейтрализовать аромат уксуса.

Горчица придает майонезу вкус и цвет. Большая часть аромата горчицы происходит от изотиоцианатов. Горчицу, используемую в майонезе, при желании можно добавлять в виде горчичной муки вместо обычной горчицы.

Лимонная кислота, содержащаяся в майонезе, стабилизирует эти вкусовые соединения.

В декабре наблюдается значительный предновогодний рост потребления майонеза. Потребление доходит до минимума в жаркие месяца – на 27% меньше среднегодового уровня.

Часто говорят о вреде майонеза. По результатам данного исследования нам стало известно, что майонез высокого качества абсолютно безвреден при использовании в разумных пределах. Майонез, производимый на территории Азербайджана и реализуемый в торговых центрах города Баку, соответствует предъявляемому качеству.

ОСНОВНЫЕ КОМПОНЕНТЫ, ИСПОЛЬЗУЕМЫЕ ПРИ ПРОИЗВОДСТВЕ ЛАКОКРАСОЧНЫХ МАТЕРИАЛОВ

Мурсалзаде Ф.В.
Азербайджанский государственный экономический университет
E-mail: fira.m.98@mail.ru

Красители представляют собой многокомпонентные красящие вещества. Каждое вещество, используемое в их составе, придает краске разные свойства. Например: смолы используются для формирования тонкопленочного слоя; пигменты используют для придания цвета, образования непрозрачного покрытия, а для придания текучести используют растворители и разбавители.

Так, смолы, применяемые при производстве красок различного назначения, представляют собой связующие вещества, которые превращаются из жидких в твердые путем испарения растворителя или химической реакции после нанесения краски.

Пигменты состоят из частиц минерального порошка размером 0,01-1,0 мкм. Они дают оптические и визуальные эффекты во время использования. Пигменты помогают красителю становиться жидким и твердым, имеют порошкообразную зернистую структуру, не растворяющуюся в растворителях. Связующие, используемые при производстве красок, равномерно распределяются

внутри пигмента и добавок, создавая тонкий слой. Помимо защитных функций, важны также такие свойства, как долговечность, эластичность и прочность.

Наполнители представляют собой крупнозернистые порошки и обеспечивают матовость, наполнительную прочность краски. В качестве наполнителей применяют тальк, мел, асбест, тротуарин, оксид кремния и кварцевый песок. Добавки, применяемые при производстве красок, представляют собой вспомогательные материалы, используемые в небольших количествах для сохранения их свойств в течение длительного времени после производства, хранения, нанесения и применения. Другими важными веществами, используемыми в производстве красок, являются растворители, которые служат для обеспечения растворения краски, обеспечения ее текучести и обеспечения ее технологических свойств. Кроме того, используются дополнительные добавки для правильного нанесения выбранного способа нанесения, создания гладкой поверхности, регулировки оптимальной толщины тонкой пленки и времени высыхания. Помимо этих свойств регулирование вязкости лакокрасочного состава раствором твердой или очень густой смолы облегчает получение краски и нанесение краски.

Растворители обладают летучими свойствами и не остаются в краске. Основная функция растворителей – выполнять роль связующего для нелетучих компонентов краски, облегчает нанесение краски на поверхность, сокращает время ее высыхания. Когда растворители в краске испаряются, они хорошо прилипают к поверхности и образуют прочный пленочный слой.

Смолы, пигменты, наполнители, добавки и растворители, используемые при производстве красок, должны оцениваться с точки зрения здоровья и безопасности потребителей. Наиболее важным фактором риска для здоровья при производстве красок являются растворители, используемые в производстве. При воздействии паров растворителей могут возникнуть респираторные инфекции, раздражительность и астма.

Ингредиенты разных цветов разного спектра, которые используются для защиты поверхностей предметов от внешних воздействий и придания им красивого внешнего вида, называются «красками». Красители представляют собой нерастворимые вещества, смешанные со связующим. Их наносят в виде суспензии на поверхность кистью или краскопутьтом. Под тонким слоем, который высыхает под воздействием воздуха и тепла, остаются красители, придающие материалам красочный вид. Красители могут быть неорганическими, углеродными и различными оксидами металлов, а также природными молекулами, такими как фталоцианин. Красители часто представляют собой неорганические соединения. Краски химически не взаимодействуют с окрашиваемой поверхностью при нанесении на поверхность, они лишь обеспечивают красивый декоративный вид и защиту поверхности за счет создания на поверхностях слоистого покрытия.

Структура материала после очистки окрашенной поверхности не меняется. Использование неорганических красителей более распространено в различных областях, так как органические пигменты со временем разлагаются под действием света и тепла, меняют цвет, изнашиваются, стареют. Красители представляют собой органические соединения, которые химически или физико-химически реагируют с окрашиваемым материалом.

Таким образом по результатам данного исследования, нам стало известно, что компоненты, используемые при производстве лакокрасочных материалов способствуют улучшению качества и увеличивают срок годности товара. Кроме того, они образуют достаточно прочное устойчивое покрытие, стойкое к внешним воздействиям.

ФОРМИРОВАНИЕ ПОТРЕБИТЕЛЬСКИХ СВОЙСТВ ЛАКОКРАСОЧНЫХ МАТЕРИАЛОВ, РЕАЛИЗУЕМЫХ В АЗЕРБАЙДЖАНЕ

Мурсалзаде Ф.В.
Азербайджанский государственный экономический университет
E-mail: fira.m.98@mail.ru

Лак является быстросохнущей жидкостью,которая после высыхания образует сплошную, прозрачную и блестящую плёнку. В состав лака входят разъедающие вещества, пластификаторы, красители, а также могут быть включены и другие элементы. Основными же составляющими красок являются связующие вещества, растворители, пигменты и добавки. Наиболее распространенные виды лака:спиртовой лак, масляный лак, нитроцеллюлозный и асфальтно-битумный лак. Спиртовой лак

или же, другими словами, смоляной лак, изготавливается из различных натуральных или искусственных смол (шеллак, канифоль, идитол и др.) из растворенного в спирте продукта. Этот лак либо бесцветный, либо разных цветов. Количество смолы обычно составляет 30-45%. Наиболее популярным является спиртовой лак, наносимый на мебель. Этот лак в течении 15-30 минут создает прочную пленку и полностью высыхает за 2-4 часа.

Качественный лак должен быть однородным, на дне не должен оставаться осадок, а также лак должен полностью высыхать в течение указанного времени. После высыхания поверхность должна блестеть и не вздуваться, не жирнеть и не тускнеть. Лак наполняют в чистые металлические банки или же стеклянные бутылки. Ёмкость лакового контейнера составляет 500 см^3. Горловины контейнеров должны быть герметически закрыты во избежание ухудшения качества товара, а также для того, чтобы растворители, находящиеся в составе лака, не улетучивались. Именно поэтому лакокрасочные материалы являются пожароопасными.

Этикетка наклеивается на поверхность банки или вешается на фанерную бирку. На этикетке указывается наименование и номер лака, вес, дата изготовления, номер партии, номер стандарта или технической спецификации. Также на этикетках часто пишут краткое объяснение применения лака. В Азербайджане самыми известными марками лакокрасочных материалов являются: «Fab», «Omid», «Sobsan», «Rokol»и другие.

Потребительские свойства лакокрасочных материалов непосредственно связаны с их назначением. Лакокрасочные материалы часто используются для улучшения поверхностного слоя материалов, от защиты механических повреждений. Также их используют для придания соответствующего цветового тона, для удобного использования материала или же красивого оформления интерьера здания и т.д. Но самым главным потребительским свойством лакокрасочных материалов являются его эстетические свойства. С помощью них товару придаётся нужный дизайн, фактура, плоская и блестящая поверхность и т.д. В зависимости от поверхности она может быть полуглянцевой, глянцевой и матовой.

Еще одним из особенных свойств лакокрасочных материалов является его термостойкость, износостойкость, устойчивость при воздействии кислот, щелочей, химических растворов, а также стойкость при воздействии в атмосферных условиях. Еще они применяются для защиты материалов от коррозии. Именно с помощью этих свойств у товаров или же различного рода материалов повышается срок использования, долговечность, надёжность, ремонтопригодность, безотказность, сохраняемость и т.д.

По результатам данного исследования нам стало известно, что в настоящее время потребительский рынок нашей республики включает лакокрасочную продукцию, как и местного производства, так и поступающую из различных зарубежных стран. Проверка качества этих красок и лаков очень важна для обеспечения безопасности здоровья граждан и создания препятствий перед некачественными, контрафактными товарами. Лакокрасочные материалы, реализуемые в торговых центрах и магазинах города Баку, соответствуют предъявляемому качеству. Как правило, в них соблюдаются требования стандартов по таким показателям, как укрывистость, удобство нанесения, гигиеническая и пожаробезопасность.

ИНТЕГРАЦИОННЫЕ ПРОЦЕССЫ В АГРОПРОМЫШЛЕННОМ КОМПЛЕКСЕ

Мустафаев Й.Д.
Азербайджанский государственный аграрный университет

Развитие интеграционных процессов является характерной чертой современной аграрной экономики. Более устойчивое экономическое положение в настоящее время имеют те сельскохозяйственные предприятия которые вошли в интегрированные формирования и создали в рамках объединений относительно замкнутый цикл производства, переработки и реализации продукции. Это позволило устранить из производственно-экономической цепочки посредников и получать дополнительные доходы, обеспечивающие рентабельное производство.

Рассмотрим проблему реформирования как предпосылку интеграции агропромышленного производства при выборе критериев для дальнейшего развития. Сущность категории интеграции и реформирования применительно к специфике мясопродуктового подкомплекса заключается в

необходимости создания крупных интегрированных структур с учетом сложившейся структуры в АПК.

Огромные возможности роста объемов производства, резкого увеличения производительности труда, снижения себестоимости продукции и улучшения ее качества заложены в специализации и концентрации производства на базе агропромышленной интеграции.

Агропромышленная интеграция — это объективный экономический процесс объединения сельскохозяйственных товаропроизводителей, предприятий перерабатывающей промышленности и других участников системы агробизнеса, в результате которого происходит повышение эффективности использования имеющихся на территории области или района земельных, материальных, трудовых и финансовых ресурсов.

Сущность агропромышленной интеграции сводится к трем точкам зрения. *Первая* — агропромышленная интеграция представляет собой форму объединения или системное состояние тех или иных участников агропромышленного производства. *Вторая* — это процесс укрепления производственных связей и экономических отношений, объединения отдельных участников производства, в том числе агропромышленного, в единое целое. *Третья* — это механизмы или методы, с помощью которых осуществляют объединение участников агропромышленного производства в единый производственно-хозяйственный организм.

В результате агропромышленной интеграции образуются агропромышленные формирования, которые представляют собой совокупность технологически, экономически и организационно взаимосвязанных сельскохозяйственных и промышленных предприятий и организаций, осуществляющих производство, хранение, переработку и доведение до потребителя продуктов из сельскохозяйственного сырья.

В современном азербайджанском АПК отмечается интенсивный процесс создания и развития вертикально интегрированных формирований, которые представляют собой сложные экономические системы и требующие комплексного подхода к их изучению. Эффективное функционирование вертикально интегрированных агропромышленных формирований является одним из направлений обеспечения паритета экономических отношений между участниками АПК, преодоления межотраслевого диспаритета цен, восстановления разрушенных производственно-хозяйственных связей, стабилизации финансово-экономического состояния перерабатывающих предприятий и сельхозтоваропроизводителей, ускорения темпов их расширенного воспроизводства и т. д.

Наиболее распространенными формами создания вертикально интегрированных структур в АПК являются: создание вертикально интегрированного формирования предприятием-инвестором, выступающим в роли интегратора; добровольное присоединение неплатежеспособных предприятий (как правило, сельхозтоваропроизводителей) к финансов устойчивому, эффективно функционирующему предприятию с потерей статуса юридического лица; присоединение неплатежеспособных сельскохозяйственных предприятий путем их предварительного преобразования в новое предприятие как структурных единиц интегрированного формирования, в том числе с применением процедур банкротства; слияние нескольких финансово не устойчивых коммерческих организаций; добровольное объединение на договорной основе ресурсов сельскохозяйственных, перерабатывающих, агросервисных и торговых предприятий без образования нового юридического лица (в форме простого товарищества) для достижения эффекта от совместной производственно-хозяйственной деятельности; образование холдинговых структур; и т. д. Опыт функционирования интегрированных структур в АПК показал наибольшую «жизнеспособность» тех из них, которые образуют полный (замкнутый) технологический цикл «производство — переработка — реализация» (т. е. от производства сельскохозяйственной продукции до реализации на рынке продукции ее переработки).

Система экономических отношений в рамках вертикально интегрированного агропромышленного формирования включает в себя следующие слагаемые: отношения по поводу внутрифирменного внутригруппового) оборота промежуточной продукции и расчетов за нее; возможности ее реализации отдельными участниками формирования на внешнем рынке; использование получаемой при этом суммы выручки, налоговые платежи; отношения по поводу порядка осуществления внутрифирменного (внутригруппового) кредитования; формирование и распределение централизованных фондов и т. д.

В основе организации экономических отношений в рамках интегрированной структуры лежит коммерческий расчет, основными элементами которого являются порядок выполнения заказа на

продукцию ее подразделений, разработки и установления трансфертных цен на заказанную продукцию, механизм материально-технического и финансового обеспечения производства заказанной продукции, регламент формирования источников доходов подразделений, механизм распределения и использования их денежных средств, инвестиционная политика и т. д..

Практика показывает, что не все формы интегрированной экономики дают системный эффект, поэтому показателю они неравноценны.

Наиболее предпочтительными в этом плане представляются глубоко интегрированные агропромышленные формирования, в которых: сельскохозяйственные, перерабатывающие, агротехсервисные и торговые предприятия образуют единый специализированный технологический комплекс, охватывающий последовательные стадии движения исходного сельскохозяйственного сырья в готовую к потреблению конечную продукцию; предприятия, входящие в состав интегрированного формирования, теряют юридическую самостоятельность превращаются в структурные (цеховые) подразделения нового юридического лица.

Такой вариант создания интегрированного формирования позволяет: централизовать управление технологически смежных производств и тем самым повысить производительность труда, организовать действенный учет и контроль, ликвидировать или значительно сократить масштабы теневых финансовых операций; наличие собственной торговой сети позволяет стабильно получать денежную наличность и в соответствии с централизацией управления решать проблему неплатежей; ликвидация юридической самостоятельности хозяйствующих субъектов создает благоприятную организационную основу разрешения экономических противоречий между ними на базе внутрипроизводственного (коммерческого) расчета; в результате упразднения юридической самостоятельности участников интегрированного формирования товарно-денежные отношения между ними приобретают статус внутрипроизводственного оборота, что позволяет получить существенное улучшение режима налоговых выплат по сравнению с вариантом раздельной деятельности предприятий; за счет централизации финансовых ресурсов появляется возможность снизить остроту проблемы сезонного дефицита оборотных средств в звеньях единого технологического цикла, а также облегчить выполнение инвестиционных программ.

ЭКСПЕРТИЗА КАЧЕСТВА ПЛАВЛЕННЫХ СЫРОВ, РЕАЛИЗУЕМЫХ В ТОРГОВОЙ СЕТИ Г. БАКУ

Раджабов А.К.
Азербайджанский государственный экономический университет
E.mail: arajabov@bk.ru

Первые плавленые сыры начали вырабатывать в Швейцарии в 1911 г., называя их коробочными, консервированными, для туристов и только в 30-х гг. их назвали плавлеными. Жир в плавленых сырах находится в виде эмульсии с размером отдельных жировых шариков 11-12 мкм, а в гомогенизированных плавленых сырах — до 4 мкм, т. е. плавленые сыры обладают повышенной дисперсностью жира и легко усваивается организмом человека. Кальций и фосфор в плавленых сырах находится в соотношении 1:1, т. е. в близком к оптимальному (1:1,5), в то время как в сычужных сырах содержание кальция превышает фосфор, и эти компоненты усваиваются несколько хуже.

По статистике сыр входит в ежедневный рацион большинства азербайджанцев. В Азербайджане сыр едят практически все, сыр является одним из продуктов повседневного спроса, но у нас традиции его потребления существенно отличаются от западноевропейских. Прежде всего, сыр в нашей республике не воспринимается как самостоятельное блюдо, а расценивается, скорее, как некий сопутствующий продукт - составляющая часть бутербродов, компонент некоторых салатов, соусов и т.д. Кафе, рестораны и другие места общественного питания включают в меню различные блюда, содержащие сыр. И поэтому хоть сыр и является товаром ежедневного потребления в Азербайджане, но все равно, в общем, показатель потребления сыра на душу населения относительно ниже по сравнению с европейскими странами. Так, например, во Франции один человек потребляет около 15 кг сыра в год, в Голландии - порядка 10 кг. в год.

Сейчас на местном рынке представлено огромное количество различных видов сыров.

Среди плавленых сыров наибольшей популярностью пользуются такие известные марки как Viola, Hochland и President. Производители плавленых сыров стремятся привлекать потребителей путем повышения разнообразия ассортимента за счет различных добавок.

В Азербайджане плавленные сыры производятся относительно недавно. Но помимо этого существенная часть ассортимента плавленных сыров является импортным.

В этих условиях необходимость исследования плавленных сыров весьма актуальна и важна.

При проведении оценки качества плавленных сыров, реализуемых в г. Баку, было выяснено, что они являются довольно популярным продуктом.

Для проведения оценки товара были отобраны 2 образца плавленных сыров: Milla “Ərgin pendir” и “Сливочный”

Образец 1. Сыр Milla “Ərgin pendir” упакован в белую поли стироловую коробку на 100 г сыра с цветной этикеткой. Сыр Milla “Ərgin pendir” обладает приятным, слегка пряным сырным вкусом с привкусом пастеризованных сливок. Тесто его нежное, маслянистые, мажущиеся, светло- желтого цвета. Вид на разрезе: отсутствие рисунка. Допускается наличие небольшого количества воздушных пустот.

Образец 2. Сыр-Сливочный, имеет форму прямоугольных брусков массой нетто 100 г. Сыр плотно завернут в фольгу. При удалении фольги поверхность сыра чистая, не подсохшая, неплесневелая. Вид на разрезе: допускается наличие небольшого количества воздушных пустот. Вкус этого сыра острый с легкой кисловатостью, тесто его нежное, даже немного мажущееся, цвет от белого до светло- желтого.

Сроки хранения и реализации взятых образцов не нарушены.

Из физико- химических показателей в взятых образцах плавленных сыров были определены содержание жира, влаги и соли.

Общее заключение об анализируемых образцах следующее: подобранные экземпляры плавленных сыров доброкачественны и соответствуют НТД.

АКТУАЛЬНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ АУДИТОРСКОГО КОНТРОЛЯ

Шамчиева Т.А.
Бакинский университет бизнеса
E-mail: alieva.t@inbo.ru

В современной экономике возрастают требования к профессиональному качеству и безопасности аудиторов. Кроме того, программа профессионализма должна быть на высоком уровне по другим требованиям; точность, надежность, простота использования, открытость, производительность и т. д. Все эти показатели характеризуют уровень профессионального качества аудиторов. Как общие технологии тестирования, так и технологии обеспечения качества, а также инструменты, специально применимые к этим областям, могут использоваться для проверки безопасности приложений. В результате современных требований аудиторы прилагают большие усилия для обеспечения высокого уровня конкурентного преимущества.

Внешний аудит проводится аудиторскими организациями на договорной основе с целью объективной оценки достоверности бухгалтерской и финансовой отчетности организации. Внутренний аудит - это независимый обзор и оценка деятельности организации в пользу менеджеров. Цель внутреннего аудита - помочь сотрудникам эффективно выполнять свои функции. Инициативный аудит - проверка, проводимая по решению руководства или учредителей компании. Цель - выявление недостатков в бухгалтерском учете и отчетности .

Обязательный аудит - это проверка, регулируемая законом. В нынешней непростой ситуации все больше бухгалтеров готовы критически взглянуть на экономическое положение организаций. Поэтому бухгалтеры в условиях кризиса пытаются найти источники потерь, мобилизовать внутренние ресурсы для повышения эффективности бизнеса и конкурентоспособности предприятий.

Сегодня одним из наиболее подходящих видов аудита является аудит эффективности. Аудит эффективности - это проверка деятельности, направленной на выявление недостатков в управлении предприятием, с последующими рекомендациями по повышению эффективности, результативности и продуктивности управления как в частном, так и в государственном секторах экономики. В отличие от проверки, аудит эффективности включает такие функции, как ошибки, нарушения, отклонения от

законов и нормативных актов, обнаружение признаков неправомерного использования и незаконного присвоения средств, систематическую оценку эффективности использования ресурсов и поиск причин неэффективности и возможностей для улучшения финансово-экономические показатели. С точки зрения регулирования, понятие исполнительного аудита не определено в системе регулирования, поскольку с юридической точки зрения аудит направлен на проверку бухгалтерского учета и отчетности. Аудит эффективности в первую очередь предназначен для руководства, поэтому критерием качества управленческой информации является потребность, адекватность и актуальность этой информации для принятия управленческих решений и мониторинга их выполнения. Это основные направления исследований аудита эффективности:выполнение поставленных целей; Соблюдение правовых норм; рентабельное использование ресурсов; надежность рабочих характеристик; мониторинг и оценка эффективности деятельности; выдача гарантий на активы.

Таким образом, можно сказать, что аудит деятельности исследует, как проверяемый субъект использует доступные ресурсы для достижения основных целей деятельности. В этом случае лучшим решением было бы нанять опытного внешнего аудитора, а не пытаться диагностировать предприятие самостоятельно. Это подтверждают следующие факторы:

1. Наличие одного опыта проверки, возможность увидеть слабые места по сравнению с десятками аналогичных предприятий, должны основываться на упрощенной методике, позволяющей собрать всю информацию, необходимую для дальнейшей диагностики;

2. Отсутствие участия во внутренних процессах, руководство получает объективную оценку происходящего на предприятии;

3. Большинство бухгалтеров постоянно совершенствуют процессы, которые уже имеют сильные стороны предприятий, и не обращают внимания на процессы с низкой эффективностью, а привлечение внешнего аудитора позволяет им пересматривать позиции в слабых местах, реорганизовывать деятельность и расставлять приоритеты.

Целевой аудит производительности можно определить как рентабельность, эффективность и результативность. Единого определения этих трех компонентов не существует, но часто их понимают следующим образом.

1. Аудит прибыльности изучает, насколько экономично и рационально предприятие приобретает, поддерживает и использует свои ресурсы, неэффективность его операций и их причины, а также насколько хорошо компания соблюдает законы и правила в отношении экономии и эффективности.

2. Аудит эффективности включает оценку уровня производительности проверяемого лица, адекватности и надежности систем или процедур, предназначенных для измерения производительности, а также усилий организации по изучению и реализации возможностей повышения производительности.

3. Аудит эффективности в первую очередь направлен на проверку того, что проверяемый объект работает должным образом и что предприятие достигло своих целей путем эффективного использования соответствующих методов для достижения оптимальных результатов. В этом случае аудит является не только всесторонним изучением финансовой отчетности, но и всесторонним анализом хозяйственной деятельности, и поэтому не должен ограничиваться выражением формального соблюдения правил бухгалтерского учета, но также анализировать данные бухгалтерского учета для оценки результатов деятельности. . Успех внедрения аудитов эффективности на практике зависит, прежде всего, от разработки методологической базы.

Хотя многие процедуры аудита эффективности могут быть выведены из аудитов честности, направленных на обнаружение ошибок, нарушений и признаков злоупотреблений, разработка методологии в целом представляется более сложной задачей. В первую очередь это связано с выбором и формулировкой критериев оценки эффективности. Проведенные в ряде зарубежных стран исследования методологии тестирования эффективности привели к следующим основным выводам.

1. Методология аудита эффективности повторяет положения общепринятых международных стандартов аудита;

2. Необходимо адаптировать практические рекомендации по аудиту к каждой конкретной ситуации;

3. Аудиты эффективности не соответствуют имеющейся передовой практике, определенным критериям и показателям эффективности.

4. на основании заключения аудитора.

Проведение аудитов производительности очень дорого и, как правило, часто требует значительных ресурсов и организационной поддержки. В связи с этим результаты аудита следует использовать для принятия управленческих решений по повышению эффективности предприятия. В сегодняшних условиях глобализации аудит претерпевает значительные реформы.

Как и некоторые страны, Азербайджан добился достаточно серьезных результатов в развитии аудита. Разработан и принят ряд законов, разработаны правила бухгалтерского учета, приближенные к международным стандартам. В связи с этим можно с уверенностью сказать, что за последние 10 лет рынок аудита стал достаточно стабильным и востребованным сектором экономики, и этот рынок с каждым годом растет и развивается. Также рынок аудита можно понимать как достаточно консервативный сектор рынка. Однако в то же время можно сказать, что существует ряд проблем, которые тормозят развитие аудита и тем самым снижают его эффективность. В этой ситуации в результате возникает сильная конкуренция среди участников рынка, что приводит к резкому снижению стоимости аудиторских услуг некоторыми участниками, что может привести к резкому сокращению числа пользователей этих услуг. Такое безусловное снижение приводит к снижению качества предоставляемых услуг. Вместо детального и тщательного анализа всей финансовой отчетности аудитор может дать положительное заключение, основанное на поверхностной оценке. Иногда низкий уровень государственного надзора в странах может сэкономить деньги клиентов на проверках и заставить их вообще отказаться от проведения проверок. Это так называемый «черный» аудит, который наносит большой ущерб рынку и его участникам, снижает репутацию проверяющего органа.

XIII BÖLMƏ
ƏDƏBİYYATŞÜNASLIQ

ADR DÖVRÜNDƏ ƏDƏBİ TƏNQİDİN İNKİŞAFINA YÖN VERƏN ƏDƏBİ FƏALİYYƏTLƏR

Abduləzizova S.V.
Bakı Slavyan Universiteti
Email: Charlize_89@mail.ru

Azərbaycanda Xalq Cümhuriyyətinin qurulması ölkəmizdə ictimai həyatda olduğu kimi, mədəni, ədəbi həyatda da köklü dəyişikliklərə zəmin yaratdı. Türk dilinin dövlət dili olması milli mətbuatın nəşr imkanlarının genişlənməsi türk dünyasıyla əlaqələrin güclənməsi və nəticə etibariylə ictimai ideallarla zəngin bir ədəbiyyatın yaranması bu dəyişikliklərin sadəcə başlanğıcı idi.

Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti illərində ədəbiyyat, teatr və musiqi, təsviri sənət və memarlıq sahələrində bir canlanma yarandı.

Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Seyid Hüseyn, Hacı İbrahim Qasımov, Xəlil İbrahim, Mehdi bəy Hacınski kimi yaradıcı ziyalılar teatr tənqidi ilə məşğul olur, bu sahədə baş verən prosesləri izləyir, teatr sənətinin inkişaf problemlərinə dair məqalələr yazırdılar.

O illərdə (mətbuatın differensasiyası prosesi) – müxtəlif zümrələrin maraqlarına görə təsnifatı da mövcud idi. Məsələn, gənclərə məxsus «İttifaqi-mütəllimin», «Gənclər sədası», «Gənclər yurdu» Tələbə və müəllimlərə aid «Əfkari – mütəllimin», incəsənəd xadimlərinin, sənət adamlarının «Övrəqi – nəfisə» «Mədəniyyət» kimi mətbu orqanları nəşr olunurdu.

Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığı da Cümhuriyyət dövründə özünəməxsus inkişaf yolu keçib. Bu özünəməxsusluq, hər şeydən öncə, ədəbi irsin milli-nəzəri fikir müstəvisində təhlil və tədqiqinin aktuallıq kəsb etməsi, həmçinin ədəbiyyatşünaslığı məşğul edən problemlərin daha operativ şəkildə diqqət mərkəzinə çəkilməsi ilə şərtlənməkdədir. Belə ki, Cümhuriyyət dövründə bir tərəfdən klassik ədəbi irsin tədqiqi istiqamətində mühüm addımlar atılmış, digər tərəfdən çağdaş ədəbi proses yetərincə dəyərləndirilmişdir. Bununla yanaşı, ədəbiyyatın nəzəri-estetik problemlərinin araşdırılması (təhlil və tədqiq) ilə bağlı müəyyən işlər görülmüşdür.

AXC qurucusu Məmməd Əmin Rəsulzadə istiqlalın qazanılmasında və qorunmasında ədəbiyyatın üzərinə düşən vəzifələri səciyyələndirərək yazırdı ki, "azadlıq və istiqlaliyyət əsas süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur".

Cümhuriyyət dövründə Seyid Hüseyn "Yaşıl qələm" ədəbi-elmi cəmiyyət yaradır. Bu cəmiyyət Məmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Seyid Hüseyn, Nəcəf bəy Vəzirov, Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Əhməd Cavad, Cəfər Cabbarlı, Salman Mümtaz, Əli Yusif və digər ziyalıları, sənətkarları özündə birləşdirirdi.

Yusif Vəzir Çəmənzəminli 1919-cu ildə İstanbulda nəşr edilən və öz elmi-nəzəri əhəmiyyəti ilə seçilən "Azərbaycan ədəbiyyatına bir nəzər" monoqrafik tədqiqat əsəri ilə bu dövr ədəbiyyatşünaslığına dəyərli bir töhfə vermişdir.

Firidun bəy Köçərli də bu zaman öz silsilə məqalələrini, "Azərbaycan türklərinin ədəbiyyatı" əsərini, "Azərbaycan ədəbiyyatı" əsərlərini yazır. Onun ən böyük xidməti "çox əsrlik Azərbaycan ədəbiyyatı irsini toplayıb, elmi prinsip və ardıcıllıqla öyrənərək öz tədqiqatının nəticələrini "Azərbaycan ədəbiyyatı" əsərində xalqın istifadəsinə verməsi"dir. Yusif Vəzir Firudin bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı tədqiqatlarını yüksək dəyərləndirir: "Ədəbiyyatımızı müntəzəm bir şəklə salmaq və ümumən tanıtmaq əhəmiyyətli, həm də çox əhəmiyyətli məsələlərdəndir. Firidun bəy ən müqtədir, ən sevimli ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaq ilə bütün keçmişimizi diriltdi...".

Tədqiqatçılarımız Cümhuriyyət dövrünün araşdırıcılarından Adilxan Ziyadxanın "Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat" (1919) əsərini də "milli ədəbiyyat tarixinin öyrənilməsi baxımından" dəyərli bilirlər.

MÜASİR DÖVR NƏSRİNDƏ MÜHİT VƏ İNSAN KONSEPSİYASI

Ayvazova Ə. M.
Bakı Slavyan Universiteti
E-mail: efsane.ava98@mail.ru

Sovet dövründə yaranmış bir çox nəsr əsərlərində mühit qəhrəmanın taleyini müəyyənləşdirən vacib amillərdən biri idi. Bəzi romanların - Şoloxovun "Oyanmış torpaq", S.Rəhimovun "Şamo", M.Cəlalın "Dirilən adam", M.Hüseynov "Səhər" və s. kimi romanlarının əsas qüsuru bunda idi ki, həmin əsərlərdən mühitin daha çox sosioloji amilləri qəhrəmanın xarakteri üçün həlledici sayılır, şişirdilərək ön plana çəkilirdi. Bədii ədəbiyyatın bütün zamanlar boyu dəyişməyən mövzusu, əsas məqsədi insan olmuşdur. İnsanın taleyi, sevgisi, mübarizəsi, dünya və reallıqla münasibətləri bədii ədəbiyyatda öz əksini tapmışdır. Bədii ədəbiyyatda insan problemi, həm də qəhrəman problemidir.

Sovet dövrü ədəbiyyatına nəzər salsaq görərik ki, burada vahid bir qəhrəman tipi vardır. Bu qəhrəman tipi xalq üçün mübarizə aparan, yeniliklər yaratmağa cəhd edən, mənfiliklərə qarşı vuruşan "müsbət qəhrəman" tipidir. 60-70-ci illərdə sıravi, sadə qəhrəman tipi yaranmışdır. Bu illərdə insanın özünü dərk etməsinə, səadət və xoşbəxtlik axtarışına, mənəvi və əxlaqi problemlərlə təzahür etmişdir. XX əsr Azərbaycan ədəbiyyatına baxsaq görərik ki, artıq burada zahiri əlamətlərin təsvirinə yox, qəhrəmanın mənəvi aləminin təsvirinə üstünlük verilir. Xüsusən 60-cı illər nəsrində insana baxış tamamilə dəyişdi. Müasir dövr nəsrində artıq insanın daxili aləminə enilir, onun hiss və duyğuları, daxili sarsıntıları ön plana çəkilirdi. Burada müasir insanın mikromühitinin təsvirinə yer ayrılırdı. Əlbəttə ki, insanın daxili aləminin zənginləşməsi, insanlararası münasibətlərin dərinləşməsi yazıçının işini bir o qədər çətinləşdirirdi. Müasir dövrdə yeni insan konsepsiyasının təsviri yazıçının təsvir ustalığının artırılmasını tələb edirdi. Bədii əsər daxilində yerləşdirilmiş insan konsepsiyası, əslində yazıçının fəlsəfi görüşlərinin bədii üsullarla ifadəsidir. Tənqidçi Vaqif Yusifli yazır: "İ.Bexer məqalələrinin birində yazırdı: "Yeni incəsənət heç vaxt yeni formalardan başlamır, həmişə yeni insanla doğulur" .

Ədəbiyyatda insan konsepsiyası olduqca mürəkkəb və çoxşaxəlidir. Dövr və mühitlə əlaqədar olaraq insanın inkişaf prosesi, intellektual baxımdan təkmilləşməsi, mənəvi aləminin zənginləşməsi və bu kimi problemlər insan konsepsiyasının önəmli özəlliklərindən biridir. İnsan və mühit arasındakı münasibətlər olduqca ciddi problemdir və ədəbi prosesin inkişafında əhəmiyyətli yer tutur. Bədii ədəbiyyatda insan xarakteri konfliktlər və mübarizələr içərisində formalaşır. Buna görə də müasir nəsrdə əsas üstünlük qəhrəmanın daxili aləmi, keçirdiyi hisslər, psixoloji halı üstünlük təşkil edirdi.

Yaşar Qarayev yazır: " ...İnsan elə həmişə ədəbiyyatın mərkəzində olub və təsadüfi deyil ki, ona həmişə məhz "insanşünaslıq" deyiblər". Lakin altmışıncılar bədii ədəbiyyata bu mövzunu yeni problem kimi təzədən daxil etdilər. Çağdaş nəsrdə şəxsiyyət, onun fərdi istək və maraqları öncəlik təşkil edirdi. İnsana insan kimi dəyər verilir. Müasir dövr üçün digər səciyyəvi cəhət isə qəhrəmanların əksəriyyətinin təsvirində şəxsi taleyin qabarıq təqdimi ön plana keçir. Yazıçı əsas diqqəti qəhrəmanın şəxsi "Mən"-inə fikir və düşüncələrinə yönəldir.

70-80 – ci illər nəsrində qəhrəmanın öz mənəvi axtarışları daha da güclənir. Bu nəsrdə adi adamların həyatına, onların qayğı, sevinc və şəxsi istəklərinə bədii nüfuz artır. Bu illərin qəhrəman tipi haqqında daha konkret fikri ədəbiyyatşünas Yaşar Qarayev söyləyir: "Bir dövr vahidi kimi 70-ci illər ədəbi fikrini səciyyələndirən bir cəhət odur ki, müasir insanın, müasir psixoloji və əxlaqi həqiqətlərin daha tam və daha dəqiq həqiqi dərki axtarışlarında bədii fikir adi, sıravi, sadə qəhrəmanla daha tez-tez rastlaşmağa başlamışdır. Şübhəsiz, qəhrəmanın tipi öz-özlüyündə bədbin niyyətin, estetik idealın miqyasını və vüsətini müəyyən etmir. Hər hansı qəhrəman həyatımızın sosialist gerçəkliyini partiyalı, obyektiv, analitik təhlili vasitəsinə çevrilə bilirsə, deməli o, sosialist realizminin bədii obraz, tip arsenalını zənginləşdirən və əlvanlaşdıran lazımlı qəhrəman kimi estetik mövcudluq haqqına malikdir. Sosialist realizmi üçün "sıravi" yoxsa "müstəsna" qəhrəman dilemması yoxdur, vahid bir realist və humanist insan konsepsiyası vardır. "Sıraviyə" və "qeyri-adiyə" eyni dərəcədə maraq bu metoda məxsus sosialist məzmunu humanizmin və demokratizmin öz təbiətindən irəli gələn bir xüsusiyyətdir"

AZƏRBAYCAN ƏDƏBİYYATINDA GENDER MƏSƏLƏLƏRİ: FEMİNİST ƏDƏBİ TƏNQİD PROBLEMİ

Bəkirli A.E.
Bakı Slavyan Universiteti
E-mail: bekirliaqil@gmail.com

Feminizm hərəkatının ideoloji əsasları yarandıqdan sonra hər bir sənət sahəsi bu hərəkatdan təsirlənmişdir. Feminizm hərəkatından ən çox təsirlənən sahələrdən biri də ədəbiyyatdır. Feminist ədəbiyyat anlayışının meydana gəlməsi də məhz bu hərəkatla bağlı olmuşdur. Feminist ədəbiyyat deyərkən nəzərdə tutulan yalnız "qadın ədəbiyyatı" olmamalıdır. Çünki elə qadın yazarlar var ki, onlar özlərini feminist hesab etmirlər. Həmçinin feminist mövqedən çıxış edən kişi yazıçılar da yox deyil. Feminist ədəbiyyat qadınların hüquqları müstəvisindən çıxış edir. Feminist ədəbiyyat deyərkən ictimai cinsiyyət fərqliliyini qadın baxış bucağı ilə təqdim edən və cinslər arasındakı assimmetrik iqtidar münasibətinə, patriarxallığa tənqidi yanaşma sərgiləyən ədəbiyyat nəzərdə tutulur.

Feminist ədəbiyyatın mövcudluğu bu ədəbiyyat daxilində mətnin dili, qadına baxış tərzi, ortaya qoyulan problemlər, obrazların işlənmə tərzi və bu kimi bir çox məsələləri aktuallaşdırmışdır ki, bu da son nəticədə sistemləşdirilmiş nəzəriyyələrin, bir sözlə feminist ədəbi tənqidin əsasını yaratmışdır. Başlanğıcda kişi yazıçıların qadın obrazlarına münasibətini ön planda tutan feminist ədəbi tənqid elmin, texnologiyanın inkişafı, təhsilin əlçatanlığı fonunda qadın yazıçıları tədqiq etməyə başlamışdır. Burada ən önəmli məsələ isə "kişi dili"nə qarşı mətnlərin "qadın dili" ilə qələmə alınmasının araşdırılması idi. Feminist ədəbi tənqidin, əsasən, mətnə yanaşma tərzinə görə iki istiqaməti müəyyənləşdirilir: Qadına istiqamətlənmiş feminist tənqid (yaxud ədəbi əsərin qadın tərəfindən oxunuşunun şərhi) və yazıçı olaraq qadına istiqamətlənmiş feminist tənqid. Bunlardan birincisində mətnin qadın oxucu tərəfindən və ya cinsi fərq olmadan qadın baxış tərzi cəhətdən mənimsənilməsi, ikincisində isə qadın yazıçıların kişi yazıçılardan təməl fərqlərinin müəyyən edilməsi əsas götürülür. Bundan əlavə, elmi ədəbiyyatda psixoanalitik və marksist/sosialist yanaşmalar da mövcuddur.

Azərbaycanda ədəbi tənqidin ümumi durğunluq yaşadığı bir dönəmdə feminist ədəbi tənqidin inkişafını gözləmək isə əbəs olardı. Lakin bununla belə milli ədəbiyyat nümunələrinə feminist yanaşma sərgiləmək, zənnimizcə, ədəbi tənqidin əsas məqsədlərindən biri olmalıdır. Qadına toplumsal baxışın yazıçı şəxsiyyətinə təsiri fonunda ərsəyə gələn əsərlərdə qadın obrazlarına müəllif yanaşması mövcud durumda ədəbiyyatın sosial statusunu qüvvətləndirən mexanizmin işə düşməsini təşkil edə bilər. Feminist ədəbi tənqidə üstünlük verilməsi dünya ədəbi-nəzəri fikir tarixində hələ də aktuallığını qoruyan "romanın cinsiyyəti" məsələsinin aydınlaşdırılmasında yol qət etmək üçün də vacib addımlardan olardı.

Bütün bunlarla yanaşı, gender anlayışının ədəbiyyata daxil edilməsilə (feminizmlə gender anlayışlarını eyniləşdirmək olmaz) cinslərarası münasibətlərin daha da dərinləşdiyini və qarmaşıq hala gəldiyini dünya ədəbiyyatında baş verən proseslər fonunda söyləyə bilərik. Eyni hal Azərbaycan ədəbiyyatında da yaşanmaqdadır ki, bu prosesin zərərsiz keçişini təmin etmək də ədəbi tənqidin üzərinə düşür. Fikrimizcə, feminizm hərəkatına Azərbaycan cəmiyyətində birmənalı yanaşılmaması feminist ədəbiyyat qavramının da tam oturuşması önündə əngəldir ki, bu da birbaşa olaraq ədəbi tənqidə, daha doğrusu, tənqdçiyə təsir edir.

Qeyd edilənlər işığında onu söyləyə bilərik ki, feminist ədəbiyyat və feminist ədəbi tənqidin qarşılıqlı inkişafı Azərbaycan ədəbiyyatını monotonluqdan xilas edəcək, prosesin məntiqi nəticəsi isə ədəbiyyatda yeni özgün ruhun formalaşması olacaqdır.

ƏMİN ABİD YARADICILIĞI

Cahangirli C.N.
Bakı Slavyan Universiteti
Email: Cahangircahangirli1234@gmail.com

Əmin Abid şair, folklorşünas alim, tədqiqatçı,publisist kimi ədəbiyyatımızda tanınır. Ədəbiyyat hər zaman maraq dairəsində olmuş və əsərlərində Azərbaycanın bütövlüyü, Turanın birliyi, millət, vətən, istiqlal sevgisi, imperializmə qarşı mübarizə ön plana çəkilmişdir, Bununla yanaşı, o, əsərlərində Azərbaycanı satıb kommunist partiyasına xidmət edənləri tənqid, həmçinin Azərbaycanın azadliği uğrunda qəhrəmanlıqla

vuruşub şəhid olan insanları isə dərindən yad edir. Görkəmli ədibimizin "Arxasız vətənə düşmən yaraşır", "Buzlu cəhənnəm", "Bu gün qərbin göylərində", "Şərqin səmasından qanlar damlıyor", "Turan elləri", "Bayrağım və istiqlalım", "Azəri kommunistinə", "Şərqə irəli","Qürbətdən məktub", " Bir istiqlal yolçusu" , "Bir gün gələr ki", "Qanlı hədiyyə", "Sükuti-pir həyəcan"və başqa biri-birindən gözəl əsərləri daim diqqət mərkəzində olmuşdur. O, Azərbaycan ədəbiyyatını Avropa üslubu ilə yazmış, unudulmuş folklor nümunələrini bir yerə toplamışdır. Əmin Abidin "Həbibi", "Molla Nəsrəddin məcmuəsi və çar senzurası", "Sijimqulunamə", "Zərərli tənqidlər", "Heca vəzninin tarixi", "Dərəbəylik dövrü Azərbaycan ədəbiyyatı", "Qafqaz türklərində fikri cərəyanlar", "Azərbaycan sözünün mənşəyi, etimologiyası haqqında", "Firdovsi və Azərbaycan ədəbiyyatı", "Gənc yazıçılara nəsihət", "Füzulinin tədqiq edilməmiş bir əsəri", "Firdovsinin Azərbaycan ədəbiyyatına təsiri" adlı elmi, məqalələri ilə ədəbiyyatşünaslığımızın inkişafına dərindən yardım etmişdir. Şair "Kitabi Dədə Qorqud" dastanını Azərbaycan ədəbiyyatında ilk dəfə araşdırıb çapa vermiş, "Söhbətül əsmar" əsərinin M.Füzuliyə aid olduğun isbatlamış, "Oğuznamə", "Azərbaycan folkloru"kitablarında ədəbiyyatımızın tarixindən bəhs etmiş, M.Ə.Sabir, X.Natəvan haqqında məqalələr yazmışdır.

CƏMİYYƏTDƏKİ SAVADSIZLIQ VƏ ONDAN QAYNAQLANAN PROBLEMLƏRİN CƏLİL MƏMMƏDQULUZADƏ PUBLİSİSTİKASINDA ƏKSİ

Cəlilzadə S.H.
Bakı Slavyan Universiteti
E-mail: sitara.celilzade@gmail.com

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyat və publisistika tarixində dərin iz buraxmış böyük mütəfəkkirdir. O, müxtəlif vaxtlarda bir sıra mətbu orqanlarda nəşr edilmiş məqalə və felyetonları ilə Azərbaycan publisistika tarixində yeni bir mərhələ yaratmışdır. Bu elə bir mərhələdir ki, Mirzə Cəlil bununla xalqı oyatmaq, cəhalət və mövhumat pərdəsini yırtaraq milləti işıqlı gələcəyə aparmaq istəyirdi. Mirzə Cəlil publisistikasında biz milli oyanış,özünüdərk məsələlərini yaradıcılığının ana xətti olduğunu görürük.

O, müxtəlif vaxtlarda "Şərqi-Rus", "Həyat", "Tiflisski listok", "Vozrocdeniye", "Kafkazski raboçi listok", "Zaqafqazye", "Bahar", "Molla Nəsrəddin", "Yeni yol", "Kommunist", "Şərq qadını" kimi mətbu orqanlarda "Yeni əlifbaçı", "Molla Nəsrəddin", "İmzasız", "C.", "Mozalan", "Lağlağı", "Idarədən", "Yazıçı", "Cırcırama", "Dəli" və s. imzalarla çıxış etmişdir. Mirzə Cəlilin hansı mətbu orqanda yazmağından asılı olmayaraq daim xalqı üçün çalışmış, cəmiyyətdə gördüyü problemləri əsərlərinin mövzusuna çevirərək xalqı doğru yola səsləmişdir. Publisist təsvir etdiyi hadisələri konkret zaman və məkan daxilində göstərərək bu hadisələrin həqiqətən müsəlman cəmiyyətində gördüyünü sübuta yetirir.

Mirzə Cəlil bütün problemlərin kökünü millətin savadsızlığında görür və bu savadsızlığın xalqı üçün böyük problemlər yaratdığını dərindən dərk edirdi. Hansı ki həmin problemlər bəzən geridönüşü olmayan fəlakətlərə gətirib çıxarırdı.

Publisist "Şərqi-Rus"da nəşr olunan məqalələrinin birində müsəlman cəmiyyətində qızların savadsızlığını və onların təhsildən yayınmasını ürək yanğısı ilə təsvir edir. Məqalədə göstərilir ki, vəziyyət o qədər acınacaqlıdır ki, neçə-neçə uşaqlar ana bətnindən qoparılaraq çıxarılır və bu səbəbdən tələf olur. Tiflis mamalıq məktəbində 1904-cü ilə qədər bir nəfər də olsun müsəlman qadın təhsil almayıb.Təhsil alanların böyük əksəriyyəti isə gürcü, rus, erməni, yəhudilərdir. Təbii ki,müsəlman qadınları içərisində də təhsil alanlar var idi, lakin təhsil alanların neçə faizi xalqın dərdinə yanır, xalqının mənafeyi uğrunda mübarizə aparırdı?!.. Məsələ burasındadır ki, Mirzə Cəlilin dili ilə desək, "obrazovanni" xanım qızlar da aldıqları təhsil ilə öyünür, lakin xalqın dərdinə yanmır, millətinin ehtiyac duyduğu sahələrdə fəaliyyət göstərmirdilər.

Cəlil Məmmədquluzadə publisistikası boyunca bir sıra məsələlərə toxunmuş və onların dərin qatlarda yatan səbəblərini açıb göstərmişdir. O, ədəbiyyata,mədəniyyətə böyük əhəmiyyət vermiş və onun insan həyatı üçün mühim cəhətlərini vurğulamışdır. Teatrı xüsusi qiymətləndirən mütəfəkkir, müsəlman mühitində teatra birmənalı yanaşılmamasını qınamış, teatrı "oyunbaz məclisi, hoqqabaz yığıncağı" adlandıran cəmiyyətin sonunun fəlakətə düçar olacağı fikrini irəli sürmüşdür. Mirzə Cəlil xalqının halına acıyır, yalnız savadlanaraq millətin bu orta əsrlərdən qalma düşüncəsindən qurtulacağına ümid bəsləyirdi.

O, xalqının hakim təbəqə qarşısında hüquqlarını bilmədiyinə görə illər uzunu istismar edildiyini,hüquqlarının tapdandığını, öz şəxsi əmlaklarının müsadirə edildiyini yaradıcılığı boyunca təsvir edir və göstərir ki, hüququnu bilən, haqqını ədalət yolu ilə tələb edən heç bir kəsə, hakim təbəqə olsa, belə zor tətbiq edə bilməz

Məqalələrində əsasən, İrəvan, Naxçıvan, Bakı, Tiflis müsəlman mühitləri öz əksini tapmışdır. Heç şübhəsiz, bütün bunlar təsadüfi deyildi, çünki Mirzə uzun illər burada yaşamış, fəaliyyət göstərmiş, bu mühitlərə dərindən bələd olmuşdur. Elə bu səbəbdən də burada əks olunan materialların heç biri təxəyyül məhsulu deyildi. O, bu məqalələrində hakim təbəqənin mənafeyi uğruna verdiyi qərarları əks etdirir, hətta məqalələrin birində şəhər dumasına göndərilən məktubların heç birinin oxunmadan rədd cavabı verdiklərini, savadsız xalqın da vəziyyət qarşısında susub oturduqlarını göstərir. Bütün bunlar Mirzə Cəlili dərindən kədərləndirir, Azərbaycanın sivilizasiyalardan kənarda qalmasını qəbul edə bilmirdi. O, xalqını inkişaf edən xalqlar sırasında görməyi arzulayır və ömrü boyunca bu yolda qələmini bir an əlindən yerə qoymur. Mirzə müsəlman cəmiyyətində qız-oğlan ayırd etmədən bütün fərdlərinin savadlanmasını, millətə xidmət etməsini və ən əsası savadlı gələcək nəsil yetiştirməsini arzulayırdı. Onun sabaha arzuları böyük idi. Əgər belə olmasaydı, böyük ustad illər boyunca xalqının, millətinin savadlanması, milli oyanışı, özünüdərkində bu qədər külüng çalmazdı.

NƏSR ƏSƏRLƏRİNDƏ ATALAR SÖZLƏRİNDƏN İSTİFADƏ

Əhmədova K.E.
Bakı Slavyan Universiteti
E-mail: konul.axmedova.95@mail.ru

Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim və zəngin növlərindən biri də atalar sözləridir. Əsrlərin sınağından çıxmış, xalq hikmətinin daşıyıcısı olan atalar sözləri yığcam, obrazlı, dərin mənalı, tutarlı nitqin timsalıdır. Atalar sözləri də müxtəlif dövrlərdə, müxtəlif şəraitdə yaranmışdır. Buna görə də o, müxtəlif təbəqələrin dünyagörüşünü, təcrübə və arzusunu ifadə etmişdir.

Atalar sözləri çox qədim zamanlardan başlayaraq yazılı ədəbiyyatımızın görkəmli nümayəndələrinin diqqətini cəlb etmişdir. Sənətkarın böyüklüyü onun dilə nə dərəcədə bələd olması, xalq dilindəki bədii vasitələrdən ustalıqla, peşəkarlıqla istifadə etmə bacarığı ilə ölçülür. Nizami, Xəqani, Xətai, Füzuli və başqa sənətkarların əsərlərində atalar sözləri işlədilmişdir. Eləcə də bir sıra klassik yazıçılarımız öz əsərlərinin adlarını atalar sözləri və məsəllərdən götürmüşdür. Məsələn: N.Vəzirovun "Arxadan atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz", "Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük", Ə.Haqverdiyevin "Yeyəsən qaz ətini, görərsən ləzzətini", R.Əfəndiyevin "Qonşu-qonşu olsa, kor qız ərə gedər" və s.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri öz əsərlərində atalar sözlərinə müraciət etmiş, onlara geniş yer vermiş, əsərlərinin məna yükünü daha da zənginləşdirmişlər. XX əsr Azərbaycan nəsrində atalar sözlərindən istifadə edən görkəmli şəxsiyyətlərdən biri də Ə.Haqverdiyev olmuşdur. O əsərlərində atalar sözlərindən geniş istifadə etmiş, hətta əsərlərin adlarını belə atalar sözündən bəhrələnərək qoymuşdur. Ədibin ilk əsəri "Yeyərsən qaz ətini, görərsən ləzzətini" adlanır. İkinci əsəri olan "Dağılan tifaq" faciəsi isə Nəcəf bəyin dilindən deyilən "atalar məsəlidir, dünya beş gündür, beşi də qara" sözləri ilə başlayır. "Cəhənnəm" əsərində "hər oxuyan Molla Pənah olmaz", "Şəbih" əsərində "dost yolunda çovğun olar, qar olar", "Şeyx Şəban" əsərində "Insan, övladının ətini yesə də sümüklərini çölə atmaz","yıxılan ağaca balta çalan çox olar", "Uca dağ başında" əsərində "Bayraməlisiz toy olmaz", Müsibət "Yüz gün yaraq – bir gün gərək". və s. kimi atalar sözlərinə rast gəlirik.

A.Şaiq əsərlərində "kişinin sözü bir olar","doşab almişam bal cixib", İ.Əfəndiyevin əsərlərində "Sağsağana toxunmaq olmaz", "Armudun yaxşısını meşədə ayı yeyər", "Zəhmət çəkməyən bal yeməz" və s. kimi sənətkarlarında əsərlərində folklora müraciət öz əksini tapır.

Sənətkarlar atalar sözlərindən bəhrələnərək aforizmlər də yaradırlar. Səməd Vurğunun "Komsomol poeması"nın "Qış gecəsi" adlanan birinci hissəsində"Hər halda ehtiyat gərəkdir" ifadəsi xalqda tez-tez işlənən "Ehtiyat igidin yaraşığıdır" atalar sözünün birbaşa özü də olmasa bənzəridir."Axtaran dünyada hər haqqı bulur" fikri xalq içərisində geniş yayılmış "Axtaran tapar" atalar sözünün dəyişilmiş variantıdır.

Azərbaycan folklorşünaslığı tarixində müstəqil janr kimi ilk orijinal "Atalar sözü" kitabı M.Qəmərlinin həm toplayıcı, həm də tərtibçi kimi folklorşünas fəaliyyətinin nəticəsidir. Atalar sözləri və məsəllərin yaranması və inkişafı bu gün də davam etməkdədir.

MÜASİR TÜRK YAZIÇISI SƏNAN YAĞMURUN YARADICILIĞINA BİR NƏZƏR

Ələsgərova L.A.
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: leylaaleskerova20@gmail.com

Müasir türk yazıçısı Sənan Yağmur 1965-ci ildə Türkiyə Cümhuriyyətinin Kırşehir ərazisində dünyaya göz açıb. Yazar ilk ibtidai və orta təhsilini də elə bu şəhərdə alaraq 1984-cü ildə Kırşehirdə İmam Hatib məktəbində məzun olmuş. Verdiyi müsahibələrdə Mənəvi aləmi irfan, din, təsəvvüf aşiqi olan yazıçının həyatını bir yuxu dəyişir. Beləki, yuxuda Konya şəhərini görür miladının bu şəhərlə başlayacağına inanaraq təsəvvüfün qaynağı olan bu şəhərə üz tutur. Təhsilini davam etdirmək üçün Konya şəhərinə gedir və burada Səlcuq Universitetinin İlahiyyat fakültəsinə qəbul olur, 1990-1991-ci ildə elə həmin ali ocağın "Kəlam və İslam fəlsəfəsi" bölməsində magistr pilləsi üzrə təhsil alır. Təhsilini tamamlayan yazıçı Konyada Kadınhanı İmam Hatib məktəbində pedaqoji fəaliyyətə başlayır. O, daha sonralar Konya İmam Hatib və Doktor Ali Rza Bahadur məktəblərində ardıcıl olaraq idarəçi vəzifəsində çalışmış.

Hazırda Naciyə Mumcuoğlu məktəbində "Din mədəniyyəti və əxlaq elmi" müəllimi kimi fəaliyətini davam etdirir.

Sənan Yağmur ailəlidir və iki övladı var.

Kiçik yaşlarından ədəbiyyata, yazıya maraq göstərən Sənan ilk yazılarını pedaqoji fəaliyyətlə məşğul olduğu illərdə qəzet və jurnalda nəşr etdirir. O, çağdaş Türkiyə ədəbiyyatında dünyasını dəyişmiş irfan nümayəndələrinin özü haqqında nəql edirmiş kimi qələmə alınan biblioqrafik roman ustasıdır. Türk ədəbiyyatında ilk dəfə olaraq bu tərzdə romanların yazılması Sənan Yağmurun adı ilə əlaqələndirilir.

Yaradıcılığında əsasən hekayə, roman janrlarına üstünlük vermiş, bununla yanaşı təsəvvüf poeziyasında özündən sonra iz qoya biləcək şeirlər – "Eşq nədir, bilirsənmi?", "İndi getmək zamanıdır","Dönüb- dolaşıram", "Aya qəzəblənmişəm", "Sustum artıq" "Etmə", "Şəms" və s. qələmə almışdır. Sənan Yağmurun 30-a yaxın roman, hekayə kitabları nəşr edilib. Onun yaradıcılığını toxunduğu mövzulara əsaslanaraq bir neçə istiqamətə bölə bilərik: təsəvvüf aşiqləri ilə bağlı, dini şəxsiyyətlərlə bağlı , tarixi şəxsiyyətlərlə bağlı olan kitablar.

Qeyd edək ki, türk ədəbiyyatında təsəvvüf XIII əsrlərdə yaranıb və zamanla Bəktaşi, Şəms Təbrizi, Mövlana Cəlaləddin Rumi, Əhməd Yəsəvi, Yunus Əmrə, Həllac Mansur, Nəimi, Nəsimi, Şah İsmayıl Xətayi, Məhəmməd Füzuli kimi böyük şəxsiyyətlərin formalaşmasında əsaslı rol oynamışdır. Türk ədəbiyyatında bir çox təsəvvüf nümayəndələrinin həyatı ilə bağlı romanlar yazılmışdır. Sinan Yağmur öz romanlarında təkcə onların həyatını qələmə almaqla kifayyətlənməyib, təhkiyəçi kimi bütün yazdıqlarını yaşamış kimi yazıya alır. O, təsəvvüf yolçusu olaraq onların həyat yollarına nəzər salmış və bədiilik qataraq bir neçə seriyalı kitablar qələmə almışdır. Onun "Eşqin göz yaşları" – "Şəms Təbrizi" (2010), "Hz. Mövlana" (2011), "Kimya xatun" (2011), "Hamuş: Ölümü öpən dərviş", "Yunus Əmrə"; " Eşqin məali" – "Yusif ilə Züleyxa" (2012) , "İbrahim və Həcər" (2013); "Rovzanın ulduzları" və s. seriyalı kitabları bu qəbildəndir.

Dini şəxsiyyətlər ilə bağlı biblioqrafik romanlarından Hz. Yusif, Hz. Əli, Hz. Məhəmməd, Hz. Hüseyn kimi dini şəxsiyyətlərin həyatı ilə bağlı "Kərbəla- Eşqə bəla: Hz. Hüseyn" (2012), "Barış peyğəmbəri: Hz. Məhəmməd", "Hz. Əli və Fatma"romanlarını və "Qaf dağından nağıllar", "Kiçik qəlblərə dini hekayələr" və s. kimi hekayə kitablarını qeyd edə bilərik.

Tarixi şəxsiyyətlərlə bağlı olan əsərlərindən "Qaragöz və Hacivat: Dədə Qorqud hekayələri" kitabını nümunə göstərmək olar.

Müasir dövrdə təqdimatı olmadan qulaqdan-qulağa keçərək yayılan kitabları ölkə sərhədlərini aşmış və bir çox ölkələrdə müxtəlif dillərə tərcümə olunmuşdur. Yazıçının 26 illik tədqiqatından sonra ilk kitabı- Mövlanadan bəhs edən "Tənnurə və Atəş" 2004-cü ildə yazılıb. Kitab elmi xarakter daşıdığına görə çətin anlaşılır. Müəllif bədii dillə 2010-cu ildə "Eşqin göz yaşları- Şəms Təbrizi" adlı ilk biblioqrafik romanı nəşr etdirir. Bunlarla yanaşı onun "Öyrətməncə sevə bilmək insanı", "Bilməzsiniz, amma babalar da ağlar", "Mənim anam bir mələk", "Sevda Şələləsi" "Ölülərdən üzür gözlənməməli" və s. adlı kitabları insan humanizmini, sevgini, bağlılığı əks etdirən əsərlərdəndir.

Yaradıcılığının parlaq çağlarını yaşayan yazıçı istər təsəvvüf, istər digər məzmunlu yazılarında tək məqsədi eşqdir. Allaha qovuşmaq üçün onun yaratdıqlarını sevə bilmək onun əsərlərinin başlıca ideyalarında biridir. Yazdığı əsərlərinə görə 2017-ci ildə Türkiyədə "İlin ən yaxşı yazıçısı" mükafatına layiq görülmüşdü.

G.ORUELL YARADICILIĞINDA ALLEQORİYA (HEYVANISTAN ROMANI)

Əliyeva S.İ.
Bakı Slavyan Universiteti

Utopiya və antiutopiya və ya distopiya Azərbaycan və dünya ədəbiyyatında geniş yayılmış janrlardandır. Dünyaca məşhur olan bir çox əsərlər utopiya və distopiya janrlarında yazılmışdır. İki fərqli termin kimi göstərilsə də onlar əslində eyni kökdən gəlirlər. Utopiya və antiutopiyanı ayırmaq çətin olsa da, onların arasında müxtəlif fərqlər də mövcuddur. Ədəbiyyat tarixinə nəzər saldıqda utopiyanın yaradıcısının Platon olduğunu görə bilərik. Lakin sonralar bu anlayış filosof Tomas Mor tərəfindən inkişaf etdirilmişdir. Bu ifadə ilk dəfə 1517-ci ildə Tomas Morun yazdığı "Utopiya" ("De Optima Reipublica State deque Nova Utopia") adlı əsərində yer almışdır. "Utopiya" yunan mənşəli sözdür, "yaxşı" (eu), "yer" (topos) kəlmələrinin birləşməsindən meydana gəlmiş, "heç olmayan yer", "mükəmməl yer" mənasını verir. Morun "Utopiya" əsərinin tərcümələri sayəsində bu anlayış XVI əsr ərzində demək olar ki, bütün Avropa dillərində yayılır, daha sonra da öz mənasını genişləndirərək, ideal ölkənin təsvirindən ədəbi və siyasi janra çevrilir.

Bəzi tədqiqatçıların fikrinə görə Morun "Utopiya"sı Platonun "Dövlət" əsəri ilə açıq şəkildə əlaqəlidir. Mor ideal dövlət haqqında mənasını verən utopiyanın "ixtiraçısı" olmamasına baxmayaraq ictimai idealı ifadə üsulları yönündə islahatlar aparıb. Bundan başqa, T.Mor həm fərdi, həm də bütöv sosiumun həyatını dəyişə biləcək fərdi iradə konsepsiyası ilə tamamlanmış antik və xristian ənənəsi arasında möhkəm əlaqə yaratmağa müvəffəq olmuşdur. Bu mənada Platonun "Dövlət" əsəri təbəqələşmiş xalqın əxlaqi problemlərinə həsr olunsa da, mükəmməl şəhərin qurulması haqqında sxematik nəzəriyyədən kənara çıxmır. Bununla yanaşı Platonun "Dövlət" əsəri Azərbaycan, türk, o cümlədən Qərb ədəbiyyatına çox güclü təsir göstərmişdir. Utopiya hər şeyin mükəmməl olduğu ideal cəmiyyət quruluşu deməkdirsə, antiutopia (və ya distopiya) hər şeyin yanlış getdiyi bir dünyanın təsviri deməkdir. Bir qayda olaraq, istinad nöqtəsi kimi müəllifə müasir olan ictimai model xidmət edir. Utopiya - onun təkmilləşdirilmiş nümunəsi, antiutopiya - ən pessimist variantıdır.

Beləliklə, antiutopiya kəlməsi utopiyanın əksidir. Onun əsas əlamətləri bunlardır: Ümumiyyətlə, heç bir cəmiyyət yoxdur və ya insanlara təzyiq göstərən hökumət var; Yoxsullar və varlılar arasında böyük uçurum mövcuddur və ya həddində artıq yoxsullaşma baş verir; Ortaya atılan təbliğatla insanların ağlına nəzarət edilir.

Heyvanıstan- qəddar və amansız fermer Consun hökmranlığına son qoymaq üçün təsərrüfat heyvanlarının inqilaba başladığı bir dünya kimi çox təxəyyüllə yaradılmış utopik cəmiyyətin bir modelini və ya tipini təmsil edir. Donuzların rəhbər olduğu yeni bir qayda qurduqdan sonra, onların nəzərində utopik cəmiyyət nəhayət yaranır və onlar öz ağır zəhmətlərinin bəhrəsini alıb, həyatlarından razı qalmağı bacarırlar: "Heyvanlar xoşbəxt idilər, çünki heç vaxt bunun mümkün olacağını düşünməmişdilər". Onların utopiyası cəmiyyətlərini qorumaq üçün ən vacib saydıqları yeddi əmrlə müəyyən edilir. Bu əmrlər bir-bir pozulduqca və təsərrüfat heyvanları həyatlarının yüksək keyfiyyətinə hələ də əmin olduqları üçün mükəmməl utopiya onların gözləri qarşısında əriyir.

Ancaq həm köhnə rejimdən, həm də yeni liderlərdən qorxduqları üçün bunu görə bilmirlər. Bundan əlavə, onlar öz fikirlərini formalaşdıra biləcək qədər savadlı deyillər və ən əsası, onların azadlıq anlayışı ciddi şəkildə təhrif olunub və aydın şəkildə müəyyən edilməyib ki, bu da imtiyazlı və təhsilli azlığın idarə etdiyi totalitar rejimin qurulmasına gətirib çıxarır. Özlərindən əvvəl insanlar kimi təsərrüfat heyvanlarının tabe və çarəsiz əksəriyyətini idarə etmək üçün yuxarıda qeyd olunan amillərdən istifadə edərək hakimiyyəti mərkəzləşdirmiş donuzlar idarə edir. Sonrakı fəsillərdə donuzların digər heyvanları tabe etmək üçün alət kimi istifadə etdikləri ən mühüm amilləri izah etməklə utopiyadan distopiyaya keçid izah ediləcək. Fəsillərin hər biri hətta məzlum heyvanlar da fermadakı həqiqi mövqeləri ilə razılaşana qədər pozulan bir əmri təmsil edir.

M.F.AXUNDZADƏNİN DESPOTİK HAKİMİYYƏTƏ İRONİK MÜNASİBƏTİ

Əliyeva Z.T.
Bakı Slavyan Universiteti

XIX əsr Azərbaycan ədəbiyyatı üçün Qərb maarifçiliyi yeni və əsas istiqamətə çevrilməkdə idi. Cəmiyyət həyatının bütün sahələrini hərəkətə gətirən maarifçi ideyalar ədəbiyyatımızın da əsas mahiyyətini

təşkil etməyə başlamışdı. XIX əsrin ikinci yarısından başlayaraq maarifçilik yazıçıların mövzu, obraz, janr seçimində mühüm rol oynayırdı.

Azərbaycan ədəbiyyatında maarifçi realizmin öz təsdiqini tapıb, yüksək zirvəyə çatması dramaturq, ictimai xadim Mirzə Fətəli Axundzadənin adı ilə bağlıdır. Axundzadə xalqın gözünü açan ədəbiyyat yaratmağı mühüm missiya kimi qəbul etmiş və bu yolda çalışmışdır. O, elə bir dönüş yaratdı ki, ardıcılları Azərbaycan ədəbiyyatında maarifçi realizmi ədəbi cərəyan səviyyəsində formalaşdırdılar. Ədib mənsub olduğu xalqın gözünü açmaq və onu arzu etdiyi böyük gələcəyə çatdırmaq, sosial mühiti dəyişdirmək, xalqı azad və demokratik cəmiyyətə hazırlamaq üçün tənqid və maarifləndirmə yolunu tutmuşdur. Dramaturq pyeslərində maarifçi təsəvvürə uyğun olaraq ədalət probleminin əsasını gerilik, ətalət, cəhalətdə görür və bunun həlli yolunu ağıl və savadda görürdü. Mirzə Fətəlinin demək olar ki, əsərlərində qaldırdığı mühüm ictimai problemlər bütün müsəlman aləminin həyat tərzi, dünyagörüşü ilə bağlı idi. O, Avropa ölkələrinin üstün hesab etdiyi mədəniyyətini Azərbaycanda yaymağa, şəxsiyyətin azadlığına nail olmağa çalışırdı. Ədibin siyasi baxışları dövrünün Avropa və Rusiyadakı bir çox mütəfəkkirlərini də qabaqlamışdır. Cəhalətə, geriliyə, despotizmə, mütləqiyyətə qarşı qətiyyətlə mübarizə aparan Mirzə Fətəli Axundzadə haqsızlıqların hökm sürdüyü feodalizmi
ədalətli bir cəmiyyətlə əvəz etmək üçün xalqa siyasi, cismani və mənəvi azadlıq vermə ideyalarını təbliğ edirdi.

M.F.Axundzadə milli şüurun oyanmasında əsas əngəl olan zalım, despotik, dövlət quruluşuna qarşı mübarizə aparırdı. Despotizm şəraitində siyasi hakimiyyətə heç bir hüquqi məhdudiyyət qoyulmur. Bu, despotun qanun qarşısında məsuliyyətdən azad edirdi. M.F.Axundzadənin fikrincə, özünü vəkili-millət hesab edən padşah dövlətin tərəqqəsinin qayğısına qalmalı, vətəninə böyük sevgi bəsləməlidir. Mirzə Fətəli Axundzadənin ədəbi görüşlərində ironiyanın xüsusi yeri var. Həyatda və tarixdə bunun əksini müşahidə edən yazıçı əsərlərində münasibətini ironiya ilə ifadə edir və xalqda yarıtmaz hakimiyyətə qarşı tənqidi münasibət oyatmağa çalışırdı. Ədibin "Kəmalüddövlə məktubları" fəlsəfi traktatında, "Aldanmış kəvakib" povestində, "Vəziri-xani-Lənkəran" komediyalarında yanlış üsul-idarəyə, despotik hakimiyyətə qarşı çox kəskin ironik münasibət bildirilmişdir. Yazıçının komediyaları və burda qoyulan problemlər həyatilik , özünü dərketmə baxımından olduqca əhəmiyyətli əsərlərdir.

Axundzadənin əsərlərinin obrazlar aləmi olduqca zəngindir. O, cəmiyyətdə geriliyin, cəhalətin geniş yayılmasını göstərmək üçün komik qəhrəmanlar yaratdığı kimi, problemlərdən çıxış yollarını göstərən maarifçi obrazlar da yaratmışdır. "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasında Lənkəran xanının vəziri və xanın simasında ölkənin necə yanlış siyasətlə idarə olunduğunu, bütövlükdə Şərq aləminin geriliklərinin səbəbini axtarırdı.

M.F.Axundzadənin ən maraqlı obrazlarından biri məhz vəzir obrazıdır. Dövlət idarəçilik sistemində vəzirin sosial statusu hər zaman ən önəmli yerlərdən birini tutmuşdur. "Sərgüzəşti-vəziri-xani-Lənkəran" pyesində Axundzadə ənənəvi vəzir obrazlarından fərqli olaraq komik vəzir obrazı yaratmışdır. O, yaratdığı bu vəzir obrazı ilə despotik hakimiyyətə qarşı etirazını bildirmişdir.

İdarəçlik sisteminin ikinci adamı sayılan vəzir qaynanası Pəri xanımın istəyi ilə başının 3 ağırlığında buğda səmənini füqəraya paylanmağı ilə Şölə xanımın oğlu olacağını zənn edir. Bu da Axunzadənin vəzir obrazının nə qədər cahil, mövhümatçı olduğunu göstərir. Dramaturqun vəziri sadəcə cahilliyin rəmzi deyil, eyni zamanda da tez aldanan, dayaz düşüncəli bir obrazdır. Vəzir xanın gözündə daha da yüksəlmək üçün hətta baldızı Nisə xanımı xana verməyə can atır. M.F.Axundzadə bu komediyasındaki münasibətlər vasitəsi ilə köhnə qaydaqanunlara, mənəvi əsarətə də qarşı çıxır. Öz ailəsini idarə etmək iqtidarında olmayan və komik vəziyyətə düşən vəzir dövlət idarəçiliyində iştirak etməyə də qadir deyildir.

XV ƏSR ANADİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA BƏDR ŞİRVANİNİN YERİ

Əlizadə B.S.
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: billur.593@mail.ru

XV əsrdə Azərbaycan ədəbiyyatında fərqli bir axar, bədii fikrin təşəkkül yolunda müəyyən bir çiçəklənmə baş verir. Belə ki, XV əsr həm xronoloji, həm də sənətkarlıq xüsusiyyətləri cəhətdən Qazi Bürhanəddin – İmadəddin Nəsimi və Şah İsmayıl Xətayi – Məhəmməd Füzuli zirvələri arasında keçid mərhələni təşkil edir. Bu dövrdə bölgədə müstəqil Ağqoyunlu, Qaraqoyunlu və Şirvanşahlar dövlətlərinin yaranması mədəniyyətin bir çox sahələrində, eləcə də ədəbi həyatda müəyyən canlanmaya, anadilli

şeirimizin istər mövzu, istərsə də obraz cəhətdən inkişafına səbəb olur. Bu dövrdə ana dilində yazan sənətkarların sayının artdığını, yazılan əsərlərdə milli ruhun daha çox əks olunduğunu görmək mümkündür. XVIII əsrdə Molla Pənah Vaqifin əsasını qoyduğu milliləşmənin təşəkkülündə dövrün əhəmiyyəti olduqca böyükdür. İzəddin Həsənoğlu ilə başlayan anadilli şeirimiz XV əsrdə sürətli inkişaf yoluna qədəm qoydu. Bu xətt ədəbiyyatda aparıcı istiqamət halını almağa başladı. Belə ki, əsərlərini əsasən farsca yazan Şah Qasım Ənvar, Bədr Şirvani yaradıcılığında da türk (Azərbaycan) dilində şeirlərə rast gəlinir.

Orta əsrlər poeziyamızın qüdrətli nümayəndələrindən hesab olunan Bədr Şirvani yaradıcılığı bizim üçün xüsusi əhəmiyyətə malikdir. O, XV yüzillikdə Şirvanşahlar dövrünün istedadlı şairi olmaqla bərabər, həm də şeirlər divanında dövrün mühüm tarixi hadisələri haqqında məlumatlar vermişdir. Mənbələrdə şairin anadan olması, ədəbi yaradıcılığa nə zaman başlaması haqqında məlumat yoxdur. Amma bu barədə Bədr Şirvaninin özünün yazdığı maddeyi-tarixdən məlumat almaq olur ki, o, hicri təqvimi ilə 800-cü ildə 10-11 yaşı olan zaman yaradıcılığa başlamışdır: " Hicrətin 800-cü ilindən başlayaraq söz üzünü mənə tərəf çevirdi və mənim sənətim oldu. On-on bir yaşlarımda olardım ki, İsa kimi sözün mənim ağzımda həyat tapmasına nail oldum. Həmin ildə şeir göylərində sözün bədri (on dörd gecəlik ayı) oldum. Bədr Şirvani Şamaxıda anadan olmuşdur. Şair bunu öz dili ilə bildirir. Fil.f.d.,dosent K. Hacıyeva özünün "Bədr Şirvani" əsərində bu haqda olan beyti və tərcüməsini vermişdir. Beytdə deyilir: " Xaqani getdi, indi xaqanın məddahı mənəm. Bu gün söz elmində mənə tay yoxdur. Mən nə Məlhandanam, nə də o kənd təbiətli adamlardanam. Şamaxı torpağında doğulmuşam. Şirvan taxtı mənim yerimdir".

Şairin 12480 beytdən ibarət "Divan"ının yeganə əlyazma nüsxəsi dövrümüzə qədər gəlib çatmışdır. Buraya qəzəllər, rübailər, qitələr, fərdiyyat, həcviyyat, müsəllimat, müləmmə və s. kimi şeir nümunələri daxildir. Bunların içərsində ən başlıca yeri isə qəsidələr tutur. Eyni zamanda şairin ana dilində yazdığı 50 beyti də məlumdur. Lakin, təəssüflə qeyd etməliyik ki, bir çox mənbələrdə Bədr Şirvaninin farsdilli şair olduğu qeyd edilmişdir. Şairin dövrümüzədək gəlib çatan şeirlər divanını diqqətlə gözdən keçirdikdə bu fikrin yanlış olduğu qənaətinə gəlmək olar. Divana daxil olan şeirlər arasında türkcə (azərbaycanca) beytlərə rast gəlinməsi Bədrin öz ana dilində də şeir yazdığına sübutdur. Şair həmin beytlərdə "türki söz"ünün uzaq ellərdə də məşhurlaşıb yayıldığını vurğulayır ki, bu da onun ana dilində yazdığı şeirlərin sayının əlimizdə olanlardan daha çox olduğunu düşünməyə əsas verir. Bədr Şirvaninin yaradıcılığı haqqında bu cür yanlış təsəvvürün yaranması onun bədii irsinin az araşdırılması ilə bağlıdır. Professor Y. Babayev bu haqda yazır : "Təəssüf ki, tədqiq və nəşr sahəsində onun bəxti gətirməmiş, əsərləri araşdırılmadığından və çap üzü görmədiyindən elmi-kütləvi ictimaiyyətin diqqətindən kənarda qalmışdır". Bədr Şirvani haqqında Ə. Səfərli və X. Yusifli də yazmış və onun əsərlərini bütün ziddiyətlərinə baxmayaraq, "XV əsrin birinci yarısının maraqlı poetik inikası" kimi yüksək qiymətləndirmişlər.

Şair haqqında ilk məlumata orta əsrlər təzkirə müəllifi Dövlətşah Səmərqəndinin "Təzkirətüş – şüəra" ında rast gəlinir. Burada qeyd olunur ki, Bədr Şirvani gözəl və nadir sözlər söyləyən və Şirvan və ona yaxın ərazilərdə şairlərin başı olaraq tanınan şairdir. Bu hissənin adını hətta "Şairlər padşahı – Bədrəddini-Şirvani" olaraq verir. Onun Məhəmməd Katibi ilə deyişməsini və Məhəmməd Katibinin Bədr Şirvaniyə ünvanlandığı şeiri göstərir:

Ey Bədr, mənim ləqəbim Katibidir.
Fəqət mənə göydən Məhəmməd adı enmişdir.
Buna görə də mənim adım Məhəmməddir.
Sənsə bir bədrsən və səni şəhadət barmağımla parça-parça edərəm.
Müəllif Bədr Şirvanidən bir beyt nümunə gətirir:
Ey sevgili, sərxoşca könül quşumu kabab et.
Və ona göz yaşımdan duzlu su ver.

Dövlətşah Səmərqəndi Katibinin və Bədrin sözlərinin müqayisə olunduğunu və bir çox yerlərdə Bədr Şirvaninin şeirinə üstünlük verildiyini (bəyənildiyini) də yazır.

Aşağıdakı iki misra bizə şairin yaradıcılığı haqqında, onun ana dilində daha çox şeir yazdığı barədə söz deməyə imkan verir. Belə ki, burada " Parsi sözüm" dedikdə farsca divanını nəzərdə tutan şair, "Türki sözüm" dedikdə böyük ehtimalla türkcə divanından bəhs etmişdir:

Parsi sözüm Xorasanü-İraqın zikridir.

Böylə kim türki sözüm dutmuşdurur Çinü-tətar. - Bu fikirdən çıxış edərək deyə bilərik ki, Bədr Şirvaninin türkcə şeir divanı mövcud olmuşdur. Sadəcə olaraq, dövrümüzədək gəlib çatmadığı üçün tam təsdiqini tapmayan bir məsələ olaraq qalmaqdadır.

Təkcə şairin yuxarıda göstərdiyimiz iki misrasına görə yox, bütövlükdə onun şeirlərinə nəzər salsaq, görərik ki, ana dili elementlərindən yerli-yerində istifadə etməyə çalışmış və əsərlərində buna üstünlük

vermişdir. Məsələn, qədim türk dilinin xüsusiyyətlərindən olan "h" əvəzinə "x" yazılmasına rast gəlinir (xaçan, xanı və s.). Eyni zamanda Yaradan mənasında Tanrı (Tenqri) sözünün də işləndiyini görürük:

Həzrətində qılmışam bu gün bir govhərni nisar
Ten(k) ri Mənsurin rəvanı şad qılsun, kol mana
Ton birirdi, at birirdi badhayi – qəmküsar.

K. Hacıyeva "Bədr Şirvani" monoqrafiyasında haqlı olaraq qeyd edir ki, Bədr Şirvaninin farsca "Divan"ındakı türkcə sözlər ayrıca tədqiqata cəlb olunmalıdır. Keçən əsrin sonlarında mərhum ədəbiyyatşünas Əbülfəz Rəhimov özünün "Bədr Şirvaninin azərbaycanca şeirləri və dilinin bəzi xüsusiyyətləri haqqında" məqaləsində bu mövzuya toxunmuş və şairin dilindən söylənən bir neçə azərbaycanca sözə diqqəti yönəltmişdir. Tədqiqatçı şairin iki yerdə istifadə etdiyi "aydır" sözünün "ayıtmaq" (demək, söyləmək) feilinin indiki zamanı olduğunu qeyd etmişdir.

Əminliklə deyə bilərik ki, şairin yaradıcılığı nəinki, dil və ədəbiyyat baxımından, tarix baxımından da əhəmiyyətlidir. Onun dilində İraq, İsfahan, Hicaz, Dərbənd, Şamaxı kimi yer adlarının istifadə ediməsi, Şirvanşah Şeyx İbrahimə yazdığı mədhiyyə, Qəbələyə həsr etdiyi şeir və s. buna bariz nümunədir. Maraqlı nümunələrdən biri şairin "Qəbələyə həsr etdiyi şeir" idir. Bu şeirin tarixi, ədəbi və bədii-dil cəhətdən mahiyyəti olduqca böyükdür. Şair 26 beytdən ibarət bu şeiri vəzir Əmir Şücaəddin Ərdəşirə ünvanlamışdır. Qeyd etməliyik ki, Bədr Şirvani "Bədr" sözünün mənasını məhz bu şeirdə vermiş, özünü "Qəbələnin on dörd gecəlik ayı" adlandırmışdır: " Sənə olan məhəbbətimlə Qəbələ mənim mənzilim oldu. Mən Qəbələnin on dörd gecəlik ayı, sən isə günəş bənizlisisən". Fikrimizi yekunlaşdıraraq qeyd etmək istəyirik ki, Bədr Şirvani yaradıcılığının XV əsr anadilli ədəbiyyatımızda xüsusi yeri vardır. Şairin türk (Azərbaycan) dilində qələmə aldığı şeirləri və yuxarıda sadaladığımız digər faktlar bizə əsas verir ki, onun yaradıcılığına xüsusi önəm verək və araşdıraq.

CON FAULZUN ƏSƏRLƏRİNDƏ MÜƏLLİF OBRAZI

Fərzəliyeva L.İ.
Bakı Slavyan Universiteti
E-mail: leylafarzaliyeva1998@gmail.com

Ədəbiyyatda hər bir mətnin bədii olmasını şərtləndirən əsas amillərdən biri orada müəllif obrazının mövcudluğudur. Əsərdə müəllif obrazını müxtəlif formalarda görə bilərik: yazıçı baş verən hər hansı bir hadisənin iştirakçısı və ya şahidi qismində çıxış edir, digər personajlarla onun münasibətləri ortaya çıxır və s. Bəzən əsərin əsas ideyası müəllifin şərhləri, qeydləri vasitəsilə həyata keçirilir. Bu zaman müəllif qəhrəmanın düşüncələrini, nitqlərini,əsərdə baş verən əxlaqi, fəlsəfi, sosial problemləri birbaşa və ya dolayı şekildə qiymətləndirir.

Müəllif obrazı həmişə tədqiqatçıların,ədəbiyyatşünasların diqqət mərkəzində olan və ciddi araşdırılan məsələlərdən biri olmuşdur. Rus alimi və dilşünası V.V. Vinoqradov müxtəlif əsərlərində "müəllif obrazı" deyəndə yazıçı idiostilini, onun nəzər nöqtəsini başa düşürdü. Onun fikrincə müəllif obrazı müəllifin real şəxsiyyətinin təzahür formalarından biridir və bədii mətnlərdə, sözün məzmununda, təsvirində, təqdimində müəllif siması özünü hər zaman biruzə verir. Bundan əlavə alimin stilistika və poetika ilə bağlı kitablarında müəllif-təhkiyəçi və şəxsləndirilmiş təhkiyəçi anlayışlarına da rast gəlmək mümkündür. Əsəri üçüncü şəxs mövqeyindən nəql edən obraz müəllif-təhkiyəçi rolunda çıxış edir. Belə olan zaman yazıçının oxucu ilə ünsüyyət forması obyektiv xarakter daşıyır. Birinci şəxsdən danışan isə şəxsləndirilmiş təhkiyəçidir. Əsərdə hadisələrin gedişatı bir və ya bir neçə personajın baxış bucağından verilir və təhkiyə subyektiv formada müəyyən edilir. Qeyd olunan bu xüsusiyyətləri Con Faulzun əsərlərində də aydın bir şekildə görmək mümkündür.

XX əsrin istedadlı yazıçısı,postmodernizmin görkəmli nümayəndəsi olan Con Faulz ingilis ədəbiyyatına öz qeyri-adi yazı üslubu, özünəməxsus dəst-xətti ilə böyük əhəmiyyət kəsb edən yeniliklər qatmışdır. Bir əsər içərisində bir neçə təhkiyə formasından istifadə etməsi, müxtəlif üslublara yönəlməsi və hətta fərqli dövrlərdən bəhs edib onları müqayisə edərək bir-biriylə əlaqələndirməsi müəllifin yaradıcılığına xas olan bəzi mühüm xüsusiyyətlərdəndir. Bəhs olunan xüsusiyyətlərlə o,yalnız ingilis ədəbiyyatına deyil,həmçinin dünya ədəbiyyatının inkişafına da güclü təsir göstərmiş və ədəbiyyat tarixinə adını qızıl hərflərlə yazdırmışdır. "Kolleksiyaçı", "Sehirbaz", "Fransız leytenantının qadını", "Maqus", "Aristos", "Daniel Martin" romanları yazıçının məşhur əsərlərindəndir. Bu romanlar bestseller olmaqla yanaşı, bir çox dillərə tərcümə olunmuş, dəfələrlə nəşr edilmiş və onların əsasında filmlər çəkilmişdir.

Faulzun əsərlərinin mövzusu əsasən şüur azadlığındandan, məsuliyyətdən, məhəbbət hekayələri və dilemma qarşısında qalan qəhrəmanlardan, azad seçim iradəsindən, özünü axtarışdan ibarətdir.O həmçinin cəmiyyətlə bağlı bir sıra problemlərə ironik üslubda yanaşaraq prosesləri öz baxış bucağından dəyərləndirmiş və kəskin satirik qələmindən keçirmişdir.

Müəllifin postmodern üslubda qələmə aldığı romanlarında hadisələrin sonluqları oyun texnikasından istifadə edilərək "açıq final" şəkildə təqdim edilir və baş qəhrəmanların sonrakı addımları,romanın gedişatı oxucunun təxəyyülünə buraxılır və ya ("Fransız leytinantının qadını" romanında olduğu kimi) bir neçə sonluq təklif edilərək oxucuya seçim azadlığı verilir. Əsərlərində tez-tez prospeksiya, introspeksiya, retrospeksiya təhkiyyə üsüllarına da müraciət edən Faulz personajların keçmişindən və gələcək planlarından,indiki şüur axınından dolğun və ətraflı şəkildə məlumatlar verərək oxucuda qəhrəmanların xarakterləri,düşdükləri sitiuasiyalara uyğun davranışları,emosional vəziyyətləri haqqında tam təsəvvür formalaşdırır, baş verən hadisələr arasındakı səbəb-nəticə əlaqələrini aydınlaşdırmağa imkan verir.

Con Faulzun əsərlərində istifadə etdiyi bütün bədii üslub,metod və priyomlar həm onun idiostilinin müəyyən edilməsində başlıca rol oynayır, həm də müəllif obrazının ortaya çıxarılmasına xidmət edir.

ÜLKƏR NƏBİYEVA "KİTABİ-DƏDƏ QORQUD" EPOSU TƏDQİQATÇISI KİMİ

Hacıyeva H.H.
Bakı Slavyan Universiteti
E-mail:heyat.haciyeva9@gmail.com

Hər bir xalqın mədəniyyəti, dili, dini, adət-ənənəsi, yaşayış tərzi, dövlətçilik ənənələri müxtəlif olur. Bu sadalananların hamısı bir xalqın millət kimi formalaşmasında, bugünü ilə keçmişi arasında mənəvi bağ qurmasında böyük rol oynayır. Xalqların tarixinə, eləcə də ədəbiyyatlarına nəzər yetirdikdə görürük ki, həmin xalqın folkloru nə qədər qədimdirsə, bir o qədər güclü inkişaf yolu keçmişdir. Azərbaycan ədəbiyyatında isə "Kitabi-Dədə Qorqud" eposunun milli-etnik bütövlük və ictimai fikir tarixi üçün nə dərəcədə önəmli bir yerdə olduğunu vurğulamaq lazımdır. Abidənin araştırılması zamanı bu məsələlərə qorqudşünaslar geniş yer ayırmışdırlar.

Belə olduğu halda epos haqqında ilk olaraq buna diqqət yetirmək lazımdır ki, 200 ildən çoxdur dastan Avropa və Rusiya ədəbiyyatşünaslığında araşdırılır, türklərin ədəbi tarixi öyrənilir. Lakin Azərbaycan ədəbiyyatşünaslığında bu proses bir qədər sonra - XX ci əsrin 20-ci illərindən etibarən öyrənilməyə başlanmışdır. Ə.Abid, H.Araslı, M.Rəfili, F.Zeynalov, S.Əlizadə, A.Nəbiyev, P.Əfəndiyev, K.V.Nərimanoğlu, R.Kamal, K.Abdulla kimi folklorşünas və dilşünas alimlərin eposla bağlı tədqiqatları ilə dastanın Azərbaycan ədəbiyyatının, mədəniyyətinin bir parçası olması dəqiqlik qazandı.

XIX əsrə gəldikdə isə bu abidənin daha dərin qatlarına enilərək dastanın dünyada daha çox tanınması üçün dövlət dəstəyi ilə müəyyən işlər görülmüşdür. Görkəmli dövlət xadimi Heydər Əliyevin xüsusi sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un 1300 illiyi dövlət səviyyəsində geniş qeyd olundu. Beləki, 2000-ci il aprelin 9-da Türkdilli dövlətlərin VI Zirvə toplantısına gəlmiş dövlət başçılarının iştirakı ilə dastana aid gecə keçirildi, 2 cildlik "Kitabi-Dədə Qorqud" ensiklopediyası çap olundu. Bütün bunlar müstəqillik illərindən etibarən daha fərqli cəhətləri ilə araşdırılan dastanın Azərbaycan mədəniyyətinin ulu qaynağı olmasını bir daha vurğulayır.

Filologiya elmləri namizədi Ülkər Nəbiyevanın da elmi yaracılığına nəzər yetirdikdə dastanı müxtəlif mövzular ətrafından araşdırdığı müşahidə edirik. O, 30-dan artıq elmi məqalənin, 2 monoqrafiyanın müəllifidir. Ü.Nəbiyeva 2000-ci il 30 iyunda "Kitabi-Dədə Qorqud" və folklor ənənələri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 2003-cü ildə nəşr olunan monoqrafiyada eposda olan hadisələrin, adət-ənənələrin folklor qaynaqları ilə uyğunluğunu tədqiq edilmişdir. Monoqrafiyanın "Kitabi-Dədə Qorqud"un folklor qaynaqlarına dair" adlı birinci fəslində eposdakı hadisə və obrazların folklor ilə bağlılığına toxunmuşdur. Burada bir çox alimin fikirləri və müəllifin şəxsi araşdırmaları vəhdət içərisində göstərilmişdir.Ü.Nəbiyeva ilk olaraq türk qadınının cəmiyyət içərisində rolunu müəyyənləşdirmişdir. Beləki, müəllif İtaliya tarixçisi Appianın fikirlərinə istinadən türk qadınlarının qorxusuz, cəsur olması məsələsinə nəzər yetirmişdir. Eyniylə, alban qadınları kimi oğuzlarda da onlar yaralı halda, əsir kimi çətin günlər yaşasalar belə öz elinə, obasına, bəyinə və övladlarına üzlərini dönməmişdirlər. Yaşayış normalarına bağlı digər bir münasibət isə belədir ki, oğuzlarda ölməkdə olan şəxsin vəsiyyəti mütləq yerinə yetirilməlidir. Müəllif bunu dastanda Qazan xan ilə Beyrəyin münasibəti fonunda vurğulandığını göstərmişdir. Aruz qoca ilə qohumluq əlaqəsinin olmasına baxmayaraq o öz sözünün üstündə durub

Beyrəyin vəsiyyətini yerinə yetirir.Monoqrafiyanın birinci fəslində müəllif oğuz igidlərinin döyüş meydanında nigab taxma məsələsini də göstərmişdir. C.Frezerin fikirlərinə istinadən örpəklə üzümü gizlədən igid özünü şər qüvvələrdən, yəni ovsun və tilsimlərdən qorumaq üçün bunu etdiyi göstərilir. Araşdırmaçının şəxsi düşüncəsinə gəldikdə isə bunun səbəbini sərkərdələrin düşmənə vahiməli görünmək, həmçinin tanınmamaq üçün bu şəkildə müdafiə mexanizmini yaratması ilə əlaqələndirir.Ü.Nəbiyeva oğuz alplarından həm də "Dədə Qorqud":epik repertuardan əlyazmaya" adlı monoqrafiyasında da bəhs etmişdir. Müəllif burada cəngavərlərin ad, sanının olması bütün xalq üçün vacib sayıldığını vurğulayır. Buna görə də həmin oğuz oğullarının gələcəyi üçün ata-analarının erkən dövrlərdən onların tərbiyəsi ilə ciddi məşğul olduqları qeyd edir. İgidin tərbiyə və bacarıqları inkişaf etdirilməli idi ki, vaxtı çatanda cəngavərlik edib ad qazana bilsin. Müəllif buna misal olaraq Salur Qazanın oğlu Uruzu, Aruz oğlu Basat, Buğac xanı göstərir. Burada isə müəllif həmin igidlərin cəngavərlik yolunda yaxınlarına, el-obalarına, adalət və düzgünlüyə sahib çıxdıqları təqdirdə gərçək bir qəhrəmana çevrilməyi vurğulayır. Ü.Nəbiyeva burada cəsarətin, düzgünlüyün, fədakarlığın sadəcə oğlan uşaqları deyil, qız uşaqları üçün də önəmli olduğunu vurğulayır. Oğuz qadınları da ox atmağı, at sürməyi lazım gəldikdə savaşmağı belə bacara bilməkdədir.Ü.Nəbiyeva "Eposda mərasim, adət-ənənə və başqa folklor vahidləri" adlı ikinci fəsildə isə adından da göründüyü kimi xalqın yaddaşında yaşayan süjet və obrazların təhlilini oxucuya çatdırır. Dastanda müəllifin məişət mərasimləri haqqında dolğun məlumat verdiyi və bu adətlərin islamdan əvvəlki ənənələrə əsaslandığı vurğulanır. Məsələn, toydan əvvəlki adaxlanma, nişan və s. digər adətlər haqqında ən geniş məlumatı isə "Bəybörənin oğlu Bamsı Beyrək boy"unda olduğunu faktlar əsasında oxucuya çatdırmışdır.Monoqrafiyanın daha bir maraqlı araşdırma məsələsi isə "Kitabi-Dədə Qorqud"da folklor janrlarının işlənməsidir ki, bu zaman araşdırmaçı dastanda işlənən atalar sözü və məsəllərin daha əvvəlki dövrlərdən bəri xalq içərisində yayıldığını bildirir. Ü.Nəbiyeva dastanın təkcə müqəddimə hissəsində 38 atalar sözü, 11 məsəlin və 6 alqışın, 3 qarğışın verildiyini vurğulayır. Tədqiqatçı ən çox yayılmış folklor janrlarının dastanda işlənməsi ilə birlikdə qədimdən gələn xalqın düşüncə tərzini gələcəyə ötürdüyünü bildirir. Müəllif V.M.Jirmunskinin bildirdiyi kimi oğuzların epos adətlərini olaraq özünü göstərən ölçü, mövzu və qəliblər sonrakı türk xalqlarının ədəbiyyatlarına təsir etdiyini göstərir. Məsələn xalq dastanları əsasında məhəbbət dastanlarının yayılması kimi faktları oxucuya bildirir. İkinci fəsildə bayramların keçirilməsi, nələr varsa yaz faktlarla və müəllifin şəxsi fikirləri cəmlənmişdir.Ü.Nəbiyeva bu iki monoqrafiyadan başqa "Şifahi yaddaşdan yazıya", "Kitabi-Dədə Qorqud" boylarının yaranma və yayılma tarixindən", "Kitabi-Dədə Qorqud"da idarəçilik sistemi" və başqa məqalələrində də epos haqqında maraqlı fikirlər irəli sürmüş və qorqudşünaslıq üçün yeni sayılacaq düşüncələrin altına imza atmışdır. Beləliklə, Ülkər Hacıyeva bu dəyərli araşdırmalarına ümumi nəzər yetirdikdə epsou müxtəlif araşdırma metod və cəhətləri ilə oxuculara çatdırmış olduğunu görməkdəyik. Onun sadaladığımız əsərləri milli-mənəvi dəyərimiz olan "Kitabi-Dədə Qorqud" dastanını daha yaxşı anlamağımıza və araşdırmağımız kömək etdiyi üçün hər zaman aktual olmağa davam edəcəkdir.

MÜASİR ƏDƏBİYYATŞÜNASLIQDA İNCƏSƏNƏT VƏ OYUN

Hacıyeva L.S.
Bakı Slavyan Universiteti
E-mail: lalhaciyeva957@gmail.com

Müasir ədəbiyyatşünaslıqda incəsənətin oyun xarakteri məsələsi geniş toxunulan mövzulardandır. Bu mövzunu ədəbiyyata gətirən dahi şəxsiyyətlərdən biri mütəfəkkir, ədəbiyyatşünas Yohan Heyzinqa olmuşdur. Onun 1938-ci ildə yazdığı "Homo Ludens" (Oynayan insan) adlı əsəri çox gözəl bir monoqrafiyadır. Burada nəinki cəmiyyətin inkişafında oyunun əhəmiyyəti müzakirə edilir, hətta oyun bütün bəşəriyyətin hər bir sahəsinə şamil edilir: mədəniyyətə, hüquqa, elmə, müharibəyə, şeirə, fəlsəfəyə, sənətə və s. Əsərdən bu qənaətə gəlmək olar ki, oyun mədəniyyətdən daha qədimdir. O, məna baxımından zəngin bir funksiyadır və müasir incəsənətdə, o cümlədən - ədəbiyyatda önəmli yer tutur. Buna səbəb postmodernizm bir cərəyan və metod kimi bədii mətnə yeni yanaşma təklif edir. Məhz ona görə ki,oyunda yaşamın həqiqi tələblərini aşan və hərəkətlərə məna qatan müstəqil bir ünsür yer almaqdadır. Heyzinqaya görə,hər oyun bir anlam daşıyır. Əgər oyundakı fəal prinsipi "zehin" adlandırsaq onu şişirtmiş olarıq, yox əgər ona instinkt desək, heç bir şey söyləməmiş olarıq.

Hüquq, hökm və qanun ilk baxışdan oyuna zidd görünsə də, həmin qavramı ifadə edən terminlərin etimoloji təməlinə nəzər yetirsək, bu qavramların "qoymaq", "qurmaq", işarə etmək", "tutmaq", mənimsəmək", "seçmək, paylaşmaq", "bir araya gətirmək" kimi fikirlərə, və yaxud "düzən" anlamına

gəldiyini görərik. Bunlar oyunu ifadə edən kəlimələri ortaya çıxarır.(Bax" Yohan Heyzinqa"Homo Lundens" səh. 18)

Mütəfəkkirin fikrincə,bəzi mülahizələr oyunu zərərli meyilliliklərdən məsum bir şəkildə qurtulma yolu olaraq qəbul etməkdədir. Yəni oyun ya həddən artıq birtərəfli hərəkətə meyilin zəruri kompensasiyasıdır, ya da real həyatda gerçəkləşə bilməyən arzuların həyata keçirilməsi və bununla da şəxsi mənlik duyğusunun qorunub saxlanmasıdır. Heyzinqanın bu tezisi ilə razılaşmamaq olmaz.

Əgər din, elm, hüquq, müharibə və siyasət, mədəniyyət daha əvvəlki mərhələlərdə sahib olduqları çox sıx təmasları daha qabaqcıl inkişaf etmiş cəmiyyət formalarında yavaş-yavaş itirirmiş kimi görünürsə də, oyun sahəsi içində doğulmuş olan şeir buradan əsla kənara çıxmamışdır. Poeziya oynaq bir funksiyadır. İngilis filosofu Frensis Bekonun dediyinə görə,şeir fəlsəfi bir doktrinanın xəyalı kimidir.Şeir cavan oğlanlar və gənc qızlar arasında həmişə təkrarlanan cəzbetmə və qaçma oyununun sözlə ifadəsi olaraq mütləq şeirin müqəddəs fəaliyyəti qədər qədim bir yerə sahibdir. Müəllifin fikrincə, incəsənətin oyuna meyilləri ibtidai cəmiyyətlərdə indi də gözə çarpır. Məsələn, bunu Polineziya adalarında incəsənətin sinkretik xarakteri indi də diqqətimizi cəlb edir.

Orta əsrlərdə çılğın və ipə-sapa gəlməyən oyunlar geniş yayılmışdır. Müqəddəs mənalarını itirərək təmiz əyləncə halına çevrilən bütpərəstlik dövrü ünsürləri ilə, görkəmli və ciddi cəngavər oyunlarıyla, həssas sevgi bəyannamələri və digər bir çox oyun formaları ilə zəngindir. Halbuki, bu oynaq formalar həqiqətən mədəniyyət yaradan bir funksiyanı ehtiva etməz. Çünki orta dövrlər mədəniyyətinin yüksək formatları olan şeir və ibadəti, müdriklik və elmi, siyasət və savaşı onsuz da antik keçmişdən miras almışdır. Alimin düşüncəsinə görə, həmin vəziyyət bu günə qədər davam edir.

"Homo ludens" əsərində İntibah və Humanizm dövrlərini sürətli bir şəkildə gözdən keçirsək görərik ki, öz şüuruna sahib və özünü abstraktlaşdırmaq istəyən seçilmişlər qrupunun təmsil edilən bir mükəmməllik oyunu formasında həyatı ələ almağa çalışması məhz həmin dövrlərdə olmuşdur. Renesans mentaliteti dəyişkənlikdən uzaqdır. Antik dövrün təqlidi bu dövr insanlarının gözündə müqəddəs ciddiyyətə sahib bir iş hesab edilməkdədir.

Azərbaycan ədəbiyyatı tarixçisi, filologiya elmləri doktoru, professor Qorxmaz Quliyev keçən əsrin ikinci yarısında formalaşmış postmodernizmdə hərəkətliliyin, elastikliliyin, mühitə uyğunlaşmaq keyfiyyətləri nümayiş etditən fəlsəfi, elmi-nəzəri, estetik təsəvvürlər kompleksinin başlıca rol oynadığını vurğulamışdır. Bu da bizə "müasir ədəbiyyat nəzəriyyəsində incəsənətin oyun xarakteri postmodernist əsərlərdə öz əksini tapmışdır" fikrini söyləməyə əsas verir. Parodiyanı özündə əks elətdirən postmodernizm ədəbiyyatda xaos, elementlər müxtəlifliyi yaradır. Hansı ki, bunları biz oyunlarda da görürük. Postmodernist amerika yazıçısı Con Bartın fikrincə, "postmodernizm – keçmiş mədəniyyətdən şirə çəkən bədii təcrübədir".(Bax:wikipedia.org) Deməli, postmodernist əsərlər keçmişi inkar etmir, sadəcə "ondan şirə çəkərək", ədəbiyyatda olan formaları ehkamları inkar edərək oyun ruhlu nümunələr ərsəyə gətirir. Beləliklə, bütün sərhədlər ortadan götürülür, fəlsəfə, mədəniyyət, incəsənət, memarlıq və başqa anlayışlar bir-biri ilə qarışır, kütləvilik və elitarlıq vəhdət təşkil edir, oyun qruplarında ortalığa qoyulur. Əslində postmodernizm incəsənətin və ədəbiyyatın oyun xarakterini bir şüar kimi ortaya çıxarır. O demək deyil ki, bu cərəyandan kənar əsərlərdə oyun mövcud deyil. Əsla oyun özünü müxtəlif formada irəli sürür. Məsələn, reminisensiya,gizli sitatlar, allüziya və b. intertekstuallığa səbəb olur.

MÜASİR BƏDİİ NƏSRİMİZƏ DAİR BİR NEÇƏ SÖZ

Həmidov R.V.
Bakı Slavyan Universiteti
Email: rasulganji99@gmail.com

Azərbaycan ədəbiyyatşünaslığının hazırkı problemlərindən biri də Müasir Azərbaycan nəsridir. Nəzərə alsaq ki, dünya ədəbiyyat elmində yeni yanaşmalar geniş vüsət alıb, düşündüyümüzə görə, bizim ədəbiyyatımızda da yeni yanaşmalara ehtiyac duyulur.

Müasir Azərbaycan bədii nəsri nə vəziyyətdədir? Ədəbiyyatşünaslarımız milli nəsrimizin ədəbiyyatda olan yerini layiqincə qiymətləndirirmi? Məhz bu suallara cavab verə bilməmiz üçün problemə ətraflı nəzər salmağı qərara aldıq. Bildiyimiz kimi ədəbi proses davamlı bir hadisədir. Eləcə də bədii nəsrimiz bu ədəbi prosesin tərkib hissələrindən önəmli qismini təşkil edir. Fəqət biz bunu qiymətləndirə bilirikmi? Fikrimizcə, müasir nəsrimizin tədqiqinə dair son on il müddətində müfəssəl icmalı özündə cəmləşdirəcək sanballı əsərlərimiz çox azdır.

Az öncə bu yazının ilk abzasında problem şəklində ortaya qoyduğumuz sualları cavablandırmazdan əvvəl araşdırdığımız mövzunun işlənmə dərəcəsi və aktuallığı barədə bir neçə söz demək istərdik. Azərbaycan ədəbiyyatında çağdaş bədii nəsr mövzusunun işlənmə dərəcəsi, təəssüf ki, o qədər də qənaətbəxş deyil. Bəlkə də, bir çox yazıçılarımız dövr üçün önəmli olan əsərlər ortaya qoyurlar, lakin təəssüflə deməliyik ki, ədəbi tənqid bu barədə olan təəssüratını dolğun ifadə edə bilmir. Yazıçı Elçinin illər əvvəl yazdığı məqalələrinin birində deyildiyi kimi "Çünki tənqid susur.."*("Azərbaycan ədəbi tənqidinin və ədəbi prosesin problemləri", Elçin. Bakı, "Çinar-Çap" nəşriyyatı, 2003, - 302 səh. S.28).* Buna görə də tez bir zamanda bədii nəsrimizə dair tənqid öz fikirlərini ətraflı şəkildə izah etməyə qadir olacaq şəkildə səhih tədqiqatlar ortaya qoymalıdır. Çağdaş bədii nəsr mövzusunun aktuallığı barədə düşünürük ki, izaha ehtiyac yoxdur, çünki davamlı şəkildə gələcəyə doğru irəliləyən ədəbi proses ədəbi tənqiddən yeyin sinxronizasiya, başqa sözlə desək, yenilənmə tələb edir. Böyük alim və tənqidçimiz mərhum akademik Kamal Talıbzadənin də dediyi kimi "O tənqidçinin ki, yaşadığı cəmiyyət haqqında özünəməxsus fikri yoxdur, o, ədəbiyyat barədə söz deyə bilməz*("Ədəbi tənqid: problemlər, vəzifələr". Bakı, "Yazıçı", 1984. 166 s. Səh.32)* . Mərhum akademik Yaşar Qarayevin hələ sovet dövründə ikən yazdığı məqalələrinin birində deyildiyi kimi nəsr ədəbiyyatımızda geniş vüsət almaqdadır. Hərçənd bu sözlər ədəbiyyatımızın 40 il öncəki durumu üçün deyilsə də, hal-hazırkı mərhələ üçün də keçərlidir. Nəsr ədəbiyyatımızda öz üstünlüyünü aşkar şəkildə qorumaqdadır. Bunun səbəbi isə düşünürük ki, ədibin öz fikrini daha səmərəli və geniş şəkildə izah edə bilməsinə görədir. Həmçinin oxucularımızın da əksəriyyəti artıq cəmiyyətimizin problemlərini daha qabarıq və ətraflı şəkildə izah etməyə qadir olan nəsr əsərlərini oxumağa meyl göstərirlər. Ancaq onu da vurğulayaq ki, Azərbaycanda ədəbi tənqid bədii nəsrimiz barədə yüzlərlə əsər yazsa belə, önəmli olan kəmiyyət deyil. Önəmli olan bircə tənqidi əsər olsa belə, onun yüksək keyfiyyətə malik olmasıdır. Məhz bu cəhətdən keyfiyyətli tənqidi araşdırmalar aparmağa ehtiyac vardır.

AZƏRBAYCAN ƏDƏBİ TƏNQİDİ MÜASİR MƏRHƏLƏDƏ

Həmidov R.V.
Bakı Slavyan Universiteti
Email: rasulganji99@gmail.com

Müasir Azərbaycan ədəbiyyatında maraqlı bir proses gedir. Bir tərəfdən Sovet dövrünün 60-70-ci illər ədəbiyyatının ənənəsinə sadiq qalan davamçılar, digər tərəfdən Avropa ədəbiyyatındakı ədəbi cərəyanlardan bəhrələnən gənc ədiblər və nəhayət, doğma folklora, klassik ədəbiyyata qayıdaraq o dövrün yaradıcılığına nəzər salıb bəhrələnənlər. Məhz bu üçlü yanaşma ədəbiyyatın dərin okeanında təkinlərə enərək mənəvi incilər üzə çıxarmağa çalışırlar.

Bütün bunlara rəğmən Azərbaycan ədəbi tənqidinin bu günü ədəbi prosesə nə cür yanaşır? Sualımıza ətraflı cavab verməzdən əvvəl düşünürük ki, ədəbi tənqidi fəaliyyət istiqamətinə görə təsnif edək. Ədəbi tənqidimizi fəaliyyətinə görə dörd istiqamətə bölə bilərik: 1)Təsviri ədəbi tənqid; 2)Sinxron ədəbi tənqid ; 3)Diaxron ədəbi tənqid ; 4)Ədəbi tənqidin özünütənqidi.

Təsviri ədəbi tənqid adından göründüyü kimi Azərbaycan ədəbi tənqidi barədə qəlibləşmiş bilik və məlumatları özündə ehtiva edən tənqiddir. O, müasir ədəbi prosesi araşdırmır. Ədəbiyyat tarixinə daxil olan keçmiş ədəbi prosesin təcrübə və konsepsiyalarından ibarət konkret bilikləri ifadə edir. Düşünürük ki, hal-hazırda ali məktəblərdə tədris edilən Azərbaycan ədəbi tənqidinin nəzəriyyəsi və tarixinə dair olan fənlər, bu fənlər barədə yazılan dərsliklər ümumən təsviri ədəbi tənqidi özündə birləşdirir. Günümüzdə təsviri ədəbi tənqidin ali məktəblərdə tələbələrə tədris edilməsi üçün kifayət qədər mükəmməl dərsliklər var. Bunlardan Vaqif Sultanlının "Azərbaycan ədəbi tənqidi"(2019), Rafiq Yusifoğlunun "Müasir ədəbi proses və ədəbi tənqid"(2014) əsərləri tələbələr üçün dərs vəsaiti kimi olduqca qənaətbəxşdir. Sinxron ədəbi tənqid isə hazırkı ədəbi prosesə və ədəbiyyatşünaslığa öz töhfəsini verən tənqid növüdür. Bu, ədəbiyyat üçün olduqca lazımlı və vacib ünsürlərdən biridir. Məhz tənqidin bu növü də tənqidçinin yaşadığı müasir dövrə, cəmiyyətə, onu təmsil edən ədəbiyyata bildirdiyi münasibəti özündə birləşdirir. Azərbaycan ədəbi tənqidində sinxron tənqid fəal şəkildə özünü göstərir. Yazıçı və şairlərimiz əsər yazdıqlarında tənqidçilərimiz buna biganə yanaşmır və öz fikirlərini, təəssüratlarını, töhfələrini əsirgəmirlər. "Ədəbiyyat" qəzetində bu yaxınlarda Elnarə Akimovanın gənc şair El Romanın "Canıyeva Göyərçin" şeirinə yazdığı esse buna misal ola bilər*(Elnarə Akimova - "Canıyeva Göyərçin" - bir şeir və müharibənin soyuq mənzərəsi, "Ədəbiyyat" qəzeti, 26.01.2022).* Xüsusilə burada yazıçı tənqidini də mən xüsusi vurğulamaq istərdim. Adətən hazırkı ədəbi mühitimizdə yazıçılar özləri də bir-birilərinin əsərlərinə dair tənqidi yazılar yazırlar. Buna dair nümunə çox

olduğu üçün, qısaca, "Kulis.az" saytında olan ədəbi mühiti mən misal göstərmək istərdim. Yazıçı tənqidinin professional tənqidçidən fərqi məsələyə məzmunca daha subyektiv, formaca isə bədii üslubun rəngarəngliyinə bürünmüş elmi üslubda yanaşmasıdır. Diaxron ədəbi tənqid ədəbiyyat tariximizin keçmiş ədəbi prosesinə çağdaş gözdən nəzər salan tənqid növüdür. Burada hər hansı keçmiş şair və yazıçının ədəbi mühiti, dövrü müasir dövrün ədəbi mühiti ilə müqayisəli şəkildə təhlil edilir. Ötən il "Nizami" ili qeyd edildiyindən Nizami Gəncəvi haqqında aparılan dolğun tədqiqatları diaxron ədəbi tənqidin bir parçası hesab etmək olar. Hətta Malik Mahmudovun Xətib Təbrizi haqqında sovet dövründə yazdığı "Piyada Təbrizdən Şamadək" adlı monoqrafik tədqiqatını bu qəbildən hesab edə bilərik. Və sonuncusu, ədəbi tənqidin özünütənqidi isə adından göründüyü kimi tənqidin ədəbi proseslə bağlı göstərdiyi fəaliyyətə tənqid bildirməsidir, yəni ədəbi prosesə töhfə verən ədəbi tənqid, biri də ədəbi tənqidi stimullaşdıran tənqid. Xüsusilə ötən əsrin 90-cı illərində ədəbi prosesdə hökm sürən xaotikliyə durğun münasibət bəsləyən ədəbi tənqidin özünə yazılmış bir sıra məqalələr buna misal ola bilər. Hətta yazıçı Elçinin 2003-cü ildə yazdığı "Azərbaycan ədəbi tənqidinin və ədəbi prosesin problemləri" adlı yazısı buna dair ən bariz nümunələrdən biridir.

TƏRCÜMƏDƏ REALİYALARIN VERİLMƏSİ

Həsənli S.N.
Bakı Slavyan Universiteti
E-mail: semrahesen04@gmail.com

Müxtəlif dil xüsusiyyətlərinin öyrənilməsində tərcümə problemlərinin nəzərə alınması olduqca aktual məsələlərdən biri kimi maraq doğura bilər, çünki, belə hallarda paralel tərcümələrdən alınan məlumatlar emprik yoxlama kimi istifadə olunur.

Tərcümə həyata keçirilən zaman qarşıya çıxan çətinliklərdən biri də “gizlin (implisit) mənalar”, “mülahizələr” (ehtimallar, konnotasiyalar, mənanın fon bilikləri) kimi ortaya çıxan orijinal dilin linqvistik ifadələridir. Bu mülahizələr orijinal dildə danışanlar tərəfindən qəbul edilsə də, hədəf dil üçün anlaşılmazlıqlar yarada bilər. Bu cür linqvistik ifadələr çox zaman “tərcüməolunmazlıq” kimi tanınan problemin yaranmasına səbəb ola bilər.

Sözsüz ki, orijinalda qeyd olunan əşyaların və onlarla əlaqəli obrazların təyinatını düzgün çatdırmaq bacarığı tərcümə əsərində təsvir olunan realiyalar haqqında belə biliklərin bilavasitə əldə edilib-edilməməsindən asılı olmayaraq müəyyən bilik və məlumat tələb edir.

Bu biliklər və məlumatlar həm mədəniyyətşünaslıqda, həm də müqayisəli dilçilikdə və tərcümə nəzəriyyəsində “fon bilikləri” anlayışı kimi müəyyən edilmişdir. Terminin mahiyyətindən aydın olduğu kimi, bu, başqa bir ölkənin, başqa xalqın həyatının mənzərəsini açan real fonun nədən ibarət olduğu haqqında fikirlərin məcmusuna aiddir. E. M. Verşaqin və V. G. Kostomarov onları "kommunikativ iştirakçılar üçün ümumi bilik" kimi müəyyən edirlər.

Tərcümə nəzəriyyəsi və praktikası üçün, əslində, fon biliklərinin yalnız bir hissəsi daha mühümdür - başqa bir mədəniyyətə, fərqli bir ölkəyə xas olan hadisələrə aid olan və tərcümə edilmiş əsərin oxucularına onun məzmununu öyrənmək üçün zəruri olan biliklər. Bu baxımdan V.S.Vinoqradov hesab edir ki, “leksik problemlərə dair araşdırmada fon bilikləri anlayışı ilə əlaqəli olan, lakin onunla müqayisədə daha dar və mövzuya uyğun olan “fon məlumatı” terminindən istifadə etmək daha məqsədəuyğun görünür və təklif olunan konsepsiyanı aşağıdakı kimi müəyyənləşdirir:

“Fon məlumatı yalnız müəyyən bir xalq üçün xarakterik olan, onların nümayəndələrinin kütləsi tərəfindən mənimsənilən və bu milli birliyin dilində əks olunan sosial-mədəni məlumatdır” [1. 87]

Daha ümumi bir kateqoriya kimi fon bilikləri və fon məlumatı birdəfəlik müəyyən edilmir, onlardan bəziləri zaman keçdikcə aktuallığını itirdiyi və istifadə olunmadığı üçün maraq dairəsindən kənarda qala bilər, lakin ümumiyyətlə, xalqlar və onların mədəniyyətləri arasında getdikcə artan əlaqələr fon məlumatı ilə əlaqələrdə daim genişlənməyə meyllidirlər. Bu əlaqələrin həyata keçirildiyi formalardan biri də hər hansı mətnlərin (bədii ədəbiyyatdan elmi əsərlərə, xüsusən humanitar və jurnalistika sahəsindən) tərcüməsi kimi tanınmalıdır.

Beləliklə, fon məlumatlarının yayılması tərcümə yolu ilə də baş verir, xüsusən də bədii ədəbiyyatın tərcüməsi zamanı, burada mədəni və ictimai həyatın təfərrüatları insanların bir-birinə müraciəti fonunda əldə edilir. Bu cür detalların orijinalda adları olduğu kimi tərcümədə də onların qarşılığı tələb olunur. Bu adlandırma müxtəlif üsullarla həyata keçirilir.

Eyni zamanda, realilərin düzgün ötürülməsi üçün də ilkin şərt bu sözlərin mənasını düzgün dərk edə bilmək və onların düzgün təsəvvürünü yaratmaqdır. Əgər əşyanın özü birbaşa adlandırılmırsa, perifrastik şəkildə təsvir edilirsə və ya məcazi mənada təsvir edilirsə, o zaman vəzifə daha da mürəkkəbləşir. Və realiyanın özü fərdi təfərrüatları ilə nə qədər yad və uzaqdırsa, həm onun ifadə etdiyi maddi məzmun müstəvisində, həm də üslub aspektində səhvlər, anlaşılmazlıqlar, tərcümənin təxminiliyi bir o qədər asan olur.

Tərcümələrdə faktiki rast gəlinən realiyaların tərcümə yolları dörd üsulla müəyyən edilir:

Birincisi, transliterasiya və ya transkripsiya (tam və ya qismən), realini bildirən sözün birbaşa istifadəsi və ya onun kökünün öz dilinin hərfləri ilə yazıda və ya öz dilinin şəkilçiləri ilə birləşməsidir.

İkincisi, dildə mövcud olan elementlər və morfoloji əlaqələr əsasında müvafiq subyekti təyin etmək üçün yeni söz və ya mürəkkəb söz və ya söz birləşməsinin yaradılması. Özündə bu tərcümə təsviri, perifrastikdir.

Üçüncü üsul, funksiya baxımından realiyə yaxın (eyni olmasa da) nəyisə bildirən sözün istifadəsidir, əks halda bu, kontekst şəraitində müəyyən edilmiş, bəzən bu, təxmini təyinatla həmsərhəd olan assimilyasiya edici tərcümədir.

Dördüncü yol, sözdə hiponimik (ingiliscə "hiponimiya" sözündən, yunan köklərindən düzəldilib) və ya ümumiləşdirilmiş təxmini tərcümədir ki, burada müəyyən bir anlayışı bildirən orjinalın sözləri ümumi bir ad verən tərcümə sözü ilə tərcümə edilir.

Realilərin ötürülməsinin transliterasiya üsulu geniş yayılmışdır və həm rus tərcümə ədəbiyyatında, həm də orijinal əsərlərdə (bədii, publisistik, elmi) əhəmiyyətli iz buraxır. Buna misal olaraq, “svetafor” və ya “aptek” sözlərini götürək. Belə sözlərin dilimizdə ekvivalenti olsa da, çox nadir hallarda “işıqfor”, “əczaxana, əczaçı” sözləri işlədilir.

Müəyyən hallarda transliterasiyanın məqsədəuyğunluğunu və qanunauyğunluğunu müəlliflərin tez-tez başqa xalqların həyatından yazması sübut edir. Onlar müəyyən xalqın həyatına xas olan realini adlandırmaq və vurğulamaq üçün bu dil vasitəsinə müraciət edirlər. Dilimizə rus dilindən daxil olmuş və bu, məhz transliterasiyadan ənənəvi hala gəlmişdir. Transliterasiyadan istifadənin məqsədəuyğunluğunu qiymətləndirərkən, bu spesifikliyin ötürülməsinin nə qədər vacib olduğunu dəqiq nəzərə almaq lazımdır.

Tərcümə prosesi zamanı konkret realiləri ifadə edən sözlərin verilməsinin ikinci üsulu, yəni yeni bir söz və ya ifadənin yaradılması, rus tərcümələrindən birincisinə nisbətən praktiki olaraq daha az yayılmışdır.

Realiyaların tərcüməsinin üçüncü yolu, tamamilə eyni olmasa da, funksiyasına görə yaxın və ya oxşar mənada olan ana dilin sözlərindən istifadə etməkdir.

Tərcümə orijinala uyğun sözlərin adi, sırf məişət koloritini tam çatdırır, ona heç bir yeni xüsusiyyət daxil etməsə də, lakin bir çox hallarda təbii ki, orada ifadə olunan spesifik xüsusiyyətlər milli-mənəviliyi zəiflədə bilir. Əgər orijinalın sözü ilə işarələnən obyekt və ya anlayış tərcümədə müvafiq sözlə qeyd olunan obyekt və ya anlayışdan az fərqlənirsə, onunla heç bir konkret əlaməti yoxdursa, kontekstdə mənanın ötürülməsi belə nəticələnə bilər.

Ümumiyyətlə, tərcümə işi praktikasında təsvir edilən dörd üsul adətən təcrid olunmur, yəni sözlərin bir-biri ilə kombinasiyasında istifadə olunur. Onlardan yalnız birinin müstəsna istifadəsi ya tərcümə edilmiş mətnin xarici şifahi materialla və ya “ekzotizmlərlə” həddən artıq yüklənməsinə (transliterasiya və ya transkripsiya zamanı) və ya mətnin hədsiz genişlənməsinə (təsviri üsuldan istifadə edərkən) və ya milli özəlliyin tam itirilməsi (assimilyasiya üsulu ilə) və ya həqiqi mənanın zəiflənməsilə (hiponimik ötürülmə ilə) nəticə verəcəkdir.

İSİ MƏLİKZADƏNİN “DƏDƏ PALID” POVESTİNDƏ OBRAZLAR SİSTEMİ

Həsənova A.Ə.
Bakı Slavyan Universiteti
E-mail: Hasanovaaitaj@gmail.com

Söz sərrafı olan İsi Məlikzadə yazmış olduğu əsərləri ilə yaşadığı dövrün əsaslı problemlərini işiqlandırmağa müvəffəq olmuşdur. İsi Məlikzadə povestləri ilə Azərbaycan nəsrinə müharibədən sonrakı Azərbaycan kəndinin koloritli mənzərəsini gətirdi. Doğrudur, onun bir sıra povestlərində əsas məkan rayon mərkəzidir. Amma burada yaşayan insanlar şəhərli deyillər, əsl kənd psixologiyasını yaşayan insanlardır. Bu povestlərdən biri də “Dədə palıd”dır. İsi Məlikzadənin yuxarıda qeyd olunan əsərində insan və təbiət, təbiət və ətraf mühit problemi təsvir olunmuşdur. İsi Məlikzadə kəndi, kəndin insanlarını, təbiəti yaxşı tanıyırdı.

Yaxşı tanıdığı üçün də özündən heç nə uydurmurdu. Yazıçı Azərbaycan kəndlərinin köklü problemlərindən, ağrı-acılarından, təbiətin ekoloji tənəzzülə uğramasından söz açırdı. Digər yazıçıların əsərlərində olduğu kimi adlı-sanlı, ordenli-medallı qəhrəmanlarından yox.

"Dədə palıd" əsərini bir neçə hissəyə bölsək, problemləri aydın şəkildə görə bilərik.

Əsas obrazlar və Əsas obrazların daxili aləmlərinin açılmasına yardımçı olan surətlər. Ilk növbədə "Dədə palıd" povestinin süjet xətti və kompozisiyasından danışmaq düzgün olardı Fikrimizcə, əsərdə konfliktlər iki xətt üzərində inkişaf edir.

1. Meşənin müdiri İdrisovla harınlamış restoran sahibi Piti Namaz və evini Piti Namaza satmayan meşədə çalışan zəhmətkeş Bağır.

2."Dədə Palıd" povestinin əsas obrazlarından biri olan Nurcabbar da meşədə çalışır, ziyalılığı, vicdanlılığı ilə seçilir. "Dədə palıd"ın və Kürün faciəvi taleyindən bəhs edən nağıllar üzərində işləyir və bütün nağıllarının qəhrəmanı "Dədə palıd"dır.

Yazıçı Bağırın avamlığını, zəhmətkeş olmasını xüsusi vurğulayır və çox zaman onu Nurcabbarla müqaisə edir. Yazıçıının qənaətinə görə "Dədə palıd" kimi Bağır da , Nurcabbar da və pulun gücünə güvənən, bütün mənfilikləri özündə birləşdirən Piti Namaz da tənhadır. Obrazların daxili aləmlərinə nüfuz etdikcə oxucu ilə onların arasında yaranan bağlılığın səbəbi də elə bu tənhalığı hiss etməklə ortaya çıxır.

Povestdə ana xətt "Dədə palıd" və onun qurumasıdır. Meşənin gözətçilərini də narahat edən səbəb, düşündürən problem bu idi. "Dədə palıd"ın qurumasına dözə bilməyən, onun məhv olmasını qəbul etmək istəməyən Bağır çarəsizlik girdabına düçar olmuşdur. Nurcabbarla konfilikt yaşayaraq mənəvi cəhətdən rahatlıq tapmaq məqsədi ilə və yaxud vicdanındakı narahatlıq qığılcımlarını aradan qaldırmaq üçün səylər göstərir. Nurcabbar Dədə palıdın ilk yarpağı quruyan zaman onu görmüşdü və günü-gündən cəmiyyətdən və insanlardan uzaqlaşırdı . Bağır həqiqətə uyuşa bilməyən korlardan idi ki, gözünün önündə baş verənləri anlamır, problemlərin həllini yox, varlığını düşünərək özünə zülm edir. Əsər boyu Bağır özü ilə daima mübarizədədir. Tənhalığını görməyən Bağır beynində daima vəziyyəti müsbət yolla həll etməyə çalışır.

60 - cı illər Azərbaycan xalqının başını müxtəlif yollarla qatmaq, xalqı avamlaşdırma, ziyalı təbəqənin sıxışdırıldığı zaman kəsimi idi. Xalq başına gələcəkdən və gələnlərdən xəbərsiz öz zəhməti ilə ayaqda qalmağa çalışan zaman daha da çıxılmaz vəziyyətə düşür və nöqsanlarla barışmaq məcburiyyətində qalırdılar.

İsi Məlikzadənin povestlərindəki qəhrəmanlar ümumiləşmiş obrazlardır. Yazıçı həmin obrazlar vasitəsi ilə dövrün çətinliklərini, mənfiliklərini oxucuya çatdırmağa müvəffəq olmuşdur. Bu qəbildən ümumiləşdirilmiş bədii tiplərdən biri də Piti Namazdır.Piti Namaz fürsətcil, qeyri-səmimi, bugün üçün yaşayan olması ilə yanaşı o dövr üçün qabiliyyətli, tutduğunu qoparan bir adam idi. Çətin günlər gördüyünə baxmayaraq mücadilələrini dayandırmamış, atasından sonra ailənin bütün yükünü öz boynuna götürmüşdür. Namaz "Dədə palıd"ın qurumusanı da bir fürsət kimi dəyərləndirərkən, Bağırın və Nurcabbarın dərdini anlamır. Həm də o vaxt Azərbaycan Piti Namazlarla dolu idi. Ola bilsin ki, adları fərqli olsun, amma çox idi. Sovet rejiminin gizli iqtisadiyyatında özünə yer etmiş güc simvollarının ümumiləşmiş obrazıdır Piti Namaz.

Daşı sıxıb pul qazanan Piti Namazla dünya malında gözü olmayan Bağır hətta, uğursuz yaradıcı bir nağıllar müəllifi, öz faciəsini yaşayan adam, qiyməti verilməyən, küncə sıxışdırılan, meşəyə qaçan Nurcabbar belə mənəvi yoxluğunu maddi gücü ilə ört-bastır edən Namazla ayrı dünyaların adamları idi. Ona görə Namaz Dədə palıdın qurumuş budaqlarını görəndə qətiyyən kədərlənmir, təssüflənmir. Əksinə hədsiz dərəcədə sevinir, üzü-gözü gülürdü.

Digər bir tərəfdən də meşənin Allahı sayılan İdrisov bir çox xüsusiyyətlərinə görə Namazdan fərqlənmirdi. Dediyi hər bir söz qanun kimi yerinə yetirilirdi. Fikrimizcə, İdrisovun dirrik sahibi olmaq istəyi nəticəsində quruyurdu Dədə palıd. Dirriyin sulanması prosesində Kürün gücü get - gedə zəifləyirdi, tükənirdi. Artıq Kürün suları Dədə palıdın kökünə gedib çatmırdı. Meşəni qorumalı, qayğısına qalmalı olan İdirsov Dədə palıda və bütün meşədəki ağaclara qənim kəsilmişdi. Nurcabbar və Bağırdan fərqli olaraq, İdrisov və Piti Namaz insanlar üçün həyat mənbəyi olan ağaclara, yaşıllığa və bütün təbiətə gəlir mənbəyi kimi baxırdılar.

İdrisov Dədə palıdı məhz onun qorumalı olduğunu tamamilə unutmuşdu. Nəyin bahasına olursa olsun pullanmaq, varlanmaq hissi insanlara tamamilə hakim kəsilmişdi, onlarda vicdan və ədalət hissini tamamilə unutdurmuşdu. Həm də İdrisov və Piti Namaz cəzasızlıq mühitində yaşayırdılar. Cəzasızlıq isə gec-tez Sovet cəmiyyətinin məhvinə gətirib çıxarmalıydı və çıxardı da. Fikrimizcə, İsi Məlikzadənin "Dədə palıd" povestində gəldiyi əsas nəticələrdən biri məhz budur. Yazıçılar müəyyən mənada İnsan və təbiət probleminin arxasında "gizlənir" və ictimai-siyasi problemi qabardırdılar.

"LEYLİ VƏ MƏCNUN" VƏ "ROMEO VƏ CÜLYETTA" ƏSƏRLƏRİNDƏ OXŞAR SÜJET VƏ OBRAZLAR

Hümmətli Ş.R.
Sumqayıt Dövlət Universiteti
E-mail: sehane.xelilova@gmail.com

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının ədəbi təsir dairəsi yalnız Şərq mühitinə deyil, eləcə də Qərbi Avropa ədəbiyyatına da güclü təsir göstərmişdir. Bu baxımdan Vilyam Şekspirin "Romeo və Cülyetta" faciəsi Nizaminin intibah ideyalarının, demokratik fikirlərinin özünəməxsus ifadəsi baxımından yüksək sənət nümunəsidir.

Faciədə Nizamidə olduğu kimi əsərin qəhrəmanlarının acınacaqlı taleyi, cəmiyyətin törətdiyi faciəli hadisələr dolğun və məzmunlu şəkildə əks olunmuşdur. İnsanın həyat və mübarizə eşqinin, azad məhəbbət uğrunda mübarizə əzmini tərənnüm etməkdə Nizami böyük Şekspiri tam dörd yüz il qabaqlamış və onun layiqli sələfi olmuşdur. Hər iki yazıçının əsərlərində həyat eşqi və şəxsiyyətin azadlığı ideyasının bütün aydınlığı ilə hiss olunur.

"Nizaminin bu poemasında şərqdəki feodal münasibətlərin və xüsusi mülkiyyətin doğurduğu ağır mühitdə faciəli surətdə məhv olan Leyli və Məcnunun həm sevgisində, həm də keçirdikləri ağır əzablarda öz məhəbbətini, öz həyat eşqini müdafiə edən insanın səsi eşidilir". Bu motivlər Qərbi Avropa intibahının görkəmli nümayəndəsi olan Şekspirin "Romeo və Cülyetta" əsərinin də səciyyəvi motivlərindəndir. Nizaminin "Leyli və Məcnun" əsəri ilə Şekspirin "Romeo və Cülyetta" əsərləri daim müqayisə və müzakirə obyektinə çevrilir.

"Leyli və Məcnun"u Şekspirin "Romeo və Cülyetta"sı ilə müqayisə etdikdə aydın olur ki, bu əsərləri birləşdirən ümumi bir cəhət var. Belə ki, hər iki əsərin süjet xəttini saf məhəbbət, güclü eşq motivləri təşkil edir. Əsərlərin hər ikisində iki gəncin faciəli sevgisindən bəhs edilir. Romeonun davranışı və fikirləri, Cülyettaya olan məhəbbəti, eşqinə son nəfəsinədək sadiq olması tamamilə Məcnunun eşqini xatırladır. Nizami "Leyli və Məcnun" poemasında insanın mənəvi əsarətinə və məhəbbətin faciəsinə səbəb olan ictimai-dini ziddiyyətləti tənqid etmişdir. Şekspir isə renessans adamının feodal qayda-qanunlara qarşı mübarizəsini təsvir etmişdir.

Nizaminin "Leyli və Məcnun" və Şekspirin "Romeo və Cülyetta"sının hər ikisinin mövzusu əvvəlki dövr əsərlərindən götürülmüşdür. Nizami öz əsərini ərəb əfsanəsi, Şekspir isə Nizaminin "Leyli və Məcnun" poemasından bəhrələnərək yazmışdır.

Şekspirin əsərlərində insan şəxsiyyətinin ədalətsiz qanunlar əleyhinə mübarizəsindəki böyük faciəsi, kədərli taleyi öz düzgün bədii inikasını tapmışsa, Nizaminin əsərlərində də insanın yaradıcı qüvvələrinə, zəhmətkeş kütlələrin yaradıcılıq arzusuna və ümumiyyətlə insan zəhmətinin həyatı dəyişdirici gücünə böyük inam hissi ifadə olunmuşdur.

Hər iki əsərdə qadın obrazları ictimai-dini və feodal qayda-qanunların qurbanlarıdır. Lakin gözəllik və sevgi təcəssümü olan bu qadınlar öz sevgilərinə daima sadiq qalırlar. Yaşadığı dövrün çətin mühitini və müəyyən qadağaları nəzərə alaraq deyə bilərik ki, Leyli öz sevgisinə sadiq qalmaq üçün əlindən gələni edir, Məcnunla görüşmək kimi çətin bir işi həyata keçirir.

"Romeo və Cülyetta" əsərindəki Cülyetta Leyliyə nisbətən daha cəsarətlidir və güclü iradəyə sabibdir. Cülyetta öz sevgisi naminə ailəsindən üz döndərməyi gözə alır və Romeo ilə kilsədə gizli nigaha girir. Romeonun vəfatından sonra Cülyettanın gözündə həyat mənasız olur və o, mərdliklə ölümü seçir. Cülyetta, təkcə ailə daxili adətlərə qarşı deyil, bütün feodal qayda-qanunlarına etiraz olaraq üsyan edir. O, yaşadığı şəhərdən sürgün edilmiş Romeo ilə bir daha görüşə bilməyəcəyini təsəvvürünə belə gətirə bilmir. Cülyetta əmioğlusunu istəmədən qətlə yetirən, ailəsinin qan düşməninə çevrilən Romeoya olan sevgisindən üz döndərə bilmir.

Bundan əlavə olaraq kişi obrazını canlandıran digər tərəflər də cəsur, sadiq və dürüstlüyü ilə eyni xarakterin xüsusiyyətlərini özündə cəmləşdirmişdir. Məcnun ilahi eşqi Romeonun dünyəvi eşqindən fərqli olsa da hər iki qəhrəman öz sevdiyi qadın uğrunda mübarizə aparır. Məcnun cəmiyyətdən üz döndərərək, Romeo isə cəmiyyətin qayda-qanunlarına baş qaldıraraq öz mübarizə yollarını seçirlər.

Nizami bu əsərdə Məcnunu bilikli və yüksək istedada malik bir şair kimi qələmə almışdır. Şair Məcnun obrazı ilə insanpərvər ideallarını xalqın qulağına çatdırmaq, onun ruhuna təsir etməklə yeni əxlaqi keyfiyyətləri aşılamaq istəyir. O, belə hesab edirdi ki, əsil məhəbbət hissi heç bir zaman insanlar arasındakı düşmənçilik və kin-küdrətlə barışa bilməz, çünki insanlar arasındakı düşmənçilik, kin, paxıllıq və riyakarlıq

kimi alçaq hisslər böyük məhəbbət hissinin qarşısında həmişə məğlub olmuş və bundan sonra da məğlub olacaqdır.

Akademik Həmid Araslı Məcnun eşqindən bəhs edərkən qeyd edir ki, *"Nizami bu obrazda, şəxsi azadlığı hər şeydən üstün tutan, dövrünün qayda-qanunlarına boyun əyməyən, eşqi, məhəbbəti tapdalanan, müasirləri tərəfindən rəğbət görməyən bir şairin, böyük bir insanın faciəsini təsvir edir."*

Bu əsərlərdə realist təsvir, həyati, canlı, oxşar səhnələr və hadisələrlə dolu romantik əhval-ruhiyyə, təxəyyül öz əksini tapmışdır.

ƏLİ BƏY HÜSEYNZADƏNİN "QƏRBİN İKİ DASTANINDA TÜRK" ƏSƏRİNƏ BİR NƏZƏR

İbadlı S.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail: ibadlisahibe@gmail.com

Ədəbiyyatda özünəməxsus cığır açıb bu yolda xələflərini aparmaq hər ədibin bacara biləcəyi iş deyil. Bu xoşbəxtlik Əli bəy Hüseynzadəyə nəsib olmuşdur. O, Şərq və Qərb qovşağında duran ədibdir. Əli bəyin bu cığırında 3 ideya birləşir. Türkləşmək, islamlaşmaq və avropalaşmaq. Əsərlərində İslamı və türklüyü əsas mövzu götürən Əli bəy buna görə çoxsaylı qınaqlara,çətinliklərə məruz qalmışdır. İslam və Türk mövzusu nə qədər çətin olsa da çox uğurlu şəkildə tarixdə iz qoymağı bacardı Hüseynzadə.

Öz tarixi gücünü öyrənən türklər daim Hüseynzadə adını üstün bilmişdir. Kim olduğunu soruşanda qorxudan "müsəlmanam"- deyən türkə türk olduğunu söylətmək bir növ tarixi qələbə hesab edilirdi. Bunu öz əsərləri ilə bacaran Əli bəy böyük ədibdir. Hətta bir dəfə məhkəmə sədrinin Əli bəyə'siz şiəsiniz'sualına 'xeyr, mən Azərbaycan türküyəm'cavabını vermişdir. Öz əqidəsindən dönməyən Əli bəy Hüseynzadə türk tarixinin fəxr ediləsi ədiblərindəndir.

Əli bəy Hüseynzadənin türk dünyasının yoluna lampa tutan ədib olduğunu desək yanılmarıq. Çətin yolu öz əsərləri ilə işıqlandıran ədibin Türklər haqqında 'Qərbin iki dastanında türk'əsərini 1923-cü ildə yazmağa başlamışdır. Əsəri yazmağına səbəb səlib yürüşləri ilə əlaqələndirilir. Ədib düşünürdü ki, səlib yürüşləri Türklərin o dövrdə güclənməsi ilə əlaqədar başlamışdır.

Torkvato Tassodan tərcümə etdiyi və əsərin sonuna daxil ediliş parça 1923-cü ildə 'İctihad' dərgsinin 153-cü sayında 'Qazi əsgərimizə' başlığı ilə dərc olunmuşdur. 1926-cı ildə keçirilən Türkoloji Qurultayda 'Qərbin iki dastanında türk' əsərinin məruzə mətni olaraq göstərildiyi deyilsə də dəqiq məlumat yoxdur. 1926-cı ilin avqustunda İstanbulda keçirilən Istiqlal məhkəməsində Hüseynzadə bu əsəri 'Qazinin mənqəbəsi', Atatürkün tərifi adlandırmışdır.

Əsər ilk dəfə 1926-cı ildə 45 səhifəlik kitab şəklində Bakıda 'Üçüncü İnternasional Mətbəəsi'ndə latın qrafikası ilə nəşr olunmuşdur.

'Qərbin iki dastanında türk' əsərində Hüseynzadə Şaumyanın başçılığı ilə 17000 azərbaycanlının qətlə yetirildiyi 1918,31 mart soyqırmını qələmə almışdır. Ədib əsərdə Bakıda, Gəncədə ,Qubada 10000 türkün erməni daşnakları tərəfindən amansızca qətlə yetirildiyini qələmə almış və bu soyqırıma vətəndaş müharibəsi adının verilməsini xüsusi vurğulayırdı.

Bir tərəfdən də qərbdə Türklərin sevilməməsinin səbəbini müsəlman olmaqları ilə də əlaqələndirirdi Hüseynzadə. Hələ Qərbə köç edən zaman oğuz türkləri İslamı yaymağa nail ola bilmişdilər. Hun hökmdarı Atillanı Türk dünyasının qəhrəmanı göstərirdi Hüseynzadə. Atilla haqqında əsərdə məlumat vermiş və İslamın yayılmasında Atillanın rolunu vurğulamışdır.

Əli bəyin böyük ustalığı onda idi ki, Türk dünyası ilə bağlı tək öz düşüncələrini deyil, həm də dünya klassiklərinin də türklərə olan münasibətini işıqlandırırdı. 'Qərbin iki dastanında türk' əsərində də türklərə qarşı formalaşmış mənfi və müsbət olmaqla fikirləri qələmə alır.

Əli bəy Hüseynzadə 'Qurtarılmış Qüds', 'Luziada' haqqında danışmamışdan əvvəl onlar haqqında öz fikirlərini və öz əsəri ilə oxşarlıqlarını fərqliliklərini göstərir.

Məsələn, o dövr İslam əleyhinə olan fikirləri faktlarla sitat gətirir və daha sonra Tasso ilə Kamensonu müqayisə edir Tassonun İslamı daha dərindən anladığını, Kamensonun isə Türkləri vəhşi qəddar, barbar adlandrdığını qeyd edir.

Əli bəy daha çox mətbuata meyilli idi ki, yazdıqlarının bu şəkildə daha tez yayılacağından əmin idi. Daha çox türkçülük ideologiyasını yaymağa istiqamətlənən fikirləri Hacı Zeynalabdin Tağıyev və Əhməd Ağaoğlu ilə birlikdə yaratdığı "Həyat" qəzetinin nəşrinə başlaması onun ideologiyasınn inkişafında mühüm rol oynadı.

YAROSLAV HAŞEKİN YARADICILIĞINDA "ŞVEYK" FENOMENİ

İbadova N.İ.
Bakı Slavyan Universiteti
E-mail: narminibadova90@gmail.com

Yaroslav Haşek çex ədəbiyyatının və dünya ədəbiyyatının korifeylərindən biridir. O, yaradıcılığına yol qeydləri və reportajlar ilə başlamışdır.Yaradıcılığının davamını isə satirik novellaları ilə davam etdirmişdir. Yaroslav Haşekin yaradıcılığında ən yüksək zirvədə dayanan 1911-ci ildə yazdığı "Cəsur əsgər Şveykin sərgüzəştləri" romanıdır. Bu əsəri Y.Haşek "Gic hərbi hissədə" başlığı ilə yazmağa başlamışdır. Bu romanla Haşek çex yumoristik ensiklopediyasının əsasını qoymağı bacardı. Əsərin baş qəhrəmanı "Şveyk" dir.

"Cəsur əsgər Şveykinin sərgüzəştləri" müharibə əleyhinə yazılan romanlardan biridir. Hətta romanda o dövrdə baş verən rəzillikləri satirik yumorla ortaya çıxarmağa çalışmışdır. Bu əsərdə "Şveyk" obrazı ilə sadə xalqın müharibə dövründə çəkdiyi əziyyətlər və onlardan millətçilik ruhunu yüksəltmək üçün axmaq şəkildə istifadə edildiyinin təsvirini görürük. Amerikalı yazıçı, Yaroslav Haşek kimi qara yumor yazarlarından biri olan Jozef Heller bildirmişdir ki, o "Cəsur əsgər Şveykin sərgüzəştləri" romanını oxumasaydı və onun əsas qəhrəmanı olan "Şveyk" obrazı ilə tanış olmasaydı, o XX əsrin ikinci yarısının ən məhşur qara yumor anti-müharibə romanı olan "Maddə 22" ni yaza bilməzdi.

"Cəsur əsgər Şveykin sərgüzəştləri" romanı həm müharibə əleyhinə yazılmış və bununla bərabər həmdə zəngin zadəganların iç üzlərinin göstərilməsini ön plana çəkən bir əsərdir. Çünki bu əsər yazılan dövrdə I Dünya müharibəsi başlamışdır.Bu müharibə sadə xalqın əzildiyini və əziyyət çəkdiyini göstərirdi. Haşek bu əsərlə xalqın zülm çəkdiyini və yüksək təbəqənin iyrəncliklərini ortaya qoyurdu. Qara yumor vasitəsi ilə onu dünyaya çatdırmağa çalışırdı. Şveyk cahil, savadsız və geridəqalmış bir insan deyildi. Danışan zaman öz fikirlərini əsasən Praqa dilində çatdırsa da, əslində o, ensiklopedik biliyə malik olan bir qəhrəmandır. O, insanları yaxından müşahidə edir,yüksək təbəqənin, hətta sadə xalqın nümayəndələri ilə ünsiyyət qursa da, onlara qarşı olan real fikirlərini büruzə vermirdi. Şveyk obrazı sanki baş verənlər haqqında xalqa məlumat çatdırmağa çalışırdı. Şveyk Avstriya- Macarıstan müharibəsini "axmaq bir monarxiya" adlandırmış, bu fikirlə xalqın müharibədən nəqədər əziyyət çəkdiyini ön plana çıxartmışdır. "Şveyk" qəhrəmanı öz simasında müharibədə baş verənləri ələ salır, məxsərəyə qoyurdu. Y. Haşekin yaratdığı bu obrazın ən böyük qələbəsi isə insanların baş verən çətinliklər, müharibələr və özbaşınalıqlar qarşısında sağ qalmaq üçün mubarizə aparması idi.

Şveyk real həyatda olan bir qəhrəman deyildi. O, yaşanmamış bir obraz idi. Amma bəzi tədqiqatlarda göstərilir ki, Şveyk canlı bir obrazdır və Haşek onun ilə birgə əsgərlikdə, daha sonra isə əsirlikdə olduğu zaman qarşılaşmışdı. Azad olunduqdan sonra canlı şəxsiyyətin obrazını yaratmağı istəyi meydana gəlmişdi. Qısaca desək Şveyk xaraterinə görə çox mürəkkəb və olduqca ziddiyyətli bir qəhrəmandır. Yəni, baş verənlər qarşısında özünü çətin vəziyyətə salır və özünü axmaq kimi aparır. Daha sonra isə bu çətinlikdən kifayət qədər ağıllı formada çıxmağı bacarırdı.

Y. Haşek bu obrazı bilərəkdən ədəbiyyata gətirmişdir. Haşek "Şveyk"–in simasında köhnə, burjua həyatının pisliklərini ortaya çıxarır, və köhnə dəyərlərin sökülməsinə nail olurdu. Haşek ilk dəfə "Şveyk" qəhrəmanının yer aldığı "Cəsur əsgər Şveykin sərgüzəştləri" yarımçıq qalan satirik romanını nəşriyyatlarda çap etməyə başlayanda, nəşriyyatlar "Şveyk"-in vulqar danışığına, vulqarizmlərinə görə çap etməkdən boyun qaçırtmışdılar.Buna görə də Y.Haşek ilk nömrələri öz hesabına çap etdirmişdir və bununla da romanı ilk dəfə çex xalqına daha sonra bütün dünyaya sevdirmişdir. Bununla da Şveykin bütün həyatını sadə xalqın həyatı ilə eyniləşdirən Haşek, qocalıq və ölüm anını öz həyatı ilə eyniləşdirmişdir.

Bu roman dünya ədəbiyyatının inciləri sırasına daxil edilmiş və bu gün də dildən düşməyən, araşdırılan əsərlərdən birinə çevrilmişdir.

NATİQ RƏSULZADƏNİN YARADICILIĞINDA " QOLFSTRİM" ƏSƏRİNİN YERİ

İmanova C.E.
Bakı Slavyan Universiteti
E-mail: imanov-elnur@icloud.com

Müasir yazıçılar nəslinin ən tanınmış nümayəndələrindən biri, əsərləri ilə ölkənin hüdüdlarından kənarda da oxucuların rəğbətini qazanmış Natiq Rəsulzadənin ədəbiyyata aparan məxsusi yolu vardır.

Son illər bədii-sənədli nəsr əsərlərinin sayı artdıqca, klassik janrın yeni formaları yaranmaqdadır. Nəsr janrı daha yığcam və çətindir. Çünki, burada müəllif kiçik misralara geniş mənanı sığdırmağa çalışır.

Müasir dövrdə qələmə alınmış bir çox bədii-sənədli əsərlərdə bədii və elmi yanaşmanın sintezi yer alır. Roman – rekonstruksiyalar, son illər yaranan əsərlərdə müəllif mövqeyinin tədqiqatçı mövqeyi ilə yaxınlaşması, zənnimizcə bu prosesin təzahürlərindəndir.

Natiq Rəsulzadənin rus dilində qələmə aldığı " Qolfstrim" (2015) əsəri bədii- sənədli nəsrə aid olub, avtobioqrafik əsərlər sırasına aid edil bilər.

Bu əsərdə müəllif özünün iç dünyasına baş vuraraq O, uşaqlığa qayıdış, sonralar səxsiyyət kimi formalaşmasında rol oynayan həyat faktlarına yenidən nəzər salmağa çalışmışdır.

Əsər, uşaqlıqla bağlı xatirələrin yığcam xronotopu doğma məhəllə, gənclik illərində isə Moskvada yaşanan hadisələr, əsasən yaxınları ata və anası, həmyaşıdları ilə münasibətlərinin təsviri ilə əhatələnmişdir.

Bir çox avtobioqrafik əsərlərdə olduğu kimi, bu romanda, müəllifin uşaqlıq həyatının altını-üstünə çevirən hadisənin təsviri ilə başlanır.

Altı yaşlı oğlanın qipsdən düzəltdiyi Pəhləvan büstünün " düşməni" tərəfindən məhv edilir, hansı ki, bu büst onun yaradıcılığının zirvəsi saydığı əsər idi. Balacanın ilk yaradıcılıq eksperimentləri (heykəltaraşlıq, hekayələr uydurması) və bu xüsusiyyətləri ilə yaşıdlarından fərqlənməsi, tənhalığı, ömrünün sevincli məqamları, məhəbbəti, qorxuları, ilk velosipedi, ilk dəbli paltarı, gənclik illərində peşəkar yaradıcılığa başlaması, ilk əsərinin çapı ilə yaşanan həyəcanın və.s təsvir edildiyi bu romana emosional, gərgin atmosfer xasdır.Əsərin əsas obrazlarından birilərida ana və atadır. Əsərdə valideyinlərin obrazları sanki ikinci planda verilsədə, əsərin ideya yükü bir çox məqamlarda bu personajlar vasitəsilə ifadə edilmişdir. Məsələn, müəllif anasının xatirələrinə əsasən, anasının körpə ikən geyindiyi ayaqqabısını ridikülündə saxlamasından bəhs edərək özünün xarakterik xüsusiyyətinə - təbiətcə qayğıkeş olmasına diqqət yönəltməyə çalışmışdır.Atasından bəhs edən yazıçı, Onun bütün ömrünü ailəsinin qayğısını çəkməyə həsr etmiş biri olduğunu yazır.O, bu əsərdə, atasının güclü olması ilə fəxr edən balaca bəzən istədiyi reaksiyanı görməsə də, cəsur ata idealı müəyyən məqamlarda iflasa uğrasada, ata zəhmətlə ailəsini dolandırmağa çalışan müsbət insan olaraq xatırlanmışdır. Ümumiyyətlə valideyinləri ilə bağlı hissələrdə müəllifin stereotiplərdən kənara çıxmaqdan çəkindiyi müşahidə olunur.

Göründüyü kimi əsərdə yazıçı, konkret insanlar, hadisələrlə bərabər, müxtəlif illərdə həyata keçirdiyi işlərdən bəhs etmişdir. Əsər həm yeni janr yaradıcılığı sahəsində eksperiment, həm də uşaqlıq illəri ilə bağlı orijinal əsər olaraq maraq doğurur.

MÜHACİRƏT FOLKLORŞÜNASLIĞININ DƏYƏRLİ ÖRNƏK VƏ NÜMAYƏNDƏLƏRİ

İsmayılov Ə.R.
Bakı Slavyan Universiteti
E-mail: ali-bsu@mail.ru

XIX əsrin son onilliyindən başlayaraq Azərbaycanda baş verən siyasi hadisələr bir çox sahələrdə olduğu kimi ədəbiyyatımızdan da təsirsiz ötüşməmişdir. Baş verən hadisələr vətəni istiqlaliyyətinə qovuşdurmaq arzusunda olan bir çox ziyalıların mübarizəni davam etdirmək məqsədilə başqa ölkələrə üz tutması ilə nəticələndi. Öz vətənindən ayrı düşmüş bu fədakar insanlar xalq yaradıcılığı nümunələrinə öz azadlıq mübarizələrinin tərkib hissəsi kimi yanaşırdılar ki, bu da mühacirətdə folklorşünaslığın yaranmasını zəruri edən ən əsas şərt və amillərdən biri idi. Azərbaycan mühacirət folklorşünaslarının fəaliyyət yoluna nəzər yetirsək dünyanın bir çox ölkələrində - Almaniya, Fransa, Polşa, Amerika, İngiltərə, İsveç, və Türkiyədə rast gəlmək mümkündür. Vətənlərini ürək yanğısı ilə tərk edən ziyalılar öz doğma yurd-yuvalarından kənarda yaşasalar da xalq yaradıcılığı örnəklərini unutmamış, folklorşünaslığa töhfələr vermişlər. Azərbaycan mühacirət folklorşünaslığının yaranması təxminən XIX əsrin sonlarına təsadüf edir. Ədəbiyyatımızda bu dövrü dörd mərhələyə aid etmək mümkündür: XIX əsrin sonlarından Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər dövrü əhatə edən mühacirət; 1920-ci il sovet hakimiyyətinin qurulmasından İkinci Dünya müharibəsinə qədər dövrü əhatə edən mühacirət; İkinci Dünya müharibəsi dövründə mühacirət; 1978-ci il İran inqilabından və 1991-ci il Azərbaycanın müstəqilliyinin elan olunmasından sonraki dövrə aid mühacirət .

Bunu da qeyd etmək lazımdır ki, mühacirət folklorşünaslığının ən fəal dövrü ikinci və üçüncü mərhələyə - sovet hakimiyyəti illərinə təsadüf etməkdədir. Bunun da əsas səbəbi sovet siyasi rejiminin türk xalqlarına qarşı olan qeyri-obyektiv münasibəti ilə bağlıdır. Mühacirətdə yaşamaq məcburiyyətində qalan

ziyalılar folklorun müxtəlif janrları - bayatılar, xalq mahnıları, atalar sözləri, tapmacalar, əfsanələr, rəvayətlər, nağıllar, lətifələr, inanclar, ovsunlar, əmək nəğmələri, dastanlarla bağlı tədqiqatlar aparmışlar. Mühacirət folklorşünaslığının mövzu istiqamətləri çox rəngarəngdir. Ümumilikdə, folklor materialları əsasən iki aspektdə araşdırılmışdır: 1) ədəbi-nəzəri, 2) ictimai-siyasi. Xalq ədəbiyyatının ayrı-ayrı janrları əsasən elmi-nəzəri cəhətdən tədqiq edilmişdirsə, siyasi məqsədlə yazılan tədqiqatlarda isə folklorun mənəvi təsir gücündən məharətlə istifadə olunmuşdur. Elmi-nəzəri və ya siyasi məqsədlə yazılan tədqiqatlarda vətənin istiqlalı, hürriyyəti, vətən həsrəti ön planda verilmişdir. Azərbaycan mühacirət folklorşünaslarından - Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cəfəroğlu, Ceyhun bəy Hacı bəyli, Mirzə Bala Məmmədzadə, Səlim Rəfiq Rəfioğlu, Məmməd Sadıq Sənan, Mirzadə Mustafa Fəxrəddin, Hilal Münşi, Məcid Musazadə, Nağı Keykurun, Hüseyn Baykara, Əbdülvahab Yurdsevər, Əziz Alpaut, Əziz Özər, Mustafa Haqqı Türkəqul, Yunus Lənkəranlı, Nəbi Turablı, Əli Volkan, İren Melikoff, Xavər Aslan, Həmid Nitqi, Behruz Fləqqi və başqaları vətənindən uzaqlarda xalqının zəngin mənəvi sərvətlərinin düzgün, qərəzsiz tanıtdırılması uğrunda mübarizə aparmış, xalq ədəbiyyatının bütün janrlarını araşdırmış nəticədə mühacirətdə folklorla bağlı çox zəngin tədqiqatlar yaranmışdır. Toplanan folklor nümunələri müxtəlif dillərə tərcümə edilmiş, bir çox ölkələrdə nəşr və təbliğ olunmuşdur. Aparılan tədqiqatlar folklor örnəklərinin unudulmasının qarşısını almaq, vətəni dünyada tanıtdırmaq arzusundan irəli gəlmişdirsə, digər tərəfdən, ziyalıların qürbət acılarını, vətən həsrətini qismən azaltmış, onlara təskinlik vermişdir.

Mühacirət folklorşünaslığı bu gün də əsas tətqiqat obyektlərindən olaraq, bir çox ziyalı və ailmlər tərəfindən araşdırılır.

ŞƏMİL SADİQİN "ODƏRLƏR"ƏSƏRİNDƏ TÜRKÜN RUHU MOTİVİ

Kamilova N.M.
Sumqayıt Dövlət Universiteti
E-mail: nrminkamilova@gmail.com

Şamil Sadiqovun "Odərlər" romanında türk toplumun milli oyanışından bəhs olunur. Türkün kimliyi, əxlaqı, ruhu, saf qanı daim müsbət mənada önə çəkilir. Odər sözündə od-alov, ocağ, işıq mənasını verir. Ər isə igid, ərən sözündəndir. Bu sözü müəllifin həm əsərin, həm də dəstənin adında istifadə etməsi təsdüfi deyil. O, ərənlərin timsalında işığı tapmaq istəyir, həqiqət işığını. Odərlər dəstəsi isə bir amal üzrə türk soykökü, dini, dili, vətənin azadlığı uğrunda mübarizə aparırlar.

Əsərdə qəhrəmanın "dünyadan bixəbər" kəndə gəlib, nal axtarması da təsadüfi deyil. At türklərdə qeyrət rəmzidir. Türklər iki halda at belinə minərdilər: Düşmən üstünə döyüşə gedəndə və qələbəsini bayram edəndə.Kənddə isə igidlər qorxaqlaşmış,atlar isə minilmədiyindən yabılaşmışdılar. Belə halda kənddə nalın tapılması da müşkül məsələ idi. Gənc isə ümidini itirmir, ona verilən tapşırığı yerinə yetirmək üçün kəndlilərdən soraqlaşa-soraqlaşa qoca qurdlardan hesab olunan nalbənd Dəmirçioğlunu tapır. Dəmirçioğlu mərd kişi idi. Gəncliyində özündən mənəm- mənəm deyən çox Koroğluları yerə sərmişdi. Dəmirçioğlu əsl saf qan türklərdən olduğu üçün qarşısındakı saf qanlı türk oğlunun gələcəkdə nəyə qadir olacağını da anlayırdı. Gəncin ona göstərdiyi nalı isə yalnız Ata kişinin düzətdiyini deyib, ora getmək üçün at lazım olduğunu və öz atını ona verə biləcəyini söyləyir. Atı görən gəncin qanında türk ruhu sanki cuşa gəlir. Axı at Qarabağ cinsindən idi. Yorğa duruşu, düz beli, enli gövdəsi ilə bu atı görcək onda türk ruhu alovlanır, qürür hissi yaranır. Müəllif hesab edirdi ki, türk ruhuyla at çapmaq, türklüyünü sübut etmək mənəvi haqq tələb edir.

Əsərdə müəllif "Koroğlu" dastanının qeyrət rəmzlərindən olan Koroğlunun sanki prototipini yaradır. Əsl adı Arslan olan gənci Qoroğlu adlandırır. Ona veriləcək tapşırıq isə türklərin qədim kitabının tapılıb, mənfur əməllərində istifadə etmək istəyənlərin əlinə keçmədən, saf qanlı türklərdən təşkil olunan ocağa təqdim etməkdən ibarət idi. Müəllif əsərində məlumat xarakterli mətnlər də verir, yadellilərin əlinə keçərək biri Vatikana, digəri isə Çinə aparılan kitablardan bəhs edir. Bunlar türkün keçmişini, tarixini,milli qədimliyini sübut edən edən amillərdir.

Kitablar türk qüdrətindən qorxanlar təfindən təhrif olunmuş, saxtalaşdırılmışdır. Artıq o kitablar özlüyündə həqiqəti əks etdirmirdi. Sonuncu üçüncü kitab isə həm digər iki kitab haqqında həm də türklərin qədimliyi, qüdrəti eyni zamanda dünyəvi sirlərini özündə cəmləşdirir. Elə buna görədə bu tapşırıq üçün Qoroğlu düz 10 il "Ata ocağı"nın nümayəndəsi Dədə Əfəndidən dərs alır.

Təsadüfi deyil ki, Arslan tapşırığı həyata keçirmək üçün N saylı hərbi hissəyə göndərilmişdi. Kəşfiyyatın sirlərini dərindən öyrənir, hətta tez-tez də Qarabağ ərazisinə kəşfiyyata da gedirdi. Qəhrəman

Mübariz İbrahimov göstərdiyi şücaətdən sonra Arslan və onun kimi digər kəşfiyyatçı dostları da bu tipli ideyalarla kapitanları Altay Cavadova müraciət edirdilər. Lakin kapitanın "vaxtı gələndə gedərik" ifadəsi Arslan və silahdaşlarını işdən soyudur. Əsas məqsəd Şuşaya gedib Azərbaycan bayrağını orada dalğalandırmaq idi. Ancaq kəşfiyyatın gedişində məlum olur ki, Xankəndi, qondarma Dağlıq Qarabağ Respublikası azad edilməlidir. Hər iki planın alt qatında isə Arslanın gizli tapşırığı yer alırdı.

Əsərdə dini və milli qarşıdurmalar həm Odərlərin bir- birləri ilə olan söhbətlərində, həm də Dədə Əfəndinin Arslana danışdığı həqiqətlərdə öz əksini tapır. Müəllif "türkün qədimliyini, Allahdan başqa din tanımaması, eyni zamanda özününinandığı dəyərlərə, qayda-qanunlara, əxlaq və vərdişlərə, adət və ənənələrə sadiq olduğu ideyasını önə çəkir". Dədə Əfəndi deyir ki, indiki İslam dinində olan bir çox dini ayinlər (qurban kəsmək, nəzir vermək, sədəqə paylamaq) qədim türklərdə həmişə mövcud idi. Əski türklərin "tura"deyilən qanunları vardı ki, xaqanla bərabər hər kəs bu qaydaya itaət etməyə borclu idi, ona qarşı çıxanlar isə sərt cəzalandırılırdı**.**

Ədalət, yaxşılıq, insanlıq, faydalılıq, və cahani olmaq turanın əsas qayəsi idi. Türklər bunu İslam dinində də gördükləri üçün, İslama hörmətlə yanaşmış və özləri üçün bu dini müqəddəs sayıb yaşatmışlar. Dədə Əfəndinin söylədiklərindən isə belə nəticə çıxır ki, ən qədim xalq türklər olmuş, dünyanın bütün sirlərinə agah olanların uydurulmuş dinlərə qədər dinləri də olmuş, hətta dini kitabları da. Türklər həmişə göydəki tək Tanrıya inanmış, elə bu səbəbdən İslamı tanımışlar. Qeyd edək ki, müəllif əsərdə islamı inkar etmir. Ş.Sadiq özü əsərlə bağlı fikirlərini sərgiləyərək doğru deyir ki, əsərdə "dinləri qəbul etməyən obrazlar olduğu kimi, Məhəmməd və Altay kimi dindar obrazlar da var".

Digər bir məqam isə Elçinlə kapitanın söhbəti əsnasında ortaya çıxır. Burda müəllifin ərəblərə münasibətini, həm də türkcü dini görüşlərini görürük. Kapitan Babəki islam dininin qatı düşməni adlandırır. Əslində isə Babək əsl türk ruhlu sərkərdə olub. Torpaqlarının vahidliyi uğrunda daim mübarizə aparıb. Komandir nə qədər də qəbul etmək istəməsə də onun qəlbindəki torpaq, yurd-yuva sevgisi qanının saf türk qanı olması ilə bağlı idi.

Torpağa bağlılıq qandan gəlir sözünü əbəs demiyiblər. "Ərəblər gürcü və ermənilərin dininə niyə toxunmayıb?"-bu məsələ də Elçini daim düşündürürdü."Babək olmasa idi, sənin o ərəblərin bu ermənilər də müsəlmanlaşdıracaqdı? Niyə onlar erməni və gürcüləri işğal etmək istəməyib, dinlərindən döndərməyiblər? – Çünki o zaman onlar təkallahlığa və Allahın göndərdiyi kitaba inanırdılar.–Babəkin də öz dini vardı və ona inamı da yerində idi. Bir də ki Babəkin davası din davası deyildi axı, o, torpağını qoruyurdu!". Əsərdə təkcə bunlar deyil əsgərlərin hər məqamda çətinliklərə sinə gərərək, dar məqamda dostunu atmadan, necə deyərlər qardaşlıq edərək bu çətinliklərdən çıxmaları da onların birlik əks etdirən türk ruhundan irəli gəlirdi.

Türk ruhu, milli sevgi təkcə kişilərə xas xüsusiyyət deyil. Əslən bolqar türklərindən olan Boqomilla jurnalist idi. Mətbuatda çap olunan yazılarında isə türklərin dünya üçün təhlükə yaratdığını bildirirdi. Əslində isə türklər üçün işləyən kəşfiyyatçı idi.

Bu yazıları ilə o özünü qoruyurdu. Bundan başqa o gizlin bir kitab da yazırdı. Kitabda yazıları nə üçün belə yazdığı, kim tərəfindən sifariş verildiyi, əsas siyasətin kim tərəfindən idarə edildiyini açıq-aşkar bildiridi. Bunun ona baha başa gələcəyini də bilirdi. "Ata ocağı"dan ona verilən tapşırıq isə bundan ibarət idi ki, əsgərlərdən kimsə Azərbaycan bayrağını binaya sancanda Boqomilla bunu çəkib ocağın nümayəndələrinə göndərməli idi. O, bunu bacardı da.

Məhəmməd bayrağı sancandan sonra düşmənlərə səslənərək, qürur mənbəyi olan Azərbaycan bayrağını göstərib, ona təzim etməli, öz bayraqlarına göstərmədikləri hörməti belə Azərbaycanın şanlı bayrağına göstərməli olduqlarını vurğulayır. Bu sözlər həm ocağa, həm də bütün dünyaya bir əmr, bir göstəriş kimi səslənir. Amma yazdığı kitab onun sonunu gətirdi. Kimsə kitab haqqında xəbər tutmuş, Boqomillanın öldürülməsini əmr etmişdi. O isə tapşırığı yerinə yetirəndən sonra tutulmamaq üçün zəhər içib özünü öldürmüşdü.

Qarabağ məsələsindəki hərc-mərcliyin əsas səbəblərindən biri də dövlət idarə sistemindəki görünməyən, ikiüzlü qanı murdarların satqınlığı idi. Buna baxmayaraq Prezidenin necə türk ruhlu olduğu, torpağının hər qarışını canı kimi sevdiyini onun dilindən anlaya bilirik. Yol bitib maneələrsə qalıb. İndi əsas məqsəd maneələri aşıb məqsədə doğru getməkdir.

Xankəndində bunlar baş verəndə Arslan da Şuşada Dədə Əfəndinin ona tapşırdığı kitabı tapmaq üçün bir mağaraya girir. O bilirdi ki, necə olur olsun bu kitabı tapıb ocağa aparmalıdı. Türk iradəsi və qarşısına qoyduğu məqsəd ilə bunu bacarmalıydı.

Hər iki tapşırıq çox qurbanlara səbəb olsa da uğurla başa çatır. Bunun başlıca səbəbi isə türkün birliyi, vətən, millət sevgisi, ən əsası isə ruhu və damarından axan qanıdır.

DASTANLARIMIZDAKI MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİN ABDULLA SUR YARADICILIĞINA TƏSİRİ

Novruzova C.N.
Bakı Slavyan Universiteti
E-mail: Novruzovacemile0@gmail.com

İlkin tənqidi-estetik düşüncənin folklor qaynaqlarına söykənməsi ilə bağlı ədəbiyyatşünaslıqda fikir ayrılığı yoxdur. Bu isə folklorun ümumən bədii söz yaradıcılığının bünövrəsi kimi dəyərləndirilməsilə yanaşı, həm də onun tənqidi-estetik düşüncənin başlanğıcı kimi şərtlənməsini təmin edir. (Bax: Sultanlı Vaqif "Azərbaycan ədəbi tənqidi" səh. 48) Milli mənəvi dəyərlərimizin formalaşmasında böyük rola malik, folklorumuzun ən dəyərli janrlarından olan dastanlarımız da yazılı ədəbiyyata güclü təsir göstərmişdir Bunu Mirzə Abdulla Məmmədzadə Tofiq (Abdulla Sur) (1883-1912) yaradıcılığında da aydın görmək olur.. Orta əsrlərdən başlayaraq Gəncədə dastan mühiti formalaşmışdır. Neçə dastanımızda bu qədim şəhərin adı çəkilmiş, aşıqlar burada dastanlar danışmışlar. Bunlardan "Qurbani" dastanı və "Əsli və Kərəm" dastanından müəyyən hissələri nümunə kimi göstərə bilərik.

Abdulla Sur da necə deyərlər, gözünü açandan aşıqları görmüş, dastanları dinləmişdir. Yeniyetməliyindən mədrəsədə təhsil aldığından yaradıcılığı yazılı ədəbiyyatın təsiri altında formalamışdır. Buna baxmayaraq onun şeirlərində, məqalələrində folklorumuzun təsiri açıq-aydın görülməkdədir. Nəinki ilk yaradıcılığında, hətta İstanbula gedərək orada universiteti bitirib geri döndükdən sonra yazdığı elmi əsərlərində də dastanlarımızın təsirini görmək olur.

Azərbaycana qayıtdıqdan sonra Abdulla Surun vətəninin mədəniyyət həyatına daha böyük töhfəsi olmuşdur. O, 1910-cu ildə vətəni Gəncədə "Ədəbiyyat və Sənət" cəmiyyətini qurmuşdur. Bu cəmiyyətin əsas məqsədi istedadlı gəncləri üzə çıxarmaq, onların gələcək təhsillərinə kömək etmək və yeni ədəbiyyat və sənət əsərlərini ortaya çıxarmaq üçün dastanlarımızdakı milli-mənəvi dəyərlərimizin təsiri altında qələmə almaqdan ibarət idi.

Ötən yüzilliyin əvvəllərində Azərbaycanın mədəni-maarif və ictimai-siyasi həyatında tanınan mütərəqqi fikirli ziyalılarımızdan biri, müəllim, istedadlı şair, ədəbiyyatşünas, tərcüməçi, jurnalist kimi tanınan Abdulla Sur dastanlarımızı bir folklorşünas kimi araşdırmamışdır. Onun folklorumuzdan bəhs edən əsəri də yoxdur. Amma dastanlarımızdan gələn milli-mənəvi dəyərlər istər şeirlərində, istər publisistik yazılarında, istərsə də elmi əsərlərində hakimdir.

Xalqının işıqlı gələcəyi üçün çalışan gənc ziyalı pedaqoji mövzuda yazdığı əsərlərində də, erməni millətçilərinin törətdikləri fitnəliklərə münasibət bildirən məqalə və publisistik yazılarında da milli-mənəvi dəyərlərə söykənir. Başqa xalqlara nifrət hissi aşılamır. Xalqına divan tutmağa çalışanlara da bəşəri dəyərlərlə münasibət bildirir, onların haqsız olduğunu yüksək mədəniyyətlə izah edir.

Dünya xalqlarının hamısının ədəbiyyatı folklordan başlanır desək, yəqin ki, yanlış olmaz. Elə buna görə də Abdulla Sur istər 1000 səhifəlik "Türk ədəbiyyatına bir nəzər" əsərində, istərsə də məqalələrində də folklorumuza, onun toplanmasına önəm verir. Klassik və çağdaş Azərbaycan və Osmanlı türk ədəbiyyatının problemleri ilə davamlı şəkildə məşğul olan Abdulla Sur, dilin və üslubun dastanlarımız kimi sadəliyi, başa düşülən olması məsələsinə olduqca böyük önəm verirdi.Elə buna görə də folkloru "mənəvi dəyərlər xəzinəsi" adlandırır.

Abdulla Surun dastanlarımızdakı milli mənəvi dəyərlərimizdən necə yararlandığını aşağıdakı kimi təhlil etməyə çalışacağıq: 1) Abdulla Surun şeirlərində dastanlarımızdan gələn milli-mənəvi dəyərlər; 2) Abdulla Surun publisistikasına şifahi xalq ədəbiyyatımızın təsiri; 3) Abdulla Surun folklorumuza münasibəti

Bu üç yöndə apardığımız araşdırma Abdulla Surun yaşadığı və böyüdüyü mühitdən necə təsirləndiyini ortaya qoyacaq.

MEDİANIN ƏDƏBİ MÜHİTƏ VƏ ƏDƏBİ TƏNQİDƏ TƏSİRİ

Piriyev N.Z.
Bakı Slavyan Universiteti
E-mail: nihatpiri@gmail.com

İnternetin və bilavasitə sosial şəbəkələrin insan həyatının böyük bir parçasına çevrilməsi, gündəlik rutinlərimizə ayaq uydurması ədəbi mühit, ədəbi camiə və ədəbi topluma da təsirsiz ötüşməyib. Son onilliyə

nəzər salsaq, Azərbaycan ədəbi mühitində sırf ədəbiyyat yönlü və ədəbi səpkili media orqanlarının, saytların, internet portallarının və eyni zamanda, hər nə qədər qəzetçilik dövrü olmasa da, qəzet və jurnal orqanlarının fəaliyyətində əsaslı irəliləyişin olduğunu görə bilərik. Bütün bu canlanma prosesi ədəbi mühitə təsir etməklə yanaşı, oxucu kütləsinin də yenidən kitaba, ədəbiyyata və ciddi mətnə önəm verməsinə gətirib çıxarır. Azərbaycan ədəbi mühitində bu gün üçün "Ədəbiyyat qəzeti", "525-ci qəzet", "Ulduz" jurnalı, "Azərbaycan" jurnalı, "Xəzan" jurnalı kimi qəzet və jurnallar, "Kulis.az", "525.az", "simsim.az", "yarpaq.az", "azvision.az", "senet.az" və digər bu qəbildən olan sayt və media orqanları ədəbi mühitə töhfə verməkədir. Adları çəkilən qəzet, jurnal və saytlar mütəmadi olaraq, yeni nəsil yazarların, eyni zamanda, Azərbaycan ədəbiyyatı incilərinin əsərlərini dərc etməkdə, oxucuya yenidən tanıtmaqda və təhlil müstəvisinə çəkməkdə fəallıq göstərirlər.

Bu gün üçün medianın əlçatan olması, eyni zamanda, oxucu tənqidinin, yazıçı tənqidinin də inkişafına səbəb olur. Dərc olunan yeni materiallar mütəmadi olaraq sosial mühitdə müzakirə mövzusu olur və onlara tənqidi münasibət bəslənilir. Son illərin ən yaxşı ədəbi söhbət və polemikalarından danışası olsaq, "Ədəbiyyat qəzeti"nin fəaliyyətini birmənalı olaraq ilkin olaraq vurğulamalıyıq. Qəzet mütəmadi şəkildə Cavanşir Yusifli, Tehran Əlişanoğlu, Əsəd Cahangir, Elnara Akimova, Maral Yaqubova, Məti Osmanoğlu kimi ədəbiyyatşünas və ədəbi tənqidçilərin yeni təhlil və şərhyönümlü məqalələrini dərc edir ki, bu da bəhs elədiyimiz mühitə maraq və canlanma gətirməkdədir. Yaxın keçmişə nəzər salsaq, ədəbi polemika dedikdə dərhal ötən il ədəbi camiəni sözün yaxşı mənasında silkələyən yazıçı Seymur Baycanın kəskin tənqidi üzərinə həmkarları yazıçı Mirmehdi Ağaoğlunun və şair, essesist Qismət Rüstəmovun cavab yazılarını misal gətirə bilərik. Seymur Baycanın ümumi ədəbi sferada ciddi qəbul olunan və oxunan müəllifləri (Orhan Pamuku, Salman Rüşdini) çalın-çarpaz tənqid atəşinə tutması, kütlə prinsipini daş-qalaq eləməsi həmkarlarının ciddi narazılığına səbəb olmuşdu ki, bu situasiyanın özündə belə qazanan tərəf yenə də ədəbi mühit olmuşdur. Çünki ədəbi mühit anlayışını formalaşdıran, diri tutan məhz bu cür ciddi və rezonans doğuran polemikalardır. Xalq yazıçısı Elçinin "Azərbaycan ədəbi mühitində nə baş verir?" adlı silsilə məqaləsi isə haqqında bəhs elədiyimiz ədəbi mühit və ədəbi tənqid anlayışına ən böyük töhfələrdən biri oldu. Müəllifin son illərin mətnlərinə və eyni zamanda, həmin mətnlərə aid tənqidi mətnlərə münasibəti, onları bir daha öz təcrübə süzgəcindən keçirməsi ciddi oxucu marağına səbəb olmuşdu. Elçin bir sıra ədəbiyyatşünas alimlərin və tənqidçilərin zaman-zaman ədəbi prosesi və mühitə olan reaksiyalarını həm oxucu, həm yazıçı və həm də tənqidçi gözü ilə dəyərləndirmiş, onlarla paralellik və müqayisəli təhlillər aparmışdı. Lakin burada diqqət çəkən bir digər məqam isə bəzən media əlçatanlığının gərəksiz və məzmunsuz mətnlərə də meydan verməsi məsələsidir. Düzdür, burada oxucu nəyi və kimi oxumaq lazım olduğunu özü seçir, sadəcə, istənilən halda, naşı mətnlərin meydanda özlərinə yer alması çox da yaxşı hal deyil. Daha çox media əlçatanlığı dövrünə təadüf edən "Bulvar ədəbiyyatı" anlayışı məhz bu meydandan istifadə edərək özünə lazımi kütləni toplayır və onu, sözün əsl məmasında, özü üçün biznesə çevirir. Prosesin diri tutulması məsələsində daha çox "kulis.az" saytının fəaliyyəti üzərində dayanmaq istəyirəm. Son illərdə "Ədəbiyyat qəzeti" özünü qəzetçilikdə ədəbiyyatın qoruyucusu kimi təqdim etdiyi kimi "kulis.az" saytı da bu işi sayt kimi maksimum dərəcədə uğurlu davam etdirməkdədir. Mütəmadi dərc olunan məqalələr, yeni imzalar, o imzaların yeni nəsil mətnlərinə gələn tənqidçi, yazıçı və oxucu rəyləri ədəbi tənqid anlayışını oxucuya bilavəsitə tanıtmaqda və aşılamaqdadır.

"Kulis.az" saytının ötən il keçirdiyi "İlin hekayəsi" müsabiqəsi son bir neçə ilin ən uğurlu gənc imzalarını yenidən özlərini sübut eləmələrinə, həmçinin yeni imzaların ortaya çıxarılmasına ciddi təkan verdi. 200-ə yaxın hekayəni ölkənin ən yaxşı ədəbiyyatşünasları, tənqidçiləri dəyərləndirdilər ki, bir ay davam edən müsabiqə ədəbi mühitdə səs-küyə səbəb oldu.

SOMERSET MOEMİN HEKAYƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Qaybaliyeva A.Ə.
Bakı Slavyan Universiteti
E-mail:qaybaliyevaysel111@gmail.com

Məşhur ingilis dramaturqu Somerset Moemin (1874-1965) yaradıcılığı olduqca zəngindir və o, dünya ədəbi irsinə rəngarəng əsərləri ilə öz töhvəsini vermişdir.

Moemin əsərlərində, xüsusilə də hekayələrində Birinci və İkinci Dünya müharibələrində iştirak təcrübəsi öz əksini tapmışdır. Müəllif bu cəhətdən öz baxışlarını "Hərbi xidmətə görə", "Ülgüc kənarında" kimi əsərlərində əks etdirmişdir. Demək olar ki, ədibin yaradıcılığında realizm, pessimist əhval-ruhiyyə

özünü daima biruzə verir. Onun əsərlərində ətraf-aləmin şiddəti, sosial şəraitdə qəhrəmanların mövcudluğu, dərin dramatik münaqişələrlə bağlı bir faciə var.

Onun ədəbi fəaliyyətinin əsasında yazdığı romanlarının durmasına baxmayaraq, ədib yalnız bununla kifayətlənməyib və öz fəaliyyətini daha da genişləndirib. Tezliklə həyatdan götürülmüş macəralara əsaslanan kiçik hekayələr də yazmağa başlamışdır. Beləliklə Somerset Moem artıq 1930-cu illərdə yalnız məşhur dramaturq deyil, həmçinin şöhrətli qısa hekayələr yazıçısı olaraq da tanınırdı. Onun bir çox hekayələri məşhur jurnallarda çap olunmuşdur. Beynəlxalq aləmdə sevilərək oxunan və tədqiq olunan "Bir yarpağın titrəməsi", "Qırmızı", "Yağış", "İnsan elementi", "Qəzəb gəmisi", "Fürsət qapısı", "Konsul", "Qərib diyarda" və başqa hekayələri kəmiyyətcə dar, keyfiyyətcə çox geniş əsərlərdir. Qeyd etmək lazımdır ki, onun hekayələrinin əsas xüsusiyyətlərindən biri də həcmlərinin çox kiçik olmasıdır. Lakin həcmlərinin kiçikliyi bu hekayələrin məzmunlarına heç bir mənfi təsir etməmiş, olduqca zəngin fikirləri özlərində ehtiva etmələrinə mane olmamışdır. Məzmunca isə Somerset Moemin həm hekayələri, həm də novellaları kəskin süjetləri və psixologizmi ilə seçilir. Müəllif oxucunu tələşdə saxlayır və gözlənizməzlik taktikasından istifadə edir. Belə yanaşma tərzi Somerset Moemin öz düşüncə gücündən asılı idi və o, oxucularını yormadan ifadə etmək istədiyi fikirlərini onlara ötürmək üçün ən yaxşı yolu qısa və dəqiq olmaqda görürdü. Sıxıcılıqdan uzaq olan bu hekayələr həyatdan götürülmüş faktlar, reallıqlar əsasında qurulmuşdur və məhz bu amil insanları onun hekayələrini böyük həvəslə oxumağa daha çox cəlb edirdi. Çünki insanlar onun bütün növ əsərlərində olduğu kimi, hekayələrində də özlərini görürdülər. Bu səbəbdən onun bir çox hekayələri müxtəlif dövrlərdə fərqli yerlərdə nəşr etdirilmişdir. Belə nəşrlərdən biri də 1963-cü ildə dörd cilddə nəşr etdirilmiş hekayələr toplusudur.

Somerset Moemin aydın, realist, sürətli və sadə hekayə dili demək olar ki, ədəbiyyatla maraqlanan, maraqlanmayan hər kəsi cəlb etməyə nail olmuşdur. Yaradıcılığında qazandığı şöhrət onun təvazökarlığına təsir etməmiş və o, bir tənqidçi kimi öz əsərlərinə qiymət vermişdir. Hər zaman vurğulamışdır ki, onun yazıçılıq xüsusiyyəti sonradan formalaşıb və bu bir möcüzə deyil. Bu xüsusiyyətlərlə ədib oxucularına effektli təsir edə bilirdi. Son olaraq qeyd edə bilərik ki, onun dünyaya bədii baxışının xüsusiyyəti baş verənləri tragikomik şəkildə qavramasıdır. Bu da özünü onun əsərlərində biruzə verməklə Somerset Moemi ədəbiyyatın realist məktəbinin nümayəndəsi kimi təqdim etməyə imkan verir və o bu məktəbin davamçısı kimi ədəbiyyat tarixinə öz adını qızıl hərflərlə yazdırmışdır.

HACIAĞA FƏQİR ORDUBADİNİN XIX ƏSR ORDUBAD ƏDƏBİ MÜHİTİNDƏ NƏZİRƏÇİLİK ƏNƏLƏRİNİN TƏDRİSİ ÜSULLARI

Qurbanova X.
Naxçıvan Dövlət Universiteti
E-mail: qurbanovaxatin@gmail.com

Çox mürəkkəb və çox parametrli bir sistem olan təhsilimiz dünya təhsil sisteminə daha çox inteqrasiya olunur, keyfiyyət göstəriciləri dövlət standartlarına uyğunlaşdırılır, keyfiyyətin daha dəqiq, obyektiv şəkildə təyin edilməsi üçün yeni və etibarlı qiymətləndirmə mexanizmləri yaradılmışdır. Beş əsas pedaqoji kateqoriya vardır. Bunlar: pedaqoji proses, tərbiyə, təlim, təhsil və psixoloji inkişafdır.

Pedaqoji proses tədris, tərbiyə, təhsil və onlardan ayrılmaz psixoloji inkişaf kateqoriyalarının vəhdəti kimi başa düşülür. Çünki tədris, tərbiyə və təhsil kateqoriyasında oxşarlıq əlamətləri fərqləndirmə əlamətlərindən qat-qat artıqdır .

Hal-hazırda təhsilə səriştəli yanaşma təhsil prosesinin keyfiyyətini artırmaq üçün bir vasitədir və qlobal təhsil sferasında təhsil sisteminin modelləşdirilməsinin əsas strateji istiqamətlərindən biri hesab olunur. Azərbaycanda islahatın aktiv fazasını yaşayan ümumtəhsil sistemi, eyni zamanda təhsilin bütün strukturları səriştəli yanaşmadan qıraqda qala bilməz.

Bu sahədə müəllim hazırlığı ölkəmizdə bu və digər sahələrdə həyata keçirilir. Bundan əlavə, bu sahədə təhsilalanlara müxtəlif şirkət və təşkilatlar tərəfindən təşkil olunan kompüter internet kursları böyük köməklik göstərir. Bu kurslarda təhsilalanlar kompüter və internet bacarıqlarına yiyələnirlər, müxtəlif proqramlaşdırma metodlarına yiyələnirlər, bir sıra zəngin bilik, bacarıq və vərdişlərə yiyələnirlər.

Bütün bunlar ilk növbədə tələbələrin bacarıq qazanmasına kömək edir. Yəni bunlar səlahiyyətli bir yanaşmanın ən zəruri elementləridir. Təhsildə təlim prosesindəki texniki və texnoloji yanaşma ictimai fəaliyyətin inkişafında yeni bir strateji istiqamətdir və böyük elmi və praktik əhəmiyyətə sahibdir

Yaxın və Orta Şərq xalqları ədəbiyyatında nəzirə ədəbiyyatı dəbdə olan bir ənənə olmuşdur. Ərəb, fars və eləcə də türk dünyası xalqlarında nəzirəçilik poeziyasının çox böyük, zəngin və rəngarəng ədəbi - tarixi ənənələri olduğu kimi, Azərbaycan poeziyasında da nəzirəçilik klassik ədəbi ənənələri var olub. Klassik poeziyamızın əksər nümayəndələri bu ənənlərə istinad edərək, onlardan əvvəlki dövrlərdə yaşamış Sədi, Hafiz, Cami, Xəyyam, Nəvai, Nizami və Füzuli kimi dahi Şərq şairlərinin əsərlərinə nəzirələr yazmış, onların əsəbi - bədii ənənələrini yaşadaraq davam etdirmişlər. Poeziyamızda nəzirəçilik xüsusi bir sənət kimi dama inkişaf etmişdir.

Bu mövzunun tədris edərkən bəzi məlumatların tələbələrə çatdırılmasına xüsusi diqqət edilməlidir. İlk olaraq tələbələrə nəzirəçilik haqqında mütəfəkkir alimlərin qeydlərindən məlumat verilərək bildirilməlidir ki, nəzirəçilik ənənələrini dəyərləndirən görkəmli tənqidçmiz Kamal Abdullanın fikrincə: "Dahi Füzuliyə ən yaxşı nəzirə yaxşı nəzirə yazmaq, qəzəlin daha mükəmməl nümunəsini yaratmaq və şairlər arasında gedən yarışları da tamam faydası yaradıcılıq işi hesab etmək olmaz" .

Tanınmış tənqidçinin xüsusilə 19- cu əsrdə Azərbaycan ədəbi məclislərində geniş vüsət alan nəzirəçilik poeziyasını yüksək dəyərləndirir. Ancaq çox təəssüf ki, 19 - cu əsr Azərbaycan ədəbiyyatında geniş yayılan nəzirəçilik poeziyasının inkişafına sovet dövrü ədəbiyyatşünaslığında birtərəfli münasibət bəslənilmiş, poeziyamızın bu qolunu mühafizəkar bir yaradıcılıq sahəsi kimi dəyərləndirmişlər. Nəticə olaraq da bu sahə ətraflı şəkuildə araşdırılmamışdır.

Bu məlumatlardan sonra bu dövrdə Ordubaddakı "Əncüməni- şüəra" ədəbi məclisində geniş vüsət alan nəzirəçilikdən söhbət açmaq gərəkdir.

Nəzirəçilik təkcə bu ədəbi məclisdə deyil, Azərbaycanın digər bölgələrində də fəaliyyət göstərən ədəbi məclislərində ənənəvi hal idi. Tanınmış akademik Feyzulla Qasımzadə qeyd edir ki: "Xüsusilə əsrin ikinci yarısında nəzirəçilik xeyli artmışdı. Həmin illərdə Qarabağda, Bakıda, Gəncədə, Şamaxıda və Ordubadda təşkil edilən şeir məclislərinin əsas məşğuliyyəti nəzirəçilik idi.

Lirik şeirə yazılan nəzirədə orijinalın forma, vəzn, ölçü, bölgü və s. prinsiplərinin qorunması vacibdir. Eləcə də məzmun, ruh baxımından oxşarlıqla bərabər, ciddi fərqliliklər də vardır.

19-cu əsr Ordubad ədəbi mühitinin üzvləri nəzirəçiliyin bu prinsiplərinə ciddi şkildə əməl etmişlər. Bu xüsusiyyət ədəbi mühitin görkəmli üzvlərindən biri olan M.T.Sidqinin klassik Şərq şairlərinə yazdığı nəzirələrdə qabarıq şəkildə özünü göstərir. Məhəmməd Tağı Sidqi nəzirələrində yeni forma və məzmun nümayiş etdirir.

M.T.Sidqinin Hafizə və Sədiyə yazdığı nəzirələrdə klassik üsluba söykənsə də ənənədən novatorluğa meyli və sənətkarlıq xüsusiyyətləri özünü göstərir. Ədib çox vaxt klassik Şərq şairlərinə yazdığı nəzirələrinin ideya istiqamətini dəyişdiyi kimi, onların poetik formasını da dəyişir və təxmis şəklinə salırdı.

Məhəmməd Tağı Sidqinin klassik poeziya ənənələrinə istinad edərək mədəni tərəqqiyə xidmət edən yeni ictimai - siyasi fikirləri sənətə gətirməsi "Əncüməni- şüəra" nın nəzirəçilik məramında 19 - cu əsr Ordubad ədəbi mühitinin təşəkkülünü və inkişafını realizmə istiqamətləndirən faktorlardan idi. Bu ədəbi mühitin üzvlərinin çoxu nəzirəçilikdə təqlidçilik mövqeyində dayanmır, müraciət etdikləri mövzularda yeni forma, məzmun və ideya axtarışlarında idilər.

"Əncüməni- şüəra" ədəbi məclisində nəzirəçilik məclis nümayəndələrinin daxili və xarici yaradıcılıq ənənələrinə xidmət edirdi. Məclidə iştirak edən şəxslər nəzirəçilik yarışlarında çox vaxt fars poeziyasının təsirindən uzaqlaşır, milli türk şeirinin poetik ənənələrinə yeni məzmun verməyə cəhd edirdilər. Məhz bunun da nəticəsi idi ki, nəzirəçilik yarışlarında məclisdəkilər şair həmkarlarına qələmə aldıqları nəzirələri cığatay dilində yazırdılar. Bu kimi nəzirələr ədəbi yaradıcılıq əlaqələrində milli türk poeziyasına olan meylin daha da güclənməsinə təkan verirdi.

"Əncüməni- şüəra" ədəbi məclisinin üzvlərinin yazdıqları nəzirələr də daxil olmaqla 19 - cu əsr şairləri tərəfindən həm klassik Şərq şairlərinin, həm onların müasirlərinin, həm də şairə xanımların şeirlərinə ünvanlanırdı. O vaxtlar ədəbi məclislərdə və ölkəmizin müxtəlif bölgələrinin ədəbi mühitində xanım yazarlar az idi.

Cənublu şairlərdən Məhəmməd Xəlifə Aciz "Əncüməni- şüəra" ədəbi məclisinin nəzirəçilik yarışlarında iştirak edirdi. Onun bu məclisdə iştirakı 19 - cu əsr ordubad ədəbi mühitinin inkişafında olduqca müsbət rol oynamışdı. Bunun da nəticəsi kimi Qüdsi Vənəndinin və Fəqir Ordubadinin yazdıqları nəzirələr Cənubi Azərbaycanla əlaqəli idi.

Hacıağa Fəqir Ordubadinin ədəbi irsi sırasında Cənubi Azərbaycan ilə yaradıcılıq əlaqələrini təsdiq edən 3 şeiri vardır. Həmin şeirlərdən iri "Xançobanı" ləqəbilə məşhurlaşan Seyid Əbülqasım Nəbatiyə yazılmış mənzum məktub, ikisi isə Nəbatinin "ol - ol" və " istər" rədifli qəzəllərinə yazılmış eyni rədifli

nəzirələridir. Bu şeirlər arasında "ol - ol" rədifli şeiri təsdiq edir ki, Fəqir Nəbatidən bəhrələnmişdir. Çünki Nəbatinin şeirlərində misraların sonundakı rədiflər qoşa sözlərlər işlənir.

Amma Fəqirin nəzirələrində Nəbatidə gördüyümüz sufizmə rast gəlmirik. Əksinə olaraq Fəqirin Nəbatiyə yazdığı nəzirələrdə qəzəlin qafiyə və rədiflərini saxlamış, ancaq ideyasını dəyişərək dünyəvi məzmun vermişdir. Fəqirin Nəbatiyə yazdığı "İstər" rədifli qəzəl - bənzətməsində həqiqi eşqin tərənnümü verilir. 19-cu əsr Ordubad şairlərinin Qarabağ ədəbi mühitilə olan nəzirəçilik və ədəbi yaradıcılıq əlaqələri daha geniş olmuşdur.

Hacıağa Fəqir Ordubadinin qızı Telli xanım atasının Qarabağla əlaqəsi barəsində öz xatirələrində yazırdı ki: "O.Fəqir bir müddət Qarabağ bölgəsində yaşamış, Xan qızı Xurşidbanu Natəvanın məclislərində iştirak etmişdir".

Bunu Fəqirin Qarabağda olarkən yazdığı şikayət ruhlu qəzəli də təsdiq edir. Fəqir bu qəzəlində Qarabağda kədərli günlər keçirməsindən giley - güzar edirdi. Fəqir Ordubadinin hansı illərdə getdiyini dəqiq demək olduqca çətindir .

"Əncüməni- şüəra" ədəbi məclisinin üzvlərinin nəzirəçilik görüşlərinə saldığımız nəzərlərdən aydın olur ki, 19-cu əsr Ordubad ədəbi mühitini təşəkkülündə və inkişafında nəzirəçilik poeziyasının xüsusi əhəmiyyəti olmuşdur. ədəbi mühitin Fəqir, Vənəndi, Qüdsi, Sidqi kimi üzvləri yaradıcılıqlarının müxtəlif illərində nəzirəçilik yolu ilə ədəbi yaradıcılıq ənənələrinin təməlini qoymuş, Azərbaycan fərqli bölgələrindəki ədəbi məclislərin nümayəndələri ilə müştərək ədəbi əlaqələr saxlamışlar. Nəzirəçilik yolu ilə yaranan ədəbi əlaqələr Azərbayanın həm Şimal, Həm də Cənub bölgələrini əhatə etmişdir.

Bütün bunlar haqqında ətraflı məlumat verdikdəkdən sonra yeni tədris üsullarından istifadə edərək tələbələrin biliklərini daha da möhkəmləndirmək olar.

BƏXTİYAR VAHABZADƏNİN PUBLİSİSTİKASINDA TÜRKÇÜLÜK MƏFKURƏSİ

Rüstəmova İ.V.
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: rustemova.ilahe99@gmail.com

Azərbaycan və ümumtürk ədəbiyyatının görkəmli simalarından olan Bəxtiyar Vahabzadə ədəbi yaradıcılığında türk dövlətlərinə, onların fikir adamlarına dərin rəğbətini ifadə etmişdir. Şairin Yunus Əmrəyə ithaf etdiyi "Yunus İmrə", Yavuz Büləndə həsr etdiyi "Türküstan, Türküstan", Mehmet Akif Ərsoya həsr etdiyi "İstiqlal nəğməkarı" , Yəhya Kamala həsr etdiyi "İman şairi" məqalələri xüsusilə seçilir.

Bəxtiyar Vahabzadə Yunus Əmrə haqqında məqalələr yazmışdır. Şair onu "bütün dövrlərin haqq aşiqi" adlandırmışdır. Xalqının taleyi Yunus Əmrəni düşündürmüş, öz xalqına hər zaman mənəvi həkim olmuşdur. "Bir mən vardır, məndə məndən içəri" –deyən Yunus Əmrə içindəki "mən"in səsi ilə bütün insanlığı çağırmışdır. Bəxtiyar Vahabzadənin təbirincə desək, "o, öz doğmalıq cazibəsinə xalqın bütün övladlarını bir ocağa səslənərək, bir sapa düzəcək, onu bir mərkəzdə birləşdirəcək sehrli qüvvəyə malikdir". Məhz Yunus Əmrənin yolunu özünə örnək seçən Bəxtiyar Vahabzadə hər zaman yaradıcılığında nəinki öz xalqını, bütün türk xalqlarının ağrı-acılarını ifadə etmiş, onların dərdinə şərik olmuşdur. Təsadüfi deyildir ki, onu "bütün Türk xalqlarının şairi" adlandırmışlar.

Bəxtiyar Vahabzadə xalqa xidmət etməyin əsas amili kimi türk dilini , ana dilini ön planda tuturdu. Yunus Əmrənin də türk dilində yazması şairin ona olan ehtiramını artırmışdır. Doğma dildə yazmaq şairi xalq ruhuna yaxınlaşdıran, onlara təsir etmək üçün ən önəmli vasitədir.

"İstiqlal nəğməkarı" məqaləsində Bəxtiyar Vahabzadə Məmməd Akifin əqidəsinin böyüklüyünü vurğulayır. "Bütün varlığımla deyə bilərəm ki, dünya xalqlarının milli maraqları içərisində Mehmet Akifin "istiqlal marşının bənzəri yoxdur", –deyən B.Vahabzadə bu əsəri vətənpərvərlik duyğularının ən gözəl təcəssümü kimi dəyərləndirmişdir. M.Akif bu marşı sanki bütün istilaçılara qarşı bir silah kimi istifadə edərək, sözün silahdan üstün olduğunu bildirirdi. Əqidə və iman tamlığı sayəsində istənilən düşmənin türklər qarşısında məğlub olduğu inamını ifadə edirdi.

Bəxtiyar Vahabzadə yaradıcılığında türkçülük ideyası əqidə və iman qavrayışı ilə bir olmuşdur. Şair bu keyfiyyəti insan şəxsiyyətinin önəmli cəhəti hesab etmişdir. Sənətkar "İman şairi" adlı məqaləsində Yəhya Kamalı imana şüurlu şəkildə dönən bir insan kimi qiymətləndirmişdir. Fransız inqilabçıların təsiri altında olan Yəhya Kamalda İslam dininə qarşı tərəddüdlər yaranmasına baxmayaraq, o, əcdaddan gələn genetik yaddaşı din inancı ilə süsləmişdir. "Türkcə ağzımda anamın südüdür" –deyən Yəhya Kamal heç zaman türk və islam dinini bir-birindən ayırmamışdır. Bu xüsusiyyətlərindən istifadə edərək türk dilini

bütün bacarığı ilə ən yüksək səviyyədə istifadə etdiyi üçün Bəxtiyar Vahabzadənin ən sevimli şairlərindən birinə çevrilmişdir.

Bəxtiyar Vahabzadə üçün Yavuz Bülənd yaradıcılığı xüsusi yer tutur. Onun şeirlərindəki əsas qayə Bəxtiyar Vahabzadə düşüncəsi ilə yaxından səsləşir. "Ey əsir insanlar diyarında mənim əsir millətim və ey Qafqaz dağları ardında bayraqsız məmləkətim", –deyən Yavuz Bülənd Bəxtiyar Vahabzadə hisslərinin tərcümanı olmuşdur. Bu misralarla şair həm Azərbaycan, həm də özbək türklərinin başına gətirilən müsibətləri öz dərdi bilmiş, onların acılarına şərik olmuşdur. Bu duyğular Yavuz Büləndin ruhuna hakim kəsilmiş, onun yaradıcılığında əsas motiv olmuşdur. Bəxtiyar Vahabzadənin digər türk qövmlərini düşünməsi təsadüfi deyil. Bu bədii yanğı sənətkarın bütün varlığı ilə türk millətinə sahibliyi və sevgisinin poetik təcəssümüdür.

FƏRMAN KƏRİMZADƏNİN BƏDİİ NƏSRİNDƏ TARİXİ MÖVZUYA MÜNASİBƏT

Rüstəmova A.K.
Bakı Slavyan Universiteti
E-mail: aytacrustamova5@gmail.com

Ədəbiyyat tariximizdə yeni bir mərhələ hesab edilən 60-cı illər nəsri "yeni Azərbaycan nəsri" bu nəsri yaradanlar "60-cılar", onların yaratdıqları sənət inciləri isə söz sənətində dönüş nöqtəsi hesab edilir. Həmin dövrün sənətkarları müharibə görmüş nəsil olaraq yaradıcılıqlarında "İnsan" onun mənəviyyatı, xarakteri, hiss, duyğu, düşüncəsi, yaşam tərzi, həyat qayəsi, sosial funksiyası və ictimai siyasi fəaliyyəti mühüm yer tuturdu. Onlar sayəsində "insan" mövzusu ədəbiyyatda yeni problematika, yeni mövzu kimi vətəndaşlıq hüququ qazandı. Burada bəhs edilən insan məfhumunun altında fərdin yalnız ictimai həyatda tutduğu mövqe deyil, həm də onun əxlaqı, mənəviyyatı təhlil edilib, araşdırıldı. O dövrün nümayəndələrinin yaratdıqları əsərlər xronoloji baxımdan Sovet dövrünə təsadüf edir. Ancaq bu o demək deyildir ki, həmin yazıçıların əsərlərində aparıcı mövzu xalqa onun mənafeyinə, dünyagörüşünə, düşüncəsinə, adət-ənənəsinə, mentalitetinə tamam yad olan sovet ideologiyasını, onun mənafeyini təbliğ edilirdi. Həmin sənətkarların qəhrəmanları "sovet adamı" stereotiplərini qırırdı. Hətta onlar milli və ümumbəşəri dəyərləri kənar təsirlərdən qorumaq, milli dəyərlərin unudulmasına əngəl olmaq vəzifəsini öz üzərlərinə götürmüşdülər. Həmin dövrdə yazılan əsərlərdə ədəbi faktların sinfi meyllərdən uzaqlaşması, milli dəyərlər diqqət mərkəzində olmuşdur.

Müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri olan Fərman Kərimzadə yaratdığı sənət incilərində dövrünün, zəmanəsinin xarakteristikasını, fərd-cəmiyyət-şəxsiyyət münasibətlərini, insanların iç dünyasını, daxili aləmini, mənəvi-psixoloji durumunu, insanın bəşəri təbiətini ön plana çəkirdi. O, müasir insanın problemlərini, cəmiyyətin yaralarını, nöqsanlarını, qüsurlarını, göstərməkdən, fərdin mənəvi təbəddülatlarını bir sənətkar həssaslığı ilə göstərməkdən çəkinmirdi. Fərman Kərimzadə bədii nəsrin təşəkkülündə müstəsna xidmətlər göstərərək yeni bədii vasitələr, obrazlılıq, daxili monoloq, təhkiyəyə yeni çalar gətirmişdir. Kərimzadə yaradıcılığında hekayə, povest, roman janrları yeni mərhələyə qədəm qoymuşdur. O, qəhrəmanlarının pəncərəsindən həqiqətləri seyr edir, həmin hadisələri yazıçı mövqeyindən dəyərləndirir, düşüncə və hisslər aləminin təhlilini verir. Onların bir insan kimi zəifliklərini, hətta məğlubiyyətlərini oxucunun mühakiməsinə təqdim edir.

Kərimzadə əsərlərində insan obrazını yaradarkən öz sələflərindən fərqli olaraq onun mürəkkəbliyinə, daxili ziddiyyətliliyinə diqqət yetirmişdir. Yaratdığı qəhrəmanları "müsbət qəhrəman" və ya "mənfi obraz" adlandıraraq onların əhatə dairəsini məhdudlaşdırmamışdır. İnsanların içində xeyirlə, şərin yanaşı olması fikrini əsas gətirərək o, hətta şər əməllərlə məşğul olan insanların belə insani duyğuları ola biləcəyini, xeyir əməllərlə məşğul olan insanların da mənfi cəhətləri, əksiklikləri ola biləcəyini təsvir etmişdir.

Kərimzadə yaratdığı bütün əsərlərində xüsusən romanlarında mühitin qəhrəmanların taleyinə təsirinin sosial-ictimai və mənəvi-psixoloji cəhətlərini diqqət mərkəzində saxlayır. Yazıçı "Son eksponat", "Toy toğlusu", "Mis qazan", "Talada", "Ümid", "Xınalı" hekayələri, "Xallı maral", "Toy dəvətnaməsi" povestləri böyük uğur qazansa da, tarixi romanları yaradıcılığının zirvəsi hesab olunur. Yazıçı tarixi mövzuya həsr olunmuş "Qarlı aşırım", "Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Təbriz namusu", "Qoca qartalın ölümü" romanlarının müəllifidir.

Fərman Kərimzadə romanlarının seçilərək zirvəyə yüksəlməsini şərtləndirən ən vacib amil: müasirlərinin eyni mövzuda yazdıqları əsərlərini tarixi yaxud sinfi nöqteyi nəzərdən işıqlandırırdılarsa, Fərman Kərimzadə onlardan fərqli olaraq tarixi hadisələr fonunda obrazların daxili aləmlərini, mənəvi

dünyalarını, hiss və düşüncələrinin oxucunun diqqətinə çatdırır, problemə yeni prizmadan baxırdı. İllərdir onu narahat edən, rahat buraxmayan, cavabsız qalan suallarının cavabını tapmağa çalışırdı. Fərman Kərimzadə həmin sualları romanlarında yaratdığı zəngin obrazlar sistemi vasitəsilə obrazların öz dili ilə cavablandırmağa çalışırdı.

Ümumiyyətlə Fərman Kərimzadənin əsərlərinin əsasını bütövlükdə ziddiyyətlər, konfliktləri təşkil edir. Romanlar kontrastlar üzərində qurulmuşdur. Bəy, ağa-nökər, qulluqçu, varlı-kasıb, yerli-gəlmə, zəif-güclü və.s əks qütblər, insanın öz içində bir-birinə zidd olan düşüncələri, həmin düşüncələrin aparıcı rol oynadığı əməllər, əməllərinin doğurduğu acı nəticələr və həmin nəticələrin yaratdığı gərgin vəziyyət əsərlərinin əsas qayəsini təşkil edir.

QARABAĞ SAVAŞINDA İLK ƏSGƏR MARŞININ YARANMA TARİXİ VƏ İNVARİANTI

Şükürova A.K.
Bakı Slavyan Universiteti
E-mail: ayten97sukurova@gmail.com

Marş adətən kollektiv yürüşü müşayiət etmək üçün səsləndirilir, yürüş edən insanların hərəkətini birləşdirir, müəyyən ruh yüksəkliyi yaradır. Böyük bir dəstənin tempi və sinxiron hərəkətləri ilə fərqlənən hərb musiqisi əsrlər boyu döyüşlərdə istifadə olunmuş, əsas məqsəd düşməni lərzəyə salmaq, döyüşçüləri müharibəyə ruhlandırmaq və orduda nizam-intizam yaratmaq, döyüşçülərin əhval-ruhiyyəsini yüksəltməkdir. Azərbaycanda dillər əzbəri olan "Əsgər marşı"nın mətni XX əsrin əvvəllərində yazılmasına baxmayaraq 1992 ci ildə Cavanşir Quliyevin bəstələdiyi musiqi ilə yeni həyat qazandı. Həmin marş hər kəlməsində döyüşə, qəhrəmanlığa, vətənin keşiyində durmağa səsləyir.

Bir sıra qaynaqlarda ilk hərbi marşının müəllifidir deyə Cavanşir Quliyevin adına rast gəlirik. Cavanşir Quliyev ilk dəfə violonçellə, fleyta ilə bərabər şəkildə tədbiq edib, sazı və zurnanı simfonik və simfo-caz orkestrlərin tərkibinə daxil edərək, əsas alətlər şəklində işlətmişdir. Lakin ilk marş ona aiddir demək yerinə ilk bəstə ona aiddir deyilə bilər.

Müsahibələrin birində Laçın batalyonunun komandiri deyir: "Laçın batalyonunun marşı"ı 1992-ci il fevralin ayında "Türk əsgərinin not kitabi" adli qeydlər kitabında olan "Alay marşı"dan təsirlənərək yazılmışdır. Demək olar ki, eyni vaxtda bəstəkar Cavanşir Quliyev və bir sıra incəsənət nümayəndələri əsgərləri ziyarət etməyə gəlir və burda səslənən marş çox bəyənilir. Bundan sonra Laçın batalyonunun komandiri Əhliyyət Süleymanov marşın yəni "Əsgər marşı"nın sözlərini yazaraq təqdim edir. Bu hadisədən sonra məşhur əsgər marşı səslənməyə, ordunun və xalqın dayaq nöqtəsinə çevrilməyə başladı.

Vətən məni yetişdirib
Bu ellərə yolladı,
Bu torpağa qurban deyib
Allaha ismarladı.
"Boş oturma, çalış, - dedi,
- Xidmət eylə Vətənə.
Südüm sənə halal olmaz,
Sən baş əysən düşmənə".

Cavanşir Quliyev həqiqətən bir şedevr yaratdı çünki, bu nəğmə nəinki dövrünü, hətta əsrlər aşaraq bu gün ki, günümüzü də, təsir dairəsinə almışdır. Hər sətri dillər əzbəri olan bu marş Azərbaycan xalqının hər bir igid, qəhrəman oğlunun ilham mənbəyidir. Marş janrını spesifik xüsusiyyətlərindən olan çağırış, vətənpərvərlik, ruhlandıma hər biri sətrlərə inci kimi düzülmüş, oxunduqca xalqın qəlbini riqqətə gətirirdi. Bu marşda "Ana Vətən" kəliməsinin açılışına rast gəlirik sanki, vətən doğma anamız qədər əzizdir, onun yolunda bir göz qırpımında canımızdan keçməyin vacibliyini , nə olur olsun düşmənə baş əyməməyə səsləyir. Hətta südüm sənə halal olmaza, sən baş əysən düşmənə deyərək misranın təsirini daha da artırır.

Marş irəli, marş irəli,
Azərbaycan əsgəri!
Dönməz geri, dönməz geri
Azərbaycan əsgəri!..

Bu misraların hər birində döyüşə çağırış, səfərbərlik motivləri insanı ilhamlandırır, müharibənin odlu-alovlu çətinliyini düşünmədən insanı vətən uğrunda şəhid olmuş qəhrəmanlarımızın qisasını almağa sövq edir. Marş müəyyən bir təbəqənin ali maraqlarını, dünyagörüşünü, həyat təcrübəsini birləşdirməklə yanaşı,

böyük bir xalqın, kütlənin ümummilli mənafeyini özündə birləşdirir və bu marşda biz hər kəsin müharibəyə və qələbəyə olan maraqlarının birləşdiyini görürürük.

Bu bəstə bayaq da qeyd etdiyimiz kimi təkcə yarandığı dövrdə qalmayıb, əsrlər aşaraq günümüzə qədər öz aktuallığını saxlayıb. Onu da qeyd etmək yerinə düşər ki, bu marş təkçə Azərbaycanda deyil sərhədlər aşaraq Türkiyəyə öz sədalarını çatdırıb. XX əsrin əvəllərində türkiyə türkcəsində "Alay marşı" adı ilə səsləndirilmişdir.

ЧЕЛОВЕК И ПРИРОДА В ЛИРИКЕ М.Ю. ЛЕРМОНТОВА

Гусейнова Э.О.
Бакинский славянский университет
E-mail: huseynova_moscow@mail.ru

Творчество М. Ю. Лермонтова многогранно: поэмы, роман, короткие прозаические произведения, но лирика занимает особое место в нём. Поэту за короткую жизнь удалось охватить в своей лирике множество тем. Это были темы одиночества (основная тема), несчастной и чистой любви, посвящения женщинам и известным людям, философские темы, а также тема человека и природы.

Тема человека и природы раскрывается во множестве лирических произведений поэта, причём с разных интересных сторон. В некоторых из них звучат позитивные ноты. Природа вдохновляет автора, внушает желание жить. В качестве яркого примера мы можем привести стихотворение «Когда волнуется желтеющая нива…», в котором после трогательного описания природы идут следующие строки

Тогда смиряется души моей тревога,
Тогда расходятся морщины на челе,
И счастье я могу постигнуть на земле,
И в небесах я вижу бога!..

Но такое умонастроение присуще не всей лирике Лермонтова. Зачастую мы можем встретить противоположные чувства в стихотворениях автора. Он полон одиночества, разочарования в людях и в жизни. Но как это связано с природой? Автор всегда замечает изменения в природе, мелочи, не видимые обычным людям. Описывая их, он отмечает и свои чувства.

В небесах торжественно и чудно!
Спит земля в сеянье голубом...
Что же мне так больно и так трудно?
Жду ль чего? жалею ли, о чем? ...

Даже посвящая свои лирические произведения совершенно другим темам, поэт не обходится без описаний природы. Этим он создаёт фон, показывает своё видение. В качестве примера мы можем привести стихотворение, посвящённое французскому императору Наполеону. ("Где бьёт волна о брег высокой...")

Где бьёт волна о брег высокой,
Где дикий памятник небрежно положен,
В сырой земле и в яме неглубокой —
Там спит герой, друзья! — Наполеон!..

Предлагаем рассмотреть и другие вопросы, волновавшие М.Ю. Лермонтова. К примеру, тема смерти сопровождает всё творчество поэта, а он умер в 27-летнем возрасте. Но и в этих стихотворениях автор упоминает картины природы.

Закат горит огнистой полосою,
Любуюсь им безмолвно под окном,
Быть может, завтра он заблещет надо мною,
Безжизненным, холодным мертвецом;

Однако здесь затрагивается и тема любви, а также одиночества. Поэт говорит, что умрёт в чужом краю, рядом не окажется друга и брата, будет похоронен чужими руками, а главное – его возлюбленная не прольёт над ним слёз. А он любил её так нежно. Вроде, стихотворение не о природе, но автор всё это испытывает, любуясь закатом. Стихотворение с этого и начинается, тем

неожиданней на передний план выходят совершенно другие, упомянутые выше темы. В этом состоит парадокс творчества поэта.

Его стихи часто вызывают грусть, но в то же время они понятны читателю своей актуальностью и на сегодняшний день, потому что автором затрагиваются вечные человеческие темы, а воссозданные в них картины природы уникальны в своих красках и вызывают чувства восторга, если это жизнеутверждающее произведение и чувства ужаса, если в произведении звучат ноты грусти. Одно точно, лирика Лермонтова не может никого оставить равнодушным, ведь она мистична и своеобразна, как и сам поэт со своей необычной судьбой и достаточно неоднозначным характером.

Целью настоящей работы является показ необходимости рассмотрения темы человека и природы в творчестве М.Ю. Лермонтова. Задача – рассмотреть и проанализировать все лирические произведения на заданную тему. Осмыслить, как картины природы не только украшают его творчество, но и раскрывают внутренний мир поэта, отражают его настроение.

XIV BÖLMƏ
DİLÇİLİK

TOPONİMİKANIN YARANMA MƏNBƏLƏRİ

Ağayeva G.Z.
Sumqayıt Dövlət Universiteti
E-mail: aqaeva96g@gmail.com

Ən qədim vaxtlardan bəri insanlar məskunlaşdığı ərazilərə və ümumiyyətlə, onların yaxınlığındakı ərazilərə müxtəlif adlar vermişlər. Bunun nəticəsində də coğrafi adlar-toponimlər meydana gəlmişdir. Müəyyən bir yerlə bağlı olaraq xüsusi ad daşıyan obyektlər coğrafi obyektlər adlanır. Buraya okean, materik, zirvə, dağ, qəsəbə, yayla, dərə, düz, arx, göl, çay və s. coğrafi obyektlərin hər biri daxildir. Qeyd etmək lazımdır ki, coğrafi obyektlər-toponimlər təbii və süni olmaqla iki yerə bölünür.

Təbii toponimlər yer kürəsində baş verən daxili və xarici hadisələr nticəsində yaranır. Təbii toponim makro (böyük), mezo (orta) və mikro (kiçik) ola bilər. Böyük coğrafi obyektlərə insan qüvvəsi təsir edə bilmədiyi halda, əksinə olaraq kiçik obyektlərə təsir edə bilər.

Süni toponimlər isə insan zəkası, iradəsi ilə yaradılan coğrafi obyektlərdir. Qeyd edək ki, süni toponimlərin ilkin nümunələri şəhərlər, kəndlər, magistral yollar, neft boru kəmərləri, kanallar, arxlar və s. olmuşdur. Bəşər tarixiyarandığı dövürdənmüxtəlif ictimai-iqtisadi hadisələrlə, xüsusilə də gündəlik tələbatla bağlı olaraq yaranmış toponimlər qəbilə, tayfa və dil ittifaqlarının genişləndiyi, dövlətlərin meydana gəldiyi, çay və göllərin, meşə və dağların, bir sözlə, bütün coğrafi obyektlərin ünvanlarıdır. Elə məhz buna görə də qədim xalqların məskən saldığı əraziləri, onların yayıldığı arealları toponimlərin köməyi ilə müəyyənləşdirmək olur. Onu da qeyd edək ki, toponimsiz ölkə, dövlət, xalq yoxdur. Biz xəritələrə nəzər salarkən bu və ya digər ölkəni, şəhəri axtararkən onların yerləşdiriyi meridian və paralellərə deyil, adlarına baxırıq. Əhalinin etnik mənşəyinin müəyyənləşdirilməsi ilə əlaqədar olaraq, A.A.Bakıxanov demişdir: "Əgər ölkənin qəbilələri, kəndləri, binaları və qədimdən qalmış tarixi mədəniyyət abidələri geniş bir surətdə tədqiq edilsəydi, əhalinin mənşəyini müəyyən etmək mümkün olardı."

Coğrafi adların öyrənilməsi xalqımızın tarixi və vaxtilə ərazilərimizdə məskən salmış xalqların, onların dilləri haqqında zəngin məlumatların əldə edilməsi üçün çox əlverişlidir. Qədim zamanlardan mövcud olmuş şəhər, rayon, kənd və mədəniyyət abidələrinin coğrafi mövqeyini müəyyənləşdirməkdə toponimlər əvəzsiz rol oynayır. Toponimlər digər dil vahidlərindən fərqli olaraq ictima-siyasi xarakter daşıyır. Belə ki, hər hansı bir yazılı mənbənin deyə bilmədiyi məlumatları, məhz coğrafi adların köməyi ilə müəyyənləşdirmək mümkündür. Coğrafi adların mənşəyindən, mənasından, yaranma tarixindən, onun tərkibindəki terminlərin izahından və düzgün yazılışından bəhs edən elmə toponimika deyilir. Toponimika yer adlarını öyrənir. Bu elm bu və ya digər regionun, ölkənin və ya rayonun kompleks şəkildə coğrafi adlarını öyrənir. Toponimika elmi XX əsrin 80-ci illərində yaranmışdır. Bu elm üç sahənin- coğrafiya, tarix və dilçiliyin qovşağında yaranan müstəqil elm sahəsidir.

Toponimlər adi söz deyil, onların hər birinin arxasında sirli bir məna durur. Tədqiqatçının qarşısında dayanan vəzifə isə həmin mənanı açmaq, coğrafi adın yaranması tarixini öyrənmək, mənşəyini və təkibindəki terminləri izah etməkdir.

ORTA MƏKTƏBLƏRDƏ ONOMASTİK LEKSİKANIN ÖYRƏDİLMƏSİ

Cəfərova A.M.
Sumqayıt Dövlət Universiteti
E-mail: aysel_ceferova_2019@mail.ru

Müstəqil Azərbaycan Respublikasının orta məktəbi ideya-siyasi cəhətdən inkişaf etmiş və dünya təhsili ilə ayaqlaşmaqdadır. Müasir dərs öz məqsədinə təşkilati-metodik tərəflərinə şagirdlərin öyrənmə və öyrətmə meyarlarına görə ənənəvi təlimdən fərqlənir. Müəllimin elmi hazırlığı, yaradıcı olması, şagirdlərlə əməkdaşlığa meyilliliyi müasir dərsin keyfiyyətini tamamlayır. Müəllim özü ilk növbədə milli adət

ənənəmizə, yeraltı və yerüstü sərvətlərimizə, dövlətin atributlarına (bayraq, gerb, himn) hörmətlə yanaşmalıdır. Azərbaycan dili fənni orta məktəblərdə beşinci sinifdən başlayıb on birinci sinifdə bütün materiallar yekunlaşır. Dərslərin daha yaxşı mənimsənilməsi üçün inteqrativlik şəraitində tədrisi labüddür. Orta məktəbdə Azərbaycan dili fənnində siniflər üzrə onomastik vahidlərdən geniş istifadə edilmişdir. Onomastik leksika antroponim, toponim, etnonim, oronim, hidronim, fitonim, zoonim, kosmonim və digər funksional növlərin orta və ali məktəblərdə tədris olunmasının çox böyük elmi-praktik əhəmiyyəti ola bilər. Təhsilin məqsədi şəxsiyyətyönümlü, tələbyönümlü, cəmiyyətdə sağlam rəqabət apara bilən bir fərd yetişdirməkdir. Orta məktəblərdə Azərbaycan dili dərsliklərində irqçiliyə, cins ayrıseçkiliyinə yol verilməmişdir. Orta məktəb dərsliklərində verilən tarixi qəhrəmanların adlarının mənşəyi eləcə də dil xüsusiyyətləri şagirdlərdə böyük maraq yaradır. Onlar özlərini o tarixi qəhrəmanlara bənzətməklə, adın etimoloji və elmi mənasını öyrənməkdə maraqlıdırlar. Çünki bu adlar emosiya yaradan vasitələrin dərsliklərdə verilən tarixi yaşayış məntəqələri, qala (Dərbənd, Girdman, Bəzz, Qızqalası və s.) körpü (Xudafərin, Qarıkörpüsü və s.) adlarının öyrədilməsi. Respublikamızın relyefi müxtəlif olduğu üçün oronimiyası, yəni relyef adları da çoxdur. Məsələn Qafqaz, Qaşqar, Kəpəz, Şahdağ, Bazar düzü, Murov və s. dağ adlarının həm mənası, həm də onların mütləq hündürlüyü və s. öyrədilməlidir. Çayların adları öyrədilərkən onların uzunluğu, hövzəsi, iqtisadi əhəmiyyəti və s. məsələlər ətraflı izah olunmalıdır. Qafqazdakı bir çox çay adlarının etnosla bağlılığı araşdırılmalıdır. Azərbaycan dili və ədəbiyyat fənlərinin səmərəli təşkili xeyli dərəcədə yerli diyarşünaslıq materiallarından tələb olunan məqamlarda istifadə etməklə əlaqədardır.

Diyarşünaslıq materialları içərisində isə onomastik vahidlər geniş yer tutur. Azərbaycan dili dərslərində yerli onomastik vahidlərin tədrisə cəlb olunması şagirdlərin doğma diyar haqqında təsəvvürlərini dərinləşdirməklə yanaşı, ədəbiyyat dərsləri ilə fənlərarası əlaqələrin yaradılmasına da imkan verir. Ədəbiyyatın tədrisi prosesində regional xarakterli onomastik vahidlərə müraciət göstərilən metodiki prinsiplərlə bərabər, şagirdlərin ədəbi – tarixi biliklərinin dərinləşməsinə, konkret bədii materialın əhatəli şəkildə mənimsədilməsinə də xidmət edir. Müşahidələr göstərir ki, ümumtəhsil məktəblərində şifahi və yazılı ədəbiyyatdan gələn onomastik vahidlərdən və toponimlərdən daha çox istifadə olunur. Azərbaycan dilində leksika bəhsinin, mürəkkəb adların, şəxs adlarının, bütünlükdə ismin, cümlə üzvlərindən mübtədanın tədrisi prosesində bədii ədəbiyyatda işlədilmiş, yerli onomastik və toponimik vahidlərə müraciət olunur. Milli ədəbiyyatın öyrədilməsində Respublikamızda şifahi və yazılı bədii nümunələrin, habelə regionla bağlı olan yazıçıların əsərlərinin təhlilinə xüsusi fikir verilir. Həmin məqsədlə "Kitabi- Dədə Qorqud", "Koroğlu" və "Qaçaq Nəbi" dastanlarındakı yer və şəxs adları diqqət mərkəzinə çəkilir. Bu qəhrəmanlıq dastanları orta məktəbdə dərsliklərə salınıb. Onların tədrisi xalqımızın tarixini, onun şifahi xalq ədəbiyyatının öyrənilməsi üçün vacibdir. Çünki hər biri Azərbaycanın mədəniyyətinin ta qədimlərə gedib çıxmasına bir sübutdur. Xüsusilə də "Kitabi Dədə Qorqud" dastanımız İslam dinindən də əvvəl çox qədim zamanlarda olan tarixi abidəmizdir. O qədər böyük, əzəmətli bir abidədir ki onu siniflər üzrə ancaq müəyyən boylarını ixtisarla dərsliyə sala biliblər. Belə ki, 6- cı sinif Ədəbiyyat dərsliyində "Basatın Təpəgözü öldürdüyü boy" və 8-ci sinif Ədəbiyyat dərsliyində "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy" dan ixtisarla şagirdlərin yaş və anlaq səviyyəsinə uyğun salınıb. Dastanlar haqqında dərsliyə salınmayan faktları da müəllim şagirdlərə ətraflı bilib söyləməlidir. Fənnini və müəllimlik peşəsini çox sevən bir pedaqoq bu əsərləri xüsusi bir bacarıqla şagirdlərə tədris edib, sevdirməyi bacarmalıdır. "Kitabi-Dədə Qorqud" tarixi, qədim abidəmiz olmağından da başqa orada Azərbaycanın qədim onomastik vahidlərindən olan toponimlərindən, hidronimlərdən, antroponimlərdən və s. çox bəhs edilmişdir. Orta məktəbdə dərsliyə salınmayan faktlardan söz açmaq istərdim: Azərbaycan türklərinin əski abidəsi olan "Kitabi-Dədə Qorqud" həm də Oğuznamə adlanır. Boylarda Oğuzun (antroponim) adı kimi də çəkilir. Oğuzlar (quzlar, uzlar) eramızın VI-XI əsrlərində Çindən Qaradəniz sahilinə qədər imperiya yaratmışdır. Belə fikirlər vardır ki, VI-VIII əsr Orxon abidələri Oğuz dilinin qədim mərhələsini əks etdirir. Ola bilsin ki Zəngəzurda olan "Uz" kəndi adı da Oğuzlarla bağlıdır. Qafqazda Oğuz tayfa adları toponimlərdə əks olunmuşdur. Bu toponimlər bizim keçmişimizi öyrənmək üçün qiymətli xəzinədir. Onlar bizim dəyərli söz abidələrimiz, keçmişimizin bu günkü şahidləridir. Əsrlər, nəsillər keçsə də toponimlər qalır. Onlar dolaşıq hadisələrin aydınlaşdırılmasında, tarixi həqiqətlərin üzə çıxarılmasında ən etibarlı şahiddir. Məs: Bayandur (Bayandur kəndi, Bayandur çayı), Bayandır oğuz xanlarının xanıdır. Bu söz tarixi kateqoriyadır. Bu sözün yayılma arealı genişdir. Hətta Əfqanıstanda da Bayandır adlı coğrafi obyekt vardır. Türkiyədə 52 Bayandır kəndi olmuşdur. Fikrimizcə "Kitabi-Dədə Qorqud" la bağlı toponimlərin geniş yayıldığı ərazilərə "Oğuz eli" demək olar. Şimal-şərqə doğru- Dəmir qapı Dərbəndədək (toponim) uzanan müasir Şimali Azərbaycan torpaqları, orta-aşağı Araz (potamonim) axarı istiqamətində - Ağrıdağ yaxınlığından başlayıb, Qarabağda Muğan düzənliyinin cənubuna

uzanan sahələr ümumən "Dədə-Qorqud" bəylərinin nəzarəti altında idi. Buna görə də "Dədə-Qorqud" ərazisinin sərhədləri çox böyük və qeyri- müəyyəndir. Dastandakı toponimlər çox uzaq keçmişlərin yadigarlarıdır. Qədimlik bu toponimlərin başlıca, əsas fərqləndirici keyfiyyətidir. Buna görə də ensiklopedik məzmunlu sözlərin olduğu nəzərə alınmış tarixi məlumatların verilməsinə xüsusi diqqət yetirilmişdir.

AZƏRBAYCAN TOPONİMLƏRİNİN TƏSNİFİ İLƏ BAĞLI BƏZİ MƏSƏLƏLƏR

Əhmədzadə Y.S.
Sumqayıt Dövlət Universiteti
E-mail: ehmedzadeyasemen@gmail.com

Dilçilikdə diqqəti cəlb edən məsələlərdən biri də xüsusi adlardır ki, dilçilikdə xüsusi adları öyrənən bölmə onomastika adlanır.Onomastika dilçilikdə XX əsrin II yarısından tədqiq edilməyə başlanılmışdır. Onomastikanın tədqiq etdiyi xüsusi adları bir sıra qruplarada (antroponimlər, etnonimlər, toponimlər, hidronimlər, zoonimlər, kosmonimlər) birləşdirilmişdir.Biz bu tezisdə əsasən toponimlərin dövrlər üzrə növünə və bu elmin bəzi məziyyətlərinə nəzər yetirəcəyik.

Müasir Azərbaycan dili zəngin toponomik leksikaya malikdir.Toponimika elmi coğrafi adları,onların mənşəyini,inkişafı,müasir halı,semantik mənasını,yazılışı və tələfüzünü öyrənən elmdir.Coğrafi namenklatura anlayışı(latın dilindən nomenklatura –adlar toplusu) və toponikon(toponmicon) toponimika terminin analoqlarıdır.Dilçilik baxımından toponimlər xüsusi adlardır. Toponimika elmi bir sıra elmlərə istinad edir,məsələn:lingivistika,tarix, coğrafiyaya və b.Toponimika tarix elmi ilə sıx bağlıdır:yer adları xronoloji xarakter daşıyır və tarixi hadisələrin sübutudur.Dilçi alim A.Qurbanov toponimləri dövrlərinə görə aşağıdakı kimi təsnif etmişdir :

"1.Protoazərbaycan toponimikası (e.ə. III - I minil)
2.Qədim Azərbaycan toponimikası (e.ə. V - b.e . X əsrləri)
3.Orta Azərbaycan toponimikası (XI - XVII əsrlər)
4.Yeni Azərbaycan toponimikası (XVIII - XX əsrlər)
5. Ən yeni Azərbaycan toponimikası"

Toponimikanın coğrafiya üçün də əhəmiyyəti böyükdür.Yer adları xəritənin ən vacib elementidir.

Toponimlər qədim toponimlər,müasir toponimlər,makro və mikro toponimlər olmaqla bir sıra növlərə bölünür.Makro toponimlərə iri təbii və ya texnogen obyektlərin adları mikro toponimlərə isə fərdiləşdirilmiş kiçik coğrafi adlar,yerli landşaft obyektləri(tarlalar,çəmənliklər və s.) aiddir.

Azərbaycan dil və etnik tərkibinə görə çox zəngin ölkədir və zəngin və mürəkkəb onomastikaya malikdir." Arxeoloqların verdiyi məlumatlara görə , Azərbaycan ərazisindəki Azıx mağarası Yer üzündəki ən qədim yaşayış məskənlərindən biridir . Əcdadlarımız hələ 60 min il bundan qabaq Qazax rayonu ərazisindəki məşhur Damcılı mağarasında , Tağlı, Gədəbəy , Kəlbəcər , Balakən , Şəki , Şamaxı , Naxçıvan zonalarında , Təbriz ətrafın da , Cənubi Azərbaycanın bir çox diyarında yaşamışlar.Arxeoloqlar və antropoloqlar sübut etmişlər ki , insan milyon ildən çoxdur ki , Yer kürəsində yaşayır . Azərbaycanın ən qədim coğrafi landşaftı dünyanın başqa ərazilərindən buzlaşma prosesini çox az keçirməsi ilə fərqlən mişdir . Şübhəsiz ki , həmin ərazidəki toponimlərin bir qismi qeyd etdiyimiz dövrlərdə yaranmışdır . İngilis arxeo loqu C.Mellartın verdiyi məlumata görə , Urmiya gölü sahilində , Cənubi Azərbaycanın Həsənli kəndi yaxınlığın dakı Dəlmə təpədən tapılmış boyalı qablar ən qədim dövrlərdən xəbər verir . Ən qədim və qədim Azərbaycan toponimləri bədii ədəbiyyatda öz əksini tapmışdır ..."

Toponimlər özləridə bir sıra qruplara bölünür:

1.Antrotoponimlər-toponim kimi işlədilən şəxs,ləqəb,titul,soyaddır:Xaspolad(Quba rayonu)
2.Etnotoponimlər-tayfa,qəbilə adları əsasında formalaşan toponimlərdir:Muğan,Talış,Boyat)
3.Hidrotoponimlər-hidronimlər əsasında formalaşan toponimlər:Qoşabulaq
4.Zootoponimlər-heyvan ,quş,balıq,həşərat və s. canlıların adları əsasında düzəlir: Qoçdərə, Tovuz, Ördəkli (Qəbələ),Qurdlar(Bərdə)
5.Fitotoponimlər-bitki adları ilə yaranan toponimlər:Armudlu,Alçalı(Kəlbəcər)
6.Memuar xarakterli toponimlər(görkəmli şəxsiyyətlərin adı ilə bağlı olan toponimlər:Bakıxanov, Hacı Zeynalabdin Tağıyev.
7.Kosmotoponimlər-kosmotoponimlər əsasında formalaşır:Günəşli,Şəfəqli.

Coğrafi obyektin böyüklüyündən və kiçikliyindən asılı olaraq toponimlər dərə, təpə, rayon, sahə, meydan, respublika, kənd, küçə, şəhər, məhəllə, yol və b. adları bildirir. Və bu adlarda toponimlərin

növlərində qruplaşdırılır:oykonimlər(kənd,şəhər və qəsəbə adları aiddir və iki yerə bölünür astionim(şəhər yaşayış məntəqəsi) və komonim (kənd yaşayış məntəqəsi), urbanonimlər (meydan, küçə, prospekt, döngə, bazar, bina,qala v. S.aiddir və aqronim və qodonim olmaqla iki yerə ayrılır),xoronimlər(vilayət,respublika və ölkə adları aiddir),oronimlər(relyef quruluşuna görə fərqlənən ərazi adları aiddi),dromonimlə r(yerüstü və yeraltı,hava və su nəqliyyat yolarrın adları aiddir).

Toponimlərin özünə məxsus funksional semantik sahə strukturu vardır. Onomastik materialın sahə yanaşması əsasında təhlili, onun zamanı "dil hadisələri ilə ekstralinqvistik reallıq arasında dialektik əlaqələr, bu əlaqənin mexanizmi və onun qanunauyğunluqları aşkarlanır. Linqvistik şüurun xüsusiyyətləri açılır, onun milli səciyyəvi xüsusiyyətləri açılır . Coğrafi adların xüsusiyyətlərini əks etdirən təkcə toponimik lüğət tərkibinə təsir edən amillərin əlaqəsini göstərməyə imkan verir. Onomastik altsisteminin sahə strukturlaşdırılması vahidlərin "obyektivlik, strukturluluq, bütövlük kimi maddi sistemin əsas xüsusiyyətlərinə uyğun olaraq" təsvirini nəzərdə tutur. Burada onomastik lüğətlər əsasdır.

Toponimik lüğətin inkişafı siyasi və ideoloji təlimatların dəyişməsi, leksik vahidlərin birbaşa və məcazi mənalarının yenidən bölüşdürülməsi ilə müəyyən edilən obyektlərin qəsdən adının dəyişdirilməsi amili ilə əlaqələndirilir. sözlərin semantikasında yeni ifadəli-qiymətləndirici konnotasiyaların yaranması , o cümlədən toponimlərin və s.Bu proseslərə biz Regional dövri mətbuatın mətnlərində qeydə alınmış, materialları əvvəllər bu aspektdə öyrənilməmiş dil vahidlərinin funksional semantikasının inkişafı regional onomastikanın altsistemdə müqayisə edərəkən rast gəlirik həmçinin bu bizə mövcud vəziyyət haqqında anlayışı tamamlamağa və genişləndirməyə imkan verir.Toponimist Vlapar yazır:

"Volqoqradskaya Pravda" mətnlərində qeyd olunan coğrafi obyektlərin mənası olan leksik vahidlərə diqqət yetirək. Faktlar silsiləsinin təhlili göstərdi ki, şəhər və qəsəbələri bildirən coğrafi obyektləri təyin edərkən invariant semantik xüsusiyyəti ifadə etmək üçün ən çox ixtisaslaşan Volqoqrad şəhəridir. Bu ad mütəmadi olaraq toponimlərə xas olan müxtəlif funksiyalarda işlənir, dilin şifahi və yazılı formalarında istifadə olunduqda ümumi qəbul edilir, adın zəngin assosiativ həcmi ilə seçilir, qəzet mətnlərində mühüm inzibati-tədqiqat xarakterli adlardan ən çox istifadə olunur. Qəzet mətnlərində Volqoqrad toponimi, bir qayda olaraq, informativ olaraq lazımsız apellyasiya şəhəri olmadan istifadə olunur, məsələn: Volqoqradın Sovetski rayonunda "Ağac ək - gələcəyə uzan" aksiyası keçirildi ... . Bu onimin fərqli xüsusiyyəti zəngin kommunikativ və praqmatik potensial, məsələn, yaşayış məntəqəsinin sakinlərinin məcmusunu ifadə edən ekspressiv və obrazlı məna əldə etmək bacarığıdır.

Ümumiyyətlə, bu sahə xüsusi tədqiqat tələb edir.

AY ADLARI

Əlimova N.K.
Bakı Slavyan Universiteti
E-mail: alimovanusabe@gmail.com

Azərbaycan dilində zaman anlayışını özündə əks etdirən xüsusi bir söz qrupu da ay adlarıdır. Kiçikdən böyüyə və ya xüsusidən ümumiyə prinsipi ilə yanaşdıqda ay adları həftə adları ilə il adları arasındakı mövqedə dayanır.

Ümumiyyətlə götürdükdə Azərbaycan dilindəki zaman anlayışı bildirən sözlər digər Oğuz qrupu türk dillərindəki zaman leksikasına daxil olan sözlərdən bir sıra spesifik xüsusiyyətləri nəzərə almasaq, ciddi şəkildə fərqlənmir. Bu qrup sözlərdə özünü göstərən fərqlər əsasən fonetik cəhətdən meydana çıxan fərqlənmələrdir. Qeyd edək ki, türk dillərində ilk əvvəllər ay adları olmamışdır. Bunu M.Kaşğari özünün "Divani-lüğət-it türk" əsərində də qeyd etmişdir. O, bu məsələ barədə ətraflı şəkildə qeyd edir ki, ay adları türk dillərində islam dininin yayılmasından sonra meydana çıxmışdır. Türk xalqları müəyyən müddət islam dininin yayılmasından sonra ay və günəşlə bağlı ay adlarından istifadə etmişlər. Bunlar Qəməri və Şəmsi aylar olaraq iki qrupa ayrılmışlar. Qəməri ayda hər bir fəslin özünün daimi ayı və günü olmur. Əksər türk dillərində işlənmiş Qəməri aylar bunlardır: 1.*Məhərrəm, 2.Səfər, 3.Rəbiyyüləvvəl, 4.Rəbiyyüləvvəl, 5.Cəmadiyyüləvvəl, 6.Cəmadiyyülaxir, 7.Rəcəb, 8.Şəban, 9.Ramazan, 10.Şəvval, 11.Zilqədə, 12.Zilhəccə.*

Günlə bağlı formalaşan Şəmsi aylar isə bunlardır. *1.Fərvərdin, 2.Odibehişt, 3.Xordad, 4.Tir, 5.Mordad, 6.Şəhrivar, 7.Mehr, 8.Aban, 9.Azər, 10.Dey, 11.Bəhmən. 12.İsfənd.*

Müasir türk dilərinə nəzər yetirdikdə görürük ki, ay adlarının adlandırılmasında müəyyən fərqliliklər vardır. Bəzilərində ay adları özündə xalqın adət-ənənələrini əks etdirirsə, bəzilərində isə dövlət işləri ilə əlaqəli meydana çıxmışdır.

Digər Oğuz qrupu türk dillərindən fərqli olaraq, Azərbaycan dilində ayların adlandırılmasında Avropa mənşəli sözlərdən istifadə olunur. Bu adlar qədim Roma təqvimindən götürülmüşdür. Məlumat üçün qeyd edək ki, qədim Romada çoxallahlıq mövcud olmuşdur. Buna görə də, romalılar ayların hər birini onların şərəfinə adlandırmışlar. Lakin aylar Allahların şərəfinə adlandırılsa da, onların məzmunundakı ümumi məna bu gün də Oğuz qrupu türk dillərində özünü göstərir: *Yanvar, fevral, mart, aprel, may, iyun, iyul, avqust, sentyabr, oktyabr, noyabr, dekabr.*

Türk dilində ayların adlanmasında müəyyən qanunauyğunluq olmasa da, hər ayın adı müəyyən bir mənanı ifadə edir: *Ocak, şubat, mart, nisan, mayıs, haziran, temmuz, ağustos, eylül, ekim, kasım, aralık.*

Türkmənlərdə ayların adlanmasında etnoqrafik, dövlətçilik ənənələri özünü göstərmişdir: *Türkmenbaşı\yanvar, baydak, nauruz\mart, Qurbansoltan\aprel, Magtimqulu, oğuz\iyun, Qorqut, Alp Arslan, Ruhnamə, garaşsyuzluk, Əhməd Səncər, bitərəflik.*

*Qaqauzlar*da isə aylar adlanarkən hər ayın öz xüsusiyyəti əsas götürülmüşdür: *büük ay\böyük ay, güüçük, mart, çiçek, pipiruda, Ay Petri ayı, ay iliye, xarman, sentyabri\Panaya, oktyabr, kasım\noyabri, dekabri.*

Axısqa türklərində də ay adlanmasında fərqliliklər özünü göstərir: *Zimhəri\zəmhəri, qücük, mart, aprel, may, kirəz, orağ ayı, xarman ayı, böqrüm\bögrüm ayı, şarap ayı, koçay, karakış.*

Azərbaycan dilinin dialekt və şivələrində də ay adlarının adlandırılmasında fərqliliklər özünü göstərir. Məsələn, *Qorapişirən ay* əksər şivələrdə, eləcə də Şəki dialektində avqust ayı mənasını bildirir. *Quyruqdoğan ay* ifadəsi Azərbaycanın qərb, *quyruqdonan ay* ifadəsi isə şərq rayonlarında işlənir, "avqustun ikinci yarısı" mənasındadır. Bəzi şivələrdə payızın orta aylarına "xəzan ayı\leysan ayı\yarpax tökülən vaxtı" da deyilir. "Payızın son ayı" mənasında Naxçıvan şivələrində *oxlaqqıran ayı* ifadəsi işlənir. Ordubadda *alaçolpav* "fevralın iyirmisindən martın iyirmisinə qədər olan dövrü" bildirir, *davardoymaz\dadardoymaz* əksər şivələrdə yazın mart-aprel aylarındakı dəyişkən havalı dövrü, Ordubad və Şahbuzda kərnəbürt\kərnəvurt "aprelin 15-nə qədər soyuqların tam sovuşmadığı dövrü" bildirir. Yenə Ordubad şivəsində, həmçinin Şəkidə qara yaz, qərə yaz "martın 21-dən aprelin axırına qədərki dövrü" bildirir. Həmçinin Şəki zonasında may ayına "gül, çiçək ayı" da deyilir.

Göründüyü kimi istər Azərbaycan dilində, istərsə də digər türk dillərində ay adları mənşə və səslənmə cəhətdən fərqli olsa da, diqqətlə nəzər yetirdikdə onları bağlayan məna əlaqələrinin olduğunu görə bilərik. Dialekt və şivələrimizə gəldikdə isə onlarda olan fərqlənmələr xalqımızın dünyagörüşü, etnoqrafiyasını özündə birbaşa əks etdirir.

NEOLOGİZMLƏRİN DİLÇİLİYİN İNKİŞAFINDA ROLU

Əzimova N.N.
Bakı Slavyan Universiteti
E-mail: nermin.ezimova2507@gmail.com

Tədqiqat obyekti olaraq seçilən neologizmlər mövzusu dilçiliyin inkişafında əhəmiyyətli rola malik olan dilçilik sahəsi olub dilçiliyin inkişafında əvəzsiz xidmətə malikdir. Neologizmlər dilçiliyin inkişafı baxımından çox böyük üstünlüyə malikdir. Hər bir elm sahəsində olduğu kimi dilçiliyin də öz inkişaf istiqamətləri mövcuddur. Dilçilik sahəsinin inkişaf istiqamətləri əsasən dilin lüğət tərkibi baxımından olur. Dilin lüğət tərkibinin inkişafı dilin inkişafı baxımından müəyyən üstünlüklərə malikdir. Dildəki inkişaf istiqamətləri dedikdə dilin tərkibində olan elm sahələrinin həm dilin lüğət tərkibinin, həm də qrammatikasının inkişafı başa düşülür.

Dilin qrammatik sahəsində inkişaf sürəti digər sahələrinə nisbətdə çox uzun müddətli prosesdir. Lakin dilin lüğət tərkibində gedən proseslər isə daha qısa müddət ərzində baş verir.Nümunə olaraq, bu halı göstərə bilərik ki, 1990-cı il dərsliklərinə nəzər saldıqda qrammatikada olan çox az dəyişikliklərə rast gələrik, demək olar ki, həmin ilin dərsliklərində olan qaydalar və terminlər hamısı hal-hazırda dəyişməz olaraq qalıb.Bu halı müqayisə predmenti etdikdə, digər tərəfdən 1990-cı ilin ümumişlək sözlər lüğətinə baxdıqda görürük ki, dilin lüğət tərkibindəki sözlərdən nəzərə çarpacaq qədər hissəsi öz ümumişləkliyini itirmiş, bir qismi isə artıq dildə tamamilə istifadə olunmamaqdadır.Bunun səbəbi isə ondan ibarətdir ki, dildə inkişaf tendensiyalarının sürəti artıqca dilin inkişaf prinsipləri də artır. Dilə yeni daxil olan analoq vahidlər dildə əvvəldən olan vahidlərdən daha istifadəyə yararlı olduğundan tədricən əvvəlki dil vahidlərini dilin ümumişlək lüğətindın sıxışdırıb çıxarır.

Bütün bu halların hər biri müəyyən səbəblərdən dolayı baş verə bilir. Hansı ki dilin lüğət tərkibinin dəyişməsinin öz səbəbləri mövcuddur. Bu səbəblərin hər biri ayrı-ayrılıqda bir tədqiqat obyekti olsa da, qısa olaraq nəzər sala bilərik. Dilin lüğət tərkib əsasən iki formada dəyişə bilir-birinci hal dilə yeni dil vahidlərinin daxil olması halıdır. Digər bir dəyişmə səbəbi isə dildə ümüumişlək olan dil vahilərinin tədricən öz aktuallığını itirməsi səbəbindən olur. Belə olan halda öz aktuallığını itirən sahəyə malik olan sözlər tədricən dilin arxaizmlər lüğətinə keçir. Dildəki sözlərin dilin lüğət tərkibindəki yerini dəyişməsi halları bəzi hallarda uzun müddət ərzində, bəzi hallarda isə çox qısa müddət ərzində baş verə bilir. Buna səbəb olaraq, dildə baş verən dəyişiklikərin əksəriyyəti inkişafla bağlı olan bir məsələdini nümünə göstərmək olar. İnkişaf müəyyən məqamlarda dillərə öz təsirini göstərir, baxmayaraq ki, bu təsirlər hər zaman müsbət olmur, ümumilikdə inkişafın öz növbəsində dilə mənfi təsirləri də olur.

Cəmiyyətin inkişaf prosesi nə qədər sürətli gedirsə, dil də öz növbəsində həmin inkişaf tempinə ayaqlaşmalıdır . Bu çox mühümdür, dil cəmiyyətin inkişaf tempinə uyğunlaşmadığı halda halda dilin özü ümumilikdə tam sıradan çıxa bilər və ya öz ümumişləkliyini itirə bilər. Hal-hazırda dünya dilləri sırasında bu cür dillər mövcuddur, hansı ki ən başlıca nümunə latın dilidir, hal-hazırda hər hansı bir dövlət tərəfindən rəsmi dil deyildir, lakin terminlərin əkəriyyəti latın dilindən keçib və latın dilinə məxsusdur, istər tibb, istər dilçilik, istərsə də iqtisadiyyat, fizika, kimya və s. elm sahələrində latın dilindən keçmə terminlərin sayı kifayət qədərdir. Latın dili müəyyən dövrlərdə dil olaraq istifadə olunmuşdur, lakin sonralar cəmiyyətin inkişafına uyğunlaşa bilməmişdir. Cəmiyyətdə bir qisim yeniliklər baş verir ki, həmin yeniliklər dildə öz təsirini göstərir. Hansı ki elm və texnikanın və yaxud ictimai sosial həyatın inkişaf etməsi cəmiyyətdə yeni amillərin yaranmasına səbəb olur. Belə olan halda dil ona olan tələbatı qarşılaya bilmir, dilin lüğət tərkibinə yeni sözlər daxil ola bilmir və tədricən sıradan çıxır.

Bütün bu sadalalan halların hər biri dilin inkişafı və onun tədiqiqi baxımından, istər neologizmlərin tədqiqatı baxımından çox vacib sahələrdir. Neologizmlərin tədqiqatı dilçilik elminin tarixi boyunca öz aktuallığını qoruyacaq, buna səbəb isə odur ki, neologizmlərin tədqiqatına dilin qorunması və onun düzgün inkişafı baxımından hər zaman ehtiyac olacaqdır. Yuxarıda qeyd olunan halların hər biri dilçilik sahəsi inkişaf etdikcə,öz inkişaf xüsusiyyətlərini qoruduqca aktual və tədqiqat obyektinə çevriləcək sahədir. Dilçiliyin hər bir sahəsindən fərqli olaraq neologizmlərin dilçiliyin digər sahələrini də əhatə etməsi və onun dilçiliyin bütün sahələri ilə əlaqəli olması neologizmlərin aktual və geniş bir tədqiqat sahəsi olması məsələsini ortaya qoyur. Ümumi bir fikir söyləsək, yekun nəticə bundan ibarətdir ki, nelogizmlər dil vahidlərinin ilk yarandığı gündən mövcuddur, lakin dilçiliyin inkişafı baxımından bir dilçilik sahəsi kimi tədqiqat obyekti kimi istifadə olunması çox sonralar olmuşdur. Lakin bu sahə hər zaman aktual bir sahə olaraq qalacaqdır.

AZƏRBAYCAN DİLİNDƏ HAL-VƏZİYYƏT FEİLLƏRİNİN TƏSNİFİ

Feyzullazadə L.K.
Bakı Slavyan Universiteti
E-mail: feyzullazadeleman@gmail.com

Hal-vəziyyət feilləri əşyanın təbii halını dəyişməsindən sonra aldığı vəziyyəti,əlaməti, keyfiyyəti və insanın müxtəlif situasiyalarda düşdüyü vəziyyəti, keçirdiyi hiss və həyəcanını bildirir. Məsələn: ağarmaq, qızarmaq, saralmaq, pisləşmək, yaxşılaşmaq,qocalmaq, təzələnmək, köhnəlmək, acılaşmaq, turşumaq, kifirləşmək, çirkinləşmək, gözəlləşmək, sağalmaq, xəstələnmək, azarlamaq, arıqlamaq, kökəlmək, üzülmək, sevinmək və s Hal-vəziyyət feilləri quruluşca sadə, düzəltmə və mürəkəb olur. Bu qrupa aid olan feillərin əksəriyyəti təsirsizdir və qarşılıq, məlum və məchul növdə işlənərək müxtəlif məna çaları yaratmağa xidmət edir.

Hal-vəziyyət feilləri müxtəlif mənaları ifadə etməsinə görə aşağıdakı yarımqruplara bölünür:

1.Əşyada keyfiyyət, kəmiyyət, əlamət və xasiyyət dəyişkənliyinin əmələ gəlməsini göstərən hal-vəziyyət feilləri. Bu qrupa daxil olan feillər hal-vəziyyət feillərinin böyük bir qismini əhatə edir. Hal-vəziyyət feillərinin bu qrupu qruluşuna görə həm sadə, həm düzəltmə, həm də mürəkkkəb ola bilir: sadə-artmaq, dəymək, qaynamaq, qıvrılmaq və s; düzəltmə- azarlamaq, tərləmək, bərkimək, yaşaqmaq, bozarmaq, ağarmaq, boşalmaq, sağalmaq və s.; mürəkkəb-böhran keçirmək, xəstə düşmək, uzaq düşmək,şəfa tapmaq və s.

2.Sevinc, şadlıq, razılıq bildirən hal-vəziyyət feilləri. Bu qrupa daxil olan feillər insanın sevincli vəziyyətlərdə keçirdiyi hisləri ifadə edir: sevmək, sevinmək, şadlanmaq, gülmək, zövq almaq, həzz almaq, heyran olmaq, xoşu gəlmək və s.

3.Qarşılıqlı münasibət, dostluq, yaxınlıq, qohumluq bildirən hal və vəziyyət feilləri. Bu qrupa aid olan feillər düzəltmə və sadə quruluşlu olur. Düzəltm hal-vəziyyət feilləri –laş,-ləş şəkilçiləri vasitəsilə yaranır. Mürəkkəb feillər isə "olmaq" köməkçi feilinin köməyi ilə yaranır: dostlaşmaq, yaxınlaşmaq, qardaşlaşmaq, qardaş olmaq,qohum olmaq, yoldaş olmaq və s.

4.Kin-kidurət, təəssüf, qəzəb, hiddət, peşimançılıq bildirən hal-vəziyyət feilləri:qəzəblənmək, hiddətlənmək, təəssüf etmək, kin tutmaq, acığı tutmaq, qəzəbi tutmaq, dərd çəkmək, qəm çəkmək və s.

5. Təqlid nəticəsində yaranan hal-vəziyyət feilləri. Bu qrupa aid olan feillər həm cansız varlıqların, həm insanların, həm də heyvanların səslərinə təqlidən yaranır.Burada feillərin yaranması üçün əsasən –ılda, -ildə, -ulda, -üldə, -qır, -xır kimi şəkilçilərdən istifadə olunur. Buna görə də bu yarımqrupa aid olan feillər özləri də bir neçə qrupa bölünür:

- Yalnız əşyaların səslərini təqlid nəticəsində yaranan hal-vəziyyət feilləri: cingildəmək, taqqıldamaq, cırıldamaq, guruldamaq və s.
- Yalnız heyvanların səslərinə təqlidən əmələ gələnlər: böyürmək, mələmək, zingildəmək, ulamaq, vakkıldamaq, cəh-cəh vurmaq, fınxırmaq, zingildəmək, cik-cik etmək və s.
- İnsana məxsus səslərə təqlid nəticəsində yaranan hal-vəziyyət feilləri: hırtıldamaq, qaqqıldamaq, hıqqanmaq, zırıldamaq,şaqqıldamaq və s.
- İnsan və heyvanlara məxsus səslərin təqlidi nəticəsində yaranan hal-vəziyyət feilləri: xoruldamaq.

İnsanların gündəlik həyatlarında qarşılaşdıqları müxtəlif hadisələr, eşitdikləri müsbət və mənfi xəbərlər, və ya öz daxili aləmlərində keçirdikləri hiss-həyəcanın təsiri nəticəsində fərqli hallar keçirdiyini müşahidə etmək mümkündür. Eləcə də digər canlı varlıqların və əşyaların ətrafda baş verən hadisələr səbəbindən müxtəlif hallara düşdüyünü nəzərə alaraq hal-vəziyyət feillərinin öyrənilməsi və leksikoqrafik qaynaqlar əsasında rəngarəng məna çalarlarının araşdırılması həm həyatımız, həm də dilimiz üçün çox böyük nəzəri və praktik əhəmiyyət kəsb edir.

VİLHELM FON HUMBOLDTUN "BƏDİİ TƏRCÜMƏDƏ MƏNALARIN ŞƏRHİ PROBLEMİ" HAQQINDA DİLÇİLİK GÖRÜŞLƏRİ

Hacızadə M.Ç.
Bakı Slavyan Universiteti
E-mail: minahacizade4@gmail.com.

Görkəmli alman alimi, filosofu, həmçinin dilçisi Vilhelm fon Humboldtun fəaliyyəti dil fəlsəfəsinin müstəqil elmi istiqamət kimi formalaşmasına, eləcə də nəzəri və müqayisəli tarixi dilçilik elminin inkişafına töhfə vermişdi. Humboldt həm fəlsəfi, həm də linqvistik xarakterli ən mühüm problemləri müəyyən etmişdir ki, onlar müasir dövrdə də tədqiqatçıların diqqətini cəlb edir. Humboldtun müqayisəli tarixi dilçilik sahəsində tanınmış xidmətləri ilə yanaşı, alimin irəli sürdüyü bir çox ideyaları tərcümə problemlərinin həllində kifayət qədər tədqiq edilməmişdir. Humboldtun bir sıra əsərlərini təhlil etdikdən sonra belə qənaətə gəlmək olur ki, hələ XVIII-XIX əsrlərin qovşağında V.fon Humboldt tərcümənin əsas problemlərini müəyyən etməyə nail olmuş, bununla da müasir tərcümənin əsaslarını qoymuşdur. Humboldt təliminin müəyyən etdiyimiz tərcümə komponentini yalnız onun əsərlərinin bütün ideoloji rəngarəngliyi kontekstində düzgün işıqlandırmaq və dərk etmək olar. Ona görə də hesab edirik ki, Humboldtun nəzəri və müqayisəli-tarixi dilçilik aspektində əldə etdiyi bəzi nailiyyətləri, tipoloji cəhətdən tərcümə nəzəriyyəsi və praktikasında həlli vacib olan vəzifələrə yaxınlaşdırmaq lazımdır.

Humboldt yaradıcılığı adətən klassik adlanan alman fəlsəfəsinin çiçəklənmə dövrünə aiddir. Buna görə də təəccüblü deyil ki, Humboldtun dilçiliklə bağlı nəzəri və tədqiqat işləri çərçivəsində əldə etdiyi nəticələr onun bir çox fəlsəfi mühakimələrinə əsaslanır. Humboldt yaradıcılığının fəlsəfi tərəfi tez-tez "Humboldtun mistik sistemi" adlandırılır. Həm filosoflar, həm də dilçilər arasında bir çox əsərlər Humboldt konsepsiyasının ideoloji müxtəlifliyində və çoxşaxəliliyində sələf filosoflarının və onun heç də az olmayan böyük müasirlərinin təsirini əks etdirmiş və bu kimi problemlərə həsr edilmişdir. Humboldtun "Mədəniyyətin dili və fəlsəfəsi" adlı əsərlər toplusunun giriş məqaləsində (1985) fəlsəfə elmləri doktoru professor A.V.Quliqa Humboldt yaradıcılığının ideoloji əsaslarından yazır. Şübhəsiz ki, Humboldtun dünyagörüşünün formalaşmasına onun görkəmli sələflərinin və müasirlərinin ideya və təlimləri müəyyən

təsir göstərmişdir. Humboldt özü də "insan həmişə mövcud olana güvənir" faktını inkar etmir, alim izah edir ki, düşünülmüş və əziyyətli araşdırma ilə həmişə sübut oluna bilər ki, əvvəllər hər hansı bir yenilik və ya kəşf tədricən kök salıb və beyinlərdə mövcud olub. Bununla belə, biz əminik ki, məhz Humboldt dühası sayəsində o dövrün elmi ictimaiyyətinə hakim olan bir çox ideyalar elə formalaşdırılmışdı ki, onlar bir çox yeni araşdırmalara, həqiqəti üzə çıxarmağa cəhdlərə səbəb olmuşdu. Humboldt ideyalarının mahiyyəti hələ də çoxlu müzakirələrə səbəb olur.

V.fon Humboldt yaradıcılığında ədəbiyyatın, poeziyanın, incəsənətin dildəki rolu haqqında mülahizələrə dəfələrlə rast gəlinir. Alim bu məsələyə "Dillərin müxtəlif təbiətinin ədəbiyyata və mənəvi inkişafa təsiri haqqında" (Über den Einfluss des verschiedenen Charaketrs der Sprachen auf Literatur und Geistesbildung - 1821) adlı ayrıca məruzə həsr etmişdir. Qədim yunan ədəbiyyatı əsərlərinin praktik tərcüməçisi olan V.fon Humboldt vurğulayır ki, "tərcümə ədəbiyyatın ən zəruri növlərindən biridir" çünki o, "ana dilinin semantik imkanlarını və ifadəliliyini genişləndirməyə" xidmət edir. Humboldt dildə daxili ziddiyyətlər axtarmaq xarakterik meyli ilə dili sənətə bənzədir, eyni zamanda dil və sənətə qarşı çıxır. Humboldta görə, dil sənətlə müqayisə oluna bilər, çünki hər ikisi gözəgörünməzi həssas formada təsvir etməyə meyllidir və insan ruhunun yaradıcısıdır. Dil və sənət oxşarlığı insana təsirində də özünü göstərir: dil də sənət kimi bəşəriyyətdə ən yüksək və ən incə olan hər şeyin valideyninə və tərbiyəçisinə çevrilir. Bununla belə, dil hələ də sənətdən "sabit ilkin quruluşun" olması ilə fərqlənir və bundan əlavə, dil reallığın "təsviri vasitəsi" kimi çıxış edir, sənət isə öz əsərini reallığın "yerinə" qoyur. Humboldt yazır ki, "linqvistik orijinallıq müəyyən bir materialın düzülüşü ruha ən az qandal qoyduğu şeirdə ən aydın şəkildə təzahür edir və daha da təbii şəkildə xalq həyatında və ədəbiyyat növlərində ifadə olunur və onunla əlaqələndirilir". Humboldt qeyd edir ki, tarixən poetik janrların dil fərqi onun inkişaf dərəcəsinə dəlalət edir və bu zəngin dildə hər bir janra ayrıca ləhcə təyin edilmiş yunan dilini misal gətirir. Ədəbiyyat, poeziya, incəsənət insan fəaliyyətinin obyektiv fikrin yaranması ilə subyektiv qüvvənin təsirinin qarşılıqlı yüksəlişlə bir-birindən qaynaqlandığı sferaları olduğundan dildə və onun inkişafında o qədər böyük əhəmiyyət kəsb edir. Humboldta görə, əgər obyektiv sfera, tarixən inkişaf etmiş və eyni zamanda öz qanunauyğunluqları ilə inkişaf edən dildirsə, subyektiv güc, şübhəsiz ki, fərdin fərdiliyinin və özünəməxsus dünyagörüşünün dilə təsiri deməkdir. Humboldt dilin dəyərini onun ədəbiyyatının dəyəri ilə ölçür. Beləliklə, o, ədəbiyyatın dilin inkişafında rolunu vurğulayaraq qeyd edir ki, "yazıçılar öz istedadları, ruhlarının güclü təkanları sayəsində öz əsərlərində dilə yeni xarakter sözlərin istifadəsinin müəyyən xüsusiyyətlərini verə bilirlər".

Humboldtla razılaşaraq hesab edirik ki, ayrı-ayrı xalqların sənət əsərləri mədəniyyət abidələri kimi təkcə dilin xüsusiyyətlərini deyil, həm də onun inkişafının müəyyən tarixi dövründə bu dildə danışan xalqın reallıqlarını ehtiva edir. Ədəbiyyatın təsiri təkcə hər bir ayrı-ayrı dil daxilində deyil, həm də onların qarşılıqlı təsirində özünü göstərir. Hər bir tərcüməçi dillər və millətlər arasında müəyyən qədər əlaqə rolunu oynayır. L.L.Nelyubinin haqlı olaraq qeyd etdiyi kimi, tərcümə tarixində elə hallar olub ki, bəzi müəlliflərin əsərləri ədəbiyyatda ciddi iz buraxmayıb, eyni zamanda həmin əsərlərin tərcüməsi mədəni həyatda nəzərə çarpan hadisəyə çevrilib. Qeyd etmək lazımdır ki, Humboldt bədii mətnlərin ən mühüm fərqləndirici xüsusiyyətlərindən birini, daha doğrusu, tərcüməçi üçün əhəmiyyətli çətinlik yaradan onların "polisemiyası"-nı müəyyən etmişdir. Bədii tərcümədə tərcüməçinin fəaliyyəti məhz əsərə xas olan mənaları tapıb təfsir etməyə, onların başa düşülməsi və ya yanlış anlaşılması məsələlərini həll etməyə yönəldilməlidir. Humboldt danışan və dinləyici haqqında fikirlərinin davamında yazır ki, müəyyən ünsiyyət növündə iştirakçılar arasında qarşılıqlı anlaşma həmişə natamam olur və məna baxımından ekvivalent ola bilməz. Birincisi, Humboldta görə, bu, həm dilin özünün mürəkkəbliyi, həm də onun təfəkkürlə əlaqəsinin mürəkkəbliyi, "anlayışımıza meydan oxuması" ilə bağlıdır.

Hər bir tərcüməçi tərcümə olunmuş mətni özünəməxsus şəkildə başa düşür və buna görə də müxtəlif tərcüməçilər tərcümə edilmiş mətnə heç vaxt eyni mənaları gətirə bilməzlər. Mətnin "çox mənaları" aşkar edilən kimi tərcüməçi qarşısında iki mühüm vəzifə durur: birincisi, bu çoxlu mənaları necə dərk etmək və dərk etmək, ikincisi, mənbə mətnin semantik komponentlərini mətnə necə köçürmək. Yuxarıdakı sualların həlli tərcümə öncəsi təhlildir ki, bu da tərcüməçiyə mətnin anlaşılmazlıq mərhələsini dəf etməyə, bədii mətnə xas olan mənaları dərk etməyə və onun adekvat tərcüməsini həyata keçirməyə kömək edir. Alimin fəaliyyətinə həsr olunmuş çoxsaylı əsərlər Vilhelm fon Humboldtun həm fəlsəfi, həm də dilçilik elminin inkişafına verdiyi danılmaz töhfələrdən xəbər verir. Həqiqətən də, filologların və dilçilərin əksəriyyətinin rəyi Humboldtun nəzəri müqayisəli dilçiliyin banisi, ümumi və müqayisəli tarixi dilçilik konsepsiyasının yaradıcısı olması ilə bağlı hamı tərəfindən qəbul edilmiş bir həqiqətə söykənir. Eyni zamanda, hesab edirik ki, bu dilçi alim və filosofun irəli sürdüyü bir çox ideyalar tərcümə problemlərinin həlli və əhəmiyyəti baxımından nəzərdən keçirilməlidir.

TƏHSİL SAHƏSİNDƏ REKLAM MƏTNLƏRİNİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Hüseyinli Ə.V.
Sumqayıt Dövlət Universiteti
E-mail: xankishiyevaa@mail.ru

Reklam hər hansı bir xidmətdən insanların faydalanması məqsədilə edilir və əyani, yazılı, şifahi olaraq həyata keçirilən bir prosesdir. Reklam vasitəsilə ticarət markasının dəyərliliyi artırılır və istehlakçılarda həmin ticarət markasına qarşı müsbət fikirlər yaradılır.

Təsir dərəcəsinə və informasiyanın yayılmasına görə reklamın müxtəlif formaları mövcüddur. Reklam informasiyası istehlakçılara radio və teleyayımlar, mətbuat, kino, video, küçə lövhələri, nəqliyyat vasitələri, poçt göndərişləri vasitəsilə təqdim oluna bilər.

Azərbaycan Respublikasının dövlət dili haqqında qanununa əsasən deyə bilərik ki, Azərbaycan Respublikası ərazisində bütün xidmət sahələrində olan reklamlarda dövlət dili işlənilir. İstisna hallarda əcnəbilərə xidmət göstərilməsi ilə bağlı bəzi xidmət sahələrində dövlət dili ilə yanaşı digər xarici dillər də istifadə oluna bilər. Ancaq onların tutduğu sahə Azərbaycan dillindəki qarşılığının tutduğu sahədən böyük olmamalıdır və Azərbaycan dilində olan yazıdan sonra gəlməlidir.

Azərbaycan Respublikası ərazisində istehlakçılara təqdim olunan reklam mətnləri dövlət dilinin normalarına uyğun olaraq istifadə olunmalıdır.

Reklamın geniş yayılmış vasitələrindən biri də qəzet və jurnallarda verilən elanlardır. Elanlar nəzəri cəlb edən və yadda qalan olmalıdır. Reklamın effektivliyini artıran vasitələrdən biri də rənglərdən düzgün istifadə edilməsidir. Reklamda istifadə olunan rənglər rəngarəng və diqqətçəkən olmalıdır. Müasir dövrümüzdə belə reklamlara qəzet, jurnal və digər vasitələrdən başqa internet şəbəkələrində də rast gəlirik. Müasir dövrün tələbinə uyğun olaraq internet şəbəkələrində də təhsillə bağlı olan reklamlara rast gələ bilərik:

Bu nümunədən də göründüyü kimi reklamda istifadə olunan rənglər daha canlı və diqqətçəkən olmalıdır. Bundan əlavə olaraq reklam mətni hər kəs tərəfindən anlaşılan olmalıdır. Bu reklam mətni universitetə qəbula hazırlaşan abituriyentlərə ünvanlanıb və onlarda öz xidmətlərinə qarşı müsbət fikir yaratmağa çalışmışdır. Reklamda diqqət çəkilmək istənilən söz digərlərindən daha böyük ölçüdə yazılmış və rəngi daha əlvan seçilmişdir. Elanın leksik-semantik və leksik-qrammatik tərkibinə nəzər yetirsək görərik ki, burada istifadə olunan leksika ünvanlanan şəxslər tərəfindən başa düşüləndir.

Bu reklam nümunəsində istifadə olunan sözlər həqiqi mənada işlənmişdir və təkmənalı sözlərdir. Bundan əlavə reklam nümunəsi ümumişlək sözlərdən ibarətdir. Xidmətin daha əlçatan olması üçün elanda əlaqə nömrələri və elektron ünvanlar da qeyd olunmuşdur. Bu reklam nümunəsində istehlakçılara çatdırılmaq istənilən fikir sözlər və söz birləşmələri şəklində ifadə olunmuşdur. Məsələn: sınaq imtahanları, qəbul imtahanı və s. Bu reklam mətnindən də belə nəticəyə gələ bilərik ki, reklam mətnləri daha qısa və konkret olmalıdır. İstehlakçılara çatdırılan fikir sadə dillə ifadə olunmalıdır.

Reklam mətni nə qədər konkret olarsa, onun təsirlilik göstəriciləri də bir o qədər çox ola bilər. Buna görə də reklamın tərkibində əsas olaraq söz və söz birləşmələrinə yer verilir. Bu reklam nümunəsində olan informasıyanı cümlə formasında versək görərik ki, reklam mətni daha uzun formada olacaq və istehlakçılara çatdırılmaq istənilən fikir diqqətdən kənarda qalacaqdır.

İMADƏDDİN NƏSİMİNİN DİLİNDƏ AD DÜZƏLTMƏ PROSESİNİN TARİXİ MƏNZƏRƏSİ (FEİLDƏN AD DÜZƏLDƏN ŞƏKİLÇİLƏR ƏSASINDA)

İsazadə İ.İ.
Bakı Slavyan Universiteti
E-mail: ilaheisazada@gmail.com

Azərbaycan ədəbi dilinin öyrənilməsi hər zaman diqqət mərkəzində olmuşdur. Dilimizin qədim qatlarına enərkən məntiqi olaraq onun inkişaf tarixinə nəzər salırıq, bu zaman Orxon-Yenisey abidələrindən başlayaraq bu günə qədər müxtəlif mənbələrdən dilin bütün qatları tədqiq olunur. Bu baxımdan klassik ədəbiyyatın rolu danılmazdır. Klassik ədəbiyyatın görkəmli nümayəndələrindən biri İmaddədin Nəsimi olmuşdur. İmadəddin Nəsimi Azərbaycan dilində şeirin ilk gözəl nümunələrini yaradan, öz dəyərli fikirlərini bədii dildə ifadə etməyi bacaran qüdrətli şairlərimizdəndir .İ.Nəsiminin dilində bir neçə feillərdən ad düzəldən morfemlərlə tanış olaq.

-ıcı(-ici,-ucu,-ücü) şəkilçisini feillərə artırmaqla qismən peşə, vəzifə, bacarıq; qismən də keyfiyyət bildirən sifətlər düzəlir .Nəsimi dilindəki nümunələrə nəzər salaq; ”yandırıcı”, ”ağlayıcı”, ”tapıcı”, ”gəlici”.

Yandırıcı firqətin yaxdı məni narinə
Könlüm ulaşmaq dilər yari-vəfadarinə
Şövqün qışından ağlayıcı küz tökər yaşın,
Vəslin gününə döndərü güldür baharımı.

Nümunələrdən də göründüyü kimi Nəsimi dilində də bu morfem ahəng qanuna tabe şəkildə işlənmiş və müasir şəklindən fərqlənmir.

-ı(-i,-u,-ü) omonim olan bu morfem dilçilikdə çox funksiyalı şəkilçidir. Həm sözdüzəldici, həm də sözdəyişdirici morfem Nəsimi dilində özünə yer tapmışdır. Nümunələr əsasında morfemin funksiyalarını izah edək. “Dolu”

Sədəfin gərçi dəhanı doludur inci ilə,
Açıcaq ləblərini,lölöi-lala tökülür.
Həqqi gör,həqqi bil,həqqi tanı kim
Ki,həqdən doludur yedi bəhrü bər.

Feil üzərinə artırılan morfem sifət yaratmış və ahəng qanunu tələbinə uyğun variantından istifadə olunmuşdur.“Qorxu”

Kirpiglərinlə qaşın olmuşdur ismi-əzəm,
Divdən dəxi nə qorxu,çünkim,pənahım oldur.

Göründüyü kimi -ı(-i,-u,-ü) şəkilçisi feil üzərinə artırılaraq isim yaratmışdır. Bu morfemlə fiziki proses və nəticə bildirən isimlər düzəlir.

FERDİNAND DE SÖSSÜRÜN DİLÇİLİK GÖRÜŞLƏRİNDƏ DİL VƏ NİTQ

İslamlı A.Y.
Bakı Slavyan Universiteti
E-mail: aytac.islam08@gmail.com

Ferdinand de Sössürün dilçilik görüşlərində dil və nitq dixotomiyası, qarşılaşdırması mühüm yer tutur. Sössürə görə, dil fərdi nitqdən heç də az real deyildi. Bu baxımdan təkcə fərdin nitqini yeganə reallıq kimi qəbul edən gənc qrammatiklərdən fərqlənirdi. Düzdür, Sössürdən əvvəl V. fon Humboldt, Potebnya, B. de Kurtene tərəfindən bu problemin həllinə təşəbbüs göstərilmişdi, lakin F. de Sössür bu problemi daha ətraflı, geniş şəkildə araşdırmışdır. Qeyd etmək lazımdır ki, Sössür dili dilçilik elminin obyekti hesab edirdi. O, tədqiqat üçün dili əsas anlayış kimi göstərirdi.

Görkəmli dilçi dil fəaliyyəti, dil və nitq terminlərini fərqləndirmək üçün uyğun olaraq üç fransız terminini – la langage, la langue, la parole terminlərini dilçiliyə gətirmişdir. Sössür belə hesab edirdi ki, insanın danışmaq qabiliyyəti nitq fəaliyyəti adlandırılmalıdır. O, nitq fəalyyətini iki yerə ayırmışdır: dil və nitq. Müəllifə görə, nitq fəaliyyəti həm fərdi, həm də sosial səciyyə daşıyır və insana aid xüsusiyyətdir. Nitq fəaliyyəti psixologiya, fiziologiya, fizika kimi elm sahələri ilə bağlıdır. Dil də nitq fəaliyyətinin ən mühüm hissəsidir. Nitq fəaliyyətinin digər hissəsi də nitqdir. Dilçinin fikrincə, dil haqqında elm yalnız dili öyrənməlidir, nitq fəaliyyətinin qalan ünsürləri dilçilikdə öyrənilməməlidir. Sössür göstərirdi ki, nitq

fəaliyyətinin dil və nitq cəhətləri ayrıca öyrənilməlidir. Həmçinin o, tədqiqat obyekti dil olan dilin linqvistikası, tədqiqat obyekti nitq olan nitqin linqvistikası elmlərini onları öyrənmək üçün təklif edirdi.

Ümumiyyətlə, dil dil fəaliyyəti anlayışına daxildir. Dil fəaliyyəti vahid sistem daşımır, lakin dil bütövdür, dil fəaliyyəti hadisələrini fərqləndirmək üçün baza rolunu oynayır.

Sössürün dil və nitq təlimində nitq aktı üç hissəyə bölünür:

1. Dodaqlardan qulaqlara gedən səs dalğaları – xarici hissə və qalan bütün hissələr daxil olan daxili hissə;

2. Psixi hissə və psixi olmayan hissə. Psixi olmayan hissə nitq orqanlarında baş verən fizioloji hadisələr kimi insandan kənardakı fiziki hadisələri də daxil edir;

3. Aktiv hissə və passiv hissə. Aktiv hissə danışanlardan birinin assosialaşdıran mərkəzindən digərinin qulaqlarına gedənlərin hamısıdır. Passiv hissə isə sonuncunun qulaqlarından onun assosialaşdıran mərkəzinə gedənlərin hamısıdır.

Dil və nitqi fərqləndirərkən qeyd etməliyik ki, dili sərbəst öyrənmək daha asandır. Məsələn, biz ölü dillərdə danışmırıq, amma onların sistemini, daxili quruluşunu rahat şəkildə öyrənə bilərik. Dil işarələr sistemidir, bircinsli hadisədir. Lakin nitq fəaliyyəti dildən fərqli olaraq müxtəlifcinslidir. Nitqdən fərqli olaraq dil daha konkretdir ki, bu da onun araşdırılmasına, tədqiq edilməsinə yardım edir. Düzdür, dil işarələri öz mahiyyəti etibarilə psixidir, amma buna baxmayaraq, onlar mücərrəd deyil. Dil işarələri hiss olunandır. Belə ki, onlar yazıda şərti işarələri ilə göstərilir.

Nitq isə fiziki, xətti, fərdi xarakter daşıyır. İnsanlar nitqlərini dil vasitəsilə bir – birilərinə çatdırırlar. Həmçinin dil sosialdır, psixi təbiətlidir. Dil və nitq arasında müəyyən fərqlər olmasına baxmayaraq, onlar sıx şəkildə bir – biri ilə bağlıdır. Belə ki, nitqin anlaşılması üçün dil vacibdir. Eyni zamanda nitq də dilin mövcudluğu üçün əsasdır. Bu cəhətdən Sössür dil və nitqin birliyini qəbul etmiş olur.

Sössürə görə, nitq aktı hər bir ayrıca fərd tərəfindən yaradılır, lakin dil nəsildən – nəsilə keçərək qəbul edilir. Dil hər bir beyində leksik və qrammatik sistem şəklində mövcuddur, bu potensial imkanların həyata keçirilməsi isə nitqdir.

Gənc qrammatiklər nitqi konkret, dili mücərrəd hadisə hesab etdiklərinə görə, nitqi öyrənməyi daha məqbul hesab edirdilər. Bu da dili ictimai, sosial hadisədən çıxarıb fərdi, psixi hadisəyə çevirirdi. Lakin gənc qrammatiklərin bu fikrini yanlış hesab edən F. de Sössür dili konkret hadisə kimi qəbul etmişdir.

Sössürün dil və nitq qarşılaşdırılmasını ifşa edənlər də olmuşdur. Lakin ümumilikdə, Sössürün dil fəaliyyətini dil və nitq deyə iki yerə ayırmasının dilçiliyin sonrakı inkişafında rolu böyükdür. Belə ki, Praqa dilçilik məktəbinin nümayəndələri müəllifin dil və nitq barəsindəki təlimini fonetikaya tətbiq edib inkişaf etdirmişlər. 1936-cı ildə N.S.Trubetskoy "Fonologiyanın əsasları" adlı məşhur əsərində dillə nitqin fərqli olduğunu əsas götürərək nitqin səsləri haqqında təlimi fonetika, dilin səsləri haqqında təlimi isə fonologiya adlandırmışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, görkəmli dilçinin ardıcıllarından olan A.Meye onun dili nitq fəaliyyətinin ictimai məhsulu kimi izah etməsi barəsindəki təlimini qəbul edirdi. Meye də müəllimi kimi dili cəmiyyətdən kənarda düşünməyin, insan cəmiyyətini də dilsiz təsəvvür etməyin mənasızlığını göstərirdi.

TÜRKOLOGİYADA FEİLİN NÖV KATEQORİYASININ TƏDQİQİ TARİXİ

İsmayılzadə A.N.
Bakı Slavyan Universiteti
E-mail: ismayilzade_ayten@list.ru

Türk dillərində feilin növ kateqoriyasının tədqiqi tarixinə ümumi bir nəzər salmaq üçün onun tədqiqi tarixini şərti olaraq bir neçə mərhələyə bölmək olar. Türk dillərində növ kateqoriyasının öyrənilməsinin birinci dövrü(XI əsrdən-XIX əsrin ortalarına qədərki dövr): Türk dillərində növ kateqoriyasının mövcudluğu tədqiqatçılara orta əsrlərdən məlum idi. Bu kateqoriya haqqında ilk məlumat M.Kaşğarinin "Divanü-lüğat-it-türk" əsərində verilir. Çox maraqlıdır ki, hələ o dövrdə M. Kaşğari növ kateqoriyasının mahiyyətini, onun işlənmə məqamlarını açıb göstərə bilmişdir. İbn Məhəmməd Salehin "Divani-lüğəti-farsi və türki və moğoli" əsərində türk dillərində feilin altı növü göstərilir. Qıpçaq abidəsi olan "Ət-töhfətül-zəkiyyə fil-lüğat-it türkiyyə" əsərində də növ kateqoriyası M.Kaşğarinin "Divan"ında olduğu kimi şərh olunur.

II dövrdə(XIX əsrin ortalarından-XX əsrin əvvəllərinə qədərki dövr) növ kateqoriyası ayrıca qrammatik kateqoriya kimi öyrənilməyə başlanır. M.A.Kazım bəy "Türk-tatar dilinin ümumi qrammatikası" əsərində növ kateqoriyası haqda məlumata rast gəlirik, ancaq o, bu kateqoriyanı növ bvaşlığı altında şərh

etmir. Ondan sonra bu kateqoriya haqqında məlumata Q.Bötlinqin yakut dilinin qrammatikasına həsr etdiyi əsərində ümumiləşmiş halda rast gəlmək olar. Sonralar 1858-ci ildə çapdan çıxmış "Yakut dilinin müxtəsər qrammatikası" kitabında D. Xitrov bu dildə ötəri olaraq növ kateqoriyasını özündə əks etdirən feillərə toxunur.

III dövr (XX əsrin əvvəlindən-XX əsrin 50-ci illərinə qədər). 1917-ci ildə Kazanda çapdan çıxmış və başqırd dilinin qrammatikasına həsr olunmuş Q.Saadinin "Möhkəmməl-sərf-nəhv" əsərində, 1935-ci ildə nəşr olunmuş A.N.Borovkovun "Uyğur dilinin qrammatikası" əsərində növ kateqoriyasının əsas prinsipləri müəyyənləşdirilməsinə cəhd edilir.1940-cı ildə ilk dəfə N.K.Dmitriyev qumuq dilinin qrammatikasına həsr etdiyi əsərində növ kateqoriyasına xüsusi qrammatik kateqoriya kimi baxmışdır.

IV dövr (XX əsrin 50-ci illərindən70-ci illərə qədər). Bu dövr növ kateqoriyasının öyrənilməsinin ən məhsuldar mərhələsidir. Məhz bu dördə bu kateqoriyaya həsr olunmuş kifayət qədər dissertasiyalar müdafiə olunmuşdur. Məsələn, A. Fatıxov "Başqırd dilinin növ kateqoriyası", X.Yakubov "Özbək və rus dillərində növlərin müqayisəsi", A. Azər "Müasir Azərbaycan dilində növ kateqoriyası", B.Çarıyarov "Müasir türkmən dilində növ kateqoriyası", E. Fazılov "Özbək dilində növ kateqoriyasının müqayisəli-tarixi şərhi", N. Xaritonov "Yakut dilində feilin növ forması" adlı namizədlik dissertasiyalarını müdafiə etmişlər.

V dövr (1970-1990-cı illər). Bu illərdə həmin kateqoriyanın öyrənilməsinin yeni istiqamətləri meydana gəlir. Əgər əvvəlki dövrlərdə tədqiqat əsasən sinxron planda gedirdisə, bu dövrdə növ kateqoriyasının tədqiqi diaxron planda aparılır. Bununla yanaşı sinxron planda da tədqiqat davam edir. X.Q.Niqmatov ilk dəfə "XI-XII əsr Şərqi türk abidələrinin dilində feilin növləri" adlı məqaləsində Y.Balasaqunlunun "Kutadqu bilik" və M.Kaşğarinin "Divanü-lüğat-it-türk"əsərlərində ümumi şəkildə feilin növlərini tədqiq etmişdir. Sonra türk dillərində növ kateqoriyasını ilk dəfə Q.Ramstedt tarixi-müqayisəli istiqamətdə tədqiq etmişdir. Ondan sonra bu aspektdən B.A.Serebrennikov, A.A.Yuldaşev, A.M.Şerbak türk dillərində növ kateqoriyasına kompleks şəkildə yanaşmışlar.

VI dövr (1990-2010-cu illər). Son vaxtlar bu kateqoriyanın tədqiqi o qədər də məhsuldar olmamışdır. Bu dövrdə də növ kateqoriyasının diaxron və sinxron planda tədqiqi davam edirdi. 1990-cı ildə çapdan çıxmış V. Q. Quzevin "Türk dili sözdüzəltməsinin nəzəriyyəsi haqqında xülasə" adlı tarixi səpkidə yazılmış əsərində bu kateqoriyaya xüsusi yer ayrılmışdır.

1995-ci ildə Sezai Güneş "Türk dil bilgisi" əsərində qısa şəkildə bu kateqoriyanı şərh edir. S. Güneş türk dilində növ kateqoriyasına T.Banquoğlundan fərqli şəkildə yanaşır və göstərir ki, bir feildəki növ dəyişikliyi, o feilə artırılan və feildən feil düzəldən şəkilçilər adlandırılan bir qisim şəkilçilər vasitəsilə həyata keçirilir. O, feilin T.Baquoğlu kimi 6 yox, 5 məna növünü göstərir.

1994-cü ildə çapdan çıxmış Faruk Kadri Timurtaşın "Əski Türkiyə Türkcəsi" kitabında isə "Feildən feil düzəldən şəkilçilər başlığı altında XV əsr abidələrinin materialları əsasında icbar, məchul, qayıdış, qarşılıqlı növlərinin göstəricilərinin hansı fonetik şərtlərlə işləndiyinə aid misallar göstərilmişdir. 1997-ci ildə isə Ridvan Öztürkün türk dilində yazmış olduğu "Uyğur və özbək türkcələrində feil" əsərində hər iki dildə olan növ kateqoriyasının "Feil növlərinə təsir edən feildən feil düzəldən şəkilçilər" başlığı altında ancaq qrammatik formalarından bəhs edir.

1999-cu ildə çapdan çıxan türkmən dilində olan "Türkmən dilinin qrammatikası" kitabında, 1970-ci ildə nəşr olunan "Türkmən dilinin qrammatikası" kitabında olan məlumat biraz genişlənmiş şəkildə verilir.

2002-ci ildə Moskvada nəşr olunan "Türk dillərinin müqayisəli-tarixi qrammatikası" kitabında növ şəkilçilərinin sözdüzəldicilik funksiyasına qısaca olaraq toxunulmuşdur.

Azərbaycan dilçiliyində isə növ kateqoriyasının öyrənilməsi xüsusi bir mərhələ təşkil edir. Azərbaycan dilində feilin növ kateqoriyasının öyrənilməsi digər türk dillərinə nisbətən daha məhsuldar olmuşdur. Azərbaycan dilində 1924-cü ildə nəşr olumuş "Komission sərfi" kitabında feilin növləri və hətta təsirli və təsirsiz feillər feilin şəkilləri adlandırılmışdır. 1942-ci ildə S.Cəfərov, 1940-1955-ci illər arasında M. Xəlifəzadə, İ. Əfəndiyev feilin növlərini ətraflı şəkildə işıqlandırmışlar. 1955-ci ildə Azərbaycan dilçiliyində ilk dəfə xüsusi olaraq növ kateqoriyasına həsr edilmiş "Azərbaycan dilində feilin növləri" adlı namizədlik dissertasiyası A.Azər tərəfindən müdafiə edilmişdir.

Azərbaycan dilçiliyində ilk dəfə növ kateqoriyasını tarixi aspektdən V.İ.Aslanov tədqiq etmişdir. O, feilin növ və təsirlilik, təsirsizlik kateqoriyaları arasında olan dialektik əlaqəni açıqlamış və qədim türk dillərinin materiallarına əsasən feilin hansı növdə olmasına baxmayaraq, onların vasitəsiz tamamlığı idarə edə bilməsi fikrinə gəlmişdir. Bu baxımdan qədim türk dillərində olan növ kateqoriyası müasir Azərbaycan dilindəki növ kateqoriyasından əsaslı şəkildə fərqlənir.

Türkologiyada olduğu kimi Azərbaycan dilçiliyində bu kateqoriya tarixi aspektdən çox az öyrənilmişdir. R. Eyvazovanın "Kişvəri "Divanı"nın dili", Ş.X. Xəlilovun XV əsr yazılı abidəsi olan "Əsrarnamənin dili" tarixi aspektdən yazılmış əsərlərində bu mövzuya qismən də olsa toxunulmuşdur.

F.Cəlilov isə "Azərbaycan dilinin morfonologiyası" kitabında növ kateqoriyasına tarixi aspektdən yanaşır.

Azərbaycan dilçiliyində bu qədər tədqiqat əsərlərinin yazılmasına baxmayaraq, bu sahədə xeyli problemlər həll olunmamış qalmaqdadır. Məhz Y. Seyidov 2000-ci ildə çapdan çıxmış nəzəri kurs olan "Azərbaycan dilinin qrammatikası" kitabında bu kateqoriya ilə bağlı bir çox problemlərin həllinə çalışmışdır.

Türkologiya və Azərbaycan dilçiliyində feilin növ kateqoriyası birmənalı şəkildə şərh olunmamışdır. Hər şeydən əvvəl növ kateqoriyasının müəyyənləşməsində müxtəlif fikirlərin mövcudluğu bu kateqoriyanın tədqiq olunmasında hələ də bəzi problemlərin olmasından xəbər verir.

ÇOXKOMPONENTLİ MÜRƏKKƏB CÜMLƏLƏRİN ÜMUMİ DİLÇİLİKDƏ TƏDQİQİ

İsmayılzadə S.S.
Bakı Slavyan Universiteti
E-mail:ismayilzadeeli1999@gmail.com

Dilçilik tarixində konkret araşdırmalara nəzər yetirdikdə aydın olur ki, tədqiqata cəlb olunan materiallar dilin müxtəlif qaynaqlarından- folklor nümunələrindən, bədii və elmi ədəbiyyatlardan, şifahi nitqdən alınır. Çoxkomponentli mürəkkəb cümlələrin tədqiqi də məhz bu formada araşdırılır. Sintaksisin bir bəhsi kimi öyrənilən çoxkomponentli mürəkkəb cümlələrin ali və orta məktəb dərsliklərinə daxil olması da bu sahədəki tədqiqatların aktuallaşmasından xəbər verir və tədqiqatçıların bu araşdırılmalara xüsusi tələbkarlıqla yanaşmağı daha məqsədə uyğun sayılır.

XX əsrin ortalarında sintaktik semantika məsələlərinin daha çox tədqiqata cəlb olunması çoxkomponentli mürəkkəb cümlələrin də araşdırılmasına səbəb oldu. Bu dövrdə mürəkkəb cümlələrin araşdırılması ilə bağlı bir çox tədqiqatçıların adlarını qeyd edə bilərik. Rus dilçiliyində bu mövzuda, çox sayda əsərlər, dissertasiyalar yazılmışdır. Bu müəlliflərdən Q.V.Valimovanın, Q.F.Kalaşnikovanın, V.V.Kazminin, V.A.Şitovun, V.A.Belovanın, N.D.Tokaryevanın və,başqalarının adını çəkmək daha məqsədə uyğundur.

Azərbaycan dilçiliyində də bu mövzuda çoxlu tədqiqat işləri, əsərlər yazılmışdır. Çoxkomponentli mürəkkəb cümlələr haqqında ilk, dolğun məlumatlara Z.X.Tağızadənin əsərlərində rast gəlirik. Ə.Z.Abdullayevin çoxkomponentli mürəkkəb cümlələrin tabeli mürəkkəb növləri, tabesiz və qarışıq tipli növləri haqqında araşdırmalarını xüsusi qeyd etməliyik. Onun "Çoxbudaqlı tabeli mürəkkəb cümlələr", "Kitabi-Dədə Qorqud dastanlarında tabeli mürəkkəb cümlələr", "Baş və budaq cümlələr haqqında" adlı məqalələrinin mürəkkəb cümlələrin öyrənilməsində xüsusi rolu vardır. Adlarını çəkdiyimiz əsərlərdən başqa onun "Qarışıq tipli tabesiz mürəkkəb cümlələr" məqaləsi Azərbaycan dilində mövcud olan çoxkomponentli mürəkkəb cümlələrin ayrı-ayrı sahə və aspektləri işıqlandırır, birmənalı anlaşılması üçün yollar açırdı, onların ciddi nəzəri səviyyədə öyrənilməsinə şərait yaradırdı. "Dilimizdə çoxkomponentli mürəkkəb cümlələr real olaraq vardır, onlar digər qrammatik vahidlər kimi həm kəmiyyət, həm də keyfiyyət dəyişiklikləri prosesində iştirak edir, dilimizin ümumi inkişaf dialektikasının qanunauyğunluqlarını əks edə bilirlər. Onların bir qismi zənginləşmə prosesini keçirsə, o biri qismi «sadələşmə prosesi keçirir."(Ə.Abdullayev).Həmin vaxtlarda Ə.Z.Abdullayevin elmi əsərləri ilə yanaşı, ümumi türkologiyada da çoxkomponentli mürəkkəb cümlələr haqqında dissertasiyalar, monoqrafiyalar yazılırdı.Bunlara nümunə olaraq Q.A.Əbdürəhmanovun «Основы синтаксиса сложного предложения современного узбекского языка» (1960), İ.A.Azlarovun «Сложноподчиненные предложения с несколькими лридаточными в современном узбекском языке» (1962), M.Z.Zəkiyevin «Синтаксический строй татарского языка» (1963) və digər əsərlərin adlarını çəkə bilərik.

Azərbaycan dilçiliyinin tanınmış professoru Q.Ş.Kazımov da çoxkomponentli mürəkkəb cümlələrə öz əsərində xüsusi yer vermişdir.Müəllifin "Müasir Azərbaycan dili.Sintaksis" (2004) əsərində üç və daha artıq komponenti olan mürəkkəb cümlələri "qarışıq tipli mürəkkəb cümlələr" adlandırır və onların qütblənməsini "parçalanma"sı, bölünməsi ilə aydınlaşdırır. Q.Ş.Kazımovun çoxkomponentli mürəkkəb cümlələrə aid fikirlərinin əsasında cümlələrin qütblənməsi dayanır.Q.Ş.Kazımov bu ideyanı cümlələrin tədqiqi zamanı ön planda vurğulayır. "Cümlə iki qütbə elə parçalanır ki, tabesiz və ya tabeli mürəkkəb şəklində əlaqələnən

həmin qütblərdən birincisi «məlum olanı», ikincisi «yeni»ni bildirir, cümlə bütövlükdə ya tabeli, ya da tabesiz mürəkkəb cümlə şəklində formalaşır."

Bu mövzuda E.Həsənovanın da tədqiqatlarını xüsusi qeyd etməliyik. E.Həsənova öz tədqiqatlarında Azərbaycan dilində çoxkomponentli mürəkkəb cümlələrə də xüsusi yer vermişdir.Müəllifin "Mürəkkəb cümlələrin polipredikativliyi" (1986) kitabı dərs vəsaiti kimi yazılmışdır. Burada çoxkomponentli mürəkkəb cümlələrin komponentləri arasındakı münasibətlərdən, onların üslubi xüsusiyyətləri və s. bu kimi məsələlər haqqında danışılır.

THE STRATEGIES OF TEACHING THE FOREIGN LANGUAGES IN PRIMARY SCHOOLS

Madadli A.X.
Nakhchivan State University
E-mail: aysenmededli@gmail.com

The certain similar sides exist to teach and explain English to the primary learners and adults. Instructors of the initial learners investigate some abilities such as working on plan, training, the arrangement of the class and the literacy rate of language acquisition. According to the context which is directly related to the culture and education as well, the certain goals of specific teaching method can make the similarities: directing learners to comprehend and converse, also interact and to integrate using tactics that aid them to understand on their own.

As the matured learners have their own learning styles, the young and initial learners are the individual people with their personal features, approvals, disapprovals and cultures That's why, to make the general opinion about them is not easy at all. On the other hand, 4 various core styles exist that differentiate primary learners from the adults. The primary language users are improving from the following sides: 1. Perceptively; 2. Mentally; 3. Psychologically; 4. Socially; 5. Linguistically.

Some linguists demonstrate the primary learners like 'the output in process'. The primary language users in the age of six and twelve are on the process of integrating according to their analytic abilities, their own initial language systems, their eye-catching adaptation and the other cognitive sides. The users of this stage are just detecting the stages for communicating with the other learners, and comprehending to grasp their individual impressions to others and also to various occasions. Some certain differences are determined to differentiate the young learner between six twelve age range. They are followings: 1. The enthusiasm of children; 2.The individual peculiarities of them; 3.Their speed and volume of speech.

The young learners are also classified into some groups such as 8-9 and 10-11. The primary language users generally don't possess any apparent point to comprehend the English language. A lot of matured learners prefer to learn English based on the particular reason that is concerned with their career. Students in the secondary school are generally encouraged to comprehend the English language based on for getting success on the subsequent examination, or entering to the certain institutions such as universities. The initial language users, on the other hand, are often obliged to grasp the language in the classrooms. The learners of this stage often do not use it, for instance, for ordering the food in the foreign language, for working on navigations, or talking about the air condition. But, on the other hand, the shortage of the obvious incentive to conceive English cannot disturb the initial language users, who have much enthusiasm, curiosity, and intention in learning stage. The other matter is the level of the young learners. As it is known there are some several stages to learn English such as elementary, beginner, pre-intermediate, intermediate, upper-intermediate, advanced and proficiency of language user. Most of the children between six and twelve are not able to read and write or to comprehend the language fully. This difficulty is called the gap of the literacy skill in linguistics. It was suggested by Cameron. The whole process contains three steps. They are input, decoding and the output of the final process. But the matter is that, most of young learners don't have enough potential to comprehend and analyze the input. The initial language learners learn any process gradually and forget fast. Also it is proved that, the language users who re in 13 years old, possess many benefits to comprehend grammar and to memorize the new words for the vocabulary stock.

Moreover, the common side is that the utterance of matured learners cannot differentiate principally from the younger learners during the time. When there cannot be logical linguistic advantages in instructing English for initial language learners, several beneficial motives exist to realize it so. The other most important point is that, the early experiences of learning a foreign language can assist the initial language

learners for improving self-confidence and positive behavior which can provide them for studying English with greater belief while they are getting matured. This matter may aid them to implement more integrated learning and cognitive abilities for the more formal learning.

The international advantages can stem from the actualization which the other countries possess a language with sounds and rules various from their own. Over the time, these two stages are able to comprehend the common and separate sides of them as a result, they can show tolerance and curiosity two one another. This kind of attitude may be important for the today's community. In this way, the society can obtain the academic advantages in learning the English language**.**

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ FRAZEOLOGİZMLƏRİN TƏSNİFİ

Mehralıyeva E.B.
Bakı Slavyan Universiteti
E-mail: elmiramehraliyeva2704@gmail.com

Leksikologiyanın bir bölməsi olan frazeologiyanın özünün müstəqil tədqiqat obyekti vardır. Frazeologiyanın tədqiq etdiyi frazeoloji vahidlər sabit birləşmələr olub məna və struktur cəhətdən bütöv çıxış edən, dilimizdə qəlibləşmiş birləşmə hesab olunurlar. Ayrı-ayrı dilçilər frazeologizmləri qrammatik formasına, əlaqə xarakterinə , mənşəyinə, strukturuna görə fərqli səviyyədə təsnif edirlər. Azərbaycan dilçiliyində frazeologizmlərin təsnifini ilk dəfə professor S.Cəfərov vermişdir. O, frazeologizmləri ibarələr, idiomlar, zərbi-məsəllər, atalar sözləri, hikmətli sözlər və tapmacalar olmaqla altı yerə ayırır.

Professor H.Həsənov frazeologiyanın məhdud dairədə işləndiyini qeyd edərək aforizmlərin, atalar sözlərinin, məsəllərin, tapmacaların və ibarələrin buraya daxil olmasını məqbul hesab etmir. Atalar sözü və məsəllər strukturuna və daşıdığı funksiyaya görə bir-birindən tamamilə fərqlənir. Bu baxımdan professor H.Həsənov onları kommunikativ formalı atalar sözü və məsəllər, nominativ formalı atalar sözü və məsəllər olmaqla iki qrupa ayırır.O, nominativ formalı atalar sözü və məsəlləri frazeologizmlərə aid edir. Atalar sözü və məsəllər də ifadə etdiyi mənaya görə birmənalı, yəni həqiqi mənalı olanlar və ikimənalı, həqiqi məna ilə yanaşı məcazi məna ifadə edənlər olmaqla iki qrupa ayrılır. Frazeologizmlər də məcazi mənalı sabit söz birləşmələri olduğu üçün ikimənalı atalar sözü buraya daxil edilir.

Professor H.Həsənov fərqli mövqedən yanaşaraq frazeologizmləri mənşəyinə, tərkibinə və mənasına görə təsnif edir. Mənşəyinə görə frazeologizmlər xalis və alınma olmaqla iki qrupa bölünür. Frazeologizmlər tərkibinə görə sadə və mürəkkəb adlanan növlərə, mənasına görə isə semantik və qrammatik frazeologizmlər adlanan iki qismə ayrılır.

Frazeoloji vahidlərin təsnifini verən dilçilərdən biri də professor H.Bayramovdur. Dilçi "Azərbaycan dili frazeologiyasının əsasları" kitabında frazeologiyanı məna quruluşuna görə 5 cür təsnif edir. Frazeoloji variantlar, çoxmənalı frazeoloji vahidlər, frazeoloji omonimlər, frazeoloji sinonimlər, frazeoloji antonimlər olmaqla qruplara ayrılır.

Afad Qurbanov Azərbaycan dilinin frazeologiyasını iki qrupa bölür.

1) Frazeoloji(sabit) söz birləşmələri. Bu qrupa daxil olan frazeoloji birləşmələri əmələ gətirən sözlər məna və qrammatik baxımdan birləşmə dərəcəsinə görə 3 növə ayrılır: frazeoloji qovuşma, frazeoloji birlik və frazeoloji birləşmə.

2) Frazeoloji sabit ifadə və ibarələr. Bu qrupa daxil olan frazeoloji birləşmələr isə iki növə ayrılır: frazeoloji (sabit) ifadələr və frazeoloji (sabit) ibarələr.

Frazeoloji sabit ifadə dedikdə buraya atalar sözü, ədəbi statlar, aforizmlər, məsəllər və yazıçıların yaratdığı məsəlvari ifadələr daxildir.

A.Qurbanov frazeoloji birləşmələri mənaca dörd qrupa bölür.

1) omonim frazeoloji vahidlər; 2) sinonim frazeoloji vahidlər; 3) antonim frazeoloji vahidlər; 4) çoxmənalı frazeoloji vahidlər

Frazeologizmlər ifadə etdiyi mənaya görə də monosemantik və polisemantik olmaqla iki qrupa ayrılır.

Professor B.Xəlilovun təsnifi isə Afad Qurbanovun təsnifiylə eyniyyət təşkil edir.

Yuxarıda qeyd olunan bölgülər içərisində dilçiliyimizdə bu gün geniş işlənmə imkanı qazanmış təsnifat S.Cəfərovun və H.Həsənovun bölgüsüdür.

FRAZEOLOJİ VAHİDLƏRİN ƏMƏLƏ GƏLMƏSİ

Mirzəliyeva N.E.
Bakı Slavyan Universiteti
E-mail: nerminmirzeliyeva.57@gmail.com

Frazeologiya yunan sözüdür. Pharis "ifadə",logos isə elm mənasını verir. Dildə olan bütün sabit sözbiləşmələrinin,bölünməz ifadə və ibarələrin məcmusuna frazeologiya deyilir. Bütün frazeoloji vahidlər sərbəst söz birləşmələrindən əmələ gəlir. Belə ki , söz birləşmələrinə daxil olan müstəqil mənalı sözlərin hamısı birlikdə bir ümumi mənanı ifadə etdik də frazeoloji vahid yaranır. Məsələn , başa bəla gəlmək frazeoloji vahidini götürək. bu frazeoloji vahidi təşkil edən hə üç sözün (baş, bəla, gəlmək) ayrılıqda müstəqil mənası vardır.

Lakin qeyd etməliyik ki , dildəki frazeoloji vahidlərin hamısı ancaq müstəqil mənalı sözlərdən ibarət deyildir. Bəzən frazeoloji vahidi təşkil edən birləşmənin tərkibində dildə ayrıca mənası olmayan və təklikdə işlənə bilməyən ünsürlər də ola bilir. Məsələn: Yerlə yeksan etmək, səs səmir kəsilmək, xəbər ətər gəlmək və s.

Bu frazeoloji vahidlərdəki "yeksan", "səmir", "ətər" ünsürləri dilimizdə ayrılıqda bu və ya digər məfhumu ifadə etmir.

Mövcud frazeoloji vahidlər müxtəlif ictimai-tarixi şəraitdə və çox müxtəlif səbəblər əsasında əmələ gəlmişdir. Ümumi şəkildə bunlardan bir neçəsini qeyd edək

1. Dilimizdəki bir sıra frazeoloji vahidlər qədim həyat və yaşayış təri əsasında yaranmışdır. Məsələn: Xörək asmaq, Xəmir qatmaq və s.

2. Bəzi frazeoloji vahidlər sənət və peşə ilə bağlı meydana çıxmışdır. Məsələn : Keçə atmaq. Papağı papaqçıya ver, birini də üstəlik…

3. Bəzi frazeoloji vahidlər dini, mövhumi anlayışlar əsasında əmələ gəlmişdir. Məsələn : Cənətlik olmaq, Allah rəhmətinə getmək, Allah rəhmət etsin və s.

4. Bəzi frazeoloji vahidlər rəvayətlər əsasında yaranmışdır. Məsələn : Dəlidən doğru xəbər, Başına kül ulsun, Saqqalı ələ vermək , Ağacı kökündən baltalamaq, Əli aşından da , Vəli aşından da olmaq…

5. Bəzi frazeoloji vahidlər xalqımızın ictimai-tarixi adət və ənənələri əsasında meydana gəlmişdir. Məsələn : Duz çörək kəsmək…

6. Bəzi frazeolji vahidləri, o cümlədən bəzi aforizmləri, məsəlvari ifadələri yazıçı və şairlərimiz yaratmışlar. Məsələn :

Ölüm var ki həyat qədər dəyərli,
Həyat var ki , ölümdən də zəhərli..

AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ FƏLSƏFƏ TERMİNLƏRİNİN İNKİŞAF TARİXİ

Nəhmədli N.P.
Bakı Slavyan Universiteti
E-mail: nilufer.nehmedova@gmail.com

Dilçilik elminin başlıca problemlərindən biri də müxtəlif elm sahələrinə aid terminoloji leksikanın tədqiqidir. Hər bir elm sahəsi kimi fəlsəfə elminin də özünəməxsus terminoloji leksikası mövcuddur. Bu terminlər maddi aləmin qanunauyğunluqlarını ifadə edir, obyektiv gerçəkliyin hadisələrini adlandırır.

Müasir Azərbaycan dilində fəlsəfə terminologiyası belə təsnif edilir: Qədim Azərbaycan fəlsəfəsi terminləri; Orta əsr Azərbaycan fəlsəfəsi terminləri; XIX və XX əsrlər Azərbaycan fəlsəfəsi terminləri; Müstəqillik dövrü Azərbaycan fəlsəfəsi terminləri.

Qədim Azərbaycanda fəlsəfi düşüncə tərzi Zərdüştlüklə əlaqədar meydana çıxmışdır. Orta əsrlərdə Azərbaycan fəlsəfəsi öz fəlsəfi anlayışlarını və bunun nəticəsində özünəməxsus terminologiyasını formalaşdırdı. Bu dövdə fəlsəfə peripatetizm, sufizm, hürufilik ideyalarına əsaslanırdı. Bu dövrün ən görkəmli nümayəndələri N.Tusi, S.Urməvi idi.

N.Tusinin "Əxlaqi-Nasiri" adlı əsərində əks etdirdiyi fəlsəfi görüşlərində varlıq, idrak, məntiq, forma və materiya ideyaları fəlsəfi anlayışlar kimi yeni çalarlığı ilə diqqəti cəlb edir.

Görkəmli hökmdar və sənətkar olan Şah İsmayıl Xətai "Dəhnamə" poemasında Allahı simvollaşdırmağı bacarmış, sufi ənənələrini, qızılbaşlıq ideyalarını fəlsəfəyə əsaslanaraq yaya bilmişdir. Allah, təriqət, həqiqət, mərifət və s. insan amili ilə əlaqələndirilərək fəlsəfi izahını tapmışdır.

Hürufilik fəlsəfəsinin banisi və onun davamçısı olan F.Nəimi və İ.Nəsimi Azərbaycan fəlsəfəsini zənginləşdirərək hürufilik fəlsəfəsinin terminologiyasını yaratmış və bunu bədii ədəbiyyata gətirmişlər: "Mən", "İlahi eşq", "Ənəlhəq", "Kövnü-məkan" və s.

M.Füzulinin fəlsəfi fikirlərini əks etdirən "Mətləül etiqad" divanı fəlsəfə terminləri ilə zəngindir. Füzuli öz yaradıcılığında qərb və şərq filosoflarının fikirlərini ümumiləşdirmiş, hər iki tərəfin terminologiyasını da mənimsəyərək varlıq, cism, nəfs, əql və yüzlərlə belə fəlsəfə terminlərinin izahını vermişdir. O, etik görüşlərini əks etdirən əsərlərində "etika", "eqoizm", "alturizm" anlayışlarının mahiyyətini bədii və poetik bir dillə əks etdirmişdir.

Azərbaycanda orta əsrlər fəlsəfi fikrinin inkişaf meyilləri Ə.Təbrizinin, Z.Şirvaninin, M.V.Vidadinin, M.P.Vaqifin əsərlərində işlədilən mövcud terminlərin semantikasına fərqli münasibətlə səciyyələnə bilər.

XIX əsrdə Azərbaycan fəlsəfə terminlərinə A.Bakıxanovun, M.F.Axundovun, C.Əfqaninin fəlsəfi görüşlərini əks etdirən əsərlərində rast gəlinir. A.Bakıxanovun fəlsəfi fikirlərində sufizm, vəhdəti-vücud, eşq, xeyir, şər və s. terminoloji vahidlər öz əksini tapmışdır.

Ə.Dəmirçizadənin fikrincə, fəlsəfi əsərləri ilə dilimizin tarixində ilk dəfə siyasət və fəlsəfə dilinin ilk nümunələrini verən M.F.Axundov olmuşdur. M.F.Axundov fəlsəfi məktublarında liberal, despotizm, fanatik və s. kimi terminləri tərcümə etmədən, olduğu kimi istifadə etmişdir. Onun əsərlərində dünya, aləm, kainat, zaman, məkan və s. anlayışlar ilk dəfə termin kimi işlənmişdir.

Azərbaycan fəlsəfə tarixində mühüm rola malik cərəyanlardan biri də təsəvvüfdür. S.Y.Bakuvinin yaradıcılığı bu fəlsəfi anlayış və onun terminologiyası haqqında aydın təsəvvür yaradır. Bu sahədə onun əsas xidməti təsəvvüflə bağlı mülahizələri və terminlərə verdiyi izahlardır.

Azərbaycan dilində fəlsəfi terminologiyanın inkişafında böyük xidmətləri olmuş sənətkarlardan biri də N.Nərimanovdur. N.Nərimanov bir sıra fəlsəfi terminlərin məna və işlənmə məqamlarını müəyyənləşdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin banisi, görkəmli ictimai-siyasi xadim M.Ə.Rəsulzadə Azərbaycan fəlsəfi terminologiyasının da yaradıcılarından biridir. O, dil və terminologiya məsələləri ilə bağlı qəti şəkildə bildirir ki, terminlər türkcələşməlidir. M.Ə.Rəsulzadənin publisistik əsərlərinin fəlsəfə leksikasının tədqiq edilməsi iki cəhətdən faydalı hesab olunur: 1) onun publisistik baxışlarını, fəlsəfi dünyagörüşünü "bərpa etmək" üçün; 2) XX əsrin əvvəllərində fəlsəfi termin və terminoloji birləşmələrin vəzifələrini müəyyən etmək üçün.

LEKSİKOLOGİYA TƏLİMİNDƏ İNTEQRASİYA, MÜHÜM PRİNSİP KİMİ

Orucov Ö.Q.
Sumqayıt Dövlət Universiteti
E-mail: omar.oruc@mail.ru

Milli Kurikulum Konsepsiyasında təlimdə ineqrasiya təhsil islahatının prinsiplərindən biridir. İnteqrasiya bütün fənlərin tədrisində istifadə edilməsi zəruri olan ən mühüm prinsipdir. *Leksikalogiya bölməsini də digər mövzularla və fənlərlə ineqrasiya etmədən yüksək təlim nəticəsi əldə etmək qeyri-mümkündür.* ***İnteqrasiya***-təhsilin məzmun komponentlərinin bir-biri ilə və həyatla sistemli şəkildə əlaqələndirilməsidir. İnteqrasiya müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədi ilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaqla onları sistemləşdirməkdir. Təlimdə sistemlilik, bilik, bacarıq və vərdişlərin ardıcıl surətdə inkişafı üçün vahid sistemin ünsürləri olmaq etibarilə, biliklər, bacarıqlar arasında müvafiq əlaqə yaratmaq üçün inteqrasiya əvəzolunmaz prinsipdir.

Müasir dünya təcrübəsində, əsasən, inteqrasiyanın 3 səviyyəsi var: Fəndaxili, fənlərarası və fənlərüstü

Fəndaxili inteqrasiya - adından göründüyü kimi, eyni fənnə aid bilik, bacarıq və mövzuların əlaqələndirilməsi, faktların sistemləşdirilməsidir.. Fəndaxili inteqrasiya ***üfüqi və şaquli olmaqla*** iki hissəyə ayrılır:

Şaquli inteqrasiya: standartların siniflər üzrə əlaqəsini əhatə edir. Bilik, bacarıq və vərdişlərin sinifdən-sinfə genişlənərək inkişaf etməsini izləməyə imkan yaradır. Bu cür inteqrasiya siniflərarası inteqrasiya kimi də adlanır. Eyni standart sinifdən sinfə keçdikcə məzmun etibarilə dəyişmir, çətinlik

səviyyəsinə görə dəyişir, sinifdən-sinfə keçilsə belə standartlar arasındakı əlaqə itmir. Leksikologiya ikinci, üçüncü və beşinci siniflərdə tədris olunur. İkinci və üçüncü siniflərdə sadə və ilkinbilik və bacarıqlar tədris olunur. Sinonoim, antonim, omonim, təkmənalı və çoxmənalı sözlər haqqında şagirdlərə giriş məlumatlar verilir. Beşinci sinifdə leksika tam kurs olaraq daha dərin və əhatəli tədris edilir.

Üfüqi inteqrasiya isə eyni sinif çərçivəsində olan məzmun standartlarının məzmun xətləri arasındakı əlaqələri əhatə edir. Hər sinif üzrə nəzərdə tutulmuş anlayışların,bacarıq və vərdişlərin formalaşdırılmasına xidmət göstərir.Yəni fənn üzrə eyni sinif daxilindəki standartların əlaqələnməsini təmin edir. Hər bir müəllim öz tədris etdiyi fənn kurikulumunda üfüqi inteqrasiya imkanlarını izləyə və dərsində tətbiq edə bilər. Dərsdən əvvəl tədris edəcəyi mövzunun inteqrasiya imkanını əvvəlcədən müəyyən etməlidir.

Leksikologiya bölməsinin tədrsi zamanı üfiqi ineqrasiya mühüm bir prinsip kimi öz aktuallığnı saxlayır. Leksika bölməsi fonetika, söz yaradıcılığı, morfologiya, sintaksis, orfoqrafiya və orfoepiya ilə əlaqəli tədris edildiyindən şagirdlər sistemli bilik və bacarıqlara yiyələnmiş olurlar ki, bunun da nitq vərdişlərinin qazanılmasında və inkişafında mühüm rolu vardır. Müəllim istər-istəmez omonimlərin izahı zamanı "yazılışı və tələffüzü eyni" ifadəsini islədərkən fonetikadan verilmiş biliklərə qayıdır. Omonimləri paronimlərlə müqayisə edərkən, danışıq səslərinin sözün mənasına necə təsir etdiyini ***(sənəd-sənət, mətn-mətin, əsr-əsir və s)*** anladarkən fonetikadan verilmiş bilikləri daha da möhkəmləndirir. ***Omonim və paronimlərdən*** danışarkən tələffüzə həssas münasibət aşılayır. Bu isə, eyni zamanda, orfoepik və orfoqrafik vərdişlərin inkişafına kömək etmiş olur. Omonimlərin izahı zamanı leksik şəkilçinin başlanğıc formaya daxıl olduğu üçün omonimlik yaradır, qrammatik şəkilçilər isə omonimlik yaratmır. ***Məsələn: Bilək*** *gücü - "bilək"* sözün başlanğıc formasıdır. *Tariximizi* ***bil****ək* - sözün başlanğıc forması ***bil(***mək) - *ək* qrammatik şəkilçidir. ***Əsir*** *çox ağır vəziyyətdə idi. (****əsir*** *- sözün başlanğıc formasıdır). Sahildə güclü külək* ***əs****ir. (****əs****- sözün kökü,* ***-ir*** *zaman şəkilçisidir).* Bu isə ***söz yaradıcılığı*** bölməsi ilə inteqrasiya deməkdir.

Sinonim və antonimlərdən danışarkən vacib məqam onların eyni nitq olması qaydasıdır. Yəni ismin sinonimi və ya antonimi də isim, feilin sinonim və antonimi də feil və s. olmalıdır. ***Məsələn: duzsuz*** (sifət) - ***şit*** (sifət) : ***abır***(isim) - ***həya*** (isim) – sinonim. ***hündür*** *(sifət)* - ***alçaq*** *(sifət):* ***oturmaq*** *(feil)* - ***durmaq*** *(feil) - antonim*

Bu isə şagirdlərdən sözlərin qrammatik mənasına görə fərqləndirmə bacarığı tələb edir.

Üslub normalarının sistemli öyrədilməsinin bünövrəsi də məhz leksika bəhsində qoyulur. Leksika bəhsinin tədrisi təkçə fəndaxili əlaqə ilə məhdudlaşmır. Bu bəhsin tədrisində elə mövzular vardır ki, bunları ***fənlərarası əlaqasiz*** tədris etmək mümkün deyildir. Azərbaycan dili və ədəbiyyat müəlliminin vəzifəsi sadəcə olaraq, məsələn, termin nedir? sualina cavab verməkdan ibarət olmanıalıdır. Şagirdlərə məlum olan elm sahələrinə aid suallar verilməli, bu elm sahəsində onlara məlum olan terminlər yada salınmaqla bərabər, həmin terminlərin mənaları daqiqliyi ilə aydınlaşdırılmalıdır. ***Məsələn: qoşma-*** azərbaycan dili, ədəbiyyat: ***qitə-*** ədəbiyyat və coğrafiya: ***metafor*** - ədəbiyyat və s.

Leksikanı bilmədən dilimizdəki sözlərin leksik, semantik mənalarını dərk etmədən, söz ehtiyatını zənginləşdirmədən dilçiliyin digər bölmələrini: *sözün düzgün yazılışını və tələffüzünü, sözün kökünü və şəkilçisini, hansı nitiq hissəsinə aid olmasını, sintaktik vəzifəsini, üslubi fünksiyasını* düzgün müəyyən etmək olmaz. Bu baxımdan məktəb kursunda leksika bölməsi bütün sadalanan bölmələrlə əlaqəli-inteqrativ tədris olunması bugünkü təhsil konsepsiyasının vacib prinsipidir.

BƏDİİ ƏDƏBİYYATDA FONETİK EKSPRESSİV VAHİDLƏRİN ƏKS OLUNMA YOLLARI

Paşayeva M.A.
Bakı Slavyan Universiteti
E-mail: mesume04@gmail.com

Müəllifin emosiya və duyğuları dilin fonetik səviyyəsində daha çox nəzərə çarpır. Fonetik ekspressiv vahidlər özündə qrafik gösəricilərin köməyi ilə mətnlərdə əks olunan fonoloji səs dəyişmələrini, vurğulu və tonal vahidləri əks etdirir. Fonetik üslubi vahidlər ənənəvi olaraq icra edilən və müəllifin özünün yaratdığı vahidlər olaraq iki hissəyə ayrılır. İcra edilən fonetik vahidlər dedikdə bədii mətni şifahi şəkildə ifadə edən zaman səs interpretasiyasında yaranan mümkün dəyişikliklər başa düşülür. Müəllif tərəfindən təqdim edilən vahidlərdə isə mətnin fonem tərkibi, quruluşu və poetik ölçüsü müəllifdən asılı olur.

Fonetik ekspressiv vahidlər dedikdə daha çox şifahi nitq yada düşsə də, yazılı ədəbiyyatda ekspressivliyi fonetik səviyyədə ifadə etmək üçün mümkün vasitələr vardır:

1. Nida işarəsi. Emfatik cümlələrdə nida işarəsinin funksiyası haqqında çoxlu araşdırmalar aparılmışdır. Lakin üslubi xüsusiyyətləri nəzərdən keçirəndə ənənəvi və konteksual işarələr arasındakı fərqləri diqqətə almaq lazımdır. Xüsusilə bu hal nida işarəsindən sonra nəqli cümlə işlənən zaman keçərlidir:

"But that's enough! You're not going to wake the little ones now anyway! The house is not even heated! There is nothing there! There is nothing for them." (Someone I Loved by Anna Gavalda)

Verilmiş nümunədə nida işarəsi ifadə olunan fikrin vacibliyini artırmaq üçün istifadə edilmişdir. Danışan kişi obraz sözlərini vurğulayır ki, qarşısındakı qadın obrazı onu yaxşı başa düşsün. Bu yolla oxuyucu obrazlar arasında hiddətə səbəb olan hadisələr ardıcıllığını duya bilər. Bu qeyzin əsas səbəbi qadın qəhrəmanın uşaqlarını oyadıb istilik sistemi olmayan bir evə gətirmək istəməsidir. Müəllif neqativ cümlələr işlədərək ekspressivliyi artırmışdır. Bu linqvistik vahidlər babanın nəvələrinə qarşı duyduğu qayğılı emosiyaların ortaya çıxmasına kömək olur.

2. Tire və va üç nöqtə istifadəsi. Ekspressivliyin ifadə üsullarını analiz edən zaman mətnlərdə tire və ya üç nöqtə vasitəsi ilə ötürülən emosional pauzaların bu sahədə böyük rola malik olduğu aşkar edilmişdir:

"But that's—I mean, didn't you read the letter that I wrote to Kitami?" (How Do You Live? by Genzaburo Yoshino)

Verilən nümunədə obraz dostuna yazdığı məktubun bacısı tərəfindən oxunmasına reaksiya bildirir. Yazıçı emosional vəziyyəti ton modulyasiyası və pauza istifadə edərək daha da qüvvətləndirmişdir. Seçilən leksik vahidlər obrazın doğru söz seçməyə çalışan zaman yaşadığı çaşqınlığı da ifadə etməyə imkan verir.

Mətndaxili emosional pauzalar üç nöqtənin köməyi ilə də göstərilə bilər. Bu durğu işarəsinin köməyi ilə xarakterin duyğusal qərarsızlığı, qeyri-müəyyənliyi, utancaq və əsəbi vəziyyəti oxucuya rahatlıqla çatdırıla bilər.

"No, no, that's not it, it's just that... I feel lost. I am completely lost...I...you are right, I will call my boss." (Someone I Loved by Anna Gavalda)

Həyat yoldaşı ilə yollarını ayıran baş qəhrəman çaşqın və qərarsız bir ruh halı içərisindədir. O, işə getməyib və bunu müdirinə xəbər verməli olub-olmadığını da bilmir. Üç nöqtənin istifadəsi, *no,no (yox, yox), I (mən), lost (itmiş)* sözlərinin təkrarı, paralel konstruktiv quruluşlu cümlələrin istifadəsi karıxmış vəziyyətin içərisində qalmış olan obrazın ümidsizliyini ifadə etməyə kömək etmişdir.

3. Nöqtə işarəsi. Nöqtə işarəsinin nəqli cümlələrin sonunda işlənməsi faktı artıq hər kəsə məlumdur. Bir cümləni dilin özünəməxsus funksiyalara malik digər vahidlərindən ayıran əsas xüsusiyyətləri təkcə predikativlik deyil, həm də intonasiya və pauzaya malik olmasıdır. Nöqtə də ekspressivliyi ifadə etmək üçün istifadə olunan qrafik vasitələrdən biridir. Nöqtənin üslubi funksiyası kontekstə uyğun olaraq dəyişə bilir. Hadisələrin sürətli dəyişmə ardıcıllığını göstərmək üçün müəllif mətni qısa nəqli cümlələrlə ifadə etməyə çalışaraq mətnin bütövlüyünü və dinamikliyini qorumağa nail olur.

"I've been told that a hundred times. Think of something else. Life goes on. Think about your daughters. You have no right to let yourself go. Pull yourself together." (Someone I Loved by Anna Gavalda)

Qısa cümlələrin vasitəsilə oxuyucular həyat yoldaşı tərəfindən tərk edilən qadının hansı duyğular yaşadığını duya bilirlər. Obraz başqaları tərəfindən dəfələrlə ona deyilənləri təkrarlayır. Lakin o, deyilənlərin həqiqiliyinə inanmır, ona görə real həyat tamamilə başqa cürdür. Yazıçı əmr cümlələrini nida işarəsi ilə deyil, nöqtə işarəsi ilə tamamlayaraq obrazın etinasızlığını bir növ vurğulamağa çalışır.

4. Assonans, alliterasiya və onomatopeya. Ekspressivliyi fonetik səviyyədə ifadə etməyin bir digər yolu da musiqili təsvir üsullarından istifadə etməkdir. Bu təsvir üsulları səslərin təkrarına bağlı olan və dinləyicidə emosiya yaratmağa xidmət edən ekspressiv və üslubi vasitələrdir. Musiqili təsvir üsullarına assonans və alliterasiyanı aid edə bilərik.

Assonans eyni və ya oxşar olan sait səslərin təkrarını, alliterasiya isə eyni və ya oxşar olan samit səslərin təkrarını bildirən ifadə vasitələridir.

"... his appearance: something displeasing, something down-right detestable." (Dr. Jekyll and Mr. Hyde by Robert Louis Stevenson)

Seçilmiş nümunədə yazıçı obrazın əcaib görünüşünün digər insanlarda yaratdığı ikrah hissini oxucuya ötürməyə çalışır. Buna nail olmaq üçün o, [d] samit səsini təkrarlayaraq yaratdığı alliterasiyadan istifadə etmişdir.

Onomatopeya qeyri-verbal səslərin fonetik imitasiya yolu ilə yaranan səs simvolizmini ifadə edir. Amerikan ədəbiyyatı nümayəndəsi olan Edgar Allan Poe öz əsərlərində bu səs simvolizmini çox istifadə etmişdir.

"How they clang, and clash, and roar!" (The Bells by Edgar Allan Poe)

Nümunədə istifadə olunmuş *clang (cingildəmək), clash (toqquşmaq) və roar (nərildəmək)* leksik vahidləri onomatopeya nümunələri sayıla bilər. Müəllif çalan zənglərin necə dəhşətli və qorxulu səsləndiyini şeir oxucularına bildirməyə çalışır.

Alliterasiya, assonans və onomatopeya emosional hissləri birbaşa oxucuya çatdırmağa xidmət etmir. Onlar adətən əsərdə xüsusi duyğulu atmosfer yaratmağa kömək edirlər.

Ekspressiv vahidlərdən şəxsin subyektiv fikrini, emosional vəziyyətini ifadə etmək və digərlərinə çatdırmaq üçün istifadə olunur. Qeyd etmək lazımdır ki, şifahi nitqlə bərabər yazılı ədəbiyyatda da ifadə vasitələri olan ekspessivliyin təsvir üsulları təkcə fonetik səviyyə ilə məhdudlaşmır.

AZƏRBAYCAN DİLİNDƏ ALINMA TERMİNLƏRİN MƏNİMSƏNİLMƏSİ

Qasımova Ə.A.
Bakı Slavyan Universiteti
E-mail: esmerqasimova44@gmail.com

Hər bir dilin terminoloji qatında öz əksini tapan alınma terminlər məlumdur ki, dillərin qarşılıqlı əlaqəsi, bir-birinə təsiri nəticəsində həmişə tarixi zərurətdən və eyni zamanda bir dilin digər dildən söz alması ehtiyacından yaranır. Bu yolla terminlərin alınması dilin öz təbii inkişafı və tələbatı ilə əlaqədardır. Dillərin qarşılıqlı əlaqələrlə terminoloji sisteminin zənginləşməsində rolu tarixin müxtəlif mərhələrində fərqli istiqamətlərdə özünü göstərmişdir. Belə ki, funksional baxımdan inkişaf etmiş dillər, yəni inkişaf səviyyəsi yüksək xalqların dilləri, zəif inkişaf səviyyəsi ilə ilə seçilən xalqların dillərinə daha çox təsir etməsinin nəticəsidir, həmin dillərə daha çox söz vermişdir.

Azərbaycan dilidə müxtəlif tarixi dövrlərdə digər dillərin təsirinə məruz qalmışdır. Dilimizə fasiləsiz olaraq daxil olan alınma terminlərin taleyi həmişə eyni olmamış, bir hissəsi qısa ömür yaşadıqdan sonra dildən xaric olmuş və ya arxaikləşmişdir, bir hissəsi dilimizin lüğət tərkibində sabitləşərək möhkəm yer tutmuşdur. Dilin lüğət tərkibində sabitləşən terminlər dilin daxili qanunlarına uyğunlaşmış və ya səs cildini dəyişmədən mənbə dildə olduğu kimi mənimsənilmişdir, ya da müəyyən fonetik-qrammatik dəyişiklik edilərək mənimsənilmişdir. Dilimizdə başqa dillərdən alınan sözlər dilimizin daxili inkişaf qanunlarına tabe olaraq işlədilir və buna görədə çox zaman həmin alınmaların dilimizə gəlmə söz olduğunu müəyyənləşdirmək çətin olur. Alınmaların mənimsənilməsində özünü göstərən bu dilçilik hadisəsi bütün dünya dillərində müşahidə olunur. Məsələn qeyd edək ki, Azərbaycan dilinə digər dillərdən sözlər keçdiyi kimi, dilimizdən də rus, fars, ərəb, gürcü və.s xalqların dilinə leksik vahidlər keçmişdir və həmin leksik vahidlər həmin dilin fonetik, leksik və qrammatik sisteminə uyğunlaşmışdır. Məsələn; arşın-arşin, ütü-utyuq (rus), xanım-xanum, təpə-təppə (fars), tapança-təpəncə, bələtçi-balatçı (ərəb), tardzi, badiya-badya, tolça-dolça, laçaki-ləçək (gürcü).

Alınma sözlər dilimizə daxil olarkən,mənimsəmə prosesində həmin terminlər dilimizin fonetik-morfoloji və semantik normalarına tabe olur,səs cildini və məna tutumunu dəyişir. Dilimizə daxil olan terminlər dilin daxili qanunlarını və tələffüz sisteminə uyğunlaşdırılaraq mənimsənilmişdir. Bu dəyişikliyə məruz qalmayan, mənbə dildəki kimi mənimsənilən alınma terminlər dilimizin fonetik-qrammatik qanunlarına uyğun gəldiyi üçün dəyişikliyə ehtiyac qalmamışdır. Bütün bunları nəzərə alaraq dilimizdə olan müxtəlif mənşəli alınma terminləri dildə mənimsənilməsinə görə iki qrupa bölmək olar:

1. Heç bir dəyişikliyə məruz qalmayan,fonetik baxımdan mənbə dilə uyğun gələn terminlər. Məsələn; bank (fransız), film (ingilis), lift (ingilis), val (rus).

2. Müəyyən dəyişiklik edilərək mənimsənilən terminlər.Məsələn; metafor (yunan), müharibə (ərəb), futbol (ingilis), kurort (latın), mitinq (ingilis).

Heç bir dəyişiklik edilmədən alınan müxtlif mənşəli alnma terminlər kəmiyyət baxımından çoxluq təşkil edir. Dilimizdə mənimsəmə dərəcəsinə görə ərəb,fars dillərindən alınmaları rus və Avropa dillərindən alınmalarla eyni götürülmür. Azərbaycan dilində fars və ərəb mənşəli alınma terminlər bütün funksiya və imkanlarına görə milli sözlərimizlə eyni səviyyədədir. Bu terminlər kəmiyyət etibarı ilə də dilimizdə kifayət qədərdir.

Məlumdur ki, müəyyən dəyişiklik edilərək terminlərin mənimsənilməsində fonetik, qrafik, qrammatik, orfoqrafik və semantik uyğunlaşma əsas götürülür. Şifahi və yazılı yolla terminlərin mənimsənilməsində də müəyyən fərqlər özünü göstərir. Şifahi alınmada terminlər fonetik və qrammatik cəhətdən mənimsənilir, terminlərin yazılı alınmasında üstəlik qrafik və orfoqrafik mənimsəmədə əlavə edilir. Dilçiliyimizdə alınma

terminlərin mənimsəmə prosesi mürəkkəb bir hadisə olduğu üçün müxtəlif istiqamət və səviyyələrdə araşdırılır.

"AYVƏNHƏU" ƏSƏRİNDƏ BAŞ VERƏN HADİSƏLƏRİN DÖVRÜ

Quliyeva İ.Ə.
Bakı Slavyan Universiteti
E-mai: Ilaha.Aguliyeva@gmail.com

Şotland mənşəli vəkil, şair, yazıçı, tarixçi, tarixi roman janrının banisi.Ser Valter Skott (ing. Sir Walter Scott) 15 avqust 1771-ci ildə Edinburqda ziyalı ailəsində anadan olmuşdur, 6 yaşı olanda iflic xəstəliyi keçirmiş, ömürlük şikəst olmuşdu. Uşaqlığını Şotlandiyanın sərhədyanı ərazisində keçirən, öz yaşlı qohumlarının həyat hekayələrinə, Şotlandiya sərhədində baş verən hadisələrə maraqla qulaq asan Skot tezliklə şeir, tarix, roman və nağılların acgöz oxucusuna çevrildi. Ətraf ərazilərdə apardığı araşdırmalar onda təbiətə sevgi və Şotland əcdadlarının apardıqları mübarizəyə dərin ehtiram aşılamışdı. Əcdadlarının marağına olan məhz bu sevgi, maraq onu tarixi romanların banisi kimi tarixə çevirmiş V.Skott 28 roman, bir neçə povest və hekayə yazmışdır. Romanların bir qismi Şotlandiyanın tarixi keçmişinə, bir qismi İngiltərənin keçmişinə, digər qismi isə başqa ölkələrin tarixinə həsr edilmişdir.

Bu günə qədər Kventin Dorvard" romanı rus dilindən Azərbaycan dilinə, "Ayvənhəu" romanı isə professor Qılıncxan Bayramov tərəfindən ingilis dilindən, yəni original dildən Azərbaycan dilinə tərcümə edilmişdir. "Ayvənhəu" əsərində təsvir edilən obrazların təhlili, romantizm və s. haqqında tədqiqatlar aparılsa da, hadisələrin dövrü haqqında hər hansı elmi araşdırma aparılmamışdır.

Bəs XII əsrin sonlarında baş vermiş hadisələr XIX əsrdə yaşamış yazıçının qələmi ilə necə verilmişdi? Əsər yazıçının öz dövrünün şahidi olduğu real hadisələrdən deyil, tədqiqatları əsasında toplamış olduğu məlumatlara istinadən yazılmışdı. Yazıçının əsas məqsədi keçmişdə baş vermiş hadisələri, dövrün adət-ənənlərini, norman-sakson, yəhudi-xristian-müsəlman münasibətini müasir dildə, oxucunun anlayacağı şəkildə çatdırmaqdan ibarət idi. Bəs müəllif buna nail ola bilibmi? O dövrlərə İngilis ədəbiyyatında çox az yer verilmişdir. Düzdür, başqa ədəbiyyatların olmaması Skottun təsvir etdiyi səhnələrin nə dərəcədə real mənzərəyə uyğun olub-olmadığını müəyyən etməkdə çətinlik yaradır, lakin biz bəzi məqamları diqqətinizə çatdırmaq istəyirik.

Əsərdə orta əsrlərdə normanlar və saksonlar arasında baş verən konfliktdən, onlar arasında ayrı-seçkilikdən, dil fərqindən və s. bəhs edilir. Romanın ilk fəslinin əvvəlində yazıçı hadisələrin baş verdiyi zamanı belə təsvir edir:

- Nəql etdiklərimiz məhz bu məkanda Birinci Riçardın hakimiyyətinin sonuna yaxın, uzun illərin əsirliyindən sonra vətənə qayıtdığı vaxt baş vermişdir. – Burada qeyd edilən I Riçard dünya tarixində "Şirürəkli Riçard" kimi tanınan, ingilis kralı II Henrinin oğlu idi. Bütün dünyada ləyaqət və alicənablıq rəmzi olan I Riçardın hakimiyyəri döyüşlərdə, gərgin vuruşlarda keçmişdir. Qüdsə yürüşdən dönən zaman ingilis kralı bavariyalı Leopolda əsir düşən kral yanlız 1194-cü ildə əsirlikdən qurtulub vətəninə dönə bilir. "Ayvənhəu" əsərində baş verən hadisələr də məhz bu dönəmləri əhatə edir. Əsərdə qeyd olunduğuna görə bu, İngiltərə üçün çox ağır dönəm idi. Normanların adanı işğal etməsindən 4 əsr keçməsinə baxmayaraq norman-sakson münasibəti ən gərgin həddə idi, iki insan eyni dildə danışmağı belə rədd edirdi. Əsərdə verilən tarixi yanlışlıqlarla bağlı bir neçə məqamı diqqətinizə çatdırmaq istəyirik.

1. I fəsildə donuzotaran Qurtla Vamba arasında baş verən dialoqda 4 ayaq üzərinə gəzən donuza anqlo-sakson dilində "swine" deyirlər, kəsilib doğranıb norman süfrəsinə verildikdən sonra isə normanca "pork" adlanır. Bu dialoqdan normanlarla saksonlar arasında olan uçurum, fərq, ziddiyyət müşahidə edilir. Bu məqamda ilk öncə qeyd etmək istəyirik ki, əsərdə XII əsrdə hələ də İngiltərədə norman-sakson müstəmləkəçiliyinin davam etdiyi göstərilsə də, əslində çoxsaylı tarixi mənbələr sübut edir ki, işğaldan az bir müddət sonra normanlar yerli əhali ilə elə qaynayıb-qarışmışdı ki, hətta 1130-cu ildə artıq onları fərqləndirmək qeyri-mümkün idi.

2. Qurtla Vambanın geyimini təsvir edərkən o, İngiltərnənin fəthindən öncə olan və oz aman üçün artıq keçmişdə qalan geyimləri təsvir edir. Yəni bu geyimlər artıq XII əsr üçün aktual deyildi.

3. Prior Aymerin Loksli ilə olan dialoqunda təxminən belə bir cümlə var: - Bir sözlə doğrudan da şeytana qulluq etməli, yəni qaranlıqda şam tutmalıyam ki, şeytan öz işini rahat görsün, bununla da cinayət törətməkdə ona yardımçı olum. – "Şeytana qulluq edib qaranlıqda şam tutmaq" atalar sözü "şərə yoldaşlıq etmək" mənasında olub 15-ci əsrdə yaranmış atalar sözüdü, 12-ci əsrdə o atalar sözü mövcud deyildi.

4. Vamba Fron de Befin sarayına gələndə özünü monax kimi qələmə verir və deyir: " Mən Fransiskan ordenindən kasıb bir monaxam" – bu cümlə yanlışdır, belə ki, Fransiskan ordeni yalnız 1209-cu ildə yaranıb. Bu cür misalların siyahısını daha da artırmaq olar, lakin zaman azlığından bununla kifayətlənirik.

Əsərdə həmçinin yad olan sözlər, arxeologizmlər, dialektlər var. Lakin istənilən halda Volter Skott yaradıcılığının ən pik nöqtəsi hesab olunan əsərdə müasir oxucunun, xüsusilə də ingilis oxucusunun marağında olan, yüziliklərlə yaşayan ümumi adət-ənənələr, köhnəlmiş sözlərin həddən artıq olmaması romanın hələ də aktuallığının qorunmasında böyük rol oynamaqla bu günə qədər də geniş oxucu kütləsinin maraq dairəsində yer almaqdadır.

İNGİLİS DİLİNDƏ METAFORİK FRAZEOLOJİ VAHİDLƏRİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ YOLLARI

Quluzadə G.Ə.
Bakı Slavyan universiteti
Email: gunelguluzada@gmail.com

Dilçilikdə polisemantikanın yaranmasının əsas səbəblərindən biri kimi metafora hesab olunur. Metafora ad, oxşarlığa görə köçürülür. Məsələn, ingilis dilində çoxbilmiş və hisslərini gizlədən insanlar *cunning person -fox olaraq* adlandırılır.

Metaforik polisemantik frazeoloji vahidlərin xalqın yaradıcı təxəyyülünün məhsulu hesab oluna bilər. Məsələn, Şekspirin "Kral Rişard İİ" əsərində İngiltərə *this precious stone set in the silver sea* kimi verilir.

Metaforiklik dedikdə frazeoloji vahidlərin yüksək obrazlılığı kimi başa düşülür.

He breathed freely-Çiynindən yük götürüldü (rahat nəfəs aldı)

Polisemantik frazeoloji vahidlərin Azərbaycan dilinə tərcüməsində yaranan problemlərdən biri də onun semantikası ilə bağlıdır: frazeoloji vahidlərin məcazi mənası; frazeoloji vahidlərin hərfi mənası; frazeoloji vahidlərin emosianal çaları; razeoloji vahidlərin üslubi məqamları; frazeoloji vahidlərin milli koloriti.

Yuxarıda qeyd olunan bütün faktorlar arasında əsası frazeoloji vahidlərin məcazi mənası ilə bağlıdır. Məsələn, *to bark to the moon -qabaqcadan proqnoz.*

Polisemantik frazeoloji vahidlərdə metaforikliyin müxtəlif formaları vardır. Burada somatik vahidlər işlənən frazeoloji vahidlər daha çox yer tutur.

Mr. Brown is more prone to use Old Labour language , *to criticise fat cats…..*

Yuxarıda verilmiş cümlədəki *to criticise fat cats* "yağlı pişikləri tənqid etmək" kimi verilir. Lakin siyasi üslubiyyatda bu ifadənin mənası" imkanlı şəxsləri tənqid etmək" mənasında istifadə olunur. Başqa sözlə desək, burada metaforik olaraq səlahiyyətli və maddi baxımdan imkanlı şəxslər *"big cats"* adlandırılır. Eyni ifadə başqa üslubiyyatda başqa mənanı verə bilər. Məsələn, publisistik üslubiyyatda *big cats-xəsis, tənbəl* mənalarında işlənə bilər.

İnsanın bədən üzvlərinin də metaforik polisemantik frazeoloji vahidlərin yaranmasında böyük rolu vardır. Belə frazeolji vahidlər somatik frazeoloji vahidlər adlanır. Insanın bədən üzvlərinin adları ilə yaranan frazeoloji vahidlər də çox zaman yüksək obrazlılığa malik olurlar. Məslələn, t*o give smbs ones heart-evlənmə təklif etmək*; *With the heavy hand- qəddar, kobud; A light hand-'əli yüngül*

Bədən üzvlərinin polisemantik frazeoloji vahidlərin tərkibində istifadə olunması onun məna tutumu baxımından üslubi və emosional çalarlıqla yüklənərək, fikri poetik fiqurlar vasitəsilə ifadə olunmasına zəmin yaradır. Məslən: *to cock ones nose -burnunu dik tutmaq; to find ones hand and foot- əli-qolu bağlanmaq; not to harm a hair at smbs head -başından bir tük əskik olmağa qoymamaq və s..*

Metaforik frazeoloji vahidlərin dilimizə tərcüməsi zamanı əsas nəzərə alınası xüsusiyyətlər onların metaforik mənası, hərfi mənası, emosianal çalarlığı, üslubi xüsusiyyətləri və mənsub olduğu dilin milli koloritləridir. Məsələn, *skate on a thin ice-risk eləmək, to bark to the moon-qabaqcadan proqnoz vermək və s.*

Əlbəttə, sadalanan xüsusiyyətlərin hamısının tərcümə zamanı saxlanması və əməl olunması o qədər də mümkün görünmür.

Metaforik frazeoloji vahidlər müxtəlif məna dəyişmələri nəticəsində polisemantikanın yaranmasında da mühüm rol oynayır. Metaforik frazeoloji vahidlərin tərkibində olan tərkib hissələrinin xarici görkəmi və forması onların ümumi funksiyası əvvəlki kimi qalır. Məsələn, *You want me to believe some cock and bull story that you are late getting home, because you got lost ad then ran out fo gas- İstəyirsənki mən sənin*

dediyin yalana inanım ki, yolu azdığından və sonra benzin qurtardığı üçün evə gec gəlmisən. Buradakı *cock və bull* fərqli ölçu və əlamətlərə malik canlılar olsa da, onların bir ifadə tərkibində işlədilməsi yeni məna köçürülmməsi yaradır, ifadə isə "yalan və uydurm" mənasını verir.

Fat cat- "tənbəl" mənasında olan ifadədir. Buradakı *cat -pişik* sözü həmişə tənbəlliyin simvolizə edir. Lakin fat cat -metaforik frazeoloji vahidi isə mənanı daha emfatik edərək çox varlı, başqasının halından xəbəri olmayan adam mənasını veriir.

Richard is a fat cat businessman. He own several markets-Riçard tənbəl və heç nəyi vecinə almayan birisidir. Onun bir neçə dükanı da vardır.

Verilən nümunələr onu deməyə əsas verir ki, yüksək obrazlılıq, məna çalarlığı və etnosianal çalarlara malik olan metarofik polisemantik frazeoloji vahidlərin Azərbaycan dilinə tərcüməsi zamanı onlara fərdi yanaşmanı tələb edir və onların tərcüməsi zamanı, onların istifadə olunduqları üslubiyyatı və mətnnin ümumi konteksti çərçivəsində nəzərə alaraq, tərcümə etmək məqsədəuyğun hesab oluna bilər.

FRAZEOLOGİZMLƏRİN LİNQVOKULTUROLOJİ ASPEKTLƏRİ

Səbzəliyeva G.Ş.
Sumqayıt Dövlət Universiteti
E-mail:ms.sbzliyeva@gmail.com

Dilçilik elmində XX əsrin ikinci yarısından tədqiq olunaraq önəmli sahələrdən birinə çevrilən frazeologiya dildə geniş istifadə olunan sabit söz birləşmələrindən ibarətdir. Frazeologiya haqqında elmin yaranmasının banisi məşhur dilçi Şarl Ballinin adı ilə bağlı olmuşdur. O, ilk dəfə bu haqda "Fransız dilinin üslubiyyəti" adlı əsərində bəhs etmişdir. Bu sahənin sonrakı inkişafı Ş.Ballinin irəli sürdüyü fikirlərin təkmilləşdirilməsi əsasında mümkün olmuşdur. Hər bir dilin öz frazeoloji fondu mövcuddur. Azərbaycan dili də öz qədimliyi, zənginliyi və frazeoloji fondunun rəngarəngliyi ilə seçilmişdir. Frazeoloji ifadələrdə xalqın adət-ənənələri, həyat tərzi, əmək fəaliyyəti, dini təsəvvürləri, mənəvi və maddi mədəniyyəti, fəlsəfi dünyagörüşü öz əksini tapmışdır. Məhz frazeologiya hər bir xalqın çoxəsrlik tarixini və mədəniyyətini əks etdirdiyindən XXI əsr dilçiliyində yeni dilçilik istiqaməti kimi formalaşmış linqvokulturologiya diqqəti çəkir. Belə ki, linqvokulturologiya dedikdə dil və mədəniyyətin qarşılıqlı təsiri nəzərdə tutulur. Bu sahə dil və mədəniyyətin, dil və etnosun, dil və xalq mentalitetinin qarşılıqlı əlaqəsini tədqiq edən humanitar fəndir. Bu gün dilimizdə tez-tez işlənən bir çox ifadələrin, deyimlərin yaranma səbəbi və tarixi vardır.

Alın təri ilə - bu frazeoloji vahid zəhmət çəkərək, əmək sərf edərək dolanmaq mənasında işlədilir. Bir çox dillərdə mövcud olan həmin ifadə dini əfsanələrlə əlaqədar olaraq yaranmışdır. Guya Allah Adəmi cənnətdən qovanda ona söyləmişdir ki, sən alın təri ilə, zəhmət çəkərək çörək qazanacaqsan Həmçinin buna bənzər ifadəyə Bibliyada təsadüf olunur. Məsələn: "Qaçaq Nəbi" dastanında deyilir: "Nəbi dörd il rəncbərlik elədi, alın təri tökdü".

Daşını daş üstə qoymamaq – dağıtmaq, xarabalığa çevirmək, hər şeyi darmadağın etmək, məhv etmək mənalarında işlədilən bu ifadə dini kitab olan İncildən dünyanın bir çox dillərinə yayılmışdır. Dini əfsanələrə görə, İsa peyğəmbər Yerusəlimin məhv olması ilə bağlı məlumatı əvvəlcədən söyləmişdir. "Koroğlu" dastanında da bu ifadəyə rast gəlinir: "Dəlilər şəhərə dolsa, daşı daş üstünə qoymazlar".

Burda mənəm, Bağdadda kor xəlifə - lovğa, təkəbbürlü, heç kimlə razılaşmayıb öz bildiyindən dönməyən insanlar üçün işlədilir. Bu ifadənin yaranması tarixi faktlarla əlaqəlidir. Belə ki, ifadənin yaranma səbəbi Bağdad xəlifələrinin acınacaqlı taleyi ilə bağlı olmuşdur. X əsrdən etibarən xilafətdə hakimiyyət üstündə mübarizələr gedir, bəzi xəlifələr məğlub edilərək kor olunurdu. Bunlardan birincisi xəlifə Əl-Qahir olmuşdu. O, könüllü surətdə hakimiyyətdən əl çəkmədiyi üçün taxtdan salınmış və gözləri çıxarılmışdı. Hal-hazırda da geniş istifadə olunan ifadələrdəndir. Məsələn: Ə.Hacızadənin "Təyyarə kölgəsi" romanında deyilir: "Burda mənəm, Bağdadda kor xəlifə"- deyib heç kəsi, hətta öz müəllimini də bəyənmir".

İşə düşmək - bəlaya düçar olmaq, təhlükədə olmaq, çıxılmaz vəziyyətə düşmək mənalarında işlədilir. Qədim türk dillərində "iş" sözü dava, döyüş, hərb mənasında da istifadə olunurdu. Daha sonra məcazi mənada bəla, təhlükə, çıxılmaz vəziyyət mənasında işlənmişdir. Bu ifadəyə bədii əsərlərdə, danışıq dilində də rast gəlmək mümkündür. Məsələn: "Həyat" qəzetində yazılmışdı:

Hop-hop, nedəcəksən, dilə düşdün, dişə düşdün,
Hər kəs qurtarıb qaçdı, sən indi işə düşdün.

Kitab açmaq - Quranla fala baxmaq, kitabla fal açmaq mənalarını ifadə edir. Hər hansı bir işə başlamazdan əvvəl işin necə nəticə verəcəyini bilmək üçün Quranla fala baxılırdı. İfadə də məhz buradan yaranmışdır. Buna misal olaraq M.Ə.Sabir yazırdı: "Aman, ay molla dayı, bir kitab açdır, fala bax".

Gözü su içməmək – ifadə birindən şübhə etmək, ona etibar etməmək mənalarında işlədilir. İfadənin yaranması "Koroğlu" dastanı ilə bağlı olmuşdur. Dastanda deyilir: "Paşam sağ olsun, mənim bu aşıqdan gözüm su içmir". Özünü tülkü ölülüyünə vurmaq – hiyləgərlik, biclik etmək, aldatmaq mənalarında işlədilir. Tülkü bir çox xalqlarda hiyləgərlik simvolu kimi nəzərdə tutulur. Azərbaycanda da tülkünün hiyləgərliyi ilə bağlı bir çox təmsillər, nağıllar, rəvayətlər var. "Qaçaq Nəbi" dastanında bu ifadəyə rast gəlmək mümkündür: "Köpək uşağı, bu vaxt da adam yataqda yatar! Taxıl qalıb çöldə özünü tülkülüyə qoyub girmisən yatağa".

Başına kül tökmək – bədbəxtliyə düçar olmaq mənasını ifadə edir. İfadə İncillə bağlı olaraq formalaşmışdır. Qədim zamanlarda xalqlar özünün və ya başqasının bədbəxtliyinə yananda başlarına kül və ya torpaq tökürdülər. Buradan da "kül başıma" kimi ifadə meydana gəlmişdir. Müasir dövrdə də məşhur olan ifadəyə C.Cabbarlının "Sevil" pyesində rast gəlmək mümkündür. Pyesdə Balaş deyir: "İndi mən yazıq başıma nə kül töküm!".

Hər bir xalqın mədəniyyət tarixi frazeoloji ifadələrdə öz əksini tapmışdır. Məhz bu baxımdan frazeoloji ifadələr dilin zənginliyinin göstəricisidir.

SOCIAL AND CULTURAL INCENTIVES INFLUENCING ON LEARNERS ACQUISITION

Seidova E.R.
Nakhchivan State University
E-mail: emmaseidova68@gmail.com

A lot of parameters can be drawn in detecting why some parts of students are more and the rest of them is less experienced in the foreign language learning process. The language learning process, based on socio-cultural approach of theorist Vygotsky who investigated this matter in 1962, stems from both the cultural and also social activities. But after the certain period it is accepted like reconstructed as an individual and also the psychological term. According to this tendency, standard linear and logic theory must be focused not only on the procedure of using innovative constructions, but also the utterance and implementing them for interacting, but rather on the language user's attending in social activities such as owning out-of-class discussions or communication for students and instructors in the class. One of the most famous linguist Lantolf claimed that one of the initial notion of sociocultural assumption is that the mind and thinking style of human are interceded. He also marks that the previous scientist Vygotsky shows very crucial function for what he names "tools" in individuals' actualization in the world and also in themselves. He states, Vygotsky thinks that the people don't move on physically, they are also acting while utilizing their mental side. It doesn't matter they are signs or symbols, Vygotsky thinks tools like artefacts established in the brain of people within the certain cultural and historical case, and they live with them under the features of the culture. They are used like helps in coping with difficulties that may not be handled in the identical method if they are not present. Additionally, they also have a very important role on the people who utilize the tools since they extend the previously recondite activities and also previously strange styles of creating the certain concept in the world. Therefore, they are regularly and constantly changed while passing from one generation to the subsequent one. Every generation alters the tools with the goal of meeting and the needs and passions of its individuals and publicities. Vygotsky marks that the certain functions of a psychologist must be to analyze on which way social and mental activities of human are arranged through culturally established artefacts.

The first matter which influences on tools directly is age that is one of the main part of social factors. In 2013 Sadeghi offered two primary various standpoints based on the age matter. He thinks that primary language learners are considered more efficient one in language learning process. However, he also considers that teenagers can be more productive and influential foreign language learners than young learners according to the whole perspectives. Based on Khalifa age has a great impact on learning process since early display to language learning paves the way to to better performance. On the identical mechanism, he also supports Snow's and Taylor's aspects in 1990 and 1993 respectively that they detected the matters that the earlier the primary language acquisition, the better the second language general fluency, and they summarized that the function of foreign language was considered better in students who began learning English at an earlier age, like 5 or 6.

The subsequent matter after the analysis of age is the social context in which learners are fascinated regularly while learning any foreign language, and this is since learning is used in various contexts. In 2012 Gholami proposed that the social context is trusted to affect to both motivation and treatment. These two are really important to begin any work, especially if it is the learning of the second language. Gholami claimed that the context equips several learning chances which help learners to sharpen their literacy rates. Learners obtain and learn a language within social interaction; and, generally, the importance of the social context is ignored in the countries. The investigators discuss that a foreign language user and learner acquire a language within the social communication. But for a part of the people the significance of the social context is not crucial and neglected by many countries. So, the final learning consequence is not efficient to some extent.

The general researches show that motivation is also one of the major factor in second language learning as it "identifies individual treatment by energizing it and pushing it direction". The motivation in second language learning context is suggested as "referring to the extent to which the individual works or tries to acquire the language because of a passion to realize so and the satisfaction experienced in the performance" according to Gardner.

People fascinated in language teaching have started to comprehend the intertwined association between the culture and language. It has also been showed that without the study of culture, teaching process is not easy and acceptable. For second language learners, the language investigation becomes illogical while they know nothing in the people who speak the target language or the country in which the target language is used. Obtaining the new language shows that manipulation of syntax and lexicon is very essential.

Gender is the matter with important theoretical and pedagogical predictions in second language learning system. A great number of studies showed that gender can have a very essential impact on which way students acquire a language. A number of researches worked on matters in gender, containing language learning ability, motivation, teacher's aspects, learning methods and tactics, classroom communication, teaching materials, testing and so on. Several researches that investigate gender as a various cluster in the utilization of language learning strategies and principles demonstrated that crucial gender varieties almost always are the same, and they illustrate greater use of learning strategies by females. In 1983 Politzer said that females utilized and applied social language strategies significantly more than male users. Applying this method with both learners and teachers at the U.S. Foreign Institute came to the consequence that compared to males, females reported significantly efficient usage of the same method in 3 areas of general study strategies: 1. Functional practice strategies; 2.Strategies for communicating meaning; 3. Self-management strategies.

AZƏRBAYCAN DİLİNDƏ LÜĞƏTLƏRİN TƏRTİBİ MƏSƏLƏLƏRİ

Sevdimalı N.R.
Sumqayıt Dövlət Universiteti
E-mail: nigarsevdimali93@gmail.com

Tarixi eramızdan əvvələ gedən və forması qlossari şəklində olan lüğətlərin ilk nümunələri Çində, Yunanıstanda meydana gəlmişdir. Dövr keçdikcə bu lüğətlər inkişaf edir və zənginləşirdi. XIII-XIV əsrlərdə onamastik, simvolik və danışıq lüğətləri meydana gəldi ki, bu dövr lüğətçilik tarixində keçid dövrü hesab olunur.

Türk xalqlarının da lüğətçilik tarixi XI əsr Mahmud Kaşğarinin "Divani – lüğət -it türk" əsərindən başlayır.

Ümumiyyətlə, nəzəri məlumatlara əsasən demək olar ki, müxtəlif dil vahidlərinin müəyyən qaydada düzülüşü və izahı lüğət adlanır. Dilçiliyin lüğətlərdən bəhs edən bölməsi isə lüğətçilik – leksikoqrafiya adlanır. Rus dilçisi A.S.Qerd yazır: "Leksikoqrafiya - məlumat səciyyəli bu və ya diğər sorğuların təmin edilməsi istiqamətində iş görən tətbiqi elmdir".

Lüğətlərin quruluşu və tərtibi prinsipləri müxtəlifdir. Belə ki, onların tərtibində iki əsas üsul var ki, onlar da "yuva" və "əlifba" üsuludur. Yuva üsulunun ilk tərtibçisi V.İ. Dal olmuşdur. Burada sözlər bir kök söz ətrafında izah olunur.

Əlifba üsulunda isə hazırda hamımızın intensiv şəkildə istifadə etdiyimiz lüğətlərdə mövcud olan sözlərin əlifba sırası ilə düzülüşü nəzərdə tutulur.

Lüğətlərin hazırlanmasına qədərki işlərdən danışarkən H.Həsənov yazır: "Lüğətlərin tərtibinə qədər müəyyən hazırlıq işləri aparılır. Lüğətlərin tərtibinə başlamazdan əvvəl aşağıdakı cəhətlər nəzərə alınmalıdır: 1) həcm; 2) mənbə; 3) linqvistik baxış: a) sözlərin orfoqrafik və orfoepik variantlarına münasibət; b) mənaya münasibət: sözün izahı, çoxmənalı sözlərin mənalarının izahı; v) əsas vahidin leksikoqrafik təsviri, onun verilmə səciyyəsi və işlənməsinə münasibət. Alimin qeyd etdiyinə nəzərən demək olar ki, lüğət hazırlamaq böyük məsuliyyət və dərin araşdırma tələb edir.

Lüğətlər əsasən iki böyük hissəyə bölünür ki, bunlar ensiklopedik və linqvistik lüğətlərdir. Təbii ki, bu lüğətlərin hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Lüğətlərin növü lüğətlərin mənbəyinə, sözlərin təhlil olunma xüsusiyyətinə görə müəyyən olunur.

Lüğətlər isifadə olunmalarına görə də aktiv və passiv olmaqla iki yerə bölünür. Aktiv lüğətlərə orfoqrafiya lüğəti, izahlı lüğət, tərcümə lüğətləri aid edilə bilər. Passiv lüğətlər isə tarixi, dialektoloji və s. lüğətlərdir.

Azərbaycan dilinin orfoqrafiya lüğəti, izahlı dilçilik lüğəti və bu tip digər lüğətlər birdilli lüğətlər hesab olunur. "Birdilli lüğətlərin tipologiyası ümumi ilə xüsusinin tutuşdurulması – qarşılaşdırılması ilə əlaqədardır. Lüğətin həcmi sözlüyün ümumi elmi, elmin məhdud və ya geniş, bir və ya müxtəlif sahələrinə aid olmasından asılıdır. Bir lüğətin, sözlüyü bir neçə ortaq sahəni əhatə edə bilir".

Tərcümə lüğətlərinə müasir dövrümüzdə daha çox tələb olunur. Belə ki, qloballaşma şəraitində bu lüğətlərin istifadəsinə böyük ehtiyac yaranmışdır. Tərcümə lüğətləri özləri də ikidilli və çoxdilli olmaqla iki yerə bölünür.

Son illər Azərbaycanda nəşr olunan lüğətlərə baxsaq, çoxdilli lüğətlərin kifayət qədər nəşr olunduğunun şahidi olarıq. Burada əsas fərq isə ondan ibarətdir ki, müstəqillik illərində nəşr edilən lüğətlərdə çoxdilli lüğətlərin sayı artıb. Belə ki, Sovet dövründə nəşr olunan lüğətlərdə, əsasən, rus və Azərbaycan dilinin leksemləri müqayisə edilirdisə, son dövrlərdə nəşr olunan lüğətlər içərisində çoxdilli lüğətlərin sayı da nəzərəçarpacaq dərəcədə artmışdır. Onlardan bəzilərinə diqqət edək: Babayeva S. Azərbaycanca-Rusca və Rusca-Azərbaycanca arxiv terminlərinin qısa izahlı lüğəti, Neft və qaz üzrə rusca-azərbaycanca-ingiliscə terminoloji lüğət. Tərtibçi-müəllif: Abbasov M., Rusca-Azərbaycanca geodeziya, kartoqrafiya və aerofotoqrafiya terminləri lüğəti, Rusca-ingiliscə-azərbaycanca baytarlıq terminləri lüğəti, Salahov Z., Məmmədov E., Həsənova A. Rusca-ingiliscə-azərbaycanca baytarlıq terminlər lüğəti, Məmmədov N. Rusca-Azərbaycanca fövqəladə hallarla bağlı işlənən terminlərin izahlı lüğətini göstərmək olar. Sovet dövründən fərqli olaraq bu lüğətlər təkcə rus dili ilə bağlı deyil. Hazırda belə lüğətlər sırasında Azərbaycanca-ingiliscə olan lüğətlər daha mühüm yer tutur.

Son dövrlər lüğətlərin yeni növü olan elektron lüğətlərlə də qarşılaşırıq. Belə ki, internetin lüğətçiliyə də nüfuz etməsi təbii haldır. Kompüter və yeni kommunikasiya texnologiyalarının inkişafı yeni nəsil ücün leksikoqrafik mənbələrin yaradılmasına gətirib çıxardı. Elektron lüğətlərdən düzgün istifadə müasir dövr üçün çox aktualdır. Azərbaycan dilində hazırda bir neçə aktiv elektron lüğətlər var. Məsələn, www.obastan.com/word, www.turuz.com.appstore, www.obastan.com.appstore, www.dilmanc.az, www.polyglot.az və s.

Cəmiyyətdə baş verən bütün proseslərin dildə öz əksini tapmasını nəzərə alaraq demək olar ki, dilin lüğət tərkibi daim dəyişməyə və yenilənməyə meyllidir. Təbii ki, bu dəyişiklik ilk növbədə şifahi şəkildə sonra isə lüğətlərdə öz əksini tapır. Buna görə də lüğətlərin tərtibi və tətbiqi məsələləri daim leksikoqrafların diqqətində olmalıdır.

MƏTN HAQQINDA MÜLAHİZƏLƏR: İ. R. QALPERİNİN ARAŞDIRMALARINDA

Süleymanova G.V.
Bakı Slavyan Universiteti
E-mail: gulnar.suleymanova.2000@list.ru

Mətn barədə ilk tərif verən dilçi İ. R. Qalperindir. O deyirdi ki, mətn bitkinliyə malik, yazılı sənəd formasında obyektivləşən , bu sənədin tipinə uyğun ədəbi şəkildə işlənən başlıq və xüsusi vahidlər (frazafövqü bütövlər) sırasından ibarət olan leksik, qrammatik, məntiqi, üslubi əlaqələrin müxtəlif tipləri birləşən müəyyən məqsədyönlüyə və praqmatik göstərişə malik olan nitqyaratma prosesinin məhsuludur. Bu mətn barədə olan ilk və peşəkar tərif hesab olunur.

Qalperin mətnin sistemliliyinə xüsusi əhəmiyyət verərək onu bir nitq aktı kimi görür.Dilçi mətnə bir çox aspektlərdən toxunmuşdur. O mətnin şifahi nitqdən fərqliliyi haqqında danışarkən onun ani proses

olmasını qeyd edir. Onun fikrincə, mətn spontan nitq deyildir, o dolayı yolla eşitmə qavrayışı üçün nəzərdə tutulmuşdur və eyni zamanda o təkcə xətti və hərəkət formalarında da deyildir. Qalperin mətni proses kimi görürdü və onun sabit olmasını xüsusi vurğulayır. Buradan göründüyü kimi mətnin hərəkətliliyinə xüsusi diqqət çəkən dilçi mətni təbiətcə iki formada görür - hərəkətdə olan hal və hərəkətdə olmayan, yəni sakit hal O bu formaları 2 cür xarakterizə edir. Diskret vahidlər ardıcıllığı ilə təqdim olunan zaman mətnin sakit olmasını və hərəkət əlamətlərinin onda gizli şəkildə görünməsini qeyd edən Qalperin mətnin səsləndirildiyi (oxunduğu) zaman isə hərəkət halında olduğunu və o zaman sakitlik əlamətinin onda gizli şəkildə göründüyünü bildirir.

O, ədəbi mətnlərlə bağlı da fikirlər irəli sürmüşdür. O ədəbi mətnlərin, xüsusən roman, povest, hekayə, pyes, folklor nümunələrinin oxucunun hisslərində estetik nizam oyatdığını qeyd edir. Qalperin bildirirdi ki, mətn bir çox təsvirlər oyada bilər, misal olaraq, vizual, eşitmə, toxunma, dad formalarını göstərə bilərik. Burada Qalperin tərəfindən qeyd olunan əsas məsələ bu təsvirlərin ədəbi-bədii əsərin öz məzmununa biganə olmamasıdır. Lakin bu cür təsvirlərin çox vaxt əlavə məlumat daşıyıcısı kimi tanınmamasını Qalperin xüsusi vurğulayır. O deyir ki, bunlar sanki oxu prosesinin "yan məhsulu" olaraq qalırlar.

Qalperin ədəbi olan və ədəbi olmayan mətnlərin parametlərini araşdıran zaman onlar arasında mövcud olmuş fərqləri bir neçə formada ifadə edir. O bildirir ki, bədii yaradıcılığın estetik-idrak funksiyası dilin digər bütün funksiyalarını dəyişdirir və onları sanki düzgün istiqamətə "əyilməyə" məcbur edir, digər mətnlərdə isə onlar "əyilməz" formada təqdim olunmuş olurlar.

Mətnin tipologiya məsələsini ortaya qoyan dilçi onu müəyyənləşdirmək üçün diqqəti mətnin uyğun olub olmama nöqtəsinə çəkir. O qeyd edir ki, mətn nitq yaradıcılığı prosesinin məhsulu kimi bəzi ümumi qanunauyğunluqlara "uyğunluq və uyğunsuzluq" nöqteyi-nəzərindən təhlilə cəlb oluna bilər və bu qəliblər funksional üslubların hər birinin mətnlərinin invariantları kimi qəbul olunmalıdır. Qalperinin fikrincə, yalnız belə bir induktiv tədqiqat mətnin ümumi tipologiyasını müəyyən etməyə kömək edəcəkdir.

Qalperin öz araşdırmalarında mətnin düzgünlüyünü müəyyən etmənin önəmini vurğulayır. O düzgünlük adı altında mətnin məzmununun onun başlığına uyğunluğu, başlığa münasibətdə tamlıq, funksional üsluba xas olan ədəbi işlənmənin müxtəlif, əsasən məntiqi əlaqə növləri ilə birləşən frazadan böyük vahidlərinin olması, məqsədyönlülük və praqmatik münasibət anlayışlarını irəli sürür. Burada qeyd olunan mətnin düzgünlüyünü müəyyən edən anlayışlar mətnin müəyyən düzgünlük şərtlərindən kənarlaşmasının hüdudlarını müəyyən edir.

Qalperinin fikrincə, düzgünlük ona görə vacibdir ki, o müxtəlif mətn növlərinin dəyişməzliyini və variasiyasını təyin etməyə imkan verir.O bildirir ki, əksər mətnlər təşkil olunma nöqteyi nəzərdən müəyyən mətn qrupu üçün (funksional üslubların) müəyyən edilmiş normalara riayət etməyə çalışırlar və bununla mətnin düzgünlüyünün pozulmasının qarşısını alırlar.

Qalperinə görə, mətnin ayrı-ayrı seqmentlərə bölünməsinin motivlərini müəyyən etmək, mətnin bu və ya digər keçidini yeniləmək üçün daxili impulsları başa düşmək çətindir və bəzən isə sadəcə qeyri-mümkündür. Məhz bu səbəbdən də hər hansı bir mətni sıra mövqeyilə şərh etmək mətn dilçiliyinin əsas vəzifələrindən biridir. Bu mülahizələrə əsaslanaraq, hər bir qrammatik kateqoriya mətndə nəyinki nəzəri anlama məruz qalır, o həm də konkret misalların təhlili ilə təsvir olunur.

ATEŞPERESTLİQ NƏDİR, ONUN YARANMA TARİXİNƏ GÖRƏ

Tatar N.F.
Bakı Slavyan Universiteti
E-mail: nur.tatar.52@hotmail.com

Mənası Ateşperestlik (Zərdüşt) Zərdüştün yunanca qarşılığıdır. Adına əlavə edilən uhtra sözünün məlum mənasının dəvə ilə heç bir əlaqəsi yoxdur. Bəzi alimlər tərəfindən təklif edilən zaratha (qızıl) və ustra (işıq) uş kökündən "parıldamaq" sözlərindən əmələ gələn ad, dünyanı işıqlandıranların ən böyüklərindən birinə verilən ad olaraq "qızıl nurlu adam" mənasındadır. dünya. Danışıq dilində Zərdüşt canlı ulduz kimi təsvir edilir.

Atesperestlik günümüzden 3500- il evvel Zerdüşt terefinden yaradılmışdır. İran-da yaradılan bu din Eramizdan evvel 6-ci yy-dan eramızdan sonra 7-ci yy -a qeder 3 böyük Pers İmperiyasının dini olmuşdur. Bu dinin emele geldigi torpaqlar İran olmasından mutevellit indiki vaxtda 30 minə yaxın zərdüşti qalıb. Miladi VII əsrdə Hz.Ömər-in İranı zəbt etməsi və müsəlmanların himayəsi altında olan İranı zəbt etməsi nəticəsində Sasani imperiyası dağıldı və İran islamlaşmağa başladı. Buna baxmayaraq İranda 30 minə yaxın

zərdüşti qalmışdı.İslam dini bu torpaqlara hakim olduqdan sonra zərdüştilərin çoxu Hindistana köçməli olmuş və bu xalqlar coğrafi mənşələrinə görə fars adlandırılmışlar. Bəzi digər dinlərdə olduğu kimi, bu din də xeyirlə şərin döyüşü üzərində qurulmuşdur və möminlər hər bir insanın yaxşılığı üçün mübarizə aparmalıdırlar. Zərdüştilikdə ahura məzda tanrı kimi qəbul edilir və o, şər simvolu olaraq Əhrimanla döyüşür. Onlar təbii elementləri müqəddəs tuturlar və bu elementlər (su, torpaq, hava, od) çirklənmədən qorunur. Bununla əlaqədar olaraq atəşə, işığa və ya günəşə baxaraq ibadət edilir. Bu inanç Zərdüşt Espenteman tərəfindən gətirilmişdir.

Zərdüştilikdə gündə beş vaxt ibadet var. Səhər ibadətinin xüsusi yeri olduğundan insanları səhər ibadətinə qaldıran xoruz da müqəddəs sayılır. Qiblə günəşdir. Günəş olmadıqda, o, atəşə yönəlir.

Zərdüştilik fəlsəfəsində atəşə, işığa və ya Günəşə baxmaqla su, torpaq, oda müqəddəs sayılır və ona sitayiş edilir. İşıq və işıqlandırıcıların Tanrı Ahura Mazdanın fiziki təsviri olduğuna inanılır. Bununla əlaqədar olaraq odun xeyirlə şəri ayıran ilahi bir gücə malikdir. Bu inanca görə, od bütün varlıqlarda mövcuddur və canlı və cansız varlıqlarda müxtəlif formalarda mövcuddur. Bu yanğını müxtəlif zaman və situasiyalarda insanlarda, heyvanlarda, bitkilərdə, göydə və yerdə görmək mümkündür. Ən müqəddəs atəş Tanrı Ahura Mazda ilə insan arasındakı oddur.İstİfade edİlen İbadet adları müqeddes adlar ve bu adları heyat terzlerinin menaları dilçilikle yaxından elaqededir.

CEROM SELİNCERİN "ÇOVDARLIQDA UÇURUMDAN QORUYAN" ƏSƏRİNİN QISA MƏZMUNU

Zamanova R.Ə.
Bakı Slavyan Universiteti
E-mail: rafiqa.aladdinkizi@gmail.com

Cerom Selincerin "Çovdarlıqda uçurumdan qoruyan" romanı on yeddi yaşlı Holden Kolfildin "keçən Miladda baş verən o sərsəm hekayəni" xatırlaması ilə başlayır. Onun xatirələri Pensilvaniya ştatının Egerstaun şəhərindəki Pensi internat məktəbindən ayrıldığı gündən başlayır. Əslində, o, öz istəyi ilə ayrılmadı - akademik uğursuzluğa görə xaric edildi - həmin rübdə doqquz fənndən beşində uğursuz olmuşdu. Vəziyyət gənc qəhrəmanın tərk etdiyi ilk məktəb olmaması ilə çətinləşir. Bundan əvvəl o, artıq Eklton-Hillzi tərk etmişdi, çünki onun fikrincə, " davamlı cökə var idi". Bununla belə, onun ətrafında "cökə"nin olması hissi - yalan, bəhanə və vitrin paltarı Kolfildi bütün roman boyu buraxmır. Həm böyüklər, həm də görüşdüyü həmyaşıdları onu qıcıqlandırsa da, tək qalmaq da dözülməzdir.

Romanın ən əhəmiyyətli mövzusu baş qəhrəmanın yeniyetməlik mübarizəsidir, Holden artıq uşaq olmaq istəmir, həm də hələ yetkin olmağı bilmir, bu da onun "dağılması" ilə nəticələnir. Demək olar ki, bütün insanların üzləşdiyi bu çətin vəziyyət, roman boyu Selincer tərəfindən ehtiyatla istifadə etmişdir. "Çovdarlıqda uçurumdan qoruyan" romanı Holden Kolfild adlı gənc və onun böyüklər dünyasına səyahəti haqqında klassik romandır. Holden bir çox məktəblərdə olub və dəfələrlə qovulub. Holden qovulması və ondan sonrakı sərgüzəştləri haqqında danışılır. Səyahətində müxtəlif personajlarla qarşılaşır. Holden öz hekayəsini canlı təfərrüatlarla və lüğətdə maraqlı seçimlə danışır. Bu roman hekayə xəttinin əlaqəliliyinə görə aktual olaraq qalır. Selincerin süjetini və üslubunu təhlil etmək, böyümənin qorxuducu ola biləcəyi mövzusunu göstərir, lakin hər kəs bunu etməlidir. Cerom Selincer kitaba daha çox danışıq hissi vermək üçün birinci şəxsin nöqteyi-nəzərindən asılı bəndlərlə yanaşı istifadə edir. Roman real dünya ilə üzləşmək və onunla birlikdə gələn maneələr haqqında bir kitabdır.

Həmişə ona elə gəlir ki, o, özünü başa düşməyəcək qədər aydın ifadə etməyib, ona görə də eyni fikri bir neçə dəfə təkrarlayır. O, digər insanlarla söhbətlərini belə çatdırır, buna görə də onlar eyni utancaq uyğunsuzluq, dinləyiciyə inamsızlıq və qorxu, ən əsası - tənha bir oğlanın qorxusu ilə xarakterizə olunur. Müəllif manerasının orijinallığı bədii əsərin bütün toxumasına təsir edən, məzmunu ilə vahid bütövlük təşkil edən bir-biri ilə əlaqəli əlamətlərin mürəkkəb sistemidir.

Tələffüz fərdi yazı tərzinə malik olan hər hansı bir yazıçı dildən yaradıcı şəkildə istifadə edir, çox vaxt ümumi istifadə normalarından xeyli kənara çıxır. Yazıçı məhz dildən yaradıcı istifadə yolu ilə təsvir olunan hadisələrə subyektiv-qiymətləndirici münasibət açır, hadisələri, əşyaları səciyyələndirir, dünyagörüşünü açır. Ona görə də bədii mətn kimi çoxşaxəli və mürəkkəb strukturun tərcüməsi istər-istəməz bir çox çətinliklərə səbəb olur.

Romanının heyrətamiz üzvi mahiyyəti ondan ibarətdir ki, onun içindəki aləmi məsum uşaq baxışlarının buludsuz prizmasından görmək, nəyi gizlətməsindən asılı olmayaraq, istənilən yalanı kəskin şəkildə fərqləndirir.

Selincerin bir çox hekayələri qeyri-müəyyənliyə meyllidir, onlar əsərin özündən daha geniş olan zəngin alt mətnə malikdirlər. Yazıçının yazı üslubu həddindən artıq sözlü, hətta lazımsız görünə bilər. Amma yazıçı lirik qəhrəmanın xaotik vəziyyətini, daxili monoloqlarını parlaq şəkildə çatdırır. Selincerin ilk romanındakı hekayə üslubu bir yeniyetmənin subyektiv nitqi kimi stilizə edilmişdir. İçdən titrəyən və açıq lirik etiraf Holdenin daxili vəziyyətini oxucuya açır. Qəhrəmanla oxucu arasında məsafə azalır, müəllif povestə fəal müdaxilə etmir, struktur olaraq orada iştirak edir.

CEROM SELİNCERİN "ÇOVDARLIQDA UÇURUMDAN QORUYAN" ƏSƏRİNİN TƏRCÜMƏSİ HAQQINDA

Zamanova R.Ə.
Bakı Slavyan Universiteti
E-mail: rafiqa.aladdinkizi@gmail.com

Cerom Selincer 1951-ci ildə yazdığı və tamamlanması təxminən on il çəkmiş "Çovdarlıqda uçurumdan qoruyan" romanı ilə tanınan Amerika yazıçısıdır. Roman çıxdığı gündən tez bir zamanda bestseller oldu və bir neçə Avropa dillərinə tərcümə edildi. Romanın mərkəzində yalanın hər hansı təzahürlərinə son dərəcə həssas olan, insanlarla ümumi dil tapa bilməyən və bu, onun həyatında ağrılı təcrübələrə səbəb olan yeniyetmə oğlan obrazıdır. Romanda insan ünsiyyəti, fərd-cəmiyyət münasibətləri problemi qoyulur, cəmiyyətdəki yaxşı insanların tənhalığını izah etməyə cəhd edilir.

Sözügedən romanı Azərbaycan dilinə tərcümə edən tərcüməçi, jurnalist, redaktor, Azərbaycan Yazıçılar Birliyinin üzvü Tehran Vəliyevdir. Tehran Vəliyev əsasən bədii tərcümə ilə məşğul olmuşdur. İngilis, rus və türk dillərindən tərcümə edib. Eyni zamanda bir sıra siyasi, elmi, pedaqoji və hüquqi ədəbiyyat nümunələrini dilimizə tərcümə edib.

"Çovdarlıqda uçurumdan qoruyan" romanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" 2007-ci il 24 avqust tarixli Sərəncamına əsasən 2009-cu ildə çap olunmuşdur. Kitabın ön söz müəlllifi də Tehran Vəliyev olmuşdur. Tərcüməçi yazıçı haqqında bunları qeyd etmişdir:

"Dostları və yaxınları onu reportyorların, kənar adamların müdaxiləsindən cidd-cəhdlə qorumağa çalışmışlar. O, bütün bu müddət ərzində inadla kölgədə qalmağa can atmış, şəxsi həyatını heç kəslə bölüşmək istəməmişdir. Bununla belə, onun əsərləri bu gün də dünyanın hər yerində, xüsusilə də, yeniyetmə gənclər tərəfindən böyük maraqla oxunur və sevilir. Statistik göstəricilər C.D.Selincerin hazırda dünyada ən çox oxunan yazıçılardan biri olduğunu göstərir".

Bədii tərcümə ilə məşğul olan qələm sahibi ilk növbədə müəllifin və əsərin ruhunu tutmağı bacarmalıdır. İkincisi, hər bir dil özünə uyğun bədii ifadə vasitəsi tapmalıdır. Dili bilmək hələ o dildən bədii tərcüməyə hüquq vermir. Yəni tutaq ki, siz ingilis, rus, gürcü dillərini bilirsiniz, amma o dildə yazan müəllifin, o dildə yazılmış əsərin ruhunu tuta bilmirsinizsə, deməli, uğurunuz sual altındadır. Məsələnin texniki tərəfinə gəlincə, tərcümədə əsas meyar müəllifin süjetini, əsərin ritmini tutmaqdır. Tehran Vəliyev də romanın tərcüməsi zamanı, məhz bu metoddan məharətlə istifadə etmişdir.

Nəsr tərcüməçisinin də poeziya tərcüməçisi kimi, orijinalın üslub incəliklərini ifadə etmək qeyri-mümkün görünən vəzifəsi var. Bununla belə, bunun üçün tərcüməçi ədəbi əsəri xarakterizə edən üslubun müxtəlif xüsusiyyətlərindən xəbərdar olmalıdır. Nəsr tərcüməçisinin əsas problemi tərcümə vahidlərinin müəyyən edilməsinin çətinliyidir.

Aparılan tədqiqatın mövzusuna uyğun olaraq, qeyd edə bilərik ki, T.Vəliyev Cerom Selincerin "Çovdarlıqda uçurumdan qoruyan" romanındakı bədii ifadə vasitəsi kimi təşbehin də tərcüməsi zamanı bir çox üslub xüsusiyyətləri yalnız bütün romanı əsas vahid kimi götürməklə və hər şeydən əvvəl həm mətnin, həm də mətn daxilindəki vasitələrin funksiyasını nəzərə almaqla tərcümə etmişdir.

Bədii əsərin tərcüməsi asan iş deyil. Cerom Selincerin "Çovdarlıqda uçurumdan qoruyan" əsəri qəhrəmanın nitq portretinin xüsusi əhəmiyyət kəsb etdiyi müstəsna hallardan biridir. Çətinlik təkcə Holdenin timsalında gənclik jarqonunun ötürülməsində deyil, baxmayaraq ki, bu da vacibdir.

Yaxşı tərcümə olunmuş mətndəki təşbehlər tərcümə təsiri bağışlamamalı, habelə oxucu anlamalıdır ki, onun qarşısında başqa dildə, başqa mədəniyyətdə yaradılmış təşbeh dayanır. Bu tarazlıq - mətnin "yadlığını"

qorumaqla onun tərcümə olunan dil baxımından orjinallığını qorumaq arasında - Selincer hekayəsinin növbəti tərcüməçisinin qarşısında duran ən mühüm vəzifədir.

ALINMA TERMİNLƏRİN ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI

Zülfüqarlı R.Ə.
Sumqayıt Dövlət Universiteti
E-mail: zulfuqarliroya22@gmai.com

Milli dillərin terminologiyasına bir qayda olaraq dildə işlənən bütün terminlərin (sahə terminləri də bura daxildir) məcmusu kimi baxılır. Terminlər elmi-texniki kommunikasiya, müxtəlif elmi-texniki kəşflər prosesində yaranır. Cəmiyyət inkişaf etdikcə ictimai-siyasi dəyişikliklərlə bağlı dilin leksik sistemində terminlərin sayının artmasını zəruriləşdirir. Məhz buna görə də terminoloji leksikanın inkişaf sürəti ümumi leksikanın inkişafını hazırda qabaqlayır. Çünki, terminoloji qatda ayrı-ayrı sahələrdə müxtəlif anlayışları adlandırmaq ehtiyacı ümumi lüğət tərkibində yeni leksik vahidlərin yaranmasına nisbətən çoxluq təşkil edir. Təbii ki, terminoloji qatda anlayışları sahə mütəxəssisləri terminoloji baxımdan adlandırır və bu sözlər də termin kimi dilin terminoloji leksik qatına daxil olur.

Qeyd etdiyimiz kimi, terminlər elm və texnika sahəsində qurulan dialoqlar, yeni elmi kəşflər, texnoloji vasitələrin yaradılması ilə bağlı ortaya çıxır. Cəmiyyət, ictimai həyatda baş verən dəyişikliklər dilin lüğət tərkibində termin xarakterli sözlərin sayca artımına zəmin yaradır. Bu proses dilin lüğət tərkibinin terminlər sisteminin inkişafının ümumilikdə leksika ilə müqayisədə daha da üstələməsini təmin edir.

E.M.Qalkina-Fedoruka görə, termin elm, texnika və incəsənət sahəsində tam şəkildə müəyyənləşmiş anlayışlara uyğun gələn sözlərdir. Terminləşmə prosesində dildə işlənən söz elmi anlayışı ifadə edən termin funksiyasını qazanır. Bu proses hər bir halda sözyaratma qanunlarına və dilin qrammatikasına uyğun formada tənzimlənməlidir.

Azərbaycan dilində termini müxtəlif cəhətdən xarakterizə edərək S.Sadıqova yazır: "Termin elm və texnikanın, iqtisadiyyat və mədəniyyətin müxtəlif sahələrində məntiqi cəhətdən dəqiq formalaşmış spesifik anlayışları ifadə edən, adlandıran, xüsusi funksiya daşıyan, definisiyaya malik söz və söz birləşməsidir".

Alınma terminlərdən danışarkən əsasən alınma söz və alınma termin anlayışlarına aydınlıq gətirməyi məqsədəuyğun hesab edirik.

Dünyada saf dil yoxdur. Elə bir dil tapılmaz ki, onun lüğət tərkibi yalnız öz milli sözlərindən ibarət olsun. Lakin siyasi, iqtisadi, sosial, mədəni, və elm sahəsində qurulan əlaqələr nəticəsində həm eyni, həm də fərqli dil ailələrinə mənsub olan, tipoloji xarakterə daşıyann dillər daim bir-biri ilə kontaktda olur ki, bu da həmin dillər arasında müxtəlif fəaliyyət sahələrinə dair söz, o cümlədən termin alış-verişini reallaşdırır. Hər hansı bir dildə belə terminlərin böyük bir hissəsi həmin dilin özünə məxsus olan morfemlərdən təşkil olunur. Bununla yanaşı, elm və texnika ilə bağlı olan terminlərin əksəriyyəti beynəlmiləl sözlərdən ibarətdir ki, bunlar da dilin leksikasında xüsusi lay təşkil edir. Elm inkişaf etdikcə, onun müxtəlif sahələrinə aid anlayışları ifadə edən sözlərin də sayı artır. Bu sözlər dilin lüğət tərkibinə nüfuz edərək orada sabitləşir.

Dilin leksikasında terminlərin sabitliyinə dair tədqiqatçılar arasında müxtəlif fikirlər mövcuddur. Onların hər biri məsələyə fərqli müstəvidən yanaşmış, alınma terminləri təsnifləndirərkən onların dilə keçmə səbəblərini, dildə funksionallıq qazanıb-qazanmamasını, həmin terminlərlə eyni semantikaya malik milli və ya alınma terminlərlə nisbəttə işlənmə tezliyi kimi məsələləri də nəzərə almışlar.

Azərbaycan dilçiliyinin korifeylərindən olan Ə.Dəmirçizadə "alınma söz" anlayışının alınma söz olduğu xüsusi tədqiqat aparılmadan anlaşılan, mənsub olduğu dilin müəyyən fonetik, leksik, qrammatik xüsusiyyətlərini daşıyan sözlərdir. Müəllif alınma termin məsələsinə də toxunmuş, alınma terminləri şərti anlayış olaraq qəbul edilməli olduğunu bildirmişdir. Dəmirçizadə alınma sözlərin "əcnəbi sözlər adlandırılmasını daha məqsədəuyğun hesab etmiş, səbəb olaraq alınma söz və terminlərin varvarizmlərindən fərqləndirilməsi göstərmişdir.

Təqiqatçıların əksəriyyəti alınmaları məcburi və zəruri olmaqla iki qismə ayırır ki, bu terminləri ilk dəfə dilçilikdə işlədən A.Qurbanov (*A.Qurbanova qədər dilçilik ədəbiyyatında məcburi şəkildə alınan sözlər "gəlmə sözlər" termini ilə ifadə olunmuşdur – kursiv R.)* müəyyən bir vaxtda, mühit və şəraitdə müxtəlif səbəblərdən hər hansı dildən mənimsənilən morfemlər: sözlər, söz-formalar, şəkilçilər, ünsürləri alınmalar adlandırmış, alınma sözləri tərkibində müəyyən fonetik, leksik, yaxud qrammatik dəyişilmə baş verən və heç bir dəyişikliyə uğramadan mənimsənilən sözlər olmaqla iki qrupa ayırmış, ikincilərin böyük bir hissəsini beynəlmiləl sözlərin təşkil etdiyin qeyd etmişdir. Alınma termin anlayışına da aydınlıq gətirən müəllif

alınma sözlər hesabına termin yaradıcılığında XX əsrin 20-ci illərinə qədər ərəb və fars, sonrakı dövrlərdə isə Avropa dillərindən alınan sözlərin üstünlük təşkil etdiyini bildirmişdir.

H.Həsənov sözlərin bir dildən digərinə keçərkən daşıdığı özəlliklərə aydınlıq gətirməyə çalışmış və alınma sözlərin alındığı dildə derivatoloji funksionallığını, həmin dilin qramatik quruluşuna uyğunlaşmasını, leksik-semantik cəhətdən müstəqil xarakterə malik olmasını başlıca şərt kimi irəli sürmüşdür.

N.Xudiyev *alınma söz* və *alınma* terminlərinin ifadə etdiyi anlayışlar arasında sərhədi müəyyən etməyə çalışmış, alınma söz dedikdə müəyyən bir dildən mənimsənilən morfemin, alınma dedikdə isə mənimsəmə prosesinin nəzərdə tutulduğunu yazmışdır.

Göründüyü kimi, yuxarıda adları çəkilən müəlliflər alınma termini altında başqa dillərdən mənimsənilən, ya eynilə, ya da dilimizin fonetik, leksik, qrammatik qayda-qanunlarına uyğunlaşdırılmış şəkildə qəbul və istifadə edilən sözləri birləşdirmiş, terminləri onların tərkib hissəsi olduğunu qeyd etmiş, ayrıca olaraq alınma terminlərdən bəhs etməmişlər. Alınma terminlərin öyrənilməsi sahəsində tədqiqatşılar: S.Sadıqova, M.Qarayev, N.Məmmədov, T.Yaqubova, N.Abdullayeva, G.Paşayevanın müstəsna xidmətləri vardır.

M.Qarayev və N.Məmmədli alınma terminləri alıma sözlərdən ayırmış, bu iki termini mahiyyətcə fərqini izah etmişlər. M.Qarayevə görə, alınma sözlər anlayışın lüğəvi spesifikasını daşıyır, alınma terminlərin semantik yükü isə daha dolğun olub, həm dilçiliyin fonetikadan sintaksisə qədər bütün şöbələrinə dair xüsusiyyətləri, həm də onlarda baş verən prosesləri, dəyişiklikləri əks etdirir.

N.Məmmədli də alınma sözlərlə alınma terminlər arasındakı fərqi terminlərin lüğət tərkibindəki əhatə genişliyində görür. Müəllif yazır ki, sözlərin bir dildən başqa dilə keçməsinin başlıca səbəblərindən biri dil kontaktlarıdır. Ərazi baxımından bir-birinə yaxın olan xalqların dilləri arasında terminalma prosesi daha çox müşahidə olunur.

Azərbaycan terminologiyasının formalaşması, tarixi inkişaf mərhələləri, eləcə də alınma terminlərin zaman, məkan, şəraitdən asılı olaraq dilimizə keçib onun lüğət tərkibində sabitləşməsi səbəbləri, yolları, vasitələri, dilimidəki mövqeyi və işləklik dərəcəsi və s. kimi məqamları geniş tədqiqata cəlb edən S.Sadıqova Azərbaycan dilinin terminologiyasından, terminlərin dilin lüğət tərkibindəki yeri və rolundan bəhs edərkən yazır ki, hər hansı bir dilin terminoloji sistemi dedikdə dildə işlənən bütün terminlərin məcmusu nəzərdə tutulur. Dilin lüğət tərkibinin terminlərlə zənginləşməsi cəmiyyətin inkişafı ilə birbaşa bağlıdır.

ОСОБЕННОСТИ ПИСЬМЕННОЙ ПЕРЕДАЧИ ТУРЕЦКИХ ИМЁН СОБСТВЕННЫХ В РУССКОМ ЯЗЫКЕ

Карадаг Н.
Бакинский славянский университет
E-mail: neslihan0616@gmail.com

Данная работа ставит перед собой две главные задачи. Во-первых, делается попытка анализа некоторых турецких географических названий, употребляющихся в русском языке. Во-вторых, определяются способы их письменной передачи в русском языке и выявляется наиболее адекватный из них.

Работа актуальна в силу того, что адаптация в языке иноязычных имен собственных является важной для любого языка, в том числе и русского. До сих пор еще не выработаны единые нормы письменной передачи иностранных, в том числе и турецких имён собственных. Это связано с тем, что русский и турецкий языки различаются не только своими фонетико- фонологическими системами, но и графикой. Поэтому достаточно сложно сделать адекватный выбор между существующими способами письменной передачи турецких имён в русском языке.

Новизна данной работы состоит в том, что при отсутствии единых правил при письменной передаче турецких имен в русском языке, делается попытка найти наиболее приемлемый способ, диктуемый, во-первых, фонетическим сходством обозначаемого русскими буквами турецкого имени, во-вторых, благозвучием.

Важно отметить, что очень часто имена собственные имеют традиционные, зафиксированные в словарях соответствия, от которых никоим образом отходить нельзя. К таким относятся общеизвестные İstanbul (Стамбул), Antalya (Анталья), Güneydoğu Anadolu Bölgesi (ЮгоВосточная Анатолия) и т.д. В тех же случаях, когда словарного соответствия найти не удается, переводчику приходится самостоятельно принимать решение о способе письменной передачи того или иного

имени собственного. Так, например, возникают вопросы, как переводить такие топонимы, как Bodrum, Beyoğlu, Kapadokya, Van Gölü, в состав которых входят значимые, переводимые слова. Уместным способом перевода в подобных случаях является транскрипция, транслитерация или их сочетание, тогда как семантический перевод совершенно неприемлем.

Поэтому было бы уместно перевести с помощью транслитерации: Бодрум, Бейоглу, Каппадокия – здесь применяется транслитерация с элементами транскрипции. Van Gölü переводим как озеро Ван (семантический перевод + транскрипция).

Отсутствие единой транскрипционной системы во многих случаях затрудняет понимание текстов и отождествление лиц и объектов. Переводчику следует принять «переводческое решение с учётом всех компонентов формы и содержания имени собственного» т.е. выбрать один из следующих способов перевода: 1) транслитерация; 2) транскрипция; 3) калькирование; 5) транскрипция с элементами транслитерации (смешанный метод).

Как выяснилось, чаще всего применяется транскрипция и сочетание транскрипции и транслитерации. Но, безусловно, каждое имя собственное рассматривается индивидуально, и в соответствии с этим принимается правильное переводческое решение.

Таким образом, перевод имен собственных – очень важный аспект работы переводчика, о чем можно судить хотя бы по активному обсуждению данной проблемы на профессиональных форумах, где высказываются порой совершенно противоположные мнения. Имена собственные очень важны для взаимопонимания и общения людей, поэтому так актуальны вопросы их перевода в контексте вопросов межкультурной коммуникации.

НАПРАВЛЕНИЯ И ПЕРСПЕКТИВЫ ТЕРМИНОЛОГИЧЕСКОЙ НАУКИ XXI ВЕКА

Озел Эбру
Бакинский славянский университет
E-mail- ebreelaozel@gmail.com

Современный этап развития лингвистики характеризуется возросшим интересом к динамическим аспектам языка и переходом к лингвистике антропоцентрической, изучающей язык во взаимосвязи с человеком, его сознанием, мышлением, различными видами деятельности. Существенные изменения происходят и в науке о терминах, в результате чего формируется новое - когнитивное - направление терминоведения.

Произошедший в терминоведении в 70-х годах XX в. переход от структурной парадигмы к структурно-функциональной сделал его открытым для многих принципиально новых идей в отношении своих главных понятий и категорий: в рамках функционального направления термин рассматривается не только как один из лингвистических объектов, но и как средство, с помощью которого можно изучать функциональную природу самого языка, представление о которой связано с изучением вторичных, производных понятий, в частности с формированием и развитием категории термина.

В современных терминоведческих исследованиях подчеркивается сложная (неоднородная, многослойная) структура термина, предполагающая многогранность и многоаспектность терминологического анализа. Научно-профессиональной и культурной памяти термина и т.п. на основании, которых обосновывается вывод о когнитивно-информационной природе термина.

Термины, с помощью которых общаются специалисты конкретной области знания, представляют собой особые когнитивные структуры -Фреймы, требующие соответствующего поведения. Важно выявление того, какие именно концепты (по структуре, по содержанию и по степени конкретности) лежат в основе терминологической номинации и более всего способствуют фиксации, хранению и передаче научных знаний.

Итак, сама логика формирования и развития терминоведения, заключающаяся в последовательной смене прагматического, классификационно-структурного и функционального направлений, предопределяет появление следующего направления терминоведения, развивающегося в недрах функционального направления, - когнитивного терминоведения.

Когнитивное терминоведение, содной стороны, продолжает традиции, а с другой стороны, приобретает черты, присущие современному этапу научного познания. Поэтому целесообразно

рассмотреть характеристики когнитивного направления в сравнении с предшествующими этапами терминоведения. когнитивное направление делает терминоведение “открытой” наукой, с явной тенденцией к расширению своих пределов, с тяготением к интеграционным процессам, которые ведут к выделению междисциплинарных программ исследования, которые получили дальнейшее развитие в трудах Е. С. Кубряковой.

Данное направление тесно связано с другой отличительной чертой современной лингвистики - антропоцентризмом, позволяющим обьяснять устройство языка в первую очередь в сущностных характеристиках его носителя - человека. Антропоцентризм становится ведущим направлением междисциплинарных исследований, что проявляется в учете человеческого фактора при формировании системы языка, номинативной организации текста и языковой личности. “Антропоцентризм как особый принцип исследования заключается в том, что научные объекты изучаются, прежде всего, по их роли для человека, по их назначению в его жизнедеятельности, по их функциям для развития человеческой личности и ее усовершенствования”. (Е. С. Кубрякова)

Сказанное в полной мере может быть отнесено и к когнитивному терминоведению, принцип антропоцентризма в котором - главная отличительная черта сопоставительно как с прагматически ориентированным “центризмом”, так и с “лингвоцентризмом”.

Ведущим принципом когнитивного направления терминоведения является “связь с человеком”, что позволяет рассматривать его как “антропоцентричное”.

Итак, анализ основных направлений терминоведения свидетельствует о том, что в целом логика развития терминоведения основные этапы развития лингвистики, что, в свою очередь, подтверждает правомерность выделения нами нового этапа развития терминоведения и определения его как когнитивного терминоведения.

XV BÖLMƏ
METODİKA

İNKİŞAFETDİRİCİ MÜHİTİN TƏŞKİLİ

Abbasova N.A.
Bakı Slavyan Universiteti
Email: nurane.abbasova23@icloud.com

İndiki məktəbəqədər pedaqoji elm və təcrübənin ən vacib vəzifəsi uşaqların sağlamlığını qorumaq, onları müxtəlifyönümlü inkişaf etdirməkdir. Təlim, təhsil və tərbiyə prosesinin humanistləşdirilməsi müasir məktəbəqədər pedaqogikanın mühüm məsələlərindəndir. Məktəbəqədər təhsil proqramı həyata keçirilən müəssisələrdə əşyavi-inkişaf mühitinin düzgün, səmərəli təşkili təhsilin keyfiyyətinin qiymətləndirilməsi baxımından olduqca vacib meyardır. Pedaqogika və psixologiya elmində "mühit", "sosial mühit", "uşağın sosial mühiti" anlayşları XIX əsrin 20-ci illərindən ortaya çıxmış və tədqiq olunmağa başlamışdır. Bu araşdırmalar nəticəsində məlum olmuşdur ki, tərbiyəçinin – müəllimin əsas diqqət yetirməli olduğu məqam uşaq deyil,onun keyfiyyətləridir. Müəyyən bir müəssisənin təhsil ocağı olması üçün bəzi tələblərə cavab verməlidir. Çeviklik, inteqrativlik, uyğunluq, dəyişkənlik, açıqlıq, davamlılıq və digər xüsusiyyətləri özündə birləşdirən təhsil məkanı inkişafetdirici mühitə malikdir. Uşağı şəxsiyyətinə çevirmək, onun fərdi imkanlarını üzə çıxarmaq, o cümlədən idrak fəaliyyətini formalaşdırmaq prosesini qarşısına məqsəd qoyan təhsil müəssisəsi özündə tam olaraq inkişafetdirici mühiti əks etdirir. Buna görə də müəllimlərin ən mühüm vəzifələrindən biri uşaqları yaxından müşahidə etmək və onların şəxsiyyət kimi formalaşmaq üçün zəruri fəaliyyətlərin həyyata keşirilməsini təmin etməkdir.

Məktəbəqədər pedaqogikada "inkişafetdirici mühit" termini uşaqların və böyüklərin mənəvi irəliləyişini təmin edən maddi-texniki, sanitariya-gigiyenik, erqonomik, estetik, psixoloji və pedaqoji şərait kompleksi" olaraq anlaşılır. Uşaqların daxili fəaliyyətinin inkişafı üçün vacib olan şərtləri yaratmaq, bütün uşaqlara onların hər birinin özenəməxsus keyfiyyətlərini və qabiliyyətlərini ortaya çıxarmağa müvvəffəq olmaq üçün düzgün şərait qurulmalı, uşaqlara həyatlarının ən əhəmiyyətli sahələrində özünü təsdiq etmək imkanı yaratmaq, onların şəxsiyyətinə sevgi və hörməti təmin etmək məqsədilə uyğun münasibət şəkli seçilməlidir.Məktəbəqədər təhsil müəssisəsində inkişafetdirici mühit insanlar arasında şəxsiyyətyönümlü qarşılıqlı fəaliyyət əsasında qurulur.Uşağın təhsil aldığı sosial şəraitin zənginləşməsi onun şüurunun və fəaliyyətinin psixoloji vəziyyətinin zənginləşməsinə səbəb olur. Şagirdlərin müxtəlif fəaliyyətini təmin edən sosial və obyektiv vasitələrin vəhdəti zənginlşdirilmiş mühit yaradır. Fəaliyyət psixikanı formalaşmasına yardımçı olur. Fəaliyyətsizlik uşaqları məhrumiyyətə gətirib çıxarır, onun nəyisə əldə edə bilək imkanlarını məhdudlaşdırır. Buna görə də, inkişafetdirici mühitin təmin olunmasında ən mühüm psixoloji tələb fəaliyyətin inkişafının xüsusiyyətlərini diqqətdə saxlamaqdır. Yetkinlər və uşaqlar arasında şəxsiyyət yönümlü qarşılıqlı əlaqə modelinin həyata keçirilməsinin əsas şərti onlar arasında əlaqənin qurulmasıdır.Yetkinlər üçün əlaqə qurmaq üçün düzgün məsafəni, hər bir uşaqla və bütövlükdə bir qrup uşaqla ünsiyyət üçün ümumi psixoloji məkanı tapmaq eyni dərəcədə vacibdir. Oyun məkanında uşaqlarda fəaliyyətin formalaşması və böyüklər tərəfindən fəaliyyətin təzahürü imkanları qoyulmalıdır.Uşağın "böyüklər" fəaliyyət formalarını yenidən yaratması üçün oyun məkanında real şərait yaradılmalıdır. Ətraf mühit elə təşkil edilməlidir ki, uşaqları onun müxtəlif elementləri ilə qarşılıqlı əlaqəyə həvəsləndirsin, bununla da uşağın funksional fəallığını artırsın. Ətraf mühit uşaqlara müxtəlif və dəyişən təcrübələr bəxş etməlidir.Cəmiyyətdə qəbul edilmiş kişilik və qadınlıq standartlarına uyğun olaraq həm oğlanlara, həm də qızlara öz meyllərini ifadə etmək üçün imkanlar yaratmaq kimi gender fərqlərini nəzərə alan oyun mühitinin yaradılması vacibdir.Ətraf mühitin qurulması prinsiplərinin konkret həyata keçirilməsi onun modelləşdirilməsini nəzərdə tutur. Modelləşdirmə subyekti inkişaf etdirən mühitin analoqunu - modelini yaratmaq (yenidən yaratmaq) zehni prosesidir. Fənn mühitinə aşağıdakı xüsusiyyətlər daxildir: proqrama uyğunluq: əşyalar, oyuncaqlar, dərsliklər müasir dünyanın səviyyəsini əks etdirməlidir; obyektlər məlumat daşımalı və axtarışı stimullaşdırmalıdır. İnkişafetdirici obyekt-məkan mühiti uşaqların və böyüklərin ünsiyyəti və birgə fəaliyyəti, uşaqların fəaliyyəti, habelə fərdi halda imkanlar təmin etməlidir.

İnkişafetdirici obyekt-məkan mühiti məzmunla zəngin, dəyişdirilə bilən, çoxfunksiyalı, əlçatan və təhlükəsiz olmalıdır. İnkişafetdirici mühit uşağın fəaliyyətinin maddi obyektləri sistemidir. Zənginləşdirilmiş mühit uşağın müxtəlif fəaliyyətini təmin edən sosial və obyektiv vasitələrin vəhdətini nəzərdə tutur. Subyekt-oyun mühitinin strukturuna aşağıdakılar daxildir: geniş təşkiledici oyun meydançası; oyun avadanlıqları; müxtəlif növ oyun ləvazimatları, oyun materialları. İnkişafetdirici fənn mühitinin bütün komponentləri məzmun, miqyas və bədii həll baxımından bir-biri ilə bağlıdır. İntellektual inkişaf və yaradıcılıq bütün oyun sahələrini təşkil edir, çünki məktəbəqədər uşaqlar və intellektual və emosional inkişaf üçün aparıcı fəaliyyət oyundur. Beləliklə, inkişafetdirici mühitinin qurulması böyüklər və uşaqlar arasında şəxsiyyətyönümlü qarşılıqlı əlaqə modelinə etibar etməyi nəzərdə tutur. Məktəbəqədər təhsil müəssisəsi uşaqlar üçün təbii və real həyatı göstərir.

XARİCİ DİLİN TƏDRİSİNDƏ YÜKSƏK SƏSLƏ OXUMAQ VƏRDİŞLƏRİNİN FORMALAŞDIRIRLMASI

Abdulova Ş.X.
Bakı Slavyan Universiteti
E-mail: sehlaabdulova@gmail.com

Oxu bacarığı ən çox önəm verilməli olan bacarıqlardan və əsas məzmun xətlərindən biridir. Oxu bacarığı dinləmə, danışma və yazı bacarıqlarına da təsir edir. Oxuma-anlama bacarığı həm ən önəmli öyrənmə vasitəsi kimi, həm də digər bacarıqların qazanılmasına kömək edən ən mühüm bacarıqlardan biri hesab olunur. Şagirdlər mətnin içərisindəki sözlərin mənalarını, o sözlərin digər sözlərlə olan əlaqəsini oxu prosesi zamanı kəşf edirlər. Oxu prosesi zamanı anlama baş verməsə, oxu bacarığının heç bir əhəmiyyəti olmaz. Xarici dilin səs quruluşunu dərk edən bir şəxs, bilmədiyi yüzlərlə sözdən ibarət olan bir mətni oxuya bilər, lakin oxuduğu mətnin mənasını anlaya bilməzsə oxu bacarığına yiyələnə bilməz. Oxu kommunikasiya, qavrayış, inkişaf və öyrənmə prosesidir. Oxu vərdişlərinə yiyələnmənin müxtəlif yolları vardır. Bunlardan biri də yüksək səslə oxumaqdır.

Dünyanın hər yerində xarici dil dərslərində zamanı şagirdlər dərs kitablarını yüksək səslə oxuyurlar. Bu, müəllimlərin istifadə etdiyi ən qədim və ən geniş yayılmış prosedurlardan biridir. Bir çox şagirdlər bu fəaliyyətdən zövq alır. Eyni zamanda, o, sinfi sakit saxlamaq üçün müəllimlərin istifadə etdiyi yollardan biridir. Çünki, ən azından, oxumaq ilə məşğul olan şagirdlər bütün diqqətlərini həmin tapşırığa verirlər.

Lakin bu fəaliyyət zamanı bəzi problemlər meydana çıxa bilər. Yüksək səslə oxuma şagirdlərin əvvəllər heç görmədikləri mətni oxumaları üzərində təşkil olubsa nəticələr, adətən, çox uğursuz olur. Şagirdlər tez-tez tanımadığı sözlərlərlə qarşılaşır və büdrəyir, özlərinə inamsız və həvəssiz şəkildə oxuyurlar. Bu, şagirdlər üçün son dərəcə darıxdırıcı olur, ən pisi isə budur ki, onların pis oxuduqlarını özləri ilə yanaşı yoldaşları da bilirlər. Bütün bunlar təəssüf doğurucu məqamlardır. Çünki yüksək səslə oxuma, həqiqətən də, faydalı ola bilər. Belə ki, o, müvəffəqiyyətli anlama üçün əsas olan səslər və yazılı formalar arasında əlaqə yaratmağa kömək edir. Bundan əlavə, zəif şagirdlərə hazır və düzgün yazılmış mətnləri səsli oxumaq şansı verməklə onların özünəinamını artırmağa kömək etmək olar. Çünki belə şagirdlər spontan və ya kortəbii nitq prosesində iştirak etməkdə çətinlik çəkirlər. Əgər onlar səsli oxumanı yaxşı bacarsalar, ingilis dilində düşündüklərindən daha yaxşı danışa bildiklərini görəcəklər. Bu isə onları motivasiya edəcək.

Səsli oxuma metodunun həqiqətən uğurlu olması üçün şagirdlər oxumalı olduqları mətni əvvəlcədən görməlidirlər. Onlar cümləni və ya abzası öz-özlərinə oxumalı və nəyi necə deyəcəklərini düşünməlidirlər. Müəllimlər şagirdlərə mətndəki müəyyən sözləri, cümlələri alçaq səslə səsləndirmək və ya təkrar-təkrar oxumaq şansı verməlidir ki, şagirdlər onların necə səsləndiyini əvvəlcədən hiss edə bilsinlər. Onlar oxuyacaqları materialı cütlərlə və ya qruplarla məşq edə bilərlər. Yalnız şagirdlər vurğunu sözün hansı hissəsinə qoyacaqlarını, sözləri necə tələffüz edəcklərini və hansı intonasiyadan istifadə edəcəklərini bildiklərini düşündükləri zaman müəllim onlardan bütün sinfin qarşısında fərdi şəkildə səsli oxumağı istəyə bilər.

Şagirdləri yüksək səslə həvəslə oxumağa cəsarətləndirmək üçün istifadə olunan yollardan biri də onlara yüksək səslə oxumazdan əvvəl həmin mətni öz-özlərinə məşq etmək üçün verdikdən sonra elə indicə oxuduqları mətnin içərisindən ən sevimli cümlələrini seçməyi tapşırmaqdır. Şagirdlər həmin cümlənin altından xətt çəkməli, onu necə tələffüz etmək haqqında düşünməli və istədikləri qədər onun üstündə məşq etməlidirlər. Bu üsul təkcə real şəkildə yüksək səslə oxumağı təqlid etmir, eyni zamanda şagirdlər oxuyacaqları cümləni özləri seçdikləri və onu dəfələrlə təkrarladıqları üçün daha inamlı və həvəsli olurlar.

Şagirdləri yüksək səslə oxuya cəlb etməyin yolarından biri də onların oxuyacaqları mətni əvvəlcədən dinləmələrini təmin etməkdir. Bunun üçün müəllim özü həmin materialı oxuyar və ya şagirdlər audio materialdan dinləyə bilərlər. Bu zaman onlar öz kitablarında mətni izləməli, vurğulu hecaları və nəfəs almaq üçün cümlələrdə sözlər arasında fasilə nverilməli yerləri işarələməlidirlər. Daha sonra şagirdlər müəllimlə və ya audio materialla eyni vaxtda mətni oxuya bilərlər. Bu texnikaya metodikada "paralel danışma" deyilir. Tədricən audio söndürülür və şagirdlər özləri inam və həvəslə mətni oxuya bilirlər.

Müəllimlər şagirdlər üçün yüksək səslə oxuduğu zaman bunu sevərəkdən və inamla etməlidirlər. Əgər şagirdlər müəllimin necə həvəslə oxuduğunu görsələr, onlar da eyni formada oxumaq üçün böyük səy göstərəcəklər.

Lakin şagirdlərin heç vaxt oxumadıqları bir mətni yüksək səslə oxumasının bir müsbət tərəfi var. Müəllimlər diaqnostik qiymətləndirmə zamanı bundan istifadə edə bilərlər. Şagirdlər cümləni və ya mətni yüksək səslə oxuduqları zaman onların intonasiyası, vurğunu hara qoyması onların oxuduqlarının hansı hissəsini başa düşmədikləri ilə bağlı müəllimə aydın məlumat verir.

Beləliklə, yüksək səslə oxuma xarici dil dərslərində tez-tez istifadə olunan üsullardan biridir. Lakin bu zaman şagirdlər özünəinamsız, həyəcanlı və həvəssiz ola bilirlər. Bunları aradan qaldırmaq üçün mətni oxuyub məşq etməyə onlara əvvəlcədən vermək və ya həmin mətni əvvəlcədən dinləmələrini, qeydlər götürmələrini təmin edə bilərik.

TƏHSİLİN HUMANİST PARADİQMASININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Ağayeva-Səlimzadə M.M.
Bakı Slayvan Universiteti
E-mail: meyremm612@gmail.com

Paradiqma elmin inkişafının müəyyən tarixi mərhələsində elmi ictimaiyyətin nümayəndələri tərəfindən həqiqət kimi qəbul edilən və elmi araşdırmalar, fərziyyələr irəli sürmək və bu sahədə yaranan problemlərin həlli üçün istifadə olunan elmi baxış və konsepsiyaların, ideyaların məcmusudur. Pedaqoji elmdə humanist (fenomenoloji) paradiqma anlayışı şagirdi həyatın subyekti, özünüinkişaf ehtiyacı olan azad və mənəvi şəxsiyyət kimi diqqət mərkəzində saxlayan təhsil paradiqması kimi müəyyən edilir. Humanist paradiqma şagirdin inkişafına, onun intellektual ehtiyaclarına və şəxsiyyətlərarası münasibətlərə diqqət yetirir. Onun əsasını şagirdə humanist yanaşma, onun şəxsi inkişafına köməklik, baxmayaraq ki, onun həyata hazırlanmasına, uyğunlaşmasına və s. təşkil edir. Deməli, inkişaf və özünü inkişaf, özünü həyata keçirmə, şagirdin yaradıcılığı, subyektivlik - bu təhsil modeli subyekt-obyekt münasibətlərinə (digər modellərdə olduğu kimi) buna əsaslanır. Burada tərəfdaşlıqlar əməkdaşlıq xarakteri daşıyır.

Şagird inkişafı kateqoriyası zamanı keyfiyyət vəziyyətində dəyişiklik, yeni qabiliyyətlərin ortaya çıxması və təhsildə ilk növbədə intellektual inkişafdan danışmaq lazımdır. İnkişaf - şagirdlərin problemlərin həllində daha yüksək fəallıq və müstəqillik səviyyəsinə keçidi ehtiva edir. Tanınmış psixoloq L.S.Vıqotskinin fikrincə, inkişaf uşağa onun təhsilində göstərilməli olan yardım ölçüsü ilə müəyyən edilir: faktiki inkişaf zonası - insanın mənimsədiyi və müstəqil şəkildə istifadə edə biləcəyi bilik, bacarıq və vərdişlər; proksimal inkişaf zonası - insanın yalnız böyüklərin köməyi ilə istifadə edə biləcəyi bilik, bacarıq və qabiliyyətlər.

İnkişafı fərqləndirən xüsusiyyətlər aşağıdakılardır: ümumi (universal qabiliyyətlər, o cümlədən fiziki qabiliyyətlər); xüsusi (qabiliyyət, istedadla əlaqəli); mədəni inkişaf (yenə mədəniyyətə müraciət edirik).

İnkişafın ən yüksək səviyyəsi özünü inkişaf etdirməkdir. Biliyin strukturlaşdırılmasının əsas yolu təhsilə mədəni yanaşmadır. O, akademik fənlərin inteqrasiyasına, dövrün, mədəniyyətin vahid obrazının yaradılmasına, mədəniyyət və sivilizasiyanın əlaqəsini dərk etməyə, mədəniyyətin formalaşmasında hər bir bilik sahəsini dərk etməyə və s. kömək edir. Təhsilin humanist paradiqmasının həyata keçirilməsi kontekstində əsas odur ki, hər bir insan həqiqəti, yəni bilik yollarını tapa bilsin. Bu paradiqmanın daxili mənasında şüarı "Bilik gücdür!"-dir. Pedaqoji proses dialoq və ya poliloq prinsipinə əsaslanır və improvizasiya ilə zəngindir. Burada heç bir normativ, birmənalı həqiqət yoxdur, ona görə də ünsiyyətin nəticəsi, mənəvi dəyərlərin mübadiləsi "bəli-bəli" mənasında müəyyən edilir.

Humanist paradiqmanın nümayəndələri baxış birliyinə görə fərqlənmirlər. Onun çərçivəsində müxtəlif təhsil modelləri bir arada mövcuddur. Vahid istiqamətdə onları insan həyatında unikal dövr kimi şagirdə dəyərli münasibət, təhsilin inkişafının məktəbin əsas vəzifəsi kimi tanınması birləşdirir. Humanist paradiqma çərçivəsində fəaliyyət göstərən hər bir təhsil sistemi yaradıcı axtarış aparır, özünəməxsus məzmun, metod,

təhsil və tərbiyə vasitələri tapır. Humanist istiqamət həm şagirdlərin, həm də müəllimlərin azadlığını və yaradıcılığını nəzərdə tutur. Humanist paradiqma münasibətləri "subyekt-subyekt" tipinə uyğun formalaşdırır. Müəllim və şagirdlər birgə fəaliyyətin məqsədlərini, məzmununu inkişaf etdirir, qiymətləndirmə formalarını və meyarlarını seçir, əməkdaşlıq, birgə yaradıcılıq vəziyyətində olurlar. Pedaqoji təsirin "obyektinin" vəziyyətindəki diaqnostik dəyişikliklər seçim və təhsil ayrı-seçkiliyi vasitəsi kimi xidmət etmir.

Təhsilin humanistləşdirilməsi həm də mədəniyyətin müxtəlif sahələrində tərbiyəvi fəaliyyətin gücləndirilməsini, tərbiyə və əxlaq məsələlərinə diqqəti əhatə edir. Təhsilin humanistləşdirilməsi bir insanda ətraf aləmə və özünə, onun öz fəaliyyətinə münasibətin xüsusi faktiki insan formasının formalaşması kimi qəbul edilməlidir. Təhsilə gəldikdə, humanistləşdirmə istehsal dünyasına (geniş mənada) və bu istehsal dünyasında öz peşəkar fəaliyyətinə sırf insani münasibət formasının formalaşması demək olacaqdır. Tədris prosesinin humanitarlaşdırılması həm daxili, həm də xarici məqamlara malikdir. Birincisi, təhsilin humanistləşdirilməsi insanın yaradıcılıq qabiliyyətlərinin inkişafına, onun estetik dünyagörüşünün və reallığa etik münasibətinin inkişafına yönəldilməlidir. İkincisi, humanitarlaşdırma mütəxəssisi işləməli olduğu sosial-mədəni mühiti dərk etmək ehtiyacına yönəltməlidir.Humanitar təhsillə bağlı praktiki tədbirlərdə müəyyən edilməli olan prinsiplərə gəlincə, aşağıdakılar nəzərə alınmalıdır: humanistləşdirmə "zorla deyil", şagirdlərin marağı əsasında aparılmalı və tədris kursunun seçilməsi imkanlarına əsaslanmalıdır; şagirdin şəxsiyyətinə hörmətin artırılması, müəllimlə şagird arasında münasibətlərin dəyişdirilməsi; dərslər təkcə bilik əldə etmə yeri deyil, həm də ünsiyyət vasitəsi olmalıdır; müasir kompüter texnologiyalarının tətbiqi; və s.

Təhsilin humanistləşdirilməsinin dialektik qarşılıqlı əlaqəsi təhsil prosesinin məqsədini şagird şəxsiyyətinin, onun düşüncəsinin, ümumi və metodik mədəniyyətinin hərtərəfli və sərbəst inkişafı üçün obyektiv və subyektiv şəraitin yaradılması kimi müəyyən etməyə imkan verir.

ŞAGİRDLƏRDƏ XARİCİ DİL BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ

Ağazadə L.A.
Bakı Slavyan Universiteti
E-mail: Leylaaghazada18@gmail.com

Bugünkü şagird sabahın uğurlu vətəndaşıdır.Şagirdlərin yaşadığı cəmiyyətə uyğunlaşmaq və gələcəklərini tənzimləmək üçün üçün bir sıra sahələrdə bilik bacarıq və vərdişlərə yiyələnmələri zəruri məsələlərdəndir.Tədris zamanı bu kimi məsələlərin tənzimlənməsi,onların bilik,bacarıq, və vərdişlərə yiyələnmələri üçün qarşılarına bir sıra tələblər qoyulur.Məktəblərdə tədris olunan hər bir fənnin özünəməxsus xüsusiyyətləri,məqsədləri vardır.

Xarici dilə yiyələnən şəxs bu dili öyrənmə prosesində həmin dildə öz fikirlərini,hisslərini ifadə edə,bu dildə ünsiyyət qurma bacarığı əldə edə bilir. Hal -hazırda bir sıra dünya dillərindən müxtəlif məqsədlər üçün istifadə edilir.Lakin ən geniş istifadə edilən və məktəblərdə tədrisinə daha geniş yer verilən xarici dil kimi ingilis dili bir sıra elm və tədris ,texnologiya,beynəlxalq,iqtisadi münasibələr və.s bu kimi müxtəlif sahələrdə hökmranlıq edir.Şagird bir sıra xüsusiyyətlərə sahib olan fərdi şəkildə, fəal inkişaf edən subyektdir. Bu səbəbdən dolayı onlarla öz psixologiyalarına uyğun münasibət qurmaq vacib məsələlərdəndir.Şagirdlərə dərs prosesində xüsusilə xarici dilin tədrisi zamanı onların yaşı,maraqları, mövzunun izahı,ev tapşırıqlanın qeyd edilməsinə, keçirilən dərsin çətinlik və ya asanlıq səviyyələrindən asılı olmayaraq dərs izahı prosesində müəllim bir sıra məqamlara diqqət yetirməlidir. Mövzu şagirdlərə onların başa düşə biləcəyi və asan qavrayacağı bir şəkildə izah olunmalıdır.

Xarici dilə yiyələnmələri şagirdlərin bir sıra bacarıqlarını artırır, millətlər arasında ünsiyyət prosesində xüsusi rolu ilə fərqlənir,həmçinin mədəni əlaqələrin genişlənməsində də rol oynayır. Sinifdə uğur qazanmaları üçün hər bir şagirdə fərdi yanaşılmalsı və onların hansı öyrənmə tipinə malik olduğu anlaşılması və dərs prosesini buna uyğun təşkil edilməsi daha məqsədəuyğun və effktiv nəticə verəcəkdir.Hal-hazırda məktəblərdə xarici dilin tədrisinə təsir edən, şagirdlərin inkişafında mühüm rol oynayan müxtəlif strategiyalardan bəhs etmək mümkündür.İlk növbədə xarici dilin yüksək səviyyədə inkişaf etdirilməsi üçün dildə mövcud bacarıqlar eyni anda inkişaf etdirilməlidir.Nəzərə alsaq ki, ingilis dilini öyrənmək və dildən səlis istifadə edilə bilməsi üçün fərdin bu dildə mövcud olan 4 bacarığa yiyələnməsi əsas məsələdir.İngilis dilini öyrənən şagird bu dildə mövcud olan danışıq, dinləmə, oxu və yazı bacarıqlarını eyni anda inkişaf etdirməyə və dilin tələblərinə cavab verə biləcək şəkildə dilə yiyələməyə çalışmalıdır.Həmçinin müəllimlər bu müddətdə onların bacarıqların ikişaf etdirəcək tapşırıqlarla,üsullarla çıxış edərək şagirdlərin inkişafına

təkan verə bilərlər.Xarici dildə sürətli və axıcı nitqə sahib olan şagird eyni zamanda bu dilin qrammatik qaydalarına və bununla yanaşı yazı, dinləmə,oxu xüsusiyyətlərinə yiyələnməlidir.Nəzərə alsaq ki,orta,sinif otağında dərsə cəlbedici atmosferin yaradılması müəllimin öhdəliyində yer alan əsas amildir, hər birinə ayrıca bir fərd kimi yanaşılması bu kimi bacarıq və biliklərin onlara aşılanmasında müxtəlif üsullar və materiallar,oyunlar, və texnikaların istifadəsi ilə ilə şagirdlərin inkişafı prosesini daha nəzərəçarpan və maraqlı etmək, onları dərs prosesinə cəlb etmək mümkündür.

AZƏRBAYCAN ƏDƏBİ DİLİ VƏ ONUN ÜSLUBLARI

Alıyeva S.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail: alizdesanam501@gmail.com

Dil, ən mühüm ünsiyyət vasitəsi olub insanların bir-birini başa düşməsinə xidmət edir. Dil, onu yaradan və yaşadanlara xidmət etdiyi üçün o dildə danışanların inkişaf edib təkmilləşməsi nəticəsində dil də daima inkişaf edərək dəyişir. Hər bir xalqın özünəməxsus milli dili var. Azərbaycan dili də xalqımızın milli dilidir. Azərbaycan ümumxalq dili ədəbi dil və danışıq dili olaraq iki yerə bölünür. Ədəbi dil dedikdə, ümumxalq dilinin müəyyən qayda-qanunlara və normalara əsaslanaraq öz əksini tapmasıdır. Ədəbi dil özündə hər kəs üçün ümumi və aydın olan əsas əlamətləri ehtiva edir. Zəngin üslubi imkanlara malik olmaq ədəbi dilin mütləq xüsusiyyətlərindən biridir. Dil inkişaf edib təkmilləşdikcə dilin üslubu da dəyişir və püxtələşir. Ədəbi dilin əsas cəhəti onun üslublarla ifadə olunmasıdır.

Üslub nitqlə bağlı olub fikrin, düşüncənin ifadə olunmasına xidmət edir. Tərz, üsul anlamını verən üslub ünsiyyət prosesində fərdin nitqinin düzgün qurulmasını, fikrin düzgün ifadə olunmasını təmin edir. İlk vaxtlar üslub "gözəl nitq", "yazıçı üslubu", "ifadəli nitq" haqqında elm anlamını verirdi. Üslub insan fəaliyyətinin bütün sahələrində özünü göstərirmiş və mühüm rola malik olduğu aşkar olunmuşdur. Nitqin ayrı-ayrı üslubları fərdi-subyektiv üslub daxilində özünü göstərir. Ümumiyyətlə, üslub çox geniş yayılmış bir məfhumdur. Dildə baş verən dəyişikliklər və yeniliklər üslublardan da yan keçmir. Üslubları təsnif edən alim və dilçilər müxtəlif əsasa görə bölgü aparmışlar. Məhz buna görədir ki, bəziləri 3, bəziləri 4, bəziləri 5, bəziləri isə 7 üslub olduğunu qeyd etmişlər.Orta məktəblərdə isə yalnız 5 üslub tədris edilir: elmi, bədii, məişət, rəsmi-işgüzar, publisistik.

Bütün dövrlərdə daha çox inkişaf edən üslub bədii üslub olmuş və olmaqda da davam edir. Kütləviliyi və aparıcılığı ilə bədii üslub digər üslublardan fərqlənir. Bədii üslub digər üslubların xüsusiyyətlərini özündə əks etdirir. Belə ki, yazıçı hər hansısa bir əsəriylə həm elmi, həm məişət, həm də digər üslubları nümayiş etdirə bilər. Əgər yazıçı yazdığı əsərdə terminlərdən istifadə edirsə bu onu elmi üsluba və ya dialekt və şivə xüsusiyyətlərini qoruyub saxlayırsa bu isə onu məişət üslubuna yaxınlaşdırır.Bədii üslubdan sonra isə elmi üslub tədris edilir. Elmi üslub dedikdə elmi əsərlərin dili nəzərdə tutulur. Bu üslubun əsas cəhəti terminlərdən daha çox istifadə olunmasıdır. Tədrisi vacib üslublardan biri də rəsmi-işgüzar üslubdur. Adından da göründüyü kimi bu üslub rəsmi və işgüzar sənədlərin dilidir. Publisistik üsluba gəldikdə bu üslub daha aydın, anlaşıqlı, hər kəsin başa düşə biləcəyi tərzdə olmalıdır. Məişət üslubu isə canlı danışıq üslubu adlanır. Sərbəstlik və təbiilik bu üslubun başlıca cəhəti hesab olunur.

Sadaladığımız bütün bu üslubları öyrənən elm üslubiyyat adlanır. Üslubiyyat elminin öyrənilməsində görkəmli alim və dilçi Ə.M.Dəmirçizadənin misilsiz xidməti olmuşdur. "«Üslubiyyat dildə ifadəlilik vasitələrinin məqsədəuyğun surətdə istifadə edilmə qayda və qanunlarından, xüsusiyyət və əlamətlərindən, ifadə vasitələrinin sistem təşkil etməsi xüsusiyyətlərinə görə formalaşan müxtəlif üslubların əlamətdar cəhətlərindən bəhs edən elmdir»". Ə.Dəmirçizadə üslubiyyata belə bir tərif verərək onun Azərbaycan dilçiliyi üçün xüsusi önəm kəsb etdiyini vurğulayır.

XARİCİ DİLİN TƏDRİSİ ZAMANI XÜSUSİ BACARIQLARIN İNKİŞAFI

Alvasova Y. V.
Bakı Slavyan Universiteti
E-mail: duyqu8585@mail.ru

Ümümiyyətlə tədris prosesi zamanı idarə etmə ilk öndə gələn lazimi bacarıqlardan hesab olunur. Burada tədris edən sinif auditoriyasının idarə etmək bacarığının olması əsas amil hesab olunur. Bu

bacarıqların inkişafı hər zaman ön planda olur. Xarici dilin tədrisi və həmçinin digər fənnlərin tədrisində bu müəllimin əsas səriştəsi hesab edilir. Tədris zamanı məzmunu, forma və metodları tətbiq etməyi zəruri edir. Öyrənmənin nəzəriyyəsin metodikasinin aspekti kimi misal versək o ilk olaraq lnqvodidaktika olar. Daha sonra onu genişləndirmək baxımından qeyd etsək ordada mütləq linqvistik şəxsiyyətin izahlı təsvirin verməliyik. Fəaliyyət şəraitini, linqvistik şəxsiyyətin formalaşmasını elmi izahini intizamını təsvir edərək müəyyən edir. Tədris zamanı mütəlif texnika, metod, tədrisin istiqamətlərinin köməyi ilə əldə edilir və öyrənilən dilin tədrisi öncədən planlaşdırılır. Təlim sisteminin əsas məqsədləri tədris zamanı onun qarşıya qoyulan komponentlərindəndir. Tədris vasitələrinin seçiminə əsasən onun məzmunu, formaların, metodların, təsiri göstərirlər. Xarici dilləri öyrədilməsi təhsilin məqsədləri cəmiyyətin inkişafının müəyyən bir dövründə onun üzvlərinin obyektiv ehtiyaclarının əksidir desək daha doğru olardır. Məsəl üçün:

1. Praktik istifadə - öyrənənlərin dilin ünsiyyət vasitəsi kimi mənimsənilməsi, həmçinin bir sıra ümumi təhsil bacarıqlarının (kitabla işləmək, öz fikirlərini məntiqli və ardıcıl ifadə etmək, özlərinə qeydlərini aparmaq, ikt texnologiyalarından istifadə etmək bacarığı kimi formalaşdırılması. Qeyd olunmuş parametrlərdə əcnəbi dilin mənimsənilməsinin effektivliyinin təmin edilməsi hesab edilir. Nəticə etibarı ilə, ingilis dilinin praktiki istifadə məqsədi təlim prosesində əldə edilmiş ünsiyyət qabiliyyətindən daha geniş başa düşülür, həm də dilin mənimsənilməsi prosesini təmin edən və stimullaşdıran texnoloji xarakterli bilik, bacarıq və bacarıqları əhatə edir.

2. Ümumilikdə təhsil – təhsil alanın ümumi anlamda mədəniyyətini təkmilləşdirmək, onların geniş miqyasda dünyagörüşünü genişləndirmək, hədəf qoyulan xarici dilin ölkəsi və dilinin vasitəsilə bütövlükdə onları əhatə edən dünya haqqında biliklər əldə etmək üçün öyrənilən dildən istifadəni nəzərdə tutur. Bu məqsədə dərsdə istifadə olunan mətnlərin təhlili, şagirdlərlə söhbət, aktual problemlərin müzakirəsi zamanı nail olunur. Qarşıya qoyulan tədris planına əsasən öyrənilən materialların bazasının əhəmiyyətinə nail olmaq öyrənənlərin məntiqi təfəkkürünün (planın, tezislərin tərtib edilməsi), ünsiyyət mədəniyyətinin, zehni iş üsullarının (kitabla işləmə, istinad ədəbiyyatı) inkişafına kömək edən amillərdəndir. Ümumilikdə təhsil qarşıya qoyulan məqsədinə nail olmaq tələbələrin regional və linqvistik və mədəni biliklərə yiyələnməsini nəzərdə tutur.

3. Təhsil - təhsil alanın öz dilində danışanlarının və mədəniyyətinə münasibəti ilə öyrənilən dilə, bu dildə danışan insanlara, onun mədəniyyətinə hörmətli və xeyirxah münasibətin formalaşmasını nəzərdə tutur və beynəlxalq əməkdaşlıq kontekstində xarici dilin öyrənilməsinin vacibliyini dərk etməklə yanaşı, mənəvi dəyərlər və dünyaya münasibət sistemləri seçərək,aktiv həyat mövqeyini genişlədərək ədalət hisslərini, məsuliyyətni, ətrafdakı insanlara hörmətni, işə vicdanlı münasibətini artırır. Bu məqsədlə tədris olunan xarici dillərdə mətnlərin oxunması və müzakirəsi, söhbətlər, anadillilərlə görüşlər, ekskursiyalar zamanı həyata keçirilir.

4. İnkişaf edən - əcnəbi dilin mənimsənilməsi prosesində tələbələrin dil və nitq bacarıqlarının inkişafını nəzərdə tutur (təxmin etmək bacarığı, dil hissi, kompensasiya bacarıqları); nitq fəaliyyəti ilə əlaqəli zehni funksiyaların inkişafı (yaddaş növləri, şifahi və məntiqi təfəkkür, duyğular, şəxsiyyət fəaliyyəti); xarici dil və mədəniyyəti daha da mənimsəmək üçün motivasiyanın inkişafı.

EPİK ƏSƏRLƏRİN KOMPOZİSİYA QURULUŞUNUN TƏDRİS PROSESİNDƏ MÜƏYYƏN EDİLMƏSİ VƏ ŞAGİRDLƏRƏ ÖYRƏDİLMƏSİ

Axundova S.İ.
Bakı Slavyan Universiteti
E-mail: Axundova.sona99@gmail.com

Orta məktəb proqramında yer almış əsərlərin əksəriyyətini epik janrda olan əsərlər təşkil edir. Epik əsərlərin kompozisiya quruluşunun şagirdlər tərəfindən mənimsənilməsi əsərin süjetini, yazıçının əsər vasitəsi ilə bildirmək istədiyi əsas məqsədin, əsərin mövzu və ideyasının qavranılmasına köməklik edir. Bədii əsərdə bütün komponentlərin qarşılıqlı əlaqəsi kompozisiya bütövlüyünü, əsərdəki həyatiliyi, ədəbi uğurları təmin edən başlıca cəhətdir. Bədii əsərin kompozisiyasında heç bir bədii funksiyanın yerinə yetirməyən hissə olmamalıdır. Kompozisiya əsərin süjetini təşkil edən hissə və ya epizodların zaman və məkana görə düzülüşü kimi də başa düşülə bilər.

Epik romanlarda və dram janrında yazılmış əsərlərdə hadisələrin tamamlanması, düyünün və konfliktin açılması kompozisiyanın başlıca elementini təşkil edir. Hadisələr elə düzülməli, epizodlar elə ardıcıllıqla gəlməlidir ki, sonuncu epizodda hadisə də, qəhrəmanların taleyə də, konflikt də bitsin, yekun

nəticə əldə olunsun. İri romanlarda kompozisiya düzmək daha mürəkkəbdir. Belə əsərlərdə hadisələr iki, üç və bəzən daha artıq xətt üzrə inkişaf edir. Ona görə də orta məktəb proqramında iri həcmli əsərlərin təhlilinə saat çox ayrılmışdır.

Orta məktəb proqramında şagirdlər ədəbiyyat nəzəriyyəsində işlənən kompozisiya termini haqqında VIII sinif "Ədəbiyyat" dərsliyində məlumat əldə edirlər. V-VII siniflərdə kompozisiya termini işlənmir və kompozisiya quruluşunu müəyyən etmək üçün əsərin planı tərtib olunur. Müəllim şagirdlərə planın tərtib olunmasında istiqamət verir, mətni hissələrə ayırır. Məsələn, V sinif dərsliyində Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasına daxil olan " Kərpickəsən kişinin dastanı" əsərinin kompozisiya planı aşağıdakı şəkildə qurula bilər: Kərpickəsən kişinin əməksevərliyi; Oğlanın qoca kişini töhmətləndirməsi; Qoca kişinin cavabı; Gəncin peşmançılığı; Müəllifin qoca kişiyə verdiyi dəyər.

VIII sinifdən etibarən kompozisiya termininin mahiyyəti şagirdlərə aydınlaşdırılır və əsərlərin kompozisiya quruluşunu müəyyən etməni öyrənirlər. Nümunə kimi VIII sinif "Ədəbiyyat" dərsliyində verilmiş C.Məmmədquluzadənin "Qurbanəli bəy" əsərinin kompozisiya quruluşunun təhlilinə diqqət yetirək. VIII sinif dərsliyinin "Tənqidi realizm və romantizm" başlıqlı bölməsinə aid olan bu əsərin tədrisinə 3 saat vaxt bölgüsü ayrılmışdır. " Əsərin təhlilinə hazırlaşın" başlığı adlı altında verilmiş materialda kompozisiya və kinayə anlayışları izah olunmuşdur. Tədris prosesi fəal təlimin tələblərinə əsasən təşkil olunduğu üçün şagirdlərin fəallığı və müəllimin istoqamətləndirici sualları əsasında şagirdlər bu anlayışları öyrənirlər. Fəal dərsin tələbinə uyğun olaraq dərsin mərhələlərində şagirdlər müəyyən süjet üzrə inkişaf edən əsərin hissələrini təhlil edirlər. Müəllim ilk öncə şagirdlərə kompozisiya quruluşunu izah etməli, onun ünsürləri olan ekspozisiya, zavyazka, kulminasiya, razvyaxka və digər ünsürləri qısa şəkildə izah etməlidir. Müəllim bu materialın müstəqil oxusunu təşkil edərək şagirdlərə əlavə məlumat verməklə kompozisiya anlayışının şüurlu və möhkəm qavranılmasına çalışır. Kompozisiyanın ünsürlərini sadalayaraq o, şagirdlərin əsərin təhlilində bu ünsürlərlə tanış olduğunu göstərir. Məsələn, Məmmədquluzadənin "Qoqol, Allah sənə rəhmət eləsin" epiqrafı ilə "epiqraf" anlayışının mahiyyətinin anlaşılmasına nail olur. Müəllim: "Hekayə hansı bədii xüsusiyyətlərinə görə diqqəti cəlb edir?" sualını şagirdlərə ünvanlayaraq süjet və kompozisiya xüsusiyyətlərini nəzərə almaqla əsərin təhlilinə köməklik göstərir. Nəticədə şagirdlər əsərin ümümi ideyası, mahiyyəti ilə yanaşı müəllifin maraqlı süjetə və bitkin kompozisiyaya malik əsər yaratdığının şahidi olurlar

NAĞIL VƏ ƏFSANƏLƏRİN TƏDRİSİNDƏ MÖVZU VƏ MƏZMUN XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

Axundova S.İ.
Bakı Slavyan Universiteti
E-mail: Axundova.sona99@gmail.com

Azərbaycan xalqının yaratdığı şifahi söz sənətinin mühüm bir qolunu epik folklor təşkil edir. Epik folklor nümunələrinin məzmunu öz həyatiliyi, xəlqiliyi ilə seçilir. Bu əsərlərdə xalqın həyatı, məişəti, arzu və istəkləri, mübarizəsi, onu düşündürən məsələlər öz bədii əksini tapır. Həmin əsərlərdə xalq üçün əhəmiyyətli olan mətləblər – mühüm tarixi hadisələr, xalqın gündəlik qayğıları, azadlıq, haqq, ədalət uğrunda mübarizəsi, adət-ənənələri, ailə-məişət münasibətləri işıqlandırılır. Bu əsərlərin qəhrəmanları da əksər hallarda xalq nümayəndələri olan sadə insanlardır. Epik növün ən qədim və çox yayılmış janrlarından əfsanələr xalqın əski dünyagörüşü, düşüncə tərzi, arzu və istəkləri ilə bağlı surətdə yaranmışdır. Əfsanələri epik növün başqa janrlarından fərqləndirən ən mühüm əlamət onlarda real zəmindən kənar, müasir ağlın, düşüncənin uydurma, fantastika kimi qəbul etdiyi qeyri- adi, fövqəltəbii əhvalat və hadisələrin təsvir olunmasıdır. Əfsanələrdə insan asanlıqla quşa, heyvana, səma cisimlərinə çevrilir, dağlar, çaylar, güllər, çiçəklər dil açıb danışır, Tanrı öz bəndəsinin səsini eşidib, dərhal onun istədiyini yerinə yetirir və s.

Orta Məktəb proqramında epik folklor nümunələrinə "Şifahi xalq ədəbiyyatı" bölməsində yer ayrılmışdır. V-VI siniflərdə əfsanə, rəvayətlər, nağıl, təmsil, dastan və s. epik folklor nümunələri tədris olunur. Müəllim bu nümunələri tədris etməzdən öncə şifahi xalq ədəbiyyatı haqqında şagirdlərə ibtidai siniflərdə mənimsədikləri bilikləri xatırlatmalıdır. V sinif "Ədəbiyyat" dərsliyində şagirdlər "Ana maral əfsanəsi ilə tanış olurlar. Əfsanəsin təhlili üzrə iş saatında şagirdlər müəllimin köməyi ilə onun mövzusunu aydınlaşdırmağa çalışırlar. Əfsanədə ifadə olunmuş başlıca fikiri müəllimin istiqamətləndirici sualları ilə müəyyən edə bilərlər.

Epik folklorun ən qədim janrlarından olan nağıllar bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. Nağılda bütün hadisələr əsas qəhrəmanla bağlı olur. Bu qəhrəman əksər hallarda ideallaşdırılır. Nağılın

müsbət qəhrəmanı qarşılaşdığı bütün çətinlikləri dəf edir, şər qüvvələrə qalib gələrək əsərin sonunda öz arzusuna çatır. Nağıllarda geniş epik lövhələr, dramatik gərginliklər, hadisələrin dinamik inkişafı, insana xas olan xüsusiyyətlərin əşya və heyvanlar üzərinə köçürülməsi, şəxsləndirmə, fantastika elementləri, nikbin sonluq mühüm yer tutur. Nağıllarda çox zaman dəhşətli, qeyri-adi, sirli hadisələrdən söz açılır, əhvalatlar macəra səciyyəsi kəsb edir.Nağıllarda hadisələr sürətlə cərəyan edir, onları ləngidən təbiət və məişət təsvirlərinə geniş yer verilmir, əsas diqqət hadisələrin dinamik inkişafda təsvirinə yönəldilir. Bu janrda olan əsərlərdə qeyri – adi hadisələrin təsviri, fantaziya, bədii uydurma geniş yer tutsa da, həmin hadisələr real varlığa uyğun olur, inandırıcı mahiyyət kəsb edir. Məlum olduğu kimi, nağılların mövzusuna görə üç növü var: sehrli, məişət, heyvanlar haqqında nağıllardır. Bu növlərin hər birinin öz süjet xətti, qəhrəmanları, bədii xüsusiyyətləri, üslubu vardır.

V sinif "Ədəbiyyat" dərsliyində "Yetim İbrahim" nağılının tədrisinə 2 saat vaxt ayrılmışdır. Şagirdlər mətin üzərində iş dərsində nağılın mövzunu müəllimin tərtib etdiyi plan əsasında hansı növə aid olduğunu tapırlar. Məzmun üzrə iş apararkən müəllim nağılı hissələrə bölür və hissələr şəklində əsərin məzmunu mənimsənilir. İbrahim həyatda şər qüvvələrə qarşıdır, onlarla vuruşur. Nağıl yaradıcılarına görə, bütün şər qüvvələr və pisliklər yer üzündən silinməlidir. İnsanlara bəla gətirən bu qüvvələr kimliyindən asılı olmayaraq yox edilməlidir. Şagirdlər müəllimin istiqamətləndirici sualları və göstərişləri ilə belə nəticəyə gələrək əsərin mövzusunu anlaya bilərlər.

I-IV SİNİF MÜASİR ANA DİLİ DƏRSLİKLƏRİNİN QARŞISINA QOYULAN TƏLƏBLƏR

Babayeva R.S.
Bakı Slavyan Universteti
E-mail:rugayya.babayeva99@mail.ru

Müasir dövrdə dərsliklərin hazırlanmasına verilən tələblər dəyişmiş, dərsliklərin tərtibi yeni istiqamətdə inkişaf etməyə başlamışdır. Bunları nəzərə alaraq I-IV sinif Azərbaycan dili dərsliklərinin hazırlanması yeni tələblər əsasında təşkil edilmiş, dərsliklərin müasir tələblərə cavab verməsi zəruriliyi diqqət mərkəzində saxlanılmışdır. Müasir Azərbaycan dili dərsliklərinin hazırlanmasında aşağıdakı tələblər əsas meyar hesab olunur:

1. Həyati bacarıqların formalaşdırılması üçün dərsliklərə dilçilik elminin ən son nailiyyətlərinin gətirilməsi. Azərbaycan dili dərsliklərinin tərtibində elmilik zəruri prinsiplərdən hesab olunur. Lakin bu o demək deyil ki, dərsliklərdə sadəcə elmi əsaslı materiallara yer verilməlidir. Dərsliklər bütövlükdə nəzəri anlayışlar toplusuna çevrilməməlidir. I-IV sinif Azərbaycan dili dərslikləri ilə yanaşı metodik vəsait və iş dəftərləri də hazırlanır ki, bu da müəllim üçün metodik vəsaitdə lazım olan zəruri elmi materialların verilməsinə şərait yaradır. Müəllim üçün metodik vəsaitdə tapşırıqlar, onların həlli qaydası, şagirdlərə izah edilməsi forması aydın şəkildə əks etdirilir.

2. Azərbaycan dili dərsliklərinin istiqamətləndirici məzmuna malik olması. Dərsliklər tədris vahididir və buna görə də hər bir dərslik informasiya vermək xüsusiyyətinə malikdir. Lakin müasir dövrdə informasiya mənbələri çox olduğundan dərsliklər daha çox istiqamətləndirici olmalıdır. Bu tələbə əsasən informasiyalar içərisindən daha zəruri olan biliklər dərsliklərdə öz əksini tapmalıdır. Azərbaycan dili dərsliklərindəki materiallar, mətnlər, qaydalar, tapşırıqlar hazırlanarkən sistemli və ardıcıl surətdə lazımı biliklər təqdim edilməlidir. Dərsliklər şagirdlərdə dərsə maraq, motivasiya oyadan məntiqi istiqamətə əsasən tərtib edilməlidir.

Araşdırmalar onu göstərir ki, problemin həllində 2 istiqamət əsas götürülür. Onlardan birincisi budur ki, dərsliklərdəki tapşırıqlar şagirdlərin yaş səviyyəsinə uyğun oyun elementlərindən təşkil olunsun. İkinci qisim tətqiqatçılar isə belə düşünür ki, dərsliklər şagirdlərin idraki bacarıqlarının, təfəkkürünün inkişafına yönəlmiş tapşırıqlarla zənginləşdirilsin.

İlkin irəli sürülən fikrə təhsilin bütün səviyyələrində riayət etmək mümkün deyil. Doğrudur, şagirdlərin dərsə marağını cəlb etməkdə oyun elementli tapşırıqların əvəzsiz rolu vardır. Ancaq bu qayda daha çox I-IV sinif Azərbaycan dili dərslikləri üçün uyğun olardı. Çünki şagirdlərin yaş səviyyəsini nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, yuxarı sinif şagirdləri üçün dərsin oyun tapşırıqları üzərində təşkil olunması onların yaş və idrak inkişafına bir o qədər də uyğun deyildir. İkinci qisim yanaşma isə özünü ona görə doğrulda bilmir ki, bu fikrə əsasən dərsliklərdəki tapşırıqlar idraki bacarıqların formalaşmasına yönəlməlidir. Belə olan təqdirdə şagirdlərin məntiqi və yaradıcı təfəkkürünün inkişaf etdirilməsi arxa planda qalır. Ona görə də I-IV sinif Azərbaycan dili dərslikləri hazırlanarkən həm şagirdlərin marağını, diqqətini

dərsə cəlb etmək üçün oyunlardan istifadə edilməli, həm də onların tənqidi, məntiqi, yaradıcı təfəkkürünün inkişafına yönəlmiş tapşırıqlardan istifadə olunmalıdır.

3. Azərbaycan dili dərsliklərinin inteqrativlik xüsusiyyətinə malik olması. Azərbaycan dili dərslikləri hazırlanarkən diqqət olunmalı məqamlardan biri də dərslikdəki praktiki tapşırıqlarla nəzəri materialların bir-biri ilə əlaqədar olmasıdır. Eyni zamanda Azərbaycan dili dərsliklərindəki biliklər başqa fənlərlə və müxtəlif siniflər üzrə Azərbaycan dili dərslikləri ilə əlaqəli formada təşkil olunmalıdır.

4. Azərbaycan dili dərslikləri ədəbi dilin normalarına uyğun formada təşkil olunması. Burada ədəbi dilin norma və üslubları gözlənilməklə materiallar qeyd edilməlidir.

5. I-IV sinif Azərbaycan dili dərsliklərindəki materialların şagirdlərin nitqinin inkişafına təkam verməsi. Çalışılmalıdır ki, dərslikdə yer almış mətn və tapşırıqlarda şagirdlərin nitqinin, lüğət ehtiyatının zənginləşdirilməsi nəzərə alınsın.

6. Dərsliklərin şagirdlərdə axtarış aparmaq, tədqiqatçılıq, sərbəst düşünmə bacarıqlarını formalaşdırması.

7. Dərsliklərdə milli və ümumbəşəri dəyərlər, azərbaycan xalqının milli adət-ənənəsi, milli-mənəvi keyfiyyətləri, bayram və əlamətdar günləri, qan yaddaşı haqqında materiallara yer verilməsi.

THE MAIN OBSTACLES IN THE DEVELOPMENT OF AN INCLUSIVE EDUCATION SYSTEM IN AZERBAIJAN

Badalova K.V.
The Academy of Public Administration under the President of the Republic of Azerbaijan
E-mail: Konul.badalova@edu.gov.az

Introduction. In some nations, inclusive education is confined to addressing the needs of disabled children (Ainscow, 2005). It is important to remember, however, that inclusion attempts to eliminate social exclusion, which might occur as a consequence of shifting views about race, ethnic origin, religion, socioeconomic status, aptitude, or gender (Vitello and Mithaug, 1998). This is the primary concern of our educational system in the modern day.

Inclusive education is becoming a more prominent topic of discussion in Azerbaijan. For a long period, Azerbaijan's CWD (Children with disabilities) education was modeled after that of the Soviet Union (CIE, 2009). Historically, however, CWD, like other disabled folks, were seen as helpless beings in constant need of love and care from others. Keeping them apart from the rest of the class is one of the key shortcomings. I can assure you that we have progressed beyond the integration era in inclusive education. The word "integration" refers to the process through which children with special needs are transitioned from special schools to general education settings (Thomas, 2005). The first obstacle is acclimating pupils to the classroom setting and school environment, as well as locating qualified specialists who can teach them the academic process in mainstream schools.

Problem. Although the Azerbaijani society's attitude toward CWD is favorable, this optimism does not go far from established classifications and stereotypes (UNICEF, 2011). According to a survey on the issue, the clear majority of parents and teachers support both the education of children with disabilities and their participation in inclusive classes (CIE, 2009).

The most often cited disagreement concerns CWD graduation examinations. These examinations are given at the end of the ninth and eleventh years of compulsory schooling. The examination material is not customized to the needs of persons with CWD in any way. Simultaneously, no assistance is provided in organizing test assignments or orienting applicants to testing locations. The examination rooms are inaccessible to disabled persons. These buildings lack ramps, elevators, audio signals, and visual signs for those who have difficulty walking, hearing, or seeing.

The purpose of this study is to analyze the factors that contribute to teachers and administrators in schools that implement inclusive education struggling to deal with their new commitments connected to inclusive practices and to define their vision for its future. In other words, this study examines teachers and school administrators in their natural habitats while taking into account their interpretations of prior experiences. The study seeks an insider's perspective, that is, how things are, not how they should be. As a result, qualitative research methodologies are better appropriate for this study.

Conclusion and Recommendation. The Ministry of Education of the Azerbaijan Republic produced the "State Program on the Development of Inclusive Education in the Azerbaijan Republic 2018-2024," which intends to implement and promote inclusive education across the nation. Despite the fact that four years have passed since the state program was implemented, the majority of the issues listed above remain. As a result, the following advice will assist Azerbaijan in overcoming the following obstacles:

• **Legislation** - The education sector is controlled by two key pieces of legislation: the Education Law and the Special Education Law. Both books fall short of covering inclusive education, which should be included.

• **Restructuring the workforce** - All pedagogical specializations should include inclusive education.

• **Academic foundation and training** - Teachers and instructors should be educated and informed of successful foreign examples of inclusive education.

• **Society** - Parents do not want their impaired children to attend lessons with their other children. This is seen as impeding the educational process. To alter people's mindsets, awareness of inclusive education should be raised.

• **Technology infrastructure** - Almost all educational institutions should practice inclusive education, and its technical infrastructure should be computationally advanced and contemporary to facilitate learning for impaired individuals.

• **Monitoring and inspection** - Several governmental entities should monitor and inspect to ensure that responsible parties carry out all of these tasks.

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA ƏDƏBİYYATDA QARABAĞ MÖVZUSU: ƏLİRZA HƏSRƏTİN "BARIT QOXULU ÇİÇƏY"İ

Bayramova A.N.
Bakı Slavyan Universiteti
E-mail: aygün.bayramova.95@list.ru

Taleyüklü milli problemimiz olan Qarabağ mövzusu müstəqillik əldə etdikdən bu yana bütün yazıçı və şairlərin yaradıcılığının əsas mövzusu olmuşdur. Qarabağ dərdi, milli dərdimiz, hər bir yazıçının, şairin torpaqlarımız işğaldan azad olunana qədər öz yaradıcılığında ən aydın şəkildə ifadə olunmuşdur .

Aqil Abbasın "Dolu", Hüseynbala Mirələmovun "Dağlarda güllə", Nüşabə Məmmədlinin "Zəng", Fazil Güneyin "Qara qan" romanları, Sabir Əhmədlinin "Qarabağ" trilogiyası; "Ölümdən sonrakı sevgi", "Kef", "Ömür ümidi", Elçin Hüseynbəylinin "Məhkumlar" hekayəsi, Şərif Ağayarın müstəqillik dövrünün nəsrindəki "Şəkil" hekayəsi, "Xocalı simfoniyası" Nurəngiz Gün, "Dərdimizin qanı" " Ədalət Əsgəroğlu, Cabirin "Şuşa yolu", Ələmdar Quluzadənin "Şəhid Şəhər", Ələkbər Salahzadənin "Xocalı Hacılı" şeirləri Qarabağ mövzusunda yazılmış ən yaxşı əsərlər sırasındadır. Bu əsərlərdə aparıcı olan Qarabağ mövzusu, vətən həsrəti ən ağrılı şəkildə öz poetik ifadəsini tapmışdır.

Birinci Qarabağ müharibəsindən İkinci Qarabağ müharibəsi arasındakı 30 ilə yaxın bir müddətdə əsərlərimizin əsas mövzusunu Qarabağ dərdi, vətənpərvərlik, torpaq itkisinə dözümsüzlük təşkil etmişdir.

2020-ci il sentyabrın 27-də Qarabağın azadlığı uğrunda Vətən müharibəsinin başlanması Azərbaycan xalqının milli hisslərini daha da alovlandırdırmışdır. Azərbaycan xalqı Vətən Müharibəsinin ilk günündən Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında "dəmir yumruq" kimi birləşərək Vətənin işğaldan azad edilməsinə yollanmışdır. Xalq və dövlət "dəmir yumruq"la birləşərək qələbə yolunda əzm və iradə nümayiş etdirmişdir.

Hər bir vətəndaş; əlində tapança, əlində qələmlə mülki missiyasını yerinə yetirirmişdir. Xoşbəxtlikdən, 30 ildir davam edən Qarabağ problemi 44 günlük müharibənin sonunda Ali Baş Komandan İlham Əliyevin və qüdrətli Azərbaycan ordusunun əzmi və iradəsi, qanı və canı bahasına qələbə ilə başa çatmışdır.

Şuşanın azad olunmasını "Şuşa yolu" poemasında Şuşa dərdini ən ağrılı şəkildə qələmə alan xalq şairimiz Cabir Novruzun ruhu qələbədən sonra şad olmuşdur. Təkcə şair və yazıçılarımız deyil, şəhidlərin ruhu da dincəlmişdir. Bu parlaq qələbədən ruhlanan Azərbaycan yazıçı və şairləri Qələbə haqqında gözəl əsərlər yazmağa başladılar.

Yazıçıların əlindəki qələmlər artıq dərddən, kədərdən, torpaq həsrətindən yox, Vətənin azadlığından, qələbə sevincindən yazır. Bu təbii bir haldır. Qələmin missiyası silahla qazanılan qələbəni, arzumuzun gerçəkləşməsini ədəbiyyatda əks etdirməkdir. Azərbaycan yazıçı və şairləri 30 il arzusunda olduqları Qələbə sevincini dadıb, yenidən arzuladıqları diyarla qovuşaraq yazıya köklənib, dəyərli, zəfər dolu əsərlər yazıblar.

Xalq şairi Sabir Rüstəmxanlının "Qarabağa qayıdış", Balayar Sadiqin "Zəfər simfoniyası", Kamran Nəzirlinin "Sevimli xatirəm" hekayəsi, Əlirza Xasrətin "Barıt qoxulu çiçək" və s. Bütün bu əsərlər xalqımızın yüksək qürur hissinin təcəssümüdür.

Müasir poeziyamızda özünəməxsus yeri olan, öz üslubunu formalaşdıran şairlərdən biri də Əlirza Həsrətdir. Əlirza Həsrət artıq vətənindən yazmır. Qalib xalqın şairi şanlı ordumuzun 44 günlük Qələbəsindən ruhlanır. Bu hisslərlə şairin "Barıt qoxulu çiçək" lirik-fəlsəfi poeması qələmə alınmışdır. Şeirin proloqundan başlayaraq Vətən Müharibəsinin başladığı günü, şairin müharibə illərində sevinc və kədər yaşadıqlarını hiss edirik. Şair əsərdə vurğulayır ki, 44 günlük müharibədən sonra dünyaya göz açan Zəfər hətta Füzuli, Nizami kimi ustadların da ruhunu sevindirib.

Füzuli artıq göz yaşı içində deyil, doğulduğu torpaq düşmən pəncəsindən azaddır. Şeirdə Tovuz döyüşlərinə toxunan şair Vətən müharibəsinə başladığımız zaman Tovuz döyüşlərinin əsl müharibəmizin ilk qığılcımı olduğunu, şəhidliyi ilə bütün Azərbaycanı dərindən kədərləndirən igid sərkərdəmizin şəhid olmasını poetik şəkildə ifadə edir .

Vətənimizin mərd, qeyrətli övladlarına müraciət edən şair Qarabağın işğaldan azad edilməsinin vaxtının yetişdiyini, müqəddəs bayrağımızın Şuşada dalğalanmasının vacibliyini bildirmişdir. Şair özünə dönüb bu Qələbə haqqında yazmağa hazır olduğunu bildirmişdir. Böyük Vətən Müharibəsində böyük şücaət göstərən, adətən müharibə simvoluna çevrilən cəsur artilleriyaçı Vüsal Şahkərimov şairin poetik ruhu kimi hamını heyrətə gətirmişdir.

ƏDƏBİ ƏSƏRLƏRİN ORTA MƏKTƏB ŞAGİRDLƏRİNƏ MƏNİMSƏDİLMƏSİ

Bədəlova K.F.
Bakı Slavyan Universiteti
E-mail: konulbadalova099@gmail.com

Ədəbiyyat kursunun qarşısında duran əsas məsələlərdən biri də ədəbi əsərlərin şagirdlərə düzgün şəkildə mənimsədilməsidir. Bunun üçün həmin əsərlərin özü ilə yanaşı, onunla bağlı aparılan araşdırmalar da nəzərə alınmalı və şagirdlərə paralel şəkildə hər tərəfli olaraq öyrədilməlidir.

Orta məktəblərdə ədəbiyyat proqramının əsas hissəsini ədəbi əsərlər təşkil edir. Bu əsərlərin tədrisi zamanı müəllim qarşısına qoyduğu vəzifələri yerinə yetirir. Bu vəzifələr – şagirdlərdə ünsiyyət bacarığının formalaşdırılması, söz ehtiyatının artırılması, düşüncə qabiliyyətinin inkişaf etdirilməsi, şifahi və yazılı nitq bacarıqlarının mənimsədilməsi, mənəvi aləminin zənginləşdirilməsi, nəticəyönümlü düşüncənin inkişafı və sairdir. Orta məktəblərdə şagirdlərə əsərlərin birbaşa özünün mənimsədilməsilə paralel olaraq, həmin əsərin dili ilə bağlı məqamlar da öyrədilməlidir. Buna əsərin məzmunu, istifadə olunan dil vasitələri, qəhrəman və obrazları və digər komponentlər daxildir. Bununla bərabər, əsərin yazıldığı dövr, yazıçının dünyagörüşü, aşılamaq istədiyi məqamlar şagirdlərin nəzərinə çatdırılmalıdır. Müəllim əlavə olaraq bu məqamları şagirdlərə çatdıraraq onları müstəqil araşdırmaya cəlb etməlidir.

Ədəbi əsərlərlə biz şagirdləri ideal bir şəxsiyyət kimi yetişdirə bilərik. Hər bir əsərin öyrədilməsində ədəbiyyat fənninin bu özünəməxsusluğundan məqsədyönlü şəkildə istifadə edilməlidir. Ədəbi əsərlər mənimsədilərkən orada istifadə olunan dil vasitələrinin təhlil olunması şagirdin dil biliklərinin möhkəmlənməsinə də təsir edir. Buna görə də, əsərlərin təhlili zamanı müəllim çox diqqətli olmalı, şagirdlərdə yaranan sualları bacardıqca cavabsız qoymamalıdır. Məsələn, hər hansı dram əsərinin təhlili zamanı şagird orada işlədilən varvarizmləri, vulqarizmləri, frazoloji ifadələir, tarixizmləri, arxaizmləri və s. müstəqil şəkildə aşkarlayaraq dilin leksikası, yazıçının istifadə etdiyi cümlə qəliblərini, məqsəd və intonasiyaya görə hansı növlərinin işlədilməsini araşdırarkən dilin sintaksi ilə bağlı öyrəndiklərini paralel şəkildə tətbiq etmiş olur. Həmçinin tarixi bir əsər təhlil olunarkən ədəbi əsərin özü ilə yanaşı həmin əsərdə adı çəkilən tarixi hadisələrin qeyd olunduğu düzgün mənbə də şagirdlərin nəzərinə çatdırılmalıdır. Bu, şagirdlərin əsəri oxuyarkən paralel şəkildə tarixi biliklərini möhkəmləndirilməsinə kömək edəcək və onlarda müstəqil araşdırma bacarıqlarını formalaşdıracaq.

Belə bir nəticəyə gəlmək olar ki, ədəbi əsər şagirdlərə öyrədilərkən yazıçının təkcə bir əsəri ilə kifayətlənməmək lazımdır. Bu, şagirdə yazıçı və həmçinin yazıçının yaşadığı dövr haqqında müəyyən təsəvvür yaratmağa imkan verəcək. Müəllim hər hansı əsəri tədris edərkən yazıçının yazmış olduğu digər əsərlərin adını da qeyd etməlidir. Fikrimcə, bu həmin yazıçı haqqında şagirdlərdə maraq oyadacaq, müstəqil araşdırma və mütaliə bacarıqlarının inkişafına dəstək olacaq. Düşünürəm ki, orta məktəb dərsliklərində böyük həcmli əsərlərin ixtisarla verilməsi də düzgün deyil. Bu, həm əsər haqqında şagirdlərdə dolğun

təsəvvür yaranmasına mane olur, həm də yazıçının qeyd etmək istədiyi bütün məsələrin oxucuya çatdırılmasının qarşısını alır. Bəzən isə bu ixtisarla verilən əsər parçaları sadəcə müəyyən tapşırıqları yerinə yetirmək məqsədi güdür və şagirdlərin əsər mütaliəsinə olan maraqlarına mənfi təsir edir. Bunun yerinə dərs saatları daha məqsədyönlü işlənib əsərlərin tam şəkildə şagirdlərə mənimsədilməsinə çalışmaq olar. Həm dərsin daha maraqlı və məqsədyönlü qurulması üçün, həm də əsərlərin düzgün çatdırılması üçün onların bütün hissələri şagirdlərə oxudulmalıdır və həmçinin sinifdənxaric oxulara da mümkün qədər çox yer verilməlidir. Digər bir məqam da dünya ədəbiyyatına çox yer verilməməsidir. Öncəlik öz yazıçılarımızın əsərləri olsa da dünya klassiklərinin əsərləri də yaş səviyyəsi nəzərə alınaraq dərsliklərə kifayət qədər salınmalı və hər tərəfli şəkildə şagirdlərə mənimsədilməlidir. Bununla belə, vətənpərvər bir şəxsiyyət yetişdirmək üçün son dövrün aktual məsələsi olan "II Qarabağ müharibəsi" ilə bağlı əsərlərin də dərsliklərdə kifayət qədər çox yer alması mütləqdir.

BÖYÜK YAŞ VƏ HAZIRLIQ QRUPLARINDA VAXT HAQQINDA TƏSƏVVÜRÜN FORMALAŞDIRILMASI

Cabbarlı R.E.
Bakı Slavyan Universiteti
E-mail: reshadjabbar@gmail.com

Uşaqlar lap kiçik yaşlarından müəyyən riyazi anlayışlarla tanış olurlar. Zaman,kütlə,məsafə və s. bu kimi sadə təsəvvürlər uşaqların ilkin qavradığı riyazi anlayışlardır. Riyaziyyat elementlərinin təlimi prosesində əktəbəqədər dövrdə zaman və onun meyarlarının öyrədilməsi, başqa kəmiyyətlərə nisbətən pedaqoqdan daha böyük əziyyət tələb edir. Bu, ona görədir ki, zaman – mücərrəd anlayışdır, əslində hadisədir. İnsan fəaliyyətini səmərələşdirmək üçün zamandan daha sistemli istifadə etməyə çalışır. O, buna nail olmaq üçün vaxtı meyarlara bölməyə, ölçməyə, qiymətləndirməyə başlamışdır.

Mövzu müəyyən bir zaman tərifində müxtəlif cəhdləri araşdırır; təcrübələr toplusuna və vaxtın qiymətləndirilməsi üsullarına nəzər salır; yüz illər ərzində düşüncə və din baxımından zamanın müxtəlif perspektivlərini ümumiləşdirir; zamanın məntiqi müddəaları haqqında, xüsusən fizika və psixologiya (həm 7 zamana baxışımız, həm də sinir sistemi elmi ilə bağlı) haqqında düşünür; və zamanın digər hissələrinin və bizim ondan istifadə etdiyimiz işlərin çeşidinə sıçrayır.

Zaman haqqında təsəvvürlərin formalaşması uşaqlarda olduqca gec başlayır. Bunun səbəbi isə zamanın maddi formada olmamasıdır, ona görə də çətin öyrənilir. Həyatımız bilavasitə vaxtla bağlı olduğundan uşaqların zaman haqqında təsəvvürləri bağça yaşlarından formalaşmağa başlayır. Uşaqlar hələ məktəbəqədərki dövrdə gecənin gündüzlə yer dəyişməsi , fəsillərin dəyişməsi kimi hadisələrlə tanış olduqca vaxt haqqında ilkin təsəvvürlər qazanırlar.

Uşaqlarda sutkanın hissələri səhər, günorta, axşam, gecə haqqında təsəvvürlər yaradılır. Bu dörd anlayışı uşaqlar bir-birindən fərqləndirməyi və ayırmağı bacarmalıdırlar. Hər hissəyə uyğun olaraq müəyyən hərəkətlər yerinə yetirilir.

Uşaqlara vaxtın dəyərini göstərmək üçün son üsul mükafatlandırmadır. Övladlarınızı cəlb etmək üçün onlara mükafatların nə olduğu ilə bağlı lazımi məlumatı verin. Bəlkə də layiqli mükafat əlavə asudə vaxt və ya ən yaxşı seçim, lakin qeyri-adi bir hərəkət olardı. Və ya daha sonra, bu, bütün ailənin birlikdə iştirak etdiyi bir mükafat ola bilər. Nə olursa olsun, övladınızın vaxtdan istifadə edərək vaxta qənaət etməsini bildiyinə əmin olun

POWER POINT SƏMƏRƏLİ TƏLİMİN ƏSAS VASİTƏSİ KİMİ

Əliyarova S.H.
Bakı Slavyan Universiteti
E-mail: sabinaliyarova@gmail.com

Müasir dövrdə Power Point dərs materiallarının öyrədilməsi və çatdırılması üçün effektiv bir tədris vasitəsidir. Baxmayaraq ki, o sinifdə öyrətmək və öyrənmək üçün deyil, əsasən təqdimat üçün hazırlanmışdır. Onun tədris və təlim prosesində tətbiq edilməsi tələbələrə məlumat ötürmək üçün daha yaxşı vasitələr ilə təmin edir. Hal hazırda Power Point bütün dünyada peşəkar və elmi sahədə eləcə də təhsildə ümumi təqdimat və tədris vasitəsinə çevrilmişdir.

Power Point-dən mühazirələrdə və seminarlarda istifadə edilə bilən müxtəlif yollar vardır: laboratoriya seanslarında avtomatlaşdırılmış təlimat protokollarının çatdırılması; sinif fəaliyyəti zamanı müzakirələrin və sorğuların nəticələrinin toplanması; sinif sessiyaları zamanı nəzərdən keçirilməsi üçün testlərin və seçimlərin təmin edilməsi; sual-cavab sessiyaları; veb saytlar və məlumatlarla qarşılıqlı əlaqə; sinif fəaliyyətindən sonra əks əlaqə ilə özünütədqiqat sessiyalarının təmin edilməsi, məs. Mottley (2003); tələbə təqdimatlarının tələb olunması (qrup və ya fərdi); animasiyalı və ya animasiyasız mürəkkəb vizualların yaradılması

Texnologiya təlim metodlarını kökündən dəyişdirdi, belə ki, köhnə məktəb təbaşirini proyektorlarla əvəz etməklə siniflərdə keçirilən mühazirələr tələbələri tədrisə və yeniliyə daha da cəlb etdi. PowerPoint müəllimlərə dərslik materiallarını daha əyani şəkildə çatdırmağı, daha əyləncəli və daha effektiv təlim üçün çox güclü bir vasitə olduğunu sübut etdi. Müəllimlər PowerPoint-də medianın müxtəlif formalarından belə ki şəkillər, animasiyalar və qrafiklərdən istifadə etməklə şagirdlərin sinifdə dərsə qarşı olan maraqlarını qoruyub saxlamağa nail oldular. Təqdimat nəzərdə tutulur ki, mövzuya aid olmalı, yaxşı keyfiyyətdə və içindəki məlumatlar yüksək səviyyədə faydalı olmalıdır. Bu qaydalara uyğun gəlməyən təqdimatlar səmərəsizdir və tələbələr üçün demək olar ki, yararsızdır.

Power Point təqdimatlarından İngilis dili otaqlarında, eləcə də digər sinif otaqlarında bir çox məqsədlərdən dolayı istifadə oluna bilər.Təqdimatlar ilkin tədris, təcrübə və məşqlər, oyunlar, təhlillər və testlər üçün istifadə edilə bilər.

Power Point-dən tələbələrə yeni ideyalar və anlayışlar öyrətmək üçün istifadə edilə bilər. Teorik olaraq bu çox yaxşı səslənir; lakin, praktikada bu çətin ola bilər. Müəllim anlaşılmazlıq və çətinlik sahələrini qabaqcadan görməlidir. Bir dəfə müəllim tələbələrin qarşılaşacağı çətinlikləri bilir və bu halda o,bunları nəzərə alaraq tələbələr üçün təqdimat yarada və ya uyğunlaşdıra bilər. Təqdimat aydın və səliqəli olmalıdır. O, nizamlı şəkildə tələbə çətinliyinin gözlənilən sahələrini həll etməlidir. Bu cür təqdimatı hazırlamaq çətindir, lakin etmək olar. Bir dəfə ilkin tədris təqdimatı hazırlanırsa, onu saxlamaq və təkrar istifadə etmək olar və başqaları ilə paylaşıla bilər.

Power Point təqdimatlarından təcrübə və məşqlərin istifadə olunması üçün dəfələrlə təkrarlana biləcək materialın növü olması vacibdir. Qaydasız fellərin təqdimatı yenidən və yenidən təkrarlana bilən bir şeyin nümunəsidir. Digər növ materiallar həftədə bir və ya iki həftədə bir təkrarlana bilər. Sözönü və ya sifətin düzgün forması, ya da sayıla bilən və sayılmayan təzadlardan istifadə olunan təqdimatlar tətbiq oluna və vaxtaşırı nəzərdən keçirilə bilər.

Oyunlar ingilis dilini nəzərdən keçirmək və məşq etmək üçün yaxşı bir yoldur. Müəllimlər sinifdə öz şəxsi oyunlarını yaratmaq üçün PowerPoint-dən istifadə edə bilərlər. Oyun yaradıldıqdan sonra müəllim onu təkrar istifadə edə və ya digər müəllimlərlə paylaşa bilər.

Power Point təqdimatları artıq öyrədilmiş ideyaları nəzərdən keçirmək üçün əladır. Təqdimatı görmək tələbələr üçün yaxşıdır, onlar bir şeyi daha yaxşı öyrənirlər və onu həvəslə tətbiq edirlər. Başqa müəllimin hazırladığı təqdimatdan istifadə edəndə tələbələrin köhnəni görmək şansı olur və fikirlər müxtəlif yollarla təqdim olunur. Power Point təqdimatları da testdən əvvəl nəzərdən keçirməyin yaxşı yollarıdır.

Məktəblərimizdə müəllimlər testləri üçün PowerPoint proqramından istifadə edirlər. Onlar elementlərin şəkillərini əvvəlcədən təyin edilmiş intervallarda slaydlara yerləşdirirlər. (Onlar, taymerlərini hər slayd üçün müəyyən bir saniyəyə təyin edirlər.) Sonra tələbələr hər bir elementin adını yazır. Bu, lüğəti yoxlamaq üçün əla bir yoldur. Taymer funksiyasından istifadə edərək müəllim bir çox növ testlər və ya viktorinalar tərtib edə bilər.

Power Point müəllimlər üçün çox faydalı bir köməkçidir. Təqdimatın məqsədi dinləyənləri məşğuliyyətə cəlb etməli, onları başa düşməyə kömək etməli və düşüncələrə təhrik etməlidir. PowerPoint tədris sahəsində ən populyar, istifadəsi asan və təsirli vasitə olmağa davam edir.

UŞAQLARDA NİTQ PROSESİNİN SOSİAL-PSİXOLOJİ MƏQAMLARI

Əliyeva S.İ.
Bakı Slavyan Universiteti
E-mail: sekine.eva97@gmail.com

Bəşəriyyət yarandığı gündən insanlar arasında ünsiyyət prosesinə güclü tələbat mövcud olmuşdur. İnsanlar müxtəlif vasitələrlə əlaqələr saxlamış, bir-birləri ilə ünsiyyətə girmişdirlər. Məhz bu baxımdan dilin yaranması və inkişaf etməsi düzgün kommunikativ əlaqə yaratmaq üçün mühüm bir vasitəyə çevrilmişdir. Dil əmək prosesində yaranan ən güclü ünsiyyət vasitəsi hesab olunur. Bəşəriyyətin mövcudluğunda, böyük

bir təkamül yolu keçməsində dil əvəzsiz rol oynamışdır. O öz dominant mövqeyini bu gün də qorumaqdadır. Dili ictimai hadisə adlandıranlar heç də yanılmırlar, çünki o heç bir irqi və irsi amillərlə bağlı deyil və demək olar ki, bütün insanlara eyni dərəcədə xidmət edən ictimai ünsiyyət vasitəsidir. Dil vasitəsilə cəmiyyət üzvləri öz fikirlərini, düşüncələrini, hətta hiss və emosiyalarını ifadə edir, başqalarının düşüncələrinə münasibət bildirirlər.

Dil əsas ünsiyyət vasitəsi olsa da, bu prosesin gerçəkləşməsində nitqin rolu daha böyükdür. Dil və nitq daim bir-biri ilə əlaqəli bir proses olmaqla yanaşı, fərqli xüsusiyyətlərə də malikdir. Onların oxşarlıqları, fərqli cəhətləri, eləcə də ünsiyyət prosesindəki rolları ta qədim dövrdən insanları düşündürmüş, bu haqda çoxlu fikirlər, mülahizələr mövcud olmuşdur. XIX əsrdən başlayaraq dil və nitq münasibətləri, onların elmi şərhi daha ardıcıl şəkildə araşdırılmışdır. Bu cəhətdən Vilhelm Humboltun dərin və sistemli araşdırmalarını nümunə göstərə bilərik. O, nəzəri aspektdən yanaşaraq dil və nitq münasibətlərinin oxşar və fərqli cəhətlərini şərh etmişdir. Daha sonrakı dövrlərdə A.Potebnya, B. Kurtene və başqa tanınmış mütəxəssislər geniş tədqiqatlar aparmış və uğurlu nəticələr əldə etmişlər. Bu istiqamətdə F. Sössürün rolunu xüsusilə qeyd etmək yerinə düşər.

Əlbəttə, müasir dövrdə də bu sahədə tədqiqatlar aparılmış, sözügedən məsələlər alimlərin diqqət mərkəzində dayanmışdır. Ümumiyyətlə, bu iki anlayış arasında kəskin fərq mövcuddur. Məlumdur ki, dil ən mühüm ünsiyyət vasitəsidir, ondan fərqli olaraq, nitq isə ünsiyyət prosesidir. Nitq dildən törəyib, onun əsasında formalaşır. Həmçinin nitq daha çox dəyişikliyə məruz qala bilir. Dil nitq vasitəsilə öz funksiyalarını yerinə yetirir. Bu cəhətləri nəzərə alaraq əminliklə demək olar ki, nitq birbaşa sosial-psixoloji amillərlə bağlıdır. Belə ki, onun formalaşmasında insanın fizioloji, psixoloji və ictimai fəaliyyəti aparıcı mövqe tutur.

Nitq və dilin ən mühüm əlaqəsi ondan ibarətdir ki, hər bir nitqin əsasında dili bilmək, ona yiyələnmək dayanır. Uşaqlar öz nitqlərini ana dili vasitəsilə qurur, məhz onun vasitəsilə ünsiyyət prosesinə daxil olurlar. Beləliklə onlar dil vasitəsilə nitqə yiyələnmiş olurlar. Lakin burada bir mühüm məqamı qeyd etmək lazımdır ki, nitq sadəcə fikirlərin ifadə edilməsində deyil, onların yaranmasında da əsas vasitədir. Başqa sözlə desək, nitq insan təfəkkürünün formalaşmasının mənbəyidir. Bu, nitqin psixoloji amillərlə birbaşa bağlılığını sübut edir. Ona görə hər bir müəllim bilməlidir ki, uşaqların nitqini inkişaf etdirməklə yanaşı onların təfəkkürünü də inkişaf etdirmək vacibdir. Ümumiyyətlə, nitq mürəkkəb psixoloji və fizioloji hadisə hesab olunur. Nitq də dil kimi geniş bir sistemdir. Onların vəhdəti, birgə fəaliyyəti isə ünsiyyətin əsasında duran ən başlıca amildir

Nitq və təfəkkür bir-birilə sıx əlaqədədir. İnsan təfəkkürü inkişaf etməklə onun nitqini də inkişaf etdirir. İnsan təfəkkürü vasitəsilə düşündüyü fikirləri nitqi vasitəsilə ifadə edir. Düşünülmədən deyilən, təfəkkürün süzgəcindən keçməyən fikirlər anlaşılmaz, qeyri-dəqiq olur. Buna görə də təfəkkürdən ayrı nitq, nitqdən ayrı təfəkkür formalaşa bilməz.

Nitq və təfəkkürün vəhdət şəklində uşaqlara çatdırılması nəinki erkən yaş dövründə, eləcə də məktəbəqədər dövrdə də vacibdir. Uşaqlar tərəfindən mahiyyəti dərk edilməyən sözlərin əzbərlədilməsi, nitqin vaxtından əvvəl inkişaf etdirilməsi və ya qavranılması çətin olan sözlərin uşaqlara aşılanması düzgün hesab edilmir.

Psixoloqlar belə düşünürlər ki, sağlam nitq o zaman inkişaf etmiş hesab olunar ki, uşaq işlətdiyi sözü və ifadəni dərk edərək istifadə etsin, yəni onun mahiyyətini anlasın. Hətta formal əzbərləmənin nitqə əngəl törətdiyini də vurğulayırdılar. Məhz buna görə də, kiçik yaşlı uşaqlara aşılanan hər bir yeni söz təsəvvürlərlə əlaqələndirilməlidir. Əks təqdirdə, uşaq ünsiyyətə girərkən fikrini tam ifadə edə bilməyəcək, mahiyyətini dərk etmədiyi sözləri işlədəcək.

Məktəb dövrünə qədər uşaqda təfəkkür tam inkişaf etməsə də, nitqində müəyyən sözləri, fikirləri ifadə edir. Bəzən uşaqlar erkən nitqə yiyələndikləri üçün işlətdikləri sözlərin mənasını sonradan başa düşürlər. Tədricən nitq inkişaf etdikcə təfəkkürün də inkişafını təmin edir. Uşaq artıq dediyi sözlərin mahiyyətini anlayır, mühakimə yürüdür, rəy bildirir və hətta əqli nəticəyə gəlir.

Müasir dövrdə istər ailələrin, istərsə də təhsil müəssisələrinin qarşısında duran ən başlıca vəzifə uşaqların düzgün nitq vərdişlərinə yiyələnməsini təmin etməkdir. Onların yetkin, vətənə, xalqa yararlı bir şəxsiyyət kimi formalaşmasında, cəmiyyətin fəal üzvünə çevrilməsində, baş verən ictimai siyasi proseslərdən kənarda qalmamasında bu amil əsas rol oynayır.

Uşaqlar məktəb prosesinə qoşulana qədər valideyn və tərbiyəçilər onların təliminə, eləcə də fiziki və mənəvi inkişafına diqqət yetirərlərsə, belə uşaqlar təhsilin ilk pilləsində də uğurlu təlim fəaliyyətinə qoşula biləcəklər. Onların inkişafı ilə həyatlarının ilk illərindən məşğul olunarsa, yetişməkdə olan gənc nəsil həm təlim prosesində çətinliklərin öhdəsindən asanlıqla gələr, həm də nitqdə geriqalma hallarının qarşısı alınar.

İBTİDAİ SİNİFLƏRDƏ SİNTAKSİSİN TƏDRİSİNİN ƏHƏMİYYƏTİ

Əlizadə A.R.
Bakı Slavyan Universiteti
E-mail: a-lizad@mail.ru

Sintaksislə bağlı dərslərin başlıca məqsədi bir tərəfdən şagirdlərdə mücərrəd təfəkkürü inkişaf etdirmək, digər tərəfdən də onlarda səlis, mənalı şifahi və yazılı nitq vərdişləri yaratmaqdır.

Sintaksis dilçiliyin böyük bəhslərindən biri və o. morfologiyadan sonra tədris edilir. Amma sintaktik anlayışlarla məktəbəqədər hazırlıq qruplarında ilk dəfə tanış olurlar. Məktəbə hazırlıq qruplarında şəkillər üzərində iş prosesində cümlə qurmaqla bağlı praktik iş aparılır. Sintaktik anlayışlarla bağlı dil qaydaları öyrədilir. İbtidai siniflərdə Azərbaycan dili şagirdlərə həm dil qaydalarının tədrisi prosesində, həm də bədii mətnlərlə öyrədilir. Qrammatika dərslərində şagirdlər ədəbi dilin qrammatik quruluşunu, onun qanunlarını dərk edirlər, mətnlərlə isə bədii dilin gözəl nümunələrini öyrənirlər.

Azərbaycan dili sintaksisinin elmi-nəzəri və metodiki tərəfləri daim dilçi və metodostlərimizin tədqiat predmeti olmuş, onun bütün məsələləri diqqət mərkəzində dayanmışdır. B.Çobanzadə, Ə.Dəmirçizadə, Ə. Cavadov, Ə.Abdullayev, M.Hüseynzadə, Y.Seyidov, A.Abdullayev, M.Həsənov, B.Əhmədov, H.Balıyev, Y.Kərimov, V.Qurbanov A. Rəhimov və başqaları sintaksisin problemləri və tədrisinə dair sanballı əsərlər yazmışlar.

Professor H.Balıyev yazır ki, "Bu kursun məzmununa cümlədə sözlərin əlaqəsi və söz birləşmələri, cümlə, cümlənin məqsəd və intonasiyaya görə növləri, baş və ikinci dərəcəli üzvlər, bunların ifadə vasitələri, baş və ikinci dərəcəli üzvlərin əlavələri və onların xüsusiləşmələri, cümlədə sözlərin sırası və məntiqi vurğu, şəxsə görə cümlənin növləri, həmcinc üzvlü cümlələr, xitablar və ara sözlər, mürəkkəb cümlə, mürəkkəb cümlənin növləri. Mürəkkəb cümlə, mürəkkəb cümlənin növləri, tabesiz mürəkkəb cümlənin növləri, tabeli mürəkkəb cümlələr və onların növləri daxildir (2.324).

İbtidai siniflərdə yuxarıda qeyd etdiklərimizin müəyyən bir qismi tədris olunur. Durğu işarələri təlimi də sintaksis kursu ilə əlaqəli şəkildə öyrədilir.

I-IV siniflərdə təqdim olunan materialların məzmunu, xarakteri əvvəlkilər təkrar olunmaqla genişlənən əlaqələr sistemində xeyli mürəkkəbləşdirilir. IV siniflərdə sözün quruluşu, nitq hissələrinin qrammatik əlamətləri, sadə və mürəkkəb cümlələr, cümlə üzvləri, müxtəlif qrammatik qaydalar arasındakı oxşar və fərqli cəhətlər və s. verilir.

Beləliklə ibtidai siniflərdə belə sintaksisin ilkin elementlərini mənimsədilməsində müasir tələblərə cavab verən dərslər aparılmalıdır.

V-VI SİNİFLƏRDƏ FEİLİN TƏSRİFLƏNƏN FORMALARININ TƏDRİSİ MƏSƏLƏLƏRİ

Əlizadə N.M.
Sumqayıt Dövlət Universiteti
E-mail: nesibnesib74@gmail.com

Hər bir elm sahəsinin tədrisinin uğurlu olması üçün onun bünövrəsinin düzgün qoyulmnası vacibdir. Azərbaycan dilinin tədrisinin böyük bir hissəsi feilin tədrisi ilə bağlıdır. Feilin təsriflənən formaları haqqında ilkin məlumatlar V sinifdə verilir. Belə ki burada feilin zamanlarının tədrisi yer almışdır. Artıq V sinifdə feilin təsriflənməsinin nə demək olduğu qeyd olunur, feilin təsriflənməyən forması olan məsdər haqqında məlumat verilir, feilin zamana görə dəyişməsi izah olunur. Bu zaman müəllimin üzərinə ağır iş düşür. Müəllim fasilitasiya işini düzgün aparmalıdır ki, şagirdin mövzu haqqında başlanğıc bilikləri dolğun olsun. Şagird V sinifdə feilin şəxsə, kəmiyyətə və zamana görə dəyişməsini mənimsəməlidir ki, feilin digər mövzularının tədrisi zamanı fəndaxili inteqrasiyanı aparmaqda çətinlik yaranmasın. Çünki bu mövzunun tərkib hissələri bir-biri ilə zəncirvari bağlıdır.

V sinifdə bünövrəsi qoyulan feilin təsriflənən formalarının tədrisi VI sinifdə daha geniş öyrədilir. Burada artıq feil şəkillərinin hər biri haqqında ilkin məlumatlar verilir. VI sinifdə feilin əmr , xəbər , arzu , vacib , lazım və şərt şəkillərininin hər biri haqqında qısa məlumat və müvafiq tapşırıqlar dərslikdə əksini tapır. Əmr şəklinin göstəriciləri, onların cümlədə işlədilməsi və əmr şəklində olan sözlərin tələffüzü şagirdlərə öyrədilir. Xəbər şəklinin tədrisi zamanı dərslikdə xəbər şəklini yaradan morfoloji göstəricilər(şəkilçilər) – zaman şəkilçilərinin adı çəkilir və nümunə göstərilir. Lakin feilin zamanları V sinifdə tədris

olunduğu üçün burada onlar haqqında geniş məlumat yoxdur. Burada yenə də müəllim fəndaxili inteqrasiyanın imkanlarından yararlanmalı və şagirdləri əvvəl öyrəndikləri bilikləri xatırlamağa sövq etməlidir. Bunun üçün qıcıqlandırıcı (tənqidi təfəkkürə əsaslanan) suallar verməlidir. Nümunələr göstərməli və şagirdlər müəllimin göstərdiyi nümunələr əsasında zaman şəkilçilərini müəyyən etməlidir. Daha sonra şagirdlər xəbər şəklinin müəyyən olunmasına dair kitabda verilən tapşırıqları yerinə yetirməli və müəllimin fasilitatorluğu ilə öyrəndiyi bilikləri möhkəmləndirməlidirlər.

Əmr və xəbər şəklinin ardınca arzu şəkli tədris olunur. Məlumdur ki, əmr və xəbər şəkillərindən fərqli olaraq arzu şəklinin formalaşması üçün ayrıca morfoloji göstəricidən (-a[2] şəkilçisindən) istifadə olunur. Həmin şəkilçinin feil kökünə və başlanğıc formasına artırılaraq arzu şəklini yaratması müəllimin fasilitatorluğu və şagirdlərin tənqidi təfəkkürü vasitəsi ilə tədris olunmalı, şagirdlər yeni biliyi özləri əldə etmənin sevincini yaşamalıdırlar. VI sinif dərsliyində arzu şəklinin tədrisi zamanı əlavə olaraq bu şəkildə olan feillərin inkarının --ma[2] inkar şəkilçisi vasitəsi ilə yaranması da şagirdlərə öyrədilir. Arzu şəklinin tədrisi zamanı müəllimin üzərində düşən vəzifələrdən biri də I şəxsin cəmində arzu şəkli və əmr şəklinin fərqləndirilməsidir. Bunun üçün müəllim ədatların (kaş, gərək, təki, barı arzu ədatları) köməyinin vacibliyini şagirdlərin diqqətinə çatdırmalıdır. Müəllim bunu nümunələr vasitəsi ilə edərsə, şagirdlər mövzunu daha yaxşı qavrayar və öyrəndikləri bilik daha uzunmüddətli olar.

Arzu şəklindən sonra xüsusi morfoloji göstəricisi olan digər feil şəkli olan vacib şəklinin tədrisi zamanı -malı[2] şəkilçisinin feil kökünə və başlanğıc formasına artırılması və yaranan məzmun şagirdlərin diqqətinə çatdırılmalıdır. Vacib şəklində olan feillərin şəxsə görə dəyişməsi şagirdlərin özləri tərəfindən müəyyən olunmalıdır. Dərslikdə verilən tapşırıqlar əsasında vacib şəkilli feillərlə -malı[2] şəkilçili digər sözlərin (sifət və feili sifət) bir-birindən fərqləndirilməsi yolları əyani şəkildə öyrədilməlidir. Çünki bu tip sözlərin ayırd edilməsi şagirdlər üçün problem yaradan məsələlərdən hesab olunur. VI sinif şagirdinin yadda saxlaya biləcəyi ən asan yol isə bu tip sözlərə sual verməklə vacib şəkilli feil , yoxsa digər nitq hissəsi olduğunun müəyyən olunmasıdır. Vacib şəklinin əvvəlki feil şəkillərindən digər bir fərqi də inkarının -ma[2] inkar şəkilçisi ilə yanaşı, *deyil* sözü ilə də yaranmasıdır. Müəllim inkarın hər iki formada yaranmasına dair nümunələr vasitəsi ilə şagirdlərdə əyani təsəvvür formalaşdırmalıdır.

Feilin lazım şəklinin tədrisi vacib şəklinin tədrisi ilə oxşarlıq təşkil edir. Vacib şəkli –malı[2] şəkilçili sözlərlə qarışdırıldığı kimi lazım şəkli də -ası[2] şəkilçili digər sözlərlə qarışdırılır. Bu tip sözlərlə lazım şəklində olan feillərin ayırd edilməsi vacib şəklində olduğu kimidir. Müəllimin şagirdlərin diqqətinə xüsusi çatdıracağı məqamlardan biri lazım şəklinin inkarının yalnız *deyil* sözü ilə düzəlməsidir.

Nəhayət , feil şəkillərinin sonuncusu olan şərt şəklinin tədrisində meydana çıxan problem -sa[2] şərt şəkilçili feillərlə *isə* hissəciyinin şəkilçiləşərək sözlərə artırılması zamanı meydana çıxan problemdir. Bunları bir-birindən fərqləndirmək üçün digər feil şəkillərinin göstəricilərinin axtarılmalı olduğu şagirdlərə öyrədilməlidir. Feil şəkillərinin hamısı tədris olunduqdan sonra isə bu mövzu ilə bağlı ümumiləşdirici dərs keçilməli və feil şəkilləri üçün ortaq fə fərqli cəhətlərin müəyyən olunmasına dair müxtəlif tapşırıqlar yerinə yetirilməlidir.

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ALTERNATİV YANAŞMALARIN TƏTBİQİ

Əmrahova V.Ş.
Bakı Slavyan Universiteti
E-mail: ali.vafa@bk.ru

1970 və 1980-ci illərin müxtəlif alternativ yanaşmaları və metodları tətbiq olunmağa başladı. Bədən dili (Total Physical Response) , Səssiz Üsul (Silent Way) ,Ümumi Dilin Öyrənilməsi (Community Language Learning) və Suggestopedia kimi metodlar ümumi dil tədrisini dəstəklənməsinə müvəffəqiyyət qazanmadı. Ancaq hər biri tədris və öyrənmə prosesində müəyyən rol oynadı. Bu üsulların hər biri 1970-ci illərdən başlayaraq populyarlığı yüksəlmiş və azalmışdı. Hal-hazırda isə əksər yerlərdə bu üsullara maraq azdır. Qrammatik Tərcümə Metodu ilk dəfə Amerika Birləşmiş Ştatlarında Prussiya metodu kimi tanınmışdı.Bu metodda lüğət seçimi yalnız istifadə olunan oxu mətnlərinə əsaslanırdı. Sözlər ikidilli lüğətləri və sözləri əzbərləmə yolu ilə öyrədilirdi. Mətində qrammatik qaydalar təqdim olunur, lüğət tərcümə ekvivalentləri ilə birlikdə verilirdi. Cümlə tədrisin və dil praktikasının əsas vahidi idi.Dərsin əksər hissəsi cümlələrin hədəf dilə və ya hədəf dildən tərcümə edilməsinə həsr olunmuşdu.Kommunikativ Dil Tədrisi metod deyil yanaşma hesab olunur. Dil tədrisində kommunikativ yanaşma dilə ünsiyyət vasitəsi kimi baxıldığında reallaşır. Dil tədrisində kommunikativ yanaşma dil-ünsiyyət nəzəriyyəsindən başlayır. Dil

tədrisinin məqsədi Haymsın (Hymes) "kommunikativ bacarıq" adlandırdığı termini inkişaf etdirməkdir. Haymsın bu termini dilə kommunikativ baxış və Çomskinin bacarıq nəzəriyyəsi ilə ziddiyyət təşkil edirdi.Çomskinin dilçilik nəzəriyyəsinin diqqət mərkəzində danışanın abstrakt qabiliyyətlərini səciyyələndirmək idi. Abstrakt qabiliyyətlər dedikdə isə dildə qrammatik cəhətdən düzgün cümlələr qurmağa imkan verən mücərrəd qabiliyyətləri nəzərdə tuturdu. Hayms dil nəzəriyyəsini mədəniyyət və ünsiyyəti özündə birləşdirən ümumi nəzəriyyənin bir hissəsi kimi görürdü.

Aşer (Asher) dilin təbiətini və ya dillərin necə təşkil olunduğunu müzakirə etmirdi. Aşer bildirir ki, "hədəf dilin qrammatik quruluşunun çoxunu və yüzlərlə lüğəti müəllimin imperativləri məharətlə işlətməsindən öyrənmək olar. O,feilə xüsusi ilə də əmr formasındakı feilə dilin istifadəsini və öyrənilməsini təşkil edən mərkəzi linqvistik motiv kimi baxırdı.Səssiz Üsul (Silent Way) tədris olunan dilin təşkilinə struktur yanaşmadır.Bu üsulda dilə qrammatik qaydalar vasitəsilə spesifik mənalardan, cümlələrdən və ya məna vahidlərindən təşkil olunan, əlaqəli səs qrupları kimi baxılır. Dil öz sosial kontekstindən ayrılır və süni situasiyalar vasitəsilə öyrədilir. Dərslərdə qrammatik mürəkkəbliyə əsaslanan ardıcıllığa əməl edilir, yeni leksik və struktur material hissələrə bölünür və onun yalnız bir hissəsi tədris olunur. Cümlə tədrisin əsas vahididir. Müəllim kommunikativ dəyərə nisbətdə daha çox mənaya diqqət yetirməlidir. Şagirdlərə hədəf dilin struktur nümunələri təqdim olunur və dilin qrammatik qaydaları əsasən induktiv proseslər vasitəsilə öyrədilir.

Təkliflər Suggestopedianın mərkəzi sayılır. Suggestopedia səlis danışıq qabiliyyətinə tez bir zamanda çatmağı hədəfləyir.Bu iri həcmli söz ehtiyatının öyrənilməsinə əsaslanır. Altı prinsipal nəzəri komponentlər vasitəsilə desuggestion və suggestion idarə olunur. Bu prinsipal nəzəri komponentlərə səlahiyyət (authority), infantilizasiya (infantilization), ikiqat planlılıq (double-planedness) və intonasiya, ritm və konsert psevdo-passivliyi (intonation, rhythm and concert pseudo-passiveness) daxildir.

İNGİLİS DİLÇİLƏRİ DİLİN TƏDRİSİNDƏ LİNQİVİSTİKANIN ROLU HAQQINDA

Əmrahova V.Ş.
Bakı Slavyan Universiteti
E-mail: ali.vafa@bk.ru

Henri Svit təməl metodoloji prinsiplərin dilin elmi təhlilinə və dilin psixologiyasının tədqiqinə əsaslanmalı olduğunu göstərmişdi. Svitə görə, söz qruplarında və cümlələrdə sözlər arasındakı əlaqəni göstərməyin beş yolunu göstərmişdi: (a) söz sırası və ya mövqe (position): sözlər arasındakı əlaqələri göstərməyin ən sadə və ən mücərrəd yolu onların sırasıdır. Svitin fikrincə, mövqe nitq hissələrinin təsnifatı üçün vacib meyardır. (b) vurğu; (c) intonasiya: Vurğu və intonasiyaya gəldikdə, Svit təsdiqləyir ki, ingilis dili məna fərqlərini ifadə etmək üçün söz-vurğusundan istifadə edir. Bununla belə, vurğu və intonasiya cümlənin qrammatik quruluşuna çox təsir etmir; (d) forma sözlərin istifadəsi; Funksional sözlərə gəlincə, Svit də qrammatik məna ifadə edən bəzi sözlərin olduğunu qeyd edir. İngilis dilində feillər qismən fleksiya yolu ilə, qismən də forma sözlər- yəni to hissəcikli və feillərin perifrastik formalarını təşkil edən feillər vasitəsilə dəyişir. Feili dəyişdirmək üçün istifadə olunan söz formalarına köməkçi feillər və ya köməkçilər deyilir. (e) fleksiya: İngilis dilində fleksiyalarının təhlilində Svit hal kateqoriyası ilə başlayır. İngilis dilində yalnız iki hal fərqinin olduğunu açıq şəkildə bildirir. Nəzərə alsaq ki, genitiv fleksiya ümumiyyətlə of sözönü ilə əvəz oluna bilər, biz ingilis dilində hallarının, daha doğrusu halın hansı dar çərçivələrlə məhdudlaşdığını görürük. Şifahi fleksiyalar demək olar ki, daha az məhdudlaşdırılır. Feillərdə yeganə şəxsi fleksiya s-dir.bu he goes işlədilir. Bu da praktiki olaraq artıq arxaizmdir. Digər fleksiyalar isə keçmiş və bitmiş (yəni participles) formaları aiddir. Bunlar və isimlərin cəm halı ilə birlikdə ingilis dilinin yeganə əsas fleksiyasıdır. Svitin nitq hissələrinin təsnifatı bunlara əsaslanırdı.

Palmer dil tədrisinin 9 prinsipini vermişdi. Bunlardan bəziləri təcəssüm etdirir və mövzunu tədqiq edənlər arasında ümumi olan prinsipləri əks etdirir. 1) danışıq dilini mənimsəmək üçün şagirdin kortəbii qabiliyyətlərini məşq etdirməklə şagirdin ilkin hazırlığı; 2) yeni və münasib vərdişlərin formalaşdırılması və əvvəllər formalaşmış vərdişlərin istifadəsi; 3) pis vərdişlərin mənimsənilməsinin qarşısını almaq üçün dəqiqlik; 4) işin getdikcə artan inkişaf sürətini təmin edəcək şəkildə dərəcələndirilməsi; 5)mövzunun müxtəlif aspektləri və sahələrində lazımi mütənasiblik; 6) dil-materialın abstrakt şəkildə deyil, konkret şəkildə təqdim edilməsi; 7) tələbənin inkişafını sürətləndirmək üçün onun marağının təmin edilməsi və saxlanılması; 8) nitq-psixologiyasının prinsiplərinə uyğun olaraq irəliləyişin məntiqi ardıcıllığı; 9) fərqli və münasib cihazlar vasitəsilə mövzuya eyni vaxtda müxtəlif tərəfdən yanaşma.

Daniel Cons səsləri iki səviyyədə fərqləndirirdi:konkret və abstrakt. Cons teosofik işin mövzusunu - fiziki maddi dünya ilə abstraksiyaların qeyri-fiziki dünyası arasındakı əlaqəni götürürdü, O, fiziki və qeyri-fiziki arasında əlaqəni təsvir etmək üçün tez-tez teosofik bir vasitədən - qəzəb kimi emosional vəziyyətlərin təhlilindən istifadə edirdi.Nitq səslərini dörd dərəcə abstraksiya modelinə təsnif edirdi. Konkret səslər: Danışan tərəfindən tələffüz edilən fərdi səslər.Abstraksiyanın 1-ci dərəcəsi: fərd tərəfindən oxşar şəkildə tələffüz edilən səslər (və ya nitq səsləri). 2-ci abstraksiya dərəcəsi: bir nəfər danışan tərəfindən həyata keçirilən fonemlər. Abstraksiyanın 3-cü dərəcəsi: oxşar nitq üslubuna malik bir qrup danışan tərəfindən həyata keçirilən fonemlər (və ya idiafonlar).Abstraksiyanın 4-cü dərəcəsi:səs keyfiyyətində və ya fonemlərin (və ya idiafonemlərin) istifadəsində daha geniş fərqlər.
Metodları izah edərkən, prinsiplər və nəzəriyyə səviyyəsində dil tədrisi fəlsəfəsi ilə bir dilin tədrisi üçün əldə edilmiş bir sıra prosedurlar arasındakı fərq əsasdır. Bu fərqi aydınlaşdırmaq üçün dilçi Edvard Anthony tərəfindən bir sxem təklif edildi.O, bu 3 səviyyəni yanaşma, metod və priyom (technique) adlandırdı.

XARİCİ DİLDƏ DANIŞIQ QABİLİYYƏTİNİN ÖNƏMLƏRİ

Həmzəyeva A.E.
Bakı Slavyan Universiteti
E-mail: ayten.hemzeyeva28@gmail.com

İngilis dilində danışıq qabiliyyəti dövrümüz üçün bir çox vəziyyətlərdə və yerlərdə faydalıdır. Xarici dildə danışma bacarığı məktəb təhsilində, dil tələbi olan hər hansı işdə və ya başqa ölkəyə səfər zamanı vacib ola bilər, çünki ingilis dili beynəlxalq dildir. Danışıq bacarığı insanların xarici dili öyrəndiyi zaman mənimsənilməsi lazım olan ən vacib şeydir, çünki danışmaq məna qurma prosesidir. Demək olar ki, bütün dil komponentlərini əhatə edir. Danışmaqla kimsə öz fikirlərini, düşüncələrini sərbəst və kortəbii şəkildə ifadə edə bilər. Bundan əlavə, nitqin öyrədilməsinin əsas məqsədi həm müəllimləri, həm də tələbələri hətta gündəlik işlərində də ortaq dil kimi hədəf dildən istifadə etməyə istiqamətləndirməkdir.

Danışıq öyrənənin ən vacib bacarığı hesab olunur. İnsanların öz bacarıqlarını artırmaq üçün bir çox səbəbləri var. Məsələn, fikirləri ifadə etmək, əlaqələr yaratmaq, məlumat mübadiləsi və s. Bu bacarığın inkişafı heç kim üçün asan məsələ olmasa da, nəzərə alınmalı olan bir çox aspektlər var. Tədris prosesində şagird fəal və dinamik olmalı, bacarıqların inkişafında mühüm əhəmiyyət kəsb edən nümunələri məşq etməli və mübadilə etməli, proses zamanı şagird təbii mühitə və hədəf dilin təbii nitqlərinə məruz qalmalıdır.

Danışıq xususiyyətləri və strategiyaları haqqında biliklərini inkişaf etdirməlidirlər, buna görə də müəllimin vəzifəsi, əhəmiyyətinə baxmayaraq, uzun illərdir ki, tələbələrin özünə inam qazanmasına kömək etmək üçün interaktiv və real fəaliyyətləri təşviq edən real ünsiyyəti sinfə daxil etməkdir. Xoşbəxtlikdən, müasir dünya tələb edir ki, nitqin öyrədilməsi məqsədi şagirdlərin kommunikativ bacarıqlarını təkmilləşdirməkdir, çünki yalnız bu yolla tələbələr özlərini ifadə edə və hər bir kommunikativ şəraitdə uyğun sosial və mədəni qaydalara riayət etməyi öyrənə bilərlər.

Şübhə yoxdur ki, tələbələr qarşılıqlı əlaqə quraraq ikinci dildə danışmağı öyrənirlər. Bu gün bu məqsəd üçün effektivliyə kömək edə biləcək bir çox metodologiya var. Onlardan biri ünsiyyət tələb edən,real həyat vəziyyətlərinə əsaslanan kommunikativ yanaşma ola bilər. Xarici dil dərslərində bu üsuldan istifadə etməklə tələbələr bir-biri ilə hədəf dildə ünsiyyət qurmaq imkanı əldə edəcəklər. Xarici dil müəllimləri tələbələrin real həyatda ünsiyyət, orijinal fəaliyyətlər və şifahi dili inkişaf etdirən mənalı tapşırıqları olduğu bir sinif mühiti yaratmalıdır. Bu, tələbələr məqsədə çatmaq və ya tapşırığı yerinə yetirmək üçün qruplar şəklində əməkdaşlıq etdikdə baş verə bilər.

Şagirdlərin həm sinifdə, həm də gündəlik həyatda bacardıqları qədər məşq etmələri vacibdir. Hadisə haqqında fikirlərini bölüşmək və ya müzakirə qruplarında həll yolları tapmaq kimi sadə fəaliyyətlər bacarıqların artırılmasında təsirli olur. Müzakirədən əvvəl müzakirə fəaliyyətinin məqsədinin müəllim tərəfindən müəyyən edilməsi vacibdir. Beləliklə, müzakirə nöqtələri bu məqsədə uyğundur ki, tələbələr vaxtlarını bir-biri ilə əlaqəli olmayan şeylər haqqında söhbətə sərf etməsinlər. Məsələn, tələbələr razıyam/razı deyiləm müzakirələrində iştirak edə bilərlər. Bu cür müzakirələrdə müəllim hər qrupda 4 və ya 5 nəfər olmaqla tələbələrdən ibarət qruplar yarada və onlara maraqlı mövzu təqdim edə bilər.

Danışmağı öyrətmək ikinci dil öyrənmənin çox vacib hissəsidir. İkinci dildə aydın və səmərəli ünsiyyət qurmaq bacarığı şagirdin məktəbdəki uğuruna və sonrakı həyatın hər mərhələsində uğur qazanmasına kömək edir. Ona görə də dil müəllimlərinin nitqin öyrədilməsinə böyük diqqət yetirmələri vacibdir. Tələbələri saf əzbərləməyə aparmaq əvəzinə mənalı ünsiyyətin baş verdiyi zəngin bir mühit təmin

etmək arzu edilir. Bu məqsədlə yuxarıda sadalananlar kimi müxtəlif nitq fəaliyyətləri həyat üçün zəruri olan əsas interaktiv bacarıqların inkişaf etdirilməsində tələbələrə böyük töhfə verə bilər. Bu fəaliyyətlər şagirdləri təlim prosesində daha fəal edir və eyni zamanda öyrənmələrini onlar üçün daha mənalı və əyləncəli edir.

MODUL TƏLİM TEXNOLOGİYASI İLƏ DƏRSİN APARILMA ALQORİTMİ

Həsənli İ.
Lənkaran Dövlət Universiteti
E-mail: Ilhamememmedzade77@gmail.com

Modul təlimin əsas mahiyyətini təlim prosesinin şagirdlərin biliklərinin inkişaf etdirilməsinə yönəlməsi və diqqət mərkəzində saxlanılmasıdır. Modul texnologiyaların icra olunması zamanı təlim prosesi elə planlaşdırılır ki, tədris materialının mənimsənilməsi prosesi şagirdlərin təlim-tərbiyə və intellektual inkişafı tam bir prosesi təşkil edir. Burada bilik və bacarıqların əldə olunması əsas prioritet məsələdir və bu vacib məqsədə çatmaq üçün bir vasitə hesab olunur. Modul texnologiyada başlıca məqsəd kompotensiyaların müstəqil olaraq qazanılmasını nəzərdə tutur. Ancaq bu halda şagirdlərdə kompotensiyalar inkişaf etmiş olur, humanistlik meylləri və motivasiyanın formalaşması baş verir.

Pedaqogikada inkişafetdirici təlimin əsasən dörd konsepsiyası qeyd olunur. Bunlardan ən çox tətbiq olunanı Elkonin-Davıdov konsepsiyası hesab olunur. Bu pedaqoji-psixologiyaların istənilən təhsil strukturlarında hazırladığı inkişafetdirici təlim texnologiyası digərlərindən prinsipcə onunla fərqlənir ki, burada vacib məqsəd məktəblilərin nəzəri təfəkkürünün formalaşdırılmasında bu amilin daha böyük rola malik olmasıdır. Nəzəri təfəkkür deyilən zaman, bu və ya başqa bir hadisənin, anlayışın formalaşması prosesinin insanın öz fikri ilə ifadə olunması, onların formalaşması şəraitinə nəzarət və izah etməyi, nə üçün xüsusi olaraq bu formaya malik olmasını aydınlaşdırmağı bacarması, öz fəaliyyətində həmin hadisələrin yaranması prosesini təkrar edə bilməsi başa düşülür.Məktəb təcrübəsi illərcə eksperimentdən keçirilmiş və böyük inkişaf yolu keçmişdir. Sistemin təşkilinin başlıca prinsipləri aşağıdakılardır: məzmunun ümumiləşdirməsinə əsaslanan deduksiya; hərtərəfli təhliletmə; nəzəriyyəyə əsaslanan ümumiləşdirmə; abstraksiyaya əsaslanan (ümumiləşdirilmiş nəticələrin çıxarmasına əsaslanan); ətraflı refleksiyaya əsaslanan (tənqidilik prinsipi ilə yanaşma və bacarıqların qiymətləndirilməsinə əsaslanan).

Bu prinsiplərin məktəbdə tətbiqi məktəblilərdə bilik və praktik bacarıqlarla yanaşı eyni zamanda elmi anlayışların, bədii obrazların və mənəvi dəyərlərin öyrənilməsinə təhsilin nəzəri səviyyəsinin xeyli yüksəlməsinə şərait yaradır. Məqsəd təhsil alanların şüurlu şəkildə özünü mənəvi dəyişdirməsi və nəzərdə tutulan nəticələri əldə etmək üçün bütün mərhələləri əsasən sərbəst keçməsi ilə xarakterizə olunur. Müəllimin başlıca rolu bütün şagirdilərin inkişafını təmin etmək, onlarda idrakı və öyrənmə vərdişlərini yaratmaqdır.İnkişafetdirici təlimdə dərsin əsas xüsusiyyətləri sırasına daxildir: kollektiv düşünüb axtarmaq; dialoq və diskussiya; şagirdlərin işgüzar ünsiyyətdə olması. Bu təlim texnologiyasında biliklərin problemli şərh metodu ilə mənimsədilməsi məqbul sayılır. Təlimin ilk mərhələsində təlim tapşırıqlarının ənənəvi qaydada yerinə yetirilməsi metodu tətbiq edilirsə, ikinci mərhələdə əsasən problemli təlimdən istifadə olunur.Bu təlim texnologiyasında görülən işin keyfiyyəti və həcmi şagirdin subyektiv imkanlarına görə qiymətləndirilir. Qiymətləndirmə şagirdin personal fərdi inkişafını və onun öz təlim fəaliyyətini nə dərəcədə təkmilləşdirdiyini əks etdirir. Müəllim burada təlim alanın fəaliyyətini fərdi etalonlarla qiymətləndirmə mexanizmindən istifadə edə bilər.

Dərslərin modul təlim texnologiyası üzrə hazırlanması və dərsin gedişatının planlanlaşdırılmasından ötrü aşağıdakı dörd addımı təklif etmək olar:

1-ci addım: dərsin məqsədi və təlim-tərbiyə vəzifələri müəyyənləşdirilir: bu zaman: a) keçirilmiş mövzularda mənimsənilmiş materialların mənimsənilmə dərəcəsinin müəyyənləşdirilməsi;

b) mənimsənilən tapşırığın tətbiq edilməsinə dair praktiki çalışmaların tətbiq edilməsi (yəni tapşırıqların, problemli situasiyanın həlli yolunun araşdırılması).

c) əldə olunan nəticənin təhlil olunması, ümumiləşdirmə aparılması, əsaslandırılma aparılması üsulu ilə əqli vərdişlərin inkişaf etdirilməsi (qruplar şəklində gəldiyimiz nəticələri müzakirə etmək- müəyyən bir qrupun şagirdlərinin verecəyi cavablara digərlərinin münasibətini bildirməsi üsulu ilə).

Birinci dərs zamanı qruplara çalışmalar elə formada tapşırılmalıdır ki, şagirdlər bu çalışmaların yerinə yetirilməsi zamanı öncədən yiyələnmiş olduqları baza bilik və bacarıqları istifadə edə bilsinlər.

Şagirdlərin qazanacağı dəqiq bilik, bacarıq və vərdişləri yeni dərs zamanı öncədən müəyyənləşdirilməlidir (bu zaman akademik, əqli və ümumtəlim bacarıqları və vərdişləri xüsusi qeydə

alınmalıdır). Eyni zamanda, dərs zamanı istifadə ediləcək fəaliyyətin forma və üsulları, tədris avadanlıqları və tətbiq ediləcək hər bir fəaliyyətin növü və sərf olunacaq zaman öncədən müəyyən edilməlidir.

2-ci addım: hər dərs üçün kiçik qrup daxilində tətbiq edilən çalışmaların, materialın həcmi öncədən müəyyənləşdirilməlidir.

Şagirdlərə elan olunur ki, qrup daxilində verilən çalışmalar ümumilikdə hamı tərəfindən fərdi öyrənilməyəcək, hər kəs özünə tapşırılan bölməni öyrənir və qrup daxilində müzakirə aparılır. Hər bir şagirdin cavabı digərləri tərəfindən dinlənilir və qeydlər götürülür. Çalışmaların həllində şagird çətinliklə qarşılaşarsa bu zaman digər qrup üzvlərinə müraciət edərək birlikdə həlli yollarını araşdıraraq əməkdaşlıq bacarıqlarını inkişaf etdirmiş olurlar. Bu zaman məqsəd hər hansı yarışma aparmaq deyil, qrupun işinə ümumilikdə qiymət verilməsidir. Əsasən qiymətləndirmə qrupun ümumi işinə verilir, əmkdaşlıq bacarığı qiymətləndirilir. Qruplara verilən tapşıriqlar məzmunca eyni olur.

3-cü addım: qruplarda təlim işinin təşkili dərsin ancaq bir komponentindən ibarətdir. Bu o deməkdir ki, dərs zamanı digər üsullar və tədris vasitələrinin tətbiq olunduğu nəzərə alınmalıdır. Qruplara veriləcək çalışmalar tətbiq edildikdən sonra kollektiv şəkildə müzakirələrə start verilir. Qrupun hər hansi bir üzvü çalışmanın tətbiqinə dair məruzə ilə təqdimat etməlidir, çalışmaya dair verilən sualları cavablandırmağa qrupun hər bir üzvü hazırlıqlı olmalıdır. Digər qrupun nümayəndələri məruzəçiyə və qrupun nümayəndələrinə sual verməklə yanaşı, cavablara əlavələr edib onu müzakirə obyektinə çevirə və müəyyən fikirlər əlavə edə bilər.

4-cü addım: mükafatlandırma. Mükafatlandırma və həvəsləndirmədə metodiki vacib məsələ aşağıdakılardır:

- Əgər qrup daxilində şagirdlər böyük maraqla, produktiv (məhsuldar şəkildə) işləyirsə bu zaman onları təkrarlanacaq şəkildə tərifləmək düzgün deyil, bu normal hal kimi qəbul olunmalıdır (və şagirdlərə bu formada aşılanmalıdır);
- Əməkdaşlıq şəraitində istənilən formada aparılan təlim zamanı qrup işinin nəticəsi kollektiv şəkildə müzakirələr, refleksiya, ünsiyyət mədəniyyətinin, vərdişlərinin formalaşdırılmasına və obyektiv şəkildə özünü qiymətləndirmə bacarığı, özünü inkişaf etdirmə, şəxsiyyət kimi formalaşma ilə nəticələnməlidir.
- Mükafatlandırma aparılan zaman bu qrupun hər bir üzvünə aid edilməlidir (buraya tərifləmə, və ya xüsusi qeyd edilmə və s. aid edilir) qrup üzvləri arasında ayrı seçkilik edilməsi yolverilməz hal hesab edilir.
- Əgər qrup qənaətbəxş işləməyibsə bunu kollektiv yanında vurğulamaq yolverilməzdir, çünki bu zaman qrup daxilində mübahisələr və ruhdan düşmə kimi neqativ hallar yaranmasına gətirib çıxara bilər. Belə hal baş verdiyi zaman qruplara həmin çalışmaların evdə həllinin araşdirilması tapşırılır və ya qrupa əlavə olaraq yenidən izah verilir ki, onlar tapşırığı sərbəst şəkildə icra edə bilsinlər (tapşırığın çətinlik dərəcəsi, hansı səbəbdə şagirdin bu tapşırığın öhtəsindən gələ bilməməsi müəllim tərəfindən araşdırılmalı və səbəbi dəqiqləşdirilməlidir).
- İstər mükafatlandırma, istərsə də qiymətləndirmə zamanı həm şagirdlərin akademik müvəffəqiyyətləri, həm də ünsiyyətin psixoloji aspektləri nəzərə alınmalıdır.

SƏNƏTKARIN TƏRCÜMEYİ-HALININ ÖYRƏNİLMƏSİNİN ÜMUMMETODİK-NƏZƏRİ ASPEKTLƏRİNƏ DAİR

Hüseynova L.Q.
Bakı Slavyan Universiteti
E-mail: leman.huseynova.2022@inbox.ru

Ədəbiyyat proqramına daxil edilmiş mövzuların bir qismini tərcümeyi-hal materialları təşkil edir. Yeni kursda tərcümeyi-hal materialları "həyatı, yaradıcılıq yolu" ilə əvəzlənmişdir. Hazırda sənətkarın həyatı və yaradıcılıq yolunun layihə formasında birlikdə nəzərdən keçirilməsi doğru hesab edilmişdir. Biz də belə yanaşmanı məqbul hesab edirik. Onsuz da dərsliklərdəki məlumatlarda sənətkarın həyatından danışıldıqda buraya bədii irslə bağlı materialları da əlavə edirdilər.Bu tipli mövzuların orta məktəbdə öyrənilməsinin böyük əhəmiyyəti vardr. Yeni təhsil proqramının tələbi ilə yazılan dərslik komplektində - müəllim üçün vəsaitdə bu tipli materialların öyrədilməsinə bir saat vaxt ayrılmışdır. Həmin başlıq altında olan mövzular X-XI siniflərin dərsliklərində yerləşdirilmişdir.

Sənətkarın həyatı və yaradıcılıq yolu ilə bağlı materialları proqrama nə üçün daxil edilir və onların tədrisində hansı vəzifələri yerinə yetirmək nəzərdə tutulur? Bu belə anlaşılmalıdır ki, ədəbiyyatımızın yaradıcıları olan bu sənətkarların hər biri yaşadıqları dövrün canlı nümunələridirlər. Demək olar ki, onların

həyatı sanki ibrət aynası və tərbiyə məktəbi kimi çıxış edə bilir. Onların mühiti, ədəbi kontekstə gəlişi, fikir və duyğular aləminin formalaşdığı zəmin, dünyagörüşləri şagirdlərə müsbət mənəvi-əxlaqi keyfiyyətlər aşılayır. Şagirdlər aydın şəkildə və əyani olaraq dərk edə bilirlər ki, zamanından, dövründən asılı olmayaraq, xalq işinə yaxın olan, el yolunda qələm işlədən, zəhmət çəkən heç bir kəs unudula bilməz. Kim el yolunda nə isə yaxşı bir iş görüb, onun istəklərinə biganə qalmasa, o şəxslər min illər keçsə də xalqın yaddaşından silinməzlər.

Şagirdlər bu məlumatları öyrəndikcə başa düşürlər ki, yaradıcı insanların 60-90 illə ölçülən cismani ömürləri ilə yanaşı həm də mənəvi ömürləri vardır. Əgər bu mənəvi ömür mənalı və xalqı üçün daha gərəkli olubsa, belə olduğu təqdirdə illər, əsrlər çərçivəsinə sığmır. Şagirdlər aydın və şüurlu şəkildə anlayırlar ki, insanın əbədi yaşarlılıq meyarları vardır. Bunun ən zəruri ümdəsi el-oba yolunda nələrisə eləməkdir. Məgər elə bir şəxs olarmı ki, özündən sonra gələcək nəsillərə nə isə yaxşı və xeyirxah işlər qoyub getməyi fikirləşməsin və belə bir istəkdə bulunmasın?!

Yuxarı siniflərdə sənətkarın həyatı və yaradıcılıq yolu materialları öyrədiləndə bu kimi məsələlər daim müəllimin diqqət mərkəzində dayanmalıdır. Şagirdlər sənətkarların həyatına dərindən bələd olduqca onlarda həm də belə bir əqidə yaranmalıdır ki, kaş yaxşı işlər görə bilib həmin görkəmli şəxsiyyətlər kimi doğma, qədirbilən xalqın yaddaşında yüz illərlə yaşayardılar. Çağdaş mərhələdə bu cür düşüncə tərzinə nə dərəcədə ehtiyac olduğunu söyləmək bəlkə də o qədər asan olmazdı.

Sənətkarın həyatı və yaradıcılıq yolu əzab-əziyyətli, enişli-yoxuşlu bir ömrün salnaməsidir. Belə ömür şöhrətə çatmanın sınaqdan çıxarılmış pillələridir. Belə materiallarla tanışlıq zamanı şagird aydın şəkildə müşahidə edə bilir ki, insanın həyatda yüksəliş yolu hansı çətinliklərdən keçir. Həmin yolun başlanğıcı, mənbəyi uzun zaman kəsiyində gedişi və sonu nələrdən təşkil olunur. Burada uğurların səbəbləri hansılardır və ya çatışmazlıqları nədən ibarətdir. Həmin mühitdə sənətkar bir insan kimi necə davranmış, nələrə nail olmuş, nələri itirmiş və buna nələr təsir etmişdir. Şagirdlər bu tipli materiallar vasitəsilə həm də xalqımızın etnik-milli tarixini daha yaxşı öyrənirlər. Çünki hər bir sənətkarın ömür yolu yaşadığı tarix haqqında müəyyən təsəvvürlərin yaradılması üçün yardımçı olur. Bugünkü gənclərimiz üçün bu olduqca gərəkli və zəruridir.

Yazıçının ədəbiyyat tarixində yeri və mövqeyi, ənənələrə sadiqliyi, novatorluğu, özündən sonra gələn ədəbi nəsillərə təsiri və s. kimi məsələlər şagirdlərə heç də təkcə ədəbi-tarixi biliklər vermir, həm də onların milli qürur, ləyaqət və iftixar hissinin formalaşdırılmasında fəal rol oynayır. Sənətkarın həyatı və yaradıcılıq yolu ilə bağlı materiallar tədrisi nəzərdə tutulan ədəbi əsərlərin daha dərindən qavranılmasına şərait yaradır. Ədəbi əsərlərin hansı şəraitdə meydana gəlməsi şagirdlərin ümumi inkişafına nəzərə çarpacaq dərəcədə təsir göstərir, onları daha yaxşı başa düşməyə mənimsəməyə imkan verir. Maraqlı bir söz eşidəndə, şeir parçası və ya əhvalat dinləyəndə biz dərhal onun müəllifi ilə maraqlanırıq. Bu mənalı sözü və ya fikri söyləyənlərin şəxsiyyətinə bizdə dərin bir hüsn-rəğbət yaranır.

Ədəbi əsərlərin öyrənilməsi zamanı da eyni vəziyyət vardır. Maraqlı və ibrətli həyat hadisələri və ya səmimi hisslər aləmi şagirdləri şirin xəyallar dünyasına aparır, onu söyləyən şəxsin söz qoşmaq məharətinə heyranlıq yaradır. Təsadüfi deyildir ki, ədəbi əsərlərin tədrisi prosesində ilk olaraq V-VII siniflərdə (elə VIII-IX cu siniflərdə də) motivasiya mərhələsində ilk növbədə giriş sözündən istifadə olunur. Həmin giriş sözündə sənətkarın ədəbiyyat tariximizdəki xidmətləri sadalanır və onun öz əsərlərində qaldırdığı mənəvi-əxlaqi keyfiyyətlərə, həyatındakı ibrətli məsələlərə şagirdlərin diqqəti daha çox yönəldilir.

Yuxarıda qeyd etdiklərimiz sənətkarın həyat və yaradıcılıq yolu materiallarının həm də təlim-tərbiyə imkanlarının tükənməzliyindən xəbər verir. Bu materialların bir qismində tariximiz, digərində zəngin mənəviyyatımız, başqalarında isə şərəfli ömür salnaməsi öz əksini tapır.Belə materiallar gənclərimiz üçün məhz ibrət aynasına çevrilməlidir.Nəzərdən keçirdiyimiz bu materiallar imkan verir ki, şagirdlər müxtəlif həyat hadisələrinə sənətkarların gözü ilə baxsinlar.

SƏNƏTKARLARIN HƏYAT VƏ YARADICILIĞININ ÖYRƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ

Hüseynova L.Q.
Bakı Slavyan Universiteti
E-mail: leman.huseynova.2022@inbox.ru

Hər hansı bir yazıçının bioqrafiyasının öyrənilməsi onun bədii dünyasını dərk etmək üçün ən zəruri şərtdir. Yazıçının həyat faktları ilə tanış olan şagirdlər fərdlə ətraf mühit arasında, həmçinin dünyagörüşü ilə sənətkarın əsəri arasındakı əlaqə haqqında ümumi deyil, konkret bir fikir əldə edə bilərlər.

Müxtəlif mərhələlərdə yazıb-yaratmış şəxsiyyətlərin yaradıcılığından danışdıqda xüsusilə deyə bilərik ki, 1920-1930-cu illərin mühacirət ədəbiyyatı və 1920-1930-cu illərin repressiya ədəbiyyatı kimi qəbul edilmiş adlarla bölünə bilən ədəbi nümunələr əslində Sovet ədəbiyyatı dövründə Azərbaycan ədəbiyyatının ayrılmaz hissəsi kimi meydana çıxdı və təkmilləşdi. Bu mənada Sovet dövründəki Azərbaycan ədəbiyyatı Azərbaycan sovet ədəbiyyatı, Azərbaycan repressiya ədəbiyyatı və Azərbaycan mühacirət ədəbiyyatı (əlbəttə ki, həmin ədəbiyyatın müvafiq mərhələsi) olaraq qəbul edilmişdir. Çünki tarixi dövrün ədəbi mənzərəsi bütövlükdə təsəvvür edildikdə o daha çox dərk edilir.

Dövrümüzdə Azərbaycan mühacirət ədəbiyyatı,repressiyaya məruz qalan sənətkarların əsərlərinə marağın artması,miraslarının üzə çıxarılması və öyrənilməsi ortaya çıxdı. Amma həm mühacirlərin, həm də repressiyaya məruz qalan sənətkarların əsərləri,onların fərdi yaradıcılığı, ən yaxşı halda repressiya və mühacirət ədəbiyyatı kontekstində nəzərdən keçirilir. Bununla yanaşı, onların həyatlarına olan maraq da getdikcə artaraq həmin əsərlərin dərindən öyrənilməsinə rəvac verir, diqqət mərkəzinə çəkilməsini aktuallaşdırır.

Müasir tədqiqat işlərində sənətkarların yaradıcılıq fəaliyyətinin fərdi olaraq müəyyənləşdirilməsi konsepsiyaları ilə yanaşı, həm də geniş tədqiqat konteksti ortaya çıxır ki, bunsuz ədəbiyyatın bədii bir fenomen olaraq obyektiv, çoxölçülü şəkildə öyrənilməsi də qeyri-mümkündür.

Yazıçının həyat yolunun öyrənilməsində onun yaradıcı şəxsiyyətinin orijinal təfsirlərindən istifadə etməyin məqsədəuyğunluğu bioqrafik materialın şəxsi qavrayışını daha çox stimullaşdırmaqdır.

Eramızdan əvvəl antik dövrdə yaradılmış onlarla məşhur və mühüm əsərlər vardır ki, onlardan indi də bəhs edəndə alimlər dərin təəssüf hissi ilə qeyd edirlər ki, onların müəlliflərinin həyat şəraiti və məişəti haqqında danışmağa heç bir əlamət və material yoxdur. Homerin, Aristotelin, hətta Nizaminin, Şekspirin şəxsiyyətləri haqqında məlumat nə qədər zəngin olsaydı, bir o qədər müfəssəl, maraqlı material əldə edilmiş olardı. Yazıçının şəxsiyyəti haqqında geniş məlumatın əhəmiyyəti təkcə faktların, bioqrafik hadisələrin siyahısında deyil. Bu faktlar sənət məsələlərini, müəyyən ideologiyaları, mövzuları, yaradıcılıq sirlərini açmaq baxımından çox maraqlı və dəyərlidir.Nəsr əsərlərinin uğurlarını təmin etmək üçün müəyyən dərəcədə yaradıcının həyatı tədqiqatçının diqqətindən kənarda qalmamalıdır. Hətta bəzi əsərlərin yaranması və şöhrəti müəllifin tərcümeyi-halı ilə sıx bağlı olmalıdır. N. Ostpovskinin "Polad necə bərkidi" əsərinin tam real təsviri həm də ona görə inandırıcıdır ki, yazıçı şəxsən yaşayıb, eşitmiş olduğu, müşahidə etdiyi bu hadisələri təsvir etmişdir. Qorkinin "Mənim darülfünunlarım" hekayəsi təkcə bir yazıçının deyil, həm də köhnə Rusiyanın zəhmətkeş xalqının həyatını sədaqətlə müşahidə edən hər bir müşahidəli zəhmət adamının universiteti idi. Qapı ağzında, çörək sexlərində, balıqçılıq təsərrüfatlarında ağır zəhmətlə çörək pulu qazanan Maksim Qorki onu kasıb bir gənc kimi gördüyü, necə yaşamağı real həyat həqiqəti, səmimiyyət və dürüstlüklə yazılmışdır. Oxucu görür və fikirləşir ki, buradakı canlı lövhələr yazıçının bədii əsər naminə qoyduğu süjet lövhələri deyil, eyni həyat, canlı insanın həyatının təbii lövhələridir.Yazıçıların bioqrafiyası ilə məşğul olmaq, şagirdlərdə yazıçıların həyatına və şəxsiyyətinə, eyni zamanda yaradıcılıq psixologiyasını öyrənməyə istiqamətləndirmək, əsərlərini oxumağa maraq oyatmağa sövq edir. Bununla bərabər həm də şagirdlərin mədəniyyətini, mənəvi inkişafını, yaradıcı və elmi-idraki qabiliyyətini və maraqlarını inkişaf etdirməyə yardımçı olur.

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ İDİOMLARIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Hüseynova M.A.
Bakı Slavyan Universiteti
E-mail: mery_1996m@mail.ru

Elm və texnologiyanın sürətli inkişafı, ölkəmizin digər xarici ölkələrə inteqrasiyası nəticəsində ingilis dilini öyrənmək artıq böyük əhəmiyyət daşıyır. İngilis dilinin öyrənilməsi zamanı artıq təkcə qrammatik baza bilikləri kifayət etmir. Söylənən fikirlərin, işlədilən cümlələrin daha təsirli və dolğun olması üçün idiomatik və frazeoloji birləşmələrdən, atalar sözləri və zərbi-məsəllərdən istifadə edilir. İdiomlar ingilis dilinin tədrisində və öyrənilməsində xüsusi yer tutaraq təkcə tələbələr və şagirdlər üçün deyil, hətta dilin daşıyıcıları üçün də dilin öyrənilməsinə qəribəlik və çətinlik gətirir. Bu ifadələri bilmək linqvistik dayaq kimi mədəniyyəti, elmi, adətləri, dini əks etdirir, dilin estetik aspektini gücləndirir. İdiomatik ifadələri bilmək leksikanın, bədii və elmi – kütləvi ədəbiyyatın tam başa düşülməsinə kömək edən zəruri hissəsidir.

Bu yazıda ingilis deyimlərinin xarici dil kontekstində tədrisi zamanı nəzərə alınmalı olan nəzəri parametrlərə diqqət yetirilir. Müasir ingilis dilinin yüksək dərəcədə idiomatikliyi ilə xarakterizə olunduğunu

nəzərə alsaq, əcnəbi tələbələrin nəinki adi nitqdə, hətta akademik mətnlərdə idiomlarla məşğul olmamaları mümkün deyil. Beləliklə, idiom təlimatı bu cür lüğətin daha yaxşı öyrənilməsi və saxlanmasına nail olmaq üçün həlledici əhəmiyyət kəsb edən tədris strategiyaları, istifadə tezliyi, qeydiyyat və s. kimi məsələlərlə bağlı qərarları əhatə edir.

Yazının məqsədi idiom təlimatının yerinə yetirildiyi zaman ortaya çıxan ən göstərici ölçülərə nəzər salmaqdır. Bununla belə universal və mədəniyyətə xas metaforlar və yaxud metonimiyalar ətrafında tərtib edilmiş konsepsiya yönümlü dərsliyin qəbulu, lazımi morfosintaktik işarələr və istifadədə potensial məhdudiyyətlər haqqında məlumatla müşayiət olunmaqla, ingilis dilini öyrənənlərə gündəlik dil istifadəsində idiomların hər yerdə olmasından xəbərdar olmağa kömək edəcəkdir.

Əsas məqsədlər arasında idiomların müxtəlif xüsusiyyətlərinin onların təfsirinə necə təsir etdiyini, dil istifadəçilərinin deyimlərin mənaları haqqında nə dərəcədə yekdil olduğunu və nəhayət, ikinci dil öyrənənlərin ingilis deyimlərini nə dərəcədə yaxşı tanıdığını öyrənmək idi. Lüğətin və leksik ifadələrin və ya dil "parçalarının" dil öyrənilməsində əhəmiyyəti qəbul edilsə də, idiomlara hələ də laqeyd yanaşılmışdır. Deyimlərin işlənməsi və yaddaşda saxlanması ilə bağlı xüsusiyyətləri müzakirə edilmişdir. İdiomlarla bağlı araşdırmalar, lakin ana dili danışanlara cəmləşmişdir. Bununla belə, deyimlər gündəlik dildə, xüsusən də mediada tez-tez istifadə olunur. Buna görə də, bəzi biliklər və idiomlar haqqında məlumatlı olmaq, xüsusən daha qabaqcıl səviyyədə yerli olmayan öyrənənlər üçün vacibdir. Bu tədqiqat idiomun mənasını onun tərkib hissələrinin hərfi mənalarının cəmindən fərqli olan məcazi çoxmənalı ifadə kimi müəyyən edir.

Burada xüsusilə deyim termininin məzmunu, mümkün tədris üsulları, kompozisiya anlayışları, registr və tezlik anlayışları, deyimlərin xüsusi xarakteri və ya olmaması, tədris üçün uyğun tələbələrin səviyyəsi və nəhayət deyimin öyrədilməsi yolu kimi məsələlərə toxunulacaq.

Yuxarıda qeyd olunan aspektlər həlledici əhəmiyyət kəsb edir, çünki idiom biliklərinin olmaması tələbələrin ümumi fəaliyyətinə təsir göstərəcək. Beləliklə, həm müəllimlər, həm də tələbələr üçün idiomların tərifi və ya tədris metodologiyası kimi mövzuların həll edildiyi yaxşı müəyyən edilmiş bir mühitdə idiomlarla məşğul olmaq vacibdir. Bu yazı, bütövlükdə təhsil prosesinin iştirakçıları üçün faydalı olacaq.

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASININ MƏNBƏLƏRİ

Hüseynova T.Q.
Bakı Slavyan Universiteti
E-mail: askeryy@mail.ru

Təhsil sisteminin daimi təkmilləşməsi bu gün dünyanın super dövlətlərinin siyasətində mühüm məsələlərdən biri kimi xüsusi yer tutur. Bu baxımdan dünya təhsilinə inteqrasiya olunan Azərbaycan təhsilində köklü dəyişikliklər reallaşdırılmaqdadır. İslahatlar ana dilinin tədrisi üçün yeni era kimi dəyərləndirilir, ibtidai siniflər bu prosesdə başlıca obyektdir.

Ümumiyyətlə, ana dilinin təhsil sistemində çox böyük rolu və əhəmiyyəti var. Böyük pedaqoq və ədəbiyyat tarixçisi F.B.Köçərli haqlı olaraq "Ana dili millətin mənəvi diriliyidir", - deyə vurğulamışdır.

Ruhun qidası olan ana dili ailədə, uşaq bağçası və məktəbdə təlim və tərbiyədə mühüm vasitədir; ana dilinin öyrənilməsi məktəblilərin ünsiyyət imkanlarını genişləndirir, düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Buradan da ana dili tədrisi metodikasının problemlərinin tədqiqi həmişə aktualdır.

Çox zaman alimləri belə suallar maraqlandırır. Uşaq ana dilini öyrənməyə nə vaxtdan başlayır? Yəqin ki, bu suala hər kəs asanlıqla belə cavab verər: ana laylalarından! Biz də bu fikirdəyik. Lakin bu sadə sual-cavabın arxasında ana dilini öyrənməyin çox vacib bir sirri gizlənir.

Uşaqlar məktəbə gələnə qədər kifayət qədər şeir əzbərləyir, nağıl bilirlər. Onlar məktəbə böyük bir həvəslə gəlirlər. Lakin bir sıra hallarda məktəb körpələrin poeziyaya olan bu həvəsini konkret bir qəlibə salır, onu məhdudlaşdırır. Nəticədə dünən şeiri çox asanlıqla əzbərləyən bir uşaq birdən-birə passivləşir. 4-5 yaşında uzun-uzadı foklor nümunələrini birnəfəsə deyən körpə sanki çevrilib başqası olur. Axı, nə olmuşdur?! Nə üçün bu gün o, müəllimin ciddi şəkildə tapşırdığı bir əsəri əzbərləyə bilmir, və ya əzbərləmək istəmir?

Bir şey tam aydındır: qaydalar varsa, orada qaydaların qorunması da var. Başqa sözlə dil qanunlarınının pozulmaz sərhədləri var. Deməli haradasa məhdudiyyət var. Dil qanunlarının tətbiq olunması qaydaları var .

Əgər biz uşağa ana dilinin zənginliyini, məna gözəlliyini beşikdə ikən foklor nümunələri vasitəsilə

öyrədiriksə, deməli, dilin qrammatik qanunlarını elmi şəkildə öyrətməkdən öncə nənələrimiz həmin qaydaları ana südü ilə körpəyə əmizdirmişlər. Bu isə ana dili tədrisi üçün çox vacib bir problemi ortaya qoyur: məktəbdə dili öyrənmək üçün hansı üsuldan istifadə etmək daha zəruridir? Əvvəl qrammatik qaydaları öyrədib onun isbatı üçün nümunələri bədii mətndə axtarmaq, yoxsa bədii əsərlərdə gizlənən sözaltı mənaları, rişxənd və eyhamları, bir sözlə, obrazlı düşüncəni uşağa aşıladıqdan sonra dil qaydalarına müraciət etmək? Ənənəvi təhsillə Avropa texnologiyalarının üzləşdiyi indiki məqamda bu sualın cavabı mühüm elmi əhəmiyyət kəsb edir.

Ana dili təlimi problemi XIX əsrin 30-cu illərindən Azərbaycan pedaqoq alimlərinin əsərlərində öz əksini tapmış, əsrin ikinci yarısında daha geniş vüsət almışdır. A.A.Bakıxanov, M.Ş.Vazeh, M.Kazım bəy, L.M.Lazarev, L.Z.Budaqov və başqaları ana dilini öyrətməyin zəruriliyini dönə-dönə göstərmiş, bu dildə uşaqların nitq və təfəkkürünü inkişaf etdirməyi məsləhət bilmişlər. Ana dili təlimində əyani vəsaitlərin, müəllimin iş metodlarının rolu məsələsi xüsusi qeyd olunmuşdur.

Azərbaycan dili tədrisinin ilk tədqiqatçısı və bu haqda elmi fikir söyləyən professor Mirzə Kazım bəydir. O, 1839-cu ildə "Qrammatika turetsko-tatarskoqo yazıka" kitabında Azərbaycan dilinin morfologiya və sintaksis bölmələrinin öyrədilməsinin ümumi məsələlərindən bəhs etmişdir. Onun davamçılarından P.M.Budaqov "Praktiçeskoye rukovodstvo turetsko-tatarsko azerbaydjanskoqo nareçiya" (1857) adlı əsərində 20 dərs nümunəsi vermiş və hər dərsin sonunda mətndə olan cümlələrin sintaktik xüsusiyyətlərini izah etmişdir. M.Ə.Vəzirov "Uçebnik tatarsko-azerbaydjanskoqo nareçiya" (1861) əsərində M.Kazım bəyin qrammatikasında olan məlumatı sadə və asanlaşdırılmış şəkildə vermişdir.

1866-cı ildə L.M.Lazarev "Türk dilinin müqayisəli müntəxəbatı" adlı dərsliyini Moskvada çap etdirmişdir. 1869-cu ildə L.Budaqov "Lüğəti-türki" adlı əsərini Peterburq şəhərində nəşr etdirmişdir. Şübhəsiz, bu tədqiqatların hər biri XIX əsr Azərbaycan dili və onun tədrisinin inkişafı tarixi üçün yüksək qiymətləndirilməlidir.

Bu tədqiqatlar ibtidai məktəbdə ana dili təlimi üzrə iş aparmağa müəyyən elmi əsaslar vermişdir. Bunlardan faydalanaraq A.O.Çernyayevski, R.Əfəndiyev, Q.R.Mirzəzadə və s. tərəfindən ibtidai siniflərdə ana dili təlimi üzrə aparılan işlər bir qədər genişləndirilmiş və təkmilləşdirilmişdir. XX yüzilliyin əvvəllərində H.Qaradaği, H.Mahmudbəyov, M.H.Rüşdiyyə və başqaları öz tədqiqatlarında kiçik yaşlı məktəblilərə cümlə qurmaq, cümləni suallarla genişləndirmək və başqaları ilə ünsiyyətdə olmaq bacarıqları aşılanmasından bəhs etmişlər. Bir sıra mənbələrə (arxiv materiallarına) görə Azərbaycanda ilk "Əlifba" dərsliyinin müəllifi M.F.Axundov olmuşdur. Təəssüf ki, onun "Əlifba" dərsliyinin yazılma tarixi və özü hələlik məlum deyildir.

Qori Müəllimlər Seminariyasının Azərbaycan (tatar) şöbəsinin inspektoru işləyən milliyyətcə rus olan, A.O.Çernyayevski qısa bir müddətdə ərəb əlifbasını öyrənmiş, sövti üsulla "Vətən dili" adlı dərsliyini yazıb çap etdirmişdir. Bu kitab Azərbaycan uşaqları üçün ikinci "Əlifba" dərsliyi olmuşdur. 1882-ci ildə R.Əfəndiyev müəllimi A.O.Çernyayevskinin həmin kitabının üzünü daşa basmasına köçürmüşdür. 1888-ci ildə A.O.Çernyayevski S.Vəlibəyovla birlikdə "Vətən dili" kitabının ikinci hissəsini çap etdirmişdir. Onlar həmin kitabın giriş hissəsində bir sıra dil materiallarının öyrədilməsi ilə əlaqədar tövsiyələr vermişlər.

1899-cu ildə R.Əfəndiyev "Uşaq bağçası" dərsliyini çap etdirmişdir. Müəllif bu kitabda Azərbaycan dilinə yaramayan, ərəb məxrəci ilə tələffuz olunan səkkiz ərəb hərfini əlifbadan kənarlaşdırmışdır. Nəticədə 32 hərfdən 24-nü saxlamışdır. Həmin hərflər əsasında "Uşaq bağçası" kitabında 24 dərs vermişdir.

R.Əfəndiyevin 1901-ci ildə ikinci dərsliyi "Bəsirət-ül-ətfal qiraət" kitabı nəşr edilmişdir. Beləliklə də Azərbaycan dilinin tədrisi tarixində R.Əfəndiyevin öz xüsusi mövqeyi olmuşdur.

1870-ci ildə Şamaxıda S.Ə.Şirvani, 1892-ci ildə Ordubadda, 1894-cü ildə Naxçıvanda M.T.Sidqi, 1883-cü ildə Şuşada S.Vəlibəyov, az sonra M.M.Nəvvab, 1893-cü ildə Təbrizdə M.H.Rüşdiyyə yeni məzmunlu ibtidai məktəblərin yaradılmasına nail oldular.

Məktəblər maddi texniki baza, dərs ləvazimatları ilə, dərsliklərlə təmin edildilər. Məktəblilərə nizam-intizam qaydaları ilə yanaşı ana dilinin sadə nəzəri və praktik məsələləri də öyrədilirdi.

1880-ci ildən Azərbaycan məktəblərində sövti üsul tətbiq edildi və çox keçmədi ki, "üsuli-cədid" məktəbləri açılmağa başladı. Məsələn, M.Möhsün Şuşada, M.İsmayıl Lənkəranda, S.Ə.Şirvani Şamaxıda, M.T.Sidqi Naxçıvanda bu tipli məktəblərin açılmasına nail oldular.

S.Ə.Şirvani üç bölmədən ibarət "Məcmuəyi-asari-Hacı Seyid Əzim Şirvani" dərs kitabını yazdı. Birinci bölməyə Sədinin "Gülüstan"ından, fars və rus kitablarından 71 tərcümə, ikinciyə 51 nəsihət, üçüncüyə isə özünün yazdığı öyüd və nəsihətlərini daxil etdi və ilk dəfə həmin dərslikdən şairin öz məktəbində istifadə olundu.

ŞİFAHİ NİTQDƏ ORFOEPİK NORMALARIN GÖZLƏNİLMƏSİ

İbişova A.A.
Bakı Slavyan Universiteti
E-mail: aibishova@std.beu.edu.az

Ədəbi dilin şifahi forması hələ lap qədim dövrlərdən, yəni eramızdan çox əvvəllər, əlifbanın və yazının meydana gəlmədiyi vaxtlarda insanlar arasında xalq yaradıcılığı dili kimi atalar sözləri, zərb-məsəllər, holavarlar, sayaçı sözləri, ağılar, nəğmələr, bayatılar, qaravəlilər, tapmacalar, nağıllar, mahnılar və xalq oyunları – tamaşaları şəklində işlənmişdir. Hazırki şifahi ədəbi dil ali və orta təhsil müəssisəsi müəllimlərinin, aktyorların, söz ustadlarının, radio və televiziya aparıcılarının və başqa sahələrdəki ziyalıların hesabına səlisləşir və zənginləşir. Şifahi nitq danışılan və eşidilən nitqdir. Şifahi nitq əl-qol, bədən hərəkətləri (jestlər), üz, göz, qaş, dodaq, (mimika) hərəkətləri və səsin ahəngdarlığı ilə müşayiət edilir. Şifahi nitqin tərkib hissəsi olan səsin ahəngi və bədən üzvlərinin hərəkətləri sözlərlə ifadə edilən fikri fərqli çalarlarda çatdırmaq üçün əlavə imkanlar yaradır.

Ümumxalq dilində söz müxtəlif formada işlənsə də ədəbi dildə bir variantda işlənir, tələffüz edilir və yazılır. Ədəbi dilin bəzi normaları şifahi və yazılı ədəbi dil üçün ümumi, bəzi normalar yalnız yazılı dil üçün, bəzi normaları isə yalnız şifahi nitq üçün səciyyəvi olur. Şifahi ədəbi dilə xas olan olan qaydalar orfoepik qaydalar adlanır. Bu qaydaların məcmusuna isə orfoepiya deyilir.

Sözün ədəbi dildə tələffüzü orfoepik norma adlanır. Bu norma orfoepiya lüğətində öz əksini tapmışdır. Orfoepiya şifahi nitq üçün xarakterik olan hər şeyi əhatə edir. Orfoepiya fonetik qaydaların bir-biri ilə bağlı əlaqəli məsələlərini tədqiq edir. Orfoepiya ilə yanaşı orfoqrafiya da fonetik qaydalara aiddir. Orfoqrafiya yunan sözüdür, doğru, düzgün yazıram mənasını verir.

Şifahi nitqin əhatə dairəsinin genişləndiyi indiki dövrdə orfoepik normaları gözləmək daha vacibdir. İstək və arzularını, duyğularını oxucuları ilə paylaşan yazıçı və şairlər, teatr səhnəsində çıxış edən aktyorlar, radio və televiziya verilişləri ilə daim xalqla ünsiyyətdə olan aparıcılar, tələbə və məktəblilərə biliklərin əsaslarını öyrədən, onlara yüksək mənəvi keyfiyyətlər aşılayan müəllimlər, tribunalarda dövlət əhəmiyyətli məsələlərdən söhbət edən natiqlər və başqaları şifahi ədəbi dilin imkanlarından istifadə edirlər. Həmçinin danışan şəxs dilin başqa normaları ilə bərabər, tələffüz qaydalarına da düzgün və ciddi əməl edəndə bu daha yaxşı səmərə verir. Buna görə də ictimai ünsiyyətdə ədəbi tələffüz normalarının böyük əhəmiyyəti vardır. Həmin normalar ayrı-ayrı insanların istək və arzuları, fərdi xüsusiyyətləri, zövqləri ilə deyil, dilimizin daxili qanunları ilə əlaqəli olduğundan nitq prosesində heç kimin onları pozmağa haqqı yoxdur.

Şifahi nitq üçün səciyyəvi olan bir çox qaydalar var. Lakin bunların hər biri orfoepiyaya daxil deyildir. Orfoepiyanın obyekti bunlardır: Ayrı-ayrı səslərin və səs tərkiblərinin tələffüzü; Sözlərin və ifadələrin tələffüzü; Qrammatik formaların tələffüzü.

Orfoepiya anlayışı ilə ədəbi tələffüz anlayışı eyni şey deyildir. Orfoepiya anlayışı dar mənada başa düşülür. Halbuki ədəbi tələffüz çox geniş məfhumdur. Ona görə də ədəbi tələffüz anlayışına orfoepiya qaydaları ilə yanaşı vurğu və intonasiya da daxildir.

Vurğu və intonasiya ədəbi tələffüzün məzmununda xüsusi yeri tutur. Əgər sözlər vurğuya uyğun olaraq səhv tələffüz edilərsə, məna pozular və nəticədə də nitqin təsiri azalar. Buna görə də sözlər vurğuya uyğun şəkildə tələffüz olunmalıdır.

İntonasiya danışığa emosional çalar qatdığına görə nitq melodiyası adlanır. İntonasiyaya görə cümlələrin səhv tələffüzü nitqin təsirini azaldır. Bu səbəbdən də intonasiya ədəbi tələffüzdə xüsusi əhəmiyyətlidir.

Orfoepiya qaydaları sabit deyil. O, zamanla dəyişir və daha da təkmilləşir. Orfoepik qaydalarda dəyişikliklərin olması canlı bir prosesdir. Belə ki, qaydaların hər biri cəmiyyətin inkişafı ilə əlaqədar təkmilləşir və dəyişir. Bu təkmilləşmə və dəyişikliklərdə təbii və qanuni olaraq köhnənin aradan qaldırılması və yeninin əlavə olunması ilə əlaqədar baş verir.

Hər bir insanın ən gözəl xüsusiyyətlərindən biri onun zəngin nitq mədəniyyətinə nail olmasıdır. Yüksək nitq mədəniyyəti insanın hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır. Həm məzmun, həm də zahiri cəhətdən düzgün və dəqiq olan nitq fikrin təsirli şəkildə çatdırılmasına xidmət edir. Ona görə də yüksək və zəngin nitq mədəniyyəti olmadan böyük ideya və hadisələri ifadə etmək olmur.

Orfoepiya böyük ictimai əhəmiyyət kəsb edir. O, eyni bir sözün fərqli formalarda tələffüz edilməsinə imkan vermir. Ümumiyyətlə, düzgün tələffüz edilən sözlər və cümlələr həmişə fikirlərin asan və tez bir

zamanda anlaşılmasına imkan yaradır. Bunların vasitəsi ilə şifahi nitqin estetik effekti, yaxud mahiyyəti daha da artır.

Danışan şəxsin orfoepik normalara əməl etməsi onun ictimai borcu kimi dəyərləndirilir. Ədəbi tələffüzə əsaslanan nitq dinləyicilər tərəfindən asanlıqla başa düşülür. Bu cür danışığın estetik təsiri daha güclü olur. Bu keyfiyyətə malik olan natiqlər də dinləyiciləri üçün gözəl nitq nümunəsi verirlər. Tələffüzü qüsurlu olan natiqə istənilən səviyyədə qulaq asmaq olmur. Bu cür nitq diqqəti yayındırır, tez-tez gülüş və istehzaya səbəb olur.

Xüsusilə də, müəllimlərin ədəbi tələffüz baxımından qüsurlu danışığı ilə razılaşmaq olmaz. Ədəbi dilimizin müdafiəçisi, təbliğatçısı, tənzimləyicisi və yayıcıları olan müəllimlər düzgün tələffüz qaydalarına uyğun danışmağı və oxumağı bacarmalıdırlar. Düzgün nitq, nümunəvi tələffüz müəllimin peşəkar hazırlığının və mədəni səviyyəsinin əsas göstəricisidir. Müəllim savadı, dünyagörüşü, davranışı, geyimi, əxlaqı və s. ilə bərabər, istər yazılı, istərsə də şifahi nitqi ilə də başqalarına nümunə olmalıdır. O, nitqində bir dənə də olsun söz və ifadə təhrifinə yol verməməli, danışığı aydınlığı, axıcılığı, intonasiya zənginliyi ilə xoşagəlimli olmalı və diqqəti cəlb etməlidir. Bunun üçün müəllim, ilk növbədə, ədəbi tələffüz baxımından mədəni nitqə qoyulan tələbləri bilməli, nitqində onları gözləməlidir.

Məktəblərdə teleekranda səsləndirilən nitqdən, aktyorun, yaxud da aparıcının oxuduğu mətnlər lentə köçürülür və nitqin inkişafı üçün keçirilən dərslərdə nümunəvi səs vasitəsi kimi istifadə edilir. Bu dərslərdə dinlənilən səsli nitq nümunələri təhlil edilir, onların ədəbi dil, eləcə də orfoepik tələffüz, vurğu və intonasiya normalarının gözlənilməsi cəhətdən üstünlükləri göstərilir. Bu kimi materiallar üzərində aparılan işlər məktəblərimizdə ədəbi dilimizin öyrənilməsinə böyük töhfə verir.

Təəssüf ki, televiziyada (xüsusilə də özəl kanallarda) çıxış edənlərin nitqində ədəbi dilin normalarından kənara çıxma halları müşahidə olunur. Bu, ən çox ədəbi tələffüz normalarının pozulmasında özünü göstərir.

Danışanların nitqində yerli ləhcəyə, məişət danışığına xas olan qüsurlara (məsələn; məhşur, yani, təyyin, gələjək, məsəlçin, belənçik, nərazılıq və s.) yol verilir. Bu qüsurların bəziləri vurğunun səhv deyilməsi ilə də bağlıdır.

Natiq də, o cümlədən də hər hansısa bir savadlı və mədəni insanda ədəbi tələffüz normalarına uyğun danışmaq və oxumaq vərdişi birdən-birə formalaşmır. Bunun üçün ciddi səy, güclü iradə və nitq üzərində müntəzəm işləmək lazımdır. Natiq ilk növbədə nitq mədəniyyəti və həmçinin ədəbi tələffüz, vurğu, intonasiya haqqında dilçilik kitablarını və məqalələrini mütəmadi olaraq oxumalıdır. O, ətrafındakı insanların nitqini daim müşahidə etməli, nitq nöqsanlarını tutmalı, onların baş vermə səbəblərini müəyyənləşdirməlidir.

Ədəbi tələffüz bacarıqlarına yiyələnən zaman natiqin və oxucunun öz nitqini müşahidə etməsi çox vacibdir. Natiq öz nitqini və oxusunu dinləməyi, onun müsbət və mənfi cəhətlərini dərk etməyi, ədəbi tələffüz baxımından nitqini düzəltməyi bacarmalıdır. Bunun üçün radio və televiziya verilişlərindən xarakter mətn (aktyor və aparıcıların ifasında bədii əsərlərdən parçalar, publisistik məqalələr və sairə) lentə köçürülür və dəfələrlə dinlənilir. Natiq öz oxusunu aparıcının oxusu ilə tutuşdurur, müqayisələr aparır və nöqsanları aşkarlayır. Bu cür müşahidə və müqayisələr ədəbi tələffüz qaydalarının, vurğu və intonasiya normalarının öyrənilməsi, nitqə tətbiqi baxımından çox əhəmiyyətlidir.

Orfoepik normalar ədəbi dilin strukturu ilə bağlıdır. Bu norma ədəbi dilimizdəki bütün sözlərin nitqdə düzgün tələffüzünü təmin edir. Şifahi nitqin inkişafı üçün orfoepik normalarının xüsusi əhəmiyyət kəsb edir. Hər kəs fikrini necə şərh etməsindən asılı olmayaraq orfoepik normaları gözləməlidir. Orfoepik normaların pozulması yol verilməz haldır. Əgər danışan şəxs tələffüz qaydalarını pozarsa bu zaman dinləyicinin diqqəti yayınır və söhbətin əsas məğzini anlamaz. Orfoepik normalardan kənara çıxmaq ümumi qavramanın işini ləngidir. Ona görə də orfoepik normaların pozulması hallarına qarşı daim mübarizə aparmaq və onu qorunmaq lazımdır. Çünki bu, bir yüksək nitq mədəniyyəti uğrunda mübarizədir.

TƏDRİS EDİLƏN ƏDƏBİ ƏSƏRLƏR VƏ BU ƏSƏRLƏRİN AKTUALLIĞI

İbrahimova N.C.
Bakı Slavyan Universiteti
E-mail: nezaketibrahimova5@gmail.com

Ümumtəhsil məktəblərində ədəbiyyat dərsliklərindən istifadə olunur. Bu dərsliklər Təhsil Nazirliyi tərfindən kurikulum proqramı əsasında hazırlanmış və ənənəvi ədəbiyyat dərsliklərindən bir çox xüsusiyyətləri ilə fərqləndirilmişdir. Ənənəvi ədəbiyyat dərsliklərində müəllim verilən nağılların,

hekayələrin, dastanların və ədəbi-bədii əsərlərin hər birini müxtəlif üsullarla şagirdlərə çatdırır. Ənənəvi ədəbiyyatda verilən əsərlərin aktual olub-olmaması vacib hesab edilmirdi. Əsas məqsəd kimi şagirdlərin bu mövzuları və əsərləri hansı xüsusda öyrənmək və dərk etmək kimi götürülürdü. Bu gün ədəbiyyat dərsliklərində isə şagirdlərin ədəbi əsərləri öyrənib dərk etmələri ilə yanaşı, həmin əsərlərin aktuallığınıda əsas faktor kimi götürürlər. Əvvəlcə bunu qeyd edə bilərik ki, ədəbiyyat dərsliklərində ədəbi əsərlərə geniş yer verildiyi kimi, dünya ədəbiyyatı əsərlərinə də geniş yer verilməsi məqsədəuyğun hesab edilə bilər. Yəni, hal-hazırda dərsliklərdə dünya ədəbiyyatı əsərlərinə çox az rast gəlinir, bu isə şagirdlərin dünyagörüşünün məhdud şəkildə formalaşmasına şərait yaradır. Ədəbi əsərlər müxtəlif formalarda şagirdlərə öyrədilir. Bu formaların da istifadə olunması üçün şagirdlərin yaş və anlaq səviyyəsi nəzərə alınmalıdır. Verilən mövzular əvvəlcə düzgün şəkildə təhlil edilməli, və ən əsası isə həmin mövzuların bu günümüzlə səsləşməsi ortaya qoyulmalıdır. Bunu da qeyd edə bilərik ki, ədəbiyyat fənnində ədəbi əsərlər özü-özlüyündə digər bədii və yaxud da dünya ədəbiyyatı mövzularından daha aktualdır. Bu gün bizi düşündürən ən aktual mövzulardan biri də vətənpərvərlik, igidlik və Qarabağ mövzusuna aid olan əsərlərdir. Ədəbiyyat dərsliklərində əsərlərin bir çoxunda qeyd etdiyimiz mövzulara rast gəlirik. Bu mövzular şagirdlərdə düşməninin kim olduğunu bilmələrinə və böyüdükləri zaman vətəni qorumaq üçün vətənə xidmət borclarını yerinə yetirmək üçün cəbhəyə getmələrini, eyni zamanda Qarabağ uğrunda gedən döyüşlərdə vətən uğrunda canından keçən şəhidlərimizin qisaslarını necə alacaqlarını və s. kimi xüsusiyyətlərini indidən formalaşdırırlar. Ədəbiyyat dərslikləri hər bir sinif üçün onların yaş və anlaq səviyyələrinə uyğun formada hazırlanmalıdır. Əlbəttə ki, yuxarıda qeyd etdiyimiz mövzular hər bir məktəbdə sinif səviyyəsi nəzərə alınaraq şagirdlərə mənimsədilməlidir. Əks təqdirdə aşağı sinif şagirdinə bu mövzular yuxarı sinif şagirdinə öyrədildiyi kimi öyrədilsə, onların psixologiyasında müəyyən dərəcədə izlər buraxmış olacaq. Məsələn: 8-ci sinif ədəbiyyat dərsliyinə nəzər salsaq görərik ki, burada yalnız vətənpərvərlik mövzuları deyil, eyni zamanda digər mövzularada geniş yer verilmişdir. Bu mövzular da eyni zamanda dövrümüz üçün öz aktuallığını qoruyub saxlayır və dərslikdə ədəbiyyat dövrlər üzrə təhlil olunur. Yəni ədəbiyyatın keçdiyi tarixi-inkişaf yolları öyrədilir. Daha sonra hər bir dövrdə baş verən hadisələr, yazıçılar, şairlər, dastanlar və ədəbi əsərlər haqqında məlumatlar geniş şəkildə verilmişdir. Adlarını qeyd edəcəyimiz əsərlər bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Buna misal olaraq Məhəmməd Hadinin "Türkün nəğməsi" şeiri, Hüseyin Cavidin "Ana" əsəri, Cəlil Məmmədquluzadənin "Qurbanəli bəy" əsəri bu günümüzlə səsləşən ən aktual məsələlərdən hesab edilir. Bu əsərlərdə vətənpərvərlik, qəhrəmanlıq, ananın müqəddəsliyi, ananın dəyər və s. kimi keyfiyyətlər ön plana çəkilir.

Fikrimizcə, 2-ci Qarabağ müharibəsində qazanılan "Zəfər"lə bağlı əsərlərin yazılması və həmin əsərlərin "Zəfərə gedən yol", "Dəmir yumruq", "Qarabağ Zəfərimiz", "İgid Qəhrəmanlarımız" və s. kimi ifadələr ədəbiyyat dərsliklərinə salınaraq şagirdlərdə gələcəyə ümidlə baxmağı, qalib ölkənin qürurlu vətəndaşı kimi böyüməyi və ən əsası da vətənpərvərlik ruhunun formalaşmasında böyük rol oynayacağını görmək mümkündür. Tədris edilən ədəbi əsərlərdə mövzuların bir çoxunun günümüzlə səsləşməsi, aktuallığı yetərincə müşahidə olunur. Təbii ki, bu kimi hallar hər bir dərslikdə fərqli formada özünü göstərir.

Sonda onu qeyd edə bilərəm ki, istər ədəbi əsər, istərsə də bədii əsər ədəbiyyat dərsliklərinə salınarkən əvvəlcə şagirdlərin yaş və anlaq səviyyəsi nəzərə alınsın. Daha sonra isə əsərin mövzusunun şagirdlərdə hansı keyfiyyətləri formalaşdırmasına diqqət yetirilsin. Nəticədə yüksək təhsil ölkəmizə sağlam düşüncəli, keyfiyyətli və iradəli gənclərin yetişməsində böyük rol oynayacaqdır.

KOMMUNİKATİV YANAŞMANIN MÜSBƏT VƏ MƏNFİ CƏHƏTLƏRİ

İmanova N. A.
Bakı Slavyan Universiteti
E-mail:nubarimanova2@gmail.com

CLT-nin tətbiqi ingilis dilinin xarici/ikinci dil kimi tədrisi üçün bir çox üstünlüklər gətirdi. Audio linqvual və qrammatik tərcümə üsullarından fərqli olaraq, kommunikativ tədris "tapşırıq yönümlü, tələbə mərkəzli" dil tədrisi təcrübəsinə diqqət yetirir və bu tələbələrə ünsiyyət üçün ingilis dilindən hərtərəfli istifadəni təmin edir (Richards, 2006). Müxtəlif alimlər CLT-nin əsas üstünlükləri olaraq aşağıdakı fikirləri irəli sürürlər: CLT, tələbələri ingilis dilindən müstəqil istifadə bacarıqlarını təkmilləşdirməyə həvəsləndirir, çünki o, hədəf dildə səlis danışmağa diqqət yetirir. Bu o deməkdir ki, CLT, tələbələrə nə danışacaqları və özlərini necə ifadə edəcəkləri barədə öz fikirlərini təkmilləşdirməyə imkan verən tapşırıqlar da verir. CLT, öyrənənlərə digər insanlarla ünsiyyət qurarkən daha inamlı olmağa imkan verir və onlar artıq daha çox

danışmaqdan həzz alırlar. Öyrənmə prosesinin əsas hissəsi müəllimin üzərinə düşmür, beləliklə, CLT siniflərinin müəllim mərkəzliliyindən şagird mərkəzliliyinə keçdiyini göstərir. Başqa sözlə, şagird daha çox vaxt sərf edir ki, müəllimin rolu sadəcə təlim prosesini asanlaşdırmaqdır. Beləliklə, şagird kommunikativ səriştəyə nail olmaq üçün CLT sinfində kifayət qədər məşq etməli və ünsiyyət qurmalıdır (Brown, 2001). CLT kommunikativ bacarıqlara diqqət yetirir və ona yönəldir. Beləliklə, öyrənənlərin real həyatda ünsiyyətdə ehtiyaclarını ödəmək üçün dildən kommunikativ vəziyyətdə istifadə etmələrinə şərait yaratmaq CLT-də prioritetdir (Richards, 2006). Başqa sözlə, CLT, doğma İngilis dilinin real həyat vəziyyətini rol oyunu və simulyasiya kimi sinif fəaliyyətlərinə gətirir (Harmer, 2007). Dilin öyrədilməsi və öyrənilməsinə kommunikativ yanaşmanın üstünlükləri olduğu kimi, bu yanaşmanın prinsipləri ilə bağlı müxtəlif tənqidlər də olmuşdur. Bunlar yanaşmanın dezavantajları kimi qəbul edilir.

Bu yanaşma qrammatika və quruluş qaydalarına deyil, mənalara və istifadə qaydalarına üstünlük verir. Yəni tələffüz və qrammatik səhvlərin düzəldilməsinə kifayət qədər diqqət yetirilmədiyi hiss olunur. Bunun səbəbi forma bahasına mənaya çox diqqət yetirməkdir. CLT ilə şifahi bacarıqlara çox diqqət yetirmək təhlükəsi olduğuna, oxu və yazma bacarıqlarına daha az diqqət yetirildiyinə inanılır.

CLT yanaşması qrammatika və tələffüzdə dəqiqliyə deyil, nitiqin səlisliyinə diqqət yetirir. Hughesə (1983) görə kommunikativ dilin öyrədilməsi "səlis, lakin qeyri-dəqiq" öyrənənlərin yetişməsinə gətirib çıxarır.Y Yəni əslində CLT-dən istifadə etməkdəki məqsədə (şifahi nitqin inkişafına) nail olmuş olunmur. CLT yanaşması dil səviyyəsi orta və yüksək olan tələbələr üçün əladır, lakin yeni başlayanlar üçün həm müəllim nəzarəti həm də təcrübə tələb edir. Öyrənilməsi hədəf olan xarici dildə bilik səviyyəsi aşağı olan tələbələr şifahi kommunikativ fəaliyyətlərdə iştirak etməkdə çətinlik çəkə bilər. Çünki onların lüğət bazası kifayət qədər zəngin olmur, qrammatik qaydalara dil səviyyəsi yüksək olan tələbələr qədər aşina olmurlar. Əlavə olaraq, əgər müəssisə tərəfindən istifadə olunan imtahanlar qrammatikaya əsaslanarsa, kommunikativ səlislik heç də gözlənilən nəticəyə uyğun olmaya bilər. Müəllimin nəzarət qabiliyyəti də çox yaxşı olmalıdır. Bundan əlavə, bu yanaşmanın əsasını təşkil edən əsas prinsip onun tələbələrin ehtiyac və maraqlarına önəm verilməsidir. Yəni yanaşmanın istifadə olunduğu mövzu öyrənənlərin maraq dairəsini əhatə etməlidir ki, öyrənənlərin də dərsə yanaşması daha çox olsun. Bu o deməkdir ki, hər bir müəllimin tədris planını tələbələrin ehtiyaclarına uyğunlaşdırmaq üçün daha çox səy göstərməlidir. Beləliklə, CLT yanaşmasından istifadə etməyi planlaşdıran müəllim digər metod yaxud yanaşmalardan istifadə edən müəllimlərlə müqayisədə tədris edəcəyi mövzuya hazırlaşmaq üçün daha çox vaxt sərf etməlidir.

Yuxarıda qeyd olunan CLT yanaşmasının üstünlüklərinə və dezavantajlarına əsasən belə nəticəyə gəlirik ki, bu yanaşmadan istifadədən öncə xarici dili tədris edəcək müəllim bütün bu nüansları (dezavantajları) nəzərə almalı və əgər uyğun olarsa istifadə etməlidir.

QRUP VƏ CÜTLƏRLƏ İŞİN TƏŞKİLİ FORMALARI

İsgəndərli N.Z.
Bakı Slavyan Universiteti
E-mail: isgenderlinermin98@gmail.com

Təhsil islahatının əsas vəzifəsi olan təlim prosesinin daha səmərəli qurulması baxımından artıq təlim strategiyası pedaqoji anlayış kimi işlənilir. Təlim strategiyasına müəllim və tələbələrin fəaliyyət mexanizmlərini vahid məqsəd istiqamətində birləşdirən, bu məqsədə çatmaq yolunda istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusu kimi baxılır. Bu isə, ümumilikdə pedaqoji prosesi "əməkdaşlıq pedaqogikası" və "yeni pedaqoji təfəkkürün" ən başlıca ideyası və əldə olunacaq nəticəsi öyrənənlərin yaradıcılıq potensialını aşkar edib üzə çıxarmağa, onların fərdi yaradıcılıq qabiliyyətlərinin inkişafına yönəltməkdir. Bu gün müstəqil olaraq düşünən, mühakimə yürütməyi bacaran, kollektiv və qrupda fəaliyyət göstərən, öz hərəkətlərinin nəticəsini götür-qoy edən, anında doğru qərarlar qəbul edən, ağlın çevikliyi, tənqidiliyi və s. kimi təfəkkür keyfiyyətlərinə malik şüurlu vətandaş yetişdirilir ki, pedaqoji fəaliyyətimizdə istifadə edəcəyimiz metodlar bu məqsədlə üzvi şəkildə uzlaşmalıdır. Sadalanan keyfiyyətləri aşkar edəcək, formalaşdıracaq, inkişaf etdirəcək və bacarığa çevirəcək təlim metodları - fəal təlim və ya problemli-dioloji təlim metodları təlim strategiyalarının qurulmasında və təhsilin həyata keçirilməsində əhəmiyyətli yer tutur. Bu metodların tətbiqi ilə keçirilən dərslər tələbələrin idrak fəaliyyətinə, təhsil prosesində bütün iştirakçıların əməkdaşlığına əsaslanır.

Tələbələr qrupda birləşir və hər hansı problemi həll etmək üçün birgə fəaliyyətə cəlb olunur. Praktik iş prosesində verilmiş tapşırığın fəal müzakirəsi təşkil edilir, onun həlli üçün fikir mübadiləsi aparılır,

mühakimə yürüdülür, nəzəri materiallar praktik yolla mənimsənilir. Bu iş formasında tələbələrin aşağıdakı bacarıqlara yiyələnməsi üçün real şərait yaranır: ünsiyyət saxlamaq, fikir mübadiləsi aparmaq, dostunun fikrinə hörmətlə yanaşmaq, problemləri birlikdə həll etmək, kollektiv fəaliyyətə uyğunlaşmaq, sağlam rəqabət aparmaq və verilən vaxtdan səmərəli istifadə etmək. Qrup işləri əsasən Kommunikativ Dil Tədrisi və Kooperativ Dil Təlimi metodlarında istifadə olunur. Kooperativ Dil Təlimi metodunda müvəffəqiyyət qazanma dərəcəsi qrupun təbiətindən və təşkilindən asılıdır. Belə ki, bu öyrənənlərin bir-biri ilə qarşılıqlı əlaqədə olması və öyrənməyə həvəsləndirməsi üçün diqqətlə hazırlanmış, strukturlaşdırılmış öyrənmə proqramıdır. Kooperativ Dil Təlimi tələbəyönümlü xarakter daşıyaraq təlimin müvəffəqiyyətlə nəticələnməsinə xidmət edir. Təlimin bu forması kiçik və böyük komandalardan ibarət olub müxtəlif səviyyələri və qabiliyyətləri aşkar edir. Öyrənənlər ikinci dilin qazanılmasında bilik və bacarıqlarını istənilən mövzu ətrafında genişləndirib birgə fəaliyyət əsasında həyata keçirirlər. Kooperativ təlim interaktiv təlim şəraitində, yəni tələbələrin bir-birilərinə qarşılıqlı təsiri nəticəsində həyata keçirilir. Müəllim hər hansı bir iş formasını seçən zaman mütləq qrup işi qaydalarını xatırlatmalı və qarşıya qoyulan məqsədə çatmaq üçün tələbələrin yaradıcılığından istifadə etməlidir. Kooperativ təlim prosesində əldə olunan bir sıra nəticələr vardır. Məsələn, fərdlərarası inkişafa nail olmaq və öyrənmədə fəal iştirak etmək, əks-əlaqə üçün daha çox imkanlar qazanmaq və məzmunu daha dərin anlamaq, tapşırıqların həllində yüksək motivasiya yaratmaq, məzmunda aktiv və konstruktiv iştirak etmək, özü üzərində işləmək qabiliyyəti, qrup konfliktlərini həll etmək, qarşılıqlı təsir bacarıqlarını inkişaf etdirmək, öyrənmə zamanı təcrübələri ilə tələbə marağını artırmaq, şifahi kommunikasiya bacarıqlarını inkişaf etdirmək tələb olunur.

Dərs prosesində tələbələrlər iki-iki işləyir, təlim tapşırıqlarının yerinə yetirilməsində birgə fəaliyyət göstərirlər.Bu onlara bir-birini daha yaxşı başa düşməyə, əməkdaşlıq etməyə, məsuliyyətlərini dərk etməyə imkan yaradır.Cütlərlə iş zamanı zəif və güclü tələbələr birgə işə cəlb olunurlar. Sinif fəaliyyət zamanı həm materialı qavramada çətinlik çəkən tələbə yeni məlumatlar əldə edir və ya aydın olmayan leksik və qrammatik qaydaları dərk edir, həm də güclü tələbə özünü inkişaf yolunda böyük addımlar atır, yəni bir növ yoldaşına öyrədən zaman özü də yeni bilik, bacarıqlar əldə edir.

AUTİZM VƏ CƏMİYYƏT

İsmayılova Ş.M.
Naxçıvan Dövlət Universitet
E-mail: senniismax391@gmail.com

Autizm həm funksiyonal genetika əsasında son kəşiflər, həm də analizinin keçirdiyi tarixi yol baxımından çox mürəkkəb bir diaqnozdur. Bu iş elm və mədəni münasibətlər arasında tez-tez göz ardı edilən ikitərəfli qarşılıqlı əlaqəni özündə birləşdirən daha geniş obyektiv vasitə ilə autizmin inkişafı və tarixindəki dəyişikliklərə necə baxa biləcəyimizi və bunun gələcək tədqiqatlar və müalicələr üçün nəyi ifadə edə biləcəyini araşdırmaqda unikal bir perspektiv ortaya qoyur.

Cəmiyyətimizdə autizm diaqnozu illər keçdikcə artır və cari hesablamalar göstərir ki, təxminən hər 68 uşaqdan birində autizm spektr görünür. Autizm spektrın artan diaqnozlar fonunda, onun etiologiyasını, mexanizimlərini və xəstəlik və ya bir beyin pozğunluğu hesab edilərsə, hansı müalicələrin effektiv olduğunu başa düşməyimiz daha vacibdir.

Əksər hesablamalar onu göstərir ki, Autizmin əsas aspektlərini və təsnifatlarını başa düşməkdə böyük addımlar atmış olsaq da, anlayışımızın çox aydın və tarixən müəyyən edilmiş bir yol izlədiyini də görə bilirik. Autizmi tədqiq etmək və anlamaq üsulumuz, mövcud faktiki dəyişikliklərdən və ya bu inkişaflar üçün zəruri olan texnologiyalardan daha çox sosial və siyasi tendensiyalar tərəfindən güclü şəkildə yönləndirilir.

Ən çox mübahisə olunan və ilk baxışda göründüyündən daha vacib olan bir məsələ isə Autizmin bir "fərqlilik" yoxsa bir "xəstəlik" olaraq, ya da tamamilə fəqli bir tipologiya olaraq adlandırılmasıdır.

Autizm ilk uşaqlıq dövründə özünü biruzə verir. Autizm ilk 8 ayında 3 yaşa qədərki dövrdə özünü tam şəkildə göstərir. Autizmin əlamətləri əsasən sosial əlaqə pozğunluğu, oyuncaqlara fərqli şəkildə yanaşma, insanlarla normal ünsiyyət qurma bacarığının olmaması, ya aşırı dərəcədə hipperaktivlik ya da passivlik, səslərə qarşı normal olmayan reaksiyalar, təhlükələrə qarşı adekvat reaksiya verə bilməmələri, fərqliliklərə qarşı həssaslıq, sosial əlaqə pozuntusu kimi göstəricilərdir. Autizm olan körpələr adətən sosial münasibətlərə maraq göstərmir, bəzən körpəlikdən, bəzən də iləri yaşlardan göz təması qurma bacarığı olmur, jestləri ya heç öyrənə bilmirlər yada çox gec öyrənirlər, simaları ifadəsiz olur. Bununda başlıca səbəbi autizmli insanlar sevgi, qorxu, xoşa gəlmə, qəzəb kimi hissləri çox zəif şəkildə biruzə verə bilirlər.

Autizm spektrində olan bir çox uşaqlar və yetişkinlər müxtəlif sosial vəziyyətlərdə necə davranmalı olduqlarını bilmədikləri üçün öyrənməkdə köməyə ehtiyac hiss edərlər. Onlar tez-tez başqaları ilə ünsiyyət qurmaq istəyində olsalarda bunu necə etməli olduqlarını ya bilmirlər ya da yeni təcrübələr ideyasından sıxılırlar.

Sosial bacarıqlar başqa insanlarla və ətrafımızdakı dünya ilə qarşılıqlı əlaqəmizə rəhbərlik edən qaydalar, adətlər və qabiliyyətlərdir. İnsanlar dil bacarıqlarını öyrəndikləri kimi sosial bacarıqları da almağa meyllidirlər. Bu həm təbii, həm də asanlıqla olur. Zaman keçdikcə onlar necə davranmaq barədə sosial xəritə qururlar. Autizmli insanlar üçün bu bacarıqları öyrənmək normal insanlara görə daha çətindir.

Autizmli insanlarda sosial bacarıqların inkişafı birbaşa və ya açıq təlimat yolu ilə və real mühitdə təcrübə ilə öyrədilir. Vaxtın idarə olunmasına və diqqətə xüsusi önəm verilməsi, ünsiyyət və sosial inteqrasiyanın gücləndirilməsi üçün dəstək, dostluq və xoşbəxtlik kimi mühüm sosial bacarıqları proqnozlaşdıran davranışları öyrənmək də bunlara aiddir.Öyrənməli olduğumuz çoxlu sosial bacarıqlar var və buna görə də bir çox fərqli insan autizmli körpələrə müxtəlif şəraitlərdə- evdə, məktəb və cəmiyyətdə bunları öyrətməlidirlər. Xüsusi təhsil almış müəllimlər və pedaqoqlar, nevropatoloqlar, psixoloqlar birbaşa və açıq təlimatı daha təbii mühitlərdə tətbiq etmək və ümumiləşdirmək imkanları ilə birləşdirən "sosail bacarıqlar qrupu"na rəhbərlik edə bilərlər. Bu autizmli uşaqlara öz həmyaşıdları ilə real həyat təcrübəsi deməkdir. Sosail Bacarıq qrupları hər yaşda olan autizmli insanlara mütəmadi olaraq bir-birləri və ya həmyaşıdları ilə sosial bacarıqlarını tətbiq etmək imkanı edir. Effektiv Sosial Bacarıq qrupları aşağıdakıları etməlidir: Struktur və proqnazlaşdırma bacarığını təmin edin, Mücərrəd sosial anlayışları konkret hərəkətlərə çevirin, Dili sadələşdirin və uşaqları dil səviyyəsinə görə qruplaşdırın, Əməkdaşlıq və tərəfdaşlıq təşviq edilən cüt yaxud da qruplarda işləyin, Çoxlu və fərqli öyrənmə imkanları təmin edin, Özünü dərk etməyi və özünə, şəxsiyyətinə hörmət etməyi öyrədin, Təcrübə toplamaq üçün imkanlar təmin edin ki, bacarıqlar qrupdan kənarda.

Sosial qarşılıqlı əlaqə autizmli insanlar üçün çaşdırıcı ola bilər. Bu insanlar dostluqlarını inkişaf etdirməyə və davam etdirməyə çalışdıqda asanlıqla əsəbləşə və ya məyus ola bilərlər. Autizmli insanların dostluq qurmaqda və onu davam etdirməkdə çətinlik çəkməsinin müxtəlif səbəbləri vardır: Nə deyəcəklərini və özlərini necə ifadə edəcəklərini bilmirlər, Bədən dilini, üz ifadələrini və ya jestləri başa düşməkdə çətiklik çəkə bilərlər, Onlar insanların gözləntilərindən və yaşaya biləcəyi hər hansı bir özünü dərk səbəbindən narahatlıq keçirə bilərlər, Autizmli insanların düşüncələrindəki sərtlik onların güzəştə getmələrini və ya rutin dəyişikliklərin öhdələrindən gəlmələrini çətinləşdirə bilər, Öz qabiliyyətlərinə arxayın olmamaları, özündən razı, qorxaq, əndşəli kimi davranışları nə axtardıqlarından xəbərsiz olan insanlarla dostluq qurmalarını çətinləşdirə bilər, Bəzi dostluqların pozulması dəyərsizliyə və təcrid olunma hissinə səbəb ola bilər, bu da yeni dostluqlar qurmalarına mane olur. Çunki bu insanlara keçmiş xatirələrdən və təcrübələrdən keçmək çox çətin olur, Autizmi insanlara açıqlamağın üstünlükləri və mənfi cəhətləri vardır. Bəzi açıq fikirli və anlayışlı olmayan insanlar "autizm" sözünü əllillik kimi alqılayır. Belə düşüncəli insanlarla dostluq etmək mümkün olmur.

AZƏRBAYCAN DİLİNİN TƏDRİS METODİKASI ELMİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ

Məhərrəmova F.S.
Bakı Slavyan Universiteti
E-mail: fidan.mhrrmova@mail.ru

Elm və texnikanın sürətli inkişafı yeni elm sahələrinin yaranması ilə təzahür edir. Lakin yeni elm sahələrinin yaranması ilə yanaşı qədimliyi ilə seçilən elm sahələri də vardır. Belə elm sahələrindən biri də Azərbaycan dilinin tədris metodikası elmidir. Bu anlayışı götürərək, tərkibindəki hər bir sözün mənasını şərh edək. İlk növbədə, azərbaycan dili nədir? sualına cavab verməyə çalışaq. Prof. Yəhya Kərimovun fikrincə, "Azərbaycan dili, ana dili hər bir millətin varlığını sübuta yetirən qiymətli bir abidədir". Həqiqətən də, bu fikir doğrudur. Əgər dil, xüsusilə ana dili olmazsa, hər hansı bir millətin varlığından söhbət belə gedə bilməz. Dil və onun tədrisi ilə bağlı məsələlər Bəkir Çobanzadənin fəaliyyətinin əsas ana xəttini təşkil etmişdir. "Türk dili və ədəbiyyat üsulu-tədrisi" adlı əsəri ilə dilimizin tədrisi metodikasının əsasını qoymuş, fəaliyyəti ilə metodika elmi vəsiqə almışdır. Bəs tədris nədir? Tədris dərs vermə, təlim deməkdir. Metodika özü bir elmdir, məqsədə çatmaq üçün hazır qaydalar toplusudur. Elm anlayışına gəldikdə isə onun təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemi olduğu məlumdur.

Azərbaycan dilinin tədrisi metodikası elmi haqqında yazılmış kitablardan onun ümumi şəkildə tərifini bu şəkildə çıxarmaq mümkündür. Belə ki, bu elm pedaqoji elmlər sisteminə daxil olaraq, bu fənnin məqsəd, vəzifə, həcm, məzmun, strukturundan, Azərbaycan dili təliminin metod, üsul, vasitələrindən və bilik, bacarıq, vərdişlərin mənimsədilməsi yollarından bəhs edir. Onun obyekti bu dilin, yəni Azərbaycan dilinin təlimi prosesidir ki, özlüyündə iki vəzifəni birləşdirir1. Ana dili təlimi prosesinin mahiyyətini açaraq, onun obyektiv qanunlarını müəyyən etmək; 2. Bu qanunlardan istifadə imkanlarını izah etməklə əsaslandırmaq: Bu elmin özünəməxsus funksiyaları şərhetmə və qabaqlama funksiyalarıdır. Şərhetmə funksiyası özündə təlim prosesinin qanunlarını aşkara çıxarıb şərh etməyi birləşdirirsə, qabaqlama funksiyası isə şərhetmə funksiyası əsasında yaranır, əsas işi gələcək üçün hökm vermək, üzdə olmayan məsələləri aşkar etməkdir.

Hər bir elm sahəsi müəyyən qanunauyğunluqlar üzrə inkişaf edərək fəaliyyət göstərir. Bu qanunauyğunluqlar Azərbaycan dilinin tədris metodikası elminə də aiddir. Bu qanunauyğunluqlar haqqında prof. Bəşir Əhmədov özünün "Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları" adlı elmi-metodiki əsərində yazmışdır. Onun fikrincə, ilk qanunauyğunluq təcrübədir, elə ilk qanunauyğunluq da qabaqcıl məktəb, müəllimlərin iş təcrübələrinin ümumiləşdirilməsi adlanır. Təcrübə elmi inkişaf etdirir. Metodikada isə əsas mənbə məktəb təcrübəsidir. Tədqiqatçı ilk işini məktəbdən başlayır və qabaqcıl müəllimlərin işini öyrənir. Sonra isə əldə etdiyi nəticələri ümumiləşdirir. Aydın olur ki, həm təlim prosesi, həm də məktəb və müəllimlərin iş təcrübəsi metodikanın inkişafında başlıca mənbədir. İkinci qanunauyğunluq bu elmin əvvəllər əldə edilmiş fikirlər əsasında inkişaf etməsidir. Əgər tədqiqatçı metodikayla bağlı əvvəlki təcrübəni yaxşı mənimsəməsə, araşdırmasa onu inkişaf etdirə də bilməyəcək. Hal-hazırda təhsil sistemində milli kurikulum proqramı islahatı uğurla həyata keçirilir və müasir dərslərin məzmununda öz reallığını tapır. Milli kurikulum proqramı milli ənənələr üzərində qurulmuş təhsil proqramıdır. Deməli, biz heç də ənənəvi təhsil proqramının və onun məzmununda istifadə edilən anlayışların üzərindən xətt çəkmirik, onun üzərində müasir dərsi qurmağa çalışırıq. Bugünkü müəllimin ustalığı odur ki, öz fəaliyyətində həm ənənəvi, həm də müasir təlimin imkanlarından istifadə etməklə, dərsini fəal dərs kimi reallaşdıra bilir. Metodikanın bir elm kimi dilçilik, onun şöbələri, pedaqogika, psixologiya, məntiq, ədəbiyyatşünaslıq, ədəbiyyatın tədrisi metodikası ilə əlaqəsi var və bu metodika elminin üçüncü qanunauyğunluğu hesab edilir. Dərs prosesində müəllim psixoloq, pedaqoq, metodist kimi şagirdlərə psixoloji dəstək verməyi bacarmalı, onların yaş xüsusiyyətlərini nəzərə almalı və təlimi ona uyğun olaraq qurmalıdır. Həmçinin bu elmin tarix, coğrafiya, fizika, informatika-riyaziyyat, fiziologiya kimi elmlərlə də əlaqəsi olduğu üzə çıxır. Dördüncü qanunauyğunluq köhnəliklə yeniliyin mübarizəsidir. Hal-hazırda kurikulumun tətbiqi bəzi fikirlərin köhnəlməsinə səbəb olur. Bu fikir metodikaya da aiddir. Belə ki, metodikaya dair bir fikir müəyyən zamandan sonra unudulur, amma sonradan yeni şəraitə uyğun olaraq bərpa oluna bilir. Beşinci qanunauyğunluq isə tənqid azadlığı və fikir mübadiləsidir ki, bu qanunauyğunluğun təmin edilməsi ilə bir sıra mübahisəli məsələlər həll yolunu tapır.

Hər bir elmin inkişafı həm də elm sahəsi üzrə aparılan yeni innovasiyalardan, ideyalardan asılıdır. Bu elmlər içərisində Azərbaycan dilinin tədrisi metodikası elminin tədqiqat metodları ənənəvi və fəal metodlarla bərabər, tədris prosesində müəllim tərəfindən yerinə yetirilir. Ənənəvi təlimdə müşahidə, ümumiləşdirmə və eksperiment metodlarından daha çox istifadə edilirdi. Müşahidə prosesi məqsədyönlüdür. Tədqiqat zamanı ilk iş faktları toplamaqla başlayır. Bu metodun əsas vəzifəsi isə faktları toplamaqdır. Müşahidə 2 cür olur. Bunlara bilavasitə və bilvasitə müşahidə aiddir. Faktları toplayan tədqiqatçı onları qruplaşdıraraq sistem halına salır, analiz, sintez metodlarından istifadə etməklə müqayisəyə cəlb edir və nəticələri aşkar edir. Üçüncü metod eksperiment metodudur ki, düzgün nəticəyə gəlməyə istiqamətlənir. Paralel və çarpaz olmaqla iki yerə ayrılır. Bu metodun eyni zamanda müəyyənedici, öyrədici və yoxlayıcı kimi növləri də aid edilir. Sadalanan bu metodlar bir-biriylə vəhdət təşkil edir. Azərbaycan dilinin tədrisi metodikası elminin həm də məktəb sənədlərinin, proqram, dərsliklərin, elmi metodik ədəbiyyatın təhlili, müsahibə, anket sorğusu kimi metodları da vardır.

Hər bir Azərbaycan dili müəllimi dörd suala cavab verməyi bacarmalıdır. Bunlar nə, nə üçün, necə və harada suallarıdır. Nə? sualına cavab vermək müəllimin ayrı-ayrı siniflərdə nələri öyrətməli olduğunun göstəricisidir. Nə üçün? sualına cavab verən müəllim niyə dil qaydasının dərsin bu mərhələsində öyrədilməsini bilir. Necə? sualına isə Azərbaycan dilinin tədris metodikası elmini mənimsəyən müəllim cavab verə bilər. Necə? sualına cavab verməklə yanaşı, harada? sualına da cavab vermək zərurəti yaranır. Bu günün müəllimi təlimi səmərəli şəkildə qurmaq üçün informasiya-kommunikasiya texnologiyalarından, texniki təlim vasitələrindən və eləcə də elektron kitabxanalardan istifadə etməli və onu öyrənənlərə öyrətməlidir. Müasir müəllim araşdırmalar aparmalı, müasir inkişaf texnologiyalarından baş çıxarmalı, informasiya vermə, təşkiletmə, qiymətləndirmə funksiyalarını daşımalı, bir sözlə yaradıcı olmalıdır.

Azərbaycan dilinin tədris metodikası elmi nəyi (müəllim şagirdlərə hansı məzmunu öyrədəcək), hansı həcmdə, təlimin hansı mərhələsində, hansı bilik, bacarıq və vərdişləri, nə kimi materiallardan istifadə etməklə və necə öyrədəcək kimi məsələləri müəyyənləşdirir. Azərbaycan dilinin tədris metodikası elminin obyekti olan Azərbaycan dili təlimində əsas məqsəd təkcə bu fənn üzrə şagirdləri biliklərlə silahlandırmaq deyil. Bu fənn vasitəsilə şagirdlər mənəvi cəhətdən tərbiyə olunur, onlarda elmi dünyagörüş formalaşır, məntiqi təfəkkür, mühakimə yürüdə bilmək bacarıqları da inkişaf edir. Həm də bu fənn şagirdləri müstəqil həyata hazırlayır, onların nitq bacarıqlarının formalaşmasına şərait yaradır. Bütün bunlar bu fənnin qarşısında duran ümumi və konkret-didaktik vəzifələrdə öz əksini tapır. Azərbaycan dili fənni tədris fənlərinin əsasıdır və bu dilə yiyələnmədən digər fənləri də mənimsəmək mümkün deyildir.

CÜMHURİYYƏT DÖVRÜNDƏ AZƏRBAYCAN DİLİNİN İNKİŞAFI

Məmmədəliyeva H.A.
Bakı Slavyan Universiteti
E-mail: hilal.mmmdliyeva@bk.ru

Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi qısamüddətli tədbirlər xalqımızın tarixində böyük və mühüm iz buraxmışdır.

Milliyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının təmin edilməsi, milli sərhədlərin müəyyənləşdirilməsi, Azərbaycan vətəndaşlığının tanınması, ana dilinin milli dil kimi elan edilməsi Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahəsində atılan addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən ilkin istinad sayıla bilər.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması çətin siyasi dövrdə baş verən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu olmuşdur. Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmməduqulzadə və digər tanınmış şəxsiyyətlərin əsasını qoyduğu proseslər Azərbaycanda yeni teatrların, məktəblərin, mətbuatın yaranmasına, milli şüurun reallaşmasına mühüm təsir göstərmişdir. Bakının neft paytaxtına çevrilməsi milli sahibkarlar təbəqəsinin formalaşması ilə birlikdə dünyanın aparıcı universitetlərində təhsil almış ziyalılar nəslinin yetişməsinə şərait yaratmışdır

Müstəqil dövlətin mühüm xüsusiyyətlərindən biri olan milli dil məsələsi Azərbaycan Xalq Cümhuriyyətinin yeni qurulan hökumətinin mərkəzində dayanırdı. Cümhuriyyət hökumətinin 27 iyun 1918-ci il tarixli qərarı ilə o zaman türk dili kimi tanınan Azərbaycan dili dövlət dili elan edilmişdir. Qətnamə Gülüstan və Türkmənistan müqavilələri ilə Azərbaycanı iki yerə böldükdən sonra ana dilinin dövlət dili kimi istifadə olunmasını nəzərdə tutan ilk sənəddir. Qeyd edək ki, dövlət dili ilə bağlı qərar hökumətin Gəncəyə köçürülməsindən sonra qəbul etdiyi ilk qərarlardan biri olmuşdur. 1918-ci il iyunun 27-də Azərbaycan Xalq Cümhuriyyəti türk dilini dövlət dili kimi qəbul etdmiş və ölkədəki bütün dövlət, məhkəmə, inzibati və digər vəzifəli şəxsləri bu dili bilənə qədər dövlət qurumlarında rus dilindən istifadə etməyə təşviq etmişdir.

Qərardan göründüyü kimi, hökumət dövlətin məhkəmə, polis və digər sahələrdə çalışanlar ölkəni tanıyana qədər dövlət orqanlarında rus dilinin dövlət dili kimi istifadəsinə icazə vermək üçün sonralar türk dili kimi tanınan Azərbaycan dilindən istifadə etmişdir.

Azərbaycan dilinin dövlət dili kimi sözün əsl mənasında işlədilməsi təcrübəsi ilk Azərbaycan parlamentinin dilində geniş şəkildə öz əksini tapmışdır. Bir müddət dövlət idarəçiliyində rus dilindən istifadəyə icazə parlamentdə yox idi. Ona görə də parlamentdə dilin inkişafı məsələsi təbii ki, qanunverici orqanın və parlament üzvlərinin öhdəsinə buraxılmışdır.

Qeyd edək ki, Azərbaycan hökumətinin qərarı sadəcə bəyannamə deyil. Bu qərarın qəbulundan irəli gələn məsələlər parlamentin iclaslarında mütəmadi olaraq müzakirə olunmuş, hökumət tərəfindən 351 min manat vəsait ayrılmaqla Azərbaycan (türk) dilini bilməyənlər üçün kurslar təşkil edilmişdir.

Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi qərarından sonra Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri Behbud xan Cavanşir "Azərbaycan" qəzetinə müsahibəsində dövlət dili siyasətinin əsaslarını şərh etmişdir. Onun sözlərinə görə Türk dilini bilməyən yüksək vəzifəli məmurlar uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri dövlətə məxsus olacaq.

Azərbaycan Xalq Cümhuriyyəti dil siyasətinin həyata keçirilməsində təhsilin çox mühüm sahə olduğunu vurğulamış, bunun davamı olaraq 1918-ci il avqustun 28-də hökumət ibtidai və orta təhsildə ana dilində təhsilin verilməsi haqqında qərar qəbul etmişdir. Qərarda deyilmişdir:

l. Bütün ibtidai məktəblərdə təhsil ana dilində aparılır;

2. Dövlət dili məcburi tədris olunur.

Cümhuriyyətin dil siyasəti yuxarıda qeyd olunan qərarlarla bitməmişdir. Artıq bütün dairələrdə yeni dil rəsmi olaraq qəbul edilmişdir. Bu islahatların məntiqi davamı olaraq Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Naziri Səməd Bəy Mahmandarov 1918-ci il dekabrın 27-də ordu dilinin Azərbaycan-türk dili olmasını əmr etmişdir.

Yuxarıda qeyd olunan qərarlara əsasən, qısa müddətdə dillə bağlı görülən işlər aydın görünmüşdür. Bu qərarların məntiqi davamı Azərbaycanda ilk universitetin tikintisi məsələsi ortaya çıxanda ölkədəki mövcud linqvistik vəziyyətdən irəli gələn bütün gərginlik və problemlərlə özünü büruzə vermişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa olsa da, xalqımızın çoxəsrlik tarixində mühüm bir dövrdür. Təsadüfi deyil ki, bu iki il xüsusi bir dövr kimi xatırlanır. Çünki bu nadir dövrün xalqımızın ictimai, siyasi və mənəvi həyatında oynadığı rol və onların gördüyü və görmək istədiyi iş onların görə bilmədiyi yüzlərlə işin səviyyəsinə bərabərdir.

Xüsusilə qeyd edək ki, dövlət dili ilə bağlı bu qərar hökumətin 1918-ci il 9 noyabr tarixli "Dövlət Bayrağı haqqında" qərarından altı ay əvvəl verilmişdir. Bu fakt ilk Azərbaycan hökumətinin milli dil məsələsinə necə diqqət yetirdiyini açıq şəkildə göstərir.

Yəni bu qərar bizim dilimizdən milli dil kimi istifadə edən ilk sənəddir. Başqa sözlə, qərar qəbul ediləndən sonra Azərbaycan dili tarixində ilk dəfə olaraq Azərbaycan dili milli dil elan edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dil və təhsillə bağlı altı qərar qəbul edilmişdir. Bu qərarlardan Azərbaycan dili ilə bağlı xüsusi qərar və fərmanlar böyük əhəmiyyət kəsb etmişdir.

Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyətinin yüz illiyi", 2018-ci ilin isə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi təqdirəlayiqdir.

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNƏ AUDİOMATERİALLARIN TƏDRİSİ İSTİQAMƏTLƏRİ

Məmmədli M.Ə.
Sumqayıt Dövlət Universiteti
E-mail: meryem_memmedli@icloud.com

Dinləmək həm məqsəd,həm də öyrənmə vasitəsidir.Qulaq vasitəsilə nitqin semantik qavranılmasını öyrənmək şagirdlərin ümumi eşitmə bacarıqlarının formalaşdırılması üçün məşqləri,nitq məşqlərini və audio mətndən sonrakı təhsil işlərini yerinə yetirməsini əhatə edir,yəni dinləmə təlimi dinləmə mexanizmlərini inkişaf etdirməyə və təkmilləşdirməyə yönəldilmişdir. Aktiv zehni fəaliyyət kimi dinləmə səsli nitqin qavranılması və dərk edilməsinin mürəkkəb prosesidir.

İbtidai siniflərdə audiomateriallardan istifadə zamanı müəllimin əsas vəzifələri aşağıdakılardır: 1)Maraq yaratmaq,mövzuya diqqət yetirmək və dinləməzdən əvvəl uşağı müxtəlif audiomateriallar vasitəsilə dinləməyə hazırlamaq; 2)Dinləyərkən kömək etmək,dinləmə zamanı çətinlikləri aradan qaldırmaq,diqqəti bəzi vacib məqamlara yönəltmək və tam olaraq düzgün məlumatı eşitməyi öyrətmək; 3)Müzakirə etmək,dinlədikdən sonra nəticə çıxarmaq.

Dinləmə-təkcə audio materialın məzmununun nə dərəcədə başa düşüldüyünü yoxlamaq üçün deyil,həm də bilikləri möhkəmləndirmək üçün də motivdir.

Dərsdə şagird müəyyən mövzuda audiomaterialı qavramağa hazır olmalıdır.Müasir dövrdə ibtidai siniflərdə dinləməyi öyrənmək ilk dərslərdən başlayır.İbtidai məktəb yaşlı şagirdlərin yaş xüsusiyyətləri, psixikası,nitq keyfiyyətlərinin formalaşması audiomaterialların öyrədilməsinin adekvat və səmərəli yollarının axtarışını tələb edir.A.N.Şçukin qeyd edir ki,dilin öyrədilməsinin ilk mərhələsində dərslərin qarşısına məqsəd qoyulur:

1)Məktəblilərin yaş xüsusiyyətlərini nəzərə alaraq kommunikativ bacarıqların formalaşdırılması;

2)Ana dili və xarici dillərdə müşahidə olunan bəzi universal linqvistik anlayışların formalaşması;

3)Mahnı,şeir,nağıl,folklor,oyun və əyləncə dünyası ilə tanışlıq;

4)Ana dili və mədəniyyət dünyasından fərqli yeni dil dünyasına erkən kommunikativ-psixoloji uyğunlaşma və gələcəkdə xarici dilin ünsiyyət vasitəsi kimi istifadəsində psixoloji maneəni aradan qaldırmaq üçün şəraitin yaradılması.

Dinləmə bacarıqlarının inkişafı baxımından ibtidai sinif şagirdləri aşağıdakıları bacarmalıdırlar: birbaşa ünsiyyət zamanı müəllimin və sinif yoldaşlarının nitqini qulaq ilə başa düşmək, eşitdiklərini şifahi və

ya qeyri-şifahi şəkildə cavablandırmaq; tanış dil materialı üzərində qurulmuş hekayələrin,nağılların əsas məzmununu audiomaterialda qulaqla qəbul etmək.

İlkin mərhələdə dinləmənin tədrisinin spesifikliyi ondan ibarətdir ki, məhz bu dövrdə şagirdlər dil bacarıqlarının daha da inkişafı və təkmilləşdirilməsi üçün zəruri olan kommunikativ səriştənin əsaslarını qoyurlar.Artıq ilk dərslərdən şagirdlərə müəllimin və ya digər natiqin nitqini diqqətlə dinləməyi öyrətmək,bununla da dinləmə mədəniyyətini aşılamaq lazımdır.Bundan əlavə,qeyd etmək lazımdır ki, ilkin mərhələdə dinləmək təkcə öyrənmə məqsədi deyil,dilin fonetik aspektini, onun intonasiyasını, ritmini, melodiyasını mənimsəməyə kömək edən vasitədir.

Məqsədli audiomaterialların tədrisi dil vahidlərinin səs nümunələrinin yaddaşa həkk olunmasından və nitq axınında tanınmasından başlayır.Əvvəlcə şagirdlərə tanış material üzərində qurulmuş kiçik mətnlər(həcmi üç leksik vahiddən çox ola bilməz)təklif olunur.Qeyd etdiyimiz kimi,öyrənmənin ilk mərhələlərində məktəblilər hələ uzun müddət işə çox cəmləşə bilmirlər:əgər mətn çox uzundursa,o zaman diqqətin dağılma ehtimalı artır və mətnin məzmununu bütövlükdə başa düşmək olmur.İlkin mərhələdə tanış material əsasında mətni tam dərk etmək bacarığının inkişafına diqqət yetirilir.Təlim prosesinə tanış material üzərində qurulmuş şeirlərin və mahnıların daxil edilməsi olduqca effektivdir,çünki bu mərhələdə şagirdlər məhdud leksik vahidlərə və qrammatik strukturlara malikdirlər.İbtidai məktəb yaşında olan şagirdin səsli mətn haqqında anlayışı məntiqi yox,ifadəli və emosionaldır.Onların qavrayışının aniliyi,obrazlılığı şagirdlərin təxəyyülünə ən çox nəyin təsir etdiyini yaradıcı,həssas dərk etməyə gətirib çıxarır.Görülən və ya eşidilən şeyə maraq nə qədər güclü olarsa,qavranılanların məzmunu bir o qədər yaddaşda möhkəm saxlanılır.Maraq diqqətin ən güclü stimullarından biridir.Bu məlumat qəbulu ilə qeyri-iradi diqqət işə salınır.Diqqətin olması qavrayışın aydınlığı və daha yaxşı yadda saxlanması üçün əsas şərtdir. Dinləyici qulaq asmaq ehtiyacı hiss edirsə,bu,onun psixi potensialının maksimum səfərbər olmasına gətirib çıxarır.Nitq eşitməsi və hətta hiss orqanlarının həssaslığı ağırlaşır,psixi proseslərin intensivliyi artır.İbtidai sinif şagirdləri üçün nağıllara əsaslanan mətnlər,heyvanlar haqqında əyləncəli hekayələr,cizgi filmləri,komikslər əlçatan və maraqlıdır.Uğurlu dinləmə üçün təsirli stimul yumor elementləri olan audiomaterialların istifadəsidir.Yumor rahatlıq atmosferi yaratmağa kömək edir.Yumoristik vasitələrlə baş verən psixoloji rahatlama müəyyən mənada çətin anların dekodlanması ilə bağlı gərginliyi neytrallaşdırır.

Dinləməyi öyrənməyin ilkin mərhələsində mətnin qavranılmasını asanlaşdırmaq üçün audiomateriallardan istifadə etmək çox faydalıdır.Kukla personajları,parlaq şəkillər,üz ifadələri, jestlər və video ardıcıllığı belə vizual dəstək kimi xidmət edə bilər.Tədrisin birinci ilində vizuallaşdırmanın istifadəsi xüsusilə vacibdir ki, bu da ibtidai məktəb yaşlı şagirdlərin psixoloji xüsusiyyətləri ilə bağlıdır. Şəkillərdən,oyuncaqlardan və digər əyləncə vasitələrindən istifadə obrazlı və assosiativ yaddaşı inkişaf etdirir.Audio mətnlə işləyərkən məşqləri aşağıdakı qruplara bölmək olar: mətnqabağı məşqlər; dinləmə zamanı yerinə yetirilən məşqlər; mətndən sonrakı məşqlər .

Mətnqabağı məşqlərin məqsədi ünsiyyət üçün situasiya,motiv yaratmaq və kommunikativ tapşırığı formalaşdırmaq,o cümlədən qavramaq və anlamaqda yaranan çətinlikləri aradan qaldırmaqdır.Çətinliklərin aradan qaldırılması müxtəlif dayaqlardan və qavrayışı asanlaşdıran digər amillərdən istifadə etməklə əldə edilir.Dərslikdə mətndən əvvəl tapşırıqlar yoxdursa,onları təkbaşına hazırlayıb təqdim etmək müəllimə tövsiyə olunur.Mətni şagirdlərə təqdim etməzdən əvvəl müəllim onu özü dinləməli və başa düşülməsi ən çətin məqamları müəyyən etməlidir.Müəllimin başa düşülməsinin çətin olacağını düşündüyü söz və ya ifadələr lövhəyə yazılmalıdır.Bəzilərinin mənaları yazıla bilər,bəzilərinin mənaları isə təxmin edilə bilər.Müəllim çətin olan sözləri və ifadələri bir neçə dəfə söyləməlidir ki,şagirdlər eşitsinlər və onların fonetik quruluşunu başa düşsünlər.Dinləmə zamanı həyata keçirilən məşqlər çox vaxt bizim üçün xüsusi maraq kəsb edən bəzi məlumatları çıxarmağa yönəlib.Burada şagirdlərin mətnin hansı hissəsində maraq doğuran məlumatı axtarmaq lazım olduğunu anlamaq qabiliyyəti,səslənən məlumatları əlaqələndirmək,istədiyi keçidi tez axtarmaq qabiliyyəti də yoxlanılır.Dinlədikdən sonra yerinə yetirilən məşqlər isə çox vaxt nəzarətedici xarakter daşıyır.Mətndən sonrakı məşqlər şagirdlərin mətndə olan məlumatı başa düşmə dərəcəsini,ümumi məzmuna və ya təfərrüata nüfuz etmə dərəcəsini yoxlayır,həmçinin eşitdiklərinə münasibət bildirmək üçün məşq edir.Bu,ən çətin və eyni zamanda ən qiymətli məşq növüdür,çünki bunların həyata keçirilməsi kortəbii nitqin istifadəsini əhatə edir.Mətndən sonrakı məşqlər çox vaxt öz fikrini ifadə etmək üçün tapşırıqları,yəni dialoqa hazırlayan tapşırıqları ehtiva edir.Beləliklə,ilkin mərhələdə nitqi dinləməyi və qavramağı öyrənməyin xüsusiyyətlərini nəzərdən keçirərkən əmin olduq ki,kiçik yaşlı şagirdlərin yaş xüsusiyyətləri dinləməyi öyrətməyin adekvat yollarının axtarışını tələb edir və müəllimin bu vaxt aparan prosesi audiovizual vasitələrin köməyi ilə və müxtəlif məşqlər seçməklə yerinə yetirməsi mümkündür .

Dilin metodologiyasının qaldırdığı nəzəri və praktiki problemlər arasında kommunikativ səriştə problemi və ona nail olmaq yolları ən aktual məsələlərdən biridir.Ən ümumi formada kommunikativ səriştə,gündəlik,təhsil,istehsalat həyatında şagird üçün aktual olan ünsiyyət vəzifələrini dil vasitəsi ilə həll etmək bacarığı,şagirdin dil və nitq faktlarından istifadə etmək bacarığı kimi başa düşülür.Şagirdin bilavasitə və ya dolayı kontekstdə bu dilin mədəniyyətinin norma və ənənələrinə uyğun olaraq öyrənilən dilin ana dili ilə qarşılıqlı anlaşma və qarşılıqlı əlaqə problemlərini uğurla həll etdiyi təqdirdə kommunikativ səriştəyə malik olduğuna inanılır.

Müəllimin mühüm vəzifəsi müxtəlif üsullardan istifadə etməklə dərs prosesində real və xəyali ünsiyyət vəziyyətləri yaratmaqdır.Real şəraitdə nitqin qulaq vasitəsilə qavranılması və başa düşülməsi onunla birləşir ki,biz danışanı,onun mimikasını, jestlərini,ümumən xarici görkəmini və onun olduğu mühiti görürük.Öyrənmə şəraitində biz həmsöhbəti birbaşa ünsiyyətdə də görürük,lakin audiomaterialı dinləyərkən vizual əlaqə yoxdur.Digər tərəfdən,orijinal nitqi dinləmək,danışanı və onun ətrafını vizual olaraq qavramaq imkanı verir.Bu,bizi dinləmənin real şərtlərinə yaxınlaşdırır.İnformasiyanın qavranılması və emalı dilin tədrisi metodologiyasında bütöv istiqamətin əsasını təşkil edən və audiovizual metodun yaradılması və inkişafı üçün əsas olan eşitmə-vizual sintez şəklində təcəssüm olunur.

MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ RİYAZİ BİLİKLƏRİN AŞILANMASI

Məmmədova G.N.
Bakı Slavyan Universiteti
E-mail:guney.mammadova1991@gmail.com

Riyaziyyatın ilk növbədə rəqəmlərdən ibarət olduğunu düşünmək təbiidir. Məktəbdə biz əvvəlcə rəqəmləri necə söyləməyi öyrənirik, sonra onları yazmağa və kağız üzərində manipulyasiya etməyə xeyli vaxt sərf edirik. Əlbəttə ki, rəqəmlər digər simvollarla birlikdə kəmiyyətlər haqqında fikirlərin çatdırılması və onların bir-biri ilə əlaqəsini ifadə etmək üçün vacibdir. Riyaziyyat ilk növbədə təfəkkürdən ibarətdir.

Uşaqlar üçün "kəşf öyrənmə" və ya "əsasların" vacib olub-olmadığını müzakirə etmək əvəzinə, uşaqların kəmiyyətlər və məkan haqqında düşüncələrinin inkişafını dəstəkləmək üçün daha çox diqqət tələb olunur.

Hazırda aparılan xeyli tədqiqat göstərir ki, uşaqların məktəbdəki uğurları 1-ci sinfə daxil olmamışdan əvvəl valideynlərin və müəllimlərin onları riyazi düşünməyə nə dərəcədə təşviq etməsindən asılıdır. İlk illərdə uşaqların hesablama haqqında düşüncələrinə diqqət yetirmək mümkündür, hətta zəruridir ki, onlar sağ ayaqda formal təhsilə başlasınlar. Təsəvvür edin ki, bir qrup uşaq bağçası ilə söhbət edirsiniz. Siz onlara nənənin evində dörd peçenyeni bərabər paylaşan iki uşaq haqqında hekayə oxudunuz. Siz onları hər uşağın neçə peçenye alacağı ilə bağlı söhbətə cəlb edirsiniz. Uşaqlardan bəziləri oyuncaq çərəzləri çıxarır və oynayır. Digərləri problem haqqında düşünmək üçün şəkillər çəkirlər. Sonra soruşursan ki, masaya daha iki uşaq gəlsə, nə olardı. Hər uşaq daha çox, az və ya eyni sayda peçenye alacaq? Sən necə bilirsən? Belə bir vəziyyətdə uşaqlar ekvivalentlik, bölmələr və kəmiyyətlərin bölüşdürülməsi və müqayisəsi haqqında canlı müzakirələr aparırlar.

Bu cür söhbətlərin çoxlu faydaları var. Aydındır ki, uşaqlar üçün öz düşüncələrini ifadə etmək və əsaslandırmaq üçün koqnitiv və sosial üstünlüklər var. Bununla belə, buradakı məqam ondan ibarətdir ki, uşaqlar ibtidai sinif kurrikulumun əsasını təşkil edən anlayışlarla məşğul olurlar. Həmçinin qeyd etmək vacibdir ki, uşaqlar rəqəmlər, bölmə (÷) və ya bərabərlik (=) işarələri kimi formal təsvirləri yazmadan vacib riyazi ideyalarla mübarizə aparırlar.

Anlayışlar üzərində düşünmək və onların nə demək olduğunu düşünmək riyaziyyatın əsasını təşkil edir; belə fəaliyyət təkcə ilk illərdə mümkün deyil, həm də vacibdir. Uşağın riyazi inkişafının bütün illərində, məktəbdə və kənarda mövcud olmalıdır. Uşaqların intuitiv, lakin dərin riyazi fikirlərini genişləndirmək, təkmilləşdirmək və onlara bu fikirləri daha səmərəli şəkildə ifadə etmək üçün simvollar vermək məktəbdə riyaziyyat tədrisinin əsas məqsədinə çevrilir.

Məsələn, bir uşaq bağçası başa düşə bilər ki, əgər onun beş qaşığı varsa, dostunun da beş qaşığı varsa, onların eyni sayda əşyaları var. 1-ci sinif müəllimi daha sonra bu şagirdə bərabər işarəsi simvolundan istifadə etməklə ədədi ekvivalentliyi ifadə etmək üçün simvolu göstərə bilər (5 = 5). Beş yaşlı uşaq bir düzbucaqlı üç bərabər hissəyə bölməklə üç nəfərin bir şokolad çubuğunu necə bərabər şəkildə paylaşa biləcəyini göstərə bilər. Yaxud 1-ci sinif müəllimi bu uşağa hər bir insanın aldığı kəmiyyəti həm sözlə, həm "üçdə bir", həm də ədədi olaraq "1/3" kimi ifadə edə bilər. Bu cür simvollar və onların təmsil etdiyi ümumiləşdirmələr öz

növbəsində daha mürəkkəb ideyaların qurulması üçün istifadə oluna bilər, beləliklə, riyaziyyatın öyrənilməsinin təkrarlayıcı xarakterini aşkara çıxarır.

Tədrisin bütün səviyyələrində mənaya diqqət yetirmədən, məsələn, məktəbdə bir kağız üzərində nömrələri manipulyasiya etməklə vaxt keçirən uşaqlar çətin ki, riyazi anlayışlarını inkişaf etdirsinlər.

Biz indi bilirik ki, əgər uşaqlar ilk illərdə fəaliyyət və söhbət vasitəsilə mühüm riyazi ideyalara məruz qalmasalar, onlarda 1-ci sinif üçün mühüm əsaslar olmayacaq və ən əsası, onların daha çox təchiz olunmuş həmyaşıdlarına yetişməsi getdikcə çətinləşəcək. Bu təsir xüsusilə erkən hesablama çətinlikləri riski altında olan yoxsulluq şəraitində yaşayan bir çox uşaqlar üçün nəzərə çarpır. Uşaqlar evdə "riyaziyyat danışığına" az məruz qaldıqları üçün uşaq bağçasına daxil olduqda çox vaxt əsas təməl bacarıqlardan məhrum olurlar. Riyaziyyatda çətinlik çəkən uşağa kömək etmək heç vaxt gec olmasa da, uşaqlar məktəb sistemində irəlilədikcə fərqi aradan qaldırmaq imkanları getdikcə azalır.

UŞAQLARIN YUXARI YAŞ QRUPLARINDA PSİXOLOJİ KOMMUNİKATİV VƏ YARADICILIQ BACARIQLARININ FORMALAŞMASI METODLARI

Məmmədova G.N.
Bakı Slavyan Universiteti
E-mail: guney.mammadova1991@gmail.com

Bir çox elm adamı anlaşma problemlərinin həllində və insanların uğurlu qarşılıqlı əlaqəsində emosional sahəyə diqqət yetirir. Alimlərin özünütənzimləmə nəzəriyyəsinə əsaslanaraq, emosiyaların tanınması təcrübəsi olan insanların öz emosiyalarını daha yaxşı tənzimləyə bildiyinə inanılır. Bu emosionallığın, gərginlik, eləcə də uşaqların mənfi davranışlarının təzahürünün qarşısını alacaq.

Həmçinin, elm adamları hesab edirlər ki, onların emosional vəziyyətlərini başa düşmək və ayrı-ayrı vəziyyətlər kimi başa düşmək insanlara bu vəziyyətə uyğun olaraq adekvat reaksiya verməyə imkan verir. Duyğuları tanımaq qabiliyyəti emosiyaları effektiv şəkildə tənzimləyəcək,həm müsbət emosiyaların saxlanmasında, həm də xüsusi emosiyaların (məsələn, qəzəb və ya kədər) boğulması zamanı ağır vəziyyətlərlə bağlı duyğuları tənzimləmək daha çətindir.

Ceyms C.Qross öz əsərlərində emosiyaların tənzimlənməsi modelini qiymətləndirmənin növlərindən biri kimi təqdim etmiş və emosiyaların tənzimlənməsinin üç mərhələsini müəyyən etmişdir. Tədqiqatlar təsdiqləyir ki, müəllimlər və tələbələr arasında qarşılıqlı əlaqə şagirdlərin məktəb nəticələrinin trayektoriyası üçün vacibdir. Buna görə də pedaqoq təhsil məkanında emosional cəhətdən əlverişli atmosferi təmin etməlidir.

Erkən dövrdə uşaqların nitqi, ilk növbədə, həmişə olan ünsiyyət vasitəsidir. Eyni zamanda, uşağın fəaliyyəti prosesinin mövzu məzmununu göstərən dəqiq vasitələr getdikcə daha çox inkişaf edir. Beləliklə, uşağın təfəkkürünün fərdi şüuru və refleksliyi onların digər insanlarla qarşılıqlı əlaqəsi və əməkdaşlığı nəticəsində yaranır.

Uşaqların sosial və emosional inkişafı və onların dil bacarıqları ayrılmaz bir bütövdür. Sosial-emosional inkişaf davranışın xariciləşdirilməsi və daxililəşdirilməsini, sosial bacarıqları və özünü tənzimləməni əhatə edir. Bu nəticələr mənfi sosial-psixoloji emosiyaları azaltmaq və pozitivliyi gücləndirmək üçün dilə müdaxilə üsullarının işlənib hazırlanmasının zəruriliyini nümayiş etdirir.

Alimlər, Claire V. Crooks, Alexandra C.G. Smith, Natasha Robinson-Link, Shawn Orenstein, Sharon Huver, təhsil məkanında mühüm pedaqoji şəraitin beş qrupunu vurğuladılar: 1) ailə və cəmiyyəti cəlb etmək; 2) müxtəlif pedaqoji metod və texnologiyalardan istifadə etmək; 3) sinfin vəziyyətinə və oradakı parametrlərə nəzarət etmək; 4) material əlçatan və yaşa uyğun etmək; 5) fərdi ehtiyaclara diqqət yetirmək.

Müəlliflər iddia edirlər ki, yeni başlayan uşaqların məktəb şəraitinə uyğunlaşmasına xüsusi diqqət yetirilməlidir. Beləliklə, prosses ədəbiyyatın təhlili öyrənməyə təsir edən aspektləri nəzərə almağa imkan verdi. Baxırıq ki, genetik meylliliyə baxmayaraq, əlverişli şərait yaratmaq mümkündür.

Bizim vəzifəmiz uşaqlara həm özlərinin, həm də ətrafındakıların emosional vəziyyətini necə tanımağı öyrətməkdir. Bu, onlara öz hüquqlarını necə tənzimləməyi öyrənməyə imkan verəcək. Uşağın dil bacarıqlarının formalaşmasına və sosial və emosional inkişafına xüsusi diqqət yetirilir.

Bir çox sosiallaşma faktoru arasında yaşıdlar arasındakı münasibətlər xüsusi yer tutur. Uşaq cəmiyyəti bir yetkin cəmiyyətin modelidir. Uşaqlar davranış və əxlaq normalarını öyrənirlər. Uşaq icmasının muxtariyyəti, böyüklər cəmiyyətindən, ümumiyyətlə qəbul olunmuş normalardan, dəyərlərdən və stereotiplərdən fərqli bir fenomen kimi qəbul edilən uşaq subkulturasında özünü göstərir. Bunda uşaqlar öz

məkanlarını, xüsusi qaydalar toplusunu, dünyaya öz baxışlarını və onu əks etdirmə yollarını yaradırlar. Sosiallaşmanın əsas funksiyalarını həyata keçirməyə başlayan uşaqlıq subkulturasıdır. Bir uşağın həyatına tətbiq olunan qaydalar, yetkinlərin təcrübəsinə qoşulmağa, qanunlarına uyğun yaşamağa imkan verir. Həyatını qaydalara tabe etməyə öyrəşmiş bir insan, hər hansı bir həyat şəraitində özünü təşkil edə bilər və özünü tərbiyə edə bilər.

Pedaqoji konsepsiyanın dəyəri xüsusi bir forma, metod, metod, metod və tədris vasitələri metodlarını, pedaqoji kollektivin sosial qurumlarla qarşılıqlı əlaqəsi üçün təşkilati və metodiki vasitələrin yaradılmasını müəyyənləşdirən bir sıra şərtlər vahid bir təhsil məqsədi ilə birləşdirilmişdir: Federal Dövlət Təhsil Standartının tələblərinin yerinə yetirilməsi kontekstində məktəbəqədər uşaqların sosial və kommunikativ inkişafı. ...İnkişaf və öyrənmə proseslərinin inteqrasiyası müəllimin bu layihələri müxtəlif növ uşaq fəaliyyətlərində məharətlə tətbiq etmək bacarığı sayəsində əldə edilmişdir. Sərt vaxt məhdudiyyətlərinin və rəqabət mühitinin olmaması, müxtəlif motivasiya effektləri - mükafatlar, cəlbedicilik, həll yolu qrup axtarışı, gözlənilməz həll yolları, münasibətlərin təbiətini və uşaqların emosional rifahını yaxşılaşdırdı.İnkişaf vəziyyətləri uşaqların sosial və kommunikativ inkişafı prosesində xüsusi rol oynadı. İnsanın sosial fəaliyyətini modelləşdirmək, fikrimizcə, başqaları ilə ünsiyyət qurarkən bir uşaqda bir dizayn və tənzimləməfunksiyası formalaşdırmağa imkan verdi ki, bu da uşaqlar arasında ziddiyyətlərin qarşısını almağa imkan verdi.

NƏSR VƏ NƏZM ƏSƏRLƏRİNİN BƏDİİ SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

Məmmədyarova L.İ.
Sumqayıt Dövlət Universiteti
E-mail: tevekkul2000@gmail.com

Bədii yaradıcılıq nümunələrinin nəsr və nəzmlə yazılması ənənəsi çox qədim zamanlardan bəri mövcuddur. Həm nəsr dilinin, həm də nəzm – şeir dilinin özünəxas bədii sənətkarlıq xüsusiyyətləri vardır ki, bu xüsusiyyətlər nəsrlə nəzmi bir-birindən fərqləndirməyə imkan yaradır.

Cümlələrin quruluşu, sətirlərin işlənməsi nəsr və nəzm arasındakı başlıca fərqlərdəndir. Nəsr sözü sərbəst olan, hərəkət edən mənasındadır. Nəsrlə yazılmış əsərlər adi danışıq dilində olur, cümlələr, sətirlər hər hansı bir şərt əsasında düzülmür. Fikrin ifadəsində müxtəlif tipli cümlələrdən istifadə olunaraq hər hansı bir əhvalat, hekayə nağıl edilir. Sətirlərin, cümlələrin uzunluğu və qısalığı barədə sənətkarın qarşısına heç bir tələb qoyulmur. Ərəb dilindən tərcümədə də nəsr sözü qafiyə, vəzn və rədifi olmayan bədii əsər mənasındadır.

Nəzmlə yazılmış bədii nümunələrdə isə cümlələrin düzülüşündə müəyyən qaydalar var və onlara əməl olunması tələb olunur. Bu xüsusiyyət nəzmi nəsrdən əsaslı şəkildə fərqləndirir. Nəzm ərəb sözü olub nizam, tərtib, qayda mənalarını verir. Yəni nəzm dilində yazılan əsərlərdə hər bir sətirdə, cümlədə qayda-qanun, nizam-intizam gözlənilməlidir.

Bədii əsərlərin sənətkarlıq xüsusiyyətlərindən danışarkən diqqət yetirməli olduğumuz məqamlardan biri müəllifin müraciət etdiyi dil-üslub xüsusiyyətləridir. Bu baxımdan bədii əsərin təhlili zamanı onun janrı, məzmunu və forması, mövzu və ideyasından əlavə, onun dil-üslub xüsusiyyətləri müəyyənləşdirilir. Ədibin sənətkarlıq xüsusiyyətlərini qiymətləndirərkən bədii mətnin üslubi imkanları mühüm əhəmiyyət kəsb edir. Mətnin digər xüsusiyyətləri – mövzusu, ideyası, sujet və kompozisiyası və sair öz qaynağını yazıldığı dildən və üslubdan alır. Hər bir sənətkar yaratdığı bəddi mətnlərdə özünəməxsus dil-üslub xüsusiyyətlərindən istifadə edir. Belə ki, bədii əsərin dilində neologizmlər, arxaizmlər, dialektizmlər, vulqarizmlər, varvarizmlər, frazeologizmlərdən bədii vasitə kimi istifadə olunur.

Nəzm əsərlərində bədii təsvir və iafdə vasitələri də sənətkarın bədii sənətkarlıq xüsusiyyətlərini səciyyələndirir. Ədəbiyyatşünaslıqda məcazlar adlanan bədii təsvir və ifadə vasitələri – epitet, təşbeh, metafora, metonimiya (bədii təsvir vasitələri), bədii sual, bədii təzad,təkrir, mübaliğə, kinayə, inversiya (bədii ifadə vasitələri) olmadan hər hansı bir bədii əsərin sənətkarlıq xüsusiyyətlərinin təhlili haqqında danışmaq olmaz. Bədii təsvir və ifadə vasitələri lirik şeirlərdə şairin hiss və duyğularını daha dərin, daha emosional ifadə etməsində mühüm rol oynayır:

"Eşq olsun o titrək baxışlarında,
Açan çiçəklərə, açan güllərə".

Göstərilən nümunədə görkəmli sənətkar Mikayıl Müşfiq epitet və metaforadan çox böyük ustalıqla istifadə etmiş, keçirdiyi həyəcanı oxucuya əsl sənətkar kimi aşılamağa çalışmışdır.

Bədii təsvir vasitələrindən nəzmlə yanaşı nəsrlə yazılmış hekayələrdə, povest və romanlarda da oxucuda maraq oyatmaq, obraz haqqında daha aydın təsəvvür yaratmaq üçün istifadə olunur. Yazıçı hər hansı bir obrazı və ya hadisələrin baş verdiyi məkanı məcazlardan istifadə edərək təsvir edir: "Qaş-qabağı yernən gedirdi. Ömründə gülüşlə işıqlanmamış kimi görünən tutqun sifəti bir az da enlənmişdi. Şəkil kimi susub dururdu" (Mir Cəlal).

Bədii nümunələrdə mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də süjet və kompozisiyanın işlənməsidir. Süjet və kompozisiyanın vəhdət təşkil etməsi müəllifin diqqət mərkəzində olmalıdır. Nəsr əsərlərində daha aydın şəkildə nəzərə çarpan süjet və kompozisiya ünsürlərini nəzmlə yazılmış hekayə, roman, poemalarda da görmək mümkündür. Hansı ki, süjet əsərin mahiyyətini, hadisənin özünü təşkil edir. Bədii əsərdə hadisələr qalxan və enən xətt üzrə inkişaf edir. Baş verən hadisələr sujet əsasında bağlanır. Müəllifin sənətkarlıq qabiliyyəti hadisələri bir-birilə əlaqələndirməsində ortaya çıxır. Zavyazka mərhələsində baş verənlərə elə düyün vurulmalıdır ki, əsərin uzun hissəsini təşkil etsin, kuliminasiya mərhələsindən sonra düyün açılsın və əsərin finalı üçün zəmin yaransın. Məsələn, Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasında kefli İgəndərin monoloqu əsərin kuliminasiya nöqtəsini təçkil edir və bundan sonra hadisələr enən xəttlə inkişaf edərək finala doğru gedir.

Kompozisiya vasitəsilə bədii əsərlərdə hadisələr müəyyən sistemdə qurulur. Kompozisiya nə qədər möhtəşəm olarsa, əsər də bir o qədər qüvvətli olar. Kompozisiya əsərin necə başlanması və bitməsini müəyyənləşdirir. Kompozisiyanın ünsürlərini – epiqraf, proloq, epiloq, peyzaj, lirik haşiyə əsərə daxil etməklə müəllif sənətkarlıq məharətini nümayiş etdirir.

İSTEDATLI ŞAGİRDLƏRLƏ İŞİN REALLAŞDIRILMASI MEXANİZMİNDƏ İNNOVASİON TEXNOLOGİYALARIN TƏTBİQİ

Mirzəyeva A.K.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: Rizvanliaytac.ar@gmail.com

Biz gündəlik dərs fəaliyyətimizdə və gündəlik yaşayış çərçivəmizdə fərqli xüsusiyyətlərə, düşüncələrə, zəkaya malik uşaqlar və ya tələbələrlə rastlaşırıq. Bəs tədris prosesi zamanı istedadlı şagird dedikdə nə nəzərdə tuturuq? İstedad hər bir fərd gözünü açdığı andan formalaşır və eyni zamanda buna ailə,mühit və ətrafı təsir göstərir.İstedada malik hər bir şagirddə öncədən və tədris prosesində bir sıra qabiliyyətlər meydana çıxır.Bunalara analiz-sintez,öz fikirlərini sərbəst şəkildə ifadə etmə,fərqli mühakimələr yürütmə kimi qabiliyyətlər aid edilir.Kimya dərslərində fəal-interaktiv dərs prosesi getdiyindən bu zaman müəyyən bir innovasiya texnologiyalarından istifadə edilir.Fəal dərslərin təşkili prosesində innovasiya texnologiyalarının tətbiqi prosesi bizə nə kimi öhdəliklər düşür?

Ümumtəhsil məktəblərində geniş yayılmış və şəxsiyyətin hərtərəfli inkişaf etdirilməsində imkanları məhdud olan ənənəvi təlim texnologiyaları hazırda, təhsildə effektli olmayan, hətta zərərli nəticələr verən texnologiyalar kimi qiymətləndirilir.

Ənənəvi təlim texnologiyalarında təlim əsasən müəllimin fəaliyyəti ilə bağlıdır və şagird fəaliyyətində faktları, hadisələri ətraflı təhlil etmədən yadda saxlamağa üstünlük verilir. Bu da əksər şagirdlərin təlim nəticələrinin aşağı səviyyədə olmasına gətirib çıxarır. Vəziyyətdən çıxış yolu fikrimizcə, təlim praktikasında müstəqilliyə daha çox yer verən yeni inkişafetdirici pedaqoji texnologiyalara, o cümlədən fəal/interaktiv təlimə üstünlük verilməsindədir.

Məhz buna görə də kimya dərsllərində istedadlı uşaqlarla iş zamanı müəyyən innovasiya texnologiyalarından istifadə edilir. Bəs qarşımıza belə bir sual çıxır. Haqqında danışdığımız innovasiya nədir? İnnovasiya-yeniliyin məzmunu və reallaşmasıdır. Bu termindən iqtisadiyyatda,sonralar isə müxtəlif elmlərdə geniş istifadə etməyə başlamışlar. İnnovasiyaların, yeniliklərin yaradılmasımüxtəlif elm sahələrində spesifik cəhətlərlə müəyyən edilir. Amma müxtəlif sahələrdə intellektual yeniliklərin yaradılması, ixtiraçılıq, səmərələşdirmə kimi mürəkkəb proseslərin müəyyən ümumi tərəfləri də mövcuddur. Hətta bu proseslərin alqoritmi də mövcuddur.

İnnovasiyaların yaradılması özlüyündə hələ iqtisadi inkişaf demək deyil. Yaradılmış innovasiyalar iqtisadiyyatda tətbiq edilməlidir ki, real iqtisadi səmərə, inkişaf olsun. Ümumiyyətlə innovasiya texnologiyalarının tətbiqi ilə bağlı daha geniş planlı tədbirlər palnı düşünülür ki, bunlar həm gələcək tədris planında,həm də gələcəkdə çıxacaq məqaləmizdə öz əksini tapacaq.

FRAZEOLOGİZMLƏRİN SEMANTİK ADEKVATLIQ MEYARLARI

Muradova M.E.
Bakı Slavyan Universiteti
E-mail: medinemurad29@gmail.com

Frazeologizmləri bir-birindən fərqləndirən müxtəlif meyarları tədqiqatçılar tərəfindən oxşar və fərqli formada məyyən edilir.

V. Flayşerə görə frazeologizmlər üç meyarla fərqlənir: 1. İdiomluq; 2. Semantik-sintaktik stabillik; 3. Leksikallaşma və yenidən yaranma

H. Burger də frazeologizm üçün vacib olan üç meyarı adlandırır. Bunlar aşağıdakılardır: 1. Çox sözlülük; 2. Sabitlik; 3. İdiomluq

V. Flayşer və H. Burger idiomluq meyarını əsas götürür. Ancaq hər iki tədqiqatçını bir-birindən fərqləndirən odur ki, H. Burger çox sözlülüyü meyar olaraq ortaya qoyuduğu halda V. Flayşer leksikallaşma və yenidən yaranma meyarını əsas meyar kimi istifadə edir. H. Burger tərəfindən verilmiş sabitlik meyarı V. Flayşer tərindən verilmiş stabillik meyarına uyğun gəlir. Bu meyarlar eyni xüsusiyyəti, eyni əlamətləri təsvir etmələrinə baxmayaraq Burger və Flayşer burada fərqli terminlərdən istifadə edirlər. Hər iki tədqiqatçının meyarları birləşdirilərsə, onda frazeologizmi ifadə edən dörd meyar yaranar: 1. Çox sözlülük; 2. İdiomluq; 3. Sabitlik; 4. Leksikallaşma və yenidən yaranma

H. Burger də frazeologizm üçün vacib olan üç meyarın adını çəkir. Bunlar aşağıdakılardır: 1. Çox sözlülük; 2. Sabitlik; 3. İdiomluq

Hər iki tədqiqatçı idiomluq meyarını ortaya qoyur. Ancaq hər iki tədqiqatçının meyarları onunla fərqlənir ki, Burger çox sözlülüyü meyar olaraq ortaya qoyuduğu halda Flayşer leksikallaşma və yenidən yaranma meyarını meyar kimi istifadə edir. Burger tərəfindən verilmiş sabitlik meyarı Flayşer tərindən verilmiş stabillik meyarına uyğun gəlir. Bu meyarlar eyni xüsusiyyəti, eyni əlamətləri təsvir etmələrinə baxmayaraq Burger və Flayşer burada fərqli terminlərdən istifadə edirlər. Hər iki tədqiqatçının meyarları birləşdirilərsə, onda frazeologizmi ifadə edən dörd meyar yaranar;

1.Çox sözlülük (çox üzvlük) meyarı. Çox sözlülük o deməkdir ki, bir frazeologizm daha çox sözləri əhatə edir. Burger söz birləşməsinin yuxarı sərhədini müəyyənləşdirmir. Buna əsas səbəb kimi aşağıdakı fikri əsas gətirir: "adi halda frazeologizmin maksimum genişlənməsi leksik yox, sintaktik müəyyənləşmişdir: Cümlə frazeoloji birləşməsinin yuxarı sərhədi hesab edilir".

2.İdiomluq meyarı. İdiomluq meyarı nəzərdə tutur ki, frazeologizmin mənası ayrı-ayrı sözlərin mənalarından ortaya çıxmır. Danışan şəxs misal olaraq " der Apfel fällt nicht weit vom Stamm" frazeologizmini istifadə edində, fikirləşir ki, bir şəxs öz mənfi xüsusiyyətlərində valideynlərinə çox oxşardır və bir ağacın meyvəsinin yaxınlıqda yərə düşməsini fikirləşmir. Frazeoloji və leksik məna arasındakı bu fərqi və bununla əlaqəli mənanı gizlətməni və yaxud mənanı aradan qaldırmanı idiomluq kimi ifadə edilir.

3.Sabitlik meyarı. Flayşerə görə sabitlik meyarı idiomluqla birləşir. Sabitlik anlayışında frazeologizmin ayrı-ayrı komponentləri nadir hallarda sərbəst söz birləşmələrində olduğu kimi sərbəst əvəz edilə biləndir. Çox vaxt ayrı-ayrı komponentlərin əvəz edilməsi tamamilə mümükün deyildir. Bu o dəməkdir ki, sabitlik mövcuddur və frazeologizmin ayrı-ayrı komponentlərinə məhdud sərhədlər təyin edilir. Frazeologizmin ümumi mənası ayrı-ayrı konkret sözlərin konbinasiyasına bağlıdır.

İNGİLİS DİLİNİNDƏ İŞLƏNƏN FRAZEOLOGİZMLƏRİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Mustafayeva N.M.
Bakı Slavyan Universiteti
E-mail: *narminmustafayeva7@gmail.com*

İstənilən dildə sabit sözlərdən ibarət xüsusi lüğət təbəqəsi vardır. İngilis dili də istisna deyil. Belə bir təbəqə frazeologiya adlanır. Bu yazıda biz frazeologizm kimi dildəki belə bir hadisənin qısa təsvirini verməyə, bu cür ifadələrin ən yaxşı şəkildə necə tərcümə olunacağını başa düşməyə və bu cür konstruksiyaların dildə rolunun nə olduğunu izah etməyə çalışacağıq. Çox vaxt frazeoloji vahidləri tərcümə edərkən çətinliklər yaranır.İlk öncə yadda saxlamaq lazımdır ki, frazeoloji vahid ayrılmaz bir vahid kimi tərcümə edilməlidir. Beləliklə, sabit ifadələrdən istifadə edərkən onların mənasını itirməmək üçün, sözləri silmək ,sözlərin sırasını dəyişmək və ya əvəzləmək məsləhət görülmür.Beləliklə Frazeoloji

birləşmələr tərkibcə dəyişməz, bütövlükdə məcazi bir mənanı bildirən sabit söz birləşmələrinə deyilir.

Frazeologiya -1.Dilçiliyin bir bölməsi olub , frazeoloji vahidlər və deyimlər, 2.Dilin frazeoloji vahidlər və idiomlar toplusu,3. Nitqə ifadəlilik, obrazlılıq gətirən, fikri ifadəli edən dil vahidləri haqqında bir elmdir.

Dili öyrənərkən onun frazeologiyasını bilmək çox vacibdir, çünki belə ifadələrin nitqdə işlədilməsi özlüyündə dili zənginləşdirir,dili daha da estetik edir,xarici ədəbiyyatda bədii və publisistik oxunu asanlaşdırır. Təbii ki, istənilən dildə frazeoloji vahidlərin ən yüksək faizi bədiiədəbiyyatda əks olunub. Bu təbəqəni öyrənmək üçün ,dilin mahiyyəti, onun zənginləşmə və modelləşdirmə yollarını təhlil etmək əsasdır.

İngilis dilini xarici dil kimi öyrənərkən, frazeoloji vahidlərin mənimsənilmə prosesində bir sıra çətinliklərlə qarşılaşsaq belə, digər tərəfdən bu bölməni tam mənimsədikdən sonra, ingilis nitqini tam başa düşmək, düşüncə və fikirləri ifadə etmək, hərfi tərcümələrdən qaçmaq bacarığına sahib oluruq. Frazeologiyanın işlənməsi prosesində, frazeoloji vahidin sözlə qarşılıqlı əlaqəsi ilə bağlı tez-tez problemli suallar yaranır. Bir tərəfdən frazeoloji vahid sözün ekvivalenti olsa da, digər tərəfdən frazeoloji birləşmə ilə sözün qarşılıqlı əlaqəsindən danışmaq olar. Amma eyniləşdiyi sözlə frazeoloji ifadə arasında bərabər işarə qoymağın mümkün olduğunu söyləməyə dəyməz.

Frazeoloji vahidin əhəmiyyətli xüsusiyyəti onun ifadə etdiyi anlayışın qiymətləndiriciliyidir. Beləliklə, onlar arasında mütləq eynilik mümkün deyil. Bundan əlavə, sözün və frazeoloji vahidin özünün quruluşundan danışırıqsa, onda söz morfemlərin birləşməsidir, frazeologiya isə sözlərin birləşməsidir. Söz bu halda məhdud olan frazeologizmdən fərqli olaraq başqa sözlərlə birləşdirilə bilər - leksik cəhətdən sabitdir və daimi tərkibini saxlayır.

Frazeoloji vahidləri nəzərdən keçirmək növbəsi gəldi - bu vəziyyətdə komponentlərin semantik ayrılmasını qoruyaraq ümumi məcazi mənanı izləmək olar. Məsələn, to paint the devil blacker than he is- hər hansı bir məfhumu olduğundan daha pis təqdim etmək , to throw dust into smb.'s eyes –gözə kül üfürmək mənalarını ifadə edir. Əgər frazeoloji birləşmələrdən danışırıqsa, onda onlar müəyyən semantik parçalanma, sərbəst birləşmələrə yaxınlaşma ilə xarakterizə olunur. Bu tip frazeoloji vahidlərin xüsusiyyətləri sözlərin sərbəst yerdəyişməsinin mümkünlüyü, tərkibə daxil olan əsas leksik vahidlərdən birinin sinonim vahidlə əvəz edilməsidir. Məsələn, a pitched battle – şiddətli döyüş , və ya fierce battle –şiddətli döyüş (əsas leksik vahidin sinonim əvəzi). Frazeoloji vahidlərin tərcüməsinə gəldikdə, bu prosesin mürəkkəbliyini xüsusi vurğulamaq lazımdır. Çünki xarici dildə eyni mənanı, emosional .çalarıçatdırmaq çətindir. Qismən olanları ayırd etmək olar (parıldayanların hamısı qızıl deyil) - all is not gold that glitters(söz ardıcıllığında uyğunsuzluq); və tam olanlar (odla oynamaq– to play with fire). Müvafiq olaraq, adekvat tərcümə yaratmaq üçün tərcümənin müxtəlif növlərini mənimsəmək vacibdir. Burada təsviri tərcümə, izləmə, ekvivalent və ya analoqları vurğulamaq lazımdır.

Yekun olaraq, frazeologiya kimi bir dil hadisəsinin böyüklüyündən danışmalıyıq. Müasir ingilis dilində, prinsipcə, digər dillərdə olduğu kimi, dili zənginləşdirən ,daha canlı, orijinal və emosional edən çox sayda frazeoloji vahidlər mövcuddur. Bundan əlavə, frazeoloji birləşmələrin regionalşünaslıq baxımından əhəmiyyəti böyükdür.Hər hansı bir dili öyrənərkən həmin xalqın tarixi, mədəniyyəti ,gündəlik həyat tərzi haqqında geniş məlumata sahib oluruq. Bir sözlə, bir dilin frazeologiyasının öyrənilməsi onun inkişafının tərkib hissəsidir, bunsuz xarici dil nümayəndələri ilə ünsiyyət kifayət qədər çətin olacaq.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNDƏ İSTİFADƏ EİLƏN NAĞILLARA VERİLƏN TƏLƏBLƏR

Müzəffər-zadə B.İ.
Bakı Slavyan Universiteti
E-mail: xanim.muzefferzade@gmail.com

Nağıllar məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində çox mühüm rol oynayır. Uşaqlar nağıl obrazlarının timsalında müsbət keyfiyyətlər olan xeyirxahlığın, dürüstlüyün, dostluğun şahidi olurlar. Eyni zamanda mənfi keyfiyyətlər olan yalan, paxıllıq, xəsislik kimi hallarla da tanış olub bu cür halların təqdirəlayiq bir hal olmadığını özləri üçün müəyyən etmiş olurlar. Nağıllar uşağın yaş və inkişaf səviyyəsinə uyğun seçilməlidir. Məktəbəqədər yaşlı uşaqlara nağıllar vasitəsilə ailəyə, vətənə hörmət, dostluq, xeyirxahlıq, əməyi sevməklə bağlı anlayışların aşılanmasına daha çox üstünlük verilməlidir. Çünki məktəbəqədər yaşlı uşaq dünyanı yeni dərk edir, onun üçün bu sadalanan məfhumlar yad ola bilər. Nağıllarda bu mövzulara toxunularaq məktəbəqədər yaşlı uşaqlarda bu anlayışlarla bağlı daha konkret fikir

yaradılır. Bir sözlə müsbət keyfiyyətlər məktəbəqədər yaşlı uşaqlara nağıllar vasitəsilə aşılanır. Onlarda nağıl qəhrəmanları kimi dürüst, xeyirxah bir şəxs olmaq istəyi yaranır. Bu gələcək dövrlərdə uşağın xarakterinin müsbət formada reallaşmasına səbəb olan amillərdəndir.

Nağıllar məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişafını daha da sürətləndirir. Belə ki, bu yaşda uşaqlarda vətənpərpərlik, doğruçuluq, təvazökarlıq, məsuliyyət, humanizm hissləri yüksək həddə formalaşır. Bu səbəbdən məktəbəqədər yaşlı uşaqlar üçün nağıl seçilərkən əsas olaraq nağılda tərbiyənin əxlaqi tərəfinə fikir verilməlidir.

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI ELMİNİN MÜASİR VƏZİYYƏTİ

Nagiyeva Z.Ş.
Bakı Slavyan Universiteti
E-mail: nagiyevazibeyd@gmail.com

Azərbaycan dili xalqımızın milli-mənəvi sərvəti, dünya azərbaycanlılarının sarsılmaz həmrəyliyinin əsasıdır. Hazırda Azərbaycan Respublikasının rəsmi dövlət dili - müstəqilliyin əsas rəmzlərindən biri kimi özünün inkişaf zirvəsinə çatmışdır. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olan misilsiz əsərlər yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanları ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olmuş və bütün Azərbaycan əlifbasının latın əlifbasına keçidini təmin etmişdir. Latın qrafikalı Azərbaycan əlifbası artıq həyatımızın bütün sahələrində öz yerini tutub. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 02 yanvar 2003-cü il tarixli Fərmanı, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2003-cü il tarixli Fərmanı Azərbaycan dilinin inkişafı strategiyasının uzun müddətli konsepsiyalarıdır.

XXI əsr qloballaşma əsri kimi tarixə düşüb. Bu, təhsildə daha çox özünü büruzə verdi. Davam edən təhsil islahatları çərçivəsində yeni yanaşmalar ortaya çıxıb. 1999-cu ildə qəbul edilmiş və ardıcıl surətdə həyata keçirilən "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı"nın tələblərinə uyğun olaraq təhsil sahəsində çoxsahəli islahatlar həyata keçirilməyə başlanmışdır. Bu islahatların tərkib hissəsi kimi "Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə təsdiq edilmişdir) qəbul edilmişdir. Təhsildə köklü dəyişiklik və yeni təlim sənədinin qəbulu bu sahədə geniş işlərin görülməsinə səbəb oldu.

Ümummilli lider Heydər Əliyevin "Cəmiyyətin gələcək tərəqqisi indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır" fikrinə istinad edərək deyə bilərik ki, şagirdlərdə yeni keyfiyyətlərin formalaşmasında təhsilin rolu danılmazdır. Kurikulum şagirdlərin əzbərləməkdən daha çox sərbəst düşünmək, öyrəndiklərini tətbiq etmək, məntiqi düşünmək bacarıqlarını inkişaf etdirir. Milli təhsil kurikulumunun məzmunu (ümumi təlim nəticələri, məzmun sahələri, əsas və standartlardan aşağı), öyrənmə strategiyaları (fəal dərsin təşkili, fəal dərsin planlaşdırılması prinsipləri, fəal dərsin forma və üsulları), qiymətləndirmə mexanizmləri və standartlarla bağlı bütün fəaliyyət sahələrini əhatə edən konseptual sənəddir. Milli kurikulumun konseptual sənədində şagirdlərin zəruri kompetensiyaları, məzmun və qiymətləndirmə standartları, cari tədris planları və proqramları, şagirdə və onun hazırlıq səviyyəsinə qoyulan tələblər, hər bir dərs üçün konkret inkişaf məqsədləri, metodiki təminat, qiymətləndirmə modeli, texniki avadanlıq, və s. əks etdirir. Müəllim və məktəb qarşısında duran vəzifələr və onların həlli yolları göstərilmişdir.

Milli Kurikulum bilavasitə aşağıdakı funksiyaların həyata keçirilməsinə xidmət edir: ümumi təhsil pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqənin və ardıcıllığın təmin edilməsi; cəmiyyətin tələbatına uyğun olaraq fənlərin məzmununun daim təkmilləşdirilməsi və yenilənməsi; təlim texnologiyalarının çevikliyini və interaktivliyini təmin etmək; nəticəyə yönəlmiş fənn yönümlü təlim proqramlarının işlənib hazırlanması və tətbiqi; təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təhsilin inkişaf etdirici və profilaktik xarakterinin təmin edilməsi; təhsil səviyyələri üzrə konsentrik prinsip əsasında bilik, bacarıq və vərdişlərin müəyyənləşdirilməsi; obyektiv qiymətləndirmənin təmin edilməsi və şagird nailiyyətlərinin stimullaşdırılması.

Müasir dövrdə təhsil paradiqmalarının dəyişməsi, zəngin innovasiyalar, yeni təlim texnologiyalarından istifadə bir tərəfdən biliklər, digər tərəfdən isə zəruri bacarıqlar arasında əlaqənin formalaşmasını vurğulayır. Azərbaycan dilinin milli qürur obyekti kimi daim inkişaf etdirilməsi, bu dilə məhəbbət hissinin inkişafı ilkin mərhələdə bu işin səviyyəsi ilə sıx bağlıdır. Azərbaycan dilinin tədrisi çox mühüm vəzifədir. Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət bacarıqlarını genişləndirir. Milli kurikulum sənədində qeyd olunur ki, Azərbaycan dilinin tədrisində məqsəd şagirdlərin ümumi nitq və dil bacarıqlarını inkişaf etdirməklə nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdir. Buna görə də nitq və dil bacarıqlarını mənimsəməklə ümumi nitqin inkişafına nail olmaq, Azərbaycan dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olduğunu başa düşmək, davamlı təhsil prosesində praktiki fəaliyyətdə istifadə üçün potensial bilik və bacarıqlara yiyələnmək vacibdir.

"Azərbaycan dili" fənni şagirdlərin lüğət ehtiyatını zənginləşdirməyə, ən zəruri qrammatik qaydaları, ədəbi tələffüz normalarını mənimsəməyə və tətbiq etməyə, nitq bacarıqlarının, nitq mədəniyyətinin formalaşmasına daha geniş imkanlar yaradır. Azərbaycan dilini öyrənməkdə məqsəd şagirdlərə təkcə oxuyub-yazmağı öyrətmək deyil, həm də onların oxuduqlarına, dinlədiklərinə münasibət bildirmək, dilimizi, tariximizi, mədəniyyətimizi, adət-ənənələrimizi öyrənmək, nitqini inkişaf etdirməkdir. Azərbaycan dili indi çox yüksək səviyyədədir, yəni qrammatik quruluşu və digər sahələri yüksək olan dildir. Məktəbdə savad təhsili şagirdlərin oxumaq və yazmaq qabiliyyətinə, Azərbaycan dilində oxu materialının və dil qaydalarının öyrənilməsinə, nitq qabiliyyətinin, nitqin inkişafına, nitq mədəniyyətinə əsaslanır.

Ümumtəhsil məktəbdə hər bir şagird müxtəlif forma və məzmunlu mətnləri səlis, şüurlu oxumağı, həm yazılı, həm də şifahi şəkildə səmərəli və yaradıcı ünsiyyət qurmağı bacarmalıdır. Bu baxımdan Azərbaycan dilinin bir fənn kimi tədrisinin əhəmiyyəti böyükdür. Azərbaycan dili fənni vasitəsilə şagirdlər milli mədəniyyət nümunəsi kimi Azərbaycan dilini və onun vasitəsilə milli-mənəvi dəyərlərimizi öyrənir, mənəvi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnir, Azərbaycan dilindən istifadə etməklə digər fənlərə daha yaxşı yiyələnirlər.

KURİKULUM ANLAYIŞININ MƏZMUNU, XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Nağıyeva Z.Ş.
Bakı Slavyan Universiteti
E-mail: nagiyevazibeyd@ gmail.com

"Kurikulum" latın sözü olub, hərfi mənası "kurs", "elm", "yol", "istiqamət" deməkdir. Bu söz ingiliscə-rusca lüğətlərdə "təlim kursu", "kurikulum", "proqram" kimi izah edilir. *"Curriculum"* sözü ilk dəfə Leyden (1582) və Qlazqo (1633) universitetlərinin sənədlərində rast gəlinir. Bəzi alimlərin fikrincə, bu termin 1876-cı ildən istifadə olunur. Fənnlər üzrə ilk kurikulum 1918-ci ildə ABŞ-da yaranıb. Kurikulum nəzəriyyəsi 1970-ci illərdən sonra inkişaf etmişdir. Bu termin Azərbaycanda 1990-cı illərin sonlarından istifadə olunur. Azərbaycan hökuməti ilə Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası arasında ilk Kredit Sazişi çərçivəsində kurikulum islahatlarına başlanılıb. 1999-cu il iyunun 15-də "Azərbaycan Respublikasının təhsil islahatları proqramı" təsdiq edilmişdir. Kurikulum islahatı təhsil islahatlarının əsas istiqamətlərindən biridir. Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında ümumi təhsil konsepsiyası (milli kurikulum)" qüvvəyə minib və 2008-ci ildən təhsil sahəsində tətbiq edilir. Nazirlər Kabineti 03.06.2010-cu il tarixli sərəncamı ilə "Ümumi təhsilin dövlət standartları və proqramları (kurikulumları) haqqında" yeni sənəd qəbul edilib və əvvəlki sənədi qüvvədən salıb.

Milli kurikulum təhsilin məzmunu (ümumi təlim nəticələri, məzmun xətləri, əsas və alt standartlar), təşkili (fəal dərsin təşkili prinsipləri, fəal dərsin planlaşdırılması, fəal dərsin forma və metodları) və qiymətləndirmə (qiymətləndirmə mexanizmləri və standartları) ilə bağlı bütün sənədləri özündə əks etdirən konseptual sənəddir.

Milli kurikulumun tədris proqramları xarakterindən asılı olaraq iki hissəyə bölünür. Birincisi fənn yönümlü kurikulum, ikincisi isə şagird mərkəzli kurikulum adlanır. Fənn yönümlü kurikulumlar öz məzmununa görə elm sahəsini, onun mükəmməl anlayışlar sistemini əhatə edir və bilavasitə bu anlayışların mənimsənilməsinə yönəlib. Şagird mərkəzli təlim proqramları həyat bacarıqları və vərdişlərinə üstünlük verilməsi ilə xarakterizə olunur. Ənənəvi kurikulumlardan fərqli olaraq, müasir kurikulum şagird mərkəzli, nəticəyönümlüdür. Əsas prinsip inteqrativdir, standartlar və qiymətləndirmə mexanizmləri müəyyənləşdirilmişdir. Bütövlükdə ayrı-ayrı fənlərin xüsusiyyətlərini əhatə edən kurikulumlara fənn

kurikulumları deyilir. Fənn üzrə kurrikulumun strukturuna aşağıdakılar daxildir: giriş, fənnin məqsəd və vəzifələri, fənnin xüsusiyyətləri, məzmun, strategiya və qiymətləndirmə. Məzmun hissəsinə daxildir: ümumi təlim nəticələri, məzmun xətləri, məzmun xətləri üzrə təlim nəticələri və məzmun standartları. Tədris strategiyasına aşağıdakılar daxildir: fənn təhsilinin təşkilinə dair əsas tələblərin təsviri, forma və metodların təkmilləşdirilməsi üzrə tövsiyələr, müəllimin təhsil fəaliyyətinin planlaşdırılması. Təlim qiymətləndirmə hissəsini əhatə edir: qiymətləndirmənin əsas növləri, qiymətləndirmə standartları və qiymətləndirmə vasitələri.

Azərbaycanın təhsil sistemində kurikulum islahatına ehtiyac olmasının bir sıra səbəbləri var: cəmiyyətdə yeni sosial münasibətlərin yaranması; qlobal təhsil sistemində inteqrasiya-informasiya dövrünün tələbləri; təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşdırılması; mövcud ümumi təhsil proqramları müasir tələblərə cavab vermir; planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid və s.

Kurikulumun aşağıdakı növləri var:

I. Rəsmi kurikulum Bu, formal məktəb sistemində biliklərin tədrisi ilə bağlı xüsusi kurikuluma aiddir. O, aşağıdakılardan ibarətdir: Kurikulumun gələcək perspektivləri; Kurikulumun siyasəti üzrə bəyanatlar; Əsas prinsiplər; Ümumi təlim nəticələri; Məktəbdə tədris olunan hər bir fənn üçün xüsusi təlim məqsədləri; Hər bir fənn üçün ayrılmış vaxt; Mövzular və məzmun; Hər bir fənn üzrə qiymətləndirmə; Dərslər və dərs planları.

II. Qeyri-rəsmi kurikulum Bu, şahmat klubları, dram dərnəkləri, astronomiya dərnəkləri və s. kimi formal məktəb kurikulumunun bir hissəsi olmayan bacarıqların öyrədilməsidir.

III. İnteqrasiya edilmiş kurikulum. Bu tip kurikulum fənn sahələrində öyrənməni asanlaşdırmağa xidmət edir. Əksər hallarda o, əsas təlim məqsədlərinə diqqət yetirir və ayrı-ayrı fənlərə aid bilikləri əhatə edir. İnteqrasiya edilmiş kurikulumun əsasında bütün biliklərin bir-biri ilə əlaqəli olması ilə bağlı qnoseoloji arqument dayanır və müxtəlif məzmun və situasiyalar arasında əlaqə nə qədər sıx olarsa, şagirdlərin dərketmə qabiliyyəti bir o qədər güclənir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa (2009) əsasən hazırda qüvvədə olan "Azərbaycan Respublikasının ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" hazırlanmışdır. Kurikulumun islahatı çərçivəsində Azərbaycan dilinin yeni təhsil standartları və yeni məzmunla tədrisinə başlanılıb. Bu məqsədlə yeni dərsliklərin hazırlanması, müəllimlər üçün dərs vəsaitlərinin hazırlanması, iş dəftərlərinin yeni məzmuna uyğun tərtib edilməsi prosesi geniş vüsət almışdır.

NİTQİN YIĞCAMLIĞI

Nəbiyeva N.R.
Bakı Slavyan Universiteti
E-mail: nabiyeva.nargis@mail.ru

Mədəni nitqin əsas şərtlərindən olan yığcamlıq müxtəsərlik və qısalıq anlamında olub geniş anlayışı bildirir. Fikrin lakonik və aydın, qısa formada ifadə edilməsi nitqin yığcamlığının əsasını təşkil edən hissəslərdəndir. Dinləyicilər hər zaman bədii əsər, mühazirə, məruzə, çıxışlar yaxud gündəlik danışıqda yersiz və yorucu sözçülüyə qarşı olmuşlar. Geniş kütlə qarşısında çıxış edəcək adamlar nitqlərinə öncədən hazırlaşmalı, geniş materiala məxsus mövzuları yığcam formada ifadə edərək dinləyicilərin vaxtını almamağa, fikrini əhatə edərək yığcam şəkildə söyləməyə çalışmalıdır. İstedadın digər bir forması isə fikrini əhatə edərək qısa, yığcam deyə bilməkdir. Mühazirəuə öncədən bir saat, məruzəyə on dəqiqəyə kimi, çıxışlara isə ortalama üç-dörd dəqiqə vaxt reqlamentinin planlaşdırılması da insanların vaxtını dəyərləndirmək, uzun sözlərə yol verməmək üçündür.

Nitq mədəniyyətinin əsas şərtlərindən olan yığcamlıq hər zaman vacib amil kimi qiymətləndirilmişdir. Bu şərtin ödənilməsi danışan şəxsin zəngin dünyagörüşü və təcürubə, dərin bilik, təfəkkür, düşüncə, söz ehtiyatına sahib olmasından asılıdır. "Uzumçuluq etmə" kimi deyimlər, "uzun sözün qısası" və s. kimi atalar sözü də yuxarıda qeyd edilən fikirləri bir daha təsdiqləyir.

Tarixə nəzər saldıqda isə yüksək sənətkarlığa sahib söz ustadlarımız, şair və yazıçılarımız, klassik ədəbiyyatımızın ən dəyərli nümunələrini yaradan dahi şəxslər belə nitq yığcamlığına həssalıqla yanaşmışlar. Danışıqda yığcamlığı bacib hesab edən Sədi Şirazı yazmışdır:

Düşünüb, sonra de sözü müxtəsər,
O qədər danışma "bəsdir" desinlər.

Nitqin yığcam olması üçün ilk olaraq danışanın nitqi dəqiq olmalıdır. Sözün ifadə etdiyi məna ilə bağlılığı qorunduğu zaman dəqiqlik anlayışına da əməl edilmiş hesab olunur. Buna görə də yazan yaxud danışan şəxs öz nitqinin dərinliklərinə bələd olmalı, ifadə edəcəyi fikrə uyğun söz və birləşmələr, omonim, sinonim, antonimlərdən, yeri gəldikdə frazeoloji birləşmələrdən düzgün şəkildə istifadə etməyi bacarmalıdır. Söz və birləşmələr seçilən zaman onların mənası, üslubi keyfiyyətləri, işlənmə dairəsi kimi xüsusiyyətlər də nəzərə alınmalıdır.

Yığcamlıq anlayışı ilə bağlı diqqət çəkəcək fikirlər də vardır, məsələn: sonuncu din olan İslam dinində "çox yemək, çox danışmaq və çox yatmaqdan uzaq olmaq lazımdır" deyilir. Antik dövr yunan filosoflarından olan Plutarx qeyd etmişdir: "Az sözlə çox fikri ifadə edə bilmək bacarığı nitqin gücünü göstərir". Nitq mədəniyyətinin əsas şərtlərindən olan yığcamlıq əsas prinsiplərdən hesab olunur. Yığcamlıq sanki, sözçülüyün qarşısının alınması üçün qarşıya qoyulmuş bir tələbdir. Nitqdə uzun və yersiz sözlərdən istifadə özünü iki formada göstərir: 1. Lazımından artıq danışmaq: 2. Nitqdə fikrin təkrarına yol verilməsi, lazımsız hesab edilən söz və ifadələrin təkrarına yol verilməsi. Yığcam nitq ifadəsi ilə yanaşı, natiqlik praktikasında istifadə edilən lakonik nitq anlayışı ilk dəfə bu sənətin vətəni hesab edilən Yunanıstanda yaranmışdır.

Sözlərin yersiz işlənməsinə yazılı, şifahi nitqdə də rast gəlirik. Məsələn: taksi maşını, cədvəl şəkli çəkmək, qirmizi çiyələk, ağ pambıq, hər addımbaşı üç abbası və s.kimi ifadələrdə maşın, şəkil, qırmızı, ağ kimi sözləri istifadə etməmək də mümkündür. Eyni bir fikrin müxtəlif cümlələrlə ifadə edilməsi də sözçülük hesab olunur. Hərtərəfli bilik, bacarıq və vərdişlərə sahib şəxslərin nitqi də yığcam olur. Xüsusən də geniş kütlə qarşısında çıxış edən şəxslər qısa və lakonik danışmağı bacarmalıdır. Nitqin yığcamlığı haqqında deyilənləri ümumiləşdirsək, icra etdiyi iş və vəzifədən asılı olmayaraq yığcam, konkret, lakonik danışmağı bacarmalı, öz nitqində yersiz ifadələrdən çəkinməlidir.

XARİCİ DİLİN TƏDRİSİNDƏ DİL BACARIQLARININ AŞILANMASI

Orucova A.E.
Bakı Slavyan Universiteti
E-mail: orucovaaysel99@gmail.com

Afinalı filosof Sokratın neçə dil bilirsənsə, o qədər adamsan məşhur aforizminə istinad edərək qeyd edə bilərik ki, bildiyimiz kimi ingilis dili dünyanın qabaqcıl dillərindən biridir. Bizim respublikamızda ingilis dili artıq məktəbə qədər və ibtidai siniflərdən tədrisinə başlanılıb. İngilis dilinin tədrisi zaman ilk lazım olan öyrənən və öyrədən arasında olan qarşılıqlı dialoqdur. Burada onlar arasında qarşılıqlı anlaşma olması daha vacibdir. İngilis dili öyrənənlər üçün danışıq üsulunun tədrisinə nəzər salsaq bir dərs nümuninəsindən misal gətirərək qeyd edə bilərik ki, sinifdə dərs zamanı şagirdlər qruplaşdırılır və onlara kağız parçaları olan bir qutu verilir. Şagirdlər növbə ilə həmin qutudan kağız parçasını çıxarırlar. Burada məqsəd öyrənilən dilin sadə keçmiş zaman formasının tədrisidir. Beləliklə, 'oynamaq' felini tədris edilir və misal olaraq, "Mən dünən basketbol oynadım" kimi bir cümlə istifadə edilir. Bu feilərdən istifadə yaxşı təcrübə olsa da, tələbələr keçmiş zaman fel forması ilə yanaşı cümlə quruluşunu da düzgün öyrənməyə diqqət yetirirlər. Burada bir nüansa aydınlıq gətirək ki, şagirdlərin qrammatikaya, cümlə quruluşuna, tələffüzünə diqqət artıran tapşırıqları işləyən zaman həmin prosesdə yeni bilikləri əldə edirlər. Məhz bu səbəbdən də tədris zamanı bir biri ilə qarşılıqlı əlaqələr yaranır. Başqa sözlə desək tədrisin əsas hissəsini ünsiyyətin qurulması və düzgün öyrədilməsi hesab edilir.

Qarşılıqlı əlaqə nəzəriyyəsi haqqında daha çox məlumatı hələ 1988-ci ildə Stiven Kraşen adlı amerikalı dilçi vermişdir, o, ikinci dilin mənimsənilməsi ilə əlaqəli anlaşılan qarşılıqlı əlaqə nəzəriyyəsini nəşr etdirmişdir. Kraşen hesab edir ki, tələbələrin xarici dil danışıq bacarıqlarının inkişafı üçün qrammatikaya və ya əzbərlənmiş nümunələrə daimi diqqət yetirməli deyil, dilin mənimsənilməsini təbii şəkildə tətbiq etmək lazımdır. Tədris zamanı şagirdlər sinifdə dörd nəfərdən ibarət qruplara ayrılırlar. Onların vəzifəsi sadəcə olaraq keçən həftə sonu etdikləri barədə danışmaq və lazım olanda bir-birlərinə suallar verməkdir. Burada sadəcə olaraq şagirdlərdən keçən həftə sonu haqqında bir-birlərinə danışmasını istəmək lazimdir. Və onlara "It is conversation time" ifadəsini səsləndiririk. Şagirdlər dərhal özlərini rahat hiss edir və "I went shopping with my parents, it was enjoyable", "I watched horror movie at home" və s. kimi cümlələri deməyə başlayırlar. Sinifdə həmin an öyrənənlər qrammatika ilə o qədər də maraqlanmırlar. Bunun əvəzinə, onlar qeyri-rəsmi şəraitdə etdiklərini, maraqlı hadisələr haqqında danışmağa diqqət yetirirlər. Biz isə burada ingilis dilinin mənimsənilməsində qarşılıqlı əlaqənin roluna baxırıq. Qarşılıqlı əlaqəni əhatə edən

fəaliyyətlər tələbələrin kommunikativ səriştəsini, yəni söhbət kontekstində müvafiq mesajı çatdırmaq bacarığını inkişaf etdirməsidir. Dil öyrənənlərə asan üsullardan tətbiq etmək üçün nə qədər çox imkanlar versəniz, onların ünsiyyət bacarıqları bir o qədər inkişaf edər. İngilis dilini öyrənənlərə üçün qarşılıqlı əlaqə müxtəlif sosial və akademik şəraitlərdə ünsiyyət qurmaq imkanları təmin etdiyini ehtiva edən bir neçə strategiyalarda vardır.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİ

Osmanova T.F.
Bakı Slavyan Universiteti
E-mail:turaneosmanova1997@gmail.com

Nitqin insanların həyatında nə qədər mühüm rol oynaması hamıya məlumdur.İnsanlar nitqin köməyi ilə öz təəssüratlarını mübadilə etmək,bir-birini başa düşməklə yanaşı,həm də öz arzu və istəklərini ifadə edirlər.Nitq insanların bir-birinə qarşılıqlı təsir göstərmələri üçün güclü vasitədir.Söz adamlarda inam yaradır, onları əməyə ,qəhrəmanlığa çağırır, pis əməllərdən çəkindirir,sevindirir,ağladır, güldürür və s. Tərbiyəçinin fəaliyyətində nitq həm də uşaqların biliklərə yiyələndirilməsi silahına çevrilir.Sözün köməyi ilə uşaqlarda bu vəya digər psixi proseslər inkişaf edir,şəxsiyyətin xüsusiyyətləri formalaşır.Təfəkkürlə bilavasitə bağlı olan nitq iki funksiyanı yerinə yetirir o, bir tərəfdən başqaları ilə ünsiyyət vasitəsidir ,digər tərəfdən,təfəkkür formasıdır.Belə ki,insan daxili nitqin köməyi ilə sözlərlə fikirləşir.Uşaq ulu babalarımızın əsrlərdən bəri qoruyub saxladıqları və nəsillərdən-nəsillərə ötürdükləri bəşəri təcrübəni, biliyi və bacarığı nitqin köməyi ilə yaşlılardan öyrənir.Nitqin köməyi ilə uşağın şəxsi təcrübəsi zənginləşir,müstəqilliyi artır ,təfəkkürü inkişaf edir. Yaşlılarla,yaşıdları ilə ünsiyyət uşağın ümumi inkişafının mühüm şərtidir. Ünsiyyət və fikir mübadiləsi silahı olan dil öz funksiyalarını yalnız nitqdə yerinə yetirir.Psixoloq A.A.Lyublinskaya yazır: dil ümumidir, nitq isə dildən fərdi istifadə prosesidir.Ona görə də dildən kasıb , həm də ondan zəngindir.İnsan öz ünsiyyət təcrübəsində adətən doğma dilinin zənginliyini təşkil edən lüğətin və müxtəlif qrammatik quruluşun yalnız kiçik bir hissəsindən istifadə edir.Bununla yanaşı nitq dildən zəngindir belə ki,insan hər hansı şey haqqında danışmaqla ona və müsahibinə öz münasibətini bildirir.Onun nitqi intonasiya ifadəliliyinə malik olub, ritmi surəti xarakter dəyişir. Adam işlətdiyi sözün mənasından çox şey deyə bilir .Lakin adamın öz fikrini kifayət qədər dəqiq və incəliklə deyə bilməsi ona təsir etməsi düzgün başa düşülməli üçün o ana dilinə gözəl yiyələnməlidir.Ana dili məktəbəqədər yaşlı uşaqların əqli və əxlaqi tərbiyəsinin mənbəyi və vasitəsidir.Uşaq adətən iki yaşından danışmağa başlayır və 6-7 yaşında artıq ətrafındakılarla tam ünsiyyət saxlaya bilir.Uşağın nitqinin inkişafı onun ana dilinə yiyələnməsi deməkdir.Nitqin fornalaşması bu dövrdə ana dilini heç bir şey əvəz edə bilməz. Ana dili uşağı onu əhatə edən adamların xarakteri ilə içərisində yaşadığı cəmiyyətlə onun tarixi ilə onun istəkləri ilə heç bir tarixçinin tanış edə bilmədiyi şəkildə tanış edir.Buna görə də uşaqların düzgün rabitəli və ifadəli nitqə yiyələnmələri məktəbəqədər tərbiyənin başlıca vəzifələrindən biridir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİALLAŞMASI

Osmanova T.F.
Bakı Slavyan Universiteti
E-mail: turaneosmanova1997@gmail.com

Sosial inkişafın ən intensiv dövrü məktəbəqədər yaş dövrüdür. Uşağın nitqi və düşüncəsi aktiv şəkildə bu dövrdə inkişaf edir. Hər bir uşağın şəxsiyyətinin inkişafı,müxtəlif fəaliyyətlərdə yaşıdları və böyüklər ilə ünsiyyət qurarkən çox təsirli olur. Məktəbəqədər yaşlı uşağın sosial inkişafı ümumi sosiallaşma anlayışı olmadan təsəvvür edilə bilməz. Sosiallaşma cəmiyyətdə mövcud olan sosial davranış qaydalarının mənimsənilməsi prosesidir. Sosiallaşma bütün əxlaq normaları və insan həyatı boyunca davam edən davamlı bir prosesdir. Məktəbəqdər yaş ilk növbədə sosial həyat normalarının mənimsənilməsidir. Məktəbəqədər yaşlı uşaqların əxlaqi davranış tərcüməsi böyüklər ilə birgə ünsiyyət prosesində formalaşır və müxtəlif fəaliyyətlərdə,o cümlədən münasibətlərdə yaşıdları ilə birləşdirilir. Məktəbəqədər yaş uşaqların yüksək dərəcədə həssaslığı siniri sisteminin quruluşuna görə asan öyrənmə, fərdin uğurlu və əxlaqi təhsili və sosial inkişafı üçün imkanlar yaradır. Məktəbəqədər uşaqların əxlaqi tərbiyəsinin aparıcı vəzifəsi insani münasibətlərin tərbiyəsidir. Bu münasibətlərin qurulması üçün əxlaq tərbiyəsinin təkib hissələrini bilmək

lazımdır. Bu ilk növəbədə,mənəvi şüurun,mənəvi hisslərin,bacarı və əxlaqi davranış vərdişlərinin formalaşması sayılır. Fərdin əxlaqi və sosial inkişafı uşaqların əxlaqi münasibətlərə girdiyi proselərdə baş verir. Artıq məktəbəqədər yaşda bu münasibətlər yetkinlərin müəyyən qaydaları, təlimatları və tələbləri əsasında qurulur. Əxlaqi tərbiyə prosesi qeyd etdiyimiz kimi, uşağın şəxsiyyətinin sosial inkişafı xaricində mümkün deyil. Vətəndaşlıq təhsili, zəhmətkeşlik, ünsiyyət və davranış mədəniyyətinin əsasları-bunların hamısı məktəbəqədər yaşda,uşaqlar böyüklər və yaşıdlar ilə münasibətlərdə fəal iştirak edərsə və özlərini qiymətləndirməyi və tanımağı öyrənmgləri mümkündür. Gənc yaşda,uşaqların ailədə və dost,qohum içərisində,körpələr evi və uşaq bağçalarında böyüklərlə ünsiyyət qurması önəmlidir,bir sözlə bu yaşda idrak ünsiyyəti yaşıdır. Məktəbəqədər yaşda uşaqlar sosial təcrübəni ən çox oyunlar vasitəsilə qazanırlar. Oyun zamanı,gəzinti zamanı, uşaqlar daha çox bilik və təcrübə qazanmaq üçün sual verirlər. Uşaqlara görə bir yetkin hər şeyi bilən,bütün sualları cavablandıracaq və lazımi məlumatları verə biləcək bir insandır. Kiçik məktəbəqədər uşaq üçün isə böyüklər mübahisəsiz bir səlahiyyətdir və uşaqlar sözləri və onunla birlikdə davranışları ilə onları təqlid etməyə çalışırlar. Artıq orta məktəbəqədər yaşda uşaq təqlid etmək deyil,əməkdaşlıq və ortaqlıq istəyir.

Yetkinlər ilə məktəbəqədər uşaqlar arasında əlaqə qurmaq heç də asan deyil. Uşağın gerçək dünyaya tanıdılması, maraqlarının təmin edilməsi,geniş ölçüdə yetkinlərin davranışlarından asılıdır. Başqa sözlə desək,böyüklər uşaqların sosial inkafına kömək etməlidirlər.

Uşaqların mənəvi tərbiyəsində yaşıdları ilə ünsiyyət heç də az əhəmiyyət daşımır. Tərbiyəçi üçün məktəbəqədər yaşlı uşaqların əhval-ruhiyyəsini anlamağı,zəifləəri qorumağı və uşaqların qayğısına qalmağı kömək etməyi öyrənmələri vacibdir.Artıq yuxarı məktəbəqədər yaşda ,yaşıdları ilə münasibətlərdə uşaqlar xeyirxahlıq,həssaslıq,qayğıkeşlik,böyüklər və yaşıdları tərəfindən hazır və uşağın sosial inkafı daha aktiv olmalıdır. Məktəbəqədər uşaqların əxlaqi tərbiyəsi daha çox uşağın emosional sferası,təcrübələri ilə əlaqəlidir. Dəhşət,sevinc,utanc kimi xarakterlərin hamısı məktəbəqədər yaşlı uşaqlar üçün xarakterikdir. Məktəbəqədər yaşlı uşaqların sosial inkişafı və mənəvi tərbiyəsi,vətənlərinin mədəniyyəti,keçmişi və bi günü ilə də bağlı olmalıdır.Vətənə,onun mədəniyyətinə,mədəni irsinə,ilk növbədə müəyyən tarixi hadisələrə marağın formalaşmasını,xalqının mədəni irsinə hörmət hissinin aşılanmasını nəzərdə tutur. Bu iş uşaqların yaşı və həyat təcrübələri nəzərə alınaraq həyata keçirilir. Vətən haqqında şeirlər, mahnılar,tarixi mövzularda dastanlar,hekayələr oxumaq ,bütün bunların hamısı vətəndaşlıq tərbiyəsinə,xalqlarının adət-ənənlərini dərk etməyə köməklik göstərir.

ALİ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

Qafarlı E.E.
Odlar Yurdu Universiteti
E-mail: elnara.qafarli@bk.ru

Bir ölkənin uğurlu gələcəyi onun təhsilindən asılıdır. Yüksək təhsil olan ölkələrdə bütün sahələr daim inkişafda olur. Lakin təhsil səviyyəsi aşağı olan ölkələrdə müxtəlif sahələrdə xaotik vəziyyətlər yaranır və bunun da başlıca səbəbi həmin ölkələrdə təhsil səviyyəsinin aşağı olmasıdır. Keyfiyyətli təhsil dedikdə daha az zaman, daha az vəsait istifadə etməklə daha çox elm, bilik sahibi olmaq düşünülür. Bu baxımdan xarici təhsil müəssisələrinin təcrübəsinə də əsaslanmaq məqsədəuyğundur. Dünyada olan ən yaxşı 2000 universitetdən 459-u ABŞ-da yerləşir. Bu da burada təhsil keyfiyyətinin üstünlüyü ilə əlaqəlidir. Böyük Britaniyada yerləşən Oksford Universiteti 2021-ci il üzrə ən yaxşı universitetlər sırasında birinci yerdə durur. Təhsil səviyyəsi indeksinə görə 2019-cu il dünya ölkələrinin sıralaması: Almaniya 0,943, Norveç 0,930 Böyük Britaniya 0,928, Finlandiya 0,927 Kanada 0,894 Gürcüstan 0,862 Rusiya 0,823 Türkiyə 0,731 Azərbaycan 0,711 Niger 0,249.

Ekspertlərin fikrincə, keyfiyyətli ali təhsil müasir cəmiyyətin inkişafında əsas şərtdir. Amma keyfiyyətli ali təhsil nədir? Onun müəyyən edilə biləcəyi əsas kriteriyaları nəzərdən keçirək və onları 10-15 il əvvəl istifadə olunan meyarlarla müqayisə edək. Əvvəllər tələbənin əldə etdiyi biliyin keyfiyyəti əldə edilmiş nəzəriyyə və bacarıqların miqdarı və müəyyən edilmiş nümunə üzrə tapşırıqların icrası üçün alqoritm hazırlamaq bacarığı ilə müəyyən edilirdi. İndi diqqət universitet məzununun yeni peşəkar mühitə uyğunlaşma qabiliyyətinə, peşəkar problemlərin həllində şəxsi keyfiyyətlərindən yaradıcı istifadəsinə, peşəkar mədəniyyətin mövcudluğuna və yeni biliklərin müstəqil mənimsənilməsinə yönəldilir. Bunlar təhsilin keyfiyyətinin ümumi xüsusiyyətləridir. Onlara öz peşəkar gələcəklərini quran abituriyentlər və tələbələr əsaslanmalıdır. Amma əsasən onlar təhsil almaq üçün universitet seçərkən çətinlik çəkirlər.

Azərbaycan Respublikasında ali təhsil müəssisələrinin sayı 1990/1991-ci illərdə 17, 2020/2021-ci illərdə 52 olmuşdur. Onlarda olan tələbələrin sayı 1990/1991-ci illərdə 105063 nəfər, 2020/2021-ci illərdə 198707 nəfərə kimi artmışdır. Azərbaycanda yalnız dövlət universitələrinə deyil, özəl universitələrə də hər il hər ixtisas üzrə nə qədər tələbə qəbul ediləcəyini hökumət müəyyən edir. Lakin xaricdə tamamilə bunun əksidir. Dövlət universitetləri istisna olmaqla,özəl universitetlər nə qədər tələbə qəbul edəcəklərini özləri müəyyən edirlər. Keyfiyyətli təhsilə zəmanət vermək üçün universitet seçərkən onun tanınmış adı ilə yanaşı, aşağıdakı meyarlara da diqqət yetirmək vacibdir: təhsil proqramlarının keyfiyyətinin müasir tələblərə cavab verib-verməməsi; universitetin tələbələrin davamiyyətinə və fəaliyyətinə nəzarət edib-etməməsi; pedaqoji kadrların səviyyəsinin necə olması; universitetdə korrupsiyanın olub-olmaması; universitet məzunlarının işlə təmin olunmasına yardımçı olması; xarici dillərin tədrisinin hansı səviyyədə olması; universitetin maddi-texniki bazası. Bu siyahı "başlanğıc siyahısı" hesab edilə bilər, çünki həqiqətən yüksək keyfiyyətli bilik əldə etmək üçün hər bir abituriyentin universitetə öz tələbləri olacaqdır.

Keyfiyyətli təhsili təmin etmək üçün bir sıra müddəalar: İxtisaslı kadrların işə götürülməsi. Yalnız ən yaxşı müəllimlər ən yaxşı dərsləri verə bilər. Universitetin adının yüksək keyfiyyətli təhsillə əlaqələndirilməsinin bir yolu ixtisaslı müəllimlərin işə götürülməsidir. Tədris edəcəkləri fənləri başa düşən və onlara əhəmiyyət verən insanları işə götürmək lazımdır. Yaxşı mühaziraçi həm də tələbəsinin diqqətini cəlb edə bilən və auditoriya sessiyasını həm cəlbedici, həm də öyrədici edə bilən biridir. Yaxşı müəllimi işə götürmək üçün universitetdə vəzifəyə müraciət edən namizədlərin seçilməsi zamanı bir sıra standartlara istinad edilməlidir. Əmin olunmalıdır ki, müəllimlər və professorlar da təhsilin daha yüksək keyfiyyətini qorumaq üçün bu standartlara əməl edəcəklər. Statistikaya nəzər salsaq, 2000/2001-ci illərdə professorların sayı 1402, 2020/2021-ci illərdə isə 1132 nəfər olmuşdur. Lakin, ümumilikdə Professor-müəllim heyətinin sayı 2000/2001-ci illərdə 12484 nəfər idisə 2020/2021-ci illərdə 15235 nəfər təşkil edir. Bu da, artım deməkdir.

Tələbə nəticələrini ölçmək və təkmilləşdirmək. Universitetlərdə təhsilin keyfiyyətini yüksəltmək üçün tələbələrin göstəricilərinə baxmaq lazımdır. Tələbələrin əldə etdiyi nəticələr təhsil sisteminin onları öyrətməkdə nə qədər effektiv olduğunun əyani sübutudur. Əgər onların göstəriciləri təsiredicidirsə, o zaman onların saxlanılmasının yolları tapılmalıdır. Bununla belə, əgər onların təkmilləşdirilməsinə ehtiyac varsa, təhsil sistemində nəyin işləmədiyinə nəzər salınmalıdır. Azərbaycan Respublikasının ərazisində olan ali təhsil müəssisələrində 2019-2020-ci illər ərzində tələbələrin buraxdığı günlərin sayı cəmi 342018 nəfər təşkil edir. Bunların 208317 nəfəri qadınlardır. Təhsil alan kişi və qadınların sayı təxmini bərabər olsa da, kişilərə nisbətdə yaranan bu üstünlüyün səbəbi ölkəmizdə qadınların məişət həyatının da ön plana çıxmasıdır.

Öyrənmək üçün imkanlar təmin etmək. Öyrənmə auditoriyadan kənarda dayanmır. Universitetin tələbələri auditoriyadan kənarda öyrənməyə təşviq edəcək müxtəlif proqram və fəaliyyətlərdə iştirak etməlidir. Tələbələrə auditoriyadan kənar öyrənmə imkanlarının verilməsi onların şəxsiyyət kimi böyüməsinə və həmçinin dərslərdə öyrəndiklərinin bəzilərini praktiki bir işə tətbiq etmələrinə imkan verir. Bundan əlavə, tələbələrin öyrənmə təcrübələrini genişləndirmək üçün qoşula biləcəyi klublar, seminarlar və təcrübələr təşkil etmək olar. Həmçinin bu öyrənmə təcrübəsini asanlaşdırmaq üçün müxtəlif təşkilatlarla əməkdaşlıq da edilə bilər. Bu öyrənmə imkanlarının təmin edilməsi tələbələrə sonrakı həyatlarında, karyeralarında onlara kömək edə biləcək digər insanlarla əlaqə qurmaq şansı verir. Auditoriyada və auditoriyadan kənar öyrənməyi təşviq edən universitet, şübhəsiz ki, yüksək keyfiyyətli təhsil yeridir.

Tədris metodlarını təkmilləşdirmək. Dünya ilə ayaqlaşa bilmək üçün universitetlər öz tədris metodlarını təkmilləşdirməlidir ki, tələbələr vaxtında və müvafiq təhsil ala bilsinlər. Tədris metodlarını təkmilləşdirmək üçün auditoriya şəraitinə nəzər salınmalı və işə götürülən müəllimlərin dərsi necə idarə etməsinə baxılmalıdır.

İnnovativ infrastruktur və texnologiyanı təqdim etmək. Universitetdə təhsilin keyfiyyətini yüksəltməyin başqa bir yolu texnoloji irəliləyişləri tətbiq etmək və rəqəmsal öyrənmə kimi ən müasir imkanlara malik olmaqdır. Texnologiyadan istifadə səmərəli və cəlbedici təhsil növünə imkan verir. Yenilikçi texnologiya əlavə etməyin yollarından biri təkcə ən yaxşı kompüter və ya avadanlıq əldə etməklə deyil, həm də tələbələrlə, eləcə də müəssisənin əməkdaşları ilə əlaqə saxlamaq üçün sosial mediadan istifadə etməkdir. 2000-ci ildə elmi-texniki işlərin həcmi 17044,6 min manat təşkil edirdisə, 2020-ci ildə bu 151179,9 min manat təşkil etmişdir. Bu da elmi-texniki işlərə daha çox vəsaitin ayrılmasının göstəricisidir. Xaricdə ali təhsil almış tələbələrə ölkəmizin əmək bazarına giriş imkanını artırmaq, eyni zamanda, işə götürənlərin iş axtaranlarla daha rahat şəkildə əlaqələndirilməsinə töhvə vermək məqsədiylə Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən kadr bankı istifadəyə verilib. Bundan başqa taninma.az saytı

istifadəyə verilib ki, vətəndaşlar rahatlıqla tanınma haqqında şəhadətnamələrin həqiqiliyini müəyyən edə bilsin.

Davamlı keyfiyyəti təkmilləşdirmək. Universitetlərdə təhsilin keyfiyyətini yaxşılaşdırmaq üçün edilə biləcək şey onu ən yaxşı vəziyyətdə saxlamaq və hər zaman hansısa aspektləri təkmilləşdirməyə davam etməkdir.Kadrların əmək bazarının tələblərinə uyğun hazırlanması. Ölkəmizdə öz ixtisası üzrə təhsil alan tələbələrin məzun olduqdan sonra ixtisaslarına uyğun olaraq iş tapma problemi var. Bunun da başlıca səbəbi, ölkədə təhsil alan şəxslərin sayının həmin ixtisasa uyğun olan iş yerlərinin sayından çox olmasıdır. Azərbaycanda təhsil müəssisələrində tələbələrin praktika keçməsi məsələsi o qədər də ürəkaçan deyil. Bu da tələbələrin peşəkarlaşmasının qarşısını alır. Əgər universitetlərdə tələbələrin praktiki biliyə yiyələnməsinə diqqət artırılsa, tələbə məzun olduqdan sonra rahatlıqla iş tapa bilər.

Beləliklə, təhsilin həyatımızda rolunun böyük olması kimi, onun keyfiyyətinin də yüksək olması vacibdir. Elm və texnologiyalar inkişaf etdikcə, təhsil sistemi, təhsil metodları da yenilənməli, inkişaf etməlidir. Hər il dövlət büdcəsindən təhsilə ayrılan xərclərin ayrılması və həmin xərclərin ünvanlı şəkildə xərclənməsi ali təhsil üzrə keyfiyyətin artırılması istiqamətində görülən tədbirləri ifadə edir. Bu baxımdan təhsilin keyfiyyəti ilə bağlı nəticələr özünü doğruldur.

NİTQİN İFADƏLİLİK NORMASI

Qədimli K.S.
Bakı Slavyan Universiteti
E-mail: kqdimli@bk.ru

Bildiyimiz kimi Azərbaycan dili və nitq mədəniyyəti yalnız ümumtəhsil müəssisələrində deyil, həm də ali təhsil müəssisələrində tədris olunur. Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" sərəncamına əsasən "Azərbaycan dili və nitq mədəniyyəti" fənni ali təhsil müəssisələrinin hamısının tədris planına salınmışdır və bununla bağlı müxtəlif dərsliklər hazırlanmış, proqramlar tərtib olunmuşdur. "Azərbaycan dili və nitq mədəniyyəti" fənni həm Azərbaycan bölməsində, həm də Rus bölməsində tədris olunur. Nitq mədəniyyətinin tədris olunmasında əsas məqsəd təhsilalanlarda Azərbaycan ədəbi dilinin normalarını mənimsətmək, nitq mədəniyyətinin tarixi və keçdiyi inkişaf yolu, natiqlik sənəti, mədəni nitq vərdişlərini formalaşdırmaq, həmçinin nitq mədəniyyətinin ifadəlilik, düzgünlük, aydınlıq, yığcamlıq və s. keyfiyyətlərini inkişaf etdirməkdir. Bu gün təhsilin qarşısında duran mühim məqsədlərdən biri də hərtərəfli bir şəxsiyyət yetişdirməkdir və şəxsiyyətin yetişməsində onun nitq mədəniyyətinə yiyələnməsi də vacibdir, insan dünyaya natiq olaraq gəlmir, düzgün nitq mədəniyyətinə yiyələnmək çox oxumaq, öz üzərində daim işləmək, söz ehtiyatını zənginləşdirmək və bunu vərdiş halına gətirmək nəticəsində əldə edilir. Hər bir müəllim, jurnalist, ictimai xadim, söz ustaları, ziyalılar öz nitqləri ilə fərqlənməlidirlər, onların nitqi öz təsir gücünə, ifadəliliyinə, düzgünlüyünə, dəqiqliyinə, zənginliyinə görə fərqlənməlidir.

Nitqin ifadəliliyi dedikdə üslub baxımından ən uğurlu dil vasitələrini istifadə etmək nəzərdə tutulur. Burada həm düzgün, aydın, məntiqli nitq nəzərdə tutulur, həm də emosional və təsirli nitq başa düşülməlidir. İnsanlar arasında ünsiyyətin yaranmasında da nitqin ifadəlilik keyfiyyətinin əhəmiyyəti böyükdür. Nitqdə ifadəliliyi müxtəlif yollarla yaratmaq olar, bunlara sinonim, antonim, intonasiya, atalar sözü, təkrarlar və başqalarını aid edə bilərik. Nitq ifadəli olduğu zaman dinləyənlər onu asanlıqla qavrayırlar, bu baxımdan müəllimlərin də nitqi düzgün, aydın, ifadəli olmalıdır ki, şagirdlər onu asanlıqla anlaya bilsinlər. Əgər müəllimin nitqi quru, cansız cümlələrdən ibarət olarsa şagirdlərdə nə müəllimə, nə də dərsə qarşı həvəs yaranmaz. İfadəlilik həm şifahi nitqdə, həm də yazılı nitqdə özünü göstərməkdədir, amma yazılı nitqdən fərqli olaraq şifahi nitq səslənən nitq olduğu üçün burada ifadəlilik daha geniş şəkildə mövcuddur. Ədəbi dilin hər bir üslubunda ifadəlilik özünü göstərir, lakin ifadəlilik bədii üslubda daha güclüdür. Nəsrlə müqayisədə şeirdə ifadəlilik daha güclüdür, çünki ifadəli nitq insana təsir etməlidi və şeirdə ifadəlilik, obrazlılıq güclü olur. Şeirdə obrazlılığı yaradan bir sıra vasitələr var, bunlara metafor, təşbeh, epitet, intonasiya və s. aid edirik. İfadəli nitq üçün müəyyən tələblər var və bu tələblərə aiddir: 1) Nitq müəllifinin şüurlu fəaliyyəti aiddir, yəni danışan nə haqda danışdığını şüurlu surətdə dərk etməlidir; 2) Azərbaycan dilini yaxşı bilmək, söz ehtiyatının zənginliyi bura aiddir, nitqin ifadəli olması üçün sözləri yerində düzgün işlətmək lazımdır; 3) Digər bir tələb isə ədəbi dilin üslublarını bilməkdir.

Tanınmış şairlərimiz də dilimizin leksikasına bələd olduqları üçün və zəngin söz ehtiyatına malik olduqları üçün öz şeirlərində ifadəlilik yarada bilmişlər, həmçinin şairlərimiz nitqlərində öz fikirlərini, ən sadə cümlələri belə ifadəli şəkildə səsləndirdikləri üçün dinləyicilər tərəfindən çox böyük rəğbətlə qarşılanmışlar.

Tanınmış alimlərimiz də nitq mədəniyyəti ilə bağlı yazdıqları kitablarında nitq mədəniyyətinin yalnız nəzəri məsələlərinin deyil, həm də praktik məsələlərinin tədqiq olunmalı olduğunu bildirmişlər. Bu gün də istər ümumtəhsil müəssisələrində, istərsə də ali təhsil müəssisələrində nitq mədəniyyətinin tədrisi zamanı müəllim nitq mədəniyyətinin praktik tərəflərinə də diqqət yetirməlidir, şagirdlərə və tələbələrə praktik tapşırıqlar verməlidir. Nitq mədəniyyətinin düzgünlüyü dedikdə ədəbi dilin fonetik, leksik, qrammatik normalarının nitqdə gözlənilməsi nəzərdə tutulur, bu zaman müəllim görkəmli natiqlərin və ya ictimai xadimlərin nitqindən videoları şagirdlərə izlədə və bu şəxslərinin nitqləri haqqında şagirdlər arasında müzakirə başlada bilər. Yaxud nitqin ifadəliliyini öyrətmək istədikdə şairlərin ifa etdikləri şeirlərindən bir hissə təqdim edə və bu hissə üzərindən ifadəliliyi onlara öyrədə bilər. Nitqdə ifadəliliyin yaranmasında intonasiyanın da rolu çox mühimdir və biz məktəblərdə ədəbiyyat dərslərində bir çox şagirdin şeirləri zəif tonla səsləndirdiklərinə şahid oluruq, buna səbəb isə şagirdlərdə intonasiya ilə şeir ifa etmək bacarıqlarının inkişaf etdirməməsidir. Məhz buna görə də hər bir Azərbaycan dili və ədəbiyyat müəllimi şagirdlərə düzgün nitq vərdişləri öyrətməklə bərabər həm də onların nitqlərinin ifadəli, emosional olması üçün də çalışmalıdırlar.

ƏDƏBİ TƏLƏFFÜZ VƏRDİŞLƏRİNİN MƏNİMSƏNİLMƏSİNDƏ OXUNUN DÜZGÜNLÜYÜNÜN ROLU

Qocayeva Z.A.
Sumqayıt Dövlət Universiteti
E-mail: zeynebqocayeva98@gmail.com

Azərbaycan dilinin tədrisində əsas məqsəd düzgün yazı qaydalarına əsaslanan savadlı yazını və ədəbi tələffüz normalarına tabe olan nitq inkişafını, oxu mədəniyyətini formalaşdırmaq və təkmilləşdirməkdir. Buna görə də Azərbaycan dilinin tədrisində oxu materialları, onların mənimsənilməsi və öyrədilməsi əsas yer tutur. Oxu şagirdlərin dil bacarıqlarının inkişafında, düşüncələrini, hislərini aydın şəkildə ifadə etməsində, tədris prosesində ədəbi əsərlərin təhlil edilməsində, məlumatların mübadiləsi və müzakirəsi mərhələsində öz arqumentlərinin isbatı zamanı fikirlərini aydın, səlis tərzdə çatdırılmasında mühüm rol oynayır. Oxu dərsləri şagirdlərin nitqini, təfəkkürünü, təxəyyülünü, inkişaf etdirməklə bərabər onlarda yüksək əxlaqi-mənəvi keyfiyyətlərdə formalaşdırır. Oxu şagirdlərin şifahi və yazılı formada fikrini ifadə etmək bacarığını inkişaf etdirir və həmçinin onların lüğət ehtiyatlarını zənginləşdirir. Oxu məşğələləri şagirdlərin lüğət ehtiyatlarını zənginləşdirmək baxımından çox mühüm və zəruri mənbədir. Oxu dərslərində lüğət üzrə iş əsasən yeni sözlərin şagirdlərin fəal lüğət ehtiyatına daxil edilməsi, nitqin sinonimlər, omonimlər, çoxmənalı sözlər, antonimlər, obrazlı söz və ifadələr hesabına zənginləşdirilməsi şəklində aparılmalıdır.

Təhsil səviyyəsi dəyişdikcə oxuya verilən tələblər də dəyişilir. Bunun üçün də təlimin hər bir mərhələsində şagirdlərin oxu vərdişlərini təmin etməyə xüsusi diqqət yetirilməlidir. Oxuya verilən əsas və başlıca tələblərdən biri də oxunun düzgünlüyüdür. Mətnin məznununun şüurlu oxunmasını təmin edən vasitələrindən biri oxunun düzgünlüyüdür. Ibtidai siniflərdə oxunun düzgünlüyü ən vacib şərtlərdən biridir və düzgünlüyünü təmin etmək üçün aşağıdakı tələblərə əməl etmək vacibdir: Sözləri aydın, anlaşıqlı, səsləri ixtisar və əlavələr etmədən oxumalı; Sözlərdə vurğunu yerinə uyğun şəkildə işlətməli; Ədəbi tələffüz normalarına riayət etməli; Mətindəki sözləri buraxmamalı və ya yeni sözlər əlavə etməməli; Düzgün intonasiya ilə oxumalı, cümlənin sonunda fasilə verilməlidir; Durğu işarələrinin tələblərinə düzgün şəkildə riayət etməli; Oxu zamanı müxtəlif nitq qüsurlarına yol verilməməlidir.

Bu qaydalara əməl etməklə oxunun düzgünlüyünü təmin etmək mümükündür. Oxu zamanı müəllim şagirdlərin nitqindəki nöqsanlı halları qeyd etməli və aradan qaldırmaq üçün çalışmalıdır.

Oxunun düzgünlüyü daha çox aşağı siniflərdə pozulur. Əlifbadan hecalı oxuya keçid zamanı şagirdlərdə bəzi çətinliklər yaranır. Buna görə də mətnləri seçərkən sadədən mürəkkəbə doğru, yəni mətnin çətinlik dərəcəsini şagirdin potensialına uyğun şəkildə artırmaq lazımdır. Oxunun düzgünlüyünü təmin etmək üçün oxu üzrə məşqlər müntəzəm şəkildə aparılmalıdır. I sinif şagirdlərinin bəzi sözlərin tələffüzünüdə çətinliyini aradan qaldırmaq üçün həmin sözləri yazı taxtasında hecalarla yazaraq və ya səs təhlilini edərək asanlaşdırmaq olar. Oxunun düzgünlüyünə təsir edən amillərdən biri də artikulyasiyanın

dəqiqliyidir. Oxu zamanı müəllim şagirdlərin sözləri yazdıldığı kimi tələffüz etmələrinin qarşısını almalıdır. Şagirdlərə əvvəlcədən təlqin edilməlidir ki, bir çox hallarda sözlərin yazılışı ədəbi tələffüzə uyğun gəlmir.

Oxu zamanı düzgünlüyün pozulması bəzən şagirdin nitq qüsurunun olması ilə də əlaqədar ola bilər. Bəzən şagirdlər R səsi əvəzinə L samitini (qatar-qatal,rahat-lahat), L əvəzinə Y samitini (alma-ayma, qulaq-quyaq), G səsi əvəzinə D samitini (gözəl-dözəl, getdi-detdi) işlədirlər. Belə nöqsanları aradan qaldırmaq üçün loqopedik çalışmalardan istifadə etmək lazımdır. Həmin səslərin və hecaların çox olduğu oxu mətnlərindən istifadə edilməlidir.

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İDRAKI TAKSONOMİYANIN ROLU

Qubadova Ş.Q.
Sumqayıt Dövlət Universiteti
E-mail: @qubadovasefeq@gmail.com

Taksonomiya dedikdə sadədən mürəkkəbə doğru zəncirvarı iyerarxiya üzrə inkişafı əks etdirən anlayışlar sistemi nəzərdə tutulur. Təlim məqsədlərinin sistemli təsnifatına taksonomiya deyilir.

Tədqiqatlar sübut edir ki, şagirdlərin idrakı fəaliyyət zamanı əldə etdiyi biliklər onlara hazır şəkildə verilən informasiyadan daha yaxşı yadda qalır. Şagirdlərin düşünmə bacarıqlarının inkişaf etdirilməsində idrakı taksonomiyanın çox böyük əhəmiyyəti var. İdrakı taksonomiya ilk dəfə 1956 ci ildə Amerika alimi Benjamin Blum tərəfindən təsnif edilmişdir.

Blum təfəkkürün inkişaf mərhələləri 6 səviyyədə müəyyən etmişdir.Bilmə, anlama, tətbiq, təhlil, sintez, dəyərləndirmə.

Bilmə, anlama, tətbiq alt səviyyələr kimi, təhlil, sintez, dəyərləndirmə isə daha yüksək səviyyə kimi qəbul edilir. Taksonomiya bacarıqların pillə-pillə inkişafına şərait yaradır. Bir sonraki səviyyəyə çatmaq ücün ondan əvvəlki bacarıqlar inkişaf etməlidir. Belə ki, şagirdlərin bilik və bacarıqları taksonomiyanın hər səviyyəsi üzrə inkişaf etdikcə onlar nailiyyətin əldə edilməsi ardıcıllığını öyrənirlər: Bilik, anlama-deklorativ bilik; Tətbiq, təhlil-prosedural bilik; Sintez, dəyərləndirmə-kontekstual bilik: Bilik-hafizə; Anlama, tətbiq, təhlil-məntiqi təfəkkür; Sintez yaradıcı təfəkkür; Dəyərləndirmə tənqidi təfəkkür.

BƏDİİ ƏDƏBİYYAT NÜMUNƏLƏRİ VƏ TARİXƏ SƏYAHƏT

Quliyeva H.Y.
Bakı Slavyan Universiteti
E-mail: hebis.selim2013@gmail.com

Bədii ədəbiyyat şagirdlərin, tələbələrin və yaşından asılı olmayaraq hər bir kəsin həyatında böyük rol oynayır. İnsanların həyatında bədii ədəbiyyatın oynadığı rolu bir neçə istiqamətdə təhlil edə bilərik. Bədii ədəbiyyat oxumaq insan həyatına bir sıra üstünlüklər qazandırır ki, bunlar: nitqin gözəlləşməsi, səlişməsi, lüğət ehtiyatının zənginləşməsi, fikri rahat izah edə bilmə bacarığı, insanı mənəvi qidalandırılması, dünyagörüşünün artırılması və tarixi olduğu kimi öyrənə bilmək, illər hətta əsrlər öncə xalqın yaşam tərzini, adət- ənənənəsi ilə tanış olmaq imkanı da oxuculara qazandırır. Əlbəttə tarixi tarix kitablarından da öyrənmək mümkündür. Amma müəyyən dövrlərdəki işğallarla bağlı əlaqədar olaraq zaman-zaman tarix saxtalaşdırılmışdır. Lakin bədii əsərlər yazıldığı tarixi dövrü olduğu kimi əks etdirir. Hətta müəyyən dövrlərdə qadağan olunmuş bəzi məsələlər də öz əksini bəzən üstüörtülü də olsa tapmışdır. İlk olaraq qədim dövr ədəbiyytına nəzər salaraq Əfzələddin Xaqani yaradıcılığına müraciət edərək onun "Mədain xərabələri" qəsidəsində o dövrün şahlarının amansızlığını, dünyanın etibarsızlığı, şahlardan narazılıqların olması öz əksini dövrün siması olaraq tapmışdır.

Tənqidçi A.Quliyev yazırdı ki, "Xaqaninin nəzərində dünya evi bərbad vəziyyətə düşmüşdür. Belə bərbadlıqda isə rahat yaşamaq mümkün deyil". Eyni zamanda Xaqani öz əsərlərində dövünün ən böyük problemlərindən biri kimi xalqın hüquqsuzluğunu göstərir. Xaqaninin şahlara tənqidi münasibəti onun şəxsi müşahidələrinin nəticəsi idi. Beləliklə Xaqaninin əsərlərini oxuyaraq həm də həmin dövrün tarixi-siyasi, sosial həyatına səyahət etmiş oluruq.

Qədim dövrün dahi şairi Nizami Gəncəvinin də əsərləri bu baximdan səciyyəvidir. Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasına bir qədər başqa aspektden baxaraq qeyd edə bilərik ki, tarixi qaynaqlara görə

bu dövrdə qızlar təhsildən tamami ilə kənarda olmuşdur. Lakin Nizaminin poemasındaki Leyli və Qeys obrazları məktəbdə bir-birini görürlər. Deməli həmin dövrdə də qızların təhsil alması qadağan olunmamışdı..

Ümumilikdə orta dövr ədəbiyyat nümayəndələrinin yaradıcılığına nəzər saldıqda o tarixi dövrdə müxtəlif dini cərəyanların yayıldığını görə bilirik. Bunu Şah İsmayıl Xətainın, İmadəddin Nəsiminin və başqalarının yaradıcılığında da görə bilərik. Sufilik,hürufilik kimi dini cərəyanların məhz bu dövr üçün aktual olduğunu bədii ədəbiyyat vasitəsi ilə öyrənmiş oluruq.

Yeni dövr ədəbiyyatına nəzər saldıqda dövrün acınacaqlı mənzərəsi Hüseyn Cavidin əsərlərində geniş və əhatəli şəkildə təsvir olunmuşdur. Xüsusi ilə "İblis" dramı 1-ci dünya müharibəsinin faciələrini bizə göstərir.

ŞAGİRDLƏRİN BƏDİİ ƏDƏBİYYAT OXUMASININ VACİBLİYİ

Quliyeva H.Y.
Bakı Slavyan Universiteti
E-mail: hebis.selim2013@gmail.com

İncəsənətin müxtəlif qolları var və bunların hər biri həyatı özünə məxsus şəkildə əks etdirir. Rəssamlıqda bu rəssamın fırçası və təxəyyülünün məhsulu olur, musiqidə bəstəkar həyata baxışını notlarla ifadə edir. Ədəbiyyatda isə insanın həyata münasibəti sözlərlə göstərilir və ədədbiyyatın təsir qüvvəsi bizə qat qat daha çox olur. Musiqini biz dinləyib həzz alırıqsa, eyni şəkildə rəsmə baxıb gözəllikləri görürüksə, ədəbiyyatı oxuyarkən o bizi həzzdən daha artığını verir, mənəvi cəhətdən formalaşdırır. Ədəbiyyat eyni zamanda bizi həm əyləndirir, həm düşündürür, həm də gələcək həyatımızda yolumuza bir işıq salır, bizə təcrübə qazandırır. Həyatda üz-üzə gələcəyimiz insanlarla bizi görüşdürür və bir növ bizi həyata daha hazırlıqlı edir. Bədii ədəbiyyatın qiraəti ilə məşğul olmaq yuxarıda da göstərildiyi kimi insana saysız-hesabsız üstünlüklər qazandırır. Xüsusi ilə insanın hələ formalaşmadığı, şəxsiyyətinin ən sürətli inkişaf dövrü olan məktəb dövründə bədii qiraətlə məşğul olmaq çox önəmlidir.

Şagirdin xüsusilə yeniyetməlik dövründə, xüsusi diqqətə, qayğıya ehtiyac olduğu bir dönəmdə həyatda qarşısına çıxan problemlərin necə həll edəcəyini bilmədiyi bir vaxtda oxuduğu əsərlərdəki qəhrəmanların təcrübəsindən istifadə edə bilər. Və nəzərə alsaq ki müasir dövrün sürəti bəzən valideynlərə uşaqları ilə lazımi vaxt keçirtməkdə problemlər yaradır, hər hansı bir problemlə qarşılaşdıqda bunun sadəcə onun başına gəldiyini, durumun vahiməli olduğunu düşünməməsi üçün yenə də oxuduğu əsərlərdəki qəhrəmanlardan nümunə götürmə şansı olur. Çox gəzən, çox bilər deyirlər. Amma Azərbaycanın dahi şairi Nizami Gəncəvinin həyat və yaradıcılığına baxsaq çox oxuyan, çox bilər deyə bilərik. Ömrü boyu Nizami Gəncəvi Gəncəni tərk etməmiş lakin buna baxmayaraq dünyanın müxtəlif ərazilərindən və şəxsiyyətlərindən qiymətli əsərlər yaratmışdır. Özü isə dövrünün ən dahi insanlarından olmuş və yaşamasından 10 əsr keçməsinə baxmayaraq yaradıcılığı bu gün də aktuallığını itirməmişdir. Bədii qiraət insanın nitqini inkişaf etdirən ən mühim şərtlərdən biridir. Müasir dövrümüzdə özünü ifadə etmək bacarığı çox yüksək qiymətləndirilir. Bədii ədəbiyyatsız nitq bacarığını təsəvvür etmək mümkün deyil. Müasir dövrün ən böyük bəlalarından biri stressdir. Qiraət bu bəlanın öhdəsindən də müvəffəqiyyətlə gəlir. İnsanın yaşadığı dünyanın necə bir yer olduğunu dərk etməsi üçün, keçmiş illəri, insanların əvvəlki həyat tərzini daha yaxşı öyrənməsi üçün də bədii ədəbiyyat əvəzsiz qaynaqdır. Bu gün biz "Kitabi-Dədə Qorqudu" araşdırarkən əcdadlarımızın həm həyat tərzi ilə, qismən də olsa danışıq dili ilə, hətta ictimai və siyasi mənzərəni də görə bilirik. Ədəbiyyatın ən qədim formalarından biri mifologiyadır. Məşhur folklorşünas alim Y.Lotman deyirdi ki, "Kim əcdadının adını çəkə bilirsə, o siyasi cəhətdən güclüdür". Deməli bədii ədəbiyyat oxumaq həm də xalqın tarixini öyrənmək, mənəviyyatı ilə tanış olmaqdır.

İDRAK FƏALİYYƏTİNİN ARTIRILMASINDA İNTERAKTİV TƏLİMİN ROLU

Quliyeva N.M.
Bakı Slavyan Universiteti
E-mail: nigarnigar204@gmail.com

Son zamanlar müəllimlərin marağı idrakın fəaliyyət və dialoq formalarına əsaslanan tədrisin fəal və interaktiv forma və metodlarının inkişafına yönəlmişdir. Şəxsiyyətin inkişafının əsas amilləri subyekt-praktiki fəaliyyət və insanlar arasında qarşılıqlı əlaqədir. Fəaliyyət yanaşmasına uyğun olaraq təlimin

psixoloji əsasını şagirdin özünün idrak fəaliyyəti təşkil edir. Fəaliyyət prosesində əldə etdiyi bilik, bacarıq və vərdişlərindən istifadə edərək yaradıcı düşünmək qabiliyyətinin formalaşmasına gətirib çıxarır. Şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsi, müstəqilliyinin və yaradıcılığının inkişafı problemi pedaqogikasının aktual vəzifələrindən biri olmuşdur. İnteraktiv təlim metodları praktiki problemlərin həllində biliklərin dərk edilməsi, mənimsənilməsi və yaradıcı tətbiqi prosesini intensivləşdirməyə imkan verir. Səmərəlilik tələbələrin biliyin nəinki əldə edilməsi, həm də birbaşa istifadəsi prosesinə daha fəal cəlb edilməsi ilə təmin edilir. Əgər interaktiv təlimin forma və üsullarından müntəzəm istifadə olunarsa, o zaman tələbələr məlumatı mənimsəmək üçün məhsuldar yanaşmalar inkişaf etdirir. İnteraktiv təlim iştirakçılarının motivasiyasını və müzakirə olunan problemlərin həllinə cəlb olunmasını artırır. Bu iştirakçıların sonrakı axtarış fəaliyyətinə emosional təkan verir, onları konkret hərəkət etməyə sövq edir. İnteraktiv təlimdə hər kəs uğur qazanır, hər kəs qrup işinin ümumi nəticəsinə öz töhfəsini verir, təlim prosesi daha mənalı və həyəcanlı olur. İnteraktiv tədris metodları fəaliyyətin təşkili üsullarının ötürülməsini həyata keçirməyə, fəaliyyət və ünsiyyətdə yeni təcrübə qazanmağa imkan verir. İnteraktiv təlim təkcə biliklərin, bacarıqların, fəaliyyət və ünsiyyət üsullarının artırılmasını deyil, həm də tələbələr üçün yeni imkanların açılmasını təmin edir. İnteraktiv təlim tədris fəaliyyətində müəllim və tərəfdaşlarla ünsiyyət, müxtəlif idrak və yaradıcı fəaliyyət prosesində əməkdaşlıq, biliklərin mənimsənilməsinə nəzarət sistemi və idrak fəaliyyətinin metodları, əldə edilmiş biliklərin tətbiq etmək bacarığını əhatə edir. İnterativ təlimin məqsədlərindən biri təkcə iştirakçıların təcrübə və münasibətlərini deyil, həm də ətrafdakı reallığı dəyişdirməkdir, çünki çox vaxt interaktiv təlim metodları müasir demokratik cəmiyyətdə istifadə olunan interaktiv fəaliyyətlərin imitasiyasıdır. Tədris prosesinin subyekti kimi tələbəyə interaktiv rejimin tətbiqi tədris mühiti ilə qarşılıqlı əlaqədə təhsil məzmununun fəal inkişafı təcrübəsi verir. İnteraktiv təlim böyük təhsil və inkişaf potensialına malikdir və təlim prosesində maksimum şagird fəallığını təmin edir. Lakin bütün çətinliklərə baxmayaraq interaktiv təlim həm ümumi, həm də peşə təhsili praktikasında getdikcə daha çox tərəfdar qazanır, çünki interaktiv təlim metodları təlim prosesini daha motivasiyalı, məhsuldar, emosional cəhətdən zəngin, şəxsiyyəti inkişaf etdirən bir təlimə çevrilir. İnteraktiv metodlar, vəzifələri bölüşdürmə, məqsədlər qoyma, balanslı, düzgün seçim etmə, vəziyyəti təhlil etmə, sevinc hissi və dərin məmnunluq hissi verir. Fərdi interaktiv texnologiyalardan və oyun tapşırıqlarından istifadə, şagirdlərin bilik fəaliyyətini və motivasiyasını həqiqətən artırır, onları maraqlandırır. Müəllimə öyrənmə prosesini fərqləndirməyə, fərdiləşdirməyə, şagirdlərin analitik təfəkkürünü inkişaf etdirməyə, özlərinə hörmət, öyrənmə fəaliyyətlərini idarə etmə bacarıqlarını formalaşdırmağa, yaradıcı təfəkkürün, ünsiyyət mədəniyyətinin inkişafına, fəal bir şəxsiyyət yetişdirməyə imkan verir. İnteraktiv təlim prosesi elə təşil olunmalıdır ki, şagirdlər biliyi tədqiqat yolu ilə əldə edə bilsin. Bu təlim prosesində sinif, qrup, cütlər şəklində problemin həlli yollarına dair axtarışa çıxarılır. Dünya təcrübəsi göstərir ki, interaktiv təlim metodu müəllim üçün dərsin keyfiyyətini artırmaq üçün vacib bir vasitə ola bilər.

TƏLƏBƏLƏRİ İNGİLİS DİLİNİ ÖYRƏNMƏYƏ MOTİVASİYA ETMƏNİN YOLLARI

Quliyeva Z. S.
Bakı Slavyan Universiteti
E-mail: zahra.guliyeva28@mail.ru

Müəllim tələbələri ingilis dilini sevməyə motivasiya etməkdə əsas rol oynayır. Amma bu düşünüldüyü qədər sadə prosses deyil. Bu prosses bəzən bir qədər uzun və çətin yollarla keçə bilər. İngilis dili doğma dili olmayan tələbələrin bu dili öyrənməyə çox büyük həvəs və istəyi var, çünki bu dil onların ən vacib məqsədlərini həyata keçirmələrinə kömək edə bilər.

Tələbələrə ingilis dilini öyrətmənin müəyyən strategiyaları vardır.

- Tələbə əməkdaşlığı üçün vaxt ayırın. Tələbə əməkdaşlığı ingilis dilinin öyrənilməsində və öyrədilməsində zəruri rol oynayır. Bəzi müəllimlər düşünürlər ki, tələbələr arasında müzakirə, diskussiya o qədər də önəmli əhəmiyyət daşımır. Amma bu düzgün düşüncə deyil. Tələbə müəllim tərəfindən diskussiyaya həvəsləndirilə bilər, çünki bunun tələbələrin ingilis dilini öyrənməsində güclü təsiri var.

- Tələbələri kreativ yazılarına görə tərifləyin. İnteraktiv yazı hər zaman xoşagələndir. Bu həm tələbələri, həm də müəllimləri dərsə cəlb edən metoddur. Onlar belə olduqda bir yerdə yazmağa qərar verirlər. Bu metodla tələbə öz müəlliminin yazı üsuluna istinad edə və ya yönələ bilər. Belə olduqda tələbə yazı yazma ideyasını mənimsəyə bilər. Yazıdan sonra həm müəllim, həm tələbə bir yerdə nə yazdıqlarını oxuyub nəzərdən keçirə bilərlər. Bu üsul həm də müəllimlərə tələbələrlə mehriban münasibət və möhkəm bağ yaratmağa kömək edə bilər.

- Öyrənmə və ünsiyyət üçün vaxt ayırın. Tələbələri həvəsləndirmənin və motivasiya etmənin ən yaxşı yolu onların kommunikasiyasını təkminləşdirməkdir. Dil öyrənənlər kommunikasiya yolu ilə fikirlərini ifadə edərkən çox sevinirlər. İngilis dili öyrənənlər hər zaman ingilis dilində danışmağa istəkli olurlar, çünki onlar bu yolla dil bacarıqlarını inkişaf etdirməyə can atırlar. Tələbələrin qrup fəaliyyətlərinə cəlb edilməsi ingilis dili öyrənmədə onlar üçün ən rahat üsullardan biridir. Onlar ünsiyyətdə olarkən onları dinləmək və bir-biriləri ilə materialı müzakirə etmək üçün tələbələrə vaxt vermək lazımdır.

- İngilis dilində oyunlar oynayın. Oyunlar öyrənməkdən yorulan tələbələri dərsə cəlb etmənin ən yaxşı üsullarından biridir. Fərqi yoxdur tələbə yetkindir və ya azyaşlıdır, oyunlar onları dil öyrənməyə maraqlarını artırmağa və onları motivasiyada saxlamağa kömək edəcək ən əlverişli üsuldur. Bu oyunlar dərsin əvvəlində, dərs prossesi ərzində və ya sonunda tətbiq edilə bilər. Bu oyunların tətbiq olunması ilə tələbələr söz bazalarını zənginləşdirə, düzgün tələffüz qaydalarını inkişaf etdirə bilərlər.

- Tələbələrin işlərini qiymətləndirin. Tələbələr hər dərsin sonunda müəllimlərin onları qiymətləndirməsini gözləyirlər. Buna görə də müəllim tələbələrə istədiklərini verməlidir. Tələbəyə verilən düzgün qiymətləndirmə müəllim və tələbə arasında düzgün münasibət yaradılmasına da şərait yarada bilər. Tələbələrin səhvlərini düzəltməkdə çox vaxt sərf etmək lazım deyil, çünki belə olduqda onlar özlərini zəif və işəyaramaz hiss edə bilərlər. Bu halda hətta tələbə müəllimlə arasına məsafə qoya və münasibətlərin korlanmasına səbəb ola bilər. buna görə də müəllim həm neqativ həm də pozitiv qiymətləndirmə verərkən bu kimi halları nəzərə almalıdır.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA SADƏ ÖLÇMƏLƏR ÜZRƏ TƏLİMİN ƏHƏMİYYƏTİ

Quluzadə G.M.
Bakı Slavyan Universiteti
E-mail:gunay_quluzade_00@mail.ru

Məktəbəqədər yaşlı uşaqlar üçün mürəkkəb məsələlərdən biri ölçmədir. Ölçmə prosesini həyata keçirmək üçün ölçü alətləri ilə tanış olmaq və ölçü vahidləri haqqında məlumata sahib olmaq lazımdır.

Ölçü prosesi aparan zaman ölçmə fəaliyyəti həyata keçirilir. Ölçü fəaliyyəti dedikdə eyni cinsli kəmiyyətlərin müqayisəsi nəzərdə tutulur. Eynicinsli xassəsinə əsaslanaraq ölçmə konkret ölçünün müəyyənləşdirilməsi üçün zəruri şərtlərdən biri hesab olunur. Məktəbəqədər təhsil müəssisələrində uşaqlara aşılanan ölçü vahidləri haqqında biliklər elementar və sadə xarakter daşıyır. Əşyaların ölçüsü müəyyən edərkən ilkin növbədə uşaqlar şərti ölçüdən istifadə edirlər. Buna əsaslanaraq da əşyanın həqiqi ölçüsünü müəyyə etmək üçün şərait yaranır.

Məktəbəqədər yaşlı uşaqlar mürəkkəb ölçmə əməliyyatı aparmırlar. Onların ölçmə bacarığı gündəlik həyat tələbatına uyğun formada formalaşır. Gündəlik tələbata uyğun ölçü bacarıqlarına dərindən yiyələnən uşaq müxtəlif situasiyaları həll etmə bacarığına yiyələnir. Gələcək illərdə insan üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmək üçün məktəbəqədər yaşlı uşaqlarda sadə ölçmələr xüsusi əhəmiyyət kəsb edir.

Uşaqlar ölçü vahidləri ilə daha çox böyüklərin praktik fəaliyyətində tanış olurlar. Buna nümunə olaraq mağazadan alınan hər hansısa əşya qarşılığında ödənilən məbləği və yaxud geyim alarkən onun insan ölçüsünə uyğun olub-olmamasını göstərə bilərik. Bu kimi hallarda valideynlərdlə birlikdə uşaqlarda sadə ölçmələr haqqında ilkin təsəvvürlər formalaşmağa başlayır. Məktəbəqədər təhsil müəssisələrində mağazaya könüllü gəzintinin təşkil edilməsi və yaxud "alıcı-satıcı" kimi oyunun yaradılması ilə uşaqlar valideynlərinin fəaliyyətlərində gördüklərini rollu oyunlarla ifadə edərək ölçmə prosesi haqqında biliklərə yiyələnə bilərlər.

Ölçmə təliminə yiyələnmənin əhəmiyyətindən biri isə ondan ibarətdir ki, uşaqlar ətraflarında gördükləri cisim və əşyaları ölçməklə onlarda, ətraf aləm haqqında təsəvvürlər yaranır, gördüklərini yadda saxlamaqla uşaqların qavraması formalaşır, qavrama prosesində isə onların hiss və duyğu üzvləri daha çox inkişaf edir. Bunun nəticəsində də onların lüğət tərkibi zənginləşir, nitqi formalaşır, idrakı aktivləşir və araşdırma qailiyyəti inkişaf edir. Ölçə prosesini həyata keçirməklə kiçik yaşlı məktəblilərdə səbəb və nəticə əlaqəsi formalaşır.

Ölçmə aparmaqla uşaqlar toplama, çıxma kimi hesab əməllərini öyrənir, eyni zamanda onlar da müstəqil məsələ qurmaq, onu həll etmək kimi bacarıqlar formalaşır. Ölçmə prosesini aparmaq üçün ilk növbədə uşaqlarda rəqəmləri saymaq bacarığı yaranır. Buna görə də məktəbəqədər yaşlı uşaqlara rəqəmlər haqqında ilkin təsəvvürlərin öyrədilməsindən sonra uzunluğun, kütlənin, hündürlüyün, eninin təyin edilməsi qabiliyyətləri aşılanır və möhkəmləndirilir.

Məktəbəqədər yaş dövrü uşağın ev dövrü ilə ibtdai məktəb arasındakı əlaqəni təmin edir. Elə buna görə də məktəbəqədər yaşlı uşaqlarda sadə ölçmələr üzrə biliklərin formalaşdırılması onları təkcə riyaziyyat fənninə deyil, ibtidai siniflərdə tədris olunacaq digər fənlərə də hazırlayır.

ABBAS SƏHHƏTİN "VƏTƏN" ŞEİRİNİN TƏDRİSİ YOLLARI

Rəhimli N.S.
Bakı Slavyan Universiteti
E-mail: rahimlinazenin@gmail.com

XX əsrin əvvəllərində milli ədəbiyyatın dəyişən mövzu istiqamətində "vətən mövzusu" xüsusi yer tutur. Abbas Səhhəti milli ədəbiyyatın "vətən şairi" də adlandıra bilərik. Vətən, millət, vətəndaşlıq mövzusu onun yaradıcılığının ana xəttini təşkil edir. Vətən, vətənə sevgi və müraciət kimi anlayışların geniş şəkildə təsvir olduğu "Vətən" şeiri əks etdirilən ideyalar baxımından olduqca önəmlidir. Onun 1909-cu ildə yazdığı bu şeirdə vətən sevgisi tamamilə real və doğmadır. Aşıladığı ideyalara görə "Vətən" şeirinin həm orta, həm də ali təhsil ocaqlarında tədrisi və bu tədrisin metodlarının müəyyənləşdirilməsi böyük əhəmiyyət daşıyır.

Təlim proseslərinin yeni tələblərə uyğun təşkili, mövzuların yeni fəal dərs sisteminə uyğun izahı milli kurikulum sisteminin əsasını təşkil edir. Buna görə də ədəbi əsərlərin tədrisində yeni tələblər nəzərə alınmalıdır. Fəal təlimə uyğun olaraq, vətən mövzusunun şagirdlərə tədrisi zamanı sinfin təşkilində motivasiya mərhələsi olduqca vacibdir. Bu mərhələdə slayd vasitəsilə milli romantik şairlər barədə qısa məlumat verildikdən sonra, vətən anlayışı barədə şagirdlərə sual ünvanlana bilər. Ədəbi əsərlərin tədrisində əsas məqamlardan biri şagirdlərin düşüncə qabiliyyətini genişləndirmək, onlarda mövzulararası əlaqəni təmin etməkdir. Bu mərhələdə şagirdlərə "vətən mövzusuna aid başqa hansı əsərləri xatırlayırsınız?" sualı verilə bilər.

Abbas Səhhətin poeziyasında vacib yer tutan "Vətən" şeirinin təhlili növbəti mərhələdə aparılmalıdır. Tədqiqatın aparılması mərhələsində kiçik qruplara ayrılmış şagirdlərə "Vətən" şeirinin bəndləri tədqiqat vərəqlərində paylanılır. Hər qrup şeirin müəyyən bəndinin izahını vərəqlərdə təhlil edib, qeydlər aparır. Bu hissədə əsas məqam şagirdlərin vətəndaşlıq, vətən sevgisi, vətənin gözəlliyinin tərənnümü kimi məqamları şeirin məzmununa uyğun təhlil etməsidir. Məsələn, şeirin bir bəndinin təhlilinə nəzər yetirək:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.
Məni xəlq eyləmiş əvvəlcə xuda,
Sonra vermiş vətənim nəşvü-nüma.

Şeirin bu bəndini təhlil edən qrup öz təhlilini təqdim edir. Şeirin misralarında şagirdlərin bilmədiyi sözlərin mənası müəllim tərəfindən lövhəyə yazılır. Bu şeirin ideyasının düzgün formada müəyyən olunması üçün vacibdir. Şagirdlər "xuda" sözünün "yaradan", "nəşvü-nüma" sözünün isə "inkişaf və tərəqqi" olduğunu öyrənirlər. Şeirin təhlilində müzakirə üsulundan istifadə edilə bilər. Təhlil zamanı Abbas Səhhətin yaradıcılığında vətən anlayışının müəyyən sistem əsasında əks etdirildiyini, şairin lirik qəhrəmanının bütün varlığı, sevgisi və həyatının vətəndən ibarət olduğu şagirdlərə ötürülməlidir.

Vətəni sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz.

Şeirin hər kəs tərəfindən dillər əzbəri olan bu misralarının təhlilinə geniş yer ayrılmalıdır. Çünki Abbas Səhhətin yaradıcılığından qırmızı xətt kimi keçən vətən mövzusu məhz bu misralarla ən yüksək səviyyəyə çatır. Şagirdlərə təhlil zamanı şair üçün Vətən anlayışının müqəddəs və ali olması, vətənin ən yüksək mərtəbədə təsviri əks etdirilməlidir. Abbas Səhhət üçün həmin yüksək mərtəbəyə vətəni səmimi qəlblə və ürəkdən sevənlər çata bilər. Vətəndaş vətənə olan sevgisini həm də praktiki formada göstərməli, onu daim qorumalıdır. Şagirdlər təhlil zamanı görürlər ki, A.Səhhətin lirik qəhrəmanı vətəni sevməklə kifayətlənmir, həm də vətən üçün fədakarlıq edir. Şeirin təhlilinin sonunda slayd vasitəsilə ekranda A.Səhhətin "Mən vətəni canım kimi sevirəm, ruhum, ətim, qanım kimi sevirəm" -cümləsi əks etdirilə bilər. Bu cümlə vasitəsilə şagirdlər A.Səhhətin şeirdə təsvir etdiyi lirik qəhrəmanın əslində şairin özü və öz sevgisinin olduğunu dərk edəcəklər.

Mövzunun tədrisinin sonunda müəllim lövhədə klaster üsulu vasitəsilə A.Səhhətin "Vətən" şeirinin təhlili zamanı müəyyən edilən nəticələri qeyd edə bilər. Bu həm şagirdlərin zehni qabiliyyətinin inkişafı, həm də şeirin təhlilini daha yaxşı mənimsəmələri üçün önəmlidir.

MÖVLUD SÜLEYMANLI NƏSRİNDƏ MİFOLOGİYA

Rəhmanova A.M.
Bakı Slavyan Universiteti
E-mail: arzu.rakhmanova@mail.ru

60-70-ci illərdə cəmiyyətdə gedən ictimai-siyasi proseslər, mənəvi iqlimin dəyişməsi, müasir həyatın və problemlərin ədəbiyyata təzahür etməsi, ədəbiyyatda yeni mövzu və problematikaya səbəb oldu.Cəmiyyətdə, insan həyatında baş verən yeniliyə doğru addımlar bədii ədəbiyyatdan da yan keçmədi və bununla da nəsrdə yeni üslublar formalaşdırıldı.

Mövlud Süleymanlı yaradıcılığında xalq bədii təfəkküründən qaynaqlandığını açıq görmək mümkündür.Yazıçı "Quru kəllə","İt dərsi","Ağacan" və s. kimi hekayələrində mifik tərzi, "Şanapipik", "Duzsuzluq", "Ot", "Noxtalı adam" və s. povestlərində isə etnoqrafik tərzi aydın göstərmişdir. O, "Dəyirman" , "Şeytan" povestlərində sovet rejiminin çürüməyə, çökməyə başladığını əks etdirmişdir.

Əsərdə baş verən hadisələr sırf real xarakter daşıdığı kimi eyni zamanda həm də magik xarakter daşıyır. Magik realizmi səciyyələndirən xüsusiyyətlər: realist əsərə sehrli, magik elementlərin gətirilməsi, əsərdə tez-tez simvollardan istifadə, folklor elementlərindən, mifdən istifadədir.Bütün bu xüsusiyyətləri biz M.Süleymanlının hekayələrində,yaradıcılığında görürük. Bunun ən bariz nümunəsi isə yazıçının yaradıcılığında xüsusi yer tutan "Quru kəllə" hekayəsidir .

M.Süleymanlının əsərlərinin, hekayələrinin özünəməxsus xüsusiyyətlərindən biri budur ki, yazıçının hekayələrində mifik təfəkkür, qavrayış, xalqın folklor ənənələri ilə birləşir və nəticədə əsatir folklor sintezi olan əsər yaranır.Mövlud Süleymanlı hekayələrində mifə böyük maraq göstərmiş və əsərlərində mifə müraciət etmişdir. Yazıçının mifik təfəkkürünü əks etdirən,onun yaradıcılığında mühüm yer tutan əsərlərdən biri "Quru kəllə" hekayəsidir.Əsər Yusif Səmədoğlunun xatirəsinə həsr olunub.Əsərdə Adam obrazı yaşadığı həyatdan narazıdır, şikayətçidir. O, Allahın yanına şikayətə gedir. Qarşılaşdığı hər kəsdən soruşur ki, "Nə sözün var, sənnən nə deyim, Allaha?". Mövlud Süleymanlı öz demək istədiklərini, yəni cəmiyyətdən narazılığını Adam obrazı vasitəsilə verir. Yazıçı içərisində yaşadığı cəmiyyətin gerçək simasını birbaşa ifadə etməyin mümkün olmadığını başa düşdüyü üçün onu dolayı, sətiraltı üsulla çatdırmaq yolunu seçmişdi. Hekayədəki Şeytan obrazı neqativ missiyalı mifoloji obrazdır və insanları yoldan çıxarır.Şeytan Adamı da yoldan çıxarmışdı. "Şeytanlardan Adamın içinə doluşan oldu. Tıp-tıp...tıp-tıp. Adamın içi daraldı, dərdi yadına düşdü". Məhz Şeytanın təhriki ilə Adam dünyaboyu olmazın oyunlar çıxardır. Bu motivi biz Hüseyn Cavidin "İblis" əsərində görürük. Başqa bir mifoloji obraz olan Hal anası deyir:"Uğur olmasın sənə ay Adam , hara gedirsən yenə? Ayağını hara qoyursan, qan düşür".Xalq inanclarına görə hal anası hamilə qadınların ciyərini çıxarıb çaya aparır, orda yuyub balaları ilə yeyir. "Əsatirlər, əfsanələr və rəvayətlər" kitabında hal haqqında aşağıdakı məlumat verilmişdir: "Hal nənəsi su dibində, şır dibində olur. O, arvaddan əmələ gəlib. Əvvəl öz uşağını yeyib. Sonra yeddi gün yeddi uşaq yeyib. Sonra da düşüb zahıların üstünə. Gündüz arvad olur, gecə hal nənəsi…Zahı tək qalmamalıdır. Onun yanına şiş, qayçı, bıçaq qoyurlar ki, hal anası onu aparmasın. Zahı yatan otağın divarlarına cızıq çəkirlər. Hal anası başını acadan uzadıb deyər ki, ay arvad, ver uşağını əmizdirim. Əgər zahı uşağını əmizdirməyə versə, uşaq halın südündən əmsə, o saat öləcək, ya da dəli – cinli olacaq. Zahı uşağı verməyəndə hal anası onun ciyərini çıxarıb aparır, çayda suya çəkir, zahı ölür. Onda deyirlər ki, zahını hal apardı. Bu vaxt gərək tez gedib suyu qılınclayalar, göyə güllə atalar, evdəki suları boşaldalar ki, zahının ciyərini hal suya çəkə bilməsin. Belə eləsələr, zahı ayılar".Hekayədəki mifoloji obrazlardan biri Quru Kəllədir. Əsər boyu Quru Kəllənin dilindən bu söz işlənir:"Allah, bundan betərindən saxla!". Quru Kəllə rastlaşdığı tarixləri, insanları, dinləri, mədəniyyətləri məhv edir.Bu xalq nağılındakı motiv əsərdə də özünü göstərir.

NİTQ TAPŞIRIQLARINDA RESEPTİV VƏRDİŞLƏRİNİN TƏTBİQİ

Rəsulzadə K.N.
Bakı Slavyan Universiteti
E-mail: kubra.resulzade97@gmail.com

Təhsil standartlarına əsasən xarici dilin (ingilis dili) tədrisi dörd vacib bacarığı əhatə edir. Bunlar dinləmək, danışmaq, oxumaq və yazı bacarıqlarıdır. Ayrı-ayrılıqda müzakirə edilməsinin əsas səbəbi bunların yüksək səviyyədə olması və şagirdlərin tədris zamanı qarşıya qoyulan nəticələrin əldə edilməsdir.

Bu proses tək bir istiqamətlə müəllim tərəfindən həyata keçirilmir, qarşılıqlı müəllim şagird kontekstindən çıxış edərək birlikdə öyrədilib mənimsədilən prosesdir. Bütünlükdə ünsiyyət iki xüsusiyyətə malikdir: qavrama dil və ifadəli dil. Qavradığımız (reseptive) dil eşitdiyimiz və anladığımızdır. Dəstəkli dil başqalarına dediklərimizdir.

Dilin bu iki cəhəti çox fərqlidir, lakin eyni dərəcədə vacibdir. Həm qəbuledici, həm də ifadəli səlist şifahi dilin inkişafı, sonrakı dövrlərdə yaxşı oxumaq və yazma qabiliyyətinin bir göstəricisidir. Reseptive bacarıq, öyrənilən dili dinləmək və anlamaq qabiliyyətləri hesab edilir.

Dəstəkli dil istifadə edərək başqaları ilə ünsiyyət qurmaq bacarığını daha inkişaf etdiririk, bu da, uşaqlar danışmağa başladıqda, qavrama bacarıqları ümumiyyətlə ifadəli dil bacarıqlarına nisbətən daha inkişaf etmiş olur. Misal olaraq, dörd yaşında uşaqların çoxunun danışıq lüğəti 2300 sözdən ibarətdir, lakin qavrama bacarığı üçün dil lüğəti təxminən 8.000 sözdən ibarət olmalıdır.

Qavrama bacarığı olanın birinin lüğəti ilə bilik bacarıqları və istiqamətləri sosial əlaqə zəruriliyinin başa düşülməsində böyük rol oynayır. Dəstəkli dilin inkişafını tanımaq nisbətən daha asandır. Misal olaraq biz deyə bilmərik ki, hansısa valideyn körpənin ilk sözü ilə sevinc yaşamağı səbirsizliklə gözləməyib. Yeni doğulmuş körpə valideynin xoş bir səsinə cavab verdikdə, qəbuledici dilin başlanğıcını göstərir. Bir körpə tanış bir səsə cavab verəndə, ifadəli dil istifadə etməyə başlayır.

Bunlar ünsiyyətin vacib və faydalı olduğunu anlamağa başladığına işarədir. Bəzi tədqiqatlar göstərir ki, nitq qabiliyyətlərinin tapşırıqlarını tətbiq edərkən demək olar ki, bu bacarıqlar əsasən passiv hesab olunan bacarıqlardır. Qavrama bacarıqları qabiliyyətlərinə dinləmək və nitq vərdişinin inkişafına da istifadə olunan tapşırıqlar daxildir və danışarkən, yazarkən daha effetkli olur. Dil biliklərinin qavraması da bir neçə istiqamətdə bölünə bilir.

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ YAZI BACARIQLARI

Rəsulzadə K.N.
Bakı Slavyan Universiteti
E-mail: kubra.resulzade97@gmail.com

Hər bir dilin quruluşu və sistemi var və o özünün qrammatik, leksik formaları ilə tədris olunur. İngilis dilini öyrənənlər üçün ilk olaraq düzgün yazı bacarıqlarından istifadə etmək çətin olsa da, yuxarı səviyyədə yazmaq daha çox çətinlik yaradır. Təhsil alanlar ilk olaraq xarici dildə yazı bacarığından istifadə zamanı düzgün formada yararlana biləcəkləri lüğətlərə malik olmalıdırlar.

Akademik yazı üçün dil öyrənənlər müntəzəm olaraq lüğətlərdən istifadə etməlidirlər, həmçinin, öyrəndikcə söz ehtiyatına da malik olurlar. İllərdir ki, dil tədrisinin çox hissəsi qrammatika və lüğətə əsaslanır, ingilis dilini öyrənənlər dilin qrammatika sistemini mənimsəyir, çoxlu sözlər öyrənir və sonra natiq istənilən mövzu haqqında danışa bilir.

Bu o deməkdir ki, dilin öyrədilməsi feillər, əvəzliklər, isimlər, sifətlər, zərflər və s. ilə başlayan bütün törəmələrin, lüğətin dərindən və hərtərəfli öyrədilməsini nəzərdə tutur. Daha sonra tədris prosesi dilin istifadəsini tənzimləyən qrammatik qaydaların öyrədilməsinə doğru irəliləyir. İngilis dilini öyrənənlər sanki qrammatikadan heç vaxt istifadə etməyərək dili o formada istifadə edirlər. Tələbələr öz yeni öyrəndikləri xarici dil ilə fikirlərini düzgün çatdırmaqda çətinlik çəkirlər çünki, onlar danışıqda ingilis dilindən düzgün şəkildə istifadə edə bilmirlər.

Yazı bacarığının istifadəsində kollokasiyaların (analiz leksik səviyyədə) olması xüsusi çətinliklər yaradır. Yazı bacarıqlarını artırmaq üçün ingilis dili tədris edən müəllimlər xeyli səy göstərərək, tələbələrin yazılarını düzəltməyə və dilin ümumilikdə çətin sahələrini müəyyən etməyə çox vaxt sərf edirlər. Bu səylərə baxmayaraq, çox vaxt eyni səhvlər davam edir. İngilis dilini düzgün formada yazmaq dil öyrənmək baxımından daha çox diqqət tələb edir.

Yazılı mətndə ifadələrin istifadəsi çoxluq təşkil edir və bu da cümlələrin formalaşmasında daha yaxşı ünsiyyətə kömək edir. Robinsə görə, kolokasiyalar üzrə tədqiqatlar 2300 il əvvəl Yunanıstanda başlamışdır. Yunan stoikləri (realist) kollokasiyaları semantika ilə əlaqələndirmişlər və sözlər arasındakı məna əlaqələrini öyrənmək üçün kollokasiya anlayışından istifadə etmişdilər. Bu qədim alimlərin fikrincə, sözlər "təcrid olaraq mövcud deyil və işlədildikləri sıralamaya görə fərqlənə bilirlər".

Kollokasiyalarla bağlı araşdırmalara ehtiyac çoxdan müəyyən edilsə də, akademik araşdırmalar yalnız bu yaxınlarda aparılmışdır.

XARİCİ DİLİN TƏDRİSİ ZAMANI ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ METODUNUN ROLU

Rzayeva A.M.
Bakı Slavyan Universiteti
E-mail: ayshan.rza614@gmail.com

Hazırkı dövrdə təlim prosesində qiymətləndirmə böyük rol oynayır. Təhsil alanların bilik və bacarıqlarını doğru ölçmək və ədalətli qərar vermək üçün qiymətləndirmə prosesi cari təhsil sisteminin ayrılmaz hissəsi hesab edilir. Qiymətləndirmənin əsas məqsədi tələbənin cari bilik ,bacarıqlarını təkmilləşdirmək və buna nail olmaq üçün müvafiq tədris metodunu seçmək və effektiv şəkildə tətbiq etməkdir. Düzgün qiymətləndirmə tətbiq etdikdə tələbənin tədris prosesinə olan marağı artır, motivasiyası yüksəlir və özünəinamı aşılanır. Qiymətləndirmə prosesinə sadəcə tələbəni test edən,onun bilik səviyyəsini müəyyənləşdirən standart test kimi yox, təhsil alanın inkişafına,təhsil keyfiyyətinin artmasına xidmət edən təməl vasitə kimi yanaşılmalıdır. Uğurlu qiymətləndirmə tətbiq etmək üçün tədris zamanı bir çox qiymətləndirmə növlərinə müraciət edilir. Tez tez müraciət edilən formativ və summativ qiymətləndirmə üsulu demək olar ki, hər bir müəllim və pedaqoqun tədris zamanı istifadə etdiyi qiymətləndirmə növləridir.

Özünü qiymətləndirmə tələbələrə öz inkişaflarını dəyərləndirmə imkanı təklif edən, dil tədrisi zamanı geniş olaraq istifadə olunan qiymətləndirmə növüdür. Həmçinin son zamanlarda aparılan tədqiqatlar özünü qiymətləndirmənin tələbələrin xarici dilin öyrənilməsi zamanı oxumaq bacarıqlarını xüsusilə inkişaf etdirən qiymətləndirmə növü olduğunu göstərir. Özünü qiymətləndirmə öyrənənlərə öz hədəf və məqsədlərinə nail olmaq üçün getdiyi istiqamətdə özünün güclü və zəif tərəflərini göstərməklə cari fəaliyyətlərini qiymətləndirməyə imkan verir. Bu məqsədlə tələbələr öz nailiyyətlərini, dil inkişaflarını görə bilir və təkmilləşdirməyə ehtiyac duyulan məqamlara diqqət yetirirlər. Qiymətləndirmə nəticəsində meydana çıxan qavrama çətinlikləri barədə mühakimə irəli sürə bilirlər. Bu qiymətləndirmə üsulu şagirdlərin müstəqilliyini təşviq edən mükəmməl üsul olduğundan müəllimlər bu texnikadan tez tez istifadə edirlər. Tələbənin təlim zamanı nəyin çatışmadığını anlaması və onun aradan qaldırılması üçün görüləcək tədbirləri planlaması tələbəyə məsuliyyət hissi aşılayır. Özünü qiymətləndirmə təcrübəsi xarici dilin tədris sahəsi üçün yeni deyil və o, müxtəlif EFL(ingilis dili/xarici dil kimi) kontekstlərində "tələbələrin öz dil bacarıqlarını və biliklərini qiymətləndirdikləri prosedurlar" kimi istifadə olunur.

Özünü qiymətləndirmənin tələbələr və müəllimlər üçün müxtəlif üstünlükləri vardır. Bu vasitə ilə müəllimlər öyrənənlər sayəsində şagirdlərin inkişafını izləyə bilir. Müəllimlər tələbələri özlərinin öyrənmələri üçün məsuliyyət daşımağa təşviq edə bilir. Tələbələr və müəllimlər gələcək hədəf və məqsədləri müəyyən edə və onlara uyğun olaraq tədris və öyrənməni idarə edə bilərlər. Müəllimlər tənqidi təfəkkürü inkişaf etdirə bilirlər. Müəllimlər yüksək nəticə göstərən və ya aşağı nəticə göstərən tələbələr arasındakı boşluğu doldura bilirlər. Həmçinin tədqiqatlar göstərir ki, bu qiymətləndirmə sayəsində tələbələr həyatboyu öyrənmə bacarıqlarını təkmilləşdirir və inkişaf yönümlü olurlar. Pedaqoji təcrübələrimizə təsir edə biləcək qiymətləndirmənin bu növü diqqətimizi ənənəvi və ya statik qiymətləndirmə metodlarından dəyişərək təlim prosesi zamanı daha çox tələbə mərkəzli yanaşmanın yaradılmasına xidmət edən alternativ üsuldur.

Qeyd etdiyimiz kimi zaman keçdikcə inkişaf yönümlü yeni qiymətləndirmə növlərinə müraciət təhsil sisteminin inkişafının bariz göstəricisidir.Unutmamaq lazımdır ki, qiymətləndirmənin yeganə məqsədi tələbələrin biliklərinin qiymətləndirilməsi və ya bilmədiklərinin ortaya çıxarılması deyil, onların nailliyyətlərini və inkişafını üzə çıxarmaqdır. Şübhəsiz ki,təhsil alanın inkişafının təmin olunduğu təhsil sistemi daim qarşıya qoyduğu hədəflərə uğurlara çatacaqdır.

HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU SİYASƏTİNDƏ AZƏRBAYCAN DİLİ MƏSƏLƏSİ

Şəmmədzadə L.A.
Bakı Slavyan Universiteti
E-mail: Leman9852@gmail.com

Dil siyasətinin mürəkkəb struktura malik olmasının əsas səbəbi dilin təbii imkanları ilə subyektiv iddiaların qarşılaşmasıdır. Dil siyasəti konkret dilin mövqeyindən mövcud olan beynəlxalq və sosial-siyasi vəziyyət nəzərə alınmaaqla aparılmalıdır. Dil siyasəti aktiv və passiv qlobal, milli və regional, humanist ola

bilər. Dil siyasəti aparılarkən dilin mövqeyindən beynəlxalq sosial-siyasi şərait nəzərə alınaraq aparılmalıdır. Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili və Azərbaycanda yaşayan başqa xalqların ünsiyyət vasitəsidir. Azərbaycan dili, həmçinin İran İslam Respubliksınında yaşayan azərbaycanılarında ana dilidir. Azərbaycan dili Ural-Altay dillərinin türk dil qrupunun oğuz yarımqrupuna daxildir.

Azərbaycan dili dövlət dili kimi hüquqi aktlarla təsdiq olunması məsələləri Azərbaycan Xalq Cümhuriyyəti dövründə aktuallıq kəsb edirdi. O dövrdə parlementin istifadə etdiyi dil Azərbaycan türkcəsi idi. Başqa millətlərdən olan nümayəndələr iclasların rus dilində olmasını təklif etmələri geniş şəkildə müzakirə olundu. 1918-ci il 27 iyun tarixli fərmana görə iki il ərzində dövlət orqanlarında işlər tamamilə Azərbaycan dilində aparılmalı idi. Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk illərdə dil quruculuğu sahəsində yenilik baş vermədi.

Azərbaycan dilinin hüquqi statusu haqqında heç nə yazılmadı. Stalinin ölümündən sonra repressiyalar və totalitar rejimin ağır formaları aradan qalxamağa başladığı bu dövrdə 1956-cı ildə Azərbaycan Respublikası Ali Soveti 1937-ci il Kostitusiyasına xüsusi əlavələr olmuşdur.

Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması təsdiq olunurdu. Lakin Azərbaycan dilini keçirilməsi haqqında şərtlər Moskvada narazılığa səbəb olmuşdur. Stalin dövrünün sərt qanunlarından azad olmuş xalqımız rus dilinin hakimiyyətinə qarşı çıxmağa başlamışdılar. 1969-cu ildə Azərbaycana rəhbər seçilən Heydər Əliyev dil quruculuğuna xüsusi diqqət göstərməklə yanaşı, həmçinin mədəni, siyasi-ictimai həyatında dirçəliş yaratmışdır.

Ümummilli liderimiz hər zaman Azərbaycan dilini inkişaf etdirmək və dünya dilləri arasında nüfuzunu artırmağa çalışmışdır. Ancaq həmin dövrdə rus dilinin Azərbaycan dilinə təsiri çox güclü idi. Azərbaycan KP-nın qurultayları rus dilində keçirilirdi.

Heydər Əliyev ana dilimizi elm, mədəniyyət, inzibati idarə sistmindəndən uzaqlaşdırılaraq məişət dili səviyyəsinə endirilərək bunun ruslaşdırma siyasəti olduğunun fərqində idi. Buna görə də 1970-ci illərdən başlayaraq Azərbaycanda ali məktəblərində ana dili və ədəbiyyat ixtisası üzrə imtahanlar məcburi hesab edilirdi. Azərbaycan dilini tədris edən məktəblərin sayı artırılırdı.

Heydər Əliyev 1970-ci ildə Bakı Dövlət Universitetinin 50 illiyi münasibəti ilə keçirilən yığıncaqda iştirak etmmiş burada ana dilində çıxış etmişdir. Heydər Əliyev siyasi-ictimai fəaliyyətinin tərkib hissəsi kimi dil məsələlərinə, ictimai xadim olaraq deyil, həm də bir dilçi-filoloq professionallığı ilə öz mövqeyini bildirmişdir. 1960-1970-ci illərdə H.Əliyevin rəhbərliyi altında keçirilən müşavirələrdə iqtisadi, siyasi məsələlər ilə yanaşı, həm də mədəni-mənəvi qayğılara da xüsusi diqqət göstərmişdir.

Ümummmilli liderimiz 1978-ci ildə Azərbaycan xalqının etnik-genetik tərkibini, dövlətin milli ictimai marağını nəzərə alaraq Moskva ilə kompromis şəraitində uğurlu şəkildə dil siyasəti yürüdürdü. Bu siyasətin əsas məqsədi Azərbaycan dilini daha çox inkişaf etdirib funksional-üslubi imkanlara yiyələndirmək idi. H.Əliyev dilimizə yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də mədəniyyətimiz, tariximiz kimi yanaşmışdır. Ümummilli liderimiz dilimizin öyrənilməsinin vacibliyini qeyd etdiyi qədər dünya elmlərini, naliyyətlərinin haqqında məlumat almaq üçün rus, ingilis və başqa dillərin də öyrənilməsinə xüsusi diqqət yetirmişdir. H.Əliyev 24 noyaabr 1990-cı ildə Naxçıvan MR AM-nin iclasında uzun müddət türk adlandırılmağımız haqqında çıxış etmişdir. Ümummilli liderə görə bizim uzun müddət millət olaraq tatar və ya müsəlman adlandırılmağımız özümüzü millət kimi sübutumuza əngəl törətmişdir. H.Əliyev strateji qərarlar qəbul edərkən etnoqrafik, ideoloji təcrübələrə dərindən mənimsəyib yiyələnmək lazım olduğunu bildirmişdir.

Heydər Əliyev mədəniyyətin, mənəviyyatın tərəqqi etməsi üçün 20 aprel 1997-ci ildə "Kitabi-Dədə Qorqud" dastanın 1300 illiyi haqqında" qərar qəbul etdi. Əgər 1300 ildən də öncə «Kitabi-Dədə Qorqud» dastanının yaranması üçün xalqımızın nə qədər çalışdığmı və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqımızın qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır» deyən ümummili liderimiz xalqımızın tarixi dəyərlərini yaşatmağa xüsusilə diqqət yetirmişdir. Ümummilli liderimiz dilimizin zənginləşməsi, tərəqqi etməsi üçün vaxtaşırı qərarlar qəbul etmişdir. 18 iyun 2001-ci ildə qəbul edilmiş "Dövlət dilinin tətbiqi işinin təkminləşdirilməsi haqqında və 9 avqust 2001-ci ildə "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" qərarlar azərbaycançılıq ideologiyasının formalaşmasında mühüm rol oynamışdır.

H.Əliyev strateji qərarlar qəbul edərkən etnoqrafik, ideoloji təcrübələrə dərindən mənimsəyib yiyələnmək lazım olduğunu bildirmişdir. H.Əliyev qərarlar qəbul edərkən mövcud tarixi ənənələrə xüsusi önəm vermiş və dil quruculuğu barəsində önəmli addımlar atarkən əhatəli şəkildə ictimai müzakirə etdikdən sonra qüvvəyə minməsinə diqqətlə yanaşmışdır. H.Əliyevin yürütdüyü uğurlu dil siyasəti Azərbaycan dilinin təşəkkül tapıb inkişaf etməsində mühüm rol oynamışdır.

MƏKTƏBYAŞLI ŞAGİRDLƏRİN YARADICILIĞININ VƏ TƏXƏYYÜLÜNÜN İNKİŞAFINDA TƏSVİRİ SƏNƏT FƏNNİNİN ROLU

Şixkərimov R.A.
Naxçıvan Dövlət Universiteti
E-mai: sixkerimovradik@gmail.com

Uşaqların koqnitiv-affektiv inkişafında təsviri sənət təhsilinin əhəmiyyəti ilə bağlı müəyyənləşmələr üçün mənbə ola bilən səriştə araşdırmalar ilə bacarıq qabiliyyətləri uşaqların bir-birindən fərqli qabiliyyət əhatə dairəsi və ya səviyyələri haqqında məlumatları da aşkar edə bilər. Əgər uşaqların gələcək həyatlarında güclü iştirakları nəzərdə tutulursa, bu, yalnız onların şəxsi qabiliyyətlərinin inkişafı ilə mümkün ola bilər. Xüsusilə ibtidai təhsil dövründə uşaqların öz hiss və düşüncələrini ifadə edə biləcəyi, sərbəst hiss edə biləcəyi bir mühitin yaradılması çox zəruridir. Bu səbəbdən, təsviri sənət təhsili uşaqların sərbəst mühiti təmin etməklə və onların dünyanı necə şərh etmələrinə dair qərarlarını dəstəkləməklə yaradıcılığını inkişaf etdirə bilər. Beləliklə, təsviri sənət fənninin tədrisi şagirdlərə sərbəst dəyərlərə çatmaq imkanı verir .

Uşaqlarda yaradıcılığın inkişafı prosesləri təkcə visual ifadə tədqiqatları deyil, ideyaların, təxəyyülün, bədii ədəbiyyatın və kəşfiyyatın koqnitiv fokusunu da əhatə edən vizual incəsənət təhsilidir. Kurikulum strukturlarının yaradılması, təsnifatı və təsdiqi bu xüsusda vacib sayıla bilər.

"Təsviri sənət" məlumatlandırıcı, maarifləndirici, yüksəldici və təmizləyici funksiyaları ilə təhsilin geniş mövzu sahələri arasındadır. Burada təsviri sənətə geniş rakursdan çox gözəl izahat verilib. Lakin təsviri sənət və təsviri sənət təhsili anlayışlarının tərifinin verilməsi indiki zamanın qavrayışları və onun ortaya qoyduğu nəticə ilə birbaşa bağlıdır. "Cəmiyyətimizdə təsviri sənətdən danışanda bəzilərinin ağlına ancaq rəsm, heykəltəraşlıq, keramika kimi yalnız muzeylərdə olan və ya qalereyalarda sərgilənən əşyalardan ibarət bir anlayış gəlir" .

Bütün təhsil fənləri arasında təsviri sənət təhsili öz əhəmiyyətinə görə həmişə ön planda olmuş və xüsusilə inkişaf etmiş cəmiyyətlərdə prosesə uyğun şərh edilmişdir. "Təsviri sənət davamlı təcrübə, dərin təfəkkür və yaradıcı fəaliyyət prosesində fərdin düşüncə məkanını genişləndirir, həyatını mənalı edir, insanı daha dəyərli və yaşana bilən dünya qurmağa istiqamətləndirir". İnsan həyatında mühüm yer tutan təsviri sənət təhsili hər yaşda olan fərdlər üçün zəruridir. Çünki sənət təhsili təkcə insanın estetik düşüncəsinin inkişafına kömək etmir, həm də onların yaradıcılıq gücünü və potensialını yetişdirməyə imkan verir. Bu xüsusla, həm də, cəmiyyətdə paylaşmağı, ictimai münasibətləri tənzimləməyi və bir işə başlayıb bitirməyin həzzini yaşamağı təmin edir.

Uşaqlar həmişə müxtəlif materiallardan istifadə etmək və yeni əsərlər hazırlamaq istəyirlər. Sahib olduqları təcrübə ilə dünyanı görmə və qavrayış tərzi dəyişir. Ağıllarını işlətməyi və özləri üçün düşünməyi ancaq etdikləri kəşflərlə öyrənə bilərlər. "Uşağın heç bir müdaxilə olmadan öz təşəbbüsü ilə etdiyi bu vizual sənət əsərləri onların fərd olmaları üçün əhəmiyyətli bir başlanğıc olaraq görülməlidir. Bu vəziyyətin meydana gəlməsi ilə gələcəkdə, uşaqda müstəqil qərarlar qəbul edə bilən şəxs kimi formalaşma xüsusi meydana gəlir.

İbtidai siniflərdə və orta məktəbin 5-9-cu siniflərindən təhsil alan şagirdlərə veriləcək təsviri incəsənət təhsilini yalnız yaradıcılıq təhsili kimi qiymətləndirmək düzgün deyil. Müəllimlər uşağın özünü daha rahat və sərbəst hiss edə biləcəyi bir mühit təmin etdikdə, incəsənət emosiyaların ən yaxşı şəkildə əks olunmasını təmin edən fəaliyyət kimi çıxış edir. Lakin, xüsusilə bizim təhsil sistemimizdə təsviri incəsənət təhsili üçün ayrılan həftəlik məcburi kurs saatları bu fəaliyyətin həyata keçirilməsi üçün kifayət etmir .

Müasir təhsil sistemində təsviri sənət təhsili ilə yaradıcılığın əlaqəsi daha vacib görünür. Uşaqların yaşadıqları mühitin keçmişə nisbətən daha sürətlə dəyişdiyini nəzərə alsaq, uşağın vizual təəssüratlarını qidalandıran qavrayışların formalaşması da dəyişir. Dünyadakı texnoloji inkişafları nəzərə alsaq, ibtidai və orta məktəb uşaqlarının təsviri sənət təhsilindən daha çox faydalanması vacib hala gəldi. Çünki bu gün təsviri sənətin sahə xüsusiyyətləri və əhatə dairəsi genişlənib. Xüsusilə böyük şəhərlərdə uşaqların yaşayış yerləri və təbiəti çox dəyişib.

Təsviri sənət təhsili uşağın əqli və idrak inkişafı ilə bağlı bir çox hadisələri əhatə edir. Biz vizual incəsənət təhsilini uşağın yaradıcılıq fəaliyyətlərinə, xüsusən də bədii inkişaf proseslərinə birbaşa təsir edən bir fənn kimi qəbul etməliyik. Odur ki, uşaqların təsviri sənət əsərlərində, yaradıcı çıxışlarında fiziki və əqli inkişafı diqqətdən kənarda qalmamalıdır.

Təsviri sənət təhsili bir intizam olaraq yaradıcılığı mükafatlandırmaya bilər. Lakin uşaqların özünü ifadə edə biləcəyi sərbəst sinif mühiti təmin edildikdə, bu, uşağın yaradıcılıq prosesini, bədii inkişafını

izləmək imkanı verir. Təsviri sənət fəaliyyətləri bədii inkişaf göstəricilərinin ən yaxşı şəkildə izlənilə biləcəyi bir tədqiqat sahəsidir .

Təsviri sənət təhsili kurikulum çərçivəsində həm həmcins (oxşarlığın nəticə xüsusiyyətlərini), həm də müxtəlif keyfiyyətləri (fərqlərin vəhdətinin səbəbləri) eyni vaxtda emal etmək qabiliyyəti ilə diqqət çəkir. Ölkəmizdə ibtidai və orta məktəblərdə "Təsviri sənət" kursunun məzmununa əlavələrin edilməsinə, uşaqların yaradıcılıq göstəricilərinin və yaradıcılıq çıxışlarının vizual, mədəni və texnoloji biliklərlə əlaqələndirilməsi üçün metodiki töhfələrin verilməsinə ehtiyac var. Təsviri sənət Fənn Kurikulumunun Məqsədləri: Təsviri savad, qavrayış və estetik şüur, Təsviri sənət sahəsində əsas anlayışlar və təcrübələr haqqında bilik, bacarıq və anlayışa malik olmaq, Təsviri sənət üzrə müzakirələrdə fəal iştirak etmək və onları qiymətləndirmək, Təsviri sənətin təbiətini və mənşəyini araşdırmaq, onların dəyərini şübhə altına almaq, Öz mədəniyyətinin və başqa mədəniyyətlərə məxsus mədəni irsin dəyərini anlamaq və onları qorumaq, Təsviri sənət əsərlərində bilik, material, bacarıq, texnika və texnologiyadan səmərəli və təhlükəsiz istifadə edərək fikirlərini ifadə etmək, Təsviri Sənəti digər fənlərlə əlaqələndirmək, Təsviri sənət sahəsində etik davranış nümayiş etdirmək, Təsviri sənət sahəsinə aid peşələri tanımaq, Təsviri Sənəti öyrənmək və tətbiq etmək istəyən şəxsləri yetişdirmək .

Məktəbəqədər təhsildən sonra uşağa sistemli şəkildə verilən ilk təhsilin ibtidai sinifdə, daha sonra isə orta məktəbdə verildiyini nəzərə alaraq, uşağın gələcək təhsilinə və həyat prosesinə töhfə verəcək dərslər mühüm hesab edilməlidir. Bu səbəbdən ibtidai və orta məktəbdə şagirdlərə veriləcək təhsil o cür olmalıdır ki, müxtəliflik, yenilikçilik, şagirdlərin yaradıcılığını inkişaf etdirmək və müstəqil qərarlar qəbul etmək üsullarını ehtiva etsin. Şübhəsiz ki, bu keyfiyyətləri təmin etmək üçün ən uyğun kurslardan biri yerləşdiyi yerə görə təsviri sənət təhsilidir.

Uşağın yaradıcılığının inkişafında şübhəsiz ki, ailənin, müəllimin və uşağın təhsil aldığı məktəbin böyük əhəmiyyəti var. Uşağın yaradıcı şəxsiyyət kimi yetişməsi üçün bu amillər bir-biri ilə uzlaşmalıdır. Bəzi dövlət və özəl məktəblərdə uşağın özünü rahat ifadə edə biləcəyi xüsusi dizayn edilmiş və təchiz olunmuş təsviri sənət sinfi olsa da, təəssüf ki, məktəblərimizin əksəriyyətində təsviri sənət dərslərinin keçiləcəyi ayrıca sinif otağı yoxdur.

Təsviri sənət dərsində müəllimlərin diqqət etməli olduğu mühüm məqamlardan biri də adi rəsm üsullarından əl çəkərək onlara müxtəlif dərslər keçməsidir. Ənənəvi rəngləmə üsulları ilə yanaşı, tullantı materialları ilə material araşdırmaları da bu üsullardan biridir. Burada uşağın sağlamlığı üçün zərərsiz olan materialların seçilməsinə diqqət yetirilməlidir. Bu fəaliyyətlər zamanı uşaq fərqli bir iş sınayarkən ətrafı ilə bağ quraraq əylənərək məhsul yaradır. Bundan əlavə, aktiv öyrənmə kimi qəbul edə biləcəyimiz bu qarşılıqlı əlaqədə uşağın ətrafındakı müxtəlif materiallarla təması yaradıcılığın inkişafına müsbət töhfələr verir. Müəllimlərin vəzifələrindən biri də uşaqların özlərini ifadə edə biləcəyi sərbəst və alət və avadanlıq baxımından kifayət qədər sərbəst sinif mühiti yaratmaqdır. Bu işlərdə material, dediyimiz parçaları, plastik şüşə, karton və plastik fincan kimi əşyalardan istifadə edə bilərik. Materialları müxtəlif üsullarla kəsərək, istədikləri rəngləri seçib məmulata yapışdırmaqla uşaqların yaradıcılığını inkişaf etdirməyə kömək edir .

Belə nəticəyə gələ bilərik ki, təsviri sənət təhsili ibtidai və orta məktəb uşaqlarının yaradıcılığının inkişafına müsbət töhfə verir və uşağın vizual qavrayış qazanmalarını dərk etməsinə müsbət təsir göstərir. Bu, ibtidai təhsildə uşaqlara verilən ümumi təhsil və təlimlərdə təsviri sənət təhsili kurslarının daha çox yer alması və müzakirə edilməsinə səbəb yaradır. Bununla belə, məktəb rəhbərləri və müəllimlər tərəfindən ibtidai və orta siniflərdə təhsil alan hər bir fərdin təsviri sənəti tanıması və təsviri sənət vasitəsilə özünü ifadə etməsi üçün lazımi təcrübə sahələrinin təmin edilməsi tələb olunur.

GƏNCLİK DÖVRÜNDƏ MOTİVASİYA VƏ ONUN QURULUŞU

Soltanlı A.T.
Bakı Slavyan Universiteti
E-mail: aytaccxelilovaa@gmail.com

L.I.Bojoviçin qeyd etdiyi kimi, gənclik çağında inkişafın tamamilə yeni, ilk dəfə yaranan sosial motivasiya əsasında əsas motivasiya meyllərinin məzmununda və korrelyasiyasında əsaslı dəyişikliklər baş verir.

Bu, ilk növbədə, bütün *ehtiyaclar sisteminin nizamlanmasında, onların yaranan dünyagörüşü ilə inteqrasiyasında özünü göstərir.* Gənclər yalnız ətraf dünyanı dərk etmirlər, həm də bu barədə öz baxışlarını inkişaf etdirirlər, çünki əxlaqi məsələlərə öz baxışlarını inkişaf etdirməyə, sıralamağa ehtiyac duyurlar. bütün

problemləri özləri həll etməyə çalışırlar. Bu baxımdan, qəbul edilən qərarlar və formalaşan motivlər gənclər arasında getdikcə artan sosial yönüm qazanırlar. Dünyagörüşün təsiri altında onların baxış və inanclarına təsir edən kifayət qədər sabit iyerarxik dəyərlər sistemi yaranır ki, bunlar da gənclərdə yaranan istəklərin kifayət qədər ciddi nəzarətçisidir və eyni zamanda onları özünü tanımağa, özünü təkmilləşdirməyə, öz müqəddəratını təyin etməyə, o cümlədən peşə seçiminə sövq edirlər

Əgər yeniyetmələrdə peşə seçimi (əsaslı olmaqdan daha çox elan edilmişlər) hələ də böyük dərəcədə impulsivdirsə,xarici təsirlər vnəticəsində baş verir və yaxud böyüklərin təqlidi ilə baş verirsə, gənclərdə isə bu iş öncədən geniş hazırlıq peşə kimi seçdikləri fəaliyyətin, üzləşə biləcəkləri çətinliklərin dəqiq və hərtərəfli təhlili əsasında həyata keçirilir.

Eyni zamanda, gənclər artıq *xarici və daxili şəraiti qiyşətləndirə bilirlər ki,* bu da onlara kifayət qədər əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir. Bu isə o deməkdir ki, sosial yönümlü motivlərin formalaşması prosesində "daxili filtr" aparıcı rol oynamağa başlayır. Gənc nə qədər sosial cəhətdən yetkin olarsa, onun istəkləri gələcəyə yönəlir, planlaşdırılan həyat perspektivləri ilə bağlı motivasiya münasibətləri formalaşır. V. A. Alekseyevə görə, 14 yaşında yeniyetmələrin yalnız 17%-i öz gələcəyini təsəvvür edir, 15 yaşında isə 84%-i artıq onu planlaşdırırlar. Bu, peşə seçiminə də aiddir. Sosial cəhətdən yetişməmiş şəxsiyyətdə "burada və indi" ehtiyacların ödənilməsi ilə bağlı motivlər üstünlük təşkil edir.

L. V. və O. L. Usaçevlərinin (1999) fikrincə, onuncu sinif şagirdlərində (qızlar) ünsiyyət, onuncu siniflərdə(oğlanlar) isə özünü inkişaf etdirmək, özünü realizə etmək və şəxsiyyətin inkişafı üçün daha çox motivlər özünü biruzə verir. Eyni zamanda, onların hər ikisi yalnız qısamüddətli həyati planlar formalaşmış olur. Onların bir çoxu hələ öz gələcəkləri haqqında ciddi düşünmürlər.

Təəssüf ki, böyüklərin motivləri zəif başa düşülür.Bu arada onlarda motivasiya sferasının maraqlı xüsusiyyətlərini müşahidə etmək olar. Məsələn, D.Pelts və F.Endryus orta səviyyəli alimlərin yaradıcılıq fəaliyyətinin məhsuldarlığının 30 ildən 50 ilə qədər olan intervalında aşağı düşməsini bu dövrdə onların maraqlarının strukturunun dəyişməsi ilə izah edirlər. Bu illərdə onların ailə və valideyn məsuliyyətləri artır, ailə ilə bağlı ehtiyaclar meydana çıxır və üstünlük təşkil edir. Görkəmli alimlər üçün bütün həyatları boyu elmi kollektivdə istehsal rolu və ona uyğun maraqları üstünlük təşkil etdiyindən onlarda yaradıcılıq məhsuldarlığının azalması hətta onda da həmişə yox, yalnız qocalıqda.müşahidə oluna bilər.

Motivlərin formalaşması prosesinin daha çox dərk edilməsi digər insanların hərəkətlərinin səbəblərinə daha çox nüfuz etməyə səbəb olur. Buna görə də, uşağın ontogenetik inkişafı zamanı bir hərəkətin (özünün və başqalarının) etik qiymətləndirilməsi hərəkətin nəticələrinin (əldə edilən nəticənin) qiymətləndirilməsindən insanı faliyyətə sövq edən səbəbin, impulsların qiymətləndirilməsinə keçir.

Beləliklə, insan sosial cəhətdən yetkinləşdikcə, onun şüurunda motiv formalaşmasının birinci və ikinci mərhələləri nə qədər çox əks olunursa, motivasiya sahəsi bir o qədər genişlənir. Eyni zamanda, planlaşdırılmış hərəkətlərin və əməllərin nəticələrinin proqnozlaşdırılmasına daha çox diqqət yetirilir və təkcə praqmatik deyil, həm də əxlaqi-etik mövqelərdən çıxış edir.

SOSİAL TƏRBİYƏ VƏ SOSİAL TƏRBİYƏ SİSTEMİ

Vahabova J.Q.
Bakı Slavyan Universiteti
Проблемы в методике, ввиду отсутствия большого количества необходимых программ и методов работы с ними, так же ввиду отсутствия практики и семинаров для подготовки воспитателей в работе с ними;

Затруднение в обеспечении ресурсами, в связи с тем фактом, что учебные и компьютерные программы только технические инструменты;

Отсутствие четкого списка применяемых программ и разобщенность выбранных программ, применяемых в ДОУ. Эта проблема исходит из неподготовленности и несоответствия методологии и методичек по преподаванию в ДОУ мировым требованиям и требованиям куррикулума.

МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ ИГРОВЫХ ТЕХНОЛОГИЙ В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ В ШКОЛЕ

Рагимли В.Э.
Бакинский славянский университет
E-mail: raqimlivusale96@gmail.com

Использование различных методов обучения способствует укреплению памяти о языковых событиях, созданию более устойчивых зрительных и слуховых образов, защите интереса и активности учащихся. Урок иностранного языка рассматривается как общественное мероприятие, где у классного руководителя и учащихся существуют определенные социальные отношения друг с другом, а процесс обучения представляет собой определенную социальную среду, в которой взаимодействуют все участники. В то же время успех в обучении является результатом коллективного использования всех возможностей обучения. И курсанты должны внести весомый вклад в этот процесс. Использование ролевых игр дает широкие возможности для совершенствования учебного процесса.В ходе исследования были выявлены преимущества и недостатки использования ролевых игр в обучении иностранному языку.Преимущества использования ролевой игры: 1. Максимальная активность курсантов. Все учащиеся участвуют в игре, поддерживают связь друг с другом, что способствует созданию благоприятного климата межличностных отношений между учащимися и преподавателями: коллективной творческой деятельности; 2. Речевые партнеры в игре определяются не только по желанию педагога, но и произвольно; 3. Студенты имеют возможность смены ролей, что позволяет им более полно использовать языковой материал, совершенствовать свои коммуникативные навыки и умения в языке; 4. На уроке преобладает обстановка интереса и дисциплины: умственная и физическая активность; внимание и интерес.Недостатки использования ролевой игры: до сих пор нет набора продвинутых упражнений, который четко определит: цель игр; их количество и качество; целенаправленное и бессистемное использование ролевых игр в процессе обучения иностранному языку; игра в основном используется как забавный момент в классе.

Основные требования к ролевым играм:

1. Игра должна стимулировать учебную мотивацию, вызывать у учащегося интерес и энтузиазм к качественному выполнению задания, строиться на ситуации, адекватной реальной ситуации общения.

3. Ролевая игра должна быть принята всей группой.

2. Ролевая игра должна быть хорошо подготовлена и четко организована как по содержанию, так и по форме. Важно, чтобы студенты были убеждены в необходимости хорошо исполнить определенную роль. Только тогда их речь будет естественной и убедительной.

4. Несомненно, проходит в дружеской, творческой атмосфере, вызывает у учащихся чувство удовлетворения и радости. Чем свободнее чувствует себя ученик в ролевой игре, тем активнее он будет в общении. Со временем у него разовьется уверенность в своих силах и в своей способности выполнять различные роли.

5. Игра организована таким образом, чтобы учащиеся наиболее эффективно использовали языковой материал, над которым работают, в активном речевом общении.

6. Учитель, конечно же, верит в ролевую игру и ее эффективность. Только в этом случае удастся добиться хороших результатов.

7. Очень важно умение педагога общаться с детьми. Создание комфортной, дружеской атмосферы в классе – очень важный фактор, который нельзя недооценивать.

Главной, ведущей целью раннего изучения иностранного языка является развитие. Это главная особенность обучения иностранному языку. Цели развития обеспечивают как всестороннее развитие личности, так и развитие ее психических функций, качеств и особенностей.

Выбор наиболее подходящих приемов, форм и методов обучения осуществляется учителем. Критерии оптимального выбора методов обучения Ю.К. Бабанский. Он считает, что успешный выбор методов обучения определяется шестью факторами:законы и принципы обучения;цели обучения;возможности обучения студентов; характеристики внешних условий;уровень профессионализма преподавателей.Использование игр на ранних этапах обучения иностранному языку очень важно, так как у детей 8-10 лет ведущая деятельность только начинает переходить от игры к занятиям. Особенно у современных детей проблема с мотивацией к обучению. Их внимание все больше привлекают компьютерные игры, социальные сети, телевизоры и прочее, все то, что распространяет информацию, не требующую анализа и умственного труда. Учителю сложно создать образовательную атмосферу и «конкурировать» с такими мероприятиями. Думаю, игра в этом хороший помощник. На начальном этапе он освобождает студентов и вовлекает их в учебный процесс. Это снимает языковой барьер и делает усвоение материала более эффективным, поскольку он эмоционально важен для учащихся.Подводя итоги выпускной работы по специальности, можно сказать, что игровое занятие по иностранному языку необходимо не как основной вид деятельности, а как средство обучения, т.е. любая игра, которую мы представляем на уроке, должна иметь определенные цели и задачи (обучение, обучение, обучение). Важно сохранять чувство меры и контролировать процесс во время игры на занятии, ведь можно переиграть или отойти от целей или задач, поставленных перед игрой.

«ВОЙНА И МИР» Л.Н.ТОЛСТОГО В ШКОЛЬНОМ ИЗУЧЕНИИ (СРАВНИТЕЛЬНО – ИСТОРИЧЕСКИЙ АСПЕКТ)

Рзаева С.С.
Бакинский славянский университет
E-mail: Suzie_Q9@mail.ru

Роман «Война и мир» в советской школе не мог в полной мере стать «оружием общественно-политической борьбы» и «средством формирования коммунистического мировоззрения». Текст романа сопротивлялся и подходил к его анализу, который диктовался марксистско-ленинским литературоведением. Именно поэтому в школьной практике основное внимание при изучении романа уделялось его главным героям, их нравственным исканиям, взгляду Толстого на роль личности и народа в истории. Тема нравственных исканий молодого человека, связанная с темами семьи, дружбы и любви, чести и достоинства, позволила нам поднять вопросы формирования личности, питания, отношения к миру и людям. И эти вопросы чаще всего рассматривались в основном с учетом традиционных для нашего общества ценностей (в дополнение к тем, которые непосредственно вели к вопросам, связанным с религией, верой). Кроме того, в процессе изучения романа была отмечена такая характерная черта русского человека, как широта души и интернационализм (образ французского мальчика Венсана-Висени, образ костра).Формирование методики изучения романа «Война и мир» связано с именем М.А.Рыбниковой, одной из первых разработавшей рекомендации по изучению эпического романа (Русская литература в вопросах, темах и задачах. 3-е изд., 1928.). Предложенная ею система уроков предусматривала «анализ по объему»: из каждого тома была выбрана линия жизни главных героев, АнДрея и Пьера; в каждом томе был один из общих вопросов: 1-й том - основа группировки действующих лиц, 2-й том - бытовые сцены из домашней жизни Наташи и Николая, 3-й том - философия истории Толстого, 15-й том - народнические идеалы автора в связи с образом Каратаева. В дальнейшем, в школьной практике, были опробованы способы разбора «вслед за автором», аналогичным образом. Преподаватели отбирали эпизоды для текстологического анализа, на этапе обобщения проводили работу по систематизации наблюдений над жанром и композицией произведения. Несколько поколений учителей словесности использовали пособие Т.Г. Браже «Целостное исследование эпического произведения» (1964), в котором были обоснованы принципы, обеспечивающие целостность восприятия и анализа, а также идея объединения различных методов и приемов работы (лекция преподавателя, исторический комментарий, беседа о предварительно прочитанных главах, пересказ-анализ преподавателя, встречные вопросы студентов,

выразительное чтение преподавателя или студентов, сравнительный анализ стиля, сообщения студентов, использование иллюстраций к роману, анализ его адаптации и т. д.).

По сравнению с программами 1960-х годов в 1970-х и 1980-х годах конспект к теме «Л.Н.Толстой» в 9 классе, в первую очередь к роману «Война и мир», стал более подробным. Внимание преподавателя было сосредоточено на необходимости анализа стиля писателя: глубокое раскрытие внутреннего мира персонажей («диалектика души»), роли деталей портрета, внутренних монологов, функций пейзажа в произведении. Междисциплинарные связи с ходом истории определялись в связи с особенностями эпохи (1861-1905), определившей своеобразие жизненного и творческого пути писателя. Качурин предложил объединить уроки по изучению романа с центральной, сквозной проблемой: воплощением на страницах произведения «народной мысли» и ее связью с нравственными поисками автора и его героев. Особенности методологической интерпретации творчества писателя в настоящее время обусловлены спецификой современной социокультурной ситуации, возможностями информационно-образовательного пространства. В то же время методисты и преподаватели-практики опираются на богатый опыт постижения художественного мира Льва Толстого и ищут современные способы чтения и осмысления произведений писателя.

АКТУАЛЬНОСТЬ ИСПОЛЬЗОВАНИЯ ИНТЕРНЕТ-РЕСУРСОВ ПРИ ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

Фехрузи Г.
Бакинский славянский университет
E-mail: gulu9614@mail.ru

С недавних пор, всё чаще встаёт вопрос о значимости интернет-ресурсов области обучения иностранным языкам. Сюда входит: анализ применения инновационныхинтернет-технологий, а так же преимущества и недостаткивнесения их в процесс преподавания.Используемые на сегодняшний день методики преподавания иностранных языков находятся в тесной связи с непрерывным техническим прогрессом. Недавние достижения в области высоких технологий, и стремительный рост влияния глобальной сети Интернет, дают преподавателям иностранных языков большой спектр возможностей для постоянного совершенствования учебного процесса.Выбор в пользу того, чтобы использовать интернет-ресурсы при обучении иностранным языкам, происходит из желаниясэкономить количество затрачиваемоговремени преподавателя для поиска в огромном разнообразии подходящего материала, и использования его, что в свою очередь улучшает понимание его учениками. В условиях нынешнего разнообразия интернет-ресурсов у преподавателя не возникает сложностей с поиском необходимогоматериала для любого уровня учеников. Удобство использования разнообразных средств и методов обучения является одним из главных преимуществ. Благодаря этому, поддерживается интерес к иностранному языку, как у преподавателей, так и у учащихся. В современном образовании есть необходимость в таких навыках как: умение находить нужный материал и использование при этом исследовательского подхода к обучению.

Основной причиной модернизации и усовершенствования процесса обучения является применение в этом процессе интернет-технологий. На базе веб-технологий даётся возможность использования личностно-ориентированного подхода к учащимся. Кроме того, благодаря Интернет-ресурсам учащимся даётся возможность общаться вживую на иностранном языке, открывается доступ к огромному выбору материала и огромному числу учебных пособий и ресурсов в текстовом, аудио- и видео-форматах. Всё это, в свою очередь, даёт возможность создания необходимой языковой среды для формирования и осваивания необходимых коммуникативных навыков у учащихся.Интернет-ресурсы дают возможность учителям и учащимся использовать адаптированные интернет-программы, которые благотворно влияют на обучение иностранным языкам.Большой объём актуальных новостей в сферах экономики, политики и географии, тем самым, расширяют знания о ситуации в мире.Современный преподаватель проводит тщательный отбор необходимой аутентичной литературы, которая может быть необходима учащимся в процессе обучения иностранного языка.

При правильно подобранном материале, благодаря интернету, учащиеся имеют возможность участвовать в интернет-конференциях, вебинарах и конкурсах. В процессе обучения они учатся создавать презентации для докладов. Всё это даёт возможность учащимся постоянно использовать

иностранный язык как во время занятий в классе, так и при подготовке домашнего задания. Более того, использование Интернет-ресурсов как во время обучения в школе, так и в процессе самостоятельной работы учащимися, дает возможность развития всех видов речевой активности. С помощью таких программ как Skype иZoom учащиеся могут принимать участие в видеоконференциях, что поможет развить устную речь.На сегодняшний день, именно социальные сети являются главнымипомощниками в процессе совершенствовании и проработки письменной речи. Наибольшее преимущество использования популярных социальных сетей Facebook и Twitter в том, что учащиеся имеют возможность общаться со сверстниками и учителями со всего мира. У учащихся есть возможность общения в реальном времени. В общении могут быть затронуты не только тематики, которые задаются в школе, но и другие интересующие их вопросы.В процессе коммуникации в устной или письменной форме ученики тренируют свой активный словарный запас и грамматические структуры. Можно сделать вывод, что дистанционное обучение является основным видом решения одной из главных проблем коммуникации, когда обучение происходит удалённо.

XVI BÖLMƏ
PEDAQOGİKA

PROFESSOR ƏHMƏD SEYİDOVUN DƏRSLİK VƏ TƏDRİS VƏSAİTLƏRİ

Abbasova S.N.
Naxçıvan Dövlət Universiteti

Xalqımızın yüksək milli təəssubkeşlik ruhu ilə seçilən, sayılan nümayəndələrindən biri də xalq maarifi və pedaqoji fikrimizin öyrənilməsi və təbliği sahəsində böyük xidmətləri olan professor Əhməd Yusif oğlu Seyidov olmuşdur. O, Azərbaycan məktəb və pedaqoji fikir tarixinə dair ilkin, fundamental tətqiqatlar apararaq təlim və tərbiyənin aktual problemlərini əhatə edən araşdırmalar aparmış, ynikal monoqrafiya, kitab, dərslik, metodik vəsait və elmi məqalələr müəllifi olmuşdur. Bütün bunlarla yanaşı nəhəng, ədəbi abidələr yaratmış, ancaq təkcə " Əlifba" sı ilə fəxr edən mütəfəkkir yazıcı-pedaqoq L.N.Tolstoy kimi Ə.Y.Seyidov da zəngin pedaqoji yaradıcılığı fonunda balalarımıza məxsus yazdığı dərslikləri millətə xidmət nümunəsi hesab etmişdir.

Ə.Y.Seyidov 1929-cu ildə şair- pedaqoq H.K.Sanılı ilə birlikdə " Türk əlifbası" adlı dərslik yazmışdır. Söz üsulu ilə tərtib olunmuş bu dərslik mövcud kompleks proqramların tələblərinə müvafiq tərtib olunmuşdur.

Professor İramin İsayevin göstərdiyi kimi "Dərslik şagirdlərimizin yay istirahətini və əməyini əks etdirən şəkillərlə başlayır. Bu təsvirlər uşaqları savad təliminə, qiraət materiallarının oxunmasına və onlara aşınalacaq tərbiyəvi motivlərə hazırlıq məqsədi daşımaqla danışıq qabiliyyətini, bu prosesdə hərfləri müəyynləşdirməyi, hadisələri təsvir edə bilmək bacarığı inkişaf etdirmək imkanı yaradır".

Maraqlı budur ki, müəlliflər hər səhifədə təlim məqsədinə müvafiq metodik göstərişlər də yazmışlar.

Dərsliyin sonrakı hissələrində ardıcıl olaraq hesab təliminə də başlanır. İstər savad təliminde və istərsə də hesab öyrədilməsində əyanilikdən geniş istifadə edilir. Söz üsulu ilə savad və hesab təlimi başa çatdırıldıqdan sonra qiraət üçün materiallar verilir. Bu materiallar mövsümü (yaz, yay, payız, qış) xarakterli olmaqla həm də tədris prosesində müvafiq tarixi məlumatlar və hadisələrlə şagirdləri tanış edir. Dərslikdə elmə, təhsilə, məktəbə uşaqların marağını artıran, təbiət cəmiyyət hadisələri, insanların mənşəyi, yaşayış tərzi barədə məlumat verən mətnlər maraq doğurur. Mətnlərdə əməyə, əməkçi insanlara, vətənə millətə məhəbbət hissi olunması, yoldaşlıq, dostluq, birlik ön plana çəkilir. Uşaqların sağlamlıqları qeydinə qalması, gigiyenik qaydaları gözləməsi də tövsiyyə olunur.

Kitabda bu günlə səsləşən maraqlı mətnlər çoxdur. «Kitab nə deyir?», «Kitabxanadan nə öyrəndiniz?», «Bizim kitabxana», «Balaca arlistlər» mətnlərində insanların həyatında kitabın və kitabxananın mühüm rolu qeyd edilir, insanların mədəni və təhsil səviyyəsinin yüksəlməsində teatr tamaşalarının rolu ön plana çəkilir. Bilik mənbəyi olan kitabın uşaqlann ən sevimli dostu olmaları tövsiyə olunur. Şagirdlərin kitaba münasibəti aşağıdakı kimi təsfir olunur.Kitab danışa bilsəydi deyərdi: "Məni təmiz saxlayın. Yarpaqlarımı didməyin, cildimi korlamayın, məni toz-torpağa atmayın, yarpaqlanmın arasında çöp, karandaş, bıçaq və qeyri şeylər qoymayın. Əlinizi təmiz yumamış mənə toxunmayın. Məni yazmayın, ləkələməyim). Uşaqlara deyir:«Unutmayın, mən təmizliyi sevirəm". "Əlifba" dərsliyi dövrünün çox maraqlı dərsliklərindən hesab olunur.

Ə.Seyidovun xarici ölkələrdə məktəb təhsili və pedaqoji fikrin inkişafı ilə bağlı tədqiqatlarında bəşər cəmiyyəti mövcud olduğu zamandan indiyə kimi ayrı-ayrı tarixi dövrlərdə məktəbin və pedaqoji nəzəriyyələrin yaranması və inkişafı iə bağlı fikirləri vəhdət təşkil edir. Ə.Seyidov "Pedaqogika tarixi" dərs vəsaitində və ayn-ayn elmi məqalələrində xarici ölkələrdə məktəb təhsilinin və pedaqoji likrinin ən mühüm məqamlarını, Azərbaycanda təhsil quruculuğu və pedaqoji kadr hazırlığı üçün vacib olan cəhətləri tədqiq etmişdir. Qərbi Avropada, ABŞ-da, Asiya, Afrika və Latın Amerikasında məktəb təhsilini və pedaqoji fikri tədqiq edərkən öncə ibtidai icma cəmiyyətində tərbiyə məsələlərini araşdırmış, tərbiyənin yaranması ilə bağlı Ş.Leturnonun, P.Monıonun, A.Espinasın, H.Spenserin nəzəriyyələrini təhlil və tədqiq etmiş, müqayisəli şəkildə üstün və fərqli cəhətlərini üzə çıxarmışdır. Müəllifin araşdırmalarından aydın olur ki, ABŞ, Qərbi Avropa və Rusiya maarifçiləri və pedaqoqları ilə bağlı Əhməd Seyidov ciddi elmi araşdırmaların və bitkin elmi konsepsiyaların müəllifidir. Azərbaycan məktəbi və pedaqoji elminin XX əsrin 20-ci illərindən sonrakı

dövr inkişafı tarixi professor Əhməd Seyidovun adı və elmi-pedaqoji fəaliyyəti ilə qırılmaz sürətdə bağlıdır.

Gəncliyində Müsavat hərəkatına qoşulan, sovetləşmədən sonra özünün milli istiqlalçı arzularını elmi-pedaqoji sahədə inkişaf etdirmək yolu tutan Ə.Seyidov həyatının yarıməsrlik bir dövrünü Azərbaycanda milli tərbiyəşunaslığın təbəddulatlı bir mərhələsində, sovetləşmədən sonrakı Azərbaycan pedaqoji elminin təşəkkülü və inkişafı prosesinə həsr etmişdir. Görkəmli alimin bu sahədəki "çoxcəhətli elmi-pedaqoji fəaliyyəti içərisində peşəkar alim-müəllim kimi ali pedaqoji təhsil müəssisələri üçün yazdığı proqramlar, vəsaitlər, monoqrafiyalar , xüsusi yer tutur. Bunların içərisində ən mühümü 30 ildən artıq bir dövrdə ali pedaqoji tədris müəssisələrində istifadə edilən " Pedaqogika tarixi" dərsliyidir" .

1958-ci ildə iki hissədən ibarət nəşr edilən "Pedaqogika tarixi" dərsliyini müəllif yenidən işləmiş, daha mükəmməl şəkildə 1968-ci ildə böyük tirajla nəşr etdirmişdir.Prof. Ə. Seyidov dərsliyi üç mühüm hissəyə ayırmaqla, sistemləşdirmişdir: a) Xarici ölkələrin pedaqoqika tarixinin qısa icmalı: b) rus və Çar Rusiyası xalqlarının pedaqogika tarixi, c) Sovet dövrü məktəb və pedaqoji fikir tarixi

Ali pedaqoji təhsilli kadr hazırlığında dərsliyin elmi siqələtini bir neçə cəhətdən xarekterizə etmək olar. Bunlar aşağıdakılardan ibarətdir: 1. Ayrı-ayrı ölkələrin məktəb, təhsil və tərbiyənin tarixi sipesifikliyinin öyrənilməsi. 2. Pedaqoji fikir tarixinə tarixi həqiqətlərin prizmasından yanaşılması. 3. Məhəlli məhdudluğa qapılmadan dünya pedaqoji fikrini görkəmli nümayəndələri, onların ideyalarına hansı amillərin təsiri kimi məsələlərin əhatəli təhlilinin verilməsi. 4. İdeoloji təsisatların , ictimai-siyasi ideyaların, sosial-sinfi münasibətlərin xalq maarifi, məktəb təhsili və pedaqoji fikrin inkişafına təsirinin tarixi reallığın xronoloji kontekstində verilməsi. 5. Azərbaycan məktəbi və pedaqogikasını təcrid edilmiş şəkildə yox, qonşu Şərq, eləcə də Qərb, rus və dünya pedaqoji fikrinin kontekstində, xalq pedaqogikası ruhunda, milli məktəbin təşəkkülü və inkişafı tendensiyası baxımından oxucuya təqdim edilməsi və.s.

Bütövlükdə Əhməd Seyidovun pedaqogikanın nəzəri problemləri ilə bağlı elmi-nəzəri fikirlərinin təhlili və onun tərtib etdiyi dərsliklərin məzmunu ilə tanılıq göstərir ki, prof. Ə. Seyidovun " Pedaqogika tarixi" dərsliyi dövrünün tədris ədəbiyyatı kimi məlum ideoloji doğmaların bəzi təfərruatcılığından xali olmasa da, yeni milli təhsil konsepsiyasının təşəkkülü və inkişafı baxımından klassik dərslik nümunəsi kimi gələcək müəllim kadrlarımızın da stolüstü kitabı və sanballı tədris ədəbiyyatı olacaqdır.

Ə.Seyidovun H.K.Samlı ilə birlikdə yazdığı "Türk əlifbası", ali pedaqoji məktəblər üçün nəzərdə tutulan "Pedaqogika tarixi" dərslikləri tədqiqatçı alimlərimiz tərəfindən əhatəli araşdırılmış , elmi-nəzəri əhəmiyyəti üzə çıxarılmışdır. Pedaqogika sahəsində milli kadrların, ana dilində dərslik və metodik vəsaitlərin olmadığı bir dövrdə Əhməd Seyidov bu ağırlığı çiyinlərində daşımış, gərgin və səmərəli elmi-pedaqoji fəaliyyəti ilə yanaşı bu gün də pedaqoji universitet və institut tələbələıinin stolüstü kitabına çevrilmiş "Pedaqogika tarixi" dərsliyini yazmaqla bu sahədəki ehtiyacı aradan qaldırmağa nail olmuşdur.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SADƏ RİYAZİ TƏSƏVVÜRLƏRİN FORMALAŞDIRILMASINDA DİDAKTİK OYUNLAR

Axundov A.F.
Bakı Slavyan Universiteti
E-mail: aynur.akhundova@biec.az

Məktəbəqədər təhsil sadə riyazi anlayışları təqdim etməlidir. Uşaqları məktəbəqədər yaş dövründə əsas terminologiya ilə tanış etməklə, müəllimlər ibtidai təhsili bir az asanlaşdırır və riyazi anlayışların tətbiqi uşaqlar təxminən üç yaşında olanda başlamalıdır. Terminologiya və anlayışları erkən başa düşmək üçün təməl qoymaqla, uşaqlar məlumatları sinif şəraitində tətbiq etməyə hazırlaşırlar. Anlayışlar artıq başa düşülür, ona görə də ibtidai sinif müəllimləri fikirlərin tətbiqinə diqqət yetirə bilirlər. Məktəbəqədər yaşlı uşaqlar hələ riyazi bacarıqların praktikasını öyrənməyə hazır olmasalar da, dil və praktika vasitəsilə təcrübə haqqında əsas fikir əldə edə bilərlər. Rəqəmləri öyrənməyin əsasları, uşaq bağçasına çatmazdan əvvəl inkişaf etdirməli olduğu ilk həyati riyazi bacarıqdır. Uşaqlar gələcəkdə rəqəmlər arasındakı əlaqəni öyrənmək üçün məktəbəqədər yaş dövründən irəli və geri saymağı öyrənməlidirlər. Uşaq bağçası sinifləri irəli və geri saymağın əsaslarını nəzərdən keçirərkən, müəllimlər ibtidai məktəbə çatmazdan əvvəl saymağı öyrənməyə diqqət yetirərək daha güclü bir təməl qura bilərlər. Rəqəm anlayışına diqqət yetirməklə müəllimlər gələcək konsepsiyalar və qabaqcıl hesablamalar üçün zəruri olan riyazi bacarıqlarını təmin edirlər. Uşaqlar təbii olaraq vizualdırlar və rəqəmlər ilə təmsil olunan element arasında əlaqələr qura bilirlər. Körpələr, yeniyetmələr və ailələr üçün əlaqəni aydınlaşdırmaq üçün təsvirlərdən və ya şəkillərdən istifadə etmək, riyaziyyatdan istifadəni uşağın zehni üçün real edir.

Məktəbəqədər təhsil rəqəmləri əşyalar, şəkillər və ya hətta ailə üzvləri ilə təmsil etməyə yönəlməlidir. Məsələn, saymağın əsaslarını öyrənmək uşaqlara alma və ya sevimli meyvələrin şəkillərindən istifadə edərək rəqəmin təsvir olunan əşyaları təmsil etdiyini başa düşə bilər. Təqdimat və ya şəkillər vasitəsilə öyrətmək uşaqlara real dünya ilə akademik uğur üçün vacib olan riyazi bacarıqları arasında əlaqə yaratmağa imkan verəcək. Həyat və riyaziyyat arasında əlaqə yaratmadan uşaqlar sinifdə verilən məlumatlarla bağlı çaşqınlıq yarana bilər. Məktəbəqədər təhsil bacarıqlardan əvvəl anlayışları təqdim etməli olsa da, müəllimlər uşaqlar ibtidai məktəbə keçməmişdən əvvəl toplama və çıxmanın əsaslarına başlaya bilərlər. Toplama və çıxmanın əsaslarına diqqət yetirməklə, müəllimlər gələcək üçün riyazi bacarıqlarda daha güclü təməl təmin edə bilərlər. Uşaqların yaşından asılı olaraq, toplama və çıxmanın əsasları qida maddələrini bölüşmək və ya uşaqları əlavə əşyaları saymağa təşviq edən oyun fəaliyyətlərinə elementlər əlavə etmək bacarıqlarını məhdudlaşdıra bilər. Müəllimlər əşyaların toplama və ya çıxılması ideyalarını öyrətmək üçün oyun fəaliyyətləri zamanı yaranan nümunələrdən istifadə edə bilərlər. Bu, uşaqlıq savadı və biliyi üçün çox təkmil olan dərs planlarını fəal şəkildə yaratmadan bacarıqları öyrətmək imkanıdır. Məktəbəqədər təhsildə müəllimlərin təmin etdiyi əsas riyazi bacarıqları bütün akademik karyera üçün tikinti bloklarını təyin edir. Rəqəmlərlə tanışlıq, riyazi anlayışlar və toplama kimi ideyaların sadə tətbiqi kimi sadə bacarıqları öyrənmədən uşaqlar ibtidai təhsilə keçməyə hazır deyillər. Xoşbəxtlikdən, kiçik uşaqlar nəzərəçarpacaq dərəcədə öyrənə bilirlər, müəllimlər anlayışları və ya riyazi bacarıqlarını normal uşaqlıq fəaliyyətlərinə tətbiq edə bilirlər.

Biz indi bilirik ki, əgər uşaqlar ilk illərdə fəaliyyət və söhbət vasitəsilə mühüm riyazi ideyalara məruz qalmasalar, onlarda 1-ci sinif üçün mühüm əsaslar olmayacaq və ən əsası, onların daha çox məlumatlanan həmyaşıdlarına yetişməsi getdikcə çətinləşəcək. Bu təsir xüsusilə erkən hesablama çətinlikləri riski altında olan yoxsulluq şəraitində yaşayan bir çox uşaqlar üçün nəzərə çarpır. Uşaqlar evdə "riyazi danışığa" az məruz qaldıqları üçün uşaq bağçasına daxil olduqda çox vaxt əsas təməl bacarıqlardan məhrum olurlar. Riyaziyyatda çətinlik çəkən uşağa kömək etmək heç vaxt gec olmasa da, uşaqlar məktəb sistemində irəlilədikcə fərqi aradan qaldırmaq imkanları getdikcə azalır. Kiçik uşaqları məktəbdə riyaziyyatı öyrənməyə hazırlamaq onlarla riyazi ideyalar haqqında söhbət etmək deməkdir, lakin bu, məsələn, 1-ci sinif kurrikulumun məktəbəqədər yaş dövrün şəraitində uyğunlaşdırılması demək deyil. Əksinə, bu, uşaqları məktəb boyu riyazi bacarıqların inkişafına imkan verəcək ideyalara cəlb etməklə zəmin yaratmaq deməkdir. Bu şəkildə, məktəbəqədər yaşlı dövrü şəraitində hesablama ilə ibtidai məktəbdə riyaziyyat arasında keyfiyyət fərqi yoxdur. Uşaqları əsas hesablama anlayışlarına cəlb etmək üçün ilk addım uşaqların inkişafındakı davamlılığın tanınmasıdır ki, bu da onlara istənilən yaşda necə kömək etmək barədə daha aydın təsəvvür yaradacaq.

İSLAMİYYƏTƏ QƏDƏRKİ MƏRHƏLƏDƏ AZƏRBYCANDA PEDAQOJİ FİKİR TARİXİ

Cəfərova K.X.
Naxçıvan Dövlət Universiteti
E-mail: ceferlikemine@gmail.com

Doğma diyarımız olan Azərbaycanın mədəniyyətinin, təhsilinin qədim və zəngin tarixi var. Qədim sakinlərimiz olan azərbaycanlıların həm yazı, həm də oxu mədəniyyəti olub. Ulu babalarımızın yazıb-yaratdıqları zəngin ədəbiyyatımızın bəziləri bizim dövrümüzə gəlib çıxmamışdır. Bu əsərlərin çoxu yurdumuza edilən basqınlar zamanı tələf edilmişdir. Ancaq buna baxmayraq bizə gəlib çatan qədim ədəbiyyat nümunələri xalqımızın zəngin keçmişindən bizə xəbər verir.

Dildən-dilə, bu günümüzə qədər gəlib çıxan ədəbiyyatımızın bariz nümunələrindən olan "Dədə Qorqud", "Bilqams", "Oğuz", "Köç", "Manas", "Alp Ər Tunqa" və.b dastanlarımızın hər biri xalqımızın keçmiş tarixindən, ağlından, arzusundan, təlim, tərbiyə və elmin inkişafının yüksək dərəcədə olduğundan bizi agah edir. Azərbaycanda zərdüşt məktəbindən əvvəl mütəşəkkil təhsil sistemi olmasa da təlimin ibtidai dövrü olmuşdur.

Mezolit və Enolit dövrünə aid daşüstü yazılar ən qədim dövrlərdə Azərbaycanda bədii zövq və rəsm mədəniyyət varlığının inkişafını göstərir. Qobustan, Gəmiqaya, Oğlanqala, Kültəpə, Orxon-Yenisey abidələri və başqa bunun kimi üzərinə müxtəlif şəkillər həkk olunmuş tarixi abidələrimiz xalqımızın hələ qədim dövürlərdən oxumağı, rəsm çəkməyi, yazmağı və bu kimi biliklərə sahib olduğunu göstərir. Qayalar üzərindəki insan və heyvan təsvirləri, döyüş, ov və rəqs səhnələri qədim insanların həyatı haqqında maraqlı məlumatlar verir.

Münasibət vasitəsi olan şəkli yazılarda ictimai hadisələr, mərasimlər, dini ayinlər və təbiət haqqında kosmoqonik düşüncələr, müxtəlif rəsmi işarələrdə öz əksini tapmışdı. Kəlbəcərdə tapılmış tunc kəmərin, cənubi Azərbaycanın məşhur Ziviyə xəzinəsində tapılmış VIII əsrə aid olan qızıl əşyalar üzərindəki rəmzlər, eləcədə Qazax rayonunun Baba –Dərviş adlı qədim yaşayış məskənində tapılmış e.ə IV minilliyin enolit qabları üzərindəki simvolik işarələr dediklərimizə əsas verir.

Qobustan Bakının 50km-liyində yerləşir və insanların yaşadığı qədim yaşayış məskəni hesab olunur. Buradakı qayalarının üzərində minlərlə şəkli işarələr mövcuddur. Qayaların üzərində çəkilmiş şəkillər, yallı, daş qaval, piktoqrafik işarələr incəsənətimizin daha qədim olmasını göstərir. Şəkli yazılara həm də Şüvəlan qəsəbəsində, Ordubad yaylaqlarında, Kəlbəcər dağlarında və Cənubi Azərbycanın Qaradağ bölgəsində rast gəlmək olar.

Qədim dövrdə insanların biliklərinin artırılmasında, təlimində qəbilə və tayfaların bilikli insanları aparıcı rol oynayırdı. Həmin şəxslər məbədlərdə, pirlərdə insanları dinləyir, yol göstərir, onlara məsləhətlər verirlərmiş. Bu məbədləri ən qədim insanların "ilk maarif ocaqları" adlandırmaq olar.

Qayaüstü rəsmlərin əks olunduğu abidələrdən biri olan Gəmiqaya Naxçıvan ərazisində yerləşir. Abidələrin üzərində iki minə yaxın yazı formalarını özündə əks etdirən şəkli işarələr vardır. Burada təsvir olunan yazılar, rəsimlər, işarələr öyrədici funksiyalarını özündə əks etdirir. Daşlar üzərində çəkilmiş xəttlər orada yaşayan insanların ilkin riyazi anlayışının olduğundan xəbər verir. Gəmiqaya tarixi abidəsini ilk araşdıranlardan biri tarixçi akademik Əliyev Vəli olmuşdur. Onun apardığı tədqiqatlarda məlum olmuşdur ki, burada yazılar və rəsimlər, daş və metallar vasitəsilə daşların üzərinə müxtəlif yollarla çəkilmişdir.

Azərbaycanda VII əsrə qədər müxtəlif dövlətlər olmuş və onların da özlərinə məxsus yazıları, oxuları, maarif və mədəniyyətləri olmuşdur. İlk yazının yarandığı dövlət Şummer dövləti olmuşdur. Bu dövlət Mesopotomiya ərazisində yaranmışdır. 1927-ci ildə aparılan tədqiqatlar zamaı Ura şəhərində iki otaqlı kitabxana aşkar edilmişdir. Bu kitabxanada 30 min müxtəlif ölçüdə gildən tablolar var. Həmçinin bu kitabxanada müxtəlif elm sahələrinə aid tablo və tibbi mətnlər tapılıb. Mixi yazıları ilk dəfə Şumerlər kəşf ediblər.

Azərbaycanda müstəqil Alban dövlətinin yaranması məktəb, maarif və mədəniyyət işlərinin qüvvətlənməsinə səbəb olmuşdur.

V əsrdə Albanların öz əlifbası yaranmışdır. Həmin əlifba alban dilinin Qafqazda o cümlədən Azərbaycan Respublikasında vahid ünsiyyət vasitəsi olduğunun mühüm bir dəlilidir. Araşdırmalar göstərir ki, uzun müddət elmi, bədii, publisistik əsərlər, kargüzarlıq sənədləri alban dilində yazılmışdı. Musa Kalankatlının "Alban tarixi" kitabı əvvəl alban dilində yazılmışdı. Ancaq alban əlifbasının kim tərəfindən və nə zaman yazıldığı mübahisəlidir. İ.V.Abuladze XV əsr əlyazmalarını öyrənərkən 1717 nömrəli əlyazmada alban əlifbası əldə etmişdir

V əsr mənbələrində həm də Azərbaycan əhalisinin hun adlandırılmasına və ərazidə "Hun" kəlməsi olan yer adlarına rast gəlmək olur. Orxon-Yenisey, Gültəkin, Tonyukuk abidələrinin üzəri Göytürk əlifbası ilə yazıldığından , buna Orxan-Yenisey, Gültəkin, Tonyukuk əlifbası da deyilmişdir. Türk xaqlarının ilk tarixi sənədi kimi Göytürk əlifbasını göstərə bilərik. Bu əlifba 38 hərfdən ibarətdi. Bu hərflərdən dördü səsli, səssiz hərflərin sayı isə 34-dür. Bu əlifba vasitəsi ilə yazılan yazılar sağdan sola və yuxarıdan aşağıya doğru yazılır. Hərflər isə bir- birinə birləşdirilmir.

Professor Əsəd Yaqubi yazırdı ki, III-V əsrlərdə Azərbaycanın şimalında zorostrizmə qarşı İsəvi dini yayılmağa başladı. Bunu üçündə Zaqafqaziya vilayətinə Suriyadan İsəvi mübəlliğləri göndərilirdi. İsəvi dinini yaymaq üçün Suriyanın Ədəs şəhərində ali məktəb yaradılmışdı. Onlardan biri "Dəbestane İraniyan" - İranlılar məktəbi olmuşdu. Bu məktəbdə təhsil alanlar bu dini qəbul etmiş iranlılar idi. Bu ali məktəbi bitirən məzunlar Atropatenada, Albaniyada İsəvi dinini yayırdı. Onlar həm də bibliyanı tərcümə edib təbliğ edirdilər.

V-VI əsrdə Albaniyada çoxlu İsəvi kilsələri tikilmişdi. Bu kilsələrə Qax rayonunda və Mingəçevirdə tikilmiş məbədləri göstərmək olar. Həmin dövrdə hökümdarda İsəvi dininin yaylması üçün şərait yaradırdı. Zərdüşt və bütpərəst valideyinlərin uşaqlarını bu məktəblərdə İsəviyyət ruhunda tərbiyə edirdilər. Albaniyanın adı həm də Aran kimi də işlədilirdi. Aran məktəblərində tədris xüsusi hazırlıq keçmiş şəxslər tərəfindən aparılırdı. Uşaqlara həm yazı həm də oxu öyrədilirdi. Onlar alban əlifbasından istifadə edib, ana dilində təhsil alırdılar

V –VII əsrlərdə azərbaycanlı alim və tələbələrin bir qismi Xuzistan vilayətində yerləşən və əsası yunanlar tərəfindən qoyulmuş dünya şöhrətli Cündişapur akademiyasında təhsil alır və işləyirdilər.

Sonda onu qeyd edək ki, islamiyyətdən öncə Azərbaycanda fəaliyyət göstərmiş Zərdüşt məktəblərinin, həmçinin Zərtüştlüyün müqəddəs kitabı "Avesta"da şəxsiyyətin inkişafı və təlim-tərbiyəsi ilə bağlı dəyərli

pedaqoji fikirlərin böyük rolu olmuşdur. Tədqiqatlara görə zoroastrizmin vətəni Azərbaycan hesab edilməlidir. Zərdüştün təliminə görə yeni biliklər gənclərə təlim- tərbiyə vasitəsi ilə çatdırılmalıdır. Azərbaycanda məktəb təhsili tarixi bu dövrə təsadüf edir. Avesta kitabında elm öyrənmək dini bir vəzifə sayılırdı. Elmə yiyələnmək haqqında bu kitabda çoxlu dualar da var. Burada əqli tərbiyəni təlimsiz təsəvvür etmək olmur. Təlim isə müəllim vasitəsilə aparılır. Bu dövrdə müəllimlər "hirbod", "əsərpəiti" adlandırılırdı. Avestada olan bu məlumatlar, ehkamlar Azərbaycanda təhsil ocaqlarının varlığından məlumat verir. Avestada təlim haqqında bu qədər məlumatların olması ondan xəbər verir ki, bu dövrdə Azərbaycanda çoxlu təhsil ocaqları olub. Zərdüşt məktəbləri Azərbaycan məktəb və pedaqoji fikrinin sonrakı inkişafına öz təsirini göstərmişdir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFINDA TƏRBİYƏNİN ROLU

Əliyeva T.M.
Bakı Slavyan Universiteti
E-mail: turanaliyeva6@gmail.com

İnsanın həyatda müəyyən mövqedə olub doğru şəxsi keyfiyyətlərə yiyələnməsi üçün ona verilən tərbiyənin rolu əhəmiyyətlidir. Hər bir insan ona bəxş edilən bu həyata müxtəlif prizmadan baxır. Bu baxış mövqeyinin formalaşması hər bir şəxsdə individual xarakter daşıyır. Burada tərbiyənin təsiri öz bəhrəsini göstərmiş olur. Tərbiyə məqsədəuyğun, planlı, düşünülmüş fəaliyyətdir. O, şüurlu şəkildə nəsildən-nəsilə, valideyindən övlada, müəllimdən şagirdə ötürülərək öz toxunulmazlığını qoruyur.

Tərbiyə prosesinin bünövrəsi ailədə qoyulur. Daha sonra isə məktəb, cəmiyyət, sosial mühit vasitəsi ilə davam etdirilir. Məktəbəqədər yaş dövrü uşağın həyatında keçid bir hissə hesab olunur. Çünki artıq uşaq yeni çevrə, insanlar, cisimlər ilə əhatə olunmağa başlayır. Hər bir obyekti yeni görən uşaq istəyir ki, bu obyektlə maraqlansın, tanısın və məlumatlı olsun. Odur ki, məhz bu yaş dövrü üçün xarakterik olan bütün proseslər nəzərə alınmalı və uşaqlara mənfi örnək ola biləcək davranış metodlarından yayınmaq lazımdır. Məktəbəqədər təlim müəssisələrinə gedən uşaq burada yeni dostlar qazanır, tərbiyəçi-müəllim ilə yaxın münasibət qurub öz anasının xüsusiyyətlərini tərbiyəçi-müəllimə proyeksiya edib köçürür. Əgər uşaqların tərbiyəsi zamanı birinci vəzifəli şəxs kimi valideynlər məsuliyyət daşıyırsa, ikinci vəzifəli şəxs olaraq müəllimlər məsuliyyət daşıyırlar.

Məktəbəqədər yaş dövründə hər bir uşağa fərdi yanaşmalı və 4 inkişaf sahəsi üzrə tərbiyə metodu həyata keçirilməlidir. Birinci fiziki inkişaf, sağlamlıq üzrə tərbiyədən bəhs edərkən burada doğru şəkildə təşkil edilmiş fiziki tərbiyəyə toxunulur. Uşağın düzgün qamətinin, yaxşı bədən quruluşunun olması üçün bu olduqca lazımlı tərbiyə metodudur. Bundan əlavə, gün rejiminin uşağa aşılanması onun asudə vaxtını necə keçirəcəyinə bir növ kömək etmiş olur. Eyni zamanda kəsici, təhlükəli alətlərdən məişətdə istifadə qaydasını öyrətmək məqsədəuyğundur.

İkinci tərbiyə sahəsi isə idrakın inkişafıdır ki, uşaqlar ətraf aləm haqqında ilkin anlayışlara sahib olur. Ətraf aləmin dərk edilməsinin əsası elə bu dövdə qoyulur. Bu səbəbdən də uşaqlara onların təmasda olduqları əşyaların adlarını, onlardan istifadə etmək qaydasını öyrətmək zərurəti meydana çıxır.

Üçüncü inkişaf sahəsi estetik və yaradıcı inkişaf metodudur ki, ətraf aləmin gözəlliklərini duymaq, estetik cəhətdən bunu qavramaq üçün uşaqlara şərait yaratmaq lazımdır. Onlarda olan estetik inkişaf onların yaradıcılıq qabiliyyətləri üçün lazımi davranışı stimullaşdırır. Bu zaman valideynlər və tərbiyəçilər uşaqlar üçün elə bir şərait yaratmalıdırlar ki, onlar ətraf aləmin bu gözəlliklərini görsünlər, obyektləri müşahidə və müazakirə etmək bacarığına qabil olsunlar. Məktəbəqədər yaş dövrü musiqi duyumu, musiqi alətlərindən istifadə etmək bacarığı üçün əlverişli hesab olunur.

Dördüncü tərbiyə sahəsi isə sosial-emosional sahədir. Sosial-emosioanl inkişaf vasitəsi ilə uşaqda digər insanlara qarşı müsbət münasibət, empatiya qurmaq bacarığı yaranır. Yoldaşları ilə qarşılıqlı anlaşma, əməkdaş şəkildə işləmək bacarığı formalaşır.

Bəhs etdiyimiz bu 4 inkişaf sahəsinə məhz bu dövrdə dərindən yiyələnmək və uşaqlara aşılamaq gələcəkdə uşaqların müstəqil bir fərd kimi yetişməsinə kömək edəcəkdir. Ümumiyyətlə isə uşağın inkişaf prosesində ona siyasi, mənəvi, cinsi, hüquqi, əmək, əqli, ekoloji, etik, iqtisadi tərbiyəni də aşılamaq vacibdir. Hər birinin lazımlılıq dərəcəsi özünü müəyyən situasiyalarda biruzə verərək nümayiş etdirmiş olur. Odur ki, hərtərəfli tərbiyə metodlarına yiyələnmiş uşaq gələcəkdə uğurlu bir insan ola biləcək şəxsiyyətin təməlinin qoyulmasıdır.

MƏDƏNİ EKOLOJİ TƏRBİYƏNİN ELMİ-PEDAQOJİ ƏSASLARI

Əsgərova S.A.
Bakı Slavyan Universiteti
E-mail: sabina.askerova004gmail.com

Bütün dünyada ekoloji vəziyyət, ekoloji problemlərin qlobal xarakteri və onların planetin hər bir regionunda özünəməxsus təzahürü bəşəriyyətin, ayrı-ayrı xalqların və hər bir fərdin təfəkkürünün sürətlə yenidən qurulmasını tələb edir. Bununla əlaqədar olaraq, ekoloji təhsil "ətraf mühitə məsuliyyətli münasibəti təmin edən elmi və praktiki bilik və bacarıqlar, dəyər yönümləri, davranış və fəaliyyətlər sisteminin formalaşmasına yönəlmiş şəxsiyyətin davamlı təlimi, təhsili və inkişafı prosesidir.

Həyatı və insan sivilizasiyasını əhatə edən dövrümüzün qlobal problemləri formalaşmaqda olan ekoloji informasiya cəmiyyətinin ideyalarını həyata keçirmək üçün nəzərdə tutulmuş ekoloji təhsili zəruri etmişdir. Cəmiyyətlə təbiətin ahəngdar qarşılıqlı əlaqəsi yollarının axtarışı bəşəriyyətin ümumi mədəniyyətinin yaşıllaşdırılmasının intensiv prosesinə və nəticədə ekoloji təhsilin nəzəriyyəsi və praktikasının formalaşmasına gətirib çıxarır.

Filosoflar və pedaqoqlar tərəfindən aparılan bu problemin sonrakı tədqiqi təhsilin yeni aspektini - ekoloji cəhəti ayırmağa imkan vermişdir.

Ekologiya bitki və heyvan orqanizmləri və onların özləri ilə ətraf mühit arasında əmələ gətirdiyi icmalar arasındakı əlaqə haqqında elmdir. Ekoloji təhsil isə təbiətin biliyi, inkişafı, dəyişdirilməsi ilə bu və ya digər şəkildə bağlı olan bütün növ insan fəaliyyətinin yüksək ekoloji mədəniyyətinin geniş əhali arasında formalaşması kimi başa düşülür. Ekoloji təhsilin əsas məqsədi, uşağa canlı təbiətin qanunları haqqında biliklərini inkişaf etdirməyi, canlı orqanizmlərin ətraf mühitlə əlaqəsinin mahiyyətini dərk etməyi və fiziki və psixi vəziyyəti idarə etmək bacarıqlarının formalaşmasını öyrətməkdir.

Sosial və təbii mühit və sağlamlıq, yeni prioritet sahəyə çevrilir. Cəmiyyətlə təbii mühitin qarşılıqlı əlaqəsinin aktuallığı məktəb tərəfindən uşaqlarda təbiətə məsuliyyətli münasibət formalaşdırmaq vəzifəsini qoyur. Müəllimlər və valideynlər məktəblilərə təbiətdə davranış qaydalarını öyrətməyin vacibliyini bilirlər. Şagirdlərin ekoloji tərbiyəsi işinə nə qədər tez başlansa, onun pedaqoji effektivliyi bir o qədər çox olar. Eyni zamanda, uşaqların təhsil və məktəbdənkənar fəaliyyətinin bütün forma və növləri bir-biri ilə sıx əlaqədə olmalıdır.

İbtidai məktəb yaşlı uşaqlar bilik və təcrübələrin unikal birliyi ilə xarakterizə olunur ki, bu da onlarda təbiətə məsuliyyətli münasibət üçün etibarlı zəmin formalaşdırmaq imkanından danışmağa imkan verir. Bütün ibtidai məktəb fənləri uşaqların ekoloji məsuliyyətinin formalaşmasına töhfə vermək üçün nəzərdə tutulmuşdur.

Dərsliklərin fərdi təhlili bunun üçün ilkin şərtlərin olduğunu təsdiqləyir. Bununla belə, ekoloji maarifləndirmə məqsədi ilə funksiyaların ayrılması və təhsil subyektlərinin qarşılıqlı əlaqəsi probleminin həll olunduğunu söyləmək olmaz. Uşaqların öyrəndiyi təbiətin hər bir spesifik komponenti haqqında yeni bilik elementləri əlavə etmək lazımdır. Kursun məzmununa müxtəlif yanaşmalarla uşaqları real ekoloji problemlər dairəsi ilə tanış etmək mümkün olur. Ekoloji təhsilin gücləndirilməsi məktəbin pedaqoji reallığında bir nömrəli problem olaraq qalır.

Ətraf mühitə qarşı məsuliyyətli münasibətin formalaşmasına yönəlmiş ekoloji tərbiyə şagirdlərin ümumi təhsilinin əsas və məcburi hissəsinə çevrilməlidir. Ekoloji təhsilin ən mühüm prinsiplərindən biri də davamlılıq prinsipidir. Müasir ekoloji problemlərin aktuallığı pedaqoji nəzəriyyə və məktəb praktikası qarşısında gənc nəslin təbiətə diqqətli, məsuliyyətli münasibət, ətraf mühitin rasional idarə edilməsi, təbii sərvətlərin mühafizəsi və yenilənməsi məsələlərini həll etməyə qadir olan ruhda tərbiyə edilməsi vəzifəsini qoyub. Bu tələblərin hər bir insan üçün davranış normasına çevrilməsi üçün uşaqlıqdan ətraf mühitin vəziyyətinə görə məsuliyyət hissini məqsədyönlü şəkildə tərbiyə etmək lazımdır.

Təbiətə məsuliyyətli münasibətin formalaşması və inkişafının, fərdlərdə ekoloji mədəniyyətin formalaşmasının əsasını təbiətin həyatı, insanın (cəmiyyətin) qarşılıqlı əlaqəsi haqqında bəzi məlumatlar daşıyan fənlərinin məzmunu təşkil edir.

Məsələn, humanitar və estetik dövrün (dil, bədii qiraət, musiqi, təsviri incəsənət) fənlərinin məzmunu fərdlərin sensor-harmonik təəssürat fondunu zənginləşdirməyə imkan verir, onların dəyər mühakimələrinin inkişafına, onlarla tam ünsiyyətə kömək edir.

TƏHSİL MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNİN ÖYRƏNİLMƏSİNİN ƏSAS MEYARLARI

Hüseynzadə F.M.
Sumqayıt Dövlət Universiteti
Email: fatimehuseynzade017@gmail.com

Kurikulumdakı fənlər üzrə mövzuların mənimsənilməsini müəyyənləşdirmək, konkret olaraq şagirdlərin bacarıqlara və vərdişlərə yiyələnməsini öyrənmək üçün faktlar əsasında aşağıdakı məsələlərin müqayisəli şəkildə təhlili edilmişdir: Ali və orta ixtisas məktəblərinə yüksək balla qəbul edilməsi; Məktəbin buraxılış siniflərində oxuyan şagirdlərin təhsil səviyyəsinin dinamikasının yüksələn olması; Olimpiadalarda və müxtəlif tədbir və yarışlarda qaliblərin miqdarı; Şagirdlərin yarımillik və illik qiymətlərinin müqayisəli təhlili; ’’4’’ və ’’5’’ qiymət alanların (keyfiyyət qiymətlərinin) xüsusi çəkisi; İnformasiya və kommunikasiya texnologiyalarından istifadə edənlərin miqdarı.

Şagirdlərin biliyinin qorunub Sxlanmasi sahəsində meyarların müəyyənləşdirilməsi: Məktəbdəki siniflərdə müxtəlif dövrlərdə orta qiymət balının fərqi. Bunun bir neçə ayın və ilin intervalında təhlilini aparmaq; Imtahan qiymətlərinin və yekun qiymətlərinin əvvəlki illərdən fərqi.

Təlim prosesində fəallaşdırmanın (interaktivliyin) tətbiqinin qoyuluşu meyarları: İnteraktiv təlimlə işləyən müəllimlərin miqdarı; Şagirdlər tərəfindən hazırlanmış müxtəlif vəsaitlərin miqdarı; Hazırlanmış referatların, çıxışların və şagirdlərin mətbuatda, kütləvi informasiya vasitələrində çıxışları; Şagirdlərin müstəqil işlərinin təşkili ilə bağlı keçirilən dərslərin miqdarının müəyyənləşdirilməsi (ən azı 8-10 saat dərsin nəticələri).

Təlim prosesinin səmərəliliyinin təşkili sahəsindəki meyarların aşkar edilməsi: Məktəbdəki müəllimlərin tədris etdiyi hər bir dərsin faydalı iş əmsalının öyrənilməsi; Rasional şəkildə keçilən dərslərininmiqdarı (ən azı 10-15 dərsin müşahidəsi); Şagirdlərlə aparılan işin intensivləşdirilməsi sahəsindəki dərslərin miqdarı dərsdə ən azı 12-18 nəfərin qiymətləndirilməsi işini müşahidə etmək; Dərs ili müddətində İKT-dən istifadə etməklə keçirilən dərslərin miqdarı; Nümayiş etdirilən tədris filmləri, diafilmlər, səs yazmaları, hazırlanmış testlər, didaktik vəsaitlərin miqdarı.

Təlimin sinifdənxaric formalarından istifadə dünyagörüşün genişləndirilməsi sahəsindəki meyarlar: fənlər üzrə marağa görə məşğələlərin dərnəklərin miqdarı məktəb üzrə oxunmuş kitabların internetdən istifadənin vəziyyəti;

Müxtəlif fənlərə şagirdlərin münasibəti meyarları: müşahidə aparılması, yazılı sorğuların keçirilməsi; “mənim sevdiyim fənn” mövzusunda sərbəst yazıların keçirilməsi;

Məktəbdə təhsil iştirakçılarının fəaliyyətinin idarə olunması meyarları: müəllim və şagird arasında qarşılıqlı münasibətlərin hansı tərzdə aparılması (totalitar, liberal, demokratik, avtoritar); müəllimlərin öz işinə düzgün münasibəti; intizamlılıq, işgüzarlıq, işdə düzgün münasibətin yaradılması; dəqiq və optimal rejimin müəyyən edilməsi; kollektiv qarşısında konkret və perspektivli məsələlərin qoyuluşu; müəllim və şagirdlərin hər birinin köməyilə qarşıya çıxan məsələlərin keyfiyyətlə və səmərəli şəkildə yerinə yetirilməsinə nail olmaq; nisbətən seçilən müəllimin iş təcrübəsinin ümumiləşdirilib kollektivə çatdırılması; təlim tərbiyə sahəsindəki aktual problemlərlə bağlı tövsiyə hazırlamaq məqsədilə yaradıcı qrupun təşkili; hər bir müəllimin tapşırılmış iş üçün məsuliyyətinin artırılması; müəllim və şagird arasında qarşılıqlı münasibət tərzinin təkmilləşdirilməsi; müəssisədə tapşırılan işin yerinə yetirilməsində nəzarət və məsuliyyətin mərkəzləşdirilməsinin həyata keçirilməsi; təhsil iştirakçıları arasında qarşılıqlı münasibətin yaradılması sahəsində işgüzar əlaqələrin təşkili;

Təhsil müəssisəsinin idarəçilik işinin keyfiyyətini müəyyən edən meyarlar: fəaliyyətin keyfiyyətcə yaxşılaşdırılması üçün praktik köməkliyin təşkili; məktəbdə öz hazırlığı ilə seçilən müəllim və şagirdlərin yaradıcılıq işinə cəlb edilməsi; təhsil müəssisəsinin fəaliyyətindəki pozitiv xüsusiyyətlər haqqında ictimai rəy formalaşdırılması; kollektivdə sağlam mühitin yaradılması.

Tərbiyə prosesində əsas meyarlar. Məktəbdə tərbiyənin həyata keçirilməsi şagirdlərin davranış meyarları: yarım il, il ərzində şagirdlərin davranışı; dərsdə şagirdlərin davranışı ilə bağlı tərbiyə məsələləri; dərsə gecikmələrin miqdarı həftə ərzində; şagirdlərin ictimai faydalı əməyə münasibətinin meyarları; bir neçə ictimai faydalı tədbirləri müşahidə etmək; müəssisə tərəfindən müəyyən edilmiş əmlak normalarının yerinə yetirilməsinin miqdarı.

Şagirdlərin təhsilə münasibətinin meyarı: yarım il və il müddətində şagirdlərin buraxdığı dərsin miqdarı.

Şagirdlərin bilik yaradıcılıq və peşə sahəsində şəxsi marağının formalaşdırılması meyarları: "Mən kim olmaq istəyirəm" sərbəst yazı işinin nəticələri; Şagirdlərin aldığı informasiyaların, oxuduğu ədəbiyyatın formalaşdırılmasının nəticələri.

Estetik duyumun düzgün aşılanması meyarı: Müşahidə olunmuş filmlərin, oxunmuş kitabların haqqında təəssüratların öyrənilməsi; Sinif otaqlarının vəziyyəti təmizliyi; Şagirdlərin xarici görünüşü təmiz və səliqəli geyimi qıvraqlığı; Sinif və məktəb növbətçilərinin verdiyi qiymətin nəticəsi;

Nəticə. Təhsil müəssisələrinin fəaliyyətinin öyrənilməsinin əsas meyarları həmçinin şagirdlərin təhsilə münasibəti, estetik duyumun düzgün aşılanması, təhsil müəssisəsinin idarəçilik işinin keyfiyyətini müəyyün edən və s. Bir sıra başqa meyyarlar əsasinda müəyyənləşdirilir.

MÜASİR AİLƏ TƏRBİYƏSİNİN ŞAGİRDLƏRİN ƏXLAQİ KEYFİYYƏTLƏRİNİN FORMALAŞMASINDA ROLU

İsmayilova Z.H.
Bakı Slavyan Universiteti
E-mail: Zulfiyeyusufova80@gmail.com

Müasir gəncliyin mənəvi-əxlaqi dəyərləri daha çox ictimai şüurda formalaşmış mədəniyyət anlayışı və münasibəti ilə müəyyən edilir.

Gənclərin mənəvi-əxlaqi dəyərlərinin formalaşması təkcə təlim-tərbiyə məşğələləri zamanı deyil, həm də təhsildən boş vaxtda baş verdiyindən, tələbə sorğusunun işlənməsi prosesində özünüinkişaf və özünütərbiyə problemi də araşdırılmışdır.

Asudə vaxtın inkişafı tələbələrin mənəvi-əxlaqi dəyərlərinin formalaşmasında mühüm rol oynayır. Bir çox tələbələr dərsdənkənar vaxtda özünüinkişafın vacibliyini dərk edərək, əslində buna kifayət qədər diqqət yetirmirlər. Bundan əlavə olaraq şagirdlərin əxlaqi keyfiyyətlərinin formalaşmasına birbaşa olaraq ailə tərbiyəsi və ailə rolu təsir edir. Buna görə də tədqiqat işində ailə tərbiyəsinin özünüinkişafın qarşısında duran maneələrin müəyyən edilməsinə xüsusi diqqət yetirilmişdir.

Anket məlumatlarının işlənməsi nəticəsində şagirdlərin "mədəni insan" və "mədəni davranış" kimi fundamental anlayışların dərk edilməsinə münasibətini müəyyən edən respondentlərin cavablarının bir neçə tipologiyası hazırlanmışdır. Məlumatların işlənməsi nəticəsində şagirdlərin fikrincə, onların özünü inkişaf etdirməsinə (daxili və xarici) mane olan iki qrup maneə müəyyən edilmişdir.

Mənəvi-əxlaqi tərbiyənin təzahürlərindən biri də ailə tərbiyəsidir ki, bu da öz ailənin şagirdə verdiyi tərbiyə əxlaqı münasibətilə səciyyələnir.

Hər bir valideyn uşaqları böyütməkdə özünə bir neçə vəzifə qoyur: uşağın böyüməsi və inkişafı üçün ən əlverişli şəraitin yaradılması; fərdin psixoloji dəstəyi və müdafiəsi; ailə ənənələrinin qorunması və inkişafı; yaşlı nəslə hörmətli münasibətin tərbiyəsi.

Ailə uşağın əqli inkişafına böyük təsir göstərir, onun öyrənməyə münasibətinə təsir edir, onun uğurunu böyük ölçüdə müəyyənləşdirir. Uşağın problemləri böyük diqqət tələb edir, çünki onlar ilk növbədə ailənin, sonra isə təhsil müəssisəsinin və dövlətin problemləridir.

Yeniyetməlik dövrünə qədəm qoyan uşaqların "çözülməzliyindən" şikayət edən valideynlərin sayı artır. Bəziləri uşağın hərəkətlərinə nəzarət edə bilmədiklərini, onunla əlaqə saxlamadıqlarını deyirlər. Bu ona görə baş verir ki, bu valideynlər, bəlkə də, uşaqlarının inkişafında baş verən dəyişiklikləri başa düşmürlər, bəzi hərəkətlərə düzgün reaksiya vermirlər, onlara düzgün qiymət tapmırlar.

Ədəbiyyatda yeniyetməlik dövründə düzgün olmayan tərbiyənin mənfi nəticələri haqqında çox danışılır, müsbət imkanlardan isə çox az danışılır. Bu arada, yeniyetməlik dövrü uşağın xarakterində ən müsbət dəyişikliklərin, onun gizli qabiliyyətlərinin ən gözlənilməz təzahürlərinin (uşaqlar şeir yazmağa başlayır, həyəcanla oxuyur) vaxtı ola bilər.

Yeniyetməlik dövründə baş verən dəyişikliklərə müsbət təsir göstərmək, yeniyetmələrin artan enerjisini düzgün istiqamətləndirmək həm valideynlərin, həm də müəllimlərin əsas tərbiyə işlərindən biridir.

Uşağın ideal tərbiyəsinin necə olması lazım olduğunu mühakimə etmək çətindir. Yetkinlər və uşaqlar arasında ahəngdar ailə münasibətləri aşağıdakı şərtlər daxilində yaranır: uşağın əsas ehtiyaclarının ödənilməsi (təhlükəsizlik, psixoloji dəstək), uşağın fərdiliyini qəbul etmək, tanımaq və anlamaq, fərdi xüsusiyyətlərə adekvat olan qarşılıqlı əlaqə tərzinin yaradılması.

Həmçinin ailədə ahəngdar münasibətlərin əvəzsiz şərti və nəticəsi valideyn-övlad arasında emosional yaxınlıqdır.

MƏKTƏBƏHAZIRLIQ QRUPLARINDA VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN MAHİYYƏTİ

Kərimova Q.M.
Bakı Slavyan Universiteti
E-mail: qkerimova662@gmail.com

Vətənpərvərlik insan hisslərinin, insan məhəbbətinin özəyidir. Hər bir Azərbaycan vətəndaşı ürəyi vətən sevgisi, el gücü ilə döyünən insan, torpağına candan bağlı olmalı, dünyanın hansı yerinə getsə də yetişdiyi, böyüdüyü torpağı, gördüyü adət-ənənələrini, milli-mental dəyərləri, el-oba sevgisini hər zaman özündə ayrılmaz hiss kimi ehtiva etməlidir.

Məktəbəqədər yaş dövrü uşaqların formalaşmasının, onların hərtərəfli inkişafının bünövrəsinin qoyulduğu bir dövrdür. Artıq bu dövrdən yetişən gənc nəslin vətənpərvərlik tərbiyəsinin bu və ya digər müəyyən keyfiyyətlərlə yetişməsinin təməli qoyulur. Pedaqoji və psixoloji ədəbiyyatlarda qeyd olunduğu kimi uşaqlar məktəbəhazırlıq yaşlarında daha çox hər şey ilə maraqlanır, öyrənməyə çox həvəsli olurlar, hər şeyi tez bir zamanda bilməyə can atırlar. Uşaqlar vətənini, vətənpərvərliyini, vətəninin gözəlliklərini, görkəmli şəxsiyyətlərimizi, milli-tarixi yerlərimizi, ətraf aləmi maraqla öyrənirlər və təfəkkürlərində həmin obrazı canlandırır, dərin hisslərlə möhkəmləndirirlər. Vətənpərvərlik hisslərinin tərbiyə edilməsi uşaqda məktəbəhazırlıq yaş dövründən formalaşdırmaq ilk öncə ailədə valideynlər, sonra isə bağçalarda tərbiyəçi müəllimlərin üzərinə düşən əsaslı vəzifələrdir. Uşaqların təlim-tərbiyə prosesində tərbiyəçi müəllimin uşaqlarda qeyd olunan faktorları formalaşdırıb möhkəmləndirilməsində başlıca rolu vardır.

Uşaq ilk öncə öz mənliyini, Azərbaycanlı olduğunu, Azərbaycan qanı daşıdığını, doğma torpaq üçün çalışıb vuruşmalı olduğunu dərk etməlidir. Uşaq öz vətənini, onun zənginliklərini, yeraltı və yerüsü sərvətlərini, tarixi qəhrəmanları, hərbçi və generalları tanımalıdır. Uşaqlara Azərbaycan Respublikasının atributlarının (üçrəngli bayrağının, gerbinin, himninin) olduğunu öyrətmək lazımdır. Eyni zamanda uşaqlara izah etmək lazımdır ki, bu atributlar müqəddəsdir, onlara hörmət, ehtiram göstərmək hər bir Azərbaycan vətəndaşının borcudur.

Doğma torpağımızı olan Azərbaycanı ürəkdən sevməyin, ona canla-başla xidmət etməyin, ən gözəl nümunəsini Ulu Öndərimiz Heydər Əliyev bizə əyani surətdə göstərmişdir. Onun fikrincə, "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir". Gənclərin əsas vəzifəsi isə "Özünü Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır".

Uşaqların vətənpərvərlik hisslərinin möhkəmləndirilməsi məqsədi ilə onların Şəhidlər Xiyabanına ziyarətlərinin təşkili, milli qəhrəmanlarımızla tanış edilməsi, tarixi filmlərin, videoçarxların izlədilməsi, xalqımızın tarixi keçmişinə, mübarizlik əzmini təmsil edən səhnəciklərin təşkili və uşaqların orada iştirakı, vətənpərvərlik ruhunda olan şeir və mahnıların uşaqlar tərəfindən səsləndirilməsi və s. kimi vətənpərvərlik duyğularının aşılanmasına xüsusi təsir göstərir. Habelə uşaqlar üçün Hərbi Qənimətlər Parkına ziyarətin təşkili və uşaqları əyani surətdə məlumatlandırmaq onların müasir ruhda tərbiyəsində böyük əhəmiyyətə malikdir.

YENİYETMƏLƏRDƏ ELMİ-DÜNYAGORÜŞÜNÜN FORMALAŞMASI

Məmmədova G.A.
Bakı Slavyan Universiteti
E-mail: guler-99@list.ru

Yeniyetmə məktəblilərin dünyagörüşündən danışdıqda biz, əsasən, V-IX sinif şagirdlərinin dünyagörüşünün formalaşdırılmasını nəzərdə tuturuq. Burada yeniyetmələrin dünyagörüşü dedikdə isə elmi dünyagörüşü nəzərdə tutulur. Hər şeydən əvvəl, "elmi dünyagörüşü" anlayışının aydınlaşmasına zəruri ehtiyac duyulur, çünki "dünyagörüşü" aparıcı söz kökü kimi həmişə önə çəkilir. Elmi dünyagörüşünün əsasını elmi biliklər təşkil etdiyindən onun formalaşmasının başlıca yolu təlim prosesi ilə bağlıdır. Psixoloqlar və pedaqoqlar dünyagörüşünün formalaşmasını, əsasən, ailədə, məktəbəqədər tərbiyə müəssisəsində kiçik yaşlarından qoyulduğunu, tədricən ictimai həyatdan və şəxsi keyfiyyətlərdən asılı olaraq inkişaf etdiyini qəbul edirlər. Onlar hesab edirlər ki, dünyagörüşü primitiv baxışlar sistemi yox, sistemli, məntiqi ardıcıllıqla həyata keçirilmiş bir iş olmalıdır. Məktəbin isə qarşısında duran vəzifələrdən biri təlimin ilk günlərindən başlayaraq şagirdlərin idea, inam və əqidələrini formalaşdırmaqdan ibarətdir. Elmi səviyyədə

dünyagörüşünün formalaşdırılması təlimin başlıca vəzifələrindən olduğu üçün humanitar və təbiət fənlərinin, eləcə də sosial yönümlü ictimai - faydalı fəaliyyətin bu sahədə geniş imkanları vardır. Bunlarla yanaşı, onların həm də musiqi baxımından imkanları geniş və əhatəlidir.

Psixologiya və pedaqogika elmləri yeniyetməlik yaşı dövründə yaradıcı təfəkkürün geniş imkanlara malik olduğunu sübut edir. Bununla yanaşı, dünyagörüşünün formalaşması prosesi I-II siniflərdən başlayaraq yeniyetməlik dövrünə qədər çox hissi-emosional sfera ilə əlaqədar inkişaf etdirilərsə, daha səmərəli nəticələr əldə etmək mümkündür. Bəzi tədqiqatçılar, hətta bir qisim müəllim, metodistlər hesab edirlər ki, orta məktəblərin hər hansı təlim prosesində yeniyetmələrin dünyagörüşünün formalaşdırılması imkanları çox məhduddur. Səbəbini izah edərkən söyləyirlər ki, guya orta məktəblərdə sistemli şəkildə fəlsəfə, iqtisadiyyat, pedaqogika kimi fənlər tədris olunmur. Belə çıxır ki, elmi dünyagörüşünün formalaşdırılması yalnız ali məktəblərdə mümkündür. Əlbəttə, bu, səhv yanaşmadır. Birincisi ona görə ki, hər yaş dövrünün öz xüsusiyyətləri və imkanları vardır. İkincisi, orta məktəblərdə əsası qoyulmayan xüsusiyyət və keyfiyyətlərin sonradan formalaşdırılması xeyli çətin olur. Üçüncüsü, yeniyetməliyin ikinci mərhələsi və erkən genetik dövrü sosializasiya üçün münbit şərait, geniş psixoloji imkanlar dövrüdür və bu imkanın buraxılması, nəzarətdən qaçırılması çox zərərli bir dünyagörüşünün formalaşmasına səbəb ola bilər. Belə ehtimalların hamısının elmi əsasları vardır. Doğrudan da, dünyagörüşünün formalaşması iki yolla həyata keçirilir: birincisi, real həyat və fəaliyyət yolu ilə aşılanan dünyagörüşü, ikincisi, bilavasitə təlim-tərbiyə prosesesində ictimai ideyaların mənimsənilməsi yolu ilə təlqin olunan dünyagörüşü. Hər iki yolla aşılanan və təlqin olunan dünyagörüşü ideya və inamların, əqidənin formalaşması kimi şüurlu şəkildə həyata keçirilmədikdə, yeniyetmələrdə mənəvi keyfiyyətlər qeyri-dəqiq, qeyri-sağlam şəkildə formalaşır. Təcrübə və müşahidələr göstərir ki, hər hansı bir dünyagörüşü istər-istəməz biliklər qazanılmasını zəruri edir və bu da elmi dünyagörüşünün inkişafına və sonradan formalaşmasına səbəb olur.

Yeniyetmələrin elmi dünyagörüşlərini formalaşdırmağa cəhd edənlərin özlərinin nəzəri və praktik, cəhətdən bu işə hazır olmaları, onların bir şəxsiyyət kimi, yetkin bir insan olması vacibdir. Əgər belə olmasa həmin insan yeniyetməni dərindən öyrənə bilməz. Pedaqoq alimlərin əksəriyyəti yeniyetmələrin psixoloji xüsusiyyətlərinin nəzərə alınmasını həmişə vacib bilmişlər. Onların bir qismi uşaqların psixoloji xüsusiyyətlərinin, digərləri isə fərdi xüsusiyyətlərinin nəzərə alınmasına daha böyük üstünlük verirlər.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFINA KOLLEKTİVİN TƏSİRİ

Məmmədova J.N.
Bakı Slavyan Universiteti
E-mail: Jalem00@mail.ru

Məktəbəqədər təhsil müəssisələrində kollektiv mühüm anlayışlardan biridir. Kollektivin tərkibindəki bütün üzvlər eyni mənafe üçün mübarizə aparmalı, müvəffəqiyyətləri üçün sevinməli, müvəffəqiyyətsizliklərinə görə isə kədərlənməlidirlər. Cəmiyyətin mühüm kollektiv modellərindən biri də, uşaq kollektividir. Uşaq kollektivində münasibətlərin öyrənilməsi ən önəmli və əhəmiyyətli problemlərdən biri olaraq qalmaqdadır. Uşağın məktəbəqədər təhsil müəssisəsindəki yalnız uğuru deyil, onun şəxsiyyətinin formalaşmasında həmyaşıdları ilə olan ünsiyyətlərinin necə olmasından və uşaq kollektivindəki sosial-psixoloji iqlimdən asılıdır. Kollektiv vasitəsilə uşaqlarda müsbət psixoloji iqlim, yaxşı təlim-tərbiyə, əməkdaşlıq vərdişləri, qarşılıqlı ünsiyyət bacarığı yaranır və özünəməxsus şəkildə inkişaf edir. Məktəbəqədər yaşlı uşaqlar kollektivin üzvləri ilə ünsiyyətə can atır və nəticədə lüğət ehtiyatları artır. Həmçinin, yaşıdları və böyüklərlə ünsiyyətin nəticəsində uşaqlarda müxtəlif növ müsbət keyfiyyətlər yaranır. Kollektivdə davranış qaydalarını, kiçiklərə qayğı göstərməyi, böyüklərə hörmət etməyi öyrənirlər. Uşaq kollektivin üzvləri ilə birgə fəaliyyət göstərir, kollektiv fikrin formalaşmasında mühüm rol oynayır, öz kollektivi ilə qərarın qəbul edilməsində fəal iştirak edir və kollektivin digər üzvlərinin fikilərinə də hörmətlə yanaşır. Uşaq kollektivinin tərkibində olmayan, xüsusilə də təkuşaqlı ailədə böyümüş uşaqlardə ünsiyyət bacarıqları zəif inkişaf edir və onlar həmyaşıdları ilə əşyalarını paylaşmaq istəmirlər. Belə uşaqlar dostları ilə ünsiyyət qurmaqda çətinlik çəkir və özlərini ifadə edə bilmirlər. Buna görə də məktəbədəqəryaşlı uşaqlar uşaq kollektivinin daxilində müsbət psixoloji iqlim şəraitində böyüməlidir. Məktəbəqədər yaş dövründə kollektiv daxilində birgə oyunların rolu danılmazdır. Kollektivlə oyun zamanı uşaqlarda qarşılıqlı münasibət bacarığı, qaydalara riayət etmə vərdişi, sosial şəraitə uyğunlaşma qabiliyyəti formalaşır. Məktəbəqədər yaşlı uşaqlarda kollektiv tərkibində dostluq, yoldaşlıq, əməkdaşlıq hisləri yaranır və özunəməxsus formada inkişaf edir. Həmçinin məktəbəqədər təhsil müəssisəsində uşaq kollektivi öz üzvlərinin tərbiyəsində mühüm

rol oynayır. Kollektiv daxilində olan uşaqlar müəyyən davranış qaydalarına əməl etməli, tələb və göstərişlərə uyğun davranmalı olurlar. Nöqsanların, mənfi keyfiyyətlərin aradan qaldırılmasında kollektivin düzgün rəyinin, tənqidinin önəmli rolu var. Sağlam kollektivdə əsl humanist münasibətlər formalaşır və inkişaf edir. Uşaqlarda kollektivin üzvlərinə qarşı etibarlılıq, özünü başqasının yerinə qoya bilmək, onların hiss və həyəcanlarına ortaq ola bilmək keyfiyyətləri formalaşır.

TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PROSESİNİN HƏYATA KEÇİRİLMƏSİ

Məmmədova S.İ.
Naxçıvan Dövlət Universteti
E-mail: Mamedovas778@gmail.com

Müasir dövrdə dövlətlərin inkişaf strategiyasının baza prinsiplərinə nəzər yetirsək yüksək səviyyədə təhsil verilməsinin ön sıralarda olduğunu görə bilərik. Dövlətin iqtisadi, sosial və s. təşəkkülündə təhsil böyük rola malikdir. Müxtəlif təhsil pillələrində (ibtidai, natamam, ali və s.) tədbiq edilən təhsil standartlarının nəticəsi qısa zamanda özünü doğrultmur. Bu proses məchul zaman kəsiyində həyata keçir. Tədbiq edilən təhsil standartının və ya təhsil müəssəsinin müxtəlif istiqamətlərdə monitorinq və qiymətləndirməsi təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Monitorinq və qiymətləndirmə prosesinin ilk tədbiq tarixinə və sahəsinə nəzər yetirsək, görə bilərik ki, XX əsin ikinci yarısında təbiətşünaslığda istifadə edilmişdir. Qısa müddət keçdikdən sonra təbiətşünaslığdakı uğurlu nəticələr bu prosesin təhsil və digər sahələrə tədbiqinə səbəb olmuşdur.

Monitorinq və qiymətləndirmə prosesi 2 yerə ayrılır: Daxili monitorinq və qiymətləndirmə; Xarici monitorinq və qiymətləndirmə.

Daxili monitorinq adından da göründüyü kimi təhsil müəssəsinin daxilində olan rəhbər şəxslər tərəfindən həyata keçirilir. Bu zaman drektor, müavinlər, fənn müəllimləri və s. şəxslər prosesdə iştirak edə bilər. Daxili monitorinq zamanı təhsil müəssəsinin çatışmayan tərəfləri, verilən tapşırıqların səlahiyyətli şəxslər tərəfindən necə icrasına xüsusi diqqət yetirilir.

Daxili monitorinq və qiymətləndirmə zamanı keçirilən dərs metodları ilə yaxından tanışlıq üçün müəssisə rəhbəri və müəllimlər hər hansısa fənn müəlimin dərsini izləyə bilərlər. Burada tədrisin innovativ üsullarla keçirilməsini yoxlamaqla bərabər, müəllimin öz fikrini uşaqlara izahetmə forması, yeni dərsin uşaqlar tərəfindən mənimsənilmə faizini müəyyənləşdirmək başlıca məqsədlərdən hesab olunur.

Xarici monitorinq və qiymətləndirmə zamanı isə adiyyati qurumlar bu prosesi həyata keçirdirlər. Adiyatı qurumlar isə bu işi bir istiqamət üzrə həyata keçirtmirlər. Əsasən monitorinq və qiymətləndirmə aşağıda göstərilən sahələr üzrə həyata keçirilir: Təhsil prosesinin monitorinq və qiymətləndirilməsi; Təhsilalanların monitorinq və qiymətləndirilməsi; Təhsilverənlərin monitorinq və qiymətləndirilməsi;

Hər bir komponent özü də altkomponentə bölünür. Monitorinq və qiymətləndirmə prosesi eyni zamanda altkomponentlərdə də həyata keçirilir.

Təhsil prosesinin qiymətləndirilməsi zamanı aşağıdakı nüanslar monitorinq olunur: Təhsil müəssəsinin sanitar-gigeynik monitorinq qiymətləndirilməsi; Təlimin məzmunun monitorinq və qiymətləndirilməsi; Təlim metodlarının monitorinq və qiymətləndirilməsi.

Təhsilin inkişafında ən vacib məqamlardan biridə təhsilalanların qiymətləndirilməsi və monitorinq prosesinin həyata keçirilməsidir. Bu proses zamanı keçirilən dərsin təhsilalan tərəfindən necə qavranılması, dərs danışan zamanı faktları çatdırma tərzinə xüsusi diqqət edilir.

Qiymətləndirmə və monitorinq prosesində xüsusi nəzər yetirilən məqamlardan biridə təhsilverənlərin monitorinq və qiymətləndirilməsidir. Bu proses zamanı təhsilverənin təhsil fəailiyyəti izlənilir və təhlil edilir. Bu zaman diqqət mərkəzində olan məqamlardan biridə təhsilverənin tədris üsuludur. Bildiyimiz kimi təhsil inkişafında innovativ üsullardan istifadə edərək tədrisin aparılması təhsilin inkişafına xüsusi töhfə verir. Məhz bunun üçün də monitorinq zamanı təhsil proqramına xüsusi nəzarət edilir.

Monitorinq və qiymətləndirilmə prosesində iştirakçıların fəailiyətinin qiymətləndirilməsi zamanı xüsusi metodika müəyyən olunur və bu metodika elmi cəhətdən işlənib hazırlanır . Təyin edilmiş metodika isə monitorinq və qiymətləndirmənin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Təhsilin keyfiyətinin artırılmasında monitorinq və qiymətləndirmə prosesinin rolu böyükdür. Təhsildə keyfiyət dedik də, qarşıya qoyulan məqsədlərə nail olunması başa düşülür. Monitorinq və qiymətləndirmə prosesi təhsil sahəsini izləmək yönündən ən başlıca alətdir.

Monitorinq və qiymətəndirilmə zamanı təhsil müəssəsi barəsində toplanan məlumatlar sistemləşdirilir, nizamlanır. Sistemləşdirilən məlumatlar daha öncə statistik nəticələr ilə müqayisə olunur. Müqayisədən çıxan nəticələr isə təhsil sistemində olan yüksəliş səviyyəsinin göstəricisidir. Monitorinq və Qiymətləndirmə departamenti qiymətləndirmə prosesi həyata keçirdərkən dünya qiymətləndirmə standartlarına istinadən prosesi həyata keçirdir. Təhsil müəsissələrində qiymətləndirilmə aparılarkən qiymətləndirmənin növlərinin (diaqnostik, formativ, summativ) düzgün tətbiq edilməsinə nəzarət edilir. Monitorinq və Qiymətləndirmə departamenti qiymətləndirmə prosesini həyata keçirərkən qiymətləndirmə üsullarının daha da təkmilləşməsində həmçinin akademik dürüstlük siyasətinin reallaşmasında öndə gedən vasitələrdən biridir.

AİLƏ DAXİLİNDƏ BAŞ VERƏN MÜNAQİŞƏ VƏ KONFLİKTLƏRİN ARADAN QALDIRILMASININ TƏHLİLİ XÜSUSİYYƏTLƏRİ

Mənsimova İ.E.
Bakı Slavyan Universiteti
E-mail: İlaha.mva9946@gmail.com

Münaqişə insan həyatının ayrılmaz hissəsidir. İnsanlar harada bir yerdə olmalarına baxmayaraq, o münasibətin bir hissəsi kimi, istər-istəməz həmin münasibətdə münaqişə yaranır. İnsan münasibətlərində qan dövranının orqanizmin sağlamlığını qorumaq funksiyası olduğu kimi, ünsiyyət də insanlar arasında mehribanlığın, yaxınlığın və sağlam yolun ötürülməsində eyni təsirə malikdir.

Sağlam ailə münasibətləri xoşbəxtliyimizə birinci dərəcədə təsir edir. Bu münasibətlərdə ünsiyyət tərzi münasibətin keyfiyyətini və məmnunluq səviyyəsini ciddi şəkildə müəyyən edir. İnsanlar bir-birinin xarakterini aydın başa düşə bilirlərsə, eyni dəyərləri bölüşürlərsə, eyni şeylərə gülürlərsə və eyni şeylər üçün kədərlənirlərsə, bu, ailə münasibətlərinin yaxşı getdiyini göstərir. Ancaq bu o demək deyil ki, ailədaxili münasibətlər heç vaxt münaqişə və konflikt olmadan davam edərsə, ailə daha xoşbəxt olacaqdır. Belə bir şey heç vaxt özünü göstərə bilməz. İnsan münasibətlərində münaqişə həyatın bir hissəsidir. Mübahisə və ya konflikt yoxdursa, bu əlaqələrdə nəyinsə yolunda getmədiyini söyləmək olar.

Ailə daxilində münaqişəli vəziyyətlər həmişə pis nəticələr vermir. Münaqişə vəziyyətinin yaxşı modelləşdirildiyi zaman, hətta ondan faydalanmaq imkanlarının müsbət nəticələrini əldə etmək mümkündür. Belə ki, münaqişə həmişə dəyişiklik gətirir və insanlara öyrənməyə və təkmilləşməyə imkan verir. Münaqişə maraq və təxəyyülü stimullaşdırır, insanları həyatın monotonluğundan azad edir. Münaqişə vəziyyəti bitdikdən sonra bəzən daha da sıx əlaqələrin yaranma imkanı artır.

Ailə münaqişəsi, ailə üzvləri arasında müəyyən bir vəziyyətdə bir-birinə uyğun gəlməyən, ziddiyyətli motivlər və məqsədlər zəminində yaranan fikir ayrılıqlarını ifadə edən anlayışdır. Cəmiyyətdə ümumi öhdəliklər, hisslər, qohumluq əlaqələri ilə əlaqəli insan qruplarının meydana çıxmasından bəri mövcud olmuşdur. Ən böyük sevgi belə bir gün müəyyən mərhələyə gəlir ki, bir-birini sevənlərin birlikdə olması dözülməz hala gəlir.

Gözlənilən konfliktin səbəbini vaxtında görmək və onu mümkün qədər tez düzəltməyə çalışmaq üçün evdəki vəziyyətə böyük diqqət yetirilməlidir.

Ailə daxilində hər hansı bir əsəbdən və digər bu kimi problemlərdən ortaya çıxan prosesdən əvvəl bir qədər fikirləşmək lazımdır. Birgə yaşamaq prosesində həyat yoldaşları arasında müəyyən çətinliklər və qarşıdurmalar yaranır. Ancaq xoşbəxtlik uğrunda mübarizə aparmaq, gündəlik həyatda əziyyət çəkmək, güzəştlər tapmaq, bir-birinə qayğı göstərmək lazımdır. Evdə sevgi və qarşılıqlı anlaşmanın hökm sürməsi və bütün fikir ayrılıqlarının yalnız konstruktiv istiqamətdə həll edilməsi üçün hər bir tərəfdaş cəhd etməli və səy göstərməlidir. Edilməsi vacib olan ilk və ən vacib şey dözməyi öyrənməkdir. Bir tərəfdaşı özü kimi qəbul etmək, çatışmazlıqlara göz yummaq, başqasının bir hissəsi olmaq buna aid faktorlardır. Empatiya göstərməli, insan şəxsiyyətini görməməzlikdən gəlməməli və ya aşağılamamalı, diqqətlə dinləməyə və anlamağa çalışmaq lazımdır. Danışıqlar aparmağı və güzəştə getməyi bacarmaq lazımdır.

Nə qədər çətin olsa da, vəziyyəti yaxşılaşdırmağın həmişə bir yolu olduğunu xatırlamaq vacibdir. Əgər ailə daxilində fərdlər çıxış yolu tapmağa hazır olsalar və bir-birlərini günahlandırmasalar, mütləq uğur qazanacaqlar. Ailə daxilində fəaliyyət aşağıdakı plana əsaslanmalıdır: fikir ayrılığının səbəbini müəyyən etmək; hər bir iştirakçının təqsirinin qiymətləndirilməsi; duyğuları azaltmaq, zehni işə salmaq; kompromis qərar qəbul etmək; münaqişənin qarşısının almaq.

Psixoloqlar ailə və məişət münaqişələrinin qarşısının alınması üçün aşağıdakı yolları müəyyən edirlər: qarşılıqlı hörmət; kompromis, tolerantlıq; fərdlərin səhvlərini bağışlamaq bacarığı; qarşılıqlı ittihamların

olmaması, birbaşa tənqid, bəyənməmək; tərəfdaşların sağlam özünə ironiyası; etibarlı münasibət saxlamaq; müxtəlif baxış nöqtələrinə obyektiv baxış; ümumi mövqe və təcrübəni saxlamaq bacarığı.

XIX ƏSR MAARİFÇİLƏRİNİN PEDAQOJİ FİKİRLƏRİNİN MÜASİR DÖVRDƏKİ PEDAQOJİ MƏSƏLƏLƏRƏ TƏSİRİ

Məsimova N.M.
Bakı Slavyan Universiteti
E-mail: snmesimova97@gmail.com

Maarifçilik -bilik və mədəniyyətin hansısa yollarla ötürülməsi və ya yasılması prosesidir. Maarifçilik bir cərəyan kimi XVIII əsrdə meydana çıxmasına baxmayaraq ,lap qədim zamanlardan maarifçiliyin ilk işıqlarını görə bilərik. Maarifçilik sizilizasiyanın inkişafında mühüm rol oynamış , təhsilin və mədəniyyətin çiçəklənməsinə müstəsna təkan vermişdir.

Hələ orta əsr Azərbaycan tarixinə nəzər salsaq görərik ki, maarifçilik hələ o dövrlərdə öz ilk addımını atıb.Dünya şöhrətli dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin bizə sözün əsl mənasında miras qoyduğu "Xəmsə"yə daxil olan poemaların hamısında maarifçiliyə rast gələ bilərik .

Bu ədəbi cərəyan günü-gündən inkişaf edir, bütün ziyalı şəxsləri öz qoynunda birləşdirirdi .Bütün ədiblər, ziyalılar ve pedaqoqlar üçün ortaq bir nöqtə var olmağa başladı .Bunu da qeyd etmək lazımdır ki maarifçiliyin bir neçə istiqaməti var . Bunlara Mədəni maarifçilil , Psixoloji maarifçilik ,Pedaqoji maarifçilik və Elmi maarifçiliyi misal göstərmək olar . Nəhayət yeni dövr maarifçiliyi XIX əsrdə uğurlu bir şəkildə yenidən dirçəlməyə və inkişaf etməyə başladı.Təhsilin ədəbiyyatın pedaqogikanın və ən əsası maarifçiliyin beşiyi olan Azərbaycan ədəbi-fəlsəfi fikir tarixinin bu çiçəklənən dövründə biganə qalmadı . Azərbaycan ədəbi-fəlsəfi fikir yeni dövrdə maarifçilik hərəkatına yaxından qoşularaq bu ideyaların ən güclü təbliğatçısına çevrildi.

Həmin vaxtlar milli maarifçilik hərəkatının qabaqcılları olan Abasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məmməd Tağı Sidqi, Firudin bəy Köçərli, Həbib bəy Mahmudbəyov, Sultan Məcid Qənizadə, üzeyir Hacıbəyov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir çəmənzəminli, Cəlal Rəfibəyli, Aleksandr Osipoviç çernyayevski, Nəriman Nərimanov və digər dahi şəxsiyyətlərin azərbaycanlı övladların təhsil alması uğrunda gördükləri işlər, çəkdikləri əziyyəətlər əsl fədakarlıq və vətənpərvərlik nümunəsi idi. Həmin dövrdə milli maarifçilik ənənələrinin qorunması və inkişaf etdrilmasə istiqamətində böyük işlər görülmüdür. Günümüz təhsilində dərin iz buraxan işlər görülmüşdür. Qızların məktəbə getməsi, yeni üsul məktəblarin yaranması, hələdə istifadəyə yararlı, dərsliklərin nəşri və pedaqoji əhəmiyyətini qoruyub saxlayan hekayələrin yazılması və dərc olunması elə həmin dövrlərə təsadüf edilir.

Həmin dövr maaridçilərindən olan ziyalımiz S.Ə. Şirvani öz satiralarında cəmiyyəti daha savadlı olması və öz fikirlərinin formalaşması üçün tənqidlər yazırdı . Beləki din adı altında savadsız cahil və bütün xalqı cahillik quyusuna özləri ilə birlikdə aparan mollaları "Müctəhidin təhsildən qayıtması" satirasında açıq-aydın tənqid etmişdi . Həsən Bəy Zərdabi də "Əkinçi" qəzetinin əsasını qoymuş . Xalqının maariflənməsində yaxından iştirak etmişdir . Bu gün gəncliyimiz və qocalarımız oxumağı ,mütaliə etməyi,qəzet almağı sevirsə və bunu təbliğ edirsə XIX əsr maarifçiliyinin və maarifçilərinin bundakı rolu danılmaz və əvəzolunmazdır.

Yuxarıda qeyd olunanlar Azərbaycanda milli oyanışın, milli mədəniyyətin və sağlam gəncliyimizin yaranmasına təkan oldu . Gənclərimizin, şagirdlərimizin təhsilli olmağa çağırışı oldu .

TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ MONİTORİNQ FUNKSİYALARININ TƏDQİQİ

Mikayılova N.S.
Bakı Slavyan Universiteti
E-mail: nigarmikayilova1998@gmail.com

Şagirdlərin bilik və bacarıqların monitorinqi təhsil sistemində nəzarətin bir növü olaraq, bir sıra məqsədləri özündə cəmləyir. Bu məqsədlərə şagirdlərin nailiyyətlərini, uğurlarını aşkar etmək, bilik və bacarıqların təkmilləşdirilməsi, dərinləşdirilməsi yollarını aid etmək olar ki, bu da tələbələrin sonradan fəal yaradıcılıq fəaliyyətinə cəlb edilməsinə şərait yaratmaqdadır.

Bu məqsəd ilk növbədə tədris materialının şagirdlər tərəfindən mənimsənilməsinin keyfiyyətinin - fənn üzrə proqramda nəzərdə tutulmuş bilik, bacarıq və vərdişlərin mənimsənilmə səviyyəsinin müəyyən edilməsi ilə bağlıdır.

İkincisi, monitorinqin əsas məqsədinin dəqiqləşdirilməsi tələbələrə qarşılıqlı nəzarət və özünü idarə etmə üsullarını öyrətmək, özünə nəzarət və qarşılıqlı nəzarət ehtiyacının formalaşdırılması ilə bağlıdır.

Üçüncüsü, bu məqsəd şagirdlərdə görülən işə məsuliyyət, təşəbbüskarlığın təzahürü kimi şəxsiyyət xüsusiyyətlərinin tərbiyəsini nəzərdə tutur.

Monitorinq tələbələrin bilik və bacarıqlarının vəziyyətini, onların zehni inkişaf səviyyəsini müəyyən etməkdən, idrak fəaliyyətinin üsullarını mənimsəmə dərəcəsini, rasional tərbiyə işinin bacarıqlarını öyrənməkdən ibarətdir.

Təhsil sisteminin inkişafının monitorinqi funksiyaları təhsilin səviyyəsindən və profilindən asılı olaraq ümumi mənaya və xüsusi təzahürlərə malik ola bilər. Bununla belə, əsas funksiyalar aşağıdakılardır:

– inteqrativ - təhsil sisteminin inkişafının monitorinqi onun əsas amillərindən biridir, bu sistemdə gedən proseslərin hərtərəfli təsvirini təmin edir;

– diaqnostik - təhsil sisteminin vəziyyətinin və orada baş verən dəyişikliklərin skan edilməsi, bu hadisələri qiymətləndirməyə imkan verir;

– müqayisəli - bütövlükdə təhsil sisteminin və ya onun müxtəlif elementlərinin həm zaman baxımından vəziyyətləri üçün şərait yaradan funksiya - sistemin müxtəlif zaman və məkan dövrlərindəki vəziyyəti - təhsil sistemləri və ya bu sistemlərin elementləri ilə müqayisə etmək imkanı. digər regionlarda və ölkələrdə;

– ekspert - monitorinq çərçivəsində təhsil sisteminin, onun tərkib hissələrinin və altsistemlərinin vəziyyətinin, konsepsiyasının, formalarının, inkişaf üsullarının ekspertizasını aparmaq mümkündür;

– informasiya xarakterli - təhsil sisteminin inkişafının monitorinqi təhsil sisteminin vəziyyəti və inkişafının təhlili və proqnozlaşdırılması üçün zəruri olan (informasiya) bu sistemin vəziyyəti və inkişafı haqqında müqayisəli məlumatların müntəzəm əldə edilməsi üsuludur;

– praqmatik - vəziyyətin tələblərinə, ilk növbədə idarəetmə qərarlarına ən ağlabatan və adekvat qərarlar qəbul edərkən monitorinq məlumatlarından istifadə.

Məsələn, məktəbəqədər təhsil müəssisəsinin təhsil prosesinin inkişafının monitorinqi zamanı aşağıdakı funksiyaları ayırd etmək olar:

– Məlumatlandırıcı. Bu, pedaqoji prosesin səmərəliliyini aşkar etməyə, obyektin vəziyyəti haqqında məlumat əldə etməyə, əks əlaqə yaratmağa imkan verir. Bu əsasda pedaqoji prosesin idarə edilməsində iştirak baş verir, tərbiyə və təhsilin səmərəliliyi təhlil edilir.

– Həvəsləndirici. Pedaqoji prosesin müxtəlif iştirakçılarının - tərbiyəçilərin, rəhbərlərin, metodistlərin, valideynlərin pedaqoji monitorinqində iştirakı onların pedaqoji mədəniyyətinin səviyyəsini, təhsilə marağını artırır, uşaqları daha dərindən öyrənməyə, onların pedaqoji işinə introspeksiya etməyə sövq edir.

– Formalaşdırıcı. Məktəbəqədər təhsil müəssisələrinin işində pedaqoji monitorinqin tətbiqi uşağın "proksimal inkişaf zonası"ndan daha səmərəli istifadə etməyə imkan verəcək.

– Korreksiyaedici. Formalaşdırıcı funksiya ilə sıx bağlıdır. Pedaqoji monitorinqin cari proseslərin xüsusiyyətlərinə yönəldilməsi tədris işinin həyata keçirilməsinin çoxsaylı gözlənilməz nəticələrinin aşkar edilməsini və qeydə alınmasını nəzərdə tutur.

Pedaqoji monitorinqin bütün funksiyaları təhsilin və tərbiyənin keyfiyyətinin yüksəldilməsi, tədris-tərbiyə fəaliyyətinin idarə edilməsinə elmi yanaşmanın təmin edilməsi məqsədinə tabedir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA KƏKƏLƏMƏ NITQ QÜSURU

Musayeva L.E.
Bakı Slavyan Universiteti
E-mail: lyamanmsyva@gmail.com

Kəkələmə- nitq aparatının qıcolması ilə şərtlənən nitqin tempo-ritmik tərəfinin pozulmasıdır. Bildiyimiz kimi, kəkələmə anadangəlmə və sonradan qazanılan olur.

Anadangəlmə kəkələmə 5 yaşa qədər yaranan kəkələmədir. Sonradan qazanılan kəkələmə isə 5 yaşdan sonra yaranan kəkələmədir. Kəkələmə nitq qüsuru 3-5 yaşlı uşaqlarda daha çox özünü göstərir. Bu yaş aralığı

da məktəbəqədər yaş dövrünü əhatə edir. Buna görə də kəkələməni vaxtında aşkarlamaq təkcə valideynlərin deyil, tərbiyəçi-müəllimlərin də üzərinə düşən vəzifələrdəndir.

Bu nitq qüsurunu aşkarladıqdan sonra mütləq şəkildə mütəxəssis yardımı almaq lazımdı. Nevropatoloqun konkret diaqnozu əsasında kəkələmənin dərəcəsi müəyyən olunur. Bunun əsasında da həmin şəxs medikomentoz müalicə ilə yanaşı loqoped və psixoloq dəstəyinə yönləndirilir.

Kəkələmənin növləri: Klonik**,** Tonik**,** Qarışıq.

Klonik növ ən yüngül formadır. Məsələn,uşaq "kitab" sözünü ki ki kitab formasında tələffüz edir.

Tonik növ bir qədər ağır növdür. Bu zaman ilk növbədə mütləq şəkildə klonik kəkələmənin tədricən azaldılması üzərində işlənilməlidir

Qarışıq növ isə ən ağır növdür. Bu zaman klonik və tonik növün əlamətlərinin hər ikisi özünü göstərir.

Kəkələmənin yaranma səbəbləri müxtəlif ola bilər. İlk növbədə genetika nəzərə alınır. Bundan əlavə hamiləlik zamanı ananın və ya müəyyən yaş dövründə uşağın keçirdiyi qorxu, travma kəkələmənin yaranmasına gətirib çıxaran amillərdən biridir.

Məktəbəqədər yaş dövründə olan uşaqların məktəbə hazırlıq üçün qələmdən düzgün tutma qaydası öyrədilir. Bu zaman solaxay uşaqları məcburən sağ ələ öyrədilməsi yanlışdır, çünki irəliləyən zamanlarda uşaqda kəkələmə yarana bilər.

Kəkələməli uşaqlarla korreksiya işi zamanı nöqtəli masajdan istifadə olunmalıdır. Əgər masaj zamanı ağrı varsa, demək ki, düzgün nöqtə tapılmışdır. Bundan əlavə, masaj zamanı zondlardan və şpateldən də istifadə oluna bilər. Həmçinin nəfəs aktının normaya salınması üçün nəfəs məşğələləri edilir.

Qıcolmaya qarşı həkim tərəfindən sakitləşdiricilər və ot dəmləmələri yazıla bilər. Kəkələmə üzərində aparılan korreksiya işi zamanı "üzgüçülük" istisna olmaqla, digər idman növlərindən bir müddət istifadə məsləhət görülmür.

Məktəbəqədər yaşlı uşaqlarda yaranan kəkələmə nitq qüsuru zamanı vaxtında və düzgün korreksiya işi aparılmadıqda, uşaq özünə qapanaraq cəmiyyətdən tədric olunacaq və ikincili qüsur olaraq psixi ləngimənin yaranmasına zəmin rolu oynayacaq.

MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ MÜASİR PEDAQOJİ TEXNOLOGİYALAR

Namazlı Q.İ.
Bakı Slavyan Universiteti
E-mail: namazliqonce@gmail.com

Təhsil sisteminin inkişaf tendensiyası və pedaqoji innovasiyalar sahəsində toplanmış faydalı təcrübələr,pedaqoji-psixoloji tədqiqatların nəticələri təlim-tərbiyə prosesinin məzmununun yeniləşdirilməsini tələb edir.

Hazırda təhsil sistemində texnologiya terminin işlənilməsinə və başa düşülməsinə münasibətlərdə müxtəlif meyillər, yanaşmalar mövcuddur.Pedaqoji texnologiyaları daha yaxşı başa düşmək, onun səmərəli inkişafını və tətbiqini təmin etmək üçün həmin anlayışın mahiyyətini izah etmək lazımdır.

Texnologiya sözü yunan mənşəlidir, "tekhne" (bacarıq), "loqos"(elm) deməkdir. Mahiyyətcə məhsulun hazırlanması bacarığını, istehsal prosesinin yerinə yetirilməsi üçün üsul və vasitələr haqqında biliklər toplusunu ifadə edir. Müasir pedaqoji texnologiyalar-pedaqoji prosesin mahiyyətin tərkib hissəsi olub, təhsilin bütün sahələrində, eləcə də məktəbəqədər təhsilin səmərəli qurulması baxımından mühüm əhəmiyyətə malikdir.

Məktəbəqədər təhsil pilləsində uşaqların təhsil alması, təlim-tərbiyə işinin daha səmərəli qurulması tələb olunur. Bu zaman psixologiya, pedaqogika, sosiologiya və digər elmlərin nailiyyətlərinə, milli mədəniyyətə, adət-ənənələrə, eləcə də müasir dünya təcrübəsinə istinad olunması zəruri hesab edilir.Təhsil sisteminin ilkin pilləsi olan məktəbəqədər təhsil uşaqların fiziki, psixoloji, intelektual inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyət kəsb edir.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi qarşısında duran başlıca məqsəd mütərəqqi dünyagörüşə, mənəvi və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formalaşdırmaq, cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirmək olduğundan, məktəbəqədər təhsilin üzərinə mühüm vəzifələr düşür. Məktəbəqədər təhsildə diaqnostika texnologiyası dedikdə, uşaqların məktəbə hazırlanması və bu məqsədlə məktəbəqədər hazırlıq qruplarında təlim və tərbiyə işinin təşkili məsələləri əsas yer tutur.

YUXARI SİNİF ŞAGİRDLƏRİNDƏ VƏTƏNDAŞLIQ KEYFİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASININ XÜSUSİYYƏTLƏRİ

Nərimanova M.B.
Bakı Slavyan Universiteti
E-mail: meleknarimanova383@gmail.com

Vətəndaşlıq keyfiyyəti ictimai şüurun və əxlaq tərbiyəsinin əsas ünsürlərindən biri kimi psixoloji, fəlsəfi, əsasən də, pedaqoji ədəbiyyatda kifayət qədər geniş şərh olunur. Vətəndaşlıq keyfiyyəti, demək olar ki, bütün ədəbiyyatlarda əxlaq tərbiyəsinə məxsus digər bütün keyfiyyətlərinin sırasında öndə gəlir. Şəxsin insanlara münasibəti və yaşadığı cəmiyyətə inteqrasiyası da məhz bu keyfiyyətin düzgün aşılanması nəticəsində mümkün olur.Vətəndaşlıq tərbiyəsindən danışarkən onu mühitdən, ictimai həyatdan və onların şəxsiyyətə mövcud təsirindən ayrı götürmək olmaz. İctimai mühitlə, cəmiyyətlə əlaqə yuxarı sinif şagirdlərinin dünyagörüşünə mühüm təsir göstərir, onların tam formalaşması üçün əsas rol oynayır. Bu amilə diqqət yetirilməsi onlarda vətandaşlıq keyfiyyətinin mükəmməl təzahürünə gətirib çıxara bilər.

Şagirdlərə vətandaşlıq hissinin aşılanması onların cəmiyyətə yararlı, öz münasibətlərini düzgün və şüurlu şəkildə idarə edə bilən şəxsiyyət kimi formalaşmasına kömək edir. Bu işin düzgün istiqamətlənməsi onlarda vətəndaşlıq məsuliyyəti hissinin təməlini qoymağa kömək edir. Pedaqoji və psixoloji ədəbiyyatlarda vətəndaşlıq keyfiyyətlərinə aşağıdakılar aid edilir: vətənpərvərlik; ictimai mənafeyin şəxsi mənafedən daha üstün olması; beynəlmiləlçilik; ictimai borcun dərk edilməsi; milli ruhda tərbiyə və s.Bu xüsusiyyətlər bir sıra amillərdən asılıdır. Müəllimin, o cümlədən, bütün tərbiyəçilərin şəxsi nümunəsi bu amillərdən biridir. Məlumdur ki, həm praktikada, həm də nəzəriyyədə vizuallıqdan geniş istifadə olunur ki, bu da şəxsin nümunəsində özünü daha aydın biruzə verir. Bu baxımdan həmin amilin dəqiq şəkildə istiqamətləndirilməsi tədris prosesində istənilən nəticəni əldə etməyə kömək edəcəkdir.Müəllim şəxsiyyəti və onun pedaqoji ustalığı da vacib amildir. Vətəndaşlıq keyfiyyətlərinin şagirdlərdə formalaşdırılması, bu keyfiyyətlərin xüsusiyyətlərini araşdırmaq və şagirdlərə aşılamaq müəllimin başlıca vəzifəsidir. Bütün amilləri həyata keçirən və idarə edən də məhz müəllimdir. Deməli, bu prosesdə müəllim rolu danılmazdır. Müəllim burada şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə almalı, uyğun metodlardan istifadə etməli, şagirdlərlə ünsiyyəti səmərəli təşkil etməli və yüksək vətəndaşlıq keyfiyyətlərinə malik olmalıdır. Bütün bu keyfiyyətlərə malik olan müəllim yuxarı sinif şagirdlərində vətənpərvərlik hissinin daha da gücləndirilməsinə nail olacaqdır.Yuxarı sinif şagirdlərində vətəndaşlıq hissinin gücləndirilməsində bir sıra metod və priyomlardan istifadə olunur: diskussiyalar, müzakirələr, bədii əsərlərdən istifadə vətəndaşlıq keyfiyyətlərinin aşılanmasında əsas metodlardan sayılır

Göründüyü kimi, vətəndaşlıq keyfiyyətləri hərtərəfli şəxsiyyətin formalaşdırılması yolunda mühüm amil kimi özünü göstərir və bu keyfiyyətlərin yuxarı sinif şagirdlərində formalaşdırılması vacibdir.Əsl vətəndaşların yetişdirilməsi heç vaxt bugünkü kimi aktual olmayıb, çünki Azərbaycan ikinci Qarabağ müharibəsində şanlı qələbə qazanmışdır. Azərbaycan daima qalib xalq olaraq qalacaq. Bunun üçün də əsl vətənpərvər vətəndaşların yetişdirilməsi bugün ən ümdə məsələlərdəndir.

YUXARI SİNİF ŞAGİRDLƏRİNDƏ VƏTƏNDAŞLIQ-HÜQUQİ MƏSULİYYƏTİN FORMALAŞDIRILMASINDA KÖNÜLLÜLÜK FƏALİYYƏTİNİN ƏHƏMİYYƏTİ

Nərimanova M.B.
Bakı Slavyan Universiteti
E-mail: meleknarimanova383@gmail.com

Müasir dövrümüzdə müvafiq dövlət sənədlərində əsas diqqətin uşaqların əxlaq keyfiyyətlərinin formalaşdırılması və inkişaf etdirilməsinə yönəldilməsi təhsil və tərbiyə müəssisələrinin başlıca vəzifəsi kimi göstərilir. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanununda da bu məsələyə diqqət göstərilmiş, hərtərəfli bilik və mədəniyyətə, geniş dünyagörüşünə malik olan, vətənini sevən və onun dəyərlərinə, ənənələrinə hörmətlə yanaşan, yüksək əxlaq və mənəvi keyfiyyətləri özündə birləşdirən hərtərəfli vətəndaş yetişdirmək təhsil işçilərinin əsas vəzifəsi kimi qeyd olunmuşdur. Çünki hər bir dövlətin, millətin gələcəyi onun təhsilindən və maarifindən asılıdır

Yuxarı sinif şagirdlərində gələcək həyatı haqqında fikirlər əsas yer tutur və onlarda müəyyən peşələrə maraq yaranır. Bu zaman şagirdləri düzgün seçimə yönləndirmək, onlarda məsuliyyət hissinin

formalaşdırılması, ictimai aktivliyin yüksəldilməsi, biganəliyin aradan qaldırılması onların cəmiyyətə yararlı bir şəxsiyyət, bir vətəndaş kimi yetişməsinə təkan verir. Bu məsələ vacib olduğu qədər, həm də çətin və mürəkkəbdir. Bunun üçün şagirdlərlə aparılan işin düzgün istiqamətlənməsinə xüsusilə diqqət yetirmək lazım gəlir. Yuxarı sinif şagirdlərində vətəndaşlıq-hüquqi məsuliyyətin formalaşdırılmasının müxtəlif yolları mövcuddur: müəllimin müvafiq mövzuda təlqinedici priyomlardan istifadə etməklə şagirdlərlə söhbət aparması; bədii əsərlərdən istifadə; müəyyən müzakirə və diskussiyalarda şagirdlərin iştirakı; şagirdlərin müxtəlif bilik yarışlarında, konfranslarda, olimpiadalarda və dövlət səviyyəli tədbir və layihələrdə iştirakı; dərsdənkənar və məktəbdənkənar işlərdə şagirdlərin fəaliyyəti; şagirdlər səyi ilə müxtəlif tədbirlərin keçirilməsi; şagirdlərin könüllülük fəaliyyətinin təşkili və s.

Vətəndaşlıq tərbiyəsi əxlaq tərbiyəsinin bir komponentidir. Gələcək nəslin əxlaqi tərbiyəsi haqqında bir çox pedaqoqlar müəyyən fikirlər irəli sürmüşlər. Görkəmli pedaqoq Nurəddin Kazımov əxlaq tərbiyəsini cəmiyyətdə əksəriyyət tərəfindən qəbul edilən davranış qaydaları kimi qiymətləndirmişdir

Müstəqil Azərbaycan Respublikasında Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə gənclər siyasətinin təməli qoyulmuş, onların ictimai həyatda rolunu yüksəltmək üçün mühüm addımlar atılmışdır. 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürülmüş, eyni zamanda, "Yeni Azərbaycan Partiyası Gənclər Birliyi" yaradılmışdır. 2009-cu ildə isə gənclər siyasətinin məntiqi davamı kimi könüllülər hərəkatı yaradıldı. Həmin ildə də "Könüllülük fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanunda şagirdlərin də könüllülük fəaliyyəti ilə məşğul olması barədə müvafiq bənd mövcuddur.

Yuxarı sinif şagirdlərində könüllülük fəaliyyətinin təşkili müxtəlif sahələrdə ola bilər: əlillərə, yaşlılara kömək, ətraf mühitin və milli-mənəvi dəyərlərin qorunması, tolerantlığın və sülh mədəniyyətinin təbliği və s. Ümumiyyətlə, könüllülük fəaliyyətinin əsas qayəsi aktiv, fəal vətəndaşın formalaşdırılmasıdır. Bunu şagirdlərə aşılamaq və onlarda bu fəaliyyətin təşkili ilə vətəndaşlıq-hüquqi məsuliyyətin formalaşdırılması təhsil müəssisələrinin üzərinə düşən əsas vəzifələrdəndir.

Yuxarı sinif şagirdlərinə vətəndaşlıq keyfiyyətlərinin aşılanması, bu sahədə əsaslı tədbirlərin görülməsi şagirdlərin hərtərəfli şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Buna görə də yuxarı sinif şagirdlərində vətəndaşlıq-hüquqi məsuliyyətin formalaşdırılması, əsl vətənpərvər vətəndaşların yetişdirilməsi daim diqqət mərkəzində saxlanılmalı olan məsələlərdəndir.

PEDOQOJİ PROSESDƏ ELMİ-TEXNİKİ TƏRƏQQİNİN ƏHƏMİYYƏTİ

Quliyeva Ə.F.
Bakı Slavyan Universiteti
E-mail: ezize.quliyeva@list.ru

Elmi-texniki tərəqqi elmin, texnikanın, texnologiyanın davamlı inkişafı, iş obyektlərinin, istehsalın təşkili forma və üsullarının təkmilləşdirilməsi prosesidir. Hazırda insan imkanları və istəklərinin böyük potensialı mövcuddur. Elmi-texniki tərəqqinin əsasını elmi biliklər - təbiət və cəmiyyətin qanunlarını dərk etməyə yönəlmiş, yenilərin yaradılmasının və mövcud texnologiyanın təkmilləşdirilməsinin əsasını təşkil edən fundamental və tətbiqi tədqiqatlar, inkişaflar təşkil edir. Elmi-texniki tərəqqi istehsalın intensivləşdirilməsinin əsasıdır. O, iqtisadi inkişafın bütün amillərinə həlledici təsir göstərir, əmək ehtiyatlarından daha səmərəli istifadə etməyə və yüksək keyfiyyətli məhsul əldə etməyə imkan verir. Müasir dünyada təhsil sistemi eksperimental xarakter daşıyır, çünki dərslərin keçirilməsi formaları, materialın təqdim edilməsi üsulları dəyişir, tapşırıqlar mürəkkəbləşir və təkmilləşir. Elmi-texniki tərəqqinin bilavasitə nəticəsi ölkənin inkişafına müsbət təsir göstərə bilən yeni texnologiyalardır. Bunlar elmi biliklərin həyata keçirildiyi mühəndislik və texnologiyada dəyişikliklərdir. Bu gün cəmiyyətin inkişafındakı yeniliklər davamlı öyrənmə və araşdırma tələb edir, eyni zamanda təhsil sahəsində də aktual mövzulardan biridir.

XX əsrdə elm və texnikanın qarşılıqlı asılı inkişafı prosesi yeni sosial qanunauyğunluğun - elmi-texniki tərəqqinin yaranmasına səbəb oldu. Elmi-texniki tərəqqi xalq təsərrüfatının texniki cəhətdən yenidən silahlanmasına, müxtəlif sahələrdə istifadə olunan texnika və texnologiyaların sürətli dövriyyəsinə səbəb olmuşdur. Elmi-texniki tərəqqi elm və texnikanın, istehsalın və istehlakın qarşılıqlı asılı, mütərəqqi inkişafıdır. Bununla belə, elm və texnika sahəsində tərəqqinin sürətlə artması bir sıra mürəkkəb problemləri aktuallaşdırır. Beləliklə, təhsil baxımından qlobal problemlər sırasında biz bunları ayırd edə bilərik: kompüter insanların psixikasına və sağlamlığına zərərli təsir göstərir, kompüter texnologiyasının gələcək inkişafı cəmiyyətdəki sosial münasibətləri kökündən dəyişdirə bilər. İctimai tənzimləmə olmadan,

informasiyalaşdırma insanların, bir qayda olaraq, dolayı yolla - kompüter vasitəsilə ünsiyyət qurmağa başlamasına səbəb ola bilər. İnternetdə nəzarətin tam olmaması və hərəkətlərin anonimliyi özü ilə bir çox mənfi hadisələri gətirir. Elm və texnikanın tərəqqisi mərhələsində, ən son texnologiyaların tətbiqi kontekstində həyatın mənəvi sahəsinə ikinci dərəcəli rol verilir, mənəvi dəyərlər itirilir ki, bu da əksər dövlətlərin cəmiyyətlərində mənəviyyata ciddi təsir göstərir. Texnoloji yeniliklər cəmiyyətin sosial strukturuna təsir göstərir.

Hazırda insanların həyatında informasiya texnologiyalarının rolu xeyli artmışdır. Müasir cəmiyyət informasiyalaşdırma adlanan ümumi tarixi prosesə cəlb olunub. Bu proses hər bir vətəndaşın informasiya mənbələrinə əlçatanlığını, informasiya texnologiyalarının elmi, istehsalat, ictimai sferaya nüfuz etməsini, informasiya xidmətinin yüksək səviyyədə olmasını əhatə edir. Cəmiyyətin informasiyalaşdırılması ilə bağlı baş verən proseslər təkcə elmi-texniki tərəqqinin sürətləndirilməsinə, insan fəaliyyətinin bütün növlərinin intellektuallaşdırılmasına deyil, həm də cəmiyyətin keyfiyyətcə yeni informasiya mühitinin yaradılmasına kömək edir ki, bu da inkişafı təmin edir. Müasir dövrün səciyyəvi cəhəti istehsalda elm və texnikanın ən son nailiyyətlərinin bilavasitə istifadəsinə əsaslanan prinsipial olaraq yeni vasitələrin və texnologiyaların meydana çıxmasıdır. Müasir istehsalın əsaslarında elmi-texniki tərəqqinin gedişində baş verən dəyişikliklər, yeni maşın və texnologiyaların tətbiqi əqli əməyin payının artmasına, işçinin əməkdə yaradıcı funksiyasına, onun peşəkar hərəkətliliyinə və təbii olaraq, şagirdlərin məktəbdə mənimsəməli olduqları bilik və bacarıqlar sisteminin transformasiyasına səbəb olur.

VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN TƏŞKİLİNİN PEDAQOJİ ƏSASLARI

Quliyeva S.Ə.
Sumqayıt Dövlət Universiteti

Vətənpərvərlik ideyasının formalaşması mənbələrinin, inkişaf amil və tendensiyalarının üzə çıxarılması, bu əsaslarla müvafiq pedaqoji fəaliyyət üçün konstruktiv şəraitin yaradılması vətənpərvərliyin möhkəmləməsinin və inkişafının, xalqımızın birliyinin potensial mənbəyi ola bilər. Bu gün orta məktəb şagirdlərinin vətənpərvərlik tərbiyəsinin ümumiləşdirilməsinə və qorunub saxlamasına, gənclər arasında vətənpərvərliyin formlaşmasını təmin edəcək pedaqoji metodika və texnologiyaların yaradılmasına ehtiyac olduqca böyükdür.

Vətənpərvərlik tərbiyəsi sferasında praktiki fəaliyyətin həyata keçirilməsi zamanı rəhbər tutulacaq əsas prinsiplər qismində elmilik, humanizm, demokratizm, sistemlilik, ölkə tarixinin və mədəni irsinin, mənəvi dəyər və ənənələrinin prioritetliyi, sistematiklik, varislik və fasiləsizlik, tərbiyənin səmərələyinin təmin olunması məqsədilə istifadə olunan forma, metod və vasitələrin rəngarəngliyi, tərbiyənin bütün növlərinin sıx bağlılığı göstərilə bilər. Bu fikirlərə əsaslanaraq Azərbaycan gənclərinin vətənpərvərlik tərbiyəsinin prinsiplərinə aşağıdakıları aid etmək olar:

1. Tarixi. Azərbaycan gənci Vətənin tarixini,ölkəmizin müstəqilliyi uğrunda mübarizə aparan qəhrəmanlarını öyrənilməlidir.
2. Siyasi-hüquqi. Konstitusiya və hərbi borcun, Silahlı Qüvvələrinin yeri və rolunun dərindən dərkinin təmin olunması.
3. Vətənpərvərlik. Gənclərdə mənəvi-əxlaqi və mədəni-tarixi dəyərlərin, milli özünüdərkin, milli həyat tərzinin, dünyagörüşünün tərbiyələndirilməsi.
4. Peşə fəaliyyəti. Vətənə xidmətlə bağlı olan əməyə məsuliyyətli və vicdanla yanaşmanı fəal nümayiş etdirilməsinə can atmanın formalaşdırılması.
5. Psixoloji. Gənclərdə hərbi və dövlət xidmətinin çətinliklərini yerinə yetirmək bacarığını formalaşdırılması üçün psixoloji keyfiyyətlərin formalaşdırılması

Göstərilən istiqamətlər bir-biri ilə üzvi əlqədədir.

ESTETİK TƏRBİYƏ PROBLEMİNİN TƏDQİQ OLUNMASI

Qurbanova K.E.
Naxçıvan Dövlət Universiteti

Mühüm proqram sənədlərində deyilir ki, «Estetik maarif həddən artıq bərbad vəziyyətdə qalmaqdadır. Birinci növbədə də bu səbəbdən indi xalq zəminindən mərhum, ideyasız və estetik cəhətdən sönük olan

«kütləvi mədəniyyətə» hədsiz meyl yaranmışdır… Narahat edən cəhət budur ki, klassik irs, əsl incəsənətin, xalq incəsənətinin bütöv qatları arxa plana çəkilir». Sonra qeyd olunur ki, hər yerdə xalq incəsənəti, xalq musiqisi yaradıcılığı ənənələri qorunub inkişaf etdirilməli və gənclər - məktəblilər arasında geniş surətdə təbliğ olunmalıdır.

Hələ keçmiş İttifaq dövründə «Ümumtəhsil məktəbinin işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» 1966-cı il 10 noyabr tarixli qərarda şagirdlərin estetik tərbiyəsinə böyük əhəmiyyət verərək, tərbiyə işinin bu mühüm sahəsi ilə ciddi məşğul olmağı, bu məsələ ilə əlaqədar olaraq kinofilmlər buraxmağı, yeni tamaşalar hazırlamağı, uşaqlar üçün kino-seansların sayını artırmağı, ən yaxşı bədii əsərlərin foto müntəxəbatlarını və reproduksiyalarını buraxmağı və sairə mühüm tədbirləri keçirməyi müvafiq təşkilatların qarşısında təxirəsalınmaz bir vəzifə kimi qoymuşdur. Elə buna görə də Azərbaycanda estetik tərbiyə həqiqətən ümumxalq işinə çevrilmişdir. İctimai və dövlət təşkilatlarının fəaliyyətində, pedaqoji proses təcrübəsində estetik tərbiyənin yeni üsul və vasitələri, formaları meydana çıxarılır, şəxsiyyətin bütün mənəvi aləminə estetik vasitələrlə fəal təsir etmək üçün yeni yollar tapılır.

Mövzunun xalq zəminində, xalq incəsənəti əsasında öyrənilməsi şagirdləri belə bir doğru qənaətə gətirir ki, hələ ibtidai-icma cəmiyyətində də insanlar ətraf aləmin gözəlliyindən zövq almışlar və həmin gözəlliyi özlərinin məişətində, əməli fəaliyyətində, zəhmət prosesində yaratdıqları məhsullarda təcəssüm etdirməyə çalışmışlar. Bunu demokratik respublikamızın ərazisində aparılan arxeoloji qazıntılar zamanı tapılan və ta qədim dövrlərə istinad olunan naxışlı qablar, bəzək şeyləri, əmək alətləri və sair əşyalar aydın surətdə göstərir. Söz yox ki, ibtidai insanların özlərinə məxsus musiqisi də, çalğı alətləri də, mahnıları da, rəqsləri də olmuşdur. Onlar da sığınacaq yerlərini, komalarını qiymətli, zərif, incə və xoşa gələn şeylərlə bəzəmişlər, ətrafa xoş ətir yayan rəngarəng çiçəklərə, təbiətdəki valehedici səslərə, füsunkar varlıqlara biganə qalmamışlar… Qısasını desək, gözəllik ən qədim insanları da cəlb etmiş, onlarda da estetik hisslər oyatmışdır; həmin insanlar gözəlliyi özlərinin bilikləri, görüş dairəsi, istedad və idrak qabiliyyətləri səviyyəsində qavrayıb qiymətləndirmiş və imkanlarına müvafiq tərzdə məişətə, əmək prosesinə, yaradıcılıq fəaliyyətinin məhsullarına daxil etmişlər.

Zaman keçdikcə insanların ümumi səviyyəsi ilə birlikdə estetik zövqü, anlayış və tələbləri, bədii vərdiş, bacarıq və qabiliyyətləri də dəyişmiş, inkişaf etmiş və təkmilləşmişdir. İnsan tərəqqi etdikcə gözəlliyə daha dərindən məftun olmuş,həyatını daha yaxşı qurmağa çalışmış, yaratdığı sənət nümunələrinin daha gözəl və nəfis olmasına səy göstərmişdir. Müxtəlif sahələrdə bunu təsdiq edən çoxlu faktlar götirmək olar. Məsələn, Laçın rayonunda tapılmış və eramızın birinci əsrinə aid edilən insan sifətinə oxşar bürünc çıraq, Göyçay yaxınlığında tapılmış və üzərində müxtəlif döyüş səhnələri təsvir olunan gümüş qab, kiçik heyvan fiqurlarından düzəldilmiş tunc lüleyn, üstü nəbati naxışlarla bəzədilmiş nəhəng qazan, Mingəçevirdə, Gəncədə, Naxçıvanda, Bakıda qazıntılar zamanı tapılmış dulusçuluq sənəti nümunələri (kuzələr, güldanlar, küplər, sərniclər və s.), ölkəmizin muzeylərində nümayiş etdirilən əlvan çeşidli Şamaxı, Quba, Qazax və Qarabağ xalçaları, şəbəkə, döymə və ya doldurma üsulu ilə hazırlanmış dekorativ zərgərlik şeyləri (sırğa, qolbağ, cütqabağı, boğazaltı, kişi və qadın kəmərləri və i. a.), həmçinin milli memarlıq abidələri, qələmkarlıq, xəttatlıq, daş yonma, ağac işləmə kimi sənətkarlıq sahələri, qala qurğuları, daşda və kaşıda açılan naxışlar, bədii tikmə nümunələri və sair bütün bunlar hamısı zəhmət adamlarının estetik mədəniyyətindən, yüksək bədii zövqündən, gərgin yaradıcılıq axtarışlarından və incəsənətindən xəbər verir. Müxtəlif əsrlərdə yaranan bu maddi-mədəniyyət nümunələri, xüsusilə Bakıdakı Qız qalası (XII əsr), Naxçıvan və Bərdədəki türbələr (XII-XIII əsrlər), Mərdəkan qəsəbəsindəki qala, qəsr və qüllələr (XIV əsr), Bakıda Şirvanşahlar sarayı kompleksi (XIII-XV əsrlər), Suraxanıdakı «Atəşgah» məbədi (XVII əsr), Şəkidə və Naxçıvandakı xan sarayı (XVIII əsr), respublikamızın müxtəlif yerlərindəki (məsələn, Naxçıvan, Gəncə, Şamaxı, Bərdə və s. şəhərlərdəki) tağlı körpülər, gümbəzli hamamlar, gözəl ornamentli saraylar və yaşayış evləri, yaraşıqlı məscidlər, həndəsi bəzəklərlə zəngin minarələr, karvansaraylar və digər növ qurğular, eləcə də ölkəmizin tarix və incəsənət muzeylərində qorunub vaxtaşırı nümayiş etdirilən kolleksiya və ekspozisiyalar öz gözəllikləri və estetik mədəniyyətləri etibarı ilə indi də adamın hissinə hakim kəsilir və onları yaradan sənətkarların çox böyük estetik istetada, incə zövqə malik olduqlarını göstərir. Burdan bir haşiyə çıxsaq yerinə düşər. Yuxarıda xalılardan bəhs etdik. Belə ki, Almaniyanın Frankfurt və Köln şəhərlərində 1968-ci ildə «Qafqaz xalqlarpı» adlı iki kitab nəşr edilmişdir. Alman dilində olan həmin kitablardakı şəkillərin 93 faizini Azərbaycan xalıları təşkil edir.

Bütün bu maddi-mədəniyyət nümunələri, eləcə də uzaq keçmişdə yaranıb təkmilləşə-təkmilləşə gölib dövrümüzə qədər çıxan saysız-hesabsız aşıq qoşmaları, muğamlar, rəng və təsniflər, mahnılar, bayatılar, şənlik və toy ənənələri, rəqs melodiyaları, musiqi alətləri və i. a. aydın surətdə göstərir ki, başqa xalqlar kimi estetik irs yaratmış, gözəllik haqqında geniş təsəvvürə malik olmuşdur.

Şərqşünas alim Nikolay Tixinov poeziyamızdan danışarkən azəri xalqını «şair xalq» adlandırır… o, bizim musiqimizdən danışmalı olsaydı, heç tərəddüd etmədən xalqımızı «nəğməkar xalq» adlandırardı. Çünki əsil poeziyanın özü elə ən gözəl musiqidir. Xalqımız şair və nəğməkar olduğuna görədir ki, yüksək təhsilli və diplomlu sənətkarlarımız da onsuz keçinə bilmirlər. Əksinə, bu sənətkarlar ilahı, gücü xalqdan alır, yeni mahnı yaradarkən və ya bəstələyərkən onu xalqın istək və arzularına uyğunlaşdırmağa çalışırlar. Bu mənada Qlinkanın: «mahnını xalq yaradır, biz bəstəkarlar isə onu yalnız bəstələyiriz» - sözlərində böyük bir həqiqət vardır.

Beləliklə, estetik tərbiyə işində xalq musiqisi ilə professional sənətkarlarımızın zəngin, qiymətli irsi bir-birini tamamlayır, doğma ana-bala kimi birləşib eyni qayəyə, eyni məqsədə - adamlarımızı nəcib hisslər ruhunda yetişdirmək amalına xidmət edirlər.

Musiqidə böyük hikmət, böyük ecaz var. O «zehnə qida verir, əqli cövhərləndirir, şadlıq və fərəh doğurur» (M.F.Axundzadə), «Musiqi və avaz dinləmək elm, ədəb kəsb etməkdir» (S.Ə.Şirvani), «musiqi hisslərin stenoqrafiyasıdır» (L.N.Tolstoy), «anamız bizi musiqi üstə qundaqlayır» (B.Vahabzadə); biz xalq musiqisində öz qəlbimizin səsini eşidirik, «dərdimizə çarə tapırıq», xalq musiqisi gözəl xatirələri bizim təsəvvürümüzdə canlandırır, könlümüzə nəşə, ruhumuza qida, xəyalımıza qanad verir, bizə ata-analarımızın, elimizin, xalqımızın arzu və xəyallarından, sevinc və qəmlərindən, istək və niskillərindən xəbər verir, «lal könülləri dilə, qəlbi eşqə, həvəsə gətirir».

YENİYETMƏLƏRİN MÜƏLLİMLƏRLƏ YAŞADIĞI SOSİAL PROBLEMLƏR

Səfərli Z.A.
Bakı Slavyan Universiteti
E-mail: zeynebs783@gmail.com

Məktəb təhsil sisteminin bir hissəsidir. Digər tərəfdən, təhsil sistemi, cəmiyyətdəki təhsil təcrübələrinin məktəb vasitəsilə tərtib edildiyi və tətbiq olunduğu vahid struktura aiddir. Bu səbəbdən onun keyfiyyət və xüsusiyyətləri məktəb mühitində ifadə edilən bütün elementlərə (idarəçi, müəllim, şagird, fiziki şərait və imkanlar) təsir edir.Məktəb gənclərin inkişaf etməsinə və cəmiyyətə uyğunlaşmasına kömək edə bilsə də, bəzi səbəblərdən gənclərin inkişafına mənfi təsir göstərərək, onların uyğun olmayan davranışlar göstərməsinə səbəb ola bilər. Yörükoğlunun sözlərinə görə, müəllimin tolerant və ya avtoritar olması, iqtisadi vəziyyətin qeyri-kafi olması, siniflərin sıxlığı, fərqli intellekt və yetkinlik səviyyələrinə malik şagirdlərin eyni sinifdə olması, şagirdlərin ailə mənşəyi və sosial-iqtisadi səviyyələri, məktəbin yerləşməsi və məktəb rəhbərliyinin şagirdlərə münasibəti məktəbə və buna görə də təhsilə mənfi təsir göstərir. Müəllimin şəxsiyyətindən irəli gələn mənfi münasibət və davranışların, müəllimin sosial-iqtisadi səviyyəsinin qeyri-adekvat olmasının məktəbdəki fiziki şəraitin qeyri-adekvat olmasına şagirdlərin məktəbdən uzaqlaşmalarına, məktəbdən qaçmasına , məktəb mallarına və ya dostlarına və müəllimlərinə qarşı davranış pozğunluğuna səbəb ola bilər. Müəllimlər məktəb mühitində olarkən ən çox rastlaşdıqları yetkinlik problemləri arasında; səhv davranış, yanlış ünsiyyət, həmyaşıdları ilə zorakılıq, dərslərə marağın azalması, qəbul olunmaqdan narahat olmaq, müəllimin səlahiyyətlərini qəbul etməmək və hörmətsizlik və s. Müəllimlərin şagirdləri ilə qarşılaşdıqları problemli situasiyaların həllində; şagirdlər ilə müsahibə almaq, nüfuzlu davranmaq, məsləhətlər vermək, tədris sahəsini təşkil etmək, məktəbdəki, məktəbdəki digər idarəetmə həmkarları və valideynlərlə əməkdaşlıq və s. kimi həll strategiyalarından istifadə etdikləri müəyyən edilmişdir. Müəllimləriniz yeniyetməlik dövründə tələbələrlə yaşadıqları problemlər onları fiziki və əqli cəhətdən köhnəldir. Onlar daimi stress vəziyyəti yaşayırlar ki, bu da özlərində qeyri-adekvatlıq hissi yaradır. Ümumilikdə problemlərin həllində məktəb rəhbərlərinin və müəllimlərin valideyn ilə əməkdaşlığı mütləqdir. Lakin valideynlər əsasən övladlarının problemlərinə laqeyd yanaşır və məktəblə əməkdaşlıq etmirlər buda ciddi problemlər yaradır. Müşahidələr göstərir ki, bir çox hallarda konfliktlərin yaranmasına səbəb müəllimlərin şagirdin yaş xüsusiyyətləri haqqında məlumatsızlığı və bu baxımdan yanaşmanın düzgün olmamasıdır. Onların şagirdin olduğu yaş aralığında, hansı keyfiyyət və vərdişlərin olması haqqında məlumatı yoxdur. Nəticədə, müəllim şagirdlə, valideyn uşaqla aralarında yaşanan konfliktləri nəinki aradan qaldırmaq iqtidarında olur, əksinə, belə hallar kütləviləşir, məktəbin və ailənin divarlarını aşaraq cəmiyyət arasında da böyük rezonansa səbəb olur.. Şagirdlər müəllimlərini dəstəkləyici kimi qəbul etdikdə onların məktəbə bağlılığı da artır. Bu səbəbdən həm müəllimlərin dəstəyinin (məktəb daxilində sosiallaşma və onların məktəbə bağlılığı), həm də valideynlərin dəstəyinin akademik və sosial performans baxımından əhəmiyyətli olduğu düşünülür. Xüsusilə, müəllimləri tərəfindən dəstəklənən şagirdlər özlərini məktəbə daha

çox aid edirlər və sosial bacarıqlardan biri olan problemlərin həllinə müəllimlərin, tələbələrin və dostların dəstəyinin də müsbət təsir edə biləcəyi düşünülə bilər.

UŞAQLARIN SOSİALLAŞMASINDA AİLƏNİN ROLU

Şirinli R.B.
Sumqayıt Dövlət Universiteti
E- mayl: ramileeliyeva65@gmail.com

Deyə bilərik ki, ailə cəmiyyətin təməli, sosial-mənəvi həyatımızn kiçik bir modelidir. Ulu Öndər Heydər Əliyev ailə tərbiyəsinə, ailənin müqəddəsliyi haqqında deyirdi ki*, ailə tərbiyəsi öz təbiətinə görə nadir və xüsusi bir halıdr. Bu tərbiyə ata- ananın övlada məhəbbəti və uşaqların da ata- anaya belə hisslər bəsləməsidir... Ailə xüsusi, mürəkkəb insani münasibətlıər üzərində qurulur*.. Göründüyü kimi ailə xüsusi quruluşa və məzmuna malik olaraq tərbiyə işində və uşaqların sosiallaşmasında həyata hazırlanmasında mühüm rol olynayır. Buradan o qənaətə gəlmək olur ki, ailə cəmiyyətin özəyi və təməlidir. Ailənin möhkəm olması, cəmiyyətin möhkəm olmasına səbəb olacaqdır. Ailə - deyə bilərik ki, bütün inkişafın, bütün sivilizasiyanın beşiyi olmuşdur. Uğurlu ailə uğurlu iş, uğulu təhsil, uğurlu sosial ünsiyyət və münasibətlərdir.

Ailə iki tərəfin - ər və arvadın bir birinə inamı, etibarı, məhəbbəti, hörməti üzərində qurulur.

Prof. Rüfət Hüseynzadə ali məktəb tələbələri üçün nəzərdə tutulmuş "Ailə pedaqogikası" dərsliyində yazır ki, "*ailə" sözünün mahiyyəti və mənası ərəbcə "Avl" kökündən əmələ gəlmiş "Etibar", "İnam", "Dayanmaq", Söykənmək" mənalarını verir* .

Ailə sosial- psixoloji, pedaqoji qrup kimi insan nəslinin artmasında, nəslin mühafizəsi, qorunması və insanaların ehtiyacının təmin edilməsində mühüm ilkin sosial institutdur. İnsanın ən əziz yeri, məkanı onun ailəsidir. İlkin olaraq insan ailədə özünü təsdiq edir, mənlik, şərəf, ləyaqət hisslərini, özünə hörmət və məhəbbəti hiss edir, duyur və yaşayır. Ailə elə sosial, pedaqoji institutdur ki, insan burada ilkin mənəvi-əxlaqi keyfiyyətlərə yiyələnir, burada o maddi və mənəvi nemətlərə sahib olmaq üçün ilkin hazırlıq keçir.

Ailədə sosial – iqtisadi, mədəni, dini amillər, valideynlərin özlərinin sosial həyatda mövqeyi, ailə üzvlərinin bir – birilə düzgün münsibətləri, ailə həyatının sağlam, düzgün, mənəvi əsaslar üzərində qurulması ailə tərbiyəsinin təməllərindən hesab olunur və uşaqların sosiallaşması üçün əlverişli zəmin yaradır.

Ailə yalnız insanın yaşayış yeri, təminatlı məkanı, qorunacaq, müdafiə olunacaq yeri deyil, həm də insanın ən əziz, ülvi hisslərlə, duyğularla yaşaması, sevməsi, qayğı və mərhəmət göstərməsi, hörmət göstərməsi və digər hissləri özündə ehtiva edir.

Ailə yetişən gənc nəslin sosiallaşmasında ən mühüm və ilkin sosial institutdur. Məhz ilkin olaraq uşaq ailədə dil açıb ünsiyyətə girir, ana və atası ilə müəyyən ünsiyyət və münasibətdə olur. Sosiallaşmanın ilkin şərti isə insanın digər insanla ünsiyyəti və münsibətidir. Bu insanın ilkin mənəvi sosial tələbatıdır. Bu tələbət ödənilməsə insanın normal həyatı, böyüməsi və inkişafı ola bilməz. Bu ünsiyyət və münaisbətin düzgün qurulması isə pedaqoji psixoloji, və sosial elmlərin tədqiqat sahəsidir ki, bu barədə prof. Əbdül Əlizadə[6], prof. Akif Abbasov, prof. Sərdar Quliyev, prof. Nurəli Çələbiyev, prof. Oruc Həsənli, prof. Rüfət Hüseynzadə, dosent F.M. Allahverdiyeva və başqaları dəyərli əsərlər yazmışlar .

Ailədə uşaqların sosiallaşması ailə tiplərindən, ailə səviyyəsindən, ailə quruluşundan, ailənin sosial mənşəyindən asılı olaraq müxtəlif səviyyələrdə həyata keçirilir. Bu pedaqoji, psixoloji və sosial prosesə aşağıdakı amillər təsir göstərir:

1. Demoqrafik amillər. Bura ilk növbədə ailənin quruluşu daxildir. Yəni, ailədə qohumluq əlaqələrinin vəziyyəti, ailədə uşaqlar və onlara olan münasibət, boşanmış ailə tipi, tam ya da natamam ailə, tək uşaqlı və yaxud çox uşaqlı ailə tipi və s. aid olur.

2. Sosial – mədəni amillər. Bura ailə üzvlərinin, xüsusilə ata və ananın təhsil səviyyəsi, mədəni səviyyəsi, ixtisası, sosial mənşəyi, valideynlərin cəmiyyətin həyatında iştirakı vəziyyəti və s. bu kimi məsələlər daxildir.

3. Sosial – iqtisadi amillər. Bura ailənin maliiyə büdcəsi, maddi vəziyyəti, işi, fəaliyyəti, mülkü, valideynlərin və ya ailə üzvlərinin əmlaka sahib olması vəziyyəti, ailənin yaşayış tərzi və s. bu kimi məsələlər daxildir.

4. Texniki, sanitar- gigiyenik amillər. Bura isə ailənin yaşayış tərzi, həyat səviyyəsi, mənzillə, maddi nemətlərlə təmin olunma vəziyyəti, ailədə sanitar-gigiyenik normalarının gözlənilməsi, təmizlik məslələri və s. daxildir.

5. Sosial- mənəvi amillər. Bura ailədə mənəvi iqlimin vəziyyəti, uşaqların tərbiyəsi qayğısna qalmaq, ailə üzvləri arasında mənəvi mədəniyyət, ailədaxili ünsiyyət və münasibətlər, ailə adət və ənənələri və s. daxildir.

Göründüyü kimi, uşaqların ailədə sosiallaşması bir sıra şərtlərlə, məqamlarla əlaqədardır. Onların mübət arzu olunan səviyyədə qurulması, olması uşaqların da silədə sosial tərbiyəsinin müsbət, arzu olunan səviyyədə həyata keçməsinə səbəb olacaq və buna əlverişli şərait və imkanlar yaradılacadır.

Uşaqalrın ailədə sosiallaşması dedikdə isə bu ilk nəvbədə ailə tərbiyəsi deməkdir. Sosiallaşma ailədə tərbiyənin düzgün qurulması ilə mümkün olur. Sosiallaşma ailə üzvlərinin uşaqlara məqsədyönlü, planlı, xeyirxah münasibətli təsiridir. Ailə tərbiyəsinin əsasında uşaqlarda şərəf, ləyaqət, vicdan, mənlik şüuru və digər əxlaqi, mənəvi keyfiyyətlər formalaşır ki, bunun da təməlində sevgi, məhəbbət və hörmət durur. Bu prosesdə ailədə böyüyən uşaqların imkanlarının cəmiyyət və ailə dəyərlərinə uyğunluğu inkişaf etdirilməlidir. Ailə tərbiyəsinin də elə əsas məqsədi uşaqların sosial həyata hazırlanması, cəmiyyət həyatına, dövrə, zəmanəyə uyğun insanlar, layiqli vətəndaşlar, hərtərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirməkdir.

MÜASİR CƏMİYYƏTDƏ YENİYETMƏLƏRİN SOSİALLAŞMASI XÜSUSİYYƏTLƏRİ

Süleymanova V.L.
Bakı Slavyan Universiteti
E-mail: suleymanovavusale199@gmail.com

Yeniyetmələrin sosiallaşması problemlərinin tədqiqi gənclik sosiologiyasının sahələrindən biridir və eləcə də müasir zamanda cəmiyyət üçün əsas əhəmiyyət kəsb edən maraqlı bir sahədir. Yeniyetmələr müəyyən etdiyi yaş xüsusiyyətləri, sosial status və sosial-psixoloji xüsusiyyətlərin məcmusuna görə seçilən sosial-demoqrafik qrupdur.

Sosiallaşma insanın başqa insanlarla normal münasibət qurmasına imkan verən davranış qaydalarını, sosial normaları, əxlaqi dəyərləri, bacarıqları, bilikləri və psixoloji münasibətləri mənimsəməsi prosesini nəzərdə tutur. Əgər heyvanlarda bütün münasibətlər bioloji motivlərlə müəyyən edilirsə, insanlarda biososial varlıq kimi sosial bacarıqların formalaşması prosesi heç də az əhəmiyyət kəsb etmir. İnsanlar durmadan doğulur, ölür, cəmiyyətin yeniləşməsi prosesi davam edir. Cəmiyyətin yeni üzvləri ilkin olaraq onda heç bir norma və ya davranış qaydalarını bilmirlər. Cəmiyyətdə həyata uyğunlaşma prosesi sosiallaşmadır.

Şəxsiyyətin sosial inkişafının özünəməxsus növləri və mərhələləri var. Hər bir fərd müəyyən bir özünüdərk səviyyəsinə çatmaq üçün digər insanlarla qarşılıqlı əlaqənin bütün mərhələlərini keçməlidir. Bu prosesin əsas məqsədi insanı bioloji vəziyyətdən özünüdərklə müstəqil sosial şəxsiyyətə köçürməkdir.

Fərd müxtəlif xarici amillərin təsiri altında sosial və ya assosial şəxsiyyətə çevrilir. Bunlara mikrofaktorlar (uşağın cinsi, onun fizioloji və psixoloji inkişafı, emosional mühit), mezofaktorlar (şəxsin yaşadığı bölgə, orada mövcud olan subkulturalar), makrofaktorlar (coğrafi yer, iqlim qurşağı, ətraf mühit), meqafaktorlar (yer kürəsi bir insanın həyatı üçün planet kimi, kosmos, kainat) daxildir. Rolların vaxtaşırı dəyişməsi, yeni statuslar və fərqli mühitin əldə edilməsi, köhnə vərdişlərdən və ənənəvi həyat tərzindən imtina insan həyatının tsiklik xarakteri ilə bağlıdır. Fərd həyatı boyu nə isə öyrənir və ətraf mühitin təsirinə cavab verməyə məcbur olur. Bu, onun baxışlarını və sosial əsaslarını dəyişir.

Müasir şəraitdə yeniyetmələrin sosiallaşması problemi əsas problemlərdən biridir. Bu, xüsusilə yeniyetməlik problemlərini həll edərkən, gənclərin "böyük həyat" təcrübəsinin kifayət qədər olmadığı halda, mümkün qədər yaşlı nəslə itaət etməyi dayandırmağa çalışdıqları zaman kəskin olur.

Yeni tipli təhsil müəssisələrinin (liseylər, gimnaziyalar, elit məktəblər) yaranması sosial təbəqələşməni artırır və yeniyetmələr arasında sosial gərginlik yaradır. Kifayət qədər ziddiyyətli şəxsi və sosial xüsusiyyətlərə malik olan bir yeniyetmə şəxsiyyətinin formalaşması var.

Ailənin həyat tərzində dəyişikliklər vardır ki, yaşlı, orta və gənc nəsillərin ayrılmasına səbəb olan üç nəsil ailənin aradan qaldırılması, ailə və valideyn əlaqələrinin minimuma endirilməsi, ünsiyyət mərkəzinin birgə nikahdan ailədənkənar və nikahdankənar, tək fərdi həyat tərzi formalarına keçirilməsi kimi amillər valideyn nüfuzunun zəifləməsinə, böyüklərə qarşı neqativliyə səbəb olur. Cəmiyyət sürətlə dəyişir və valideynlərin uşaqlarına ötürə bildikləri şeylərin çoxu uşaqlar yetkin olana qədər köhnəlir. Bunun nəticəsidir ki, yeniyetmələr məsləhət və rəhbərlik üçün getdikcə daha çox həmyaşıdlarına müraciət edirlər. Valideynlərin və müəllimlərin səlahiyyəti, hətta bu, qanunla ziddiyyət təşkil etməyi tələb etsə də, həyatda uğurla yerləşmiş həmyaşıdının səlahiyyəti ilə əvəz olunur.

Hər bir insan, xüsusən uşaqlıq, yeniyetmə və gənclik dövründə sosiallaşma obyektidir. Sosiallaşma prosesində bir insanın cəmiyyətə uyğunlaşma dərəcəsi ilə cəmiyyətdən təcrid olunma dərəcəsi arasında daxili, tamamilə həll olunmayan bir ziddiyyət var. Başqa sözlə, effektiv sosiallaşma cəmiyyətdə uyğunlaşma və ondan təcrid arasında müəyyən balansı ehtiva edir. Çox vaxt yeniyetməlik dövründə bu balansı tapmaq ən çətin olur. Bu yaş adətən keçid dövrü adlanır, çünki bu dövrdə uşaqlıqdan yeniyetməliyə keçid olur. Bu yaş dövrünün şagirdlərində uşaqlıq dövrünün xüsusiyyətləri əsasən gəncliyə xas olan, lakin hələ də formalaşma və inkişaf prosesində olan xüsusiyyətlərlə iç-içə olur. Məhz buna görə də bəzən yeniyetmə yarı uşaq, yarı yetkin kimi qələmə verilir. Yarım yetkinlik yaşına çatdıqda, o, fiziki gücün və mənəvi ehtiyacların sürətli artımını yaşayır, yarı uşaq kimi, bütün ortaya çıxan istək və ehtiyacları ödəmək üçün hələ də bacarıqları və təcrübəsi məhdud olur. Bu, yeniyetmələrin təbiətinin, davranışının və inkişafının mürəkkəbliyini, uyğunsuzluğunu izah edir ki, bu da bu yaşı təhsil üçün müəyyən dərəcədə çətin hesab etməyə əsas verir. Yeniyetmələr böyüdükcə bir sıra çətinliklərlə üzləşirlər.

Həmyaşıdları ilə ünsiyyət – Yoldaşlarla münasibətlər bir yeniyetmənin həyatının mərkəzində dayanır, əsasən onun davranış və fəaliyyətinin bütün digər aspektlərini müəyyən edir. Peşələrin və maraqların cəlbediciliyi əsasən həmyaşıdları ilə geniş ünsiyyət imkanı ilə müəyyən edilir.

Təklik – Yeniyetmələr özlərinə inamı aşağı olduğu üçün başqaları ilə əlaqə qurmağın çətin olması, narahatlıq və ya depressiya hissləri, insanlara inamsızlıq və ya öz qabiliyyətlərinə şübhə ilə yanaşmaları səbəbindən tənhalıq hissi keçirə bilərlər. Bəzi müstəqil yeniyetmələr özlərinə bəzi məqsədlər qoyaraq təkliklərinin öhdəsindən gəlirlər.

Yeniyetmə və böyüklər – Bu problemin ilk mənbəyi böyüklər tərəfindən yeniyetmənin daxili aləmini, onun təcrübələri, müəyyən hərəkətlərin motivləri, istəkləri, dəyərləri haqqında yanlış və ya primitiv fikirləri başa düşməməsidir. Yeniyetmələrdə böyüklərə qarşı çıxmaq, öz müstəqilliklərini və hüquqlarını müdafiə etmək, habelə böyüklərdən kömək, müdafiə və dəstək gözləməsi, onlara inam, onların bəyənilməsi və qiymətləndirilməsinin vacibliyi açıq şəkildə ifadə olunur. Yetkin insanın əhəmiyyəti açıq şəkildə özünü göstərir ki, yeniyetmə üçün özünü müstəqil idarə etmək bacarığı deyil, bu imkanın ətrafdakı böyüklər tərəfindən tanınması və hüquqlarının əsaslı bərabərliyi vacibdir.

Özünü tanımaq, özünü dərk etmək – Bu yaş boyu yeniyetmələrin təcrübələrinin məzmunu və dinamikasının təhlili onu deməyə əsas verir ki, həm kiçik, həm də xüsusilə yaşlı yeniyetmələr özlərinə, öz şəxsiyyətlərinə münasibəti ilə hansısa şəkildə bağlı olan təcrübələrlə xarakterizə olunurlar.

Müxtəlif yaş dövrlərində fərdin sonrakı sosiallaşmasına təsir edən tipik təhlükələr var. Bir yeniyetmənin şüuru xüsusi bir həssaslığa, böyük bir məlumat axını emal etmək və mənimsəmək qabiliyyətinə malikdir. Bu dövrdə tənqidi təfəkkür, müxtəlif hadisələrə öz qiymətini vermək istəyi, arqumentasiya axtarışı, orijinal həll yolu inkişaf edir.

Beləliklə, yeniyetmələrin davranışında ziddiyyətli xüsusiyyətlərin və keyfiyyətlərin heyrətamiz birləşməsi vardır ki, identifikasiya və təcrid istəyi, konformizm və neqativizm, ümumi qəbul edilmiş normaları imitasiya və inkar etmək, ünsiyyət və geri çəkilmə istəyi, kənardan uzaqlaşma və s

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN VƏTƏNPƏRVƏRLİK HİSSİNİN AŞILANMASI

Təhməzova Ş.A.
Bakı Slavyan Universiteti
E-mail: sholatahmazova8@gmail.com

Ölkəmizin və övladlarımızın gələcəyinin təməli vətənpərvərlikdir. Bu konsepsiyanın əsasında sarsılmaz dəyərlər dayanır: Vətənimizə və onun adət-ənənələrinə məhəbbət və hörmət, əcdadlarımızın və çoxmillətli xalqın mənəvi irsi, ölkəmiz və onun gələcəyi üçün məsuliyyət. Uşaqların mənəvi-əxlaqi tərbiyəsi problemi müasir cəmiyyətin əsas məsələlərindən biridir. Təəssüf ki, Rusiyanın siyasətində, iqtisadiyyatında və mədəniyyətində ölkəmizdə formalaşan real vəziyyət insanlarda vətənpərvərlik şüurunun itdiyini vurğulayır. Bu baxımdan gənc nəslin vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyə olunmasının rolu xeyli artır. İstər mənəvi prinsiplərin bərpasında, istərsə də yeniləşməsində, tarixi dəyərlərimizə, Vətənin qəhrəmanlıq keçmişinə dərindən bələd olmaq, insanların yüksək intizamı, iradəsi və vətəndaşlığı ilə bağlı cəmiyyətin bütün sahələrinin transformasiyasına ehtiyac artır.

Vətənpərvərlik olmadan layiqli vətəndaş yetişdirmək, ətrafdakı reallığın mənfi təsirlərinə qarşı sabit immunitet formalaşdırmaq mümkün deyil. Vətənpərvərlik tərbiyəsi məktəbəqədər yaşdan başlamalıdır. Məktəbəqədər Təhsil üzrə Dövlət Təhsil Standartında doğma torpağa, əmək insanlarına, veteranlara qürur və

məhəbbət hissinin formalaşmasına böyük əhəmiyyət verilir. Böyük Vətən Müharibəsində Qələbənin ildönümü ilində vətənpərvərlik mövzusu ən aktualdır. Uşaqlar Böyük Vətən Müharibəsi illərində sovet əsgərlərinin şücaətləri, Vətən uğrunda döyüşmüş həmyerliləri, babaları, ulu babaları haqqında bilməlidirlər. "Heç kim unudulmur! Heç nə unudulmur! " yaddaşımızın devizidir. Axtarış işləri, yeni-yeni tədqiqatlar respublikamızın tarixinə əlavə olunur, döyüş əməliyyatları cəbhələrində vuruşmuş qəhrəmanların, doğmalarının, soydaşlarının və arxa cəbhədə qələbə uğrunda mübarizə aparmış arxa cəbhə veteranlarının adları gəlir. Həmçinin İkinci Qarabağ müharibəsində necə şücaətlə vuruşan qəhrəmanlarımızın canlı şahidi olduq.

Bu problem məktəbəqədər təhsil sistemində böyük əhəmiyyət kəsb edir. Məhz məktəbəqədər uşaqlıq dövründə Vətənə məhəbbət, doğma torpağın tarixi, müharibə və cəbhə veteranları, müharibə uşaqları kimi keyfiyyətlər formalaşmağa başlayır.

Uşaq bağçalarında və hazırlıq qruplarında vətənpərvərlik tərbiyəsi təkcə nəzəri məlumatlarla deyil, həm də uşaq fəaliyyətinin müxtəlif növlərini əhatə edən praktik fəaliyyətlərlə həyata keçirilməlidir. Məktəblərə qeyri-adi şəkildə sıradan çıxarılan silahlar vermək üçün vacib ofislərə malik olmaqla yanaşı, yeniyetmələrə hərbi hisslər aşılayarkən mövzular seçilməməlidir. Həqiqətən, hətta fiziki və əqli dərslər vasitəsilə belə tələbələrdə ictimai ruhun genişləndirilməsi həyati əhəmiyyət kəsb edir. Faktlar təsdiq edir ki, bu fənn tarixdə, fakultativ məktəblərdə dərs kitablarının yazılmasında daha normaldır. Tarixdən bəri, azyaşlılar öz ölkələrinin uzaq və gec tarixi ilə bacarıq əldə edirlər. İnsanın ən böyük və ən qədim hisslərindən biri olan pozitiv enerji, hər kəsin tərbiyə aldığı kimi yaşadığı şəhərə, torpağa, millətə pərəstiş etməkdir. Müsbət enerji əlavə olaraq Vətən üçün çalışmaq, Vətənin keşiyində durmağa hazır olmaq, onun yolunda igidlik və səxavət göstərmək, Vətənin və ayrı-ayrı şəxslərin hər bir tərəqqisini qeyd etməkdir. Bu məqsədlə azad Azərbaycanımızın inanılmaz rəhbəri, modelçisi və yaradıcısı Heydər Əliyev həqiqətən də şövqün məktəbəqədər təhsilinə, uşaqların və gənclərin enerjili ruhda yetişməsinə diqqət yetirir və öz çıxışlarında bunu dönə-dönə təklif edirdi.

K.Əsədov hesab edir ki, hansı fənnindən asılı olmayaraq, hər bir müəllimin azyaşlılara pozitiv enerji hissi göstərmək imkanı olmalıdır: Qarabağı cəlb olunmuş sahələrdə fədakarlıqla döyüşən xalq əfsanələrimizlə yaxından tanış etmək, onları təbliğ etmək vacibdir. uşaqlar başlarına gələn bədbəxtliklər. Tələbələrə həvəs və ictimai ruh hissi aşılamaq vacibdir. İnsan öz ölkəsini, ölkəsini nə qədər çox tanıyırsa, malını bir o qədər əzizləyir. Əvəzolunmaz sərvətlərinə, ictimai keyfiyyətlərinə qırılmaz iplərlə bağlanıb. Həm də onu qorumağı öz öhdəliyi hesab edir. "

Ustad qəbul edir ki, yalnış təbliğat və müsbət enerjinin öyrədilməsi və ictimai şüurun öyrədilməsi məsələsi, həqiqətən, təlim metodunda unikal diqqətə yönəldilməlidir. Akademik qarşılıqlı fəaliyyətdə öyrədilən fənnin motivasiyası ilə bağlı həvəsi xatırlamaq lazımdır: "Mülklərimizin 20%-i işğal altında olanda təhsil işçiləri yardımçı məktəblərdə ictimai maarifləndirmənin vacib məsələ olduğunu başa düşür və bu istiqamətdə metodik tədbirlər həyata keçirilir. bu yol.Sosial şəxsiyyətə malik olan enerjili təlim təhsildən kənar tələbələrin rezident kimi inkişafına, öz ölkəsinin sığortalanmasına və hörmətinə etik cəhətdən təsir göstərir.Müsbət enerji ölkənin tarixi fonunda cəmləşməkdə, onun xətlərini qorumaqda və vacibdirsə, təbliğ olunur. , qəsdən dövlət tərəfindən qoyulmuş təlimatlara riayət etmək. Kurs kitablarını hazırlayarkən bu təlimat nəzərə alınmalıdır.

K.Əsədov vurğulayır ki, fakültativ məktəbin bəlkə də əsas vəzifəsi enerjili hissləri inkişaf etdirmək və aşılamaqdan ibarətdir: , eyni zamanda, qloballaşmanın birdən-birə inkişaf etmiş dünyamızda ictimai və qeyri-dünya keyfiyyətlərini qorumaq. Ərazilərimizin 20%-i Ermənistan tərəfindən cəlb edildikdə, gənclərin sədaqətli təliminin qanuni birliyi əhəmiyyətli dərəcədə əhəmiyyətlidir.

NAXÇIVAN PEDAQOJİ TEXNİKUMU VƏ BÖLGƏDƏ PEDAQOJİ KADR HAZIRLIĞI

Verdiyeva A.Ç.
Naxçıvan Dövlət Universiteti

Naxçıvan bölgəsi Azərbaycan xalqının ən qədim yurd yerlərindən olmuş, həmişə ulu əcdadlarımızın müqəddəs ruhunu qoruyub saxlamış, azərbaycançılıq üçün bütün atributların, maddi və mənəvi keyfiyyətlərin daşıyıcısı kimi şöhrət tapmış məskənlərimizdən biridir. Mənbələr göstərir ki, hələ orta əsrlərdə Naxçıvanda mükəmməl biliyə və mütəxəsis bacarıqlqrına malik nəsil yetişdirmək məqsədilə yüksək tip tədris müəssisələri-mədrəsələr fəaliyyyət göstərmişdir. Naxçıvan və Ordubad mədrəsələrində dövrün

biliklərinə yiyələnmiş böyük şəxsiyyətlər yetişmişdir.Onlardan bir çoxu dini və dövlət idarələrində, bir hissəsi isə elmi tədqiqatla, yaradıcılıq işləri ilə məşğul olmuşdur. XIX əsr XX əsrin əvvəllərində Naxçıvanda professional səviyyədə kadr hazırlayan təhsil müəssisələri olmadığından ali təhsil almaq istəyən gənclər Rusiya və Qərbi Avropanaya üz tutmalı olurdular.

Sovet hakimiyyətinin ilk illərində Naxçıvanda Müəllimlər seminariyasının (1924-1925-ci tədris ilindən pedaqoji texnikumun) açılması gündəmə gəldi.Bölgədə yeni yaranan məktəblərinin müəllim kadrlarına ehtiyacını təmin etmək məsələsi 1922 - ci ilin avqust ayının 28 - də öz işinə başlayan Naxçıvan müəllimlərinin birinci qurultayında qoyulmuşdur. Üç gün davam edən qurultayın qətnaməsinin beşinci maddəsində Naxçıvan şəhərində müəllimlər seminariyası açılması fikri irəli sürüldü . Təxminən iki ay sonra 1922 - ci ilin noyabr ayının 1-də Naxçıvan Xalq Maarif Komissarlığının iclası olur. İclasda Naxçıvan şəhərində müəllimlər seminariyası yaradılması məsələsinə yenidən baxılır və müəyyən addımlar elə bu iclasda atılır. Qərara alınır ki, seminariyanın fəaliyyəti üçün bütün əsas tədbirlər on gün ərzində başa çatdırılsın.Təhsil müəssisəsinə rəhbərlik Qori seminariyasını və Tiflis Aleksandr Müəllimlər institutunun tam kursunu bitirmiş Xəlil Hacılarova tapşırılır .

Naxçıvan pedaqoji texnikumu 1922 - ci ilin noyabr ayının 10 - da öz işinə başlayır. Texnikuma 60 nəfər tələbə cəlb edilir. Bunlardan 22 nəfər birinci hazırlıq kursuna, 28 nəfər ikinci hazırlıq kursuna, 10 nəfər isə əsas sinfə daxil olur.Texnikumun müdiri Xəlil Hacılarovun verdiyi məlumatdan aydın olur ki, ilk illər maddi-texniki baza cəhətdən seminariyanın vəziyyəti çox ağır olmuşdur.1923-cü ilin mart ayının əvvəlinə olan məlumata görə məktəbin ləvazimatı bir neçə skamya və üç ədəd sınıq lövhədən ibarət olmuşdur. Təbaşir əvəzinə kirəcdən istifadə olunurdu. Seminariya özü-özünü maliyyələnşdirməli, yataq və dərs ləvazimatı ilə təmin etməli idi. Bu cür çətinlikləri aradan qaldırmaq üçün texnikum Duz mədənləri idarəsinin himayəsinə verilir. Həmin idarənin hər ay seminariyaya yüz manat qızıl pul ilə yardım etməsinə baxmayaraq, bu vəsait məktəbin ehtiyacını ödəmirdi. Ona görə də məktəb özü-özünü idarə məqsədi ilə 1923 - cü ildə bir desyatin (1.032 ha bərabərdir) bağ sahəsi götürür. Həmin sahədə tərəvəz və bostan bitkiləri əkirdilər ki, bu da onların ərzağa olan ehtiyaclarını qismən də olsa ödəməli idi .Naxçıvan şəhərində bu təhsil müəssisəsinin fəaliyyəti 1924 - 1925-ci tədris ilində demək olar ki, dayandı. Texnikumun bazası əsasında Ordubad şəhərində də belə bir təhsil ocağı yaradıldı. Tələbələrdən 90 nəfəri Ordubad pedaqoji texnikumuna köçürüldü. Bunun səbəbini X. Hacılarov belə izah edirdi: "1924-25-ci tədris sənəsində Ordubadda darülmüəlliminə yarar kabinə (bina– V.R.) olduğu və havasının çocuqlara müsaid (əlverişli) bulunduğunu nəzərə alınaraq məhəlli təşkilatlar darülmüəllimin Naxçıvandan Ordubada köçürülməsini qərara aldılar".

Həmin texnikuma müdirlik Həsən Qazızadəyə tapşırıldı. Lakin texnikum Ordubadda cəmi bir il fəaliyyət göstərdi. Əlbəttə, heç bir ehtiyac olmadan texnikumu parçalamaq, təhsil işlərində lənglik yaratmış, maddi təchizat məsələlərini xeyli çətinləşdirmişdi. Buna görə də qabaqcıl maarif xadimlərinin təkid və tələbi ilə Azərbaycan Xalq Maarif Komissarlığı bu iki məktəbi "Naxçıvan zükur pedaqoji texnikumu" adı altında birləşdirdi. Naxçıvan pedaqoji texnikumu beləcə yarandı.Texnikumun pedaqoji heyəti Naxçıvanda geniş maarifçilik fəaliyyəti ilə tanınan müəllimlərdən təşkil olunmuşdu.Texnikumun müdiri Xəlil Hacılarovla birlikdə təhsil müəssisəsinə pedaqoji səriştəsi və məharəti ilə seçilən Həsən Səfərli, İbrahimxəlil Axundov, Əli Xəlilov, Məhəmməd Rasizadə, Mirzə Nəsrullah Əmirov, Murad Tutayuk kimi pedaqoqlar da cəlb olunmuşdur. 1925-1926 - cı tədris ilindən Bakı ali pedaqoji darülfununun məzunlarından (Abdulla Musazadə, Qafur Qasımzadə, Vəli Məmmədzadə) da müəllim kimi istifadə edilmişdir.

XX əsrin 20-ci illərin ziddiyyətli və mürəkkəb inkişaf proseslərinin bu təhsil ocağına da təsirsiz qalmadığını yaddan çıxartmamalıyıq. Oktyabr inqilabından sonrakı ilk illərdə başqa sahələrdə olduğu kimi, təhsil və maarifin bütün sistemini tamamilə yenidən (bolşevikcəsinə) qurmaq işinə başlandı ki, bu da bir sıra metodoloji səhvlərə gətirib çıxarırdı. Keçmişlə qarşılıqlı əlaqəni pozmaq, ona hakimlik etmək, onu müasir şəraitə süni şəkildə "uyğunlaşdırmaqla" məşğul olmaq kimi yol verilməz hallar baş qaldırmışdı.Texnikum belə bir şəraitdə fəaliyyətə başladığından təlim-tərbiyə işlərində də bir sıra çətinliklərlə qarşılaşmalı olmuşdur. Ədəbiyyat müəllimləri M. Rasizadə və Q. Hacılının "Türkcə dərslərin gedişi" yazısından aydın olur ki, dördüncü kursda oxuyanlar bütün təhsil müddəti ərzində üç proqram əsasında dərs keçmişlər.Bu da tədrisin keyfiyyətinə mənfi təsir göstərməyə bilməzdi.Məqalədə müəllimlərin ədəbiyyat fənninin tədrisinin yaxşılaşdırılması haqqında təklifləri də verilmişdir. Həmin təkliflər onların pedaqoji biliyi və səriştəsi ilə seçilə bilən, pedaqoji yenilikləri izləyən və bu yenilikləri saf-çürük etməyi bacaran müəllim-pedaqoq olduğunu təsdiqləyir.Texnikumda təhsilin məzmununun əhatəliyi xüsusi qeyd olunmalıdır. Tədris planına pedaqogika və didaktika, riyaziyyat, kimya, coğrafiya, təbiət, psixologiya, hikmət, ictimaiyyət, ədəbiyyat və dil, rus dili, bədən tərbiyəsi, musiqi, rəsm və fənləri daxil idi.Siyahıdan göründüyü kimi gələcək ibtidai sinif müəlliminin pedaqoji-metodik bacarığa malik olması, ictimai-siyasi görüşlərinin formalaşması, incəsənətin zəruri sahələri ilə tanışlığı və s. bu kimi keyfiyyətlər qazanması nəzərə alınmışdır.Texnikumun musiqi

müəllimi və musiqi dərnəyinin müdiri Məhəmməd Kəngərli idi. O 1923 - cü ilin aprel ayında texnikumun nəzdində orkestr təşkil etmişdi.Orkestrin 24 nəfər üzvü var idi. Bütün Naxçıvanda yeganə olan bu musiqi dəstəsindən həm məktəb daxilində, həm də şəhərin ayrı-ayrı müəssisə və təşkilatlarında keçirilən təntənəli tədbir və bayramlarda istidafə olunurdu .1924 – 1925-ci tədris ilindən texnikumda əvvəlcə "Dan ulduzu" adı ilə ayda 2 dəfə, sonralar "Gənc müəllim" adı ilə on gündən bir divar qəzeti nəşrə başladı. Qəzet mətbəədə yığılır, şəkillərdən istifadə olunurdu..İlk illərdə cəmi 100-ə yaxın kitab və didaktik materialla fəaliyyətə başlayan texnikum, artıq 1927 - ci ildə 3500 nüsxədən ibarət sistemli kataloqa malik kitabxana yarada bilmişdi.

Nəhayət, 1927-ci ildə texnikumun ilk buraxılışı oldu. Məzunlarla son görüş keçirildi. Görüş şəhər ictimai-pedaqoji mühitinin əsl maarif və mədəniyyət bayramına çevrildi. Belə bir struktura və məzmuna malik olan bu təhsil müəssisəsinin Naxçıvanda maarifin və pedaqoji kadrların ilk dəstəsinin hazırlanmasında xidmətləri əvəzsizdir. Yüksək təhsil ənənələrinə malik texnikum Naxçıvanda sonralar fəaliyyət göstərən ali təhsil müəssisələrinin layiqli sələfi sayıla bilər.

YENİYETMƏLƏRİN DEVİANT DAVRANIŞININ PROFİLAKTİKASI ÜZRƏ SİNİF RƏHBƏRİNİN VALİDEYNLƏRLƏ BİRGƏ İŞİNİN XÜSUSİYYƏTLƏRİ

Xəlilova S.Z.
Bakı Slavyan Universiteti
E-mail: simaxelilova1998@gmail.com

Ailədə münasibətlərin pozulması, ailə üzvlərinin bir-birini qəbul etməsində səhvlər yeniyetmələrdə situasiya davranış pozğunluqlarının və nevrozların inkişafına təsir göstərir. Öz növbəsində, yeniyetmələrin davranışındakı anomaliyalar valideynlərdə həyat stereotiplərinin qırılmasına, onların emosional qeyri-sabitliyinə gətirib çıxarır. Bu pis dairəni qırmaq üçün sinif rəhbəri bütün ailə ilə - həm yeniyetmələrlə, həm də valideynlərlə işləmək lazımdır. Yeniyetmə -valideyn münasibətlərinin optimallaşdırılması yeniyetmələr arasında deviant davranışın yaxşı qarşısının alınması ola bilər. Valideynlərlə qrup işi onları həyatlarında, ailələrində, övladları ilə münasibətlərdə baş verən hər şey üçün öz məsuliyyətlərini götürməyə yönəldir, valideynləri yeniyetmələrlə səmimi münasibətlər qurmağa hazırlayır.Sinif rəhbərinin valideynlərlə qrup işinin tapşırıqları aşağıdakılardır: 1. Valideynlərin psixoloji və pedaqoji savadının artırılması; 2. Valideynlərin övladına qarşı münasibətinin qəbula doğru dəyişdirilməsi; 3. Özünü tanıma, empatiya, əks etdirmə qabiliyyətinin inkişafı; 4. Öz valideyn münasibəti və onların yeniyetmələrin tərbiyəsinə təsirindən xəbərdar olması; 5. Yeniyetmə ilə effektiv ünsiyyət bacarıqlarının mənimsənilməsi.

Valideynlərdən ibarət qruplar könüllülük əsasında yaradılır və qrupda etimad münasibətləri və iştirakçılar arasında təhlükəsizlik hissi yaratmaq üçün bağlanır. İlk müsahibədə valideynlərə yeniyetmə ilə münasibətlərin dəyişdirilməsində onların fəal iştirakının zəruriliyini göstərmək çox vacibdir. Bu mərhələ ən çətindir, çünki bir çox valideynlər yeniyetmə ilə ünsiyyət tərzində dəyişiklik edərək onunla münasibətləri dəyişdirməyə çalışmağı faydasız hesab edirlər. Valideynlərə, eləcə də yeniyetmələrə münasibətdə müəyyən taktikalara ehtiyac var. Hipermüdafiəçiliyə meylli olan valideynlər onları dinlədikdən sonra problemləri konstruktiv şəkildə müzakirə edə bilərlər. Dominant hipermüdafiə ilə, ailənin lideri vasitəsilə hərəkət etməlisiniz. Bu ailə işi yeniyetmə üzərində cəmlənir və insan mərkəzli humanist yanaşmaya əsaslanır.

Deviant davranışın əsas səbəbi, ilk növbədə, yeniyetmələrin öz hüquqlarının, ilk növbədə ailədə pozulmasıdır. Kifayət qədər istilik, sevgi və anlayış almayan yeniyetmə daim özünə inamsızlıq, alçaldılma hissi yaşayır. Başqalarına qarşı dözümlü olmağın ilkin şərtlərindən biri də tanış olan "mən qorunuram" hissidir. Əksinə, dözümsüzlük (tolerantlıq) "güvənsizliyə" reaksiya olaraq öz narahatlığının, qorxusunun, qeyri-müəyyənliyinin öhdəsindən gəlmək cəhdidir. Dözümsüzlük yaradan mərkəzi amil qorxu və narahatlıqdır. Çox vaxt onlar real şəraitin adekvat əksidir: təhdidlər, hüquqların pozulması və ya təcavüz. Buna görə də, yeniyetmə mövcud olmaq hüququnu onun üçün mövcud olan yollarla müdafiə etməyə başlayır. Yeniyetmənin özünün əsas ehtiyaclarının ödənilməməsinə reaksiya həm bütövlükdə cəmiyyətə qarşı yönəlmiş deviant davranış, o cümlədən həm etiraz forması, həm də müəyyən insanlara, o cümlədən valideynlərə qarşı açıq təcavüz ola bilər. Valideynlər də öz növbəsində belə yeniyetməni qəbul etmək və anlamaqda çox çətinlik çəkirlər. Ona görə də ailələrdə övlad-valideyn konfliktləri az deyil. Belə ailələrdə ünsiyyət minimuma enir. Ən yaxın insanlarla ünsiyyət ehtiyacının qarşısını almaq yeniyetmələrdə psixoloji travma mənbəyidir. Valideynlər yeniyetmənin sosial normaları mənimsəməsinə kömək etməsələr, o,

parçalanma və oriyentasiyanın pozulması vəziyyətində olur. Bu daha təhlükəlidir, çünki yeniyetməlik dövründə xarakterin intensiv formalaşması baş verir və onun bütün xüsusiyyətləri ağırlaşır.

Sinif rəhbərinin valideynlərlə qrup işinin gözlənilən nəticələri aşağıdakılardır:

1. Yeniyetmələrin təhsilində və onlarla münasibətlərdə valideynlərin səriştəsinin səviyyəsinin artırılması;

2. Valideynlər tərəfindən yeniyetmələrlə konstruktiv qarşılıqlı əlaqə bacarıqlarının mənimsənilməsi və istifadəsi;

3. Valideyn rolunda adekvat özünə hörmətin formalaşması.

Buna görə də, yetkinlik yaşına çatmayanlarda deviant davranışların qarşısının alınmasının əsasını təşkil edən vəzifələri uğurla yerinə yetirmək üçün, ilk növbədə, yeniyetmələrin antisosial, qeyri-qanuni hərəkətlərinə səbəb olan əsas şərtləri müəyyənləşdirmək və təhlil etmək, motivasiya vermək lazımdır. Ümumtəhsil müəssisəsində yeniyetmələrin deviant davranışının qarşısının alınması işində sinif rəhbəri ilə birgə valideynlərin iştirakı ümumilikdə yetkinlik yaşına çatmayanlar arasında hüquq pozuntularının qarşısının alınmasında mühüm həlqədir. Məktəblilərin sosial hərəkətlərinə səbəb olan yeni amillər və şərait hüquq pozuntularının qarşısının alınması üzrə iş formalarının müasirləşdirilməsini, məktəbdə bu işin idarə edilməsi sisteminin işlənib hazırlanmasını və yaradılmasını tələb edir. İctimai komponent, o cümlədən qəyyumlar şuraları, valideyn və şagird icması şuraları tərbiyə və profilaktik işin idarə edilməsi sistemində geniş şəkildə təmsil olunmalı, təhsil problemlərinin həllində idarələrarası qarşılıqlı əlaqənin bütün resurslarından istifadə edilməlidir. Qarşıya qoyulan təhsil məqsədlərinə nail olmaq üçün valideynlərin məktəb həyatında fəal iştirakı zəruridir. Valideynlər məktəbin pedaqoji kollektivinin nə işlə məşğul olduğunu bilməli, anlamalı və öz səylərini davam etdirməlidirlər.

П.Ф.ЛЕСГАФТ КАК ТЕОРЕТИК СЕМЕЙНОГО ВОСПИТАНИЯ

Алиева Н.Ф.
Бакинский славянский университет
E-mail:nazrinaa2000@gmail.com

Выдающийся представитель русской педагогики конца XIX начала XX века является Пётр Францевич Лесгафт— гуманист, существенный деятель, врач. Всю свою жизнь он посвятил гуманистическим идеалам, нравственному совершенствованию человечества. Его сфера научных интересов была невероятно широка. Им создано много научных работ в различных областях, таких как педагогика, история педагогики, биология, гигиена, анатомия, физиология, теория физиологического воспитания, многие из которых до сих пор актуальны и полезны.

Степень совершенствования общества, по Лесгафту, определяется его отношением в детям и заботой о них. Центром всей его педагогической системы является семейное воспитание, гуманная семейная педагогика. Признание личности ребёнка, постоянное обращение с ним как с человеком, обладающим нравом личной неприкосновенности, по Лесгафту, является одним из основополагающим принципов воспитания. Семейное воспитание составляет основу для всестороннего развития ребёнка, развития воли и формирования нравственности. Он считал, что интеллектуальная и физическая деятельность детей должны находится в полном соотвествии между собой. Говоря о дружеском воспитании, он имел в виду процесс формирования цельной личности, способную мыслить и действовать самостоятельно и творчески. Полное развитие всех природных задатков и способностей у ребёнка, формирование свободной, разумной личности возможно для каждого, если его детство и юность проходили в атмосфере любви, заботы, недопустимости произвола по отношению к нему, где развивалась детская самодеятельность, самостоятельность и инициатива. Огромную особую роль в жизни ребёнка он отводил матери. Он считал, что надо дать ребенку возможность самому развертываться, делать все самому: взрослые не должны забегать и ничего не делать для своего личного удобства и удовольствия, а всегда относиться к ребенку, с первого дня появления его на свет, как к человеку, с полным признанием его личности и неприкосновенности этой личности. Первый кто дал классификацию детских игр был Лесгафт, он сгруппировал детские игры, исходя из идеи о том, что психическое и физическое развитие ребёнка должно протекать в едином направлении. В своих трудах он подразделил детские игры на две большие группы: 1) Игры по правилам- сюда он относил подвижные игры, 2) Имитационные игры- сюда он относил игры подражательного характера.

СОЦИАЛИЗИРУЮЩИЕ ФУНКЦИИ УЧЕНИЧЕСКОГО КОЛЛЕКТИВА И СВЕРСТНИКОВ

Валехзаде З.М.
Бакинский славянский университет
E-mail: zaxra2010@mail.ru

Процессом начинается с рождения и продолжается на протяжении всей жизни. Группы сверстников играют важную роль в социализации, особенно в детстве и подростковом возрасте. Группы сверстников - единственная форма социализации, неподконтрольная взрослым. Взрослея, дети извлекают важные уроки из своих сверстников. Поскольку члены одной возрастной группы находятся на одной стадии социализации, они взаимодействуют свободно и спонтанно. Они также позволяют детям общаться друг с другом без присмотра взрослых.Члены групп сверстников имеют другие источники информации о культуре, и поэтому ассимиляция культуры продолжается. Они смотрят на мир одними и теми же глазами и разделяют одно и то же субъективное отношение. Дети также могут жить и работать со своими сверстниками, сотрудничать друг с другом и соревноваться друг с другом в группах сверстников. Чтобы быть принятым сверстниками, ребенок должен демонстрировать характерное поведение, симпатии и антипатии. В результате успешной социализации у ребенка развивается внутренний контроль. Внутренний контроль-это способность человека направлять свое поведение и подавлять его, когда это необходимо. По этой причине, если у человека сформирован внутренний контроль, он действует в соответствии с законами и правилами общества, даже если законы и общество не обязывают. В этом смысле социализация-это задача обучения и усвоения традиций и культурных ценностей и мер общества, членом которого является человек, особенно ребенок. Когда ребенок рождается, он не знает правил и культурных ценностей общества, в котором он живет. В результате социализации ребенок усваивает и усваивает социальные правила и принципы.Социализация открывает широкие возможности для формирования чувства товарищества и дружбы, особенно в ученическом коллективе. Особое место здесь занимает чуткость учеников друг к другу, их забота. Такие чувства, возникающие в коллективе, ориентируют учащихся на заботу друг о друге, на оказание необходимой помощи. Когда коллектив становится твердым, все его нормы становятся нормами его членов. В том числе, у членов коллектива формируется высокое идейное доверие. Формирование чувства высокой социальной солидарности ориентирует воспитанника на более активное участие в общем труде коллектива, на осознание собственной ответственности перед коллективом. Наличие этих чувств провоцирует учащихся на борьбу за честь своего класса, своей школы. Кроме того, сам коллектив приводит к формированию у учащихся чувства коллективизма, что в конечном итоге приводит к формированию у учеников подлинно гуманистических отношений к окружающим их товарищам.Процесс включения ученика в систему коллективных отношений сложен, неоднозначен, часто противоречив и глубоко индивидуален. Младшие школьники будущие члены коллектива отличаются друг от друга состоянием здоровья, внешним видом, чертами характера, коммуникабельностью, знаниями, умениями, многими другими чертами и качествами.

Поэтому они по-разному входят в систему коллективных отношений, неодинаково реагируют со стороны товарищей, оказывают одинаковое влияние на коллектив.

ЛИЧНОСТЬ СТАРШЕКЛАССНИКОВ В СИСТЕМЕ ПРОФЕССИОНАЛЬНОГО САМООПРЕДЕЛЕНИЯ

Джалилова Н.Р.
Бакинский славянский университет
E-mail: naida.celilova.22@gmail.com

Конечным результатом профессиональной ориентации является самоопределение, сформированное среди школьников. Самоопределение -это и выбор профессии, и определение перспектив внепрофессиональной деятельности семейных планов жизненной позиции.

Проблема самоопределения актуальна для старшеклассников как проблема не только определения будущего, но и как своего самоопределения в настоящем. Есть много способов достичь цели определения профессиональной судьбы молодого гражданина нашего общества. Но на

определенном этапе она еще не конкретизирована или, скорее, нем установлена для него, но потенциально существует и опирается на накопленный человеческий опыт. И мы считаем этот период первым этапом активности человека в выборе образа жизни. Выбранный тип деятельности относится к социальной ориентации, поскольку социальное поведение субъекта объясняется только с точки зрения воздействия ценностей данного социального окружения, которые служат для личности определёнными эталонами деятельности. Второй шаг в выборе своего места в жизни - это осознание важности цели для общества. На этом этапе субъект усваивает определенные ценности, направленные на него обществом. Степень осознанности может быть разной: от примитивных форм действия до убеждений. Третий этап профессионального развития человека - осознание им жизненных ценностей. Мы включаем в это понятие как деятельность в обществе, так и деятельность самого человека. Формирование активной жизненной позиции человека - одна из основных задач как общего, так и профессионально й ориентации. общество представляет индивиду большое число общественно-значимых ценностей. одной из главнейших ценностей является труд. Общество представляет индивиду большое число общественно-значимых ценностей. одной из главнейших ценностей является труд.

Личность характеризуется:

- её социальной направленностью, которая определяет отношение человека к действительности, его потребности, интересы, мировоззрения, убеждения, мотивы поведения, идеалы, которые формируются в системе воспитания;
- индивидуально приобретённым жизненным опытом, определяющим уровень развития личности запас знаний, навыков, умение, привычек, усвоенных в ходе обучения и воспитания человека;
- особенностью психических процессов (ощущение, восприятие, представление, память, мышление, воображение, воля эмоции);
- биологическими особенностями.

Главным в характеристике личности является её социальная направленность, что относительно стабильно. С возрастом меняется в процессе воспитания И приобретает новые качества. особая роль в её развитии принадлежит самооценке, осознанию индивидом самого себя. своего "я", способности дать себе отчет относительно своих сил, возможностей, личных качеств, уровня их развития.

Направленность характеризует основной жизненный настрой, главную позицию личности. С определенной точки зрения человек связан с природой, людьми, коллективом, обществом в целом, с самим собой, со своей деятельностью, со своим будущим.

РОЛЬ ПЕДАГОГИЧЕСКОГО КОЛЛЕКТИВА В СОЦИАЛИЗАЦИИ СТУДЕНЧЕСКОЙ МОЛОДЁЖИ

Фоменко С.С.
Бакинский славянский университет
E-mail: seva.fomenko.94@mail.ru

Говоря о социализации студенческой молодёжи, нельзя не сказать о влиянии социальной среды на атмосферу внутри коллектива, а также педагогического коллектива на социализацию студенческой молодёжи. Львиную долю по созданию благоприятной среды обучения студенческой молодёжи, их адаптации, их позитивного настроя и мотивации в обучении можно без сомнений отдать педагогическому коллективу, который работает со студенческой молодёжью. От того, как педагогический коллектив создаст атмосферу в аудитории, как направит юные умы зависит многое.

В нынешнее время образование переживает радикальные изменения, которые позволяют студенческой молодёжи творчески самореализоваться, как в жизни, так и в будущей профессии; приспособиться к условиям быстро меняющегося мира. Изменение требований к степени подготовки социализации студенческой молодёжи отражает важность педагогического коллектива.

Одной из главных целей высшего учебного заведения является развитие способностей социализации студенческой молодёжи в обществе. Исходя из этого, педагогический коллектив должен создать систему универсальных знаний, умений и навыков; правильно направить на самостоятельную деятельность. Какова же роль педагогического коллектива при таком подходе? Педагогический коллектив становится организатором процесса социализации. Педагогический

коллектив в этой работе занимает место квалифицированного советника, помогающего легким, доступным путём освоить поиск систем и постичь новое. Деятельность педагогического коллектива, его роль в социализации студенческой молодёжи является особым видом общественно-полезной деятельности, которая осознанно направлена на подготовку студенческой молодёжи к жизни, соответствующей политическим, экономическим, эстетическим и нравственным целям, то есть направлена на успешную социализацию. Задачей педагогического коллектива является то, что он должен тактично и неназойливо помочь определиться с выбором жизненных ориентаций, устремлений и целей. Для этого педагогическому коллективу нужно разработать научно-методический план; изучить содержание и формы и установить их соответствие с интересами студенческой молодёжи и условиями современного общества. По данным социологических исследований студенческая молодёжь нуждается в идейной определённости, в жизненных позициях и идеалах, которые помогут ощутить душевное равновесие в нынешних условиях жизни. Человеку необходим нравственный идеал, а иначе он будет индифферентным, у него будет безразличие не только к обществу, но и к самому себе. Педагогический коллектив решает проблему формирования нравственных идеалов студенческой молодёжи. Перед педагогическим коллективом стоят такие задачи, как определить характер современного воспитательного идеала, систему основных ценностей, главные социально-педагогические условия и принципы духовно-нравственного развития и воспитания студенческой молодёжи. Необходимо организовать систему воспитательной работы, которая позволит решать все поставленные задачи одновременно и совокупно. Для успешной социализации студенческой молодёжи педагогическому коллективу нужно привить студентам важные навыки в жизни, дать возможность показать свои умения и навыки; помочь студенческой молодёжи почувствовать свою индивидуальность и уникальность.Педагогический коллектив играет большую роль в развитии активной жизненной позиции студенческой молодёжи, формировании творческих способностей, привития им благородства, чувства сострадания к людям, нуждающимся в заботе. Безусловно, формирование разносторонне развитой, гармоничной личности является главной целью в работе со студенческой молодёжью.

Подытожив всё вышесказанное, можно прийти к следующим выводам о роли педагогического коллектива в социализации студенческой молодёжи:

–Педагогический коллектив способствует формированию у студенческой молодёжи оценивать и осознанно строить отношение к себе и к обществу, опираясь на моральные нормы и нравственные идеалы.

–Готовит студенческую молодёжь к духовному развитию, к правильной самооценке, к саморазвитию, ответственности.

–Реализует творческие возможности в духовной и предметной инициативности.

–Способствует принятию со стороны студенческой молодёжи национальных ценностей и традиций.

–Способствует пониманию и уважительному отношению к ценностям других людей.

XVII BÖLMƏ
PSİXOLOGİYA

AİLƏ MÜNAQİŞƏSİNİN UŞAĞIN PSİXOLOJİ İNKİŞAFINDA TƏSİRİ

Əkpərova S.Ş.
Sumqayıt Dövlət Universiteti
E-mail: sevil.akpar@gmail.com

Ailə münaqişəsi maddı, məişət çətinliklər, pis vərdişlər, böhran dövrləri, müxtəlif dəyər sistemi və status iddiası, fikir ayrılığından irəli gəlir. Destruktiv qarşıdurma nəticəsi isə bir şəxsiyyətin formalaşmasında dərin travmalara yol açar, faicəvi izlər qoyar. Ana ilə uşaq arasındaki emosional bağ limbik rezonans vasitəsi ilə ailədəki münaqişədə uşaq iştrak etmədiyi təqdirdə belə neqativ uşağın emosiyalarında əks edilir və təşvişi şəxsiyyət xüsussiyəti kimi yaradır.Həmçinin geri dönüş reaksiyası kimi əhval, yuxu və qida pozuntusu müşahidə etmək mümkündür. Münaqişəyə şahid olan uşaqdan əlavə, müdaxilə etməyə çalışan uşağın üzərinə tökülən qəzəb, və ya silah əvəzi istifadə edən ailə üzvlərinin uşağın inkişafında qoyduğu izlər nəticəsindən şəxsin özünü dəyərli hiss etməməsi, özünə hörmət hissinin olmaması, heçkimnən dəstək ala bilməmək hissi, tələbatlarını qəbul etməkdə və vaxtında qarşılamaqda çətinlik, emosional aclıq, qarınqululuq, sevgi hissini qəbul etmək və yaxın münasibət əlaqələrini qura bilməmək, tənhalıq, təcrid hissi,natamamlıq hissi, yaşamaq üçün yalnız mübarizə aparmaq lazımdır mövqesi, asılı münasibət meyilliliyi, təhlükəsizlik və dünyaya etibar hissinin olmaması, mükəmməlliyətçi və özünü tənqid xüsusiyyəti, reallıqdan imtina, bədən ilə kontaktın olmaması, autoaqressiya formalaşa bilər.Valideyinlərin ağrısını yüngülləşdirmək üçün münaqişənin səbəbinin günahını öz üzərinə götürməklə anasını və ya atasını, yaxud hər ikisini azad etdiyi illuziyası ilə dərin günah hiss edərlər. Dərin şəxsiyyət daxili konfliktlə böyüdükləri üçün ekstremal vəziyyətə düşdükləri zaman nevroz, depressiya, psixoloji pozuntuların yaranmasının ehtimalı yüksəkdir.

Münaqişəni susaraq izlədikləri təqdirdə gunah hissi ilə ümumiyyətlə susmağa meyil edər və buket kompleksli şəxs formalaşar, yaxud gücləri valideyinə çatmadığı üçün həmyaşlılar ilə münaqişəyə girməklə əvəzləyərlər, aqressiya, indakarlıq, itaətsizlik etməklə, enurez, allergiya, astma, mədə-bağırsaq və digər uzunmüddətli xəstəliklər vasitəsi ilə diqqəti öz üzərlərinə çəkib ailə üzvlərinin qarşıdurmasını müvəqqətidə olsa dayandırmağa çalışarlar. Ailədə baş verənləri uşaq davranış ssenarisi kimi qəbul edir və gələcək həyatında sosiuma güzgüləyir. Mənəvi əxlaqi dəyərlər yanlış formalaşar, qarşı cinsə şüurlu yaxud şüursuz şəkildə mənfi hisslər hiss etdiyi üçün münasibət qurmamağı və ya eyni münaqişəni təkrarlaya biləcəyi tərəfdaş seçərlərki hekayəni təkrarlayıb məzmununu dəyişsinlər, lakin digər nümunələr ilə tanış olmadıqları üçün eynisini yaşarlar. Şəxsiyyətin uşaqlıqdan qazandığı təcrübə dərin köklər salar, nəticədə dram üçbucağının meyvəsini formalaşdırar.

AİLƏ TƏRBİYƏ ÜSLUBLARININ UŞAQLARIN ŞƏXSİYYƏTİNƏ TƏSİRİ

İbrahimova K.R.
Bakı Slavyan Universiteti
E-mail: konul16ibrahimova@gmail.com

Cəmiyyətdə ən vacib dayaq ailədir. Uşaq üçün ailə təkcə yaşadığı deyil, həm də inkişaf etdiyi, kəşflər etdiyi, sevinməyi və sevməyi öyrəndiyi bütöv bir dünyadır. Çünki, uşağın şəxsiyyətinin əsası məhz ailədə qoyulur. O, həm də ilk kəşflərini ailədə edir. Uşağın əldə edə bildiyi şeylər onun mənəviyyatına daxil olur və həyatı boyu davam edir. Ailə mühiti valideynlərin şəxsi xüsusiyyətlərini, ailənin yaşadığı şəraiti, tərbiyə tərzini və s. birləşdirir. Uşağın şəxsiyyətinin formalaşmasına ailənin həyat tərzi böyük təsir göstərir.

İnkişaf psixoloqları uzun müddətdir ki, valideynlərin uşaq inkişafına necə təsir etdiyi ilə maraqlanırlar. Kəskin şəkildə fərqli mühitlərdə böyüyən bəzi uşaqlar sonradan olduqca oxşar şəxsiyyətlərə sahib ola bilərlər. Əksinə, eyni evdə və eyni mühitdə böyüyən uşaqlar çox fərqli şəxsiyyətlərə sahib ola bilərlər. Psixoloqlar 100-dən çox məktəbəqədər yaşlı uşaq üzərində araşdırma aparıb. Təbii müşahidələrdən, valideyn

müsahibələrindən və digər tədqiqat metodlarından istifadə edərək, valideyn tərbiyəsinin bəzi mühüm ölçüləri müəyyənləşdirildi. Bu ölçülərə intizam, tərbiyə, ünsiyyət üslubları, yetkinlik və nəzarət gözləntiləri daxildir.

Ailə tərbiyəsi gənc nəslin mənəvi, əxlaqi və sosial formalaşmasında mühüm rol oynayır. Ailə tərbiyəsi üslublarının uşağın şəxsiyyətinin formalaşmasına təsiri probleminin aktuallığı onunla müəyyən edilir ki, ailədəki şəxsiyyətlərarası münasibətlər, yəni valideyn-övlad münasibətləri uşağların şəxsiyyətinin və davranışının formalaşmasına böyük təsir göstərir. Ədəbiyyatda ailəni, ailə tərbiyəsi üslublarını (Zaxarov A.İ, Eydemiller E.G, Liçko A.E və s.) öyrənən kifayət qədər çox alimlərə rast gəlmək olar. Ailə tərbiyəsi bütün istiqamətlərdə aparılır. Bu, uşaqların böyüdükcə dəyişən fiziki, estetik, əmək, əqli və əxlaqi tərbiyəsidir.

Valideynlik üslublarından biri olan avtoritar valideynlik üslubunda uşaqlardan valideynlərin müəyyən etdiyi ciddi qaydalara əməl etmələri gözlənilir. Belə qaydalara əməl edilməməsi adətən cəza ilə nəticələnir. Avtoritar valideynlər bu qaydaların səbəblərini izah etmirlər. Onlar uşaqlarının səhv etməmələrini gözləyirlər, bununla belə, uşaqlarının gələcəkdə nə etməli olduğuna dair çox az göstəriş verirlər. Bu valideynlər "itaətkarlıq və status yönümlüdürlər və onların əmrlərinə izahat olmadan tabe olmasını gözləyirlər". Avtoritar valideynlik üslubundan istifadə edən valideynlər adətən itaətkar və bacarıqlı uşaqların formalaşmasına səbəb olur, lakin xoşbəxtlik, sosial səriştə və özünə hörmət baxımından daha aşağı yer tuturlar.

Səlahiyyətli valideynlik üslubuna sahib olan valideynlər də, avtoritar üsluba sahib olan valideynlər kimi, uşaqlarının riayət etmələri gözlənilən qaydalar və təlimatlar müəyyən edirlər. Ancaq bu valideynlik tərzi daha demokratikdir. Bu valideynlər uşaqlarından çox şey gözləyirlər, lakin adekvat dəstək verirlər. Uşaqlar gözləntiləri yerinə yetirmədikdə, bu valideynlər cəzalandırmaqdan daha çox tərbiyələndirici və bağışlayıcı olurlar. Səlahiyyətli valideynlik üslubu uşaqların xoşbəxt, bacarıqlı və uğurlu olması ilə nəticələnir.Səlahiyyətli valideynlər daha çox ağlabatan və ədalətli hesab olunduğundan, onların övladları valideynlərinin tələblərinə daha çox əməl edirlər. Həmçinin, bu valideynlər bu qaydaların izahı ilə yanaşı qaydaları da təqdim etdikləri üçün uşaqlar bu dərsləri daha çox mənimsəyirlər.

İcazəli valideynlik üslubuna malik olan valideynlər övladlarını nadir hallarda intizam edir, çünki onların yetkinlik və özünü idarə etmə ilə bağlı gözləntiləri nisbətən aşağıdır. Onlar yetkin davranış tələb etmirlər, kifayət qədər özünü tənzimləməyə imkan verirlər. İcazəli valideynlik üslubundan istifadə edən valideynlər uşaqları tərbiyə edir və onlarla ünsiyyət qururlar, çox vaxt valideyn statusundan daha çox dost statusunu alırlar. İcazəli valideynlik çox vaxt özünü tənzimləmə baxımından aşağı səviyyə ilə nəticələnir. Bu uşaqlar daha çox səlahiyyətlə bağlı problemlərlə üzləşirlər və məktəbdə zəif çıxış edirlər.Təcrübəsiz valideynlik üslubu əlaqəsiz və ya laqeyd valideynlikdir. Bu valideynlik üslubu az tələblər, aşağı həssaslıq və çox az ünsiyyət ilə xarakterizə olunur. Bu valideynlər uşağın əsas ehtiyaclarını ödəsələr də, ümumiyyətlə, uşaqlarının həyatından uzaqlaşırlar. Həddindən artıq hallarda, bu valideynlər hətta uşaqlarının ehtiyaclarını rədd edə və ya laqeyd qala bilərlər. Təcrübəsiz valideynlik üslubları bütün həyat sahələrində ən aşağı yer tutur. Bu uşaqlar özlərinə nəzarət etməməyə meyllidirlər, özünə inamları aşağıdır və yaşıdlarına nisbətən daha az bacarıqlıdırlar.Valideynlik üslubları müxtəlif uşaq nəticələri ilə əlaqələndirilir və səlahiyyətli üslub ümumiyyətlə güclü özünə hörmət və özünə səriştə kimi müsbət davranışlarla nəticələnir. Bununla belə, uşaqların temperamenti, uşaqların valideyn rəftarını qavrayışları və sosial təsirlər də daxil olmaqla, digər mühüm amillər də uşaqların davranışında mühüm rol oynayır.

Bütün yuxarıda deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, ailənin həyat tərzi, mədəniyyət və təhsil səviyyəsi, valideynlərin tərbiyəsi ilə bağlı təsəvvürlər, ailədə qarşılıqlı əlaqə uşaqların şəxsi keyfiyyətlərinin formalaşmasında böyük əhəmiyyət kəsb edir. Uşaq ailənin dəyərlərini, normalarını, adət-ənənələrini öyrənir, həmçinin valideynlərində üstünlük təşkil edən bu keyfiyyətləri və xüsusiyyətləri özünə köçürür və inkişaf etdirir.Valideyn münasibətlərinin uşağın sevgisi, hörməti, anlayışı və dəstəyi üzərində qurulması çox vacibdir.

ADDİKTİV DAVRANIŞ VƏRDİŞ VƏ XƏSTƏLİK KİMİ

Lətifova T.A.
Bakı Slavyan Universiteti
E-mail: latifovat797@gmail.com

Addiktiv davranışın müasir dövrdə xəstəlik yoxsa adi vərdiş olması, onun psixoloji yoxsa mühitdə formalaşması müzakirə mövzusudur. Hal-hazırda bu məsələdə 3 istiqamət özünü göstərir:

1. Addiktiv davranış əxlaqa uyğun olmayan davranış kimi (addiction as an immoral conduct)

Bu istiqaməti müdafiə edənlər inanır ki, addiktiv davranış sərgiləyən insanlar bəzi etik və əxlaqi normlara etiraz edənlərdir. Həddindən artıq spirtli içki qəbulu, narkotik istifadəsinin sərbəst iradə ilə seçildiyi, məsuliyyətsizliyin nəticəsi olduğu deyilir və günah hesab olunur. Bu ideyanın tərəfdarlarına görə, insan azad iradəyə sahibdir və bu tip davranışlara meyl etdiyi üçün cəzalandırılmalıdır. Adət ənənələrə və ailə dəyərlərinə uymayan hərəkət hesab olunsa da, bu istiqamətin mənfi cəhətləri daha çoxdur. Birincisi, heç də bütün hallarda insanlar addiktiv davranışı öz istəkləri ilə seçmir və bu davranışa davam edib-etməmək onlardan asılı olmur. Bundan əlavə, cəza tətbiq etmək demək olar ki, belə davranışların qarşısını almır, heç də bütün addiktiv davranış növlərinin qanunla tənzimlənmiş hüquqi tərəfi yoxdur, yəni cəza bu problemin həll yolu hesab oluna bilməz.

2. Addiktiv davranış xəstəlik kimi. Bu mövqeyi müdafiə edənlərin fikrincə, addiktiv davranışın yaranmasının genetik səbəbləri var, bu davranışa sahib insanlar günahkar və ya məsuliyyətsiz deyil, sadəcə olaraq xəstədir. Əgər genlərdə bu xəstəlik yoxdursa, nə qədər misal üçün alkoqol istifadə edilsə də, bu o şəxsdə asılılıq yaratmayacaq. Əks halda isə, belə davranışa yiyələnmiş şəxslərə tibbi müalicə lazımdır. Bu istiqaməti müdafiə edənlər tibbi sahədə çalışanlar, spirtli içki sənayesi və addiktiv asılılıqdan əziyyət çəkənlərin əksəriyyətidir. Onlar düşünürlər ki, addiktiv davranışın xəstəlik hesab olunması insanların məsuliyyətdən azad olunmasına kömək edir. Bu modelin üstünlüyü ondadır ki, burda insanlar cəzalandırılmaq əvəzinə müalicə olunur və bu kifayət qədər insan tibbi yardımın faydasını görüb. Ancaq yenə də bu model bütün addiktiv davranış növləri üçün doğru hesab edilə bilməz.

3. Addiktiv davranış uyğun olmayan vərdiş kimi (maladaptive behaviour)

Bu istiqamətin tərəfdarları düşünü rki, addiktiv davranış təbii haldır və insanın uyğun olmayan qeyri-sağlam təbii mühitə uyğunlaşması üçün formalaşmışdır. Maladaptiv davranış ideyasının tərəfdarları düşünür ki, addiktiv davranışa sahib insanlar yaşadıqları reallığa uyğunlaşa bilmədikləri üçün bir növ öz həyat tərzlərini, ətraf mühitlərini dəyişmək üçün belə istiqamətə əl atır (Dennis L.Thombs, Cynthia J.Osborn, İntroduction to Addictive Behaviors, The Guilford Press, London, 2013).

Addiktiv davranışın yaranması və inkişafı prosesinə bioloji, psixoloji və sosial səbəblər göstərilə bilər. Hər konkret situasiyada mövcud olan faktorların cəmi asılı vəziyyətə meylliliyin yaranmasının formalaşması riskinin dərəcəsini müəyyən edir. Yeniyetməlik yaş dövrünün həssaslığını nəzərə alsaq, bu təsirlərin hər biri əsas səbəb ola bilər. Addiktiv davranışın inkişafına təsir edən sosial amillər dedikdə, yeniyetmənin sosial çevrəsindəki problemlər aid edilir. Buraya aiddir: mədəniyyətin, ailə quruluşunun qüsurlu olması, valideynlərin düzgün tərbiyə üsullarından xəbərsiz olması, valideynlərin birinin və ya hər ikisinin narkotik, siqaret aludəçisi olması, maddi vəziyyətlə bağlı olaraq yeniyetmələrdə aqressiya, ailədən uzaqlaşma hallarının olması, məktəblərdə qurulan qüsurlu yoldaşlıqlar, narkotik vasitələrin asan əldə ediləbilən olması, istifadəsinə kəskin cəzalar və qadağalar tətbiq edilməməsi və.s

Addiksiyaların yaranmasında psixoloji təsirləri belə qruplaşdırmaq olar: uşaq yaşlarında keçirilmiş psixi travmalar, uşaqlar üzərində psixoloji və ya fiziki zorakılıq, uşaqların öz başına buraxılması ilə qayğının göstərilməməsi, şəxsi xüsusiyyətlər (temperament tipi, xarakter və.s).

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ ƏXLAQİ MƏNƏVİ FORMALAŞDIRILMASI YOLLARI

Məlikova F.E.
Sumqayıt Dövlət Universiteti
E-mail: Fizza.melikova@gmail.com

Əxlaqi və mənəvi inkişaf insan mahiyyətinin əsas xüsusiyyətidir. Həm əxlaqi, həm də mənəvi inkişaf yalnız insana məxsus olan əsas xüsusiyyətlərdəndir. Və bu proses insanı bütün həyatı boyu müşayət edir, tənzimləyir. Bu səbəbdən uşaqlarda əxlaq və mənəvi tərbiyə çox vacibdir və bu proses lap kişik yaşlarından başlamalı, mütəşəkkil xarakter daşımalıdır.

Bu gün təhsildə yeni inkişaf, yeni istiqamət daha aydın nəzərə çarpır. Bu da gələcəyimiz olan uşqların mənəvi və əxlaqi tərbiyəsi baximandan daha nikbin olmağa səbəb olur. Uşaqların mənəvi-əxlaqi tərbiyəsi məsələsi ailənin, məktəbin və bütövlükdə cəmiyyətin qarşısında duran əsas problemlərdən biridir.

Uşaqların mənəvi və əxlaq tərbiyəsi digər tərbiyələr kimi ailədən başlayır. Məktəbdə isə bu proses mütəşəkkil şəkildə davam edir. Demək olar ki, həyatın heç bir mərhələsində dayanmır.

Kişik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə olunan yol və vasitələr xüsusi əhəmiyət kəsb edir. Xüsusilə kollektivdə uşaqların tərbiyəsi daha böyük əhəmiyyət kəsb edir. Kollektivdə həmyaşıları və müəllimləri ilə ünsiyyətdə olmaq, birgə müxtəlif fəaliyyətydə məşğul olmaq uşaqlarda müxtəlif mənəvi və

əxlaqi vərdişlərin formalaşmasına kömək edir. Uşaqlar arasında qarşılıqlı hörmət, etimad, qarşılıqlı dəstək, səbr və dözümlülük kimi keyfiyyətlər kollektivdə formalaşır.

Mənəvi və əxlaqi tərbiyə bir sıra funksiyaları yerinə yetirir. Məs.Uşaqlarda həm həyat, həm də mədəniyəttin mənəvi dəyərləri haqqında ümumi fikir formalaşdırır, uşaqlarda özünütərbiyə formalaşır, ətraf aləmə, təbiətə xeyirxah münasibət formalaşdırır.

Məktəbdə həyata keçrilən əxlaq və mənəvi tərbiyənin imkanları daha genişdir. Həm dərslərdə, həm də sinifdənxaric tədbirlərdə bu proses həyata keçrilir. Əxlaqi söhbətlər, müxtəlif mövzularda disputlar, tanınmış şəxsiyyətlərlə görüşlər, tarixi yerlərə səyahətlər, əlamətdar günlərin qeyd edilməsi və s. Məktəbdə həyata keçrilən bütün tədbirlər şagirdlərin mənəvi-əxlaqi inkişafının və tərbiyəsinin təmin edilməsinə, şəxsiyyət kimi formalaşmasına yönəlmişdir. Məkəblərdə həyata keçrilən mənəvi -əxlaqi tərbiyə əxlaq normalarına və milli dəyərlərə əsaslanır. Əsas məqsəd Azərbaycan vətəndaşı təbiyə etməkdir. Yəni Azərbaycan xalqının mənəvi və mədəni dəyərlərinə köklənmiş, vətənin taleyini özününkü kimi qəbul edən, vətənin gələcəyi üçün məsuliyyəti dərk edən, yüksək mənəvi və yaradıcı, bacarıqlı vətəndaş yetişdirməkdir. Bunun üçün ailə, cəmiyyət, məktəb əlbir fəaliyyə göstəməlidir. Qayğısız keçən uşaqlıq illəri, çətin və qayğılasrla dolu gələcəyə hazir olmalıdır. Uşaqlar isə böyüklərdən, müəllimlərindən onları gələcəyə aparan yolun göstərilməsini gözləirlər. Bu işdə səhv etməmək, uşaqlara düzgün yol göstərmək, əxlaqi və mənəvi cəhətdən fotmalaşdırmaq isə müəllimlərin əsas işidir. Çünki sabahımız bundan asılıdır.

Kiçik yaşlı məktəblilərə əxlaq və mənəvi tərbiyə aşılanarkən, digər tərbiyə komponentləri ilə (estetik, intelektual, sosial, fiziki və s.) birləşdirmək daha müsbət nəticə verir. Mənəvi tərbiyə dövrümüzdə xüsusilə aktual olan etik tərbiyəyə diqqəti artırmağa kömək edir. Təlim və tərbiyə prosesləri balanslı və bərabər aparılarsa, şagirdlərin hərtərəfli və ahəngdar inkişafı təmin olunarsa, məktəblərdə yüksək səviyyəli mənəvi-əxlaqi mühit yaradılmış olar və ümumbəşəri dəyərlərin inkişafı baş verər. Məktəbin təhsil sisteminin modelinin əsas sahələri vətənpərvər və fiziki olmaqla yanaşı, uşağın ümumi mədəniyyətinin formalaşmasına yönəlmiş intellektual, etik və estetik inkişafdır.

Müasir məktəblərdə aparıcı tədris texnologiyalarından biri kollektiv yaradıcılıq fəaliyyətdir. Hər bir kollektiv yaradıcılıq işi valideyinlərin iştirakı ilə də aparıla bilər. Çünki şagirdlərin, müəllimlərin və valideyinlərin işbirliyi, təhsil sisteminin inkişafına, kollektiv yaradıcılığın formalaşmasına, şagirdlərdə sistemli əxlaqi-mənəvi keyfiyyətlərin yaranmasına güclü təsir göstərir, onun yeni bir zirbvəyə qalxmasına kömək edir. Bəs buna necə nail olmaq lazımdır?Ailə, müəllimlər və tərbiyəçilər həmişə uşağın mənəvi-əxlaqi cəhətdən formalaşmasının əsasını təşkil etmişlər. Buna görə də uşaqların mənəvi-əxlaqi inkişafı və tərbiyəsində bütün yetgililərin birgə səylərini əlaqələndirmək, uşaqların təhsil ehtiyaclarını tam şəkildə nəzərə almaq, zəngin həyat təcrübəsi və bu təcrübənin gənc nəslə ötürmək istəyi çox vacibdir. Kollektiv işlərin təşkilində uşaqların və valideyinlərin maraqları əzərə alınmalıdır. Şagirdlərin maraqları və istəklərinə əsaslanan bütün kollektiv tədbirlər onlarda mənəvi və əxlaqi keyfiyyətlərin yetişməsinə, estetik və etik qaydaların formalaşmasına, yaradıcılıq qabiliyyətinin və idrak maraqlarının inkişafına səbəb olur. Ekskursiyaların təşkili, istirahət günlərində müxtəlif tədbirlərin keçrilməsi, tanınmış insanlarla (Milli Qəhrəmanlarla, Vətən müharibəsi iştirakçıları, əmək qəhrəmanlarə, yazıçılarla və b.) görüşlərin təşkili bu qəbildən olan tədbirlərdir.

MƏKTƏBDƏ BULLİNQİN PROFİLAKTİKASI

Məmmədova M.C.
Bakı Slavyan Universiteti
E-mail:minamamedova1999@mail.ru

Profilaktikadan danışarkən yadda saxlamalıyıq ki, hər hansısa halın qarşısını almaq, xəbərdarlıq etmək, zorakılığın məktəbə və şagirdlərə vurduğu zərərləri, onun nəticələrini aradan qaldırmağa çalışmaqdan daha yaxşıdır. Böyüklərin bu problemlərə düzgün münasibəti təhsil müəssisəsində zorakılığın profilaktikası ilə əlaqədardır. Müəllimlərin, məktəb psixoloqunun, sosial pedaqoqun, valideynlərin birgə səyləri ilə bullinqi məğlub edə bilərik. Hamımıza kömək edəcək əsas keyfiyyət, başqalarının ağrısına biganə qalmamaq üçün şərait yaradan - əməkdaşlıqdır!

Bullinq fenomeni haqqında danışarkən, onunla necə mübarizə aparmaq, necə özünü qoruyub və müdafiə etmək, ağrılarını böyüklərlə necə bölüşmək lazım olduğunu qeyd etmək lazımdır. Belə ki, bu, zəifliyin etirafı deyil, bir ziddiyyətin ağrısız həll olunmasına imkan verən müdrik bir qərardır. Müasir həyat həm xeyirxah, həm də qəzəbli, qəddar insanlarla doludur. Xeyirxahlıq prinsipi ilə yaşamaq, pisliyə qalib

gəlmək, təcavüzkarı dəf etmək, lazım olduqda "yox" demək, özünə hörmət etmək, bizi qiymətləndirəcək, hörmət edəcək və anlayacaq dostlar tapmaq üçün özümüzü pozitivlərlə əhatə etmək mümkündür və lazımdır.

Psixologiya elmləri doktoru E.A. Makarova bullinq problemini araşdıraraq, yeniyetmələrdə verbal bullinqin qarşısını alan, uşaqları təcavüzkarlardan qoruyan, problemlərin necə aradan qaldırılacağını öyrədən müəllimlərin profilaktikası və müdaxiləsi üçün kopinq strategiyalarının istifadəsini təklif etdi. Kopinq strategiyaları (ingilis dilindən to cope with - bir şeyin öhdəsindən gəlmək) - bir şəxs tərəfindən qəsdən istifadə edilən çətin vəziyyətlərlə mübarizə üsullarıdır.

1966-cı ildə R. Lazarus "Psixoloji stress və mübarizə prosesi" («Psychological Stress and Coping Process») kitabında, insanın stres və həyəcanlılıq yaradan hadisələrin öhdəsindən gəlmək üçün şüurlu şəkildə istifadə etdiyi üsulları təsvir etmək üçün "kopinq" anlayışına müraciət etdi. Kopinqi "həddindən artıq və ya insan resurslarını aşan xüsusi xarici və ya daxili tələblərin öhdəsindən gəlmək üçün koqnitiv və davranış sahələrində daim dəyişən bir cəhd" olaraq təyin etdi.

Təhsil mühitində bullinq haqqında kifayət qədər məlumatınız var. Laqeydlik, qəddarlıq kollektivdə düzəlməz ziyan vura bilər ki, bu da başqalarının ağrısına diqqət yetirməyi, vaxtında empatiya qurmağı və aqressiya qarşı mübarizə aparmağı, çətin bir vəziyyəti həll etmək üçün yol tapmağı tələb edir. Nəzarət lokusu - psixologiyada şəxsiyyətin uğurlarını və ya uğursuzluqlarını yalnız daxili və ya yalnız xarici amillərlə əlaqələndirmək xüsusiyyətini xarakterizə edən bir anlayışdır. Sosial psixoloq Julian Rotter tərəfindən 1954 - cü ildə təqdim edilmişdir.

A.A.Boçaver, V.B. Kuznetsova və b. kollektiv müəlliflər tərəfindən hazırlanmış "Bullinq riski sorğusu" şagirdin bullinqə meylini qiymətləndirməyə kömək edir və dörd şkala: təhlükəlilik, rifah, ayrılıq və bərabərlik ilə təqdim olunur.

Məktəb psixoloqlarının biliklərini psixologiya, təhsil və uşaq inkişafı sahəsində istifadə etmək üçün unikal bir fürsəti var, həmçinin məktəblərdə siyasətə və praktikaya təsir edə biləcək məsləhət və təbliğat aparma bacarıqları vardır. Məktəb psixoloqları şagirdlərlə, işçilərlə, valideynlərlə və idarəçilərlə birbaşa işləməli, zorakılığın qarşısının alınması və ümumi məktəb iqliminin yaxşılaşdırılması üçün hərtərəfli yanaşmaların hazırlanmasında aparıcı mövqe tutmalıdırlar. Məktəbdə zorakılığın dolayı və ya birbaşa qarşısını ala biləcək xüsusi fəaliyyətlərə diqqət yetirək:

Təcavüzkar yenidən onlarla təmasda olduqda müqavimət göstərə biləcək bir mexanizm hazırlamaq üçün zorakılıq qurbanlarıyla konsultasiya aparmaq;

Qurbanların valideynləri və xuliqanlar ilə davranışlarını idarə etmək üçün təsirli resurslardan, dəstəkləyici tədbirlərdən və strategiyalardan istifadə etməyi təklif edən bir proqramla konsultasiya aparmaq;

Şagirdlərin sosial bacarıqlarının inkişafına kömək etmək üçün məktəb miqyasında profilaktik tədbirlərin hazırlanması;

Məktəbdə xuliqanlıq edən şagirdlərin məlumatlandırıcı sosial və emosional qiymətləndirmələrinin təşkili və aparılması;

Zorakılıq davranışlarının aradan qaldırılması və pozitiv davranış müdaxiləsi ilə əvəz edilməsi məqsədi ilə tədbirlərin məktəb personalı ilə birlikdə işlənməsi və həyata keçirilməsi;

Məktəbdə təsirli təhlükəsizlik komandalarının qurulmasında, böhran vəziyyətləri ilə məşğul olmaqda, münaqişələrin sülh yolu ilə həll edilməsində kömək məqsədilə qrup təlimləri və konsultasiyaların təşkili;

Məktəb zorakılığından əziyyət çəkən uşaqlara kömək etmək üçün aşağıdakıları təklif edə bilərik: uşaq üzərində nəzarəti gücləndirmək, zorakılıqla əlaqəli əsas anlayışları və davranışlarını idarə etməyi öyrənmələrinə kömək edəcək bir uşaq proqramı da daxil olmaqla başqalarına təsirini aydınlaşdırmaq.

UNİVERSİTET TƏHSİLİ ŞƏRAİTİNDƏ TƏLƏBƏLƏRİN EMOSİONAL SABİTLİYİNİN FORMALAŞMASI

Məmmədova S.R.
Bakı Slavyan Universiteti
E-mail: mmmdovasara20@gmail.com

Müasir tədqiqatçıların fikrincə, emosional sabitlik şəxsiyyətin çətin həyat vəziyyətlərinin stress yaradan təsirlərinə davamlılığını təyin edən əsas fərdi və psixoloji xüsusiyyətlərdən biridir. Təhsil, idman və peşə sahələrində yaxşı nəticələr əldə etmək üçün aparıcı rol oynayan emosional sabitlikdir. Söhbət təkcə çətin emosional vəziyyətlərə uyğunlaşmaq qabiliyyəti deyil, hər şeydən əvvəl qarşıya qoyulmuş tapşırığın

səmərəli həyata keçirilməsinə nail olmaq üçün onların stress yaradan təbiətinə müqavimət göstərmək bacarığıdır.

Bir çox alim emosiyaların öyrənmə prosesində həlledici rol oynaması ilə razılaşır. Alimlər böyüklərin öyrənməsində emosiyaların mənasını xüsusilə vurğulayırlar (Zeivots: 2016; Dirkx və Espinoza: 2017). Həmçinin, onlar bu sahənin hələ də əlavə və daha dərin araşdırmalara ehtiyacı olduğunu iddia edirlər.

Təhsildə emosiyaların araşdırılmasının üç səbəbi var: onların öyrənmə keyfiyyətinə təsiri, tələbələrin rifahı (fiziki və psixi vəziyyət) və onların sosiallaşmadakı rolu (yaşıdları və müəllimlər). Hesab olunur ki, emosiyalar tələbələrin öyrənməyə maraq əsasında daxili motivasiyasına, eləcə də müsbət nəticələrin əldə edilməsi ilə bağlı xarici motivasiyasına və ya mənfi nəticələrin qarşısının alınmasına təsir göstərir. Böyük rus alimi M.V. Lomonosov bu haqda yazırdı: "Müəllim hər bir şagirdin qabiliyyətinə nəzər yetirməlidir ki, kimdən nə gözləmək və hər kəsə nə kimi tələblər vermək olar." Emosiyaların mahiyyəti, təzahür xüsusiyyətləri, onların başvermə səbəbləri, psixikaya təsiri araşdırılır. Bir çox tədqiqatçılar L.S.Vıqotski, K.İzard, V.Vundt, A.N.Leontyev, R.Reykovski, U.Kennon, P.K.Anoxin, İ.P.Pavlov şəxsi yanaşmalarında emosiyaların yaranma şəraitini, fizioloji və neyropsixoloji mexanizmlərini araşdırmışlar.

Respublikamızda fərqli dövrlərdə aparılmış tədqiqatlar emosiyaların müxtəlif formalarının öyrənilməsinə yönəlmişdir. Bir çox ixtisaslar üzrə tələbələrin peşə baxımından şəxsiyyətinin yaradıcı keyfiyyətləri, yaş xüsusiyyətlərinə görə emosional halların təzahürü M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov, Ə.T.Baxşəliyev, K.R.Əliyeva, S.M.Məcidova, M.H.Mustafayev, L.Ş.Əmrahlı, Ş.Y.Abdullayeva tərəfindən öyrənilmişdir. Bunlarla yanaşı K.S.Salamovanın "Tələbələrin birgə fəaliyyətində ünsiyyətin psixoloji xüsusiyyətləri", L.S.Mürsəlbəyovanın "Emosional stress şəraitində tələbələrin idrak fəaliyyətinin psixofizioloji xüsusiyyətləri", M.S.Əliyevin "Tələbələrdə özünənəzarətin formalaşmasının psixoloji xüsusiyyətləri" ilə bağlı tədqiqat işləri problemin öyrənilməsində əhəmiyyətlidir. Tələbələrin psixi və fiziki vəziyyətlərinə emosional təsir də öyrənmədə mühüm amil kimi vurğulanır. Psixi vəziyyətə təsir edən duyğular ünsiyyətdə tez-tez ifadə olunan bəzi davranış dəyişikliklərinə səbəb ola bilər. Bu, emosional vəziyyətlə öyrənmə qabiliyyətləri arasında güclü əlaqə olduğunu göstərir. Bundan əlavə, duyğular özünü tənzimləmə üslublarına kömək edə bilər. Ümid və qürur kimi müsbət emosiyalar həm daxili, həm də xarici motivasiyaya töhfə verir və çevik öyrənmə strategiyalarına aid edilir. Beləliklə, onlar akademik performans şərtlərinə müsbət təsir göstərirlər. Əksinə, ümidsizlik kimi neqativ emosiyalar motivasiyanı və məlumatın asan işlənməsini azaldır ki, bu da performansa mənfi təsir göstərir.

Tədris prosesi zamanı müəllimlər tələbələrə emosional olaraq böyük təsir göstərə bilirlər. Başqa sözlə, müəllimin hissləri tələbələrin əhval-ruhiyyəsində əks oluna bilər. Bu səbəbdən müəllimlər özmənfişəxsiemosiyalarınınişlərinə təsir etməməsi üçün emosional intellektli olmalıdırlar. Bu, tələbələrin özləri üçün də əhəmiyyətli ola bilər ki, tələbə imtahana və ya testə hazırlaşarkən bəzi zəruri ədəbiyyatı öyrənməlidir, lakin o, bunu maraqsız hesab edir. Belə olanhalda, heç bir istəkolmasa belə öyrənməyə davam etməyin yollarını tapmalıdır. Bunun bir yolu, xoş bir şey etməklə əhval-ruhiyyəni yüksəltmək və müsbət emosiyalar oyatmaq cəhdini nəzərdə tutan "yenidənqiymətləndirmə" üsulu olabilər. Bu cür qabiliyyəti ətrafdakı insanları başa düşməyi və sosial məşğul olmağı öyrənmək üçün əhəmiyyətli uyğunlaşma funksiyası da adlandırmaq olar. Bu psixoloji təsirdir. Qeyd edilir ki, fiziki vəziyyət öyrənmə üçün əsasdır və buna xoş hisslər doğuran fiziki məşqlərlə nail olmaq olar və ya əksinə, xoş bir şeyi xatırlamaq müsbət emosiyalar doğura bilər. Bu cür tənzimləmə zəruri hallarda öyrənmə bacarıqlarını artırmaq üçün çox faydalı və effektiv vasitə ola bilər. Etibar və dəstəyə əsaslanan yaxşı müəllim-tələbə münasibətləri, başqa sözlə desək, müəllimlərin öz işləri ilə "bütün qəlbi ilə" məşğul olması, özünü bütünlüklə tədrisə həsr etməsidir. Tələbələri məzmuna cəlb etmək üçün onların emosiyalarını manipulyasiya etmək lazımdır. Burada müəllimin əsas rolu açıq olmaq və tələbələrə kömək göstərmək və tələbələri həmyaşıdları ilə ümumi dil tapmağa təşviq etməkdir. Həmçinin, emosiyaları idarə etmək bacarığı mədəni şəkildə bağlıdır və sosiallaşma ilə inkişaf edir. Əsasən bu tələbələrin digər insanlarla ünsiyyət qurmağı və başa düşməyi öyrəndiyi universitet təhsilindən irəli gəlir. Bu, tək olmadığınızı və başqalarının hisslərini nəzərə almalı olduğunuzu başa düşməkdir. Bu bəzən insanın emosional vəziyyətinə zidd olan uyğun davranışı nəzərdə tutur; məsələn, məyusluq hiss etdikdə sakit qalmaq.

Yuxarıda göstərildiyi kimi, öyrənmə, duyğular və onların əlaqəsi ilə bağlı müxtəlif perspektivlər mövcuddur. Ümumiləşdirsək, böyüklər üçün təhsil müstəqillik və məsuliyyətlə xarakterizə olunur. Öyrənməyə emosional təsir həm mənfi, həm də müsbət olabilər. Üstəlik, müsbət emosiyalar təkcə müsbət deyil, həm də mənfi təsir göstərə bildikdə emosiyaların ikiqat xarakteri var.Yetkinlərin öyrənmə prosesinə emosional təsiri daha az araşdırılır. Bunun səbəblərindən biri bəlkə də böyüklərin öz emosiyalarını idarə edə bildikləri və buna görə də onların öyrənmə prosesinə təsir etməsinə imkan verməmələridir.

EMOSİONAL ZƏKANIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Muradova L.Q.
Bakı Slavyan Universiteti
E-mail- lalamuradlilala@gmail.com

Klassik anlayışa görə emosional zəka bir insanın özünə və ya başqalarına aid duyğuları anlama, sezmə, idarə etmə və düzgün istiqamətləndirmə bacarığının ölçülməsidir. Əslində, burada söhbət hər hansı bir duyğunun nəzəri olaraq tanınmasından və ya bilinməsindən getmir. Hamımız sevginin, nifrətin və ya kədərin nə olduğunu yaxşı dərk edirik. Əsas olan, müəyyən bir hadisə və ya vəziyyət qarşısında ortaya qoyduğumuz ani reaksiyanın nə olacağıdır. Bu hadisə və ona verəcəyimiz reaksiya bir neçə millisaniyə çəkə bilər və bu qısa müddət ərzində ortaya çıxan duyğunu müəyyən etmək və cilovlamaq bəzən insanın gücü xaricində olur. Bəzən duyğusallıqla emosional zəka bir-biri ilə qarışdırılır. Emosional zəka duyğusal olmaq deyildir – tam tərsinə, sahib olduğumuz duyğuların cilovlanma və düzgün idarə olunma bacarığdır. Duyğular yaxşı tanınmadığı və düzgün tərbiyə olunmadığı halda, anidən baş verən vəziyyətlərdə adekvat olmayan davranışlar nümayiş etdirilir. Emosional zəka Daniel Qoulman, Edvard Torndayk, Carl Rogers, Peter Salovey, William James, Stefan Kovey və.s dünyaca məşhur psixoloqların emosional zəka mövzusunda elmə qatqıları danılmazdır. Ən çox səs gətirən və emosional zəkanı müasir dövrün ən aktual məsələsi halına gətirən araşdırmalar isə Daniel Qoulman tərəfindən aparılmışdır. O, yetkinlik dövründə müvəffəqiyyətin 70-80 faizinin emosional zəkadan asılı olduğunu təsdiqləyir. Emosional kompetensiyalar bunlar hesab olunur: Özünü tanıma – duyğuların dərk olunması, qarşıdakını tanıma, yəni empatiya, daxili motivasiya, öz gücünə inanma, daxili dünyası ilə ahəng içərisində yaşama, müstəqil ola bilmə, stresə davamlılıq, dinləmək və ünsiyyət bacarığı, sosial məsuliyyət, problem həll edə bilmə, özünü aktuallaşdırma, optimist olma, iradəli olma, ətraf-mühitə adaptasiya ola bilmə, uyğunlaşma bacarığı. İnkişaf etmiş emosional zəkaya sahib insanlar özləri ilə ahəng içərisində yaşayırlar, daxili dialoqları güclüdür – davamlı şəkildə güclü və zəif tərəflərini – duyğularını təhlil edib, lazımi nəticələri çıxara bilirlər. Onlar ümid, qərarlılıq və nikbinliyi uğura gedən yolda böyük faktorlar hesab edərək hər zaman özlərini ruhlandırır və həvəsləndirirlər. Məhz buna görə də onlar hər cür mənfi düşüncəni kənara qoyub, davamlı şəkildə uğura və inkişafa köklənirlər. Emosional zəkası güclü insanlar içində olduqları qrup, kollektiv və ya cəmiyyətdə hər zaman böyük simpatiya sahibi olurlar. Onlarda sosial məsuliyyət hissi güclüdür. Ünsiyyət bacarığının inkişaf etdirilməsi bu şəxsləri yaxşı dinləyiciyə çevririr. Əhatələrində olan insanların əksikliklərinə və problemlərinə sorğuluyacı nəzərlərlə yox, empatiya hissi ilə yanaşırlar – onlar əsassız şəkildə tənqid etməyə deyil, məntiqi şəkildə təhlil etməyə meyilli olurlar. Emosional zəkasını inkişaf etdirməyən insanlar isə hər xırda problem qarşısında mənfi reaksiya verir, tez ruhdan düşür və təslim olurlar. Öz potansiallarını kəşf edə bilməmiş və özlərinə inamları zəif olan bu şəxslər fikirlərini düzgün ifadə edə bilmir, adətən yanlış anlaşılırlar. İdeyalarını "satma" bacarığına sahib deyillər. Emosional zəkası zəif insanların əhval-ruhiyyəsi sabit olmayıb, tez-tez dəyişkənlik göstərir.

Davamlı şəkildə ətrafa mənfi enerji axıdaraq, insanların onlardan uzaqlaşmasına səbəb olurlar. Həllərə yox, problemlərə köklənirlər. Emosional zəkası yaxşı inkişaf etməmiş insanlara xas xüsusiyyətlərdən biri onların tez manipulyasiya oluna bilməsidir. Belələrinin öz fikirləri olmur və kənar təsirlərin altına tez düşürlər. Qərəzli yanaşma zəif insanların xarakterinin bir parçasıdır– onları düşüncələrini inandıqları dəyərlərə görə deyil, kənar qüvvələrin təlqin etdiyi təsirlər altında formalaşdırırlar.Bir sözlə istər peşəkae iş həyatında, istərsə də şəxsi həyatda uğurlu olmağı bacarmaq emosional intellekt səviyyəsi lazım olandan aşağı olan insanlar üçün çətindir, lakin xoşbəxtlikdən özünü inkişaf etdirmək və əksiklikıəri kompensasiya etmək heç bir zaman mümkünsüz deyildir.

XARİCİ PSİXOLOJİ ƏDƏBİYYATDA AQRESSİYA FENOMENİ

Nərimanlı Ə.A.
Bakı Slavyan Universiteti
E-mail: Aslinarimanli @gmail.com

Aqressiya fenomeni bir çox xarici tədqiqatçıların araşdırma mövzusudur. Problemin aktuallığı müasir dünyanın ziddiyyətlərlə dolu olması və aqressiv davranışın hər bir insanın həyatında çox adi hal olması ilə bağlıdır.

Xarici tədqiqatçılar bir-birindən özünəməxsusluğu ilə fərqlənən bir sıra aqressiya tərifini təklif edirlər. Bu konsepsiyanın aşağıdakı şərhlərini vurğulamaq olar: aqressiya dedikdə, fəallıq, özünütəsdiq istəyi başa düşülür.

Belə ki, L.Bender aqressiyadan obyektə yaxınlaşmaq və ya ondan uzaqlaşma meyli kimi danışır. F.Allan isə onu insana xarici qüvvələrə müqavimət göstərmək imkanı verən daxili qüvvə kimi xarakterizə edir. İkincisi, aqressiya dedikdə, düşmənçilik aktı, hücum, dağılma, yəni başqa şəxsə və ya obyektə zərər vuran hərəkətlər başa düşülür. X. Delqado qeyd edirdi ki, "insan aqressivliyi şəxsiyyət və ya cəmiyyətə ziyan və ya zərər vermək cəhdində gücün təzahürü ilə xarakterizə olunan davranış reaksiyasıdır".

Zilmannın aqressiya termininin istifadəsini yalnız başqalarına bədən və ya fiziki zərər vurmaq cəhdi ilə məhdudlaşdıran yanaşması da eyni dərəcədə maraqlıdır.

E.Fromma görə, aqressiya dedikdə, başqa şəxsə, bir qrup insana və ya heyvana zərər vuran, eləcə də ümumilikdə hər hansı cansız obyektə zərər vuran istənilən hərəkət başa düşülməlidir. Eyni zamanda, bir çox xarici müəlliflər aqressiya anlayışlarını davranışın spesifik forması və aqressivliyi insanın psixi xüsusiyyəti kimi ayırırlar.

Aqressiya spesifik funksiyası və təşkilatı olan proses kimi şərh edilir; aqressivlik isə insanın psixi xüsusiyyətlərinin daha mürəkkəb strukturunun tərkib hissəsi olan müəyyən struktur kimi nəzərdən keçirilir. Aqressiyanı müəyyən edərkən bir sıra tədqiqatçılar bunu obyektiv şəkildə müşahidə oluna və ölçülə bilən hadisələrin, əksər hallarda davranış aktlarının öyrənilməsi əsasında etməyə çalışırlar. Məsələn, A. Bass aqressiyanı “reaksiya” kimi müəyyən edir, bunun nəticəsində başqa orqanizm ağrılı stimullar alır. Yəni, A.Bassa görə, aqressiya başqalarını təhdid edən və ya zərər verən istənilən davranışdır.

İnsan aqressivliyi formalarının müxtəlifliyi ona gətirib çıxarmışdır ki, bu gün xarici elmdə onun birmənalı şərhi və tərifi yoxdur. Bu, müxtəlif müəlliflərə "təcavüz" anlayışına tamamilə fərqli məzmun qoymağa imkan verir. Qismən bu çətinliklər aqressivlık anlayışının öyrənildiyi konsepsiyaların geniş çeşidinin olması ilə izah edilə bilər. Bir neçə müxtəlif istiqamətli nəzəri perspektivlər var, onlardan hər biri aqressiyanın mahiyyəti və mənşəyinə dair öz baxışını görür görür:

1. İnstinkt nəzəriyyəsi (aqressiyanın öyrənilməsinə etoloji, psixoanalitik nəzəri yanaşmalar). Aqressiya və aqressivliyin dərk edilməsinə psixoanalitik və etoloji yanaşmaları nəzərə alsaq, onların anadangəlmə instinkt kimi aqressivliyin bioloji anlayışını əyani şəkildə təzahür etdirdiyini görməmək mümkün deyil.

2. Motivasiya nəzəriyyəsi: aqressiya - frustrasiya nəzəriyyəsi (aqressiyanın tədqiqinə frustrasion nəzəri yanaşma). Bu yanaşma çərçivəsində ailə tərbiyəsinin vəzifəsini valideynlərin öz övladına qarşı vahid tələblərinin hazırlanması, əməkdaşlıq, qarşılıqlı anlaşma kimi, mənfi təsirlərin minimallaşdırılması kimi göstərmək olar ki, bu da müsbət funksiyanı da yerinə yetirən mənfi təcrübələrin tam bloklaşdırılması anlamına gəlmir.

3. Sosial tədqiqat nəzəriyyəsi: koqnitiv elmi nəzəriyyə (aqressiyanın tədqiqinə biheviorist nəzəri yanaşma). Digərlərindən fərqli olaraq, bu nəzəriyyə bildirir ki, aqressiya sosiallaşma prosesində müvafiq hərəkət kursunun müşahidəsi və sosial gücləndirmə yolu ilə öyrənilmiş davranışdır.

Beləliklə, aqressiya fenomeni həm təfsirində mürəkkəbliyi, həm də aqressiv davranışın təbiətini və təzahür formasını izah etməyə çalışan bir çox konsepsiyaların mövcudluğu ilə fərqlənir.

ÖZÜNÜ AKTUALİZASİYA PROBLEMİ POZİTİV PSİXOLOGİYADA

Quliyeva A.P.
Sumqayıt Dövlət Universiteti

Cəmiyyətin bütün sahələrində gedən sürətli inkişaf, quruculuq işləri, müxtəlif islahatlar fonunda özünü daha çox reallaşdıra bilən şəxsiyyətlərə ehtiyacı artır. Sosial şəbəkələrdə, gündəlik həyatda, peşə sahəsində, geyimdə və sair sahələrdə dominantlıq təşkil edən cəhətlər isə insanların özünü təsdiq etmə ehtiyacından yaranır. Bu tələbatlara cavab axtaranlar isə özünü reallaşdıran, həyatda öz yerini tapa bilən, cəmiyyətin ümumi inkişafına töhfə verən insanlardır. Buna görə də psixologiyanın pozitiv tərəfi özünü aktuallaşdırma məsələsinə daha həssas yanaşır, müasir insanın uğurlu fəaliyyətinin özünü aktuallaşdırmaya əsaslandığını qeyd edir.Pozitiv tərəf (pozitiv istiqamət) psixologiyanın tamamilə yeni istiqaməti olmasına baxmayaraq şəxsiyyətin inkişafına bir başa təsiri təsdiq olunmuşdur.Buna görə də pozitiv psixologiya insanın təlim və təhsil porosesində özünü aktuallaşdırması üçün zəruri olan proqramlar hazırlamış, insan şəxsiyyətinin inkişafına şərait yaratmışdır. Bu nöqteyi-nəzərdən özünü aktuallaşdırmanın metodoloji əsaslarının öyrənilməsinə və onun necə inkişaf etdirilməsinə ehtiyac var.

Özünü aktuallaşdırma termini olaraq ilk dəfə K.Qoldşteyn tərəfindən tərtib edilsə də A.Maslou bu termindən ehtiyacların iyerarxiyasını göstərmək üçün istifadə etmişdir. İnsan ehtiyaclarının iyerarxiyasını göstərən A.Maslou insan motivasiyasına dair orijinal məqaləsində ilk dəfə olaraq özünü aktuallaşdırmanı "insan nailiyyətlərinin əldə edilməsi" kimi təsvir edir. Bu ehtiyacı özünü aktuallaşdırma ehtiyacı adlandırmaq olar".

Özünü reallaşdırmaq həm də insanın qabiliyyət və resurslarının maksimum ifadəsinə yönəlmiş psixoloji prosesdir. Bu proses bir şəxsdən digərinə dəyişə bilər. Başqa sözlə desək, məqsədimiz çərçivəsində özünü həyata keçirmə insanın öz yaradıcı, intellektual və sosial potensialının tam reallaşmasıdır.

Bununla belə, özünü reallaşdırma şəxsi potensialın reallaşdırılmasına yönəldiyindən və əsas məqsəd kimi təqdim edildiyindən, bu, insandan insana əhəmiyyətli dərəcədə dəyişə bilər. Bu proses fərdi motivləri tanımaq və həyata keçirmək cəhdidir.

1960-cı illərdən başlayaraq özünü aktuallaşdırma anlayışı psixoloji məqalələrdə və gündəlik həyatda tez-tez istifadə olunur və bununla da insanların şüuruna hər cür təsir göstərirdi. Hər bir elmi konsepsiyanın elmi məzmununu araşdırmazdan əvvəl onun elmi dövrəyə daxil olmasının tarixi-psixoloji vəziyyətini aydınlaşdırmaq lazımdır.

Psixoloji ədəbiyyatın təhlilinə əsasən demək olar ki, A.Maslou və K.Rocersin ideyaları əsasında özünü aktuallaşdırma elmdə vətəndaşlıq hüququ qazanmışdır. Təsadüfi deyil ki, bu ideyalar psixologiya elmlərinin hüdudlarını aşaraq ictimai-humanitar elmlər sistemində görkəmli yer tutdu.

Lakin özünü aktuallaşdırma ideyasının elmi inkişafı və psixologiyada üstünlük təşkil etməsi iyirminci əsrin 70-ci illərinin sonlarına qədər davam etdi, bundan sonra onun yeni inkişaf istiqamətləri, metodoloji sistemi olmadı.

Yaranan bir sıra psixoloji (idrak psixologiyası, rol nəzəriyyələri, fəaliyyət yanaşmaları, daxili və xarici lokus nəzarəti və s.), eləcə də qeyri-psixoloji ideyalar nəticəsində özünü aktuallaşdırma əvvəlki elmi məzmunda inkişaf etdirilmir, əksinə gündəlik həyat səviyyəsində, tez-tez iqtisadi kateqoriya kimi ön plana çıxdı, insan öz daxili resurlarını bazara uyğunlaşdırmağa başladı. Bu isə insan psixikasına ciddi ziyan vurulmağa başladı.Çünki, iqtisadi baxımdan özünü aktuallaşdıran insan psixoloji mənada özünü müasir bazarın tələb etdiyi mənada inkişaf etdirilməyə başlayır. Beləliklə, özünü aktuallaşdırma marketinq və idarəetmə psixologiyasında daha konkret məna kəsb etməyə başladı. Bu sui-istifadə Riçard Betelsin işində və Neyro Linqvistik Proqramlarda da öz əksini tapmışdır.

Azərbaycanlı psixoloq R.V. Cabbarov problemin təhlilində ciddi məqamları vurğulayır və bu iki anlayışı bir-birindən ayırmağa çalışır: O, yazır: "Həyata keçirmə (reallaşma) hər şeydən əvvəl əqli fəaliyyəti (idrak aspekti) dərk etmə prosesidir. Aktuallaşma maddi nəticəsi olan fəaliyyət prosesidir. Bu halda deyə bilərik ki, özünüdərk anlayışına fəaliyyətin nəzəri, intellektual, idraki tərəfləri, onun daxili planı daxildir.

Özünü reallaşdırma, özünü inkişafdan fərqli olaraq, özünü "ideal-Mən"i, şəxsiyyətin daxili mənzərəsini və həyat planını əks etdirən "Mən-konsepsiya"nın korreksiyası və yenidən qurulmasında, eləcə də onun həyata keçirilməsi prosesində özünü göstərir. Özünü reallaşdırma və özünü inkişaf vahid prosesin iki ayrılmaz aspektinin inkişafı və formalaşmasını həyata keçirir. Özünü reallaşdırmaq insanın öz məqsədinə çatmaq üçün etdiyi son hərəkətdir və onu müsbət fəaliyyətə sövq edir.

HİPERAKTİV UŞAQLARLA UŞAQ-VALİDEYN MÜNASİBƏTLƏRİNİN ƏSAS PROBLEMLƏRİ

Rəşidova A.N.
Bakı Slavyan Universiteti
E-mail: aytacrashidova94@gmail.com

Müasir dövrün ən aktual məsələlərindən biri hiperaktiv uşaqlarla aparılan psixoloji korreksiya işləri və uşaq-valideyn müasibətlərinin düzgün qurulması vasitəsi ilə bu işə müsbət dəstək verməkdir. Bu işin təşkil olunmasında həm cəmiyyətimizdə aparılan maarifləndirmə işinin həm də vaxtında diaqnoz qoyulub uşaqların və ailənin reabilitasiyaya cəlb olunmasının da müstəsna rolu vardır. Hiperaktiv uşaqların cəmiyyət içində sərgilədiyi davranış pozulmaları, yaratdığları səs küy, heç bir dostluq münasibətlərinin olmaması valideynlərin onlara qarşı sərt reaksiyalar göstərməsi uşaq-valideyn münasibətlərinin zədələnməsinə gətirib çıxarır. Tezisin adından da məlum olduğu kimi hiperaktiv uşaqlara sahib ailələrdəki uşaq-valideyn münasibətlərinin əsas problemləri və istiqamətlərini müəyyənləşdirərək, onların təkmilləşdirlməsi, valideynlərə tövsiyələr vermək kimi əsas məsələləri öyrənməkdir. Valideynlər əsasən uşaqların müxtəlif problemləri ilə bağlı psixoloji yardıma müraciət edirlər. Bunları üç böyük qrupa birləşdirmək olar: uşaq

inkişafı problemləri, uşağın davranış problemləri, uşaq-valideyn münasibətləri problemləri. Bütün bu problemlər bir-biri ilə sıx bağlıdır. Məsələn, uşağın inkişafı iki qrup amildən - bioloji və ətraf mühitdən asılıdır. Sonuncular arasında ən əhəmiyyətlisi, şübhəsiz ki, uşağın inkişafına da təsir edən və çox vaxt onu birbaşa təyin edən valideyn-övlad münasibətləridir.

Uşaq-valideyn münasibətləri, valideynlərin və uşaqların bir-birinə münasibətdə müxtəlif hissləri, fikirləri, qiymətləndirmələri, davranış reaksiyaları və stereotipləri sistemi olan ailə münasibətlərinin növlərindən biridir. Onları digər şəxsiyyətlərarası münasibətlərdən fərqləndirən öz xüsusiyyətləri var.

Hər bir insan valideyn-övlad münasibətlərində iştirak edir, çünki hər kəsin valideynləri var və ya olub. Uşaq valideynsiz böyüsə də, hələ də onlara münasibətdə kompleks hisslər, qiymətləndirmələr var. Uşaq-valideyn münasibətləri əlamətindən asılı olmayaraq ömürlük münasibətlərdir. Üstəlik, insan həyatın gedişində təkcə uşaq deyil, həm də valideyn rolunda və eyni zamanda bu iki rolda ola bilər. Valideyn-övlad münasibəti həm valideyn, həm də uşaq üçün güclü emosional əhəmiyyətə malikdir. Bu, bəlkə də ən emosional şəxsiyyətlərarası münasibətdir ki, xüsusilə hiperaktiv uşaqların valideynlərinin davranışları övladlarında olan psixoloji problemləri müsbət və ya mənfi çox güclü təsirə malikdir. Uşaq-valideyn münasibətləri həmişə birmənalı deyil, onlar daxili münaqişə ilə xarakterizə olunur. Belə ki, bir tərəfdən valideynlər uşağa məhəbbət bəxş edir, ehtiyaclarının ödənilməsini təmin edir, digər tərəfdən isə tərbiyə edir ki, bu məqamda əsas tərbiyə üsulu kimi cəza nəzərdə tuturlar.

Valideynlər bir tərəfdən uşağın idrak fəaliyyətini məhdudlaşdırmaqla onu təhlükədən qorumalı, digər tərəfdən isə ona özünə qulluq etməyi öyrətməlidir. Valideynlər əksər hallarda övladları ilə ünsiyyət yaratmağı yox, onlar üzərində hakimiyyət qurmağı düşünürsə, bu zaman işlər dəyişir. Valideyn-uşaq qarşıdurmaları ən çox uşaqların valideynlərinə qarşı davranışları və ya valideynlərin uşaqları ilə ünsiyyət üslubları səbəbindən yaranır.

Valideynlər yetkin övladının müstəqil və özünü təmin etməsinə çalışırlar, lakin eyni zamanda onu buraxmaqdan qorxurlar və s. Valideyn-övlad münasibətləri partnyorların bərabərliyini nəzərdə tutmur, uşaq böyüdükcə və valideynlərdən ayrıldıqca istər-istəməz keyfiyyət və xarakterca dəyişir. Hər iki tərəf bu münasibətlərin fəal iştirakçısı olmasına baxmayaraq, valideynlər hələ də onlarda aparıcı rol oynayırlar.

Uşaq-valideyn münasibətləri hiperaktiv uşağın inkişafını və sosiallaşmasını şərtləndirən ən mühüm amildir. Uşaq-valideyn münasibətlərində problemin həlli prosesində uşağın qarşısına seçimlər qoymaq onun münaqişəyə yox, həll prosesinə daha çox maraq göstərməsinə şərait yaratmaqdan ibarətdir. Bu, eyni zamanda ona təqdim olunan variantlardan birini seçməsi üçün seçim rolunu oynayır. Uşaqla valideyn arasında ortaq qərar alındığı üçün problem böyümür, əksinə, yerində və zamanında həllini tapır. Bu halda valideynlərlə uşaqları arasındakı münasibətlər daha möhkəm və sağlam qurulur.

Müasir ailə cəmiyyətin həyat fəaliyyətinin bir çox sahələrinə daxil edilmişdir. Valideynlərdə asudə və kifayət qədər vaxtın olmaması, psixoloji yüklənmələr, stresslər və bir çox digər neqativ amillərin mövcudluğu valideynlərdə qıcıqlanmanı, aqressivliyi, xroniki yorğunluğun inkişafını stimullaşdırır. Nəticə etibari ilə yaranan problemlərin aradan qaldırılmasına mütəxəssis dəstəyinə ehtiyac duyulur.

AİLƏ MƏİŞƏT KONFİLİKTLƏRİNİN AİLƏDAXİLİ MÜNASİBƏTLƏRƏ TƏSİRİ

Sadıqova A.E.
Bakı Slavyan Universiteti
E-mail: ayselsadigova98@gmail.com

Ailədaxili qarşılıqlı münasibətlərdə diqqəti cəlb edən əsas məsələlər konfiliktlər və zorakılıqlardır. Konfiliktlər özünü ailəinin ilk çağlarından özünü göstərir. Əsasən bu hal ailədə kimin lider, başçı olmasının dəqiqləşməməsindən irəli gəlir. Tərəflərini tam dəqiqləşdirə bilmirlər deyə konfiliktlər yaranır.

Ailədə tərəflərdən biri liderliyə can atır, mübarizə aparır və digər tərəfdə ona qarşı çıxır. Beləliklə konfiliktin təməli qoyulur. Zaman keçdikcə hərkəs öz yerini tapır və öz rolunu dərk edib ona uyğun davranmağa başlayır. Əks halda isə konfilikt halları dərinləşir nəticədə isə daha pis vəziyyət yaranır. Ailədə liderin hansı üslubdan istifadə etməsi xüsusi rol oynayır. Bəzən lider avtoritar üslubla digər tərəfi özünə tabe etməyə çalışır və hökmranlıq edirlər. Bu hal da ziddiyyəti daha da dərinləşdirir.

Baş verən hadisələrin səbəbləri çoxdur. Ər və arvadın bir-birini yaxşı tanımamasından, ailədaxili münasibətin düzgün qurulmamaısından, ünsiyyət üslubunun doğru seçilməməsindən və s. digər bir çox səbəblərdən ola bilər.

Ailə qurmuş gənclər 3-4 il bir-birlərinə uyuşmaqda çətinlik çəkirlər. Tez-tez aralarında söz-söhbətlər yaranır, anlaşılmazlıqlar olur. Bu dönəmlərdə ailədə dünyaya gələn uşaqların psixologiyasına da mənfi təsirlər edir. Professor A.N Abbasov kolleclər üçün yazdığı «Milli əxlaq və ailə etikası» dərsliyində ailənin psixoloji iqlimi barəsində çox dəyərli və önəmli fikirlər söyləyir. O yazır « Evdə psixoloji iqlimin hökm sürməsi üçün ailə üzvləri arasında psixoloji uyuşma mövcud olmalıdır. Ər-arvad , ilk növbədə ailə həyatının başlanğıcında bir-birinə uyuşmalıdır. Kişi bir ailədə, qadın başqa ailədə böyüyüb. Onlara ata evində verilən tərbiyə, göstərilən psixoloji təsirlər müxtəlif ola bilər. Mümkündür ki, birisi həmişə qayğı ilə əhatə olunub , maddi ehtiyyacın nə olduğunu bilməyib, ailədə ona irad belə tutulmayıb, əlini ağdan qaraya vurmayıb, tələbi dərhal ödənilib. Digəri isə maddi sıxıntı çəkib, uşaqlıqdan valideyinlərinə öz işlərində kömək edib, acı söz də eşidib, danlaq da görüb ailədaxilində baş verən konfiliktlər, zorakılıqlar, ailə mühitinin qeyri sağlam olması və s bunların hərbiri uşağın psixi inkişafına, şəxsiyyətinin formalaşmasına ciddi şəkildə təsir edir. Aparılan araşdırmalar göstərir ki, uşaqlara qarşı olan münasibətdə təsir göstərən tərəf tək uşaqlar deyil, valideyinlər də özlərinə təsir göstərirlər. Övladları olduqdan sonra dünyaya fərqli gözlə baxırlar. Yeni həyata başlamış kimi hiss edirlər. Bəziləri uşaqlarını özlərinin yaşaya bilmədikləri həyata hazırlayırlar, bəziləri isə onun öz yolunu seçməyində sadəcə dəstək olurlar.

İNSAN HƏYATINDA FƏRDİ POTENSİALIN ROLU

Talıbova B.Ə.
Sumqayıt Dövlət Universiteti
E-mail: benovshe1717@yahoo.com

Fərdi potensial anlayışı alimlər tərəfindən bir çox müxtəlif aspektlərdə araşdırılaraq öyrənilmişdir. Hal-hazırda müxtəlif şərhlərə malik olan fərdi potensial anlayışı üzərində yeni teoremlərin analiz prosesi davam etməkdədir. Hər bir fərdin həyatı müxtəlif maneələr, çətinliklər və sınaqlarla əhatə olunmuşdur. Fərdin özlüyündə baş qaldıran və zaman-zaman onun fəaliyyətinə maneə törədən sosial fobiyalarını aradan qaldıraraq, bu problemlərin həllinə çatması həmin insanın imkanlarını, yəni öz fərdi potensialını ortaya qoyur.

İnsanların həyatları boyunca təhsilli olmağa önəm verilməsinə baxmayaraq, zaman-zaman qarşımıza ali təhsil almadan belə öz həyat fəaliyyətində önəmli bir mövqeyə malik olan insanlara rast gəlinir. Belə ki, bu zaman insanın öz bacarıq və qabiliyyətləri ön plana çıxır. Lakin qeyd edilənlərdən əlavə olaraq, əlverişli şəraitin, insanın xarakterində qətiyyətin olması və s. nüanslar da özünü göstərir. Fəlsəfi nöqteyi-nəzərdən potensial hər bir fərdin daxilində olan pozitiv enerji olaraq izah edilir. Onun fəaliyyəti, formalaşması və inkişaf istiqaməti insanın özündən asılı baş verən bir prosesdir.

Əksər hallarda, insan öz potensialını tamamilə dərk edə bilmir, belə ki, öz imkanları və bacarıqlarından belə xəbərdar olmur. Bu səbəbdən də insan müxtəlif şəraitlərdə öz fərdi potensialından istifadə edə bilmir. Hər hansısa bir müvəffəqiyyət göstəricisinin əldə edilməsi birbaşa insanın özündən asılı olsa da, ona təkan verən xarici təsir qüvvələri də mövcud olur.“Dell Computer”-in qurucu ortağı və CEO-su olan Maykl Saul Del yuxarıda qeyd olunan göstəricilərə malik şəxsdir. Belə ki, o hələ orta məktəbdə təhsil alarkən ilk qazancını artıq əldə etmişdir. Ticarət həyatına qəzaet və jurnal satmaqla başlayan Mayklın sonradan maraq sahəsini kompüterlər təşkil etmişdir.

Beləliklə öz həyat fəaliyyətində ali təhsil almadan kariyera sahibi olan və seçilən insanlar siyahısına əlavə edilmişdir. Hələ 16 yaşında orta məktəbdə təhsil almaqdan imtina edən Uolt Disney məhşur cizgi film personajlarının ərsəyə gətirilməsinə nail olması ilə tanınmışdır. “Apple” şirkətinin atası adına layiq görülmüş Stiv Jobs təhsil aldığı Reed kollecini tamamlamadan iş həyatında müvəffəqiyyət əldə etmiş olsa da, burada aldığı kalliqrafiya təhsili ilə ilk Mac kompüterlərində müxtəlif şriftlər yaratmışdır. Yuxarıda qeyd olunanlar kimi bir çox nümunə gətirilməsi mümkündür.

Ümumilikdə baxdıqda, şəxsiyyətin inkişaf edtməsində təhsilin önəmi vurğulansa belə, onunla paralel şəkildə insanın fərdi potensialının olması da özünü göstərir. Müxtəlif elm adamları tərəfindən fərdi potensial ilə bağlı bir çox araşdırmalar, tədqiqatlar aparılmışdır.

Təbii olaraq, biri digəri ilə əlaqədar olan və ya olmayan saysız nəticələr yeni məlumat olaraq elmə daxil edilmişdir.Şəxsi potensial, bunlarla yanaşı, ilk növbədə insanın daxili imkanlarını inkişaf etdirmək bacarığını ifadə edir.

Şəxsiyyətin potensialı dedikdə ətraf mühitlə səmərəli əlaqə qurmaq, məhsuldar olmaq, effektiv təsir göstərmək, uğurla böyümək və inkişaf etmək bacarığı anlaşılır. İnsanda şəxsiyyət haqqında irəli sürülmüş

iddialara əsasən, müəyyən nəzəri və eksperimental tədqiqatların keçirilməsində bir sıra çətinliklər meydana çıxır.

- Emosional faktura problemi və fərdi potensialın diaqnozu diqqət çəkir.

- Fərdi potensialın formalaşması prosesi və onun formalaşmasına müəyyən şərait yaradan və ya əksinə, mane olan ünsürlər ayırd edilir. E. Desi və R. Rayanın daxili avtonom motivasiyası istiqamətində , xüsusilə, mükəmməl şəkildə göstərilmişdir ki, sanki insan tərəfindən əks qarşılıqlı informasiya formasında alınan məlumatlar müxtəlif səviyyələrdə bu və ya digər motivləşdirilmiş cisimlərin və orientasiyaların səbəblərinin formalaşmasına yardım edir. Hərhansı bir məlumat insanın daxili motivasiyasını qaldırıb, onun öz səyi, cəhdi nəticəsində uğur qazana biləcəyinə inam yaradırsa, digər məlumatlar onun əksini təmin edir.

- Real davranış nəhayətində nəticələrin əksəriyyətinə cavabdehlik edən və əsas müstəqil dəyişən olan şəxsi potensialın işlənməsi sayılır. Nümunə olaraq, yüksək əxlaqi əqidələri olan və bu inancları eyni şəkildə təbliğ edən iki şəxsi təslim etməyə icazə verilir. Lakin gözlənilməyən şərait yarandığı zaman şəxslərin hər birində fərdi potensial eyni səviyyədə olmadığından onların qarşılıq reaksiyaları da mütənasib olaraq müxtəlif olacaqdır. Yaranan bu vəziyyəti sovet filosofu M.K.Mamardaşvili analiz edərək, mənəvi dəyərlərin və inancların formalaşmış şəxsi strukturlara əsaslanmaması nəticəsində, onların real seçimdə təcəssüm olunmadığını sübut etdi.

Yüksək mənəvi bir hərəkət üçün yalnız inanclar kifayət deyil, bunun üçün xüsusi yüksək mənəvi "əzələlər" də tələb olunacaqdır. Buna görə də, mexaniki şüursuz hərəkətlərdən daha çox davranış və bioqrafik dəyişənlərdən istifadə etmək daha məsləhətlidir, çünki bəzi meyllərin olması onların real həyatda təzahürünə zəmanət vermir.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL-EMOSİONAL İNKİŞAFINA ŞƏRAİT YARADAN MÜSBƏT PSİXO-PEDAQOJİ MÜHİT

Yusifzadə D.Y.
Bakı Slavyan Universiteti
E-mail: ydilrube@gmail.com

Sosial-emosional inkişaf həyatımızın ilk anından son anına qədər davam edən bir prosesdir. Sosial və emosional inkişafı bir birindən ayırmaq düzgün deyil, onların hər ikisi birlikdə insana təsir edir. Uşaqlarda sosial-emosional sahənin güclü formada inkişafı məktəbəqədər yaş dövrünə təsadüf edir. Bu yaş dövründə uşaqlarda emosiyalar dəyişkən xarakter daşıyır.

Təbii ki, belə bir vəziyyətdə sosial mühitin təsiri danılmazdır. Buradan isə belə bir nəticəyə gəlirik ki, necə ki emosiya və hisslərimiz sosial münasibətlərimizə təsir edir, eynilə sosial amillər də bir başa emosiyalarımıza təsir göstərir. Bu yaş dövründə uşaqların normal inkişafının təmin olunmasın da məktəbəqədər təhsil müəssisələrinin rolu əvəz olunmazdır. Lakin, bu prosesdə təkcə məktəbəqədər təhsil müəssisələri deyil, eyni zamanda valideynlər də öz vəzifələrini doğru formada yerinə yetirməlidirlər. Məktəbəqədər təhsil müəssisələrində uşaqlar öz həmyaşıdları ilə ünsiyyətdə olur müxtəlif, oyunlar vasitəsilə kollektivə, qruplara daxil olur həm özünün, həm də ünsiyyətdə olduğu şəxslərin emosiya və hisslərini qavrayır və sosiallaşır. Beləliklə də, uşaqlarda düzgün davranış qaydaları formalaşır.

Məktəbəqədər təhsil müəssisələrində psixo-pedaqoji mühitin təşkili qarşıya bir sıra məqsədlər qoyur: uşaqlarda öz qərarlarını verə bilmək, özünə inam, sərbəst şəkildə seçim edə bilmək, ətraf aləmə gələcəyə qarşı müsbət düşüncələr formalaşdırmaq, öz bacarıqlarının fərqinə varması və onları inkişaf etdirmək, problemli situasiyalarda problemin düzgün həlli yollarının tapılması və.s

Lakin, psixo- pedaqoji mühit təkcə məktəbəqədər təhsil müəssisələrində yekunlaşmır, bu proses uşaqların daxil olduqları bütöv bir mühiti əhatə etməlidir. Əgər uşaq ailədə, parkda, məktəbəqədər təhsil müəssisəsində və. s bunların hər birində fərqli davranış forması və fərqli nümunələrlə qarşılaşarsa, eyni zamanda valideynlərin, müəllim və tərbiyəçilərin və digər şəxslərin uşaqlara verdikləri öyüd və nəsihətlərin tam əksinə davranış nümayiş etdirərlərsə və. s bu kimi mənfi hallar sonralar uşaqlarda davranış pozulmalarına, mənfi emosiya və hisslərə səbəb ola bilər. Bu isə həm uşağın emosiyalarına, həm də sosiallaşmasına mənfi təsir edir, onun sağlam şəxsiyyət kimi yetişməsinə əngəl yaradır.

Müsbət psixo-pedaqoji mühitin təşkilində əşya-məkən mühitinin məqsədə uyğun formada qurulması vacibdir. Əşya-məkan mühiti dedikdə buraya istifadə olunan avadanlıqlar, otaqların ölçüsü, yaş dövrlərinə uyğun inkişafetdirici oyuncaqlar, şəkillər və. s daxildir. Bu prosesdə istifadə olunan hər bir əşya uşağın inkişafına mənfi və ya müsbət təsir göstərir.

РОЛЬ ПСИХОЛОГИЧЕСКОЙ СЛУЖБЫ В РАЗРЕШЕНИИ ШКОЛЬНЫХ КОНФЛИКТОВ

Азизова Г.Б.
Бакинский славянский университет
E-mail: Azizova_Gunay@list.ru

Конфликт в школе является весьма распространенным явлением, которое возникает как в классном, так и в педагогическом коллективе. Желание самоутвердиться, быть лидером в классе приводит в некоторых случаях к появлению противоречивых поступков, особенно ярко проявляющихся в подростковой среде.

Данный возрастной этап психического развития ребенка граничит определенными сложностями, проявляющимися как в эмоциональном плане, так и спецификой поведения, которое имеет весьма часто агрессивный оттенок.

Выбор данной темы для проведения эмпирического исследования обусловлен особым интересом, который направлен на желание помочь подросткам спокойно перейти от младшего школьного возраста к более высокой ступени психического развития. Роль школьного психолога в современных условиях образования предъявляет определенные требования как к проведению диагностико-коррекционного обследования, так и к осуществлению профилактических мер по снижению уровня проявления конфликтов в школьном коллективе, что позволяет говорить об актуальности исследования.

Не вызывает сомнений тот факт, что данная проблема достаточно часто изучается в рамках организации деятельности работы не только школьных психологов, но и учителей. Своевременная диагностика и профилактика конфликтов в школьном коллективе крайне необходима, в виду того, что здоровый климат в коллективе способствует разумному планированию процесса обучения учащихся, развитию и проявлению их интеллектуального потенциала.

В рамках общей концепции исследования личности, проблема конфликта была объектом пристального внимания как зарубежных, так и российских психологов: 3. Фрейд, К. Хорни;, А. Адлер, Э. Эриксон, Р. Дарендорф, К. Левин, К. Томас, А. Рапопорт, Т. Шелинг, А.Я.Анцупов, В.Г.Бочарова, М.П.Гурьянова, Н.В: Гришина.

Нельзя не отметить вклад отечественных психологов, которыми за последние годы были исследованы отдельные вопросы, связанные с оказанием психологической помощи учащимся в разрешении школьных конфликтов: А.Н.Аббасбейли, Я.Н.Алиев, П.Г.Дарабади, А.Г.Ибрагимов, А.Махмудова, Н.Х.Мирза, М.Н.Эюбова. Несомненным достоинством проведенных исследований является попытка предложить современные методы разрешения конфликтных ситуаций, практическая направленность работ, выработка копинг-стратегий поведения в конфликте.

Современная психологическая наука предлагает достаточно интересные и эффективные методы работы со школьными конфликтами. Так, весьма популярен предложенный А.Ф.Анцуповым модульный социотест, который позволяет диагностировать взаимоотношения и межличностные отношения в коллективе.

Включающий в себя два базовых модуля тест, на основе которого в школе может быть создана система для проведения диагностической работы с классным коллективом, предполагает также использование дополнительных модулей, что позволяет оценить качество работы каждого учащегося. Помимо этого весьма востребованным в системе школьного образования является возможность прогнозирования конфликтов, что создает условия для принятия эффективных мер по урегулированию межличностных противоречий, возникающих в коллективе. Перед школьными психологами стоит важная задача, заключающаяся в оптимизации организационно-управленческих условий работы школы, устранение социально-психологических и личностных причин возникновения конфликтов.

Сегодня школьной психологической службой предусмотрены определенные диагностические методики, профилактические мероприятия, направленные на снижение уровня конфликтогенности как в ученическом, так и педагогическом коллективах. От слаженной работы психолога, педагога и родителей зависит как атмосфера внутри класса, так и эффективность образовательного процесса.

Таким образом, подготовка программы в системе школьной психологической службы, своевременная диагностико-коррекционная и профилактическая работа позволит предотвратить негативные моменты в образовательном пространстве школы.

ПОДРОСТКОВОЕ ОДИНОЧЕСТВО

Алиева Н.Р.
Бакинский славянский университет
E-mail: narmina.2000@mail.ru

На протяжении многих веков одиночество считалось одной из самых серьезных проблем человечества. В психолого-педагогической литературе феномен одиночества трактуется неоднозначно. Некоторые авторы подчеркивают негативные моменты, связанные с переживанием одиночества, чувством замкнутости, риском развития психических расстройств. Другие, в свою очередь, видят в подростковом одиночестве ресурс для развития личности.

Особую тревогу вызывает одиночество подростков, так как именно в этот возрастной период, по мнению большинства зарубежных и отечественных исследователей (А.Г. Амбрумова, О.Е. Калашникова, Ю.В. Валлерштейн, Г.Б. Келли, В. Киселева, И.С. Рэй, А.А. Реан, Е.Е. Рогова, Р.В. Шмелев и др.), что одиночество переживается чаще и является одной из самых серьезных и особо опасных проблем. В современном мире люди всё чаще испытывают чувство одиночества, но при этом каждый индивид испытывает его по-своему. Рассматриваемая нами проблема до сегодняшнего дня является актуальной как для педагогов, так и для психологов, занимающихся исследованием данной проблемы у детей в подростковом возрасте.

Одиночество – социально-психологическое явление, эмоциональное состояние человека, связанное с отсутствием близких, положительных эмоциональных связей с людьми. Данное чувство подросток испытывает от того, что он понимает, что он отличается от других людей, поэтому появляется психологический барьер в общении со сверстниками. Данное состояние каждый индивид преодолевает по-разному и индивидуально, однако наиболее интенсивно одиночество ощущается в подростковый период.

Если рассматривать на отдельно взятых теориях одиночество, то стоит выделить теорию психолога К.Хорни, которая считала одиночество конкуренцией между людьми. Психоаналитик З.Фрейд отмечал, что данное чувство – невротическое состояние.

Психолог Фромм-Рейхман считал, что одиночество - последствие недостатка материнского внимания. По мнению учёного Л.С.Выготского, подростками в этот период управляют такие явления, как ненависть по отношению к своей внешности, ненависть к окружающим его людям.

Проблеме одиночества посвящен ряд исследований в литературе: Г.С.Саливан, З. Фрейд, К. Роджерс, К. Хорни, Н.А. Бердяев, Э. Фромм и т.д.

В литературе принято выделять три группы одиночества: временное одиночество, ситуативное одиночество, хроническое одиночество.

К сожалению, в настоящее время все больше становится число подростков, столкнувшихся с этой проблемой, которых сопровождают такие опасные явления, как алкоголизм, депрессия, попытки суицида. Всё это обусловливается тем, что подростки чувствуют себя ненужными, неуверенными, им кажется, что их никто не понимает.

Существует ряд причин, которые приводят к одиночеству в подростковом периоде: конфликтные семьи, гиперопека, трудности с усвоением школьного материала, проблемы со здоровьем, также подростки постоянно себя оценивают, им всегда что-то не нравится, они думают, что другие люди тоже замечают их недостатки, так как общество предъявило идеал внешности как у мужчин, так и у женщин, следовательно, у них низкий уровень самооценки.

Для подростков отношения с друзьями намного значимы, чем с семьёй. Реакция на одиночество может быть разной: депрессия или враждебность, принятие его или желание преодолеть это состояние, это зависит от их собственных объяснений этого чувства. Также одной из актуальной причины является романтизация чувства одиночества со стороны подростков.

На сегодняшний день в этой области используются различные методики исследования одиночества на выявление таких явлений среди подростков, например: проективные методики, опросники, тесты, анкеты, которые позволяют диагностировать виды одиночества и позволяют психологам решить данную проблему.

МЕТОД САМОРЕГУЛЯЦИИ:ВЛАСТЬ НАД СОБОЙ

Алиева С.Р.
Бакинский славянский университет
E-mail: sureyyarovshen@gmail.com

Метод саморегуляции считается одним из эффективных способов борьбы со стрессом. С. Ю. Головина трактует психологическую саморегуляцию как «систематическое изменение личности в функционировании различных психофизиологических процессов, требующее специальных средств контроля деятельности.» Задача саморегуляции заключается в изменении психического состояния, не выполняющего основной функции согласования условий жизни и потребностей человека. При этом положительные изменения могут быть достигнуты внутренними регуляторными средствами и методами активного психического самовоздействия, связанными с реализацией внутренних ресурсов. Саморегуляция включает в себя 3 уровня: нервная, психическая и гуморальная, они создают единую целостную систему.

Было исследовано, что основная задача, решение которой окружено всеми саморегулируемыми методами, заключается в снижении психофизиологического напряжения, стрессовых реакций и устранении их последствий. Профилактика этих ситуаций достигается обучением вхождению в состояние «расслабления», с разной степенью аутогенного погружения.

Современные исследования выявили, что в результате освоения методик саморегуляции в процессе релаксации происходят изменения качественного и количественного характера. Релаксация рассматривается как начальный этап аутогенного погружения. Следует обратить внимание, что стадии аутогенного погружения отождествляются понятию осознанного состояния-транса, в понимании американского гипнотерапевта М. Эриксона. Это сознательный покой при активной бессознательной деятельности. Для него характерна внутренняя действенность, т.е образуется внутренний фокус внимания.

Важно, что применение метода саморегулирования позволяет повысить эффективность деятельности, снижая «внутреннюю стоимость» усилий, необходимых для осуществления деятельности. Изменение состояния сознания способствует оптимизации психической деятельности в форме неспецифических компенсаторских реакций психики.

Начальным этапом работы приемов саморегуляции является «прогрессирующая» или нервно-мышечная релаксация. Она была разработана Эдмундом Джекобсоном в 1920 г. и до сегодняшних дней считается одной из наиболее эффективных. Эдмундом Джекобс является автором около 200 специальных упражнений для максимального участия мышц. Здесь он установил связь между повышенным тонусом скелетной мускулатуры и негативным эмоциональным состоянием. Нельзя не отметить тот факт, что в этом случае важно приобретение навыков дифференциации состояний максимального напряжения и физиологического расслабления. Преимущество: многие субъекты могут достичь состояния релаксации уже на первом сеансе.

С использованием метода можно сделать выводы о том что,происходит в ходе развития гигиенических и культурных навыков, в ходе игровой, учебной и трудовой деятельности, а также в процессе коммуникации.Особенность навыков саморегуляции зависит от условий социума и содержания деятельности человека. Нужно учитывать, что развитие психической саморегуляции должно происходить осознанно с учетом всех индивидуальных возможностей и особенностей.В экстремальных условиях стоит обратить внимание, насколько эти положения воздействуют на функциональное состояние индивида.

Результатами исследования метода саморегуляции являются: новообразования психического развития, последствия реализации деятельности и общения, развитие мышления и настойчивости. Именно осознаваемая регуляция активности является «сущностной» функцией психики человека. Недостаточно отчетливо осознаются и регулируются состояния при процессе сна и пробуждении, состояния, возникающие в процессе занятий медитацией и гипнозом, а также измененные состояния сознания.

Итак, эффективное развитие способности к саморегуляции душевных состояний важно, ибо оно позволяет им успешно осуществлять деятельность даже в неожиданных, экстремальных ситуациях. Кроме того, способность регулировать и контролировать состояние души способствует повышению уверенности в себе, самооценке и возможностям самореализации.

ПРОБЛЕМА ОПРЕДЕЛЕНИЯ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНЦИИ БУДУЩИХ ПСИХОЛОГОВ

Румянцев В.В.
Бакинский славянский университет
E-mail-vadikrum1212@yandex.ru

В современном обществе коммуникативные навыки стали одной из основных составляющих высшего уровня профессионализма студентов-психологов. Для специализации психолога коммуникативные компетенции являются ведущим профессиональным умением, от которого зависит уровень коммуникативной культуры и навыки психологического общения. Выпускник психологического факультета обязан располагать определенными знаниями в различных аспектах общения и уметь применять эти знания в реальных ситуациях, конвертировать их в конкретные навыки и шаги для достижения взаимопонимания и высоких профессиональных результатов, например общения. Процесс коммуникации является органической составляющей рационализации профессиональных компетенций человека.

Ведущими задачами коммуникативной компетенции являются: формирование культуры устной и письменной речи, овладение видами речевой деятельности, овладение различными социальными ролями, формирование навыков работы в группе (коллективе)

Человек с момента рождения уже общается с окружающими его людьми. Конечно, не всегда люди, отличающиеся колоссальными достижениями в изучении явлений объективной действительности, способны эффективно взаимодействовать в системе межличностных отношений. Поэтому, чтобы общение было эффективным, личность должна быть компетентна в этом вопросе. Для этого ему приходится усваивать правила взаимодействия с людьми, воспитывать личностные качества, от которых зависит эффективное общение, развивать коммуникативные навыки, то есть приобретать все больший опыт общения. Существует множество научно и практически важных определений понятия коммуникативной компетентности, по поводу которых мнения исследователей расходятся. Первоначально понятие «коммуникативная компетентность» было разработано и предложено Л.А. Петровской. В своей работе она рассматривает коммуникативную компетентность как более широкое понятие, в рамках которого она говорит о перцептивной, коммуникативной и интерактивной сторонах общения. В частности, она воспринимает коммуникативную компетентность как форму адекватного информационного обмена в сфере межличностных отношений. Позже в своих последующих работах Л.А.Петровская отождествляет термины «коммуникативная компетентность» и «коммуникативная компетенция». Л. А. Петровская считает нужным отметить, что «компетентное общение—это субъект-субъектное общение, предполагающее психологическое равноправие партнеров, их активное взаимное гуманистическое отношение».

Коммуникативная компетентность, с позиции А. Маслоу, «является одной из важнейших кондиционных характеристик личности, которая позволяет ему воплотить в жизнь свои потребности в социальном признании, уважении, самореализации и способствует успешности процесса социализации».

Коммуникативная компетентность имеет, несомненно, неизменные универсальные черты и в то же время исторически и культурно обусловленные черты.

Коммуникативная компетентность представляет собой сложнейшее системное психологическое образование. Имеется множество суждений относительно понимания его сущности. Впрочем большинство авторов рассматривают его как способность человека устанавливать и осуществлять нужные контакты с иными людьми.

Человек, обладающий определенным уровнем коммуникативной компетентности, вступает в общение с определенным уровнем самоуважения и уверенности. Это означает не только искусство приспособления к ситуации и свободу действий, но и умение организовать личное пространство общения и выбрать соответствующую коммуникативную дистанцию.

В рамках предложенных научных концепций коммуникативной компетенции, мы подчеркнули, что проблема определения понятия «коммуникативная компетенция» неоднозначна и может быть рассмотрена согласно современным концепциям коммуникативной деятельности.

XVIII BÖLMƏ
SƏNƏTŞÜNASLIQ

AZƏRBAYCAN MUSİQİSİNDƏ VİOLİN KONSERTİNİN YARANMASI HAQQINDA

Ağayeva L.
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail:aghayevalale1838@gmail.com

İnstrumental konsert - hər hansı bir solo aləti ilə simfonik orkestr üçün yazılmış silsiləvi əsərdir. Maraqlıdır ki, ilk konsert nümunələri məhz violin üçün bəstələnmiş konsertlər olmuşdur.Yəni konsert janrının meydana gəlməsi skripkanın vətəni olan İtaliyada XVII əsrdə bu alətdə ifaçılıq sənətinin çiçəklənməsi və gur inkişafı ilə şərtləndirilmişdir.Təbii ki,Avropa musiqisi macərasında təşəkkül tapıb inkişaf edən,daim bəstəkarların diqqət mərkəzində olan konsert janrı yarandığı dövrdən bu günə kimi böyük inkişaf yolu keçmiş,müxtəlif musiqi təmayülləri ,müxtəlif ənənələr çərçivəsində və milli bəstəkarlıq məktəblərində təkamülə uğramışdır.Bu janr özünün bir neçə əsrlik inkişaf tarixində müəyyən dəyişikliklərə məruz qalmış,yeni cəhətlər kəsb etmiş ,keyfiyyətcə dəyişilmişdir.İnstrumental konsertin ,o cümlədən violin konsertinin elə sabit əlamətləri,səciyyəvi cəhətləri var ki,tarix boyu keçdiyi inkişaf prosesinin müxtəlif mərhələlərində bu janrın tədricən yeni xüsusiyyətlər qorunub saxlanmışdır.

Konsert janrının çox zəngin daxili potensialı vardır.Və məhz bu potensial sayəsində konsert janrı öz tarixi inkişafı prosesində məruz qaldıgı daxili və zahiri dəyişikliklərə baxmayaraq,onu başqalarından fərqləndirən başlıca xüsusiyyətini ,mahiyyətini qoruyub saxlaya bilmişdir.Bu mühüm xüsusiyyətlərdən biri – konsert üçün səciyyəvi olan "yarış" prinsipidir.Yəni konsert ,orkestr ilə solist ifaçının sanki bir-birile yarışması prinsipinə əsaslanır.Bir qayda olaraq,konsert janrında yazılmış əsərlərin ifası solistdən yüksək peşəkarlıq səviyyəsi,çox vaxt əsl virtuozluq tələb edir.Bu janrın maraqlı xüsusiyyətlərindən biri konsertin bədii funksiyanın musiqi ifaçısının istedadı,bacarığının,virtuoz sənətkarlığının kütlə qarşısında nümayişi ilə bağlı olmasındadır.Virtuozluq isə yaradıcı fəallığın,şəxsiyyətin artistizminin ifadəsidir.

Konsertin səciyyəvi cəhətlərindən biri- bunun müxtəlif şəkildə təzahür edən dialoq təbiətinə malik olması,"dialoqluğu"dur.

Azərbaycan bəstəkar yaradıcılığında violim ilə simfonik orkestr üçün ilk konsert nümunələrinin meydana gəlməsi XX əsrin 40-ci illərinə təsadüf edir.Azərbaycan musiqisində ümumiyyətlə instrumental konsert janrının yaranması barədə B.Mehdiyev belə yazır:"Azərbaycan musiqisində instrumental konsertin, o cümlədən violin konsertinin yaranması və inkişafı klassik və ilk növbədə rus konsertinin zəngin ənənələrinin mənimsənilməsi prosesidir. Rus konsertinin ənənələrinə möhkəm dayaqlanma ona görə mümkün olmuşdur ki,bu ənənələr rəngarəng idi".[Б.А.Мехтиев,Баку,1982,с.6.]

Bu fikrini açıqlamaq məqsədilə həmin metodik işin tərtibçisi P.Çaykovskinin,A.Qlazunovun, S.Raxmaninovun, A.Skryabinin, N.Rimski-Korsakovun konsertlərini misal gətirərək, bunlarda təzahür edən müxtəlif üslub və janr əlamətlərinin Azərbaycan instrumental konsertinə təsiri olduğunu göstərir. Eyni zamanda o, D.Şostakoviç və S.Prokofyev kimi sovet dövrü sənətkarlarının da ənənələrinin Azərbaycan musiqisində yaranmış konsert nümunələrinə təsirini də vurğulamağı unutmur.

CÖVDƏT HACIYEVİN "MUSİQİ LÖVHƏLƏRİ" FORTEPİANO SİLSİLƏSİ

Ağayev S.Z.
Naxçıvan Dövlət Universiteti

XX əsrin II yarısı Azərbaycan bəstəkarlarının yaradıcılığında müxtəlif janrlı fortepiano əsərləri ilə yanaşı bir sıra fortepiano məcmuələrinə də rast gəlmək olur. Bu əsərlərin sırasında Cövdət Hacıyevin, Vasif Adıgözəlovun, Xəyyam Mirzəzadənin, Rəhilə Həsənovanın, Vasif Allahverdiyev və digər bəstəkarların yaratdıqları fortepiano silsilələrini qeyd etmək olar.

Cövdət Hacıyevin "Musiqi lövhələri" adlı fortepiano üçün pyeslər silsiləsi ümumi bədii-emosional əhhval-ruhiyyə ilə birləşmiş səkkiz pyesdən ibarətdir. Müxtəlif obrazlılıq, ümumilikdə uşaq həyatı, pyeslərin psixoloji aləmini əks etdirir. Uşaqların məişət və oyun təsəvvürləri bəstəkar təfəkküründə uşaq psixologiyası

üçün adi oyun janrlarına həvalə edilir.Silsilə "Gəzinti" pyesi ilə başlanır. Bu pyesdə bəstəkar uşaq addımlarını təqlid edən səslənmə təəssüratı yaratmağa çalışır. Bu ritm bütün pyes boyunca, müəyyən mənada ostinat xüsusiyyəti alır.Əsas mövzunun variasiyalı şərhi pyesi üçsəslilik xüsusiyyəti ilə zənginləşdirir. Yaxınlaşan, tezləşən addımların bir qədər dinamikləşdirilməsi təəssüratı yaranır. Pyes qeyri-adi enerjili və səmimi, yumoristik, şən səhnə kimi təqdim edilir. Alt səsin partiyasının dəqiq ritmik fonunda aydın, sinkopalı 2/4, 4/4 melodiya səslənir. Bayatı-Şiraz ladı üzərində səslənən parçaların daxil edilməsi ifadəni zənginləşdirərək musiqiyə yeni çalarlar verir. Lad rəngarəngliyi nəticəsində addımların sabitliyi monoton təsəvvür yaratmır. Qeyri-sabit ritmli sinkopalar bu miniatür üçün səciyyəvidir. Bununla yanaşı, müxtəlif templərə, bölünmələrə baxmayaraq, pyesdə metr-ritmik birliyə riayət olunmuşdur. Aşıq musiqisinin elementləri də (milli-lad mənşəli sekundalar, kvarta-kvinta quruluşu) musiqiyə xüsusi rəngarənglik verir.

"Rəvayət" pyesi yığcamlığı ilə, adətən silsilələrdə tez-tez rast gəlinən intermesiya xüsusiyyətli ara nömrələri xatırladır. Bəstəkar burada, çox ehtimal ki, müxtəlif hadisələri uzun-uzadı deyil, ahəngli ritmlə nəql edən yaşlı rəvayətçini nəzərdə tutmuşdur.

"Zarafat" məzəli rəqs-oyun səhnəsidir. İfadəliyi zənginləşdirən, qığılcım kimi parlayıb sönən ritmik dəyişkənlik, geniş sıçrayışlar fonunda, passajlı fiqurlar dinləyicinin nəzər-diqqətini cəlb edir. Hər bir epizodun gözlənilmədən başlanması şən qəhqəhə, oyun, şənlik, əyləncə mühitini yaradır. Ritmik ölçülərin, qruplaşdırmaların (onaltılıqlarla, otuzikiliklərlə, pauzalı səkkizliklərlə triol və ya kvintol qrupları) tez-tez dəyişməsi ifadəni daha da canlandırır.

Özünün ağır, sakit tempi ilə, sitsiliana ritmli (9/8) "Nağıl" pyesi əvvəlki miniatürlə təzadlıq yaradır. Sağ əldə verilmiş ostinat hərəkət pyesə nağıl əhval-ruhiyyəsi verir. Bu fonda səslənən həzin melodiya nağıl danışanın sakit portretini yaradır. Bəstəkar səslənməni kvarta intervalında qaldırmaqla (bu, adətən xalq ifaçılığı təcrübəsində təsadüf olunur), bir növ ifadəliliyi canlandırır. Milli melodizm, lad, lad rəngarəngliyi yalnız yeddinci xanədə özünü daha qabarıq büruzə verir.

"Etüd" kiçik barmaq texnikasının inkişafı üçün nəzərdə tutulmuş, eyni zamanda müəyyən spesifik məqsədlərin həlli kimi təqdim olunmuşdur. Bu pyesdə bəstəkar, eyni zamanda yumoristik səhnəni də təsvir etməyə çalışır. Pyesin sonunda dinləyicini qəfil dönüş gözləyir. Sanki darıxdırıcı etüdü çalmaqdan bezmiş şagird xəyala dalaraq ifanı caz ritmli klasterlər və akkordlarla tamamlayır. Bu pyes üçün etüd-ekzesis səslənmə səciyyəvidir. Bəstəkarın ən sevimli janrlarından biri olan "Marş"ın silsiləyə daxil edilməsi təsadüfi deyil.

Musiqinin oyun xarakterini nəzərə alan bəstəkar bu miniatürü bir qədər oyuncağabənzər ("Şelkunçık" baletindən marş kimi) tərzdə ifadə edir. Məhz bu səbəbdən marş bir qədər istehzalı, zahirən effektli və səhnələşdirilmişdir. Burada fanfar səslənmə və lapidar kəskin ritmlər müşahidə olunur. Orta hissənin musiqisində əsas partiyada çağırış intonasiyaları, yarım tonlarla verilmiş fasilələr, səslənmədə yumor atmosferi yaradır. Bu xüsusiyyət "Marş" miniatürünü S.Prokofyevin analoji uşaq pyesləri və nağıl musiqisinə yaxınlaşdırır.

"Ağır rəqs" incə və zərif xarakterli olmaqla yanaşı, bir qədər kədərlidir. Onun improvizasiya üslublu melodiyası muğam əsaslıdır.

"Epiloq" dərin düşüncələri, həyat haqqında fikirləri təsvir edir. Ciddi düşüncələr dünyası bu dəfə də muğam üçün səciyyəvi xüsusiyyətlərlə ifadə olunmuşdur.

"Epiloq" musiqi lövhələrinin çoxcəhətli olması ilə yanaşı, finala istiqamətləndirilmiş birlik və məqsədyönlü inkişaf xətti ilə seçilən bütöv, tam bir əsər olmasına əminlik yaradır. Final müəllifin, sanki hər hansı bir ahıl yaşlı insanın uşaqlıq illəri haqqında düşüncələri kimi qəbul olunur.

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MEMARLIQ İDENTİKLİYİ ONUN TARİXİ İNKİŞAFININ VƏ MİLLİ KİMLİYİNİN ƏSAS AMİLİ KİMİ

Fərzəliyeva A.
Naxçıvan Dövlət Universiteti
E-mail:aynurferzeliyeva3@gmail.com

Hər bir şəhər öz tarixi, mədəniyyəti və həyat tərzi ilə unikaldır. Öz növbəsində mədəniyyət şəhərləri idarə etmək üçün güclü vasitədir. Tarixi irsin qorunması ideyasına əsaslanan yenidənqurma strategiyasında bir sıra memarlıq motivləri kimi mədəniyyət də əsas rol oynayır. Məhz buna görə də, müasir tarixi şəhərlər məhdud sosial, iqtisadi və s. resursları cəlb etmək, şəhər reputasiyası və məkan brendi yaratmaq uğrunda

rəqabət aparır. Bu da şəhərin cazibə nöqtəsi kimi potensialını ortaya qoyur, turistlər və yeni sakinlər, investisiya inkişafı, şəhərin və ya ərazinin özünün böyüməsini cəlb edir.

Memarlıqda identiklik problemi imkanların və mexanizmlərin, kimliyin qorunub saxlanmasına və ya doğulmasına töhfə verən vasitələr palitrasının tapılması problemi kimi şərh edilə bilər. Mahiyyət etibarı ilə ayrı-ayrı tikililər, onların nisbi bütövlüyü konkret ərazi identikliyinin predmeti ola bilər. Memarlığı metaforik olaraq bir bölgənin identikliyi, kimliyi adlandırmaq olar.

"İdentiklik" termini nəzəri memarlıq tədqiqatlarına mədəniyyətşünaslıqdan və psixologiyadan gəlmişdir. Bu termin müxtəlif peşə və elmlərin nümayəndələri tərəfindən istifadə olunur.

Memarlığa ən yaxın tərif "mədəni kimlik"dir. Mədəni identiklik – insanın özünə, başqa insanlara, cəmiyyətə və bütövlükdə dünyaya qarşı vahid münasibətini formalaşdıran fərdin hər hansı mədəniyyətə və ya mədəni qrupa mənsubluğu. Şübhəsiz ki, müxtəlif ərazilərin, eləcə də ölkələrin sakinləri bir-birindən fərqlənir. Hər bir xalqın öz mədəniyyəti, adət-ənənələri, həyat tərzi və s. vardır. Şəhər bütöv bir ideya dəsti doğura bilən mənalar – tarix, miflər, məsəllər, şəxsiyyətlər, adət və ənənələr toplusunu daşıyır. Şəhər məkanının tədqiqi və perspektivli tədqiqatların axtarışı cəmiyyətin tarixi formalaşmasının inkişafının hər bir mərhələsində aparılmışdır.



Şəkil 1. Sakinlərin identikliyini formalaşdıran amillərin sxemi və onların qarşılıqlı əlaqəsi

Yuxarıda göstərilən amillərin hamısı bir-biri ilə əlaqəlidir, ona əsasən bütün amillərin insana necə təsir etdiyini izləmək, kənd, şəhər və ya ölkə sakininin şəxsiyyətini müəyyən etmək mümkündür.

Bu gün şəxsiyyət müxtəlif peşə və elm nümayəndələri tərəfindən müxtəlif cür başa düşülür. Eyni termin müəyyən bilik sahəsinin öyrənilməsi mövzusundan asılı olaraq şərh olunur:

Proseslərin psixologiyasında eynilik şəxsin şəxsiyyətinin tanınması, müəyyən edilməsidir.

- Mühəndislik və hüquq psixologiyasında – hər hansı obyektin, o cümlədən insanların tanınması, tanınması, onların müəyyən sinfə aid edilməsi və ya məlum əlamətlərə əsasən tanınması.

- Şəxsiyyət – onun müxtəlif sosial qruplara, iqtisadi ... qruplara mənsubluğunu necə təsəvvür etdiyini onun üçün ifadə etmək üçün konsentrasiya edilmiş formada insan psixikasının mülkiyyəti ... Memarlığa ən yaxın olan şey mədəni kimliyin tərifidir.

- Mədəni identiklik – insanın özünə, başqa insanlara, cəmiyyətə və dünyaya qarşı vahid münasibətini formalaşdıran fərdin hər hansı mədəniyyətə və ya mədəni qrupa mənsubluğu .

Məhz memarlıq insan həyatı üçün tam hüquqlu mühiti, onun yaşayış mühitini təşkil edir, ona cazibə və orijinallıq verir, qavrayış prosesinin cəlbediciliyini təmin edir. Məşhur bir yerə qayıtdıqda və ya ətraf mühitlə daimi təmasda olduqda insana sevincli xatirə və xoş hisslər bəxş edir. Bütün bunlar əks effektlə baş verə bilər.

Memarlıq həm də mədəni kimliyin bir növünə əraziyə xas olan müəyyən təsvirlərlə – obyekt, mənzərə, panorama, perspektiv özünü eyniləşdirməyə aid edilə bilər (şəkil 1). İstənilən region, şəhər adətən öz simvolları, tanınmış simaları, simvollarına çevrilə bilən memarlıq inciləri ilə tanınır.

İlk növbədə, bu gün memarlıq identikliyini səciyyələndirən yanaşmalara müraciət etmək yerinə düşər. Memarlıqda identiklik kateqoriyasına maraq yeni əsrin əvvəllərində kəskin şəkildə artmışdır. Bu vaxta qədər Naxçıvan, eləcə də müasir Azərbaycan memarlığının qabaqcıl nümayəndələri bu və ya digər istiqamətə dəyişən vurğularla ən son memarlığın dilini mənimsəmiş və inamla istifadə etməyə başlamışdılar. Getdikcə

minimalist tendensiyalara meyl edən dizaynerlər öz üslublarını, tanınmalarını və yaradılmış dizaynların yeniliyini axtarırlar.

Memarlıq identikliyi problemi imkanların və mexanizmlərin axtarışı problemi, kimliyin qorunub saxlanmasına və ya doğulmasına kömək edən vasitələr palitrası kimi şərh edilə bilər. Şəhər sakininin identifikasiya faktorlarını toplayaraq, biz güman edə bilərik ki, memarlıq strukturları toplusu kimi şəhərin unikallığını dəqiq nə müəyyənləşdirir .

Unifikasiyaya səbəb olan qloballaşma insanı ərazilərin ruhunun təcəssümü kimi ərazilərə xas olan eyhamlar axtarmağa məcbur edir. Şablonlara çevrilmiş texnikalar müasirlik obrazlarını düzəldir və ustaları, təcrübəsiz dizaynerləri öz idetikliklərini axtarmaq üçün regional memarlığın dərin mənbələrinə müraciət etməyə təşviq edir.

Memarlıqda identiklik problemi imkanların və mexanizmlərin, şəxsiyyətin qorunub saxlanmasına və ya doğulmasına töhfə verən vasitələr palitrasının tapılması problemi kimi şərh edilə bilər. O, şəxsiyyətin simvolu kimi xidmət edir, daimilik obrazı kimi qorunub saxlanılır və miras qalır.



Tarixi şəhərlərdə memarlıq və konstruktiv düşüncənin yeniliyi ilə heyran edən unikal müasir tikililərin tarixi mərkəzdə görünməsinə imkan yaratmaqla yanaşı, yerləşdirməyə, yeni tikililərin üslubuna, onların miqyasına və mərtəbəli sayına müxtəlif yanaşmalar zəruridir.

Tarixi şəhərlərdə memarlıq və konstruktiv düşüncənin yeniliyi ilə heyran edən unikal müasir tikililərin tarixi mərkəzdə görünməsinə imkan yaratmaqla yanaşı, yerləşdirməyə, yeni tikililərin üslubuna, onların miqyasına və mərtəbəli sayına müxtəlif yanaşmalar zəruridir.

HACI XANMƏMMƏDOVUN YARADICILIĞINDA KONSERT JANRI

Göyüşov N.Q.
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail ünvanı:nuru.goyushov@bk.ru

Azərbaycan klassik musiqisinin inkişafında xalq artisti, professor, "Şöhrət" ordenli bəstəkar Hacı Xanməmədovun böyük rolu olmuşdur. Bir çox janrlarda gözəl musiqi nümunələri yaratmış bəstəkarın yaradıcılığında konsert janrı xüsusi çəkiyə malikdir. Belə ki, Hacı Xanmməmədov tar (1952), eləcə də kamança (1991) ilə simfonik orkestr üçün "konsert" bəstələyən bəstəkar kimi Azərbaycan musiqi tarixində əhəmiyyətli yerə malikdir. Məhz Hacı Xanmməmədov sayəsində ölkəmizdə ilk dəfə olaraq, simfonik orkestrdə tar və kamançanın müşayiəti ilə musiqinin səsləndirilməsi baş vermişdir. Beləliklə konsert janrı ilə təkcə ölkəmizdə deyil, bütün Şərq aləmində, dünyada ilk statusunu qazanmışdır.

1952-ci ildə Azərbaycan Dövlət Konservatoriyası Q.Qarayev sinfini bitirən zaman Hacı Xanmməmədov tar ilə simfonik orkestr üçün 1 saylı konsertini diplom işi kimi təqdim etmişdir. Konsert ilk dəfə məşhur tarzən Əhsən Dadaşov və Azərbaycan Dövlət Simfonik orkestrinin (dirijor Çingiz Hacıbəyov) ifasında səsləndirilmişdir. Alətin bütün xüsusiyyətlərinə dərindən bələd olan Hacı Xanmməmədov tar alətinin partiyasında zəngin ifaçılıq imkanlarını, koloritli tembr çalarlarını göstərməyə nail olmuşdur. Q.Qarayev bu əsəri belə qiymətləndirmişdir: "Bu əsərin mühüm əhəmiyyəti ondadır ki, Şərqin ən populyar aləti olan tar ilk dəfə böyük simfonik orkestrin müşayiətilə əsas aparıcı kimi çıxış etmişdir. Konsertdə tar

alətinə mənsub olan mürəkkəb partiyada qədim Azərbaycan xalq çalğı alətinin orijinal ifa xüsusiyyətləri, tembri və bütün imkanları qabarıq şəkildə özünə büruzə verir."

Əldə etdiyi müvəffəqiyyətlərdən sonra Hacı Xanməmmədov müxtəlif illərdə daha 4 konsert ərsəyə gətirmişdir. Konsertlər təkcə bəstəkarın yaradıcılığında deyil, eləcə də Azərbaycan instrumental musiqisinin inkişaf tarixində böyük rol oynamışdır. Bu mürəkkəb formalıkonsertlər həm orta ixtisas, həm də ali musiqi məktəblərində təhsil alan tələbələrin repertuarına daxil edilmişdir. Qeyd edək ki, sözügedən konsertlər Moskvada rus xalq çalğı alətləri orkestrinin ifasında, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan kimi respublikalarda uğurla səslənmişdir. Moskvada baş tutan konsertdən sonra Latviya, Vilnüs Dövlət Konservatoriyasının professoru Vitautas Vansskus demişdir: "Biz xalq çalğı aləti tarı simfonik orkestrlə birlikdə eşitdikdə heyran olduq. Konsert klassik, forma etibarilə rəvandır. Əsər öz zəngin melodiyası, mövzuların əsil xəlqiliyi ilə bizi valeh edir. Harmonik dili baxımından elə də mürəkkəb olmayan bu konsert öz qeyri-adiliyi ilə bizi özünə cəlb edə bilmişdir. Bəstəkar tarı, simfonik orkestri, onun ayrı-ayrı qruplarını ustalıqla əlaqələndirir. Nəticədə tar olduqca qabarıq və gur səslənir."

Hacı Xanməmmədovun xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlərində milli musiqi ənənələri ilə bağlılıq çox parlaq şəkildə özünü göstərir. Bu cəhətlər həm əsərlərin kompozisiya quruluşunda, həm də məqam-intonasiya və melodik xüsusiyyətlərində də qabarıq şəkildə verilir. Bu baxımdanbəstəkarın konsert janrında etdiyi yeniliklər, həm də orkestrləşdirmə üslubunun özünəməxsus cəhətlərinin aşkarlanması baxımından da maraq kəsb edir. Belə ki, ayrı-ayrı qrupların sual-cavab şəklində səsləndirilməsi, eyni mövzunun həm solo, həm də təkrarlanmalar zamanı bir qrup alətə tapşırılması bəstəkarın orkestrləşdirmə dəsti-xəttinin əsas cəhətlərindən birinə çevrilmişdir.

Tar ilə simfonik orkestr üçün yazılmış 5 konsertin hər biri Hacı Xanməmmədov yaradıcılığının sanki inkişafının təzahürü kimi özünü göstərir. Belə ki, konsertlərənənvi musiqi ilə sıx bağlı olub, milli ənənənələrin klassik janrda təzahürü kimi çıxış edir.

Bəstəkarın tar ilə simfonik orkestr üçün İkinci konserti əsərin ilk ifaçısı görkəmli tarzən Hacı Məmmədova, Dördüncü konsert bəstəkarın müəllimi Qara Qarayevin əziz xatirəsinə, Beşinci konsert isə bəstəkarın konsertlərinin mahir ifaçısı Ramiz Quliyevə həsr olunmuşdur.

Hacı Xanməmmədovun yaradıcılığında konsert janrından danışarkən onun kamança və simfonik orkestr üçün konsertini də xüsusi qeyd etmək lazımdır. Belə ki, 1991-ci ildə bəstələnmiş bu konsert Azərbaycan musiqisində bir ilk idi. Əsərin ilk ifaçısı Azərbaycanın əməkdar artisti Ədalət Vəzirov olmuşdur. Bəstəkar böyük ustalıqla kamança alətinin özünəməxsus ifa imkanları, səs çalarlarını bu konsert vasitəsi ilə dinləyicilərə ötürə bilmişdir. Tar konsertlərində olduğu kimi bu konsertdə də mahnı və rəqslərdən böyük ustalıqla istifadə olunub.Eləcə də qeyd etmək lazımdır ki, milli alətlərlə yanaşı Hacı Xanməmmədov ilk dəfə olaraq arfa ilə orkestr üçün konsert yazmış bəstəkardır.

Hacı Xanməmmədovun konsert janrında etdiyi axtarış və yeniliklərdən sonra bir çox görkəmli bəstəkarlar bu janra müraciət etmişdir. Onların sırasında Səid Rüstəmov, Süleyman Ələsgərov, Cahangir Cahangirov, Zakir Bağırov, Tofiq Bakıxanov, Nəriman Məmmədov, Ramiz Mirişli, Sevda İbrahimova və b. görmək mümkündür.

ASƏF ZEYNALLININ FORTEPİANO ƏSƏRLƏRİNDƏ HARMONİK XÜSUSİYYƏTLƏR

Hacıyeva G.A.
Naxçıvan Dövlət Universiteti

XX əsrin ilk illərindən Azərbaycan musiqi mədəniyyətində yeni istiqamətlər və təmayüllər formalaşmağa başlayır. Bu illərdə xüsusilə Bakıda mövcud olan mədəni mühit musiqi mədəniyyətinə də güclü təsir göstərmiş, Ü.Hacıbəyli və onun silahdaşlarının simasında Azərbaycan musiqisində Avropa klassik musiqisinə xas olan janr növlərinin milli nümunələri yaranmağa başlamışdır. Təbii ki, bu kimi yeni təmayüllərin yüksək səviyyədə inkişafını təmin etmək üçün, ilk növbədə, ixtisaslı musiqiçi kadrlar yetişməli idi. Buna görə də 1920-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının yaranması musiqi mədəniyyətinin peşəkar əsasını təmin edən musiqiçilər nəslinin meydana gəlməsi üçün zəmin hazırladı.

Bakıda Rus Musiqi Cəmiyyətinin nəzdindəki musiqi məktəbinin bazası əsasında yaradılan Xalq Konservatoriyası 1921-ci ildən Azərbaycan Dövlət Konservatoriyası kimi fəaliyyət göstərməyə başladı. Lakin milli musiqinin inkişafında doğma dildə təhsil almağın vacibliyini dərindən dərk edən Ü.Hacıbəylinin təşəbbüsü ilə Konservatoriya ilə paralel fəaliyyət göstərən "Türk musiqi məktəbi" 1926-cı ildə Konservatoriya ilə birləşir. Bunun nəticəsində təməli sağlam bünövrəyə əsaslanan üç pilləli musiqi təhsili

Azərbaycanda bəstəkarlar, ifaçılar, musiqişünas alimlərin yetişməsində xüsusi əhəmiyyət daşıyan müəssisəyə çevrildi.

Ü.Hacıbəylinin fədakar əməyi nəticəsində musiqi təhsilinə cəlb olunan gənc istedadlar arasında milli simfonizmin, fortepiano musiqisinin, qəzəl-romansların, uşaqlar üçün nəzərdə tutulmuş əsərlərin ilk nümunələrinin yaradıcısı A.Zeynallınn adını xüsusi vurğulamaq lazımdır. A.Zeynallı hələ konservatoriyada oxuduğu illərdə bir sıra musiqi əsərlərinin müəllifi olmaqlar yanaşı, xalq musiqisi nümunələrinin nota köçürülməsi işində əzmkar fəaliyyəti ilə də milli musiqi xəzinəsinin zənginləşməsində xüsusi rol oynamışdır. Gənc yaşlarında dünyasını dəyişən bəstəkarın yaradıcılıq irsi o qədər də böyük olmasa da onu yazdığı hər bir əsər professional bəstəkarlıq üslubunun parlaq təzahürüdür.

Konservatoriyada oxuduğu illərdə fortepiano musiqisi janrında öz qələminin imkanlarını sınayan A.Zeynallı bu alət üşün "Çahargah", "Uşaq süitası", "Bir və iki nömrəli üçsəsli fuqalar" əsərlərini, məhz bu alət üçün yazmışdır.

A.Zeynallının yaradıcılığında romantizmə xas xüsusiyyətləri ilə diqqəti çəkən fortepiano əsərləri bəstəkar təxəyyülünün istiqamətini müəyyən edir. Azərbaycan fortepiano musiqisində özünün klassik forma və quruluşuna görə mükəmməl olan ilk pyes A. Zeynallının "Çahargah" əsəridir.

Bəstəkar pyesdə milli fortepiano musiqisi üçün yeni olan bir sıra ifadə vasiətələrindən bəhrələnmişdir. Bu haqda S.Qasımova yazır: "Muğamda olduğu kimi, bir-birini əvəz edən epizodlar da Çahargahın kadensiyasından alınmış vahid melodik intonasiya ilə bağlıdır. Bununla belə "Çahargah" bəstəkarın Azərbaycan musiqisində ilk dəfə olaraq fortepiano musiqisinə xas bir çox tipik texniki vasitələrdən istfadə olunmuş fortepiano pyesidir."

Adından da göründüyü kimi milli muğamlardan "Çahargah"ın intonasiyalarına əsaslanan bu əsər üçhissəli formada yazılmışdır. A.Zeynallının əsərdə muğam intonasiyaları ilə ritmik cəhətdən maraqlı inkişaf xəttinə malik klassik Avropa musiqisindən bilinən mazurka janrına xas xüsusiyyətləri orijinal formada birləşdirir.

A.Zeynallının yaradıcılığında forptepiano musiqisinin digər səciyyəvi cəhətləri ilə qarşılaşmaq mümükündür. Buna misal olaraq, uşaqlar üçün nəzərdə tutulmuş "Üşaq süitası"ndakı obrazlar aləmini göstərmək olar. Əsərdə musiqili obrazlar lirik, kövrək, bəzən də emosional düşüncə zənciri yaradır. Süita Azərbaycanda bu janrın ilk nümunəsi olmaqla yanaşı, gənc ifaçıların repertuarlarının və gənc nəslin musiqili dünyagörüşünün formalaşmasında xüsusi çəkiyə malikdir.

Silsiləyə daxil olan 6 pyes bir-biri ilə ziddiyyət təşkil edir. Süitada "Kuklaların yürüşü", "Uşaq və buz", "Rəqs", "Pyes", Qoyunlar" və "Deyişmə" pyesləri bir-birini əvəz edir. Pyeslərin proqram başlığı onların məzmunu ilə dərin əlaqə yaradaraq musiqili obrazın düzgün qavranılmasını təmin edir.

A.Zeynallının musiqi irsi 30-cu illərdən sonra Azərbaycanda formalaşan bəstəkarlar nəsli üçün yaradıcılıq laboratoriyası olmuşdur. A.Zeynallının nümayiş etdirdiyi yaradıcılıq təfəkkürü sonralar Q.Qarayev, F.Əmirov, T.Quliyev, V.Adıgözəlov, Ə.Abbasov kimi bəstəkarların da yaradıcılığına dərindən nüfuz etmiş, onların xüsusilə fortepiano musiqisi sahəsində orijinallığı ilə yadda qalan əsərlərinin yaranması üçün zəmin hazırlamışdır.

MEMARLIQDA LAHİYƏLƏNDİRMƏYƏ MODERN BAXIŞ

Həsənov R.R.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: royal.hasanov@gmail.com

Bildiyimiz kimi, memarlıq insanların yaşayış şəraiti üçün mühitin formalaşdırılmasında başlıca amildir. Buraya bir də estetika "əlavə edilər"sə, bu zaman memarlıq həm də incəsənət amili kimi çıxış edər. Həmçinin memarlıq da hər bir incəsənət növü kimi, cəmiyyətin tarixi, baxışları və ideologiyası ilə sıx bağlıdır. Çünki bütün qədim sivilizasiyalar vaxtilə tikilmiş memarlıq abidələrinə görə xatırlanır. Məsələn, Misir, Yunan, Roma sivilizasiyaları. Bir neçə əsri əhatə edən bu dövrlərin xatırlanmasında memarlığın əsas yer tutması bu sahənin incəsənətin ən önəmli istiqamətlərindən biri olmasını təsdiq edir.

Memarlıqda layihələndirməyə modern baxış bir çox memarların sayəsində yaranmışdır. Bu memarlardan Tadao Ando və Hans Holleinin yaradıcılıqlarından yazmaq istəyirəm.

1941-ci ildə anadan olan Tadao Ando minimalist memardır. O, şüşə və beton kimi təbii materiallardan estetik memarlıq nümunələrinin layihələrini hazırlayır. Memar 1995-ci ildə Pritzker mükafatına layiq görülmüşdür. T.Andonun binalarının interyeri təbii işıqla zəngin olur. Çünki pəncərələrdə hündür, divar

boyu olanlara müraciət edir. Yapon mədəniyyətinin bir simvolu olan Andounun vətənində işləri daha çoxdur. O, qazandığı Pritzker mükafatını 1995-ci ildə Kobe zəlzələsində zərərçəkənlərə bağışladı. Aşağıdakılar Andounun ən görkəmli əsərləridir.

Cənubi Koreyanın Daegwallyeong dağ zirvəsində tikilən Hansol Muzeyi yerli əhəngdaşı ilə hazırlanmış modul quruluşlu binadır. Onun geniş ərazisinə əlavə olaraq, binanın girişinə, gediş yolu üzərində Aleksandr Liberman tərəfindən arka əlavə edilmişdir. 2013-cü ildə bitən muzey bir qatlı su bağçası ilə əhatə olunmuşdur. Soyuq görkəmli binada memar yenə ənənələrinə sadiq qalmışdır. İnteryer divar boyu pəncərələrlə işıqlandırılmışdır. Eksteryerdəki bu soyuqluq interyerdə də davam edir. İnteryerdə daşlardan daha çox istifadə olunmuşdur.

Minimalist memarın fikrincə, tikilidə əsas məqsəd həmin şəxs üçün rahat və xüsusi bir zona yaradılmasıdır. Ona görə də boşluqları incə beton divarları əhatə edir. Divarlar bu səbəbdən əsas elementdir. Yapon memarları əsas həndəsi formalardan - kvadratlar, düzbucaqlılar, dairələr, üçbucaqlardandaha çox istifadə edir. Onun ticarət nişanı binalara toxunan, otaqlarda günəşə imkan verən dəyirmi bucaqlardır.

Məşhur Minimalist Memar təbii ehtiyatları, şəhərlərin modernləşmə prosesində itirdiyi bina və təbiət arasında təbii əlaqəni bərpa etmək üçün tam genişləndirmək üçün istifadə edir. Onun sevimli elementlərindən biri su idi. Buna görə də, binalarını təbii və uyğun olaraq xarici sahələrə uyğun olan su sahələrinə yaxınlaşdırır. Beton konstruksiyalar ağır və sərt qəbul edilsə də, dahi yapon adamının əsərləri ipək kimi yumşaqdır. Bu, Tadao Andonun minimalist tərzinin xarakterik elementidir.

Moda dizayneri Issey Miyake ilə əməkdaşlıqda qurulan 21-21 Dizayn Mənzərəsi muzeyi Miyake'in insan bədəni və paltarları arasındakı əlaqələri araşdırdığı "Bir hissə parça" konsepsiyasından ilhamlanaraq layihələndirilmişdir. Bina Tokio Midtown daxilində yerləşir. Binanın 80%-i yerin altındadır. Tikilinin dam örtüyündə 54 metr uzunluğunda polad lövhədən istifadə olunmuşdur. Tokio şəhərində yerləşən şüşə divarları olan split səviyyəli binada da istər eksteryeri, istər interyeri olsun yenə beton səthlərə rast gəlirik. Şüşə ilə əhatələnən iri pilləkənlər məkanı daha geniş göstərir. Muzey 2007-ci ildə tamamlanmışdır.

MÜASİR MEMARLIQDA LAHİYƏLƏNDİRMƏ

Həsənov R.R.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: royal.hasanov@gmail.com

Memarların cəsarətli ideya və təşəbbüsləri qədim dövrdə materialların müxtəlifliyi və ideyaların parlaqlığı ilə seçilən qədim roman üslubu və ya zidd- barokko üslublarını, renessans, müasir dövrdə isə modern və hay-tek (high-tech) kimi üslubların yaranmasına gətirib çıxartdı.

Müasir dövrdə modern binalar tikilsə də şəhərlərin və ya ölkənin xüsusi simvolları sayılan qədim evlər, abidələr, qəsrlər və saraylar heç vaxt öz cazibədarlığını itirmir. Lakin bu modern binalar da şəhərlərin simasını formalaşdırır. Dünya təcrübəsində bu modern binaların müəllifləri müasir memarlığı istiqamətləndirirlər.

Memarlıqda layihələndirməyə modern baxış bir sıra memarların sayəsində yaranmışdır. Bu memarlardan Hans Holleinin göstərə bilərik.

1934-cü ildə anadan olan Hans Hollein Avstriyalı memar və dizaynerdir. O, postmodernizmin nümayəndəsidir. Memarın ən görkəmli əsərlərindən biri Haas Evi və Vyana daxili şəhərində Albertina muzeyinin əlavəsidir.

Hollein Vyana şəhərində anadan olub və 1956-cı ildə Vyana Gözəl Sənətlər Akademiyasından məzun olub. O, Clemens Holzmeisterin sinifində təhsil alıb. 1959-cu ildə İllinoys Texnologiya İnstitutunu, sonra isə 1960-cı ildə Kaliforniyada Berkeley Universitetinin memarlıq üzrə magistr dərəcəsini bitirib. Bu illər ərzində Mies van der Rohe, Frank Lloyd Wright və Richard Neutra ilə əlaqələri olmuşdur. Daha sonra Vyana qayıtmış və 1964-cü ildə öz ofisini qurmuşdur.

Hollein'in erkən dövr layihələri Viyana'daki Retti mağazası kimi kiçik ölçülü binalardır. O, fasadda xüsusilə ionidləşdirilmiş aliminiumdan istifadə edirdi.

Hollein həm bir memar kimi işləyirdi, həm də Memphis Group və Alessi şirkəti üçün dizayner kimi fəaliyyət göstərmişdir. Bundan əlavə, Venesiya Bienali üçün müxtəlif sərgilər təşkil etmişdir. 1980-ci ildə o, Artur Şnitzlerin dramı Komödie der Verführung (Comedy of Seduction) adlı əsərini Vyana Burgtheater-də hazırlamışdır. 1985-ci ildə Hollein Pritzker mükafatına layiq görülmüşdür.

Hollein Mönchengladbach Abteiberg Muzeyində (1972-82) və Salzburqda (1989) yeraltı Guggenheim Muzey şöbəsi üçün hazırladığı layihəsi qalib olmuşdur. Bu layihə reallaşmasa da onun ideyası Fransanın Auvergne şəhərində Vulcania Avropa Vulkanologiya Mərkəzində (1997-2002) reallaşdırılmışdır.

1990-cı illərin sonlarından başlayaraq, Hollein, Lichtenstein, İspaniya və Peruda bank mərkəzləri də daxil olmaqla geniş miqyaslı layihələr hazırlayıb. 2010-cu ildən başlayaraq Hans Hollein & Partner ZT GmbH-da Ulf Kotz və Christoph Monschein ilə işləmişdir.

Hollein 24 aprel 2014-cü ildə Vyanada, uzun bir xəstəlikdən sonra 80 yaşında dünyasını dəyişmişdir. Onun oğlu Maks Hollein San Fransiskonun Gözəl Sənətlər Muzeyinin icraçı direktorudur. O, Stadel Muzeyinin direktoru olmuşdur.

Retti şam dükanı Vyana mərkəzindəki ən seçmə alışveriş küçəsində yerləşir. Holleinin layihələri fərqlilikləri ilə seçilir. Fərqliliyi elə bu binadan bilinir. Tikili eksteryerdən şama bənzəyir. Bu layihənin hazırlanmasında insanların maraqlılıq hislərini də nəzərə alıblar. Alüminium xarici və daxili hissədə əsas material kimi istifadə olunur. Alüminium əsas material kimi istifadə edilib, çünki onunla işləmək asanddır. Müxtəlif yollarla işlənmiş struktur bölmələr və təbəqələr şəklində istifadə olunur. Bütün səthlər cilalanmış və anodlaşdırılmışdır. Materialın təbii rəngləri qorunub saxlanılır. İnteryerdə müştəri bir-başa satış yerinə daxil olur. Memar layihəyə xüsusi giriş koridorunu daxil etməmişdir. Binanın layihələndirilməsi elə təşkil edilmişdir ki, o, insanda hərəkətlilik hissi yaradır.

TOFİQ BAKIXANOVUN KAMERA İNSTRUMENTAL ƏSƏRLƏRİNİN ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Hüseynli Q.F.
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail: www.siradsch@gmail.com

Kamera musiqisi XVI əsrdə İtaliyada meydana gəlmişdir. XVI əsrdə hələ iri konsert zallarının, filarmoniyaların olmadığı bir dövrdə instrumental musiqi və kiçik vokal əsərləri musiqi həvəskərlarının evlərində ifa edilirdi. Bu konsertlərdə adətən, klavesinin müşayiəti ilə skripka, violonçel, hoboy və b. solo alətləri çalınırdı. Bəstəkarlar belə musiqi yığıncaqları üçün kiçik həcmli əsərlər - sonata, trio, kvartet, romans və s. yazırdılar. Kamera musiqisi anlayışı (italyanca «camera» - «otaq» deməkdir) elə o zamanlardan mövcud olub, böyük konsert zallarında və ya kilsədə deyil, məhz kiçik salonlarda ifa olunan musiqi janrları kimi formalaşmağa başlamışdır. Tədricən, kamera musiqisi salonlardan kənara çıxaraq iri konsert zallarında ifa edilmişdir.

Avropada meydana gəlməsinə baxmayaraq Azərbaycan bəstəkarları da tez-tez kamera instrumental musiqisi üçün əsərlər yazmışlar. Bu məşhur bəstəkarlardan biri də Tofiq Bakıxanovdur. Belə ki, kamera instrumental musiqisi onun yaradıcılığında mühüm yer tutmuşdur. Tofiq Bakıxanovun yaradıcılığını tədqiq edərkən onun yaradıcılığında bu və ya digər musiqi janrının hansı səbəbdən aparıcı əhəmiyyət daşıması, nə üçün məhz bu əsərdə onun bədii niyyətinin maksimal dərəcədə ifadə olunması, digər əsərlərlə müqayisədə daha qabarıq və bitkin olması diqqəti cəlb edir. Digər Azərbaycan bəstəkarlarından fərqli olaraq Tofiq Bakıxanov bu sahədə uzun müddət və məhsuldar çalışmışdır. Onun xalq musiqi ənənələrini əhatə edən, çoxsaylı parlaq və orijinal əsərləri həm respublikamızda keçirilən Estrada konsertlərində, həm də digər xarici ölkələrdə səslənir.

Həm Azərbaycanda, həm də digər xarici ölkələrdə bəstəkarın əsərlərinin məşhurlaşmasında onun xüsusi istedadı ilə yanaşı, gənc bəstəkarın istedadlı bir bəstəkar kimi formalaşmasında mühüm rolu olmuş müəllimlərinin- Azərbaycanın dahi bəstəkarları Ü.Hacıbəylinin və Q.Qarayevin əməyi də olmuşdur. Bəstəkarlıq sənəti üzrə T.Bakıxanovun müəllimi Qara Qarayev olmuş, gənc bəstəkar görkəmli müəllimindən çox şeylər öyrənmişdir. Bu aspektdə bəstəkarın kamera instrumental yaradıcılığı özündə hər iki tendensiyanı orijinal şəkildə birləşdirir. Buna görə də bir sıra kamera əsərlərində simfonik musiqi ilə üslubi baxımdan qarşılıqlı qarışma özünü göstərir. Kamera musiqisi kimi heç bir janr bəstəkarın yaradı "mən"ini tam və hərtərəfli göstərə bilmir, başqa janrlardan fərqli olaraq o, bəstəkarın əsərlərindəki ən səciyyəvi cəhətləri və novatorluq səylərini daha parlaq şəkildə özünü büruzə verir. Eksperiment və axtarışların aparıldığı sahə olaraq bəstəkarın kamera-instrumental musiqisi eyni zamanda onun ən parlaq və daimi yaradıcı nailiyyətlərinin sferası olaraq qalır, burada Azərbaycan musiqi sənətini zənginləşdirən mükəmməl əsərlər axtarışlarının nəticəsi kimi meydana gəlir.

Belə mükəmməl əsərlər sırasına bəstəkarın Violin, violonçel və fortepiano üçün 3 trio əsərini aid etmək olar. Bu əsərləri T.Bakıxanov bəstəkarlıq simasının daha güclü şəkildə təkamül etdiyi bir dövrdə, yəni keçən əsrin 70-ci illərində qələmə almışdır. Bu üç əsər müəllif üslubunun müxtəlif retrospeksiyası adlandırıla bilər. Onların hamısı öz yerini almış və konsert salonlarında təsdiq edilmiş, respublikanın ali və orta ixtisas musiqi təhsili müəssisələrində kamera ansamblı siniflərinin proqramlarına, bir çox ifaçıların repertuarına daxil edilmişdir.

MODA DÜNYASINDA GEYİM ESTETİKASININ MAHİYYƏTİ

İskəndərova A.K.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: m.aydan123321@gmail.com

Dəbin elmi təhlilinə dair ilk cəhdlər 16-17-ci əsrlərə təsadüf edir. Tanınmış filosoflar moda haqqında kifayət qədər ziddiyyətli mülahizələr irəli sürmüşlər. Moda haqqında ilk fəlsəfi esselər İngiltərədə meydana çıxdmışdır. A.Şaftesberi "Azadlıq təcrübəsi." əsərində dəbin insanın daxili aləminə və mənəvi azadlığa təsirini xarakterizə etmişdir. Onun fikrincə, moda "bir növ ikinci əl həvəsidir". İngilis pozitivist Q.Spenser dəb məsələlərinə fərqli ideoloji mövqedən yanaşırdı. Moda, Spenser Etikanın əsasları kitabında qeyd etdiyi kimi, şübhəsiz estetik dəyərə malikdir və cəmiyyətdə kommunikativ funksiyaları yerinə yetirmişdir.

Fəlsəfə tarixində modanın ən ətraflı təhlili A.Smitə aiddir. O, modanı adətlə bağlı təhlil etmiş və iddia etmiş ki, "adət və dəb öz gücünü bütün təzahürlərində gözəl və çirkin haqqında mühakimələrimizə genişləndirir". Dəbin bütün təzahür sahələrində zövqün estetik mühakimələri üzərində gücü kifayət qədər böyükdür və təkcə dəb təsirinin ənənəvi olaraq güclü olduğu gündəlik həyatda deyil. Smit qeyd edirdi ki, "... geyim və mebel üzərində adət və dəbin təsiri memarlıq, poeziya və musiqi sahəsində olduğundan güclü deyil".

İ.Kant dəb anlayışını estetikaya daxil etdiş, "boşluq" etik məqamından əlavə dəbin qavranılmasında estetik məqamı qeyd etmişdir. O, onun adətlə ayrılmaz qarşılıqlı əlaqəsinə də işarə edir: "İstənilən moda, öz konsepsiyasına görə, dəyişkən həyat tərzidir. Doğrudan da, təxəyyül oyunu sabitdirsə, təqlid bir adət halına gəlir və bu halda onlar artıq zövqə fikir vermirlər".

"İzdihamın psixologiyası" ilə bağlı problemlər kompleksinin ümumi icmalında Q.Simmel dəb məsələlərinə toxunmuşdur. Dəb Simmel tərəfindən davamlı təkrarlanan dövrədə dövr edən, iki prosesin aydın şəkildə fərqləndiyi sosial tənzimləmə mexanizmi kimi təsvir edilmişdir: elitanın çoxluqdan ayrılması və imitasiya, çoxluğun elitaya bağlılığı.

Simmel, cəmiyyətin aydın iyerarxik bölgüyə malik bir sosial orqanizm kimi konsepsiyasına əsaslanaraq və dəbdə prestijdə aydın bölgüləri izləmiş, onun dəyişikliklərində qeyd etmişdir. Müasir moda tədqiqatçıları üçün tamamilə aydındır ki, dəb əsas və universal bir fenomen kimi interativ yanaşma tələb edir. Hal-hazırda müasir moda mədəniyyət nəzəriyyəsi, semiotika, psixologiya, iqtisadiyyat, kütləvi kommunikasiya nəzəriyyəsi və bir çox başqa elmlər tərəfindən öyrənilir.

Dəbə estetik baxılması, əsasən, onun sənətlə, bu və ya digər bədii yaradıcılıq və ya estetik fəaliyyət növü ilə birbaşa və bilavasitə əlaqəsinin tanınmasını nəzərdə tutmalıdır.

İngilis sənətşünası D.Laver tərəfindən tərtib edilmiş modanın zamanla estetik qavranılmasının bir növ "cədvəli" kifayət qədər məşhurdur. 20-ci əsrə qədər dəbdə bəzi estetik məqamlar görünsə belə, bu, modada immanent olmayan, kənardan gətirilən zövq anlayışı ilə əlaqələndirilirdi.

Deməli, hətta Kant "Antropologiya" əsərində dəbin qavranılmasında aktual estetik məqamı da unutmamış, eyni zamanda, artıq qeyd olunduğu kimi, "boşluq" motivi ilə əlaqələndirmişdir.

Əsrlər boyu dəb anlayışının özü gündəlik həyatla əlaqəli idi və geyim və interyer yaratmaq fəaliyyəti yekdilliklə sənətkarlıq kimi tanınırdı. Yalnız iyirminci əsrin ortalarında avanqard incəsənətin formalaşması ilə dəbin estetik təbiətinə, onun spesifik estetik roluna yeni baxış yaranır.

Estetik hadisə həmişə məzmunun müəyyən verilmişliyi ilə, bu verilmişliyin hiss müəyyənliyi ilə, hətta ondan da çox, verilmişliyin fərdi həssas forması ilə məşğul olur. Estetik hadisə xarici formada verilir, bu vasitələr, bu materiallar vasitəsilə həyata keçirilir. Moda dizaynerinin yaradılması yaradıcılıq işidir, sonuncu bu nəticənin sosial qiymətləndirilməsi ilə yeni nəticə yaratmaq üçün müəyyən bir fəaliyyət kimi başa düşülür.

Mükəmməldə müsbət və mənfinin müxtəlifliyi məhz "estetik" kateqoriyasında əks olunur. Buna görə də hər yenilik mükəmməl bir fikir deyil. Amma mükəmməldə həm tamaşaçını qaçıran, həm də onu daim özünə cəlb edən mütləq dolğunluq var.

Beləliklə, modanın obyektivliyi onun estetik məzmununu tanımaq üçün qeyri-adi bir şey deyil. Təbii obyektlər və insan fəaliyyətinin hər hansı digər məhsulları ilə yanaşı, moda obyekti müəyyən təfəkkür və tarixi dəyər daşıyır. Estetik moda obyektlərinin ifadəliliyinin xüsusi formaları xüsusi bir elmi tədqiqatın mövzusu ola bilər. Ancaq dəb hadisələrinin yaradıcılarının mövcudluğu və fəaliyyətinin estetik faktının nəzərə alınması daha az vacib deyil. Yalnız 20-ci əsrin əvvəllərində avanqard sənətin formalaşması və inkişafı fonunda moda nəhayət estetik parametrlər nöqteyi-nəzərindən nəzərdən keçirilməyə başlandı, buna baxmayaraq əslində sənət və bədii sənətin özünəməxsus növlərindən biri idi.

GƏNCƏ ŞƏHƏRİNİN AUTENTİK MUSİQİ FOLKLORUNUN JANR SİSTEMİNƏ DAİR

Kəngərli V.F.
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail ünvanı:kengerli78@bk.ru

Azərbaycanın çoxəsrlik tarixə malik olan şəhərlərindən biri hesab olunan Gəncə şəhəri zəngin ənənələrə malik musiqi folkloruna, ifaçılıq xüsusiyyətlərinə malikdir. Əsrlərdən bəri burada muğam sənəti, aşıq yaradıcılığı, xalq mahnı və rəqs janrları geniş inkişaf tapmışdır. Regionun autentik musiqi folklorunu yerli əhalinin adət-ənənəsi, etnopsixoloji xüsusiyyətləri, milli kimliyinin təzahür forması kimi qəbul etmək olar. 2020-2022-ci illər ərzində tərəfimizdən aparılan sahə araşdırmalarının nəticəsi olaraq, Gəncə şəhərinin musiqi folklorunun janr təsnifatını apararkən aşağıdakı formada bölgü etmək mümkündür:

1. Mərasim nəğmələri:

- Toy mərasim nəğmələri ("Quda-quda", "Başmaq çırpma", "Bəy tərifi", "Verdik dana" və s.)
- Matəm mərasim nəğmələri (Ağılar, bayatılar, mərsiyələr, qara laylalar və s.);
- Mövsüm mərasim nəğmələri ("Üzərrik yandırma", "Yağışı kəsmək", "Xıdır Elləz", "Xıdır Nəbi" və s.);

2. Məişət nəğmələri:

- Beşik nəğmələri: (Laylalar, Oxşamalar, Nazlamalar);
- Uşaq oyun nəğmələri: (Düzgülər, Sanamalar, "A Tərxana-Tərxana", "O qara qazan doldumu", "Qıy qılıncım" "Bənövşə" və s.);
- Lirik mahnılar ("Bir otaq tikdirdim", "Ay gülüm", "Yarı özgələrə yar olan canım", "Cürdəyi gördüm nənə", "Bulaq başı" və s.).

Yuxarıda adı çəkilən hər bir musiqi folklor nümunəsi özünəməxsus ifa tərzinə, məqam-intonasiya quruluşuna, melodiyaya malikdir.

Toy mərasim nəğmələri adından da bəlli olduğu kimi xalqın şad günlərində - nişanlanma, xınayaxdı, toy-düyün zamanı istifadə olunur. Bu zaman baş tutacaq tədbirə əsasən mahnılar ifa olunur. Müqayisəli təhlil zamanı toy mərasim nəğmələrinin müxtəlif ritmik fiqurasiyalı, oxşar və fərqli intonasiyaya malik, eyni zamanda metro-ritmik cəhətdən müntəzəm və qeyri-müntəzəm bəhrli nümunələrin olduğunu görürük.

Matəm mərasim nəğmələri isə öz növbəsində bir neçə qismə bölünür. Belə ki, burada həm ailə üzvlərinin ölümü (və ya çox yaxın bir insanın) zamanı ifa edilən, həm də İslam dinində matəm günləri kimi qeyd edilən tarixlərdə ifa olunun nümunələr aid edilir. Bu nümunələr daha çox qısa diapazon, reçitativ oxuma ilə diqqəti cəlb edir.

Mövsüm mərasim nəğmələri bir başa olaraq təbiətlə bağlı olmuşdur. Belə ki, təbiətin oyanması, yağışın kəsməsi, küləyin əsməsi üçün oxunan nəğmələr məqam-intonasiya baxımından fərqlidir. Eləcə də, nəğmələrin çoxvariantlı olması onları dialektik cəhətdən dəyişməsinə səbəb olur.

Məişət nəğmələrinin böyük hissəsini uşaqlarla bağlı nümunələr təşkil edir. Belə ki, havaların isinməsi ilə uşaqların oyun əhatələridə genişlənir. Sanamalar, düzgülər zamanı müxtəlif ritmik fiqurasiyalı reçitativlərdən istifadə olunur. Bəzi oyunlar zamanı uşaqlar dəstələrə ayrılaraq ayrı-ayrı qrup şəklində, bəzilərində isə vahid komanda şəklində oyunu icra edirlər.

Beşik nəğmələri isə autentik musiqi folklorunun arxaik qatına aid edilir. Sahə araşdırmaları zamanı informantlar tərəfindən oxunan laylalar, oxşamalar və nazlamalar intonasiya və məqam baxımından lokal xüsusiyyətlərə malikdir.

Lirik mahnılar isə informantlar tərəfindən verilən məlumata görə daha çox qızların bir yerə yığışması zamanı ifa olunurdu. Burada saf sevgi, məhəbbət hisləri tərənnüm olunur.

Ümumilikdə, Gəncə regionunda rast gəlinən folklor nümunələri məhəlli xüsusiyyətlərinə görə bir-birindən fərqlənsə də, onları birləşdirən bir çox cəhətlər vardır. Arxaik folklor nümunələrimiz diapazonunun kiçik olması yəni məhdud şəkildə, eyni ritm və quruluş baxımından sadə olması ilə səciyyələnir.

PORTFOLİONUN MƏQSƏDİ VƏ LAYİHƏLƏNDİRMƏ MƏRHƏLƏLƏRİ

Məmmədli L.Y.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: lalamails16@gmail.com

Portfolioya daxil olan layihələrin sayından çox keyfiyyəti, yəni intellektual və təqdimat xüsusiyyətləri önəmlidir. Dizaynerlərin iş təsvirlərində tapılan orijinallıq prinsipi əsasında fəaliyyət göstərən layihələrin fərdi keyfiyyətləri bütün portfelin keyfiyyətini göstərir. Vizual, kontekstual və funksional keyfiyyəti daim təkmilləşdirən və gələcək səyləri dəstəkləyən portfoliolar dizaynerin peşəkar mükəmməlliyini və görmə qabiliyyətini sübut edən sənədlərdir.

İstedad və peşəkar perspektiv arasında əlaqə yaratması gözlənilən portfoliolar inkişaf edən peşəkar mövqeyə uyğun olaraq yenidən nəzərdən keçirilməli və lazım gəldikdə tamamilə yenilənməlidir. Dizayn sahələri baxımından bir-birindən fərqlənən portfoliolar dizaynerin bütün təhsil, təcrübə və bacarıqlarının məcmusudur və dizaynerin ən dəyərli məhsuludur.

Vizual dizayn ünsiyyətin əsasını təşkil edir. Şifahi ünsiyyətin ifadə edə bilmədiyi mövzuları və duyğuları qrafik dizayn vasitəsilə izah etmək olar. Bir dizayn nümunəsinə baxaraq onu oxumaq, anlamaq demək olar ki, mümkün deyil, çünki iki proses tamamilə fərqli qavrayışlar yarada bilər. Dilin və ifadənin gücünə töhfə verən isə məhz vizual ifadədir. 2000 il əvvəl başlayan tipoqrafiya elmi bu gün 200000 yazı tipinə çatmışdır. Hər bir yazı tipi fərqli duyğuları tətikləyərək ünsiyyət qurur. Mətn və vizualların birlikdə istifadəsi, həm də gündəlik həyatda çap və rəqəmsal hər cür ünsiyyətin infrastrukturunu təşkil edir. Rəqəmsal dizayn dövründə bəzi təcrübələr və qaydalar dəyişsə də, istehsalın təsiri eynidir.

Texnoloji inkişafla ünsiyyət formaları dəyişir, fərdlərin özünü ifadə tərzi və ifadələri fərqlənir. Xüsusən də rəqəmsal dünyanın təqdim etdiyi imkanların yayılması və hər kəs tərəfindən əlçatan olması ənənəvi üsullarla yanaşı, yeni qrafik proqramların oxu haqqında da çoxlu məlumatların hazırlanması ilə nəticələndi.

Portfolionun dizaynı tipoqrafiya və rəngin istifadəsinə əsaslanan qrafik dizayn üsuludur. Müxtəlif dizayn sahələri üzrə oxşar qaydalara əsaslanan metodun məqsədi dizaynerin öz yaradıcı baxışını əks etdirmək istəyidir. Portfolio sənədlərinin müasir dizayn yanaşmalarına uyğun tərtib edilməsi mütəxəssislərə sektorda özlərini ifadə etməyə imkan verir.

Mütəşəkkil və peşəkar portfel (portfolio) digər namizədlərdən fərqlənməyin ən təsirli yoludur. Portfellərdə təqdim olunan əsas məzmun zamanla ideyanın inkişafını iyerarxik şəkildə təsvir edən şəkillər və mətnlərdir. Estetik gücü olan portfellər həmişə adi portfellərdən daha cəlbedici olur. Portfelin təqdimatında şəxsi fəlsəfə və peşəkar baxışa dair izahatlar da rəy formalaşdırmağa imkan verə bilər. Sektoral obyektiv qaydalara əsaslanan subyektiv istehsal olan portfolio dizaynı peşəkar yaradıcılıq və səmərəliliyi göstərən sənədlərdir. Trendləri və tələbləri izləyərək sənədlərin mütəmadi olaraq yenilənməsi dizayneri aktual saxlayan keyfiyyətdir. Bu məqsədlə dizaynerin arxivindən seçilmiş işlərin portfelin təqdim etdiyi bütövlükdə təşkil edilməlidir.

Dizayn edilmiş fərdi korporativ portfolio dizayner şəxsiyyətini əks etdirən markadır. Bu marka dizaynerin mövqeyini, prinsiplərini, görmə qabiliyyətini və vədlərini əhatə edən etiket kimi qəbul edilir. Bu səbəbdən portfoliolar hədəf auditoriyaya uyğun, şəxsi bacarıq və zövqləri əks etdirən şəkildə tərtib edilməlidir.

Portfolionun yaradılması bir neçə mərhələdən ibarətdir:

- effektiv girişin olması. Burada şəxsi məlumatları aydın dildə təqdim etmək lazımdır. Təqdim olunan məlumatları orijinal şəkildə çatdırmaqla fərqlənmək vacibdir. Hədəf digər dizaynerlərlə fərqi ortaya çıxararaq yaradılacaq maraq, həyəcan və güvəndir.
- məqsəd və hədəflərin açıqlanması. Bu, giriş bölməsindəki məlumatlardan sonra daxil edilir.
- iş seçimi. Portfolio dizaynının məqsədi effektiv sənəd yaratmaqdır. Portfolioda bəyənilən işlərin seçilərək yer alması vacibdir. Belə ki, düzgün seçilmiş iş potensial müdirə, tərəfdaşa və ya müştəriyə inam aşılayır və peşəkar münasibətə addım atmağa imkan verir. Bu səbəbdən keyfiyyətli işlərin sayının artırılması və portfelə daxil olan işlərin effektiv seçilməsi prosesinin aparılması zəruridir.

- vizual olaraq diqqəti cəlb edən portfolionun hazırlanması. Boş bir səhifə hesab oluna bilən portfoliolarda insanın meylləri və məqsədlərinə yönəlmiş hissə olmalıdır. Qabaqcıl estetik xüsusiyyətlərə malik portfolio işlərin qavranılmasını asanlaşdırmaqla yanaşı, işlərin keyfiyyətini yüksəltməyə də kömək edə bilər.

Portfolio dizaynında ən mühüm dəyər təqdim olunan məzmunun portfelin ümumi qavrayışını artıran informativliyi təmin etməsidir. Portfelin layihələndirilməsi proseslərində müəyyən mərhələlərin ardıcıl idarə olunması layihələndirilən məhsulun səmərəliliyini müəyyən edir.

DİZAYN SAHƏLƏRİ ÜZRƏ PORTFOLİOLARIN XÜSUSİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məmmədli L.Y.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: lalamails16@gmail.com

Portfoliolar fiziki və ya rəqəmsal olaraq istifadə olunan sənədlərdir. Portfellər özünüqiymətləndirmə və ünsiyyət üçün yeni vasitədir. Portfolio sənədi dizaynerin şəxsiyyətini, bacarıqlarını, baxışlarını, təcrübələrini, peşəkar missiyasını və maraqlarını təbliğ edən yeganə sənəddir. Unikal portfel yaradıcı tərcümeyi-hal və dizayner istedadlarının nümayişi ilə bacarıq artımı və şəxsi inkişafını sənədləşdirən sübutdur.

Portfolio dizaynı müxtəlif mərhələlərə əsaslanan prosesdir. Buna görə də dizayna başlayan şəxsin qərar mərhələsində cavab verməli olduğu bir çox suallar vardır, məsələn, hansı proqramlardan istifadə etməli, nə qədər vaxt ayırmalı və haradan başlamalı kimi suallar.

Unikal portfolioya sahib olmaq üçün ən vacib dəyər isə şəxsi dizaynın gücüdür. Portfolio dizaynı təqdimat üsulları ilə əlaqəlidir. Dizaynla bağlı hər bir peşəkar qrupun öz təqdimat strategiyaları və prinsipləri vardır. Bu, hər hansı böyük fərqləndirmə olmadan peşəkar standartlaşmaya nail olunması və hər bir qrup tərəfindən qavranılacaq sənədlərin yaradılması ilə bağlıdır.

Ən geniş şəkildə tətbiq edilən portfolio dizaynları ideal olaraq 15 səhifəlik hesab olunur. Daxil olan layihələrin sayından və hər bir layihənin təfərrüatlarından asılı olaraq, A4 və ya A3 ölçüsündə hazırlanmış portfellər birbaşa mümkün olan şəkildə məlumat verir. Portfoliolar bir neçə hissədən ibarətdir:

1. Üz qabığı. Fərqli materiallar və istehsal texnologiyaları ilə hazırlanmış üzlüklərdə loqo, ad və portfolio ifadəsi olmalıdır. Yaradıcılığın vizuallaşdırılmasında böyük əhəmiyyət kəsb edən üz qabığı böyük marağa səbəb olmaqla yanaşı, firma üslubu baxımından da mənfi təsir yarada bilir. Üz qabığının qavrayış gücü ilə məzmunun gücü üst-üstə düşməlidir.
2. Tərcümeyi-hal. Portfelin iç səhifəsindəki tərcümeyi-hal bölməsində CV məlumatı ilə birlikdə dizaynerin həyatı və baxışı haqqında qısa məlumat verilməlidir. Bu bölmədə dizaynerin fotosu əlavə oluna bilər, təhsili, proqram təminatı bacarıqları və karyera məlumatları infoqrafika şəklində verilə bilər.
3. Məzmun. Portfoliodakı məzmun haqqında ilkin məlumat verilir. Bu səhifədəki layihə adlarının yanında yerləşdirilə bilən kiçik şəkillər və piktoqramlar səhifəni daha cəlbedici göstərə bilər.
4. Layihələr. Layihə səhifələrində ən azı 3 müxtəlif səviyyəli layihə eyni keyfiyyət və ifadə ilə təqdim edilməlidir. Məqsəd - dizaynerin düşüncə tərzi və dizayn yanaşması haqqında məlumat verməkdir. Layihələrin inkişaf prosesləri, istifadəçi əlaqələri və istehsal detalları haqqında iyerarxik məlumatların təqdim edilməsi mövzunun başa düşülməsini asanlaşdırır. Hər bir layihə üçün ən azı iki səhifənin olması və səhifələrin məktəbdə hazırlanmış layihə vərəqlərindən müstəqil şəkildə yenidən təşkil edilməsi portfelin dəyərini artırır.

Portfolionun aktual olması olduqca zəruridir. Bu, təqdim olunan məzmunun lazım olduqda yenidən təşkil oluna və ya dəyişdirilə bilməsi ilə bağlıdır.

Memarlıq və dizayn dərəcəsi olan dizaynerlərin üstünlük verdiyi portfoliolar müxtəlif tətbiqlərdən istifadə nəticəsində yaradılan kitab, broşür və ya rəqəmsal fayl şəklində ola bilər. Əsasən qrafik dizayn və sənaye dizaynı məhsulları kimi qəbul edilən portfoliolardan memarlıq, interyer memarlığı, plastik incəsənət, vizual kommunikasiya dizaynı, moda dizaynı, tekstil dizaynı, ətraf mühit dizaynı, landşaft dizaynı və şəhər və regional planlaşdırma ixtisasları üzrə tələbə və məzunlar istifadə edir.

Dizaynla bağlı peşəkar qruplar üçün uyğun formatlarda hazırlanmış və müxtəlif texnikalardan istifadə edilən portfellərdə fərdiləşdirmə üstünlükləri, eləcə də peşəkar qaydalar çərçivəsində təşkil edilən məzmun portfelin kommunikativ xəttini müəyyən edən keyfiyyətlər sırasındadır.

MÜASİR SOSİAL-MƏDƏNİ MƏKANIN BƏDİİ LAYİHƏLƏNDİRİLMƏSİNDƏ TEKSTİL ORNAMENTLƏRİNİN ROLU

Məmmədova A.C.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: aytenm334@gmail.com

Tekstil sənəti təbii aləmin obyektiv xüsusiyyətlərini ornamentlərdə əks etdirmək imkanlarının daha parlaq və inandırıcı olduğu dekorativ-tətbiqi sənət sahəsidir. Onlar insan şüurunda bəzən anlaşılmaz hissləri oyatmalı və formalaşdırmalıdırlar. Sənətin vəzifəsi və rolu bundan ibarətdir.

Dekorativ sənətin, o cümlədən tekstil sənətinin insan həyatında rolu çox böyükdür. Bu səbəbdən məmulatların gözəlliyi və zərifliyi ilə diqqət çəkməsi çox vacibdir. Bir daha qeyd etmək lazımdır ki, tekstil məmulatlarının ornamentləri təsviri olmayan mücərrəd formaların, eləcə də yaradılmış müasir ornamentlərin çoxluğu ilə diqqət çəkir.

Tekstil sənəti ornamental motivlərin inkişafı ilə sıx bağlıdır, onların çoxu neolit dövründə yaranmışdır. Tekstil məmulatlarının naxışlarla bəzədilməsi olduqca təbii və gözəl görünür.

Tekstil məmulatlarının unikal xüsusiyyətləri mücərrəd formaların istifadəsi üçün geniş imkanlar yaradır. Belə ki, məsələ burasındadır ki, bu formalar bu halda obyektin funksional təyinatına tabedirlər. Eyni zamanda interyer ansamblının subyektiv mühiti tekstilin bədii xüsusiyyətlərini açmaq və vurğulamaq qabiliyyətinə malikdir. Abstrakt formalar yalnız interyerin və ya tekstil məmulatları ansamblının bütöv görüntüsünü yaratmaq üçün üsuldur.

Bütün tekstil ornamentləri aşağıdakı meyarlara uyğun olaraq təsnif edilir: ornamentin işlənib hazırlanması üçün tekstilin materialının keyfiyyəti; tətbiq üsulu: müxtəlif ağac və əyri sapların bir-birinə birləşdirilməsi (yəni, naxışlı teksil) və ya çap üsulu ilə parçaya naxışların vurulması (yapışdırılma və ya çap naxışı); qapalı və açıq strukturlu ornamentlər; axromatik və xromatik (çoxrəngli) ornamentlər. Axromatik ornamentli kompozisiyalar iki və üç çalarlı olur; motivin plastik xarakteri: həndəsi, nəbati, peyzaj və s.; parçaların təyinatı: sosial-mədəni mühitlər üçün, ictimai və ya yaşayış interyerləri üçün və s.

Ornament bədii mədəniyyətin əsas hadisələrindən biri, bütün bəşəriyyət tarixinin fundamental dəyəridir. Bu, tam olaraq tekstil ornamentinə də aid edilir. İnteryerin layihələndirilməsi prosesində mühüm məqam interyerin bədii komponentlərindən olan dizayn ansamblının elementlərindən biri kimi tekstil ornamentinin tətbiqidir.

Tekstil ornamentinin rolunu pərdə və mebel parçalarının, xalçaların və toxuculuqların tarixinə aid nümunələr üzərində qiymətləndirmək çətindir.

Ornamentin funksiyası, ilk növbədə, bəzəkdir. Ornament latın dilindən tərcümədə dekorativ-tətbiqi sənət obyektlərini, xüsusən də tekstil məmulatlarını bəzəyən abstrakt həndəsi və ya təsvir elementlərinin ritmik növbəsi ilə təşkil edilən naxışlardır.

Müasir sosial-mədəni məkanın layihələndirilməsi zamanı tətbiq edilən qrafik üsullara isə aşağıdakıları aid etmək olar:

- düz həllər - eyni və ya müxtəlif qalınlıqdakı xətlərin tətbiqi. Daha qalın xətlər əsas ornamental mövzunu, daha nazik xətlər isə ikinci dərəcəli mövzuları bildirir. Xəttin konturunun xarakteri (düz, bucaqlı, dalğavari və s.) formanın keyfiyyət hissini ifadə edir, onun hərəkət xarakterini (gərgin, ləng, sürətli, yavaş, sakit və s.) ifadə edir. Xətti şəkildə hazırlanmış ornamentdə yüngüllük, incəlik, eskizlik var.
- ləkə şəkilli həllər - motivlərin ritmik növbələşməsinə diqqət yetirməklə motivlərin və fon sahələrini aktiv və statik olaraq müəyyən edir.Bu həllər xətti həllərlə müqayisədə daha şərti xarakter daşıyır, ikiölçülüdür və boşluq dərinliyi yoxdur.
- kombinə həllər - daha geniş imkanlara malikdir, tez-tez və müxtəlif üsullarla istifadə olunur.

Ornamentli məmulatlar əvvəllər olduğu kimi indi də olduqca aktualdır. Ornamental mədəniyyətin ən qədim təbəqəsini təmsil edən həndəsi naxışlar dairə, xaç, kvadrat və onların müxtəlif modifikasiyaları şəklində olmuşdur. Müxtəlif xalqların sənət və sənətkarlıq nümunələri bu ornamentlərin müxtəlif birləşmələrdə geniş istifadəsini nümayiş etdirir.

Ümumiyyətlə, tekstil məmulatlarında tətbiq edilən ornamentlər çox vaxt mücərrəd olsa da, konkret ideyanın emosional məzmununu müəyyən dolğunluqla ifadə etməyə qadirdir.

İNTERYERİN ÜSLUB HƏLLİ VƏ DİZAYN XÜSUSİYYƏTLƏRİNİN QARŞILIQLI TƏHLİLİ

Məmmədova C.A.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: camila.mamedova.91@mail.ru

Dizayn sahəsi interyerin, məkanın daxilinin ahəngdarlığını, rəng uyğunluğunu, estetik görünüşünü insan xarakterinə uyğun kombinasiya edərək yaradılan bir incəsənət növüdür. İnsanın daxili gözəlliyi önəmli olduğu kimi iç məkanın rahat və cazibəli olması vacibdir. Gərgin iş rejimi ilə əlaqəli insanın evdə vaxtını səmərəli keçirməsi, bilavasitə vaxta qənaət rejimində işlərinin həll olunması üçün interyerin düzgün yığılması vacib şərtlərdəndir.

XIX əsrdə müxtəlif fənlər üzrə ixtisaslaşmalarla bir peşə və təhsil sahəsi olaraq ortaya çıxan dizayn, insanların gündəlik həyatda istifadə etdikləri hər cür məkanı dizayn edə biləcək bir peşə olaraq qurulmuşdur. Dizayn inkişafının təxmini tarixi təqribi 100 ilə bərabərdir. Dizayn nəzəriyyəçiləri, teoriklər bu tarixi qiymətləndirməsində hələ dəqiq qənaətə gəlməmişdir.

Daxili dizayn peşəsi cəmiyyətin inkişafının və sənaye prosseslərinin inkişafı nəticəsində yaranan mürəkkəb memarlığın nəticəsi olmusdur. Məkandan səmərəli istifadə, istifadəçinin rifahı və funksional dizayn axtarışı müasir interyer dizaynı peşəsinin inkişafına kömək etdi. Yaradıcılıq sənəti insan fəaliyyətinin istənilən növü və ya məhsulu kimi aşkar oluna bilər. Yaradıcılıqla əsas əlaqəli olanlar rəsm və heykəltəraşlıq kimi vizual sənət növlərini göstərmək olar.

Dizayn insanı əhatə edən aləmi daha gözəl və səmərəli etməyə çalışır. Bu baxımdan dizaynın bir sıra növləri var: art dizayn, memarlıq mühütünün dizaynı, geyim dizaynı, sənaye dizaynı, mətbəə dizaynı, landşaft dizaynı, interyer dizaynı, qrafik dizayn, və başqa sahələrinində adını cəkmək olar. Bu sahəni daha yaxşı insanlara tanıtmaq üçün də hər sahənin də öz dizayneri var.

İnteryerdə praktiklik və funksionallıq yaşayış sahəsinin başlıca keyfiyyətlərindəndir. İnteryerdə istifadə olunan dekor elementlərinin boğuq xarakter alması və məkanın təmiz hava ilə təchiz edilməsi mühim məsələ hesab olunur. İnsan sağlamlığının qorunmasında və vaxtın səmərəli istifadəsində yaşadığı mənzilin böyük əhəmiyyəti var. İnteryer dizaynerləri məkanı dizayn edərkən, bu prosesi zəncirvari şəkildə edirlər. Bu prossesin ilkin hissəsini ideya-konsepsiya ilə başlayan və son hissəsini tətbiq təşkil edir. . İnteryer dizaynı məkan sahibinin xarakter güzgüsüdür. Dizayner təkcə məkanı deyil, məkana aid olan hər bir şeyi diazyn ede bilməlidir. Bura mebellər, rənglər, erqonomik həllər daxildir. Ümumilikdə məkan həm istifadəçinin, həm də interyer dizaynerinin şəxsiyyətini və mədəniyyətini birləşdirir.

İnteryer dizaynı bir sıra formatlarda və düsturlarda olur, bəzən tamamilə fərqli və digər vaxtlarda yalnız ən incə fərqlərlə. Bununla belə, hər biri özünəməxsus ləzzətini, bitişini və təcrübəsini təqdim edir ki, bu da unikal ilham, tarix və yaradıcılıq cəhdlərində yer yaradır. Buna görə də, müxtəlif interyer dizayn tərzlərini nəyin fərqləndirdiyini bilmək, anladığınızdan daha əlçatan ola bilər, məkanınız və ambisiyalarınız üçün mükəmməl üslubu seçməyinizi təmin edir və daha az çətinliklə vizual mükəmməlliyə nail olmağa kömək edir.

Daim inkişaf edən daxili dizaynın bir çox növləri var. Onlardan bəziləri dəbdir, digərləri isə zamanın sınağına tab gətirən zamansız klassiklərdir. Hər bir üslub özünəməxsus görünüşünü verən fərqli mebel, dekor, işıqlandırma və aksessuarlardan ibarətdir. Ən populyar üslublardan bəziləri ilə tanış olduqda, hansı üslubların sizin üçün daha üstün olduğunu daha yaxşı başa düşəcəksiniz və seçimlərinizə cavab verəcəksiniz.

Dizaynın inkişafına incəsənət, mədəniyyətlə yanaşı üslubun da rolu əvəz edilməzdir. Hal-hazırkı dövrümüzdə texnikanın inkişafı müasir dizayn edilmis interyerdə öz əksini tapmışdır, lakin indiki dizayn əsaslarını keçmiş üslublardan götürür. Keçmişdə yaranmış üslublardan hal hazırkı dövrümüzdə istifadə olunan üslublar örnək götürür. Bu baxımdan da hər dövrdə yaranmış və hər bir ölkəyə məxsus üslub tərzləri var. Aşağıda bir sıra üslubların adları sadalanmışdır.

Minimalist - Digər üslublar kimi bu üslubda XX əsrin 2 - ci yarısında öz aktuallığını tapmışdır. Üslubun əsas şüarı "çox sıxıcıdır"-"az yaxşıdır" ideyalarından ibarətdir. Minimalistik üslubun interyerdə açıq, yüngül, sadə rəng tonlarından və cox işıqdan istifadəsi ilə seçilməsidir. Digər fərqləri funksioallıq, parlaq çalarların olmaması, mebel avadanlıqlarının istifadə olunub lakin az sayda olması zamansız bir sakitləşdirici və cəlbedici məkan yaradır.

Zen- üslubun əsasını təbii elementlər, sadəlik, çox əşyaların olmaması təşkil edir. İnteryerdə daş,ağac bu üsluba təbiilik bəxs edir. Üslubun əsas unikallığı əşyalara sevgini azaltmaq, xoşbəxtliyi artırıb anı

yaşamaqdır. Ağac və daş effektini bu üslubda elementlərlə vurğulanır. Bu elementlər insanı bir başa təbiətə yaxın edir və üslubu daha fərqli və maraqlı göstərir.

Neoklassika – bu üslub xüsusi üslub olaraq XIX əsrdə yaranıb. Neoklassika klassik və antik üslubların yeni bir qədər fərqli yozumudur. Simmetriklik, harmoniklik Neoklassika üslubunun interyerləində əsas prinsip olaraq qalır. Klassik üslub kimi, neoklassisizm də , sadə və nəcibdir.

Üslubun əsas rəng tonları isti, açıq krem və qəhvəyi rənglərin tonları, pastel tonlar aid edilir. Klassik üsluba daxil edilən bütün bəzək elementləri tağ, karniz və s neolklassikayada aid olunur.

İnteryerdə olan köhnə mebel əşyalarını inkişaf etdirmək, onlara heni həyat bəxş etmək, taxta altlıqlardan istifadə edərək interyerə canlılıq qatmaq olar. Əşya seçimi elədə asan iş sayılmır. Bəzi saya divarlara müəyyən çərçivələr asmaqla interyerə gözəllik qatamaq olar. Ümumi sadə olan interyerlərdə pərdələr, xalça, çilçıraqlar vasitəsi ilə interyeri daha şux edə bilərik**.**

XX ƏSRİN İKİNCİ YARISINDA MÜASİR İNCƏSƏNƏTİN FORMAL-TEMATİK TƏKAMÜLÜ

Namazova L.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: Nam.lee@mail.ru

ABŞ-da edilən ikinci cəhddən modernizm sənəti özünü tam şəkildə həyata keçirir və 1960-cı illərin ikinci yarısına keçir. Yeni mərhələ isə 1990-cı illərin sonlarında özünü tükənmiş kimi qəbul edən postmodernizm mərhələsidir. Belə bir zaman çərçivəsi müasir incəsənətin başlanğıcından indiki vəziyyətinə qədər təkamül dinamikasını izləməyə, onun fonunun cəmini, ən son bədii təcrübənin əsas hadisələrini və mümkün inkişaf istiqamətlərini göstərməyə imkan verir. Burada müasir incəsənətin təkamülü probleminin tədqiqi 1940-1990-cı illərin praktikasında geniş yayılmış təsvir növlərinin və ya vizual bədii obrazın ənənəvi təqdimat üsullarının dəyişməsinin nəzərdən keçirilməsinə əsaslanır.

XX əsrin müasir incəsənətində dünyanın təsvir növlərinin təkamül diapazonu o qədər yeni və müxtəlifdir ki, üslub və janr anlayışları əslində sənət nəzəriyyəsində istifadə olunmur. Köklü şəkildə dəyişən tədqiqat mövzusu konseptual alətlər dəstinin yenilənməsini tələb edir. Mövzusunun aktuallığı belə birləşdirici tipoloji formal və semantik fikirlərin axtarışı ilə bağlıdır, onsuz 20-ci əsrin sənət nəzəriyyəsini yaratmaq olduqca çətindir.

XX əsrin müasir incəsənətinin özünüdərketmə tarixinin öyrənilməsi, obrazın təsviri fenomenini öz problemi kimi seçməsi bizə "heç nə" və "hər şey" ideyalarını instrumental ideyalar kimi təklif etməyə imkan verir. Bu fikirlər həm formal praktikaları (bədii formanın deobyektivləşdirilməsi/obyektivləşdirilməsi), həm də semantik, simvolik vəzifələrdəki dəyişiklikləri, ağlasığmaz, ülvi haqqında təsəvvürlərdəki dəyişiklikləri təsvir edir. İ.Kantın hüdudsuzluğuna və universallığına dəlalət edən kateqoriyasından istifadə edir. Bundan əlavə, heçlik hər şeyin təmsili avanqardın sosial-mədəni konteksti ilə bilavasitə bağlıdır ki, bu da köhnənin inqilabi əhəmiyyətsizliyini yeninin yaranması üçün şərt kimi irəli sürür. Heç bir şey ideyası inkişafın başlanğıcını və sonunu birləşdirir, təkamül mexanizmini işə salır. Avanqard sənətində bu ideyaya marağı O.Şpenqlerin sonsuzluğa doğru cazibə kimi təyin etdiyi Avropa düşüncəsinin inkişafı hazırlamışdır. Heç bir şey ideyasının problemləşdirilməsi modernizm və postmodernizmin bədii fikrinə təsir etmiş bir çox nüfuzlu filosofların (Hegel, Marks, Nitsşe, Haydegger, Sartr, Derrida, Bodriyar və s.) və kulturoloqların (Şpenqler) əsərlərinin əsasını təşkil etmişdir.

Avropa təfəkkürünün fermentativ rəngkarlıq işi sənətdə plastik komponentlərin zəngin subyektivliyinin formalaşmasına gətirib çıxarır. Heçliyə (xüsusən deobyektiv) alternativin mümkünlüyü, yəni ümumbəşəri təsvir yerli bədii təcrübə tərəfindən aşkar edilmişdir

"Günəş üzərində qələbə" operası üçün M F. Larionov və İ. Zdayeviç avanqard yaradıcılığın plüralist və ya "hər şey" konsepsiyasını təklif edirlər. Yenilənmiş sənət ideyası yaranır və yeni obyektiv formalarda özünü göstərir. "Hər şey"in aspektlərindən biri onu "məhv"in inversiyası kimi nəzərdən keçirməyə imkan verir: "hər şey" hər şeyi, o cümlədən bir-birini istisna edən ifadələri tanıyır, çünki bu, inkarın ən qısa yoludur. Heçliyin səssiz mövcudluğu fonunda inkişafın son, arzu olunan forması və ya kölgə kimi təsəvvür edilən hər şey, yoxluğun izi müxtəlif və çox vaxt bir-birini inkar edən məna çalarları yaradır.

XX əsrin sənətinin heç və hər şeyin ümumbəşəri ideyalarının semantik prizmasından nəzərdən keçirilməsi bizə həm ötən əsrin mədəniyyətinin ümumi mənzərəsini qurmağa, həm də bu mədəniyyətin onu əvvəlki tarixi dövrdən fərqləndirən xüsusiyyətlərini nümayiş etdirməyə imkan verir.

R.Kraussun modernizm və postmodernizmin sənətşünaslıq nəzəriyyəsinin əsasına qoyduğu forma və formasızlıq kateqoriyaları ilə müqayisədə heç və hər şey ideyalarının istinad kimi üstünlüyü formal problemlərin əhatə dairəsini genişləndirməkdir. A.Borovski və A.Yakimoviçin əsərlərində istifadə olunan canlılıq və ya texnologiyaların tərəqqisi kimi modernizmin təsirli ideyaları ilə müqayisədə heç bir şeyin və hər şeyin üstünlüyü ondadır ki, onlar tarixi-mədəni diskursda daha dərin köklərə malikdirlər. Onların instrumental imkanları daha zəngindir və incəsənətin özünü dərk etməkdən dəyişməyə və genişlənməyə doğru hərəkəti ilə dəyişən müasirlik situasiyalarına daxil olmasını təmin edir.

MÜASİR DÜNYADA İNKİŞAF ETMİŞ BƏDİİ TƏRTİBAT ÜSLUBUNUN DİNAMİKLİYİ

Namazova L.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti

Müasir üslubda interyer dizaynı inanılmaz dinamikaya malikdir. Bu ziddiyyətli, funksional, rahatdır. Mənzilin dizayn layihəsi ətraf aləmlə uzlaşır. O, mebel istehsalında, təmir və təchizat sahəsində ən son tendensiyaları əks etdirir. Dizaynın ümumi prinsiplərini bir neçə sözlə təsvir etmək olar.

Hər bir məkan sahibinin zövqləri ilə rezonans doğuran fərdi konsepsiya tələb edir. Müasir dizayn üslubunda rəsm əsərləri də böyük və əvəzolunmaz rol oynaylr belə ki, biz onları təkcə sənət əsərləri kimi deyil, həm də yaşayış binaları, teatr salonları, restoranlar və əyləncə mərkəzləri üçün məcburi interyer elementi kimi qəbul edirik. Onlar rahatlıq, unikal atmosfer yaradır və bizim seçdiyiniz üslubu vurğulayır. Biz divar və tavan rəsmlərini orijinal formada davamlılığa və qorunmağa zəmanət verən orijinal texnologiyalardan istifadə edərək həyata keçiririk. Lazım gələrsə, onlar nəm bir parça ilə silinə və hətta yuyula bilər. Bundan, təsvirlər keyfiyyətini, o cümlədən parlaqlığını itirmir. Biz sizin istənilən ideyanızı - ulduzlu səmanı, əzəmətli dağları və ya dəniz dalğalarında oynayan zərif günəşi həyata keçirə bilərik. Biz müştərinin fotolarından, sevimli cizgi filmlərindən və ya rəsmlərindən süjetlər götürürük. Rəsm tərzi mütləq otağın ümumi üslubuna uyğun gəlir və digər daxili əşyalarla birləşdirilir.

Təcrübəli dizaynerlər və planlaşdırıcılar müasir insanın rahat həyat üçün nəyə ehtiyacı olduğunu dəqiq bilirlər. Buna görə də bir sıra xidmətlər, o cümlədən yeni binada mənzilin bitirilməsi üçün interyer dizayn layihəsinin hazırlanması və açar təslim təmirinə memarlıq nəzarəti daxildir.

Müasir üslub, bir mənzilin dekorasiyasında ən aktual və populyar dizayn həllərinin bir hissəsini əhatə edən çox geniş bir konsepsiyadır. Daxili dizayn üçün fikirlər müəyyən bir dövrün üstünlüklərinə uyğun olaraq dəyişir. Buraya formalar və konfiqurasiyalar, rəng palitrası, məişət texnikası ilə avadanlıq, müəyyən bitirmə materiallarının istifadəsi daxildir.

Müasir dizaynın üstün xüsusiyyətləri aşağıdakılardır: rəngdə, formada, tərtibatda aydın görünən dinamika; konfiqurasiyalarda yığcamlıq və təmkinlilik; dekorativ həddindən artıqların minimuma endirilməsi; aydın, düzgün həndəsə; sadə və aydın xətlər; rəng birləşmələrində bədii qaydalara riayət edilməsi; məişət texnikası və innovativ texnologiya ilə təchizat; mürəkkəb strukturlardan qaçınmaq; abstraksiya və asimmetriyanın mümkün istifadəsi

Müasir dizayn tərtibatında funksionallığa xüsusi rol verilir. Ancaq daxili dizaynda üstünlük təşkil etmir. Yüksək texnologiyalı və futurizmdən fərqli olaraq, müasir üslub, rahatlıq üzərində qurulur.Ona görə də mənzil maksimum dərəcədə məişət texnıkası ilə təchiz olunub, lakin eyni zamanda, yeni çıxan cihazlar nümayiş etdirilmir. Mənzilin tərtibatı mütləq sakinlərin ehtiyaclarını nəzərə alır.

QƏRBİ AVROPA MUSİQİSİNDƏ ORİYENTALİZMİN TƏCƏSSÜMÜ

Novruzlu İ.Ə.
Naxçıvan Dövlət Universiteti
E-mail: incinovruzlu284@gmail.com

Avropa musiqisində oriyentalizm dedikdə ilk olaraq əsrlər boyu ortaya çıxan şərq elementlərini xarakterizə edən musiqi əsərləri nəzərdə tutulur. Şərq əzəməti, zəngin obrazlar aləmi, qeyri-adi ritmik xüsusiyyətli musiqisi ilə hər zaman Avropa xalqları üçün maraqlı olmuşdur.

Müsəlman Şərqinin özünəməxsus musiqisinin hələ qədim zamanlardan etibarən formalaşan qanunauyğunluqları mövcud olmuşdur. Təsadüfi deyil ki, Ü.Hacıbəyli özünün elmi araşdırmalarında,

"Azərbaycan xalq musiqisinin əsasları" elmi-tədqiqat işində Şərq musiqisinin əhəmiyyəti və özünəməxsus inkişaf prinsipini izah edərək deyir: "Yaxın Şərq xalqlarının musiqi mədəniyyəti XIV əsrə doğru özünün yüksək səviyyəsinə çatmış və on iki sütunlu, altı bürclü "bina"(dətgah) şəklində iftixarla ucalmış və onun zirvəsindən dünyanın bütün dörd tərəfi: Əndəlisdən Çinə və orta Afrikadan Qafqaza qədər geniş bir mənzərə görünmüşdür.Ü. Hacıbəylinin qeyd etdiyi bu mədəni nailiyyət Avropa sənətkarlarının da mütləq diqqətini cəlb etmişdir.

Şərq ölkələrinin mədəniyyətinə qarşı maraq Avropa xalqlarında XI əsrdən etibarən formalaşmağa başlamışdır. Bunun ən başlıca səbəblərindən biri o zaman Roma papası I Urbanın fitfası ilə başlayan "Səlib yürüşləri" olmuşdur. Bu müharibənin iştirakçıları öz vətənlərindən gətirdiyi ənənələri yerli xalqların mədəni nailiyyətləri ilə qovuşduraraq yeni əzəmətli mədəniyyət formalaşdırmışdır.

Musiqi mədəniyyəti tarixinin uzun təkamül prosesində müxtəlif cərəyanlar, musiqi axınları meydana gəlmişdir. Avropa bəstəkarlarının musiqi əsərlərində şərq elementlərindən istifadə etməsi də həmin yeni istiqamətlərin yüksək səviyyədə inkişafını təmin edən mühüm tarixi prosesi idi.

İntibah dövründə Avropa mədəniyyətində formalaşan yeni tendensiyalar musiqi sənətinə də dərindən nüfuz etmişdir. Məhz İntibah dövründə də Şərq dünyasının xarakterik metro-ritmik xüsusiyyələri ,Şərq xalqlarının məişətinə aid rəngli lövhələr musiqi əsərlərində təcəssümünü tapmışdır. Avropa bəstəkarlarının əsərlərində Şərq şərti məna daşıyaraq, sehirli, möcüzəli, sirli obrazlar aləminin yaradılmasında əsas vasitə olmuşdur.

İntibah dövründə Noyzidlerə aid "Yəhudi rəqsi" oriental xüsusiyyətlər daşıyan ilk əsər kimi Avropa musiqi mədəniyyəti tarixində bəstəkar yaradıcılığında ortaya çıxan mühüm yeni cəhət kimi qiymətləndirilirsə, artıq C.Verdi, J.Bize, D.Felisien, L.Delibin kimi bəstəkarlarının yaradıcılığında oriental xüsusiyyətlərdən istifadə əsl yaradıcılıq nailiyyəti kimi qəbul edilir və özünün evalyusiyasını yaşayır.

Oriental xüsusiyyətlər istər instrumental əsərlərdə, istər vokal janrında, istərsə də iri həcmli musiqili dram olan operalarda bəstəkar fikrinin əsas ifadə vasitəsinə çevrilir. Eyni zamanda oriental xüsusiyyətlərdən istifadə olunması əsərlərdə formatəşkili problemlərə təsir etmiş, janr müxtəlifliyini daha da rəngarəngləşdirmişdir. Məsələn: Noyzidlerin nəşr olunan "Yəhudi rəqsi"ndə oriental planın gerçəkləşməsi yəhudi xalq melodiyalarına əsaslanır. V.A.Motsartın "Türk marşı"nda rondo forması özünün fərqli təqdimatı ilə diqqəti cəlb edir. Belə ki, məlum olduğu kimi rondo formasında ilk əvvəl refren, sonra epizodlar səslənir. "Türk marşı"nda isə epizod refreni qabaqlayır. Eyni zamanda türk "Mehtər" marşının metr-ritmik xüsusiyyətləri bu əsərin orijinallığını təmin edir. V.A.Motsartın "Hərəmxanadan qaçırılma" və ya "Zaidə", son zinqşpili olan "Sehirli fleyta" operalarında onun şərq dünyasının ekzotikasına marağının şahid oluruq. Bəstəkar "Sehirli fleyta"da Zarastronu Misir dini kastasının sirli və möhtəşəm rəhbəri kimi təqdim edir. Bir çox bəstəkarlar musiqili səhnə dramlarında, vokal-insturmental əsərlərində İncil mövzularından oriental vasitə kimi bəhrələnmişlər. Bu baxımdan G.Hendelin "Samson" oratoriyası və yaxud K.Sen-Sansın "Samson və Dalila" operası öz əhəmiyyəti ilə diqqəti çəkir. Bir çox Avropa ölkələri şərq motivlərindən əsərlərində hər hansı bir "vəhşi obrazlar aləmini canlandırmaq üçün istifadə etmişlər. Lakin Avropa xalqlarının Şərq ölkələrinə nüfuzu böyüdükcə bu münasibət də dəyişilmiş, şərq elementləri ekzotik gözəllikləri, möcüzəli səhnələri yaratmaq üçün bir vasitəyə çevrilmişdir. XIX əsrdə C.Verdi, J.Bize, C.Puççini və başqa bəstəkarların əsərlərində Şərqə məhz belə münasibətin izlərini görürük. Dahi İtaliya bəstəkar C.Verdi özünün "Aida" operasında oriyentalizmi səhnə quruluşu, qrim və kostyumlar vasitəsilə ifadə edir. Bəstəkar üçün oriyentalizm şərq dünyasının ekzotik təbiətinin təsvir olunmasında bir vasitəyə çevrilir. Fransa musiqi mədəniyyəti tarixində oriyentalizm yeni nailiyyət kimi diqqətə çatdırılır. Oriyentalizm bu ölkənin bəstəkarlarının yaradıcılığını digər Avropa bəstəkarlarının əsərlərində ifadə olunan emosional hiss və həyəcanlardan kəskin fərqləndirib və "fransız oriyentalizmi"adlı yeni tarixi mərhələ olub. Fransız bəstəkarı J.Bizenin "Mirvari axtaranlar" operasında Seylon adalarının parlaq palitrasını yaradıb. Digər tərəfdən isə "Cəmilə" operasında müsəlman Şərqinə üz tutub. Bəstəkarın "Karmen" operasında qaraçı mövzuları da musiqidə oriental xüsusiyyət kimi qeyd edilir. Müsəlman Ərəbistanı İspaniyanın Əndəlis vilayətinə qədər nüfuz edərək, uzun illər burada hökmranlıq etmişdir. Bu tarixi hadisə hər iki xalqların mədəniyyətinin qovuşmasını şərtləndirmişdir. Nəticə olaraq J.Bizenin "Karmen" operasına bu baxımdan yanaşsaq, oriental xüsusiyyətlərin bir tək qaraçı xalqı ilə deyil, eyni zamanda ərəb motivləri ilə əlaqəli olduğunu da vurğulamaq lazımdır.Hind məişətinin fərqli yönləri isə fransız bəstəkarları D.Felisienin "Lala-Ruk", L.Delibin "Lakme" əsərlərinin məzmununun əsasına çevrilmiş, nəticədə oriental elementlərlə zəngin sənət nümunələri yaranmışdır. İmpresionist bəstəkarlar K.Debüssi və M.Ravelin əsərlərindəki oriyentalizm isə birbaşa Şərq ölkələri ilə bağlı olmamış, rus oriyentalizmi ilə əlaqəli olaraq formalaşmışdır. Avropa bəstəkarlarının şərq

mövzusundan istifadəsi yeni yaradıcılıq axtarışlarının göstəricisidir. Şərq mədəniyyəti bəstəkarlar üçün daim müraciət olunacaq vasitə olacaqdır.

ORDUBAD ŞƏHƏRİNİN ORTA ƏSR MEMARLIQ PLANLAŞDIRMA HƏLLİ

Sadiqov A.
Naxçıvan Dövlət Universiteti
E-mail: sadigov444@gmail.com

Naxçıvanın tarixi keçmişi olan şəhərləri içərisində Ordubad şəhərsalma və memarlıq irsi ilə seçilir. Ordubad şəhərinin ərazisindən iki çay axır. Solundan Gənzə çayı, sağında Ordubad çayı. Başlanğıcını qarlı dağlardan götürən Ordubad çayı şəhəri iki hissəyə-Sərşəhərə və Ambarasa ayırır. Hələ qədim feodal dövründə Ordubad çayının sağ sahilində yerləşən "Qala" adlanan ərazi şəhərin mərkəzi hesab olunurdu. Ordubadın qədim tarixi mərkəzi Ambaras məhəlləsi və bu məhəllənin mərkəzində tikilən "Ambaras" məscidi şəhərin qədim ərazisində yerləşir. Orta əsrlərdə Ordubad şəhərinin mərkəzi çayın sol sahilində yerləşən Sərşəhərə köçürülür. Mərkəz kimi formalaşan Sərşəhər, meydan və meydanda ucalan Sərşəhər məscidi, çeşməsi və çinar ağacları ilə uzun illər məhəllə mərkəzi kimi fəaliyyət göstərir. Sərşəhər məscidi şəhərin plan quruluşunda dominat mövqe tutmaqla yaşayış məskəninin bütün yollarına nəzarət edirdi.

Orta əsr şəhər quruluşunu özündə qoruyub saxlayan Ordubad şəhəri uzun illər ictimai mərkəz kimi fəaliyyət göstərmişdir. XVII əsrdə Bərəkə dağı üzərində inşa edilmiş "Cümə Came" şəhərin mərkəzi meydan Camesi kimi fəaliyyət göstərmişdir. Cümə Camenin ərazisi çox böyük olmaqla iki hissədən məscid və mədrəsədən ibarət olmuş, XIX əsrdə məscidin ərazisi iki hissəyə bölünməklə, mədrəsə hissəsindən XX əsrin 90-cı illərinə qədər İpək fabriki kimi istifadə olunmuşdur. Şəhər meydanı və Cümə Camenin memarlıq planlaşma quruluşundan aydın olur ki, XVII əsrdən sonra şəhər cənub, şərq istiqamətində inkişaf etməklə bu dövrdən öncə inşa olunan tikililəri də əhatə etməklə planlı şəkilə gətirmişdir.

Sərşəhər şaxələnən küçə sistemi bir tərəfdən məhəllələrə, digər tərəfdən isə ictimai mərkəzə açılır. Şəhərin ənənəvi plan quruluşunun məhəllələrə bölünməsi, onların tam şəhərsalma sistemində iki hissəli zonanın yaranması ilə nəticələnmişdir. Beləliklə, baş küçə üzərində inkişaf edən tarixi ictimai mərkəz və məhəllələrdə meydan şəklində formalaşan məhəllə düyünlərinin vəhdəti yaranmışdır.

Şəhər təbii iqlim faktorunun təsirindən cənubi, şərq istiqamətində inkişaf etmişdir. Şəhərin dar ensiz yolları sonda məhəllə meydanlarında (Sərşəhər, Üç tərəngi, Ambaras və.s) görüşür. Məhəllələrin yaşayış tikintilərinin formalaşması XVIII-XX əsrlərə kimi davam etmişdir. Hər bir məhəllə mərkəzinin məscidi, ticarət dükanları, çeşməsi, qoşa çinarı, onun infrastrukturunu yaratmışdır.

Ordubad şəhərində mərkəzi meydanın formalaşması ilə bazar və Qeysəriyyə binası fəaliyyət göstərmişdir. Məhəllələrdə buzxana, hamam, meydan məscidləri, və mədrəsə inşa olunmuşdur. Cümə Cami əsas dini mərkəz kimi mövqe və mahiyyəti ilə digər məhəllə məscidlərini özünə tabe etmişdir. Məscid həcm-məkan həllinə görə meydan məscidlərinin memarlıq-plan quruluşuna uyğunlaşdırılmaqla şəhərin qədim mərkəzi hissəsində bişmiş kərpicdən inşa edilmişdir.

Məscidlərin yaratdığı həcm-məkan aksentləri Ordubad şəhərinin memarlıq simasının əsas elementləri olsada, mülki, xatirə və yaşayış, təsərrüfat tikililəri müxtəlif həcm-məkan tutumları ilə şəhərin ümumi sistemində rəngarənglik yaradır. Hamamlar, məscidlər, memarlıq kompozisiya həllinə görə bölgədə fərqlənən yaşayış evləri, təsərrüfat tikililəri şəhərin siluetini yaradır. Ordubad şəhəri su və kanalizasiya sistemi ilə düzgün təmin edilmişdir. Vaxtilə şəhərdə 102-dən çox kəhriz olduğu halda hazırda 34 kəhriz qalmışdır. Bütün kəhrizlər bir-biri ilə yeraltı yollar vasitəsilə bənd edilmişdir. Ordubadda kəhrizlərin yer səthindən 3-10 metr dərinlikdə yerləşdirilməsi, şəhərdə kanalizasiya qurğularının mövcudluğunu, hamamlar isə onun mədəni səviyyəsini təsdiq edən faktorlardır.

Şəhərdə məhəllələrin, məhəllə meydanlarının, mərkəzi meydanın, memarlıq abidələrinin ilkin formasının qalması Ordubad şəhərinin orta əsrlər şəhər quruluşunu tamamilə qoruyub saxlanmasından xəbər verir. 1977-ci ildən qoruq şəhəri kimi fəaliyyət göstərən Ordubad şəhəri Nizami küçəsi ilə Füzuli küçəsinin kəsişdiyi yerdən başlayaraq şəhərin əsas küçələrini əhatə edir. Şəhərin plan quruluşuna əsasən şəhər 5 böyük məhəllələri əhatə edir (3.Arxiv materialı): "Ambaras" (İbrahim Əbilov və Babək küçələri) ("Kürdətal" (Əkbər Ağayev və M.Füzuli küçələri); "Üç tərərəngi" (Üçtürləngə küçəsi); "Mingəs" (Ümbül-Leyla və indiki Mingəs küçələri); "Sərşəhər" (Qafar Babayev və Dədə Qorqud küçələri).

Ordubad şəhərində böyük məhəllələrlə yanaşı nisbətən kiçik məhəllələr də vardır: "Qaraçanaq, Dilbər", "Əngəc", "Qarahovuz başı", "Əsgərxan", "Varsan", "Körpübaşı", "Bəylər", "Meyrəmçə", "Peçi",

"Düz", "Qoşqar", "Musa təngi" və s. Ordubadın yaşayış evlərinin memarlıq üslubu Azərbaycanın digər zonalarının heç birində rast gəlinmir. Burada xüsusi cizgiləri ilə seçilən və əhalinin adət-ənənələrini özündə əks etdirən evlərin memarlıq kompozisiya həlli çox rəngarəng və özünəməxsusdur.

Həyətlərə açılan tağ formalı Baştağlar, bəzi həyətlərdə yerləşən göllər, mürəkkəb quruluşlu günbəzli girişlər, kəhrizlərin keçdiyi mətbəxlər, qonaq və oturma otaqları ilə Ordubad evləri Naxçıvanın digər bölgələrindəki evlərdən fərqlənir.

Ordubad şəhərinin dini və mülki tikililəri tikinti üslubuna görə də fərqlənir. Çiy kərpicdən tikimiş evlər və məscidlər, bişmiş kərpiclə üzlənmiş və tikilmiş Qeysəriyyə binası, hamam və buzxana binaları, yaşayış evləri öz fərqli memarlıqları və konstruktiv quruluşları ilə fərqlənir.

Ordubad şəhərində yerləşən tarixi binalarda XX əsrin 80-ci illərindən başlayaraq bərpa işləri aparılır. Bu günə qədər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun imzaladığı müvafiq sərəncamları əsasında "Qeysəriyyə" və "Buzxana" binasında, Mingis məscidində və Ordubad hamamında bərpa işləri aparılmışdır. Hazırda Ordubad Cümə məscidində bərpa işləri aparılır. Onu da qeyd etmək istəyirəm ki, 1977-ci ildə qəbul edilmiş qərara əsasən Şuşa şəhəri, Bakıda İçəri Şəhər və Ordubad rayonu "Qoruq Şəhəri" elan edilmişdir.

Ordubad şəhəri öz tarixiliyi və memarlığı ilə seçildiyi kimi, keçmişlə müasirliyin də vəhdətini özündə tərənnüm etdirir. Şəhər ərazisində müxtəlif dövrlərdə tikilən və müxtəlif memarlıq quruluşları ilə seçilən tarixi abidələr gələcəkdə ərazidə turizmin inkişaf perspektivini istiqamətləndirir.

MÜASİR GEYİM İSTİQAMƏTLƏRİNİN TƏHLİLİ

Şahvələdov S.A.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: serxan.tt@mail.ru

Müasir dövrdə geyim sferasında bir sıra üslublar hakim rol malikdirlər. Etnik üslublu müasir geyimlər milli xüsusiyyətlərə azad ruh qataraq yeni zövqlərin üstünlüklərini işıqlandıranların seçimidir. Bu üslub motiv, rəng kimi kompozisiya ünsürləri ilə zəngin geyim xəttini tərənnüm edir. Bu cür geyimlərin parlaqlığı yalnız rənglərində deyil, həm də formalarda və ornamental quruluşda özünü biruzə verir.

Burada etnik ruhlu motivlər əslində milli naxışlar- əsasən həndəsi və bitkisəl rəngarəng naxışlardan ibarətdir. Xüsusilə paltar və ətəklər üçün uyğun hesab olunan etnik motivli naxışlar bir növ xalını xatırladır. Bu cür geyimdə insan özləri hiss etmədən xalqının keçmişinə bağlanır, milli ruhlu kostyum öz sahibinə enerji ötürür. Paltarla yanaşı aksesuarların - zərgərlik, çanta və ayaqqabıların tərtibatında istifadə edilən etnik naxışlar bu baxımdan da təsirli olur. Bir çox modelyerlərin etnik üslublu kolleksiyalarını nəzərdən keçirdikdə qeyd etdiyimiz məsələ diqqət çəkir.

Qədim sivilizasiyalardan günümüzədək zamanın süzgəcindən keçərək gələn və həm geyim, həm də aksesuarlarda istifadə olunan müəyyən xalqa aid naxış motivləri moda dizaynerlərininə ilham mənbəyinə çevrilir. Bu naxış motivləri zamanla nə qədər inkişaf edərək müasirləşsə də milli kökləri yaşadır, müasir əksləri ilə həyatımıza yenidən daxil olmağı bacarır. Mösümi dəyişikliklərə baxmayaraq həmişə gündəmdə qalmağı asanlıqla bacaran etnik üslubla yanaşı bir çox üslub və micro-üslublar müasir dəb sənayesində özünəməxsus yer tutur. Bunlardan bəzilərini, xarakterik cəhətlərini nəzərdən keçirək:

Safari üslubu– 60-cı illərdə yaranmışdır. O, tropik bölgələrdə hərbi üniformaların bir sıra ünsürlərini qəbul edən idman stilidir. Bej, qəhvəyi və xaki rəng tonlarında zərif, amma aşınmaya davamlı parçalar, qatlamalı yamaqtipli üstdən əlavə olunmuş ciblər və çiyin qayışlarıyla zənginləşdirilmiş geyimlər bu üslubun əsas göstəriciləridir. Zərif romantik üslub – yüksək keyfiyyətli materiallar, qüsursuz konstruktiv quruluşu və balanslaşdırılmış siluet ilə seçilir. Bu üslubda lazımsız və ya təsadüfi detallar yox səviyyəsindədir, əsasən ziyafətlərdə və yay mövsündə yer alır. Ziyafətlər üçün nəzərdə tutulan zərif üslubun geyimləri Ot-cutyure istiqamətiüzrə hazırlanır. Bu üslubda paltarların neçəyə başa gəlməsi vacib deyil – mühüm olan bahalı görünməlidir. Zəriflik bir adət olaraq cəmiyyətin yuxarı təbəqələrinə aid olduğunu işarə edir.

Dənizçi üslubu - idman və istirahət üçün nəzərdə tutulmuş geyimlər sırasına aiddir. Ağ və mavi tonlarının tipik rəng birləşmələridir. Qeyd edək ki, məhz bu rənglərin ahəngi ilk dəfə Coco Chanel tərəfindən cəmiyyətə təqdim edilmişdir. Adətən üfüqi zolaqlar bu stilin əsas atributu sayılır.

Bu üslublardan biri də, bugün aktual olan və cəmiyyətlər tərəfindən böyük məmnuniyyətlə qəbul edilən Ekoloji üslubdur. 1970-ci illərdə dünyanın ekoloji problemləri və onun təhlükələri haqda həyəcan təbili çalınarkən ilk dəfə ekoloji üslub yarandı. Artıq 70-ci illərin sonunda geyim sahəsində ekoloji üslub

meydana çıxdı. 90-ci illərdə isə bu üslub daha geniş sahələrə sirayət etməyə başladı, təkcə formalarda deyil həm də natural materiallara, rəng tonlarına diqqəti yönəltməyi bacardı.Ümumiyyətlə, "dəbin bir istiqaməti olan ekoloji üstil özü bir sənət sahəsidir" - bu istiqamətdəki baxışları bölüşən çoxsaylı pərəstişkarları olan modelyer-dizaynerlər bu arqumentləri irəli sürürlər. Əvvəla, ekoloji dəbin başlıca hədəfi praktiklik yaxud faydalılıq deyil, məsələ burasındadır ki, o, yaradıcı bir təxəyyülün imkanlarını dəyərləndirir, sınaqdan keçirir, onun geyim stillərinə və qarderoba bəxş etdiyi dəyişikliklər, cəmiyyətin funksional, sosial-iqtisadi və siyasi tələblərini deyil, onun estetikliyini və sağlamlığını əsas tutur. İnsanı ətraf təbii mühitlə bağlayan bu üslub sünilikdən uzaq təbii materiallardan hazırlanan bir üslubdur. Məhz buna görə də burada əsasən saflığa işarət edən - ağ, açıq boz, açıq bej, krem, yaşılın tonlar geyimlərin xarakterik rəngləridir.

Son illər isə məlum pandemiya dövründə pijama üslubu da meydana çıxmışdır. Bu üslubun rahatlığı ilə seçilən sərbəst ev geyimləri küçəyə keçid almışdır. İdman üslubuna aid olan bu micro-üslub bu gün müasir cəmiyyətlər tərəfindən məmnuniyyətlə qəbul edilir və digər üslublarla uğurla birləşir.

ÜSLUB BƏDİİ TƏFƏKKÜRÜN KATEQORİYASI KİMİ

Şahvələdov S.A.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: serxan.tt@mail.ru

Moda – sosial və mədəni fikirləri, ideyaları ilə müntəzəm həyatımız arasında bir bələdçi, vasitəçidir. Moda həm də çoxlu sayda sahə və obrazlarda, o cümlədən kostyumda da reallaşdırılan epoxal ideyaların ötürücüsü, tənizmləyicisi, islahçısıdır. Odur ki, dəbin məhz mədəni fenomen qismində qəbul edilməsi, tanıdılması və araşdırılmasına dair sərgilənən kultoroloji yanaşma həm müəyyən qədər məntiqəuyğun, düzgün, səmərəli və maraqlı təəsüratı bağışlayır. Təsvir etdiyimiz həmin yanaşma "dəb" kimi adlandırdığımız bu bənzərsiz fenomeni təkcə tendensiyalar və siluetlərin növbəli surətdə əvəz edilmə prosesi kontekstində, yaxud da kütləvi mədəniyyətin sadəcə olaraq bir fenomeni kimi deyil, müfəssəl, tam dərindən, ümumi mənzərənin aydınlaşdırılması ilə müşahidə və təhlil etməyə imkan verir.Ötən yüzilliyin kütləvi mədəniyyəti hüdudlarında özünə layiqli bir yer tutan dəb əsasən iki istiqamətdə inkişaf etmişdir. Əvvəla, bu "kütləvi" adlanan, ikincisi isə, "fərdi" kimi tanınan istiqamətlərdir. Daha çox kütləvi yöndə bədii stillər və imiclər formalaşmışdır. Həmin üslublar da, öz növbəsində, altüslublara və geyimin keyfiyyəti haqqında bilgiləndirən de-lyuks dəb istiqamətlərə ayrılmışdır. Müasir cəmiyyətlərdə kostyumun zaman-zaman dəyişkənliyə uğraması nöqteyi-nəzərdən təkamül prosesi ilə bağlı mühüm anlayışlardan biri üslub anlayışıdır. Üslüblar adətən müəyyən dövrün üslubu, tarixi kostyum üslubu, modalı-dəbli üslub, hər hansı modelyerin üslubu (məsələn, Chanel üslubu, Dior üslubu və s.) kimi adlandırılır.Bədii təfəkkürün ümümi kteqoriyası olan üslubun inkişafının müəyyən mərhələsi üçün dövrün zövqləri, təsviri üsulların ideyası, bədii xüsusiyyətlər səciyyəvi xarakter daşıyır. Ümumiyyətlə üslub dövrünün zövqlərini və dünyagörüşlərini ifadə edir, həmçinin baxışlar sistemini əks etdirir. Hər hansı dövrün bədii ifadəsini, epoxanın bədii təəsürütlarının əsas dəyərləri olan üslub həm də, zəmanəsinin gözəllik idealının cizgilərini özündə daşıyır. Tarixən müəyyən bir üslub altında formayaradılışının prinsipləri bütöv bir mədəniyyətin xüsusiyyətlərini və təfəkkür metodikasını təcəssüm edirdi və hər kəs tərəfindən qəbul olunurdu. Təcrübələr göstərir ki, məhz bu cür üslublar dövrünün ən böyük üslubuna çevrilirdi. Həmçinin epoxanın bütün incəsənət sahələrinə sirayət edirdi. Roman, Qotika, Barokko, Renesans, Klassizm, Ampir, Modern və s. üslublar sırası tarixdə bir-birini əvəz edərək özləri ilə bir çox yenilikləri gətirmişlər.

Qeyd etmək lazımdır ki, hər üslub eyni inkişaf prosesini keçir – yaranır, inkişaf nöqtəsinə çatır və tənəzzül edir. Daha sonra yeni üslub yaranmağa başlayır. İlk vaxtlar az və ya çox dərəcədə köhnə hökmran üslubun elementləri dominantlığını saxlayır, inkişaf getdikcə isə yeni üslubun elementləri ön plana keçir. XX əsrdə üslubdaxili yarımüslublar yaranırmışdır. Ötən yüzillikdə boyu bir-birini əvəz edən yeni üslub meydana çıxmışdır. 1910 - Şərqüslubu, 1920 – həndəsi, 1930 – sürrealizm, 1940 – cantri, 1950 – Dior və Chanel üslubu, 1960 – retro, 1970 – romantik, 1980 – ekoloji, 1990 – sport, klassik, etnik və s.Tarixi üslublar arasında ən çox üzunömürlü və bütün dövrlərdə dəbdə olan üslub - klassik üslubdur. Bu üslub müasir dövrümüzdə daha çox işgüzar geyim kimi tanınır. Üslubun əsas xarakterik xüsusiyyətlərini universallıq, çoxfunkiyalılıq, işgüzarlıq, konstruktiv formaların düzgün və dəqiqi vəhdəti təşkil edir. Ciddi xarakterli üslub digər üslublarla birləşdirilərək uğurla eklektik üsluba çevrilə bilir. Son dövrdə ekologiya üslubu daha çox tələb olunan üslublardandır. Yeni stillər sırasında çağdaş cəmiyyətləri düşündürməyə vadar edən və

bilavasitə insan sağlamlığı baxımından mühüm bir istiqamət – ekoloji stil meydana gəlmişdir. İyirminci yüzillikdə texnoloji tərəqqinin yüksək sürətlə davam etməsi, kimyəvi silah arsenalının münaqişə zonalrında tətbiqi, ana təbiətə insanlar tərəfindən vurulan dəhşətli və ölçüyəgəlməz zərərlər, sənaye sahələrinin fəaliyyəti nəticəsində ətraf mühitə atılan müxtəlif növ ağır və zəhərli tullantılara görə ekoloji durumun əhəmiyyətli dərəcədə çirklənməyə məruz qalması sözügedən həmin stilin əmələ gəlmə labüdlüyünü ortaya qoymuşdur.

TARİXİ ÜSLUBLARIN GEYİM DİZAYNINA TƏSİRİ

Şirinova A.M.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: aytac1924@gmail.com

Üslub xalqın mədəni xüsusiyyətlərini, gözəllik anlayışını və ətraf aləmi qavrayışını aydın şəkildə əks etdirən dövrün dili və ruhudur. Üslub bəşəriyyətin tarixi ilə ayrılmaz şəkildə bağlıdır. Tarixi üslubların mahiyyəti müasir üslub anlayışından fərqlidir. Hətta dəb ikonası Koko Şanelin qeyd etdiyi kimi, dəb keçicidir, amma üslub hər zaman var olur. Tarixi üslub onun mədəniyyətini, gözəllik anlayışını və ətraf aləmə münasibətini ifadə edən sabit, konkret olaraq müəyyən edilmiş dövrün dilidir. Hər bir dövr memarlıq, rəssamlıq, musiqi və incəsənət, geyim və sənətkarlıq üslubuna uyğun gələn xarakterik geyim tərzinə uyğun gəlir. Tarixi üslubların tədqiqi bilavasitə bütün dünya tarixinin öyrənilməsi ilə bağlıdır. Hər bir yeni əsr dəbdə yeni dönüşlər gətirir. Hal-hazırda, tarixi üslubların xüsusiyyətləri və tarixi təsvirlərin və ya yeniliyin yaradılması ilə xüsusi olaraq fəaliyyət göstərən sahələr vardır, bunlara geyim dizaynı, eksteryer və s. aid etmək olar. Qədim dövrlərdən bu günə qədər insanlar ümumi fərqləndirici xüsusiyyətlərlə xarakterizə olunan dizayn üslublarını formalaşdırmışdılar. Ancaq erkən orta əsrlərdən başlayaraq hər bir sosial təbəqənin özünəməxsus geyimləri var idi. Bu isə onu başqa bir təbəqənin nümayəndələrindən fərqləndirməyə imkan verirdi. Bu günə qədər tanınan və məşhur olan əsas tarixi üslublar XII-XV əsrlərin əvvəllərində ortaya çıxmağa başladı.. Tarixi üslubların formalaşmasında, xüsusən də dizaynda orijinal milli tarixi formaların axtarışına təsir edən milli antik dövrün romantik kultu mühüm rol oynamışdır.

Klassizm və barokko kimi "böyük üslublar" isə bütün memarlıq, rəssamlıq, sənət və sənətkarlıq, geyim dizaynı, ədəbiyyat, hətta musiqi üzrə geniş yayılmışdır. Eyni üslubun daxilində müəyyən bədii istiqamətlərin olduğunu nəzərə almaqla, bədii üslubları, cərəyanları bir-birindən ayırmaq lazımdır. Bədii axınlar həm bədii təfəkkürün spesifik üsullarından, həm də müəyyən dövrə xas olan xüsusiyyətlərdən formalaşır. Tarixi üslubların geyim dizaynı sahəsinə nüfuz etməsi ilk növbədə qədim mağaraların divarlarına çəkilmiş təsvirlərdən qaynaqlanır. Eramızdan əvvəl insanlar praktiki olaraq şimal maralı, ayı və aslan dəriləri və xəzlərindən olan geyimlər tikirdilər. Mağaraların divarlarındakı fotoşəkillərə əsasən, kişilərin qadınlardan daha sadə geyindiyini aydın şəkildə görmək olar.Tarixi üslublara qədim yunan üslubu, qotika, rokoko, barokko, klassizm, ampir və s. daxildir. Geyimdə ilk ortaya çıxan üslub qədim yunan üslubu (antik üslub) olmuşdu. Bu üslubda insan bədəninin bütün üstünlükləri demək olar ki, kölgələnir və bədənin bütün çatışmazlıqları gizlədilməyə çalışılırdı. Antik geyim üslubu beş əsas prinsipə əsaslanırdı: qanunauyğunluq, düzgün proporsiya, simmetriya, uyğunluq, vəhdət. Başqa sözlə, antik üslubun əsas xüsusiyyəti fiqurun üzərinə çəkilmiş və iynələrlə bərkidilmiş düzbucaqlı parça hissələri hesab olunurdu. Bu üslubda geyimlər xiton və himation adlanan hissələrdən ibarət idi. Antik üslubda monoxrom sərbəst axan nazik parça, şaquli qıvrımlar, bel boyuncaböyük kəmərlər xarakterik idi.

Qotika üslubu XII əsrin əvvəllərində Mərkəzi Avropada yaranmışdır. Qotika üslubu orta əsrlər incəsənətinin çoxəsrlik təkamülü nəticəsində və eyni zamanda tarixdə ilk Avropa üslubu kimi meydana çıxdı. Qotika demək olar ki, bütün sənət növlərini əhatə edir. Üslubun əsas xüsusiyyətlərinə təntənəli tutqunluq və soyuqluqla dolu və şaquli xətləri vurğulayan inanılmaz gözəllik aid edilir və uzunsov formalar, yüksək bel xətləri, uzanmış boyun xətti, dar uzun qollarla xarakterizə olunur. Geyimlərdə qotika üslubunun meydana gəlməsi ilə qadın geyimlərinin hazırkı formalarına əhəmiyyətli dərəcədə təsir göstərən kəsiklərin də əsasları qoyuldu. Həmçinin, bu üslubun bir digər səciyyəvi xüsusiyyəti, ətəklərin aşağıya doğru genişlənərək uzun şlyefə çevrilməsidir. Üslub XV əsrə qədər aktuallığın zirvəsində oldu. Renessans üslubunun yaranması ilə qotika üslubu geyimdə öz aktuallığını itirməyə başladı. Renessans üslubunun səciyyəvi cəhəti dünyəvi təbiət, humanist ideologiya, qədim irsə müraciət, sadəlik, harmoniya və mükəmməllikdir. Bu üslubda qadın gözəlliyinin bütün standartları vurğulanırdı. Renessans üslubunda boyun və qollar açıq qalır, əsasən, məxmər, ipək materiallardan istifadə olunurdu. Geyimlərdəki naxışlar xalis qızıldan effektlər yaratmaqla

işlənirdi. Barokko üslubu isə İtaliyada yaranmışdı. Üslub mürəkkəbliyi və çox təbəqəli olması ilə seçilir. Subyektiv olaraq bu dövrü dünyəvi saray əyanları dövrü hesab etmək olar. Roma, Florensiya, Venesiya kimi ən zəngin, zərif, canlı şəhərlər bu yeni cərəyanın əsl beşiyi statusunu almışdı. Üslubun əsas fərqli xüsusiyyəti formaların kontrastı, müxtəlif dekorativ komponentlərin bolluğu, cəlbedici olmasıdır. Rokoko üslubu daha çox rahatlıqla müşayiət olunur, barokkodan fərqli olaraq, bu üslub zərif, yüngül rənglərə əsaslanır. Rokoko dövrünə "qadınlar dövrü" də deyilir, çünki məhz bu dövrdə kişi geyimi qadın geyiminə çox yaxın idi. Lentlər Rokoko üslubunun ən populyar və sevimli bəzəyinə çevrilir, lentlərdən əlavə, həm süni, həm də təbii çiçəklər də fəal şəkildə istifadə olunurdu. İstifadə olunan parçalar arasında atlas daha çox populyarlıq qazanırdı. Klassizm üslubunun yaranması isə dəqiq müəyyən edilməmişdir. Üslub XIX əsrin birinci onilliyinə qədər davam etmişdir. Klassizm bilavasitə Antik dövr tarixi ilə, Qədim Yunanıstan və Roma sənəti ilə bağlıdır. Klassizmin əsas fərqli cəhəti kişi geyimlərinə qalstukun da əlavə edilməsi idi. Ampir üslubunun yaranması Napoleon Bonapartın adı ilə bağlıdır. Bu üslubda geyimlər Roma ənənələrinə əsaslanırdı, bu, xüsusilə, qadın köynəklərinin kəsimində, tuniklərin formasında nəzər çarpırdı. Üslubların aydın şəkildə müəyyən edilmiş sərhədləri yoxdur, onlar biri digərinə səlis şəkildə keçir və davamlı inkişaf edirlər.

GEYİM TARİXİ VƏ QƏDİM DÖVR GEYİMLƏRİNİN XARAKTERİSTİKASI

Şirinova A.M.
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: aytac1924@gmail.com

İbtidai icma quruluşunda da insan heç vaxt tək təbiətin nemətləri ilə kifayətlənməyi düşünməmiş, ev, əmək alətləri, silah-sursat, rabitə, məişət texnikası, mal kimi fərdi və ictimai ehtiyaclarını ödəmək üçün çoxlu sayda obyektləri fəal şəkildə yaratmışdır.Bu obyektlərdən biri də geyimlər hesab edilə bilər. Geyim həmişə bir çox müxtəlif funksiyaları yerinə yetirmiş, həmçinin insan orqanizmini hava şəraitindən qoruyan və onun zahiri görünüşünü müəyyən estetik ideala yaxınlaşdıran bir vasitədir. Geyim müxtəlif sivilizasiyalarda müxtəlif dövrlərdə mövcud olan materialları və texnologiyaları əks etdirir. Cəmiyyətdə geyimlərin müxtəlifliyi və paylanması sosial adətləri və mədəniyyəti ortaya qoyur.

Geyim geyinmək sırf insana xas xüsusiyyətdir və əksər insan cəmiyyətlərinin xüsusiyyətidir. İnsanların nə vaxt paltar geyinməyə başladığı bilinmir. Geyim və toxuculuq bəşəriyyət tarixində mühüm əhəmiyyət kəsb edir, onlar müxtəlif sivilizasiyalarda müxtəlif dövrlərdə hansı materialların mövcud olduğunu və onların yaradılması üçün hansı texnologiyalardan istifadə olunduğunu göstərir. Hazır məhsulun sosial əhəmiyyəti onların mədəniyyətini əks etdirir.Geyim bəşər tarixində mühüm əhəmiyyət kəsb edir, müxtəlif sivilizasiyalarda müxtəlif dövrlərdə hansı materialların mövcud olduğunu və onların yaradılması üçün hansı texnologiyalardan istifadə olunduğunu göstərir. Geyimlərin tarixinin tədqiqi üçün arxeologiyanın köməyi ilə aşkar edilmiş material qalıqlarından istifadə olunur. Arxeoloji məlumatlar göstərir ki, geyim artıq insan cəmiyyətinin inkişafının ən erkən mərhələlərində yaranmışdır. Afrikada geyim hava şəraiti ilə asılı olaraq Avrasiyadan çox gec yaranmışdır. Belə ki, ən qədim alətlər və geyim tapıntıları neandertalların yaşadığı yerlərdən tapılmışdır, eyni zamanda Afrikada yaşayan sapienslərdə isə yalnız fərdi geyim elementlərinə (kəmər, kəndir) daha çox rast gəlmişlər. Qədim dövrlərdən bu günə qədər geyim tarixi bəşəriyyətin bütün tarixini əks etdirən güzgü kimidir. Hər bir ölkə, hər bir xalq öz inkişafının müəyyən dövrlərində insanların geyimində öz izini, özünəməxsus xüsusiyyətlərini qoyur. İnsan geyimin təbiətin mənfi təsirlərindən qorunma vasitəsi kimi əhəmiyyətini kəşf etdiyi andan onun estetik və stilizasiya funksiyası haqqında düşünməyə başlayana qədər çox vaxt keçmədi. Qədim dövrlərdən bəri insan bədənini örtməyə çalışır, bunu iffət və utanc hissi ilə izah etmək olar. Bununla belə, belə bir şərh çox dar görünür, çünki paltarsız işləyən və gəzən tanınmış qəbilələr var (məsələn, Avstraliyanın yerliləri və s.). Çox güman ki, paltarlar təkcə örtük deyil, həm real, həm də (bəlkə də daha çox) xəyali xarici təhlükədən qorunma simvolu idi.Heyvan dəriləri hər yerdə ibtidai geyim üçün əsas material sayılırdı. Onların emalı üçün lazım olan alətlər (bıçaqlar, deşicilər və s.) Musteri dövrünə aid olan ibtidai insanların yaşadığı yerlərdə tapılmışdır. İlk geyim növü isə qurşaqlar və plaşlar olmuşdu. Eləcə də ayaqları tikanlardan qoruyan iki uzun dəri ilə bağlanan corablar da bu qəbildəndir. Bununla da tədricən geyimlərin bütün ayrı-ayrı hissələri bitki liflərinin və iynələrin köməyilə birlikdə istifadə edilməyə başlandı.Arxeoloji məlumatlara görə, tikilmiş şəkildə olan geyimlər artıq yuxarı paleolit dövründə meydana çıxdı. Bu, 1964-cü ildə O.N.Baderin Sunqirdəki (Vladimir yaxınlığında) ekspedisiyasında 23 min il əvvəl vəfat etmiş yaşlı bir kişinin dəfninin açılması ilə aşkar edilmişdi. Ekspedisiya nəticəsində uzun dəri şalvar, uzun qollu dəri köynək, qısa plaş, mokasinlərə bənzər

dəri ayaqqabilar tapılmışdır. Bütün paltarlar mamont dişlərinin muncuqları ilə zəngin şəkildə işlənmişdir, onların ümumi sayı 3000-dən çox olmuşdur. Bu dövrdə eyni zamanda Buret və Malta ərazilərindəisə başlıqlı xəz "kombinezonlar" geyinmiş qadınların unikal heykəltəraşlıq təsvirləri tapılmışdı. Neolit dövründə insan əyirməyi, toxumağı və toxunmağı öyrəndi. Bu dövrdə onun həm heyvan dərilərindən, həm də müxtəlif parçalardan hazırlanmış müxtəlif geyim dəstləri var idi. İstifadə olunan materiallardan və iqlim şəraitindən asılı olaraq, paltarlar müxtəlif üsullarla istifadə olunurdu: başın üstündən geyilir və ya bədənin ətrafına örtülürdü.

Müasir dövrə gəldikdə isə, XIX əsrdə buxar maşınının (həmçinin elektrik enerjisinin) ixtirası sayəsində istehsal texnologiyası yeni səviyyəyə çatdı. Xüsusilə, 1790-cı ildə Cozef Marie Jacquard naxışın dəqiqliyini və parça istehsal sürətini artıran eyni adlı dəzgahı icad etdi. Maşın istehsalı olan geyimlər əhalinin bütün təbəqələri üçün daha əlçatan olmuşdur. Bundan əvvəl kobud materiallardan tikilmiş geyimlər üstünlük təşkil edirdi (yalnız aristokratlar və varlı insanlar incə materiallardan paltar geyinirdilər). Bu dövrdə müasir cəmiyyətin istifadə etdiyi geyim növləri meydana çıxmağa başladı: əsasən tünd rəngli parçalardan dar, qısa qollu, yay və qış geyimləri. istehsal olunurdu. Sanitariya-gigiyenik şəraitin, eləcə də iqtisadi şəraitin yaxşılaşdırılması Avropa və Şimali Amerika əhalisinin əhəmiyyətli hissəsinə alt paltarı geyinməyə imkan verdi. Bu dövrə qədər hazır paltar almaq praktiki olaraq mümkün deyildi, onları ya istehlakçılar özləri tikirdilər, ya da dərziyə sifariş verirdilər. Hazır paltar istehsalı yalnız XIX əsrin birinci yarısında inkişaf etmişdir.

İNCƏSƏNƏTİN İNTERYER DİZAYNINA TƏSİRİ

Tağıyev R.E.
Azərbaycan Dövlət İqtisad Universiteti

İncəsənət daxili dizaynınız vasitəsilə hekayə danışmağa, məkanı canlandırmağa, otağa cəsarətli elementlər gətirməyə və ya sadəcə olaraq kompozisiyanın mükəmməl elementi olmağa kömək edə bilər.

Otağınız üçün düzgün rəng palitrasının seçilməsi daxili dizaynda ən çətin qərarlardan biri ola bilər. Qərar vermək üçün əla məsləhət, sənət əsəri üçün rəngə görə axtarış etməkdir. Həqiqətən bəyəndiyiniz bir rəsm və ya divar bəzəyi tapdığınız zaman onu otağınızın rəng sxemi üçün ilham olaraq istifadə edə bilərsiniz.

